AĞAYEVA MƏNZƏR

“İSLAM DİNİN HƏQİQƏTLƏRİ MÖVZUSULAR ÜZRƏ”

Redaktor: Ağayeva Könül
Korrektorlar:Qulamova Arzu, Ağayeva Nərminə

Rəyçilər: Hacı Fuad Nurullah
Bakı İslam Universiteti, İslamşunaslıq Fakultəsinin dekanı

İlahiyyatçı: Ağayeva Mənzər
“İslam Dinin Həqiqətləri mövzusular üzrə”
“Adiloğlu” nəşriyyatı, Bakı 2012.930 səh.

Azərbaycan Respublikasının Dini Qrumlar iş üzrə Dövlət Komitəsinin 18 dekabr 2012-ci il tarixi DK-912\ə saylı məktubuna əsasən kitabın nəşrinə icazə verilmişdir.

4722110018 qrifli nəşr
121-2012
”ADİLOĞLU”,2012

BİSMİLLƏHİR RAHMƏNİR RAHİM

Həmd, şükr və tərif olsun, aləmlərin Rəbbi olan o bir Allaha! **(Fatihə-1)**

ÖN SÖZ

Ya Muhəmməd! Bu Quran sənə nazil etdiyimiz mübarək, xeyirli-bərəkətli bir kitabdır ki, insanlar Allahın ayələrini düşünüb dərk etsinlər və ağıl sahibləri də ondan ibrət alsınlar. **(Sad-29)**

"Qurani-Kərim" bütün kainatın yaradıcısı olan, hər şeyin xaliqi Allah-taalanın birliyini, onun qüdrət və əzəmətini, əzəli və əbədi varlıq olmasını tərənnüm edən ilahi gözəlliyə malik olan bir kitabdır.

"Qurani-Kərim"milyardlarla insanın qəlbinə hakim kəsilmiş, onların canına, qanına hopmuş, beyninə nüfuz etmişdir. Bütün dünya insanlarını heyrətdə qoyan "Qurani-Kərim "min dörd yüz illik tarixi ərzində bu günə kimi bir hərfində də dəyişiklik olmadan insanların istifadəsində və daima Allahın nəzarətindədir.

Allah-taala "Qurani-Kərim"də buyurur: -"Şübhəsiz ki, Quranı Biz nazil etdik! Sözsüz ki, Biz də onu hər cür təhrifdən qoruyub saxlayacağıq!"(Hicr-9.)

Dünya mədəniyyətinin ən möhtəşəm abidələrindən biri olan "Qurani-Kərim"müsəlmanlığın dini-fəlsəfi, hüquqi qaynağı olmaqla yanaşı,həm də çox mühüm bir əbədi tarixi salnamədir. Onun misli görunməmiş fəsahət və bəlağəti ən yüksək səviyyədə, bəşər fövqindən, qüdrətindən kənar, ali dərəcədədir. "Qurani-Kərim"yerin, günəşin, ayın, səyyarələrin hərəkət etməsini heyrətamiz bir şəkildə bəyan etmiş, sonradan baş verəcək bir çox hadisələr, elmi kəşflər barəsində doğru-düzgün məlumatlar vermişdir."Qurani-Kərim"də elmlər: astronomiya, anatomiya, kimya, fizika və bütün dünya elmləri, həmçinin insan hissləri (psixologiyası) haqqında da geniş məlumatlar və faktlar verilmişdir.

Bu müqəddəs kitabda çətin, mütəşabih(oxşar,bir-birinə bənzər) ayələr deyil, eyni zamanda zahirən asan anlaşılan ayələrin də arxasında batini bir məna, rəmz vardır. Peyğəmbər Muhəmməd (s.ə.s.) tərəfindən rəvayət olunmuş mötəbər bir hədisdə bu barədə belə buyurulur:"Quranın zahiri və batini vardır. Batinində də bir batini, ondan sonra isə yeddiyə qədər batini vardır".

Bu səbəbdən"Qurani-Kərim"nazil olduğu gündən indiyə qədər bir çox mötəbər alimlər tərəfindən minlərcə çoxcildli təfsirlər yazılmasına,

müxtəlif tədqiqatlar aparılmasına baxmayaraq onun elmi mahiyyəti hələ də açılmamış qalmış, onlar barəsində müxtəlif mülahizələr söylənilmiş, nəhayət, ”ən yaxşısını,ən doğrusunu Allah bilir,” -deyə əsas məna elmi-ilahinin özünə həvalə edilmişdir.

Zülmətləri yaran bir nur, haqq yol göstərən bir çıraq olan Quran, əsl Allah kəlamı kimi dövrə, zamana görə açıqlanır. Həmin dövrdə yaşayan insanların əqli, elmi səviyyəsinə müvafiq şəkildə təfsir edilir. Hər gələn nəsil özünü narahat edən məsələlərə Quranda cavab tapa bilir. Bundan da böyük möcüzə olarmı?

Müasir dövrümüzdə“Qurani-Kərim”ə və dinimizə cəmiyyətimizdə böyük maraq və həvəs yaranmışdır. Daha çox maraq göstərənlər hər hansı bir məsələ və yaxud hadisə ilə bağlı olaraq nazil olunmuş ayələri öyrənmək və dinimizin göstərişlərini bilmək üçün bir neçə dini mənbələrə, kitablara, təşkilat və qurumlara müraciət etmək məcburiyyətində qalırlar.

Bu səbəbdən Hacı xanım Mənzərin bütün dini elmi mənbələrdən istifadə edərək toplayıb, özünün də bir vətəndaş, ana və ilahiyyatçı kimi düşüncələrini əlavə edərək, ərsəyə gətirdiyi bu kitabda cəmiyyətimizi maraqlandıran bir çox dini mövzular və suallar haqqında müəyyən dərəcədə məlumatlar verilmişdir. Bu kitabda dinimizin həqiqətləri,tək bir olan Uca Allahın vəsfi,İlahi dinlər haqqında qısa məlumat, Peyğəmbərlərin həyat və fəaliyyətləri, kainatın, yerin, göyün, günəşin, ayın, göy cisimlərinin yaranışı, dünya həyatı, insanların quruluşu, xüsusiyyətləri, İslam tarixi, həyat, ölüm, ruhlar şəriət qanunları, Qiyamət, Cənnət Cəhənnəm və sair mövzular haqqında“Qurani-Kərimə” və səhih hədislərə istinad edilərək məlumatlar verilmişdir. Klassik və müasir şairlərin, xüsusən dahi şairlərimiz Nizami Gəncəvinin və Muhəmməd Füzulinin əsərlərindən istifadə edilmişdir. Əsasən Nizamı Gəncəvinin əsərlərindən hər mövzu üzrə şeirlər seçilərək qeyd edilmişdir.

Həmçinin burada insanın həyatda yaşadığı zaman rast gəldiyi bir çox müşküllərin, çətinliklərin həll edilməsi, Allaha sığınmaq, səbir, tövbə və Allahın bizə buyurduğu “Qurani-Kərim”in ayələrindən istifadə edərək ins və cinsdən qorunma yolları haqqında dualar da öz əksini tapmışdır.

Mən bir ilahiyyatçı kimi düşünürəm ki, toplanıb ərsəyə gətirilən bu kitab bizim cəmiyyətimizi, xüsusən də cavan oğul və qızlarımızı maraqlandıran dini və həyati suallara müəyyən qədər cavab verə biləcək bir mənbədir. Gənclərimiz həyatı, canlı-cansız bütün yaranmışları sevmək, daim mütaliə etmək, elm öyrənmək, xurafat və mövhumat

kimi hisslərdən uzaq olmağı öyrədir. Eyni zamanda kainatın dini olan İslam dininin müasirliyini və bu dindən olan müasir insanların da elmli, dünyagörünüşlü təqvalı, tərbiyəli, mədəniyyətli olmalarını aşılayan bu kitabdan çox bəhrələnəcəklər. Burada Uca Allaha, onun yaratdıqlarına, Allahın bizə bəxş etdiyi bütün nemətlərə,habelə yaşadığımız Vətənə böyük məhəbbət, ətrafımızda olan və Allahın bizə qismət etdiyi hər şeyə və hər kəsə şükür etmək, dinimizə və Allaha məhəbbətin dəyəri açıqlanır.

Bu kitabın hazırlanmasında 1906-ci ildə nəşr olunmuş Şeyxülislam Məhəmməd Həsən Mövlazadə Şəkəvinin "Kitabul-Bəyan fi Təfsiril Quran",Akademik Vasim Məmmədəliyev və Z. Bünyadovun tərcümə etdiyi"Qurani-Kərim"dən",bir çox Quran təfsirlərindən, sünni və şiə məzhəbinin bir çox təfsir və hədis kitablarından, "Nəhcül-Bəlağə"dən, Hacı Sabir Həsənlinin"Peyğəmbərlər tarixi"kitabından, Mövlana Muhəmməd Cəzalinin əsərlərindən, Əhmədağa Əhmədovun bütün əsərlərindən və mövzularla bağlı bir çox elmi əsərlərdən istifadə edilmişdir. Dövrümüzdə hüzn məclislərini idarə edən dindarlarmıza məsləhətim budur ki, bu kitabı oxuyaraq bəhrələnsinlər və İslam dininin həqiqətlərini bir az da olsa dərindən mənimsəsinlər.

Bakı İslam Universiteti İslamşunaslıq fakültəsinin dekanı Hacı Fuad Nurullah.

BİSMİLLƏHİR RAHMƏNİR RAHİM

Kimin söz pərdəsində ahəngi var, sehri var,
Özü yerdə olsa da, ruhu göylərdə yaşar.
Şairin xoş nəfəsi cana məhrəm, qəlbə yar,
Dilsizlərə dil verər, susmazları susdurar.
Hər gözələ can verən incə söz memarıdır,
Sən şairə vurul ki, o, söz bəstəkarıdır.
N. Gəncəvi"Sirlər Xəzinəsi"

Mərhəmətli və Uca Allahın adilə! Əlinizdə tutduğunuz bu kitab Sizi Haqq qapısına aparan bir yoldur. Qəlbində Tanrı sevgisi, ürəyində İman işığı olan hər kəs bilir ki, Haqqa gedən yol hamar və rahat deyil! Islam dininin pərvəriş tapdığı dövrdən ta bu günədək insanların bu dinə və Uca Rəbbimizin yerdəki elçisi sayılan Muhəmməd Peyğəmbərə (s.ə.s.) məhəbbətindən barınan bu yol min bir əzabdan, imtahandan, müharibələrdən və nəhayət, Kərbəla şəhidliyindən keçib. Dinimizi öyrənmək, onu qorumaq, təbliğ etmək, məna və məndəricatını anlamaq, gözəlliyini, ülviyyətini dərk etmək heç də hamıya nəsib olan xoşbətlik və səadət deyil.İllər uzunu yasaq edilən, sonralar yarımsavadlı adamların (bəzənsə dini elmlərdən xəbərsiz olanların) əlində və dilində öz ilkinliyini, gözəlliyini və dəyərini itirən İslam dini elm, ədəb, irfan müstəvisindən çıxaraq az qala xurafat mənbəyi kimi xatırlanmaqda idi. Ancaq son illər bütün İslam dünyasında baş verən intibah, xüsusilə də müstəqillik qazanmış Azərbaycanda məxsus olduğumuz dini dəyərlərə verilən yüksək qiymət, əsrlər boyu xalqın qan yaddaşında yaşayan inanclara hörmət, dini abidələrin bərpası, insanların müqəddəs yerlərə səfərlərinin təşkili, şəhər və rayonlarımızda "Qurani-Kərim"in əsl mahiyyətinə varmaq, onu orijinaldan oxumaq üçün kursların açılması, dinimizin elmi əsaslarla öyrənilməsinə şərait yaradılması təqdirəlayiqdir. Və təqdir olunan bir yaxşı cəhət də budur ki, indi bizim xanımlar da bu sahədə fəallıq nümayiş etdirir, oxuyub öyrəndiklərini, eşidibbildiklərini hər kəslə paylaşmaq istəyirlər. Bu mənada ilahiyyatçi Hacı Mənzər xanımın sizə təqdim etdiyi bu kitabı mən çox qiymətli bir vəsait sayıram və inanıram ki, onu oxuyub başa vurduqdan sonra siz də müəllifə çəkdiyi böyük zəhmət, keçirdiyi yuxusuz gecələr, apardığı araşdırmalar və söylədiyi gözəl fikirlər üçün minnətdarlığınızı bildirməyə tələsəcəksiniz. Ona görə ki, Mənzər xanım az qala böyük bir institutun illər boyu görə bilməyəcəyi bir işin öhdəsindən layiqincə gəlib, xeyli

dini ədəbiyyat oxuyub, ayrı-ayrı alimlərin, görkəmli mütəfəkkirlərin, dahi söz ustadlarının əsərlərinə müraciət edib, araşdırmalar, təhlillər aparıb, hər kəsin başa düşəcəyi, mənimsəyəcəyi və yadda saxlayacağı bir dildə sadə və səmimi bir təkhiyə janrında fikir və düşüncələrini bizimlə bölüşməyə çalışıb.

Nədir bu kitabın özəlliyi? İlk əvvəl, onun əhatəli olmasında, tarixi qaynaqlara əsaslanmasında, Allah kəlamlarının, müqəddəs"Qurani-Kərim"dəki ayələrin izahında, İslam aləmində geniş yayılan hədis və deyimlərin mahiyyətinin açıqlanmasında, milli dəyərlərimizə söykənərək ədəb-irfanımızı təbliğ etməkdə və nəhayət, insanların ürəyində İman və İnam çırağının daha gur yanmasına zəmin yaratmaqdır. Müəllif özü də dönə-dönə vurğulayır ki, bu kitabın yaranmasının başlıca səbəbləri: dünyada İslam dini və "Qurani-Kərim"ətrafında əsrlər boyu səngiməyən mübahisələrdə Azərbacan oxucusuna haqqın,ədalətin məqamını nişan vermək, bəzi dindarların məclislərdə narazılıqla qarşılanan "fəaliyyətinin" heç də hamıya şamil edilmədiyini vurğulamaq və belə"məclisi idarə edənlər "istinad edə biləcəyi, öyrənə biləcəyi bir vəsait hazırlamaq, gələcəyimiz olan cavanlara doğru yol göstərmək, İslam dininin bütün sivilizasiyalar dönəmində öz ülviyyətini itirməyən, əksinə, elm və texnikanın sürətlə inkişaf etdiyi bir dövrdə dünyanı heyrətə sala biləcək bir çox kəşflərin böyük əksəriyyətinin ilkin müjdəçisinin məhz müsəlmanların səmavi kitabı olduğunu gözlər önündə sərgiləmək, İnsan və Allah arasında heç vaxt üzülməyən inam bağlarının sarsılmaz və əbədi olduğunu nəzərə çatdırmaqdır. Bu sanballı əsər İslam dininin yaranma tarixindən, onun əsas ehkamlarından, digər dinlərdən fərqli keyfiyyətlərindən, müqəddəs kitabımızda Tanrının yaratdığı ən kamil varlığın İnsanın daxili aləmində baş verən təbəddülatlara (dəyişmək-rəngdənrəngə düşmək) qalib gəlmək üçün tapındığı yüksək dəyərlərdən, ailədən, sağlamlıqdan, uşaq tərbiyəsindən, valideyn-övlad münasibətindən, bir sözlə, bütün varlığı ilə çalışıb-çabalayan, yaxşı və ya pis əməl sahibi olan insanın ömrü boyu beynində gəzdirdiyi bir çox sualların cavabını tapmaqda yardımçı ola biləcək məqamlardan söz açılır, ayə və surələrin mahiyyəti hər kəsin anlaya və qavraya biləcəyi şəkildə şərh və izah olunur,Qurandakı bəzi gizli və sirli mənalar açıqlanır.(müxtəlif ölkələrin din xadimlərinin, görkəmli alimlərin mülahizələrinə, bütün müsəlman aləmində tanınan və qəbul edilən əsərlərinə istinadən).

Mənzər xanım tez-tez böyük söz və irfan şairi Nizami Gəncəvinin yaradıcılığına müraciət edir, onun dünya şöhrətli əsərlərindən nümunələr

gətirir, dahi şairin yaşadığı dövrdə İslam dininin insanların mənəvi aləmində necə böyük rol oynadığı göz önündə canlanır. Müəllif bu kitabı yazarkən məqsəd və məramını belə izhar edir: ”Dünyada yeganə kamil din-İslam dinidir, çünki o, insanı yaradan böyük Xaliq tərəfindən göndərilmişdir. İslam dini içərisində bütün dinləri əhatə edən,bütün dünya əhli üçün göndərilən axırıncı ən kamil din-kainatın dinidir. İslam dini bütün haqq dinlərin sonuncusu və mükəmməlidir. Bu ilahi din bir millətə, bir zamana görə deyildir. Bu din bütün insanlara qiyamətə qədər vacib olan Allahın təbii dinidir.

Bu haqda“Qurani-Kərim”də buyurulur:-“Bundan sonra nə başqa Peyğəmbər, nə də ki başqa din olacaq.”

“Mən nə üçün dinliyəm?”-sualını öz-özümüzə, nəfsimizə sual edərətməz bu cavabı alırıq:-“Dindaram, çünki başqa cür olmaq üçün yaranmamışam.Dindar olmaq varlığım və mənliyim üçün vazkeçilməz bir ehtiyacdır”.

Din, ağıl sahibləri olan insanları öz istəkləri ilə dünya və axirət xoşbəxtliyinə çatdıran ilahi qanunların cəminə deyilir.

Məncə, bu qaynaqdan faydalanmaq üçün əlinizdə tutduğunuz və bir azdan oxumağa başlayacağınız, oxuduqca da bütün varlığınızla mənasına varacağınız bu qiymətli kitab sizin qarşınızda yeni üfüqlər açacaq, qaranlıq fikir və bəsirət dünyamızı işıqlandırmağa qadir olan nurlu çıraq olacaq.Yolunuz açıq, İmanınız kamil,Səbri niz bol, Əzminiz yenilməz olsun! Allah amanında!

HACI XANIM TELLİ PƏNAHQIZI,
telejurnalist

BİSMİLLƏHİR RAHMƏNİR RAHİM

Ey adı ən gözəl başlanğıc olan,
Adınla başlanır yazdığım dastan.
Sən ey xatirəsi könlümə həmdəm,
Adın düşməmişdir bir an dilimdən.
Bütün varlıqları Özün yaratdın,
Bağlı qapılara açardır adın.
Adının qərarı olmadan əvvəl,
Qələm tutmamışdır dünyada bir əl.
Ey bütün varlığın həyat təməli,
Yetməz dərgahına bir insan əli.
Sənin tərifindir "təbarəkallah",
Alqış calalına, feyzinə, Allah! ("Sirlər Xəzinəsi")

MÜQƏDDİMƏ

Açıqlama: Din-Allah tərəfindən qoyulmuş bir qanun və düzgün yoldur.Din-biz insanların yaradılış qayəsini və hikmətini bildirib, Uca Allaha nə şəkildə ibadət etməyimizi öyrədir:Din-ağıl sahibləri olan insanları öz istəkləri ilə dünya və axirət xoşbəxtliyinə çatdıran ilahi qanunların cəminə deyilir.

Din insan ağlının öz-özünə soruşub durduğu:"Mən kiməm,haradan gəlib,haraya gedirəm?"suallarına cavab verə biləcəyi bir cavab qaynağıdır**.(Hədis:** Əli ə.s.)

Ali-İmran-19-"Allah yanında (məqbul olan) din,əlbəttə,İslamdır."

Filosoflar deyirlər ki:"Din insanlıq tarixində onunla bir yerdə var olmuş bir varlıqdır. Din təbiətimizin dəyişilməz vəsfi və ondan ayrılmaz xüsusiyyətidir.İnsanın mahiyyəti düşünülüncə beyinə dərhal bir din fikrinin gəlməməsi mümkün deyildir."

Azərbaycan torpağı ən qədim torpaqlardan olub, Allahın bizə bəxş etdiyi 9 iqlim qurşağına malik olan və Allahın istəkli coğrafi ərazilərindən biridir. Allah-taala bu torpaqda yaşayan insanları sanki seçərək daha çox mükəlləfiyyətlər vermişdir. Onlara görünüşlərinə görə gözəl surətlər vermiş, hər hansı bir sahədə olursa-olsun, çox bacarıqlı, istedadlı, qoçaq, şücaətli, qeyrətli, namuslu olmaq və bu kimi bir çox xüsusiyyətlər bəxş etmişdir. Azərbaycan gözəl adət-ənənələri, mədəniyyəti, öz musiqisi, muğamları, dadlı mətbəxi və bir çox özəllikləri ilə Allahın sevib-seçdiyi bəndələrinin vətənidir. Allahın bizə verdiyi ən böyük nemət və

mükafatı isə bizi İslam dinindən olanlardan etməsidir. Baxmayaraq ki, ölkəmizin bayrağında yaşıl İslam rəngi var, yəni bu dövlətdə cəmiyyət İslam dinindəndir, lakin dövlət və din bir-birindən ayrıdır. Ölkəmiz demokratik dövlət olduğuna görə din azaddır, hər kəs öz dini seçimində sərbəstdir və dinsiz insan yoxdur. Burada İslam dini ilə birlikdə başqa dinlərin nümayəndələri, onların kilsə və sinaqoqları da rahat və sərbəst fəaliyyət göstərirlər.

Vətənimizdə çoxlu məscidlər, dini mədrəsələr və dövlət səviyyəsində İlahiyyat universitetləri fəaliyyət göstərir. Həmçinin burada İslam konfransları və dini tədbirlər keçirilir, dövlət idarələrində, muzeylərdə tez-tez "Quran"sərgiləri təşkil edilir və dövlət səviyyəsində dinimizin inkişafı üçün bir çox dini qanunlar təsis edilir. Bütün bunlara baxmayaraq, cəmiyyətimiz çox istəsə də, dinimizin həqiqətləri haqqında biliklərə tam yiyələnə bilmir.

Dini mövzular haqqında bir çox kitabların mövcud olmasına baxmayaraq, biz bu kitabda Qurani-Kərimin surələrindən ayələri müəyyən mövzular üzrə toplamış, həmçinin səhih hədislərdən, klassik və müasir şairlərin əsərlərindən istifadə edərək dinimizin mahiyyəti haqqında müəyyən məlumatlar verməyə çalışmışıq.

Bu kitabın hazırlanıb ictimaiyyətə təqdim edilməsinin bir çox önəmli səbəbləri vardır ki, bu da bir ilahiyyatçı, vətəndaş, valideyn, öz xalqını, vətənini, dinini və dilini çox sevən insan kimi cəmiyyətimizdə müşahidə etdiyimiz və bizi narahat edən bəzi mətləblərə aydınlıq gətirməkdir. Bunlardan bir neçəsini qeyd etmək istəyirik:

1-ci səbəb:Cəmiyyətdə dinimiz ətrafında baş verən bir çox hadisələr və yalançı dindarların çoxalması.

Elmi biliklərin inkişaf etdiyi müasir dövrümüzdə, insanlar öz dinləri haqqında da biliklərə sahib olmaq istəyirlər. Dini biliklər haqqında məlumatı olmayan, lakin qəlbi Allah məhəbbəti ilə çırpınan cəmiyyətimiz, xüsusən də cavanlarımız dinimizi öyrənmək üçün müəyyən dini qurumlara və təşkilatlara müraciət edirlər. Bu təşkilatların hansı məqsədə qulluq etdiklərini heç düşünmədən onların təsiri altına düşürlər. Bu qurumların çoxu xaricdən maliyyələşərək öz məqsədləri üçün maddi və mənəvi dayaq nümayiş etdirməklə və ya öz bəlağətli söhbətləri ilə insanları istədikləri səmtə yönəltməyə çalışırlar.Bu münafiqlərin,yəni zahirdə müsəlman, batində isə İslamın düşmənləri olan qurumların fəaliyyət göstərdiyi təşkilatlara gedənlərin də təfəkkürlərində aldıqları bəzi biliklərdən və geyindikləri uniformadan sonra dəyişikliklər baş verir. Onlar öz həmvətənlərinə şübhə, vəsvəsə ilə yanaşır, heç kəsi

bəyənmir, dini və əhkam məsələlərində mübahisə edirlər.İnsanların, xüsusən də cavanların hər hansı bir təsir altına düşüb özgələrin əqidəsi ilə oturub-durmaları, düşünülməmiş hərəkətlər etmələri dinimizin aliliyi haqqında məlumata malik olmamalarından irəli gəlir. Əslində, bu cavanların çoxu Allah, din və vətənpərvərlik eşqi ilə qəlbləri çırpınan və bu yolda canlarından belə keçməyə hazır olan saf insanlardır. Bəziləri isə maddi və mənəvi vəziyyətlərini hər şeydən üstün tutaraq, bilərəkdən onların göstərişləri ilə oturub-durur və öz imanlarını satırlar.

Həmçinin, Qiyamət əlamətlərinin daha da çoxaldığı zəmanəmizdə cavanlarımızın təlim-tərbiyəsində baş verən dəyişikliklər, doğrudan da, çox narahatedicidir. Cəmiyyətimizdən, xüsusən də cavanlarımızın özlərindən sual etsək ki, bu gün mənəviyyatımızın bu dərəcədə dəyişməsindən razıdırlarmı? Əlbəttə, birmənalı cavab yalnız narazılıq və bu cəmiyyətin gələcəyi üçün narahatlıq olar. Bu səbəbdən qurtuluş tərəfə, yəni dinimizin həqiqətləri tərəfə üzümüzü çevirək.

2-ci səbəb. Cəmiyyət içərisində dinimizi təbliğ və təmsil edərək, məclislər aparan bəzi insanların dini biliklər haqqında bir az da olsa, öyrənib maariflənmələridir.

Bildiyimiz kimi, ölkəmizin tarixində müəyyən dövrlər olmuşdur ki,milli adət-ənənələrimizə, dinimizə qarşı əks təbliğatlar aparılmış və dinimizin qanunlarına qadağalar qoyularaq gözdən salınmış, güclü ateizm siyasəti aparılmışdır. Bütün bu mərhələləri keçən cəmiyyətimiz, hamımız qadağalara və təzyiqlərə baxmayaraq, bu günə qədər dinimizi bizim üçün yaşadıb, qoruyub və bizlərə çatdıra bilən din xadimlərimizə, dinini, vətənini canından çox sevən ziyalılarımıza, şair, yazıçı və xeyriyyəçi insanlarımıza və o dövrdə məclislər aparan mollalara minnətdar olmalıyıq.

Elə yaşadığımız sovetlər dövründə din yalnız yas məclislərində, Məhərrəm və Ramazan aylarında yada düşürdü. Lakin bu bir danılmaz həqiqətdir ki, o dövrdə məclis aparan mollaların çoxu ali dini təhsil almasalar da, müəyyən savadlı insanlardan təhsil alıb, çox məsuliyyətlə məclislər aparardılar. Çox kiçik yaşlarımda nənəmin məni özü ilə apardığı bir çox imam məclislərində (mövludlarda və təkyə-ehsan) gördüyüm mollaların məclis apararkən bütün dini və etik qaydalara riayət etdiklərini müşahidə etmişəm. Dinin müəyyən mövzularında etdikləri moizələri, müəyyən tarixi hadisələri, imam və Peyğəmbərlərin həyatlarını təsvir edən rozələri, mərsiyələri deyərkən növhə, fərd, əfratla bəzəyərək, bu ibrətamiz hadisələri təsvir edib göz önünə gətirə bilmələri, indi də yaddaşımda həkk olunmuşdur. Bütün bu gözəl, elmli-

helmli təbliğatlar bu günə kimi dinimizi yaşada bilmişdir.

İndi isə demokratiya şəraitində yaşayan və məclislər aparmaq iddiasında olan insanlar, Allahın bizə bir nemət kimi bəxş etdiyi İslam dinini Qiyamət gününədək yaşatmaq üçün bütün dünya elmlərini özündə cəm edən İslam elmini və mərsiyə demək qaydalarını(elmini) öyrənməlidirlər.Bu, onların həm insanlar qarşısında, həm də Allah qarşısında mənəvi borcudur.Çünki hər şeydə maddiyyatı üstün tutub, müqəddəs şeylərə dəyər verməyərək yaşamaq insanlıq duyğularının məhv olması deməkdir.

Əfsuslar olsun ki, bəzi mollalar dinimizin gözəlliklərini, sadəliyini, müasirliyini, təqva və mədəniyyət dini olduğunu lazımınca təbliğ və təmsil edə bilmirlər. Hətta məclislərdə insanın müqəddəs duyğularını, qəmini-dərdini ifadə edən mərsiyə, növhə deyimini də ifrat və gülünc şəklə salırlar. Məclislərdə şəriət qanunları haqqında onlara sual verən insanları, olmazlar, haramlar və qadağalarla qorxudaraq dindən diksindirib, uzaqlaşdırırlar. Bəlkə də bu səbəbdən cəmiyyətimizdə hər şeyə bir-birinə, vətəninə, hətta dinimizə qarşı biganəlik, inamsızlıq yaranmış və bir-birini dinləmək üçün səbir qalmamışdır.

Cəmiyyətdə bəzi insanların dini məsələlərə biganə yanaşmaları, dinimizi bəyənməmələri, hətta ondan utanmaları bizi çox narahat edir. Halbuki indiki zamanda xarici dövlətlərdən olan ziyalılar və alimlər İslam dinini olduğu kimi qəbul edirlər. Bu dinin müasirliyi, düzgün elmi göstərişləri və düzgün təlim-tərbiyəsi butün insanları özünə cəlb edir. İnsanlar bu din ilə hidayət yolunu tapıb, dünya və axirət savabını qazanırlar.

3-cü səbəb. Gələcəyimiz olan gənclərimizin və uşaqlarımızın dinimiz haqqında az da olsa, maariflənməsidir.

Çox yaxşı olardı ki, cəmiyyətimiz Allahın bizlərə bu dünyada hidayət, axirətdə isə şəfaət tapmağımız üçün bəxş etdiyi bu ali İslam dinini olduğu kimi tanısın.İnsanlar onun aliliyinə, yeganə düzgün din olduğuna, bütün dünya insanları üçün göndərildiyinə, xurafat və mövhumatdan çox uzaq olduğuna inansınlar. Bizə Allah tərəfindən bəxş edilən, dünya və kainat elmlərinin toplandığı, Allahın vəhyi, Hz.Cəbrail vasitəsi ilə Muhəmmədə (s.ə.s.) çatdırılan "Qurani-Kərimi" öyrənib dəyərləndirə bilsinlər.

Vətənimizin gələcəyi naminə və insanlarımızın başqa təriqətlərə aldanaraq vətənimizə dönük çıxıb,özümüzə qənim kəsilməmələri və dünya durduqca Azərbaycanın inkişaf edib möhkəm dayanması naminə İslan dininin həqiqətlərini, elmini öyrənmək üçün kiçik yaşlarından,

uşaq bağçalarında, məktəblərdə və ali təhsil müəssisələrində, hər yaş dövrünə uyğun tədris proqramı çərçivəsində dinimiz haqqında məlumat verilməsi çox əhəmiyyətli olardı.Bu proqramlar əsil İslam dininin dərin elmi bilgiləri üzrə tərtib edilməlidir. Məktəbdə tədris edilən hər fənn üzrə"Qurani-Kərimdə" çoxlu məlumatlar verilmişdir. Məsələn: kimya, fizika, astronomiya, anatomiya, arxeologiya, tarix, coğrafiya, fəlsəfə, şəriət qanunları, əxlaq, psixologiya, biologiya və bir çox fənlər üzrə proqramlar hazırlanarkən, Qurani-Kərimin ayələrindən istifadə etmək olar. Əslinə qalsa, elə bütün elmlərin mənbəyi, əsil kökü elə Qurani-Kərimin özündədir. Ona görə də ərəb dilini kiçik yaşlardan əlavə xarici dil kimi gələcək nəsillərə öyrədək ki, balalarımız dinimizin həqiqətlərini bilsinlər və heç kəs, heç bir planlı, tədbirli qurumlar onları aldadıb, yalan fətva, qadağa və xurafat ilə öz dininə, dilinə, xalqına və vətəninə qarşı düşmənə çevirə bilməsinlər.

Çünki bütün gələcək həyatımızın təməli kiçik yaşlarımızdan qurulur. Demək olar ki, insan həyatının bütün məqamları, yaşam tərzi və həyatda yaşadığı dövrdə baş verənlər, hətta ölümdən sonra baş verəcəklər haqqında"Qurani-Kərimdə"açıq-aydın xəbərlər və məlumatlar vardır. Buna görə həyatımızın bütün məqamları haqqındakı suallara yalnız Quran ayələri bizə cavab verə bilər.

Biz bu kitabda Quran ayələrini mövzular üzrə seçərək, dinimizin hökmlərində buyurulan ardıcıllıqla sıraya düzərək, Uca Allahın köməkliyi və istəyi ilə sizlərə təqdim etməyə çalışacağıq. İnşallah! Bu çətin işdə Uca Allaha pənah apararaq, Allahdan elm və mərifət, səbr, kömək və uğur diləyirik.

Ey öz varlığı da bilinməz hikmət,
Zahirə,batinə bir Sənsən bələd.
Bütün bu canlılar,cansızlar ki var,
"Yaran" deməyinlə yarandı onlar.
Hökmünlə ruh alır,əql alır bədən,
Yaradan da Sənsən, öldürən də Sən.
Ey sirr aləminin ulu məhrəmi,
Dolduran, boşaldan Sənsən aləmi.
Köməyim olmasan, ya Pərvərdigar,
Bu düyün ağılla necə açılar?
Ağıl işıq alır Sənin qapından,
Yanar dərgahına girdiyi zaman...
Ey mənim əqlimə mənalar verən,

Mən axtarışçıyam,Sən yol göstərən,
Yollarım qorxulu olsa da bu dəm,
Sən ki rəhbərimsən, qorxan deyiləm.
Yüküm çox ağırdır,düşmüşəm gücdən,
Tükənmiş taqətim de, neyləyim mən?
Nə qorxu, yoxsa da canımda qüdrət,
Sənin köməyinlə işlərəm, əlbət.
Lütfün ki qəhrindən ayrı deyildir,
Yanında şərbət də, zəhər də birdir.
Əsirəm, şübhəsiz, hüzurunda mən,
Lütfünlə yaşaram, ölləm qəhrindən,
Qoy içim mərhəmət şərbətlərindən,
Qəzəb badəsini mənə vermə Sən.
Qəzəbin layiqsə əzəldən bizə,
Rəhmin də düşmüşdür qismətimizə.
Nə qədər nəfəsim çıxmamış candan,
Əlim ətəyində gəzirəm hər an.
Bir gün can evimdən çıxsa nəfəsim,
Dualar deyəcək adına səsim.
Ölüm səfərinə qoyarsam ayaq,
Adın vücuduma hənut olacaq.
Ehram sındıranlar çoxdur dünyada,
Bu şərdən məni gəl saxla, ey Xuda!
Bəlalar gizlidir bikəsəm, Allah,
Varmı Səndən özgə mənə bir pənah?
Bir Sənsən dünyada əlimdən tutan,
Nə versən, qailəm, böyük Yaradan!
O saf cövhərindən alsa bədənim,
Misim qızıl olar dünyada mənim.
Lütfündən bir işıq göstərsən əgər,
Torpaq qızıl olar, su dürrə dönər.
Bir gövhər də olsam, bir saxsı da mən,
Hüsnüm bəzənmişdir Sənin hüsnündən.
İlahi, dar gündə Sən ol həmdəmim,
İstədiyin yerə çatsın qədəmim.
Aç mənim üzümə nur xəzinəni,
Zülmətlər içindən xilas et məni.
Vəfasız yaranmış bütün qapılar,
Bir sənin qapında vəfa tapılar.

Ancaq həyatdadır vəfa, etibar,
Ölümlə dağılıb məhv olur onlar.
Qiyamət gününü görmədikcə mən,
Ayrılan deyiləm Sənin əhdindən.
Bir Səni çağırır cahanda səsim,
Xatirən olmasa, batar nəfəsim.
Möhtac yaratmadın heç kəsi əzəl,
Dünyada məni də məəttəl qoyma gəl!
Zərrəcə qorxmuram gələn əcəldən,
Bu yol dərgahına gedir əzəldən.
Bağ, bostan yoludur ölümün izi,
Dostlar sarayına aparır bizi.
Ölüm ki Səndəndir, nə qüssə, nə qəm,
Qoy ölüm, ölümdən mən dad çəkmərəm.
Hərçəndi dünyada ölüm gerçəkdir,
Ölüm ölmək deyil, yer dəyişməkdir.
O, yemək yerindən yataq yerinə,
Ordan şah yanına bir yoldur yenə.
Sənin məclisinə gedən bu yoldan,
Əbədi yuxudan qaçmaram, inan.
Sənin ki şövqün var, mən bəxtiyaram,
Şad yatıb, hər zaman şad da qalxaram.
(N.Gəncəvi"Leyli və Məcnun")

BİSMİLLƏHİR RAHMƏNİR RAHİM

Hikmət xəzinəsinə budur açar, ey həkim!
Odur fikrin əvvəli, odur kəlamın sonu,
Nə iş görsən, Tanrının adıyla başla onu.
Bismilləhir Rahmənir Rahim.

Əlhəmdulillah, Əlhəmdulillah, Əlhəmdulillahi Rabbil aləmin. Vəssalətu, vassaləmu alə seyyidinə Muhəmmədin və alə alihi və səhbihi əcməin.Əssalatu vəssələmu aleykə yə Rasulullah,əssalətu vəssələmu əleykə yə Həbiballah. Əssəlatu vəssaləmu əleykə və Seyyidəl əvvəlinə vəl axirin, hüvəl əvvəlu, vəl axiru, vəz Zahiru vəl Batinu və huvə bi kulli şeyin alim.

Mənası:-Həmd aləmlərin Rəbbi olan Allah üçündür. Salavat və salam, Peyğəmbərimiz Muhəmmədə və onun ailə üzvlərinə və əshabına olsun! Salavat və salam Sənin üzərinə olsun. Ey Allahın Rəsulu! Ey Allahın ən istəklisi! Ey öncəkilərin və sonrakıların Seyyidi! Salavat və salam Sənin üzərinə olsun! Allah əzəli və əbədidir. O, Zahir və Batindir və o hər şeyi haqqı ilə biləndir.

əl-Hədid-3 - Həmd olsun o Allaha ki, Əvvəl də, Axır da, Zahir də, Batin də Odur.

əl-Əhzab-56 - Həqiqətən, Allah və Onun mələkləri Peyğəmbərə Salavat göndərirlər. (xeyir-dua verirlər). Ey iman edənlər!Siz də ona-Peyğəmbərə Salavat Salam göndərib,layiqincə salamlayın! Siz də ona salavat gətirin (Allahummə Salli əla Muhəmmədin və ali Muhəmməd; Əssalamu əleykə əyyuhənnəbiyyu və rəhmətullahu və bərakətuh!)-deyin.

əl-Fatihə-1-5 - Dünyada bütün yaranmışlara ruzi və lazım olan nemətləri verdiyinə görə mehriban olub, axirətdə bəzi yaranmışları behiştə daxil etməklə Rəhimli Allahın adı ilə bütün işlərimdə köməklik istəyirəm. Mehribandır və axirətdə behişti verməklə rəhm edəndir. Qiyamət gününün padşahıdır. Ancaq sənə ibadət edirik, ancaq səndən kömək istəyirik, bizi düzgün yola hidayət et. Nemət verdiyin kəslərin yoluna, qəzəbləndiyin və haqq yolundan azmışların yoluna yox.

Hədis: Peyğəmbərimiz buyurur:"Qiyamət günü ən dəyərli insan mənə və mənim Əhli-beytimə salavat gətirən kimsədir. Hər hansı bir məclisdə oturub Allahı yad etməyən və Peyğəmbərə salavat gətirməyən bir camaat Qiyamət günü mütləq peşman olacaq." **("Zubdətul əhadis"Şeyx Abbas Qummu).**

İSLAM DİNİNİN ÖZƏLLİKLƏRİ

Açıqlama: İslam dini bəşəriyyət üçün xoşbəxtlik və qurtuluş dinidir. İslam dini bütün haqq dinlərin sonuncusu, ən kamili və kainatın dinidir. Bu ilahi din bir millətə, bir zamana görə deyildir. O, istənilən cəmiyyətdə istənilən fərd üçün yüksək həyat şəraitini təmin edə biləcək ümumbəşəri, əbədi dindir.

İslam-monoteist (təkallahlı) səmavi bir dindir. "İslam" adı salam kökündən törəmişdir.Bu kökün ümumi olaraq qəbul edilən iki anlamı vardır:

1.Sülh-salam da bu kökdəndir;

2.Boyunəymək, itaət etmək (boyun bükərək Allaha təslim olmaq)-deməkdir. Həmçinin Allahın hökmlərinə tabe olmaq mənasını bildirir.

İslam dininin hökmləri 3 yerə bölünür:

1.İman-insan iman əsaslarına inanaraq, mənəvi qidasını alır və qəlbini pisliklərdən təmizləyir.

2.Əməl-özü 2 qismə bölünür: a)Allaha qarşı ibadət vəzifələri.

b)insanların öz aralarındakı vəzifələri.

3.Əxlaq-insanlara qarşı davranışlarını düzəltmək.

əl-Maidə-16 - Allah Onun razılığına tabe olan kəsi salamat olan yola hidayət edər. Onları öz izni ilə zülmətlərdən İslam nuruna çıxarar, düz yola hidayət edər.

1-ci Hökm. Dinə iman

Dinə iman-lüğətdə bir şeyə tərəddüdsüz inanmaq və içdən, ürəkdən ona bağlanmaq, Peyğəmbər(s.ə.s.)in buyurduqlarını düzgün yerinə yetirmək deməkdir.

İman mahiyyət etibarı ilə Allahın insanlara ən böyük lütf və ehsanıdır. Allah onu sevdiyi bəndələrinə nəsib edir.Əlbəttə, bu qismətdə bəndənin istəyi, arzusu və buna can atmasının da rolu vardır.İman insanın yaradılış səbəbidir. Yəni o,yaradanını imanla tanımaq və ibadət etmək üçün yaradılmışdır. İnsan bu yaradılış qayəsinə uyğun hərəkət edərsə, axirətdə əbədi səadətə nail olacaq, Cənnətə girəcək, əks təqdirdə isə Cəhənnəmə atılacaqdır. Bu baxımdan iman insan üçün əbədi səadəti qazanma vasitəsidir və Cənnətə giriş açarlarıdır. İmansız Cənnətə girilməz. Bu cəhətdən insanın iman etməsi və bu imanı son nəfəsinə qədər itirmədən, zəiflətmədən mühafizə etməsi dünyada hər şeydən daha qiymətli bir nemətdir.

əl-Ənam-63-64 - Ya Rəsulum!De ki:-Gizlində Allaha dua edib:-Əgər bizi suyun və qurunun zülmətindən qurtarsan, əlbəttə, biz şükür edənlərdən olarıq,-deyə yalvardığınız zaman sizləri bundan xilas edən kimdir? De ki:-Sizi ondan xilas edən və hər bir qəmdən qurtaran Allahdır! Bütün bunlardan sonra siz yenə də Ona şərik qoşursunuz və verdiyiniz əhdə vəfa etməzsiniz.

Hədis:-Hər bir insanın qəlbində Allaha inam, yəni ən çətin anlarda kiminsə bizləri qurtaracağına inam vardır.

Məsələn: Bir nəfər İmam Cəfəri Sadiqin yanına gəlib dedi:

- Allahı mənə tanıtdır! İmam o şəxsdən soruşdu:

-İndiyədək gəmiyə minmisənmi?

Həmin şəxs cavab verdi:-Bəli. İmam soruşdu:

- Təsəvvür et ki,sənin mindiyin gəmi dənizin ortasında deşilib və sən ümidsiz halda qorxuya düşmüsən.O zaman ürəyində elə bir qüvvəyə qarşı inam hiss edəcəksənmi ki,səni həmin fəlakətdən xilas etməyə qadir olsun? Həmin adam cavab verdi:

- Təbii ki, buna inam duyacağam.

Onda imam Sadiq buyurdu: - O qüvvə Allahdır ki, hər kəsdən ümid kəsildikdə, qəlbində kiminsə səni xilas edəcəyinə olan inam, kiminsə səni eşidib qurtaracağına olan inam Allaha olan inamdır.

Allaha,dinə və məada inam insanın təbii, mənəvi və mədəni həyatı üçün labüddür. İnsan daxilən həmişə mənəvi cəhətdən özünü bir əlçatmaz xariqüladə qüvvəyə söykənmiş kimi hiss edir. Bu əqidə və daxili tələbat adamın çətin,əzablı vaxtlarında,ona bir bəla və qorxulu xəstəlik üz verdikdə daha qabarıq şəkildə özünü büruzə verir. Belə hallarda insan özünü aciz görür və Ulu bir qüvvədən asılı bilir, ona ümid bəsləyir, ona pənah aparır. Buna görə də iman insan həyatının nizamnaməsi, onun davamı və həyatın mənalı keçməsi üçün ən əsas amildir**.("Hədisi-Qüdsi")**

əl-İsra-67 - Sizə dəryada zərər yetişən vaxt, sizin çağırdığınız bütün bütlər yaddan çıxar. Təkcə Allah sizin yadınıza düşər. Elə ki,sizə nicat verdik və quruya çıxardıq Allahdan üz döndərərsiniz. Həqiqətən, insan Allahına naşükürlük edəndir.

Hədis - Imam Cavad buyurur:-Din izzət və şərəf, elm, xəzinə, sükut, nurdur. (Biharil-ənvar.)

Hədis: - İmam Əli(ə.s.) buyurmuşdur:-İman ürəkdə dərk etmək, dillə təsdiq etmək və bütün bədən üzvləri ilə əməldə həyata keçirməkdən ibarətdir.

2-ci Hökm. Dinə əməl

Əməl-İslamda hər bir iş və əməl"Bismilləhir Rahmənir Rahim", yəni"Rəhman və Rəhim olan Allahın adı ilə"kəlməsilə başlayır.

İslam dini etiqadının rəmzi"Lə iləhə illəllah və Muhəmmədun Rəsulullah", yəni "Allahdan başqa heç bir ibadət olunan varlıq yoxdur və Muhəmməd Allahın elçisidir"kəlmələrilə ifadə edilir.

Hər bir ölkənin,dövlətin öz qanunları, konstitusiyası,təlim və hüquq qanunları olduğu kimi,İslamın da öz qanunları və təlim rüknləri vardır. Bu rüknlər İslamın müqəddəs kitabı "Quran"dan və İslam Peyğəmbəri Muhəmmədin (s.ə.s.) sünnəsindən (göstəriş və əməllərindən) ibarətdir.

Əgər İslam dinini bir ağaca bənzətsək, o zaman aydın olar ki, onun beş kökü(üsul) və on budağı(füru) vardır. Bunlara İslamda:

"Üsulid-din" - İslam dininin nəzəri əsasları deyilir və İslamda olan insanların bu qanunlara riayət etməsi vacibdir. Üsulid-dinin(Əhkami-xəmsə) 5 hökmü vardır:

1.Tövhid-Allahı ibadətə layiq olan yeganə haqq, varlıq bilməkdir.

2.Nübüvvət-Yer üzünə gəlmiş bütün Peyğəmbərlərin Allah tərəfindən insanları haqqa dəvət etmək üçün seçildiyinə, eləcə də mələklərə və onların Peyğəmbərlərə gətirdiyi vəhyə, kitablara və bu kitablardan sonuncusunun "Quran-Kərim" olduğuna iman gətirməkdir.

3.Ədl - Allahın hər bir şeyi hikmət üzündən yaratmasına və Onun Adil-ədalətli olmasına inanmaqdır.

4.İmamət - İslamın şiə məzhəbində hər bir Peyğəmbər kimi, Muhəmməd Peyğəmbər üçün də Allah tərəfindən təyin olunan canişinlərin,12 imamın haqq olduğuna iman gətirməkdir.

5.Məad - Hər bir insanın dünyasının dəyişməsinə və Qiyamət günü dirildilərək Allah qarşısında hesab verməsinə iman gətirməkdir.

İslamın əsas ehkamı tövhid, nübüvvət və məaddır. Həmçinin, İslam dininə iman gətirənlərin Allahın mələklərinə və Qəza-qədərə mütləq inanmaları haqqında Qurani-Kərimdə əmrlər buyurulmuşdur.

Füruidin-dinin (budaqları) əməli əsasları,yəni"İslamın rüknləri"olan vacibi əməllərdir.Bu dindən olan insanlara dünyada yaşadıqları müddətdə həmin əməlləri yerinə yetirmək buyurulmuşdur.

Müsəlmanlar hər gün beş vaxt namaz qılmalı,Ramazan ayının orucunu tutmalı,maddi və fiziki imkanı olanlar ömürlərində heç olmasa bir dəfə Həcc ziyarətinə getməlidirlər.Bundan başqa müsəlman İslami vergilərixüms və zəkatı, eləcə də fitrə-zəkatı verməlidir. Ümumiyyətlə,İslam qanunları tələb edir ki, hər bir müsəlman böyük günahları tərk etsin.

ən-Nəsr-1-3 - Ya Peyğəmbər!Sənə Allahın köməyi ilə fəth gəldiyi zaman, insanların dəstə-dəstə Allahın dininə, İslama daxil olduğunu gördüyün zaman Allahı həmd-səna ilə təsdiq et və ondan bağışlanma dilə. O tövbələri qəbul edəndir.

Ənam-162 - Ya Rəsulum! De ki:-Mənim namazım da, ibadətim də, həyatım və ölümüm də aləmlərin Rəbbi olan Allah üçündür!

Hədis: İmam Sadiq(ə.s.) Peyğəmbərimizdən(s.ə.s.) nəql etmişdir: İman odur ki, Allaha,onun mələklərinə, kitablarına, elçilərinə və Axirət gününə inanasan. Allahın Lövhu-məhfuzda yazdığı qədərə, onun xeyrinə, şərin, insanın başına gələcək bütün hadisələrin Allahın əmri ilə olduğuna inanasan. **("Hədisi Qüdsi")**

3-cü Hökm.Dində-əxlaq

Əxlaq-İslam çox geniş, əhatəli həyatı tənzimləmə sistemidir. Müsəlmanın həyatının demək olar ki, bütün cəhətləri dini baxımdan müəyyən məna daşıyır.Etiqadla ənənəvi həyat tərzi arasında bağlılıq İslam aləmi üçün bütün dövrlərdə səciyyəvi cəhət olmuşdur.

Adil-Allah dünyaya göndərdiyi insanları cürbəcür vəziyyətlər ilə imtahan edir. Ən birinci imtahan Allahın bizə verdiyi surət və əzalar, bizə bəxş etdiyi ömrün vaxtlarıdar. Sonra dünyaya gətirdiyi məkan,vətən və torpaq,bəxş etdiyi din, valideynlər, övladlar, qardaş-bacı, qohum-əqrəba, qonşular, bizə verdiyi cürbəcür xəstəliklər, verdiyi çoxlu var-dövlət, dünyada tutduğumuz yüksək mövqe və ya kasıblıq, zərurətdən doğan təsadüflər nəticəsində körpəlikdən qocalanacan rastlaşdığımız insanlar ilə son nəfəsimizəcən Allah-taala tərəfindən imtahan olunacağıq.

Bundan başqa bu müvəqqəti dünyaya gəlişimizin əsas səbəbi bu sınaqlardan üzü ağ çıxıb əbədi dünyamızda öz yerimizi tutmaqdır. Buna görə də Allah-taala öz ruhundan üfürüb yaratdığı, xislətinə bələd olduğu insanlar üçün ədəb, tərbiyə, davranış, insana verilən duyğu üzvlərindən olan qəzəb və şəhvətin düzgün idarə edilməsi və ümumiyyətlə, müvəqqəti dünyada insanların düzgün yaşamaları üçün,Din-yəni düzgün yol adlanan qayda-qanun, təlim-tərbiyə layihəsi göndərmişdir. Əgər belə olmasaydı,Cəhənnəmə düşən insan sual edərdi ki, Sən məni yaratdın, əql və duyğu üzvlərini verdin, lakin niyə yaşamaq tərzini öyrətmədin və mənə haram-halalı başa salmadın? Hər şeydən agah olan Uca Allah istəkli bəndəsi bu sualı verməsin deyə, dünyada ilk insanı yaratdığı gündən onlara Allahın qoyduğu qanunları, əmrləri çatdırmaq üçün dini təbliğ edən Peyğəmbərlər,yəni xəbər gətirənlər göndərmişdir.

Yer üzünə göndərilmiş Peyğəmbərlərin əvvəlincisi Hz.Adəm olmuş, axırıncısı isə Hz.Muhəmməddir, dinlərin axırıncısı da İslam dinidir.

əl-Mumin-65 - Əbədi, həmişə diri olan ancaq Odur! Ondan başqa ibadətə layiq məbud yoxdur. Dininizi xalis edərək,onu çağırıb deyin ki,həmd bütün aləmlərin pərvərdigarı Allah üçündür.

əl-Nəhl-125 - Ya Peyğəmbər!Möhkəm dəlil və gözəl nəsihət ilə Allahın yoluna və dininə çağır! Gözəl sözlərlə, yumşaq tərzdə onlar ilə mübahisə et. Sənin Allahın, Allahın yolundan azmışları yaxşı tanıyır. Allah hidayət tapmışları da çox yaxşı tanıyandır.

Şəriət xoş bir nəsim, canını tapşır ona,
Aləmə bənd olma ki, üst-başına toz qona.
Şəriət gülşənində qızılgülsən, nanəsən,
Təbiətə tapınma, şəriətə tapın sən. (N. Gəncəvi)

İSLAM DİNİNDƏ MƏCBURİYYƏT YOXDUR

Düşüncəli, hünərli, qəlbi azad olan kəs,
Din qəmi çəkər ancaq, dünya qəmini çəkməz.
İstəsən ki, bu aləm daim məskənin olsun?
Dini Nizamiyə ver, dünya qoy sənin olsun. (”Sirlər Xəzinəsi”)

əl-Bəqərə-256 - Dində məcburiyyə, zorakılıq yoxdur. Artıq doğruluq (iman) azğınlıqdan (küfrdən) aydın fərqlənir. Hər kəs Şeytanı (tağutu) inkar edib Allaha iman gətirərsə, o, artıq qırılmaq bilməyən, ən möhkəm bir ipdən (dəstəkdən) yapışmış olar. Allah hər şeyi olduğu kimi eşidən və biləndir.

əl-Hucurat-17 - Onlar İslamı qəbul etdiklərinə görə sənə minnət qoyarlar. De ki:“Müsəlman olduğunuzla mənə minnət qoymayın! Xeyr, əgər iman gətirdiyinizi doğru deyirsinizsə, bilin ki, sizi imana müvəffəq etməklə, əslində, Allah sizin boynunuza minnət qoymuş olar!”

əş-Şura-8-10 - Əgər Allah istəsəydi, onları, sözsüz ki, bir din üzrə edərdi. (aralarında ixtilaf olmasın) Lakin Allah istədiyi kəsi öz rəhmətinə daxil edər və zalımların nə dostu, nə də köməyi vardır.Din və dünya işlərində ixtilaf etdiyimiz şeyin hökmü Allah üçündür. Allah öz bəndələrindən istədiyi kəsi İslama yönəldər və haqqa tərəf qayıdan kəsi öz dininə hidayət edər.

əş-Şura-15-16 - Ya Muhəmməd! İnsanları bu dinə çağır və özün də əmr olunduğu kimi dində sabit ol! Təbliği tərk etmək barədə müşriklərin istəklərinə tabe olma! De ki:-Mən Allahın başqa Peyğəmbərlərə nazil etdiyi kitablara iman gətirdim. Mən məmuram ki, istər hökmdə, istərsə də Allaha tərəf çağırmaqda sizin aranızda ədalətli olum. O həm mənim, həm də sizin Allahınızdır. Bizim əməlimiz özümüz üçün,sizin əməliniz özünüz üçündür.Hüccət qəbul olandan sonra Allah barədə mübahisə edən kəslərin dəlili öz Allahının yanında batildir. Bizimlə sizin aranızda mübahisə etməyə ehtiyac yoxdur, çünki bizim dinimiz haqq,sizin dininiz nahaqdır. Qayıdacaq yer, Allaha tərəfdir və O bizi Qiyamət günü cəm edər.

ALLAH İSTƏDİYİ KƏSİ İSLAMA HİDAYƏT EDƏR

Açıqlama: Mövlanə Cəzalinin (”Kimyayi-Səadət”) kitabından:-Kainatın gərdişi Quranın hökmlərinə uyub, Kəlamı-Haqla yaşayıb və yaşatmaqdır. Gördüyümüz bu göy üzü və kainat boş-boşuna deyildir.

Bunların dirəyi İslamdır. Bu din inananlarındır. Insanlar qəlblərində həqiqi ədaləti yaşasalar, dünyaya hakim olarlar.

əl-Ənam-125 - Allah hidayət etmək istədiyi kəsin sinəsini İslam üçün açar, onun qəlbini işıqlandırıb haqqa meyl etdirər, istədiyi kəsin sinəsini çox daraldar ki, eşitdiyini yadda saxlamasın. Onun göyə çıxması mümkün olmadığı kimi imana gəlməsi də mümkün deyil.Beləliklə, Allah onların qəlblərini dar etdiyi kimi, iman gətirməyən kəslərə də əzab verər.

ər-Rum-30 - Ya Muhəmməd!Ümmətinlə birlikdə batildən haqqa tapınaraq, üzünü Allahin fitri dininə,İslama tərəf çevir. Allahın dinini, onun yaratdığı Tövhid dini olan İslamı heç cür dəyişdirmək olmaz. Doğru din budur, lakin insanların əksəriyyəti haqq dinin İslam olduğunu bilməzlər. Allah bütün insanları müsəlman, təkallahlı yaratmış, lakin ata-anaları onları başqa dinlərə sövq etmişlər.

əz-Zumər-22 - Məgər Allahın köksünü (qəlbini)islam dini üçün açmaqla Rəbbi tərəfindən qəlbi nurlanan kəs, qəlbi möhürlənmiş kimsə kimi ola bilərmi?! Elə isə vay qəlbləri Allahın zikrinə(Qurana) qarşı sərt olanların halına! Onlar haqq yoldan açıq-aydın azmışlar.

ən-Nəhl-37 - Ya Muhəmməd! Əgər sən onların hidayət tapmalarını istəsən də, Allah yoldan çıxardıqlarını doğru yola salmaz!

Hədis:-Peyğəmbərimiz belə buyurmuşdur:-Mən ancaq aləmlərə rəhmət olaraq göndərildim. Əzab vermək və zorluq üçün göndərilmədim. Allah məni sıxıntı, zəhmətverici və bunu arzuedici olaraq göndərmədi. Allah məni öyrədici, bildirici və hidayətedici olaraq göndərdi. Dininiz dinlərin ən xeyirli, ən rahat olanıdır.

Həqiqətən də, din bir rahatlıqdır. Mən sizə nəyi qadağan etdimsə ondan çəkinin,sizə nəyi əmr etdimsə, gücünüzün çatdığı qədər əməl edin. Sizdən əvvəlki ümmətlər ancaq Peyğəmbərlərinə və onun qoyduğu əməllərə qarşı çıxmaları üzündən həlak olmuşlar. Bu əməllərin gücünüz çatdığı qədərini yerinə yetirin.Siz ibadətdən bezməyincə,Allah da savab verməkdən yorulmaz. Dininizi asanlaşdırın,zorlaşdırmayın,müjdələyin, hürkütməyin **("Sahih-i Buhari")**

İSLAM ELM VƏ BARIŞ DİNİDİR

Açıqlama: Qurani-Kərimdə olan ayələrin əzəmətli mənaları müasir dövrümüzdə elm və texnikanın inkişafı, alimlərin təcrübə və tədqiqatları nəticəsində açıqlanır və onların sirləri anlaşılmağa başlanır. Elmi kəşflərin sayı artdıqca, kainat və həyat məsələlərinin sirləri üzə

çıxdıqca hər şeyi hikmət üzündən yaradan Allahın Qurani-Kərimdə bu məsələlər haqqında qabaqcadan xəbərlər verdiyinin şahidi oluruq. Məhz bu amillər qeyri-müsəlman alimlərini heyrətləndirir, onları İslam həqiqətlərini dərk etməyə və bu dini qəbul etməyə təhrik edir. Bunun nəticəsidir ki, artıq həqiqi İslam (mövhumat və xurafatdan uzaq) qeyri-İslam dövlətlərində inkişaf edərək daha da vüsət tapmaqdadır. Bu səbəbdən də müxtəlif ölkələrin alim və mütəxəssislərinin iştirakı ilə"Quranda elmi nişanələr"və digər bu kimi mövzularda elmi konfranslar keçirilir və bütün elmlərin mənbəyinin "Quran"da olması haqqında müzakirələr aparılır. Bütün dünya, axirət və kainat elmləri haqqında bilgilər verən Qurani-Kərim Allah tərəfindən dünya əhlinə bəxş edilmiş böyük nemətdir.İslam dinini kamil din hesab etmiş məşhur alman şairi Höte (1749-1832)yazırdı: **"Əgər İslam Allahın iradəsinə təslim olmaqdırsa, deməli, biz hamımız İslam əqidəsi ilə yaşayır və onunla da fani dünyadan köçürük. İslam elə bir dindir ki, Muhəmməddən əvvəlki Peyğəmbərlər də onun müjdəsini vermişlər."**

Bernard Şou (1856-1950) "Muhəmməd Allahın elçisi" əsərində yazırdı:"Mən həmişə Muhəmmədin dininə, malik olduğu möcüzəli həyat gücü və enerjiyə görə dərin ehtiram bəsləmişəm. Mənim fikrimcə, İslam taleyin cürbəcür fitnələrini və sivilizasiya fərqlərini dəf etmək yolunda uğur qazana bilən yeganə dindir. Mən qabaqcadan görürəm ki, avropalılar bir-birinin ardınca İslam dinini qəbul edəcəklər".

Başqa bir Avropa alimi, professor A.Elison istər öz dövrümüzdə, istərsə də yaxın gələcəkdə bir çox elm adamlarını İslam dinini qəbul edəcəyini bildirərək belə deyir**:"Elm adamlarının apardıqları tədqiqatlar nəticəsində İslam dininin həqiqətləri arasında tam uyğunluğun olduğunu gec-tez biləcəklər.İslam dini xalq təbəqələrindən əvvəl elm adamlarının dini olmuşdur".**

İnsanın fitrəti, qəlbi, vicdanı "Quran-Kərim"in həqiqətlərini bilməyənədək dünyada həqiqi rahatlığa çıxa bilməyəcək. İnsanlar ömürləri boyu,"Quran" həqiqətlərini tapana qədər daim axtarışda olacaqlar.

əl-Maidə-3 - Bu gün Mən sizin üçün dininizi kamil etdim, (cahiliyyət qanunlarını məhv etməklə) nemətimi sizə tamam etdim. İslamı sizin üçün din seçdim.Allah-taala İslam dinini meydana çıxarmış və ucaltmışdır. Yalnız Məndən qorxun və mənə ibadət edin. (Çünki mən sizi zəfərə çatdırdım, İslam dinini bütün dinlər üzərində qalib etdim, dininizin iman əsaslarını, şəriət əsaslarının hamısını sizə bildirdim.)

Yunus-105-Batildən haqqa tapınaraq üzünü İslam dininə çevir, müşriklərdən olma.

Ali-İmran-19-Şübhəsiz, Allah yanında din İslam dinidir.Kitab əhli o dinin haqq olduğunu bildikdən sonra, həsəd və təkəbbürlülükdən ixtilafa düşdülər. Allahın ayətlərinə kafir olanlar bilsinlər ki, Allah tezliklə hesablara yetişəcəkdir.

AIi-İmran-85-İslamdan qeyri bir din seçən kəsdən heç bir əməl qəbul olunmayacaq və axirətdə ziyan görənlərdən olacaqdır.

Ali-İmran-103-Hamınız Allahın ipindən,İslam dinindən yapışın və bir-birinizdən ayrılmayın.Allahın sizə verdiyi nemətləri xatırlayın ki,siz bir-biriniz ilə düşmən ikən Allah sizi İslam dini ilə birləşdirdi.

ər-Rum-43-44-Pak,düzgün dinə doğru gəl!Allahın əmrindən geriyə dönmək mümkün olmayan günün gəlib çatmasından qabaq.O gün insanlar iki dəstə olarlar. Kafir olanların küfrü öz ziyanlarına olar, əməlisalehlər isə özləri üçün yaxşı mükafatlar hazırlayıblar.

Hədis:-Allahın Peyğəmbəri (s.ə.s.) buyurur:-Ey camaat! Həqiqətən məndən sonra heç bir Peyğəmbər, sizdən sonra heç bir ümmət olmayacaq. Agah olun və öz Allahınıza ibadət edin. Beş vaxta namaz qılın, Ramazan ayının orucunu tutun, Həccə gedin, mal-dövlətinizin zəkatını səmimi qəlbdən verin və Allahın əmrlərinə itaət edin ki, Cənnətinə daxil ola biləsiniz. **(Hədisi Qüdsi)**

ALLAH BÜTÜN İNSANLARI MÜSƏLMAN YARATMIŞDIR

Açıqlama: Müsəlman-lüğətdə tək bir Allaha təslim olmuş, tabe olmuş mənasındadır. İslam dinindən olan insanları "müsəlman", yəni, Vahid olan Allaha ibadət edən adlandırırlar. Əslində, Qurani-Kərimə müraciət etsək, görərik ki, Allah-taala tərəfindən dünyaya göndərilmiş bütün Peyğəmbərlər özlərini müsəlman adlandırmışlar.

Bu ayələrdən göründüyü kimi Allah-taala bütün insanları müsəlman olaraq yaratmışdır. Beləliklə, ümumi fikir budur ki, İslam yeganə Allaha təslim olmaq, boyun əymək deməkdir.

Fussilət-33-Xalqı Allaha tərəf çağıran,yaxşı is görən və" Mən Müsəlmanlardanam!" - deyən kimsədən daha gözəl danışan kim ola bilər?!

əl-Bəqərə-127-128-İbrahim və İsmail Beytin bünövrəsini ucaldan zaman dedilər: - Ey Rəbbimiz, bizdən bunu qəbul et! Həqiqətən, Sən daima eşidən və bizim niyyətlərimizdən xəbərdarsan. Pərvərdigara,

bizim hər ikimizi müsəlman və sənin əmrinə itaətkar et!Bizim övladlarımızdan yalnız Sənə boyun əyən insanlar vücuda gətir, bizlərə ibadətlərimizin yollarını göstər, tövbə etdikcə bizə rəhmətinlə bax. Tövbəni çox qəbul edən və bağışlayan yalnız Sənsən!

əl-Bəqərə-131-132-Rəbbi İbrahimə: -Əmrimə təslim ol!-dedikdə,İbrahim də:"Aləmlərin Rəbbinə təslim oldum, müsəlman oldum!"-deyə cavab vermişdi. İbrahim və (sonra da) Yaqub müsəlman olmağı öz oğlanlarına vəsiyyət ediblər. Onlardan hər biri öz övladlarına dedilər:-Ey oğlanlarım, həqiqətən, Allah sizin üçün İslam dinini seçdi, siz də ancaq müsəlman olaraq ölməlisiniz!

əl-Ənam-161-(Ya Rəsulum!)De ki:-Şübhəsiz,Rəbbim məni doğru yola, həqiqi, düzgün dinə, batildən haqqa tapınan və müşriklərdən olmayan İbrahimin dininə yönəltdi!

əl-Həcc-77-78-Allah sizin üçün İslam dinini seçdi,sizin üçün dində çətinlik yeri qoymadı, əksinə, atanız İbrahim millətinin genişliyi kimi, sizin dininizi genişləndirdi. Allah sizə İbrahimdən qabaq müsəlman adı qoymuşdur. Bu Quranda siz müsəlman adlanırsınız ki, Peyğəmbər sizə şahid olsun. Siz də keşmiş Peyğəmbərlərin ümmətinə (ya sizdən sonra gələn ümmətlərə) şahid olarsınız ki, Peyğəmbər hökmləri çatdırmışdır. Namaz qılın, zəkat verin, Allahın dinindən yapışın! Sizin işinizə yetişən, kömək göstərən Allahdır. O nə yaxşı ixtiyar sahibi, necə də gözəl imdada yetəndir.

əl-Əraf-126-Musa və Harunun duası:-Ey Rəbbimiz,bizə bolluca səbir əta et və bizi müsəlman olaraq öldür!

Yusif-101-Yusif söylədi:-Göyləri və yeri yaradan Allah!Sən dünyada da, axirətdə də mənim ixtiyar sahibimsən. Mənim canımı müsəlman olaraq əbədi dünyaya köçür və salehlərin yanına apar.

Ali-İmran-102-Ey möminlər! Haqq ilə Allahdan qorxun, müsəlman olaraq ölməyə çalışın.

əl-Hicr-2-Kafirlərdən bir çoxları arzu edəcəklər, kaş ki, müsəlman olardılar.

ÜSULİD-DİNİN 5-HÖKMÜ VARDIR

1-ci Tövhid-Allah təkdir

Gəlib hamıdan əvvəl, hər bir varlıqdan qabaq,
Yaşayanlar içində əbədi odur ancaq.
Ey hələ biz yox ikən var olan ülvi, uca!
Biz öləndən sonra da hey əbədi qalacaq. ("Sirlər Xəzinəsi")

əl-Bəqərə-107-Ya Peyğəmbər!Sən bilmirsənmi,Yerin və göylərin padşahlığı Allah üçündür? Ondan başqa sizin üçün mövla və köməkçi yoxdur.

əl-Mülk-1-2-Hökm, hər şeyin ixtiyarı əlində olan Allah nə qədər uca, nə qədər uludur. O, hər şeyə qadırdir! Hansınızın əməlcə daha gözəl olduğunu sınamaq üçün ölümü və həyatı yaradan Odur.O, yenilməz qüvvət sahibidir, çox bağışlayandır.

ər-Rəd-16-Ya Peyğəmbər!Göylərin və yerin Rəbbi,onlara pərvəriş verən kimdir? De ki, Allahdır! De ki, siz özlərinə xeyir və zərər verməyə qadir olmayanları özünüzə sahib və dost tutdunuzmu? De ki, korla gözlü, işıqla zülmət bərabərdirmi? De ki, hər şeyi yaradan Allahdır. Allah birdir və qələbə çalandır.

əş-Şura-3-Göylərdə və yerdə olanlar Allah üçündür.Allah şan-şöhrət cəhətdən uca və böyükdür.

Açıqlama:-Tövhid-Allahı vahid bilməkdir, yəni İslam dininə etiqad edən şəxs gərək Allahı vahid, tək və yeganə bir vücud bilsin, ona şərik qərar verməsin. Allah-taala insanları yaradıb ki, onlar öz xaliqini tanıyıb onu təsdiq etsinlər. Allahdan başqa bütün varlıqlara aləm deyilir. Allahın zatı cümlədən ayrı və mücərrəddir. Allaha bəndəlik və ibadət etmək bəşərin ən böyük fitri və mənəvi ehtiyacının təminatçısıdır.İnsan Allaha bəndəlik etməklə əsl kamala çatır və mələklərdən önə keçərək Allahın canişini və mələklərin səcdəgahı olur. İbadət etmək isə insanın inkişafı, kamilliyi və əsil bəndə olması sayəsində ona nəsib olar. Allah-taala insanlar üzərində sonsuz mərhəmət sahibidir. Uca Allah bizlərə fiziki nemətlərin yanında mənəvi olaraq çox lütflər də vermişdir,xətaları əfv edər, tövbələri qəbul edər, insanları qoruyar, pis əməllərinin üstünü örtər, hidayətlərini artırar, doğru yola yönəldər. Bəndəlik insanın bütün vücudu ilə Allaha ibadət etmək, onun buyurduqlarından başqasına qulaq asmamaq, ondan başqasına itaət etməmək, onun razılığından başqa bir şeyi düşünməmək deməkdir. Bəndəliyin dərəcəsi onun Allaha olan mərifətinə bağlıdır. Buna əsasən Allahın əzəmətini dərk edənlər, özlərinin Allaha olan ehtiyac və möhtaclarını anlayanlar əməl edərlər. Peyğəmbərlər və imamlar bu mərifətin, yəni ibadət və bəndəliyin ən uca zirvəsindədirlər. Bizim ən böyük arzumuz olan Allaha qovuşmağın mümkünlüyü, Onun qüdrətinin böyüklüyünü fikirləşib, düşünmək üçün yalnız işarə və müjdələrlə dolu olan Qurani-Kərimin ayələrini və Peyğəmbərin buyurduqlarını öyrənib dərk etməklə mümkün ola bilər.

əl-İsra-9-Həqiqətən, bu Quran bütün bəşəriyyəti ən doğru yola yönəldir, yaxşı işlər görən möminlərə böyük bir mükafata nail olacaqları ilə müjdə verir.

Allah Qurani-Kərim vasitəsilə bir daha özünü bizə tanıdıb, öz elmini,yəni dünya və kainat elmlərini, həmçinin insanın özünü dərk etmə elmini bizlərə bildirmək istəmişdir.Müasir dünyada elm çox geniş bir məna kəsb edir, elmlərin miqdarı o qədər artıb ki, onları sayıb qurtarmaq olmur.Lakin məna dərinliyinə getdikcə onların bir-birinə yaxınlaşıb bir mərkəzə tərəf gəldiyini görərik.

Hədsi: Peyğəmbərimiz (s.ə.s.) belə buyurmuşdur: ”Elm bir nöqtədir, cahillər isə onu çoxaldıblar**.”(Hədisi Qüdsi)**

Bütün elmlərin mənbəyi isə Qurani-Kərimdədir. Bilik imandan ibarətdir, çünki iman təsdiqdir, təsdiq isə elmin bilik adlanan bir qismidir.

Bu haqda İslam alimi **Mövlana Əbu Həmid Muhəmməd Cazali (1058-1111) belə buyurmuşdur:”Astronomiya və anatomiya elmlərini bilməyən, Allahı tanımaqda aciz düşər”**

”Ən böyük sənətkar olan Allahı tanımaq üçün astronomiya elmini bilmək göylərin və yerin yaradılışını düşünənlər üçün ən gözəl yardımçıdır!”

Həmçinin, burada bir miqdar aləmin astronomik araşdırmalarından və bir miqdar insan anatomiyasından yazılanları açıqlamaq münasib görülmüşdür.Bəlkə Allahı tanımaq istəyənlər Allaha asi olmaq halından uzaqlaşar, cəhalət zindanından çıxar, elm və hikmət aləminə girib, həqiqətin zirvəsinə yüksələrlər. Əşyanın həqiqətindən agah olub, mənanın incəliklərini bilib, cahanın sirlərindən agah olub, aləmin gərdişini olduğu kimi qəbul edərlər. Bəlkə bundan sonra özünü tanıma sirrinə malik olub, ondan Allahı tanıma sərvətini taparlar.

Ey vacib-vücud olan Allahım!Rəhmətini üstümüzə saç! Səni kamalımızla tanımağı bizə qismət et! Sənin öyrətdiyindən başqa heç nə bilə bilmərik. Sənin anlatdığından başqa heç nə anlaya bilmərik. Sənin ilham etdiyindən başqa mərifətimiz yoxdur.Sən Alimsən, Kərimsən, Raufsan, Rəhimsən! (**Mövlana Cazali)**

ALLAHIN VƏSFİ

Ey bütün varlıqlara bu dünyada can verən,
Gücsüz torpağa belə qanad verən, qan verən!
Bayrağının altında əyləşib bütün cahan,
Sən özündən doğuldun, biz sənin calalından.
Varlığında görünmür nə surət, nə də tərkib,
Heç kimə bənzəməzsən, de kim sənə bənzəyib?

Dönməz, dəyişməz varlıq tapılarsa, o, sənsən,
Ölməyib, ölməyəcək qüdrət varsa, o, sənsən.
Sən-yaşarı və sonsuz, bizsə gəldi-gedəri,
Hökmündədir kainat, yerin, göyün mehvəri.
Kim verib fələklərə bunca qüdrət, iqtidar?
Bu qazana sənin tək can duzu atanmı var?
Başlanğıcsız varlığın cahana hayqırmada:
"Mən həqqəm!" Səndən savay kimdən qopar bu səda?
("Sirlər Xəzinəsi")

Açıqlama: Hz. Əlinin "Nəhcül Bəlağə"kitabından Tövhid haqqındakı xütbələrindən bir hissə:-Başlanğıc kimi əvvəli, qurtarmaq kimi sonu, tükənəcək kimi bir nəhayəti olmayan Allaha təriflər olsun! O, Ucadır! Özünü vəsf etdiyi kimidir. Bütün varlıqları yaradanda onlar üçün müəyyən çərçivə təyin etmişdir ki, həm onların özünə, həmdə özünün onlara bənzəməsindən uzaq olsun. Varlıqların içinə girməmişdir ki, onların içindədir deyilə bilsin.Varlıqlardan uzaq deyildir ki, onlardan ayrıdır deyilə bilsin. Onları tərk etməmişdir ki, haradadır deyilə bilsin. Lakin onları öz elmi ilə əhatə etmiş və Onun yaratması onları var etmişdir. Havada görünməyən gizlilər gecə qaranlığının hiss edilməyən örtülüləri, yüksək göylərdə və yerlərdə olan hər bir şey Ondan gizli qalmaz. Hər bir şeyin bir qoruyanı, nəzarətçisi vardır. Hər bir şey başqa bir şeylə əhatə edilmişdir və Allah da hər şeyi əhatə etmişdir. O, zamanın keçməsinə görə dəyişilməyə məruz qalmayan birdir, təkdir, heç nəyə möhtac deyildir.Bir şeyiyaratdığına görə yorulmaz, istədiyi şeyə sadəcə,"Ol!"deyər, o da dərhal olar.Birlik xüsusiyyətinə yalnız özü sahibdir. Sahib olduqları arasında onun tayı yoxdur. Mülkünün üzərindəki hakimiyyətdə heç kəs Ona şərik deyildir. Əbədiliyin yoxedicisi,sonsuzluğun mirasçısıdır, yalnız Özüdür! Hər bilən cəhalətdən, sonra, öyrənib bilik sahibi olmuşdur. Lakin Allah həmişə bilik sahibi olmuş, varlıqlardan qabaq da O, elm sahibi idi və bütün yaratdıqlarını Öz elmi ilə yaratmışdır Daimidir! Heç bir zaman yox olmayacaq!Yox olmaz və tükənməz Rəbbimi belə vəsf edirəm. Ondan başqa Allah yoxdur! Böyükdür, nə mübarək böyüklük? Uludur, nə mübarək ululuq? Üstündür, nə mübarək üstünlük? O, zalımların söylədiklərindən Ucadır, Böyükdür, Əbədidir. Göylərdə və Yerdə olan əzəmət yalnız Onundur. O əzizdir, hakimdir. Yerlərin və göylərin ən böyüyü Allahdır. Dünya yaranıb dövr etməyə başladığı gündən heç bir kəs onun qədər sevilmədi, heç kimsə onun qədər arzulanmadı. Dua edənlər onun adı ilə yalvararlar.Onunla həyatı sevərlər. Ölüm də onunla

gözəldir. Bu, bizim Rəbbimiz, bizi əhatə edən canlı və cansız aləmləri: Ayı, ulduzları, Günəşi, kainatı, 7 qat göyü, 7 qat Yeri, torpağı və insanları yoxdan var edən Uca Allahdır. Bütün məxluqat hər an nəhayətsiz müşkülləri ilə Allahın yardımına möhtacdır.Heç bir məxluqat öz ehtiyacını özü ödəyə bilməz və onu gözləyən təhlükələri öz gücü ilə dəf edə bilməz. İnsan bu ülvi həqiqətə şahid olmağa mükəlləfdir. Bu ülvi həqiqətə şahid olmayan həqiqi Tövhidi əldə edə bilməz. Allahın əmrlərini təhlil edərkən onun bizim ibadətimizə ehtiyacının olmadığını, fəqət bizim Ona ibadət etməyə möhtac olduğumuzu bilmək bizim üçün çox önəmli və fəzilətdir.

Allahı tanımağın kamalı onu təsdiq etməkdir.Təsdiq etməyin kamalı onu bir bilməkdir. O,yaradılmayıb var olandır. Hərəkətə və aləmə möhtac olmadan işlər görür, heç bir varlığa möhtac deyildir, birdir. O hər şeyin gizli və aşkar tərəfini biləndir. Onun əmrinə qarşı heç kəs çıxa bilməz.O nə doğdu, nə də doğuldu. O, sonsuz, bitməz qüdrət sahibidir. O, hər şeyin hüdudunu və sonunu biləndir.

Qurani-Kərimdə 119 ayədə Allahın sifətləri vəsf edilmişdir.

əl-Ənam-103-Gözlər Allahı dərk etməz, Allah bütün gözləri dərk edər. Allah lətifdir, gözlər onu dərk etməz. Allah bütün insanların özlərindən, sözlərindən və əməllərindən xəbərdardır.

əl-Maidə-120-Göylərin, yerin və onlarda olan hər şeyin hökmü Allaha məxsusdur, Allah hər şeyə Qadirdir.

Loğman-22-23-Kim yaxşı əməl sahibi olub özünü səmimi qəlbdən Allaha təslim edərsə, o artıq ən möhkəm bağdan, Qurandan, imandan yapışmış olur. Bütün işlərin axırı Allaha gəlib çıxacaqdır.Buyuruq Allahındır!Kim küfr edərsə,onun küfrü səni kədərləndirməsin. Onlar Bizim hüzurumuza qayıdacaqlar. Biz də onlara (dünyada) nə etdiklərini xəbər verəcəyik!

Loğman-26-27-Göylərdə və Yerdə nə varsa, Allahındır.Allah bəndələrinin, o cümlədən müşriklərin ibadətinə möhtac deyildir və hər cür şükrə, ərifə layiqdir! Onun bütün işləri bəyəniləndir. Əgər yerdəki bütün ağaclar qələm, dərya isə mürəkkəb olsaydı və yeddi dərya belə ona qoşulsaydı, yenə də Rəbbimin sözləri yazılıb tükənməzdi. Həqiqətən, Allah yenilməz qüdrət və hikmət sahibidir!

əl-Ənam-73-O elə bir Allahdır ki, göyləri və yeri haqq, hikmətlə yaratdı.O gün ki, Allah ona:“Ol!”,deyər, o da olar. Allahın sözü doğrudur. Surun çalınacağı gün Padşahlıq Allah üçündür. Allah qeybdən xəbərdardır. Hökm edən və hər şeydən xəbərdar Odur.

əl-Mumin-66-O diridir, ondan başqa ibadətə layiq məbud yoxdur. Dininizi xalis edərək, onu çağırıb deyin ki, həmd bütün aləmlərin pərvərdigarı Allah üçündür.

Hədis: Bir gün Məkkə müşriklərindən bir neçə nəfər Hz. Peyğəmbərin yanına gəlib soruşdular:

- Allah haqqında bizə məlumat ver ki, görək, o, qızıldandır, gümüşdəndir, ağacdandır, ya dəmirdən?

Sonra İxlas surəsi nazil oldu.

1-Ya Peyğəmbər! De ki, Allah birdir, şəriki yoxdur!

2-Allah hər bir şeydən ehtiyacsızdır !

3-Doğmayıbdır! Ondan nə övlad, nə də qəm, şadlıq, gülmək, aclıq və toxluq kimi şeylər baş verməyibdir və doğulmayıbdır! Heç bir şeydən xaric olmayıbdır.

4-Allah üçün ona oxşayan bir şəxs və tay yoxdur ki,Allahı ona oxşadıb insanlara tanıtsın.Yaxud doğmayıbdır ki, Allahlığı irs ilə başqasına versin və doğulmayıbdır ki, Allahlığı irs ilə qazanmış olsun.Onun heç bir tayı-bərabəri və bənzəri yoxdur. **(”Zubdətul əhadis”Qummi)**

ALLAH KAİNATI YARATDI

Bütün var olanları yalnız odur yaradan.
Pərdəli fələklərin pərdəsini açandır,
Pərdəli iş görənin sirrini saxlayandır.
Günəşin kəmərinə ləl ilə zinət verən,
Torpağa həyat donu, suya təravət verən.
Tapılarmı cahanda onunla bəhs eləyən?
Varmı ondan savayı “Bu mülk mənimdir!” deyən?
O vardı, hələ yoxkən yer, göy, ucalıq, alçaq,
Varlıq yoxa çıxsa da, o, daim var olacaq. (”Sirlər Xəzinəsi”)

əl-Ənbiya-31-Məgər müşriklər bilmədilərmi ki, göy və yer bağlı idi, (nə yağış yağırdı, nə ot bitirdi) sonra onların hər ikisini açdıq (yağış yağdı,ot bitdi). Bütün şeylərin diriliyini sudan əmələ gətirdik.

ər-Rəd-2-O elə bir Allahdır ki, göyləri gördüyünüz kimi sütunsuz yaratdı. Sonra ərşə qələbə çaldı. Ərşdə qərar tutan və məlum bir müddətə hərəkətdə olan Günəşi və Ayı özünə tabe etdi.Onların hər biri müəyyən vaxta qədər, Qiyamətədək cari və hərəkətdə olarlar.

əl-Ənam-101-Allah göyləri və yeri yoxdan vücuda gətirəndir. Hər bir şeyi Allah yaratmışdır.Allah hər şeyə Alimdir.

əl-Bəqərə-29-Yer üzündə nə varsa, hamısını sizin üçün yaradan, sonra səmaya üz tutaraq onu yeddi qat göy halında düzəldib, nizama salan Odur!O hər şeyi biləndir!

Açıqlama:-Allahın 14 əsr bundan əvvəl Qurani-Kərimdə verdiyi bu məlumat müasir elmi kəşflərlə üst-üstə düşür.Bu gün astrofizikanın gəldiyi dəqiq nəticə, bütün kainatın maddə və zaman ölçüləri ilə birlikdə sıfır anından, böyük bir partlayışla əmələ gəlməsini bildirir. Böyük partlayışın orijinal adı"Binq Bənq" nəzəriyyəsi, bu gün kainatın əmələ gəlməsi və başlanğıcı mövzusunda bütün elmi dairələr tərəfindən ortaq şəkildə qəbul edilən elmi açıqlamadır.

Bu ayədə ərəb dilindəki"ratq"kəlməsi, Azərbaycanca"bir-birinə bitişik, ayrılmaz bir vəziyyətdə, bütünləşmiş" mənasına gəlir. Yəni, bu söz vahid bir tam halında olan, bütöv-dairəvi iki maddəni ifadə etmək üçün işlədilir.Yer kürəsinin dairəvi halda olması elm adamları tərəfindən yaxın əsrlərdə müəyyən edilmişdir. Sonra gələn ərəb dilindəki,"fatq" feli, Azərbaycanca "açdıq-ayırdıq,"yəni bitişik vəziyyətdə olan bir nəsnənin "yarıb, parçalayıb çölə çıxması" mənasına gəlir. Məsələn, toxumun cücərərək torpaqdan çıxması da bu kəlmə ilə ifadə edilir. Ayədə göylərlə yerin bir-biri ilə bitişik, yəni "ratq"vəziyyətində olmasından bəhs edilir. Ayədə həmin kəlmədən dərhal sonra "fatq" feli bunların ayrılmasını bildirir. Yəni biri digərini yararaq göyə çıxır. Həqiqətən də,"Binq Bənq"in ilkin görünüşünü düşündükdə kainatın bütün maddələrinin bir nöqtədə toplandığını görürük.

Başqa bir ifadə ilə hər şey, hətta yaradılmamış olan göylər və yer də bir nöqtənin içində,bir-biri ilə bitişik,ayrılmaz vəziyyətdə idilər. Bundan sonra bir nöqtə şiddətli bir partlayışla yarılır və göylə yer bir-birindən ayrılırlar. İçində olduğumuz yer kürəsi 300 milyard qalaktikadan yalnız biridir. Kainatda təqribən 250 milyard ulduz vardır.Günəş bu ulduzlardan biridir. Bu ulduzların hər birindəki tək bir toz dənəsi belə Allahın hər an nəzarətindədir.Hər bir planetin, hər bir ulduzun,300 min qalaktikadan hər birinin hərəkəti,dönüş sürəti, istiliyi, soyuqluğu,uzaqlığı Allah qatında hesablanmış və nəzarətdədir. Allah insanın xəbəri olmadan yer üzündəki saysız yaranmışları hər an, hər saniyə görür.

Fələkləri Yerin başına fırlanan etmiş,
Fələklərin fırlanmalarını yer üçün etmiş. ("Xosrov və Şirin.")

Açıqlama: Avropada astronomiya XV-XVI əsrlərdə inkişaf etməyə başlamışdır. Nikolay Kopernik (1473-1543) "Dünyanın heliosentrik sistemi"ni vermişdir. Bu yeni astronomiyanın meydana gəlməsinə və sürətlə inkişafına səbəb olmuşdur.Tixo Brahe (1546-1601), Lohan Kepler (1571 1630), Qalileo Qaliley (1564-1642), İsaak Nyuton (1643-1727) və başqaları astronomiyanın inkişafında böyük rol oynamışlar. Kepler planetlərin hərəkət qanunlarını vermiş, Nyuton Ümumdünya Cazibə qanununu kəşf etmiş və müşahidələr əsasında verilmiş Kepler qanunlarını riyazi olaraq almış və ümumiləşdirmişdir. O ilk dəfə olaraq bir çox astronomik hadisələrin düzgün izahını vermişdir. Müasir astronomiya elmində N.Kopernikin təklif etdiyi sistemdə Günəş ortada durur, onun ətrafında isə doqquz planet bu tərtiblə düzülmüşdür:-Merkuri, Venera, Yer, Mars, Yupiter, Saturn, Uran, Neptun, Pluton. Mars ilə Yupiterin orbitləri arasında çoxlu xırda planetlər vardır, onlara asteroidlər deyirlər. Bu planetlərin hamısı Günəş ətrafında qərbdən şərqə tərəf dövr edirlər.

1781-ci ildə Uran planeti, 1846-cı ildə isə Neptun planeti kəşf olunur.1930-cu ildə Günəş sisteminin IX planeti Pluton kəşf olunur. 2006-cı il avqustun 24-də Beynəlxalq Astronomiya Ittifaqının Baş Assambleyasında qərara alınmışdır ki, Pluton planet deyil. 1859-cu ildə Kirxhof spektral analiz üsulunu verir. XIX əsrin ikinci yarısında fotoqrafiya kəşf olunur və astronomiyada fotoqrafik müşahidələrə başlanılır. Beləliklə, astronomiyanın ən gənc sahəsi astrofizika yaranır.

ALLAHIN İLK YARATDIĞI RUHLAR ALƏMİ

Açıqlama:İslamın tarixçilərindən olan Əbu Cəfər Muhəmməd İbni Cərir Təbərinin yazdığı" Təbəreyi Kəbir" adlı kitabında Peyğəmbərə verilən suallar və onların cavabları şərh edilmişdir. Bütövlükdə isə XVII əsrdə Mövlana Furatı tərəfindən "Qırx sual" adlı əsəri 1840-cı ildə İstambulda, 1851-ildə Vyanada çap edilmişdir. 1881-ci ildə rus dilinə tərcümə olunmuş və A.Arxangelskinin "Muhəmməd kosmologiyası"adlı kitabına əlavə edilmişdir.1918-ci ildə İstambulda yenidən"Qırx sual"adı ilə çap edilmişdir:

"40 sual"-kitabından:- Qurani-Kərimin ayələrindən və Peyğəmbər (s.ə.s.) tərəfindən söylənilən hədislərdən məlum olur ki, sayı-hesabı bilinməyən qərinələr və əsrlər əvvəl yalnız Tək olan Allah var idı. Allah həddi-hüdudu, eni-uzunluğu, yaşı, müddəti, vaxt və zamanı, məkan və yeri bilinməyən aləmdə, bir gizli xəzinə ikən tanınmağını

istəmiş, ruhlar və cisimlər aləmini yaradıb öz mərhəmətinin, camalının, qüdrətinin, kamalının, əzəmətinin, cəlalının, nemətlərinin bolluğunu, sənətinin çeşidlərini, hikmətlərinin sirlərini göstərmək istəmişdir. Qadir Allah bütün məxluqatdan əvvəl yoxdan çox nurlu, yaşıl zəbərcəntdən olan, böyüklüyü Allahdan başqa kimsəyə məlum olmayan, öz nurundan lətif və əzim bir cövhər var edib, ondan bütün kainatı, bir tərtib içində tədricən yaradıb. Bunlardan Nuri-Muhəmməd, Lövhu-Məhfuz, Qələm, Əql və beş kimsənin ruhudur ki, bütün ruhların və cisimlərin başlanğıcı, əsası və ilk cövhəridir. Bütün ruhların və cəsədlərin başlanğıcı və qaynağı da bu cövhərdir.**(Varlığı mümkün olan əşyaya və varlığının davamı dəyişikliyə uğramazsa, ona, cövhər deyilir.Əgər dəyişikliyə uğrayarsa, ona ərəz deyilir.)**

Cənabi-Haqq Öz məhəbbəti ilə o cövhərə baxınca, cövhər utandığından o andaca əriyərək su kimi axmış, xalıs üzü (qaymağı)su üzünə çıxınca, ondan əvvəl külli nəfsi yaratmış, sonra mələklərin ruhlarını, sonra sırası ilə digər Peyğəmbərlərin, imamların, valilərin, alimlərin, ariflərin, abidlərin, möminlərin, sıra ilə Qiyamət gününə qədər dünyaya gələcək bütün insanların, kafirlərin, cinlərin, şeytanların, heyvanların, bitkilərin nəfsini yatarmışdır.Onların hər birisi üçün mərtəbələrinə görə bəlli məqamlar göstərmiş,hər ruh öz cinsini tapmış və hər toplum öz məqamında qalmışdır. Sonra Əqli yaradaraq bütün ruhlara əql və şüur bəxş etmiş və bütün yaratdığı ruhların talelərini və qəza-qədərlərini ilk yaratdığı Qələmlə Lövhi Məhfuzda yazmışdır.

Duyğu və hiss vasitəsi ilə dərk edilməsi mümkün olmayan və "Gizli xəzinə" olan Uca Allah yaratdığı insanların ruhunu dərk edə bilən, əql və şüur sahibi olaraq yaratmışdır ki, digər canlılardan fərqli olaraq yalnız insan öz əqli, şüuru ilə bu kamilliyi bu gözəlliyi dərk edə bilsin. Sonra Ərşı daşıyan dörd mələyi, Peyğəmbər mələkləri və sayı-hesabı bilinməyən mələk və huriləri yaratmışdır.

Bu aləmin ən yüksəyinə, ən lətif və gözəlinə "Qeyb aləmi"Ləhut və ya Cəbərut aləmi deyilir. Bu aləmin axırıncısına Ruhlar-aləmi, məna və ya əmr aləmi deyilir. Bu aləmin aşağısına və cisimlərə yaxın olanına Bərzax aləmi və ya Misal aləmi deyilir. Beləliklə ruhlar və mələklər aləmi,yəni "Məlakul-aləm"bu 14 çeşid ruhlarla tamamlanmışdır.

ALLAH SONRA CİSİMLƏR ALƏMİNİ YATARDI

Allah-taala mələklər və ruhlar aləmini yaratdıqdan 2 min il sonra əzəli iradəsi ilə adını, şanını bəlli etmək üçün cisimlər aləmini yaratdı. Bunun üçün ilk Gövhərə məhəbbətlə bir daha baxmışdır.Gövhər Allahın baxışından utanaraq su tokmüş və üzünün suyu dalğalar kimi hərəkətə gəlib yüksəlmişdir.Dalğalanan Gövhərin uca hissəsindən Ərşi-Əzəm vücuda gətirmişdir.O biri hissəsindən Kürsü, Cənnət, Cəhənnəm, yeddi qat göyü şəkiləndirmiş və dörd ünsür bədənə gəlib formalaşmışdır. Ərşi-Əzəmin altında və onun nurundan Kürsünün, Cənnətlərin üstündə ağ inci kimi bir fəza yaratmışdır ki, Sidrətul-Müntəhadır. Bura Cəbrail ilə Müqərrəb mələklərin məkanıdır. Ərşi-Əladan Əsfəli-səfilinə (yer qatinin ən aşağısına) qədər bu surət aləmi, bu tərtib üzrə nizam tapıb 15 ceşid də Mülk aləminin yaradılışı tamamlanmışdır.Bu aləmlərin üst təbəqəsinə Ülvü aləm, (Bəqa aləmi) davamlılıq aləmi,axirət aləmi deyilir.Orta təbəqəsinə orta aləm, göy cisimlərinin aləmi, Fələklər aləmi deyilir. Alt təbəqəsinə Qəvn və fəsad aləmi, cisimlər aləmi, ünsürlər aləmi,axırıncısına isə pozulma aləmi (məhv olmaq), yəni Dünya aləmi deyilir.

Beləliklə, ruhlar və mələklər aləmi ilə Mülk aləminin toplumu,yəni çeşidli ruhların növləri ilə bəsit, sadə cisimlərin siniflərinin hamısı, hərflər kimi 29 olaraq (14"Məlakul-aləm"və 15"Mülk aləmi") tamamlanmışdır. Hər iki aləmin varlıqlarının birləşməsindən üç qisim mürəkkəb cisim bədənə gəlmişdir:Mədənlər, bitkilər və heyvanlar əmələ gəlmişdir ki, bu da, hərflərin birləşməsindən hecalar, isim və fellərlə çeşidli kəlmələrdən əmələ gələn bir cümlənin meydana gəlməsinə və bunlardan da Cahan kitabının sonsuz mənalar qazanmasına bənzəyir. İbrət gözü ilə bu aləmə baxan Ariflər hər birində bir çox hikmətlər görürlər. Beləcə övliyalar Cənabi-Haqqın sənətinin sirlərini idrak edər və içindəki dərin mənanı anlayaraq, onun yüksək hüzurunu taparlar.

Bilinməz nə vaxtdan firlanır bu tac,
Nə zaman pozular bu gözəl əsas,
Belə nazik fikri dərindən duyub,
Ağıl ölçüsüylə dərk etmək olmaz. (Ömər Xəyyam)

ƏRŞİ-ƏZƏM HAQQINDA

“40 sual” kitabından: Cənabi-Haqq yaşıl cövhərin ən yüksək hissəsindən Ərşi-Əzəmi yaratmışdır ki, onun nur və əzəmətini vəsfləndirmək imkansızdır. Ərşin çevrəsi qırmızı yaqutdandır ki, bütün yaradılanların sifət və surətləri onda nəqş olunub,təsvir edilmişdir. Göylərin üstü Rəhmanın ərşi, mələklərin qübbəsi qılınmışdır.Ərşi-Əzəmin 70 min dili var ki, hər dili başqa bir lüğətdə Allahı təsbih, zikr edir.Ərşi-Əzəm dörd sütunu vardır ki, hər biri yerin dərinliklərinə çatar. Ərşi-Əzəm su üzərində, su külək üzərindədir.Allah-taala dörd mələk yaratmışdır ki, hələ də Ərşi onlar daşıyır. Ərşi daşıyan mələklərin dörd sifəti vardır.Hər üz insan surətində təsvir edilmişdir.Hər üz,yer üzündə öz bənzəri olan varlıqlar üçün Allahdan ruzu istəməkdədir.Onlar daima ayaq üstə dayanıb,Ərşi-Əzəmi boyunları üzərinə götürmüşlər, ayaqları isə yeddi qat yerdən aşağıdadır.Allaha yaxın mələklərin hamısından, Allah qatında daha möhtərəm olan Ərşin daşıyıcılarıdır.Bu mələklərdən birinin adı İsrafildir ki, Ərşin bir ayağı onun boynu üzərində rahat dayanmışdır. Allah qatında hamıdan daha əziz və kərəm sahibi olan İsrafil(ə.s) həm də Surun sahibidir.O Qiyamət gününədək Lövhi Məhfuza baxar və Suru üfürmək üçün hazır dayanıb. Hz.İsrafil Lövhi-Məhfuzdan Hz.Cəbrailin, Hz.Mikailin və Hz.Əzrailin görməli olduqları işlərini, vəzifələrini və əməllərini açıqlayaraq, onlara xəbər verir. Mahir Ərşin daşıyıcılarının hər birinin dörd qanadı var ki, dörd istiqamətdə onları yaymışlar Ərşin daşıyıcılarının yarısı qar, yarısı atəşdir və onlar bir-birini söndürməyib, ulduz böcəyi kimi bir-biri ilə qaynaşırlar. Ərşin daşıyıcılarının cüssələri (bədənləri)elə böyükdür ki, qulaqları ilə boyunlarının arası quş uçuşu ilə yeddi yüz illik məsafədir. Onlara “Böyük mələklər” adı da verilmişdir. Ərşin daşıyıcılarının sözləri, davamlı təsbihdir və bu sözlər dillərinin əzbəri olmuşdur**: ”Subhənə Muhərram Mulki vəl Məlakut. Subhənə Muhərram Ərşin vəl-izzəti vəl əzəməti vəl heybəti vəl qudrəti vəl Kibriyə vəl- cəbərut. Subhənəl məlikil mədud Subhənəl məlikil movcudu Subhənəl Məlikil, Heyyilləzi Lə yənəmu və lə yəmutu Subbuhun, Quddusun, rabbinə və Qabbul məlaikəti vər ruh**”. Bunlara “Kiramən katibin” və ya “hafaza-qoruyucu” deyərlər.

Bəqərə-255-Allahın səltənət və qüdrət kürsüsü, elmi göyləri və yeri geniş surətdə əhatə edəndir. Onları saxlamaq ona ağır və zəhmət deyil. Allah ucadır və böyükdür.

Loğman-10-Allah göyləri gördüyünüz kimi dirəksiz, sütunsuz yaratmışdır.

Açıqlama:-Ayədə sütunların olmasından söhbət gedir. Demək, sütunlar var, ancaq biz onları görmürük. Ayələrdə səma cisimlərinin cazibə qüvvəsi nəticəsində səmada hərəkət etməsi göstərilir, cazibə qüvvəsi isə "gözə görünməz" kimi ifadə olunur.

KÜRSİ HAQQINDA

"40 sual" kitabından Göylər və Yerlər Kursinin büyüklüyünün yanında yeddi qat bir süfrəyə bənzəyir. Haqq-taala Kursini də nurdan yaratmışdır. Ərşın böyüklüyü, Kürsinin yanında çöldəki bir xırmana bənzəyir..

Cənabi-Haqq Hərqail adında bir mələk yaratmışdır ki, ona bütün əşyaların adlarını və sirlərini öyrətmişdir. Onun on səkkiz min qanadi vardır. Bu mələk Ərşin büyüklüyünü seyr etməyi arzu edir. O Allahdan Ərşi təvaf etmək üçün izin istəmiş və Allahdan izin aldıqdan sonra yola çıxmış və 18 min qanadı ilə 3 min il boyunca uçmuşdur.Yorulduqda, Allah ona qüvvət vermiş və uçmasını əmr etmişdir. Daha 3 min il də Ərşin ətrafında uçmuş, yorulduqda Allah ona yenə qüvvət vermiş və uçmasını əmr etmişdir. Daha 3 min ildə uçmuş və yorulduqda, baxıb görmüş ki, bu 9 min ildə ancaq Ərşin bir dirəyindən digər dirəyinə qədər yol getmişdir.O, heyrətlər içində seyr edərkən Allahdan ona səda gəlmiş:-Ya Herqail! Qiyamətə qədər uçsan belə, yenə də Ərşimi təvaf edə bilməzsən.

ALLAH HƏR ŞEYİ ALTI GÜNDƏ YARATDI

Qaf-38-Göyləri, yeri və onların arasındakı şeyləri altı günə yaratdığımız zaman heç yorulmadıq və sizi yenidən yaradan zaman da bizə heç bir zəhmət yetişməz

Fussilət-9-14-Allah yeri iki günə yaratdı və yerdə möhkəm dağlar yaradaraq yeri bərəkətli etdi.Yerdə əhalinin ruzilərini dörd günə müəyyənləşdirdi. Allahın mərhəməti bütün istəyənlər üçün bərabərdir. Sonra Allah göyü yaratdı,bir halda ki o tüstü idi. Allah göyə və yerə buyurdu ki, istər-istəməz vücuda gəlin! Onlar dedilər ki, biz rəğbət bəsləyən olduğumuz halda vücuda gəldik. Göylərin yeddi təbəqə olmasını iki gün ərzində hökm etdi. Hər bir təbəqənin işini vəhy etdi, onların əhalisinin necə ibadət etmələrini bildirdi. Yaxud hər bir təbəqədə

istədiyi varlığı yaratdı. Biz aşağıda olan göyü çıraqlarla bəzədik və qoruyub saxladıq. Qələbə çalan və Alim olan Allahın təqdiri budur!

Açıqlama:-Qurana görə Allah Yeri iki günə,Yer üzündə olanları iki günə və göyü də iki günə yaratmışdır. Bu haqda Qurani-Kərimdə buyurulur:

Yunus-3-Sizin Allahınız,sizə pərvəriş verən Allahdır. Göyləri və Yeri altı gün müddətinə yaratdı,sonra ərşə qalib oldu.

Hud-7-De ki: Yeri iki günə yaradanımı danırsınız? Bu oxşar ayələrdən belə bir sual ortaya çıxır ki,Yer yaranmamış "gün" məfhumu ola bilərdimi? Biz gün dedikdə yerin öz oxu ətrafında 24 saat fırlanmasını başa düşürük. Demək, Allah "gün" dedikdə bizim sutkanı nəzərdə tutmur. Quran bu barədə belə cavab verir:

əl- Həcc-47-"Həqiqətən, sizin Allahınızın yanında bir gün, sizin dünyada saydığınız illərin min ili kimidir."

əs-Səcdə-5-"Sonra sizin min ilinizə bərabər olan gün də göyə tərəf qalxar." Müasir elmə görə günəş sistemi tədricən yaranmışdır. Yuxarıdakı ayələrdən də belə çıxır ki, günəş sistemi uzun müddətə yaranmışdır.

Mövlana Furatı "Qırx sual" kitabında: Cənabi-Haqq Kainatı bir anda yaratmağa qüdrəti olduğu halda, onu 6 günə yaratmışdır. Onun kainatı yaratmasını bazar günündən başlayıb cümə günündə tamamlaması, bəndələrinin hər iş və hərəkətlərində səbirli və təmkinli olmalarını, tələsməmələrini anlatmaq üçündür. Haqq-taala bu aləmləri altı gündə yaratdı.Bazar günü başladı, cümə günü tamamladı. Bazar ertəsi günü göyləri; çərşənbə axşamı günü ay və ulduzları; çərşənbə günü yerdə və dənizdə olan məxluqatı və yeddi qat göylərdə olan mələkləri,Cümə yəni beşinci gün Cənnəti, huri və müxtəlif nemətləri yaratdı. Yenə cümə günü Həzrəti Adəmi və Həvvanı yaratdı və cümlə mələklərin Həzrəti Adəmə səcdə etmələrini əmr etdi.Mələklər də Hz.Adəmə səcdə etdilər. Şənbə günü cümlə əşya kəmal ilə bədən tapdı ki, dünyada şəkil almayan heç bir şey qalmadı.

ALLAH GÖYÜ VƏ YERİ YARATDI

Dəyişməyən özünsən bu sonsuz kainatda,
Ölməzliyin timsalı varlığındır həyatda.
Biz hamımız faniyik, əbədiyyət sənindir,
Uca göylər, qüdsiyyət, təmiz niyyət sənindir.
Hökmünlə, fərmanınla dolandırırsan yeri.
Sütunsuz saxlayırsan yaşıl günbəz göyləri. (''Sirlər Xəzinəsi'')

Mülk-34-Yeddi göyü birbirinin üstündə,qatqat yaradan da Odur.(Ey insan)Sən Rəhmanın yaratdığında heç bir uğursuzluq görməzsən. Bir gözünü qaldırıb səmaya bax, heç orada bir yarıq, çatlaq (nöqsan) görə bilərsənmi?! Sonra gözünü qaldırıb iki dəfə bax.Göz orada axtardığını tapmayıb zəif, yorğun düşərək yenə də sənə tərəf qayıdacaqdır!

Fussilət-11-Sonra Allah göyə qələbə çaldı,göyü yaratdı.Bir halda ki,o tüstü halında idi.Allah göyə və Yerə buyurdu ki, istəristəməz vücuda gəlin! Onlar dedilər ki,biz rəğbət bəsləyən halda vücuda gəldik.

Açıqlama: Bu ayədə qeyd edilən "tüstü" ifadəsi,ərəb dilində "Duxan" kəlməsi şəklindədir.Bu kəlmə adı Quranda çəkilən isti bir kosmik tüstünü ifadə edir.Bu gün alimlər ulduzların isti qaz buludundan meydana gəldiyini bildirirlər. İsti qaz kütləsindən meydana gəlmək həm də kainatın yaradılması ilə əlaqədardır. Müasir dövrdə isə rus akademiki O.J.Şmidt tərəfindən irəli sürülən nəzəriyyə əsas hesab edilir. Onun nəzəriyyəsinə görə isə Günəş və Yer qaz-toz buludu maddəsindən əmələ gəlmişdir. Bu nəzəriyyədən belə nəticə çıxır ki, günəş sistemi eyni mənşəyə malik maddədən yaranmışdır. Məlum olduğu kimi Quranda kainatın bu mərhələdəki görünüşünü təsvir edən ən münasib sözdən istifadə olunub. Alimlər isə kainatın tüstü halındakı isti bir qaz kütləsindən əmələ gəldiyini yalnız XX əsrdə kəşf ediblər.

əd-Duxan-38-39-Biz göyləri,Yeri və onların arasında olanları boş yerə yaratmadıq.Biz bunları haqq ilə yaratdıq ki,möminlər bizim dünya və axirət nemətlərimizdən faydalansınlar.

əl-Mursəlat-25-26-Məgər biz Yeri bəndələrə məskən etmədikmi? Həm diri olanlara, həm də ölülərə.

ət-Təlaq-12-O elə bir Allahdır ki, yeddi göyü birbirinin üstündə və bir o qədər də Yeri yaratdı. Allahın əmri onların arasına,orada olanlara nazil olar ki, Allahın hər şeyə qadir olduğunu bilsinlər. Həqiqətən, Allahın əmri hər şeyi əhatə etmişdir.

əl-Ənbiya-33-Göyləri yer üzərinə düşməkdən saxlanmış halda tavan kimi yaratdıq. Bunu görəgörə kafirlər Allahın əlamətlərindən üz döndərirlər.

əl-Muminun-17-Sizin başınızın üstündə yeddi göy yaratdıq və onların hər birinin yolları var. O yollardan mələklər nazil olarlar. Biz insanların əməllərindən də xəbərsiz deyilik.

Açıqlama: Bu ayədə bildirilən:"Hər göyün işini özünə vəhy edib bildirdik" kəlməsində hər təbəqənin özünəməxsus vəzifəsi olduğu bildirilir. Həqiqətən də, bu yeddi təbəqənin hər biri insanların və yer üzündəki bütün canlıların xeyri baxımından çox həyati vəzifələr daşıyırlar. Yağış-

ların əmələ gəlməsindən zərərli suların qarşısının alınmasına, radiodalğaların əks etdirilməsindən meteoritlərin zərərsizləşdirilməsinə qədər, hər təbəqənin özünə aid vəzifəsi vardır.

Quranda"göy"kəlməsi bütün kainatı ifadə etmək üçün istifadə edildiyi kimi,yerin üzərindəki səmanı ifadə etmək üçün də işlədilir. **Fatir-41-**Allah göyləri və yeri zaval tapmasınlar (öz mehvərindən çıxmasınlar) deyə, tutub saxlayır. Əgər onlar öz mehvərindən çıxsalar, Allahdan başqa onları heç kəs tutub saxlaya bilməz.

GÖYÜN TƏBƏQƏLƏRİ HAQQINDA

19-cu əsrdə elmin kəşfi sayəsində məlum olan bu məlumat 14 əsr bundan qabaq Quranda bildirilmişdir.

Nuh-15-Məgər görmürsünuz ki, Allah yeddi göyü birbirinin üstündə necə yaratdı?

Ayədən göründüyü kimi yer üzündəki səmanın,Yerin atmosferinin üstüstə yeddi qatdan ibarət olması bu gün elm adamları tərəfindən də sübuta yetirilmişdir. Bu təbəqələr təzyiqlər və onları əmələ gətirən qazların birləşməsi kimi aydın fiziki xüsusiyyətlərlə birbirindən fərqlənirlər.

Atmosferin yerə yaxın təbəqəsi **"Troposfer"**dir ki, atmosferin ümumi kütləsinin 90%ni təşkil edir.

Troposferin üzərindəki təbəqə **"Stratosfer**"dir.Stratosferdə ultrabənovşəyi şüaların udulduğu təbəqəyə **"Ozonosfer**" deyilir.

Stratosferin üzərindəki təbəqə **"Mezosfer"** adlanır.

Mezosferin üzərində **"Termosfer"** yerləşir. İonlaşmış qazlar Termosferin içindəki **"İonosfer**" adlı təbəqəni əmələ gətirir.

Yerin atmosferinin ən üstdəki təbəqəsinə **"Ekzosfer"** deyilir.

əs-Səffat-6-Biz sizə ən yaxın olan göy üzünü, dünya səmasını ulduzlarla bəzədik. Günəş, ay və ulduzlar başqabaşqa göylərdə olduqları halda,siz onların hamısını özünüzlə müqayisədə ən yaxın bir yerdəsanki başınızın üstündə görərsiniz.

Açıqlama: "40 sual kitabından:Yəhudulərin Hz. Peygəmbərə (s.ə.s.) sual verdilər ki: "-Göylərdə olan məxluqlardan bizə xəbər ya Məhəmməd! Haqq-taala yeddi qat göyləri nədən yaratdı, isimləri nədir, mələklərinin təsbihi və adı nədir? ..

Hz. Peyğəmbərimiz(s.ə.s.) buyurdu: Uca Allah dünya göyü altında və ona bitişik bir su dənizi yaratmışdır ki,bu dəniz dünya göyünün içində yerləşmişdir. Dənizin dalgaları hava üzərində Allahin əmri ilə qərar və sükunət tapmışdır ki, bir damlası belə havaya düşməz. Allah

Günəşi, Ayı və ulduzları öz Ərşinin nurundan yaradıb və onlar bu su dənizinin içində balıqlar kimi üzərlər.Allah Günəşi bütün ulduzlardan daha böyük və işıqlı etmiş, sonra isə Ayı da böyük və nurlu etmişdir.Hər şeydən uca olan Allah göyü buxardan yaratmışdır.

1-ci-Haqq-taala səmanın birinci qatını buxardan yaratmışdır. **Göyün birinci qatı "Bərqiyyə"**adlanır.Bu qatda olan mələklər daima Allaha səcdə edib deyərlər: "Subhənə zil mulki yə mələkuti" "Cəmi aləmin hökmdarına eşq olsun. "Bu qatdaki mələklərin başçılarının adı İsmaildir. Bu mələk çox böyük və heybətlidir. Bütün bulud və yağışların üzərində müvəkkildir. Onun izni olmadan yağış yağmaz,yağışın bir damlası belə onun hesabındadır.

2-ci-Göyün 2-ci qatının adı **"Qaydum"**dur və ərimiş gümüşdəndir. Bu qatda yaşayan mələklər qədəmlərini əyib, rüku halında, Allaha təzim edərək deyərlər: - "Subhənə zil izzəti yə Cəbəruti" "Əzəmət və qüdrət sahibi olan Allaha eşq olsun!"Bu göyün başcısının adı **Muhaildir.** Burada yaşayan mələklərin hər birinin özünəməxsus qəribə, son dərəcə gözəl adları var.Göyün bu qatının mələkləri iki şeydən:oddan və qardan yaransalar da, bir-birinə zərər yetirməzlər.Onlar Allahın şəninə belə deyirlər: "Subhənə mən əlləfə beynə səlcin ibədikə nərin kəmə əlləfə beynə". "Qar ilə odu birləşdirən və bizi,öz qullarını bu şəkildə yaradan Xaliqə eşq olsun!" Əgər şübhən varsa ulduzlara bax ki, doğrulardan olasan.

3-cü.**Göyün "Maun"**adlanan 3-cü qatı qırmızı yaqutdandır.Burada yaşayan mələklərin bir hissəsi qəddini əymədən,bir hissəsi isə qəddini əyərək Allaha səcdə edərək, Böyük yaradanın şəninə tərif deyərlər: "Subhənəl məlikul-quddusu Rabbul-mələikəti vər ruhi" Yəni: "Əbədi olan Allaha eşq olsun ki, heç vaxt yox olmayacaqdır." Baş mələyin adı **Səfaildir.**

4-cü-Göyün "**Aqura"** adlanan dördüncü qızıldandır. Burada yaşayan mələklər ruku halında Allahın şəninə təsbih edərək deyirlər:" "Subhənəl-Heyyilləzi ləyəmut"-"Mələklərin hökmdarı olan İlahi Rəbbə eşq olsun."Göyün bu qatında yaşayan mələklərin başçılarının adı **Arqalindir** (Arqundur).

5-ci-Göyün"**Maun "**adlanan beşinci qatı qızıldandır.Burada yaşayan mələklər Allahın şəninə belə deyərlər: "Subhənəl-məlikil-Quddusi Rabbil-Mələikəti və Rabbul-Ruh" - "Nuru yaradan Allaha eşq olsun!Allah tərifə, alqışa layiqdir." Buradaki baş mələyin adı Əsfaildir.

6-cı-Göyün "Raqa"adlanan altıncı qatı parlaq sarı yaqutdandır.Burada yaşayan mələklər Allahın şəninə deyərlər: "Subhənə Rabbi kulli

şeyin Xaliquh" –"Bütün gözə görünən şeylərin Xaliqinə eşq olsun."Baş mələyin adı **Arnasdır.**

7-ci- Göyün "Əribə" adlanan yeddinci qatı işıqdan, nurdan yaradılıb.

Bu qatda yaşayan mələklər Allahın şəninə belə deyərlər: "Subhənəllahi ədədə xalqıhî və midədə kəlimətihî"-"Bütün canlıları yaradan və onlara ab-hava verən Allaha eşq olsun."Göyün bu qatının baş mələyinin adı **Rəfaildir.**

Göyün 7-ci qatında elə mələklər var ki,o onlara "Kərraqu beytun" deyərlər və onların sayını yalnız bir Allah bilir.Bu mələklər geri boyunlar adlanır.Onların hər birinin özünəməxsus siması və müxtəlif surətləri vardır. Bu mələklər bir-birinə baxmırlar,Allahın qəzəbindən qorxaraq gecə-gündüz ağlayırlar.Axirət gününədək belə ağlar qalacaqlar. Əgər onların naləsini bir canlı eşitsə,həmin saat ölər.Onların ağlaması ilə əlaqədar olaraq Peyğəmbər (s.ə.s.) belə demişdir:-O gecə mən Cəbrail ilə Merac edərkən,göyün 7-ci qatında qulağıma ağlaşma və inilti səsi gəldi. Mən Cəbraildən soruşdum:-Bu nə iniltidir,onlar nə üçün ağlayırlar? Hz.Cəbrail dedi ki,bunlar geriboyunlulardır.Sənun ümmətinin günahlarını yumaq üçün ağlayırlar. Ağlayırlar ki, Xudavəndi-Kərim sənin ümmətinin günahlarını bağışlasın. Göyün 7-ci qatında uzunluğu 80 ilə qət edilə bilən bir dəniz var. Həmin dənizdə mələklər yaşayırlar. Onların da işi-peşəsi göz yaşı tökmək, Allaha yalvarmaqdır.Yalvarırlar ki, Allah Muhəmməd Peyğəmbərin ardıcıllarının, ümmətinin günahlarından keçsin,onları bağışlasın. Həmin mələklər Qiyamət gününədək beləcə Allaha yalvaracaqlar..

YEDDİ GÖYÜN QAPILARI HAQQINDA

"40 sual" kitabından: Yeddi göyün qırmızı qızıldan hesabsız qapıları vardır.Hamısı kilidlidir və açarlarının adı:"Allahu Əkbər"dir. Hər göyün gözətçisinin göstərişi ilə qapıçılar qapıları açarlar.Yeddi göyün hər birinin hündürlük və qalınlığı 500 illik məsafədir. Hər iki göyün arasında da 500 illik məsafə vardır. Ancaq Allahın qüdrəti nəhayətsizdir.Yeddi göyün hamısının sayı, məsafələri və şəkilləri səhih rəvayətlərə əsasən çadırlar misalında yerin çərçivəsində olan əkiz Qaf dağının yeddisinin üzərində qərar tapmışdır. Səkkizinci Qaf dağı dünya göyünün üzündə yeri əhatə etmişdir. Göylərin alt hissələri də dağlar üzərində nəhayət tapmışlar.

Mülk-3-4-Yeddi göyü bir-birinin üstündə,qat-qat yaradan da Odur. (Ey insan)Sən Rəhmanın yaratdığında heç bir uğursuzluq görməzsən.

Bir gözünü qaldırıb səmaya bax, heç orada bir yarıq, çatlaq(nöqsan) görə bilərsənmi?! Sonra gözünü qaldırıb iki dəfə bax.Göz orada axtardığını tapmayıb zəif, yorğun düşərək yenə də sənə tərəf qayıdacaqdır!

ALLAH GÜNƏŞİ VƏ AYI YARATDI

Açıqlama:-Yer kürəsi günəş sisteminə daxil olan iri planetlərdən biridir.Günəş sistemi 150 milyarda qədər ulduzlardan ibarət nəhəng qalaktikaya daxildir.Günəş diametri 1.391.000 km olan közərmiş kürəşəkilli bir ulduzdur. Günəş sisteminin (planetlər və Günəş) yaranması haqqında ilk nəzəriyyə alman filosofu İ.Kant tərəfindən verilmişdir. O, günəş sisteminin qarmaqarışıq hərəkətdə olan toz buludundan əmələ gəlməsi fikrini irəli sürmüşdür. Sonra fransız alimi P.Laplas Günəş və planetlərin artıq fırlanmaqda olan qaz dumanlığından əmələ gəlməsi fikrinə gəlmişdir. Müasir dövrdə isə rus akademiki O.J.Şmidt tərəfindən irəli sürülən nəzəriyyə əsas hesab edilir. Onun nəzəriyyəsinə görə isə Günəş və Yer qaz-toz buludu maddəsindən əmələ gəlmişdir. Bu nəzəriyyədən belə çıxır ki,Günəş sistemi eyni mənşəyə malik maddədən yaranmışdır.

Yasin-38-Günəş onun üçün müəyyən olunmuş qərarla (orbitdə) hərəkət edər. Belə bir hərəkət bilən və qələbə çalan Allahın təqdiridir.

ər-Rəhman-5-7-Gün və Ay müəyyən bir ölcüdə hərəkət edər. Ulduzlar və ağaclar da Allaha səcdə edərlər. Allah göyü ucaltdı və tərəzini qoydu ki, çəkidə həddinizi aşmayasınız.

əl-Ənbiya-34-O elə bir Allahdır ki, gecəni, gündüzü, Günəşi və Ayı yaratdı. Bunların hər biri, balıq suda üzən kimi bir göydə üzərlər. Bütün bunları görə-görə kafirlər Allahın əlamətlərindən üz döndərirlər.

Açıqlama:Quranda Günəşdən və Aydan bəhs edilərkən onların hər birinin özünəməxsus orbiti olduğu qeyd edilir. Bu ayədəki "üzmək" kəlməsi ərəb dilində "səbəhə" feli ilə ifadə edilir. Bu kəlmədən Günəşin kosmosdakı hərəkətini bildirmək üçün istifadə olunub və həmçinin Günəşin kosmosdakı hərəkətinin nəzarətsiz olmadığını, onun öz orbitində hərəkət etdiyini və dövr edərkən özünəməxsus hərəkət dairəsi olduğunu anladır. Günəş Qalaktikada olan 200-250 milyard ulduzdan biridir. Yerdən 325 min dəfə böyük olsa da, kainatdakı ulduzların yanında çox kiçikdir. Günəş sistemi qalaktikanın mərkəzindən 30 min işıq ili uzaqlığındadır.Bir işıq ili isə 9 trilyon 460 milyard, 800 milyon km-dir.Günəş saatda 72.000 km sürətlə fırlanır, qalaktikamız isə öz oxu ətrafında saatda 900.000 km sürətlə fırlanır. Günəşin sabit (və ya statik) olmaması, onun müəyyən orbitdə hərəkət etməsi haqda başqa ayələrdə

də qeyd edilir. Quranda bildirilən bu həqiqət yalnız 20-ci əsrdə astronomiya elmi sayəsində aparılan tədqiqatlar nəticəsində təsdiq edilmişdir. Mütəxəssislərin hesablamalarına görə günəş"Solar Apeks"adlı orbit boyu Veda ulduzu istiqamətində saatda 720 min kilometrlik möhtəşəm bir sürətlə hərəkət edir. Bu təxmini hesablama günəşin sutka ərzində 17 milyon 280 min kilometr yol qət etdiyini göstərir. Günəşlə birlikdə onun cazibə sistemindəki bütün planet və peyklər də eyni məsafəni qət edir, yəni Günəşin başına fırlanır.

Yasin-39-40-Biz ay üçün mənzillər müəyyən etmişik. Nəhayət, dönüb xurmanın budağı kimi nazikləşər. Nə Günəş sürətlənərək Aya çatar, nə də gecə-gündüzü ötə bilər. Onlar bir-birinin ardınca gələrlər. Ay, Günəş vəulduzlar,hamısı göydə insanların suda üzdükləri kimi üzərlər.

Açıqlama:-Bildiyimiz kimi planetlər və Yer Günəşin ətrafına fırlanırlar.Ancaq Yer və planetlər nə Günəşə yaxınlaşır, nə də ondan uzaqlaşır. Bunun səbəbi İ.Nyuton tərəfindən ümumdünya cazibə qanunu kəşf edilməklə tapılmışdır.Həmin qanundan belə çıxır ki, Yerin və planetlərin öz oxu ətrafında hərəkəti onun mərkəzdən qaçmasına, cazibə qüvvəsi isə onun mərkəzə tərəf cəzb olunmasına səbəb olur. Bu iki qüvvə bir-birini tarazlaşdırdığına görə Yer və planetlər nə Günəşdən uzaqlaşır, nə də ona yaxınlaşır.

Gecələr açıq-aydın gördüyümüz Ay planetimizə ən yaxın olan səma cismidir. Yaşayış olmayan bu planetin diametri 3,476 km-dir. Bu, Günəş şüalarını özündə əks etdirən bir planetdir. Deməli, Ay da başqa planetlər kimi özündən işıq saçmır. Günəş özündən işıq saçan plazma yığımından ibarətdir. Onun şüalarının sürəti 300.000 km-dir.Bu işıq və istilik mənbəyi olan sistemin şüaları Yeri, Ayı və digər səma cisimlərini işıqlandırır. Yer və ay özlərindən işıqsaçma qabiliyyətinə malik deyillər. Günəşə yaxın olan bu planetlər işıq və istiliyini günəş şüalarından alırlar. Günəşdə bu qabiliyyəti yaradan Uca Allah Qurani-Kərimdə belə buyurur:

əş-Şəms-1-2-And olsun Günəşə və onun işığına.And olsun Günəşə tabe olan zaman Aya, ya Günəşin nurundan kəsb edərək onun ardınca gələn Aya.

Nuh-15-Ayı orada işıqlı və günü yer əhlinə çıraq etdi.

Yunus-5-O elə Allahdır ki, Günəşi gündüzdən ötrü işıqlı etdi və Ayı gecədən ötrü nur etdi.(Güclü işığa ziya,nisbətən zəif işığa nur deyilir).

Açıqlama:-Bu ayədən də məlum olur ki, Günəş çıraq, Ay isə nur saçan ifadəsi ilə təsvir edilmişdir. Bu o deməkdir ki, Qurani-Kərimdə Günəş işığı ilə Ay işığı arasındakı fərqli cəhət nəzərə alınır.Çıraq və

nurun fərqli xüsusiyyəti belə təsvir edilir, yəni çırağın işıq verməsini Günəşin işığına, Ayın özü işıq istehsal etmədiyi halda, Günəşin işığını özündə əks etdirməsinə nur deyilir.

Yunus-5 (ardı)-Allah Ay üçün müəyyən olunmuş mənzillər təyin etdi ki, siz illərin sayını və hesabını biləsiniz. Ayın işığının azlığı ilə ayın əvvəlini və axırını, bütöv işıqlı olması ilə ayın ortasını biləsiniz. Bu dövrə tamam olmaqla bir ay, on iki dəfə fırlandıqda isə bir il tamam olar. Allah bunları yalnız haqq ilə yaratdı.

Yasin-39-Biz ay üçün də mənzillər müəyyən etmişik.28 gün müddətində ay fələki seyr edər. Nəhayət, dönüb xurmanın budağı kimi nazikləşər.

Açıqlama:"Qəmər"sözününtərcüməsi"Ay"dır və Qəmər surəsində "Ay"sözü birinci ayədə yer tutur. Bu ayədən sonra Quranın sonuna qədər tam 1390 ayə var. Hicri təqvimində 1390-cı il, Miladi təqviminə görə 1969-cu ilə bərabər gəlir ki, bu da Aya ilk çıxış tarixidir. İnsanlıq tarixinin ən əhəmiyyətli inkişaflarından birinə 14 əsr əvvəl Quranda işarə edilmişdir.

Bununla bərabər yuxarıdakı ayədə"yarıldı" mənasını verən "inşaqqa" sözü istifadə edilmişdir.Bu söz"torpağın yarılması, qazılması, qabardılması, torpağın sürtülməsi" mənalarında da istifadə ediən"şaqqa"felindən törənmişdir. Aya gedən"Apolon-1" kosmik gəmisi ilk dəfə Aya qalxmış və oradan torpaq nümunə götürərək,o torpağı dünyaya gətirmişdir. Bu cəhətdən də Qəmər surəsinin 1-ci ayəsindəki "Ay yarıldı" ifadəsi, günümüzdəki inkişaflarla bir paralellik içindədir.

əl-Qəmər-1-Qiyamət vaxtı yaxınlaşdı və Ay yarıldı. Müşriklər daha necə möcüzə görsələr də, onlar üz döndərib deyərlər ki, bu gördüyümüz sehrdir.

Açıqlama:-Bu ayəni İslamın ilk çağlarında baş vermiş bir hadisə ilə bağlı olduğunu təsfirçilər belə nəql edirlər:-Məkkə müşrikləri Hz.Peyğəmbərin yanına gəlib ona dedilər:-"Əgər sən doğru Peyğəmbərsənsə, Ayı iki parça et!" Peyğəmbərimiz buyurdu:-"Onda mənim Peyğəmbərliyimə iman gətirərsinizmi?" Onlar:-"Bəli",-deyə cavab verdilər.

Sonra Peyğəmbər dua etdi və 14 gecəlik Ay iki parça oldu. Bəzi rəvayətlərə əsasən bir parçası sağ, digəri sol tərəfə getdi və səs gəldi ki, şahid olun! Bu vaxt müşriklər dedilər ki, Muhəmməd sehr etdi. Orada olanların biri dedi: -"Muhəmməd bizə sehr etsə də, camaatın hamısına ki sehr etməmişdir? Bundan sonra Ayın parçaları bir-birinə qovuşdu." **(Kitabul-Bəyan fi təfsiril-Quran.)**

Böyük şairimiz N.Gəncəvi öz əsərlərində göy cisimlərinin, fələklərin özbaşına fırlanmamasının səbəbi və mənşəyini belə şərh edir:

Bəli, hər bir bilici başa düşür ki,
Dolananı bir dolandıran var.

Cazibə qüvvəsini təbii maqnitin əsas xüsusiyyəti hesab edən filosof-şair, mənəvi aləmdə ona eşq adı verir.Onun fikrincə, kainatın və həyatın idarə olunmasında eşq (cazibə qüvvəsi) ən başlıca şərtdir.

"40 sual" kitabından: Allah-taala dünya göyü altında və ona bitişik bir su dənizi yaratmışdır ki, bu dəniz dünya göyünün içində yerləşmişdir.Dənizin dalğaları hava üzərində Allahin əmri ilə qərar və sükunət tapmışdır ki, bir damlası belə havaya düşməz. Allah Günəşi, Ayı və ulduzları öz Ərşinın nurundan yaradıb və onlar bu su dənizinin içində balıqlar kimi üzərlər.Uca Allah Günəşi bütün ulduzlardan daha böyük və işıqlı etmiş, sonra isə Ayı da böyük və nurlu etmişdir.Sonra Cəbrail (ə.s.) qanadı ilə ayın üzünə məsh çəkib işığını yox etmişdir ki, nuru sönük olsun və gecə gündüzdən fərqlənsin. Bununla da illərin sayı və ayların hesabı məlum olsun. Allah-taala Qurani-Kərimdə buyurmuşdur: "Bir dəlil olan gecəni qaldırıb, yenə bir dəlil olan gündüzü aydınlıq etdik."Ayın üzündə cizgilər kimi görünən ləkələr nurunun məhv olmasını göstərir.

Haqq olan Allah bu dəniz içində Günəş üçün üç yüz altmış qulplu almaz cövhərindən bir araba yaradıb,Günəşi onun üstünə qoymuşdur. Hər qulpu tutan bir mələk yaratmışdır ki, onlar Günəşi arabası ilə bu dənizdə, Günəşin doğduğu yerdən, batan yerinə çəkib aparsınlar.

Allah-taala Ay üçün də üç yüz qulplu, sarı yaqutdan bir araba düzəldərək ayı onun üzərinə qoymuş və hər bir qulpu idarə etmək üçün bir mələk təyin etmişdir ki, onlar ayı arabası ilə doğan yerindən batan yerinə aparsınlar.

Ay üçün ayrıca lacivərd cövhərdən altmış qulplu bir məhfəzə də yaratmışdır ki, onu da idarə etmək üçün altmış mələk təyin etmişdir. Ayın arabasını idarə edən mələklər tərəfindən Günəşdən günbəgün uzaqlaşdırıldıqca, məhfəzəsini tutan mələklər də, Aydan məhfəzəsini yavaş-yavaş uzaqlaşdırarlar. Beləcə, Ay Günəşə qarşı yaxın olduqda, məhfəzisi də yerindən tamamən çıxmış olur ki,o zaman Ay tam bədr halında görünür. Mələklər Günəşi yavaş-yavaş Aya yaxınlaşdırdıqca,o biri tərəfdən də ayın məhfəzəsini idarə edən onu eyni zamanda Aya yaxınlaşdırırlar. Ay Günəşə yaxınlaşmaq istərkən, mələklər ayın məhfəzəsini tamamilə

ona geyindirirlər ki, Günəşə çox yaxınlaşmasın.Bu səbəbdəndir ki, Ay bəzən qeyb olur, bəzən hilal, bəzən yarım,bəzən də bütöv olur. Bu minval ilə Qiyamətə qədər belə davam edəcəkdir. Haqq olan Allah öz qüdrətilə Günəş, Ay və ulduzlardan ancaq beşi üçün yerin iki tərəfində mütəmadi doğuş və batış yerləri yaratmıştır. O səbəbdən də bunlara yeddi gəzəgən deyərlər. Bunlar hər gün başqa bir yerdən doğub, başqa bir yerdə batarlar. Günəş üçün çıxdığı tərəfində qaynayan qara palçıqdan yüz səksən atəş çıxarıb, batan tərəfində də qara palçıqdan çıxan yüz səksən qaynaq (mənbə) var etmişdir ki, şiddətli atəş üzərində qaynayan qazanlar kimi qaynayarlar.

Əgər bu yandırıcı günəş şüaları, o dəniz içindən süzülməyib maneəsiz havaya gəlsəydi,o bizə yaxın olub, yer üzündə olan yaradılmışları bütün yandırardı.Əgər gözəl Ayın nurlu üzü, o dənizlə örtülü olmayıb, açıqdan müşahidə olunsaydı, cahan xalqı ayın gözəlliyinə məftun və heyran olardı.

Göydə min-min gövhəri sapa düzdü Yaradan,
Sildi yoxluq tozunu gecənin saçlarından.
Tulladı səmalara bu iki-üç çəmbəri,
Yeddi düyün vurmaqla qandalladı yerləri.
Günə, Aya don biçdi öz əlilə Yaradan,
Birinə ağ ipəkdən, o birinə qaradan.
Səfra buludlarını dənizlərdən çıxartdı,
Çəmənlərdə Xızr üçün abi-zəmzəm yaratdı.
Gecə rəngli torpağa verdi gündüz badəsi,
Tökdü daşın ağzına neçə şəfəq qətrəsi.
Birləşdirib, yoğurdu, qaynatdı suyla odu,
Necə də xəlq elədi dürrü, bir də yaqutu. (“Sirlər Xəzinəsi”)

AY VƏ GÜNƏŞİN TUTULMASI HAQQINDA

“40 sual” kitabından: - Allah-taala Günəş və Ay tutulmaları üçün müəyyən vaxtlar təyin etmişdir ki,Yer üzündə olan insanlar Ayın və Günəşin dəyişməsini görüb oyansınlar və Allaha sarı çevrilərək, tövbə etsinlər. Günəş tutulmasının vaxtı gəldikdə Günəş arabasından düşüb göyə doğru dənizin dərinliklərinə gedər. Əgər tamamilə düşərsə, Günəş tam tutular, ulduzları örtən işığı qalmaz və böyük ulduzlar meydana çıxar. Əgər yarısı dənizə düşərsə, düşdüyü qədəri tutular.Günəş

tutulması halında Günəş mələkləri iki firqə olar. Bir firqəsi təsbih edərək, Günəşi arabasından yana çəkərlər. Bir firqəsi də yenə təsbih edərək,arabanı Günəşdən yana yaxınlaşdırarlar. Bu zaman yenə Günəşi batı tərəfinə alıb gedərlər. İki-üç saatdan sonra isə günəşi əvvəlki kimi arabasının üzərinə qoyarlar. Beləcə, günəşi aləmə işıq verərək batdığı yerə çatdırarlar.

Günəş tutulması kimi Ay tutulmasının da tutulma vaxtı gəldikdə, Ay arabasından dənizə ya tamamilə, ya da yarımçıq düşür ki,bu zaman ay tutulması baş verir. Onun mələkləri də iki firqə olub, eyni Günəş tutulması vaxtındakı minval ilə hərəkət edərək, Ayı arabasına qoyarlarsa, Ay təkrar parlayıb,qaranlıq gecəni işıqlandırar. Mələklər onu alıb batdığı yerə götürərlər.

GÖYDƏ ULDUZLARI YARATDI

ət-Tariq-1-3-And olsun göyə və gecə zahir olana!Sən nə bilirsən ku, gecə zahir olan nədir? O yanan ulduzdur,qaranlığı dələrək nurunu ətrafa yayır.

əs-Səffat-6- Həqiqətən, biz dünya səmasını ulduzlar zinəti ilə bəzədik.

Mülk-5-And olsun ki, biz dünya səmasını (yerə ən yaxın olan göyü,qəndillərlə) ulduzlarla bəzədik, onları Şeytanlara atılan mərmilər etdik və Şeytanlar üçün yandırıb yaxan alovlu atəş əzabı hazırladıq.

ən-Nəcm-1- And olsun nəcmə, ya da and olsun nəcmin Pərvərdigarına. (Şeytanları dəf etmək üçün) yuxarıdan aşağıya enən ulduzlara and olsun!

Açıqlama:"Nəcm"sözünün bir neçə mənası vardır: yavaş-yavaş nazil olmaq, gövdəsiz ağac,ulduz və sair mənalarda işlədilir.Bu ayədə ulduz mənasında işlədilərək ona and içilir. Gecə vaxtı göy üzündə olan ulduzların sayı hədsizdir. İnsanların ixtira etdikləri müasir cihaz və teleskoplar vasitəsi ilə hələ də ulduzların sayı müəyyənləşməyibdir.

Ümumiyyətlə, yaradılış sistemi çox böyükdür.Astronomiya elmi müəyyənləşdirib ki, bəzi qalaktikaların ulduzları Günəşdən bir neçə milyon dəfə böyükdür. Bəzi ulduzların işığının yerə gəlib çatması üçün milyon işıq ili qədər vaxt keçir.

İşığın, açıq səmada sürəti saniyədə(300 000 km) üç yüz min km-dir. Buna görə də bəzi ulduzların işığı yerə gəlib çatmır.Ulduzların dərəcələri vardır, onlardan biri Səyyarə ulduzudur. Bu ulduz ərəblər içərisində uca tutulur, çünki onun doğması və qürub etməsi qışın əlamətidir.

ət-Təkvir-15-16-And içirəm o ulduzlara ki,seyr edəndə gah irəli,

gah da geriyə gedərlər və (Günəşin işığı altında) gizlənərlər. (And olsun gündüzlər gözdən yox olub,gecələr görünən ulduzlara.)

Açıqlama: Bu ayədə ulduzların doğan vaxtı, gecənin əvvəlində ulduzlar ”Nisfun-nahar”xəttinə (yeri iki-şərq və qərb yarımkürəsinə bölən, yəni günəşin tam göyün ortasında olub günün tam yarı olmasını bildirən vaxt) doğru hərəkət edərlər və gecə yarısından sonra aşağı enərlər.İlahi and ulduzların hər iki halətinə aiddir. Doğduğu vaxt Allahın qüdrətini izhar edərlər. Möminlər onlara baxdığı vaxt Allahın əzəmətini müşahidə edərlər.

Ulduzların doğulub və qürub etməsi dənizdəki insanların yol göstəricisidir. Gəmi sərnişinləri onların doğmasından Şərqi, qürub etməsindən Qərbi müəyyənləşdirirlər və bununla şimal və cənubu da müəyyən edirlər.Gəmi kapitanı ulduzlar vasitəsi ilə gəmini idarə edir, səyyahlar da ulduzlar vasitəsi ilə yollarını tapırlar.

Filosof-şair N.Gəncəvinin elmi dünyagörüşündə astronomiya elmi xüsusi yer tutur. O, kainatın sirlərinə bələd olmaq, göy cisimləri olan ulduzların, planetlərin hərəkət qanunlarını öyrənmək üçün insanlara xəyalən səmalara yüksəlməyi,yəni göy cisimləri haqqında dəqiq elmi müşahidələr aparmağı məsləhət görür. Onun bu məsləhətini aşağıdakı misralardan aydın görmək olar:

Göy sənin taleyin olmaq istəsən,
Yollan səmalara, yüksəl bu yerdən.
Arxana baxmadan yürü göylərə,
Ta yıxılmayasan bir də bu yerə.
Sənin həmailin ulduz, asiman,
Olmuşdur vəsilən bunlar hər zaman. (”İsgəndərnamə”)

Ə.Əhmədovun apardığı araşdırmalar göstərir ki, Nizaminin fizika, həndəsə, riyaziyyat və astronomiya haqqında bəzi elmi fikirləri kəşf xarakteri daşıyır. Müasir elmi təsnifata görə kainatın və onun daxilində olan cisimlərin mənşəyi, onların inkişafı və gələcəyi haqqında olan elmə astrofizika və ya kosmologiya deyilir. Qeyd olunan alimlərin araşdırmaları göstərir ki, dahi şair bu elmə də bələd olmuş, bu barədə qədim alimlərin və filosofların fikirlərini öyrənmiş, onları müqayisə etmiş, ilahiyyat təliminə və Qurana müvafiq olub-olmadıqlarını müəyyənləşdirməyə çalışmışdır. Bütün bu cəhətlər “İsgəndərnamə”əsərində daha aydın əks olunmuşdur.Şairin”İsgəndərnamə”əsərində yaratdığı Fateh İsgəndər obrazı bütün elmlərə bələd olsa da bununla kifayətlənmir, onu Kaina-

tın mahiyyəti, mənşəyi, inkişaf qanunauyğunluqları maraqlandırır. O, dünyanın yaranması və inkişafı haqqında əsil həqiqətləri öyrənmək məqsədilə öz zəmanəsinin ən bilikli filosof larının məclisini təşkil edir. İsgəndər həmin filosoflara müraciət edərək deyir:

Bilicilərə öz fikrini açıb dedi:
Haçana qədər bizim sirlərimiz gizli qalacaq?
Bilməyəcəyik ki, öküz sarğılı çadır (asiman)
Böyük yerin üzərinə necə gəlib?
Hər kəs öz elminə görə desin
Ki, bu iş başlanğıcda necə olub.
Dünyanı yaradanın hökmü ilə
Əvvəlcə asiman yaranıb, yoxsa Yer? ("Sirlər Xəzinəsi")

Yeddi filosofun fikirlərini dinlədikdən sonra İsgəndər deyir ki, mən ulduzlar haqqında düşünmüşəm və belə nəticəyə gəlmişəm ki, ulduzlar öz-özünə əmələ gəlməyib.Nizaminin fikrincə, hər şey, o cümlədən insan əqlini Allah yaratmışdır. İlk əvvəl əqli yaradan Allah onun mahiyyətini insanlardan gizli saxlayıb. Qalan hər şeyi insan öz əqli ilə dərk edə bilər, bu şərtlə ki, insan onları dərk etməyə qadir olsun, yəni kamil olsun.

"40 sual" kitabında:-Allah-taala tərəfindən ulduzların böyüklərinə on mələk, kiçiklərinə isə bir mələk təyin olunmuşdur. Hakim və güclü olan Allahın təqdiri ilə onları o dənizdə hərəkət etdirib, lazım olan vaxtlarda doğdurub batırarlar. Qaf dağının arxasındakı o dənizin içində mələklər ulduzları hər birinin özünə aid olan, yeni doğuş yerlərinə apararlar. Ulduzlar göydə olan atəş parçaları ilə mələklərin söhbətlərinə qulas asmaq üçün göylərə qalxan şeytanları atəş parçaları ilə daşlayıb, yandırarlar

ALLAH GECƏ VƏ GÜNDÜZÜ YARATDI

İki-üç viran kəndin solmuş Ayı, ülkəri,
Necə əngələ salmış əylənən fələkləri.
Düyün açılmayınca qaralırdı hələ də,
Gecənin zülmət saçı gündüzlərin əlində. (N Gəncəvi)

əl-Fussilət-37-Gecə, gündüz, günəş, ay, Allahın qüdrət əlamətlərindəndir. Onlara yox, tək bir olan Allaha səcdə edin.

ən-Nəhl-12-O, gecəni, gündüzü, günü və ayı sizə tabe etdi. Ulduzlar

da Allahın əmrinə tabedir.

əl-Bəqərə-164-Həqiqətən, göylərin və Yerin yaradılmasında, gecə ilə gündüzün bir-birini dəyişməsində, insanlara fayda vermək üçün dənizlərdə üzən gəmilərdə, Allahın səmadan su nazil etməsində, onunla öləndən sonra yeri diriltməsində, küləkləri əsdirməsində, Allahın qüdrəti ilə buludları doldurmasında ağıl sahibləri üçün dəlillər vardır.

Açıqlama: Bu ayədə Allahın varlığını, birliyini, qüdrət və əzəmətini göstərən yaradılış xariqələrini insanların nəzər-diqqətinə təqdim edib, buyurur:-Ey insanlar! Bir kərə gözünüzü açın,baxın və diqqətlə düşünün. Şübhəsiz ki, göyün və Yerin yaradılışında böyük əlamətlər, haqqın varlığına böyük dəlillər vardır. Bu üzərində yaşadığımız gözəl, çox xoş Yer kürəsi nə qədər lətifdir? Gecə və gündüzün bir-birini təqib etməsində nə qədər ayətlər, əlamətlər vardır? Bunlar nə qədər müntəzəm şəkildə bir-birini təqib edib dururlar?! Əgər belə bir hal və intizam olmazsa,Yer üzündə yaşamaq mümkün olardımı?İnsanlara faydalı olan şeylər, dənizdə üzən gəmilər də və istifadə eydiyimiz bütün cihazlar da ilahi şəfqətin bizə bəxş etdiyi mərhəmətdir. **Astranomlar tərəfindən aləmin təbii quruluşunun yumru şəkildə olduğu sübut edilmişdir.Göydə və yerdə olan hər şey kürəvi şəkildədir.Dünya ,zəmilər, qara(torpaq) , dəniz, dağlar,vadilər dəyişik şəkilləri ilə top kimi bir kürə şəklindədirlər.**

ər-Rəd-3-Allahın nemətlərindən biri budur ki, gecə gündüzü örtər gecənin qaranlığı gündüzün işığını örtər, gecə gələrkən gün gedər.

Yasin-37-Allahın qüdrətinə dəlalət edən dəlillərdən biri də gecə və gündüzdür. Biz gündüzü ondan sıyırıb çıxaran kimi onlar zülmət içində olarlar.

əş-Şəms-3-4-And olsun zülməti işıqlı və nurani edən zaman gündüzə!And olsun gecəyə,o zaman ki, günəşi örtər və onun işığını kəsər.

əz-Zumər-5-Göyləri,Yeri haqq ilə yaratdı.Birini artırıb digərini əskiltməklə gecəni gündüzə və gündüzü gecəyə sarıb örtər. Günəşi və Ayı ram etdi. Onların hamısı müəyyən olunmuş vaxta qədər cari və hərəkətdə olar.

Açıqlama:-Bu ayədəki,ərəbcə"yukəvviru"kəlməsi Azərbaycanca "sarıb örtər"dairəvi bir şeyin üzərini bir qisim örtər mənasındadır. Ayədə gecə ilə gündüzün bir-birinin üzərini sarıb örtməsi barədə verilən bu bilik,eyni zamanda dünyanın quruluşu haqqında bizə məlumat verir. Yəni hicri-qəməri tarixi ilə VI-VII əsrlərdə nazil olan Quranda yerin dairəvi olduğuna işarə edilmişdir.

ən-Nəml-86-Görmürlərmi, biz gecəni aram və sakit olmaq üçün yaratdıq, gündüzü ruzi qazanmaq üçün işıqlı etdik.Burada, sözsüz ki,iman gətirən qövmlər üçün əlamətlər vardır.

əl-Furqan-45-48-Allahın qüdrətini görmürsənmi ki,sübhdən Günəş çıxana qədər kölgəni necə uzatdı?Nə çox qaranlıq oldu ki, ürəklər sıxılsın, nə də çox isti və işıqlıq oldu ki,gözə zərəri olsun. Əgər Allah istəsəydi, əlbəttə, onu sakin və həmişəlik edərdi, Günəş çıxmazdı. Sonra biz Günəşi kölgə üçün dəlil tutduq. Günəş olmasaydı, kölgə bilinməzdi, Günəş ucaldıqca kölgə azalar. Allah elə Allahdır ki,gecəni rahat olmağınız üçün örtük etdi, sizin bədəniniz üçün yuxunu rahatlıq və gündüzü də dirilik etdi.

əl-Ənam-96-Sübhü yaran, gecənin qaranlığından ayıran Allahdır. O, gecəni sizin üçün istirahət vaxtı etdi.O, Günəşi və Ayı hesab üzrə etdi. Bunlar qalib və alim olan Allahın tədbirilədir.

əl-İsra-12- Gecə və gündüzü iki əlamət etdik. Sonra gecənin əlamətini azaltdıq. Ayın işığını, gündüzün əlaməti olan Günəşdən az etdik. Gündüzün əlaməti olan Günəşi işıqlı etdik ki, Allahınızdan ruzi istəyəsiniz. İllərin sayını və hər bir hesabı biləsiniz. Hər şeyi təfsil ilə bəyan etdik.

"40 sual" kitabından:-Hər gün günəşin batma vaxtı gəldikdə gecə üçün təyin olunan mələk gecənin qara cövhərini göyün qərb tərəfinə asıb,tədbir ilə üfüqlərdən gündüzün bəyaz cövhərini qaldırar.O vaxta qədər ki, gecənin cövhəri üfüqləri bürüyüb yer üzünü gecə qaranlığına qərq etsin. Günəşin nuru batdıqda ona vəkil olan mələklər onu göydəngöyə sürətlə qaldırıb,iki saat miqdarı zaman içində Ərşi-Əzəm altına götürürlər. Burada Günəş cahanın Rəhmanına səcdə edir, mələklər də onunla birlikdə səcdəyə gedirlər. Cəbrail Ərşın nurundan Günəşə bir günlük nurdan geyim geyindirir. Bundan sonra gecənin saatları tamam olduqda, Günəşin doğuşundan iki saat əvvəl gündüz üçün təyin olunan mələk gündüzün bəyaz cövhərini göylərin şərq tərəfinə asıb, yavaş-yavaş üfüqlərə qaldırıb yaydıqca, gecənin mələyi də gecənin siyah cövhərini yavaş-yavaş göyə qaldırır. O vaxta qədər ki, gündüzün cövhəri üfüqləri bürüyüb dünyanı aydınlatsın.Günəş mələkləri də Günəşi göydən göyə sürətlə endirib, iki saatda əvvəlki doğma yerinə gətirirlər. Günəş doğduqda, təyin edilmiş olan üç yüz altmış Günəş mələyi təsbih və təhlil edərək qanadlarını yayarlar. Günəşi o günün saat və dəqiqələri miqdarınca hərəkət etdirib, batan tərəfə götürüb gedərlər. Bu minval ilə Günəş batış yerində qərbdə batıb, doğuş yerindən şərqdə doğar.Günəşin bu hərəkəti Qiyamət gününəcən belə gəlib-gedəcəkdir. Qiyamət günündə üç gün müddətində durub, dördüncü gün batdığı yerdən (qərbdən)

doğacaqdır. Bu halət Qiyamətin şərtlərinin ən məşhuru və Qiyamət əlamətlərinin ən böyüyüdür ki, bundan sonra tövbələr qəbul olunmaz, küfr və üsyandan peşman olmağın artıq faydası olmaz.

ALLAH BÜRCLƏRİ YARATDI

əl-Furqan-61-Göylərdə 12 bürcü yaradan Allah ucadır.Göydə çıraq(Günəş) və nurlu Ay yaratdı.

əl-Furqan-59-O elə Allahdır ki, altı gün müddətində göyləri, Yeri və onların arasında olan məxluqatı və ərşi yaratdı. Göylərdə on iki bürc, göydə çıraq olan Günəş və nurlu Ay yaradan Allah ucadır.Allahın Tövhid və qüdrətini yada salmaq istəyən, nemətlərinə şükür etmək istəyən kəs üçün gecə ilə gündüzün bir-birini əvəz etməsi də bir hikmətdir.

əl-Buruc-1-9-And olsun bürclər sahibi olan göyə! Günəş iyirmi doqquz gün yarım müddətində, ay isə iki gün yarım müddətində on iki bürcü seyr edir. And olsun vəd olunmuş günə! O elə bir Allahdır ki, göylərin və Yerin padşahlığı onundur. Allah hər şeyə qadirdir.

əl-Hicr-16- Biz göydə bürcləri xəlq etdik və ona baxanlar üçün zinətli etdik və göyü Allah dərgahından qovulmuş şeytanların hamısından qoruduq. Bəzi şeytanlar var ki, gizlin gedərək mələklərin danışıqlarını eşitmək istərlər,lakin aşkar olan kimi onların üstünə odlu şüalar gələr.

Açıqlama:-Göy cisimlərini yaxşı müşahidə etməklə yanaşı, onları dəqiqliklə öyrənməyə çalışan şair-alim Nizaminin əsərlərində öz dövrü üçün məlum olan planetlərin, bürclərin və təbii peyklərin demək olar ki, hamısının adlarına rast gəlirik. Həmin cisimlərin adları qədim Şərq ədəbiyyatında qəbul edildiyi formada verilmişdir. Həmin adlar aşağıdakılardır:

1.Şəms (Günəş); 2.Qəmər (Ay); 3.Ütarid (Merkuri); 4.Zöhrə (Venera); 5.Mərrix (Mars); 6.Müştəri (Yupiter); 7.Zühəl (Saturn); 8.Hut (Qoç); 9.Sur (Öküz); 10.Cövzə (Əkizlər); 11.Tir (Xərçəng); 12. Əsəd (Şir); 13.Delv (Qız); 14.Zənəb (Əqrəb); 15.Həməl (Oğlaq); 16. Qövs (Oxatan); 17.Dolça (Dolça); 18.Mizan (Tərəzi); 19.Mahi (Balıq).

"40 sual" kitabından:Astronomların fikrincə: fələklər və ünsürlərin üç təbəqələri bir-birini əhatə edib, bir-birinə bir dərəcə toxunaraq üst-üstədirlər. Fələklər və ünsürlərin hərəkətləri müxtəlifdir. Ən xaricdə olan qurşaq, böyük fələkdir. Onun içində olan qurşaq, səkkizinci fələkdir ki, bürclər fələyi və sabit ulduzlar fələyi adı ilə məşhurdur.Böyük fələy boşluqda dayanması və sabit olması ilə fərqlənir.Aləmin mərkəzi olub;

qütbü, aləmin qütbündən bir tərəfə 23,5 dərəcə meylli olub, paralel iki üzünü əhatə edən bir kürəvari cisimdir. Yumru səthının üzərində olan böyük fələyin dib səthinə dəyir. Dib səthində olan boşluğunda Saturn fələyinin yumru səthinə toxunur.Saysız sabit ulduzlarla işlənmiş və bəzədilmişdir. Xəyallarda formalaşan on iki burçlə naxışlanmış və rənglənmişdir. Ümumi ox olan Fələklər fələyi (böyük fələk) ilə aləmin mərkəzi ətrafında şərqdən qərbə hərəkət edər, bütün ulduzları ilə iyirmi dörd saatda bir dövrəsini tamamlayar.Özünə məxsus hərəkətiylə aləmin qütbündən başqa olan qütb üzrə qərbdən şərqə yavaş-yavaş dönər. Ahəstə hərəkətiylə altında tikilmiş olan sabit ulduzları toplam o tərəfə alıb gedər. Yetmiş günəş ilində öz qurşağı orbitində ancaq bir dərəcə yol gedər. O halda iki min yüz ildən bir, bir bürcü keçər və iyirmi beş min yüz ildən bir dövrəsini tamam edər.Bu müddətdə dünyanın hər yeri, dənizlərdə və qarada(quruda) dəyişiklik baş verər, Bütün aləmin işləri, sirləri ən yaxşı bilən Allahın təqdiri ilə başdan ayağa dəyişər. Altı böyük dairə belə, bu fələyin iki qütbü üzərində kəsişir.Səkkizinci fələk, bu altı dairə ilə qarpız üzərindəki xətlərə bənzər şəklində on iki qisim olub; hər bir qisimə bir bürc adı verilib: Məsələn, qoç bürcü, dolca bürcü və sair.

On iki bürcün altısı, günəş qalxan dairənin şimalında olmaqla, bunlara: Şimal bürcləri deyərlər. Altısı isə günəş dairənin cənubunda olduğu üçün, onlara: Cənub bürcləri deyərlər. Bunlar Tərəzi, Əqrəb, Oxatan, Oğlaq, Dolça və Balıqdır. Şimal bürcləri: Qoç, Öküz, Əkizlər, Xərçəng, Aslan və Qızdır. Cənub bürclərindən dördünə dəyişdirən deyərlər. Dördünə, Sabit və dördünə -Qarışdıran deyərlər. Bunlara dəyişdirənlər deyilməsinin səbəbi: Günəş bu bürclərdə olanda bir mövsümdən bir mövsümə keçmiş olar. Amma Günəş Qoç bürcündə olanda, zaman qışdan bahara dönər. Günəşin Xərçəng bürcünə girməsi ilə zaman, bahardan yaza dönər. Günəş Tərəzi bürcünə girdikdə, zaman, yaydan payıza dönər. Günəş Oğlaq bürcünə girdikdə, zaman, payızdan qışa dönər. Qoç bürcünün başlanması ilə yaz mövsümü başlanır. Xərçəng bürcünün başlanması ilə yaz mövsümü,Tərəzi bürcünün başlanması ilə payız mövsümü, Oğlaq bürcünün başlanması ilə qış mövsümü başlanar.

Sabit burçlər isə:Buğa, Şir, Əqrəb, Dolça bürcləridir. Bunlara sabit qalmasının, deyilməsinin səbəbi: Nə dəyişən kimi dəyişmə nöqtəsində qalarlar, nə də qarışdıranlar kimi qarışarlar. Qarışdıranlar: Əkizlər, Qız, Oxatan və Balıqlardır. Bunlara bu adın verilməsinin səbəbi: Günəş bu bürclərin paralelində olarkən, hər birində zaman, olduğu vəziyyətlə digər vəziyyət arasında qarışır. Məsələn:Əkizlər bürcündə zaman, ilk baharda ikən yaza dönər. Yazla qarışar; Qız bürcündə zaman, yazda

ikən Payızla qarışar; Oxatanda zaman payızda ikən qışa qarışar. Balıqlar da isə zaman, qışda ikən ilk bahara qarışar.

Sabitlət: Buğa, Şir, Əqrəb, Dolçadır.

Dəyişdirənlər: Qoç, Xərçəng, Tərəzi və Oğlaqdır.

Qarışdıranlar: Əkizlər, Qız, Oxatan və Balıqlardır

Alimlərin fikrincə on iki burçlə yeddi planet, eynilə dörd ünsür kimi dəyişik təbiətlərə malıkdirlər. Onlara, hər üç bürcü bir təbiətdə tapıb, bürclər tirigonometriyası adını vermişlər.Qoç, Şir və Oxatan bürclərinə atəş ünsürlü deyərlər ki, hər birinin təbiəti, istilik və quruluqdur. Buğa, Qız və Oğlaq, torpaq ünsürlüdürlər. Onların hər birinin təbiəti, soyuqluq və quruluqdur. Əkizlər, tərəzi və dolça, hava ünsürlüdürlər.Onlardan hər birinin təbiəti, istilik və rutubətdir. Xərçəng, əqrəb və balıq, su ünsürlüdürlər ki, hər birinin təbiəti, rütubət və soyuqluqdur. Beləliklə bürcləri öz xüsusiyyətlərinə görə dörd ünsürlə adlandırarlar: Su, hava , torpaq və od ünsürlr. Digər tərəfdən on iki bürcün bəzisini kişi, bəzisini qadın təbiətli, bəzilərini gündüzə, bəzilərini də gecəyə nisbət etmişlər. Altı bürc kişi, altısı dişidir. Kişi olanlar: Qoç, Əkizlər, Aslan, Tərəzi, Ox atan,Dolça bürcləridir ki, bunlar tək bürclərdir. Dişiləri: Buğa, Xərçəng, Qız, Əqrəb, Oğlaq və Balıqdır ki, bunlar iki tərəflidirlər. İndi, 12 bürcü qoç bürcündən başlayıb, müvafiq bürcləri, bir kişi, bir dişi olaraq sayarlar. Od və hava ünsüründə olan bürclər kişi sayılır.Torpaq və su ünsürlülərin hamısı dişi hesab edilmişdir. Gündüzlər kişi gecələr dişi olan bürclərləd də vardır.

Bu bürclərdən altısı şimal yəni, altısı isə cənub bürcləridir.(Səidələr günəşi ən yüksək yerinə, Həbitələr də ən aşağı nöqtəyə götürərlər.

Səidələrdə gün uzanar, Həbitələrdə gün qısalar.

Ən uzun gün 19 iyun 25 iyuna qədər davam edir

Ən uzun gecə 20 dekabrdan 26 dekabıra qədərdir.

Açıqlama: Dahi Nizami göy cisimlərini dəqiqliklə bildiyini sübut etmək üçün "Leyli və Məcnun" poemasında Məcnunun ulduzlara şikayət səhnəsini misal çəkir. Bu səhnə ulduzlar aləmində gedən proseslərin ardıcıllığını çox dəqiq rəvayət edir. Məsələn;göstərilir ki, Oğlaq bürcü Aya yaxın durmuşdur. Bu zaman Balıq, Öküz, Əkizlər, Xərçəng, Şir, Tərəzi, Əqrəb, Oxatan və s. bürclərin səmadakı vəziyyətlərini elmi dəqiqliklə müşahidə edən Məcnun, sonra Zöhrə və Müştəri planetlərinə öz dərdini açıb danışır:

Bürclərin mənzillər dairəsindən,
Fələk zəlzələyə düşmüşdü bilsən.
Həməl bürcü ayın dodaqlarından,
Haşiyə tikmişdi göyə bu zaman.

Dərya öküzütək o öküz bürcü,
Gövhər boğazlıydı dişləri inci.
Kəmər bağlamışdı Cövzə ikiqat,
Qoşa payalıydı əyləşdiyi taxt...

Göstərilən misallar bir daha sübut edir ki ,dahi şair-filosof qədim Şumer, Misir və Yunan astronomlarının elmi əsərləri, kataloq və cədvəlləri ilə tanış olmuş və onları dərindən öyrənmişdir. O,eyni zamanda öz dövrünün görkəmli astronomu səviyyəsinə yüksəlmiş, astronomiya elminə aid dəyərli elmi fikirlər söyləmişdir. Həmin fikirlər onun sələflərinə ciddi təsir göstərmiş və onlar astronomiya elmini öz yaradıcılıqlarında həmişə ön mövqedə saxlamışlar.

Dörd ünsür haqqında:Filosof-şair N.Gəncəvi maddə ilə məkanın ayrılmaz məfhum olduğunu qəbul edən obyektiv gerçəkliyin əsasını təşkil edən dörd ünsür haqqında öz əsərlərində qeyd edir və göstərir ki, bütün bunları Allah yaratmışdır.

Ə.Əhmədov **"Nizami Elmişünas**"adlı əsərində belə qənaətə gəlir ki,N.Gəncəvi təbiətə Aristotelin materialist nəzəriyyəsi baxımından yanaşmış və maddi gerçəkliyin dörd əsas ünsürdən yarandığını qəbul etmişdir. Həmin materialist nəzəriyyəyə görə dörd ünsürün hər birinin öz mərkəzi var və bu mərkəzə doğru meyl edir.Torpaqla suyun mərkəzi aşağıda, od ilə havanın mərkəzi isə yuxarıda yerləşir. Məhz buna görə də od ilə hava həmişə yuxarı, yəni öz mərkəzinə doğru qalxır, su isə torpaq kimi aşağı enir. **(Ə.Əhmədov "Nizami Elmişünas") ("Leyli bə Məcnun")**

Cəhətin başına altı yaxa saldı,
Yerin qucağına dörd gövhər atdı.
Saydan çox gövhərlər vardır ki,
Hamısı öz mərkəzinə tərəf meyl edir.
Əgər od yerdə mərkəz tapmasa,
Yeri yarıb yuxarıya qalxar.
Əgər su havada uzun müddət qalarsa,
Öz təbiətinin meyliylə aşağıya qayıdar.

DÖRD ÜNSÜR HAQQINDA

“40 sual” kitabında:Allahın əmri ilə Fələklər, ulduzlar, dönüb və hərəkət edərək; dörd ünsürə başqalaşma qabiliyyəti verərək bir-birinə qaynaşdırıb, xəmir etmişlər. Ta ki, ünsürlərin qaynaşmasından, əvvəl mədənlər hasil olub, ondan bitkilər peyda olub, ondan heyvanlar bədənə gəlmişdir. Bu dörd mürəkkəb cismin mürəkkəb vasitəçisi də vardır. Mədənlər ilə bitkilər arasında vasitəçi mərcanlardır.Əslində o daş kimidir və bitki kimi zərrə-zərrə dənizin dibində bitərək, suyun üzünə çıxar və quruduqda sərt olar. Bitkilər ilə heyvanlar arasında vasitəçi xurma ağacıdır.Əslində o, bitki ikən heyvan kimi mayalanmadıqca xurma verməz. Başını kəssələr həlak olub, quru və yarpaqsız, meyvəsi qalar. Heyvanlar ilə insan arasında vasitəçilərin ən qabarığı meymundur. Əslində bütün əzası, qıl və quyruğundan başqa, xarici və daxili insana bənzər.

Bu halda zaman dövrünün tamamlayıcısı, dünyanın parçalarının zirvəsi , yeddi yüksək atanın (7-göyün)və dörd aşağı ananın (4 ünsürün) və üç mürəkkəbin (mədən, bitki, heyvan) son nəticəsi insan bədənidir. Bəlkə də hər iki cahanın yaradılmasında məqsəd ancaq Həzrəti insandır. Bu fələkdən, ünsürlərin, birləşmələrin qabığı, cümlənin iliyi və özünün özüdür. Bütün əşyalar insana xidmətçidirlər. İnsan xidmət və ikram edilən, əziz, şərəfli və möhtərəmdir və cümlədən gözəl və ucadır. İnsan doqquz fələkdən, dörd təbiətdən, dörd ünsürdən ta torpağa çatana qədər, yolların hamısının başlanğıcıdır. İlahi nur və ağıl ilə kamil insan bir ömür yaşadıqdan sonra yenə Haqqa dönər. Yəni o ilahi nurdur ki, başlanğıcda o mövqedən gəlib, bir bədənə keçib, yenə öz məqamına gedib, dövrəsini tamam edər.”Hər şey əslinə dönər”- düsturunca, o nur, əslinə gedər. O ki: “İşin başlanğıcı ondandır, nəticəsi də onadır,” buyurmuşdur. Bu müvəqqəti bədənin işinin təhvil vermək olduğunu eşitdirmişdir. Bu çevrimə: Dönüş yeri və çıxış qövsi (arka) də deyərlər. Bu halda əsl məhəbbətlə və Allahın “Ol” hökmü ilə müvəqqəti olan ümumi bədən, rəftar və hərəkətləri ilə o hərəkətin tərzi ilə rənglənər və müəyyən mərhələlər keçər. Bu mərhələlər o ümumi bədənin düşüşlərindən ibarətdir.

“40 sual” kitabından: Kainatın yaradıcısı olan Qadir Allah bütün fələkləri isimləri, torpağa çatana qədər dörd ünsürü; kələm yarpaqları kimi biribirinin içində bükülü halda və bir nizam üzrə böyüyü kiçiyini əhatə edərək , eyni zamanda hər istiqamətdən bir-birinə toxunan və davamlı, hamısı bir tək kürə şəklində yaratmışdır. Bununla da Rəbbani

hikmətlə cisimlər aləminin gözəl bir nizam üzrə təməli atılmış və təsis olunmuşdur.Bu çaşdırıcı və qəribə tərkib heykəlinin şəkil və quruluşu; bütün İslam filosoflarının və din alimlərinin çoxunun bir-birlərinə yaxın fikirləriylə belə alınıb, qəbul edilmişdir: "Cisimlər aləmi, bir-birini əhatə edən kürələr və ünsürlər üzərində soğan qabıqları kimi təbəqələr halında olub, hamısı bir top şəklinə girmişdir."

Külli Fələklərin sayı doqquz dənə olub, bütün yüksək cisimlərin və alçaq ünsürlərin içinə almış və aləmin mərkəzi və hər şeyin əsasıdır. Bu doqquz göyün ən böyüyü, atlas fələyidir ki,dünyanın istiqamətlərinin göztəricisi və zamanın vaxtlarının təyin edir. Bu fələk, o biri fələkləri ovucunun içinə alıb, iyirmi dörd saatda bir dəfə, işıldayan, sabit və planet ulduzları tamamilə şərqdən qərbə təhvil verər. Bu doğuş və batış nəticəsində gecə və gündüz, işıqlıq və qaranlıq davamlı belə meydana gələr. Hamısı onun hərəkətinə əsaslanır və ona bağlıdır. Bu doqquz fələyin sonuncusu, ay fələyidir ki, atmosferi, meydana gəlmə və dağılma aləmini və bütün əşyaların hər tərəfdən əhatə etmişdir. Dörd ünsürün kürələri, ay fələyinin içində mərtəbələrlə dayanmış və yerləşmişlər. Hər vəziyyətdə ətraf tərəfi üst istiqamət, mərkəz tərəfi alt istiqamət olub; yer üzündə və suda ayaqda dayanan və gəzənlərin başları, ay fələyi tərəfinə; ayaqları aləmin mərkəzi tərəfinə olduğu bir gerçəkdir.

ATƏŞ HAQQINDA

"40 sual" kitabından: Atəşin təbiəti quru və istidir. Havanın təbiəti isti və rütubətlidir. Suyun təbiəti yaş və soyuqdur. Torpağın təbiəti soyuq və qurudur. Şübhə yoxdur ki, atəş hava ilə temperatur müştərəkdir. Hava su ilə rutubəttə müştərəkdir. Su torpaq ilə soyuqluqda müştərəkdir. Torpaq atəş ilə quruluqdan müştərəkdir. O halda atəşin quruluğu, havanın rutubətinə dönsə, atəş isti və rütubətli olub havaya çevrilir. Havanın temperaturu suyun soyuqluğuna bürünsə hava rütubətli və soyuq olub suya dönər. Suyun rütubəti torpağın quruluğuna bürünsə, su soyuq və quru olub torpağa dönər. Torpağın soyuqluğu atəşi temperaturu bürünsə, torpaq quru və isti olub atəşə dönər. Yəni atəş hava olar, hava su olar, su torpaq olar, torpaq olar ki, bu başqalaşma başlanğıc yolu deyərlər. Ünsürlərin başqalaşımının dəlilləri açıqdır. Öz təbəqələrində dayanan dörd ünsür, bir-birinə yavaş-yavaş dəyişərlər. Necə ki atəş, günlərin keçməsiylə atəş surətini tərk edib, hava surətinə girərək, atəş havaya çevrilir. Hava belə, yavaş-yavaş hava surətini tərk edib su surətinə girər, hava su olar. Su belə yavaş yavaş torpaq surətini tutub, su torpaq olar.

Torpaq belə atəş surətinə girib, torpaq atəş olar. Bu yolla və tərz ilə dörd ünsür, bir surətdən bir surətə dönər, sonunda yenə öz surətlərinə keçərlər. Bu ünsürlərin surət dəyişdirməsinə istihalə (başqalaşma) deyərlər.

Atəşin havaya çevrildiyinə açıq dəlil budur ki, şamlar yandıqda alovları yüksəyə meyl edərək, havaya qarışarlar. Əgər atəş havaya çevrilməsəydi bu zaman alov hava kürəsinin ortasında xətlər kimi yuxarıya gedib, atəş kürəsi şəklində bitişərdi. Havanın suya çevrildiyinə dəlil budur ki, bahar və payız mövsümləri səhərlər bitkilər üzərində olan rütubətə şeh deyərlər. Bu da havadır ki, səhər vaxtı soyuq olduğundan suya çevrilmişdir. Əgər havanın istiliyi, suyun soyuqluğuna bürünsə hava su olar. Suyun torpağa çevrildiyinə dəlil: Yağış damlaları endikdə, ilk damlalar torpağa çatan kimi o damlalar torpaq olub nəzərdən itərlər. Çünki o damlaların rütubəti, torpağın quruluğuna nisbətlə azdır. Bu vəziyyətdə damlaların rütubəti torpağın quruluğuna bürünüb, su torpaq olar. Bundan sonra damlalar çoxalıb, rütubət qalib gələrək,artıq torpaq olmayıb palçıq olur. Torpağın atəş olduğuna açıq dəlil odur ki, bitkilər və ağaclar torpaqda yetişdikdən sonra odun atəş ilə yandıqdan sonra, odun parçaları atəşə çevrilib, torpağın hissəsindən az bir kül qalar. Bəzi yerlərdə odun yerinə daş kömür yandırır, onun külü çox az qalar.

ALLAH SİZİN ÜÇÜN SUYU YARATDI

Həcc-63-(Ya Rəsulum)Məgər Allahın göydən yağmur endirdiyini və yer üzünün (onunla) yamyaşıl olduğunu görmürsənmi? Həqiqətən, Allah (gözlənilməyən yerdən ruzi yetirməklə bəndələrinə) lütfkardır və onların işindən xəbərdardır.

əl-Əraf-57-Küləkləri öz mərhəməti önündə,yağışdan qabaq müjdəçi olaraq göndərən Odur. Belə ki, küləklər yağmur yüklü, ağır buludları hərəkətə gətirdiyi zaman biz buludları ölü (qurumuş) məmləkətə tərəf qovur, ora yağmur endirir və onunla hər cür meyvə yetişdiririk.

ən-Nəhl-10-11-Odur O Allah ki, sizin üçün göydən su nazil etdi. O suların bəzisi sizin içməyiniz üçündür. Bəzisi ağacların və otların suvarılması üçündür ki, orada heyvanlarınızı otararsınız.Allah həmin su ilə zeytun ağacı, xurmalıq, üzümlük və bütün meyvələrdən göyərdər. Həqiqətən, bunda düşünənlər üçün dəlillər vardır.

Fatir-9-Buludları hərəkətə gətirən külәkləri Allahdır göndərən. Biz buludları quru (ölü) bir məmləkətə tərəf qovub onunla öldükdən sonra torpağı dirildərik.

Hicr-22-Biz buludla yüklənmiş (bitkilərə, ağaclara həyat verən, onları tozlandıran) külək göndərdik.

"40 sual" kitabından:-Allah-taala dünya göyü altında və ona bitişik bir su dənizi yaratmışdır ki, bu dəniz dünya göyünün içində yerləşmişdir. Dənizin dalğaları hava üzərində Allahın əmri ilə qərar və sükunət tapmışdır, bir damlası belə havaya düşməz. Bu dənizin altında olan hava dənizinin ortasında, yerlə göy arasında bir su dənizi də yaratmışdır. Ona qadağan olunmuş dəniz deyərlər. Onda balıqlar kimi çeşidli yaradılmışlar üzüb, gəzərlər. Bu dənizin suyu ilə Nuh Tufanı baş vermişdir ki, Nuh qövmü onunla həlak olmuşdur. Allah-taala yağış yağdırmaq istədikdə göylər üzərində olan ruzilər dənizindən müəyyən vaxtlarda, müəyyən edilmiş ruziləri göyə endirir və qadağan edilmiş dənizə qovuşdurur. Ondan rüzigara yükləyib, buludlara doldurur. Ruzilərlə doldurulan suyu xəlbir kimi edib, yağış damlalarına çevirir. Ondan hər damlanı Allahın əmri ilə bir mələk endirib, öz yerinə qoyur. Çünki mələklər nurdan yaradılmışdır, onun üçün yağış endirmək kimi işlərdə bir-birinin üzərinə yığılmayıb işıq şüaları kimi bir-birini keçərlər. Göydən yerə enən hər yağış damlasının ölçüsü və miqdarı vardır ki, torpağa və dənizə yararı çoxdur. Əğər yağış damlası ruzi ilə dolmuşsa, ondan torpaqda yaşıllıq hasıl olar, dənizdə də incilərə qovuşar. O halda ruzilər dənizdən yağış dənizinə, oradan buludlara, onlardan da torpağa və dənizə enər.

Allah-taala atmosferdə, yəni hava dənizinin içində qardan və doludan neçə yüz min dağlar yaratmışdır. Yerin bir tərəfinə qar, o biri tərəfinə dolu göndərmək istədikdə, bunlara vəkil olan Hz.Mikailə əmr edər. O da vəkili olan İsmail adlı mələyə əmr edib, arzu elədiyi yerə istədiyi qədər hər dənəsinə bir mələk nəzarətçi qoyub endirər.

ən-Nur-43-"Məgər görmürsənmi ki, Allah buludları qovar, sonra bir araya toplayar, sonra da üst-üstə yığıb topa halına salar? Görərsən ki, buludların arasından yağmur çıxar, sonra Allah göydən dağlar kimi dolu yağdırar, sonra da onunla istədiyini bəlaya düçar edər, istədiyindən isə onu sovuşdurar. Buludların şimşəyinin parıltısı az qala gözləri kor edər."

KÜLƏYİ YARATDI

"40 sual" kitabından:Haqq olan Allah yaşıl cövhərdən suyu yaratdıqda onun buxarından ruzigarı (küləyi) yaratmışdır. Yer və göy arasında olan ruzigar (külək) üç qisimdir.Birinci"qısır" ruzgarıdır ki, Ad qövmünə göndərilmişdir. İkincisi"qara"ruzigardır ki, ulduzlar dənizini

,yağmurlar dənizini, qar və dolu dağlarını yükləyib atmosferi də tutmuşdur. Üçüncü ruzigar, yerdəkilərin ruzigarıdır ki, cənub-qərb, şimal-cənub tərəflərindən hərəkət edən havadır. O, buludları və buxarları birləşdirib ayırar, yağış və qar enəcək yerlərə axıb gedər. Bu halda ruzigar əsməsi də Hz.Mikailin tədbirinə uyğundur və onun hərəkət etdirməsinə bağlıdır. Onun izni ilə əsib və izni ilə də kəsilər. Allah-taala bu havanı bütün yaratdıqlarının ruhlarına nəfəs etmişdir. Bu küləyi (fəra və sürür) əşyanın və işlərin tənzimləyicisi etmişdir. Çünki ruzigar olmasa, hər şey iylənib xarab olar və bütün canlılar yerdə həlak olarlar. Ruzigarın yağışı və bitkiləri bəsləməsi kimi faydaları da çoxdur. Üzləri gözəlləşdirmə, həyatı qoruma və həyata nəfəs vermə kimi xüsusiyyətlərinin nəhayəti yoxdur. Allah buludları içləri boş və lətif biçimdə yaratmışdır. Onları Mikailin yardımçıları havada toplayıb, yerə yaxın gətirdikdə göy üzünü örtüb, kəsif bir bulud olurlar.Allah-taala buludların hərəkəti üçün Rad adlı kiçik bir mələk yaradıb, onu Mikailə tabe etmişdir. Onun dəmirdən bir qırmancı vardır ki,bu qamçıyla buludları dəvələr kimi sürər. Vuruşunun şiddətilə qırmancından atəş çıxar ki, ona şimşək deyərlər. Əgər o atəşin qığılcımı yerə düşərsə,ona ildırım deyərlər. O, qorxuducu göy gurultusu kiçik bir mələk olan Radın sədasıdır ki, Haqqı həmd ilə təsbih edər. O,buludları yerlərinə yığıb gedər.

ər-Rəd-13-"Göy gürultusu Allahı həmd ilə təsbih edər, mələklər də Allahdan qorxaraq Onu təsbih edərlər."

"40 sual" kitabında:Allah-taala yer üzünə qonşu olan havanı lətif yaratmışdır ki, yer üzündə olan yaradılmışlar onu qoxulayaraq nəfəs alıb, həyat taparaq yaşasınlar. Bu havanın üstündə duman, onun üstündə ağ buludlar, onun üstündə yağış buludları, onun üstündə uçan quşlar yaratmışdır. Bu quşların nə qadağan edilmiş dənizdə, nə də ki yer üzündə yuvaları vardır. Onlar ancaq hava yeyib hava içərlər, havada yatıb, havada da cütləşərlər.Yumurtaları havadan düşərkən, onları ruh tapıb bala olarlar və qanadları tamamlanana qədər quş olub, uçana qədər düşərlər. Bundan sonra da yuxarıya doğru uçub, həmcinslərinə qovuşarlar. Allah-taala bunların yerləşdiyi havanın üstündə qar və dolu dağları, bunun üstündə qadağan olunmuş dəniz, bunun üstündə lətif hava və bunun üstündə də ulduzlar dənizini yaratmışdır. Günəş, Ay və ulduzların nurları böyük və şiddətli olduğundan onlarla bizim aramızda olan bu lətif hava, saf dəniz, qar və buludlar az olduğundan çox böyük bir maneə təşkil etməz. Əgər Günəş ilə Yer arasında bu qədər maneə olmasaydı, günəşin istisinə heç dözmək olmazdı və bu şüalar bizi yandırardı.

ALLAH SİZİN ÜÇÜN DƏNİZİ VƏ ÜZƏN GƏMİLƏRİ YARATDI

əl-İsra-66-Allah sizin üçün öz fəzlindən ruzi tələb etmək üçün dəryada hərəkət edən gəmiləri yaratdı. Rəbbiniz sizə qarşı rəhmlidir.

ən-Nəhl-14-O elə Allahdır ki,sizin üçün dənizi ram etdi və ona əl atmağa qadir oldunuz.Bununla dənizdən təzə ət yeyərsiniz və ondan zinətlər xaric edər ki, onlardan istifadə edərsiniz. Sən suyu yaran gəmini görürsən ki, hər tərəfə hərəkət edir.

Loğman-31-Ey insan!Məgər sizə öz qüdrət əlamətlərindən bəzilərini göstərsin deyə gəmilərin dənizdə, Allahın sizə verdiyi neməti ilə üzdüyünü görmürsənmi?

Həcc-65- (Ya Rəsulum!) Məgər Allahın yerdə olanları, dənizdə Onun əmrilə üzən gəmiləri sizə ram etdirdiyini və onun izni olmadan yerə düşə bilməməsi üçün göyü tutub saxladığını görmürsənmi?

İKİ DƏNİZİN ARASINDA MANEƏ YARATDI

ər-Rəhman-19-20-Biri şirin,o biri isə şor olan dənizi o qovuşdurdu. Lakin onların arasında maneə vardır və bir-birlərinə qovuşmazlar və bunu istəməzlər.

Furqan-53-Birinin suyu şirin,digərinki isə şor olan iki dənizi qovuşduran, aralarında bir-birinə qarışmamaq üçün maneə və keçilməz sədd qoyan Allahdır!

Açıqlama:-Bu ayədə bildirilən bir-birinə qovuşan, lakin suları qətiyyən bir-biri ilə qarışmayan dənizlərin bu xüsusiyyəti okeanoloqlar tərəfindən bir müddət əvvəl kəşf edilmişdir. “Səth daralması” adlandırılan fiziki bir qüvvə səbəbindən qonşu dənizlərin sularının bir-birinə qovuşmadığı ortaya çıxmışdır. Dənizin fərqli sıxlıqlarından qaynaqlanan səth daralması, sanki bir divar kimi suların bir-birinə qarışmasına mane olur.Dünyanın ən nüfuzlu şəxsiyyətlərindən olan Fransız alimi J.Kusto, öz təcrübə və tədqiqatları nəticəsində aşkar etmişdir ki, Aralıq dənizinin özünəməxsus temperaturu və duzluluğu vardır. Eyni zamanda bu dənizdə həmin şəraitə uyğun canlılar da var. Sonra isə Atlantik okeanında olan su kütləsini tədqiq etdi və onun Aralıq dənizindən tamamilə fərqli olduğunu gördü. Bu iki su kütləsi Cəbəllütariq boğazında birləşir və bu birləşmə min illərdir ki, davam edir. Buna əsasən iki dənizin birbirinə qarışmadığını, hətta bu iki dənizin birləşmə nöqtəsində möcüzəvi su maneəsinin olduğunu kəşf etdilər. Bu kəşfdən sonra J.Kusto bu

hadisənin Qurani-Kərimdə14 əsr əvvəl yazıldığını öyrənir və İslam dinini qəbul edir. Quran ayələrini öyrənən J.Kusto aşağıdakı sözləri dilə gətirir**: - "Mən şahidlik edirəm ki, müasir elmi 14 əsr qabaqlayan Quran, Allah kəlamıdır."**

Eyni vəziyyət 1962-ci ildə Ədən körfəzi ilə Qırmızı dənizin birləşdiyi Bab əl-Mənbəd boğazında alman alimləri tərəfindən aşkar edilmişdir. Sonralar aparılmış tədqiqatlar zamanı məlum olmuşdur ki, müxtəlif quruluşlara malik olan bütün dənizlərin birləşmə nöqtələrində həmin su maneələri mövcuddur.

ALLAH DAĞLARI YARATDI

əl-Ənbiya-32-Yer üzündə yerin mıxları adlanan böyük dağlar yaratdıq ki,insanlar yerin hərəkət edib, onları iztiraba salmasından qorxmasınlar.Dağlarda geniş yollar düzəltdik.Göyləri yer üzünə düşməkdən saxlanmış halda tavan kimi yaratdıq.

ən-Nəba-6-Yer üzünü yataq etmədikmi və dağları da onun mıxları?

Loğman-10-11-Göyləri görə bilməyəcəyiniz sütunlarla yaratdıq və yer üzündə dağları yerin mıxları kimi bərqərar etdik ki, sizi tərpətməsin. Orada hər cürə canlılar yaratdıq.

ən-Nəhl-15-16-Allah Yeri hərəkət və iztirab etməsin deyə, böyük dağları yerə möhkəm etdi. Allah sizin üçün dağlarda əlamətlər yaratdı. Ulduzlar ilə onlar hidayət taparlar.

Açıqlama: Müasir elm indi sübut etmişdir ki, həqiqətən, dağlar nə qədər hündür olsalar da, kökləri öz hündürlüklərindən 10-15-metrdən çox yerin dərinliklərindədir.

"40 sual" kitabından: Allah-taala yerləri və göyləri yaratmaq istədikdə,daha əvvəl qeyd etdiyimiz kimi yaşıl cövhərin suyundan Cənnətlər və xəzinələr yaratmış, sonra qalan artığının saf və lətifindən yeddi göyü yaratmış, ondan qalan bulanlıq suyu və tortanı bir-birinə vurmuşdur.O zaman onun üzü (qaymağı) üzünəçıxıb, dalğaları yüksəldikdə, O üzü və dalğaları dondurmuşdur:-Yerlər və dağlar yaranmış və dağlar bütün yerin dirəkləri olmuşdur.Sonra Allah bütün dağların damarını yeri bürümüş olan Qaf dağına bağlamışdır. Bir böyük mələyi zəlzələyə müvəkkil edib, dağların damarlarını onun əlinə vermişdir. Bu halda Allah, bir yerin xalqını üsyanlardan uzaq olmalarını xəbərdar etmək (yəni cəzalandırmaq) istədikdə, o mələk Allahın əmri ilə o yerin damarını hərəkət etdirər ki, oranın xalqı zəlzələdən qorxaraq özlərinə gəlib,Allaha tərəf yönəlib itaətkar olsunlar.

Sonra yeddi dənizi yaratmışdır ki, ən kiçiyi yerin çevrəsini Qaf dağının ətrafını bürümüşdür. Onun nəmi Bəhri-mühit olmuşdur. Ondan sonra ikinci dənizdir ki, nəmi-Qaynəsdir. Ondan sonra üçüncü dənizdir ki, nəmi-Əsəmdir. Sonra dördüncü dənizdir ki, nəmi-Muzləmdir. Ondan sonra beşinci dənizdir ki, nəmi-Mirməsdir. Sonra altıncı dənizdir ki, nəmi-Sakindir. Axırıncısı, yeddinci dənizdir ki, nəmi- Baqidir. Bütün bu dənizlər bir-birini bürümüşdür.Hər birinin eni beş yüz illik yoldur. Allah-taala yaşıl cövhərin artığından hər iki dəniz arasında, ilk dənizlə yerin çevrəsi arasında və yeddinci dənizin qarşısında bir yaşıl Qaf dağı yaratmışdır ki, sayları səkkizə çatmışdır.Bu dağların hər birinin eni beş yüz illik yoldur.Bundan sonra Allah-taala qüdrəti ilə çadırabənzər yeddi dağın üzərinə yeddi göyün kənarlarını qübbələr kimi qurmuşdur. Səkkizinci Qaf dağı isə dünya göyünün içində, Bəhri-mühit ilə Yer arasında hamısından mücərrəd və sadə qalmışdır. O yaşıl dağı göyün içindən Günəş işığı, Ay və ulduzların nuru ilə aydınladıb. Şüaları Qaf dağından havaya əks etdiyindən, rəngsiz havanı mavi rəngdə göstərir ki, insanlar da bunu göyün rəngi zənn edərlər.

ALLAH DƏMİRİ NAZİL ETDİ

əl-Həsid-25-Biz elçilərimizi dəlil və möcüzələr ilə göndərib onlara kitab və mizan nazil etdik ki, insanlar bir-biri ilə ədalətlə rəftar etsinlər. Həddən artıq möhkəm olan və insanlara fayda verən dəmiri icad etdik. Yer üzündə onun mədənini yaratdıq. Onda şiddətli qorxu və insanlar üçün başqa mənfəətlər var.

Açıqlama:Dəmir kimyəvi elementlərdən biridir.Bu ayədə xüsusi olaraq dəmirlə bağlı işlədilən"ənzəlnə",yəni"endirmək" kəlməsi, məcazi anlamda dəmirin insanların xidmətinə verilməsi mənasında başa düşülə bilər. Lakin kəlmənin "göydən fiziki olaraq endirmə" şəklində həqiqi mənasına diqqət verəndə bu ayənin çox mühüm elmi möcüzə olması məlum olur. Çünki müasir astronomiya elmi yerdəki dəmir mədənlərinin kosmosdakı böyük ulduzlardan gəldiyini sübut edir.Təkcə Yerdə deyil,bütün Günəş sistemindəki dəmir kənardan əldə edilmişdir. Kainatdakı ağır metallar böyük ulduzların nüvələrindən hazırlanır. Günəş sistemi dəmir elementini hazırlaya biləcək bir xassəyə malik deyil. Çünki günəşin hərarəti dəmir elementinin əmələ gəlməsinə kifayət etmir. Dəmir ancaq günəşdən də böyük olan ulduzlarda bir neçə yüz milyard dərəcəyə çatan istidə əmələ gələ bilər. Nova və Supernova adlandırılan bu ulduzlardakı dəmirin miqdarı müəyyən həddi keçəndə

ulduz artıq onu saxlaya bilmir və partlayır.Bu partlayış nəticəsində dəmirə çevrilən meteoritlər kosmosa səpələnir və bir göy sisteminin cazibə qüvvəsinə məruz qalıb onun üzərinə enənə, yəni onun tərəfindən cəzb olunana qədər kosmik boşluqda hərəkət edir.Daha çox yaşı olan Supernova hadisələrini göstərən dəlillər var.Dəniz tavanında yığılmış dəmir 60, Günəşdən 90 işıq ili uzaqlıqda, təxminən 5 milyon il əvvəl meydana gələn bir Supernova partlayışının dəlili olaraq izah edilir. Bütün bunlardan göründüyü kimi, dəmir mədənləri yerdə əmələ gəlməmiş,Supernovalardan göy daşları vasitəsi ilə yerə endirilmi dir.

İLK İNSANI PALÇIQDAN YARATDI

Sən, ey bütün varlığa həyat verən, can verən!
Gildən yaranmışlara nəfəs verən, qan verən!
Bayrağın altındadır, ulu tanrı, xilqətin,
Biz sənin lə mətinik, sənsə əzəldən mətin.
Mümkünmüdür bənzədək varlığını bir şeyə?
Kimsə sənə bənzəməz, bənzəməzsən kimsəyə. (”Sirlər Xəzinəsi”)

Açıqlama: Allah Quranda insanın yaradılışının möcüzəvi şəkildə olduğunu xəbər verir. İlk insan, Allahın palçığı şəkilləndirib, insan bədəni halına gətirməsi və ardından bu bədənə ruh üfürməsi ilə yaradılmışdır.

İnsan-(Dəhr)1-2-Həqiqətən, yaradılışdan qabaq bütün insanlar üçün dünyada uzun zaman gəlib keçmişdir. O zaman həmin insanlar palçıq və nütfə halında bir şey olmuşlar ki, onu deməyə layiq deyildir.Yaxud insan bir cisim idi ki, su və torpaqdan əmələ gəlmişdi,ona ruh verilmiş və o,həyat sürməyə başlamışdır. Sonra biz insanı qarışmış nütfədən yaratdıq.Onu imtahan edərək, onu həm eşidən, həm də görən etdik.

əs-Saffat-11-Şübhəsiz ki, Biz onları yapışqan kimi bir palçıqdan yaratdıq.

əl-Hicr-28-32- Bir zaman Rəbbin mələklərə demişdi:”Mən quru və qoxumuş palçıqdan insan yaradacağam! Mən ona surət verib ruhumdan üfürdüyüm zaman siz ona səcdə edin!”Bundan sonra mələklər ona səcdə etdilər. Təkcə İblisdən başqa! O səcdə edənlərlə birlikdə olmaqdan imtina etdi.

Açıqlama: Ayədə “süzülmüş”olaraq tərcümə edilən”sulələ” sözü, ”təmsili nümunə” kimi mənalara gəlir. Göründüyü kimi Quranda 14 əsr bundan əvvəl bildirilən insanın yaradılışındakı vəsait ilə torpa-

ğın tərkibindəki elementlərin eyni olduğunu müasir dövrümüzdə elm təsdiq etmişdir. Bu gün insan toxumalarının tərkibi araşdırılarkən,onun tərkibində yer üzündə mövcud olan bir çox kimyəvi elementlərin olduğu məlum olur.İnsan toxumaları 26 elementdən ibarətdir ki, bunun 95%-ni 6 element təşkil edir. Bunlar karbon (C), hidrogen (H), oksigen (O), azot (N), fosfor (P) və kükürd (S) elementlərindən ibarətdir ki, bu da eyni ilə torpağın tərkibindəki kimyəvi elementləri təşkil edir.

(Mövlana Furatı)"Qırx sual"kitabından:-Uca Allah aləmlərin hər işini əzəli elmi ilə təqdir edib yaratmışdır. Cahanın görüntülərini bitməz feyzilə tərtib edib,təsbit etmişdir. Cahanın gül bağçasını insan gülünün qoxusu ilə süsləmişdir. Bütün cahanı insan üçün, insanı da özünün bilinməsi üçün var edib,bir çox hikmətləri tək insanda toplayıb ortaya çıxarmışdır. İnsanın "Cami"isminə surət vermış,öz ruhundan üfürüb,onu əmanətlərin daşıyıcısı və sirlərin məkanı etmişdir. Bütün aləmdə olan neçə min hikməti ilə alimləri heyran etmişdir. Cahan kitabının hər bir hərfindən mərifətini oxuyub öyrənənləri ariflər etmiş,könül aləminə dalan bəndələrini öz hüzurundakı Kəbədə ibadət edən etmişdir. Allah-taala aləmlərin xəlifəsi, insanların babası olan Hz.Adəmi yaratmaq istəyəndə Hz. Əzraili göndərib yer üzündəki yeddi iqlimdən torpaq gətirtmişdir. Sonra Hz.Cəbraili göndərib o quru torpağı qırx gün yoğurtdurmuşdur. Bundan sonra Allah o palçığı ən gözəl biçimdə Numan vadisinin içində şəkilləndirmişdir. Öz mübarək ruhundan onun başına üfürmüş, bütün mələklərə:"Mən bildiyim şeyi siz bilmirsiniz,"-deyib ona səcdə etdirib,insanlar üçün Peyğəmbər təyin etmişdir. Bütün mələklər ona səcdə etdikdə, İblis buna"xeyr"deyib, səcdə etmədiyi üçün lənətlənmişlərdən və qovulmuşlardan olmuşdur. Qiyamətə qədər möhlət almış və hesabsız zürriyyətləri ilə Adəm övladlarını başdan çıxarmaq üçün onlara müsəllət olunmuşdur.

Allah-taala Adəmi yer üzündə yaratdıqdan qırx il sonra onu göylərə qaldırıb, Firdevs Cənnətinə qoyub. Ona Cənnət geyimləri geyindirib və çoxlu nemətlər ehsan etmişdir. Ona hər bir neməti verdikcə:-Bu nemətlə kifayətlənərmisən?-deyə Hz.Adəmdən soruşardı.O da:-Hələ qane deyiləm, ya Rəbb,-deyə cavab verərmiş. O vaxta qədər ki, Hz.Adəmə bir qəflət yuxu verib, sol qabırğa sümüyündən Həvva anamızı yaratdıqda, Adəm gözünü açıb görmüşdür ki, yanında özünə bənzər bir sevimli insan oturmuşdur. Beləcə, onunla söhbət, ülfət və vusal hasıl olduqda, Allah-taala yenə də xitab edib buyurmuşdur ki:-Ey Adəm! Bu nemətimlə necəsən? Adəm(ə.s.) cavab vermişdir ki:-Ya Rəbbi! Hesabsız nemətinin dənizinə batmışam, bu nemətini hər

şeydən böyük bildim,bununla hər şey mənə kifayətdir.Çünkü Həvva ilə sükunət tapıb,ülfətiylə ünsiyyət etmişəm. Bundan başqa ikrama hacət qalmayıb, bu ehsanının şükr və razılığı ilə qəlbim dolmuşdur. Bundan sonra Allah-taala,ona:-Ey Adəm! Həvva ilə Cənnətimdə sakin olub,hər nemətdən ləzzət alarsınız.Ancaq bu ağaca yaxın getməyəcək və ondan yeyib mənə asi olmayacaqsınız-deyə onları xəbərdar edib, qorxuzmuşdur.Bu minval üzrə Hz. Adəm Həvva anamız min ilə qədər Cənnətdə səfalarını sürmüşlər. Bundan sonra onlar İblisin sözünə uyaraq, o ağacın meyvəsindən dərib ikisi də yedikdə, Allah-taala ikisini də Cənnətdən aşağı düşürmüşdür. Cənnətdən çıxdıqdan sonra Hz.Adəm və Həvva anamız bir-birindən ayrılıb dünyanın müxtəlif guşələrinə düşdülər. Adəm Hindistanda Sərəndib dağına (indiki Seylon adasına),Həvva isə Məkkə yaxınlığındakı Ciddəyə düşdü. Adəm dünyaya düşüb o nemətləri itirdiyi üçün, həm də Allah-taala dərgahında asi olduğu üçün peşmanlıq, həsrət və xəcalətdən gecə-gündüz ağlayıb,tövbə etdi.Nəhayət, Hz. Cəbrail nazil olub onun tövbəsinin qəbul olunduğunu xəbər verir. Sonra Hz. Cəbrailin bələdçiliyi ilə Hz.Adəm Məkkəyə gəlir və orada Həcc qılarkən Ərəfatda, Həvva anamızı tapıb görüşür. Onlar görüşüb, ağlayaraq Allaha belə dua etdilər.

əl-Əraf-23-Ey Rəbbimiz!Biz öz nəfsimizə zülm edərək,yazıq olduq. Əgər sən bizi əfv edib bağışlamasan,bizə acıyıb rəhm etməsən, yəqin ki, onda ən böyük zərər və ziyana uğrayanlardan, pərişanlıq və bədxahlıq içində qalanlardan olarıq.

ALLAH İNSANA ÖZ RUHUNDAN ÜFÜRDÜ

Bil ki, ərşin sultanı xəlq edərkən cahanı,
Çəkdi, qoşa yaratdı həm surəti, həm canı.
Nəhayətsiz, sonsuzdur Tanrının kəraməti,
Kərəm saçıb, can ilə birləşdirdi surəti.
Surət, can birliyindən qəlb aləmi doğuldu,
Xilafət mövqeyinə çatan xəlifə oldu.
Üstə sultan xütbəsi olan bu könül ki var,
Ruh və cisim aləmindən yaranıb açıq-aşkar. (”Sirlər Xəzinəsi”)

Səcdə-7-9-O, elə bir Allahdır ki, yaratdığı hər bir şeyi gözəl yaratdı və insanı yaratmağa torpaqdan başladı.Sonra onun nəslini nütfədən əmələ gətirdi. Sonra nütfəni insan surətinə salaraq ona öz ruhundan üfürdü, sizə qulaq,ürək və göz verdi. Amma siz insanlar az şükür edərsiniz.

(Mövlana Furatı) "Qırx sual" kitabından: Qərinələr, əsrlər keçdikdən sonra Qadir Allah 6 günə (günün uzünluğu Allah bəlli) tərtib ilə yeri-göyü və ayı-günəşi, kainatı və tüstüsüs oddan Cinni, sonra isə insanı yaratmışdır.

İlk insanı, Hz.Adəmi yaratmaq istərkən, Ona gecə-gündüz ibadət edən mələklər belə sual etmişlər:"Bu qan tökən insanı yenə də niyə yaradırsan? Axı biz Sənə bu qədər ibadət edirik"Allah-taala buyurmuşdur: "Mən biləni siz bilmirsiniz" Sonra isə mələklərə: "Mənə çox ibadət etməyinizlə öyünməyin, çünki, elə sizlərdən də mənə qarşı çıxıb, üsyan edənləriniz olacaqdır. Həm də əgər insanlara verilən hiss-duyğu üzvlərini sizlərə bəxş etsəydim, yəqin ki, siz də insanlardan betər olardınız. " (Buna misal mələklərdən Harut ilə Marutun məsəli).

Uca Allah palçıqdan yaradıb, Öz ruhundan üfürərək can verdiyi ilk insana, öz nurundan, ilk yaratdığı Hz. Muhəmmədin Peyğəmbərlik nurunu da bəxş etdi. Beləliklə də yaratdığı ilk insanı Peyğəmbər etdi ki, insanlara Özünü tanıtsın,Öz qüdrət nişanələrini və hökmlərini Peyğəmbərlər vasitəsi ilə gələcək nəsillərə və həmin nurun sahibi olan, sonuncu Peyğəmbərə,Muhəmmədə (s.ə.s.) çatdırsın.

Kainatın Xaliqi olan Allahın yaratdıqlarının ən şərəflisi, varlıqların xülasəsi, Əqldən əvvəl yaradılan Hz.Muhəmmədin ən mükəmməl ruhu olmuşdur ki, Uca Allah onu: **"Sən olmasaydın fələkləri yaratmazdım"** xitabilə ucaltmışdır.

Yuxarıda qeyd etdiyimiz kimi Allahın ilk yaratdığı Nuri-Muhəmməd, Lövhu-Məhfuz, Qələm, Əql və beş kimsənin ruhudur ki, bütün ruhların və cisimlərin başlanğıcı, əsası və ilk cövhəridir. Bütün ruhların və cəsədlərin başlanğıcı və qaynağı da bu cövhərdir.

Allah-taala ruhlar aləmini yaratdıqdan 2 min il sonra cisimlər aləmini yaratdı.İnsan ruh və bədəndən ibarətdir. Ruh özü isə müstəqil, bədənin varlığından asılı olmayan bir cövhərdir və onun zehni mülahizələri dərk etmək qabiliyyəti vardır. Lakin ruh cisim deyildir, çünki cisim eyni zamanda iki surəti dərk edə bilməz. Halbuki ruhun ikidən də artıq surəti dərk etmə qabiliyyəti vardır.Ruh,Uca Allaha aid insanı heyrətə gətirəcək bir varlıqdır. İnsan ağlı onu dərk edib anlamaqda acizdir.

Hədis:-İmam Cəfəri Sadiq (ə.s) **("Təfsire-Nurus-səqələyn" kitabında)** Peyğəmbərimizdən buyurmuşdur:-Allah-taala buyurur ki:"**Mən bir gizli xəzinə idim,istədim ki, tanınam.Yəni insanları yaratdım ki, tanınam."**

Bu kəlamda Allah-taala öz müqəddəs zatını"Gizli xəzinə"adlandırır. Həqiqətən,O, gizli xəzinə olmaqla bərabər, həm də gizlindir. Çünki

onu heç bir duyğu və hiss vasitəsi ilə dərk etmək mümkün deyil.O, bu maddi aləmi o qədər gözəl, mükəmməl və onun əzalarını bir-birinə elə ahəngdar edib yaradır ki, O Ülvi-Zatın özünə də xoş gəlib. Uca Allah yaratdığı qüdrət nümunələrini dərk edə bilən, əql və şüur sahibi olan insan ruhunu yaradır.Digər canlılardan fərqli olaraq, yalnız insan öz əqli, şüuru ilə bu kamilliyi və gözəlliyi dərk edə bilərdi.Sonra isə əql və şüur verib yaratdığı ruhları"Ruhlar aləmi" deyilən aləmdə bir araya gətirmişdir.

Allah-taala Hz. Adəmi yaratdıqdan sonra dünyanın sonunadək doğulacaq olan, əql və şüur verib yaratdığı Adəm övladlarının ruhlarını,"Ruhlar aləmi"adlanan aləmdə xırda, pərakəndə zərrə lər şəklində onun ətrafına toplamışdır. Sonra hamısını bir yerdə öz hüzuruna toplayaraq onlardan soruşmuşdur:

-Mən sizin Rəbbiniz deyiləmmi?

-Bəli, Sən bizim Rəbbimizsən! Ancaq sənə ibadət edir, səndən yardım diləyirik,- delə, onlar cavab vermişlər. Allah-taala yenə soruşur:

-Sonra deməyəsiniz ki, bizim atalarımız bundan əvvəl müşrik olmuşlar, biz də onların övladı idik və onları təlqin edirdik. Onlara görə bizi həlak edərsənmi**? (Əraf-172)** Bu səbəbdən yenə də soruşuram:

-Mən sizin Rəbbiniz deyiləmmi?

-Bəli, Sən bizim Rəbbimizsən! Ancaq sənə ibadət edir, səndən yardım diləyirik-demişlər.

Alim və hər şeyi bilən Uca Allah onlardan bir daha "Tövhid" sualını soruşmuş:

-Bəli,bizim Rəbbimiz yalnız Sənsən! Ancaq Sənə ibadət edir, Səndən yardım diləyirik,-deyə, üç dəfə Allahın verdiyi suala cavab vermişlər.

Həmin bu danışmanın baş verdiyi zamana"Qalu-Bəla"deyilir və o zamandan da insanlar"Biz Müsəlmanıq" demişlər. Bu etiraf Ərəfə gününə təsadüf etmişdir. Həmin aləmə"Zərr-aləmi",həmin əhdə "Ələst-əhdi" deyilir. Adəm övladları atalarından analarının bətninə zərrələr şəklində keçir. Bu səbəbdən"Zərr-aləmi" dedikdə, yaranışa aid olan əhd nəzərdə tutulur. Adəmin bəzi övladları "Zərr- aləmində" qəlbən iman gətirməsələr də Allahın varlığını etiraf etdilər.

Peyğəmbər(s.ə.s.) buyurmuşdur ki, Allah qüdrət fitrətini və haqq olduğunu insanın xarakterinə qoymuşdur. Onun İlahi fitrəti bütün yaranmışların batinində əmanətdir. İnsanların əql və düşüncəsi Allahın varlığına şahid olduğundan, həmin iman bir həqiqət olaraq düşüncələrdə yer almışdır. Allah-taala Tövhid, təkallahlılıq inancını insanın fitrətində qərarlaşdırmışdır. Hər bir insan hansısa şəkildə Allahın varlığını dərk

edib,şəhadət verir. Buna dörə də Qiyamət günü insanlardan Allahdan xəbərsizlik iddiası qəbul olunmayacaqdır.Yəni "mənim Allahdan, onun buyurduqlarından xəbərim yoxdur,bu haqda mənə heç məlumat verilməmişdir"deyə bilməməyəcəklər.

Allahın Adəmin yanında, onun Qiyamət gününədək dünyaya gələcək övladlarından alınan bu əhddən sonra, insan ruhunun bu sözünün nə dərəcədə səmimi olduğunu ortaya çıxarmaq üçün bu dünyanı bir imtahan yeri olaraq yaratmışdır. Hər bir ruhu ayrı-ayrı bədənlərə yerləşdirərək, onları müəyyən zaman fasilələri ilə bu imtahan meydanına göndərmişdir.Beləcə insanın qarşısında iki yol açmışdır.Ya ağıl və iradəsini yaxşılığa sərf edərək"Qalu-Bəla" da"Ələst-əhdin"dəki kimi Allahı tanımaqla düzgün yolu davam edəcəkdir. Yaxud da ağıl və iradəsini pisliklərə sərf edərək Allahını inkar edəcək,Ona qulluqdan qaçacaq, Şeytanın yolu ilə gedəcəkdir.

Bu haqda Qurani-Kərimdə belə yazılmışdlr:

əl-Əraf-172- "Xatırla o zaman ki, Rəbbin Adəmdən insanların övlad və nəsillərini yaratdı.Və onları özünə şahid etdi. Sonra buyur-du:-Mən sizin Rəbbiniz deyiləmmi? Dedilər:-Bəli, biz şahid durduq ki, Sən bizim Rəbbimizsən. Bu etiraf Adəm nəslindən ona görə alınırdı ki, Qiyamət günü" biz bundan xəbərsiz idik "deməsinlər."

"Hədisi-Qüdsi"də Əbü Cəfər ibni Yəqub Kuleyni nəql etmişdir ki:-İmam Məhəmməd Baqir (ə.s.) belə buyururdu:-Uca Allah Adəmin sülbündən yaranacaq nəslinin, sülaləsinin ruhlarından "Qalu-Bəla" zamanı,"Zərr-aləmin"də,"Ələst əhdi"ni, yəni Tövhid əhdini aldıqdan sonra, bütün Peyğəmbərlərin Nübüvvəti barəsində də əhdi-peyman almışdı.Bu zaman onlardan aldığı ilk əhdi-peyman Hz. Muhəmməd ibni Abdullahın Nübüvvəti barəsində alınan əhdi-peyman olmuşdu.

Sonra Allah-taala Adəmə buyurdu:-Bax, gör, Məlakut aləmində nə görürsən? Adəm bütün övladlarını Məlakut aləmində əvvəldən axıra qədər müşahidə edərək gördü ki, onlar kiçik zərrələr şəklində asimanı doldurmuşlar. Adəm ərz etdi:

-Pərvərdigara! Mənim övladlarım nə qədər çoxdur!Sənin onlardan bu əhdü-peymanı almaqda məqsədin nədir?

Allah-taala buyurdu:-Ona görə əhdü-peyman alıram ki, Mənə ibadət etsinlər, heç nəyi Mənə şərik qoşmasınlar və mənim Peyğəmbərimə iman gətirib ona tabe olsunlar.

Adəm (ə.s.) ərz etdi:-Pərvərdigara, bu işin səbəbi nədir ki, zərrələrin bəzilərini böyük, bəzilərini isə kiçik görürəm? Bəzilərinin nuru çox, bəzilərinin nuru isə heç yoxdur?

Allah-taala buyurdu:-Onları istedad və ləyaqətlərinə uyğun olaraq yaratmışam ki, hər halda onları imtahana çəkəm.

Adəm(ə.s.) ərz etdi:-Pərvərdigara,danışmaq üçün mənə icazə ve-rərsənmi?

Allah-taala buyurdu:-Danış,çünki sənin ruhun Mənim ruhumdandır. Ruhunun tələbi nitq və bəyandır,təbiətin, cismin isə Mənim vücudumla müxalifdir.

Hz.Adəm dedi:-Pərvərdigara! Əgər onların hamısını eyni şəkildə və ölçüdə, eyni təbiət və fitrətdə xəlq etsəydin,onların hamısına eyni qədər ruzi və ömür versəydin,onda onlar bir-birinə təcavüz etməz, aralarında həsəd, kin-küdurət yaranmaz,heç bir şey barəsində ixtilaf əmələ gəlməzdi.

Allah-taala buyurdu: - Ey Adəm!Mənim sənə verdiyim ruh vasitəsilə danışıb dərk etdin, lakin təbiətində olan nöqsan və çatışmamazlıqlar səbəbilə, elmin olmayan mətləblər deyirsən,çünki onların həqiqətini bilmirsən.Halbuki Mən xəlq edən, elm və hikmət sahibiyəm, məhz bu elm və hikmətim sayəsində məxluqatı müxtəlif şəkillərdə xəlq edərək işlərini idarə edirəm. Onlar Mənim təyin etdiyim qanunlar və təlim-tərbiyə əsasında öz vücud hərəkətlərini davam etdirirlər. Mənim qoyduğum xilqət qanunlarında heç bir dəyişiklik yoxdur. Mən cinləri və insanları yaratmışam ki, Mənə ibadət etsinlər. Çünki onların vücud mərhələlərini ötüb keçməkdə, yəni bədənlərini dəyişərək,həyat sürmələrində, yeganə hərəkətverici qüvvəsi Məni tanıyıb ibadət etməkdən ibarətdir. Behişti o kəslər üçün xəlq etmişəm ki, onlar Mənim Peyğəmbərlərimə itaət edib,əmrlərinə tabe olarlar. Cəhənnəmi o kəslər üçün xəlq etmişəm ki, Mənə qarşı kafir olub üsyan edər, Peyğəmbərlərimə tabe olmazlar. Mən səni və sənin övladlarını heç birinizə ehtiyacım olmadığı halda yaratmışam.Hamınızı buna görə yaratmışam ki, imtahan verəsiniz və sizin dünyadakı işlərinizin hansının yaxşı, hansının pis olması məlum olsun. Dünya və axirəti, həyat və ölümü, səadət və bədbəxtliyi, behişt və Cəhənnəmi məhz buna görə yaratmışam.

Mən Özümün nüfuzlu tədbirim və elmim ilə onların surətləri, cisimləri, rəngləri və ömürləri, ruziləri, itaət dərəcələri arasında fərq qoymuşam və hərəyə bir cür bəxt-tale,ömür-gün, ruzi-bərəkət yazmışam.

Bunların hamısı xilqətin tələbi idi ki,sağlam və eyibsiz şəxs, eyibli və əlil şəxsə baxıb Mənə şükür və həmd etsin, yaxud eyibli şəxs sağlam şəxsə baxıb Mənə təvəssül etsin ki,onu yaxşı mükafatla mükafatlandırım.Yaxud varlı şəxs fəqirə baxsın,ona əta etdiyim sərvət müqabilində həmd etsin. Fəqir də varlını görməklə Məndən sərvət istəsin.Mömin

şəxs kafirə baxıb, ona əta etdiyim hidayət səbəbilə Mənə həmd-səna etsin.Fitrətlərinin bu həqiqətlərini nəzərə almaqla Mən bu insanları yaratmışam ki,imtahan edim. Belə etmişəm ki, öz zatlarının tələbi və ehtiyacları qədər firavanlıqda və asayişdə, həm çətinliklərdə Məni yad etsinlər və anlasınlar ki, Mən bəzilərinə nemət verir, bəzilərinə isə vermirəm. Bütün bəndələrim bilməlidirlər ki, Mən Qadir, Qüdrətli Allaham! Öz təqdir və lazım bildiklərimi, iradə etdiklərimi əməli olaraq həyata keçirirəm. Həmçinin bu tədbirlərin hər birini, sizin niyyət və əməllərinizə görə dəyişə bilərəm. Mən elə bir Allaham ki, hər şeyi iradə etmək istəsəm, heç kəs Mənim iradəmin qarşısını ala bilməz və Mənim işlərim barəsində izahat verilməsini istəyə bilməz. Lakin Mən hər kəsin barəsində sorğu-sual edəcəyəm. Çünki Mən Adil Allaham!

əl-Hicr-99-Allah insanı özünə ibadət üçün yaratmış.”Əcəl gəlib çatana qədər ibadət et,” - deyə buyurmuşdur.

əl-Muminun-12-14-Həqiqətən, biz insanı saf palçıqdan yaratdıq. Sonra insan övladını nütfə halında möhkəm yerdə yerləşdirdik. Sonra ağ nütfədən qırmızı qan etdik, o qanı döyülmüş və çeynənmiş ət etdik, sonra əti bərkidib sümük etdik və sümükləri libas üryan adamı örtən kimi ətlə örtdük.

əl-Mumin-69-O,elə bir Allahdir ki, sizi ölü bir nütfədən dirildər və dirildəndən sonra öldürər. Allah bir şeyi vücuda gətirmək istəsə, ona yalnız “Ol!”-deyər,o da olar.

ət-Təğabun-2-3-O, elə Allah ki, sizi yoxdan yaratdı. Sizin bəziniz kafirsiniz,bəziniz isə möminsiniz. Allah sizin nə etdiyinizi görəndir! Allah-taala göyləri və Yeri ədalətlə yaratdı və sizin surətinizi çəkdi, sizi kamil insan etdi, qayıdacaq yer onun tərəfinədir.

əl-Muminun-79-80- O, elə bir Allahdır ki, sizin üçün qulaq, göz, ürək və sair üzvlər yaratdı ki, siz şükür edəsiniz, amma əvəzində siz az şükür edirsiniz.O sizi yer üzündə yaratdı və siz onun tərəfinə qayıdacaqsınız.

ALLAH İNSANI KİŞİ VƏ QADIN OLARAQ YARATDI

əl-Qiyamə-37-39-Məgər tökülən bir qətrə nütfə deyildirmi? Sonra laxtalanmış qan (ələq) oldu və Allah onu yaradıb surət verdi. Sonra da ondan biri kişi, biri qadın olmaqla iki cüt yaratdı.

Yasin-36-Ciftlərin və siniflərin hamısını,yerdən göyərən şeyləri, insanların özlərini və onların bilmədiklərini yaradan Allah bütün eyiblərdən pakdır!

əz-Zariyat-48-49-Biz göyü öz qüdrət əlimizlə yaratdıq.Bizim ona gücümüz çatar. Biz yeri döşədik. Biz necə də gözəl döşəyənlərik. Hər şeyi cüt yaratdıq ki, bəlkə nəsihət qəbul edəsiniz və onlara baxıb, Allahın qüdrətinə inanasınız.

Açıqlama:-Qurani-Kərimdə buyurulduğu kimi,insan 9 ay ana bətnində, 3 zülmət içində yerləşərək, əvvəlcə cansız, sonra yarımcan,axırda tam canlı olmaqla, bir müddət o zülmət məhbəsdə qalandan sonra, çətinlik və məşəqqətlə bu dünyaya, ona yad olan başqa bir aləmə gəlir. Yaxın vaxtlara qədər insanlar belə hesab edirdilər ki, uşağın cinsiyyətini ya ana hüceyrələri,ya da ata ilə anadan gələn hüceyrələr birlikdə müəyyənləşdirir. Lakin Quranda bu haqda belə məlumat verilmişdir:

ən-Nəcm-45-46-"Hər bir cütü erkək və dişi yaradan Odur. O zaman ki,nütfə kişinin belindən qadının bətninə ayrıldı."

Açıqlama: Quranda verilən bu məlumatın doğruluğunu genetika və mikrobiologiya elmlərinin inkişafı qəti şəkildə təsdiq etdi. Cinsiyyətin tamamilə kişidən gələn sperma hüceyrələri tərəfindən müəyyən edildiyi, qadının isə bu işdə heç bir rolunun olmaması meydana çıxdı. Cinsiyyəti müəyyən edən əsas amil xromosomlardır. İnsanın quruluşunu müəyyən edən 46 xromosomdan ikisi cinsiyyət xromosomudur. Bu iki xromosom kişidə XV,qadında isə XX kimi tanınır.V xromosomu özündə kişilik,X xrosomu isə qadınlıq genləri daşıyır.Yeni doğulan uşağın cinsiyyəti kişidəki xromosomlardan hansının qadının yumurtası ilə birləşməsindən asılıdır.

Xilqətin bağlıca mehvəriyik biz,
Dərk etsən, bəsirət gövhəriyik biz.
Cahan dairəsi qızıl bir üzük,
Onun ən dəyərli gövhəriyik biz.
Bu torpaq ki, onu tapdayır heyvan,
Olmuş bir zamanlar gül üzlü canan,
Eyvanda gördüyün kərpic yaranmış
Vəzir barmağından, sultan başından. (Ömər Xəyyam)

ALLAH İNSANLAR ÜÇÜN GÖZƏTÇİ MƏLƏKLƏR TƏYİN EDİB

Qaf-17-18-O zaman görüşən mələklər bir-birinə yetişərlər. Onların biri sağda, o biri solda əyləşib və onlar bəndədən ayrılmazlar. Bəndə hər bir söz danışanda, ağzından çıxan kimi mələklər yazarlar.Sağ tərəfdə

olan mələk yaxşı əməli birə on yazar,sol tərəfdə olan mələk pis əməli yeddi saatdan sonra yazar ki, bəlkə bəndə tövbə etsin.

ət-Tariq-1-4-And olsun göyə və zahir olana!Sən nə bilirsən ki, zahir olan nədir? O yanan ulduzdur, qaranlığı dələrək nurunu ətrafa yayar.Elə bir şəxs yoxdur ki,onun üçün mələklərdən nəzarətçi olmasın.

əl-Qaf-21-Hər bir kəs məhşərə gələr.Onların hər biri üçün bir sürüyən və bir şahid olan mələk vardır.Sürüyən mələk onu zorla məhşərə gətirər, şahid olan mələk isə onun əməllərinə şahidlik edər.

İLK YARATDIĞI QƏLƏM OLDU

Qələm ki bu həyatda tərpənərək ilk dəfə,
Sözdən yazdı, diqqətlə baxsan birinci hərfə.
Bu xəlvət pərdəsini açan zaman əlbəəl,
Söz oldu bu cahanda cilvələnən ilk gözəl.
Demədikcə ürəyə söz ki, cavab ver mənə,
Daxil olmazdı əsla can bu palçıq bədənə,
O zamandan ki, qələm yazdı, yazdı, dürr saçdı,
Bu dünyanın gözünü ilk dəfə sözlə açdı. (“Sirlər Xəzinəsi”)

əl-Qələm-1-(Nun)-And olsun mürəkkəbə. Qələmə və onlarla yazılan sözlərə, ya vəhy yazılan nurdan ibarət olan Lövhəyə, ya behiştdə axan çaylara, ya o qələmə ki, onunla vəhy yazılır.

(**Mövlana Furatı “Qırx sual” kitabından:** Cənabi-Allahın ilk yaratdığı-Nuri-Muhəmməd, Lövhu-Məhfuz, Qələm, Əql və beş kimsənin ruhudur ki, bütün ruhların və cisimlərin başlanğıcı, əsası və ilk cövhəridir. Bütün ruhların və cəsədlərin başlanğıcı və qaynağı da bu cövhərdir.

Cənabi-Allah Ərşi-əzəmin altında və onun nurundan yaşıl, qırmızı rəngli qaşlarla bəzədilmiş böyük bir Lövh yaratmışdır ki, çevrəsi qırmızı yaqutdandır. Zümrüd rəngində də yaşıl bir qələm yaratmışdır ki, uzunluğu yüz illik məsafədir. Onun mürəkkəbi bəyaz nurdandır. Cənabi-Haqq Qələmə:“Yaz!”deyə əmr etdiyində,Qələm sarsılmış, üzüntü duyaraq göy gurultusu səsi kimi bir səslə təsbihə başlamış və ilahi əmrləri, Qiyamətə qədər olub bitəcəkləri Lövhu-Məhfuzda yazmışdır. Beləcə Lövhu-Məhfuzu yazıyla doldurmuş, vəzifəsini bitirdikdən sonra mürəkkəbi qurumuş, artıq xoşbəxt olan xoşbəxt, bədbəxt olan bədbəxt olmuşdur. Lakin Cənabi-Allah hər gecə-gündüz Lövhu-Məhfuza 360 dəfə baxar, hər baxışda bir şeylər silər, yerində başqa bir şey təsbit

edər. Cənabi-Allah Yer və göy xalqının bilməsi və bütün məxluqatın qədərlərinin yazıya görə cərəyan etməsi üçün bəndələrinin başından keçəcək bütün işləri (talelərini) Lövhu-Məhfuza yazdırmışdır.

əl-Hədid-22-Sizin həyatınızda qıtlıq, aclıq, xəstəlik, ölüm və bir çox müsibətlər baş vermədi ki,onun haqqında canlarınızı yaratmamışdan qabaq Lövhu-Məhfuzda yazılmamış olsun. Bu işləri sizin haqqınızda əmələ gətirdik ki, əlinizdən çıxan şeylərə görə məyus olmayasınız. Çünki dünyanın bütün nemətləri çox tez aradan gedəndir. Allah bütün təkəbbürlüləri və başqasının yanında fəxr edənləri sevməz.

Hud-119-Allah insanların dində ixtilafda olub-olmayacaqlarını, özlərini necə aparacaqlarını əzəldən bildiyi üçün onların bütün gələcək işlərini və hərəkərlərini öz qüdrət Qələmi, Lövhu-Məhfuzda yazmışdır.

Açıqlama: Sözü xilqətin birinci gözəli adlandıran Nizami Gəncəvi doğru göstərir ki, qələm hərəkətə başlayan zamandan dünyanın gözünü sözlə açıbdır. Söz insanın canı, bədən isə onun mənzilidir. Bayraqlar söz qədər qələbə çala bilməz,söz hər şeydən qiymətlidir.

Sözdən bir səs, bir nəfəs gəlməmiş,inan mənə:
Can girmədi palçıqdan xəlq olunmuş bədənə.
O gündən ki, qələmlə kağız çatdı şərəfə,
Cahan açdı gözünü, sözü gördü ilk dəfə.
Söz olmasa,yerində dünya donardı, sözsüz,
Nə qədər söz dedilər, yenə əskilmədi söz.
Söz -canımızdır. Eşqin lüğətinə baxsana!
Biz sözük, gövdəmizsə yalnız xarabaxana!
Yalnız qələm gücünə düşüncələr saxlanır,
Misra söz quşlarının qanadına bağlanır.
Bu sonsuz aləmdə ki, həm təzədir, həm köhnə,
Tükü qırx yerdən bölən sözdən kəskin nə var, nə?
Düşüncənin əvvəli, rəqəmin, sayın sonu,
Təkcə sözdür, təkcə söz, yadında saxla bunu.
Ölsək, sözlə ölərik, qalsaq, sözlə qalarıq.
Damarları donanlar sözdə tapar atəş, köz,
Bağrı yananlar üçün dirilik suyudur söz.
Sözdür bərbad aləmin abad qalan guşəsi,
Bu fələk süfrəsinin ən dadlı azuqəsi!
Söz tapa bilməsəydi candakı şah damarı,
Can kələfin ucunu, aləmi tapardımı?
Sözlə kəşf eləyiblər hər qaydanı, hər yönü,

Həm təbiət mülkünü, həm şəriət möhrünü.
Qədim, sonsuz cahanı odur quran, saxlayan,
Qələmlərin boynuna boyunbağı bağlayan. (”Sirlər xəzinəsi”)

HƏR İŞ LÖVHU-MƏHFUZDA YAZILIB

Əməl dəftəri haqqında Qurani-Kərimin 16 ayəsində qeyd edilmişdir.

əl-Vaqiə-78-Gizli kitabdakı insanlardan gizlin olan, Allahın yanında idi. Gizlin kitab ”Lövhu-Məhfuzdan” ibarətdir.

əl-Həcc-70-Məgər siz bilmirsiniz ki, Allah göydə və Yerdə olanları bilir,heç bir şey onun üçün məxfi deyil?Bunların hamısı kitabda,“Lövhu-Məhfuzda”yazılıb.

ən-Nəml-75-Göylərdə və yerdə(heç kəsin bilmədiyi) elə bir şey yoxdur ki, açıq-aydın kitabda (Lövhu-Məhfuzda) yazılmış olmasın.

Açıqlama:-İnsan yarandığı gündən müəyyən hadisələrlə imtahan olunur və heç kəs bu hadisələrdən sığortalanmamışdır. Yəni Allah-taala biz insanları dünyaya gətirməzdən çox-çox əvvəl, bizim taleyimizi və həyatımızı Lövhu-Məhfuzda yazdırıb, müəyyən edərək Yer üzünə göndərmişdir. Allah-taala ətrafımızda xəbər aparan, xəbər gətirən və əbədi olaraq sağ və sol çiynimizdə əylə şən gözətçi mələkləri bizim üçün nəzarətçi təyin etmişdir. O, bizi anamızdan da, özümüzdən də daha yaxşı tanıyır. Necə ki, Qurani-Kərimdə buyurur:

ən-Nəcm-32- Sənin Allahın çox bağışlayandır. Allah sizi yaratmamışdan da qabaq yaxşı tanıyırdı. O vaxt ki, sizin əcdadınızı torpaqdan yaratdı. Siz analarınızın bətnində olduğunuz zamanda Allah sizi yaxşı tanıyırdı.Buna görə özünüzə paklıq nisbəti verməyin, özünüzü böyük sayıb tərif etməyin. Allah sizin təqvalı olanınızı çox yaxşı tanıyır.

Yasin-12-Həqiqətən, ölüləri dirildən, onların dünyada nə etmiş olduqlarını və nə qoyub getdiklərini yazan Bizik. Biz hər şeyi “Lövhu-Məhfuzda”təsbit etmişik.”

Loğman-34-Həqiqətən, Qiyamətin qopacağı vaxt ancaq Allah bilir. Yağışı istədiyi vaxt göydən O yağdırır, bətnlərdə olanı, doğulacaq uşağın oğlan, yaxud qız, xəstə və ya sağlam, xoşbəxt və ya bədbəxt, yaxşı və ya pis əməl sahibi olacağını O bilir. Hər kəs səhər nə edəcəyini (savab,yaxud günah qazanacağını),heç kəs harada öləcəyini bilməz. Allah isə, şübhəsiz ki, hər şeyi biləndir və hər şeydən xəbərdardır.

əl-Ənam-59-Gizlin işləri açmağın açarları Allah yanındadır.Onu yalnız Allah bilir. O, dəryada və səhrada olanları bilir. Ağacdan düşən elə bir yarpaq yoxdur ki, Allah onu bilməsin.Yerin qaranlığın da, torpa-

ğın altında elə bir dən, elə bir yaş-quru yoxdur ki, bəyanedici kitabda olmasın.

ALLAH İNSANI FAİLİ-MUXTAR YARATDI

əl-Əbəsə-20-31-Allah onu hansı şeydən yaratdı?(Allah özü cavab verir)Allah insanı nütfədən yaratdı və necə istədisə, onun əndazəsini o cürə yaratdı. Sonra yolu ona asan etdi,xeyir və şər yollarını ona göstərib, insanı faili-muxtar etdi. Sonra onu öldürüb qəbrə daxil etdi. Allah istədiyi vaxt onu dirildər və Həşrə gətirər. Xeyr, heç kəs Allah əmr edən əməlləri yerinə yetirmədi. İnsan gərək öz yeməyinə baxsın. Biz sizin üçün yağış yağdırdıq, yerdən ot, ələf, dəni cücərtdik, üzüm, yonca, zeytun, xurma ağacı, meyvələr, otlaq və ağacları bir-birinə sarmaşan bağlar yetişdirdik ki, insanlar və heyvanlar ondan qidalansınlar.

Açıqlama:-Qurani-Kərimdən belə məlum olur ki,insan faili-muxtardır, yəni bütün hərəkət və seçimində sərbəstdir.Əgər insan faili-muxtar olmasaydı, onda hamı eyni düşüncədə və amalda olardı.Lakin Allah bizləri müxtəlif yaratdığı kimi, müxtəlif də ağıl-düşüncə və qədər yazmışdır. Bu haqda Quranda belə buyurulur:

"Hud-118-Əgər Rəbbin istəsəydi, bütün insanları tək bir ümmət edərdi. Lakin Rəbbinin mərhəmət etdiyi kimsələr istisna olmaqla, onları müxtəlif yaratmışdır."

Biz insanlar, həqiqətən də, belə düşünürük ki,bütün hərəkət və düşüncələrimiz yalnız özümüzə məxsusdur.Yəni ürəyimiz istəyən kimi hərəkət edir, danışır, gəzir, yeyib- içir,hər bir işimizdə özümüzü sərbəst bilir və nəfsi istəklərimizə uyaraq bu həyatda yaşayırıq. Lakin Qurani-Kərimdə bizim bütün hərəkər və düşüncələrimizin, hətta alıb-verdiyimiz nəfəsin belə, Allahın əmrində və nəzarətində olduğu haqda ayələr buyurulmuşdur:

"Qaf-16-And olsun ki, Biz insanı yaratdıq və nəfsinin ona nə vəsvəsə etdiyini də Biz bilirik. Biz ona şah damarından da yaxınıq! (İnsanın adi hərəkətlərindən tutmuş, ürəyindən keçən ən gizli hisslər, duyğular belə Allaha məlumdur.)"

"əl-Qiyamə-36-"Məgər insan elə güman edir ki,o başlı-başına buraxılacaq?"

"ən-Nəhl-77-Göylərin və yerin qeybini, gözə görünməyən, heç kəsə bəlli olmayan məchul sirlərini bilmək ancaq Allaha məxsusdur. Qiyamətin qopması əmri bir göz qırpımında, yaxud daha tez olar. Allah həqiqətən hər şeyə qadirdir."

Açıqlama:Yuxarıda qeyd edildiyi kimi, Allah-taala ilk yaratdığı

Qələm vasitəsi ilə Lövhu-Məhfuzda,hələ biz dünyaya gəlməmişdən əvvəl qədərimizi yazmışdır.

Bütün hökm və ixtiyarımız yalnız onun əlindədir, niyyətimizdən də xəbərdardır və bir nəfəs alıb verdiyimiz qədər də belə ixtiyar sahibi deyilik. Həyatda başımıza gələnlər də yalnız onun istəyi və əmri ilədir. Biz isə bu hadisələri yalnız qıraqdan (ya üsyan edərək, ya da susaraq) müşahidə edə bilirik.

Əgər bizim taleyimiz əvvəldən yazılmışsa, bütün həyatımız, cismimiz, əqlimiz, ruhumuz yalnız Uca Allahın nəzarətində və ixtiyarındadırsa, onda bizim faili-muxtar olmağımızda nə hikmət vardır? Belə qənaətə gəlmək olar ki, Allah bizlərə verdiyi bütün saysız nemətlərlə imtahan edərək, iki yol ayrıcında qoyur və bu iki yoldan birini seçməyi bizə təklif edir. Ya bu yollardan düzgününü, iman yolunu seçməklə, yalnız ona ibadət edərək, Cənnətə gedəcək, ya da ki, nəfsimizin istəklərinə, öz qüdrətimizə (bizə elə gəlir) uyaraq, təkəbbürlü Şeytanın qoşunu ilə birlikdə Cəhənnəmə atılacağımızı bildirir. Hər iki yolu da bizim üçün qoyan Uca Allahdır!

Bu haqda Quranda belə buyurulur:

"əl-Bələd-8-10-Məgər biz ona iki göz vermədikmi ki, Allahın hikmət və qüdrətini görsün? Eləcə də bir dil və iki dodaq yaratdıq ki, onların vasitəsi ilə ürəklərindəki sözü bəyan etsinlər.Biz onu iki yola hidayət etdik.İnsanı həm xeyir, həm də şər, həm Behişt və həm də Cəhənnəm yoluna hidayət etdik."

"əl-Ənam-104-Həqiqətən də, Rəbbiniz sizə açıq dəlillər gətirmişdir. Artıq kim gözünü açıb bunları görərsə, öz xeyri nədir. Kim də korluq edərsə,öz nəfsinə zərər etmişdir. Pis işlərdən sizi çəkindirmək üçün mən sizin gözətçiniz deyiləm. (Mənim vəzifəm yalnız təbliğ etməkdir.)"

Qadir və Alim olan Allah ən istəkli bəndəsi və rəsulu olan Hz.Muhəmmədin ümmətinə, doğru, düzgün yolu seçmələri üçün başqa ümmətlərə nisbətən, daha çox fürsətlət vermişdir. Yəni İslam dinində olan insanlar üçün müəyyən etdiyi vacibi ibadət-itaət hökmlərindən əlavə, müqəddəs aylar,günlər və gecələr də təyin etmişdir ki,bu günlərin də öz ibadət və itaət hökmləri vardır

Uca-Allah, ilin12 ayından 6 ayını (4-haram, 3-də mübarək, Rəcəb ayı həm mübarək, həm də haram aydır) bizlər üçün müqəddəs edib, hədiyyə etmişdir ki, bu günlərdə Ona daha çox ibadət edək, Onu daha yaxından tanıyaq və bununla da hidayət yolunu tapmış olaq. Allah bizim qədərimizi və nəfsimizi bilərək, bu dünyaya imtahan etmək üçün gətirmişdir. Bu haqda Qurani-Kərimdə belə buyurulur:

"əz-Zariyat-56-Mən insanları və cinləri ancaq Mənə ibadət etmələri üçün, yaxud Məni tanımaları üçün yaratdım."

“əl-Kəhf-6-Həqiqətən, yer üzündə olan şeyləri, canlı-cansız bütün yaranmışları insanlara imtahan üçün zinət verdik ki, onların pis və ya yaxşı əməllərini biləк.”

“ət-Tovbə-78-Ürəklərin sirlərindən və pıçıldaşmalarından Allahın xəbərdar olduğunu bilməyirlərmi? Çünki gizliləri bilən yalnız Allahdır. Allahın yanında ibadət edənlə etməyən bir deyildir.”

Deməli, taleyimizin“Lövhu-Məhfuzda”yazılmasına baxmayaraq, Allah-taala bizlərə bir daha fürsət verir ki, bəlkə ibadət, itaət, niyyət və əməllərimizə görə, taleyimizdə, qədər-dəftərimizdə həm bu dünya, həm də axirətimiz üçün Allah Özü (yaxşı tərəfə) dəyişiklik edə bilsin. Bu haqda Uca Allah Qurani-Kərimdə belə buyurur: **”Mən sizin qədərinizi dəyişdirməyənəcən nə ins, nə də cins dəyişdirə bilməz.”**

“əl-Ənkəbur-7-İman gətirib yaxşı işlər görənlərin əvvəlki günahlarının üstünü örtər və onlara dünyada etdikləri əməllərdən daha gözəl(on qat) mükafat verərik.Və ya gördükləri ən yaxşı əməllərə görə onları mükafatlandırarıq.”

“ər-Rəd-39-Əvvəl nazil olan hökmdən Allah hansını istəsə, pozub, əvəzinə başqasını qoyar. Birinci hökm nə qədər ki, zamanının tələbinə uyğundursa, qalar.Lakin tələb dəyişsə, hökm də dəyişər. Əsil kitab, Lövhu-Məhfuz Allahın yanındadır.”

“əd-Duxan-1-8-And olsun Allahın həlimliyinə və böyüklüyünə və aşkar olan Kitaba! Həqiqətən, biz onu mübarək gecədə nazil etdik. Həqiqətən,biz günahkarları Quran vasitəsi ilə qorxudarıq!O gecədə hikmətə uyğun olaraq əmrlər bir-birindən ayrılar. Allahın əvvəldən müəyyən etdiyi işlər: ömür, xəstəlik, səadət, zəlillik və sair işlər haqqında hikmətə uyğun hökm olunar. Biz öz tərəfimizdən hər işə hökm edərik. Həqiqətən, Peyğəmbərləri və Kitabı göndərən bizik. Sənin Allahının tərəfindən rəhmət olan halda ki, insanların behiştə getməsinə səbəb olsun.Həqiqətən, Allah bəndələrinin dualarını eşidən və əməllərini biləndir. Ondan başqa haqq olan Allah yoxdur! O, insanları öləndən sonra dirildər və dırildəndən sonra öldürər**.” (Kitabul-Bəyan fi təfsiril Quran.)**

Mövlana Furatı “Qırx sual”:Cənabi-Allah Ərşi-əzəmin altında və onun nurundan yaşıl zəbərcəd (qızılı-yaşıl rəngli daş) rəngli, böyük bir Lövh yaratmışdır ki, çevrəsi qırmızı yaqutdandır. Cənabi-Allah, Yergöy xalqının bilməsi və bütün məxluqatın qədərlərinin yazıya görə cərəyan etməsi üçün bəndələrinin başından keçəcək bütün işləri Lövhi-Məhfuza yazdırmışdır.Lakin Cənabi-Allah hər gecə və gündüz Lövhi-Məhfuza 360 dəfə baxar, hər baxışda bir şeylər silər, yerində başqa bir şey təsbit edər.-Məhfuzu və qələmi inkar edən münafiqdir.

QEYBİ BİLƏN ALLAHDIR

Cinn-26-O Allah qeybi biləndir, heç kəsə öz qeyb işini aşkar etməz!

əl-Bəqərə-33-Allah dedi: ”Sizə demədimmi, göylərin və yerlərin qeybini Mən bilirəm, aşkar etdiklərinizdən də, gizlətdiklərinizdən də agaham.”

əl-Hicr-24-Həqiqətən,biz sizdən əvvəl gələnlərin və sonra gələcək kəslərin əhvalatını bilirik. Allah hər şeyi bizim üçün gözəl xəlq etdi.

əl-Fatir-38-Şübhəsiz ki, Allah göylərin və yerin qeybini, gözə görünməyən sirlərini bilir.O, ürəklərdə olanları biləndir.

ər-Rəd-9-O, qeybi də, aşkarı da biləndir.Allah eyibsiz və nöqsansızdır.Onun heç bir şəriki yoxdur.

əl-Mülk-13-14-Sözünüzü gizli saxlasanız da, aşkar etsəniz də, şübhəsiz ki, Allah sinə sahiblərindən xəbərdardır. Məgər yaradan sinələri bilməzmi? Allah lətif, görən və xəbərdardır.

ALLAH SİNƏLƏRDƏKİ GİZLİ SİRLƏRİ BİLİR

ət-Təğabun-4-Allah göylərdə və yerdə olanları bilir.O sizin gizli saxladığınız və aşkar etdiyiniz şeyləri də bilir. O, sinələrdə olanları biləndir, insanların ürəyində nəyi gizli saxladıqlarını biləndir.

əl-Bəqərə-284-Göylərdə və yerdə olanlar Allah üçündür. Qəlbinizdə olan xeyir, ya şər əməllərini aşkar etsəniz də, gizli saxlasanız da, Allah onun hesabını sizdən çəkəcəkdir. O, istədiyi kəsi bağışlar, istədiyi kəsə əzab verər. Allah hər şeyə qadirdir.

ər-Rəd-10-Sizdən sözünü gizlədən də, onu açıq deyən də, gecənin qoynunda gizlənən də,gündüz aşkar gəzib dolanan da Allah üçün eynidir.Allah kimin nə etdiyini bilir.Heç bir şey ondan gizli qalmaz.

ALLAH GİZLİ DANIŞIQLARIMIZI BİLİR

Taha-6-7-Göylərdə,Yerdə onların arasında və yerin altında olanlar Allaha məxsusdur, onun mülküdür. Əgər sən istər ucadan danışasan, istərsə yavaş danışasan, istərsə də qəlbində gizli bir sirr ola, sonra onu unudasan, bütün bunlar Allahdan gizli deyildir.

əl-Ənbiya-4-Allah buyurdu:-Ey Muhəmməd!De ki, mənim Allahım hər bir danışan şəxsin sözünü göydə və yerdə olmasından asılı olmayaraq bilir. Allah eşidən və biləndir.

əl-Mücadələ-7-Məgər sən görmürsənmi, göylərdə və yerdə olan işlərin hamısını Allah bilir? Üç nəfərin arasında elə bir gizli danışıq

olmaz ki, Allah onların dördüncüsü olmasın.Beş nəfər arasında elə bir gizli toplantı olmaz ki, Allah onların altıncısı olmasın. Bu sayda az, ya çox,elə bir insan olmaz ki, Allah onlarla olmasın. Qiyamət günü Allah onların etdikləri əməllərdən xəbər verər.

BÜTÜN GİZLİ İŞLƏR AŞKAR OLAR

əl-Ənam-3-Göylərdə və yerdə də olanlar Allahındır. Sizin aşkar və gizlin etdiyiniz əməllərinizi, xeyir və şərdən qazandıqlarınızı da bilir.

əl-Fəcr-14-Şübhəsiz ki, Rəbbin bəndələrinin bütün əməllərini görür. Heç bir şey ondan gizli qalmaz.

Ali-İmran-29-Ya Muhəmməd! De ki:-Ürəklərinizdəkini gizlətsəniz də, aşkara çıxarsanız da,Allah onu bilir.Çünki O, göylərdə və yerdə olanların hamısını biləndir. Allah hər şeyə qadirdir.

ət-Tariq-9-10-Bütün sirlərin aşkar olacağı o Qiyamət günü, bütün sirlər aşkar olacaq!

əl-Həcc-75-Allah onların nə etdiklərini də, nə edəcəklərini də bilir. Bütün işlər (nəticə etibarilə axirətdə) ona qayıdar! (Qiyamət günü bütün məxluqat öz əməlləri ilə birlikdə Allahın hüzurunda duracaqdır).

ALLAH İNSANI İBADƏT ETMƏK VƏ ÖZÜNÜ TANITMAQ ÜÇÜN YARATDI

əz-Zariyat-56-Mən insanları və cinləri ancaq Mənə ibadət etmələri üçün,yaxud Məni tanımaları üçün yaratdım.

ən-Həşr-22-24-O elə bir Allahdır ki, ibadətə layiq ondan başqa Allah yoxdur.O, gizlin və aşkarı biləndir,mehriban və bağışlayan da Odur. O, elə bir Allahdır ki, ondan başqa həqiqi məbud yoxdur. O, hər bir şeyə malikdir,(bütün eyib və nöqsanlardan) pakdır, salamatdır, arxayın edəndir, qoruyandır, qalibdir, işi yerinə qoyandır, böyük edəndir, ona şərik verilənlərdən pakdır. O, elə bir Allahdır ki,yaradandır,(bütün cisimləri və sifətləri) yoxdan vücuda gətirəndir və surət çəkəndir. Gözəl adlar onun üçündür. Göylərdə və yerdə olanlar ona təsbih edər. Allah qələbə çalan və hökm edəndir.

Açıqlama:-Uca Allah "Sifəti-sübutiyyə," yəni Özündə olan, Mülk (mütləq hökmranlıq əlində olan),Qadir (qüdrət sahibidir), Alim (hər şeyi öz elmi,hikməti ilə yaradan), Heyy-(həmişə diri, oyaq olan), Mürid (idarə edən, hərəkətə gətirən), Müdrik (hər şeydən xəbərdar olan, gizli işlərin hamısını bilən), Qədim (həm əzəli, həm də qədim, əbədi yalnız Özü olan) bu sifətlərini və bir daha Özünü bizə tanıdıb, bildirmək üçün Qurani-Kərimdə:-ibrət, əlamət, əmr, qorxu, sevgi, elm-hikmət, keç-

miş, gələcək, yer, göy, ibadət, itaət, məsləhət və göstərişlərdən ibarət olan ayələri təkrar-təkrar nazil etmişdir. Əlbəttə, bu ayələrin hər birinin batinində də neçə məna və hikmətlər vardır ki, insanlar üçün hələ də sirr olaraq qalmaqdadır. Lakin qisaca olaraq bunu qeyd etmək lazımdır ki, Qurani-Kərim:-insana özünün kim olduğunu, dünyaya nə üçün gəldiyini,necə yaşayacağını, haradan gəlib, haraya gedəcəyini, özünü və bütün yaranmışları xəlq edənin kim olduğunu dərk etdirmək üçün Vahid-Qadir-Allah tərəfindən insanlara rəğbət və mərhəmət olaraq nazil edilmişdir. Muhəmməd (s.ə.s.) ümmətinə nazil etdiyi bu Müqəddəs kitabda bütün hikmətlərlə bərabər, bizlərə hidayət və nicatımızın yalnız Özünə ibadət və itaət də olduğunu bildirməkdir.

İbadət-bilik deməkdir. Xeyir işlər və onları yerinə yetirmək vasitələrinə, həmçinin günahlar və onlardan çəkinmə yollarını öyrədən biliyə ibadət deyilir. Allah insanı ona görə bütün varlıqlardan üstün etmişdir ki, insan bütün işlərini ağıl və idrak ilə idarə edir. Həmçinin ona görə ki, insan öz yaranışını,öz xilqətinin əsasını, öz məişət və yaşayış vəziyyətini düşünüb dərk etsin. Öyrənmək fürsətini itirməzdən əvvəl, özünün xeyir və şər yolunu bir-birindən ayıra bilsin:

"əl-İsra-89-Biz bu Quranda insanlar üçün hər cür məsəllərdən: əmr, əhkam, moizə, qissə və ibrətlərdən məsəl çəkib onlara izah etdik. Həqiqətən, xalqın çoxu qəbul etmədi və onlar küfrdən başqa bir şeyə razı olmadılar."

əl-Hicr-99-Öz Allahının həmdini zikr et və Allaha səcdə edənlərlə ol! Ölənəcən, əcəlin gəlib çatana qədər Rəbbinə ibadət et!

əl-Bəqərə-21-Ey insanlar, sizə və sizdən öncəki insanları yaradan Allaha ibadət edin,bəlkə təqvalı olasınız.

əl-Bəqərə 163-Sizin Allahınız təkdir.Rəhman və Rəhim olan Allahdan başqa ibadətə layiq bir məbud yoxdur. İbadətə layiq yalnız Allahdır.

əl-Həcc-11-İnsanların eləsi vardır ki, Allaha şəkk ilə ibadət edər. İbadət iki yol ilə biri dil ilə, o biri qəlb ilədir. Əgər ona yaxşılıq yetişsə, ibadət edər, bir çətinlik, imtahan yetişərsə, üz dön dərib küfr edər. Belə bir ziyan aşkar və böyük ziyandır.

əf-Fussilət-38-Müşriklər Allaha ibadət etməyərək təkəbbürlük etsələr də, sənin Allahının yanında olanlar-mələklər gecə-gündüz Allaha təsbit edər və Allaha ibadət etməkdən yorulmazlar.

Hədis: İmam Hüseyn (ə.s.) buyurmuşdur: - Camaat!Allah-taala bəndələri yaratmışdır ki, Onu tanısınlar, Onu tanıyandan sonra Ona ibadət etsinlər və Ona ibadət etdikdən sonra başqasına ibadət etməyə ehtiyacları olmasın. **(Hədisi Qüdsi)**

ALLAHI ZİKR EDİN

əl-Əhzab-35-Allahı çox zikr edən kişilər və qadınlar üçün Allah bağışlanma və böyük mükafat hazırlamışdır.

əl-Əhzab-41-44-Ey iman gətirən kimsələr! Allahı çox zikr edin. Onu yaddan çıxarmayın və səhər-axşam Ona sitayiş edin. Allah və onun mələkləri sizə rəhmət göndərirlər ki, sizi qaranlıqdan, cəhalətdən işığa, mərifət və iman işığına aparsınlar, çünki Allah möminlərə rəhm edəndir. Möminlər Allahın rəhmətinə yetişən gün Allah tərəfindən gələn töhfə salamdır və yaxud bütün bəlalardan salamatçılıqdır. Allah onlar üçün böyük əcr hazırlamışdır.

Hədis:-Hz.Peyğəmbər(s.ə.s.) buyurmuşdur:-Əgər bir dəstə insan bir məclis düzəldib, orada Allahı zikr edib, Peyğəmbər və onun Əhli-beytinə salavati-salamlar göndərərlər, asimandan bir carçı mələk onları səsləyər:-Qalxın, sizin pisliklәriniz yaxşılıqlarla əvəz olundu.Zikr məclislərində mələklər iştirak edərlər. **(Hədisi Qüdsi)**

Zikrlər:Həyatda düşdüyümüz hər vəziyyət üçün zikrlər vardır:

əl-Bəqərə-156-157-O kəslər ki,başlarına bir müsibət gəldiyi zaman: ”Biz Allahın bəndələriyik və öləndən sonra Onun dərgahına qayıdacağıq,”-deyərlər. Onları Rəbbi tərəfindən bağışlanmaq və rəhmət (Cənnət) gözləyir.Onlar doğru yolda olanlardır!

Həmin zikr belə oxunur:”İnnə lilləhi və innə ileyhi raciun.”

1-Təsbihat:-Subhənallah və bi həmd.Subhənallah vəl həmdu lilləhi və iləhə illəllahu,vallahu əkbər”.

2-Bütün çətinliklər üçün:-Bismilləhir Rahmənir Rahim. La həvlə vəla qüvvətə illə billəhi əliyyul azim.

3-La ilahə illəllah Məlikil Haqqul Mubin .

4-Əstəğfirullahəlləzi lə iləhə illə huvəl Həyyul Qəyyum,

5-Əstəğfirukə və ətubu ileyhi.

6-Həsbiyəllahu və niməl vəkil.

6-Ya Həyyul Qəyyum,Ya Zəl Cələli Vəl ikram.

Hədis:Rəsulullah (s.ə.s.)buyurdu:-Mən sizə Quran oxumağı və Allahı çoxlu zikr etməyinizi məsləhət görürəm,həqiqətən, Quran sizi Cənnətdə zikr edər və Yer üzündə ilahi nur olar. **(əl-Xisal, s.525)**

Bütün yaranmışlar Allaha səcdə edirlər

əl-İsra-44-Yeddi göy,yer və onlarda olan bütün məxluqat Allahı təsdiq edir.Elə bir şey yoxdur ki, Allaha tərif deyib Ona şükr etməsin, lakin siz onların (dillərini bilmədiyiniz üçün) təsdiqini anlamazsınız. Allah, həqiqətən, həlim və bağışlayıcıdır!”

ər-Rum-26-Göylərdə və yerdə kim varsa,Onundur.(Mələklər, cinlər və insanlar Allahın bəndələridir) Hamısı ona boyun əyər.

ən-Nur-41-42- Məgər görmürsənmi, göylərdə və Yerdə olanlar Allaha təsbih edirlər, quşlar da havada qanadlarını açan halda təsbih edirlər. Onların hamısı öz dua və təsbihlərini bilirlər,Allah onların etdikləri əməlləri biləndir.Göylərin və Yerin padşahlığı Allah üçündür.Bütün insanların qayıdacaq yeri Allaha tərəfdir.

İnsanlar özləri səcdə etməsə də, kölgələ**ri Allaha səcdə edir**

Açıqlama: Bütün yaranmışlar Allaha səcdə edərlər. Havadakı zərrələr, dağlar, daşlar, yağış damlaları,dənizlər və çaylar məlum dönən fələklərin hər parçası, gəzəyənlər, fəsillər, mələklər, quşlar, ağaclar,Yer və göy üzündəki bütün məxluqatlar, hər nə ki var, gecə və gündüzün hər anında O tək, bağışlayıcı, əfvedici olan Uca Allaha həmd-səna, təsdiq edib, Allaha səcdə edirlər.İnsanlardan bəziləri Allaha səcdə etməsələr də, kölgələri zəlilcəsinə Yaradanına səcdə edir.

Bu haqda Qurani-Kərimdə buyurmuşdur:

ən-Nəhl-48-Onlar-Allahın yaratdığı kölgə sahibləri görmürlərmi ki,gün uzandıqca və ya əyildikcə, onların kölgələri də sağa və sola əyilir? Onların kölgələri üzüüstə düşüb zəlillik edərək, Allaha səcdə edərlər. Göylərdə, Yerdə olanlar, onların arasındakı bütün canlılar və mələklər təkəbbürlük etmədən Allaha səcdə edərlər.

əl-Həcc-18-Məgər siz göylərdə və yerdə olanların-Günəşin, Ayın, ulduzların, dağların, ağacların, heyvanların və insanların bir çoxunun Allaha səcdə etdiklərini görmürsünüzmü? İnsanların bir çoxuna isə, Allaha səcdə etmədiklərinə görə həm bu dünyada, həm axirətdə əzab nazil olar.

ər-Rəd-16-Göylərdə və yerdə olanlar, kimi öz istəyi ilə, kimi isə istəməyən halda Allaha səcdə edərlər. Insanların kölgələri də səcdə edər, rüku və səcdə halında kölgə hərəkət edər. Onlar səhər-axşam, daim səcdə edərlər.

ALLAHA DUANI GİZLİN EDİN, ÇAĞIRIN

əl-Əraf-55-Allahı yalvarışla və gizlincə çağırın. Həqiqətən, Allah həddini aşanları və ucadan çağırıb dua edənləri sevməz.

əl-Əraf-205-Səhər-axşam, boyun əyərək, yalvararaq və qorxaraq, səsini qaldırmadan Rəbbini yad et və qafillərdən olma!

əz-Zumər-8-İnsanlara bir zərər yetişən zaman Rəbbinə tərəf üz tutar, Onu çağırar. Sonra da Rəbbi tərəfindən Ona bir nemət əta edildikdə,bundan

əvvəl etdikləri bütün duaları yaddan çıxarar və insanları haqq yolundan azdırmaq üçün Allaha şəriklər qoşar.

ən-Nəml-62-Yaxud əli hər yerdən üzülüb, çarəsiz qalan bir kimsə Onu çağıran zaman duasını qəbul buyuran, çətinlikləri aradan götürən və sizi yer üzünün varisləri edən kimdir? Məgər Allahla yanaşı başqa bir tanrımı var? Necə də az düşünüb danışırsınız!

Hədis:(Hədisi Qüdsi.) Əbu Əli Əşəri ibn Əli Kufidən rəvayət edilir: Əbu Əbdullah (ə.s.) belə buyurur:-Hz. Davud "Ərafat"da dayandıqda camaata baxdı, onların çoxluğundan agah oldu, sonra dağa çıxıb dua etməyə başladı. Mərasim sona yetdikdən sonra Cəbrail nazil olub dedi:"Ey Davud, Allah buyurur:"Nə üçün dağa çıxdın? Yoxsa güman etdin ki, dağın aşağısında heç bir sözü eşitməyirəm?"Hz.Cəbrail Davudu özü ilə dəryanın kənarına apardı və onu dəryaya saldı.Dəryada 40 günlük yolu keçdikdən sonra böyük bir daşa rast gəldilər. Onu sındırdılar, içindən xırda bir qurd çıxdı. Cəbrail (ə.s.) Davuda dedi:"Ey Davud, Allah buyurur ki, Mən dəryanın dibində olan daşın içərisindəki qurdun səsini eşidirəm. Amma sən güman etdin ki,"Məni çağıran, hansısa bir şəxsin müraciətini eşitmirəm!"

DOĞRU DUA YALNIZ ALLAHA MƏXSUSDUR

əl-Bəqərə-152-Məni yad edin ki,mən də sizi yad edim! Mənə sükür edin!Mənə küfr etməyin.

əl-Mumun-60-Sizin Allahınız buyurdu ki, mənə dua edin, məni çağırın ki, sizin duanızı qəbul edim. Şübhəsiz ki, mənə ibadət və dua etməyərək təkəbbürlük edən kəslər tezliklə zəlil olaraq Cəhənnəmə daxil olarlar.

Ali-İmran-150-Allah sizin haminiz və yardımçınızdır.O, yardım edənlərin ən yaxşısıdır.

əl-Furqan-77-De:-Əgər sizin duanız olmasa, Rəbbiniz sizə heç bir dəyər verməz, əslində, siz təkzib etdiniz və tezliklə əzab sizə yaxın olacaq.

əl-Bəqərə-186-Bəndələrim səndən Mənim haqqımda soruşduqda, söylə ki:-Mən onlara yaxınam və məni çağıran kəsin duasına cavab verərəm. Gərək onlar da mənim çağırışıma cavab versinlər və doğru yolu tapmaq üçün Mənə iman gətirsinlər.

Hədis:-Peyğəmbərimiz buyurur:-Allahı yad edənlə Allahı yad etməyənin misalı, diri ilə ölünün misalına bənzər. **(Hədisi Qüdsi)**

Hədis:Cəfəri Sadiq rəvayət edir:-Peyğəmbərimiz buyurmuşdur:-Uca Allah buyurur:"Mən qulumun barəmdəki zənni yanındayam Məni yad etdikcə onunlayam. O, Məni öz-özlüyündə yad etsə, Mən də onu öz-özlüyümdə yad edərəm. O, Məni camaat yanında yad etsə, Mən onu daha xeyirli camaatın, mələklərin yanında yad edərəm. O Mənə bir qarış yaxınlaşsa, Mən ona on qarış yaxınlaşaram. O Mənə yeriyərək gəlsə, Mən ona yüyürərək gələrəm.

ALLAH MÖMİNLƏRİN DUALARINI TEZ QƏBUL EDƏR

əl-Ənfal-9-11-O zaman ki,siz Allahınızdan kömək diləyirdiniz. Allah sizin duanızı bununla qəbul etdi ki:-Mən möminlərin arxasınca gələn 1000 mələklə sizə kömək edənəm. Allah sizə qələbə müjdəsi verməkdən ötrü mələk göndərməyi vəd etdi ki, sizin qəlblərinizarxayın olsun.

Ali-İmran-121-127-Ya Peyğəmbər! O zaman ki, sən döyüşməkdən ötrü möminlərə yer hazırlamaq üçün öz əhlinin yanından çölə çıxdın. Allaha dua edib, kömək istədin. Allah (sözlərini eşidən) niyyətləri biləndir. O zaman ki, iki tayfa sizdən ayrılmaq istədilər. (Allah onlara kömək edəndir.) Bədr vuruşunda zəif olduğunuz halda Allah sizə nüsrət verdi ki, Allahın nemətinə şükür edəsiniz. O zaman ki,sən möminlərə deyirdin:-Məgər Allahınızın özü tərəfindən nazil etdiyi üç min mələk sizə kifayət etməzmi?

Bəli, onlar-müşriklər sizin üstünüzə gələn zaman əgər səbir edib Allahdan qorxsanız və qaçmasanız, Allahınız nişan qoyulmuş, yəni başlarında şücaət nişanəsi olan ağ əmmaməli beş min mələklə sizə kömək edər. Allah bunu yalnız bəşarət verməkdən ötrü etdi ki, qəlblərinizarxayınlaşsın.Nüsrət ancaq qələbə çalan və hər şeyi hikmət üzündən edən Allah tərəfindəndir.

ALLAH KİMİSƏ QALİB ETMƏK İSTƏSƏ, HEÇ KƏS ONA MANE OLA BİLMƏZ

Açıqlama: Allah-taala bir bəndəsini qorumaq istəsə, bütün dünya əhli yığılsa da, ona heç kəs zərər verə bilməz. Yox, əgər Allah-taala onu bəlaya salmaq istəsə, yenə bütün dünya əhli yığılsa belə, onu xilas edə bilməz. Bu səbəbdən də, başımıza gələn yaxşılıq və pisliklərdə səbir edərək, yalnız Ona sığınıb, Ondan kömək diləyək.

əl-Ənfal-66-Ey möminlər! İndi Allah yükünüzü yüngülləşdirdi. Çünki O, sizdə zəiflik olduğunu bilirdi. Artıq aranızda yüz səbirli kişi olsa, iki yüz nəfərə, min kişi olsa, iki min nəfərə Allahın iznilə qələbə çalar. Allah səbir edənlərlədir!

Fatir-2-Allahın insanlara əta etdiyi mərhəmətə, verdiyi nemətə, ruziyə heç kəs mane ola bilməz. Onun vermədiyi bir şeyi də özündən başqa heç kəs göndərə bilməz. O, yenilməz qüvvət və hikmət sahibidir!

əl-Əraf-188-Ya Peyğəmbər! De ki:-Mən Allahın istədiyindən başqa özümə nə bir xeyir, nə də bir zərər verə bilərəm. Əgər qeybi bilsəydim, söz-süz ki, özüm üçün daha çox xeyir tədarük edərdim. Savab qazanmaq üçün dünyada daha çox yaxşı işlər görərdim və mənə pislik toxunmazdı.

Ali-İmran-160-Əgər Allah sizə kömək etsə, heç kəs sizə qalib gələ bilməz.Yox, əgər səni zəlil edərsə, ondan sonra kim sənə kömək edə bilər? Buna görə möminlər Allaha təvəkkül etsinlər.

əl-Casiyə-19-Şübhəsiz, Allah göndərən əzabdan bir şeyi heç kəs səndən dəf edə bilməz. Zalımlar bir-biri ilə dostdurlar,onlar səni aradan aparmaq üçün müttəfiqdirlər. Allah isə təqvalıların dostudur. Zalımların sənə qarşı müttəfiq olmalarından qorxma, Allah səni qoruyar.

Allahdan başqasına ibadət etməyin
Allaha yalvarmaq şücaətdir.
Qəbul olsa rəhmət,olmasa hikmətdir.
Bəndəyə yalvarmaq zillətdir.
Qəbul olsa minnətdir, olmasa xiffətdir. (“Gülüstan”Sədi Şirazi.)

əl-İsra-42-De ki:-Allahdan başqa Allahlar olsaydı,o zaman Ərşin sahibi olan Allahın yanına yol axtarardılar.Müşriklərin dediyi sözdən Allah uca və pakdır.

əl-Ənkəbut-41-Özlərinə Allahdan başqa dost tutanlar, başqa şeylərə tapınanların məsəli özünə yuva quran hörümcəyin məsəli kimidir. Kaş biləydilər ki, hörümçəyin yuvası evlərin ən davamsızıdır.

əl-Həcc-32-Allaha şərik qərar verən kəs sanki göydən yerə yıxılıb ölüb,quşlar sürətlə gəlib onu tutaraq parça-parça edib,ya da göydən yerə düşən zaman külək onu əlçatmaz bir yerə aparıb.

ər-Rəd-15-Doğru duanı qəbul etmək Allah üçündür. Bərkə düşəndə Allahdan başqasını çağıranların duaları qəbul olunmaz. Onlar o kəsə bənzər ki, susuzluğun çoxluğundan suyun gəlib ağızlarına çatması üçün əllərini açıq qoyarlar.Belə bir şəxs suya yetişən deyil.Kafirlərin duası yalnız zəlalətdə olmaqdır.

ən-Nəhl-51-52-Allah belə buyurdu:"İki tanrı qəbul etməyin,O Allah yalnız tək bir tanrıdır.Ancaq Məndən qorxun."Göydə və Yerdə nə varsa hamısı onundur. Din də (itaət-ibadət də) həmişə onundur.Belə olduğu təqdirdə Allahdan başqasındanmı qorxursunuz?

əl-Əraf-191-197-Onlar qüdrətə malik olmayan və özləri yaradılmış olan bütləri Allaha şərik edirlərmi? Bütlərin öz ibadət edənlərinə, hətta özlərinə də kömək etməyə qüdrətləri olmaz.O kəslər ki,Allahdan başqasına ibadət edərlər, həmin bütlər sizin kimi bəndələrdir.Əgər doğru deyirsinizsə,onları çağırın ki,sizə cavab versinlər. Məgər onların yol gedən ayaqları,vuran əlləri, görən gözləri,eşidən qulaqları varmı? De ki,şəriklərinizi çağırın,sonra mənə hiylə edin!Mənə möhlət verməyin!

Həqiqətən, mənim köməyim Kitab nazil edən Allahdır.Allah saleh kəslərə kömək edər. Allahdan başqa çağırdığınız kəslər sizə kömək etməyə qadir ola bilməzlər. Onlar özlərinə də kömək edə bilməzlər.

Dini Hekayə:-Hz. Əli savaş zamanı, bir düşməni həmlə edib öldürmək istərkən,elə bu vaxt düşməni onun üzünə söyür. Bu səbəbdən Hz. Əli düşmənini buraxaraq onu öldürməkdən əl çəkir. Ayağa qalxan düşməninə:-Səni bağışladım, sən sərbəstsən,-deyir. Düşməni olan savaşçı bu vəziyyətə sarsılaraq:-Məni öldürməkdən səni vaz keçirən səbəb nədir?-deyə soruşur.

Hz.Əli belə cavab verir:-Qılıncımı Allah yolunda və Onun risaləsi üçün istifadə edirəm, nəfsim üçün deyil.Sən savaşarkən üzümə söyüncə nəfsimə ağır gəldi.Sənə qəzəbləndim və bu zaman səni öldürsəydim, Allah yolunda deyil, öz nəfsimin intiqamını almış olardım.

Hz. Əlinin düşməni bu sözləri eşidən kimi qəlbində Haqqın nuru parladı və imana gəldi.Bu hadisədən sonra o adamın yaxınları və dostlarından 50 nəfər kişi İslam dinini qəbul etdi. Bu əsil və incə davranış insanları İslama həvəsləndirdi.

Açıqlaması:-İxlas və sevgi qılıncı iti qılıncdan daha kəskindir ki, ordularımızı artırsın.Peyğəmbərimiz (s.ə.s.) buyurur:-Kim Allah üçün sevər, Allah üçün əsəbiləşər, Allah üçün verər və Allah üçün imanı qoruyub saxlarsa, şübhəsiz ki, o möminin imanı kamala yetişmişdir. **(Cəzalı"Altın Ögüdlər" Hüseyn Okur.)**

ÜSULİ-DİNİN 3-SU ƏDLDİR

Ədl-Allah Adildir

əl-İxlas1-4-Ya Peyğəmbər! De ki Allah birdir,şəriki yoxdur! Allah hər bir şeydən ehtiyacsızdır! Doğmayıb və doğulmayıb, Allah üçün ona oxşayan bir şəxs və tay yoxdur.

əl-Fatihə-1-5-Dünyada bütün yaranmışlara ruzi və lazım olan nemətləri verdiyinə görə mehriban olub, axirətdə bəzi yaranmışları behiştə daxil etməklə Rəhimli Allahın adı ilə bütün işlərimdə köməklik istəyirəm.Mehribandır və axirətdə behişti verməklə rəhm edəndir, Qiyamət gününün padşahıdır.Ancaq sənə ibadət edirik, ancaq səndən kömək istəyirik,bizi düzgün yola hidayət et.Nemət verdiyin kəslərin yoluna, qəzəbləndiyin və haqq yolundan azmışların yoluna yox.

Hud-57-Mən O Allaha təvəkkül etdim ki, mənim və sizin Allahınızdır.Yerdə hərəkət edən elə bir yaranmış yoxdur ki, Allah onun əlindən tutmasın. Həqiqətən, mənim Allahım ədalətlidir.

əl-Bəqərə-107-Ya Peyğəmbər!Sən bilmirsənmi,yerin və göylərin padşahlığı Allah üçündür? Ondan başqa sizin üçün mövla və köməkçi yoxdur.

əl-Bəqərə-255-İbadətə layiq Allahdır.Diri və həmişəlik Allahdan başqa məbud yoxdur.Onu mürgü və yuxu tutmaz. Göydə və yerdə olanlar ona məxsusdur.Onun izni olmadan Allah yanında kim şəfaət edər?Allah onların keçmiş və gələcək işlərini bilir. Allah özü kiməsə nəsə öyrətmək istəməsə, onlar Allaha məlum olan şeyləri bilə bilməzlər. Allahın səltənət və qüdrət kürsüsü, elmi göyləri və yeri geniş surətdə əhatə edəndir. Onları saxlamaq ona ağır və zəhmət deyil. Allah ucadır və böyükdür.

Açıqlama:Dünyada hər şeyin hesab və nizam üstündə qurulmasına və Allahın Adil olmasına inanmaq hər bir işdə ədalətə riayət etməkdir. Onun işlərində zülm yoxdur, onun rəhməti və kərəmi hamıya şamildir. Rəhimli, Kərimli və insanlar haqqında ədalətli olan Allah o ülvi vücuda zülm etməz. Onun ədaləti tək insanlara yox, bütün Kainata, onun işinə və idarə olunmasındakı qanunlara da şamildir. Belə ki, bu ədalət pozularsa, bütün kainatın nizamı da pozular. Allahın verdiyi hər şeyə:surətimizə, əzalarımıza, nəfəsimizə, bizə bəxş etdiyi bütün doğmalarımıza, ətrafımızdakı insanlara, dostlara, qohumlara, qonşulara, təbiətə, yerə-göyə, Allahın özünə və onun bizlərə bəxş etdiyi hər şeyə qarşı ədalətli olmağımız Allah tərəfindən bizlərə buyurulmuşdur.

Qurani-Kərimin 26 ayəsində ədalətli olmaq haqqında buyurulur:

ən-Nisa-58-Allah sizə əmr edir ki, əmanətləri yiyələrinə qaytarın. İnsanların arasında şahid olduğunuz zaman, ədalətlə hökm edin. Allah sizə gözəl öyüd verir. Şübhəsiz, Allah eşidən və görəndir.

əl-Maidə-8-Ey möminlər!Ədaləti bərpa edənlərdən olun, Allaha şahid olduğunuz halda bir qövmün ədavəti sizi ədalətsizlik etməyə vadar etməsin. Ədalətli olun, ədalət təqvaya yaxındır. Allahdan qorxun, Al-

lah etdiyiniz əməllərdən xəbərdardır. İman gətirib,yaxşı əməllər görən kəslərə, Allah bağışlanmaq və böyük əcr verməyi vəd etmişdir.

əl-Maidə-42-Əgər aralarında hökm etsən, ədalətlə hökm et. Çünki Allah ədalətliləri sevir.

əl-Ənam-152-153-Ölçünü və çəkini ədalətlə tamamlayın. Biz kimsəyə bacarığından artıq təklif etmərik. Danışdığınız zaman ədalətlə danışın, qohumlara qarşı olsa belə, Allahın əhdinə vəfa edin. Allahın sizə tapşırdığı bunlardır, bəlkə öyüd alasınız. Budur mənim doğru yolum. Ona tabe olun və ayrı-ayrı yollarla getməyin ki, sizi Allahın yolundan ayırar. Allahın sizə tapşırdığı bunlardır. Bəlkə təqvalı olasınız.

əl-Əraf-28-29-Pis iş gördükləri zaman "atalarımızdan belə öyrənmişik və bizə bunu Allah əmr etmişdir" deyərlər.De ki, Allah pis işləri sizə əmr etməz.Nə üçün bilmədiyiniz şeyləri Allaha nisbət verirsiniz? De ki, mənim Rəbbim yalnız ədalətə əmr etmişdir və hər namaz vaxtında ona tərəf üz çevirin və onu xalis imanla çağırın.O sizi yaratdığı kimi, yanına qayıdacaqsınız.

Yusif-47-Hər bir ümmətin bir Peyğəmbəri var idi və Peyğəmbər gəldikdə aralarındakı işlər ədalətlə həll olundu və zülmə uğramadılar.

əl-Ənbiya-47- Qiyamət günündə ədalət tərəzisi qurulacaq və heç kimə zülm olunmayacaq.Əməl bir xardal dənəsi ağırlığı qədər balaca olsa belə, yenə hesaba alarıq,çünki biz hesab çəkənlərin ən düzgünüyük.

əl-Mumtəhənə-8-Allah sizə din üstündə sizinlə vuruşmayan və sizi yurdunuzdan qovmayan adamlara yaxşılıq və ədalətlə dolanmağı buyurur. Allah ədalətliləri sevir.

ALLAH TAQƏTİMİZ QƏDƏR TƏKLİF EDƏR

əl-Bəqərə-286-Allah yalnız taqət miqdarında təklif edər. Nəfsin qazandığı xeyir də, şər də özü üçün xeyirli və zərərlidir. Peyğəmbər dedi:-Allah-taala buyurdu ki, bu cür dua edin:-Pərvərdigara!Əgər unutsaq, ya səhv etsək, bizi cəzalandırma. Pərvərdigara! Bizdən əvvəlki kəslərə təklif etdiyin kimi ağır təklifləri bizim boynumuza qoyma.Pərvərdigara! Taqətimiz olmayan şeyi bizim öhdəmizə vermə. Bizim günahlarımızdan keç, bizi bağışla, bizə rəhm elə. Bizim ağamız Sənsən. Kafirlərə qarşı bizə kömək et.

əl-Muminun-63-Biz heç kəsi gücü çatmayan işi görməyə vadar etmərik. Bizim yanımızda Kitab vardır ki,haqq ilə danışar və bütün insanların əməlləri onda yazılıb onlara zülm olunmaz, nə savablarından əskilər,nə də başqa kəsin günahına görə əzab olunar.

ALLAH BİZƏ NEMƏTLƏR BƏXŞ ETMİŞDİR

əl-Vaqiə-63-67-Mənə deyin ki,Yerdə əkdiyiniz dəni gördünüzmü? Onu siz cücərtdiniz, yoxsa biz? Əgər biz istəsək, mütləq əkdiklərinizi saman edərik. Siz də əkinlərinizə gələn bəlalara təəccüb edərsiniz və deyərsiniz ki, həqiqətən,biz zərər görmüş olduq. Həm toxumlarımız zay oldu, həm də ruzimiz əlimizdən çıxdı. Bəlkə də Allahdan naümid olan kəslərik ki,bizə ruzi yetişmədi.

əl-Vaqiə-68-70-Bəs içdiyiniz suya nə deyirsiniz?O suyu buluddan endirən sizsiniz, yoxsa biz nazil etdik? Əgər biz istəsəydik, onu acı və şor edərdik. Nə üçün Allahın bu cür nemətlərinə şükür etmirsiniz?

əl-Vaqiə-71-74-Ağacdan xaric etdiyiniz odu gördünüzmü? Onun ağacını yaradan sizsiniz,yoxsa bizik? Biz odu Cəhənnəm odundan qorunmaq üçün xatırlatma etdik. Eləcə də onu səfərə gedənlər üçün mənfəət etdik ki, işığından, istisindən istifadə etsinlər.Belə olduqda böyük olan Allahın adına təsbih et və "subhanəllahu əzim" kəlməsini söylə.

Qaf-6-11-Məgər onlar öz üstlərində olan göyə baxaraq onu necə yaratdığımızı, ulduzlar ilə necə bəzədiyimizi və orada heç bir açıq yer və deşiyin olmadığını görmürlərmi? Yeri döşəyərək ona möhkəm daşlar saldıq və bitkilərin şadlıq gətirən növlərinin hamısından cücərtdik. Göydə bərəkətli su nazil etdik, su ilə bağlar və yerdə əkilən buğda,arpa kimi dənlər cücərtdik. Habelə çiçəkləri bir-birinin üstünə yığılmış hündür xurma ağacları bitirdik. Bütün bunları Allah tərəfinə qayıdan bəndələrin hamısına Allahı yada salmaq və nəsihət verib bəsirət sahibi etmək üçün yaratdıq. Bu şeyləri biz bəndələrə ruzi olmaq üçün cücərtdik və ölü şəhərləri su ilə diriltdik. Qəbirdən xaric olmaq da belədir. Bunları dirildən Allah bəndələri də diriltməyə aciz olmaz!

ALLAH VERDİYİ HƏYAT VƏ NEMƏTLƏR İLƏ BİZİ İMTAHAN EDƏR

Açıqlama:-Allah-taala bütün insanları"Əbədi ev"adlanan axirət aləminə aparmaq, arayıb saflaşdırmaq üçün bizi cürbəcür imtahanlar ilə sınaqdan çıxarır. Ömrümüz boyu bizi müxtəlif çətinliklərə düçar edir. Etiqadı zəif olan qeyri-səmimi kəslər bu çətinliklərə dözmür, Allaha üsyan edib, Onu şübhə ilə inkar edirlər.Deməli, bu dünyanı Allah-taala "Axirət evi" üçün keçid məntəqəsi qərar vermişdir. Bu dünyada keçirilən imtahanlarda hər kəs öz həqiqi qiymətini alır və axirətdə ona

münasib surətdə məqamlara sahib olur.

Əgər Allah-taala öz bəndələrini imtahana çəkmədən,onları heç bir çətinliyə salmadan öz lütfkarlığını göstərib hamıya axirət nemətləri bəxş etsəydi, bu irad yeri olardı və sınaqdan keçirilməmiş insanların arasında zatı pis olan xəbis kəslər axirət nemətlərinə sahib olardılar.

əl-Kəhf-6-7-Həqiqətən,Yer üzündə olan şeylərə,canlı-cansız bütün yaranmışlara, insanları imtahan etmək üçün zinət verdik ki, onların pis və ya yaxşı əməllərini bilək. Şübhəsiz,Yer üzündə olan zinətləri zay edib otsuz quru yer edərik.

əl-Bəqərə-155-Biz sizi qorxu, aclıq və malınız, canınız, məhsulunuzun qıtlığı ilə imtahan edərik. Səbir edənlərə müjdə var.

əl-Cinn-l7-Onları bununla,bu nemətlə imtahana çəkər.Kim öz Rəbbini yad etməkdən üz çevirərsə,Allah onu məşəqqətli bir əzaba düçar edər.

əl-Muminun-56-57-Kafirlər belə güman edirlər ki, onlara verdiyimiz var-dövlət və övlad onlara yaxşılıq etdiyimiz üçündür. Əksinə,bütün bunlarla daha çox imtahan olunduqlarını anlamırlar.

əl-Ənkəbut-2-4-İnsanlar elə güman edirlər ki,biz iman gətirdik deyən kimi, onlar özbaşına buraxılacaq və daha sınanmayacaqlar. Hər halda onlardan qabaqda olanları da sınadıq ki, Allah doğru danışanla yalançını ayırd etsin. Günah işlədənlər elə bilirlər ki, bizdən qaça bilərlər? Necə də pis qəzavət edirlər. Allahı görməyə ümid bəsləyənlər, Allahın vədəsinin yerinə yetiriləcəyini bilsinlər. O, eşidən və bilicidir.

Ali-İmran-186-Əlbəttə, siz mallarınız və canlarınızla imtahan olunursunuz. Nəfəqə vermək və ya malınıza gələn bəla,cihada gedib öldürülmək, əsir olmaq, yaralanmaq, xəstələnmək və yaxud da dünya həyatındakı çətinliklər, hamısı Allahın imtahanlarıdır. Sizdən əvvəl olan əhli-kitablardan və müşriklərdən də bir çox əziyyətli sözlər eşidərsiniz. Əgər səbir edib Allahdan qorxsanız, səbir və təqva ilə Onun istəklilərindən olarsınız. **(Kitabul-Bəyan-fi Təfsirul Quran.)**

Hədis: Imam Muhəmməd Baqir(ə.s.)buyurur:-Həqiqətən, Allahın insanların həm qəlbləri, həm də bədənləri üçün əzabı vardır.İnsanın bədəninin əzabı məişətindəki çətinliyi, onun ibadət və itaətinin zəif olmasıdır. Qəlbinin əzabı isə onun ürəyinin bərkiməsi, daşürəkli olmasıdır.”**(Zübdətul əhadis”Şeyx Abbas Qummi.)**

ALLAH VERDİYİ BÜTÜN NEMƏTLƏR HAQQINDA SORUŞACAQ

əl-Bələd-5-7-Məgər insan elə zənn edir ki, ona heç kəsin gücü çatmayacaq,ondan bu malların haradan qazandığı barədə sual olunmayacaq. O deyər:-Mən çoxlu var-dövlət sərf etdim. Lakin dünyada riya ilə özünü göstərmək üçün sərf olunan malların qiyamətdə bir xeyri olmaz. O elə güman edir ki, onu bir şəxs görməz və ondan soruşmaz ki, bu malları haradan qazanıb, haraya sərf etmisən?

əl-Ənbiya-112-Mən sizə verdiyim əzab vədini sizi imtahan etmək üçün bir müddət təxirə salaram ki, bir qədər də ləzzət aparasınız. Müddət tamam olduqdan sonra isə əzabım daha şiddətli olar.

əl-Oiyəmət 13-O gün insana ömrünün əvvəlindən axırına kimi etdiyi bütün əməlləri, yaxud, sağlığında gördüyu işlər və öləndən sonra qoyub getdiyi yaxşı, pis nə varsa, hamısı haqqında xəbər veriləcəkdir.

əl-İsra-13-Hər bir insanın əməlini öz boynundan asar və qiyamət günü bütün əməllərini açıb kitab kimi qarşısına qoyarıq. Oxu öz yazını. Bu gün sən özün-özündən hesab almaq üçün yetərlisən.

ALLAH YANINDA PİS ƏMƏL İLƏ YAXŞI ƏMƏL SAHİBLƏRİ EYNİ DEYİL

Muhəmməd-14-Allah yanında,onun tərəfindən buyurulan hüccət və dəlili olan kəslə, pis əməllər ilə özünü zinətləndirən və nəfsani hisslərə tabe olan şəxs eyni deyildir.

əl-Fussilət-34-35-Yaxşı ilə yaman bərabər ola bilməz.Ya Peyğəmbər!Sənə pislik edən adama təkcə yaxşılıq deyil, əksinə, pisliyi çox yaxşılıq etməklə dəf et! Əgər belə rəftar etsən, o zaman aranızda ədavət edən adam sənə qarşı mehriban olar, sanki yaxın dost kimi görünər. Pisliyi gözəl rəftarla dəf etmək kim gözəl əmələ yalnız dünyada düşmənlərin əziyyətinə səbir edən kəslər və ağıl, ya xeyirli əməl cəhətdən böyük hisslərə sahib olan kəslər nail olarlar.

əl-Qəsəs-60-61-Sizə verilən hər hansı bir şey; güzəran, övlad və sairə, ancaq bu fani dünyanın malı və bər-bəzəyidir.Siz onlarla bir neçə müddət ləzzət apara bilərsiniz. Amma Allah yanında olan isə daha yaxşı və həmişəlikdir. Məgər verdiyimiz gözəl bir vədə yetişən kəslə, fani dünya malı bəxş etdiyimiz, sonra da Qiyamət günü Cəhənnəm oduna gətirəcəyimiz kəs eyni ola bilərmi?

əl-Əraf-199-Əfv etməyi adət et, intiqam almaq fikrində olma. Həmişə yaxşılığa, gözəl əxlaqa əmr et. Cahillərdən üz döndər! Onlar kimi rəftar etmə,yaxşı davran.

əl-İsra-7-Əgər düz söz və əməl ilə yaxşılıq etsəniz, özünüzə yaxşılıq etmisiniz. Əgər pislik etsəniz,yenə də özünüzə etmisiniz.

ən-Ənam-160-Dünyada yaxşı əməl edən kəsə Allah tərəfindən fəzl olaraq onun on misli verilər. Pis əməl edən kəsə yalnız onun misli verilər.Bu Allahın ədalətinə görədir.Onlara nə əzabın azlığı ilə, nə də əzabın çoxluğu ilə zülm olunmaz.

Fussilət-46-Hər kəs yaxşı iş görsə,özü üçündür,pislik etsə də onu özü üçün etmişdir.Allah öz bəndələrinə zülm edən deyil.

Hədis:-İbn-Abbasdan rəvayət olunan hədisdə Peyğəmbərimiz belə buyurur: "Allahın kölgəsindən başqa heç bir kölgənin olmadığı Qiyamət günündə, Uca Allah bu 7 sinif insanı öz kölgəsində saxlayar:

1-Allahın əmri altında düzgün davranan lider.

2-Allahına ibadət ilə yetişən gənc.

3-Özü alış-verişdə ikən qəlbi məsciddə olan adam.

4-Bir-birini Allah üçün sevən insanlar.

5-Göz və qəlbindən,təkbaşına Allahı zikr edib ağlayan kəslər.

6-Öz namusunu qoruyan adam.

7-Sağ əli ilə verdiyi sədəqənin sol əli bilməyəcək qədər sədəqəni gizli verən adam. **(Buhari,"Azan" 36;660)**

ALLAH YANINDA İBADƏT EDƏNLƏ, ETMƏYƏNİN EYNİ DEYİL

əz-Zumər-9-Bütün gecəni ibadət edən, ya səcdədə,ya qiyamda olan, axirətdən qorxan və öz Tanrısının rəhmətinə ümid bəsləyən kimsə, ibadət etməyən kimsə ilə bərabərdirmi? De:-Bilənlərlə bilməyənlər bərabərdirlərmi? Bundan ancaq ağıl sahibləri öyüd alarlar.

əl-Casiyə-21-Yoxsa dünyada pis əməllər edənlər axirətdə onları iman gətirib yaxşı işlər görənlərlə bir tutacağımızı, onların həyatlarının və ölümlərinin eyni olacağını güman edirlər?Onlar nə pis mühakimə yürüdürlər! Dünyada naz-nemət içində yaşayan kafirlər:"Əgər Qiyamət günü, axirət doğrudursa, Allah bizə orada da firavan həyat bəxş edəcəkdir!"-deyirlər. Xeyr,onların axirət həyatı çox pis olacaq, əzab içində keçəcəkdir. Dünyada aldıqları ləzzət, axirətdə burunlarından töküləcəkdir. Gözəl axirət həyatı yalnız dünyada Allah, din yolunda məşəqqətlərə dözmüş möminlərə məxsusdur.

ALLAH YANINDA QAZANILAN SAVAB DÜNYA MALINDAN YAXŞIDIR

əş-Şura-29-35-Mal və canınıza müsibət yetişməsi sizin öz əlinizlə qazandıqlarınıza görədir. Allah günahın çoxunu bağışlar, hamısına əvəz verməz. Sizə verilənlər dünya həyatının, alçaq dünya malıdır,onlarla bu dünyada bir neçə müddət ləzzət apararsınız, sonra isə qoyub gedərsiniz. Allah yanında olan savab və nemət dünya malından yaxşıdır və qalandır. Bu,iman gətirib öz Allahına təvəkkül edənlər üçündür. Bu, o kəslər üçündür ki, böyük və kiçik günahlardan özlərini qoruyarlar. Bu, o kəslər üçündür ki,onları İslama dəvət edən zaman, Allahın buyurduqlarını qəbul edər və namaz qılarlar. Onların işləri öz aralarında məsləhət ilə olar və onlara verdiyimiz ruzidən Allah yolunda sərf edərlər.

Dini hekayə:-Bir dərviş gəmi ilə səyahətə çıxmışdı.Yükü və əşyası olmadığına görə bir küncdə yığılıb yatmışdı.Gəmidə olanlardan kiminsə qızılı yoxa çıxır. Hər tərəfi axtarırlar, lakin qızılları tapa bilmirlər.Biri kənarda yatan dərvişi göstərərək:-Bu fağırı da axtaraq,bəlkə qızıllar ondadır,-deyib dərvişi oyadırlar.

- Gəmidə qızıl oğurlayıblar, hər kəsi axtarıblar, yalnız sən qalmısan. Buna görə də ciblərində nə varsa, hamısını yerə tök, -deyə onu axtarmağa başlayırlar.

Oğurluqla günahlandırılmaq dərvişə çox toxunur və Allaha üz tutaraq:-Ya Rəbbi! Bu zavallı bəndəni oğurluqda təqsirli bilirlər. Öz yardımını mənə çatdır,-deyə dua edir.

Dərvişin duası bitər-bitməz dənizin hər tərəfindən yüz minlərlə balıq başını sudan çıxarır.Hər birinin ağzında da çox dəyərli incilər var idi. Dərviş balıqların ağzından bir neçə incini alıb gəminin içinə firladıb, atır. Sonra da stulda oturan kimi havada oturur və gəmidəkilərə:-İndi bunları alın,daha yoxsul bir oğru aranızda olmasın. Gəminiz sizin olsun, haqq mənim olsun.Allaha yaxın olub, sizdən uzaq olmaq mənim xoşuma gələr. O, məni oğurluqda təqsirkar bilmədiyi kimi, ipimi də anlamayanların əlinə verməz,-dedi.Gəmidəkilər:-Ey böyük insan!Bu uca məqamı sənə nədən verdilər?-deyə, soruşdular.Dərviş:-Bir fağırı töhmət altında buraxıb, haqqı incitməyiniz üzündən və bir də mənəvi alimlərə göstərdiyim hörmət və ədəb səbəbilə verdilər,-dedi.

Açıqlaması:-Könül sahibi olanlar gecə və gündüzün bir-birindən çəkindiyi və ayrıldığı kimi,dünyadan da belə uzaqdırlar.Könül sahibi olan bəndələrə ayıb etmək, günahkar görmək padşahı oğurluqda günahkar etməyə bənzər. **(M.Cəzalı "Altın Öğüdlər"-tərcümə Hüseyn Okur.)**

ALLAH İSTƏMƏDİYİ BƏNDƏSİNİ ÖZBAŞINA BURAXAR

əl-Əraf-186-Kimi Allah zəlalətə salıb özbaşına buraxsa, onun üçün hidayət edən olmaz.Allah onları tərk edər ki, öz tüğyanlarında sərgərdan qalsınlar.

ən-Nəhl-37-Ya Muhəmməd!Əgər sən onların hidayət tapmalarını istəsən də, Allah yoldan çıxartdıqlarını doğru yola salmaz!

əl-İsra-97-Allahın doğru yola saldığı kəs doğru yoldadır. Allahın yoldan çıxardığı kəs üçünsə Allahdan başqa dost tapa bilməzsən.

əl-Ələq-6-8-Xeyr! Həqiqətən, insan azğınlıq edir. Onun üçün ki, özünü hər kəsdən ehtiyacsız görür. Bütün insanların dönüşü sənin Allahına tərəfdir.

ALLAH MÜƏYYƏN ZAMANA QƏDƏR BİZƏ MÖHLƏT VERƏR

ən-Nəhl-61-Əgər onların zülmü və günahı ucbatından Allah insanlara əzab göndərsə,yer üzündə heç bir hərəkət edən adam sağ qalmaz.Lakin Allah bunu müəyyən vaxta qədər təxirə salar. Həmin vaxt yetişdikdə nə bir saat geri qalar, nə də qabağa gedər.

ər-Rum-8-9-Onlar yaşayışın zahirini görürlər və axirətdən xəbərsizdirlər.Bəs düşünmürlər ki,Allah göyü, yeri,onların arasında olanları və canlıları həddi bilinməyən bir zaman üçün yaradıb?İnsanlardan çoxu Tanrısını görəcəyinə inanmırlar.Bəs yerdə dolanıb görmürlər ki,onlardan qabaq yaşayanların aqibəti necə olmuşdur,onlar ki,daha bacarıqlı idilər?!

Fatir-45-Əgər Allah istəsə ki, xalqı əməllərinə görə tənbeh etsin, yer üzündə heç bir canlı qalmaz. Lakin onlara müəyyən zamana qədər möhlət verir.Müddət başa çatdıqda,özü onları cəzalandırmaq və ya mükafatlandırmaq üçün dirildər. Allah bəndələrin əməllərindən agahdır.

HƏR KƏS ÖZ ƏMƏLİNƏ GÖRƏ CAVAB VERƏCƏK

Fatir- 18-Heç kəs özgənin günah yükünü öhdəsinə almaz. Əgər günah yükü ağır olan bir kəs öz yükünü daşımaq üçün öz qohumunu belə çağırsa, o boyun qaçırar. Sən yalnız o adamları qorxuda bilərsən ki, Pərvərdigarı görməmiş qorxarlar, namaz qılarlar. Hər kim pak olsa,özü üçün pak olur və hamının aqibəti Allaha sarıdır.

ət-Tovbə-105-Ya Muhəmməd! De ki, Allahın əmrlərinə əməl edin! Tezliklə sizin əməllərinizi Allah və onun Peyğəmbəri və möminlər görər. Tezliklə siz gizlin və aşkarı bilən Allahın hüzurunda dayanacaqsınız. O, etdiyiniz əməllərdən sizə xəbər verər.

əz-Zumər-8-Əgər siz kafir olsanız, şübhəsiz ki, Allahın sizə və sizin şükrünüzə ehtiyacı yoxdur. Allah bəndələrinin kafir olmasına razı olmaz. Əgər siz nemətlərə şükür etsəniz, Allah onu bəyənər, əvəzini verər. Heç kəç başqasının yükünü, öz üstünə götürməz. Sonra sizin qayıdacaq yeriniz Allaha tərəfdir. O, dünyada etdiklərinizdən sizə xəbər verər. Həqiqətən, Allah sinələrdə olanlardan xəbərdardır.

əl-Casiyə-23-26-Sən o kəsi görürsənmi, ürəyi istədiyi şeyi özünə Allah etdi? Allah onu öz elmi ilə yoldan çıxartdı və bildi ki, küfrdə qalıb, əzaba layiqdir. Onun qulağını və qəlbini möhürlədi. Məgər onlar nəsihət qəbul etməzlərmi? Kafirlər dedilər: -Dünya həyatından başqa heç bir həyat yoxdur və biz dirilirik və sonra da ölürük. Dünya həmişə belə olub və axıracan da belə olacaq. Allahın bu işlərə dəxli yoxdur və bizi öldürən ancaq zəmanədir. Allah onların sözlərini rədd edərək buyurdu:-Onların bu haqda heç bir elmləri yoxdur! Zəmanənin özü də yaranmışdır və məxluq xaliq ola bilməz! Onlar ancaq güman edirlər və zənn ilə düşünürlər. Həqiqətdən isə heç bir xəbərləri yoxdur! Onlara bizim ayələrimizi açıq-aşkar oxuyan zaman bizim sözlərimizin əleyhinə heç bir dəlilləri olmaz. Təkcə deyərlər:-Əgər doğru deyirsinizsə, bizim atalarımızı dirildin. Ya Muhəmməd! Onlara de ki, Allah sizi dirildər, sizi nütfə halından kamil insan surətinə çevirər, sonra sizi öldürər, sonra sizi Qiyamət günündə bir daha dirildərək, sizi bir yerə yığar! O günün baş verəcəyinə heç bir şəkk-şübhə yoxdur! Amma insanların çoxu bu sözlərin düz olduğunu bilməzlər.

əl-Əhzab-72-Həqiqətən, biz hökm və şəriətdən, ya əhdə vəfa etməkdən, ya Peyğəmbərlikdən ibarət olan əmanəti göylərə, yerə və dağlara təklif etdik. Onlar bu təklifi öhdələrinə almaqdan qorxdular. Lakin insan onu götürdü və insan özünə zülm edəndir.

Ali-İmran-30-O gün hər nəfs, dünyada etdiyi xeyir əməlini öz yanında hazır görər və dünyada etdiyi pis əməlini də görüb arzu edər ki, kaş onunla əməli arasında uzaq məsafə olardı.

ALLAH HAQLA BATİLİ AYIRAR

ər-Rəd-18-Allah göydən yağış göndərdi, su axıb bir çuxura doldu və seldən əmələ gələn köpük suyun üstünə yığıldı. Başqa bir misal:-Zinət

əşyaları düzəltmək üçün odda yandırıb qaynatdığınız şeylərin üzərində və ya alət düzəltmək üçün əritdiyiniz mis,dəmirin üzərində köpük əmələ gəlir. Beləcə, haqq ilə batilə Allah belə misal çəkir.Burada suyun, qızılın və dəmiri əritdikdə üstündə əmələ gələn köpük batilə bənzər ki, özü aradan gedər. İnsanlara xeyir verən xalislər isə yerdə qalar.(su, qızıl,mis və sair) Beləcə Allah insanlar üçün misal çəkir.

Allahın dəvətini qəbul edib iman gətirənlər üçün Cənnət və əcr var. Allahın dəvətini qəbul etməyərək iman gətirməyənlər əgər yer üzündə olanların hamısına,bir o qədər də üstünə gəlməklə sahib olsalar, əlbəttə, bunların hamısına əvəz verərlər ki, Qiyamətdə bunları alıb,onlara əziyyət verməsinlər. (Lakin bu onlardan əvəz kimi qəbul olunmaz.)Onlar üçün pis hesab çəkilmək vardır. Onların qayıdacaq yeri Cəhənnəmdir və ora pis hazırlanmış yerdir. **(Kitabul-Bəyan-fi Təfsirul Quran.)**

əl-Ənbiya-18-22-Biz daşı şüşəyə atan kimi,haqqı batilə atarıq,haqq batili sındırar.O cürə də batil sözlər məhv olar.Vay olsun sizə ki, Allahı yalandan vəsf edib yalan danışırsınız. Göylərdə və yerdə olanlar Allaha məxsusdur. Allahın yanında olan mələklər ibadət etməkdən boyun qaçırmazlar.Və çox ibadət etməkdən yorulmazlar.Əgər Allahdan başqa göylərdə və Yerdə ibadətə layiq məbud olsaydı, şübhəsiz ki, yer-göy çevrilib öz tarazlığını itirərdi. Ərşin Pərvərdigarı tək olan Allah, vəsf edilən sifətlərdən pakdır. Allahın yerinə yetirdiyi işlərə görə Ona sual olunmaz. İnsanlar etdikləri əməllərə görə sorğu-sual olunarlar. Allahın işlərinin hamısı hikmət üzündəndir. **(Kitabul-Bəyan-fi Təfsirul Quran.)**

Hədis: Bir adam Hz.Əlidən soruşur ki, haqq nədir, batil nədir? Hz.Əli o adamın qulağından tutub:-Bu batildir, gözün isə haqqdır-deyərək anlatmağa davam edir:-Duymaq, görməyə görə əsilsizdir, batildir, yəni insan görərək doğruya çatar.Yüz minlərcə qulaq sıraya düzülsə, yenə də görən bir gözə möhtacdır. Qulaq eşitməklə bir xəyal meydana gətirir. O xəyal camala, gözəlliyə qovuşmağın başlanğıcıdır. Çalışıb ona çatmaq istərsən, xəyalın gerçəkləşər. Qulağın duyduğunu gözün də görər. O zaman da batil olan haqq olar. **("Hədisi Qüdsi")**

İNSANLAR ÇƏTİNLİKDƏ ALLAHI ÇAĞIRARLAR

ər-Rum-34-37-İnsanlara zərər toxunanda Allahı çağırar və onun dərgahında tövbə edərlər. Elə ki Allah öz rəhmətini onlara dadızdırdı, görərsən ki, öz Pərvərdigarına ortaq çıxarar və verdiyimiz neməti danarlar. İnsanlara rəhmət dadızdıranda sevinirlər, tutduqları işlərə görə ağrıya düçar olanda birdən naümid olurlar. Bəs görmürlər ki, Allah hər

kəsin ruzisini istəsə bol edər və ya azaldar? Bunda iman gətirən qövm üçün ibrətlər vardır.

Nəhl-53-54-Sizə gələn hər bir nemət Allahdandır.Sonra sizə bir müsibət üz verdikdə Ona yalvarıb çağırarsınız!Sonra sizi o müsibətdən qurtardığı zaman bir də görürsən ki, aranızdan bir dəstə Rəbbinə şərik qoşar.

əz-Zumər-9- Fəqirlik və qıtlıq yetişən kimi, insana zərər yetişdikdə Allahın tərəfinə qayıdan halda onu çağırar. Allah ona öz tərəfindən nemət verdikdə, bundan qabaq etdiyi duanı unudar, Allah üçün şərik qərar verər ki, insanları Allahın yolundan və haqq dindən azdırsın. Ya Peyğəmbər! Onlara de ki, küfrünüzə görə bu dünyada az müddətdə ləzzət aparın. Həqiqətən, siz Cəhənnəm əhlisiniz.

əz-Zumər-49-50-İnsana zərər yetişdikdə bizi çağırar və yalvarar. Ona öz tərəfimizdən nemət verdikdə deyər ki,bu mənə öz elmimə görə verilibdir. Əksinə, bu, imtahandır. Lakin insanların çoxu onlara verilən bu nemətlərin imtahan üçün olduğunu bilməzlər. Bunu əvvəlki tayfalar da dedilər. Qazandıqları dünya malı onları ehtiyacsız etmədi.

ALLAH BAĞIŞLAYANDIR

əz-Zumər-53- Bəndələrimə de ki, ey mənim bəndələrim! Ey özlərini israf edənlər! Allahın rəhmətindən naümid olmayın. Allah günahlarınızın hamısını tövbə etsəniz, bağışlayar.Allah bağışlayan və rəhm edəndir. Allahınıza tərəf qayıdın! Onun əmrinə tabe olun! Sizə qəflətən əzab gəlməzdən öncə tabe olun! Yoxsa sonradan sizə kömək olmaz.

Ali-İmran-31-Ya peyğəmbər!Allahı sevirsinizsə, mənə tabe olun ki, Allah da sizi sevsin.Sizin günahlarınızı bağışlasın.O, tabe olanlara rəhm edəndir.

Taha-81-Mən müşriklərdən tövbə edib,Allaha iman gətirən və yaxşı əməllər edərək, sonra imanında sabit olan kəsi bağışlayanam.

əl-Kəhv-58-Sənin Rəbbin bağışlayan və rəhmət sahibidir. Əgər qazandıqları əməllərə görə Allah onları yaxalasa, əlbəttə, tez əzab göndərər. Hələ onları həlak etmək üçün müəyyən vəd də vardır. O zaman Allahdan başqa pənah yeri tapmazlar.

MÖMİNLƏR BOŞ SÖZLƏRƏ QULAQ ASMAZLAR

əl-Qəsas-55-Möminlər boş, yersiz söz eşidən zaman ondan üz çevirərək dedilər: “Bizim əməllərimizin mükafatı bizə,sizin əməllərinizin cəzası

isə sizə aiddir,hər kəs öz əməlinə cavabdehdir. Bizdən əl çəkin, biz cahillərin söhbətini istəmirik. Biz ancaq mərifət əhli ilə söhbət istəyirik.

Ya Peyğəmbər! Şübhəsiz ki,sən istədiklərini güc ilə imana və doğru yola yönəldə bilməzsən!Amma Allah öz lütfü ilə istədiyi kəsi doğru yola yönəldər.Allah doğru yolda olan kəsləri daha yaxşı bilir.

Furqan-72-O kəslər ki, pis yerlərə,yalan və pis məclislərə getməzlər, günah edən şəxslərin, yaxud onları söyən şəxslərin yanından kəramətli adamlar kimi keçərlər.

ALLAHDAN RAZILIQ

Açıqlama:-Möminlər imanları ilə bütün kainatın gözəlliklərini və gözəl mənalarını görürlər və bu səbəbdən də bütün kainat möminlərdən mənən məmnundur. Hər kəs istəyir ki, Allah ondan razı olsun, gərək özü də Allahın ona verdiklərindən istər pis, istərsə də yaxşı,hamısından razı olsun.Yalnız Uca Allaha razılıq,dua, ibadət, itaət sayəsində onun rəhm və rəhmətini qazana bilərik.

ət-Tin-6-Təkcə o kəslər istisna olmaqla ki, iman gətirdilər və saleh əməllər etdilər. Onlar üçün qurtarmayan və həmişəlik mükafatlar vardır.

əl-Bəyyinə-7-8-O kəslər ki, iman gətirdilər və yaxşı əməllər etdilər, məhz o kəslər yaranmışların ən yaxşısıdırlar.Onların muzdu öz Allahlarının yanında həmişəlik behiştdir.Allah onlardan razı oldu, onlar da Allahdan razı oldular. Bu razı olma o kəslər üçündür ki, Allahdan qorxurlar.

Hədis:"Hədisi-qüdsi"Şeyx Bəhauddin("Kəşkul" kitabının 3.c.) rəvayət edir: Tövratda belə yazılmışdır:-Allah-taala buyurur: -Hər kəs Mənim qəzama razı olmazsa, Mənim bəlama səbir etməsə və Mənim nemətlərimə şükür etməsə, özü üçün başqa bir Rəbb seçsin.Hər kəs dünya həyatı üçün qəm-qüssəli olsa, Mənə qəzəblənmişdir.Hər kəs sərvətli bir şəxsə, onun mal-dövləti xatirinə təvazökarlıq etsə, dininin üçdə iki hissəsini itirmiş olur.

Ey Adəm övladı!Hər gün açılanda sənə təzə ruzi göndərirəm. Amma gecə mələklər sənin çirkin əməllərini Mənim yanıma gətirirlər.Həmişə xeyir şeylər Məndən sənə tərəf nazil olur, şər şeylər isə səndən Mənə tərəf gətirilir.

Ey Adəm övladı! Mənə öz ehtiyacınız qədər itaət edin, Cəhənnəm oduna taqət gətirəcəyiniz qədər mənə qarşı günah edin. Dünya üçün onda qalacağınız qədər iş görün, axirət üçün isə orada dayana biləcəyiniz qədər azuqə götürün.

Ey Adəm övladı! Mənimlə əkin əkib, müamilə edin.Sələf alveri yerinə yetirin ki, Mən də sizə elə fayda verim ki, heç bir göz onu görməmiş, heç bir qulaq onu eşitməmişdir və o faydanın miqdarı heç bir qəlbdən keçməmişdir.

Ey Adəm övladı!Dünya məhəbbətini qəlbindən çıxart, çünki dünya məhəbbəti ilə Mənə məhəbbət bir qəlbdə heç vaxt yerləşməz.

Ey Adəm övladı!Sənə əmr etdiklərimə əməl et, çəkindirdiyim əməllərdən əl çək. Bunları etsən, səni elə bir diri edərəm ki, heç vaxt ölməzsən.

Ey Adəm övladı! Qəsavət, daşürəklilik hiss etdikdə, bədənin xəstə olduqda, mal-dövlətinə xəsarət dəydikdə, ruzində məhrumiyyət olduqda, bil ki,faydasız sözlər danışmısan.

Ey Adəm övladı!Uzun səfərin yolu üçün çox azuqə götür. Öz günah yükünü də yüngülləşdir. Çünki sirat çox nazikdir. Əməllərini də xalisləşdir.Çünki əməlləri yoxlayan müfəttiş çox gözüaçıq və agahdır. Öz yuxunu qəbrə,fəxrini mizan gününə və ləzzətlərini behiştə saxla. Mənim üçün ol ki, Mən də sənin üçün olum. Dünyanı xar hesab etməklə mənim dərgahıma yaxınlaşın ki, Cəhənnəm odundan uzaqlaşasan.

Ey Adəm övladı!Hər gəmisi qərq olan və bir taxta parçasının üzərində dəryanın ortasında qalan şəxsin müsibəti, sənin müsibətindən azdır. Çünki sənin günahlarına yəqinliyin vardır. Əməllərin hesabında isə xətərdəsən, bununla belə tövbə etmirsən.

İNSAN HƏR İŞDƏ TƏLƏSKƏNDİR

əl-Ənbiya-38-40-İnsan yaranışdan tələskən yaranmışdır, yəni insanın xilqəti və təbiəti tələsməkdir. Necə ki müşriklər əzabın tez nazil olmasına tələsirlər və deyirlər ki,əgər doğru deyirsinizsə, bəs verdiyiniz vədə nə zaman baş veräçək? Tezliklə Peyğəmbərin doğruluğuna,verdiyi vədlərin baş verəcəyinə dəlalət edən işləri sizə göstərərəm.Əzabın sizə tez nazil olması üçün məni tələsdirməyin. Qiyamət onlara qəflətən gələr və onları heyran edər,onu dəf edə bilməzlər.Onlara möhlət də verilməz. Kafirlər bilmirlər ki,o zaman öz üzlərindən və arxalarından gələn Cəhənnəm odunun qarşısını nə alan olar, nə də onlara bir kömək edən.

ALLAH İNSANLARI MÜXTƏLİF YARATMIŞDIR

ər-Rum-22-23-Göyləri və Yeri sizin işlərinizin nizamı üçün yaradıb, sizin dillərinizi və rənglərinizi müxtəlif edib, gecələr yatma-

ğınız, gündüzlər Allahın fəzlindən ruzi istəməyiniz, Allahın qüdrət əlamətlərindəndir.

əl-Ləyl-1-And olsun günü öz zülməti ilə bürüyən gecəyə, işıqlanmaqda olan gündüzə ki, həqiqətən sizin səyiniz və əməliniz müxtəlifdir.

Hədis: Peyğəmbərimiz buyurur ki:-Hər kəs bildiyi şeylərə əməl etsə, Allah-taala ona bilmədiyi şeyləri də verər. **(Zubdətul əhadis.)**

ALLAHIN HİKMƏT VƏ ƏLAMƏTLƏRİ

əl-İsra-72-Hər kəs ki, bu dünyada Allahın dəlillərini, möcüzələrini, (haqqı görməkdən) bu dünyada kor oldu, o kəs axirətdə də kordur və sərgərdandır. Haqq yolundan da azarlar.

əl-Bəqərə -29-O, hər şeyi haqqı ilə biləndir.Ey İnsanlar!Uca Allah Yer üzündə hər nə varsa, hamısını sizin istifadə edə bilməniz üçün yaratdı,vücuda gətirdi və onlardan istifadə etməniz üçün sizə qabiliyyət verdi.Onun hər yaratdığında neçə faydalar, hikmətlər vardır ki,bunların tamamını yalnız O,özü bilir.

ər-Rum-22-Göylərin və Yerin yaradılışı,dillərinizin və rənglərinizin müxtəlifliyi də Onun qüdrət əlamətlərindəndir. Şübhəsiz ki,burada bilənlər(ağıl və elm sahibləri) üçün Onun hər şeyə qadir olmasına dəlalət edən nişanələr vardır!

əl-Casiyə-3-6-Həqiqətən, göylərdə və Yerdə möminlər üçün ibrətlər vardır. Sizin yaradılışınızda və Yerdə pərakəndə halında səpələnən canlıların yaradılışında Allahın varlığına tam yəqinliklə inananlar üçün əlamətlər vardır. Gecə və gündüzün bəzən uzun, bəzən də qısa olması, Allahın ruzi vermək üçün göydən yağış yağdırmasında, onun vasitəsilə Yeri ölümündən sonra diriltməsində və küləkləri bəzən rəhmət,bəzən də əzab üçün müxtəlif tərəflərə yönəltməsində ağılla düşünənlər üçün əlamətlər vardır.

əş-Şura-29-Göyləri və yeri yaratmaq,orada olan yaranmışları yaradandan sonra pərakəndə etmək Allahın əlamətlərindəndir. Allah istədiyi vaxt onları bir yerə toplamağa qadirdir.

Nəhl-13-Allah yer üzündə yaratdığı cürbəcür şeyləri də sizin ixtiyarınıza verdi.Öyüd-nəsihət qəbul edənlər üçün,sözsüz ki, Allahın qüdrət və əzəmətini bildirən əlamətlər vardır.

ən-Nəhl-65-Allah göydən yağış endirər, onunlaYer üzünü öldükdən sonra (quruduqdan) dirildər. Öyüd-nəsihət qulaq asanlar üçün bunda bir ibrət vardır. Allah ölü torpağa həyat verib diriltdiyi kimi, insanları da öləndən sonra diriltməyə qadirdir.

Yusif-105-Göylərdə və yerdə, Allahın birliyini sübut edən neçə-neçə əlamətlər, nişanələr vardır ki, insanlar onların yanından üzlərini çevirib keçərlər.Onlara baxıb ibrət almaz, onların həqiqi mənaları haqqında heç düşünməzlər.

ən-Ənam-158-Məgər onlar özlərinə yalnız əzab ilə mələklərin, ya sənin Allahının əmrinin, əzabının, ya onun əlamətlərinin bəzisinin gəlməsini gözləyirlərmi? Səni Allahının əlamətlərinin bəzisi gələn gün, qabaqcadan iman gətirməyən nəfsin imana gəlməsinin, yaxud iman gətirdiyi zaman yaxşı əməl qazanmayan kəsin imanının ona xeyri yoxdur. Asi möminin nəfsi ilə imanı arasında, onun günahının çoxluğu və yaxşı əməlinin azlığı pərdə salmışdır, imanından, ibadətindən ona xeyir gəlməz. Ya Peyğəmbər!De ki, gözləyin, həqiqətən, biz də gözləyirik, görək ki, kim xilas olacaq, kim isə əzab görəcək.

Casiyə-13-Göylərdə və yerdə nə varsa, hamısını öz tərəfindən sizin ixtiyarınıza qoyan da Odur. Həqiqətən,bunda hər qövm üçün ibrətlər vardır.

QURANDA İNSANLARA İBRƏT OLMAQ ÜÇÜN ADI ÇƏKİLƏN CANLILAR

İsra-41-İnsanlar düşünüb ibrət alsınlar deyə, Biz Quranda Allahın vahid, tək olmasını cürbəcür dəlillərlə, müxtəlif misallarla izah etdik. Lakin bu izah onların yalnız nifrətini artırdı.İslamdan daha da çox üz döndərdilər.

Açıqlama:-Bununla Uca Allah öz qüdrətini ozəifcanlıları nümunə çəkməklə izhar edir. Kafirlərin irad tutmaqlarına baxmayaraq, Quranda dəvə, bal arısı, ağcaqanad, milçək, hörümçək, qarışqa, meymun, uzunqulaq, donuz, quşlar, balaca taxtaqurdu və başqa həşəratlar kimi canlıların adları çəkilir. Buna görə Allah-taala buyurur: "İnsanları asan başa salmaqdan ötrü zəif canlıları misal çəkməkdən belə çəkinmərəm". İman gətirən kəslər bilirlər ki, Allah tərəfindən çəkilən bu misallarda əsas məsələ böyük və kiçik mövzuları, zillət və şərafəti bir-birindən fərqləndirməkdir. Bəzi heyvanlar var ki, insanlardan şərafətlidirlər.Kafir olan kəslər deyərlər ki, Allah-taala bu misalı gətirməklə nə demək istəmişdir. Allah bu misallarla hidayəti qəbul etməyən çox qəlbi azdırar, hidayəti qəbul edənlərin çoxunu isə hidayətə gətirər.

Məsələn, ayədə adı çəkilən milçəyin çirkablar üstündə oturan, xəstəlik yayan, insanda ikrah hissi oyadan bir canlı olmasına baxmayaraq,onun bizim üçün məsəl çəkilməsinin məqsədi vardır. Əgər fikir versəniz,

milçəyin daim əl-üzünü yuduğunu, özünün təmizliyi ilə məşğul olduğunu müşahidə edərsiniz. Sonsuz qüdrəti böyük olan Allahın bizə demək istədiyi şey, bizim milçəkdən deyil, öz natəmizliyimizdən diksinib, təmizliyə və paklığa riayət etməyimizdir. Milçəyin bizim üçün misal çəkilməsinin hikməti isə biz insanların təmizkar olub, çirkinlik və pisliklərdən qorunmağımız və Allahın qarşısında bir milçək qədər qüdrətimizin olmamasıdır.

Başqa bir hikmət isə Allahdan başqa tapındıqlarımızın bir milçək qədər belə qüdrəti olmadığını bizlərə anlatmaqdır.

Həqiqətən də, Qadir Allah yerdə mövcud olan məxluqların hamısını, bizim bu dünyada onlardan ibrət alıb, axirətimizi dərk etmək üçün əlamətlər olaraq yaratmışdır.

Bu ibrətlər haqqında Qurani-Kərimdə buyurulan ayələr:

əl-Həcc-73-Ey insanlar!Sizə misal çəkildi,onu eşidin! Allahdan başqa ibadət etdiyiniz kəslər əsla bir milçək yarada bilməzlər. Bunun üçün toplaşsalar da, yenə də yarada bilməzlər. Əgər milçəklər bütlərin soyuq bədənlərindən bir parça aparsalar da, özlərini xilas edə bilməzlər. Bütlər və milçəklər, hər ikisi də zəifdir.

əl-Bəqərə-26-Həqiqətən, Allah mətləbin aşkar olması üçün bəzi həşəratları və heyvanları insanlar üçün misal çəkməkdən çəkinməz. Ağcaqanaddan tutmuş ondan böyüklərinə qədər. Çünki ağcaqanad zahirdə bütün məxluqlardan zəifdir, lakin həqiqətdə heyvanların hamısından böyük olan filə bənzəyir, hətta iki üzvü də ondan çoxdur.

əl-Ğaşiyə-17-21-Məgər dəvəyə baxmırlar ki,necə yaradılmışdır? Göyə baxmırlar ki, necə döşədilmişdir? Dağlara baxmırlar ki, necə dikəldilmişdir?Və yerə baxmırlar ki, necə döşədilmişdir? Ya Peyğəmbər! Mənim bəndələrimə öyüd-nəsihət ver. Sən ancaq öyüd verənsən!

ən-Nəhl-66-Şübhəsiz ki,sağmal heyvanlarda da sizin üçün bir ibrət vardır. Biz onların qarınlarındakı qanlı ifrazat arasında olan təmiz südü sizə içirdirik.O, içənlərin boğazından rahat keçər. Qanın və ifrazatın dadı, qoxusu və rəngi əsla südə qarışmaz. Əksinə, südə elə bir tam verərik ki, o içənlərə xoş gələr.

ən-Nəhl-79-Məgər müşriklər yerlə-göy arasında uçaraq Allaha ram olmuş quşları görmürlər?! Onları havada yalnız Allah saxlayır, bütün hərəkətlərini ancaq Allah idarə edir. Həqiqətən,bunda möminlər üçün ibrətlər vardır!

ən-Nəml-18-19-O gün ki, Süleyman və qoşunları səfər zamanı qarışqalar çölünə gəldilər, bir qarışqa dedi:-Ey qarışqalar, öz yuvalarınıza daxil olun ki,Süleyman (ə.s.) və onun qoşunları sizi bilməyərək

əzməsinlər.Onlar səhvən sizi əzə bilərlər.Bu sözü yel Süleymanın qulağına çatdırdı. Süleyman(ə.s.) onların sözlərinə güldü və dedi:-Qarışqanı mənim yanıma gətirin!Qarışqanı Süleymanın yanına gətirəndə o buyurdu:

-Sən bilirsənmi ki,mən Allahın Peyğəmbəriyəm və heç kəsə zülm etmərəm?Qarışqa dedi:-Bəli, belədir.

Süleyman dedi:-Bəs nə üçün mənim zülmümdən qorxdun və o sözü dedin?

Qarışqa:-Mən qorxdum ki, qarışqalar sənin cah-calalını görüb aldansınlar və Allahın ibadətindən üz döndərsinlər! Sən böyüksən, ya sənin atan?-deyə,soruşur.Süleyman(ə.s.) dedi:

-Yox! Atam Davud məndən böyükdür!

Qarışqa:-Bəs nə üçün sənin adının hərfləri atanın adının hərflərindən çoxdur? Süleyman dedi:-Bilmirəm! Qarışqa cavab verir:

-Bu ona görədir ki, sənin atan öz yarasına Allahın dostluğu ilə əlac etdi.Yəni onun əsil adı "Dəvə bi-vudd" idi, sonra yüngülləşib Davud oldu.

Süleyman dedi:-Pərvərdigara, mənə qüvvət ver, ya ilham et ki mənə, atama, anama verdiyin nemətlərə görə sənə şükür edim və sənin razılığından ötrü yaxşı əməllər edim.Öz rəhmətinlə məni saleh bəndələrin sıralarına daxil et!

əs-Səba-14-Sonra Süleymanın ölümünü əmr etdiyimiz zaman, onun öldüyünü ancaq Süleymanın əsasını yeyən xırda ağacqurdu xəbər verdi, qurd əsanı yedi,Süleyman yıxıldı.

ən-Nəml-22-Sonra Süleymanın ordusunda xidmətkar olaraq çalışan Hud-hud adlı quşun əhvalatı.

"əl-Ənkəbut-41-Özlərinə Allahdan başqa dost tutanlar, başqa şeylərə tapınanların məsəli,özünə yuva quran hörümcəyin məsəli kimidir. Kaş biləydilər ki, hörümçəyin yuvası evlərin ən davamsızıdır."

Uca və tək olan Allah bu ayəni məsəl çəkərək Allahdan başqasına inanıb, itaət edən insanların hörümçəyin toru kimi zəif və davamsız bir şeylərə sığındığını, yəni o insanın mənasız və düzgün yaşamadığını bizlərə çatdırır.

ən-Nəhl-66-69-Heyvanlarda sizin üçün ibrət vardır. Biz onların qarınlarında olan qanla ifrazat arasında əmələ gələn xalis südü sizə içirdərik.O, içənlərə nuş olar. Xurma və üzüm ağaclarının meyvələrindən gözəl ruzilər ələ gətirərsiniz. Həqiqətən, burada ağlı ilə fikirləşən qövmlər üçün əlamətlər vardır. Sənin Allahın bal arısına ilham edib bildirdi ki,dağlarda, ağacların arasında, insanların tikdiyi binalarda,çöl və çəməndə özünə yuva qur! Sonra bütün meyvələrdən ye

və Allahın göstərdiyi yol ilə get!Arıların qarınlarından rəngləri müxtəlif olan bal çıxar. Onda insanlar üçün bir çox xəstəliklərdən şəfa vardır. Burada fikirləşən qövmlər üçün ibrətlər var.

Arıların çox qəribə xüsusiyyətləti vardır:

1.Özü üçün elə ev tikər ki,heç bir bənna o cür ev tikməyə qadir deyil.2.Həmişə meyvələrin ən yaxşısını yeyərlər.3.Qapılarının yanında gözətçi qoyarlar ki,hansı arı pis meyvədən yesə, onu içəri qoymasın.4. Arının neştərində zəhər var, kimi vursa, həmin yer şişər. Həm də ağzının suyunda dərdlərə dərman var.

Arılar bir bağçaya girdikdə çiçəkləri insanların gördüyündən daha fərqli görürlər. Çiçəklər və arılar arasında çox mühüm bir bağlantı vardır.

ÜSULİD DİNİN 2-Cİ HÖKMÜ NÜBÜVVƏT

Bunlar düz danışan və təqvalılardır.
Çox gəzdi, çox düşündü peyğəmbərlər, alimlər,
Tanrı vuran düyünü açа bildilər məgər?
Onun elmi əzəldən dəryadır, necə dərya!
Onun əbədiyyəti səhradır, necə səhra!
Əvvəli ibtidasız, axırı intəhasız,
İlki, sonu olmayan onun özüdür yalnız. (N. Gəncəvi)

əs-Səffat 180-182-Sənin Rəbbin-yenilməz qüvvət sahibi və hər şeyə qalib olan Allah,müşriklərin Ona aid etdikləri sifətlərdən tamamilə uzaqdır! Peyğəmbərlərə Salam olsun! Aləmlərin Rəbbi olan Allaha həmd olsun!

ər-Rəd-38-Ya Muhəmməd! Səndən qabaq da Peyğəmbərlər göndərdik, onlara zövcələr, övladlar verdik. Allahın izni olmadıqca heç bir Peyğəmbər möcüzə gətirə bilməz. Hər dövrün bir kitabı, Lövhu-Məhfuzda yazılmış hökmü var. İlahi kitablardan hər birinin öz nazil olma vaxtı var. Bunlar zamanın,dövrün tələbinə və ehtiyacına görədir.

əl-Əraf-52-Həqiqətən, onlara kitab gətirdik. Əqidə, hökmlər, nəsihət və qissələri elm yolu ilə hidayət edən və rəhmət olan halda, iman gətirən kəslərə təfsir ilə bəyan etdik.Onlar kitabın verdiyi xəbərin nəticəsini gözləyirlərmi? Quranın nəticəsi məlum olan gün,bundan qabaq onu yaddan çıxarmış və hökmünə əməl etməmiş şəxslər deyərlər:- Həqiqətən, Allahımızın elçiləri haqq ilə gəldi.İndi bizə şəfaət edən şəfaətçilər varmı? Yaxud biz dünyaya təzədən qaytarılaq ki, keçmişdə etdiyimiz əməllərdən başqasını, yaxşı işləri yerinə yetirək? Şübhəsiz,

onlar ömürlərini küfrə sərf etməklə özlərinə ziyan vurdular və iftira etdikləri də onların gözündən qeybə çəkildi.

Açıqlama:-Eralar, əsrlər və illər keçib, lakin təkcə Allah bilir ki, bu hədsiz-hüdudsuz dünya neçə min illər arxada qoyub.Bəlkə də elə bir vaxt olub ki, Allahdan başqa heç bir varlıq olmayıb. Sonra Allah öz əzəli istəyi ilə bir-bir bütün varlıqları yaratmışdır.

Göylərin, yerin və başqa varlıqların yaranışından sonra Allah-taala varlıqların ən üstününü, ən şərəflisini, yəni insanı yaradaraq, onu özünə yer üzündə xəlifə və canişin seçdi.İlk yaratdığı insan və Peyğəmbər Adəm (ə.s) oldu və ona öz ruhundan üfürdükdən sonra öz elm nurundan onun qəlbinə salmağı iradə etdi, bu səbəbdən də əsmanı(adlar, rəmzlər və həqiqətləri, hər mövcuddan, hər şeydən, hər dildən Qiyamətə qədər olanı) ona öyrətdi, lakin özü qeyb pərdəsi arxasında gizlidir. Göylərin, yerlərin, hətta mələklərin belə onun əzəmətinə dözə bilmədiyi əmanəti ona tapşırdı. Allah elm və onun sirlərinə agahlıq məqamını insana nəsib etdi.

Uca Allahın göydəki xəzinələri məslək cövhərləri,yerdəki xəzinələri isə Peyğəmbərlərin qəlbləridir. O halda bu nicat əlacını yer üzündə Peyğəmbərlərin qəlblərindən başqa bir yerdə axtaranlar yanılırlar. Allahın ən böyük nemətlərindən biri insanların xilası və nicatı üçün onlara göndərdiyi Peyğəmbərlərdir. Peyğəmbərlər insanlara pisliklərdən qurtarmağın yolunu öyrətdilər.İnsanlara öz nəfsləri ilə necə mübarizə edəcəklərini, qəlblərini kir və pasdan necə təmizləyəcəklərini, qəlblərdəki pis niyyətlərin təmizlənib, saflığa çıxmaq yollarını öyrətmişlər. Peyğəmbərlər ən əmin, Allahın əmr və göstərişlərini insanlara heç dəyişmədən çatdıran, elçilik vəzifəsini yerinə yetirərkən Allahdan başqa heç kəsdən qorxmayan, ən doğru sözlü, çox ağıllı və insanların bilmədiklərini vəhy ilə bilən, bildirən, onlara doğru yolu göstərən, yalnız Allaha ibadət etməyə çağıran və mükafatlarının da bu dünyada deyil, axirətdə alacaqlarını bildirən Allah elçiləridir.

Bunun üçün Qurani-Kərimdə Uca Allah əvvəl özünün kamal və qüdrətini vəsf edir, sonra da bəndələrinə Peyğəmbərlərini göndərib, onların insanlara doğru yolu göstərmələri haqqında belə buyurmuşdur:

“əl-Cumuə-1-2-Göylərdə və yerdə olanların hamısı bütün məxluqatın sahibi, yenilməz qüvvət sahibi olan Allahı təqdis (varlığına inanıb, təsdiq) edib, Onun şəninə tərifl ər deyər! Əksəriyyəti yazıb oxuya bilməyən (ümmi,cahil) ərəblərə Peyğəmbər göndərən Odur. Peyğəmbər onlara kitabı, hikməti və şəriəti öyrədər. Allah-taala Muhəmmədi(s.ə.s.) tək ərəblərə deyil, Qiyamətə qədər dünyaya gələcək bütün başqa ümmətlərə də Peyğəmbər göndərmişdir.”

əl-Bəqərə-177-Yaxşı əməl heç də ibadət vaxtı üzümüzü şərqə və qərbə doğru çevirməkdən ibarət deyildir. Yaxşı əməl sahibi əslində Allaha, axirət gününə, mələklərə, Allahın kitabına və Peyğəmbərlərə iman gətirən və öz varını, sevdiyi halda yaxınlarına, yetimlərə bağışlayan, namaz qılan və zəkat verən kimsələrdir.

əş-Şura-52-Keşmiş Peyğəmbərlər kimi sənə də Quranı vəhy etdik ki, öz tərəfimizdən nurdur. Sən onunla insanları düz yola yönəldirsən (İslam dininə dəvət edib haqqa qovuşdurursan.)

Hədis:-Peyğəmbərimiz(s.ə.s.) belə buyurur:-Mənimlə məndən əvvəlki Peyğəmbərlərin məsəli ona oxşayır ki, bir kişi ev tikir, bitirir,bəzəyir, lakin bircə damının tacından başqa! Mən Peyğəmbərlərin sonu olaraq həmin damın tacıyam. **(Üsuli kafi 1-c.)**

BİZ BÜTÜN PEYĞƏMBƏR VƏ KİTABLARA İMAN GƏTİRMİŞİK

əl-Bəqərə-285-Peyğəmbər Rəbbi tərəfindən ona nazil edilənə, Qurana inanmış və möminlər də iman gətirmişlər. Onların hamısı Allaha, onun mələklərinə, kitablarına və bütün Peyğəmbərlərə iman gətirərək dedilər:-Biz Onun Peyğəmbərləri arasında fərq qoymuruq.Allahın hökmlərini eşitdik və itaət etdik.Ey Rəbbimiz, bizi bağışla. Axırda Sənin dərgahına, hüzuruna qayıdacağıq!

əl-Bəqərə-98-Hər kəs Allaha,onun mələklərinə, Peyğəmbərlərə, səmavi kitablara inanmayıb, Allaha qarşı müxalif olsa, Allah da onun ilə düşməndir.

əl-Qəmər-4-5-Quran vasitəsi ilə keçmiş ümmətlərin və Peyğəmbərlərin xəbərlərindən kifayət qədər nəsihət gəlmişdir. Bu Quranda deyilən sözlər haqqa yetirən hikmətli sözlərdir. Lakin (inanmayanlara, qəlbləri möhürlənənlərə) qorxutmalar, öyüd-nəsihətlər heç bir fayda verməz!

Əbəsə-13-Bu Quranda olan sözlər, digər Peyğəmbərlərə nazil olan çox möhtərəm səhifələrdə də yazılmışdır. O səhifələrin qədir-qiyməti ucadır.

KEÇMİŞ PEYĞƏMBƏRLƏR VƏ KİTABLAR HAQQINDA NAZİL OLAN AYƏLƏR

əl-Ənbiya-25-Ya Muhəmməd! Səndən əvvəl elə bir Peyğəmbər göndərmədik ki, ona:-Allahdan başqa heç bir tanrı yoxdur. Buna görə də yalnız Mənə ibadət edin!-deyə vəhy etməyək.

Əbəsə-13-Bu Quranda olan sözlər sair Peyğəmbərlərə nazil olan çox möhtərəm səhifələrdə yazılmışdır. O səhifələrin qədir-qiyməti ucadır.

Açıqlama:-Peyğəmbər Muhəmməd(s.ə.s.)in vəfatından yüz il sonra, Abbası xəlifələrindən olan əl-Mənsurun göstərişi ilə tarixçi İbni İshaq "Həyatı Rəsullullah"adlı kitab yazmışdır. Peyğəmbərin həyatından bəhs edilən bu kitabda Peyğəmbərin Əhli-beytinin və əshabələrinin Peyğəmbər haqqında və onun öz dilindən eşitdikləri hadisələr və hədislər haqqında məlumatları toplanmışdır. İslamın tarixçilərindən olan Əbu Cəfər Muhəmməd İbni Cərir Təbərinin yazdığı"Təbəreyi Kəbir"adlı kitabında Peyğəmbərə verilən suallar və onların cavabları şərh edilmişdir. Bütövlükdə isə XVII əsrdə Mövlana Furatı tərəfindən "Qırxsual"adlı əsəri 1840-cı ildə İstambulda, 1851-ildə Vyanada çap edilmişdir. 1881-ci ildə rus dilinə tərcümə olunmuş və A.Arxangelskinin "Muhəmməd kosmologiyası"adlı kitabına əlavə edilmişdir. 1918-ci ildə İstambulda yenidən"Qırx sual"adı ilə çap edilmişdir:

Mövlana Furatinin"Qırx sual"kitabında Peyğəmbərimizə verilən suallardan biri də keçmiş Peyğəmbərlər haqqında idi.Həmin suala Peyğəmbərimiz (s.ə.s.) belə cavab vermişdir: -"Allah yer üzünə 124 min Peyğəmbər göndərib. Onlardan 313-ü mürsəldir, yəni Allahın rəsulu, elçiləridir. Yerdə qalanlar isə nəbilərdir, yəni xəbər verənlərdir."

Allahın rəsulu, elçisi o kəsə deyilir ki, Cəbrail(ə.s.) onlarla söhbət etmiş, onlara Allahdan Peyğəmbərlik verilməsi xəbərini vermişdir. Bu Peyğəmbərlərdən 28-nin adı Qurani-Kərimdə çəkilmişdir. Quranda adları çəkilən 28 Peyğəmbərdən yeddisinə kitab və lülə halında bükülmüş kağız,yəni risalə nazil olub. Göydən dörd kitab və yüz risalə nazil olub. Risalələrdən 50 Şiys Peyğəmbərə, 30 İdris Peyğəmbərə, 20 İbrahim Peyğəmbərə göndərilib. Kitablara gəldikdə Tövrat Musa Peyğəmbərə, Zəbur Davud Peyğəmbərə,İncil İsa Peyğəmbərə, müqəddəs Quran isə Muhəmməd Peyğəmbərə nazil olub.

Nübüvvət-nəbilik, Peyğəmbərlik, mənası "xəbər aparan" deməkdir. Bütün Peyğəmbərlər yalnız kişilər arasından seçilib göndərilmişdir. Babaları,dinləri bir olmuş və günahdan, küfrdən uzaq insanlar olmuşlar.

Nübüvvət-Ağıl sahibi olan insanın dünya və axirət işləri haqqında Allah ilə bəndəsi arasındakı edilən elçilik deməkdir.

Nəbi-Qəlbinə Allah tərəfindən vəhy və ya qəlbinə ilham olunan və yaxud da yuxu vasitəsi ilə qəlbinə ilham olunan deməkdir.

Rəsul-Allah tərəfindən seçilmiş və Cəbrail (ə.s.)vasitəsi ilə Allah tərəfindən vəhy olunub,kitab verilən deməkdir.Hər Rəsul nəbidir, lakin hər nəbi rəsul deyildir. Bütün Peyğəmbərlərə inanıb etiqad etməyə nübüvvət deyilir.

Adəm (ə.s.) yer üzündə ilk insan, həm də ilk Peyğəmbərdir.Uca Allah Adəmə və onun övladlarına ilk təlimatını,din adlandırdığımız həyat qanununu vermişdir. Allah-taala hər dövrdə insanların düzgün yaşaması üçün Peyğəmbərlər göndərmişdir.Peyğəmbərlərin əvvəlincisi Adəm (ə.s.), axırıncısı isə Hz.Muhəmməd Xatəmül-ənbiyadır.Yer üzünə göndərilmiş Peyğəmbərlərin kitablarına inanıb onlara iman gətiririk.

əl-Mumin-15-Dərəcələri yüksəldən - Mələklərin, Peyğəmbərlərin, övliyaların və möminlərin mərtəbələrini ucaldan ərşin sahibi olan Allahdır. O öz sözünü-vəhyi bəndələrindən istədiyinə nazil edər ki, o Peyğəmbər insanları görüş günü ilə,yer və göy əhlinin,ibadət edənlə ibadət olunanın, zalımla məzlumun bir-birilə görüşəcəyi, ruhla bədənin qovuşacağı Qiyamət günü ilə qorxutsun!

Qeyd: Bütün Peyğəmbərlərin həyatı haqqında kitabın sonuncu səhifələrində qısa məlumat verilmişdir.

PEYĞƏMBƏRLƏRİ BƏŞARƏT VERƏN, QORXUDAN GÖNDƏRDİK

əl-Kəhf-55-58-Biz Peyğəmbərləri yalniz bəşarət verən və qorxudan olduqları halda göndərdik. Kafirlər öz batil sözləri ilə Peyğəmbərlərlə mübahisə edib, istehza edərlər ki, haqqı aradan aparsınlar.Bu əməllərinə görə onlar həm bu dünyada, həm də axirət aləmində cəzalanarlar.

əl-Mumin-78-83-Ya Peyğəmbər! Biz səndən qabaq Peyğəmbərlər göndərdik. Onların bəzisi haqqında sənə danışdıq,bir qismi haqqında isə danışmadıq. Heç bir Peyğəmbər Allahın izni olmadan möcüzə göstərə bilməz. Allahın hökmü gəldikdə kafirlə müsəlman arasında haqq ilə hökm olunar. O zaman batil olanlar ziyankar olarlar. Peyğəmbərlər onlara möcüzələrlə gəldikdə inkar etdilər. Allah onlara kömək etməyi vəd etdi. Buna görə də Peyğəmbərlər öz yanlarında olan elmə əsasən şad oldular.

Ali-İmran-33-34-Həqiqətən, Allah Adəmi, Nuhu, İbrahım övladını, İmran övladını aləmlərin əhlindən, risalət və nübüvvətə bəyənib seçdi və onları mələklərdən hörmətli etdi.Onlar biri digərindən törəmiş bir nəsil idilər. (İbrahim övladı İsmail və İshaqın övladları Musa və Harun,Yaqub Bəni İsrail övladından ibarətdir. Bizim Peyğəmbərimiz İsmail ibn İbrahim övladlarına daxildir.)

Taha-97-98-Biz öz tərəfimizdən nazil olan Quranda keçmiş əhvalatlardan da sizə xəbərlər verərik.Hər kəs bu əhvalatları və nəsihətləri diqqətlə dinləsə, yəqin ki, ibrətlər götürər. Qurandan üz döndərən

kəs Qiyamət günündə günah yüklərindən ibarət ağır yük götürər və Cəhənnəmdə əbədi qalar.

əl-İsra-107-Ya Muhəmməd! Müşriklərə de ki:-İstər Qurana inanın, istərsə də inanmayın. Şübhə yoxdur ki, ondan əvvəl elmə çatmış kəslər özlərinə Tövrat və İncil verilmiş kitab əhli yanlarında Quran oxunduğu zaman üzüüstə səcdəyə qapanarlar.

BÜTÜN PEYĞƏMBƏRLƏRƏ ALLAHIN VƏHYİ MƏLƏKLƏR VASİTƏSİLƏ ÇATDIRILIB

əl-Həcc-74-Allah mələklərdən və bəşər cinsindən elçilər seçər. Mələklər vasitəsilə Peyğəmbərlərə vəhyi göndərər və Peyğəmbərlər vasitəsi ilə də insanlara çatdırar. Həqiqətən, Allah eşidən və görəndir. Yəni, Allah mələklərdən Hz.Cəbrail və Hz.Mikail kimi elçilər seçər,insanlar arasında da Peyğəmbərləri seçər.

əl-Mursəlat-1-6-And olsun, yaxşılıqla göndərilənlərə, insanları yaxşı işlərə dəvət etmək üçün gələn Peyğəmbərlərə!

And olsun, şiddətlə gedənlərə!(Bu Quran ayələrindən ibarətdir ki,onlar əvvəlcə zəif olub,getdikcə Allahın əmri ilə güclü ayələr olublar.)

And olsun yayanlara!(haqq ilə hökmləri yayan Peyğəmbərlərə şamildir.)

And olsun fərq verənlərə!(Peyğəmbərlərə,ya da haqla batil arasında fərq qoyan mələklərə.)

And olsun vəhyi çatdıranlara! (O mələklərə ki,vəhyi Peyğəmbərlərə çatdırar, Peyğəmbərlər də ayələri,nəsihətləri insanlara çatdırarlar. Vəhyi çatdırmaq o deməkdir ki, qafil olub,günahlarda israr edən kəsləri imana dəvət etsinlər və möminlər tövbə edib üzr diləsinlər)

HZ.İBRAHİMƏ NAZİL OLAN SƏHİFƏLƏR

Uca Allah tərəfindən Hz.İbrahimə ilk səhifələr Ramazan ayının ilk gecələrində endirilmişdi. Bu səhifələrin içindəkilər qissələr, ibrətli sözlər ilə birlikdə Sübhanallah, Lə iləhə illəllah, Əlhəmdulilləh zikrindən ibarət idi.

Həbis:Əshabi-əkrəmdən Əbu Zərril Cəfəri rəvayət edir ki, Peyğəmbərdən İbrahimin səhifələri haqqında soruşanda, Rəsullallah belə cavab verdi:-Orada bütün məsələlər və ibrətli sözlər haqqında yazılmışdır. Belə ki:"Ey səltənət verilən, sınanan, aldanan kral! Mən səni,dünyanı bir-birinin üzərinə yığasan deyə göndərmədim."

Ondan sonra bir çox məsələlər haqqında buyurulur:

Ağlına məğlub olmayanacan ağıl sahiblərinin məlum saatları olmalıdır:

1)Bir saat Rəbbinə dua etmək,

2)Bir saat uca Allahın sənət və qüdrəti üzərində durub düşünmək,

3)Bir saat keçmiş istədiklərindən və gələcək istəyəcəklərindən özümü sorğuya çəkmək.

4)Bir saat da halalından yemək-içmək ehtiyacını ödəmək üçün ayırmaq.

Daha sonra ağıl sahibinə üç şey gərəkdir;

1)Zamana bəsirətlə, ibrət gözü ilə baxmaq

2)Dolanışığını düzgün qurmaq.

3)Dilini qoruyub tutmaq və az söz danışmaq.

Daha ağıllı şəxs:-Qiyamət günü üçün ruzi yığmalı, halal ləzzətlərdən bəhrələnməlidir.

"Əla" surəsində bu səhifələr haqqında belə buyurulur:

əl-Əla-16-19-Lakin siz dünya həyatını axirət həyatından üstün tutarsınız. Axirət evi olan behişt daha xeyirli və daha əbədidir. Bu deyilən sözlər keçmiş Peyğəmbərlərə nazil olan kitablardadır. İbrahim və Musa Peyğəmbərin kitablarından ibarətdir.

Əvvəlki kitablarda axırıncı Kitab və Peyğəmbə**r haqqında**

əl-Fəth-28-29-O elə bir Allahdır ki, öz Peyğəmbərini hidayət etdi, onu Quran və haqq olan din ilə göndərdi ki, bütün dinlərə qalib gəlsin Muhəmməd Allahın Peyğəmbəridir. Ona iman gətirən kəslərin kafirlərə qarşı ürəkləri qüvvətli və bərkdir ki, İslam dinini yaya bilsinlər. Lakin öz aralarında bir-birlərinə rəhm edərlər. Görərsən ki, Allahdan fəzl və mərhəmət istərlər, Allahın razılığını axtararlar. Onların möminlik nişanəsi alınlarındakı səcdənin əsəridir. Belə ki, axirətdə səcdə yerləri ay kimi ağarar. Bu, Tövratda və İncildə də yazılıb. O,elə bir əkindir ki, öz şaxələrini aşkar edər, onları qüvvətli edər. Kiçik budaqlar böyüklərin sayəsində şax durar və əkinçiləri təəccübə gətirər. Möminlər də əvvəl zəif, sonra bir-birinə dəstək verərək qüvvətlənərlər. Nəticədə, öz qüvvələri ilə kafirləri acıqlandırarlar.

əl-Əraf-157-O kəslər ki, Allah tərəfindən göndərilmiş mələklər vasitəsi ilə xəbər verilmiş, heç kəsdən elm almayan"Ümmü "Peyğəmbərə tabe olarlar.(Ümmü-təhsil almayan kəsə, Məkkə əhlinə isə Ümmiqura-qəryələrin-Anası deyilir).

Elə bir Peyğəmbər ki, yəhudilər və xristianlar onun adı və sifətlərini, əlamət və işarələrini öz yanlarında olan Tövrat və İncildə yazılmış

görərlər. O, insanları yaxşı işlərə əmr edər, pis işlərdən çəkindirər, pak şeyləri onlara halal edər, napakları haram edər, çətin təklifləri yüngülləşdirər, onların üstündə olan zəncirləri və ağır təklifləri götürər. Ona iman gətirən, düşmənlərini qovan,ona kömək edən, ona nazil olan Qurana tabe olan kəslər nicat tapmışlardır.

əl-Ənkəbut-46-Kitab əhli ilə yalnız xoş rəftar ilə bəhsə girişin.Yalnız zalımlardan başqa və deyin:-Bizə nazil olana və sizə nazil olana iman gətirmişik. Bizim Allahımız və sizin Allahınız birdir və biz onun qarşısında təslim olmuşuq.

TÖVRATDA İSLAM PEYĞƏMBƏRİ HAQQINDA

ən-Nəml-52-Bundan əvvəl kitab verdiyimiz kəslər Tövratda onun adını görməklə ona iman gətirərlər.

əl-Bəqərə-89-O zaman ki onlara Allah tərəfindən Quran endirildi və bu kitab onların əlində olan Tövratı təsdiq etdi.Yəni, onların əlində olan Tövratı, Quran təsdiq edir.Tövratda bu Peyğəmbərin adı və sifətləri bəyan olunmuşdur. Muhəmməd öz risalətini aşkar etməzdən qabaq, onlar Peyğəmbərin gəlişinə inanmayanların zərərinə, Allahdan fəth və nüsrət istəyirdilər. Onlar Peyğəmbərə kömək etməyə hazır idilər. Onlara sifətini tanıdıqları bir kəs gələn zaman və onun döğru-düzgün olduğunu bildikləri halda, Peyğəmbərliyini dandılar və ona qarşı kafir oldular. Haqqın üstünü örtənlərə Allahın lənəti olsun.

Açıqlama:-Yəhudilər Tövratdan oxuyub bilirdilər ki,isti qumlu Ərəb ölkəsində Kidar və Fədəkdə (İsmayil Peyğəmbərin oğlanlarının adı ilə adlanan yaşayış yerləri)bir nəfər Peyğəmbər olaraq"İr" və "Ühüd" arasında dünyaya gələcək. Həm Tövratda, həm də İncildə axırıncı Peyğəmbərin Ərəbistanda dünyaya gələcəyi,bu Peyğəmbərin gətirdiyi dinin bütün dünya əhli üçün olacağı və ona Allah tərəfindən nazil olan kitabın ərəb dilində, tərtillə (avazla) oxunacağı haqqında xəbərlər verilmişdir.Yəhudilər böyük dəstələrlə həmin yerlərə axın edib oralarda məskunlaşaraq axırıncı Peyğəmbərin gəlməsini gözləyirdilər. Onlardan bəziləri Təyməyə, bəziləri Fədəkə, bəziləri isə Xeybərə dağılaraq, oralarda məskunlaşmışdılar. Ühud dağının yanında məskən salanlar yavaş-yavaş Mədinəni və onun ətrafını ələ keçirib çoxlu mal toplayaraq öz məqamlarını möhkəmləndirməyi bacarmışdılar.Lakin Allah-taala Peyğəmbəri seçən zaman onu İslam dinindən seçdi. Yəhudilərin düşünüb gözlədikləri hadisələrin baş verməməsi, onları çox peşman etdi. Onlardan bəziləri iman gətirsələr də, çoxları öz dinlərində qala-

raq Ərəbistanı tərk etdilər.Odur ki, Allah-taala buyurur:-Yəhudilər bundan əvvəl Allahdan kömək istəyirdilər ki,vəd olunmuş Peyğəmbər tez gəlsin və onlar Peyğəmbərə kömək etsinlər.Lakin Peyğəmbər gəldiyi zaman onu inkar etdilər.

əl-Bəqərə-90-91-Nə pis işdir ki,onlar özlərini Allahın nazil etdiyinə kafir olmaq müqabilində satdılar.Onlar Allahın istədiyi bəndələrinə Quran və şəriət nazil etməsinə həsəd aparırdılar.Onlara üst-üstə Allahın qəzəbi nazil oldu.Allahı inkar edənlər üçün dərd artıran əzablar vardır.

Onlara:-Allahın nazil etdiyinə iman gətirin deyildikdə dedilər ki, bizə nazil olana, yəni Tövrata iman gətirdik. Bir halda ki,Quran haqdır və onların yanında olan Tövratı təsdiq edəndir. Allah buyurur: -Əgər onlar özləri dedikləri kimi Tövrata iman gətiriblərsə, xəbər al və de ki, əgər Tövrata iman gətiribsinizsə,bəs nə üçün bundan əvvəl Allahın Peyğəmbərlərini (Zəkəriyyə,Yəhya, İsa və digərlərini) öldürdünüz? Bir halda ki, Tövratda, ümumiyyətlə, insan öldürmək və xüsusilə Peyğəmbər öldürmək haram buyurulmuşdur!

əş-Şüəra-192-202-Bu kitab aləmlərin Rəbbi tərəfindən nazil olub. Onu Ruhul-əmin (Cəbrail) gətirib sənin ürəyinə ki, çəkindirənlərdən olasan.O kitab ərəb dilində nazil olub və onda keçmiş Peyğəmbərlərə gələn yazılar da vardır.Məgər bu ayə sizə bəs deyil ki, Bəni-İsrail alimləri bunları bilirdilər? Əgər biz Quranı əcəmi (xarici) dilində nazil etsəydik və onlara oxusaydıq, yenə də iman gətirməzdilər. Beləliklə, Quranın inkarını onların ürəklərinə yol verdik. Onlar acı əzabı görməyənəcən,ona iman gətirməzlər. O əzab xəbərsiz və birdən onları bürüyər.

əl-Casiyə-16-17-Biz İsrail oğullarına Tövratı, din elmini və Peyğəmbərlər verdik və onlara gözəl, pak təamlardan ruzi verdik. Onları Peyğəmbərlərin çoxluğu ilə aləm əhalisindən üstün etdik.Din əmrlərində, yaxud Muhəmməd Peyğəmbərin sifətləri barədə onlara möcüzələr və dəlillər verdik. Onlar yalnız özlərinə yəqinlik gəldikdən sonra öz aralarındakı ədavət, həsəd və təkəbbürlük üzündən ayrılığa düşdülər. Tövrata, ya da Muhəmmədin Peyğəmbərliyinə iqrar etmək istəmədilər. Həqiqətən, sənin Allahın Qiyamət günündə ixtilaf etdikləri şeylər haqqında onların arasında hökm edəcək. Sonra səni din cəhətdən bir şəriətdə bərqərar etdik. O şəriətə tabe ol, ona əməl et və haqqı bilməyən kəslərin istəklərinə tabe olma. Şübhəsiz, onlar Allah göndərən əzabdan bir şeyi səndən dəf edə bilməzlər. Zalımlar bir-biri ilə dostdurlar, onlar səni aradan aparmaq üçün müttəfiqdirlər. Allah isə təqvalıların dostudur və Allah səni qoruyar.

əl-Maidə-15-Ey əhli-kitab! Həqiqətən, sizə bizim Rəsulumuz gəldi. O,sizin kitabda gizli tutduğunuz xəbər və hökmlərin çoxunu bəyan edər və çoxunu əfv edər.

Həqiqətən,sizə Allah tərəfindən böyük nur olan Nuri-Muhəmməd və Lövhi -Məhfuzda olan kitab-Quran gəldi. Allah onunla, onun razılığına tabe olan kəsi salamat olan yola hidayət edər ki,yol əzabdan uzaq və (Cənnətdir) salamatdır. Onları öz izni ilə zülmətlərdən İslam nuruna çıxarar və düz yola hidayət edər.

əl-Əhqaf-12-Ondan əvvəl də bir rəhmət və rəhbər olaraq Musanın kitabı Tövrat gəlmişdi. Bu kitab, Quranı ərəb dilində olan halda təsdiq edəndir.

Açıqlama:-Tövratda və İncildə Hz.Muhəmmədin adı, şəkli, əxlaqı, boyu, yerişi və sair əlamətləri təsvir edilmiş və belə bir Peyğəmbərin gələcəyi xəbər verilmişdi. Hz.Musa və Hz.İsa dinindən olan din xadimləri bu məlumatı Peyğəmbərdəki əlamətlərlə müqayisə edib gördülər ki, bu şəxs həmin xəbər verilən Axir zaman Peyğəmbərdir. Lakin onlar öz dinlərinin təəssübünü çəkərək, bunu gizlətdilər. Onlardan bəzisi bunu aşkar etmək istəyəndə həmin dinin varlı-dövlətli adamları, həmçinin Peyğəmbərə düşmən olan və İslamın inkişafına mane olmaq istəyən, kafir, münafiq və müşriklərdən də dövlətli olanlar din adamlarına rüşvət verib onları vadar edirdilər ki,bu həqiqəti ört-basdır edib,onun Peyğəmbərliyini inkar etsinlər.Dövrümüzdə də bu cür savadsız və inadkar alimlər vardır ki, dinimizin mahiyyətini bilmədən ona iftira edir və onun haqqında başa düşmədən fikir yürüdürlər.

TÖVRAT HAQQINDA MƏLUMAT

Açıqlama:-Tövrat, yaxud Əhdi-ətiq, yəhudi qövmünün tarixini, məzhəbini, nəğmələrini və hökmlərini əhatə edən nəzm məcmuəsindən ibarətdir. Əhdi-ətiq bir neçə bölmədən ibarətdir ki, Hz. Musaya vəhy şəklində nazil olan Tövrat, yalnız onun bir qismini təşkil edir. Bu müqəddəs kitabın sayı haqqında müxtəlif fikirlər mövcuddur.Bəzi yəhudi alimləri Əhdi-ətiqə müəyyən hissələri əlavə etmişlər, halbuki başqaları həmin hissələri qəbul etmirlər.

Əhdi-ətiq kitabı ibri dilində,az bir qismi fəldani dilində yazılmışdır ki, hər ikisi ərəb dili kimi sami dillər qrupundandır.

Tövratın beşlik təşkil edən sifrlərindən(kitab cildi) hər biri xüsusi bir məsələni əhatə edir:

1-ci.Sifri peydayiş:-Bu kitabda dünyanın və insanın xilqəti, Adəm ilə Həvvanın başına gələn əhvalatlar,onların düçar olduqları xətalar və nəticədə behiştdən xaric olmaları ilə əlaqədar məsələlərə toxunulub. Adəmin övladlarının başına gələn hadisələr, Nuh tufanı,Hz.İbrahimin və onun nəslindən olan sair Peyğəmbərlərin, yəni Hz. İshaqın,Yəqub övladlarının, xüsusən Hz. Yusifin əhvalatları nəql olunur və sifr Hz. Yusifi bəyan etməklə sona çatır.

2-ci.Sifri xüruc:-Bu kitabda Bəni-İsrail qövmünün Hz. Yusifdən sonrakı tarixi, bu qövmün Hz.Musanın zühuruna qədər başına gələn hadisələr, onların arasından Bəni-İsrailin Misirdən çıxaraq, çöllərdə avara-sərgərdan qalmaları, məşhur 10 fərmanın mətni və Yəhuvə ilə əlaqədar çoxlu məsələlər nəql olunmuşdur.

3-cü-Sifri edad:-Bu kitabda Bəni-İsraıl qövmünün 12 illik təşkil edən əsbat bölgüsü üzrə sayı,bu qövmün mənzillərinin, ictimai tərbiyə və tənzimlərinin tərtibə salınması bəyan edilib.Bu sifrdə eləcə də Bəni-İsrail qövmünün daxilində baş verən bəzi qiyamlar, Musanın dövründə baş verən hadisələr bəyan edilmişdir.

4-cü-Təsniyə sifri:-Bu kitabda əvvəlki kitablara nisbətən geniş şəkildə şərh olunan mühüm tarixi bəhslər,şəriət hökmləri ixtisarla təkrar olunmuş, nübüvvət və Yuşa ibni Nunun canişinlik məsələsi ilə əlaqədar olunan bəhslər qeyd edilir.

5-ci-Hikmətli sözlər: Bu kitab münacat və şeirlərdən ibarətdir. Həmçinin Əyyubun, Davudun və Süleymanın həyatları və başlarına gələn hadisələr, hikmətli kəlamları, şeirləri və minacatları barədə bəhs edilir.

Tövratın beşlik təşkil edən əsfarından sonra Bəni-İsrail Peyğəmbərlərinin sair kitabları və səhifələri Əhdi-ətiqin sonrakı bölmələrini təşkil edir və onun 12 bölməsi Bəni-İsrail qövmünün tarixinə həsr edilmişdir.

Nəhayət, sonrakı 17 kitab Peyğəmbərlərin Bəni-İsrail qövmü barəsində qabaqcadan verdikləri xəbərlər və qövmün başına gələcək çətinliklərlə əlaqədar varid olan xəbərdarlıqlardan ibarətdir.

Bu 17 kitab aşağıdakılardır:

Əşqiya peyğəmbərin səhifələri,
İrmiya peyğəmbərin səhifələri,
İrmiya peyğəmbərin mərsiyə kitabı,
Həzqiyə peyğəmbərin səhifələri,
Daniyal peyğəmbərin səhifələri,
Ruşəh peyğəmbərin səhifələri,

Yuil peyğəmbərin səhifələri,
Amıl peyğəmbərin səhifələri,
Üvəbədya peyğəmbərin səhifələri,
Yunus peyğəmbərin səhifələri,
Mikan peyğəmbərin səhifələri,
Nahun peyğəmbərin səhifələri,
Həbquq peyğəmbərin səhifələri,
Səfniya peyğəmbərin səhifələri,
Həcci peyğəmbərin səhifələri,
Zəkəriyyə peyğəmbərin səhifələri,
Məlaki peyğəmbərin səhifələri.

Hədis: Şeyx Səduq "İkmalu-din" kitabında Muhəmməd Peyğəmbərdən rəvayət edir ki:"-Hz. Musa Tövratda mənim barəmdə yazılmışlar haqqında Uca Allahdan soruşmuşdur: Musa (ə.s.) bir gün Allahdan soruşdu:

-Ya Allah! Bəndələrindən sənə ən çox əziz olanı kimdir?

Uca Allah buyurdu:-Bəndələrimdən mənə ən çox ibadət-itaət edib və daima Tövhidi zikr edənlər!

Musa(ə.s.):-Bəndələrindən ən zəngini kimdir?-deyə soruşdu.

Uca Allah buyurdu:-Ona verdiyim hər bir şeyə,(pis-yaxşı) razı olub,şükür edənlər!

Musa(ə.s.):Bəndələrindən ən yaxşı hökm verəni hansıdır?- deyə soruşdu.Uca Allah buyurdu:

-İnsanlar haqqında özü üçün hökm verdiyi kimi hökm versin! Musa (ə.s.):-Bəndələrindən sənə qarşı ən çox hissiyatlısı kimdir? -deyə soruşdu.

Uca Allah buyurdu:-Onlardan məni ən yaxşı tanıyanlar!

Musa (ə.s.)-Ya Allah!Mən sənə necə şükür edim ki, mənə ehsan buyurduğun nemətlərdən, ən kiçik bir neməti belə bütün əməllərim ödəyə bilməz,-deyə soruşdu.

Uca Allah buyurdu:-Ey Musa!Bax, indi sən Mənə şükür etdin!

Musa (ə.s.):-Ey Allahım!Yaxşılığı əmr edib,pisliklərı nəhy edən və Allaha iman edən xeyirli bir ümmətin,insanlar üçün ortaya çıxarılacağını Tövratda yazılı gördüm-dedi.

Uca Allah buyurdu:-Onlar Əhmədin ümmətidir!

Musa (ə.s.):-Ey Allahım!Özlərindən əvvəlki kitabları, İncilləri (elm və hikmətin əsli olan kitabları) əzbərləməyib, üzündən oxuyub, lakin onlara qəlbən inanan bir ümmət haqqında-Tövratda yazılı gördüm,-dedi.Uca Allah buyurdu:-Onlar Əhmədin ümmətidir! Musa(ə.s.):-Ey

Allahım! Tövratda yazılmış bir ümmət gördüm ki, onlardan birisi bir pislik etməyi fikirləşsə,ona günah yazılmaz, ancaq etmiş olsa, bir günah yazılar. Onlardan birisi bir yaxşılıq etməyə niyyət edərsə, bir savab yazılar. Onlardan birisi bir yaxşılıq edərsə,on savab yazılar,-deyə soruşdu.

Allah buyurdu:-O, Əhmədin ümmətidir!

YƏHUDİLƏR ÜZEYRƏ ALLAHIN OĞLU DEDİLƏR

ət-Tin-7-8-Ey təkzib edən! Bəs səni nə vadar edir ki,bu qədər dəlillərdən sonra dini təkzib edəsən? Məgər Allah hökm edənlərin ən yaxşısı deyilmi, məgər Allah bütün yaradılmışlarla ədalətlə rəftar edən deyilmi?Ya Peyğəmbər!Bununla belə onlar nə üçün səni təkzib edirlər?Eləcə də"Allah özünə övlad götürmüşdür,"deyənləri qorxut. Onların bəziləri mələklərin Allahın qızları olduğunu, bəziləri isə İsanın, ya Üzeyrin onun oğlu olduğunu deyirlər. Onların nə özlərinin, nə də atalarının bu haqda heç bir bilikləri yoxdur.Onların danışdıqları hamısı yalandır.

əz-Zuxruf-15-19-Müşriklər bəndələrindən bir hissəsini Allaha övlad qərar verdilər. Dedilər ki,İsa və Üzeyr Allahın oğulları, mələklər isə qızlarıdır.Həqiqətən, insan aşkar surətdə nemətlərə qarşı küfr edəndir. Məgər Allah öz yaratdığı bəndələrdən qızları qəbul etdi və siz müşriklər isə oğlanları bəyənib seçdiniz? Müşriklər mələkləri Allahın qızları fərz etdilər.Məgər Allah mələkləri yaradan zaman onlar orada idilərmi? Tezliklə onların bu şəhadəti yazılar və onlar bu sözdən soruşularlar.

əl-Maidə-18-Yəhudilər və xristianlar dedilər ki:"Biz Allahın övladı və dostlarıyıq". Yəhudilər:-Biz Üzeyrin övladı,Üzeyr də Allahın oğludur,-dedilər. Xristianlar isə:-Biz Məsihin tərəfdarlarıyıq, o da Allahın oğludur,-dedilər.Ya Peyğəmbər! De ki, bəs nə üçün günahlarınızın müqabilində Allah sizə əzab verir? Xeyr, siz bəşərsiniz, Allahın yaratdıqlarındansınız. O, istədiyini bağışlar, istədiyinə isə əzab verər. Qayıdacaq yer ona tərəfdir.

XRİSTİANLAR HZ.İSAYA ALLAH DEDİLƏR

Məryəm-88-Söylədi:"Rəhman Allahın övladı var,"-şübhəsiz, pis söz danışırsınız. Az qalır bu sözdən göylər və yer parçalanıb, dağlar yıxılıb bir-birinə dəysin.Çünki Rəhman Allaha övlad sahibi olmaq yaraşmaz."

ən-Nisa-171-172-Ey əhli-kitab! Öz dininizdə həddinizi aşmayın. Xristianlar İsaya Allah dedilər. Allaha qarşı haqsız söz dedilər. Allah

təkdir, nə doğub, nə də doğulmayıb.İsa yalnız Allahın Peyğəmbəridir ki, onu Məryəm vasitəsi ilə dünyaya gətirmişdir.İsa Allah tərəfindən gələn ruh sahibidir. Allaha və onun Peyğəmbərlərinə iman gətirin.Heç vaxt"Allah üçdür" deməyin və bura daxil olmaqdan özünüzü saxlayın ki, Cəhənnəm odunda yanmayasınız. İbadətə layiq olan Allah yalnız birdir. Övlad nisbət verilməkdən pakdır. Bütün insanlara,onların işlərinə vəkil olmağa Allah kifayətdir. İsa əl Məsih də, Müqərrəb mələklər də Allahın qulu olmağı əsla özlərinə ar bilməzlər.Allah Ona ibadət etməyi özünə ar bilənləri və lovğalıq edənlərin hamısını öz hüzuruna toplayacaqdır!

HƏZRƏTİ İSA ZÜHUR EDƏCƏK

əz-Zuxruf-59-O,Məryəm oğlu İsa ancaq nemət-Peyğəmbərlik verdiyimiz və İsrail oğullarına ibrət dərsi etdiyimiz bir bəndədir.

əz-Zuxruf-61-Şübhəsiz ki, İsanın zühuru Qiyamət saatı üçün bir əlamətidir. Qiyamətə şəkk etməyin.

Məryəm-33-34-"Doğulduğum günədə, öləcəyim günədə, diriləcəyim günədə Allahdan mənə Salam olsun!"Bu, onların ixtilafda olduqları Məryəm oğlu İsa haqqında Allahın buyurduğu haqq sözdür! (Allahın Salavat Salamı olsun, zühur edib haqqı bərqərar edənə!)

İSA İBN MƏRYƏMİN ÜMMƏTİNƏ TÖVSİYYƏSİ

əs-Səff-6-9-Ya Muhəmməd!Xatırla ki, bir vaxt Məryəm oğlu İsa belə demişdi:"Ey İsrail oğulları! Həqiqətən, mən özümdən əvvəl olmuş Tövratı təsdiq edən və məndən sonra gələcək Əhməd adlı bir Peyğəmbərlə,sizə müjdə verən Allahın elçisiyəm!"

Sonra Məryəm oğlu İsa da,Muhəmməd əleyhissalam da onlara aşkar möcüzələrlə gəldikdə onlar:"Bu, açıq-aşkar sehrdir!"-dedilər. İslama dəvət olunduğu halda, Allaha qarşı yalan uydurandan daha zalım kim ola bilər?! Allah zalım qövmü doğru yola yönəltməz! Onlar Allahın nurunu, İslam nurunu öz ağızları (öz iftira və şərləri) ilə söndürmək istəyirlər. Allah isə kafirlərin xoşuna gəlməsə də, öz nurunu, dinini tamamlayacaqdır. Müşriklərin xoşuna gəlməsə də, İslamın bütün dinlərdən üstün olduğunu göstərmək üçün öz Peyğəmbərini doğru yolu göstərən rəhbərlə, Quranla və haqq dinlə göndərən Odur!

İNCİLDƏ İSLAM PEYĞƏMBƏRİ HAQQINDA

Ali-Imran-79-80-Bir bəşərə rəva deyil ki,Allah ona kitab, hikmət, nübüvvət versin, sonra o desin ki, Allaha yox, mənə bəndə olun.Əksinə, o deyər ki, Allaha ibadət edənlərdən olun. Bir-birinizə kitabı öyrədin və ilahi hökmlərdən dərs verin.O zaman ki, Allah bütün Peyğəmbərlərin əhdini aldı və sizə Allah tərəfindən kitab və hikmət gəldi.Bütün İlahi kitablarda göstərilən və onları təsdiq edən axırıncı Peyğəmbərə iman gətirəsiniz və ona kömək edəsiniz.Onlar dedilər:-İqrar etdik. Allah buyurdu:-Mən də sizinlə şahidlərdənəm.

Açıqlama:-Allah-taala İncildə xəbər verir ki, bütün dünyanı fəth edəcək yeni bir Peyğəmbər, Allahın bütün qanunlarını təmsil edən, yeni bir din ilə, ancaq xristian olmayan, ”Özü qartal kimi və kişilərin ən düzgünü” vasitəsi ilə Cənubdan,”Yeni mahnı adlanan” bir kitab ilə və Allahın bütün qanunlarına riayət edən,kainatın axırıncı dini ilə gələcəkdir. (**41.Otkraveniya-12)**

Bu ”Qartal,kişilərin ən düzgünü”,”Yeni mahnını”tərtil ilə oxuya-oxuya Allah tərəfindən taxta çıxacaqdır.Bu oxunan mahnı Evangel olmayacaqdır,lap təzə mahnı olacaqdır.(Отк.12;14-17 + Ис.19;18-25.)

Onlar Allahın adına and içəcək,Allahın adına qurbanlar kəsəcək və bu yeni xalq xristian olmayacaqdır**. (Исайя 60; 7).**

Onlar Allahın evi olan tərəfdən Kidara və Nevaiofa xalqının içindən,müsəlman olan Ərəbistanda məskunlaşan İsmail övladlarından olacaqdır**. (Отк.3;12 + Ис. 60; 7. + (Отк.3;12. Быт. 25; 13-16).**

Beləliklə, İncildə qeyd edilən İslamın möhtəşəm sisteminin möcüzəsi budur ki, bütün dünya xalqlarının mömin və seçilmiş bəndələri dünyanın axırında müsəlman olacaqdır.

Bibliya bu haqda xəbərdarlıq edir ki,kim bu əmri gizlətsə və yaxud dəyişdirsə,o şey ki, tezliklə baş verəcək,onda Allah onu cəzalandırar və ömür kitabını əlindən alar. **(Otkroveniye 22;18-19.)**

Təzə mahnı haqqında bütün İncillərdə belə buyurulmuşdur:

1.Ona təzə mahnı oxuyun.

2.Allah üçün o təzə mahnını oxuyun.

3.Allahım, təzə mahnını sənin üçün oxuyum?

4.Təzə mahnını öyrənin və qurtulun.

5.Təzə mahnını Məsihlə birlikdə oxuyun və nicat tapın.

Bu cür müraciətlər İncildə 9 yerdə edilib.

Bibliya xüsusi xəbərdarlıq edir. Məsih müqəddəs - “seçilmiş xalqın” köməyinə gələcək, “qoruyucu David” kimi “Odlu divarın” arxasından.

Allaha inanan Yerusəlimin yarısına, hansı ki, məscidləri və qurban kəsmələri ilə günahkar hesab edilən xalqın köməyinə gələr,bütün dünyada imansız Yəhudi və bütpərəstlərin padşahlarına qarşı. **(Zax.2;5+Otk.11;1-2.)**

(Yəni, Həzrəti İsa zühür edib,İslam dinindən olan xalqın köməyinə gələcək və haqqı-ədaləti təmin edib, öz ümmətinə də tövsiyə edib, tapşırdığı İslam dinini,bütün dünyada bərqərar edəcək.)

Bu seçilmiş xalq"Allahın adı"ilə and içəcək.İncildə xəbərdarlıq edilir:-Allah dünyaya qalib dini, evanqeliya, Xristian olmayan dinlə, Təzə mahnı ilə "Qartal kimi, ən düzgün kişi ilə"cənubdan çıxaracaq. Onun mahiyyətini oxuyun və Allahın qanunlarını qoruyun. **(İs.41;1-3-36 otk.11-13.)**

(Байматова А.А."Ислам в Библии -200 пророчеств" Akademik Иман В. Порохова.)

Peyğəmbərimizə, Cəbrail(ə.s.) vasitəsilə Quran nazil olanda ona belə vəhy olundu:

əl-Ələq-1-Ya Peyğəmbər!Allahın adı ilə yavaş-yavaş, tərtillə (avazla)oxu!

İNCİL HAQQINDA MƏLUMAT

Açıqlama:"İncil"sözünün lügətdə mənası bəşarət, müjdə və yaxşı xəbər deməkdir. İncil-yəni Əhdi-cədid məsihilərin müqəddəs kitabıdır.

Lakin xristianlar İsadan sonra onun Həvariləri tərəfindən yazılmış kitaba bu adı qoymuşlar və həmin bu kitaba da İsanın kəlamları, möcüzələri, təlım-tərbiyəsi və bəzi hökmləri daxil edilmişdir.

Uca Allah Hz.İsaya "İncil"adında kitab nazil etdi.Bu kitabın adı Quranda on yerdə zikr olunmuşdur**. Maidə** surəsində olan ayəyə əsasən Allahın İsaya verdiyi İncildə hidayət, nur, Tövratı təsdiq edən və mömünlərə öyüd-nəsihət olmuşdur. **"Əraf"**surəsinin 157-ci ayəsində bildirilir ki,Tövrat və İncildə İslam Peygəmbərinin adı da gəlmişdir. "Səff"surəsində isə Hz. İsa xristianlara özündən sonra gələn Peygəmbərlə müjdə verir və onlara müraciətlə özündən sonra ona iman gətirmələrini tövsiyə edir.

Tarix yazarlarının nəzərincə, qəti və əldə olan sübutlara əsasən belə məlum olur ki, həqiqi Allah tərəfindən nazil olan İncil bizə gəlib çatmamışdır. Hz.İsadan sonra İncillər onun şagirdləri tərəfindən yazılmışdır və onların arasında böyük ixtilaflar var.Onlarda olan hökmlərdəki ixtilafların özü onların əsil olmamalarına sübutdur. Təkcə Həzrət İsanın bəzi sözlərini onların arasında tapmaq olar.

Beləliklə,Həzrəti İsadan sonra onun davamçıları arasında çoxlu İncillər və Risalələr yazıldı. Miladi tarixi ilə IV əsrdə artıq 160-dan çox İncil yazılmışdı.Rum imperatoru Birinci Konstantin xristianlığı qəbul etdikdən sonra keşişlərdən ibarət icma düzəldilməsi əmrini verdi.Bütün İncil və Risalələri toplayıb onların arasından özlərinin siyasəti və hədəfləri ilə uyğun gələnini düzgün,mötəbər, yerdə qalanını isə qeyri-qanunu saydılar.

KİLSƏNİN MÖTƏBƏR BİLDİYİ 4 İNCİL VAR.

1-ci-Mətta incili: 28 fəsildən təşkil olunmuş"İncil"Hz.İsanın həyatı, tarixi, Peyğəmbərliyi,tövsiyə və nəsihətlərindən ibarətdir. Orada Əhdi-ətiqin qabaqcadan söylədiyi bəzi xəbərlərə də işarə olunmuşdur.Bu İncili yazan Mətta, İsanın həvarilərindən biridir və 79-cu miladı ilində vəfat etmışdir.

2-ci-Markos incili:Ən qısa İncil sayılan bu kitab 16 fəsildən ibarətdir.Markos həvarilərdən deyildir, ancaq həvarilərin yanında şagirdlik edərək, "həvarilərin həvarisi" adı ilə tanınmışdır. Bu İncil ehtimal üzrə Miladın 65-70-ci illərində yazılmışdır.Bu kitab(Markos incili) Markosdan sonra yazılan Luka və Mətta İncillərinin əsasını təşkil edir.

3-cü Luka İncili:Luka da Markos kimi həvarilərin həvarisi idi. Məşğuliyyəti və ixtisası təbib olan və Yunanıstanda təbabətlə məşğul olan bu kişi Puls ilə tanış olub, bir müddət onunla görüşmüşdür.Luka məsihi təlimlərini Pulsdan əxz etmişdir. Onun İncilinin 24 fəsli vardır. Bu İncil də İsa Məsihin tərcümeyi-halı və moizələrindən ibarətdir.

4-cü Yuhənna İncili:Yuhənna həvarilərdən idi,ancaq onun İncili digər üç İncildən sonra yazılmışdır.Bu kitabın yazılma zamanı Yuhənnanın qocalıq illərinə təsadüf edir.Bu İncil 21 fəsildə yazılmışdır və orada Hz.İsanın tərcümeyi-halı və moizələri verilmişdir.Lakin ondan əvvəl yazılmış üç İncilin əksinə olaraq, İsanın ilahiləşdirilməsi aşkar şəkildə bəyan olunur. Hz. İsanın təvəllüdü və göylərə getməsi, rəbbani gecə və bəzi başqa məsələlərdən danışılmır. Buna görə də əvvəlki üç İncil(Mətta, Markos, Luka) bir-biri ilə uyğun olan İncillər kimi tanınır. Lakin Yuhanna İncili isə onlardan fərqli hesab edilir.

Rəsulların əməlləri: Bu kitabın 3-cü İncili yazan Luka tərəfindən yazıldığı güman edilir.Bu kitab 28 fəsildən ibarətdir.Bu kitablarda Məsihin tərcümeyi-halı və ilk 8 fəslində Hz.İsanın Allahın bəndəsi və insan övladı kimi təqdim edilməsi, qalan fəsillərdə isə İsanın Allah olduğu barədə yazılmışdır.

Pulsun Romalılara məktubu, Pulsun Qorantiyana olan məktubları, Pulsun Ğalatilərə məktubu, Pul sun Əfisusyana olan məktubu, Pulsun Filiplərə məktubu, Pulsun,Petrosun və Yuhudanın məktublarından ibarətdir. İohan və Polesdən 14 risaləni də ona əlavə edib adını"Yeni əhd" qoyaraq nəşr etdilər.

Bernaba İncili. Kilsənin qanuni saymadığı İncillərdən biri də Bernaba İncili idi. Onun dinin yayılmasında böyük zəhmətləri olmuşdur. Bu səbəbdən də Həvarilər ona "Nitqin oglu"ləqəbini vermişdilər.

Bernabanın şan-şöhrəti bütün xristianlara aydın idi.Belə ki, müasir xristianlığın banisi sayılan Polesi onun şagirdi hesab edirlər. Poles özü də bir neçə yerdə bunu etiraf etmişdir.Xristianlar öz kitablarında onu hörmətlə xatırlayırlar."Elçilərin əməlləri" adlı kitabda onu Yupiterə oxşadırdılar.

Bununla belə məlum olmalıdır ki,nə səbəbə kilsə onun İncilini qəbul etmədi. Sonralar onun bir nüsxəsi ələ gəldi və ərəb-fars dillərinə tərcümə olundu,bununla da kilsənin onunla muxalif olmasının səbəbi məlum oldu.Çünki orada kilsə və papanın məqamına sərf etməyən mövzulara toxunulmuşdu və onların yaydıgı xurafatları tənqid edirdi.

Bernaba İncilində Cənnət satıcılarını,günah alıcılarını, külli miqdarda kilsə üçün gəlir mənbəyi olan keşişlərin günah bagışlamalarını inkar edirdi. Başlıca məsələ olan İsanın çarmıxa çəkilmə məsələsini xurafat sayaraq inkar edirdi.Bernaba qeyd edir ki, İsa öldürülməmişdir və çarmıxa çəkilməmişdir. Çarmıxa çəkilən İsa deyil,bəlkə də onu satan Yəhuda idi ki, ona oxşar oldu və çarmıxa çəkildi. Bernaba Hz.İsanı Allahın bəndəsi bilir və o biri İncillərdə olduğu kimi, onu nə Allah, nə də ki onun oğlu kimi təqdim edir.Bernaba İncilində İslam Peygəmbərinin gəlişi haqqında neçə yerdə qeydlər olunmuşdur və camaata onun gəlişi müjdə verilmişdir.Belə olan halda kilsə onu inkar etməyi və onu oxumağı qadağan etməyi özünə borc bildi.

Özü İsanın həvarilərindən olan Bernabanın beş İncili var idi və bu İncil V əsrdən əvvələ qədər istifadə olunurdu. Beləliklə, Bernaba İncili əsrlər boyu gözlərdən gizlin qaldı.Kilsənin qorxusundan heç kəs onu aşkar edib yaymağa cürət etmirdi.Nəhayət, XVI əsrdə Framo Yenobik adlı keşiş onun italyan dilində olan nüsxəsini papa V Skotisin kitabxanasından tapıb,onu qolunda gizlədir. Münasib vaxtlarda onu diqqətlə oxuyur və nəticədə İslam dinini qəbul edir.

1907-ci ildə V İncilin XVII əsrin əvvəllərində tapılmış,ispan dilində olan bir nüsxəsi ələ gəldi. Daha sonralar professor Monkvis onu ingilis dilinə tərcümə etdi.1908-ci ildə isə professor Vəlil Səadət onu ərəb dilinə

tərcümə etdi.Bernaba İncilinin əqidəvi təlimləri İslamın əsaslarına çox yaxındır və bir çox hallarda aşkar şəkildə İslam Peyğəmbəri haqqında müjdə verilmişdir. Hətta bir neçə yerdə İslamın Tövhid və nübüvvəti barəsində qeydlər olunmuşdur.

Bernabanın İncilinin əsl İncil olmasını sübut etmək çox çətindir. Bundan əlavə, məsihi rahiblərinin və alimlərinin nəzərində mötəbər sayılmır.

Məsihi məzhəbləri haqqında.Məsihi məzhəbi iki böyük-katolik və protestant məzhəblərinə ayrılmışdır.

Katolik-məsihi məzhəblərin ən qədimidir. Ordosk məzhəbi 11-ci əsrdə, protestantlar isə 16-cı əsrdə meydana gəlmişdir.“Katolik” sözü lüğətdə “hərtərəfli” mənasındadır. Onlar öz kilsələrini bütün kilsələrin əsası və bünövrəsi hesab edirlər. Katolik kilsələr Petrosi kilsələr də adlanırlar.

Beş böyük məsihi mərkəzləri arasında Roma kilsəsi İmperatorluğun mərkəzində yerləşdiyinə görə bu kilsə sair kilsələrdən üstünlik qazanmışdır.Roma kilsəsi mərkəz və mehvər hesab edildiyindən, bu kilsənin böyük yepiskopu ehtiram və təzim əlaməti olaraq “papa”çağırıldı. Kilsələrlə məsihi ardıcılları arasında baş verən ixtilaflarda müraciət yeri seçildi və onun rəyi mütləq qəbul olundu.

Protestantlar-bu təriqət kilsənin məsihiyyət aləminin bütün ictimai işlərinə hakim kəsildiyi on əsr müddətində, Qərb aləmində dini hakimiyyət əleyhinə başlanan cərəyandır.Bəzi dini alimlər arasında belə fikir formalaşdı ki, kilsəyə və dini hakimiyyətə irad və tənqidlərin çoxu keşişlərin və kilsə xadimlərinin düzgün olmayan əqidə və yanlış əməllərinin nəticəsidir. Həmin alimlər inanırdılar ki,kilsə xadimlərinin məntiqsiz və yaramaz rəftarları, məsihiyyət dini barəsində düzgün olmayan təhrif və təfsirləri dini hakimiyyətin onəsrlik qaranlıq tarixini əmələ gətirmişdir.Bu ideoloji cərəyan dini islahatlar ilə məşhurlaşmışdı. Bu islahatlar katolik keşişlərinin kəskin etirazına səbəb olduğuna görə bu prosesi etirazçı, ”protestant”adı ilə adlandırdılar.

Bu hərəkatın ən yüksək mərhələsi Almaniyalı Martin Lüter (1483-1546) tərəfindən davam etdirildi və o, islahatlar proqramını təqdim etdi. Onun nəzəriyyəsinin əsasını nicat və qurtuluş məsələsi təşkil edir.

Bu nəzəriyyə həqiqi qurtuluşa nail olmaq üçün imanlı olmağa, dünyada yaxşı işlər görməyə dəvət edir.Lakin katoliklərin nəzəriyyəsinə görə, nicat və qurtuluş yolu günahların bağışlanmasıdır. Katoliklərin fikrincə, keşişlər ilahi feyz və mərhəmət vasitəsi olduqlarına görə dünya və din işləri onlara həvalə edildiyindən, insanların peşmanlıqla günah-

larını etiraf etdikdən sonra,Allah tərəfindən bağışlaya bilər və onları günahlardan paklaya bilərlər. Bu əqidə nəticəsində katoliklər kilsələrində etiraf,günahın bağışlanması və bağışlanma qəbzinin satılması dini bir ayin kimi yayılmağa başladı.

Lakin Martin Lüter bu mərasimlə kəskin şəkildə razılaşmırdı. Bundan əlavə Lüter inanırdı ki, təşkil edilən yeddi ayindən yalnız təmid qüslü və rəbbani gecə məsihi dinində mövcud olmuş, yerdə qalan beş ayin isə keşişlər tərəfindən artırılmışdır.

İngiltərə, Danimarka, Almaniya, İsveç, Norveç, Amerika və bir çox Avropa ölkələrində protestant kilsələri daha çoxdur.

Hədid-25-Biz elçilərimizi dəlil və möcüzə ilə göndərib,onlarla birlikdə kitab və mizan nazil etdik ki, insanlar bir-birləri ilə ədalətlə rəftar etsinlər.

Həqiqətən Allah qüvvətli və qələbə çalandır.Biz Nuhu və İbrahimi göndərdik. Onların övladlarına Peyğəmbərlik və kitab verdik. Bütün Peyğəmbərlər onların nəslindəndirlər. Onların bəzisi hidayət tapmışdır, bəzisi isə fasiqlərdir. Sonra biz onların dalınca bir çox Peyğəmbərləri və İsa ibn Məryəmi göndərdik, ona İncil kitabı verdik.Onun dininə tabe olanların qəlbinə mehribanlıq və rəhm qoyduq. Lakin onlar rəhbaniyyəti (evlənməmək və camaatdan uzaq olmaq) düzəltdilər. Biz rahibliyi onlara vacib etmədik. Lakin Allahın razılığını əmələ gətirmək üçün onu icad etdilər. Ancaq lazımınca onun buyruqlarına əməl etmədilər.İsaya iman gətirənlərə əcr verdik.Lakin onların çoxu fasiqlərdir.

Ey iman gətirənlər! Allahın əzabından qorxun!Onun Peyğəmbərinə iman gətirin. Allah öz mərhəmətindən sizə iki hissə verər: bir hissə keçmiş Peyğəmbərlərə iman gətirdiyiniz üçün, bir hissə də Muhəmməd Peyğəmbərə inandığınıza görə.O sizin üçün nur kəramət edər ki,onunla yol gedərsiniz.Allah sizin günahlarınızı bağışlayar! O bağışlayan və rəhm edəndir.

ƏVVƏLKİ KİTABLARI TƏHRİF ETDİLƏR

əl-Bəqərə-41-Nazil etdiyimiz kitaba iman gətirin, yəni Muhəmmədın sifətləri və onun haqqında Allahın buyurduğu sözləri az miqdarda aldığınız məbləğ müqabilində dəyişib təhrif etməyin. Batil sözləri Tövrata yazmaqla haqqı batil ilə örtməyin. “Biz Muhəmmədin sifətlərini Tövratda görmədik”deməklə Peyğəmbərin haqq, özünüzün cahil olduğunuzu bildiyiniz halda haqqın üstünü örtməyin.

əl-Bəqərə-75-79-Yəhudilərin sizə iman gətirmələrini istəyirsiniz? Halbuki, onların ümmətlərindən bəzi firqələr Tur dağında Musa ilə Allahın kəlamını, əmr və nəhyini eşidib, bilib, sonra onu öz ağılları ilə başa düşərək, öz istək və nəfslərinə görə Allahın kəlamını dəyişdiriblər. Kitabı öz əlləri ilə yazıb və Tövratın ehkamlarını dəyişdirib, sonra da:"Bu yazılanlar Allah tərəfindəndir," -deyirlər.

HƏZRƏTİ DAVUDA NAZİL OLAN "ZƏBUR"

Hz.Yaqubun nəslindən olan Hz.Davuda dörd səmavi kitablardan biri olan "Zəbur" göndərilmişdir.

"Qurani-Kərimdə" buyurulduğu kimi, Allah-taala ona Zəburu nazil etmişdi.

əl-Ənbiya-105-Həqiqətən, biz Davuda nazil olan Zəburda, ondan əvvəl nazil olan Tövratda bildirdiyimiz kimi yazdıq ki, Cənnətə mənim yalnız saleh bəndələrim varis olacaqlar.

Davud Peyğəmbər də Musa Peyğəmbərin şəriəti ilə hökm edib. Davuda Zəbur verilmişdir. Zəbur 150 nəğmədən, məzmurdan ibarət olub, Allahın izzətindən bəhs edir. Bu məzmur şəri və hüquqi məsələləri əhatə edib, beş kitabdan ibarətdir.

Onun 1-ci məzmuru belədir: - Şər adamların məşvərətinə qulaq asmayanların, günahkarların yoluna getməyənlərin və başqalarını ələ salanların məclisində oturmayanların xoş halına. Əksinə, onlar Allahın şəriətinə rəğbət göstərir və Onun şəriətində təfəkkür edirlər. Belə adamlar su arxının kənarında əkilmiş ağac kimi öz mövsümlərində bəhrə verirlər və yarpaqları solmur. Etdikləri hər iş yaxşıdır. Şər adamlar isə belə deyildir. Əksinə, şər adamları saman çöpü kimi külək dağıdır. Buna görə də şər adamların hakimlik etməyə səlahiyyətləri yoxdur. Günahkarlar da ədalətli camaatın içində ola bilməzlər. Allah ədalətli insanların yolunu tanıyır. Lakin günahkarların yolu həlakedicidir."

Hədis:("Hədisi qudsi.")Əhməd ibni Fəth nəql edir ki:-Davudun Zəburunda belə yazılıb:-Ey Adəm övladı, sən Məndən bir şey istəyirsən, lakin Mən sənin xeyrini daha yaxşı bildiyim üçün onu sənə əta etmirəm. Lakin sən israrla Məndən istədikdə, onu sənə verirəm.Sən onun vasitəsi ilə Mənə qarşı günaha batırsan.Səni rüsvay etmək istədikdə,eyiblərini örtməyi Məndən istəyirsən, Mən də örtürəm. Mən sənə nə qədər yaxşılıq edirəm, sənsə əvəzində Mənə (daha doğrusu özünə) nə qədər pislik edirsən!"

Hədis: “Hədisi Qudsi”. Şəhid Sani (“Müsəkkinul –fuad”) kitabında yazır ki:-Bir gün Hz.Davud minacat edərək Allaha dedi:-Pərvərdigara,Sənin razılığın xatirinə qəm-qüssə və müsibət görmüş bir şəxsə təsəlli verən şəxsin mükafatı nədir?

Allah buyurdu:-Onun mükafatı bundan ibarətdir ki, Mən ona bir iman libası geyindirib,o əbanın vasitəsilə onu Cəhənnəm odundan qoruyar və onu behiştə daxil edərəm.

Davud yenə soruşdu:-Pərvərdigara,Sənin razılığın xatirinə dəfn mərasimində iştirak edən şəxsin mükafatı nədir?

Allah buyurdu:-Onun mükafatı bundan ibarətdir ki,öldüyü zaman mələklər onu qəbrinə qədər müşayiət edərlər və Mən ruhların arasında onun ruhuna rəhmət göndərərəm.

AVESTADA İSLAM PEYĞƏMBƏRİ HAQQINDA

Açıqlama: ”Avesta” Zərdüştlərin müqəddəs kitabıdır. Miladı tarixindən, yəni bizim eradan 660 il əvvəl yaranmışdır. Hesab edilir ki, “Avesta”nın tərkib hissələri, əsasən, b.e.ə.1-ci minilliyin 1-ci yarısında formalaşmağa başlamışdır.Avestanın dünyagörüşü üçün ifrat dualizm xarakterikdir.”Avesta”ya görə dünyada həm maddi, həm də xəyali olan hər şey xeyir və ya şər başlanğıca malik olmaqla iki qismə ayrılır.İnsan bu və ya digər mövqeyi seçməkdə sərbəstdir. Bu din Allahın təkliyinə inanır,lakin sonralar bu kitab da təhrifə məruz qalmışdır.Bu kitab Zərdüştlərin əxlaq və əqidələrinin əsasını təşkil edir. Zərdüşt məbədləri “Avesta”ya müəyyən təfsir və şərhlər yazmışlar ki, onlar“Zend Avesta “adlanır. “Avesta” dörd hissədən təşkil olunmuşdur:

1.**“Yəsna”**Allaha pərəstiş və sitayiş mənasını daşıyan ayə və nəğmələrdən təşkil olunmuşdur.

2.**”Visprat**” Əbədi həyat dövranı, rəhbərlər, dini bayramlar və onunla əlaqədar söhbətlər qeyd edilmişdir.

3.**“Vendidad”** burada divlər əleyhinə olan qanunlar, dini qayda-qanunlar, hökmlər,dünya və axirət haqqında danışılır.

4.**“Kiçik Avesta**”Bu bölmə Sasanilər dövrünün məşhur məbədi kimi tanınan Azərpadmaraspənd (odun keşikçisi)tərəfindən yazılmışdır.Bu kitabda dualar, namaz,dini bayramlar, izdivac, ölüm mərasimləri, xoş və acı günlər, günahların kəffarəsi, hacətlər və bu kimi digər məsələlərdən bəhs edilir.

Bizim eramızdan əvvəl 6-cı əsrdə hökm sürən Zərdüşt dininin müqəddəs kitabında - “Zənd-Avesta”da gələcəkdə “Mədh edil-miş”, ”Əhməd” və“Aləmlərə rəhmət” olan, bütləri endirən bir insanın gələcəyi haqqında xəbər verilmişdir.

DİNLƏR HAQQINDA MÜBAHİSƏ EDƏRLƏR

əl-Nəhl-63-And olsun Allaha!Həqiqətən,biz səndən əvvəlki ümmətlərə Peyğəmbərlər göndərdik.Şeytan onların əməllərini zinətləndirdi və Peyğəmbərləri təkzib etdilər.Qiyamət günü şeytan onların dostudur.Onlar üçün dərd gətirən əzab vardır.

əl-Kəhf- 21-22-Bilmədiyiniz bir şey haqda mübahisə etmək zahiri bir mübahisədir. Qeyb xəbərlərini isə Allahdan başqa heç kəs bilməz.

əl-Ənfal-46-Allaha və onun Peyğəmbərinə itaət edin!Aranızda fikir müxtəlifliyi ilə mübahisə etməyin ki,zəif olarsınız və yeliniz, padşahınız aradan gedər.(yel qələbə, padşah isə qoruyucu qüvvə rəmzi mənada işlədilir.)

əl-Həcc-66-68-Keçmişdə hər bir ümmətə bir din qərar verdik ki, ona əməl etsinlər. Onlar din məsələlərində sənlə mübahisə etməməlidirlər. Çünki Musanın şəriəti bir cür, İbrahimin şəriəti isə başqa cür idi.Bəzi məsələlərdə sənin dininlə, bəzi məsələlərdə İbrahimin dini ilə müxalifət edirdilər. Onların mübahisələrinə fikir vermə. İnsanları öz Allahının tərəfinə dəvət et! Həqiqətən, sən doğru və düzgün dindəsən. Əgər şəriət məsələləri haqqında sənlə mübahisə etsələr,de ki,sizin etdiyiniz əməlləri Allah daha yaxşı bilir. Allah ixtilaf etdiyiniz məsələlər barədə Qiyamət günü aranızda hökm edəcəkdir.

əl-Bəqərə-139-140-Ya Peyğəmbər! De ki, bizimlə Allah barəsində mübahisə etmək istəyirsinizmi? Kitab əhli dedilər ki, bütün Peyğəmbərlər bizdəndir, bizim dinimiz və kitabımız qədimdir. Əgər Muhəmməd Peyğəmbər olsaydı, gərək bizdən olaydı. Allah onların cavabında buyurur ki, Allah barəsində niyə düşmənçilik edirsiniz?O həm bizim, həm də sizin Rəbbinizdir. Bizim əməlimizin xeyri bizim, sizin əməlinizin xeyri isə sizə aiddir.Biz Allaha ixlas və iman ilə ibadət edirik.

Siz bilmədən İbrahim, İsmail, İshaq,Yaqub və onun övladlarının, yəhudi və yaxud nəsrani olduqlarını iddia edirsiniz? De ki, siz yaxşı bilirsiniz, yoxsa Allah? Allah tərəfindən olan bu şəhadəti gizlədən kəsdən daha zalım kim ola bilər? Çünki İbrahimin pak olmasına və onun yəhudi,yaxud nəsrani olmamasına Allahın şəhadətini inkar etdilər, həmçinin Tövratda gördükləri Muhəmmədin nübüvvətə (Peyğəmbərlərə) olan şəhadətini inkar etdilər. Allah sizin əməllərinizdən qafil deyil.

Ali-İmran-66-67-Xəbərdar olun! Siz o kəslərsiniz ki, bilmədiyiniz şeylər haqqında mübahisə edirsiniz.İbrahım yəhudi deyildi,o xristian da deyildi. Lakin o pis əqidələrdən yaxşı əqidələrə meyl göstərən müsəlman idi.O,Allaha şərik qərar verənlərdən deyildi.

ən-Nisa-54-Allahın verdiyi fəzilətə görə onlara, Peyğəmbərə və möminlərə həsəd aparırlarmı? Halbuki, biz Ibrahim övladına da kitab və hikmət vermişdik və onlara böyük mülk, hökmranlıq da bəxs etmişdik.Muhəmməd də İbrahim övladı deyilmi? Onlardan elələri var ki, Muhəmmədə iman gətirdilər,elələri də vardır ki, iman gətirməkdən özlərini saxladılar.Yoxsa onlar Allahın öz nemətindən bəxş etdiyi şeyə görə insanlara həsəd aparırlar?

ən-Nəml-76-Həqiqətən, bu Quran İsrail oğullarının ixtilafda olduqları şeylərin əksəriyyətini anladıb xəbər verir.

Hədis:Ənəs ibn Malikdən nəql olunur:-Bir gün Peyğəmbərimiz (s.ə.s.) məscidə gəlib görür ki, əshabi-ikram iki qrup halında oturmuşlar. Bir qrup əshab Quran oxumaqla və zikr etməklə,digər qrup isə elmi məsələlər haqqında söhbət etməklə məşğuldur. Hz.Peyğəmbər (s.ə.s.):-Siz nə gözəl və xeyirli şeylər haqqında söhbət edirsiniz, lakin Uca Allah məni öyrədici olaraq göndərdi,-deyib elmi söhbətlər aparan qrupun arasında oturur. Söhbət "Qədər"mövzusu haqqında mübahisəyə çevrilərkən Peyğəmbərimiz (s.ə.s.) belə buyurdu:-Qurani-Kərimin ayətlərini bir-biri ilə müqayisə edirsiniz. Bilin ki, keçmiş ümmətlər də bu kimi şeylər üzündən məhv oldular. (Buhari)

Dini hekayə:-Düşüncəsizin biri təsadüfən İsa (ə.s.) ilə yol yoldaşı olur. Bərabər yol gedərkən bir xəndəyin içindəki sümükləri görən bu adam Hz.İsaya:-Ey yol yoldaşım!Ölüləri necə diriltdiyini mənə də öyrət ki, yararlı bir insan olum.Ölülərin sümüklərini diriltməklə məşğul olum,-deyir.

Hz.İsa:-Sus!Bu sənin edə biləcəyin bir iş deyil,-deyə cavab verir.

O adam:-Ya Ruhullah! Madam ki,"İsmi-Əzəmə"mən layiq deyiləm, onda sən oxu ki, bu sümüklər dirilsin-deyə israr edir.

İsa (ə.s.) adamın bu tələbindən narahat olur və onun israrçılığından ürəyi sıxılır.Buna baxmayaraq, bu israrçı adamın istəyini yerinə yetirir və sümükləri dirildir.Dirilən sümüklərin arasından bir aslan çıxaraq o adama bir pəncə vurub öldürür. Aslan adamın başını qoparıb parçaladıqda beyninin findıq böyüklüyündə olduğu görünür.İsa (ə.s.) aslandan soruşur:-Nə üçün, bu adamı öldürdün?

Aslan:-Sən ondan rahatsız olduğun üçün,-deyir.

Hz.İsa soruşur:-Bəs niyə qanını içmədin?

Aslan:-Birinci,onun qanı mənim ruzim deyildi.İkinci,onu ovlayıb öldürməkdə məqsədim onu yemək deyil,ibrət üçün idi,-deyir.

Açıqlaması:-O ağılsız kişi Ruhullah kimi bir Peyğəmbərə rast gələrək, onunla yol yoldaşı oldu. Lakin ondan elm öyrənərək özü-

nü diriltməyi düşünmədi, fürsəti qaçırdı və canının dərdinə dərman axtarmadı. Nəfsi arzusuna uyub, şöhrət və maddiyyatı düşünərək, mənəviyyatını və Cənnətə aparan hidayət yolunu itirdi. **(M.Cəzalı "Altın Ögüdlər"-tərcümə Hüseyn Okur.)**

ALLAH İSTƏSƏYDİ, HAMINI BİR DİNDƏN EDƏRDİ

əş-Şura-7-12-15-Əgər Allah istəsəydi, onları, sözsüz ki, bir din üzrə edərdi, aralarında ixtilaf olmasın. Lakin Allah istədiyi kəsi öz rəhmətinə daxil edər və zalımların nə dostu, nə də köməyi vardır. Din və dünya işlərində ixtilaf etdiyimiz şeyin hökmü Allah üçündür. Allah öz bəndələrindən istədiyi kəsi İslama yönəldər və haqqa tərəf qayıdan kəsi öz dininə hidayət edər.Ya Muhəmməd! İnsanları bu dinə çağır və özün də əmr olunduğu kimi dində sabit ol! Təbliği tərk etmək barədə müşriklərin istəklərinə tabe olma! De ki, mən Allahın başqa Peyğəmbərlərə nazil etdiyi kitablara iman gətirdim. Mən məmuram ki, istər hökmdə, istərsə də Allaha tərəf çağırmaqda sizin aranızda ədalətli olum. O həm mənim, həm də sizin Allahınızdır. Bizim əməlimiz özümüz üçün, sizin əməliniz özünüz üçündür. Hüccət qəbul olandan sonra Allah barədə mübahisə edən kəslərin dəlili öz Allahının yanında batildir. Bizimlə sizin aranızda mübahisə etməyə ehtiyac yoxdur,çünki bizim dinimiz haqq, sizin dininiz nahaqdır. Qayıdacaq yer Allaha tərəfdir və O bizi Qiyamət günü cəm edər, haqq qalib gələr. Kafir olduqları üçün onlara Allahın qəzəbi şamil olub və onlar üçün şiddətli əzab vardır.

əl-Ənam-111-Əgər biz onlara mələklər göndərsək, ya ölü dirilərək onlarla danışsa və hər şeyi, mələkləri dəstə-dəstə onların başlarına toplasaq da, əgər Allah istəməsə, onlar iman gətirməzlər. Lakin onların çoxu bunu bilməzlər.

Hədis:Cübeyr ibn.Mutimdən nəql edilir:-Ey Allahın Rəsulu! Sizin yanınızda olanda dünya bizə heç gəlir, hətta dünya aləmi ağlımızdan belə keçmir. Lakin evə gedib, arvad-uşaqlarımızı görüncə vəziyyət dəyişilir. Hz.Peyğəmbər belə cavab verir:-Əgər eyni hal həmişə davam etsəydi, onda mələklər sizin ziyarətinizə gələrdilər. **(Timrizi)**

ALLAH SİZİN ÜÇÜN İBADƏTDƏ ASANLIQ YARADAR

əl-Muzəmmil-5-10-Həqiqətən, biz ağır sözlü olan Quranı göndərərik. O həm sənə, həm də sənin ümmətinə ağırdır. Peyğəmliyə gəldikdə isə risaləti təbliğ etmək çox əziyyətli işdir. Gecə saatlarında ibadət etmək,

namaz qılmaq, Quran oxumaq və onun əmrlərini yerinə yetirmək, əlbəttə ümmət üçün çətindir. Allahın adını zikr et! Günçıxandan günbatanadək və gecə də yalnız Allahı özünə vəkil et! Sənə deyilən sözlərə səbir et! Gözəl yol ilə onları tərk et və gözəl əxlaq ilə rəftar et! Allah sizin üçün çətinlik yox, asanlıq yaradar.

əl-Muzəmmil-20- Həqiqətən, sənin Allahın bilir ki, bəzən gecənin üçdə birini yatdın, bəzən gecənin yarısını, sən və səninlə olan tayfanın bir qismi ibadət etmək üçün yuxudan durarsınız. Allah gecə və gündüzü öz ölçüsü ilə müəyyənləşdirib. Allah bilir ki, bu ibadətləri yerinə yetirmək sizə çətindir və ona görə sizin üçün yüngüllük etdi. Mümkün qədər Quranı aramla oxuyun və onun məzmununu insanlara çatdırın. Allah bilir ki, sizlərdən bəziniz xəstə olanda, səfərdə olanda və müəyyən vaxtlarda Quranı oxumağa qüdrətiniz çatmır. Nə qədər mümkündürsə, nə qədər gücünüz çatırsa, o qədər də Quran oxuyub, namaz qılıb, zəkat verin və ibadət edin. Allaha gözəl surətdə borc verin. Əvvəlcədən özünüz üçün göndərdiyiniz yaxşı əməlləri və onun savabını Allah yanında taparsınız. Bu sizin üçün yaxşı və böyük əcrdir. Allahdan günahlarınızın bağışlanmasını istəyin. Həqiqətən, Allah tövbə edənlərin günahını bağışlayan və rəhm edəndir.

Hədis:İmam Cəfər ibn Muhəmməd Sadiq (ə) buyurdu:-Qiyamət günü üç şey əzəmətli olan Allaha şikayət edəcək;şəhər camaatının namaz qılmadığı tərk edilmiş məscid, cahillər arasında olan alim (belə ki, insanlar onun elmindən bəhrələnməzlər)və oxunmayıb, üzərində toz yığılan Quran**.(Üsuli-Kafi,c.2,s.613)**

QURANİ-KƏRİM HAQQINDA

əl-Buruc-22-Bu Quran Lövhi-Məhfuzdandır!(Quran Allah dərgahında qorunur. Ona Şeytan əli dəyə bilməz,o heç zaman təhrif olunmaz!)

əl-Fussilət-42-Nə öncə, nə də sonra batil ona yol tapa bilməz, şeytan onun bir sözünü, bir hərfini belə dəyişdirə bilməz.

Sad-87-Bu Quran aləm əhlinin hamısı üçün bir nəsihətdir və onda deyilənlərin həqiqət olduğunu mütləq biləcəksiniz.

əl-İsra-89-Biz bu Quranda insanlar üçün hər cür məsəllər çəkib onlara izah etdik. Həqiqətən, xalqın çoxu qəbul etmədi və küfrdən başqa bir şeyə razı olmadılar.

əz-Zumər-27-Bu Quranda insanlar üçün məsəllər söylədik ki, bəlkə onlar nəsihət qəbul etsinlər.

əl-İsra-82-Biz möminlərə şəfa olan Quran ayələrini nazil etdik. O,zalımların ancaq ziyanını artırar.

əl-Ənkəbut-49-Xeyr,bu Quran elm verilmiş şəxslərin sinələrində olan açıq-aşkar ayələrdir. Bizim ayələrimizi yalnız zalımlar inkar edərlər.

Hədis:-Peyğəmbər (s.ə.s.) buyurdu:-Quran oxunan məclisdə insanların ətrafında mələklər toplanarlar, onlar dilimizdən və qəlbimizdən keçənləri əməl dəftərlərimizə qeyd edərlər. **(Biharul Ənvar, c.92, s.19)**

Hədis:-Rəsulullah (s.ə.s.)buyurdu:-Qaranlıq gecə sizi bürüdüyü zaman, fəlakət dalğaları sizi əhatə etdiyi vaxt Qurana pənah aparın,Quran ona sığınanların himayədarıdır.Onu özünə bələdçi qərar versə, Allah onu Cənnətə yönəldər,əgər ona hörmətsizlik etsə, yaxud ona qarşı olsa, o zaman Cəhənnəmə gedər. **(Fəzlul Quran, səh. 599)**

ALLAH QURANİ-KƏRİMİ İNSANLARA RƏHMƏT OLARAQ GÖNDƏRMİŞDİR

əl-Bəqərə-2-Bu Quran Allah tərəfindən endirilməsində şübhə olmayan və Allahdan qorxan insanlara yol göstərəndir.

əl-İsra-88-Ya Peyğəmbər! De:-Əgər insanlar və cinlər bir yerə yığışıb,bu Qurana bənzər bir şey gətirmək üçün bir-birinə kömək etsələr, yenə də ona bənzərini gətirə bilməzlər.

əz-Zumər-1-Bu Quran qələbə çalan və hikmətlə rəftar edən Allah tərəfindən nazil olmuşdur. Biz bu kitabı gerçəkdən sənə nazil etdik.Bəs sən də Allaha sitayiş et və ixlas ilə Onun dinində ol!

Yunus-57-Ey insanlar! Həqiqətən, sizə Allah tərəfindən nəsihət edən Quran gəldi. O sizin qəlbinizdə olan xəstəliyə şəfadır. Möminlər üçün hidayət və rəhmətdir.

əl-İsra -105-Biz Quranı doğruluqla göndərdik,o da haqq olaraq nazil oldu. Biz səni ancaq bəşarət vermək və qorxutmaq üçün göndərdik.

əl-Ənam-155-Bu Quran bir kitabdır ki,biz onu nazil etdik. O, bərəkətlidir. Ona tabe olun və Allahdan qorxun ki, bəlkə sizə rəhm olunsun.

Sad-68-Ya Peyğəmbər!De ki,bu Quran böyük bir xəbərdir ki, gələcək və keçmişin əhvalatları onda cəm olunmuşdur.Siz isə ondan üz döndərirsiniz.

əs-Səcdə-2-3-Bu Quranın aləmlərə tərtib verən Allah tərəfindən nazil olmasına heç şəkk-şübhə yoxdur. Müşriklər:-Muhəmməd bu Quranın Allah tərəfindən göndərildiyini yalan deyır və özündən uydurub,-

deyirlər. Xeyr, o səndən əvvəl Peyğəmbər göndərilməmiş bir qövmü (Allahın əzabı ilə) qorxutmağın üçün Rəbbindən nazil olan bir haqdır. Bəlkə doğru yola yönələlər!

əl-Kəhf-2-3-Quran düz və qiyamətə qədər dəyişilməzdir. Bununla öz tərəfindən olan şiddətli əzab ilə imana gəlməyənləri qorxutsun,yaxşı əməllər görən möminlərə əməlləri müqabilində gözəl əcr və muzd veriləcəyini xəbər versin.

ət-Tariq-13-17-Həqiqətən,Quran haqla haqsızlıq arasında fərq qoyan kəlamdır.Bu Quran batil və oyuncaq deyildir.Həqiqətən də, müşriklər çoxlu hiylə qurdular ki, sənin əmrini yalan etsinlər. Mən onların hiyləsinə cavab verərəm. Elə isə kafirlərə möhlət ver və Allahın tədbirinə razı ol!Onlara az bir zaman möhlət ver!

Hədis: İmam Cəfəri Sadiq Hz.Peyğəmbərdən buyurur:-Yalan zamanda bir fitnə zühur edəcəkdir ki, insanları ondan Allahın kitabı qurtarar. Onda sizdən əvvəl olanların əsərləri ilə sizdən sonra meydana gələcək xəbərlər və aranızdakı hökmlər mövcuddur. Quran haqq ilə batili bir-birindən ayırır. Ondan başqasından hidayət istəyənlər, zəlalətə düşmüşlər. Çünki Allah bu kitabda sağlam bir ip, zikri-hakim və doğru yol göstərmişdir. Quran elə bir kitabdır ki, həvəs və istəklərlə haqdan ayrılıb, batilə uymaz. Alimlər onu oxumaqdan doymazlar**.("Üsuli kafi"Əllamə Kuleyn.)**

QURANİ-KƏRİM PEYĞƏMBƏRƏ ALLAH TƏRƏFİNDƏN GÖNDƏRİLMİŞDİR

Kəhf-1-Həmd olsun Allaha ki, Quranı nöqsansız olaraq öz bəndəsinə-Muhəmmədə nazil etdi.

ən-Nəhl-89-Ya Peyğəmbər!Sənə Quran nazil etdik.O hər şeyi, dünya və axirət işlərini aşkar bəyan edən, hidayət, rəhmət və müsəlmanlara həmişəlik savab ilə bəşarət verəndir.

əl-İsra-105-Biz Quranı doğruluqla göndərdik,o da haqq olaraq nazil oldu. Biz səni ancaq bəşarət vermək və qorxutmaq üçün göndərdik.

əl-Kəhv-28-Ya Muhəmməd!De ki:-Bu haqq olan Quran Allah tərəfindəndir. Kim istəyir, iman gətirsin, kim istəyir, kafir olsun.

əl-Vaqiə-75-82-Ulduzların mənzillərinə and olsun ki, Quran müşriklərin xəyal etdikləri kimi deyildir. Kaş bunun nə qədər böyük and olduğunu biləydiniz. Həqiqətən də, çox qiymətli olan bu Quran "Gizli kitab"da, insanlardan gizlin və Allahın yanında olan"Lövhi-Məhfuzdan" Peyğəmbərə nazil olmuşdur. Ona ancaq batini və zahiri nəcasətdən pak olan kəslər əl vurarlar. Bu Quran aləmlərin Rəbbi tərəfindən na-

zil olmuşdur. Məgər sizə dediyimiz bu xəbəri, Quranı inkar edirsiniz? Nə üçün Qurana inanmaqda süstlük edirsiniz? Allahın sizə verdiyi öz kəlamlarını, ümumiyyətlə, sizə verdiyi ruzi müqabilində, şükür etmək əvəzinə təkzib edirsiniz.?

əl-Həşr-59-Əgər biz bu Quranı bir dağa nazil etsəydik, sən onun Allahın qorxusundan parça-parça olduğunu görərdin, halbuki ağıl və ruh sahibi olan insan onun öyüd-nəsihətindən ibrət almır.

Hədis-Rəsulullah (s.ə.s.)buyurdu:-Quranın yaxşı əməllərindən öz evlərinizə pay ayırın, şübhəsiz, Quran oxunan evin camaatına asudəlik gələr, yaxşılıqlar artar və o sakinlərə(evin) artıq nemətlər verilər. **(Vəsailuş Şiə, c.4, s.85)**

ALLAH PEYĞƏMBƏRƏ VƏHYİ HZ.CƏBRAİL VASİTƏSİLƏ GÖNDƏRİB

ət-Təkvir-17-29-And olsun dağılan ulduzlara, öz qaranlığı ilə qabağa gələn gecəyə, nəfəs çəkən zaman səhərə.Bütün andların cavabı budur:-Həqiqətən, bu Quran çox möhtərəm bir elçinin,Cəbrailin Allah tərəfindən gətirdiyi kəlamdır. Elə bir elçi ki, Allahın bütün əmrlərini yerinə yetirmək üçün qüvvət sahibidir. Ərş sahibi olan Allah yanında hötmət və rütbə sahibidir.

O elə bir elçidir ki, göydə itaət olunmuşdur, bütün mələklər ona itaət edər, Allah tərəfindən vəhy gətirməyə etibarlıdır. Şübhəsiz ki, Peyğəmbər onu öz surətində açıq üfüqdə gördü. O, qeyb xəbərlərini verməkdə borclu deyildi. Bu xəbərləri ona Allah bildirdi.Bu Quran, Allah yanından qovulmuş şeytan sözü deyildir. Bəs bu Qurana əməl etməyib hara gedirsiniz? Bu Quran aləmlərin hamısı üçün ancaq öyüd-nəsihətdir. Aləmlərə pərvəriş verən Allah sizin düz olmağınızı istəməyincə, bu düzluyu siz istəməzsiniz.

əl-Qiyamə-16-19-Bir dəfə Hz.Cəbrail nazil olan zaman Peyğəmbər Quranı oxumağa tələsirdi ki, bəlkə yadından çıxar. Bunun üçün Allah buyurdu:-Quranı əzbərləməyə tələsmək üçün dilini tərpətmə! Çünki Quranı sənin qəlbinə cəm etmək və oxutmaq bizə aiddir. Elə ki, biz onu sənə oxuduq, Cəbrailin dili ilə vəhyi tamam etdik, onu oxumağa tabe ol!Sonra bizə onu bəyan etmək lazımdır.

Məryəm-63-Hz.Peyğəmbər Cəbraildən soruşdu ki,nə üçün tez-tez nazil olmursan? Cəbrail cavab verdi:-Biz dünyaya ancaq sənin Allahının əmri ilə nazil olarıq.Önümüzdə, arxamızda və onların arasında nə varsa, ona məxsusdur və sənin Allahın səni yadından çıxaran deyildir.

Hədis:-Əmirəl-möminin Əli ibn Əbu Talib buyurdu:-Ən gözəl kitab olduğu üçün Quranı öyrən və ürəklərdə gözəl çiçəkləməsi üçün başa düş və gözəl oxu. Ürəklərə məlhəm olduğu üçün onun Nurundan dərman ara**.(Nəhcül Bəlağa,x.110)**

QURAN PEYĞƏMBƏRƏ QƏDR GECƏSİ NAZİL OLDU

əl-Qədr-1-Biz Quranı Qədr gecəsi nazil etdik.Bir dəfə Lövhi-Məhfuzdan dünya göyünə,sonra Cəbrail vasitəsi ilə 23 il müddətinə Peyğəmbərə nazil etdik.

əd-Duxan-1-8-And olsun Allahın həlimliyinə və böyüklüyünə gecədə, Qədr gecəsində nazil etdik. Həqiqətən, biz günahkarları Quran vasitəsi ilə qorxudarıq! O gecədə hikmətə uyğun olaraq əmrlər birbirindən ayrılar. Allahın əvvəldən müəyyən etdiyi işlər: ömür, xəstəlik, səadət, zəlillik və sair işlər haqqında hikmətə uyğun hökm olunar. Biz öz tərəfimizdən hər işə hökm edərik. Həqiqətən, Peyğəmbərləri və Kitabı göndərən bizik. Sənin Allahının tərəfindən rəhmət olan halda ki, insanların behiştə getməsinə səbəb olsun.

Həqiqətən, Allah bəndələrinin dualarını eşidən və əməllərini biləndir. Ondan başqa haqq olan Allah yoxdur! O, insanları öləndən sonra dirildər və dirildəndən sonra öldürər.

Açıqlama: Həmin günlərdə Allah-taala"qədər"dəftərimizdə ibadət, əməl və niyyətimizə görə istəsə, dəyişiklik edər.

Hədis: Əmirəl-möminin Əli ibn Əbu Talib buyurdu:-Quran oxunan və gözəl, əzəmətli Allah xatırlanan evə çoxlu bərəkət gələr, mələklər orada olar və şeytan o yerdən uzaq olar. Bundan başqa ulduzlar yer əhli üçün parıldadığı kimi, həmin ev də səma əhli üçün parıldayar. (Üsuli-Kafi, c.2, s.610)

ALLAH PEYĞƏMBƏRƏ QURANI YAVAŞ-YAVAŞ NAZİL ETDİ

Açıqlama: -Mövlana Furatinin "Qırx sual" kitabında Peyğəmbərimiz tərəfindən buyurulmuşdur ki:-Bu Müqəddəs kitab, Qurani-Kərim bir dəfəlik Lövhi–Məhfuzdan dünya göyünə, sonra Cəbrail vasitəsi ilə Allah tərəfindən seçilmiş olan Muhəmməd (s.ə.s.) Peyğəmbərə 23 il müddətinə yavaş-yavaş, nazil olunmuşdur.

İnsan-23-Biz sizə Quranı müəyyən müddətə nazil etdik.Yəni hamısını birdən yox, ayə-ayə və surə-surə nazil etdik.

əl-İsra-106-Ya Peyğəmbər! İnsanlara aramla, yavaş-yavaş oxuyarsan. Biz Quranı hissələrə ayırıb (ayə-ayə, surə-surə) göndərdik. Biz onu (tədricən, bir-birinin ardınca iyirmi üç ilə yaxın bir müddətdə) nazil etdik.

əl-Furqan-32-Kafirlər dedilər:-Nə üçün Quran Peyğəmbərə bir dəfəyə nazil olmadı? Allah buyurdu: -Biz, sənin ürəyinə səbat, qətiyyət vermək üçün belə nazil etdik! Əgər bir hadisə zamanı, ona şamil olan ayə nazil olsa qəlbinə qüvvət verər və qövmədə təsiri artıq olar.Biz sizə Quranı hifz etmək üçün ayə-ayə oxuduq.

əl-Ənkəbut-51-52-Onlara kifayət etməzmi ki, biz sənə onlara oxumaq üçün Quran nazil etdik? Həqiqətən,Quranda iman gətirən qövm üçün rəhmət və Allahın əzabını yada salmaq var. De ki:-Bu kitaba mənimlə sizin aranızda şahid olmağa Allah kifayət edər. Allah göylərdə və yerdə nə olduğunu bilir.

Hədis-İmam Cəfər ibn Muhəmməd Sadiq buyurdu:-Şübhəsiz,Quran cəld və sürətlə oxunmamalıdır. Əksinə, müəyyən edilmiş meyarlarla yavaş-yavaş, tərtillə oxunmalıdır. Cənnət haqqında olan ayələrə çatdıqda(həmin ayədə) dayan və Allahdan Cənnəti (onun nemətlərini) istə. Cəhənnəm haqqında da ayələrə yetişdikdə (həmin ayədə) dayan və Allahdan Cəhənnəmdən (və onun əzabından) amanda qalmaq istə**. (Usuli-Kafi. c.3, s.301)**

Hədis:İmam Cəfər Sadiq nəql edir:-Peyğəmbərimiz (s.ə.s.)buyurur:-Bu Quran bir şəfaətçi olub və Qiyamətdə də şəfaəti qəbul olacaqdır. Yəni şikayəti də çox böyük olan şikayətdir. Ondan yapışanı tutar və Cənnətə tərəf çəkər.Ondan üz döndərənləri isə Cəhənnəm atəşinə yönəldər**.(Zubdətul Əhadis.")**

QURANİ-KƏRİM ƏRƏB DİLİNDƏ NAZİL OLUB

əş-Şüəra-192-199-Bu kitab aləmlərin Rəbbi tərəfindən nazil olubdur. Onu Ruhul-əmin (Cəbrail) gətirib. Açıq-aydın ərəb dilindədir! Əgər əcəm (xarici) dildə nazil etsəydik, əcəm olanlar Ouranı ərəblərə oxusaydılar, ərəblər ona iman gətirməzdilər. Lakin biz onu ərəb dilində, şərəfli nəsildən olan ərəb Peyğəmbərinə göndərdik ki, onların bəhanələri olmasın.Onda keçmişlərin yazıları da var və onun gəlişi haqqında Bəni-İsrail alimləri xəbərdar idilər.

əd-Duxan-58-Həqiqətən, Quran oxumağı sənin dilin ilə,ərəb dili ilə asan etdik ki, bəlkə nəsihət qəbul etsinlər.

Taha-111-Beləcə, biz Quranı ərəb dilində nazil etdik və onda qorxudan sözlərdən təkrarladıq ki, bəlkə günah etməkdən qorxsunlar, təqvalı olsunlar. Bə yaxud nəsihətlər verdik ki, bəlkə nəsihətlərdən faydalansınlar.

əl-Fussilət-44-Əgər biz onu özgə bir dildə olan Quran etsəydik, Məkkə müşrikləri: Məgər onun ayələri bizim üçün müfəssəl izah olunmalı deyildimi?!Bu nədir? Quran özgə dildə,Peyğəmbər isə ərəbmidir?-deyərdilər.Onlar bu bəhanə ilə həm Quranı,həm də səni təkzib edərdilər. Ya Peyğəmbər!De ki,bu Quran iman gətirənlər üçün bir hidayət və bir şəfadır. İman gətirməyən kəslər üçün isə Quran bir korluq və qulaqlarına ağırlıq verən bir yükdür.

əl-Fussilət-1-6-Həmid və Məcid olan Allaha and olsun! Bu Quranın nazil olması bağışlayan və mehriban olan Allah tərəfindəndir. O, bir kitabdır ki, onun ayələri halal və haramı, əmr və nəhyi(qadağa) bəyan etməklə ərəb dilində nazil olmuşdur. Ərəb dilini bilən qövmə qiraət olunan halda bəyan olunmuşdur. Bu Quran möminlərə bəşarət verən və günahkarları qorxudan halda nazil olmuşdur. Məkkə əhlinin çoxu Qurandan üz döndərdi, onu eşitmək istəmədilər. Onlar dedilər:-Qəlbimiz sizin tərəfə çağırdığınız şeydən pərdələnmişdir. Biz sənin dediklərini anlamırıq. Onlar bu sözü deməklə, imana gəlməyərək Peyğəmbəri məyus etmək istəyirdilər. Deyirdilər ki, qulaqlarımızda karlıq və ağırlıq var, Quranı və sənin sözünü eşitmirik. Bizim aramızda pərdə vardır. Sən öz dininə əməl et, biz də öz dinimizə əməl edənlərik.Ya Peyğəmbər!De ki:-Mən də sizin kimi insanam. Lakin Allah məni Peyğəmbərliyə seçmişdir. Mənə vəhy olunan budur ki, Allah təkdir və şəriki yoxdur.

QURANIN BİR ADI DA FURQANDIR

Açıqlama:-Haqqı batildən ayırd edən mənasına gələn "Furqan" Quranın adlarından biridir.Bu haqda Qurani-Kərimdə belə buyurulur:

əl-Furqan-1-Xeyir və bərəkəti artıq olan Allah haqq ilə batil arasında fərq qoyan Quranı öz bəndəsinə, Muhəmmədə nazil etdi ki, o Quran vasitəsilə cin və insanlardan ibarət olan aləm əhlini qorxutsun!

Hədis:-Peyğəmbərimiz (s.ə.s.)dən soruşdular ki, Cənnət bağı haradadır?Həzrət buyurdu:-Elm və zikr məclislərində. (**Zubdətul əhadis)**

QURAN OXUYANDA BELƏ BAŞLAYIN

ən-Nəhl-98-Quran oxumaq istədiyiniz vaxt Allah dərgahından qovulmuş şeytandan Allaha pənah apar!De ki:-"Ə-uzu billəhi minəş şeytanir racim."

Hədis:Rəsulullah (s.ə.s.)buyurdu:Quranı öyrədən və dinləyənin hər ikisi bərabər savab qazanırlar**.(Mustədrakul Vəsail, c.1,s. 293)**

Hədis: Peyğəmbər (s.ə.s.) buyurdu:-Yer üzərindəki hər şey, hətta dəryadakı balıqlar belə Quran oxuyanın bağışlanması üçün dua edərlər**. (Üsuli-Kafi.c.3, s.301)**

Hədis-İmam Cəfər ibn Muhəmməd Sadiq buyurdu:-Mən Quranı hər evdə görmək istərəm,ona görə ki, o evdən Allah şeytanı uzaq tutar**. (Fəzlul Quran,s.669)**

QURAN OXUNAN ZAMAN QULAQ ASIN

əl-Əraf-204-Quran oxunan zaman onu dinləyin və susun. Bəlkə Allahın rəhmətinə şamil olasınız. Öz qəlbində yalvararaq və qorxu ilə səsini ucaltmadan, səhər-axşam Rəbbini yad et və qəflətdə olanlardan olma!

əl-İsra-45-48-Quran oxunan zaman səninlə axirətə iman gətirməyən kəslər arasına pərdə salınar. Sən Quranda Allahın Tövhidini xatırlatdığın zaman, kafirlər nifrət edən halda geriyə qayıdarlar. Sənə qulaq asıb, Quranı eşidən kəsləri biz yaxşı bilirik. O zaman ki,onlar xəlvəti danışarlar.Biz bilirik, o zaman zalımlar deyərlər:-Siz ancaq sehr olunmuş bir kişiyə tabe olarsınız. Gör sənə necə məsəl vurdular. Onlar azdılar. Səni batil etməyə,insanların sənə iman gətirməsinə mane olmağa yol tapa bilməzlər.

Açıqlama:-Qurani-Kərim möminlərə və insanlara öz ayələri və mənası ilə hidayət yolunu göstərir. Şirk, cəhalət və günahlar zülmətindən çıxararaq Tövhid, elm və itaət nuruna boyayır. Onlar dünya və axirətdə xeyir tapanlardırlar.

Hədis:(Əbu Nuəym,"Hilyətül-evtiya"c.1,s.65.) Abdullah ibn. Məsud:-"Qurani Kərimim yeddi hərf üzərinə endirildiyini və hər hərfin də həm zahiri, həm də batini olduğunu bildirmişdir. Hz. Əli isə Elmin həm zahirini də, həm də batinini bilirdi,"-deyə söyləmişdir.

Hədis:Rəsulullah (s.ə.s.) buyurdu:-Qurana qulaq asan şəxs(oxunan zaman) bu dünyanın bəlasından amanda qalar. Quran oxuyan şəxs əbədi dünyanın ağır imtahanından amanda qalar. Əgər biri Quranın hətta bir ayəsinə belə qulaq asarsa, bu qızılla dolu olan evə sahib olmaqdan daha yaxşıdır. **(Biharul Ənvar,c.92, s.19)**

Hədis:Əmirəl-möminin Əli (ə.s.) bu barədə belə buyurur:-Ən yaxşı deyim olan Quranı öyrənin. Onda olanlar barədə fikirləşib düşünün ki, Quran qəlblərin baharıdır. Ürəkdə elm və hikmətin hər cür güllərini

bitirər. Onun hidayət nuru ilə cəhalət və nadanlıq xəstəliyindən şəfa diləyin ki, Quran xəstəliklərin şəfasıdır. Onu gözəl oxuyun ki, deyimlərin ən faydalısıdır. Çünki öz elmindən başqa elmə əməl edən alim sərgərdan cahil kimidir ki, nadanlıq xəstəliyindən şəfa tapmayacaqdır. Bəlkə də bu hüccət ona güclü həsrət və qəm qətirər və Allah dərgahında danlaqlı olar. **(Nəhcul Bəlağa, Xütbə 110)**

QURAN OXUNAN ZAMAN KAFİRLƏRİN XOŞU GƏLMƏZ

əl -Qələm-51-52-Kafirlər Quranı eşitdikdə az qaldılar ki, gözləri ilə səni öldürsünlər və deyirdilər ki, Muhəmməd divanədir. Bu Quran aləmlərin əhlinə ancaq nəsihətdir.

əl-Həcc-71-Ayələrimiz onların yanında açıq-aşkar oxunan zaman kafirlərin üzündə Quranı xoşlamamaq əlaməti görərsən, onlar qaş-qabaqlarını tökərlər. Az qalar ki,ayələrimizi oxuyan kəslərə hücum etsinlər.Ya Peyğəmbər! De ki, onlar haqqında sənə xəbər verimmi? Bu, kafirlərə vəd olunmuş yer ən pis Cəhənnəm odudur. Cəhənnəm ən pis qayıdacaq yeridir.

Dini hədis:-Bir bədəvi dəvəsinə içi dolu iki çuval yükləmişdi. İkisinin ortasında da özü oturmuş halda yol gedirdi.Yolda üst-başı pərişan halda olan birinə rast gəlir. Bir az söhbətdən sonra adam çuvallarda nə olduğunu soruşur.

Bədəvi:-Çuvalın birində buğda, digərində isə qum vardır-deyir.

Adam soruşur:-Nə üçün çuvala qum doldurmusan?

Bədəvi:-Buğda çuvalını tarazlamaq üçün qum çuvalını qoydum-deyir. Adam:

-Tarazlığı yaratmaq üçün başını işlədib,bir çuvalın yarısını boşaldıb iki çuval etsəydin,daha düzgün olmazdımı?-deyə soruşur.

Bədəvi:-Afərin sənə,mənə yaxşı bir məsləhət verdin.Ağıllı və bilgili birinə bənzəyirsən.Fəqət pərişan bir halın var, üst-başın köhnə, özün də piyada gedirsən?-deyə cavab verdi. Bədəvi onun halına acıdı və dəvəsinə mindirməyi düşündü. Bu məqsədlə də ondan soruşdu:-Ey gözəl fikirli,hikmət sahibi kişi! Mənə doğru söylə, sən əynini dəyişmiş dövlət adamısanmı? Sənin dəvən, malın, dövlətin, dükanın, torpağın və ya pulun varmı?"

Kişi:-Ey bədəvi,mal-dövlət qırağa dursun, axşam yeməyimi ödəyəcək bir pulum da yoxdur. Bu halımla kim bir tikə çörək versə, onun arxasınca gedirəm. Məndəki bu bilikdən boş xəyal və baş ağrısından başqa bir şey əlimə keçmədi,-deyir.

Bu sözləri eşidən bədəvi,əsəbiləşərək ona belə cavab verdi:

- Yanımdan çıx get, uzaqlaş məndən. Sənin uğursuzluğun mənə də keçməsin. Sənin yolun ayrı, mənim yolum ayrı. Mənim çuvala qum dolduraraq etdiyim avamlıq, sənin bu halda ağıllı olmağdından daha yaxşıdır.Çünki mən Allahdan çəkinir, əmrlərini yerinə yetirməyə çalışıram. Könlüm İlahi lütflər və mənəvi eşqlə doludur, -deyə cavab verir.

Açıqlaması:-Mövlana bu hekayədə dinə qarşı çıxan fəlsəfəçilərə işarə edir. Təbiətdən, xəyaldan doğan hikmət və fəlsəfi düşüncələr Calal sahibi Allahın nurunun feyzindən uzaqdır. Dünya hikməti sayılan fəlsəfə, zənni və şübhəni artırır. Dinin hikməti isə insanı göylərin üstünə çıxarır və yüksəklərə ucaldır. **(M.Cəzali"Altın Ögüdlər")**

QURAN OXUNAN ZAMAN ŞEYTAN SÖZ ATIB, QƏLBLƏRƏ ŞƏKK-ŞÜBHƏ SALAR

əl-Həcc-50-54-Ayələrimizi batil etməyə səy göstərən kəslər, fikirlərində Allahı aciz etmək istəyən kəslər Cəhənnəmdə yoldaşdırlar. Biz səndən qabaq elə bir Peyğəmbər göndərmədik ki,ona nazil olan ayələri oxumaq istəyən zaman şeytan bir söz atıb onun oxuduğuna əlavə etməsin. Həqiqətən, zalımlar haqdan uzaqdırlar və həmişə Quran barəsində etdikləri şəkk-şübhədə qalacaqlar. Allah şeytan atan sözlər ilə qəlbində şəkk xəstəliyi olan və qəlbləri bərk olan kəsləri imtahan edər. Onlar qəflətən Qiyamət gələnə qədər, ya onlara doğmayan (günəşin) günün əzabı gələnə qədər şəkdə qalarlar. Allaha inanmayıb ayələrimizi təkzib edənlər üçün xaredici əzab vardır.

əl-Ənam -110- Biz onların ürəklərini və gözlərini elə dolandırarıq ki, həqiqəti görməzlər. Necə ki, birinci dəfə Quran nazil olanda ona iman gətirməmişdilər, indi də iman gətirməzlər. Biz onları öz tüğyanları içində çaşqın halda qoyarıq. Beləliklə, biz hər bir Peyğəmbər üçün cin və ins şeytanlarından ibarət düşmənlər yaratdıq.Onların biri digərini aldadaraq batində batil, aşkarda zinətlənmiş sözlər ilə vəhy edərlər. Əgər sənin Allahın istəsə, onlar bunu etməzlər. Onları iftiraları ilə birlikdə tərk et. Onlar öz vaxtında əməllərindən xəbərdar olarlar.

KAFİRLƏR QURAN AYƏLƏRİNİ TƏKZİB EDƏRLƏR

əl-Mumin-71-Quranı, onun ayələrini və Peyğəmbərlərə göndərdiyimiz şeyləri təkzib edən kəslər işlərinin aqibətini və əzabın onlara nazil olmasını tezliklə bilərlər.

əl-Əraf-40-42-Ayələrimizi təkzib edən, Qurana iman gətirməyərək təkəbbürlük edən kəslər üçün səmanın qapıları açılmaz. Dəvə iynənin gözündən keçməyənəcən onlar Cənnətə daxil ola bilməzlər. Biz günahkarlara belə əzab verərik.Onlar üçün Cəhənnəmdə oddan döşənəcək, başlarının üstündə isə oddan örtüklər vardır.Biz zalımlara belə əzab verərik.İman gətirib yaxşı əməl edən kəslər isə Cənnətin yoldaşlarıdırlar və orada həmişəlikdirlər.

Yunus-95-101-Əlbəttə, Allahın ayələrini təkzib edənlərdən də olma, yoxsa ziyana yğrayanlardan olarsan! Onlar dərd gətirən əzabı görməyincə, bütün möcüzələrin gəlməsinə baxmayaraq iman gətirməzlər. Həlak etdiyimiz qəryələrin (tayfaların) içində eləsi olmadı ki, sonradan (həlak olan anda) iman gətirsinlər və bunun onlara xeyri dəysin.Təkcə Yunusun qövmü istisna olmaqla. Əzab nazil olan zaman onlar iman gətirdilər. Biz rüsvay edən əzabı onlardan götürdük. Əcəlləri yetişən vaxtadək onları bəhrələndirdik.Əgər Allah istəsə, sözsüz ki,yer üzündə olan məxluqların hamısı iman gətirər. Sən camaatı mömin olmağa məcbur edirsənmi? Allahın izni olmayınca heç kəsin imana gəlməsi mümkün deyil.O,ağlı ilə fikirləşməyənlərə əzab verər.

Ya Muhəmməd! De ki, baxın görün, göylərdə və yerdə Allahın varlığına dəlalət edən nə qədər şeylər var.İman gətirməyən qövmə bu qədər əlamətlər, qorxudanlar, Peyğəmbərlər kifayət etmədimi? **(Kitabul-Bəyan-fi Təfsirul Quran.)**

Hədis:-Əli ibn İbrahim atasından nəql edir:-İmam Sadiq belə buyurur: Qiyamət günü Allah bütün məxluqatı məhşər səhrasına cəm edəndə, onların arasında heç vaxt görmədikləri çox gözəl bir şəxs görünər. Bu şəkildə zahir olan Qurandır. Allah-taala buyurar:-Öz izzət və calalıma, məqamımın yüksəkliyinə and olsun! Hər kəs dünyada səni əzizləmişsə, onu bu gün əzizləyəcəyəm, yox hər kəs dünyada sənə hörmətsizlik etmişsə, mən də onu xar edəcəyəm. **(”Hədisi Qüdsi” 603.)**

QURANIN AYƏLƏRİNİ YALANLADILAR

Taha-124-Mənim nəsihətimdən, nazil olan kitabdan, ya Peyğəmbərin sözündən üz döndərən kəs üçün sıxıntılı güzəran vardır.

əl-Ənbiya-5-6-Kafirlər dedilər ki, Quran həqiqətdə insanın göndərdiyi pərakəndə sözlərdir.Sonra onlar Quranın çox fəsahətli olduğunu fikirləşib dedilər:-Yox, Muhəmməd o sözləri oxuyub öyrənib və yalandan Allaha nisbət verir. Sonra fikirləşdilər ki, hər adam özündən belə sözlər yarada bilməz.Dedilər ki,yox, o, şairdir. Müşriklər heyrətdə

qalıb ona gah iftira deyir, gah da şair deyirdilər. Axırda belə dedilər:-Əgər Muhəmməd doğru Peyğəmbərdirsə, keçmiş Peyğəmbərlər kimi bizə möcüzə gətirsin. Bunların halı keçmiş tayfaların halı kimidir ki, Allahdan möcüzə istədilər. Sanki bundan əvvəlki tayfalar Allah tərəfindən möcüzə göstərən Peyğəmbərlərə iman gətirmişdilər? İman gətirmədiklərinə görə də Allah onları həlak etmişdir.

əl-Əhqaf-7-8-Bizim Tövhid və qüdrətimizə aşkar dəlalət edən ayələrimiz oxunduqda, bu haqq olan Quran onlara gələn kimi dedilər:-Bu, böyük sehrdir. Müşriklər isə deyirlər ki, Peyğəmbər bu Quranı Allaha yalan bağlayır. Allah daha yaxşı bilir ki, siz Qurana böhtan atırsınız və Allahın mənimlə sizin aranızda şahid olması kifayətdir.

əl-Muddəsir-18-26-O, Quran haqda nə deyəcəyini fikirləşdi, ölçdü-biçdi, Muhəmmədə şair, kahin və sehrbaz dedi. Sonra Quranı inkar etmək üçün baxdı, üzünü turşutdu və qaş-qabağını tökdü. Sonra iman gətirməkdən üz çevirdi və təkəbbürlük etdi. Sonra isə söz tapmayıb belə dedi:-Bu Quran sehrbazlardan öyrənilən sehrdən başqa bir şey deyildir və bu Quran bəşər sözüdür. Bu söylədiyi sözlərinə görə tezliklə Mən onu Cəhənnəmə yetirərəm!

KAFİRLƏR QURAN AYƏLƏRİNİ TƏKƏBBÜRLÜK EDİB, BƏYƏNMƏZLƏR

ər-Rum-10-Sonra da Allahın ayələrini yalan hesab edib,onları məsxərəyə qoymaqla pislik edənlərin aqibəti lap pis oldu.

əl-Qələm-15-Ayələrimiz ona oxunduğu zaman deyər:-Bu ayələr keçmiş şəxslərin uydurduğu hekayələrdir. Tezliklə onların burunlarına damğa basılar.

əl-Ənbiya-2-3-Rəbblərindən onlara (bir-birinin ardınca) elə bir yeni xəbərdarlıq (öyüd-nəsihət) gəlməz ki,onu məsxərəyə qoyub dinləməsinlər. Qəlbləri qəflət içində olar.(ona qulaq asmazlar)Zalımlar öz aralarında gizli pıçıldaşıb(bir-birinə): ”Bu (Muhəmməd) sizin kimi ancaq adi bir insandır,”-deyərlər.

Muhəmməd-16-Onlardan elələri var ki, sənə qulaq asarlar. Sənin yanından çıxdıqda isə elm verilən kəslərə deyərlər ki, bir az əvvəl Peyğəmbər nə dedi? Onun sözünü biz anlamadıq. Onlar bunu istehza yolu ilə deyərlər. Allah onların qəlblərini möhürləmişdir.

Loğman-6-7-İnsanların bir parası boş sözlərə müştəridirlər ki, cəhalətlə xalqı Allah yolundan azdırsınlar və Quranı məsxərə etsinlər. Onlara rüsvayedici əzab qismət olacaq. Bizim ayələrimiz oxunan za-

man təkəbbürlə üz çevirər,sanki eşitməyir, ya da qulaqları eşitməyən adamlar kimi özünü göstərər. Ona ağır əzab müjdəsi ver.

Dini hekayə:-Bir gün bir nəfər evində oğru görür və onu tutmaq istəyəndə oğru qaçır. Adam oğrunun arxasınca düşərək onu tutmağa çalışır. İki-üç küçə keçdikdən sonra oğrunu tam tutmaq istərkən, bir başqa oğru onu bərkdən səsləyir:"Tez buraya gəl, yetiş" Adam orada nə isə daha pis hadisə olduğunu düşünərək, səsin gəldiyi tərəfə qaçır. Onu çağıranın yanına çataraq:

- "Nə var? Nə olub? Niyə məni belə həyəcanla çağırdın?"-deyə soruşur.Oğru cavabında həyəcanla:

-"Bax,bu, oğrunun ayaq izləridir. O, bu tərəfdən qaçmışdır. Vaxt itirmədən onun arxasınca qaçıb, onu tut,"-deyir.

Adam cavab verir:- "Ay ağılsız!Mən onun izini neyləyirəm? Özünü artıq tutmaq üzrə idim və sən məni çağırdın, əgər çağırmasaydın, artıq onu tutmuşdum."

Açıqlaması:-Mövlana bu hekayədə Allahın zatı və sifətlərini açıqlayır. Allahın zatından pərdəli olanlar, sadəcə, Allahın sənətini və varlıqlarını görürlər. Yaranmışlara, yəni sifətlərə baxıb qaldıqları üçün də Allahın zatından məhrum qalıblar. Hekayədə ev sahibi Allahın zatını və haqqı tanımaq istəyən, izləri göstərən oğru isə sifətlərlə əlləşən qəflət əhlini təmsil edir**. (M.Cəzalı"Altın Ögüdlər" -tərcümə Hüseyn Okur.)**

ALLAH İSTƏDİYİ BƏNDƏSİNİ QURANA HİDAYƏT EDƏR

ər-Rad-31-Əgər aləmdə dağları yerindən oynadan, ya yeri parçalayan, ya da ölüləri dirildib danışdıran kitab olsa, o da Qurandır. Əksinə, bu əmrlərin hamısı Allaha məxsusdur. Məgər möminlər bilmirlər ki, Allah istəsəydi, şübhəsiz, insanların hamısını hidayət edərdi.

əl-Həcc-16-Biz Quranı nazil etdik. Burada Allahın birliyini və onun gözəl hökmlərini aşkar dəlillərlə açıqladıq. Allah istədiyi bəndəsini Qurana hidayət edər.

əl-Kəhf-57-Allahın ayələri ilə nəsihət oxunandan sonra onlardan üz döndərən və öz əlləri ilə özündən qabaq göndərdiyi günah əməlləri unudan kəsdən daha zalım kimdir? Biz belə şəxslərin qəlblərinə ayələri anlamamaları üçün pərdə saldıq, onların qulaqlarına ağırlıq verdik. Əgər sən onları hidayət tərəfə çağırsan da, onlar hidayət tapmazlar.

ər-Rum-57-59-Biz bu Quranda xalq üçün hər cür məsəl gətirmişik. Onlara əgər bir ayə oxusan, kafirlər deyəcəklər: ”Siz yalançılardan başqa bir şey deyilsiniz.“Elmsiz, bilikdə payı olmayanların ürəyinə Allah belə möhür vurar.”

Hədis:İmam Əli ibn Hüseyn (Zeynəl Abidin) buyurdu:-Quran ayələri xəzinədir və hər dəfə xəzinə açılanda, gözəldir ki, xəzinənin içində nə olduğuna baxasan. **(Üsuli-Kafi c.2, s.609)**

QURANDAKI MÜQƏTTƏƏ HƏRFLƏRİ HAQQINDA

Hansı bir vərəqi yazdınsa əgər,
İkicə hərf ilə dedin müxtəsər.
Bir dağ çapmadısa”kəf”ilə “nun”
Göy adlı bir böyük Bisutun qurdun
Hardasa dünyanın dövləti varı
Bu iki hərfdir onun açarı.
Yalnış bir hərfdə yazmadın yeni,
Qoydun hər nöqtəni sən öz yerinə
Sənin nemətinlə yarandı aləm,
Yoxdur bu səhnədə başqa bir qələm!

əş-Şura-1-3-And olsun bu hərflərə (müqəttəə hərflərinə)! Göylərdə və yerdə olanlar Allah üçündür.Allahın şəni uca və böyükdür.O, qələbə çalan və hikmətlə iş görəndir.

Açıqlama:-Qurani-Kərimin 114 surəsindən 29 surəsi müqəttəə adlanan hərflər ilə başlayır. Müqəttəə hərfləri ərəb əlifbasında olan 28 hərfin 14-ü ilə səslənir. Bu hərflərin tələffüzü zamanı hərf öz adı ilə ayrı-ayrılıqda tələffüz olunur. Bu hərflərə Allahın xüsusi rəmzləri deyilir. Bu haqda Əli (ə.s.) belə buyurur:-Allahı çağıranda belə deyin:-Yə, Kəf, Nun, Əyın, Sad, və ya Yə, Nun, Mim, Əyin, Sin, Qaf.

Annemarie Schımmel’in (1922 - 2003Alman İranolojist və İslam və Təsavvuf araşdırmacısı) bildirdiyinə görə əbcəd hərflərinin mahiyyətini bildirən rəqəmlər toplumu səmavi bilgilərdən qaynaqlanmışdır.Hətta sirli əbcəd hərflərindən doqquzunun Hz.Adəmə (ə.s.) ilk dəfə vəhy olaraq gəldiyi də qaynaqlara istinadən bildirilir.Əbcəd hərflərini yadda saxlamaq üçün 8-kəlmədən istifadə olunur:1)Əbcəd-başladı, (əlif, bə, cim, dəl 2)Həvvəz-Birləşdirdi (hə, vav, zə) 3)Hütti-Xəbərdar oldu, (hə, ta ,yə) 4)Kələmən-Sözə gəldi (danışdı) (kəf, lm, mim, nun)5) Səfəs-Tez öyrəndi, (sə, hə, zəl); 6)Qərəşət-Səliqəyə saldı, (gaf, ra, şın,

tə); 7)Səxiz-Baxdı, 8)Zəziq-Tanış etdi (başa çatdırdı) (qaf, ra, şın, tə). Əbcəd hərflərinin hər birinin öz rəqəmi,öz rəmzi işarəsi vardır və bu rəflərin hər biri Allahın ismi şəriflərini bildirir.Bu hərflərin möcüzəvi sirləri İmam Qəzzali də əsərlərində"müsəlləsül-Qazalî" adı altında bu rəqəblərin hökmləri haqqında sirləri açıqlamağa çalışmışdır. Əslində isə bu rəqəmlərin sirr və hikmətləri yalnız Hz. Əli və onun övladlarına məlumdur.

Dünyanın hərflərlə yaradıldığı yazılmışdır. Hərflərin əlaqəsi biz zəncir formasında insanı duyğudan duyğuya götürür.Bir cümləni oxuyaraq, onun bir parçası oluruq, sanki bir işığın içinə axdığımız kimi. Bu axma hissi bizi bir məqsədə gətirir.

"40 sual" kitabında bildirildiyi kimi Allah-taala dörd ünsürü biri digərinin içinə girə bilən şəkildə var etdi: su, od, hava və torpaq. Məsələn:atəş havaya çevrilə bilər; hava da atəşə çevrilə bilər. Hərflərdə də Tə hərfi Ta hərfinə; Sin hərfi Sad hərfinə çevrilməsi kimi. Həqiqətən ünsürlərdən bu hərflər meydana gəlmişdir.

- Torpaq ünsüründən: pəltək Sə, Ta, Cim , Ləm, Hə, Nun və Mim hərfləri meydana gətirilmişdir.

-Su ünsüründən: Sin, Ğayn, Tə, Hə, Dad ,Fə ,Kəf meydana gətirilmişdir.

-Hava ünsüründən: Zəl, Əiyn, Za, Sad və Vav hərfləri meydana gətirilmişdir.

Atəş ünsüründən : Həmzə, Qaf, Bə, Sin, Ra, Cim ,Ləm hərfləri meydana gətirilmişdir.

Bütün bu hərflər Əlifin həqiqətindən zühür etmişlər. Əlif, ruh və hiss olaraq onların,yəni bütün fələklərin fələyidir.Söylənilir ki, hərflər də ümmətlərdən bir ümmətdir. Onlar da Allahın əmrlərinə tabedirlər,onların öz adları, öz şəriətləri, öz peyğəmbərləri vardır və onlarda Allaha ibadət edirlər.

- "Əlif, Lam, Mim" dəki Əlif tövhidə işarədir; Mim, həlak edilə bilməz bir mülkə işarədir; bu iki hərf arasındakı Ləm isə, ikisi arasında rabitə üçün bir vasitədir. Ləm'ın xəttinin düşdüyü sətirə baxsan, Əlifin gövdəsinin orada onun ucuna çatdığını görərsən, Mim isə ondan aşağıya doğru enməyə başlayır. Sonra, orada "ən gözəl formadan" –xətdən "aşağıların aşağısı" na qədər enər ki, bura mim'in kökünün bitmə nöqtəsidir. Necə ki, Allah-təala belə buyurur: "... Biz insanı ən gözəl biçimdə yaratdıq! Sonra onu aşağıların aşağısına göndərdik. "

Əlif -Ləm-Mim hərflərində Ləm bir sifətdir. Mim isə onun əsəri və onun hərəkətidir.

Əlif, sözün başında olanda hərflərdən heç biri ilə birləşməz.Çünki o vəziyyətdə Əlif "Doğru Yol" dir (Sıratul-müstəqim), yəni ruhun "Bizə doğru yolu göstər! "deyərək istədiyi yoldur. (Fatihə Surəsi 1/6); bu yol Tövhid yoludur.

Əlif Ləm Mim hərfləri hərf olaraq üç dənədir və üç aləmi Bərzax və iki aləmi; bu dünya və əbədi dünya aləmi ilə əlaqənin həqiqəti bir araya toplamışdır.

- Əlif bir hərf kimi yalnız müqəttəə hərflərinin tələffüzü zamanı Əlif deyə oxunur.Əlifin məqamı "cəm" məqamıdır. Əlifin adları vardır. Onun adı Allahdır. Əlifin sifətləri vardır; onun sifəti, "Qayyumiyyət" dir.

- Həmzə; bu hərf həm şəhadət aləmindən həm də mələkut aləmindən olan bir hərfdir. Hərflərin sayında onunla əlaqədar bir mərtəbə yoxdur.

- Ləm və Əlif birlikdə yan-yana dayandıqları zaman, dost olurlar və hər biri digərinə bir meyl duyar. Bu meyl həm bir ehtirasdır (həva) həm də bir maraqdır. Deməli, meyl ancaq bir eşdən doğulur ...

Ləm bu babda Əlifdən daha güclüdür, çünki o Əlifdən daha çox aşiqdir: onun himməti daha mükəmməl bir yaranmaya, daha tam bir hərəkətə malikdir.

Ləm və Əlifin bağlanıb düyümlənməsində bir sirr vardır: Əlif Haqq-taalanın payı və Ləm isə insanın payı olduğundan, Əlif və Ləmi zikr etdiyimiz zaman, bütün kainatı və onu Varadanını zikr etmiş oluruq.

Dairənin diametrini ortaya qoyan Əlif isə, əmr üçündür; o əmr də "Kun!" yəni "Ol" əmridir. Demək ki Əlif və Ləm həqiqət olaraq hər surəti qəbul edərlər, çünki bu ikisi digər bütün həqiqətləri toplayan iki mövcuddur. Bu hərflərin də bir aləmi vardır və insani aləmlə hərflərin bir ortaqlığı vardır. Bizdən bir qütb olduğu kimi, hərflərin də bir qütb var: hərflərin qütbü Əlifdir.

Hərflər içində iki imam vardır: bunlar Vav və Yə hərfləridir.

Hərflər aləmində sütunlar- dörd böyük vəli vardır ki, bunlar Əlif, Vav, Yə və Nun'dur. Bu hərflər eyni zamanda irab əlamətləridir. Əlif "Raculən" ın Əlif'idir. Vav "əl-əmrunə" nin Vav'ıdır. Yə "ələmrinə" nin Yə'sidir. Nun da "Yəf'əlunə" nin Nun'udur.

Məlumdur ki,aləm iki qisim üzrədir.

Birincisi "Qeyb aləmi" deyə adlandırılan aləmdir ki, bu, hisdən, duyğudan kənarda olan və- Ədədlərin sirləri, ruhları və mənzilləri, sayı Allahın yaranma içindəki, yəni kainatdakı sirlərindən bir sirrdir.

Havas hərflərinin beşinci Bə hərfidir. Bu hərf əvvəl gəlmişdir. Çünki hər surənin başında olan Bəsmələnin ilk hərfi Bə'dır. Başında Bismillah olmayan Tövbə-Bəraət surəsi də, yenə Bə hərfilə başlayır.

- Bəzi hərflər özü başqa hərflərlə bitişsə də,özündən sonra hərflərlə birləşməzlər.Bunla iki şəkildə yazılan:Əlif, Vav, Dəl, Zəl, Ra, Za hərfləridir.

Bütün hərflərin öz sirləri vardır.Bunlardan S-hərfi haqqında: Hansı sözün içərisində sin hərfi olsa, deməli o sözün mənasında bir sirr vardır. İnSan öz sirrlərini gizlətmək istər, eyni ilə torpağın pisliklərin üstünü örtüb,cila çəkdiyi kimi.Sirr aşkara çıxarılması istənilər və bunun üçün səbrlə gözlənilən bir şeydir. Açıqdadır,lakın hər kəs görə bilmədiyi üçün sirdir.

Ş-hərfi haqqında: Şin üstünlük rəmzidir. İçində yer aldığı kəlmə istər ülvü olsun, istərsə də adi içində Ş hərfi olan sözlər göz qamaşdırıçıdır.Bütün baxışları özünə cəlb edir. İçində Ş hərfi olan bir bir dənə olsa iddiasız kəlmə tapmaq mümkün deyildir. GünəŞ, atəŞ, eŞq, Şəhvət, Şövq, naxıŞ, Şhov, Şəhid. Bu kəlmələrə bənzər digər yaxın hərflərə də baxdıqda daha sadə, daha sakit bir hal görürük.

Ş hərfli kəlmələr ilə S hərfli kəlmələrin oxşarlığına baxaq və müqaisə edək:

AtəŞ dən yüksələn iSti, eŞq ilə alışan Sevgi, Şövq ilə yola düşən iStək,

içində Ş hərfi olan kəlmələr şah kəlmələrdir.Şin hərfi olmaca Şah olmaz heç bir kəlimə.

Şin insanı tanıdıqda ,insanı Şəxsiyyət ,Şah ,Şeyx Şakir, Şaqird ,Şahsuvar edər. Şərəfli edər,lakin Şeytanla işbirliyinə girdikdə isə şərəfsiz edər. Yandırıcı Günəş atəş, Şəms Şin ilə işıldar.

Sırrləri bildirən Sin hərfi Şinin yanında sönük qalsada ,Şin ilə qardaşdır. Aşiq olmaq yerinə sevməyi, şübhə etmək yerinə soruşub,öyrənməyə üstünlük verər.

Bir çox hərf üçün də bu müqayisə edilə bilər. Vav hərfindən bir çox idarəçi söz lər yaranar: Vasi, Vəzir ,Vali,Vəkil və sair bu kimi sözlər.

Bəziləri deyirlər ki, bu rəmzlər Allah ilə Peyğəmbər arasında olan rəmzlərdir ki, başqaları bunları bilməsinlər. Məsələn:-Əlif, Ləm, Ra və yaxud, Ta, Nun və yaxud da, Yə, Sin və sair bu kimi hərflər.

Quranın nazil olmasından 14 əsr vaxt keçməsinə baxmayaraq, müasir elm hələ də bu hərflərin hikmət və mənalarını öyrənə bilməmişdir. Ümumiyyətlə, ərəb hərflərinin hər biri çox müqəddəsdir və bu hərflərin hər birinin özünəməxsus tələffüzü, hikmətləri, rəqəmləri, rəmzi işarələri vardır və hər hərf Allahın İsmi şəriflərindən birinin adını bildirir. Peyğəmbərimiz tərəfindən söylənilən hədislərdə bu hərflərin öyrənilməsi və onların hikmətləri haqqında, həmçinin bu hərflərin bu

dunyadakı savab və xeyirləri, axirət üçün isə bir çox əlamətlər və işarələr olduğu bildirilir. Bu dünyada öyrəndiyimiz hər bir hərfin bizə nə qədər köməyi və savabı olduğunu bilsək, bu hərfləri öyrənib, əzbərləyib, düzgün tələffüz edərək faydalanarıq.

Peyğəmbərimiz tərəfindən söylənən səhih hədislərdə Merac zamanı gördüyü bir çox hadisələr haqqında xəbərlər verilmişdir. Cənnətdə gördüyü çaylar haqqında danışarkən,"Bismilləhir Rahmənir Rahim" kəlməsinin; Mim-hərfindən mənbəyini götürən, dadlı və qoxusu heç vaxt dəyişməyən su çayına, mənbəyini Hə-hərfindən götürən süd çayına, mənbəyini Bə hərfindən götürən şərab çayına və mənbəyini Nun-hərfindən götürən bal çayına rast gəlməsi haqqında xəbər vermişdir.

Ərəb əlifbasını təşkil edən 28 hərf qədimdən bəri ədədləri işarə etmək üçün də işlənir. Ədədləri bildirən ərəb hərfləri müasir əlifba sırası ilə deyil, qədimdə qəbul olunmuş əlifba sirası ilə işlədilir ki, bunlara "Əbcəd" hərfləri deyilir. Əbcəd hərflərini yadda saxlamaq üçün 8-kəlmədən istifadə olunur.

1)Əbcəd-başladı, 2)Həvvəz-Birləşdirdi, 3)Hütti-Xəbərdar oldu, 4) Kələmən-Sözə gəldi (danışdı)

5)Səfəs-Tez öyrəndi, 6)Qərəşət-Səliqəyə saldı, 7)Səxiz-Baxdı, 8) Zəziq-Tanış etdi (başa çatdırdı).

Hədis-Rəsulullah (s.ə.s.) buyurdu:-Həqiqətən, bu Quran Allahın ipi, aşkar nur və faydalı dərmandır. Ona görə də özünüzü Quran oxumaqla məşğul edin. Çünki Allah hər oxuduğunuz bir hərfə görə sizi on yaxşı əməlin savabı ilə mükafatlandırar**. (Biharul Ənvar, c.92, s.17)**

Hədis: Əbu Nuəym,"Hilyətül-evtiya"kitabında 43 səhifəsində: Hz.Peyğəmbər(s.ə.s.)in vəfatına yaxın günlərdə, Hz.Əlinin Peyğəmbərin göstərişi ilə öz evinə qapanaraq,Qurani-Kərimi nüzul (nazil olma) tarixinə görə tərtib etdiyini eşitmişdim,-deyə, qeyd etmişdir.

ƏRƏB HƏRFLƏRİ HAQQINDA MƏLUMAT

Ərəb dili tarixən üç inkişaf mərhələsi keçmişdir, qədim (V əsrədək), klassik (V – XVIII) və müasir (XIX əsrdən indiyədək) ərəb dili kimi təmsil edilmişdir. Qədim ərəblər haqqında ilk yazılı məlumata hələ eramızdan əvvəl Assuriya şahı Sarqonun (715-ci il) kitabəsində təsadüf edilmişdir. Qədim ərəb dili əsasən Suriya ərazisində tapılmış Əs-Səfa, Ən-Nəmarə, Zəbəd, Hərran və s. kitabələrdə əks olunmuşdur.

Əvvəllər müxtəlif məhəlli dialektlərdən ibarət olmuş qədim dilin sonrakı inkişaf mərhələsində ədəbi dil kimi formalaşmasında Qureyş

(Məkkə) dialekti mühüm rol oynamışdır. Həmin dil islamdan bilavasitə qabaq, islam alimlərinin cahiliyyə adlandırdıqları dövrdə yaranmış şifahi poeziya nümunələrində və habelə çox qiymətli abidə hesab olunan Quranda artıq sabitləşmiş qramatik quruluşa və zəngin söz ehtiyatına malik ilk klassik ərəb dili kimi təsbit edilir.

Bildiyimiz kimi, Ərəb hərfləri 28 ədəddir və bu hərflərin özünəməxsus yazılışı və tələffüzü vardır. Bu hərflərin çoxu sözü əvvəlində, ortasında, axırında və sərbəst olaraq dörd şəkildə yazılır, lakin tələffüz zamanı bir hərf olaraq səslənir. Bəzi hərflər isə iki şəkildə yazılır ki, bunlar da yazıda özlərindən sonra gələn heç bir hərflə birləşmirlər. Bu hərflərin hamısı samitdir,yalnız oxu işarələrindən götürülən (hərəkələrdən) 3 hərf-ə, i, u vardır ki, bunlara qısa saitlər deyilir və bu üç sait vasitəsi ilə samitlər oxunur,yəni sözlər hərəkətə gələrək tələffüz olunur. Həmçinin, üç ədəd uzun sait vardır ki, bunlar Əlif, Vav, Yə hərfləridir. Uzun saitin tələffüzü zamanı hərflər 3 ədəd (əlif) uzadılır. Oxu işarələrindən olan mədd işarəsi hər hansı bir hərfin üzərində qoyulduqda, hərf 3,5,7 əlifə qədər uzadılaraq oxunur. Quranın düzgün oxunuşu üçün hərflərin düzgün tələffüzü və düzgün uzadılması çox vacibdir. Bu hərflərin düzgün uzadılması nəticəsində də avaz və tərtil əmələ gəlir. Əgər oxunuş zamanı bir hərf düzgün tələffüz olunmazsa, sözün mənası və tərkibi dəyişərək başqa mənalar verər. Çünki ərəb dili çox zəngin dil olduğundan bu dildə bir kəlmə söz 10-dan da çox məna kəsb edə bilər. Bu səbəbdən hərflərin düzgün tələffüzü və uzadılması Quranın düzgün oxunuşu üçün əsasdır. Yazılış və oxunuş zamanı bu hərflər sağdan sola tərəf oxunur və yazılır.

Xarici dillərin öyrənilməsində sözlərin fonetik quruluşunu əks etdirmək üçün ”Transkripsiya” adlanan şərti işarələr məcmuəsindən istifadə olunur.

1.Cədvəldən göründüyü kimi 4 ədəd (Z) hərfi vardır.
Bunlar:Za (qalın), Zə (adi),Zəl (pəltək),Dad(qalın).
2.İki ədəd (H) hərfi vardır.
Hə- boğazdan küylü,o biri Hə-boğazdan səslənir.
3.Üc ədəd (S) hərfi vardır.
Sad-qalın səslənən,Sin-incə səslənən,Sə-pəltək səslənən.
4.2-ədəd (T) hərfi vardır.
Ta-qalın səslənən.Tə-incə səslənən.
Qalın hərf A saiti ilə, incə hərf isə Ə saiti ilə tələffüz olunur.

Birinci nəqş edilmiş “Əlif” oxu lövhədə,
Ağ pərdəli qapıda qismət oldu Əhmədə.

Qüdrət, səltənət verdi "Əlif "hey" həlqəsinə,
"Dal"-dan gərdənlik aldı, "Mim"-dən kəmər özünə.
"Əlif', "dal" ilə "mim" də tapdı həyat qüvvəsi,
Bir dövlət dairəsi, bir kamal xəzinəsi. ("Sirlər xəzinəsi")

Hədis:İmam Rza Hz.Peyğəmbərdən buyurur:-Bu uca kitab olan Quran Allahın bir ziyafətidir. Bu halda siz də əlinizdən gəldikcə Allahın hədiyyəsini qəbul edin. Bu Quran Allahın açıq bir nuru, sağlam ipi və şəfasıdır. Ona sarılanı qoruyub və dözümlü olanları qurtarar. Quranın möcüzələri tükənməz,çox təkrar edilməklə də əskilməz. Quranı oxuyun! Uca Allah onun hər bir hərfinə on savab ehsan edər. **("Zubdətul Əhadis")**

HZ. MUHƏMMƏD PEYĞƏMBƏR HAQQINDA

Böyüĸ Muhəmmədə yüz min afərin!
Xilqət torpağıdır,buna ol əmin.
Vəfa meydanının qabaqcılıdır,
Nəbilərə rəhbər,başcıl sayılır.
Günahĸar ümməti qoymaz xəcalət,
Eyləyər onlara daim şəfaət.
Nə qədər yetimi sevdi, saxladı,
Dürri-yetim"qaldı odur ĸi, adı.
Nübüvvətə dini verdi yeniliĸ,
ĸöməĸçisi oldu ağıl və biliĸ.
Rəhmli ĸişidir,qəzəbli bir şir,
Dili gah açardır, gah da bir şəmşir.
O bütün xaslardan xas bir Ayazdır,
Məsuddan Mahmuda çatmış bir xasdır. (N. Gəncəvi)

Açıqlama:-Bildiyimiz kimi Uca Allah,Muhəmmədi(Ona Allahın salavat və salamı olsun) hidayət və haqq dinlə insanlara göndərmisdir. Hidayət,faydalı elm, haqq din isə saleh əməldir. Uca Allah Peyğəmbərimizə özündən öncəki Peyğəmbərlərə əmr etdiyi kimi, tək bir olan Allaha ibadət etməyə çağırmağı əmr etmisdir. Muhəmməd kəlməsinin mənası daha çox"həmd olunmuş"deməkdir.Bu sözün kökündə həmd sözü dayanır ki, mənası"hörmət etmək" və "sitayiş etmək"deməkdir.

Peyğəmbəri uşaq ikən iki adla çağırmışlar. Bir adı babası Əbdül-Mütəllibin qoyduğu Muhəmməd, digəri isə anası Aminənin qoymuş olduğu Əhməd adı idi. Əhməd adının da kökündə"Həmd"sözü dayanır

və mənası“çox sitayış olunan”deməkdir. Peyğəmbərə bu adla daha çox müraciət edən insan, əmisi Əbu Talib olmuşdur. Belə rəvayət olunur ki, Merac hadisələrinin bir çoxunda Allah-taala Peyğəmbərə dəfələrlə bu adı ilə müraciət etmişdir. Bəlkə ona görə də Həzrətin göylərdə adı Əhməd, yerdə isə Muhəmməd kimi məşhur olmuşdur.

İslam Peyğəmbərinin on adı olmuşdur. Onlardan beşi Quranda çəkilir:-Muhəmməd, Əhməd, Abdullah,Yasin və Nun.

əd-Duha-6-11-Ya Muhəmməd! Məgər səni Allahın dünyada yetim ikən qorumadımı? Sən atanın üzünü görməmişdin və sən kiçik olan zaman anan vəfat etmişdi. Allah sənə Əbdul-Mütəllib övladlarının yanında yer verdi və Əbu Talib sənə qəyyum oldu. Allah səni misli yer üzündə olmayan, sədəfin içindəki bir “dürr-yetimə” bənzətdi. Bir çox dürrün içində bircə dənə ən yaxşı dürr sayılır ki, adına “dürr-yetim”deyilir, yəni tək bir dənədir. Bunun üçün də Allah səni Peyğəmbər seçərək öz yanında yer verdi. O, səni bir halda tapdı ki, sən qiymətsiz, tanınmamış idin. Məkkədə heç kəs sənin qədir-qiymətini bilmirdi. O zaman Allah insanlara yol göstərdi ki, səni tapsınlar və Allah səni fəqir tapdı ki, maldövlətin yox idi və səni dövlətli etdi. Xədicənin (ə.) malı ilə, ya qənaət ilə, ya qənimətlər ilə dövlətli oldun. Bu nemətləri sənə verən Allah səni düşmənlərinə qalib etməyə də qadirdir. Allahın sənə verdiyi nemətlər müqabilində yetimə acıqlanma, dilənçini naümid etmə və Allahın sənə olan nemətindən söhbət aç,üstünü örtmə və şükür et! **(Kitabul-Bəyan fi təfsiril-Quran.)**

PEYĞƏMBƏRİ UCA ALLAH GÖNDƏRİB

Hədis:-Hz.Peyğəmbəndən soruşdular:-Ya Rəsulullah,sən nə zaman Peyğəmbər oldun? Peyğəmbər:-Adəm (ə.s.)hələ ruh və cəsəd arasında olarkən,-deyə buyurdu. **(Üsuli Kafi)**

Yasin-1-3-Ey əvvəlin və axırın seyyidi olan Peyğəmbər! Haqq ilə batil arasında olan Qurana and olsun ki,sən, həqiqətən, Allah tərəfindən Peyğəmbərliyə göndərilmişsən və düz yoldasan.

əl-Əhzab-45-Ya Peyğəmbər! Biz səni ümmətinə bir şahid, bir müjdəçi və bir qorxudan kimi göndərdik.

ən-Nəml-92-Ya Peyğəmbər! De ki, mənə Allah tərəfindən əmr olunmuşdur ki, Quranı sizə oxuyam və sizi ona tərəf dəvət edəm. Mən Allahın əmrinə təslim olan Peyğəmbərlərdənəm.

Taha-1-Ey pak-pakizə, haqqa hidayət edən Peyğəmbər! Biz Quranı sənə hidayət etmədik ki, özünü məşəqqətə və zəhmətə salasan. Biz Qu-

ranı sənə göndərdik ki, qorxan, qəlbində Allah xofu olan kəsə nəsihət verəsən. Bu Quran yeri, goyü və ərşi yaradan Allah tərəfindən nazil olmuşdur.

əd-Duxan- 6-Həqiqətən, Peyğəmbərləri sizə rəhmət olaraq göndərən bizik ki, sizlərə düzgün yolu göstərsinlər. Allah bəndələrinin duasını eşidən və əməllərini biləndir.

ALLAH PEYĞƏMBƏRİ ALƏM ƏHLİNƏ RƏHMƏT GÖNDƏRİB

əs-Sad-67-Ya Peyğəmbər! De ki:-Mən yalnız insanları günahdan qorxudan bir Peyğəmbərəm və bunun üçün də bu xəbərlər mənə vəhy olunur.

əl-Ənam-130-132-Ey cin və insan tayfası! Biz sizə ona görə Peyğəmbər göndərdik ki,sənin Allahın dünya əhalisini qafil-xəbərsiz olduqları halda, onları zülm ilə həlak etməsin.Onların hər birinin etdikləri əməl müqabilində dərəcələri vardır. Sənin Allahın onların əməllərindən qafil deyil. Onların əməlləri müqabilində cəza və mükafat verər.

ən-Nəhl-125-Ya Peyğəmbər! Möhkəm dəlil və gözəl nəsihət ilə Allahın yoluna və dininə çağır! Gözəl sözlərlə,yumşaq tərzdə onlar ilə mübahisə et. Sənin Allahın yolundan azmışları yaxşı tanıyır. Allah hidayət tapmışları da çox yaxşı tanıyandır. (Allahın yoluna dəvət et! Hikmət ilə, gözəl-gözəl mövzu ilə onlarla ən gözəl olan surətdə mücadilə et.)

əl-Əhzab-2-3-Ey Peyğəmbər! Pərvərdigarından sənə nə vəhy olunursa, ona itaət et, ona görə ki, Allah etdiklərinizdən agahdır. Allaha təvəkkül et, çünki Allahı özünə vəkil etsən, kifayətdir

Muhəmməd-2-Uca Allah man gətirib yaxşı əməllər edənlərin və Rəbbindən Muhəmmədə haqq olaraq nazil edilənə-Qurana inananların günahlarının üstünü örtəcək, onların əhvalını dünyada və axirətdə yaxşılaşdıracaqdır. Qurana iman gətirənlərə və saleh işlər görənlərə Allah keçmiş günahlarının bağışlanmasını və böyük əcr verməsini vəd etmişdir.

ALLAH PEYĞƏMBƏRİ HİDAYƏT YOLUNU ÖYRƏTMƏK ÜÇÜN GÖNDƏRİB

əl-Bəqərə-151-Sizə ayətlərimizi oxuyan, sizi günahlardan təmizləyən, sizə kitab və hikməti öyrədən, bilmədiyiniz şeyləri də sizə

öyrədən öz içərinizdən bir Peyğəmbər göndərdik.

əl-İsra-53-Ya Peyğəmbər! Bəndələrimə de ki, gözəl olan kəlmələri desinlər.”Lə ilahə illəllah”kəlməsini zikr etsinlər. Şeytan onların arasına düşmənçilik salar. Şeytan insanın böyük düşmənidir.

əl-Kəhf-26-Ya Muhəmməd! Rəbbinin kitabından sənə vəhy olunanı oxu! Allahın sözlərini dəyişdirən olmaz. Sən ondan başqa pənah tapmazsan.

əl-Kəhf-111-Ya Peyğəmbər!De ki:-Mən də sizin kimi bəşərəm, Allah tərəfindən mənə vəhy olunar. Sizin Allahınız tək-tənhadır. Allaha yetişməyə ümid edən kəs yaxşı əməllər etməli, Allaha ibadət etməklə başqasını ona şərik qərar verməməlidir.

əl-İsra-94-95-İnsanlara doğru yol göstərən bir Peyğəmbər və dəlillər gələndən sonra onlara mane olan şey yalnız onların:-Allah adi bir insanımı Peyğəmbər göndərdi?-demələridir.Onlar fikirləşirdilər ki, Peyğəmbər gərək mələklərdən olsun.

Ya Peyğəmbər! De ki,əgər yer üzündə insanlar kimi arxayın gəzib dolaşanlar mələklər olsaydı və həmişəlik yerdə sakin olsaydılar, o zaman onlara göydən mələk cinsindən olan bir Peyğəmbər göndərərdik. Lakin Yerdə yaşayan insan olduğuna görə onlara da oz cinslərindən Peyğəmbər göndərdik.

ət-Təğabun-12-15-Allaha və onun Peyğəmbərinə itaət edin! Əgər siz qəbul etməkdən üz döndərsəniz, həqiqətən, Peyğəmbərimizin öhdəsinə düşən yalnız aşkar təbliğdir. Həqiqətən də,sizin malınız və övladınız sizin üçün ancaq bir imtahandır. Allahın yanında mal və övlada görə Allahı yadından çıxarmayanlar üçün böyük əcr vardır.

ALLAH PEYĞƏMBƏRİ BİZİ CƏHƏNNƏMLƏ QORXUTMAQ ÜÇÜN GÖNDƏRİB

Səba-28-Ya Muhəmməd! Biz səni təkcə öz qövmünə deyil, bütün insanlara, möminlərə Cənnətlə müjdə verən, kafirləri isə Cəhənnəm əzabı ilə qorxudan bir Peyğəmbər göndərdik. Lakin insanların əksəriyyəti bunu bilməz.

Məryəm-97-Biz Quranı yalnız sənin dilində asan etdik ki, onunla Allahdan qorxub pis əməllərdən çəkinənlərə bəşarət verəsən və inadkar insanları qorxudasan.

əş-Şüəra-194-Ya Peyğəmbər! Bu Qurandakı ayələr ilə insanları qorxudasan deyə sənin qəlbinə nazil etdik.

ər-Rum-52-Sən ölüləri eşidən edə bilməzsən və səndən üz çevirən karlara səsini çatdıra bilməzsən. Sən korları azğınlıqdan çıxarıb düz yola gətirən deyilsən. Sən səsini yalnız o adamların qulaqlarına çatdırarsan ki, bizim ayələrə iman gətirmişlər və təslim olmuşlar.

Yasin-69-70- Biz Peyğəmbərə şeir deməyi öyrətmədik və ona heç yaraşmaz da. Ona nazil olan ancaq nəsihət və açıq-aşkar Qurandır. Onunla diri olan şəxsləri qorxutsun. Kafirlərə əzab etmək vədəsi gerçək oldu.

PEYĞƏMBƏR TƏHSİLİ YALNIZ HZ.CƏBRAİLDAN ALIB

Əla-7-19-Tezliklə Biz sənə Quranı Cəbrail vasitəsi ilə oxuyarıq və onu unutmazsan.Təkcə Allahın dilədiyindən başqa, şübhəsiz ki, Allah aşkar və gizlini bilir. Biz sizə ən asan olan şəriət vermişik ki, onda sənə və sənin ümmətinə heç bir çətinlik olmaz. Ya Peyğəmbər! Əgər nəsihət vermək fayda verərsə, Quranın hökmünü ümmət üçün zikr et! Lakin bu vaxta qədər etdiyin öyüd-nəsihət heç bir fayda verməmişdir.Ancaq Allahın əzabından qorxan kimsə öyüd-nəsihəti qəbul edər. Öyüd-nəsihətdən yalnız bədbəxt olan kafirlər qaçar.O bədbəxt insan axirət odu olan böyük oda yetişər. Sonra o bədbəxt Cəhənnəmdə nə öləcək, nə də yaşayacaqdır. Həqiqətən, pak olan kəs nicat tapdı. O kəs ki, Allahın adını zikr etdi və bayram namazı qıldı. Lakin siz dünya həyatını axirət həyatından üstün tutarsınız. Axirət evi olan behişt daha xeyirli və daha əbədidir. Bu deyilən sözlər keçmiş Peyğəmbərlərə nazil olan kitablardandır. Bu da İbrahim və Musa Peyğəmbərin kitablarından ibarətdir.

əl-Ələq-1-5-Ya Peyğəmbər!Allahın adı ilə (Bismilləh deyərək) oxu! (bu surə Peyğəmbərə nazil olan ilk surədir ki, Hira dağında nazil olmuşdur). Peyğəmbər soruşdu:-Nə oxuyum? Mənim heç bir savadım yoxdur. Cəbrail nazil olub dedi:-Oxu!Sənin Rəbbin ən böyük Kərəm sahibidir!

O Rəbbin ki, qələmlə yazmağı öyrətdi.O Rəbbin ki, insana bilmədiklərini öyrətdi.O Allah ki, məxluqatı yoxdan yaratdı, insanı Peyğəmbərlik məqamına çatdırdı.

əl-Cumuə-2-4-Allah savadsızlara (Məkkə əhlinə) özlərindən bir Peyğəmbər göndərdi. O, bir yerə gedib elm öyrənməmişdi. Əgər o oxumuş olsaydı, onda deyərdilər ki, hansısa bir alimdən təlim almışdır. Lakin o yalnız vəhy ilə xəbər verər və onlara Allahın halal-haram və əhkamdan ibarət olan ayələrini oxuyar.Onları kibr, şirk və çirkin əməllərdən pak edər. Quranı və şəfaət ehkamını təlim edər,bundan

əvvəl onlar aşkar zəlalətdə idilər,aralarında nə din, nə də əxlaq var idi. Allah Muhəmmədi xalqına və hələ onlara qoşulmamış başqalarına da, hələ dünyaya gəlməmiş ərəb və başqa millətlərdən olanlara da Peyğəmbər göndərdi. Allah qələbə çalan və hikmət sahibidir. Allah insanlara Peyğəmbər göndərməklə böyük fəzl və mərhəmət sahibidir.

əl-Nəhl-103-105-Biz müşriklərin:-Quranı Muhəmmədə bir insan (ara-sıra görüb danışdığı,Cəbr Rumi adlı xaçpərəst bir gənc və ya Salmani-Farsi) öyrədir!- dediklərini də bilirik.Onların nəzərdə tutduqları adamın dili başqa dildir.Bu Quranın dili isə açıq-aşkar ərəb dilidir!(Ərəblər özləri Quranın dil, üslub gözəlliyi qarşısında heyranlıqlarını, acizliklərini gizlədə bilmədikləri halda, əcəm bu cür fəsahətli ərəb dilini haradan bilə bilər?!) Allahın ayələrinə inanmayanları, sözsüz ki, Allah doğru yola salmaz. Onları axirətdə şiddətli bir əzab gözləyir!

HƏZRƏTİ PEYĞƏMBƏRİN ƏXLAĞI

Ali-İmran-159-Allahın rəhmətinə görə sən onlarla yumşaq rəftar etdin. Əgər sən bədrəftar və ürəyi bərk olsaydın,sənin ətrafından dağılardılar. Onlara güzəşt et, bağışla! Allahdan onların bağışlanmasını istə. Müharibə və bütün işlərdə onlarla məşvərət et! Məşvərətdən sonra qəti qərar verdiyin zaman o işini yerinə yetirməkdə Allaha təvəkkül et!Allah təvəkkül edənləri sevər və onlara kömək edər.

əl-Qələm-4-Həqiqətən,sən böyük əxlaq sahibisən!Bütün gözəl sifətlərə maliksən!

əl-Əraf-199-Əfv etməyi adət et,intiqam almaq fikrində olma, həmişə yaxşılığa, gözəl əxlaqa əmr et! Cahillərdən əməlləri müqabilində üz döndər! Onlar kimi rəftar etmə,yaxşı davran.

Dini hekayə:-Bir gün Əbu Cəhl Məscidə gələrək, Hz.Peyğəmbərə "Haşımoğlanlarının" (nəslinin) içində səndən çirkini yoxdur,-deyir.

Peyğəmbər(s.ə.s.):-Hər nə qədər həddini aşdınsa da,yenə də doğru söylədin,-deyə cavab verir.

Bir az sonra Əli(ə.s.) Hz.Peyğəmbərin yanına gəlib,belə söylədi: -Ey Günəş!Sən nə qürub edən,nə də ki batansan.Sən həmişə parlayan nurlu Günəşsən!

Peyğəmbər (s.ə.s.):-Dəyərsiz dünya sevgisindən qurtaran əziz dostum!Sən də doğru söylədin"-deyə buyurur.

Orada oturan camaat bu sözdən sonra çaşıb qaldı və Hz.Peyğəmbərdən soruşdu:-Ey insanların ən şərəflisi! Bir-birinə tamamilə zidd şeylər söylədilər və ikisinə də doğru danışdıqlarını buyurdun.Bunun səbəbi nədir?

Hz.Peyğəmbər buyurdu:-"Mən haqqın qüdrət əli ilə cilaladığı bir aynayam! Mənə baxan olduğu kimi özünü görür!" **(Mövlana Cəzalı "Altın Ögüdlər")**

PEYĞƏMBƏR BİZİ DÜNYADA VƏ AXİRƏTDƏ HİMAYƏ EDƏCƏK

əz-Zuha-1-5-Ya Muhəmməd!And olsun səhərə!And olsun qaranlığa, sakitləşməkdə olan gecəyə!Bir neçə gün vəhy gəlmədiyi üçün Allahın səni tərk etmədi və səni düşmən tutmadı. Çünki müşriklər Peyğəmbərə bir neçə gün vəhy gəlmədiyi üçün demişdilər ki,Muhəmməddən Allahı əl çəkib və onu düşmən tutur. Allah onların sözünü rədd edib buyurur:-Necə ki, Allah səni Peyğəmbərliyə seçmişdir,elə o halda da qalacaqsan. Düşmənlərin sözünə fikir vermə. Şübhəsiz ki, axirət savabı və həmişəlik behişt sənin üçün dünyadan daha yaxşıdır. Əlbəttə, tezliklə sənin Allahın sənə Qiyamətdə şəfaət etməkdən, bütün kəramət behişt dərəcələrindən o qədər verər ki, sən razı olarsan.Bir nəfər də sənin dostlarından və onların dostlarından Cəhənnəmdə olmaz!Axirətdə sənə çoxlu mərhəmət edəcəyəm. Sənin dinin o qədər qüvvət və qüdrət tapar ki, bütün yer üzünə yayılar.

əl-Həcc-15-Hər kəs Allahın öz Peyğəmbərinə dünyada və axirətdə kömək etməyəcəyini zənn edirsə,gərək həmin şəxs öz evinin damından göyə tərəf ip atsın və ipi boğazına salıb kəssin. Eləcə də o şəxs baxsın görsün ki, onun bu hiylə ilə özünü öldürməyi, Allaha qəzəb gətirən işi apara bilər va yox?

ən-Nəhl-89-Qiyamət günündə hər bir ümmətin öz cinsindən olan Peyğəmbərini dirildib onlara şahid gətirərik.Ya Peyğəmbər! Səni də öz ümmətinə şahid gətirərik ki, onların əməllərinə şahid olasan Sənə Quran nazil etdik. O, hər şeyi, dünya və axirət işlərini aşkar bəyan edən, hidayət, rəhmət və müsəlmanlara bəşarət verəndir.

Hədis: ("Hədisi Qüdsi.") Şəhid Sani "Əbəd"kitabında buyurur:-Allah İncildə buyurur:-Vay olsun o şəxslərə ki, elmi eşidərlər, lakin onu axtarıb əldə etməzlər. Bunlar Cəhənnəmdə cahillərlə necə birlikdə olacaqlar?! Elmi öyrənib onu başqalarına da öyrədin, çünki əgər elm sizi xoşbəxt etməsə, bədbəxt də etməz, əgər sizin məqamınızı yüksəltməsə də, aşağıya da salmaz, əgər sizi zəngin etməsə, yoxsul da etməz. Heç vaxt"qorxuram ki, elm öyrənib, ona əməl edə bilməyəm"deməyin. Elm, Qiyamət günündə öz sahibinə şəfaət edəcək və Allaha vacibdir ki, elmi xar etməsin, yəni onun şəfaətini qəbul etsin.

Uca Allah Qiyamət günü buyuracaq:- Ey alimlər! Rəbbiniz barəsindəki nəzəriniz necədir? Onlar cavab verərlər:-Biz əmin idik ki, Allah Qiyamət günündə bizə rəhm edib, bizi bağışlayacaq.

Allah buyurur:-Mən sizləri bağışladım.Mən Öz hikmətimi sizin vücudunuzda,sizə zərər vermək üçün deyil,iradə etdiyim xeyrə çatdırmaq üçün əmanət qoydum.İndi Mənim saleh bəndələrimlə birlikdə Mənim rəhmətim səbəbinə behiştə daxil olun.

Hədis:İmam Cəfər Sadiq Peyğəmbərimizdən buyurur:-Quran oxuyan və onun buyurduqlarına əməl edən kəslərə Qiyamət günündə işığı və aydınlığı dünya evlərində var olan, Günəş işığından da daha parlaq bir tac geyindirilər**.(Zubdətul Əhadis.)**

Peyğəmbərimiz buyurur ki, elm öyrənin
O böyük, ağıllı, ayıq hökmdar,
Əmr etdi, verildi belə bir fərman:
"Alimdir gözümdə ən əziz insan,
Elmlə, hünərlə!-başqa cür heç kəs,
Heç kəsə üstünlük eləyə bilməz!
Rütbələr içində seçildi biri
Hamıdan ucadır alimin yeri!" (İsgəndərnamə.)

Açıqlama:Dahi şair Firdovsi (Əbülqasım Mənsur bin Həsən Firdovsi 971-1030 Tus ş.) 35 il müddətinə yazdığı, 60000 beytdən ibarət böyük "Şahnamə" əsərində bu sözləri öz elm və həyat təcrübəsinə istinad edərək, bir sitat kimi yazmışdır:"Ağıllı adam, sənin düşmənin olsa da, cahil bir dostdan yaxşıdır. Bilgisi olanın gücü olar. Dünya, başdan-başa əsli olmayan bir məsəldən başqa bir şey deyildir."

əl-Hədid-9-O elə bir Allahdır ki,öz bəndəsinə Muhəmmədə aşkar bəyan olmuş ayələr göndərər ki, sizi cəhl və küfrün qaranlığından xaric edib,elm və imanın işığına daxil etsin. Həqiqətən, Allah sizə qarşı mehriban və rəhmlidir.

Taha-ll4-Həqiqi hökmdar olan Allah hər şeydən ucadır. Həm də sənə tamam-kamal vəhy olunmadan əvvəl,Quranı oxumağa tələsmə və de:"Pərvərdigara! Mənim elmimi artır!"

ən-Nisa-162-Lakin onların elmdə qüvvətli olanları və möminləri sənə nazil edilənə və səndən əvvəl nazil olanlara inanır,namaz qılır, zəkat verir, Allaha və axirət gününə iman gətirirlər. Əlbəttə, biz daha böyük mükafat verəcəyik.

əl-Bəqərə-269-Allah istədiyi şəxsə elm, mərifət, müdriklik bəxş edir. Kimə hikmət bəxş edilmişsə, ona çoxlu xeyir, əbədi səadət verilmişdir.

Bunu yalnız ağıllı olanlar dərk edərlər.

Hədis-Hz. Əli (ə.s.) oğlu İmam Həsənə buyurur:-İstəyirəm sənə dörd xislət öyrədəm. Əgər onları qoruyub saxlasan, nicat taparsan, yox əgər itirsən, dünya və axirəti əldən verərsən. Ey oğlum! Ağıldan böyük sərvət yoxdur. Cəhl, elmsizlik kimi yoxsulluq, ücb-özünü bəyənmək kimi dəhşətli, şiddətli qorxu yoxdur. Gözəl əxlaqdan da ləzzətli həyat yoxdur.

Açıqlama: Qurani-Kərimdə"elm"kəlməsi isim və fel şəklində 779 dəfə xatırladılır. Biz buna "hikmət", "oxumaq", "kitab" və s. sözləri aid etmirik.

Qurani-Kərimin ilk nazil olan ayələri"Ələq"surəsinin ilk ayələridir ki,"İqra!"(Oxu!) kəlməsi ilə başlayır.

Bu Qurani-Kərimin elmə münasibəti haqqında qısa məlumatdır. Quranın öyrənilməsində əsas məqsəd təfsir deyil, sadəcə olaraq müasir elmi biliklərin Quran ayələri vasitəsilə araşdırılması və insanın öz həyatının mahiyyətini bu elm ilə dərk edə bilməsidir. Allahın Peyğəmbərə nazil olan Qurani-Kərim vasitəsi ilə insanlara etdiyi əsas tövsiyəsi-elm öyrənməkdir. Elm öyrənmək haqqında bir çox ayələr nazil olmuş və Peyğəmbər tərəfindən çoxlu hədislər də söylənilmişdir.

Müasir dünyada elm çox geniş bir məna kəsb edir, elmlərin miqdarı o qədər artıb ki,onları sayıb qurtarmaq olmur.Lakin məna dərinliyinə getdikcə, onların bir-birinə yaxınlaşıb bir mərkəzə tərəf gəldiyini görürük. Odur ki, Peyğəmbər (s.ə.s.) belə buyurmuşdur: "Elm bir nöqtədir, cahillər isə onu çoxaldıblar."

Bilik imandan ibarətdir, çünki iman təsdiqdir, təsdiq isə elmin bilik adlanan bir qismidir.Allahın:-"Ancaq iman gətirib xeyir iş görənlər"Əsr-3-ayəsində deyildiyi kimi, bilik bütün xeyir işlərin müqəddiməsidir.

Müasir dövrdə bütün elmi tədqiqatların nəticələri dünyanın məşhur alimlərini bu qənaətə gətirib ki, həqiqətən, bütün təbii elmlər bir-biri ilə bağlıdır və dərinə getdikcə bu əlaqə daha da sıxlaşır.

Azərbaycanın görkəmli şairi olan Hüseyn Cavid dinimizin və Peyğəmbərimizin bizlərə nə demək istədiyini sadə bir dildə özünün"Peyğəmbər"adlı əsəri vasitəsi ilə çatdırmağa çalışmışdır.

Bu 4 pərdəli dram əsərində şair, Peyğəmbərə(s.ə.s.) nazil olan vəhy mələyini və bir çox obrazlarla Peyğəmbərin söhbətlərini, onun həyatında baş verən hadisələri çox gözəl surətdə əks etdirmişdir. Bu əsərdə Peyğəmbərin obraza verdiyi cavabından bir parçanı burada qeyd etmək istəyirik:

Bu qılınc. Bir də bu mənalı Kitab.
Bunlar kafi sizə...? Yox başqa xitab.
Açar ancaq bu kitab el gözünü,
Siləcəkdir bu qılınc zülm izini.
Haqq,vətən, sevgi, səadət,Cənnət.
Hey qılınc kölgəsindədir,əlbət.
O bilgi ilə fəqət, qiymət alır.
Bilgisiz bir qılınc gec-tez qırılır.
Kəsbi-irfan üçün erkək və qadın,
Çalışsın qəbrə qədər, hey çalışsın.
Əgər xilqətdə bəşər birsə, yenə,
Dost deyil, bilməyən əsla bilənə
Kişi irfan işığında parlar,
Şübhəsiz, bilgidə Allah gücü var.

Həmçinin, müasirlərimizdən olan görkəmli Xalq şairi Zəlimxan Yaqub eyniadlı "Peyğəmbər"poemasında Peyğəmbərin həyatında baş verən hadisələri çox gözəl surətdə əks etdirmişdir. Bu əsərdə də Peyğəmbərin insanlara, xüsusən də cavanlara elm öyrənmək haqqında müraciətini belə təqdim edir:

Ey dünyanın gələcəyi, gəncliyi,
Gələcəyə dinsiz getmə, dinli get.
İtib batma səssizliyin içində,
Sabahlara sədalı get, ünlü get.
Şübhələri qoyma yaxın özünə,
Qat imanı əqidənin gözünə,
Quran elmi bir tükənməz xəzinə,
O, xəzinədən sünbül götür, dənli get.
İslamı sağlam,təmiz görməyi bacar,
Onun uca şəninə çələng hörməyi bacar
Diqqət yetir bu uca, bu müqəddəs niyyətə,
Quran elmə çagırır,İslam mədəniyyətə.
Şirə çəksən İslamın canından,cövhərindən,
Biləcəksən bu dinin ən böyük məramını,
Özün yandıracaqsan arzuların şamını,
O şam işıq salacaq bütün qaranlıqlara.
Lap aydın görəcəksən Quranın işığında,
Onun böyük dünyaya böyük məhəbbətini.

Bu,yaxşılıq dinidir,olmaz yamanlıq dini,
Sevgi,mərhəmət,barış,əmin-amanlıq dini.
Bu dinin hörməti var bütün Peygəmbərlərə,
Hörmət ilə yad edir çəkilən əzabları.
Rəğbətlə xatırlayır səmavi kitabları,
Məhəbbətin dilində danışdırır dinləri.
Qədimlərdən qədimdir,əzəllərdən əzəldir,
Bir-birindən işıqlı, bir-birindən gözəldir,
Sevənin, sevilənin sayı min-min olsa da,
Allaha sevgi durur hər sevginin başında.
Mən bu dini sevirəm, dinimin adı sevgi,
Səsimin, nəfəsimin,ünümün adı sevgi.
Canın,nəfəsin,ünümün adı sevgi,
Canın,nəfəsin qədər,eşqin, həvəsin qədər.
Duadakı pıçıltın,gurlayan səsin qədər.
Sən tapın,sən də sev,İslamdakı gövhəri.
Qurandakı incini. Nə dağa düş, nə daşa,
Onda tap ümidini.Onda tap sevincini.
Sən orda sonsuz uçuş,sınmaz qanad görərsən.
Allaha,Peygəmbərə, insana, insanlığa.
Sevgisi sonsuz olan qaynar həyat görərsən.

Dini hekayə: - Ölkələrin birində belə bir mənalı məsəl var idi:-Hindistanda bir ağac var, o ağacın meyvəsindən yeyən nə qocalar, nə də ölər-deyərdilər. Ölkənin padşahı bu sözü bir etibarlı dostundan eşidir. Deyilənlərin həqiqət olduğunu zənn edərək, dəyərli adamlarından birini Hindistana göndərir ki, ağacın və meyvəsini tapıb onun üçün gətirsin.

Padşahın adamı Hindistanı və onun ətrafını o ağacı tapmaq üçün illərlə axtarır. Gəzmədiyi şəhər, çıxmadığı dağ, görmədiyi yer qalmır və hər kəsdən bu ağac haqqında soruşur. Axırda ona deyirlər ki:-Bu ağacı axtaran dəlidir.Yaxud da:-Sən bu dünyada dərdlərindən qurtarıb muradına çatan, saf kişilərdənsən. Sənin kimi təmizürəkli və ağıllı birinin belə bir araşdırma aparması təsadüfi deyildir,-deyə rişxənd edirlər. Lakin bütün bunlara baxmayaraq, padşahın adamı var-gücü ilə səy edərək ağacı axtarırdı. Axırda bir gün axtarmaqdan yorulub bezir və tapşırığı yerinə yetirə bilməməyinin sıxıntısı ilə geri, padşahın yanına qayıtmaq üçün yola düşür. Yolda qonaq qaldığı yerin yaxınlığında bir Allah dostunun olduğunu öyrənir. Allah rizası üçün onu ziyarət etməyi qərara alır ki,onun xeyir-duasını alsın. Gözüyaşlı bir vəziyyətdə Allah dostunun

yanına gedib:-Möhtərəm Şeyx!Mən sizin mərhəmət və acımanıza möhtacam. Ümidsizəm, mənə lütf ediniz,-deyə ona müraciət edir.

Şeyx:-Açıq danış,sənin dərdin nədir?-deyə sual edir.

Padşahın adamı meyvəsini yeyənin ölməyəcəyi ağac və başına gələnlər haqqında ona danışır. Adamı axıra kimi sükutla dinləyən şeyx gülümsəyərək deyir:

-Ey könlü təmiz, saf kişi!Sənin səhvin, həqiqətən də, beləbir ağacın olmasına inanmağındır.Bu ağacdan məqsəd alim bir kimsənin sahib olduğu bilikdir, elmdir.Bilgi ağacı çox böyük, yüksək və genişdir. Allahın hər tərəfi bürüyən dənizindən meydana gəlmiş bir abi-həyatdır.

Açıqlaması:-Peyğəmbər(s.ə.s.) buyurur ki:-Cənnət ağaclarından bir ağaca rast gəldiyiniz zaman onun kölgəsində oturun, meyvəsindən də yeyin.Səhabələrindən biri soruşur:-Ya Rəsulallah! Cənnət ağacına biz həyatda və dünyada ikən necə rast gələ bilərik? Peyğəmbər(s.ə.s):"Bir alimlə rastlaşdığınız zaman Cənnət ağaclarından olan bir ağacla rastlaşmış olursunuz,"-deyə buyurur. **(Mövlana Cəzalı "Altın Öğüdlər"-tərcümə Hüseyn Okur.)**

Hədis:Peyğəmbər(s.ə.s.)buyurur:-Elm öyrənin. Çünki onu öyrənmək həsənə, təsdiq etmək təsbih, mübahisə etmət cihad, bilməyənə öyrətmək sədəqə və Allah dərgahına yaxınlaşmaq üçün vasitədir. Çünki elm halal və haramı bilməyə səbəbdir. Elm onu əxz edəni behiştə tərəf çəkər. Elm vəhşətdə munis, tənhalıqda dost, şadlıq və çətinlikdə dəlil, yol göstərən, düşmənlərə qarşı silah və dostlar üçün zinətdir. Elm qəlblərin oyanmasına, gözlərin korluqdan nur tapmasına və bədənlərin zəiflikdən qüvvət tapmasına səbəb olar. Allah alimləri ən yaxşı mənzillərdə qərar verər,onlara dünya və axirətdə yaxşı insanların məclislərini bəxş edər. Məhz elmin vasitəsilə Allaha ibadət və itaət olunur.Allahın yeganəliyi, onun halal-haramı məhz elmin vasitəsi ilə tanınır.Elm əməlin rəhbəridir, əməl də ona tabedir. Allah elmi xoşbəxtlərə ilham verib, bədbəxtləri isə ondan məhrum edib**.(Üsulu-Kafi)**

Hədis-İmam Cəfər ibn Muhəmməd Sadiq buyurmuşdur:-Əgər mömin gənc Quran oxuyarsa, o zaman Quranı ətinə və qanına çəkər, Böyük Allah onu xeyirxah və sadiq mələklərlə birlikdə yerləşdirər. Əlavə olaraq Quran onun üçün sədd (onunla Cəhənnəm arasında) rolunu oynayar**. (Savabul Əməl,s.226)**

Hədis:-Peyğəmbərimiz buyurur:-Allahın sevdiyi birinci şey bilikdir və O demişdir: -Mən gizli bir xəzinə idim və istədim ki, məni tanısınlar, öyrənib bilsinlər, buna görə məxluqatı yaratdım. **(Üsulu-kafi 1-c)**

Hədis: İmam Cəfəri Sadiq iki şey vacibdir:1.Elm öyrənmək. 2.Kəsb

etmək (dərk etmək).Elm öyrətməklə dini izah etmək və dünyanı islah etməkdir. Deməli, hər kim elm öyrənsə, amma kəsb-ticarət etməsə (öyrətməsə), Qiyamət günündə yoxsul-müflis halda qalar**.(Zubdətul əhadis)**

Hər kim öyrənməyi bilməyirsə ar,
Sudan dürr,daşdan da gövhər çıxarar.
Ancaq öyrənməyi ar bilən insan,
Məhrumdur dünyada bilik almaqdan. (N.Gəncəvi)

SALAVAT-SALAMI PEYĞƏMBƏRƏ ALLAH BƏXŞ ETMİŞDİR

əl-İnşirah-1-8-Ya Muhəmməd! Məgər biz sənin qəlbini açmadıqmı? Qəlbinə Peyğəmbərlik elmi ilə genişlik verməmdikmi ki,sənə yetişən əziyyətə səbir edəsən? Sənin ağır yükünü yüngül etdik ki, sənin belinə ağırlıq etmişdi. Peyğəmbərlik yükü çox ağır yükdür, onu hər bir insan götürə bilməz. Amma biz sənə öz tərəfimizdən qüvvət verdik ki, öz işini yerinə yetirə biləsən.Yaxud kafirlərdən çəkdiyin qəm və müsibətlər sənə böyük yük olmuşdu. Biz sənin zikr olunmağını uca etdik. Bizim tərəfimizdən yetişən təsəlli ilə sən o yükü öz arxanda götürdün. Harada Mənim adım zikr olunsa-salavatda, tövhid kəlmələrin də, azanda və xütbələrdə, ya Muhəmməd, sənin adın da Mənim adımla birlikdə zikr olunar. Həqiqətən, çətinlikdən sonra asanlıq var. Risaləti təbliğ etdikdən sonra ibadət etmək üçün zəhmət çək və ancaq Allaha bel bağla!(**Kitabul-Bəyan fi təfsiril-Quran.)**

əl-Əhzab-56-Həqiqətən,Allah və Onun mələkləri Peyğəmbərə Salavat göndərirlər. (xeyir-dua verirlər)Ey iman edənlər! Siz də ona-Peyğəmbərə Salavat-Salam göndərib,layiqincə salamlayın! Siz də ona salavat gətirin (Allahummə Salli əla Muhəmmədin və ali Muhəmməd, Əssalamu əleykə əyyuhənnəbiyyu və rəhmətullahu və bərakətuh!)-deyin.

PEYĞƏMBƏRƏ SALAVAT GÖNDƏRİN

Salavat-Allahdan rəhmət, mələklərdən istiğfar, möminlərdən dua mənasına gəlir. Salavat-Allahdan rəhmət,yəni Allah Muhəmməd Peyğəmbəri Öz rəhmətinə daxil edıb və mələklərin yanında onun uca ismini şan və şərəfli edib.Mələklər də Hz.Peyğəmbər haqqında dua-is-

tiğfar edərək Peyğəmbərimizə məhəbbət və hörmətlərini izhar edərlər. Möminlər də Peyğəmbərə Salavat-Salam gətirib,dua etməklə ona öz bağlılıqlarını can-könüldən bildirib, bununla da Uca Allahın şəfaətinə çatmaq arzusunda olarlar.

Açıqlama: Salavatların ən fəzilətlisi, təhiyyətlərin ən mükəmməli, təslimiyyətlərin ən gözəli, kainatın ağası olan Allahın, yaratdıqlarının ən şərəflisi, varlıqların xülasəsi olan Muhəmməd Peyğəmbərdir. Salavat-Salam Həzrəti Muhəmmədin ən böyük isminə və əqldən əvvəl yaranan ən mükəmməl ruhuna olsun. Allah onu:"Sən olmasaydın, fələkləri yaratmazdım" xitabı ilə ucaltmışdır. O, Quran vasitəsilə xalqı cəhalət qaranlıqlarından hidayət nurlarına çıxarmışdır. Onlara öz nəfslərini tanıtdıraraq, Haqq elmini öyrətmiş və bununla da onlara hidayət yolunu göstərmişdir. Salavat-Salam onun Əhli-Beytinə olsun ki,onlar sözlərində, işlərində, imanlarında, elm, səbir və əxlaqlarında Peyğmbərə (babalarına) uyaraq, könüllərində iman nuru və irfan rahatlığı ilə onun bütün göstəriş və vəsiyyətlərini yerinə yetirmişlər**. (Mövlana Furatı "Qırx sual")**

Peyğəmbər(s.ə.s.)in öz dilindən söylənən-salavat gətirmənin savab və fəziləti,fayda və savablarını bildirən hədislər vardır:

Hədis:-Qiyamət günü mənə insanların ən yaxın olanları mənə ən çox salavat şərifi gətirənlər olacaqlar. **(Səhihi-Buhari,Muhtasari-Təcridi Sarih.)**

Hədis:-Kim ki mənə bir dəfə salavat gətirsə,Allah-taala o kimsəyə on dəfə salavat gətirər,(on dəfə rəhmət edər) on günahını bağışlayar, on dəfə dərəcəsini yüksəldər və on dəfə əməl dəftərinə savab yazar**. (Səhihi-Buhari, Muhtasari-Təcridi Sarih.)**

Hədis:-Kiminsə işi-gücü pozulub, çətin müşküllərə düşdüyü zaman mənim üçün çoxlu salavat oxusun. Bu salavatlar kədərləri, sıxıntıları,qəmginlik və müsibətləri uzaqlaşdırar. Ruziləri çoxaldar, işlərin, ehtiyacların düzəlməsinə səbəb olar.

Hədis:-Allahın bir qrup mələkləri vardır ki,ümmətimin mənim üzərimə gətirdiyi salavatları mənə çatdırarlar**. (Səhihi-Buhari, Muhtasari-Təcridi Sarih.)**

Salavatlar:-Allahummə salli əla Muhəmmədin və ənzilhul muq`adəl muqarrabə indəkə yəvməl qiyaməti.

Mənası:-Ey Allahım! Həbibin Muhəmmədə Salavat edib və Qiyamət günündə onu Sənə yaxın bir yerə,məqamı-Mahmuda yetişdir.

Salavat:-Allahummə Salli əla ruhi Muhəmmədin fil`ərvahi və salli əla cəsədi Muhəmmədin fil`əcsədi və salli əla qabri Muhəmmədin fil

quburi. Allahummə bəlliğ minni təhiyyətən və sələmən.

Mənası:-Ey Allahım! Ruhlar içində Sevgili Peyğəmbərimiz Hz. Muhəmmədin ruhuna,cəsədlər içində Hz. Muhəmmədin cəsədinə, qəbirlər içində Hz.Muhəmmədin qəbrinə Salavat-salam eylə. Allahım, mənim salamımı sevgili Peyğəmbərimiz Hz.Muhəmmədin əziz ruhuna çatdır.

Salavat:-Allahummə salli alə səyyidinə Muhəmmədin tibbil qulubi və dəvaihə və afiyətil əbədəni və şifaihə və nuril əbsari və ziyaihə və əla alihi və sallim.

Mənası:-Ey Allahım! Qəlblərin təbibi və dəvası,gözlərin nuru və ziyası olan Muhəmmədə və ailəsinə Salavat Salam eylə.

Salavat:-Allahummə salli əla Muhəmmədin və ali Muhəmmədin kəmə salleytə əla İbrahimə və əla ali İbrahimə innəkə həmidun məcudun.

Mənası:-Ey Allahım!Muhəmmədə və ailəsinə salavat et,İbrahim və ailəsinə salavat etdiyin kimi. Şübhə yox ki, Sən həmidsən, məcidsən, şan və şərəf sahibi yalnız Sənsən. **(Səhihi-Buhari,Muhtasari-Təcridi Sarih.)**

Hədis:-Peyğəmbərimiz buyurur:Uca Allah bir mələk yaradaraq, qəbrimin başında qoymuş və onu Qiyamətədək bütün varlıqların gətirdikləri Salavat-Salamları mənə çatdırmaqla vəzifələndirmişdir. Ümmətimdən biri mənə salavat gətirdiyində, mələk həmin adamın sahibinin və atasının adını mənə belə çatdırar:

-Ey Muhəmməd!Filan oğlu fılankəs sənə Salavat gətirdi.

Yanında olan gözəl ruhlar ondan soruşarlar:-Ey Allahın elçisi! Allah və Onun mələkləri Peyğəmbərə Salavat-salam göndərirlər,-bu kəlmənin gerçək mənası nədir? Peyğəmbərimiz buyurur:-Bu xüsusiyyət Allahın gizli bilgisinə məxsus olan bir mövzudur. Əgər soruşmasaydınız, deməyəcəkdim. Bu işin əsli budur ki, Uca Allah sırf mənim üçün iki mələk vəzifələndirmişdir.Yanında adım anılanda mənə **Salavat-**Salam gətirən möminə bu iki mələk Allahdan məğfirət diləyərlər,digər mələklər də amin deyərlər. **(”Üsuli kafi”Əllamə Kuleyn.)**

Hədis:-Peyğəmbərimiz buyurur:-Bir gün Hz.Cəbrail gələrək mənə belə vəhy etdi:-Ey Muhəmməd! Sənə Salavat-Salam gətirən hər mömin üçün tam yetmiş min mələk Allahdan rəhmət dilərlər və o, şübhəsiz ki,hidayət yolunu tapmışlardan olar.

Hədis:-Sevgili Peyğəmbərimiz (s.ə.s.) buyurur ki,Merac gecəsi Ərşdə dolaşarkən bir bulaq gördüm.Suyu baldan daha dadlı,buzdan daha soyuq, müşk qoxusundan daha nəfis idi.Məni gəzdirən Cəbrailə ”Bu bulaq görən kimlər üçün hazırlanmışdır? - deyə soruşdum.O da:-

Rəcəb ayında sənə Salavat-Salam gətirənlər üçün,-deyə cavab verdi. **(Səhihi-Buhari,Muhtasari-Təcridi Sarih.)**

Hədis:-İmam Cəfəri Sadiqdən:-Peyğəmbər(s.ə.s.) buyurmuşdur: -Mənə və Əhli-Beytimə Salavat-Salam gətirilməyən bir toplantıda və ya məclisdə oturan camaat, gözəl əməllərlərinə baxmayaraq, Cənnətə girə bilməz**.("Üsuli kafi"Əllamə Kuleyn.)**

PEYĞƏMBƏR HZ.MUHƏMMƏDİN HƏYATI HAQQINDA

Açıqlama:-Miladi tarixi ilə 570-ci ildə,Fil ilində,sonralar böyük adı ilə dünyanı fəth edən uşaq Məkkə şəhərində dünyaya göz açdı.Bu uşaq Haşım oğlu, Əbdülmütəllib oğlu, Abdullah oğlu Muhəmməd idi. Muhəmməd Hz.İsmailin qırxıcı nəslindən dünyaya gəlmiş, 12 oğlundan biri olan Kardar, Adnanın nəslindən idi. Peyğəmbərin anası Bəni Zührə qəbiləsindən Vəhbin qızı Aminə idi.Zührə Bəni Haşım oğullarının ataları olan Kilab oğlu Kusayyın qardaşı olduğuna görə Hz. Abdullahı ilə Hz.Aminənin soyu Mürrə oğlu Kilabda birləşir. Yəni, Peyğəmbərimiz həm ata, həm də ana tərəfdən Hz.İsmailin övladlarındandır.

Aminənin evlilik həyatı çox keşməkeşli olmuş, əri Abdullah müsafirətə getmiş və Mədinə şəhərində vəfat etmişdir. Bundan sonra hamilə olan Aminənin çətin günləri başlamışdır. Bütün çətinliklərə baxmayaraq, Aminə 570-ci ilin Rəbbiyül-əvvəl ayının 17-si, cümə gününün sübh vaxtında övladını dünyaya gətirmişdi.

Görünüşü:-Hz. Əli Hz.Muhəmmədin simasını belə təsvir edirdi:-Peyğəmbər ortaboylu,saçları nə düz,nə də qıvrım idi. Saqqalı sıx,üzü ağ və gözəl idi.Boynu uzun, gümüş kimi pak və parlaq idi.Gözləri böyük, göz bəbəkləri qapqara, gözlərinin ağı isə dümağ idi. Qaşlarının ucları incə, araları çox yaxın, lakin çatma deyildi. İki qaşının arasında bir damar var idi ki,arada qabararaq görünərdi.Burnunun ücü incəydi və burnunda bir parlaqlıq var idi. Yanaqları düz, yumru deyildi, ağzı təbii böyüklükdə, dişləri inci dənələri kimi idi. O yeriyərkən ayaqlarını sürüməz, addımlarını uzun və canlı atar, sanki yüksəkdən aşağı enən kimi qabağa əyilərdi. Dönmək istədiyi yerə bütün vücudu ilə dönərək baxardı. İki kürəyinin arası enli idi. Kürəklərinin arasında Peyğəmbərlik işarəsi var idi. Danışanda yavaş-yavaş danışardı.

Hz.Həsəndən babasının necə danışdığını soruşanda belə cavab vermişdi: "Hz.Peyğəmbər daima düşünən bir insan olaraq görünərdi. Çox vaxt səssiz durar,heç bir zaman gərəksiz yerə danışmazdı.Hər cümləni

ayrı və aydın olaraq söyləyərdi.Əli ilə işarə edərkən bütün əlini qaldırar, bir şeyə heyrət etdiyində ovucunun içini çevirərdi, çox az gülər, gülən zaman təbəssüm edərdi və gözlərini aşağı dikərdi. Peyğəmbəri ilk dəfə görən onun görünüş və heybətindən sarsılardı, lakin onu yaxından tanıyandan sonra ona sevgi və hörmətlə bağlanardı. Onu təsvir etmək istəyən kəs belə deyərdi:-Mən nə ondan əvvəl, nə də sonra onun bir bənzərini görmədim."

Peyğəmbərin dünyaya gəldiyi zaman təbiətdə baş verən hadisələr və uşaqlığı:-Bu zaman yer-göy hərəkətdən durdu, Kəsra sarayı yıxıldı, fars Xosrov Ənuşirəvanın 1000 il yanıq qalmış atəş-kədəsi söndü, Səba gölü qurudu, Kəbə evində olan bütlər üzü-üstə düşdü, zülm və şirkin məhkum olunmasından xəbər verildi.Azadlıq gülümsədi, ədalət mələyi sevindi. Allahın mələkləri Allaha tapınaraq, yeri qucaqladılar. Sanki Məkkə ulduzlardan ibarət çiçək yağışına bürünmüşdü.Çünki sonuncu, bütün dünya aləmi üçün göndərilən Allahın Peyğəmbəri Muhəmməd dünyaya gəlmişdi.

Aminə uşağı təbiətin qoynunda böyüdəcək bir dayə axtarırdı. Çünki o dövrdə bütün zadəganlar uşaqlarını şəhərdən kənarda böyüdərdilər. O zaman köçəri yaşayan"Bəni-Əsəd"tayfası Məkkədə idi və Məkkə zadəganları bu tayfanın qadınlarından öz yenicə doğulmuş körpələri üçün dayə seçirdilər. Aminənin qaynı Əbutalib, Həlimə adlı bir qadını öz qardaşı oğlu üçün dayə seçdi.

Muhəmmədi Həliməyə tapşırdılar. Deyilənlərə görə, balaca Muhəmməd həyatının ilk beş ilini çöldə, Bəni-Əsəd tayfasınd keçirmişdir. Sonra Muhəmməd cöldən şəhərə qayıtdı, lakin o başqa uşaqlar kimi deyildi, onun uşaqcasına simasının arxasında gizli, böyük və əzəmətli bir ruh dururdu.

Anası Aminə rəhmətə gedəndə onun 6 yaşı var idi və o, babası Əbdülmütəllibin yanında iki il yaşadıqdan sonra babası da 80 yaşında vəfat edir. Bundan sonra 9 yaşlı Muhəmmədi əmisi Əbutalib qəyyumluğa götürür.O,Məkkədə öz davranışları,düzgünlük və paklığı ilə xalq arasında"Əmin"ləqəbi ilə tanınırdı. O, əmisi Əbutaliblə birlikdə ticarət karvanları vasitəsi ilə ticarətlə məşğul olurdu.

O zamanlar Xuveyləd qızı Xədicə xanımın ticarət karvanları var idi. Xədicə xanım Məkkədə çox hörmətli, şərafətli və çox dövlətli xanımlardan biri idi. Onun həyat yoldaşı rəhmətə getmişdi və o, öz karvanlarına başçılıq etmək üçün Muhəmmədə müraciət edir.

Məkkənin dövlətli adamlarından olan Əbu Süfyan və Əbu Cəhl Xədicə xanıma elçi düşmüşdülər, lakin Xədicə xanım onları rədd etmiş-

di. Xədicə xanım bir müddət sonra Muhəmmədin saflığını və düzgünlüyünü görərək özü onunla evlənmək üçün dostu Nəfisənin vasitəsi ilə ona evlənmək təklifini edir.25 yaşında olan Muhəmməd (s.ə.s) bu təklifi qəbul edir və 595-ci ildə Qüreyş tayfasının ağsaqqalı, əmisi Əbutalib onların kəbinini kəsir. Onların toyunda Qüreyş qəbiləsinin bütün adlı-sanlı adamları iştirak etmişdilər. Bu toyda Peyğəmbərin dayəsi Həlimə də iştirak etmiş və ona 40 qoyun bağışlamışdı.Onlar birlikdə yeni həyata başlayırlar və onların arasında çox böyük məhəbbət və hörmət əlaqələri yaşanırdı.

Bu nikahdan iki oğlu: Qasım və Abdulla (kiçik yaşlarında ikən vəfat etmişdilər)və dörd qızı: Zeynəb, Ruqiyyə, Ümmigülsüm və Fatimə dünyaya gəlmişdi.

Bütün bunlara baxmayaraq, Hz.Muhəmmədin qəlbində bir narahatlıq və tələtüm yaşanırdı. O, qeyri-adi hallar keçirir və suallar içərisində çırpınırdı.Həmin dövrdə Məkkə əhalisi Kəbə evini bütlərlə dolduraraq, hərə bir bütə sitayiş edirdi. Məkkə cahillik və xurafat içində çabalayırdı. Özünə təsəlli vermək üçün tez-tez Məkkə yaxınlığında yerləşən, Hira dağındakı Nur mağarasına qalxır və orada saatlarla səssiz qalıb, sanki cismi yerdə, ruhu isə yaradılışın həqiqətləri ilə qarşılaşırdı. Elə həmin aləmdə Muhəmməd hər şeyin, kainatın sirlərini görür, Peyğəmbərlik dərsi alır, insanların qurtuluş yolunu öyrənirdi. Hələ 20 yaşlarında olanda gözünə mələklər görsənərdi. 35 yamına çatdıqda isə qulağına "Ey Muhəmməd!-deyə səslər gələrdi. O, gecələr yuxularında tanımadığı kimsələrlə görüşürdü, gündüzlər isə heş görmədiyi insanlarla rastlaşardı.

Artıq 40 yaşına çatmış Muhəmmədin beyni yaradılışın təkərini bütlərin dolandırdığını qəbul etmirdi. Onun beyni artıq kamilləşmiş və o təbiətin səsini duya bilir, onun həqiqətlərini görə bilirdi.

Ramazan ayının gecələrindən birində Muhəmməd özündə bir sevinc, bir aydınlıq hiss edir və qarşısında yeni üfüqlər görünürdü. O, mağaranın içinə girdi, hər yer qaranlıq idi, şeytanların ruhları hərəsi bir tərəfdə gizlənib tir-tir titrəyirdilər, sanki ilahi rəhmət mələyi Cəbrailin yaxınlaşmasını duymuşdular. O, özündə ruhunu fəth edəcək bir həyəcan, qorxu hiss edir və oradan qaçmaq istəyirdi. Sanki ayaqlarından güc və qüvvət alınmış və o, hərəkət edə bilmirdi. O, təəccüblü halda gözünü parlaq bir işığa dikib titrəyirdi. Hər şeyi, özünü belə unutmuşdu. İşıq üfüqü bürüyüb yuxarı qalxdı, sərildi, bütün səmanı qanadları altına aldı.

Kainatı işıq bürümüşdü, Muhəmməd işıq dənizinin ortasında durmuşdu. İşıqdan bir səs gəldi: - Oxu! Muhəmməd qorxdu, dəhşətə gəldi, təəccüblə cavab verdi:"Oxuya bilmirəm."-İşıq:"Oxu!" Muhəmməd

yenə də:

- “Oxuya bilmirəm, dərs almamışam, məktəbə getməmişəm,”-deyə cavab verdi.

İşıq yaxınlaşdı, Muhəmmədə çatıb, ona sarıldı. O işığı hiss etdi, ipək kimi yumşaq, hava kimi incə idi. İşıq Muhəmmədi sıxdı və:

- “Artıq oxu” - dedi. Muhəmməd:-“Nə oxuyum?”-deyə soruşdu.

Cəbrail (ə.s.) ona Ələq surəsinin ilk ayəsini öyrətdi.

-“Yaradan Pərvərdigarın adı ilə oxu. O, insanı laxta qandan yaratdı. Oxu, sənin Pərvərdigarın ən böyük kərəm sahibidir.

O, Qələmə yazmağı öyrədəndir. İnsana bilmədiyini öyrətdi.

İlk müraciət səmadan yerə çatdı. Bununla da Muhəmməd (s.ə.s.) yüksək Peyğəmbərlik məqamına yetişdi.

Bu, bütləri sındıran, yaratmaq və bəsləmək qüvvəsinin sahibi Allahdan gələn ilk vəhy idi. Sonra o elm işığı ilə nadanlıq pərdəsini yırtdı və bu işıq səadət işığı idi. Bununla da o gecənin dastanı olan”Allah və elm”üsulu ilə Quran ayələri nazil olmağa başladı.

Muhəmməd (s.ə.s.) üç il dini gizli şəkildə təbliğ etmişdi və ona ilk iman gətirən həyat yoldaşı Xədicə xanım, ikinci isə əmisi oğlu Hz.Əli oldu. Üç ildən sonra isə Peyğəmbərimiz (s.ə.s.) açıq surətdə İslam dinini təbliğ etməyə başladı. Qüreyş kafirləri İslamı heç cür qəbul etmək istəmirdilər. Camaatın içində iman gətirmək istəyənlərə də əziyyət verib öldürürdülər. Çox çətin bir şəraitdə Hz.Peyğəmbər bütün çətinliklərə sinə gərərək öz təbliğatını davam etdirirdi.

İslamı ilk qəbul edən kişilər:-İlk kişi Peyğəmbərin əmisi oğlu Hz.Əli,sonra isə yaxın əshabələrı olan 3 əmisi: Həmzə, Cəfər, Abbas, sonra isə Əbu Bəkr, Zeyd ibn Haris, Ömər ibn Xəttab və sairləri olmuşlar.

Peyğəmbərin ən qatı düşməni əmisi Əbu Ləhəb, onun arvadı və arvadının qardaşı Əbu Süfyan idi. Əbu Süfyan və Peyğəmbərin düşmənləri ona əmisi Əbu Ləhəb vasitəsi ilə təsir etmək və onu bu yoldan uzaqlaşdırmaq istəyirdilər. Lakin ona qəyyumluq edən o biri əmisi Əbu Talib isə onu bütün düşmənlərdən qoruyaraq, müdafiə edirdi.

Düşmənləri:-Əbu Süfyan ibn Haris, Əbu Cəhl ibn Hişəm, Əbu Ləhəb, As ibn Valı və sairləri olmuşlar.

Hz.Muhəmmədin əshabı və İslamı qəbul etmək istəyənlər, təzyiqlərə məruz qalmışdılar.Onlara qida məhsulları satılmır və hər tərəfdən təzyiqlər göstərirdilər. Nəhayət, Peyğəmbər(s.ə.s.) bir çıxış yolu tapmaq məcburiyyətində qalır. O, əmisi Əbu Talib oğlu Cəfərin başçılığı ilə müsəlmanların bir qrupunu Həbəşə göndərir ki, Həbəşin hökmdarı ədalətli bir kişidir və o,sizi qoruyar. Sonradan qadın və uşaqlardan

ibarət başqa bir dəstə də Həbəşə mühacirət etdilər.Xristian olan Həbəşin hökmdarı Nəcaşinin himayəsi altında müsəlmanlar bir müddət orada qaldılar.

Peyğəmbər(s.ə.s.) isə bütün təzyiqlərə baxmayaraq Məkkədə qalıb, öz təbliğatı və mübarizəsini davam etdirərək İslam dinini yayırdı.

Peyğəmbərliyin səkkiz və onuncu illəri arasında onu kafirlərdən müəyyən dərəcə qoruyan əmisi Əbutalib vəfat edir. Sonra isə Peyğəmbərin həyat yoldaşı, həm maddi, həm də mənəvi cəhətdən ona arxa, dayaq olan Xədicəyi-Kubra dünyasını dəyişir. Bütün bu hadisələr və bir tərəfdən də Məkkə xalqının ona qarşı olan münasibəti Peyğəmbərə çox pis təsir edir.

Peyğəmbərin ən qatı düşmənləri və onu ən çox incidən Əbu Cəhl, əmisi Əbu Ləhəb, onun arvadı və arvadının qardaşı Əbu Süfyan idi. Onlar hər vasitə ilə Peyğəmbəri xalqın gözündən salmağa və xalqı ona qarşı qaldırmağa çalışırdılar.

Peyğəmbər(s.ə.s.) Məkkədən Taifə sarı yollanır ki, oranın camaatını İslama dəvət etsin. Oradakı Bəni-Səqif tayfası ona qarşı münasibət bildirməsələr də, Peyğəmbərimiz Quran ayələrini oxuduqdan sonra ona qulaq asmağa başladılar. Lakin Peyğəmbərin bütün səylərinə baxmayaraq, onlar İslamı qəbul etmək istəmədilər.

Allahın Peyğəmbəri peyğəmbərlik həyatının ən çətin və acı mərhələlərindən birini də Taifdə yaşadı.Sonra o,Məkkəyə qayıtdı, lakin burada yaşamaq artıq mümkün deyildi.Bütün bunlardan sonra Peyğəmbər qarşısındakı ən mühüm məsələ "hara getmək" məsələsi idi.Bir tərəfdən də Məkkə başçıları Peyğəmbərə qarşı plan hazırlayırdılar ki, onu öldürsünlər. Onlar bu məqsədlə 40 güclü cavandan bir dəstə hazırladılar ki, gecə vaxtı onu evində ikən,elə yatağında öldürsünlər və bu məqsədlə də Peyğəmbərin evini mühasirəyə aldılar.

Bu plandan vəhy yolu ilə Peyğəmbər xəbər tutdu və ona vəhy gəldi ki,artıq Məkkəni tərk edib Mədinəyə üz tutsun.Lakin düşmənin bu məsələdən xəbər tutmaması üçün bir nəfəri öz yatağında yatırtmalı idi. İndi bu fədakarlığı qəbul edən, Peyğəmbərin sağ qalması üçün öz vücudunu düşmənlərin sivri qılıncına hədəf etməyə könüllü razı olan adamın yalnız Əli olduğunu Peyğəmbər bilirdi. Əli də Peyğəmbərin yolunda öz canından keçməyə hazır olduğunu bildirərək onun yatağında uzanır və Peyğəmbər də Mədinəyə yola çıxır.

Peyğəmbər Əbu-Bəkr ilə yola çıxır, lakin onları düşmən dəstəsi izlədiyinə görə, bir-iki gün mağarada gizlənirlər. Sonra isə Mədinəyə tərəf hərəkət edirlər.

Mədinə əhli Peyğəmbəri çox gözəl qarşıladı və Peyğəmbər (s.ə.s.) burada tam azadlıq içərisində idi.Bunun nəticəsində o,öz təsiredici dərin təbliğatı ilə İslama qol-qanad verə bildi.

Məkkəlilər isə onun bu uğurlarından qorxub onunla müharibə etməyə hazırlaşırdılar.İlk müharibə hicrətin ikinci ilində"Bədr" müharibəsi adı ilə baş verdi.

Əshablarının məsləhəti ilə Hicrətin 2-ci ilində Ramazan ayında 313 kişilik bir qüvvə ilə Bədrə tərəf hərəkət edir.Hz.Peyğəmbər bu müharibədə qalib gəlir.

Hicrətin 3-cü ilində Ühud müharibəsi baş verdi. Peyğəmbər (s.ə.s.) bu savaşda xeyli əsgər itirdi, həmçinin Peyğəmbərin əmisi, sərkərdəsi olan Həmzə də bu döyüşdə şəhid oldu.

Hicrətin 5-ci ilində Əhzab müharibəsi baş verdi.Bu müharibələrin hamısında müsəlman əsgərlər iman gücü ilə müharibə meydanlarında qəhrəmanlıqlar göstərərək düşmənləri həlak etdilər. Hicrətin 6-cı ilində Hübeydiyyə müqaviləsi, Xeybərin fəthi, Xəndək davası, Məkkənin fəthi, Hüneyn savaşı və bir çox müharibələr baş verdi.Peyğəmbər(s.ə.s.) Qüreyş kafirləri və Məkkəli düşmənlərlə məsələləri hərtərəfli həll etmək üçün hicri 8-ci ildə Məkkəyə hərəkət etməyə məcbur oldu.

Bu, çox böyük bir gün idi.Peyğəmbər(s.ə.s.) təmtəraqlı şəkildə 8 ildən sonra Məkkəyə daxil olurdu. Zalımların başçısı Əbu-Süfyan bu möhtəşəm birliyi, İslam dininin əzəmətini görüb yalandan İslamı qəbul edərək Peyğəmbərlə sülh müqaviləsi bağlayır. Beləliklə Məkkə fəth olunur. Peyğəmbər(s.ə.s.) bir müddət orada qalır, sonra təzədən Mədinəyə qayıdır. Ərəbistan yarımadasının təxminən yarısı müsəlman olmuşdu.

Qızları Zeynəb, Əbul-As ibn. ər-Radi ilə evli idi. Ruqeyyə və Ummu Gülsüm Əbu Ləhəbin iki oğlu Uteybə və Utbə ilə evli idilər. Əbu Ləhəbin şəninə"Təbbət"surəsi nazil olduqdan sonra Əbu Ləhəb oğlanlarını onlardan ayrılmalarını əmr etdi. Ondan sonra Osman Ruqeyyə ilə evləndi və onunla Həbəşistana hicrət etdi. Orada Abdullah dünyaya gəldi.Ruqeyyə rəhmətə getdikdən sonra Gülsüm ilə evləndi.

Kiçik qızı Xanım Fatimə isə əmisi oğlu Hz. Əli ilə evləndi. Onların dörd övladları var idi: Həsən, Hüseyn Zeynəb və Gülsüm.

Hz.Peyğəmbər hicri 10-cu ilində Allahın evini ziyarət etmək və Həcc mərasimini yerinə yetirmək üçün yenə də Məkkəyə gəldi. Məkkədən qayıdarkən ilahi əmr üzrə"Cövhə"və ya Qədir-xum adlanan çöldə Əbi-Talib oğlu Əlini İmam,xəlifə olaraq müsəlman cəmiyyətlərinə tanıdır. Onu özündən sonra xəlifə təyin edir və Hacıların hamısı Əliyə beyət edirlər.

Hədis: Xanım Fatimə(ə)dən nəql olunur:Hz. Peyğəmbər gizlicə mənə dedi:Cəbrail hər il bir dəfə mənimlə birlikdə Quranı oxuyaraq,yoxlayardı. Bu il isə iki dəfə mənimlə birlikdə Quranı oxuyub, yoxladı.Mən belə başa düşürəm ki, bu mənim əcəlimin yaxınlaşmasına bir işarədir,"-deyə buyurdu.(**Buhari-Səhihi-h.1806,s.505**)

Peyğəmbərliyə seçilməsindən 23 il, şərafətli ömründən 63-il keçirdi. O, bu müddət ərzində böyük müvəffəqiyyətlər əldə etmişdi. Çürük və utandırıcı bir cəmiyyətin təməlini uçurmağa və onun xarabalıqlarının yerində pak və fəzilətli bir cəmiyyətin bünövrəsini atmağa müvəffəq olmuşdu. O, qaranlıqların içərisində bir işıqlı səhər yaratmağa nail olmuşdu. Bu səhərin işığı hələ də əsrlər keçməsinə baxmayaraq dünyanı işıqlandırmaqdadır.

Ey xoş ol kəslər Muhəmməd Mustafanı sevdilər,
Oldular aşiq Əliyyən Mürtəzanı sevdilər.
Sidqi ixlas ilə pənc ali-əbanı sevdilər,
Çardah məsum tək müşkül guşanı sevdilər,
Dəxi onlardan gözəl yaxşı cəmaət görmədim.

(M.P.Vaqif.1717-1797)

MERAC HADİSƏSİNİN HƏQİQƏTLƏRİ

Açıqlama:-Bəzi tədqiqatçıların nəzərincə, Peyğəmbər(s.ə.s.) Meraca iki dəfə cismani və ruhani,120 dəfə isə ruhani halda seyr etmişdir. Merac əhvalatında digər maraqlı cəhət zaman məsələsidir. Peyğəmbərin Merac səyahətinin çox qısa müddətdə olduğu yazılır.Belə ki,o qayıdanda öz yatağının hələ soyumadığını hiss etmişdir.

əl-Məaric-4- Mələklər və Cəbraildən ibarət olan ruh dünya ilə müqayisədə, müddəti əlli min il olan bir gündə Allaha tərəf qalxarlar.

Alman teorik fizik, yəhudi əsilli Albert Eynşteyn (1879-1955) 1921-ci ildə Fizikanın nisbi nəzəriyyəsi üzrə etdiyi kəşflərinə görə Nobel mükafatı almış və bu E=mc 2 formulu ilə maddə kütləsinin hərəkətinin işığın sürətinə görə dəyişdiyini kəşf etmişdir. Müasir elmi baxımdan bu məsələ "Xüsusi nisbilik" nəzəriyyəsində qəbul edilmişdir. Bu nəzəriyyəyə əsasən, təbiətdə mümkün olan ən böyük sürət işığın boşluqdakı sürətidir və bu sürət bir saniyədə 300 min km-ə bərabərdir.Həmçinin elm sübut edir ki, məkana və sürətə görə zaman məfhumu dəyişir.O vaxt elm bu səviyyədə olmadığına görə N.Gəncəvi öz əsərlərində bu sürəti "Xəyal sürətinə" bənzətmişdir.

Yeri gəlmişkən onu qeyd edək ki, müasir elmi biliklər Kainat miq-

yasında gedən prosesləri izah etmək üçün kifayət deyildir. Lakin İslam dinində olan insanlar Allaha, Qurana inandıqları kimi Merac hadisəsinə də tam yəqinliklə inanırlar.

Klassik şairlərimizdən olan N.Gəncəvi öz "Xəmsə"sinə daxil etdiyi əsərlərin hamısında Allaha münacat, həmd, sitayiş və Peyğəmbəri mədh etdikdən sonra, Quran ayələrinə istinad edərək Hz.Peyğəmbərin Merac hadisəsini də çox gözəl təsvir etmişdir. Bundan əlavə şair öz "Divan"ında Merac hadisəsinə ayrıca bir qəsidə həsr etmişdir.

N.Gəncəvinin Quran ayələrinin və bütünlükdə İslam elminin dərinliklərini, irfan, fəlsəfə, kainat,təbiət elmlərini bilməsi onun bütün əsərlərində özünü əks etdirir. Onun əsərlərində təsvir etdiyi Merac hadisəsi Quranda buyurulan ayələrlə, Peyğəmbər(s.ə.s.) və Əhli-beyti tərəfindən söylənən hədislərlə və din alimlərinin söylədikləri ilə üst-üstə düşərək, çox uyğun gəlir. Merac hadisəsini müəyyən dərəcədə göz önündə canlandırmaq üçün onun əsərlərindən parçalardan istifadə edəcəyik:

Merac gecəsi ruhun səmaya çıxışının, rəhmətin, açılmayan məkanların açılışının gecəsidir. Bu gecə namaz gecəsidir. Bu gecə uca məqamlara çatmaq, gecəni sükut edib, qulaqların bağlandığı, rəhmət Peyğəmbərinin saç-saqqalını rüzgarın oxşadığı gecədir.Bu gecə bütün kainatın iman və Tövhidlə büründüyi və Rəsulullahın Cəbrail ilə bərabər bütün kainatı seyr etdiyi gecədir. Bu gecə Yasinin,Tahanın və sevənlərin gecəsidir. Bu gecə alnı səcdədə olanların, tövbə edənlərin gecəsidir. Bu gecə məxfirət və rəhmət gecəsidir. Bu gecə Allaha sığınma, Allahdan başqa Allah yoxdur deyilən, qəlbimizlə, niyyətimizlə, ibadətimizlə ona şəhadət gətirən gecədir.

Ey varlığı ən təmiz ruhlardan daha təmiz!
Ruhuna canım fəda! Ulu peyğəmbərimiz!
Sənsən rəhmət yurdunun tən ortası, mərkəzi,
Qələminlə silindi hər zəhmətin nöqtəsi.
Sən Əcəm şahlarının həmişəlik şahısan,
Ərəb yolçularının Ayısan, pənahısan.
Sənin təxtü-tacını daşıyır cahan, bəşər,
Təxtin -bu Yer kürəsi, tacın - səma könüllər.
Kölgən yoxdur, çünki sən böyük əql işığısan,
Yaxud Tanrı nurunun sayəsindən bir nişan.
Dörd bayrağın – təkbirin müsəlmanlıq mehvəri,
Beş duan - beş namazın sultanlıq növbətləri.

Merac gecəsində sən - aləmə dost, aşina,
Ayaqların toxundu fələklərin başına.
Sən gəldin, göy ətəyi doldu daş-qaşla, zərlə,
Göy çevrəsi süsləndi altunla, al rənglərlə.
Sübhün sədəfindəki, ah, bu hansı ətirdi?
Səba müşk ətri verən nəfəsini gətirdi.
Nəfəsinin saçdığı o ətri, ənbəri sən,
İki dünyaya versən, necə ucuz verərsən!
Qocaman Sidr ağacı - təxtinin bir ayağı,
Ərş sənin qəsrindəki kürsüdən də aşağı.
Ruhunun pəncərəsi - açıq, aydın bir səhər,
O günəşin yanında ərş zərrəyə bənzər.
Əzəl sübhü hüsnünü əks eləyən bir ayna...
Onsuz yayılardımı sənin nurun dünyaya?
Bu ağ, qara dünyanın soltanları - Ayla Gün,
Peykin olub yolunda, xəbərçidir sənincün.
Ağıl şəfa arayır - onun Loğmanı sənsən,
Ay yol tədarükündə - canı, cananı sənsən.
Qalx, vüsal umanların gecəsini gündüz et,
Nizaminin təbini işıqlandır, ulduz et. (”Sirlər xəzinəsi”)

MERAC HAQQINDA

Açıqlama:-Besətdən,yəni Peyğəmbərlik verildikdən 10 il sonra, Peyğəmbər (s.ə.s.) üçün çətin olan bir vaxtda,”hüzn ili” adlanan bir dövrdə Həzrəti Rəsul Ramazan ayının gecələrinin birində Allahın əmri ilə göylərə Merac etmişdir. Bu il“Hüzn ili”ona görə adlanırdı ki, o dövrdə Məkkə xalqı içində Peyğəmbərimizə dayaq olan əmisi Əbu Talib və istəkli xanımı, onu çox sevən,ona İslamı yaymaqda həm maddi və həm də mənəvi dayaq olan Xədicəyi-Kubra vəfat etmişdi. Həm də o dövrdə Məkkə əhlinin Peyğəmbərə qarşı münasibətləri çox gərgin bir vəziyyətdə idi.

Belə bir vaxtda Allahın əmri ilə Hz.Cəbrail Buraq adlı at (ata-bənzər, əcaib bir məxluq) ilə Peyğəmbərimizi öz yatağından götürüb, əvvəl Məscidil-Hərama, sonra Məscidil-Əqsaya, sonra da asimana aparır. Deməli, Məkkədən Fələstinə uçaraq, müqəddəs yer olan Məscidil-Əqsada (Beytul-müqəddəsdə) namaz qılır.

Bu haqda Quranda belə buyurulur:

əl-İsra-1-Gecə vaxtı öz bəndəsini, elçisi Muhəmmədi, Məscidil-Həramdan uzaq məscidə qədər Beytül-Müqəddəsə (Fələstinə) qədər seyr etdirən Allah bütün eyiblərdən pak-pakizədir! Elə bir məsciddir ki, biz onun ətrafını mübarək etdik. Biz bunu öz əlamətlərimizi göstərmək üçün etdik. Həqiqətən, Allah eşidən və görəndir.

İsra-sözü-gecə yerimək, gecə yol getmək, Merac-sözü isə yüksəyə çıxış arası deməkdir.

Bu hadisə haqqında surədə belə buyurulur:

-"əl-Nəcm-1-18-Yuxarıdan aşağıya enən ulduzlara and olsun! Sizin müsahibiniz Muhəmməd nə haqq yoldan azmış, nə də xəta etmişdi. O, öz istədiyini danışmaz, danışdığı da yalnız Allah sözüdür. Ona Peyğəmbərliyi qüvvəsi çox olan Cəbrail təlim etdi. Peyğəmbərdən başqa heç kəs Cəbrailin əsil üzünü görməmişdi. O halda ki, o, dünyada uca olan yerdə, göy tərəfində idi. Sonra o, Peyğəmbərə yaxınlaşdı, onların arasındakı məsafə iki yay qədər, ya ondan da az oldu. Sonra Allah öz bəndəsinə vəhyi buyurdu. Onun qəlbi öz gözü ilə gördüyünü yalan saymadı. Məgər gözü ilə gördüyünə şübhə edib və onunla mübahisə edərək, ona inanmırsınız? Şübhəsiz ki, Muhəmməd Cəbraili öz surətində başqa bir yerdə də gördü. Ərşin sağ tərəfində yerləşən Sidr ağacının yanında. Saleh kəslərin yeri olan behişt o ağacın yanındadır. O zaman mələklər Sidr ağacını bürümüşdülər. Bu haqda Hz. Peyğəmbər belə buyurur:-O ağacın hər yarpağında Allahı təsdih edən birmələk gördüm. Peyğəmbərin gözü nə sağa, nə də sola yayındı və nə də uzağa getdi, o hər bir şeyi aydın görürdü. Göylərdə yerləşən məqamlar dan, mələklərdən və Peyğəmbərlərdən ibarət olan Allahın qüdrət işarələrini gördü."

Peyğəmbərimiz Hz.Cəbrail ilə birlikdə "Əla aləminə "səyahət edir, asimana, yeddi qat göylərə yüksəlirlər:

Onlar göyün birinci qatında Adəm(ə.s.) və onun övladları ilə görüşürlər.

Sonra ikinci qat səmada Hz.İsa,Məryəm ana,Hz.Yəhya, Hz.Zəkəriyyə ilə görüşürlər.

Üçüncü qatda Hz.Yusif və Hz.Yəqub ilə;

Dördüncü qatda Hz. İdris ilə;

Beşinci qatda Harun ibn İmran ilə;

Altıncı qatda Hz.Musa ilə görüşürlər.

Yeddinci qatda Hz.İbrahim ilə görüşürlər.Hz.İbrahim Peyğəmbərimizə belə buyurur:"Ümmətinə məndən salam söylə və onlara əmr et! Xəbər ver ki,Cənnətə fidan tikməyi çoxaltsınlar! Çünki Cənnət torpaqları

gözəl, suyu dadlı, özü də geniş və gözəldir.”

Peyğəmbər (s.ə.s.) soruşur ki, Cənnətdə tikiləcək fidan nədir? İbrahim(ə.s.) cavab verir ki:-Cənnətdə tikiləcək fidan ”Sübhənallah vəlhəmdulillaəh və lə iləhə illəllahu vallahu əkbər”-zikridir.

Mənası:”Allah hər nöqsandan pakdır,bütün təriflər ona məxsusdur, Allahdan başqa heç bir Allah yoxdur!Allah böyükdür! Bütün güc-qüvvət yalnız ona məxsusdur.”

Peyğəmbər(s.ə.s.) səmanın hər qatındakı Peyğəmbərlərlə görüşərkən, onların əhvalatlarını dinləmiş, keçmiş-gələcək haqqında onlarla söhbətlər etmiş və birlikdə Allaha həmd-səna edərək namaz qılmışlar. Onların hamısının Merac məsələsi haqqında xəbərləri var idi və hamı bunu gözləyirdi.Peyğəmbər(s.ə.s.) hər qatdakı bütün varlıqlar və mələklərlə də görüşərək,onlarla salamlaşmış və bu qeyri-adi gözəlliklərə heyran qalmışdı. Sonra Cəbrail Peyğəmbəri yeddi qat göyün üzərində olan və Allahdan başqa heç kəsin bilmədiyi məqamlara yüksəltdi.Onlar-Sidratil-Muntəhəya qədər yüksəldilər. Hz.Cəbrail Peyğəmbərimizi daha yuxarılara qaldıraraq, nəhayət, qəza-qədəri yazan qələmlərin cızıltılarını eşidəcək qədər yüksək bir yerə çıxardı. Bundan sonra Hz.Cəbrail Peyğəmbərdən ayrılır. Çünki bundan da yuxarı qalxmağa Ona icazə verilməmişdi. Sonra Hz.Peyğəmbər üçün Cənnətdən yamyaşıl ipək döşək kimi Rəf-Rəf adlı at(ata bənzər mələk) gələrək,onu Tuba ağacından keçirib, Sidrə çatdırır.Bura kainatın sonudur, ona görə bu yerə Sidratil-Muntəhə deyilir.

Sidratil-Muntəhənin kökü altıncı qat göydə,gövdəsi yeddinci qat göyün üzərində, gövdəsi bütün göyləri və Cənnəti kölgələyən bir ağacdır. Onu Uca Allahın Calal və Əzəmət nuru bürüdükcə bürümüşdür. Rəngli yaqut, zümrüd və başqa gövhərlərlə bəzənmiş,o qədər gözəlləşdirilmişdir ki, Allahın yaratdıqlarından heç biri onun gözəlliyində ola bilməz.

Sidrətil-Muntəhə elə bir yerdir ki,bütün Peyğəmbərlərin və mələklərin işləri ona gedib dayanar.Varlıqların elmi onda nəhayət tapar,onun yuxarısında olanlar haqqında heç bir məlumat tapılmaz.Yer üzündən səmaya çıxan, onda nəhayət tapır. Alınacaq zaman da ondan alınır.

Bundan sonra Peyğəmbərimizi müşahidə edən mələk qalır və oradan o tərəfə getməyə ona(mələyə) izn yoxdur.Bundan sonra Hz.Peyğəmbər tək-tənha Ərşə tərəf yollanır. Burada Hz.Peyğəmbər ayaqları ilə yerimir, ayaqları zəhmət çəkmir, bu hərəkət təbii surətdə baş verir:

O, təxtdən yuxarı qalxdı, Rəf-rəf
Və Sidrə də öz yerində qaldı.

Yoldaşlarını yarı yolda qoydu.
Bixudluq dəryası yolunu tutdu.
Elə ki, ərşin ayağına qədər qalxdı,
Niyaz kəməndini özünə nərdivan eylədi.
Allahın sirri xətər qatında,
Nurani ərşdən başını kənara çıxartdı.
Elə ki, min nur pərdəsini yırtdı,
Gözləri pərdəsiz nura yetişdi.
Məkanı tapmasa da, laməkana yol tapar.
Tanrı sifətlərini inkar küfrdür saqın,
Cahil olma, nə yönü, nə yeri var Allahın.
Tanrı var,fəqət onun mənzili, məqamı yox,
Məkana möhtac olan Tanrı sayılarmı? Yox!
Həzrət Muhəmməd onu başqa ölçüylə gördü:
Ürək, idrak gözüylə, zəka gücüylə gördü.
Haqqın hazırladığı meydən içdi Peyğəmbər,
Bizim də qəlbimizə damızdırdı bir qədər.
Görünməyən Tanrını açıq gözüylə gördü.
Lakin onu görməyin məkanı, zamanı yox,
Zamandan və məkandan çünki çox ucadır, çox!
O idrakın gözündən gizlənə bilməz heç vaxt,
"Onu görə bilmərik!" deyənlər kordu ancaq.
Tapmadığını görmək bir səadətdir, bəli,
Mütləq görülməlidir O, mütləq görülməli!
O pərdəni görməyə məkan varmı? Məkan yox.
Yürüməyə, çatmağa zaman varmı? Zaman yox.
O pərdənin ardını görməyi bacaranlar.
("Sirlər xəzinəsi."N.Gəncəvi.)

Peyğəmbər(s.ə.s.) Nur pərdəsini keçərək Allahın divanxanasına, Əziz və Cabbar olan Rəbbinə yetişir və salam verir. Bütün səslər kəsilir...Uca Allahın, onun salamını alıb:

- "Qorxma ya Muhəmməd! Yaxınlaş!" - buyuruğunu eşidir. Sonra ona Qiyaməti, O gündə baş verənləri, Cəhənnəmi, onun qatlarında baş verənləri, həmçinin Cənnəti, onun qatlarında baş verənləri, ölümdən sonrakı Bərzax aləmini, orada baş verənləri göstərib, keçmiş və gələcək haqqındakı bir çox xəbərləri ona çatdırır.Axırda Allah ona:-"Nə hacətin varsa, istə Məndən,"-dedikdə, Peyğəmbərimiz bütün bu gördüklərindən sonra öz ümmətinin, bütün həqiqi müsəlmanların haqq-hesab günündə günahlarının bağışlanmasını istəyir.

O, Tanrının lütfünü nəfəsində sanırdı,
Tanrı çəkir nazını, o isə nazlanırdı.
Şəkər təbəssüm ilə süslənib dodaqları,
Dua etdi Tanrıya: - Bizə nicat ver barı!
Xəzinədən zəngindir onun hümməti qat-qat,
Qəlbindəki hər murad açdı o gün qol-qanad.

Peyğəmbərin Allahı görməsi əql və ürək gözü ilə idi, çünki Allah gözlə görüləsi bir varlıq deyildir.

Nizami ("Xosrov və Şirin") əsərində bu hadisəni belə təsvir edir:

Nəticəsi heyrət olan o görüşdə,
Onun ürəyi gözündə, gözü də ürəyində idi.
Başqa ("Sirlər xəzinəsi ")əsərində isə belə təsvir edir:
Bir gözlə onu gördü ki, xəyal da deyildi.
Mütləq bəyənilmiş olmasa da Allahı gördü.
Lakin Allah görülməli şey deyil
Elə düşünülməməlidir ki, gözlə görünüb
Axı kor da "gördüm" deyir.

İmam Hüseyn"Ərəfə"duasında bunu belə təsfir edir:-"Meracda Peyğəmbərin Allahı görməsi hiss gözü ilə deyil, qəlb gözü ilə idi".

Hz.Peyğəmbərə Meracın sonunda Allah tərəfindən üç şey verilir:

1.Əlli rükət namaz əvəzinə beş vaxt namaz verildi.

2.əl-Bəqərə surəsinin axırıncı ayələri(əl-Bəqərə 285-286)

3.Peyğəmbər (s.ə.s.) ümmətlərindən olub, Allaha şərik qoşmayan kimsələrin haqq-hesab günü Cəhənnəmə sürükləyən günahlarının bağışlanması.

Nəhayət, Peyğəmbərimiz heç bir kimsənin,heç bir zaman yetişməmiş olduğu yaxınlıq məqamına, İlahi qəbula, İlahi hörmət və ehsana nail olur.

Bu ayəni Allah-taala özü Hz.Peyğəmbərə vəhy edir və buyurur ki:-Ya Muhəmməd! Ümmətinə de ki, Mənə belə dua etsinlər.

-əl-Bəqərə-285-286-Həzrət Rəsul buyurur ki, Merac gecəsində Allah tərəfindən səs gəldi ki;"Amənə-rəsul bimə unzilə ileyh". Mən də cavabında dedim ki, möminlər də iman gətirdilər. Allah buyur-du:-Ya Muhəmməd, doğru dedin. Biz Peyğəmbərləri bir-birindən ayırmarıq. Möminlər dedilər ki, eşitdik və itaət etdik. Allah Merac gecəsində buyurdu:-Allah yalnız taqət, güc, miqdarında təklif edər. Nəfsin qazandığı xeyir də, şər də insanın özü üçün xeyirli və zərərlidir. Pərvərdigara!

Unutsaq, ya səhv, etsək bizi cəzalandırma. Bizdən əvvəlki kəslərə təklif etdiyin kimi ağır təklifləri bizim boynumuza qoyma. Pərvərdigara! Gücümüz çatmayan şeyi bizim öhdəmizə vermə. Bizim günahımızdan keç, bizi bağışla, bizə rəhm et! Bizim ağamız Sənsən. Kafirlərə qarşı bizə kömək et!(**Kitabul-Bəyan fi təfsiril-Quran.)**

Hədis-Imam Cəfəri Sadiq buyurur:"Hər kəs dörd şeyi inkar etsə, müsəlman sayılmaz:-l-Meracı.2-Qəbirdə sorğu-sualı.

3-Cənnət və Cəhənnəmi.4-Allahın şəfaətini**.(Zübdətul əhədis.)**

PEYĞƏMBƏRİN VƏSİYYƏTİ

Yer üzü heç vaxt Peyğəmbərsiz və hidayət yolunu göstərən valisiz olmamışdır.Elə Allah yaratdığı ilk insan olan Hz.Adəmi dünyaya gələcək övladları üçün ilk Peyğəmbər təyin etmişdi.O da öz növbəsində Allahın əmrlərini öz varislərinə çatdırmış və bu adət bütün peyğəmbərlər tərəfindən davam etdirilmişdir. Allah tərəfindən bu dünyaya göndərilmiş bütün Peyğəmbərlər özlərindən sonra,öz övladlarından və yaxud da öz nəslindən gələn varislərindən birini özündən sonra bir varis, valı seçmişlər.Bu adi bir qanundur,yəni hər bir kəs öz varidatını yalnız öz övladına vəsiyyət edir.Burada isə əgər söz peyğəmbərdən gedirsə, Peyğənbərlərin adi insanlardan fərqli həm Allah qarşısında, həm də bütün dünya insanlarının qarşısında böyük məsuliyyəti vardır. Onlara Allah tərəfindən bütün dunyanın Kainatın, Yer-göy üzündə olan canlı-cansız aləmin sirləri, həmçinin axirət günü, Qiyamət və Əbədi dünya sirləri verilmişdir. Onlara Allahın İsmi-şəriflərinin, İsmi-əzəmin sirləri və Allahın yalnız bir nəsil və kökdən gələn Peyğəmbərlərə agah etdiyi gizli elmlər sirri verilmişdir. Hz. Peyğəmbərin Meraca qalxdığı zaman Allah tərəfindən ona göstərilər Yer-göyün, fələklərin, mələklərin, cinnələrin sirləri və yeddi qat göydə görüşdüyü keçmiş Peyğəmbərlərin söylədiyi tövsiyə və sirlər də yalnız ailə üzvlərinə, övladlarına əmanət verilə bilərdi. Bu səbəbdən bu sirrlər nə dosta, nə səhabəyə, nə də ki, qonşuya vəsiyyət edilə bilməzdi. Hz.Peyğəmbər də bütün bunları çox gözəl bildiyi üçün özündən sonra olacaq varislərini, elə Peyğəmbərlik verildiyi ilk gündən ətrafındakı əsabələrinə və ənsarlarına açıq-aydın şəkildə bildirirdi.

Hamıya məlumdur ki, Peyğəmbərin varisləri Allahın əmri ilə qızı Fatimə(Kövsər) və öz əmisi oğlu Hz.Əlinin izdivacından dünyaya gələn övladlardır. Peyğəmbərin uşaq vaxtından öz övladı kimi böyütdüyü, əmisi oğlu Hz. Əlini varis seçməsi də Allahın əmri ilə Hz. Peyğəmbərə bildirilmişdi. Hz. Peyğəmbər də yalnız Allahın əmrlərini yerinə

yetirməyə müvəkkil olub,özündən heç bir söz söyləməyə və hərəkət etməyə icazəsi olmayan Allahın son Peyğəmbər idi.

Peyğəmbəri Muhəmməd (s.ə.s.) vəhy yolu ilə artıq ölümünün yaxınlaşmasını hiss etdiyi üçün öz ümmətinə Allahın əmr və qanunlarını rəsmiləşdirib təhvil verməli və özündən sonra başqa Peyğəmbərlər kimi İslam dinini Qiyamət gününədək yaşada biləcək varisini elan etməli idi. O Məkkədən qayıdarkən ilahi əmr üzrə "Cövhə"və ya Qədir-xum adlanan çöldə Əbi-Talib oğlu Əlini özündən sonra xəlifə və İmam elan edərək, müsəlman cəmiyyətlərinə təqdim edir.Onun övladıarını da Qiyamət gününədən onun əmanətlərini daşıyıb, insanları elmlə hidayət yoluna aparacaq İmamlar olacaqlarını bütün əshab və ümmətinə açıq şəkildə elan edir. Bütün Hacıların hamısı bunu qəbul edərək, Əliyə beyət edirlər. İmaməti ulu və ali məqamına işarədir. Həmçinin bu ona dəlildir ki, Imamət Allahın əhdinə,yəni bəşəriyyət üçün imam olmaq, hər hansı xəta və ya günahdan uzaq, məsum olmaq deməkdir. Bu haqda quranda buyurulmuşdur.

Hz.Peyğəmbər (s.ə.s.) buyurur:"Vəsiyyət etmək hər bir müsəlman üçün zəruridir". (318Mizanül-hikmə, c.10-cu s.494-495)

Hədis: Hz.Peyğəmbərin belə buyurduğunu nəql edirlər:"Allah-təala hər Peyğəmbərin zürriyətini (nəslini) öz sülbündən, mənim zürriyətimi də, Əli ibn Əbu Talibin nəslindən etmişdir**"(Səhihi-Müslim öz sənədilə Zeyd-ibn-Ərqəmdən rəvayət edir)**

Hədis: İbni Abbasdan nəql edilir: Hz. Peyğəmbər (s.ə.s.) dedi: "Ey insanlar, mən də sizin kimi bəşərəm və nə vaxtsa Rəbbimin elçisi (Əzrayıl) gələcək və mən də ona cavab verəcəyəm. Mən sizin üçün iki ağır şeyi sizə əməanət verərək bu dünyanı tərk edirəm. Onlardan biri Allahın kitabıdır ki, onda hidayət və nur vardır. Allahın kitabı ilə o hidayət və nuru götürün. Allahın kitabı ilə götürərək ondan yapışın... və Əhli-Beytim. Allah-Allah Əhli-Beytimi sizə xatırladıram, Allah-Allah Əhli-Beytimi sizə xatırladıram, Allah-Allah Əhli-Beytimi sizə xatırladıram." **(Səhihi-Müslim. "Fəzail" kitabı 1."Fəzaili Əli" babı, 5-ci cild, 272-ci səh. "Daruş-şəb bişərhin-nəvəvi" mətbəəsi, Məhəmməd bin Yusif Gənci** Şafei "Kifayətüt-**Talib",** İbni **Hacər Məkki"Əs-səvaiqul-muhriqə", Təbərani, Cabir bin** Əbdullah Ənsari **və Xətib Xərazmi "Mənaqib" kitabından.)**

əl-Nəcm 3-4-O Peyğəmbər öz nəfsinin istəyi ilə danışmır, nə danışırsa da, o, Allahın vəhyidir.

əş-Şura-22-23-Bu Cənnətlə müjdələnmə elə bir mərhəmət və savabdır ki, Allah onunla bəndələrinə bəşarət verər. Belə ki, onlar iman

gətirdilər və yaxşı əməllər etdilər.Ya Peyğəmbər! De ki, ey ümmətim, risaləti təbliğ etdiyim üçün sizdən qohumlarımı,Əhli-beytimi dost tutmaq və sevməkdən başqa heç bir əcr istəmirəm. Kim bir yaxşı iş görərsə, onun yaxşılığının savabını, mükafatını artırarıq.

Əhzab-33-Ey Əhli beyt!Həqiqətən, Allah hər cür çirkinliyi,pisliyi və günahı sizdən uzaq etmək və sizi pakdan da pak etmək istər.

Açıqlama:-Allahın ən sevimli bəndəsi, Allahın Rəsulu bu ayələrdə də göründüyü kimi öz ümmətinə Qurani-Kərimi və bir də Əhli-Beytini əmanət etmiş, onları dəyərləndirib,əzizləməyi tövsiyə etmişdir. Bunun əvəzində isə Quranın ayələrindən və Merac hadisəsindən də məlum olduğu kimi Allahdan yalnız öz ümmətinin Cəhənnəmdə yanmaması üçün bağışlanma diləmişdir.

Hz.Peyğəmbər buyurmuşdur:"Mənim Əhli-Beytim sizin aranızda misalı Həztəri-Nuhun tayfasındakı gəmiyə bənzəyir,ona minənlər nicat tapdı ,ondan qaçanların hamısı boğuldu." (Müstədriki-həkim, c3,s, 151, Əssəvaiqül-Mühriqə.c 184,234,Süyutinin tarixi)

Hədis: Ümmü Sələmədən söylənən hədisdə: Peyğəmbər (s.ə.s.) buyurmuşdur: "Kövsər havuzunun başına gəlincəyə qədər Əli və Quran bir-birindən ayrılmayacaqlar. Əli Quran ilə, Quran da Əli ilə birlikdə olacaqdır. Onun İslamiyyəti qəbul edən, ümmətimin ən birincisi, elmdə ən çox bilgili olanı və məndən sonra əmanətlərimin daşıyıcılarının birincisi və xəlifəliyə layiqli yeganə kişidir",-deyə, bildirdiyini, söyləmişdir**. ("Həkimin Müstədrək"də c. 3, s.124)**

Allahın Rəsulu (s.ə.s.) 633-cü ildə Mədinə şəhərində vəfat etmiş və Mədinədə Peyğəmbər məscidində, Məscidil-Nəbidə dəfn edilmişdir.

Peyğəmbərin ömrünün sonuna yaxın olan hadisələr və vəsiyyətləri haqqında Peyğəmbərin öz dilindən nəql etdiyi"**Hədisi-qüdsi**"də, İmam Hz.Əlinin"**Nəhcül-Bəlağə"**də, bir də Əllamə Kuleyninin**"Üsulu Kafi"** kitablarında daha geniş məlumat verilmişdir.

Hz.Peyğəmbərin bəzi əshabələrinin ona və Əhli-beytə qarşı münasibəti, vəfatı zamanı baş verənlər və onun vəsiyyəti haqqındakı açıqlamalar məşhur sünnü alimlərin kitablarında daha aydın şəhr olunmuşdur:Yəhya ibni-Yəlanın"Münaqişatül əqaidiyyə fi məqalati İbrahim əl-cəbhan" ,Səhihih-Buharinin **(3-cü cild s.31-s)Müslüm Səhihi (5-ci cild s.199)**

Hədis:Buhari və Müslümdən belə nəql edilmişdir: Əshablar: "Peyğəmbər vəfat etdiyində üç şeyi vəsiyyət etdi:-Müşriklərin Ərəbistan yarımadasından çıxardılması, elçilərə Peyğəmbər verdiyi qədər maaş verilməsi, üçüncünü isə unutmuşuq...-dedilər**."(Səhihi-**

Buhari c.1s.121"Cəvazül vəfd babında, cihad seyr "Sənini-Müslüm,Vəsiyyət c.5.s 75.)

Hansı ki,elə bu ən birinci vəsiyyət özündən sonra Hz. Əlinin vəsiy və xəlifə olması haqqındakı qərarının yerinə yetirilməsi idi**. (Səhihi-Buhari,c.3.s.68, Səhihi-Müslim.c2,s.29.)**

əl-Mücadilə-22-Ya Peyğəmbər! Allaha və axirət gününə inanan bir tayfanın Allah və Onun Peyğəmbəri əleyhinə çıxanlarla, öz yaxın ataqardaşları, qohumları olsalar belə dostluq etdiyini görməzsən. Onlar elə kimsələrdir ki, Allah onların qəlblərinə iman yazmış və öz dərgahından onlara güc vermişdir, iman, hidayət nuru əta etmişdir. Allah onlara ağaclar altında çaylar axan Cənnətlərə daxil edəcəkdir. Onlar orada əbədi qalacaqdır. Allah onlardan, onlarda Allahdan razıdırlar. Onlar Allahın firqəsidirlər,Allahın dininə kömək edən kimsələrdir.Bilin ki, Allahın firqəsiməhz onlar,nicat tapıb əbədi səadətə qovuşanlardır.

Peyğəmbərliyə seçilməsindən 23 il, şərafətli ömründən 63-il keçirdi.O,bu müddət ərzində böyük müvəffəqiyyətlər əldə etmişdi.Çürük və utandırıcı bir cəmiyyətin təməlini uçurmağa və onun xarabalıqlarının yerində pak və fəzilətli bir cəmiyyətin bünövrəsini atmağa müvəffəq olmuşdu.

Allah kəlamı üçün yenə qulağı səsdə,
Quranı xatırladı yenə axır nəfəsdə.
Bizə tapşırdı getdi Əhli-Beyti, Quranı.
Bizə tapşırdı getdi pak yolunu, sünnəti.
Yaradana sevgini, yaranmışa hörməti.
Peyğəmbərin son dəfə dodağından çıxan söz.
Yenə Qadiri-Qüdrət, yenə də Allah oldu.
Gördü uca dostunu, Rəfiqi-Əlasını.
Beləcə tamamladı dünyada dünyasını.
(Zəlimxan Y."Peyğəmbər")

PEYĞƏMBƏRİN FƏZİLƏTLƏRİ

Hz. Peyğəmbərin fəzilətləri haqqında bir çox kitablar yazılmışdır. Mövlana Furatinin"Peyğəmbərə 40 sual"kitabında yazılmış Hz.Peyğəmbərin fəzilətlərindən bəzilərini burada qeyd etmək istəyirik.

Mötəbər hədislərdə deyilir ki, Mədinə yəhudilərindən qırx nəfər yığışıb dedilər ki, Hz.Muhəmməd özünü bütün Peyğəmbərlərdən əfzəl

hesab edir, gedək onun yalanına ona sübut edək ki, o biri Peyğəmbərlər ondan daha əfzəl olmuşlar.

Onlar söhbət əsnasında:Adəm Peyğəmbər səndən daha yaxşı idi, çünki onu Allah öz qüdrəti ilə yaratdı,sonra Hz.Musa da səndən əfzəl idi ki, Allah Tur dağında yanar ağacın arxasında onunla danışdı, sonra Hz.İsa da səndən yaxşı idi, çünki Allah ona Hz.Cəbrail vasitəsi ilə öz ruhundan üfürüb, onu cana gətirib.

Rəsulu-Əkrəm buyurdu:-Adəm (ə.s.) mənim atamdır, lakin Allah ona verdiyindən daha yaxşı şeyi mənə verib. Yəhudilər dedilər ki, o nə şeydir?

Həzrət buyurdu:-Hər gün beş dəfə azanda nida edib deyirlər:-"Əşhədü əllə iləhə illəllah və Əşhədü ənnə Muhəmmədən Rəsullullah."Lakin heç demirlər ki,"Adəm rəsullullah".Bundan əlavə, Qiyamət günündə Livauihəmd (Həmd bayrağı) mənim əlimdə olacaq. Adəmin əlində olmayacaq.

Yəhudilər dedilər:-Doğru deyirsən,Tövratda belə yazılıb.

O Həzrət buyurdu:-Bu, bir fəzilət!

Sonra yəhudilər dedilər:-Hz. Musa səndən yaxşı idi,çünki Allah-taala onunla dörd min kəlmə söz danışdı,amma sənlə heç bir kəlmə də danışmadı.

Rəsulu-Əkrəm(s.ə.s.) buyurdu:-Mənə ondan yaxşısını verdi: Məni Cəbrailin qanadı üstündə yeddinci asimana, sonra isə Sidratil-Muntəhəyə apardı. Cənnət də onun yanındadır. Oradan da keçib Saqi-Ərşdən asıldım. Orada mənə nida gəldi: "Mənəm O Allah ki, Məndən başqa heç bir Allah yoxdur. Məndə heç bir eyib və nöqsan yoxdur.Mənəm xəlqə əzabdan aman verən Əziz, Cabbar, Mütəkkəbbir, Rəuf və Rəhim olan.

Mən orada Allahı qəlb gözü ilə gördüm.Bu isə Musaya veriləndən daha əfzəldir. Bu da iki fəzilət.

Yəhudilər dedilər ki,Nuh (ə.s.) səndən yaxşı idi.Allah-taala onu gəmiyə səvar elədi, gəmi də onu aparıb Cudi dağında bərqərar etdi.

Rəsulu-Əkrəm (s.ə.s.) buyurdu:-Allah-taala mənə ondan da yaxşısını verib:-Asimanda mənə bir nəhr (hovuz)verib ki,Ərşin altından axır. Onun kənarında minlərlə qəsr və imarətlər var ki, kərpiclərinin biri qızıldan,biri gümüşdən,oranın otları zəfərandan, xırda daşları mirvari və yaqutdan,torpağı isə ağ müşkdən ibarətdir. O nəhrin adı Kövsərdir ki,Quranda yad edilir.Allah-taala onu mənə əta etmişdir və Cənnətə düşən hər bir kəs bu hovuzun suyundan içəcəkdir.

Yəhudilər dedilər:-Doğru deyirsən,Tövratda belə yazılıb.

Rəsulu-Əkrəm buyurdu:-Bu da üç fəzilət.

Sonra yəhudilər o Həzrətə dedilər ki, Hz.İbrahim səndən yaxşıdır,çünki Allah-taala onu öz Xəlili (dostu) etmişdir.

Rəsuli-Əkrəm buyurdu:-Allah onu öz Xəlili etmişdir,məni də öz Həbibi, sevimlisi etmişdir.Mənim adımı öz adı ilə bir kökdən yaratmışdır: Allahın adlarından biri Mahmuddur, mən də Muhəmməd. Mənim ümmətim isə həmdilərdir, yəni, həmd edilənlərdir.

Yəhudilər dedilər: - Doğru deyirsən,Tövratda belə yazılıb.

Rəsulu-Əkrəm (s.ə.s.) buyurdu:-Bu da dörd fəzilət.

Bu fəzilətləri sonsuza qədər sayıb qurtarmaq olmaz.

əl-Bəqərə-136-Deyin ki,biz Allaha, bizə nazil olan Qurana, İbrahimə, İsmailə, İshaqa,Yəqubə və onun övladlarına nazil olanlara, Musaya və İsaya göndərilənlərə, yəni Tövrata və İncilə və bütün Peyğəmbərlərə, Allah tərəfindən verilən kitablara iman gətirdik. Biz onların arasında, kitablarının, ya Peyğəmbərlərin arasında fərq qoymarıq və biz onların hamısına itaət edənlərik.Əgər biz iman gətirdiyimiz kimi başqa insanlar da iman gətirsəydilər, həqiqətən, onlar hidayət tapardılar.

"40 sual" kitabından: Cənabı-Allah, Həbibi Peyğəmbər (s.ə.s.) Həzrətlərinə Livaul-Həmd adlı bayraq verəcəkdir. Məhşər günündə Bütün Muhəmməd ümməti bu bayrağın altında toplanacaqdır və Peyğəmbər (s.ə.s.) öz məqamına keçib, ümmətinə şəfaət edəcəkdir. Livaul-Həmd hələ ki, Cənnətdə olub sonsuz bir səhrada Həmd dağı üzərində qoyulmuş, minillik yol uzunluğunda çox böyük bir bayraqdır. Başlanan yeri bəyaz gümüşdən və yaşıl qaşlardan, ucu zəbərcəddən (qızılı-yaşıl rəngli daş), qırmızı yaqutdandır. Onun iki tərəfi vardır ki, onların arasında 500 illik məsafəsi olan üç sətir yazı yazılmışdır:

Birinci sətir:-"Bismilləhir Rahmənir Rahim".

İkinci sətir:-"Lə İləhə illəllah".

Üçüncü sətir:-"Əlhəmdi lilləhir Rabbil Aləmin".

Bu böyük Bayrağın altında 70 min bayraq və 70 min sıra mələklər vardır. Hər sırada da 70 min mələk durub, Allahı təsbih edərlər.(İbrahim Haqqı tərcümə)

Hədis:Başqa bir mötəbər hədisdə deyilir ki, Rəsulu-Əkrəm (s.ə.s.) belə buyurmuşdur:-Allah-taala mənə beş şeyi əta edib ki, məndən qabaq heç bir Peyğəmbərə o şeyləri verməyib:

1.Yeri, torpağı mənim üçün səcdə məhəlli qərar verib ki,dünyanın hər bir guşəsində namaz qılıb,səcdə edə bilərəm.

2.Yeri mənim üçün təharət vasitəsi qərar verib ki,dəstəmaz və qüsl əvəzində yerə, torpağa təyəmmüm edə bilərəm.

3.Müharibədə kafirlərdən qənimət götürülmüş şeyləri mənə halal edib.

4.Kafirlərin qəlbinə məndən qorxu salıb,mənə bu yolda köməklik

göstərib.

5.Sözləri az, mənası isə çox böyük olan"Kəliməti-Cəmiə",yəni "Qurani-Kərim" mənə əta olunub ki,onunla İslamı təbliğ və təlim edirəm**.("Üsuli Kafi")**

Hədis:-İmam Sadiqdən buyurulur:-Allah Hz. İsaya iki İsmi-Əzəm təlim etmişdi.Onların vasitəsilə möcüzələr göstərirdi və ölüləri dirildirdi. Hz. Musaya dörd, Hz.İbrahimə səkkiz, Nuh Peyğəmbərə on beş, Hz. Adəmə iyirmi beş İsmi-Əzəm vermişdi.Allahın İsmi-Əzəmi yetmiş üç addır. Onlardan bir ad O Müqəddəs Zatın özünə məxsusdur ki, heç kəsə təlim edilməz. Qalan yetmiş iki adın hamısını Allah Hz. Muhəmmədə təlim etmişdir. Həzrəti Rəsul vəfat edəndə bu isimləri öz varislərinə (Əhli-Beytinə) miras vermişdir**. (Hədisi Qüdsi)**

DİNİ FİRQƏ-FİRQƏ ETDİLƏR

ər-Rum-32-O kəslər ki, öz dinini parçalayib firqə-firqə etdilər, hər biri özünun haqq olduğuna sevinərlər.

Məryəm-36-Sonra bütün firqələr öz aralarında ixtilaf etdilər. Kafir olan kəslərə böyük bir gündə, hazır olmaq zamanında vay olsun!

Hədis:-Peyğəmbərimiz (s.ə.s.) buyurur:-Vaxt gələcək ki,yəhudilər 71 firqə, nəsranilər 72, mənim ümmətim isə 73 firqə olacaqdır ki, bunlardan yalnız biri haqdır.

MÜNAFİQLƏR PEYĞƏMBƏRİ TƏKZİB ETDİLƏR

Taha-130-Ya Peyğəmbər!Sənə deyilən sözlərə,təkziblərə səbir et, onların sözlərindən qəmgin olma! Öz Allahına həmd-səna edib beş vaxt namazını həm gün çıxan zaman, həm günorta, günəş göyün tən ortasında olanda, həm gün batandan qabaq, həm də axşam və gecə namazlarını qılıb məni təsbit et!

Yasin-76-79-Səni təkzib etdikləri üçün onların sözü səni qəmgin etməsin. Həqiqətən də, biz onların qəlblərində gizlin saxladıqları və aşkar etdikləri sirləri bilirik.Məgər insan onu nütfədən yaratdığımı bilmirmi, lakin açıq-aşkar mübahisə edir. O,"çürümüş sümükləri bir daha kim dirildə bilər?"-deyə sual edir? Əlbəttə,sizi yoxdan yaradan Allah. Birinci dəfə yoxdan vücuda gətirmək çətindir, yoxsa yenidən diriltmək? Allah hər şeyı yaratmağa,bütün insanların işlərinə alimdir. Həqiqətən, Allahın əmri və şəni budur ki, bir şeyi yaratmaq istədikdə ona "Ol!"

deyir,o da olur.

əs-Saffat-12-21-Ya Muhəmməd! Bəli, sən onların təkzib etmələrinə təəccüb edirsən, onlar isə sənə və sənin oxuduğun Quran ayəsinə istehza edirlər və deyirlər:-Bu ancaq açıq-aşkar bir sehrdir, məgər biz və babalarımız ölüb, torpaq və sümük olduqdan sonra bir daha diriləcəyikmi? Ya Muhəmməd onlara de:"Bəli,ulu babalarınız dirilər, siz də zəlil olan halda dirilərsiniz". Onlara nəsihət olunan zaman qorxmazlar, eşitdikləri heç bir nəsihəti götürməzlər. Həqiqətən də, insanın dirilməsi İsrafilin suru üfürməsi ilə baş verər. O zaman onlar Allahın əzabına baxarlar və deyərlər:-"Vay olsun bizə, bu gün cəza günüdür".Allah buyurar:-Bəli,bu gün təkzib etdiyiniz behişt əhlinin behiştə,Cəhənnəm əhlinin Cəhənnəmə getməsi üçün hökm günüdür**! (Kitabul-Bəyan fi təfsiril-Quran.)**

əl-Nəhl-63-And olsun Allaha! Həqiqətən, biz səndən əvvəlki ümmətlərə Peyğəmbərlər göndərdik. Şeytan onların əməllərini zinətləndirdi və Peyğəmbərləri təkzib etdilər. Qiyamət günü şeytan onların dostudur. Onlar üçün dərd gətirən əzab vardır.

PEYĞƏMBƏRƏ DİVANƏ DEDİLƏR

əl-Muminin-70-Yoxsa öz Peyğəmbərini tanımadılar,onu inkar etdilər? Yaxud "Onda divanəlik var," - dedilər. Əksinə, Peyğəmbər onlara haqq olan Quran ilə gəldi. Lakin onların çoxu haqqı xoşlamırlar. Əgər haqq olan: Quran və Peyğəmbər onların istəklərinə tabe olsaydı, şübhəsiz, göydə, yerdə və onların arasında olanlar heç olardılar. Əksinə, onlara Quran verdik ki, nəsihət alsınlar. Onlar özlərinə bəxş edilən ən şərəflilərdən üz döndərənlərdirlər.

BİLƏ-BİLMƏYƏ MÜBAHİSƏ EDƏRLƏR

Loğman-20-Məgər görmürsünüz ki, Allah göydə olanları və yerdə olanları sizə ram etdi? Onlardan istədiyiniz kimi istifadə edərsiniz. Bəzisi aşkar, bəzisi gizlin olan nemətlərini sizin üçün tamam etdi. İnsanlardan elələri var ki, Allah haqqında elmsiz, dəlilsiz və kitabsız olaraq mübahisə edərlər.

ən-Nisa-107-109-Öz nəfslərinə xəyanət edən kəslərdən ötrü mübahisə etmə.Allah çox xəyanət edən günahkarları sevməz. Onlar insanlardan qorxsalar da, Allahdan qorxmazlar.Bir halda ki, gecələr Allahın razılığı olmayan sözlər ilə tədbir töküb hiylə qurarlar.Allahın elmi

onların əməllərini əhatə etmişdir,heç bir şey Allahdan gizlin deyil.Ey möminlər! Xəbərdar olun! Onlardan ötrü dünyada mübahisə etdiniz, bəs Qiyamət günündə onlardan ötrü kim mübahisə edəcək? Kim onlar üçün vəkil olacaq?

əl-Kəhv-53-Biz bu Quranda insanlar üçün hər cür misal gətirdik. İnsan yaranmışlardan daha çox mübahisə edəndir, nahaq yerə haqqa qarşı durub mübahisə edərlər.

MƏKKƏ MÜŞRİKLƏRİNİN PEYĞƏMBƏRİ SINAMAQ ÜÇÜN VERDİYİ SUALLAR

Qüreyş tayfasının başçıları Peyğəmbəri sınamaq üçün Nəsr ibn Hərs və Əqəbəni yəhudi alimlərinin yanına göndərdilər ki,gedib Tövratda Muhəmməd,onun əlamət və sifətləri barədə nə yazılıbsa, xəbər gətirsinlər.Yəhudi alimləri onları öyrədərək dedilər ki, ondan üç məsələ barədə soruşun.Əgər ikisini bilib, birini bilməsə, deməli, həqiqətən, Peyğəmbərdir.

Birincisi budur ki,keçmiş dövrlərdə qeyb olmuş kəslərin kim olduğunu, ikinci şərq və qərbi gəzən kəsin kim olduğunu,üçüncü ruhun nədən ibarət olduğunu soruşun.

Onlar Məkkəyə gəlib əhvalatı öz qövmlərinə dedilər.Məkkə böyükləri Hz.Peyğəmbərin yanına gəlib, həmin üç şeyi ondan soruşdular. Hz.Peyğəmbər buyurdu: -Sabah sizə cavab verərəm.

"İnşallah"demədiyi üçün Peyğəmbərə Cəbrail (ə.s.) on beş gün nazil olmadı. Məkkə müşrikləri bu işə çox şad oldular və dedilər ki, Allahı Peyğəmbəri tərk etmişdir.Həzrət bu sözü eşidib qəmgin oldu.Əlbəttə, Allahın istədiyini nəzərə almadan:

"Sabah bu işi görəcəyəm" və yaxud da"İnşallah"deməyən şəxs özünü hər işdə müstəqil hesab edər.

Sonra isə Cəbrail(ə.s) Allahın əmrilə nazil olaraq buyurdu:

1.əl-Kəhf-23-Ancaq: İnşallah (əgər Allah istəsə, Allah qoysa) edəcəyəm de. İnşallah deməyi unutduğun zaman Allahı yada salıb:-Ola bilsin ki, Allah məni bundan, Əshabi-Kəhfin əhvalatına dair xəbərlərdən haqqa daha yaxın olan bir yola yönəltsin, Peyğəmbərliyimə daha çox dəlalət edən bir möcüzə versin!-de.

2.əl-Kəhf-92-Ya Muhəmməd!Rəbbinin kitabında sənə vəhy olunanı, Əshabi-Kəhf əhvalatını oxu!Allahın sözlərini dəyişdirən olmaz,sən ondan başqa pənah tapmazsan.Allah bu mübarək surəni nazil etməklə,həm Kəhf (mağara) əhvalatını, həm də Zülqərneyn barədə ətraflı xəbər verir.

3.əl-İsra-85-Ruh haqqında isə,bu sirrın yalnız Allaha məxsus olduğunu və bu haqda Peyğəmbərə azacıq məlumat verdiyini bildirir. Həmin iki bildiyi cavab:-Keçmişdə qeyb olan şəxslər-Kəhf mağarasındakılar və şərqqərbdə gəzən şəxs-Zülqərneyndir. Bilmədiyi cavab isə ruh haqqında olan məlumatdan ibarət olmuşdur.

DİN ADI ALTINDA İNSANLARI ALDADIB FƏSAD TÖRƏDƏN MÜNAFİQLƏR

Hər nə ağlın kəsir insan edir insana bu gün,
Kəsmir ağlım bizə şeytan edə, insan edəni.
Yüz kitab bağlamışıq hər işinə kafərin,
Niyə görür gözümüz bəs bu müsəlman edəni?(Hacı Mahir.)

əl-Bəqərə-8-12-Elə insanlar var ki,Allaha və axirət gününə iman gətirdim deyərlər, lakin onlar Allahı və iman gətirənləri aldadarlar. Bu hiylə ilə özlərindən başqa bir kəsə ziyan yetirə bilməzlər. Onlar özlərini aldatdıqlarını bilmirlər. Allah onların sözlərindən və əməllərindən xəbərdardır. Onların ürəklərində həsəd, şəkdən ibarət olan xəstəlik var. Allah onların qəlblərində olan xəstəliyi artırdı.Çünki İslamın nüsrət və qələbəsi onlar üçün böyük batini xəstəlik idi. Allah günbəgün İslamın qüdrətini artırdığına görə, onların qəlblərində də xəstəliklər artar. Yalan danışdıqlarına görə axirətdə onlar üçün dərd artıran əzab vardır.Onlara təzə iman gətirib,imanda möhkəm olmayan müsəlmanlara vəsvəsə etməklə yer üzündə fəsad etməyin!-deyilən zaman cavab verib dedilər ki,biz ancaq islah edənlərik. Xəbərdar olun ki, onlar yalançıdırlar və fəsad edənlərdirlər.

əl-Hucurat-14-Qənimət əldə etmək məqsədilə İslama daxil olan insanlar: ”Biz iman gətirdik”!-dedilər.De ki,siz qəlbən iman gətirməmisiniz. Deyin ki,biz İslamı müəyyən şəxsi məqsəd və mənfəət naminə qəbul etdik! Hələ iman bizim qəlblərimizə daxil olmamışdır. Çünki iman əməllə etiqadın vəhdətidir.Dildə İslamı qəbul etmək isə yalnız zahiri əməldir. Əgər siz Allaha, onun Peyğəmbərinə iman etsəniz, Allah sizin əməlinizdən bir şeyi azaltmaz.O, bağışlayan və rəhm edəndir.

Ali-İmran-7-Ey Muhəmməd! Sənə bu Quranı nazil edən Odur. Onun bəzi ayələri möhkəmdir. Onlar kitabın anasıdır. Bəzisi bir neçə mənaya oxşayandır. Qəlblərində haqdan batilə və bir neçə məna verən

ayələrə tabe olarlar.Onlar fitnə yaratmaq və insanları şübhəyə salmaq və öz sözlərini sübut etmək üçün özləri istədikləri kimi onun yozumunu yozarlar. Onun düzgün yozumunu ancaq Allah və elmdə möhkəm olanlar bilər. Elmdə möhkəm olanlar deyərlər:-Biz ona iman gətirdik,hamısı bizim Allahın tərəfindəndir. Nəsihət qəbul edən yalnız ağıl sahibləri olarlar.

əl-Həcc-8-10-İnsanlar arasında elələri vardır ki, Allah haqqında elmsiz, yol göstərən rəhbərsiz və açıq-aşkar kitabsız olaraq mübahisə edərlər. O, boynunu əyib,özünü fəqir və dinc adamların halına saldı ki, insanları Allah yolundan çıxartsın və insanları hidayətə daxil olmağa qoymasın. Onun üçün dünyada zəlillik var və qiyamət günündə yandıran odun əzabını ona dadızdırarıq! Ona deyilər:"Bu, sənin əllərinin qabaqcadan göndərdikləridir və etdiyin əməllərin cəzasıdır".

əl-Nəhl-116-Dilinizin öyrəndiyi yalanı deməyin. Deməyin ki,bu halaldır, bu haramdır. Allaha iftira atarsınız.Allaha iftira atan kəslər onun əzabından nicat tapmazlar.

Açıqlama: Allah-taala tərəfindən 14 əsr bundan əvvəl nazil olan Qurani-Kərimdə bütün mövzular üzrə ayələr sanki bugünki gün üçün nazil olmuş və bu gün bizi düşündürən bütün sualların cavab qaynağı olaraq qalmaqdadır.Yəqin ki, bu, Qiyamət gününə qədər belə olacaq.

Yuxarıda qeyd edilən ayələrdən məlum olur ki, hər bir dövrdə olduğu kimi müasir dövrümüzdə də münafiq və müşriklərə rast gəlirik. Xarici dövlətlərdə müəyyən təlim və təhsil alıb ölkəmizdə fəaliyyət göstərən bəzi "dindarlar"dinimizi xurafat və mövhumatla,Quran ayələrini yarımçıq (özlərinə sərf edən kimi təfsir edib) təqdim etməklə xalqı əsil İslamdan uzaqlaşdırmaq istəyirlər. Dinimizi məhv etmək və ölkəmizdə qarışıqlıq salmaq məqsədilə cəmiyyətimizi aldadırla. İnsanlarımızın dinimiz haqqında elmi biliklərə malik olmamaları yalançı dindarların bu niyyətlərini həyata keçirmək üçün yaxşı şərait yaratmışdır.Ölkəmizdə xaricdən maliyyələşən bir çox cəmiyyətlər, missioner təşkilatlar, həmçinin xaricdə təlim-təhsil görmüş dindarlar cəmiyyəti firqələrə ayıraraq, İslam dinini təhrif edirlər. Dinimizi yalançı qadağalar, cürbəcür fətvalar ilə cılız, yazıq və eybəcər bir hala salaraq zəiflətmək istəyirlər. Bu"dindarlar"öz bəlağətli, gözəl danışıqları ilə cəmiyyətin beyin-düşüncələrinə böyük təsir göstərərək, kütləni əla almağı bacarır və onları istədikləri səmtə yönəldirlər.Bu dindarlar cəmiyyətin varlı təbəqələrinə elə siyasətlə təsir edirlər ki, həmin varlı şəxslər pullarını(xüms, zəkat,sədəqə) öz qohum-qonşusuna, yetim-yesirə, elmlə məşğul olan, təhsil alan, cəmiyyəti, vətəni və dini üçün

çalışan insanlara, öz doğma vətəninin və vətəndaşlarının çatışmamazlıqlarına deyil, həmin o dindarlara həvəslə verirlər. Halbuki onlar təlim aldıqları dövlətlərdən güclü maliyyələşirlər. Bu səbəbdən də özləri üçün hər şərait yaradaraq inkişaf edə bilirlər və vətənimizə qənim kəsilirlər.

Sonra bu dindarlar cəmiyyətin cavan kütləsinin beynini qızışdıraraq öz siyasətlərini dildə, dinin əhkam-göstərişləri, haram və halalları ilə bəzəyərək, onlara təqdim edirlər. Bu ölkənin gələcəyi üçün manqurtlar yetişdirirlər. Manqurt-yəni yaddaşı pozularaq, müəyyən bir insanın əmrinə tabe olaraq, öz doğmalarını, vətənini və insanlarını belə unudaraq, istənilən bir cinayəti törətməyə hazır olan, hətta öz doğmalarını belə öldürməyə hazır olan robotlar deməkdir. Bu yalançı dindarların məqsədləri isə çoxlu var-dövlət toplamaq, cəmiyyət arasında qarışıqlıq salmaq və İslam dinini zəiflədib gözdən salmaq, ən əsası isə vətənimizi zəiflətməkdir.

Nə qədər ki insanlarımızın İslam dini haqqında elmi bilikləri olmayacaq, bir o qədər də bu yalançı dindarlar camaatı aldadaraq, tüğyan edəcəklər.Elmin inkişaf etdiyi və insanların dünyagörüşünün geniş olduğu bir dövrdə cavanlarımız mütaliə edib, dünya və dini elmləri öyrənmək əvəzinə, kimlərinsə fətvası (göstərişləri) ilə həyatlarını planlaşdırır və qururlar.

Peyğəmbərimiz (s.ə.s.) və imamlarımızın tövsiyələrinə görə yalandan fətva vermək və insanların əməllərinə görə cavab vermək ən çətin əməllərdəndir.

Hədis("Hədisi Qüdsi"-560-s.)İmam Sadiq atası İmam Baqirdən belə buyurur:-Allah Öz Peyğəmbərlərinin birinə nazil etdiyi kitabda buyurmuşdur:-Gələcək zamanlarda Mənim məxluqlarımdan bir dəstəsi dünyanı din müqabilində bağrına basacaqdır.Onlar canavar qəlbi kimi olan qəlblərinə qoyun dərisi geyindirərlər, onların əməlləri hətta acı Sidr ağacından da acıdır. Lakin dilləri (camaatı aldatmaq üçün) baldan da şirindir.Onların batini əməlləri, niyyət və fikirləri iylənmiş ölü heyvanın cəsədindən də üfunətlidir. Lakin onlar Mənim adımdan istifadə edərək qürurlanırlar və ya mənə qarşı hiylə işlədirlər.Onlar zahirdə o işləri guya mənim üçün görürlər,lakin batində isə məkr və hiylədən ibarətdirlər.Mən də öz izzətimə and içmişəm ki, onlar üçün elə bir fitnə yaradam ki,onların burunlarını yerə sürtərəm, hətta hakim sahibləri olan insanlar da heyrət və təəccüblə donub qalarlar. Bu iş Mənim üçün çox asandır.

Görünürsə zor-bəla cılız düşmənə bənzər,
Görməməzlik, qafillik hər təhlükədən betər.

Cılız düşmənə qarşı azaltma qeyzini sən,
Düşməni kiçik bilsən, sən özün kiçilərsən.
Gör, o gücsüz qarışqa qeyrətlidir nə qədər,
Aslan balalarının gözlərinə mil çəkər.
Gövhərini bərk qoru, azmı bu çöldə quldur?
Təsbeh çevir, dua qıl, qulyabani nə çoxdur.
Könül yolunu kəsən soyğunçular, oğrular,
Tələsini, torunu mənzilə yaxın qurar.
Sənə-dindən əl çəkib dünya tələb edənə,
Dinin keşikçiləri, bir görün nə deyir, nə:
"Qayıt ədalətsizin, nakəsin qapısından,
Bu sirlər sarayının ətrafında gəz, dolan!"
Dünya - bu odlu səhra səni coşdurdu... ancaq,
Burda gizlətdiklərin orda aşkar olacaq. ("Sirlər Xəsinəsi")

İMANA GƏLİB,SONRA ONDAN ÜZ DÖNDƏRƏNLƏR

əl-Əraf-175-Onlara ayələrimizi verdiyimiz kəsin xəbərini oxu!

Ayənin açıqlanma:-Bu ayə yəhudi alimlərindən olan, Bələm Bauranın haqqında nazil olmuşdur.O, çox böyük alim və zahid kişi idi. Nəyə görə dua etsəydi, Allah qəbul edərdi. O zaman ki, ayələrimizdən ayrıldı, sonra şeytan onu özünə tabe etdi və bir-birləri ilə yoldaş oldular. O, azğınlardan oldu. Bələm Firona tərəf meyilli olmuş və ona qulluq edirdi və Musa Misirdən çıxan zaman Firon Bələmə dedi:-Dua et ki, Allah Musanı və əshabını həbs etsin. Bələm ulağa minib getmək istədikdə, onu nə qədər döysə də,ulaq hərəkər etmədi və dilə gələrək belə dedi:-Vay olsun sənə! Məni nə üçün döyürsən? Sənlə gedib Allahın Peyğəmbərinə və mömin olan qövmə bəd dua etməyimi istəyirsən?

Allah İsmi-Əzəmi onun qəlbindən çıxartdı.Əgər biz istəsəydik, onu yaxşı əməllər sahibinin məqamına ucaldardıq,lakin o, aşağı tərəfə meyil etdi və dünyadan ötrü öz istəyinə tabe oldu. O, bir itə bənzər ki, əgər ona həmlə etsən, dilini çıxararaq, şiddətli nəfəs çəkməklə hürər, yaxud onu tərk edib həmlə etməsən də yenə dilini çıxardar. Yəni ona nəsihət etsən də, etməsən də fərq etməz.Bu, o kəslərə bənzər ki, bizim ayələrimizi təkzib etmişlər. Bu qissələri söylə ki, bəlkə onlar fikirləşsinlər. Ayələrimizi təkzib edib və özlərinə zülm edən kəslər barəsində gətirilən məsəl necə pisdir. Onlar itə oxşadıldı.

Allahın hidayət etdiyi kəs hidayət tapmışdır.Azğınlığa düşmüş kəslər isə ziyankarlardır. (Burada hidayət tapmış kəs bir nəfər kimi, ziyan görmüş isə cəm şəklində deyildi. Bu ona görədir ki, hidayət tapmışlar nə

qədər çox olsa da, bir nəfər hökmündədir, onların yolu birdir. Azğınlıqda onların yolu isə müxtəlifdir.)

Şübhəsiz,Cəhənnəm üçün insan və cinlərdən olan çox tayfalar yaratdıq. Onların qəlbləri anlamaz, gözləri görməz, qulaqları eşitməz. Onlar dördayaqlı heyvanlar kimidirlər, fikirləri ancaq dünyada yaşamaqdır, bəlkə onlar heyvanlardan da çox azğındırlar. Onlar qafildirlər. **(Kitabul-Bəyan fi təfsiril-Quran**.)

ən-Nəhl-83-Onlar Allahın nemətini tanıyar,sonra inkar edərlər. Onların çoxu kafirdirlər.

YALANDAN MƏNƏ VƏHY GƏLİB DEYƏN KƏSLƏR

əl-Ənam-93-98-Allaha böhtan atan, ya ona heç bir şey vəhy olunmadığı halda,"mənə vəhy olunub" deyən, yaxud:-"Allahın nazil etdiyi kitabların bənzəri mənə də tezliklə nazil olacaq,"-deyən kəsdən daha zalım kimdir?

Ayənin açıqlaması:-Bu ayə Əbdullah ibn Sərhin barəsində nazil olmuşdur. Mədinədə İslama gəlib və gözəl xətti olan bu adam, Peyğəmbərə ayə nazil olarkən özü onu hazırlayıb oxuyar, Əbdullah isə yazardı. Bəzən Peyğəmbərin dediyi sözləri qəsdən səhv yazardı,bu da Həzrətin nəzərindən qaçmazdı. Sonra isə Əbdullah mürtəd olub, Mədinədən qaçdı. O deyərdi ki, Muhəmməd (s.ə.s.) deyən sözlərdən mən də deyirəm, ona nazil olan ayələrdən mənə də nazil olub.

Sonra bu ayə Məkkənin fəthi zamanı nazil oldu və Peyğəmbərimiz (s.ə.s.) onun qanını halal etdi.

Bir gün Məscidil-Həramda olarkən Əbdullahı süd qardaşı Osman əlindən tutub Həzrətin xidmətinə gətirərək dedi:

-Ya Rəsulullah! Bu mənim qardaşımdır Onu əfv et.

Hz. Peyğəmbər (s.ə.s.) söz deməyib sakit dayandı.Osman bir neçə dəfə sözünü təkrarladıqdan sonra Peyğəmbər (s.ə.s.) Əbdullahı əfv etdi.

Sonra Peyğəmbər (s.ə.s.) səhabələrə buyurdu:-"Mən sizə deməmişdim ki, kim onu görsə, öldürsün?

Onlardan biri dedi:-Ya Rəsulallah!Mənim gözüm sizdə idi. Əgər işarə etsəydiniz, onu öldürərdim.

Peyğəmbər (s.ə.s.) dedi:-Gözlə işarə etmək Peyğəmbərlərə haramdır.

əl-Ənam-98-Ayənin ardı:-Bu zalımların ölüm şiddətində olduqları vaxt görərsən ki,ölüm Mələkləri onlara deyərlər:-Əgər bacarırsınızsa, özünüzü xilas edin.Bu gün Allaha qarşı olmayan sözü deyib onun ayələrinə təkəbbür etdiyinizə görə sizə zəlillik gətirən əzab ilə cəza

verilər**. (Kitabul-Bəyan fi təfsiril-Quran.)**

PEYĞƏMBƏRLƏR ÜÇÜN İNS VƏ CİNDƏN DÜŞMƏNLƏR VARDIR

əl-Ənam-112-Beləliklə,biz hər bir Peyğəmbər üçün cin və insan şeytanlarından düşmənlər yaratdıq. Onların biri digərini aldadaraq məhv edər. Əgər sənin Allahın istəsə, onlar bunu etməzlər. Onları iftiraları ilə birlikdə tərk et.Onlar öz vaxtında əməllərindən xəbərdar olarlar. Qoy iman gətirməyənlər batil sözləri eşitsinlər, vəsvəsələrə razı olsunlar, bacardıqları qədər günah qazansınlar.

Qurani-Kərimdə mələklər haqqında **78 ayə** nazil olmuşdur.

Açıqlama:İslam dininin hökmlərindən biri də, bu dində olan insanların, Allahın yaratdığı mələklərə inanaraq, onları sevməyimizdir. Çünki,kainatı,göyü-yeri, insanları,canlı-cansız varlıqları,ayı, günəşi, ulduzları, göydən yerə tökülənləri, yerdən çırtlayıb çıxanları Allahın əmri ilə mələklər idarə edirlər. Həmçinin,bizim bu dünyada bütün işlərimizi idarə edən Allahın əmrinə tabe olan mələklərdir.Sonra isə canımız alanda, qəbirdə,Bərzaxda,Məşhərdə,Siratda, Mizanda Cəhənnəm və ya Cənnətdə də bizi idarə edən, yenə də Allahın əmrinə tabe olaraq, öz vəzifələrini candildən yerinə yetirəcək mələklər olacaqdır.

Bizim həyatımızda baş verən istər yaxşı, ya pisi,həyatı ölümü, sevinci-kədəri, bəla-müsibəti bir sözlə Allahın bizim üçün buyurduğu bütün əmir və tədbirləri hər an Allahın əmrini gözləyən mələklər icra edirlər. Bu səbəbdən də, mələklərin hansının yaxşı və ya pis olmasını biz bilə bilmərik. Çünki, bizim öz əməllərimizin nəticəsi olaraq, Adil-Allahın çıxartdığı qərar və əmri, heç bir duyğu üzvü olmayan, lakin havasu qədər Allahın əmirlərinə ehtiyacları olan mələklər sevinə-sevinə yerinə yetirərlər.

Bütün bunlar haqqında bilgiləri,Uca Allah Peyğəmbərimizə Hz.Cəbrail vasitəsilə çatdıraraq, Qurani-Kərimdə bizlərə xəbər vermişdir:

ət-Tariq-1-4-And olsun göyə və zahir olana!Sən nə bilirsən ki, zahir olan nədir? O, yanan ulduzdur, qaranlığı dələrək nurunu ətrafa yayar. Elə bir şəxs yoxdur ki, onun üçün mələklərdən nəzarətçi olmasım!

"əl-Həcc-74-Allah mələklərdən və bəşər cinsindən elçilər seçər. Mələklər vasitəsilə Peyğəmbərlərə vəhyi göndərər və Peyğəmbərlər vasitəsi ilə də insanlara çatdırar. Həqiqətən, Allah eşidən və görəndir. Yəni, Allah mələklərdən Cəbrail və Mikail kimi elçilər seçər, insanlar arasında da Peyğəmbərləri seçər."

ALLAHIN ƏMRİ İLƏ PEYĞƏMBƏRLƏRƏ VƏHY GƏTİRƏN MƏLƏK

əl-Bəqərə-97-98-Ya Peyğəmbər! Cəbraili düşmən tutan kəsə de ki:-Həqiqətən, o, Allahın izni və əmri ilə özündən əvvəl olan kitabları təsdiq edən halda hidayət edən və Peyğəmbərin nübüvvətini möminlərə bəşarətverici halda Quranı sənin qəlbinə nazil etdi.Hər kəs Allahla, onun mələkləri Cəbrail və Mikail ilə düşmən olsa, həqiqətən, Allah da o kafirlər ilə düşməndir.

Açıqlama:Cəbrail(ə.s.) Qurani-Kərimi Peyğəmbərimizə nazil edib, möminlərə müjdə verdikdən sonra, yəhudi alimlərindən Əbdullah ibn Suriya Hz.Peyğəmbərdən xəbər aldı ki, hansı mələk sənə vəhy gətirir? Hz. Peyğəmbər: ”Cəbrail”,-deyə cavab verir. Əbdullah dedi:”O, bizim düşmənimizdir. Əgər Mikail gətirsəydi biz sənə iman gətirərdik.Çünki o, Musaya xəbər vermişdir ki, Büxtünnəs (Hz.İsa)gəlib, Bəni-İsraili tamam qətlə yetirəcək. Bundan başqa da bütün pis xəbərləri Cəbrail gətirərdi, ancaq Mikail həmişə xoş xəbərlər gətirir.”

Həqiqətən də,insanlar nə qədər alim olsalarda,öz nəfsi istəklərinə uyaraq, haqqın gözünün içinə baxa-baxa haqqı danarlar. Çünki hamı bilirdi ki, bütün mələklər yalnız Allahın istəyi və əmri ilə hərəkət edirlər. Onların biz insanlar kimi duyğu üzvləri yoxdur ki, kiməsə qəzəb və ya nifrət etsinsin. Onlar Allahın ağıl idrak verdiyi ən seçmə və istəkli yaratdıqlarıdır. Onlar Allahın məhəbbətindən və əmrinə tabe olmaqdan başqa heç nə düşünməzlər.

Bu hada da Qurani-Kərimdə buyurulur:

“Məryəm-63-Hz.Peyğəmbər Cəbraildan soruşdu ki,nə üçün tez-tez nazil olmursan?Cəbrail cavab verdi:-Biz dünyaya ancaq sənin Allahının əmri ilə nazil olarıq. Önümüzdə, arxamızda və onların arasında nə varsa, ona məxsusdur və sənin Allahın səni yadından çıxaran deyidir.”

QURANDA MƏLƏKLƏRİN DUASI

Açıqlama:Mələklərin duyğu üzvləri olmasa da,öz ağılları ilə Allaha qarşı olan həddiz məhəbbətləri səbəbindən, Onun yaradaraq, öz ruhundan bəxş etdiyi insanları, Allahın ruhu xatirinə yenə də Qadir-Allaha yalvararaq,insanlar üçün əfv dilərlər. Hətta elə mələklər var ki,insanların yaranışından,ta Qiyamət gününədək biz insanlar üçün gecə-gündüz ağlayaraq, Allahdan bizlər üçün bağışlanma dilərlər.

“əl-Muminun-7-9-Allahın əmrinə itaət etməklə ərşi götürən və

ərşin ətrafında olan mələklər öz Allahlarına həmd etməklə təsbih edər, Allahın təkliyinə inanar və yer əhlindən iman gətirən kəslər üçün bağışlanma dilərlər:-Ey bizim Allahımız!Sən hər şeyi öz rəhmət və elminlə əhatə etmisən.Tövbə edən kəsləri bağışla! Həmin tövbə edənlər Sənin yoluna, dəvət etdiyin yola tabe oldular.Onları Cəhənnəm əzabından qoru! Ey bizim Allahımız! Sənin yoluna tabe olanlar, atalarından, zövcələrindən, övladlarından saleh olan şəxsləri də vədə verdiyin nemətlə dolu olan Cənnətə daxil et! Həqiqətən, Sən qələbə çalan və hikmətlə rəftar edənsən!

Onları pisliklərdən saxla! Həqiqətən, pisliklərdən saxladığın şəxsə rəhm etmisən və öz nemətini ona şamil etmisən.Belə bir nüsrət böyük bir nicatdır."

əş-Şura-5-Az qalır göylər bir-birinin üzərində yarılsın, mələklər Allahlarına sitayiş edib və yer üzünün sakinləri üçün bağışlanma diləyərlər. Agah olun, Allah bağışlayan və Rəhimlidir.

ALLAHIN ƏMRİ BİZİMLƏ BİRLİKDƏ OLAN MƏLƏKLƏR

Açıqlama: Elçi mələklər haqqında Qurani-Kərimdə 13-ayə buyurulmuşdur.

Mərufətnamə: -Allah mələkləri müxtəlif rəngli nurlardan yaratmışdır. Ərşə yaxın olan mələklərin rəngləri tünd-ağ rəngdədir və yalnız Allahın əmrlərinə görə hərəkət edər, yalnız onu təsbih edərlər.Çoxu insan surətindədir.Lətif, görünməz cisimlər olduqları üçün çeşidli surətlərə bürünərlər və Allahın əmrlərini yerinə yetirmək üçün şimşək sürəti ilə hərəkət edərlər. Hər birinin vəzifəsi ayrıdır. Kimi Ərşin ətrafında təsbih və təvafla məşğuldur, kimi Kürsüdə, kimi Sidrədə, kimi Cənnətdə, kimi Cəhənnəmdə, kimi göydə, kimi yerdə, kimi ayaqda, kimi oturan yerdə rükudə, kimi səcdədə davamlı olaraq Allahı təsbih edərlər. Kimisi də insanların xidmətində olub gecə-gündüz onları qoruyub, əməllərini yazar. Bunlara"Kiramən-katibin" və ya qoruyucu mələklər deyərlər.

Bunlardan ikisi haqq-hesab aparan mələklərdir. Hər bir insanın çiynində-sağında və solunda iki mələk əyləşib.Onlar insanların ömür boyu gördükləri xeyirli əməllərin və pis işlərinin haqq-hesabını aparırlar. Sağ çiyində oturanlar insanların gün ərzində gördüyü hər bir xeyir işə on dəfə savab yazarlar.Həmçinin Allahın əmri ilə yaşadığımız müddətcə bizə ruzi verən, xəta-bəladan, təhlükələrdən və pisliklərdən qoruyan mələklər vardır. Bu haqda Qurani Kərimdə belə buyurulur:

Qaf-17-18-O zaman görüşən mələklər bir-birinə yetişərlər. Onların biri sağda, o biri solda əyləşib və onlar bəndədən ayrılmazlar. Bəndə hər bir söz danışanda, ağzından çıxan kimi mələklər yazarlar. Sağ tərəfdə olan mələk yaxşı əməli birə on yazar, sol tərəfdə olan mələk pis əməli yeddi saatdan sonra yazar ki, bəlkə bəndə tövbə etsin.

ər-Rəd-12-Bəndələrin əməllərini,özünü qorumaq məqsədi ilə Allah üçün mələklər vardır ki, bəndənin qarşısından və arxasından bir-birinin ardınca nazil olarlar. Allahın əmri ilə fəlakət və qorxu yerlərində onu qoruyarlar.İnsanın çiynində iki alıcı mələk əyləşib. Hər bir şeyi dərk edərlər və bəndədən ayrılmazlar.

əl-İnfitar-10-11-Həqiqətən,sizi saxlayanlar vardır.Onlar sizin istər xeyir istərsə də şər əməllərinizi qoruyarlar. Onlar Allah yanında Kərim olan kəslərdir.Bəndələrin əməllərini yazanlardır.Sizin etdiyiniz şeyləri bilirlər.

MÜŞRİKLƏR MƏLƏKLƏRİ ÖZLƏRİNƏ ŞƏFAƏTÇİ SANARLAR

Açıqlama:Bəzi insanlar elə düşünürlər ki, əgər ətrafımızda həqiqətən mələklər varsa, onda elə mələklərdən nə istəsələr, onlar da yerinə yetirərlər. Belə düşünmək həm Allaha, həm də mələklərə qarşı çıxmaq deməkdir.Çünki, mələklər yalnız Allahın əmirlərini yerinə yetirmək üçün yaradılmışlar.Onları biz insanlar kimi və yaxud da şeytanlar kimi heç nə ilə aldatmaq olmaz. Onlar öz işlərində çox dəqiq və məsuliyyətlidirlər.

ən-Həcm-25-28-Axirət də,dünya da Allaha məxsusdur!Heç kəs Allahın izni olmadan onlara malik ola bilməz.Göylərdə çoxlu mələklər vardır ki, müşriklər onları özlərinə şəfaətedici xəyal edərlər. Onların şəfaəti müşriklərə heç bir xeyir verməz. Ancaq Allah öz istədiyi və razı olduğu kimsəyə şəfaət etməyə izin verdikdən sonra onlara şəfaət olunar. Həqiqətən,axirətə inanmayan kəslər mələkləri qadın adları ilə adlandırıb, onları Allahın qızları hesab edərlər. Onların bu haqda heç elmləri yoxdur və heç bir şey bilmirlər. Onlar ancaq zənnə tabe olarlar. Həqiqətən, zənn heç vaxt həqiqət ola bilməz.

MƏLƏKLƏRİN YARANIŞI

Mələklər haqqında:-"40 sual"kitabından:-Allah-taala ruhlar aləmini yaratdıqdan iki min il sonra cisimlər aləmini yaratdı. Altı gündə

Ərş-Əladan qaranlıq pərdələrə çatan qədər hamısını yaratdı. Sonra Müqərrəb mələklərini-Ərşi-Əzəmi, Haffun və Saffun mələklərini Ərşin yanında məskən yaratdı.Bunlar daima ayaq üstə durub və "Subhanallah vəlhəmdulilləh və lə ilahə illəllah vallahu əkbər və lə həvlə vəla qüvvətə illə billəhil aliyyul azim"-deyə zikr edərlər. Digər mələklərin də hər birinə bir məkan düzəltdi. Bir sinifini Kürsüdə,bir sinifini Sidrdə,bir sinifini Livaul-həmd altında,bir çox sinifləri Cənnətdə hurilər və qılmanlar ilə yerləşdirdi.Mələklərin minlərcə sinifləri də göylərdə, yerdə, dənizlərdə, Cəhənnəmdə yerləşmişlər və burada yaradılmışların xidmətinə verilmişlər. Cəhənnəmdəki mələklər Zəbanilər adlanır. Mələklər lətif, incə və hər bir şəklə, surətə düşməyə qüdrətləri olan, gözə görünməyən məxluqlardır. Allah onları oddan və nurdan yaratmışdır. Mələklər mənəviyyat aləmində olan vücudlardır,onlar cisim deyil, görünməzlər. Biz gərək görmədiyimiz şeyləri inkar etməyək. Çox şey vardır ki, onu görmürük,ancaq onların varlığını qəbul edirik. Məsələn, danışarkən bir-birimizin səsini eşidirik, lakin səsi heç kəs görə bilmir. Əlimizdən bir şeyi buraxsaq,o şey yerə düşür. Bununla da yerin cazibə qüvvəsinə inanırıq. Lakin qüvvəni görmək və ya onu əl ilə hiss etmək mümkün deyildir. Mələklər də buna bənzər bir mənəvi vücuddurlar.

Mələklər iki növdən ibarətdirlər. Onların bir qismi göylərin, ulduzların ətrafında dövr edərək,yer aləmində olan insanların nəfsi-natiqəsi ilə məşğuldurlar. Digər bir qismi isə Allahın mərifət və məhəbbətinə qərq olub ona itaət etməklə məşğuldurlar. Bu qism mələklərə" müqərrəb",Allah dərgahına yaxın mələklər deyilir.

İslam dininə görə mələkləri ancaq Peyğəmbərlər görüblər.İnsanlara gəldikdə isə onlar bu məxluqları yalnız axirət günü görə biləcəklər. Mələklər digər canlı məxluqlardan fərqli olaraq yemək yemirlər,evlənə və doğa bilməzlər.Onların vəzifəsi Allaha ibadət etmək və əmrlərini yerinə yetirməkdir.Onların sayını bilmək, hər birinin nə ilə məşğul olduğunu bilmək insanlar üçün açılmaz bir sirdir.Ancaq Quranda bir neçə mələyin adı çəkilir, bunlardan biri Cəbraildir ki,Peyğəmbərlər arasında vasitəçilik edən elçidir.Bəzən ona vəhy mələyi də deyirlər və o, yerlərə müvəkkildir. Mələklərdən ikincisi Mikaildir.Təbiətə müvəkkildir; külək əsdirilməsi, yağış, qar yağdırılması bu mələyə tapşırılıb.Mələklərdən üçüncüsü Əzraildir ki, ruhu almağa müvəkkildir. Quranda onun adı Ölüm mələyi adlanır. Bu mələk Allahın əmri ilə ölümə məhkum olan insanların ruhlarını bədənlərindən ayırır. Mələklərdən dördüncüsü İsrafildir. O, insanları məhşərə dəvət etməyə müvəkkildir.Bu mələk öz suru ilə dünya həyatının sona yetdiyini və Qiyamət gününün başlandığını

bildirəcəkdir. Aydın cavab budur ki, biz yenidən dirilib cavab verəcəyik. Adları çəkilən mələklərdən beşincisi İblisdir.Allahın əmrindən çıxıb Adəm Peyğəmbərə baş əymədiyi üçün Cənnətdən qovulmuşdur.

Dinimiz adları çəkilənlərdən başqa yerdə qalan mələkləri üç qrupa ayırır. Bunlardan birincisi, qoruyucu mələklərdir ki, bunlar insanı bəlalardan qorumaq üçün xəlq edilmişdir. Cənnəti qoruyan Rizvan adlı mələk və başda Malik olmaqla Cəhənnəmi qoruyan on doqquz mələk də bu qəbildəndirlər. Üçüncü qrupa aid olan mələklər qəbir mələkləridir. Onlar insan öləndən sonra qəbirdə onu sorğu-suala tuturlar.

MÜQƏRRƏB VƏ YA PEYĞƏMBƏR MƏLƏKLƏR

Mərufətnamə:Mələklərin də özlərinə görə Peyğəmbərləri vardır. Bunlardan biri Sur sahibi olan İsrafildir.Digəri Cəbraildir ki, 600 qanadı vardır.Hər qanadının yüz lələyi vardır, uzunluğu şimaldan cənuba qədərdir. Bütün qanadlarının rəngi nurdandır. Böyük bədəni qardan daha ağdır və elə qüvvətlidir ki,qanadının bir lələyi ilə dağları yerindən oynadar.Bu mələk yer üzündəki Peyğəmbərlərə Allahın salam və vəhyini gətirər.

Mələklərin bir Peyğəmbəri də Mikaildir ki, qanadlarının sayı yalnız Allaha bəllidir.O,qızğın dənizlərdəki mələklərin qoruyucusudur.Yerdə və göydə mələklərin hər biri yağışın yağmasını idarə etmək kimi bir çox işləri görməyə əmr alırlar. Yağışın hər damlasını bir mələk yerə endirir və Qiyamətə qədər də o lələyə bir daha növbə çatmaz. Ondan hər damlanı Allahın əmri ilə bir mələk endirib, öz yerinə qoyur.Çünki mələklər nurdan yaradılmışdır, onun üçün yağış endirmək kimi işlərdə bir-birinin üzərinə yığılmayıb işıq şüaları kimi bir-birini keçərlər.Yerə yağan yağışlar Mikailin əmr və tədbiri ilə yağar. Bu,Onun vəzifəsidir. Mələklərin bir Peyğəmbəri də Əzraildir. Onun vəzifəsi ruhları almaqdır. Bütün yer onun qabağında sərilmiş bir süfrəyə bənzər.Rəhmət və qəzəb mələklərindən neçə yüz min köməkçisi vardır.

Hz.İsrafil, Hz.Cəbrail, Hz.Mikail və Hz. Əzrail bütün mələklərin Peyğəmbərləridirlər.Cənabi-Allah Ərşi-Əzəmin altında və onun nurundan Kürsünün qarşısında, Cənnətlərin üstündə ağ inci kimi bir fəza yaratmışdır ki, Sidrətul-Müntəhadır.Burası Cəbrail ilə Müqərrəb mələklərin məkanıdır.

SİDRƏTUL-MÜNTƏHADA VƏKİL OLAN MƏLƏKLƏR

Uca Allahın Sidrətul-Müntəhada vəkil etdiyi mələyi,çox böyük cüssəli və əcaib şəkildə yaradıldığı bildirilir. Onun yetmiş üzü vardır. Hər üzündə yetmiş ağzı vardır. Hər ağzında yetmiş dili vardır. Hər dili, başqa bir dildə Allaha davamlı təqdis edir. Allah–taala Sidrədə sıra ilə dörd min səff mələk yaratmışdır. Hər səfdə mələklərinin sayı on mindır. Birinci cərgədə olan mələklər, davamlı səcdəyə gedərək: "Sübhənəllah" deyirlər, ikinci cərgədə olan mələklər, daim oturub: "Əlhəmdülillah" deyərlər. Üçüncü safda dayanan mələklər, həmişə rükuyə gedib : "La ilahə illəllah" deyərlər. Dördüncü safda qalan mələklər, qiyamda dayanıb: "Allahu əkbər" deyərlər.

Haqq Təala, Sidrədə, yaşıl zümrüddən, minarə şəklində bir böyük dirək yaratmışdır ki, yüksəkliyi Sidrədən yetmiş min fərsəx məsafədədir. O dirəyin başında ağ incidən böyük bir qübbə yaratmışdır. O qübbənin üzərində tovuz quşu şəklində, müxtəlif cövhərlər rəngində bir əcaib mələk yaratmışdır. On min beş yüz qanadı vardır. Hər qanadında yüz min saçağı vardır. Hər bir saçağı üzərində üç sətir yaşıl rəhgdə yazılmış yazı vardır. Birinci sətirdə: "Bismillahir Rahmanir Rahim", ikinci sətirdə: "Lə iləhə illəllah Muhəmmədun Rəsulullah", üçüncü sətirdə: "Onun zatından başqa hər şey yoxluğa məhkumdur" (28/88), yazılmışdır. Buna Ərş xoruzu deyərlər ki, o qanadlarını yaydıqca, onun saçaqlarından Cənnətdəkilərin üzərinə aprel yağışı kimi Haqqın izni ilə rəhmət enər. Namaz vaxtlarında, o ərş xoruzu, qanadlarını bir-birinə vurub, fəryad ilə ötər. Qanadlarının hər bir saçağından başqa bir səda yaranaraq, Cənnət ağaclarının budaqlarını səhər küləyi kimi yelləyər. Onun səsindən, Cənnətdə olan huri və qılmanlar məmnun olub, otaqlardan başlarını çıxarıb, bir-birlərini baxaraq sevincək olarlar ki; "Məhəmməd sallallahu aleyhi vesselamın ümmətinin namaz vaxtı gəlmişdir. İndi hamısı ibadətlə məşğuldur." Haqq Təala, ərş xoruzuna nida edər ki: "Ey quş, nə üçün belə fəryad edərsən?" O mələk deyər ki: "Ey Allahım, mömin qulların dünyada sənə ibadətə yönəldikcə, mən onlar üçün səndən rəhmət istəyirəm." O zaman ona, Haqqın xitabı gəlir ki: "Ey quş, dünyada beş vaxt namazını əda edən qullarıma rəhmət edib, Cəhənnəm atəşindən azad edirəm. Nəim Cənnətləri ilə onları sevindirərəm." Bu xitabdan Ərş xoruzu məmnun olmuşdur. (Qüdrətiylə kainatı yaradan Allah münəzzəhdir. O, kainatların hikmətiylə unikal yaratmışdır. Elmiylə hər şeyi əhatə etmiş və hər şeyi tək-tək saymışdır.)

QURANDA MƏLƏKLƏR SƏKKİZ SİNİFƏ AYRILIR

1-Ərşi götürən mələklər.

əl-Haqqə-15-Mələklər göyün ətrafında olarlar.O gün onlardan səkkizi sənin Allahının ərşini çiyinlərində daşıyarlar.

2-Ərşin ətrafında dolanan mələklər:

3-Mələklərin böyükləri:

4-Cənnət mələkləri-Başçısı Rizvandır.

ər-Rəd-23-24-Mələklər Cənnət əhlinin yanına hər qapıdan,oranın səkkiz qapısının hər birindən daxil olarlar və deyərlər:-Dünyanın şiddətli bəlalarına, ya ibadətlərin çətinliyinə,ya günahlardan çəkinməyə səbir etdiyinizə görə sizə salam olsun!Nə yaxşıdır evin axırı ki,axirət evində qəlbiniz istəyən nemətləri gördünüz.

5-Cəhənnəm mələkləri-Başçısı Malikdir.

əl-Müddəsir-30-Onun üstündə 19 gözətçi mələk vardır. Biz Cəhənnəmin gözətçilərini ancaq mələklərdən etdik ki,Cəhənnəm əhlinə əzab verməyə qüvvələri çatsın.Biz onların sayını onun üçün 19 etdik ki, kafirlərə imtahan olsun.

ət-Təhrim-6-Ey möminlər!Özünüzü və ailənizi elə bir oddan qoruyun ki, onun yanacağı insanlar və kibrit daşlarından ibarətdir. Oraya qəlbi bərk olan mələklər malikdirlər ki, Allaha qarşı günah etməzlər və onun buyurduğu əmrləri yerinə yetirərlər.

6-İnsana vəkil olan mələklər:

7-İnsanın əməllərini yazan mələklər:

8-Dünya işlərinə baxan mələklər:

Fatir-1-Həmd olsun Allaha, göyləri və yeri yaradana, mələkləri bizim üçün elçi eləyənə. O mələklərin iki-iki, üç-üç, dörd-dörd qanadları var və Allah xilqətdə hər nəyi istəsə artırar.Ona görə ki, Allah hər şeyə qadirdir.

İNSANLARI ŞEYTANLARDAN QORUYAN MƏLƏKLƏR

əs-Səffat-1-2-And olsun Rəbbinə ibadət etmək üçün səmada cərgə-cərgə duran mələklərə.Buludları qovduqca-qovanlara,yaxud şeytanların pis əməllərinə mane olanlara,insanlara günah işlər görməyi qadağan edənlərə.

əz-Zariyat-2-And olsun Allahın əmri ilə ruziləri bölən mələklərə!O mələklərə ki, möminləri aldatmaması üçün şeytanları incidərlər.Yaxud da özlərini günah etməkdən saxlayan, nəfsani istəklərə meyl etməkdən qorumaq üçün özlərini incidən insanlara.

Hədis: Peyğəmbərimiz (s.ə.s.) buyurur ki:-Əgər şeytanlar in-

san qəlbinə yol tapıb,onu ələ almasaydılar, insanlar asimanda olan mələkləri görərdilər. Odur ki, insan öz qəlbini xəbasətdən təmizlədikcə, mərifət yoluna daha tez yaxınlaşar,onun qarşısına yeni imkanlar çıxar. **(Zubdətul əhadis.)**

MƏLƏKLƏR YALNIZ ALLAHIN ƏMRİNDƏ OLUB, ONA İBADƏT EDƏRLƏR

Bütün yer üzündə olan canlı-cansız məxluqat və daima Allahın əmrlərini yerinə yetirən mələklər gecə-gündüz Allahı təsbih edər və Ona ibadət edərlər. Bu, onlar üçün böyük bir mənəvi qidadır. Bizim yaşamağımız üçün nəfəs alıb-verməyimiz vacib olduğu kimi mələklər də Allahın əmri və göstərişi olmadan yaşaya bilməzlər.

əs-Saffat-164-166-Mələklər deyərlər:-Bizdən elə bir kəs yoxdur ki,onun müəyyən yeri olmasın və biz Allahın hüzurunda səf-səf dururuq.Biz yalnız Allahın əmrində olub və yalnız onu təsbih edərik.

əl-Ənbiya-19-26-28-30-Göylərdə və yerdə olanlar,mülk, insanlar və cinlər Allaha məxsusdur.Allahın yanında olan mələklər ibadət etməkdən boyun qaçırmazlar və çox ibadət etməkdən yorulmazlar. Müşriklər dedilər ki, Allah mələkləri özünə övlad götürmüşdür. Allah bu sözlərdən pakdır. Əksinə, mələklər Allahın hörmətli bəndələridir.Mələklər Allahın sözünün qarşısında ondan qabaq söz danışmazlar və Allahın əmrinə tabe olarlar. Mələklərdən hər kəs desə ki,"Mən Allaham,"biz ona da, zalım bəndələr kimi Cəhənnəmdə əzab verərik.

BİRİNCİ GÖYÜN QATLARINDA OLAN MƏLƏKLƏR HAQQINDA

(Mövlana Furatı"Qırx sual") Göyün 7-ci qatında elə mələklər var ki,onların sayını yalnız bir Allah bilir. Bu mələklər geriboyunlar adlanır.Onların hər birinin özünəməxsus siması və surətləri vardır. Bu mələklər bir-birinə baxmırlar, Allahın qəzəbindən qorxaraq gecə-gündüz ağlayırlar. Axirət gününədək belə ağlar qalacaqlar.Əgər onların naləsini bir canlı eşitsə, həmin saat ölər. Onların ağlaması ilə əlaqədar olaraq Hz.Peyğəmbər belə demişdir:-O gecə mən Cəbrail ilə Merac edərkən, göyün 7-ci qatında qulağıma ağlaşma və inilti səsi gəldi. Mən Cəbraildən soruşdum:-Bu nə iniltidir,onlar nə üçün ağlayırlar? Cəbrail (ə.s.)dedi ki, bunlar geriboyunlulardır. Sənin ümmətinin günahlarını yumaq üçün ağlayırlar. Ağlayırlar ki, Xudavəndi-Kərim sənin ümmətinin günahlarını bağışlasın. Göyün 7-ci qatında uzunluğu 80 ilə qət edilə

bilən bir dəniz var. Həmin dənizdə mələklər yaşayırlar. Onların da işi-peşəsi göz yaşı tökmək, Allaha yalvarmaqdır. Yalvarırlar ki, Allah Muhəmməd Peyğəmbərin ardıcıllarının, ümmətinin günahlarından keçsin, onları bağışlasın. Həmin mələklər Qiyamət gününədək beləcə Allaha yalvaracaqlar.

Cənabi-Haqq Hərkail adında bir mələk yaratmışdır ki,ona bütün əşyaların adlarını və sirlərini öyrətmişdir. Bu mələk, Allahdan Ərşi təvaf etmək üçün izin istəmiş və Allahdan izin alınca yola çıxmış, 8 min qanadı ilə 3 min il uçmuş, yorulunca Allah ona qüvvət vemiş və uçmasını əmr etmişdir. 3 min il daha Ərşin ətrafında uçmuş, yorulunca Allah ona yenə qüvvət vermiş və uçmasını əmr etmişdir. 3 min il daha uçmuş və yorulunca baxmış ki, 9 min ildə ancaq ərşin bir dirəyindən digər dirəyinə qədər yol getmişdir. O, heyrətlər içində seyr edərkən Allahdan ona səda gəlmiş:

-Ya Hərkail! Qiyamətə qədər uçsan da, yenə də Ərşimi təvaf edə bilməzsən.

MƏLƏKLƏR ÜÇÜN ZAMAN MƏFHUMU

əl-Məaric-4- Mələklər və Cəbraildən ibarət olan ruh dünya ilə müqayisədə, müddəti əlli min il olan bir gündə Allaha tərəf qalxarlar.

HZ.ƏZRAİL VƏ ÖLÜM MƏLƏKLƏRİ HAQQINDA

ən-Naziat-1-8-And olsun şiddətlə çəkənlərə-kafirlərin ruhlarını dərilərinin və dırnaqlarının arasından zəhmətlə çıxaran mələklərə. And olsun şad olanlara; o mələklərə ki, möminlərin ruhlarını alanda onlara məqamları olan behişti göstərməklə şad olarlar. And olsun suda üzənlərə; o mələklərə ki, möminlərin ruhlarını aram ilə çəkib onları rahat qoyurlar. And olsun işləri tədbir edənlərə; o mələklərə ki, bəndələrinin işlərinin tədbirini tökürlər. O gündən ki, yerə hərəkət verər və zəlzələ başlayar. Bütün qəlblər o günkü gündən qorxarlar.

İNKİR VƏ MİNKİR HAQQINDA

əl-Ənfal-50-Ya Muhəmməd!Kaş sən mələkləri kafirlərin üzlərinə və arxalarına vuraraq onlara:-"Yandırıcı əzabı dadın!"-deyib canlarını alanda görəydin!

əl-Əraf-6-Əlbəttə, onlara göndərilmiş Peyğəmbərlər və elçilər barəsində sual verəcəyik.Gördükləri işləri tam biliklə onlara hekayət edəcəyik. Çünki biz onlardan bir an belə uzaq və xəbərsiz deyildik.

Açıqlama:"Peyğəmbərə 40 sual"kitabı Mövlana Furatı tərəfindən

qələmə alınmışdır:-İnkir və Minkir haqqında Peyğəmbərimiz buyurur:-Allah-taala İnkir və Minkir adlı iki mələyi xəlq etmişdir ki, yer üzündə hər hansı bir bəndə vəfat edib qəbrə qoyulanda hər iki mələk onu sorğu-sual etsin. Əgər vəfat edən mömin bəndədirsə, onlar mərhumu xoş sifətlə, hörmətlə dindirər. Əgər vəfat edən kafirdirsə, onlar çirkin, bədheybət bir halda nazil olarlar. Bu vaxt mələklərin gözlərindən qığılcım yağar, səsləri göy gurultusunu xatırladar. Onlar əllərində odlu dəyənəklə ölmüş adamı sorğu-sual edərlər.

Müsəlman can verən zaman onun yanına ilahi baxışlı, rəhmdil mələklər gəlirlər. Cənnət huriləri ilə birlikdə Ölüm mələyi də gəlib deyir:-Ruh,Allahın hökmü ilə taqətsiz, zəif bədəndən çıx!

Bu sözlərdən sonra müsəlmanın ruhu bədəndən çıxır. Bədəndən ayrılan ruhu mələklər Cənnətdən gətirilmiş örtüyə büküb, göyün yeddinci qatına aparırlar. Allah-taala bu ruha:-"Xoşbəxtsən, mənim qulum,"-deyəcəkdir.

Mərhumu torpağa tapşırdıqdan sonra rəhmdil mələklər onun ruhunu yenidən bədənə daxil edərlər. Mərhumun qəbrinə İnkir və Minkir gələrlər.Onlar mərhuma sual verərlər:

-Rəbbin kimdir? Hansı dindənsən? Kitabın nədir?

Müsəlman cavab verər:

-Rəbbim aləmlərin sahibi Allahdır, dinim İslamdır,kitabım da Qurani-Kərimdir.Mələklər soruşarlar:

-Allah sizə kimi Peyğəmbər göndərib?

Müsəlman cavab verib deyər:

-Muhəmməd (s.ə.s.)Peyğəmbəri.Onun buyurduqlarını Allahın kəlamı sayıram.

Mələklər yenə də soruşarlar:-Sənin biliyin nəyə əsaslanır? Nəyə inanırsan? Müsəlman cavab verər:

-Mənim inandığım Allahdır, Peyğəmbərlər, Kitablar, Mələklər, Allahın qəza-qədəri və onu Özü istəsə, dəyişdirməyə qadir olmasıdır. Biliyim isə Muhəmməd Peyğəmbərin Qurandan buyurduqları, Allahın əmrləri və onları Qiyamət gününəcən yaşadacaq Əhli-Beytin elminə.

Sonra isə bütün həyatımızın hər məqamı, zamanı, ibadət və itaətimiz, hiss və duyğularımız, əməl və niyyətlərimiz, hətta unutduğumuz bütün anlar haqqında sorğulanacağıq.

Sorğu-sualdan sonra İnkir və Minkir müsəlmanın(əgər mömindirsə) qəbrini nur ilə doldurar və Cənnətdən ora yol açılar. Sonra mömin müsəlmanın qəbrinə insan qiyafəsində nur sifətli,ənbər qoxulu bir varlıq gələr. O,mömini salamlayıb deyər:-Burada qalacağın vaxt sənin üçün xoş keçər. Sənə şad xəbər gətirmişəm Allah səni xoşbəxtlərin

cərgəsinə yazmışdır.

Mərhum soruşar:-Mənə belə bir xoş xəbəri gətirən kimdir?

O deyər:-Bu o kəsdir ki,yer üzündə sənə xeyirxah işlər görməkdə kömək edib və bundan sonra Qiyamət gününədək səninlə yol yoldaşı olacaq.

Əgər bir kafir bu dünyadan köçüb getməyə hazırlaşarsa,ölümqabağı onun ətrafına eybəcər sifətli,qara geyimli kifir və işgəncə verən mələklər yığışar.Ölüm mələyi gəlib deyər:-Ey ruh,bu natəmiz bədəndən çıx və bəd xəbəri eşit.Allahın dərgahında səni qəzəb və qeyz gözləyir.

Əzrailin sözlərini eşidən ruh bədəndən ayrılır. Ölüm mələkləri ona işgəncə verərlər. Mərhum torpağa tapşırılan zaman İnkir və Minkir gəlib ona suallar verərlər. Kafirə suallar verib ondan "bilmirəm" sözünü eşitdikdə, mələklər odlu dəyənəklə ona ağır zərbələr vurarlar.Elə zərbələr ki, dağlara dəysə,dağlar yerin yeddi qatına keçər.Qəbirdən dəhşətli bağırtılar eşidilər. Bu bağırtıları eşidən ruhlar əzab verilən ruhu lənətləyərlər.

Sorğu-sual başa çatdıqdan sonra başqa bir mələk gəlib deyər:

-Mən o kəsəm ki, Qiyamət gününədək sənə əzab və işgəncə verəcəyəm. Çünki sən həyatda bəd əməllərlə məşğul oldun,bir dəfə də olsun tövbə edib bəd əməllərindən əl çəkmədin. Allahın, Peyğəmbərin olduğunu bildiyin halda onların yolunu tutmadın, dinsiz olaraq qaldın. Günahlar etdin,lakin bir dəfə də tövbə etmədin.

Qəbirdə yatan kafir dəhşətlə bağıraraq deyər:-Kaş ki dünyaya gəlməyəydim və belə əzablara düçar olmayaydım.

Hədis-Hz.Əli(ə.s) buyurur:-Allah-taala mələyə yalnız əql verib, şəhvət və qəzəb verməyib,heyvanlara isə şəhvət və qəzəb verib əql verməyib. Amma insana onların hamısını verməklə onu şərəfləndirib. Əgər o öz şəhvət və qəzəbini əqlə tabe etsə, bu çarpışmada belə bir mərtəbəyə yetişdiyi üçun mələklərdən fəzilətli olar, çünki mələklər bu zəhməti çəkmirlər**. (Üsuli-Kafi)**

Hədis-Hz. Peyğəmbərimiz buyurur ki:-Meracda ikən bu dörd mələk mənə belə buyurdular:

Cəbrail (ə.s.):-Ey Allahın elçisi! Sənə hər gün on dəfə salavat gətirən kimsəni şimşək kimi öz əllərimlə Siratdan keçirəcəyəm.

Mikail (ə.s.):-Mən ona Kövsər hovuzundan doya-doya su içirəcəyəm.

İsrafil (ə.s.):-Mən səcdəyə qapanaraq, Allah onu əfv etmədikcə səcdədən qalxmaram.

Əzrail (ə.s.):-Mən Peygəmbərlərin ruhlarını təslim aldığım kimi,o kimsənin də ruhunu incitmədən alaram**.(Zubdətul əhadis.)**

ÜSULİD-DİNİN 4-CÜ-HÖKMÜ İMAMƏTDİR

Bu Xətayi der:-Əzəldən mən imamın quluyam,
Ey imami-həqq Əliyül-Murtəzasından mədəd. (Xətayi.)

Açıqlama:-Şəriətimizin Üsulid-dinində buyurulan hökmlərdən biri də imamətdir. İmamət, Peyğəmbərimizin övladları, yəni onun Əhli-beytidir. "Əhli-Beyt" sözü lüğətdə "ev əhli" mənasında işlənir.

İmamət:-Peyğəmbərin qızı xanım Fatimənin,sonra Hz.Əlinin və onların on bir övladının imamlığını və rəhbərliyini qəbul etməkdir.

Peyğəmbərimizin vəfatından sonra onun övladları öz canları, qanları bahasına İslam dinini zamanımıza qədər yaşatmağa müvəffəq olmuşlar Onlar Hz.Peyğəmbərin dinimiz haqqındakı bütün əmr və hökmlərini öz elmləri, səbirləri, qəhrəmanlıqları vasitəsi ilə yerinə yerirmişlər. Onlar babalarının dinimizin Qiyamət gününədək yaşaması naminə etdiyi bütün vəsiyyət və tövsiyələrini yerinə yetirmək üçün özlərinin və əzizlərinin canlarından belə keçmişlər.

Qurani-Kərim Peyğəmbərə Allahın əmri ilə Cəbrail(ə.s.) vasitəsi ilə nazil olmuşdur. Peyğəmbərimiz vasitəsi ilə o dövrdə İslam dini yayılaraq böyük vüsət tapmışdı.

Lakin Hz.Peyğəmbərin vəfatından sonra Allahın əmri ilə İslam dini onun övladları və əshabələri vasitəsi ilə bütün dünyaya yayılmışdır.

İslam dininin qorunub saxlanması, inkişaf edib vüsət tapması və onun elminin dərk edilməsi yolunda Peyğəmbərin övladlarının mühüm rolu olmuşdur.Bütün dünyada nə qədər dini alimlər olmuşdursa, hamısı İslam elmini imamlardan öyrənmişlər.

Yer üzündə bir haqq,həqiqət odur ki, dünyada yaşayan bütün savadlı, aqil insanlar, dinindən,təriqətindən,kimliyindən asılı olmayaraq İslamın vüsət almasında, Hz.Peyğəmbərin balalarının- Əhli-Beytinin elmini, bu yolda onların səbrini, fəaliyyətini, qəhrəmanlıqlarını və onların haqq olduğunu heç vaxt danmazlar.O zaman haqqı danmış olarlar.Qurani-Kərimin ayələrindən məlum olur ki:"Alimlər Allahdan ən çox qorxanlardır". Çünki onların elmləri və bəsirət gözlərinin açıq olması onlara haqqı daha aydın görsədir.

İslam Peyğəmbərinin həddən çox sevdiyi nəvələrinin məhəbbəti İslam dinindən olan bütün insanların daim qəlbindədir.

QURANDA ƏHLİ-BEYT HAQQINDA

Açıqlama:-Qurani-Kərimdə Peyğəmbər övladları, Əhli-Beyt haqqında bir çox ayələr nazil olmuşdur. Quran və Əhli-Beyt elm və

fəzilət şəhərinə aparan bir yoldur. Onlar Quranla sıx münasibətdə olan pak insanlardır və Qurani-Kərimdə Əhli-Beyti sevməyi Allah özü buyurur:

əş-Şura-23-Ya Peyğəmbər!Allaha iman gətirib yaxşı əməllər edən bəndələrinə bununla müjdə verib,de ki:-Mən sizdən Allahın risalətini təbliğ etməyimin müqabilində qohumluq (Əhli- Beytə) məhəbbətindən başqa bir şey istəmirəm. Kim bir yaxşı iş görsə, onun yaxşılığının savabını, mükafatını artırarıq!

Peyğəmbərin Əhli-beyti haqqında nazil olan bu ayəni Fəxr Razi öz "Kəbir" təfsirində belə açıqlayır**:-"Kəşşaf"**sahibi Peyğəmbərdən belə nəql edir ki:-Hər kəs Peyğəmbər övladını dost tutan halda vəfat etsə,onda o, tövbə etmiş halda ölmüşdür. Hər kəs onları dost tutsa, imanı kamildir.

əl-Əhzab-33-Ey Əhli-beyt!Həqiqətən, Allah sizdən hər cür çirkinliyi,pisliyi, günahı uzaq etmək və sizi pakdan da pak etmək istər.

Açıqlama:-Ourani-Kərimdə müxtəlif şəkildə Əhli-Beytə məhəbbət və onların elmləri haqqında bəhs edilmişdir.

1. Bəzən xüsusi ifadələrlə onlardan söhbət açır və Əhli-Beytin ayrı-ayrı nümayəndələri haqqında bəhs edilir. Buna misal alaraq **"Vilayət"**ayəsini qeyd etmək olar.Bu haqda Qurani-Kərimdə belə buyurulur:

əl-Maidə - 55-Həqiqətən,Allah, onun Peyğəmbəri və iman gətrən, namaz qılan və rüku halında zəkat verənlər sizin ixtiyar sahiblərinizdir.

Açıqlama:-Bu ayə də Əli (ə.s.) haqqında nazil olmuşdur."Kəbir" təfsirində verilən hədisdə İbn Abbasdan belə nəql olunmuşdur:- Əbu Zərr rəvayət edir ki, mən Peyğəmbər(s.ə.s.) ilə Məsciddə namaz qıldığım zaman bir nəfər dilənçi məscidə girib sədəqə istədi, lakin ona heç kəs bir şey vermədi. O da əllərini qaldırıb dedi:-Pərvərdigara, səni şahid tuturam ki, Peyğəmbərin məscidində ikən heç kəs mənə bir şey vermədi.Bu vaxt Əli (ə.s.) rüku halında idi. O sağ əlinin kiçik barmağına işarə etdi. Dilənçi gəlib onun barmağından üzüyünü çıxardı. Peyğəmbər(s.ə.s.) buyurdu:"Pərvərdigara, mənim qardaşım Musa səndən istəyib demişdi ki,mənim sinəmi aç. Sən ayə nazil edib qardaşı Harunu ona dayaq etdin. Pərvərdigara, mən Muhəmməd Sənin Peyğəmbərinəm.Mənim də sinəmi aç, işlərimi asan et. Öz əhlimdən olan Əlini mənə vəzir et və mənim arxamı onunla möhkəmləndir."

Əbu Zərr deyir:-And olsun Allaha, Peyğəmbər bu kəlmələri tamamlamamış Cəbrail (ə.s.)nazil olub bu ayəni gətirdi. 2.Əhli beyt haqqında nazil olan ayələrdə onların fəzilət və məqamları açıqlanır. Bununla

da ümmətin diqqətini onlara cəlb edir.Məsələn:-Dəhr-İnsan surəsi və Mübahilə ayəsi.

Mübahilə ayəsi:-"Ya Muhəmməd! Şübhəsiz ki,Məryəm oğlu İsanın Allahlığına yox, Peyğəmbərliyinə dair sənə gələn yəqinlikdən sonra, İsa barəsində sənlə mübahisə edən kəsə de ki, gəlin biz uşaqlarımızı,siz də uşaqlarınızı,biz qadınlarımızı, siz də qadınlarınızı,biz öz nəfslərimizi ,siz də öz nəfslərinizi çağırın.Hər kəs öz qəlbinin əzizini və qəlbinə yatanını çağırsın.(Allah övladı və qadını nəfsdən irəli saldı.Çünki insan özünü onlardan ötrü həmişə zəhmətə salar.)Kimin haqq və ya nahaq olduğunu bildikdən sonra bir-birimizə nifrət edək və yalan danışanları Allahın lənətinə aid edək."

Bu ayənin açıqlanması:-Alimlərdən Zəməşxəri Quran barəsində yazdığı"Əl-Kəşşaf"təfsirində qeyd edir ki, Mübahilənin qanununa görə hər iki tərəf bir şeyi ki, qəbul etmirlər,onda əllərini bir-birinə verib,biri o birinə qarğış,nifrin edərlər. Sonra bəla nazil olar,haqsız tərəfi aradan aparar.

Bu ayə haqqında, Fəxr Razinin"Kəbir "təfsirində yazılmışdır ki, Peyğəmbər (s.ə.s.) Bəni–Nəcran xristianlarına İsa (ə.s.) haqqında olan ayələri və öz Peyğəmbərliyinin dəlillərini bəyan edən zaman, onlar mübahisə edib öz sözlərindən dönmədilər. Peyğəmbərimiz buyurdu:-Allahın hökmü budur ki,əgər siz öz yalanlarınızdan əl çəkib, mənim dinimi qəbul etməsəniz, onda mən sizinlə nifrinləşməliyəm.

Onlar dedilər:-Ya Muhəmməd,bu gün gedək fikirləşək,sabah gəlib sənə cavab verərik.

Onların arasında hamıdan tədbirli olan, Nəcran məsihlərinin tədbirli yepiskopu Aqib,onlara belə bir məsləhət verib dedi:-Siz bilmirsiniz ki, Hz.Muhəmməd Allahın haqq olan Peyğəmbəridir? O, sizə haqq söz deyir. Əgər siz görsəniz ki, o Həzrət Mübahiləyə öz övladları ilə gəlib, məbadə siz onunla nifrinləşəsiniz, yoxsa hamınız həlak olacaqsınız. Əgər öz dininizdə qalmaq istəyirsinizsə, bu kişi ilə vidalaşıb, arxayın öz məmləkətinizə qayıdın.

Sabahı günü Peyğəmbər əyninə qara bir əba geyinib evindən çıxır. O, qucağına Hüseyni almış, Həsənin isə əlindən tutmuşdu. Arxasında Fatimə (ə.),onun arxasınca da Əli ibn Əbu Talib gəlirdi. Hz. Peyğəmbər (s.ə.s.) onlara dedi ki, mən dua edəndə siz "amin" deyin.

Nəccar əhli belə bir vəziyyəti görüb, Peyğəmbərə dedilər ki,biz belə qərarlaşdıq ki, sənin fikirlərin ilə razılaşaq və sənlə nifrinləşməyək, ancaq sənin dinini iqrar etməyək. Müəyyən şərtlər qarşısında Peyğəmbər(s.ə.s.) onlarla sülh edib, belə buyurdu: "Mənim canım əlində olan Allaha and olsun ki, həlakət Nəcran xalqı üçün hazır idi.Əgər onlar

mənimlə nifrinləşsə idilər, bütün Nəcran xalqı məhv olacaqdı!”

Ali-İmran-59-63-Allah yanında İsa da (İsanın atasız dünyaya gəlişi də)Adəm kimidir.Allah onu (Adəmi) torpaqdan yaratdı.Sonra ona:-Bəşər- ol!-dedi,o da oldu.Ya Muhəmməd! Şübhəsiz ki, bunlar sənin Rəbbin tərəfindən olan həqiqətdir.Ona görə də şübhə edənlərdən olma!İsanın Allahın qulu və peyğəmbəri olması barədə sənə göndərilən bilikdən sonra,”İsanın Allahın oğlu olması” haqda səninlə mübahisə edənlər olsa,onlara de ki:-Gəlin biz oğlanlarımızı,siz də oğlanlarınızı,biz qadınlarımızı,siz də qadınlarınızı,biz özümüzü,siz də özünüzü bura çağıraq. Sonra Allaha yalvarıb yalançılara Allahın lənət etməsini diləyək! Əlbəttə,doğru xəbər budur. Allahdan başqa heç bir tanrı yoxdur. Şübhəsiz ki, Allah qüvvət və hikmət sahibidir!

Hədis: Peyğəmbərimiz (s.ə.s.) buyurur: Qiyamət günü ən dəyərli insan mənə və mənim Əhli-Beytimə salavat gətirən kimsədir. Hər hansi bir məclisdə oturub orada Allahı yad etməyən və Peyğəmbərə salavat gətirməyən bir camaat Qiyamət günü mütləq peşmançılığa məruz qalar.

Hədis:-Rəsuli-Əkrəm (s.ə.s.) buyurur:-Ümmətimin arasında Əhli-Beytimin məsəli Nuhun məsəli kimidir.Hər kəs o gəmiyə minsə, nicat tapar və hər kəs ondan üz döndərsə, həlak olar. **(Biharil-ənvar 27.113.)**

Hədis:-Rəsuli-Əkrəm (s.ə.s.) buyurur:-Öz övladlarınızı üç şeylə tərbiyə edin:-Peyğəmbərimizə məhəbbətlə, onun Əhli-Beytinə sevgi, istəklə və Quran oxumaqla. **(Cameus-səgər 1.14)**

Hədis:-(“Hədisi-Qüdsi”)Peyğəmbər(s.ə.s.)dən Hz. Əli buyurur:-Allah Adəmi yaradıb, öz ruhundan ona üfürüb və mələkləri ona səcdə etdirdikdən sonra, Hz.Adəm başını Ərşə tərəf qaldırıb gördü ki,orada beş sətir söz yazılmışdır. Hz. Adəm soruşur:-Pərvərdigara,bunlar kimlərdir?

Allah-taala cavab verib buyurur:-Bunlar o şəxslərdir ki, əgər məxluqatım üçün Mənim dərgahımda şəfaət istəsələr, Mən onların şəfaət və vasitəçiliklərini qəbul edərəm.

Hz. Adəm dedi:-Sənə and verirəm onların Sənin dərgahında olan qədir-qiymətinə,onların adları nədir? Allah buyurdu:

Birincisinin adı mənim adım Mahmud olduğuna görə onun da adı Muhəmməddir.

İkincinin adı mənim adım Ali olduğuna görə onun da adı Əlidir.

Üçüncüsünün adı mənim adım Fatir olduğuna görə onun da adı Fatimədir.

Dördüncüsünün adı mənim adım Möhsin olduğuna görə onun da adı Həsəndir.

Beşincisinin adı mənim adım Ehsan olduğuna görə onun da adı Hüseyndir.Onların hamısı Allaha həmd və səna edərlər.

Açıqlama:-Bunlar həmin beş kimsədir ki,Allah-taala bütün məxluqatı onların xatirinə yaratmışdır.Çünki onlar bütün insanlardan pak və məsumdurlar.Onlara tabe olmaq nicat-tapmaq, onlarla müxalifət isə həlak olmaqdır.

Əgər bütün İslam ümməti Quranda buyurulan ayələrə inanırsa, bəs onda Peyğəmbərimizin bizə əmanət qoyduğu Quran və Əhli-Beyt(övladları) haqqında Qiyamət günündə bizdən soruşanda nə cavab verəcəyik?

Aldanıb dünyaya hər kim səhl ilə ömür eyləsə
Fayda verməz, nəhayətdə peşiman olsa da.
Nə Behişt gülzarının zövgün, nə Kövsər ləzzətin,
Əhli-iman olmayan görməz, müsəlman olsa da. (Hacı Mahir)

KÖVSƏR SURƏSİ VƏ FATİMƏ (Ə.) HAQQINDA

Din Məhəmməd dinidir, səllə əla sahib vüqar.
Kövsərin suyun verən şahım Əlidir şahsuvar.
Həm səxidir, həm səxadır, kainatın eynidir,
Kimsə nə bilir, onun sirrin bilir Pərvərdigar. (Ş.İ.Xətayi.)

əl-Kövsər 1-3-"Həqiqətən, biz sənə çox xeyir verdik,yəni adı Kövsər olan bulağı verdik. (Süddən ağ, baldan şirindir və onun yanında dürr və yaqut ilə işlənmiş piyalələr vardır.)Yaxud nəslini və övladını çox etdik,bütün nəsillər yer üzündən kəsilər,təkcə sənin nəslin və İslam dininə daxil olanların nəsli qalar. Ona görə Qurban bayramı günü öz Allahına namaz qıl və qurban kəs! Həqiqətən, düşməninin özünün quyruğu kəsilmiş və özü sonsuzdur."

Açıqlama:-Bir gün Həzrət məsciddə Bəni-Səhm qapısının yanında, As ibn Vabilin ilə rastlaşdı və onlar bir az söhbət etdilər. Sonra As məscidə girəndə ondan soruşdular ki, kiminlə söhbət edirdin, bu zaman o dedi:-Muhəmməd əbtərlə.("Əbtər"-sonsuz,övladı olmayan kəsə deyilir.)

Sonra Allah-taala buyurur:-Sənə bu sözü deyən özü əbtərdir. Sənin adın yaxşılıqla zikr olunacaq. Lakin Peyğəmbərə tənə vuran cahillər dərk etmədilər ki,Allah istədiyini edəndir.Onlar yadlarına salmadılar ki, İsa da Məryəm ana vasitəsilə dünyaya gəlmişdi və Allah kimin kim olduğunu çox yaxşı bilir. Elə o vaxt Kövsər surəsi Allah tərəfindən nazil oldu.

Bu surənin nazil olma tarixçəsi vardır. Peyğəmbərin iki oğlu (Qasım və Əbdullah) vəfat etdikdən sonra qızları Zeynəb, Ruqəyyə, Gül-

süm dünyaya gəlir. Axırıncı qızı Fatimənin dünyaya gəlişi isə Kövsər surəsinin hikmətlərini açıqlayaraq insanlara sübut edir ki, Kövsər surəsində qeyd edilən,"Sənin nəslin artıb və Qiyamət gününədək artacaq"kəlamı Fatimə əleyhayə məxsusdur. Çünki Peyğəmbərin nəsli onun vasitəsi ilə artaraq bütün dünyanı fəth etdi və edəcək.

Bir gün Cəbrail(ə.s.) nazil olub Peyğəmbərimizə ərz etdi ki,insanlardan 40 gün uzaqlaşıb Hira dağına çəkilsin və oruc tutub ibadət etsin.Bu 40 gün ərzində Onun yeməyini Cəbrail (ə.s.) Cənnət meyvələrindən, suyunu isə Cənnətdə yerləşən "Kövsər"bulağından gətirirdi.

Bu minvalla 40 gündən sonra Allahın əmri ilə Xanım Fatimənin Cənnət meyvələri və Kövsər suyu ilə yoğrulmuş saf təməli qoyulur.Xanım Xədicə hamilə vaxtı bətnində olan övladın qeyri-adi hərəkətləri,onunla söhbət etməsi haqqında Peyğəmbərimizə danışardı. Onun dünyaya gəlişi də qeyri-adi baş verdi. Doğuş vaxtı bəni Haşim qadınları Xədicədən üz döndərərək, ona kömək etmədilər.Bu da Allahın bir hikməti idi ki, bu doğuşu Cənnət qadınları qəbul etsinlər.

Beləliklə, hər iki dünya xanımı, Hz.Muhəmmədin gözünün nuru,"mənim anam"deyə çağırdığı,"Ümmül kitab" adlandırdığı, Hz.Əlinin həyat yoldaşı, məsum imamlarımızın anası, xanımlar xanımı Həzrəti Fatimeyi Zəhra (Salamullahi əleyha) Hz.Muhəmmədə Peyğəmbərlik veriləndən 5 il sonra, Cəmadius-Sanı ayının 20-də qeybi-puzilərin(Cənnət ruzisi) bəhrəsi yer üzündə təcəlla etdi, Zəhra ulduzu doğuldu. Muhəmməd Peyğəmbərin və Xədicənin evi Fatimənin məlakuti nuru ilə işıqlandı. Pak və oxşarsız atadan, pakizə anadan bir körpə dünyaya gəldi ki, aləmi sahilsiz kamillik dəryasında qərq etdi. Qısa və bərəkətli ömründə bəşəriyyəti təəccüb və heyrətə gətirdi.

Əgər mələklər insan xilqətinin əsrarından xəbərdar olsaydılar, bilsəydilər ki, Adəm nəslindən belə bir əxlaqı fəzilətli, ilahi sifətli insan ərsəyə gələcək, ilahi məzhərdə Adəmi nə üçün yaratdın?- deyə sual etməzdilər.Çünki mələklər insan dedikdə yalnız günahkar və fəsad törədən adamları təsəvvür edirdilər.Onlar insanın Fatimə kimi uca məqamından xəbərsizdilər. Qarşısında səcdə qıldıqları xanım Zəhra indi də mələklərin sevimlisidir.Bu gün də Fatimə (s.ə.) dünya qadınlarının tacı, seyyidəsi və sərvəridir.

Ey Qurana üz tutan kəs, Quran və Fatimə ayrılmazdır. Fatimə ilahi varlıq sahilində rəhbər və nümunədir, elmdə tayı-bərabəri tapılmaz. Onun 11 övladı dinin sütunlarıdır. 11danışan Quran (imam) anasıdır. Onun şəfaət məqamı da vardır. Qiyamət günü Allah tərəfindən onun xatirinə insanlara rəhm edilər. Onun atası Allahın Rəsulu (s.ə.s.):"Fatimə

mənim bədənimin parəsidir və kim ona pislik etsə,onu incitsə,onda məni incitmişdir,"-deyərdi.

Bütün insanlar və Peyğəmbərlər onun kamal və rəhmət bayrağı altındadır. Fatimənin həyatını və onun kim olduğunu dərk etmək qeyri-mümkündür.Yəni bu dünyada yaşayan insan ağıl-düşüncə tərzi ilə bunu dərk edə bilməz.Bunu dərk etmək üçün, yəqin ki, Cənnətə gedib, Kövsər bulağının yanında olmaq lazımdır.İnsan təfəkkürü nə vaxt Kövsər bulağının hikmətini dərk etsə,onda da Fatimənin kim olduğunu dərk edə bilər.

Hədis: Hz.Peyğəmbər buyurmuşdur: Qiyamət kövsər hovuzunun başında durduğum an bir qrupla qarşılaşacağam. O anda onlarla mənim aramda bir nəfər qalxıb onlara gəlin- deyəcək .Mən:-"Hara gəlsinlər, Allaha and olsun ki, onlar Cəhənnəmə gedəcəklər deyəcəyəm. Onlar məndən sonra dinimi dəyişdirən əshabələrimdir. Onlar mənim Kövsərimdən içə bilməzlər**.(Səhihi-Buxari c.3.s.94.)**

Mötəbər hədislərdə buyurulur ki, Cənnətə düşən bütün insanlar mütləq Kövsər bulağının suyundan içməlidirlər.

Kim ki istər Mürtəzadan çeşmeyi-kövsərdən cam alsın,
Kim istər ruzi -Məhşərdə,görüb Məhmudi kam alsın,
Kim istər dərgahi-həqdə,özüyçün bir məqam alsın,
Gərək imanına zövqi-ibadət cila versin. (Hacı Mahir)

Hədis:-(Üsuli-Kafi-40.392.)Əbu Bəsir belə rəvayət etmişdir:

Əbu Əbdullahın(Cəfəri Sadiqin) yanına getdim və ondan soruşdum:-Ey Əbu Muhəmməd!Sənin tərəfdarların Rəsulullahın Əliyə bir elm qapısını öyrətdiyini və bu qapının da ona min qapı açdığını söyləyirlər. Görəsən, bu deyilənlər doğrudurmu?

İmam belə buyurdu:-Ey Əbu Muhəmməd! Rəsulullah min qapı öyrətdi və bunların hər biri də min qapı açar.

Dedim ki:"Allaha and içirəm ki, elm budur."

İmam bir az düşünərək yeri cızdı.Sonra belə dedi:- Bəli, elm budur, amma elm sadəcə bundan ibarət deyildir.Cəmiə(bütün elmləri əhatə edən) bizdədir. Cəmiənin nə olduğunu bilirlərmi?

Dedim ki, Cəmiə nədir? Buyurdu ki:-Bir səhifədir ki, uzunluğu yetmiş arşın olar. Peyğəmbərimiz yazdırmış, İmam Əli də yazmışdır.Orada bütün halallar və haramlar, insanların ehtiyac duyduqları hər bir şey haqqında məlumat vardır.Hətta orada bir nəfəri cırmaqlayıb yaralamağın da cəzası yazılıbdır.

-Dedim:-Elm budur.

Buyurdu ki:-Bu elmdir,amma sadəcə bundan ibarət deyildir.

Sonra bir az susub ardınca davam etdi:-Cəfr elmi bizdədir.İnsanlar Cəfr elminin nə olduğunu haradan biləcəklər? Dedim ki, Cəfr nədir?

Buyurdu ki:-Peyğəmbərlərin vəsiyyətini yerinə yetirənlərin və İsrail oğullarının keçmiş alimlərinin elmlərini əhatə edən dəridən hazırlanmış bir qabdır.

Dedim ki:-Şübhəsiz ki, elm budur.

Buyurdu ki:-Bu elmdir,amma sadəcə bundan ibarət deyildir.

Bir qədər də danışmadı.Sonra isə buyurdu:

-Heç şübhəsiz ki,Xanım Fatimənin də səhifələrinin nə olduğunu haradan biləcəklər?

Dedim ki:-Həzrəti Fatimənin səhifələri nədir?

Buyurdu ki:-Bizim bu Quranın üç qatını əhatə edən elm səhifələridir. Burada gələcəkdə baş verəcək bütün hadisələr,yer üzünə gələcək bütün sultanlar və insanlar haqqında xəbərlər vardır.

Peyğəmbər (s.ə.s.) əshabına belə buyurmuşdur:"**Əli mənə nisbətdə, Harunun Musaya olan mənzilətindədir**".

Bu hədisi Siyuti, Hakimi-Nişapuri və sairə bir çox tanınmış sünnü alimləri müxtəlif tarixi sənədlərlə öz kitablarında söyləmişlər.

1. Əbu Əbdullah Buxarinin"Məğazi" s.54 "Təbuk Qəzvəsi" bölümündə, "Bədul-Xalq"s.135 "Mənaqibi-Əli"qismində.

2. Müslim bin Həccac Səhihinin II cild.s.236-237 (Misir nəşri h. 1290), "Fəzlüs-Səhabə" kitabının "Fəzaili-Əli (ə)"

Peyğəmbər(s.ə.s.) vəfatından sonra səhabələri Peyğəmbərin ağzından dəfələrlə, açıq-aydın özündən sonra Hz. Əlinin xəlifə olduğunu eşidiklərinə baxmayaraq, Onu yalqız qoydular. Kimi həva-həvəslərinə uyaraq, kimi məqam sevgisi, kimisi də Bəni-Haşimə olan düşmənliyinə görə Hz.Əlidən üz çevirdilər. Ayrıca Hz.Əliyə qarşı şəxsi həsəd, kin və nifrət edən bir qrup da onun əleyhinə məxsus bir təşkilat qurmuşdu. Qəzali "Sirrul-aləmin" kitabının 4-cü məqaləsində bu mövzuya toxunaraq, belə deyir: "Haqqa arxa çevirib, cahiliyyət dövrünə döndülər"

Bu tərəfdən Hz. Harun ilə Hz. Əlinin vəziyyətləri arasında tam bir oxşarlıq vardır. Tarixçi alim qazı Əbu Məhəmməd Əbdullah bin Müslim bin Qutaybəi Bahili əd-Diynəvəri"əl-İmamət vəs-siyasət" adlı əsərinin I cildinin 14-cü səhifəsində Səqifə hadisəsini geniş şəkildə yazdıqdan sonra belə deyir:"Əlinin evinə od vurub, onu təziq və təkidlə məscidə gətirərək; "Beyət et, yoxsa boynunu vurarıq" dedilər. Hz.Əli də, bu hadisədən sonra Rəsulallahın qəbrin üstünə gedib orada Hz.Harunun Hz.Musaya söylədiyi sözləri söylədi. Allah-təala bu sözləri Quran-

da zikr etmişdir:"Bu cəmiyyət məni zəiflətdi (aciz qoydu) və hardasa, məni öldürməkdə istəyirdilər".

Hz. Peyğəmbər hər şeyi əvvəldə bildiyi üçün Hz.Əlini Hz.Haruna bənzətməklə, sanki ümmətinə bunu anlatmaq istəyirdi ki: "Hz.Musanın Bəni-İsrailin arasında olmadığı müddətdə Haruna etdiyini, mənim vəfatımdan sonra siz də Əliyə edəcəksiniz."

Hədis: Peyğəmbərimiz buyurmuşdur ki:Mənə verilən Kövsərin nə olduğunu bilirsinizmi? Dedik ki:-"Allah Pəsulu daha yaxşı bilir" Belə buyurdu:"O Rəbbinin mənə vəd erdiyi bir nəhrdir." Abddullah inb. Fədaiə (Əbi Davud-428)

Hədis: Əbu Nuəym,"**Hilyətül-evtiya"**42 səhifəsində: "Mən Hz. Əlinin özünə aid olmuş, sonradan isə övladlarının bir-birinə əmanət olaraq ötürdükləri, bəzi vərəqləri düşmüş, qeyri–adi kitaba bənzər bir şey olduğunu eşitmişdim. Bir təsadüf nəticəsində öz gözümlə o kitabı gördüm,"-deyə,burada qeyd etmişdir.

1-Cİ İMAM HZ. ƏLİNİN HƏYATI HAQQINDA

Hər kimin var isə qəlbində Əli məhəbbəti,
Nəyə lazım ona bu dünyanın qızıl ilə zəri.
Olacaq Cənnət onun məskəni,var belə bir xəbər,
Yaxşı dərk eylə,böyükdür bu sözün mənası.

Açıqlama:-Peyğəmbərimiz (s.ə.s.) Əli (ə.s.) haqqında belə buyurmuşdur:-"Mən elmin şəhəri, Əli isə o şəhərin darvazasıdır. Hər kəs o şəhəri və hikməti istəsə, onun qapısından gəlsin**".**

Əmirəl-möminin(Möminlərin əmiri) Əlinin ləqəbidir.Allah-taala bu ləqəbi Peyğəmbərə vəhy edərək,onun barəsində nazil etmişdir.

Tarix boyu yer üzündə elə insanlar olub ki,əsrlər keçməsinə baxmayaraq bəşəriyyət tarixində öz əməlləri ilə iz buraxıb,yaddaşlarda daima yaşayıblar. Onlar bəşəriyyətin əbədi kişiləridir. Bəşər tarixi bəzən elə kişilərlə rastlaşır ki,onların əql-düşüncələri, əzəmətləri, dahilikləri zaman pərdəsini yırtmış və millətlər, soylar sərhədini aşmışdır.Tarixin böyük sıçrayışları ancaq tarixi kişilərin güclü əli ilə həyata keçirilir. Əli(ə.s.) də məhz belə kişilərdəndir. Hz.Əlini düzgün tanımaq üçün İslam dinini, onun tarixini, ayə və surələrini tədqiq etmək, onun həqiqətlərini öyrənmək lazımdır.

Hz. Əli bəsətdən, yəni Peyğəmbərə (s.ə.s.) Peyğəmbərlik verilməzdən 10 il qabaq, Miladi tarixi ilə 601-ci ildə Rəcəb ayının 13-də Kəbə evində dünyaya gəlmişdir.Bu hadisə anası Əsədin qızı Fatimənin

Kəbə evini təvaf etdiyi vaxt baş vermişdir.Onu sancı tutmuş, həyasını qorumaq üçün Allaha dua etmiş və bu zaman Kəbə evinin divarları yarılmış,Fatimə Əsəd qızı üç gün Kəbə evinin içində qalmışdır. Kəbə evində Cənnət qadınlarından olan Asiya, Sara və Məryəm ana mələklərlə birlikdə nazil olaraq ona kömək etmişlər.Üç gündən sonra isə o, qucağında körpə Əli ilə oradan çıxmışdır.Hz. Əlinin adı da yaşıl rəngli zəbərcədlə (qızılı-yaşıl rəngli daş) bəzəkli bir lövhə şəklində ərşdən endirilmişdir.

Hz.Əlinin adı, Allahın Əla ismi-şərifindən götürülmüşdür və bu lövhə Məscidil-Həramdan asılmışdır. Bəni Haşim bu lövh ilə fəxr edirdilər. O löhv Hz. Əlinın qətlindən sonra da orada qalmışdı. Əbdullah ibni Zübeyrlə Həccac ibni Yusif (ləin) arasındakı müharibə vaxtı Kəbə evinin divarlarının dağılmasından sonra həmin lövhə yoxa çıxmışdır.O cənabın atası Əbu Haşim tayfasından Əmr Əbdul Mütəllib oğlu Əbu Talib idi. Əbu Talibin oğlanları Talib, Əqil, Cəfər və Əli idi ki, bunlar bir anadan idilər.

Hz. Əlinin anası Fatimə Əsəd qızı da Əbu Haşim tayfasından idi. Beləliklə, o Həzrət həm ata, həm də ana tərəfdən Haşim övladından idi.

O Cənabın bir çox adları və ləqəbləri də vardır. Bunlardan biri də Heydər adıdır ki, mənası "əjdaha" (erkək şir) deməkdir.

Uşaqlığından Peyğəmbər (s.ə.s.) himayəsində olub, onunla bir yerdə yaşayan Hz.Əli onun vəhylərinin nazil olmasına şahid olmuş, İslamı qəbul etmiş, ilahi nurdan və ilahi vəhydən müəyyən paylar almışdır.

Hz.Peyğəmbər (s.ə.s.) özü Hz.Əlinin ilk müsəlman olduğunu təsdiqləmiş və camaat arasında buyurmuşdur:-"Qiyamət günü Kövsər hovuzunun bağında mənə birinci qovuşan şəxs İslamı birinci qəbul edən Əli ibn Əbu Talib olacaqdır."

Onun görünüşü haqqında:-Miyanə,ortaboylu,üzü ay kimi girdə,yanaqları qırmızı,qaşları kaman şəkilli, qalın,boynu uzun, bədəni iri, kürəkləri enli, əzaları qüvvəlı, qolları möhkəm və güclü idi. Qabaqdan başının iki tərəfində tük yox idi. Müharibələrdə düşmənlərlə üzbəüz durduqda əhvalı dəyişməzdi.

Hz.Əli özünün "Qasiə"adlı xütbəsində buyurur:-"O zamanlar İslamın təzə zühur etdiyi vaxt İslam dini təkcə Hz.Peyğəmbər və xanım Xədicənin evində idi.Mən isə bu cəmin üçüncü nəfəri idim:vəhy nurunu görür və nübüvvət ətrini duyurdum."

Peyğəmbərimizin hicrətindən sonra da Hz.Əli həmişə Peyğəmbər(s.ə.s.) ilə birlikdə olub, ona hər işində dayaq və köməkçi olmuşdu. Onun həm vəziri, həm valisi, həm də sərkərdəsi idi. Hicrətin

2-ci ilində Allah-taala kafirlərlə müharibə etməyi izin verdikdən sonra Bədr müharibəsi baş verdi ki,İslamın birinci və ağır müharibəsi idi. Həm bu müharibədə,həm də sonrakı Ühüd, Xəndək, Xeybər,Hüneyn və digər müharibələrdə Hz.Əlinin qəhrəmanlığı və şücaəti sayəsində İslam qoşunları kafirlər üzərində həmişə qələbə çalmışlar.Xəndək davasında Əlinin Əmir ibni Əbdəvüdu qətlə yetirməsi İslam qoşununa zəfər müjdəsi verdi və müharibə müsəlmanların qələbəsi ilə qurtardı.

Ühud davasının şiddətli bir vaxtında o Cənabın qılıncı sınır,o, məyus halda Peyğəmbərin hüzuruna gələrək qılınc istəyir. Bu zaman Cəbrail (ə.s.) nazil olub Peyğəmbərə bir qılınc təqdim etdi. Hz.Peyğəmbərdə "Qəmqəm" adlanan bu qılıncı Əliyə verib dübarə cəbhəyə yola salır. O Cənabın göstərdiyi şücaət və pəhləvanlıqlarından çox danışmaq olar. Peyğəmbərin bütün qələbələri Əlinin qılıncı ilə mümkün olurdu. Bəzən o, iki qılınc ilə vuruşardı və onun ən məşhur qılıncının adı da Zülfüqar idi. Onun şəninə asimanda mələklər belə oxuyurdular:

Əli kimi cavan qəhrəman yoxdur,
Zülfüqar kimi də qılınc yoxdur.

O Cənabın bir ləqəbi də "**Heydəri Düldül səvar**"dır. Düldül o Cənabın mindiyi qatırın adı idi.

Hz.Əlinin**"Nəhcül-bəlağa"**kitabı fəsahət və bəlağətdə, həqiqətən də bərabəri olmayan, mövzu baxımından İslam dininin əsaslarını, hökmlərini,İslam Peyğəmbərinin əxz etdiyi elm qüdrətini açıqlayan, ictimai-iqtisadi məsələləri özündə əks etdirən, xütbələrindən, sözlərindən, öyüdlərindən, vəsiyyət və məktublarından ibarət olan bir kitabdır.

Bu kitabı Hicri Qəməri tarixinin 360-cı ilində anadan olmuş, Museyb Kazımın nəslindən olan Şeyx Şərif Razi toplayıb, tərtib etmişdi. Bu kitab 3 qismə və bölümə ayrılmışdır.

1-ci qism.Xütbə və xitabələr,Allah,Peyğəmbər, Qurani-Kərim və İslam dini haqqındadır.

2-ci qism. Özü və Əhli-beyt, məktubları, əmrləri, vəsiyyətləri, dünya və axirət haqqında mövzular.İlk üç xəlifə və öz zamanına aid xütbələr daxildir.

3-cü qism.Hikmət və nəsihətli sözlər,din,iman,mömin, əql, elm, tarixlə bağlı söhbətlər, həqiqət, ədalət, güzəran, insanlıq və cihad haqqında moizələr daxildir.

Peyğəmbərimiz buyurmuşdur ki,Qurani-Kərimdə Hz.Əlinin şəninə nazil olan 360 ayə məlumdur.Bunlardan bir neçəsini sizlərə təqdim edəcəyik ki, Hz.Əli haqqında bir az məlumat verə bilək.

əl-Bəqərə-207- İnsanlardan elələri vardır ki, Allahın razılığını qa-

zanmaq yolunda (Allah rizası üçün) öz canını fəda edərlər. Allah öz bəndələrinə qarşı çox mehribandır.

Açıqlama: Bu haqda Fəxr-Razi "Kəbir"təfsirində, Sələbi öz təfsirində, Qəzali"İhyaul-Ülum"da, Əbu Nəim Hafif öz"Müsnəd" ində, yazmışlar ki, bu ayə Əli ibn Əbu Talibin şəninə nazil olmuşdur. O zaman Məkkədə Əbu Cəhl və onun tərəfdarları dinin yayılmasının qarşısını almaq üçün Hz. Peyğəmbəri gecə ikən öz evində öldürmək qərarına gəlirlər. Rəvayətə görə, Hz.Cəbrail belə bir qəsdin hazırlanmasını Peyğəmbərə xəbər verir.

Hz.Peyğəmbər Əlini öz yatağında uzandırıb,üstünə öz yaşıl əbasını sərərək evdən çıxır. Hz. Əli Peyğəmbərin yerində yatan zaman Hz.Cəbrail başı üstə,Hz. Mikail ayağı tərəfdə durur.Hz.Cəbrail belə deyir:-Bəxxin,bəxxin! Yəni ey Əbu Talibin oğlu, sənə bənzər kim var? Allahın öz mələkləri səninlə fəxr edir.

Pusquda duran və Peyğəmbərin evdən necə çıxdığını görməyən dörd nəfər qəsdçi, qapını sındırıb içəri atılırlar. Onlar Peyğəmbərin yerində Hz.Əlinin yatdığını görərkən pərt olurlar.Qəsdin baş tutmamasından xəbər tutan Qureyşlilər car çəkərək, Muhəmmədin ölüsünü və ya dirisini tutub gətirənə 100 dəvə veriləcəyini bildirirlər. Hz.Peyğəmbər Əbu Bəkr ilə birlikdə şəhərin cənubunda yerləşən Saur dağındakı mağarada gizlənirlər. Onlar mağaraya girdikdə onları arxadan təqib edən atlıları görürlər.

Həmin rəvayətdə deyilir ki, bu vaxt möcüzə baş verir. Mağaranın girəcəyində qollu-budaqlı ağac bitir, ağacın budağında göyərçin yuva salır, eyni zamanda mağaranın ağzı hörümçək toru ilə örtülür. Peyğəmbəri izləyənlər bunları görərkən mağaranı axtarmaqdan vaz keçib başqa istiqamətə yönəlirlər. Hz.Peyğəmbər Əbu Bəkrlə üç gün mağarada qalır. Dördüncü gün Əbu Bəkrin nökərinin gətirdiyi dəvəyə minib, Qırmızı dənizin sahili ilə Yəsribə yollanırlar. (Yəsrib şəhərinə bir müddətdən sonra Mədinətən-Nəbi, yəni Peyğəmbər şəhəri, Mədinə adı verilir.)

əl-Maidə-54-Ey möminlər!Tezliklə Allah elə bir qövm gətirər ki, Allah onları sevər, onlar da Allahı sevərlər. Onlar möminlərə qarşı mülayim, kafirlərə qarşı isə sərt olar,Allah yolunda cihad edər, heç kəsin tənəsindən qorxmazlar.Bu, Allahın lütfüdür, onu istədiyinə verər. Allahın lütfü genişdir. Və O, hər şeyi biləndir.

Açıqlama:-Bütün İslam alimlərinin sözlərinə görə bu ayə Əli ibn Əbu Talib haqqında nazil olmuşdur. Onlar bu haqda iki dəlil göstərirlər:- Peyğəmbər(s.ə.s.) Xeybər günü bayrağı Əliyə vermək barədə belə buyurmuşdu:- Sabah mən bayrağı bir nəfərə verəcəyəm ki, o, Allahı və Peyğəmbəri

sevər, Allah və Peyğəmbəri də onu sevər.

Ali-İmran-195-Allah onların dualarını qəbul etdi.Belə ki,istər kişi, istərsə də qadın olsun, mən sizin əməllərinizi zay etmərəm.Siz bir-birinizdənsiniz (dində kişi,qadın eynidir).Öz şəhərlərindən çıxarılanların, mənim yolumda əziyyət çəkənlərin, mənim yolumda öldürülənlərin günahlarının üstünü əfv ilə örtüb, kəffarə edərəm. Allah yanında muzd olaraq onları altından çaylar axan Cənnətlərə daxil edəcəyəm. Cəza və muzdun ən gözəli Allah yanındadır.

Açıqlama: Bu ayə Peyğəmbərin ardınca Məkkədən Mədinəyə hicrət edənlərin barəsində nazil olmuşdur.Hz. Əli də Məkkədən hicrət etmək istəyən zaman onun ardınca böyük bir dəstə gələrək ona bu yolda mane olmaq istədilər.Hz.Əli Mədinəyə üç Fatimə ilə gedirdi.Biri həyat yoldaşı, Peyğəmbərin qızı Fatimə, biri anası Fatimə Əsəd qızı,digəri isə Zübeyrin qızı Fatimə idi.Bu ayədəki kişi və qadınlar onlara işarədir.

Qələm-Nun-7-Sənin Allahın onun yolundan çıxanları da, hidayət olunmuşları da gözəl tanıyandır.Onlar görəndə ki, Hz. Peyğəmbər Əlini hamıdan uca tutur, bu zaman onlar dedilər:-"Muhəmməd Əli haqqında divanə olubdur!"Sonra Allah tərəfindən bu ayə nazil oldu ki,sən Əlini iman cəhətdən hər bir şəxsdən üstün tutarsan və Allah da onun imanının nə qədər gözəl olduğunu bilir.

əl-Maidə-67-Ey Peyğəmbər!Rəbbindən sənə nazil olan xəbəri xalqa təbliğ et.Əgər etməsən, onda Allahın Rəsulu vəzifəsini yerinə yetirməmiş olarsan. Allah səni xalqın şərindən saxlayar.Həqiqətən, Allah kafir camaatı hidayət etməz.

Açıqlama:-Bu ayə Əli (ə.s.) haqqında nazil olmuşdur."Kəbir" təfsirində belə yazılmışdır:-Bu ayə nazil olan zaman Hz.Peyğəmbər Əlinin əlindən tutub buyurdu:"Mən kimin ağasıyamsa, Əli də onun ağasıdır.Ey mənim Allahım! Onu dost tutanı Sən də dost tut, düşmən tutanı Sən də düşmən tut. Allahla düşmən olanı isə Allah üzü üstə Cəhənnəmə atar."**("Səhihi Tirmizi, c.5.s.296.)**

Peyğəmbərimiz axırıncı vida Həccindən qayıdarkən**"Qədir-Xüm"** adlanan bölgəyə yetişdikdə əmr edib karvanı saxlatdırır. Bütün Hacılar toplaşandan sonra uca bir yerə çıxıb xütbə söyləyir və axırda buyurur ki:"Allahın əmri ilə Əli ibn Əbu Talibi mən özümə vəsi və canişin etdim!"O, bütün səhabələrinə əmr etdi ki, Hz.Əliyə beyət etsinlər.

Hicrətin 10-cu ilində Həccətül-vida ziyarətindən qayıdan zaman, Hz.Peyğəmbər Qədir-Xum çölündə Əlini öz vəsiyi və özündən sonrakı xəlifə kimi ümmətə təqdim edir.Həmin gün Zilhiccə ayının 18-də Məkkədən, axırıncı Həcc ziyarətindən qayıdan 120 mindən artıq camaat

Peyğəmbərin əmri ilə Qədir-Xümda minikdən düşüb bir yerə yığılırlar. Hz.Peyğəmbər yenicə nazil olmuş bu ayəni onlara oxuyub Əlini xəlifə elan edir, Allahın əmrini onlara çatdırır. Sonra camaat bir-bir gəlib Hz. Əliyə beyət edirlər. Bu zaman Ömər gəlib dedi:-Mübarək olsun,ey Əbu Talib.Sən mənim, bütün mömin kişi və qadınların ağası oldun." Lakin Peyğəmbərin vəfatından sonra elə həmin Hacılar bu beyəti sındırdılar.Hz Əlinin Peyğəmbərin dəfni ilə məşğul olmasından istifadə edən, Mədinə əhli"Şura"adlı yığıncaq düzəldərək, məşvərət edib, Əbu-Bəkri özlərinə xəlifə seçdilər.

Açıqlama:-Baxmayaraq ki,Peyğəmbərimiz (s.ə.s.) Hz.Əlini özündən sonra müsəlmanların gələcək rəhbəri təyin etmişdi, təəssüf olsun ki, Hz. Peyğəmbərin bu göstərişi həyata keçmədi.Hz. Əli siyasi səhnədən və idarəçilikdən uzaqlaşdırıldı.

Lakin Hz.Əli o dövrün tələblərinə uyğun olaraq, özünə qarşı olan haqsızlıqlara səbir etdi.Onun bu səbrinin bir çox səbəbləri var idi.O səbəblərdən birincisini Əli (ə.s.) özü etiraf edib və "Şiqşiqiyyə"adlı xütbəsində bu məsələyə toxunaraq buyurur:-"Mən xəlifəliyə göz yumdum və kənara çəkildim. Daim düşünürdüm ki, görəsən, təkbaşına ayağa qalxıb özümün və camaatın haqqını geri almalıyam, yoxsa bu boğucu mühitdə və zülmətlər içində səbir etməliyəm? Xəlifəliyə mənim daha layiq olduğumu hamınız yaxşı bilirsiniz. Lakin and olsun Allaha ki, müsəlmanların işi öz qaydasında olmayanadək və məndən başqasına zülm olunmayanadək səbir edəcəyəm".

Hz. Əli öz xütbəsində bu haqda belə buyurulur:

- "Ey camaat!Peyğəmbər(s.ə.s.) bizim aramızdan getdikdən sonra belə fikirləşirdik ki, xilafət barəsində heç kəs bizimlə mübarizə etməyib, haqqımıza göz dikməyəcək. Çünki biz Hz.Peyğəmbər ailəsi və onun varisi idik. Lakin gözlədiyimizin əksinə oldu. And olsun Allaha, əgər müsəlmanların arasında təfriqə yaranması, küfr və bütpərəstliyin bir daha İslam torpaqlarına qayıtması və İslamın məhv olması qorxusu olmasaydı, mən onlarla başqa cür rəftar edərdim."

İkinci səbəb o dövrdə İslamın düşmənləri ilə bərabər yalançı peyğəmbərlərin ortaya çıxıb, hər biri öz ətrafına tərəfdarlar yığaraq, Mədinəyə hücum etmək istəyi idi.

Üçüncü səbəb isə Roma imperiyasının Mədinəyə hücum etmək ehtimalı idi. Çünki o vaxta qədər müsəlmanlar romalılarla üç dəfə vuruşmuşdular və elə buna görə də romalılar müsəlmanları özlərinə böyük təhlükə sayır və hücum etmək üçün fürsət axtarırdılar. Əgər Hz. Əli xilafət uğrunda mübarizəyə qalxsaydı, müsəlmanların öz aralarında müharibə baş verər və bu daxili qarşıdurma romalıların hücumu üçün

əlverişli şərait yaradardı.

Bu qeyd olunan amillərə görə Hz. Əli səbir edərək, özündən əvvəl olan üç xəlifə ilə birləşərək, İslam dininin yayılıb vüsət tapması üçün fəaliyyət göstərmişdir. Hz. Əlinin mühakimələrini onun əvəzsiz xidmətlərindən hesab etmək olar. Əgər səhabələr arasında Hz. Peyğəmbərin təbirincə desək,"Ümmətin ən elmlisi və qəzavət işlərində (mühakimə yürütməkdə) hamıdan bilikli olan imam Əli kimi bir şəxsiyyət olmasaydı, İslamın elə ilk dövrlərindən bir çox məsələlər izahsız qalardı."

Hz. Əlinin Quran ayələrinə əsaslanaraq yürütdüyü mühakimələr hədis və tarix kitablarında qeyd edilib, hətta mükəmməlləri haqqında ayrıca kitablar da yazılıb.

Onun elminin sayəsində mənəvi yüksəlişə malik olan insanların təlim-tərbiyəsi mənəviyyat zirvələrinə yüksələrək, zahiri gözlərin görmədiklərini batini gözlə müşahidə etməyi bacarmışlar.O, kimsəsizlərə, yoxsullara əl tutmuş, öz əlləri ilə bağlar salıb insanların istifadəsinə vermişdir.

Dövlətin xəlifələri siyasi məsələlərdə və idarəediçilik işlərində çətinliklərlə üzləşib, çıxılmaz vəziyyətdə qaldıqları zaman Hz. Əli onların ən etibarlı məsləhətçisi idi.Hz.Əli öz uzaqgörənliyi və tədbiri ilə mövcüd çətinlikləri həll edər, onlara öz vəzifələrini aydınlatdırardı.Bu müşavirələrin bəzisi **"Nəhcül-bəlağə"**də və digər tarixi mənbələrdə qeyd olunmuşdur.

Əsasən Əbu Bəkrin və Ömərin xəlifəliyi dövründə xarici siyasət yalnız Hz. Əlinin məsləhəti ilə həyata keçirilərdi.Əbu Bəkrin xəlifəliyi dövründə romalılara qarşı müharibəyə Hz.Əlinin məsləhəti ilə başlamışdılar.

Hz.Əli fövqəladə biliyə, elmə malik olan və Hz.Peyğəmbərdən sonra Əliyyun Mürtəza dərəcəsinə çatan böyük bir şəxsiyyət idi.Hz. Əli hər kəsdən çox Qurana aşiq idi, Quranı bəlağətinə, icazına, ayələrin açıqlanmasına hər kəsdən daha artıq bələd idi. Peyğəmbərdən dərs alaraq, bütün İslam elmini hər kəsdən əvvəl bilən və mənimsəyən məhz Hz. Əli olmuşdur.

Əgər onun zamanında təfsirə dair kitab yazılması mümkün olsa idi, kim bilir, o böyük şəxsin Quran təfsirinə aid bizlərə necə qiymətli məlumatları çata bilərdi. Bir çox təfsir və hədis kitablarında Hz. Əlinin xeyirli məlumatlarları vardır. Məsələn;-Hz.Əli demişdir ki:-"Mən Rəsul-Əkrəmdən **"Yövmül-Həcci-Əkbər**"i soruşdum.O Həzrət buyurdu ki:

-Bu"Yövmi Nahir"dir. Yəni Qurani-Mubindəki"HəcciƏkbər"dir. Bu 33 ildən bir, Qurban bayramı cümə gününə düşdükdə, həmin ili Həccdə

olan Hacılara “Hacci-Əkbər”deyirlər. (Böyük Hacı)

Hz.Əli buyurur:”Sizə Qurani-Kərimdəki əfzəl olan ayətdən xəbər verimmi?”

O,”Sizin başınıza gələn müsibətlər sizin əlləriniz üzündəndir” ayəti kəlməsidir ki, Rəsulu Əkrəm bu ayəni mənə belə açıqladı:-Ya Əli!Bu ayəni belə təfsir edəcəyəm:-“Yəni sizə dünyada xəstəlikdən və ya bəladan hər nə baş verərsə, öz əllərinizin qazandığı şeylər üzündəndir,öz günahlarınızın cəzasıdır.Bu dünyada çəkdiyiniz əziyyət səbəbindən, axirətdə daha ikinci dəfə həmin günaha görə cəzalanmayacaqsınız.”

Hz.Əli Quranın böyük bir vüquf sahibi idi. O Həzrət bir gün xütbə söyləyərkən camaata:-”Soruşun!Nə sual istəyirsinizsə, cavabını verim. Kitabullah haqqında məndən soruşun.Allaha and olsun ki, elə bir ayə yoxdur ki, mən onun gecəmi, gündüzmü və yaxud da hansı məkanda nazil olduğunu deyə bilməyim,”-deyə buyurmuşdur.

Hz.Əli Peyğəmbərdən sonra bütün əsabələrin arasında ən alimi və Hz. Peyğəmbərin sirlərinin sahibi idi. Ondan fövqəladə bir elmi-irfan vücuda gəlmişdir.

Hz.Peyğəmbərin göstəriş və əmrlərini yerinə yetirərək, İslam dinini yaşadan Əmirəl-möminin Əlinin və onun on bir övladının fəaliyyətinə bütün dünya insanları qəlbən inanıb və qəlbən də onları sevməlidirlər. Onlar Peyğəmbərimiz tərəfindən bizə tövsiyə edilib,Quranla birlikdə əmanət edilən nemətlərdirlər və biz bütün bunlardan həm bu dünyada, həm də əbədi dünyada sorğulanacağıq.

İmam Əlinin fəzilətləri haqqında danışmaq, onların hamısını qeyd etmək çox çətindir.Bütün İslam firqələrindən olan alimlərin, tədqiqatçıların və hədis rəvayətçilərinin, hətta qeyri-İslami müəlliflərin o Həzrət barəsində müxtəlif kitablar yazmalarına baxmayaraq, onların hər biri öz növbəsində İmamın lazımınca tanınmasını vəsf etmək üçün aciz qaldıqlarını bildirmişlər.

Hz. Əli ilahi Tövhid elminin mənbəyidir.Onun“Nəhcül-Bəlağə”kitabının birinci xütbəsində Tövhid elmi haqqında o qədər böyük və heyranedici mətləblər var ki, böyük filosoflar, mütəfəkkirlər, ariflər və tədqiqatçılar bir yerə toplaşsalar, imamın həmin xütbədəki təkcə “Hər şeylə birlikdədir, amma yanaşı olmadan; hər şeydən fərqlidir, amma onlardan kənar, ayrı deyil”cümləsinin dərinliyinə heyran qalmışlar.

Hz. Əli fəqihlər ustasıdır.O, ilahi elmlərdən olan Fiqh (şəriət) elminin əsası və təməlidir. Hz.Əli Hz.Peyğəmbərin səhabələrindən ən yaxşı Fiqh elminə bələd olanıdır. Hz. Əli təfsir alimlərinin müəllimidir. Təfsir elmində nə varsa, hamısının təməli Hz.Əli tərəfindən qoyulmuşdur.Bu sözün doğruluğu haqqında Abdullah ibn Abbasdan nəql edilir.

Hamı bilir ki, Abdullah ibn Abbas həmişə Hz. Əli ilə birgə olub və onun şagirdlərindəndir.İbn Abbasdan soruşulanda ki:"Sənin elminin miqdarı əmin oğlu Hz.Əli ilə müqayisədə nə qədərdir?"O belə cavab verib ki:- "Sahilsiz dənizə düşən yağışın bir damlası qədər".

Hz. Əli irfan mənbəyidir.İlahi elmlərdən biri də məslək, həqiqət və hal elmi olan irfan (əxlaq elmi) və sufilikdir. Məlum olduğu kimi bütün İslam ölkələrində irfan elmini almışlar, bu elmi Hz.Əliyə nisbət verirlər. Böyük irfan alimlərindən Əbu Həmid Qəzzalinin dördcildlik"İhyaülulum",Rəziyyüddin Əbu Nəsrin "Məkarimül-əxlaq", Məhəmməd Mehdi ibn Əbuzər Nəradanin "Camiuz-səadət", Məhəmməd Vaizin "Əbvabulcinan" ,Əbu Məhhuz Məruf Kərxi və digər böyük şəxsiyyətlər öz kitablarında bu elmin mənbəyinin Hz.Əli olduğunu bildirmişlər.

Hz.Əli ərəb dili elmlərinin banisidir. Elmlərdən biri də ərəb dilinin morfologiya (kökləri) və sintaksisidir, hamı bilir ki,onu Hz. Əli ixtira edib, qaydalarını açıqlayıb və bunu Əbul Əsvəd Duvəliyə diktə edib. O cümlədən İmam Əli bu elmin əsasları barəsində əvvəldə belə buyurmuşdur:"Kəlmə iki növdür-isim, feldir. Kəlmə ya məlum olur, ya da məchul. Əlamətlər dörddür: zəmmə, fəthə, kəsrə və sukun."Bu cür bölgü aparmaq və tərif demək möcüzəyə yaxın bir şeydir. Çünki insanın qüvvəsi adi yolla bu cür dəqiq bölgülər aparmağa qadir deyil və belə nəticələr əldə edə bilməz."

Hz.Əli qiraət elminin müəllimidir. Hz. Əlinin Quranı qiraət etməsi və bu müqəddəs kitabla məşğul olması barəsində, Peyğəmbərin zamanında hamıdan əvvəl Quranı əzbərləməsi barədə bütün İslam firqələri yekdil bir fikirdədirlər.

Hz.Əli səxavət mənbəyi idi.O oruc tutar və aclıqdan zəifləməsinə baxmayaraq, öz azuqə və yeməyini başqalarına verərdi. Hətta düşmənləri onun çox səxavətli bir kişi olduğunu dilə gətirərdilər.

Hədis: Hz.Əliyə:"Ey möminlərin əmiri!Bizə özün haqqında da bir xəbər ver",-deyildiyi zaman,o belə cavab verdi: "Rəbbim mənə üstün anlamaq və qavramaq, rəhimli bir qəlb, fəsahətli, açıq danışan bir dil ehsan buyurdu! Peyğəmbərimiz(s.ə.s.) buyururdu ki, sənin mənim məsəlim, Musa ilə qardaşı Harunun məslinə bənzəyir." **("Hilyətülevtiya")**

Hz. Əli səbir və həlimlik dəryası idi. Günahlardan keçmək baxımından da o, ən gözəl güzəşt edən idi. O Həzrət xoşxasiyyətlilik mücəssəməsi, mücahidlər ağası idi. O Həzrət kamil, zahid, abidlər abidi idi. O Həzrət ilahi qanunların gözətçisi idi. Buna əlavə olaraq deməliyik ki, Əli (ə) zahidlərin imamı kimi tanınaraq, özünün xariqularə qəhrəmanlıq və şücaətilə şöhrət tapmışdır. O, ***İslamın ən ilk fədaisi***

idi. Onun, Peyğəmbərlə (s) İslam müharibələrində həlledici rolu olmuşdur. Bədr döyüşündə O, öz "Zülfüqar" qılıncı ilə Qüreyşin 30 cənkavərini qətlə yetirmişdir. Ühüd və Hüneyn müharibələrində əksər əzəmətli səhabələrin Hz.Peyğəmbəri qoyub qaçdıqları bir vaxtda O, fədakarcasına Hz.Peyğəmbəri müdafiə etdi!! "Xəndək" müharibəsində müşriklərin ən nəhəng cəngavəri Əmr-ibn-Əldəvəid-əl-Amirinin qarşısına çıxaraq onu məhv etdi. Halbuki, başqa səhabələrdən bir ***kəs onun qarşısına çıxmaqa cürət etmirdi. Bunu da deməliyik o zaman*** Hz.Əlinin yaşı əksər səhabələrin yaşından az idi.

Hz.Əli şücaətli bir qəhrəman idi. Onun bütün müharibələrdəki şücaət və müqaviməti elə məşhurdur ki,qiyamətə kimi bu barədə ondan məsəl kimi istifadə ediləcəkdir. O Həzrətin qol və biləyindəki ilahi gücü dillərdə dastan olmuş, hətta ona "Allahın şiri" ləqəbi də verilmişdir. Peyğəmbərin apardığı bütün müharibələrdə şücaət ilə döyüşüb qalib gəlmişdir.

Eyni zamanda o, cahiliyyət dövründə bütpərəst olmaması ilə başqa səhabələrdən seçilirdi. Hz. Əli öz tərbiyəsini bəşəriyyətin ilk müəllimi Hz.Muhəmməddən almışdır və həyatı boyu bir an belə Peyğəmbərdən (s.ə.s.) ayrılmadı. Hətta Hz.Peyğəmbər dünya ilə vidalaşarkən Hz.Əli onun yanında idi. Ömrü uzunu elm və hikməti Peyğəmbərdən öyrəndi. Bu səbəbdən də onun, Hz.Peyğəmbərin elm və hikmət şəhərinin qapısı və qardaşı olmasına ləyaq idi. Həmçinin O Həzrət daha çox fəzilətli sifətlərə malik olmağı ilə başqa səhabələrdən seçilirdi. Necə ki, Hakim öz "Müstədrək" kitabında Əhməd-ibn-Hənbəldən nəql edərək deyir: "Peyğəmbərin (s) səhabələri sırasında Əli-ibn Əbu-Talibdən fəzilətli səhabə yoxdur." **(Müstədrəkus-səhiheyn. c.3. səh.107.)** Hz.Peyğəmbər bəzi səhabələrin bu şərəfə nail olmaq üçün göndərdikləri elçiləri rədd etdikdən sonra, qızını Hz.Əli ilə evləndirdi. O, Peyğəmbərin (s.ə.s.) ciyər parəsi, dünya və cənnət qadınlarının xanımı Fatimə (ə) idi ki, Allah-təala onun qəzəbilə qəzəblənərdi. Həqiqətən də doğru deyiblər: "Əgər Əli xəlq olunmasaydı Fatiməyə tay bir şəxs olmazdı." (Əlmənavinin "Künuzul-hənaiq" kitabı bunu deyləmi rəvayət etmişdir.) Onu da deməliyik ki, əgər xəlifəni seçmək insanlara həvalə olunsaydı, Hz.Əli səhabələrdən daha çox fərqli olduğu üçün xilafətə daha layiq olardı.

Vəfatı:-Hicrətin 40-cı ilində Ramazan ayının 19-da səhər Kufə məscidində sübh namazı qılarkən Əbdü-Rəhman ibn Mülcəmi Muradi Hz.Əlini zəhərlənmiş qılıncla başından vurub yaralamışdır. Hz.Əli

vəfat edən zaman camaatı yığıb imam Həsəni özünə vəsiy və xəlifə qərar verdi.İlahi elminin sirlərini və Peyğəmbərin vəsiyyətlərini və digər miraslarını ona təslim etdikdən sonra, Haqq -taalanın əsrarını və imamət sirlərini İmam Həsənin qulağına dedi. Peyğəmbərin silahlarını, keçmiş Peyğəmbərlərin miras və kitablarını İmam Həsənə təhvil verərək, buyurdu ki, o da özündən sonra bu əmanətləri İmam Hüseynə və o da özündən sonra gələcək bütün İmamlara təslim etsin.

Ramazan ayının 21-də Əli (ə.s.) 63 yaşında vəfat etmiş və Nəcəf şəhərində dəfn edilmişdir.

Hədis:İbn.Abbasdan:"Vallahi, Əliyə elmin onda doqquzu verilmişdir! Qalan onda birinə də sizinlə ortaqdır"deyə rəvayət edir. **(Əbu Nuəym,"Hilyətül-evtiya")**

Hədis:İbn Abbasdan nəql olunur ki, Şam hakimi belə, Hz. Əli şəhid olduqdan sonra "Fikh və elm, Əbu Talibin oğlunun ölümüylə getdi",-dedikdə, qardaşı"Şamlılar bu sözü sənin ağzından eşitməsinlər,"-demişdir. O, da"Burax məni, eşidirlər, qoy eşitsinlər", deyə cavab vermişdir**.(Əbu Nuəym,"Hilyətül-evtiya")**

"Pənah aparıram sübhün Rəbbinə!"
Həzrət Əlidən söz açmaq üçün.
Uca söz ən böyük matahım olsun.
Peyğəmbər köməyim,Quran dayağım,
Yardımçım tək olan Allahım olsun.
Peyğəmbərin şəhərinə girmək üçün,
Peyğəmbər şəhərini görmək üçün.
O şəhərin yaşıl Cənnət bağçalarında,
Arzuların meyvəsini dərmək üçün.
Bir qapı var,o qapını öz əlimlə açım dedim.
Onun irfan işığını ürəyimə saçım dedim,
O qapının öz kilidi,öz açarı.
O qapının idrak dolu söz açarı.
O, mərifət qapısıdır, xidmətçisi kamil insan.
O, şəriət qapısıdır, dürüst aqil,bəlli imam.
O, mərifət qapısıdır, fəqirlərə ehsanı var.
O, Muhəmməd qapısıdır,yol göstərən Quranı var.
O, qapıdan o tərəfə Peyğəmbərin şəhəri var.
O, qapıdan girənlərin Allahı bir, peyğəmbəri, kitabı var.
O, qapıdan keçmək üçün sudan duru, aydan arı ürək gərək.
Təbiətin ipək gərək, məhəbbətin mələk gərək.
Həmin qapı Həzrət Əli qapısıdır.

Möminlərin əfəndisi, İmam, Vəli qapısıdır.
Peyğəmbərin həm bu dünya,həm də axirət qardaşı.
Ey Peyğəmbər şəhərinin haqq qapısı, şah qapısı.
Ululara vətən olan,ulu bir dərgah qapısı.
Bizdən sənə salam olsun,ey Əbu Talib övladı.
Səni sevmək imandandır,torpaq kimi,Vətən kimi.
Peyğəmbərlə bir olmusan,vücud kimi,bədən kimi.
(Z. Yaqub.”Peyğəmbər”əsərindən “Elmin qapısı”)

DÖRD XƏLİFƏ HAQQINDA

1-ci xəlifə Əbu Bəkr (632-634) olmuşdur.Peyğəmbərimizdən 2 yaş kiçik olub, öz dövrünün hörmətli və dövlətli şəxslərindən idi. Onun qızı xanım Aişə Peyğəmbərin həyat yoldaşı olmuşdur.

O öz xəlifəliyi dövründə bütün dövlət və elmi işlərdə Hz.Əli ilə məsləhətləşmişdir.Əbu Bəkr iki il, üç ay on iki gün xəlifəlik etmiş və özündən sonra xəlifəliyi Ömər ibn Xəttaba vəsiyyət etmişdir.

2-ci xəlifə Ömər ibn Xəttab(634-644) olmuşdur. O, İslamı qəbul edən 40-cı adam olmuşdur. Ömərin xəlifəliyi dövründə elmi, siyasi və ictimai məsələlərdə Əli (ə.s.) müşavir idi.Hicri 14 ilində müsəlmanlarla Sasani imperiyası (iranlılar) arasında münasibətlərdə Hz.Əlinin məsləhətləri böyük rol oynamışdı.

Ömər ibn Xəttab on il altı ay xəlifəlik etdi və ölümünə yaxın təşkil etdiyi Şura adlı yığıncaqda Osman xəlifə seçildi. Əməvi xanidanının hakimiyyəti əla keçirməsini, Müaviyə ibni Süfyanı Əbubəkr vali təyin etmişdi, Ömər də xəlifəlik dövründə Müaviyyəni vali kimi təsdiq etdi.

3-cü xəlifə (644-656) olan Osman 70 yaşında zəif xasiyyətli bir adam olmuşdur.O, on iki il xəlifəlik etmişdir.

Onun idarəçiliyindəki nöqsanları,o cümlədən beytul-malı düzgün şəkildə istifadə etməməsi, Bəni-Üməyyə qəbiləsindən və öz qohum-əqrəbalarından olan şəxsləri vəzifə başına gətirməsi,digər tərəfdən isə mühacir və ənsarlardan olan ləyaqətli şəxsləri hökumət işlərindən uzaqlaşdırması müsəlmanları qəzəbləndirmişdi.

Osman əhalinin qeydinə qalmayan valiləri işdən kənarlaşdırmaq xüsusunda camaatın şikayətinə baxmadığına görə, nəhayət, camaat onun hökumətinin əleyhinə qiyam etdi. Bu qiyam Osmanın ölümü ilə nəticələndi.

4-cü xəlifə Hz. Əli olmuşdur.O,Peyğəmbərin vəsiyyətindən 25 il sonra xəlifə seçilmiş və 5 il xəlifəlik etmişdir.

HƏZRƏTİ ƏLİNİN HƏDİSLƏRİNDƏN

Əgər Allah səni himayə edir,ruzi verir, qüssə niyə edirsən?

Əgər Allah hər canlının ruzisini özü bölüşdürürsə, niyə hərissən?

Əgər dünyanın gözəllikləri aldadıcıdırsa, bəs niyə o qədər dünyaya bağlanırsan?

Əgər behişt haqdırsa, imanını niyə özgələrə nümayiş etdirirsən?

Əgər qəbir haqdırsa,niyə möhkəm açarlar ilə qapını bağlayırsan?

Əgər Cəhənnəm haqsa,bəs bir belə haqsızlıqlar niyə edirsən?

Əgər haqq-hesab haqsa, niyə malına haram qatırsan?

Qiyamət haqsa, niyə xəyanət edirsən?

Əgər şeytan insanın düşmənidirsə,niyə ona itaət edirsən?

Muğayat ol, fikrindəki dilinə gələr.

Muğayat ol, dilindəki sənin rəftarındır.

Muğayat ol,hərəkətindəki bu adət olar.

Muğayat ol, adətindəki bu sənin şəxsiyyətindir.

Muğayat ol, şəxsiyyətindənki o sənin taleyin olacaq.

Hədis:İmam Cəfəri Sadiq belə buyurur:Üç şey olduqda, sənə heç bir şeyin zərəri olmaz.

1-Bəla və qəmginlik zamanı dua etmək.2- Günah zamanı istiğfar etmək.3-Nemət veriləndə şükür etmək.

2-ci İmam Həsənin həyatı haqqında

İmam Həsən ibn Əli hicri-qəməri təqvimi ilə 3-cü il Ramazan ayının 15-də Mədinə şəhərində dünyaya göz açmışdır. Atası Əli ibn Əbu Talib, anası Hz.Peyğəmbərin qızı Fatimə-Zəhradır. Künyəsi Əba Muhəmməd və məşhur ləqəbi Müctəbadır.

İmam Həsən 7 yaşında ikən babası Peyğəmbər (s.ə.s.) dünyasını dəyişmiş, təxminən 30 yaşına kimi atası Hz.Əlinin sirdaşı və silahdaşı olmuşdur.

Atasının vəfatından sonra İmam Həsən 10 il müddətində (40-50-ci hücri ilə) bu ilahi vəzifəni daşımış, nəhayət,hicri 50-ci ildə Müaviyyənin hazırladığı sui-qəsdlə zəhərlənərək 48 yaşında ikən şəhadətə yetişmişdir.

Görünüşü:-Onun dərisi ağ, dodaqları nazik, gözləri iri və tünd-qara rəngli,üzü girdə, saqqalı qara, saçları qıvrım, qaşları qövsvari idi. İmam Həsən elm, təqva, zöhd və ibadətlə ad çıxarmaqla yanaşı öz dövrünün ən səxavətli şəxsi və miskinlərin mədadkarı kimi tanınmışdır. O, alicənab, səbirli, vüqarlı, mətin, səxavətli və camaatın sevgisini qazanmış bir şəxsiyyət idi.

3-cü xəlifə olan Osmanın zamanında Əbu Süfyan nəslindən olan Müaviyyə,Yezid və sairləri hakimiyyətdə olduqları dövrdə

Hz.Peyğəmbərin övladları ilə çəkişmiş, onlara zülm və əziyyət vermişlər.İmam Həsən(ə.s.)Əbu Süfyan nəslindən gələnlərlə mübarizə və müharibədən çəkinmiş, onların münafiq olmaqlarına baxmayaraq, onlara güzəştlər etmişdi.

İmam Əli(ə.s.) vəfat edən zaman camaatı yığıb İmam Həsəni özündən sonra xəlifə elan etdi.İmam Həsən Ramazan ayının 21-də Kufə məscidində bəlağətli xütbə oxudu və sonra camaat hamısı ona iman gətirib, beyət etdilər. O da ətraf bölgələrə əmirlər təyin etdi.

O zaman xəlifə Osmanın dövründə Şamda hakimiyyətdə olan, Peyğəmbərin övladlarının və İslamın qatı düşməni olan Əbu-Süfyan oğlu Müaviyyə dövlət və gücə sahib olduğundan İmam Həsənə məktub göndərir. Bu məktubun məzmunu ondan ibarət olur ki, Müaviyyə onunla sülh bağlayıb, İmam Həsənin ona beyət etməsini istəyirdi. Bununla bərabər o,bütün ətraf vilayətlərin əmirlərini ələ almış, onlara çoxlu pul və vəzifə vəd etmişdi.Güc və dövlətə sahib olduğu üçün camaatın arasına öz adamlarını salaraq, yalançı vədlərlə şirnikləndirib özü üçün güclü təbliğat aparırdı.Belə bir vəziyyətdə camaatın və bölgə hakimlərinin bəzilərinin Müaviyyənin tərəfində olmaları İmam Həsəni öz vəzifəsindən geri çəkilməyə məcbur etdi.Çünki bu dövrdə vətəndaş müharibəsi xarici və daxili düşmənlərə fürsət verərdi ki, bu da İslam dininin məhvinə gətirə bilərdi. Buna görə də İmam Həsən ikitərəfli sülh müqaviləsi bağlayaraq öz vəzifəsindən əl çəkib, Əhli-əyalı ilə birlikdə Kufədən Mədinə şəhərinə köçür.

Onun Cödə adlı, Əsma ləqəbi ilə məşhur olan bir zövcəsi var idi. Müaviyyə onu aldadıb,öz oğlu Yezid üçün alacağını və çoxlu qızıl verəcəyini vəd verərək,İmam Həsəni zəhərləməsi üçün ona zəhər verir. Cödə almaz zəhəri ilə öz həyat yoldaşını-İmam Həsəni zəhərləyir.Sonra isə Müaviyyə öz vədinə əməl etməyib: ”Peyğəmbər övladına vəfa etməyən, mənim övladıma heç vəfa etməz,” deyib, onun saçını bir qatırın quyruğuna bağlayaraq səhraya buraxdırır.

İmam Həsən (ə.s.) 40 gün bu zəhərin təsirindən əziyyət çəkdi, ciyərləri doğranıb töküldü. Nəhayət, hicrətin 50-ci ilində Səfər ayının 28-də 48 yaşında vəfat etdi. Müqəddəs məzarı Mədinə şəhərindəki Bəqi qəbiristanlığındadır.

3-CÜ İMAM HÜSEYNİN HƏYATI

İmam Hüseyn ibn Əli (ə.s.) 4-cü Hicri-qəməri ilində Şaban ayının 3-də Mədinə şəhərində dünyaya göz açmışdır.Atası Hz. Əli, anası Peyğəmbərin qızı Fatiməyi-Zəhra əleyhadır. O, bu ailənin 2-ci övladı

olmuş məşhur ləqəbi Seyyidüş-şühəda və künyəsi Əba Əbdullahdır.

Peyğəmbərimizin hər üç nəvəsinin doğumunda Hz.Cəbrail nazil olub, uşağa qoyulacaq adı Peyğəmbərimizə bildirmişdir.

Hüseyn doğulduğu zaman Hz.Cəbrail nazil olub deyir:

-Ya Muhəmməd! Rəbbin sənə salam söyləyir, nəvənə Harunun oğlunun ismini qoy,- deyir. Peyğəmbər (s.ə.s.) soruşur:

-Ey Cəbrail (ə.s.),Harunun oğlunun ismi nədir?

Cəbrail (ə.s.):-"Şəbər"(Şubeyr)-deyir.

Peyğəmbərimiz:-"Mənim dilim ərəbcədir,"-deyir.

Hz.Cəbrail buyurur:"Onda bu adın ərəbcə mənası olan Hüseyn qoy,"deyir.

Peyğəmbər (s.ə.s.) nəvələri Həsən və Hüseyni çox sevərdi. Onlara baxıb dua edərdi:-"Allahım!Mən bunları çox sevirəm, Sən də bu nəvələrimi çox istə.Həsən və Hüseyn dünyada mənim qoxuladığım iki reyhanımdır.Həsən və Hüseyn Cənnətdəki gənclərin seyyidləridir."

İmam Hüseynin uşaqlıq çağları babası Peyğəmbərin qucağında keçmiş və 6 yaşında olanda babası vəfat etmişdir.Yeniyetməlik və gənclik illəri atası Həzrəti Əlinin 25 illik sükut və 5 illik xəlifəlik dövrünə təsadüf etmişdir. O, atasının xəlifəliyi dövründə qarşıya çıxan çətinliklərin həllində fəal iştirak etmişdir. Həyatı boyu zülm və haqsızlığa qarşı mübarizə aparan İmam Hüseyn (ə.s.) şücaət və azadlıq örnəyi kimi tanınmaqdadır.

Atasının vəfatından sonra, qardaşı İmam Həsənin imamlığı dövründə siyasi və ictimai səhnələrdə onunla çiyin-çiyinə fəaliyyət göstərmiş, İslamın inkişafı üçün mübarizə aparmışdır. Qardaşının vəfatından sonra İmam olan Hüseyn ibn Əli on il müddətində Müaviyyənin qəsbkar hakimiyyətinə qarşı, Müaviyyənin ölümündən sonra isə oğlu Yezidə qarşı mübarizə aparmışdır. Həmin dövrdə Yezid bütün hakimiyyəti əla alaraq insanları və İslam dinini uçuruma aparırdı.

Artıq elə bir zaman idi ki, Peyğəmbərimizin ölümündən 50 il keçmiş, Imam Hüseynin atası və qardaşı qətlə yetirilmiş, dövləti isə Peyğəmbərin düşməni olan, sonradan yalandan İslamı qəbul etmiş Əməvilər hökuməti idarə edirdi. Əməvi hökumətinin başında oturan Bəni Ümməyyə övladlarının-Müaviyyə və Yezidin niyyətləri isə Peyğəmbər və onun övladlarından öz babaları Əbu Süfyanın intiqamını alıb, Peyğəmbərin gətirdiyi dini alt-üst edib dağıtmaq idi.

Onların yeritdiyi siyasət nəticəsində demək olar ki, əsil dindarlar azalmış və İslam dini Ərəb ölkələrində təhrif edilməyə başlamışdı. İnsanlar çaşqın vəziyyətdə qalıb, ölkəni idarə edən din başçılarının yalan-

çı siyasətləri, pozğun, tərbiyəsiz hərəkətləri üzündən İslamdan diksinib üz döndərməyə, hətta evlərində bütlər düzəltdirib, gizlində bütlərə sitayiş etməyə başlamışdılar.

Belə bir vaxtda onlar öz yalanlarını ört-basdır etmək, öz mövqelərini möhkəmlətmək üçün Peyğəmbər övladından beyət almaq, yəni imam Hüseyndən onların əqidə və əməlləri ilə razılaşmasına dair razılıq almaq istəyirdilər. Qorxurdular ki, camaat onlara qarşı çıxaraq İmam Hüseyni xəlifə təyin etsin. Buna görə də onlar İmam Hüseyni aradan götürmək üçün tədbir tökür və fürsət axtarırdılar. Çünki Peyğəmbər(s.ə.s.) övladının xalq arasında çox böyük nüfuzu, hörməti və səlahiyyəti var idi. Buna görə Yezid və onun əlaltıları İmam Hüseyni yola gətirməli,əgər bu mümkün olmasa,hiylə və tədbirlə onu məhv etməli idilər. Onlar İmam Hüseyni iki yolayrıcında qoymuşdular. Əlbəttə, İmam Hüseyn babasına və özünə layiq yolu tutaraq,Yezidə beyət etmədi.

İmam Hüseyn Mədinədən Məkkəyə yola düşərkən qardaşı Muhəmməd Hənəfiyyəyə (ögey qardaşı) bir vəsiyyətnamə yazdı. O, ilk öncə Tövhid, nübüvvət və məada etiqadını izhar etdikdən sonra belə yazmışdı:

"-Mən Mədinədən özümə və həvayi-nəfsimə xatir, ya da ki, fəsad və zülm törətməkdən ötrü çıxmıram. Mən,cəddimin ümmətini bürüyən fəsadları islah etməkdən ötrü hərəkət edirəm.

Hədəfim yaxşı işlərə dəvət etmək və pis işlərdən çəkindirməkdir. Mən cəddimin və atamın yolunu tuturam.Kim haqqa xatir bu yolda mənə qoşulsa, Allah mənimlə bu qövm arasında Öz hökmünü verənədək öz yolumu davam etdirəcəyəm. Həqiqətən, Allah ən yaxşı hakimdir."

İmam Hüseyn Məkkəyə gəldikdə,qəbilə başçılarına belə bir məktub yazdı.Bu məktubda o, keçmiş xəlifələrin dövründə atası İmam Əlinin,sonralar isə qardaşı İmam Həsənin siyasi səhnədən uzaqlaşdırıldığını, lakin İslam Ümmətində qarşıdurma və təfriqələrə yol verməməkdən ötrü və İslam dininin mənafeyi naminə bu vəziyyətə dözdüklərini vurğuladıqdan sonra belə yazmışdır:

"-Mən öz qasidimi bu məktubla sizə tərəf göndərirəm.Sizi Allahın Kitabına və Peyğəmbərin sünnətinə əməl etməyə çağırıram. Çünki indi elə bir vəziyyətdəyik ki, Peyğəmbərin sünnəti tamamilə aradan getmiş və onun yerini bidətlər tutmuşdur. Əgər mənim sözümə qulaq assanız, sizi düz yola hidayət edəcəyəm.Allahın salamı, rəhməti və bərəkəti sizə olsun!"

Yezid onu öldürmək üçün casuslar təyin edir ki, İmam Hüseyn Məkkəyə ziyarətə getdiyi vaxt onu Məscidi-Həramda qətlə yetirsinlər. Məkkə hakimləri İmam Hüseyni müdafiə edə bilmədiklərinə görə,İmam Hüseyn Kəbə evində qan tökülməsini istəmədi və Həcc ziyarətini ya-

rımçıq qoyub öz Əhli-əyalı ilə birlikdə Kufəyə yola düşür.

Həmin dövrdə Kufə xalqı minlərlə məktub yazaraq İmam Hüseyni Küfəyə dəvət edirdi ki, onları zalımların zülmlərindən qurtarsın.Sözsüz ki,İmam Hüseyn onu gözləyən təhlükələri göz önünə almış və onu gözləyən hadisələrdən xəbərdar idi.

Lakin o, ən düzgün yolu seçdi və din yolunda şəhadəti qəbul etmək üçün Məhərrəm ayında Kərbəla çölünə gəlib çatdı.O,Aşura gecəsi əshabələrini yığaraq bildirir ki, sabah hamı şəhid olacaq, kim istəyirsə. getsin və yaxud da qalıb könüllü şəhadəti qəbul etsin.

Sonra isə belə dedi: **"İlahi, həqiqətin həqq yolunda və babamın gətirdiyi din yolunda hər bəla var isə, mənə ruzi et və məni cəmi-bəlada imtahan qıl. Əgər təriqi-məhəbbətdə zərrə qədər tərəddüd görsən, məni silsileyi-əsbigarından (sevdiklərinin sırasından) xaric eylə. Haqq və din uğrunda cismimi zərrə-zərrə qıl."**

Aşiq oldur ki,cəfalığından ikrah etməyə,
Zərrə-zərrə qılsalar əzasını, ah etməyə.
Qan içə, səbr eyləyə, hər dəm fəğanü-ah edüb,
Dərdi-eşqi-yardan əğyarı agah etməyə.
Aşiq oldur kim, bəla zövqünü idrak eyləyə,
Eşq dərdi dəmbədəm könlün fərəhnak eyləyə.

İmam Hüseynin Kərbəlada Aşura günü buyurduğu son sözləri bunlardır:

"İlahi, Sən hər nə əmr etsən,ona razıyam.Bir oğul azdır,on oğul azdır, kaş Ouranın surələri qədər oğlum olaydı, sənə qurban eləyəydim."

Din üstə tamama oldu Hüseyn saxladı dini,
Haqq verdi ona rütbeyi-şayan əvəzində,
Bina gözü dərk eylədi Quranı xətərdən,
Verdi südəmər oğlunu qurban əvəzində.
Quran-Məcidin dedi çox qiyməti vardır,
Əkbər nədi,Əsgər nədi Quran əvəzində.
Əkbər başı münşəqq olur-olsun nə sözüm var,
Dilsiz balam əmsin oxu püstan əvəzində.
Ey kaş ki, yüz on dörd ola oğlum mənim Allah,
Qurban verəm hər Sureyi-Furqan əvəzində. (Hacı Qədir Ənvər)

Məhərrəm ayının 10-cu günü İmam Hüseyn öz doğmaları ilə birlikdə vəhşicəsinə öldürülərək, şəhadət məqamının ən uca zirvəsinə çatdılar.

İmam Hüseynin faciəvi qətli İslam və bəşər tarixində silinməz iz buraxdı.

İmam Hüseyn məscid və məclislərdə Peyğəmbərin pak Əhli-Beytinə söyüşlər deyildiyi, İslam hökmdarının sarayında şərab məclisləri qurulduğu,məzlum kütlələrin amansızca istismar edildiyi bir vaxtda qiyam etdi və öz pak qanı ilə zəmanəsinin və özündən sonra gələcək zalımların qılınclarına qalib gəldi. Onun hərəkatıdır ki, ən pis və təhlükəli şəraitdə hər qorxuya, nəfsani istəklərə qətiyyətlə"yox!"deyərək, bir ovuc dəstə ilə on minlərlə düşmənin qarşısında durub, yaxınlarının, qohumlarının şəhadətinə, əyalının əsarətinə səbir etmək və haqq yolunda canını belə Allaha fəda etmək dərsini bəşəriyyətə öyrətdi. Elə bir eşq və şəhadət məktəbi bağışladı ki, bütün haqsevərlər üçün ilham mənbəyinə çevrilsin.

Aşura günündə,Kərbəla çölündə baş vermiş bu qanlı hadisə-İmam Hüseynin və əzizlərinin vəhşicəsinə qətlə yetirilməsi bütün dünya tarixində böyük bir çevriliş etdi və İslam tarixində 14 əsr bundan əvvəl baş vermiş bu hadisə indi də,hətta dünya durduqca da insanları İslam dini uğrunda birliyə və şücaətə çağıracaqdır.

Kərbəla hadisəsinin başvermə səbəblərini bir neçə cür izah etmək olar və bu hadisənin baş verməsində Allahın bir çox hikmətləri və işarələri vardır.

1-ci hikmət:- Bildiyimiz kimi, Qurani-Kərimdə buyurulmuşdur ki, bütün insanların qədəri, taleyi Lövhi-Məhfuzda yazılmışdır və Allahtaala hər kəsdən və hər şeydən xəbərdardır. Peyğəmbərimiz balaca Hüseyni çox sevər, onu əzizləyərək deyərdi:-"Hüseyn məndən, mən də Hüseyndənəm! Hər kəs onu sevsə, məni sevmiş olur, hər kəs onunla düşmənçilik etsə, mənimlə düşmənçilik etmişdir,"və yaxud da"Sən höccətsən, höccət oğlu və höccətlər atasısan.Sən İmamsan,imamların atasısan, sənin nəslindən 9 İmam dünyaya gələcək ki, onlardan axırıncısı zühuru vəd olunmuş Mehdidir,"və yaxud da"Hüseyn xeyirxahlıq və iftixar İmamı, izzət rəhbəridir" .

Peyğəmbərimizə öz balalarının taleyi əvvəldən bəlli idi.Çünki Peyğəmbərimizə bu xəbərlər Allahın əmri ilə həm Cəbrail (ə.s.) vasitəsi ilə, həm də Peyğəmbərimiz Meracda olanda ona bildirilmişdi. Bu məsələyə aid bir çox səhih hədislər vardır ki, Peyğəmbərimiz tərəfindən rəvayət olunmuşdur. Həmin hədislərdən belə məlum olur ki, Peyğəmbərimiz bu müsibətin baş verəcəyindən xəbərdar olduğu üçün, balaca Hüseyni qucağına alan kimi onun boğazından öpüb ağlardı.

Deməli, Allahın ən istəkli bəndəsi, Allahın Rəsulu, Meracda Al-

lahla söhbət edən bir Peyğəmbər, hər halda, Allahdan öz balaları üçün mərhəmət diləyə bilərdi ki, bu faciələr baş verməsin. Əgər Allahın Peyğəmbəri bunu Allahdan diləməmişsə, deməli, burada da Allahın bir hikməti vardır.

2-ci hikmət:-Müqayisə üçün İsa peyğəmbərin həyatına nəzər salaq. Hz.i İsa öz ölümünün səbəblərini,vaxtını, necə baş verəcəyini əvvəldən bidiyi üçün öz həvarilərinə bu haqda xəbərlər vermişdi. Hz. İsa da Allahın istəklisi, Ruhul-Qüddus, yəni müqəddəs ruhdan dünyaya gəlmiş bir Peyğəmbər idi.

Onun gətirdiyi dini qəbul edib,onun Peyğəmbər olduğunu tez də unudan, ona dönük çıxan elə dindarların özləri idi ki, onu çarmıxa çəkdilər. Bütün səmavi kitablardan və Qurani-Kərimdən bizə məlumur ki, Hz.İsa ölməmiş və o, Allah tərəfindən qeybə çəkilmişdir.Lakin insanların maddi gözü onun çarmıxa çəkilmiş, dəhşətli ölüm səhnəsini müşahidə etmişdir. Qüdrət sahibi olan Allah istəsəydi, bu səhnəni insanlara göstərməzdi.

Deməli, burada da bir hikmət vardır.Allah–taala bununla insanlara demək istəmişdir ki,Hz.İsada öz dini və xalqı üçün çarmıxa çəkilməyə hazır olmuşdur ki,təki onun ümməti Allah tərəfindən bağışlansın, ona nazil olan din yaşasın və ümməti Cəhənnəm odunda yanmasın.

Həmçinin İmam Hüseyn də özünün, hətta əzizlərinin belə canından keçməsinə razı olmuşdu ki, təki insanlar dinə, imana gəlib özlərini Cəhənnəm odundan qorusunlar və babası Peyğəmbərə nazil olan din Qiyamət gününədək inkişaf edib,yaşayıb-yayılsın.Əlbəttə, bu hadisə Allahın qədəri və təqdiri idi ki, İmam Hüseyn də bu təqdirə boyun əyərək hər şeyindən keçmişdir. Bəlkə də İmam Hüseynin ölümü bu cürə faciəvi olmasaydı, insanların yaddaşında belə uzun müddət yaşaya bilməzdi və İslam dini də tərəqqi taparaq, möhkəm dayana bilməzdi. Bu müqayisə ona görə idi ki, İmam Hüseyn də əvvəldən öz ölümünü bilə-bilə bu yola getmişdi. O,tək özünü deyil, həm də öz əzizlərini bu din uğrunda qurban vermişdir.Çünki o, elə bir dövrdə yaşayırdı ki, babası Rəsullullahın gətirdiyi din, artıq yalanlar içində məhv olmaqda idi. Həmin dövrdə İmam Hüseynin bilərəkdən bu yolu seçməsində də bir hikmət var idi.

Allah–taala o dövrün insanlarını imam Hüseynin şəhadəti ilə sanki ayıltdı, Kərbəla hadisəsindən sonra bu ölkələrdə bir çox proseslər baş verdi və din ayağa qalxaraq inkişaf etməyə başladı. Peyğəmbərimizin əkdiyi din toxumunu İmam Hüseyn öz qanı və əzizlərinin qanı ilə suvarıb təzədən cücərtdi.Əgər imam Hüseynin şəhadəti olmasaydı, o

dövrdə İslam dini məhv olardı.Deməli,İmam Hüseyn də Hz.İsa kimi öz xalqının üzüdönüklüyünə baxmayaraq, öz dini, insanlarının gələcəyi və axirəti uğrunda öz canından keçmişdir.

İmam Hüseyndən əvvəl olan və sonra da gələn bütün imamlar öz canlarını babaları Muhəmməd(s.ə.s.)in dinini, elmini və İslamı yaşatmaq üçün qurban vermişlər.

İndi isə bu hadisədən Allahın bizlərə göstərmək istədiyi işarələr haqqında:

1-işarə:-Bütün İslam dövlətlərində olduğu kimi, Azərbaycanda da Məhərrəmlik ayına xüsusi rəğbət və hörmət bəsləyirlər.Aşura günündə baş vermiş Kərbəla hadisəsini bütün camaat qeyd edir, hətta 40 gün şənlik mərasimlərini təxirə salaraq onlara matəm saxlayırlar.Bu hadisə ilə əlaqədar olaraq məscidlərdə,xüsusi yerlərdə, hətta evlərdə də onların adına məclislər qurulur,ehsanlar paylanır və matəm mərasimləri keçirilir.

Aşura günü bütün insanlar bir yerə toplanıb əzəmətli birlik nümayiş etdirirlər. Sanki həmin gün insanların simasında bir qayğı, qeyrət hissi,bir birlik hissi baş qaldırır.Hamı Peyğəmbər övladlarının başına gətirilən faciənin başvermə səbəblərini, yalançı dindarlar tərəfindən xüsusi qəddarlıqla törədilən bu hadisə haqqında düşünürlər. Bu gündə insanlarımızda dininə,vətəninə, bir-birinə qarşı birlik hissi güclənir.Sanki dünya həyatına başları qatılmış insanların düşüncələrində bir oyanış əmələ gəlir.

Allahın biz insanlar üçün müəyyən etdiyi bir çox müqəddəs günlər, aylar kimi Məhərrəmlik ayında bu mərasimin də keçirilməsi bizlər üçün həm əmanət, həm də savabdır. Dinimizə, Peyğəmbərimizə, imamlarımıza hörmət əlaməti olaraq, həm də elm və kainat dininin yaşayıb, inkişaf edib möhkəmlənməsi üçün Aşura(onuncu) günündə Kərbəla hadisəsini yad etmək hamımızın dinimiz qarşısındakı borcudur.

Bu birlik bizi həm dinimizi, həm vətənimizi qorumaq ,həm də insanlarımızda vətənpərvərlik hisslərini gücləndirmək üçün də vacibdir.

2-işarə:-Cahiliyyət dövründə ərəblər İmam Hüseyni qoruya bilmədiklərinə görə, daha doğrusu, bunu bacarmadıqlarına görə özlərini zəncirlə döyüb, başlarını yarmışlar. Bəziləri isə bu hadisənin şəxsən Peyğəmbər övladlarının başına gəlməsindən təəssüflənib, öz üsyan və narazılıqlarını bu cür izhar etmişlər.

İslam elminin və dininin inkişaf edib bütün dünyaya yayıldığı müasir dövrümüzdə insanlarımızın birlik nümayiş etdirdikləri Məhərrəmlik ayında keçirilən bütün mərasimləri, əsil İslam dininin əməllərindən olan təqva, mədəniyyət, təmkinlə keçirməyə çalışaq ki, başqa dinlərdən olan

insanlar həqiqətən dinimizin ən müasir, elm-mədəniyyət və ali din olduğunu görsünlər. Bu mərasimlərdə dini-elmi diskussiyalar, söhbətlər, Quranımızın bizə buyurduqları, Peyğəmbərimizin həyatı,imamlarımızın həyatları, elmləri haqqında danışılaraq onları gözəl yad edək. Kərbəla hadisəsini səhnələşdirilmiş şəkildə, hətta bədii filmlər çəkərək nümayiş etdirməklə insanlarımıza təqdim edib,bu hadisənin xəlifəlik üstündə deyil, dinimizin yaşaması və insanların dünya və axirət xilası üçün baş verdiyini maraqlı şəkildə təqdim etməyə çalışaq.Bu mərasimlərdə İslamın aliliyini və İslam dinindən olan insanların çox güclü olduğunu nümayiş etdirmək gərəkdir ki,gələcək nəsillər dərs alsın, nəticə çıxarıb kamilləşsinlər.

İndi isə İslamın inkişaf edib bütün Avropa ölkələrini belə fəth etdiyi dövrdə, Kərbəla hadisəsini gözəl təqdim etməyimiz İslamın möhkəmlənib daha da inkişaf etməsi üçün çox mühümdür. Həm də bu şəkildə cəmiyyətimizə dinimizin bütün dinlərdən üstün din olduğunu, dinimizin xurafat və mövhumatdan ibarət olmadığını, onun ali, kainatın dini olduğunu,elm və mədəniyyət dini olduğunu və dinimizdən utanmaq yox,dinimizlə fəxr etməyi öyrətmiş olarıq.

Lakin bu göz yaşlarını İmamlara layiq səbir və təmkinlə, onların həyatlarını, məqsədlərini düşünərək, dərk edərək və nəticə çıxararaq yad edib ağlamalıyıq. Necə ki, Kərbəla hadisəsi baş verdikdən sonra, xanım Zeynəbin Küfədə İbn Ziyadın qarşısında və Şamda Yezidin sarayında:“Mən bu hadisədə gözəllikdən başqa bir şey görmədim”-deyib,mərd-mərdanə,səbirlə düşmənlər qarşısında özünü aparması, həmçinin imam Səccad xəstə, zəif canı ilə çox təmkin və səbirlə öz nitqi və bəlağətli çıxışı ilə insanlara Kərbəla şəhidlərini tanıdıb, qorxmadan Yezidin iç üzünü açıb, bu hadisələrin baş verməsində onun günahkar olduğunu insanlara sübut edərək, insanların bağlı gözlərini açа bilməsi bizim üçün bir məktəb və dərsdir.

Buna görə də İslam dinindən olan bütün insanlar İmam Hüseynin dinimiz uğrunda şəhadətə yetməsini heç vaxt unutmamalıdırlar. Təriqətlərindən asılı olmayaraq, bütün İslam dünyası Peyğəmbərin bizlərə əmanət qoyduğu sevimli balalarının qəmli günlərində qəmlənib, şad günlərində sevinməlidirlər. Çünki o, bizlərin,yəni bütün İslam ümmətinin Cəhənnəmdə yanmaması üçün canından keçmişdir.

İmamlarımız üçün ağlamaq,İmam Hüseynin və əzizlərinin faciəvi ölümlərini yad edib, onlar üçün ürəkdən qəmlənmək, İmamların özlərinə layiqli məclislər təşkil edib,təmkinlə göz yaşı tökmək həm bu dünyamız, həm də axirətimiz üçün savabdır.

Yuxarıda qeyd etdiyimiz kimi, bu hadisənin baş verəcəyindən agah olan Peyğəmbərimiz (s.ə.s.) özü İmam Hüseyn üçün ağlamışdır. Peyğəmbərimiz (s.ə.s.) özü buyurmuşdur ki:"Şübhəsiz, Hüseynin qətli ilə əlaqədar möminlərin qəlbində əsla sönməyəcək bir atəş var.""Peyğəmbərimizin balaları üçün göz yaşı tökməyən göz,qiyamət günü Məhşərə kor gələr."

Bu haqda Qurani-Kərimdə belə buyurulmuşdur:

İsra-72-Hər kəs ki haqqı görməkdən bu dünyada kor oldu,o kəs axirətdə də kor və sərgərdandır.

Vəfatı:-Hicrətin 61-ci ilində Mühərrəm ayının 10-da, Aşura günü Yezidin əmri ilə İbni-Ziyad qoşunu tərəfindən vəhşicəsinə şəhid edildi. Şimr ibni-Zilcövşən məlun o Həzrətin başını kəsdi. İmam Hüseyn 57 yaşında şəhadətə yetdi və qəbri-şərəfi Kərbəlada böyük bir ziyarətgahdır. İmam Hüseynin qiyamı İslam ictimaiyyətində inqilab yaratdı və Bəni Üməyyə (Əməvilər) hökumətinə qarşı ümumi nifrəti daha da alovlandıraraq Tövvəbin (tövbəkarların) qiyamı, Mədinə əhlinin qiyamı, Muxtar Səqəfinin qiyamı, Zeyd ibn Əli ibn Hüseynin qiyamı və bir çox başqa qiyamların baş verməsinə səbəb oldu.

Hədis:-İmam Cəfəri Sadiq buyurur:Bizə edilən zülmə ağlayan hər kəsin nəfəsi təsbihdir, kədəri ibadətdir və bizim sirlərimizi gizlədib,haqq olduğumuzu bəyan etmək Allah yolunda cihaddır.

Hədis:-Peyğəmbərimiz (s.ə.s.) belə buyurmuşdur:-Allah qatında iki damla və iki izdən daha sevimli bir şey yoxdur. İki damla Allah qorxusundan axan göz yaşı, iki iz isə Allah yolunda tökülən qan damlalarıdır. **("Zubdətul əhadis")**

Hədis:-İmam Zeynalabidin buyurur:"Bir möminin gözlərindən İmam Hüseynin şəhadəti üçün göz yaşı yanaqlarına axarsa, Allah onu uzun müddət qalacağı Cənnət evlərində yerləşdirər. Düşmənlərimizin tərəfindən bizlərə edilən zülm və əziyyətə görə ağlayan mömini Allah Cənnətdəki haqq məqamına qaldırar. Allah bizim üçün əziyyətə qatlaşan və bir müsibət baş verəndə yanaqları islanacaq şəkildə ağlayan şəxsin üzündən Qiyamət günü əziyyəti götürər,onu öz qəzəb və atəşindən kənar edər."

M.FÜZULİNİN"HƏDİQƏTÜS-SÜHƏDA"ƏSƏRİNDƏ KƏRBƏLA HADİSƏSİNİN TƏSVİRİ

Hicri 61-ci (miladi 680-ci) ildə məhərrəm ayının 10-da Kərbəlada baş vermiş faciə ərəb və fars ədəbiyyatları ilə yanaşı türk ədəbiyyatında

da şair və yazıçılar üçün dəyişməz mövzu olmuşdur.

Dahi Füzulinin**"Hədiqətüs-süh**əda", yəni ("Xoşbəxtlər bağçası") dini-bədii əsəri qanın qılınca qalib gəldiyi bu tarixi hadisə haqqında yazılmışdır. Azərbaycan bədii nəsrinin ən klassik örnəyi sayılan əsər müəllifin dini düşüncə, iman və əqidə duyğularının bədii əksi baxımından çox səciyyəvidir.Dərd əlindən ürəyi çatlayan insanı ovundurараq ona mənəvi qida verən Kərbəla hadisəsini qələmə almağı şərəf işi sayan, buna milli-dini borc kimi baxan mütəfəkkir Füzuliyə "**Hədiqətüs-süəda"**nı yaratmaqda yaşadığı mühitin də böyük təsiri olmuşdur.Şair bunu özünəməxsus şəkildə belə ifadə etmişdir**:"Bütün çağlarda məclis və yığıncaqlarda Kərbəla vaqiəsi və şəhidlərin müsibəti ərəbin şərəfli adamları və əcəmin böyükləri tərəfindən söylənilir. Ancaq aləmin tərkibi və bəşəriyyətin böyük bir hissəsi olan türklər, kitabların səhifələrinin artıq sətirləri kimi məclislər səfindən kənarda qalıb həqiqətlərin idrakından faydalanmaqdan məhrum qalırdılar. Bu səbəbdən matəm macərası işarə ilə mən zəlilə hücum etdi və əli ilə yaxamdan tutaraq dedi ki, Kərbəla şahının nemətinin süfrəsində böyüyən vurğun Füzuli! Nola ki, yeni tərzdə yaradan olasan və comərdlik tutub türkcə bir məqtəl yaradasan ki, fəsihlər (gözəl danışanlar) türk dilində dinləyərək fayda tapalar və məzmunu anlayaraq ərəb və əcəm dillərinə möhtac olmayalar".**

Bu mövzunu qələmə almağı şərəf işi sayan Füzuli Kərbəla vaqiəsini bir çox çətinliklərə baxmayaraq, doğma dildə söyləyib qələmə almışdır:"

Bu həqir və fəqir ki, bu nəsihəti eşitdi və bu xidmətin məhz səadət olmağını gerçək bildim, bacarığın yoxluğu və maddi çətinlikdən qorxmadan tərtibinə rəğbət qıldım. Əgərçi türk ibarələrində vaqiənin söyləməsi çətindir. Çünki əksər sözləri və ibarələri ağırdır. Amma ümidim var ki, övliya hümməti sayəsində mən bu işin öhdəsindən uğurla gələm".

Kərbəla vaqiəsini bir mövzu kimi alıb işləyən Füzulinin buraya müəyyən rəvayət və əhvalatları da əlavə edib təkmilləşdirməsi səbəbsiz deyildir. Füzuli ərəb və fars dillərində gözəl, aydın yazmaq vərdişinin öz doğma dili olan türk dilində də bir ənənəyə çevrilməsini arzulayırdı. İslam dininin ümumbəşəri, humanist mahiyyəti və məzmununu şərh və təbliğ edən, sevdirən Füzuli, eyni zamanda, ciddi və dəbdəbəli üslubda bir əsər yaratmışdır. Daha doğrusu, sadə, anlaşıqlı bir üslubda türkcə əsər yazmağı qarşıya məqsəd qoymuşdu.

16-cı əsrdə yazılmış“Hədiqətüs-süəda”əsəri bədii forma və şəkilcə Azərbaycan xalq dastanlarına çox yaxındır.Burada nəsr ilə nəzm növbələşərək ahəngdar surətdə bir-birini tamamlayır. Süjet hadisələrinin məntiqi nəticəsi, personajların mənəvi-psixoloji gözəlliklərinin açılması və şərhində mənzum parçaların da özünəməxsus bədii dəyəri vardır. Əsərdə 541 şeir nümunəsi verilmişdir. Onlardan 16 şeir ərəbcə və 525 şeir isə türkcədir. Şeir, beyt, qitə, misra adı altında verilən mənzum örnəklər qitə, məsnəvi, qəzəl, rübai, tərkib-bənd formasında yazılsa da, əksəriyyəti qitələrdən ibarətdir. Onların həcmi isə 2304 misradır.

Bu əsərdə Peyğəmbərlərin həyatı, İmamlar haqqında, Kərbəla hadisəsi və onun necə cərəyan etməsi,İmam Hüseynın yaxınlarının,əshabələrinin şəhadətə yetməsi və bu hadisənin mahiyyəti haqqında gözəl açıqlamalar vermişdir.

M.Füzuli “Hədiqətüs-süəda” əsərində İslam dininin insanpərvərlik görüşlərini, onun əxlaqi-mənəvi gözəlliyə, ruhi-batini kamilliyə çağıran inamlarını təbliğ edir, Quranın dini, milli və irqi ayrı-seçkiliyə qarşı yönəldilmiş ayə və surələrini, müdrik, hikmətamiz kəlamlarını yeni bədii vüsətlə qələmə alır. İslam dininin insanpərvərlik fəlsəfəsi, yüksək, müqəddəs qayə və etiqadları, ideal bir din kimi müdrikliyi, irfani məziyyətləri Füzulinin əsərində yeni məna kəsb edir.Füzuli şəhidlik deyəndə insanın əməlpərvərliyini, məsləkdaşlığını, mənəvi-ruhi yetkinliyini ön plana çəkir, şəhidliyi cismani ölüm, mənəvi qələbə yolu kimi göstərir.Şairə görə şəhidlik, özünü qurban vermək qabiliyyəti, məslək yolunda fədakarlıq insanın mətinliyi, iradə sərbəstliyi, şəxsiyyət bütövlüyü və mənəvi paklığı deməkdir, insanı mənən əzib məhv edən dünyaya, həris və məkrli zəmanəyə etirazıdır. Azadlıq uğrunda qurban verməyi bacaran xalq ən kamil və müdrik bir xalqdır. Şəhidlik əhvali-ruhiyyəsi, şəhidlik məfkurə və etiqadı xalqın haqq-ədalət yolunda mübarizə və çarpışmasının ən bəşəri bir formasıdır. Zülmə, istibdada, şərə, xəyanətə, rəzilliyə, satqınlığa, mənəvi və cismani əsarətə üsyan edən xalq, birinci növbədə, öz qurban və şəhidlərini yetişdirir ki, bununla da öz ləyaqət və şərəfini qoruyaraq intiqamını alır.

“İntiqami-zaman” dünyada təsdiq edilmiş bir həqiqətdir. Bu acı həqiqəti bilməyən, duymayan, ona könül verməyən öz istəyinə yetə bilməz və ömrü ahu-fəğanla başa çatar. Füzulinin inamınca, zəmanənin zülm və şərindən qafil olanlar şəhidlik dərdini anlaya bilməz; şan-şöhrət əsiri, nəfs və ehtiras düşkünü şəhidlik faciəsini duymağa qadir deyildir. Həyatının mənasını nəfsdə görən, varlığı nəfs ilə yoğrulmuş bir insan inam və əqidə uğrunda ölümdən qorxmamağı ağlına belə gətirməz.

Burada əslində xeyir və şər qüvvələri çarpışır, şairsə onların kökünü, nisbətini açıb göstərir, xeyirin müdrikliyi və ülviyyətini dönə-dönə təqdir edir, onlara öz inam və sevgisini əks etdirir.

Dahi Füzuli İmam Hüseyn aşiqi idi.Onu bu eşqdən heç kəs döndərə bilməzdi.Bu səbəbdən **Füzulinin** öz vəsiyyəti ilə onu İmam Hüseynin Məqbərəsinin yanında dəfn ediblər. Şair bu haqda özü belə yazır:

Ucaldın qəbrim, ey bidərdilər, sənqi-məlamətdən,
Ki,məlum olsa eşq əhlinə qəbrim ol əlamətdən.
Məzarım üstə qoymun mil,əgər kuyində can versəm,
Qoyun bir sayə düşsün qəbrimə ol sərv qamətdən.

İlk dəfə 1845-ci ildə Qahirədə çap edilmiş bu əsərin Füzuli həyatda ikən köçürülmüş nüsxəsindən tutmuş, yaşadığımız dövrədək yazılmış 300-ə yaxın əlyazma nüsxəsi məlumdur.

Kərbəla müsibəti haqqında ərəb,fars, türk və avropa dillərində bir çox əsərlər yazılmış,bunlardan 8-ci əsrdə, Əbu Müxnət ibn Yəhyanın qələmə aldığı"Kitabi-məqtəli-Hüseyn"əsəri də mükəmməl yazılmışdır.Türk və Azərbaycan ədəbiyyatında 14-15-ci əsrlərdən başlayaraq Kərbəla mövzusunda əsərlər yazılmışdır.Türk alimi Ş.Güngörün fikrincə**:"Hədiqətüs-süəda" yazıldığı illərdən bu günə qədər türk ədəbiyyatında çox diqqət görən, oxunan əsərlərin başlıcalarından biridir. Füzuli kimi bir dühanın qələmindən çıxan, coşqun bir sevgi və lirizm ilə yazılan bu məqtəl (əsər) həm sünni, həm şiə müsəlman türklər tərəfindən sevgi ilə, hörmətlə qarşılanmış, oxunmuş, dinlənmiş, hətta bəzi şəxslər tərəfindən əzbərlənmişdir. Istər milli, istərsə də şəxsi fəlakət anında insanlar ənbiyanın və Əhli-Beytin çəkdikləri bəlaları dinləyib öz dərdlərini unutmuşlar".**

1912-1913-cü illərdə Hacı Zeynalabdin Tağıyevin rəhbərliyi və maddi köməkliyi ilə Əliabbas Müznib Kərbəla müsibətini ərəbcədən tərcümə edib, **"Muxtarnamə"**adı ilə çap etdirmişdir. Bakıxanov 1820-ci ildə yazdığı"**Riyazül-Qüds"** əsərində Kərbəla hadisəsini təsvir və tərənnüm etmişdir.

Dahi Füzulinin əsərləri həyata, insana dərin məhəbbətin ifadəsidir. Bu əsərlərdə xalqın nəcib qəlbi, müqəddəs arzuları əks olunmuşdur. Bu əsərlər Azərbaycan xalqının əvəzolunmaz mənəvi sərvətidir.

İslam tarixində 14 əsr bundan əvvəl baş vermiş bu hadisə indi də, hətta dünya durduqca da insanları İslam dini uğrunda birliyə və şücaətə çağıracaqdır.

Gəldiyim gündən cahana mən Xudanı sevmişəm,
Ğafilə, zənn etmə ki, mən bu cahanı sevmişəm,
Gün çahardəh məsumi, Ali-əbanı sevmişəm,
"Mən əzəldən piri paki Mustafanı sevmişəm,
Şahi-mərdan, şiri Yəzdan,Mürtəzanı sevmişəm.
Almışam mən ibrəti yetmiş iki qurbanidən,
Xislətimlə üzmüşəm əl aləmi-imkanidən,
Mislidə Nuhəm ki, yox bakim mənim tufanidən,
"Yox mənim cismimdə qorxu atəşi-nuranidən,
Şah Həsən, miri-Hüseyni-Kərbəlani sevmişəm".
Məzhəbim nuri- həqiqətdən mənə vermiş səvad,
Məsləkim eylər münafiqlər ilə cəngü cihad,
Hər kəsə eylər həqiqət rahini təklif miad,
"Rəhnümanidir cümleyi-möminlərə Zeynəlabdin,
Baqiri-Cəfər, Əli Musər-Rzanı sevmişəm".
Qüdrətullah ilə yeksərdir həqiqət ləşkəri,
Kim bu ləşkərdəndi mütləq oldu dillər əzbəri,
Bu nizam ilə yazılmış əhli-eşqin dəftəri,
"Həm Təqidir, həm Nəqidir,həm imami-Əsgəri,
Sidqilə mən Mehdiyi-Sahib-Zəmanı sevmişəm.
Zeynəbi-matəmzədəydi oldu qəmxari-Hüseyn,
Şami-qürbətdə verən canın vəfadari-Hüseyn,
Həm Həbib, həm Azəri,yetmiş iki yari-Hüseyn,
"Əkbəri, həm Qasimi,həm də Ələmdari-Hüseyn,
Cümləsi qanə batan Haşim cəvani sevmişəm". (M.Füzulu.)

Xanım Zeynəb haqqında:-Harada İmam Hüseynin adı çəkilər, orada mütləq xanım Zeynəb vardır, Xanım Zeynəbin həyatı çox keşməkeşli olmuşdur. 5 yaşa qədər babasının əzizi, istəklisi olmuş, lakin babası vəfat etdikdən sonra ailəsinə qarşı olan təzyiqləri yaşamışdır.Anası Fatimə əleyhanın əziyyətlərini, ailəsini və atası Hz. Əlini necə müdafiə etdiyini və anasının şəhadətini görmüşdü. O, atası Hz. Əlinin böyük elminin, səbrinin, təmkininin, qəhrəmanlıqlarının və şəhadətə yetməsinin şahidi olmuşdur.

O Xanım qardaşı Həsənin də səbir və elminin,onun da xəyanətə uğrayaraq şəhadətə yetməsini yaşamışdır. Xanım Zeynəb uşaq vaxtından ailəsinin zəhmətini çəkmiş və bütün çətinliklərə dözməyi, səbiri, təmkini,elmi və qəhrəmanlığı öz ailəsindən öyrənmişdi. Xanım Zeynəb ailəsinə çox bağlı olduğundan onunla ailə qurmaq istəyən Əbdullah ibn

Cəfərin qarşısına şərt qoyaraq evlənmişdir. Həmin şərt bundan ibarət idi:“Ölənəcən qardaşı Hüseyndən ayrılmayacaq və onun hər çətin anında ona dayaq olacaqdır.”

Xanım Zeynəbin ən mühüm, əzəmətli həyat dövrü İmam Hüseynin Kərbəlaya getdiyi dövrə düşür.İmam Hüseynin mübarizəsini Zeynəbsiz, Zeynəbi də o mübarizəsiz təsəvvür etmək olmaz. Xanım Zeynəb Seyyidüş-şühəda hərəkatının canlı tarixi, ölməz natiqi idi.O, Kərbəla çölündə nəinki müsibətin şahidi oldu, eyni zamanda, onu yaşadı.O, əzizlərinin başını nizədə, bədənlərini dəhşətli bir vəziyyətdə yerdə öz gözlərilə gördü, dözdü, sınmadı. Əsirlərlə birgə Küfəyə, ibn Ziyadın sarayına, sonra Şama,Yezidin sarayına aparıldı, təhqir olundu. Lakin ləyaqətini qoruyub saxladı və haqqı aləmə car çəkdi.

Şam xarabalığında əsirlik həyatı yaşadı, oradan Kərbəlaya, sonra Mədinəyə gətirildi. Mədinəyə daxil olduqdan sonra əzəmətli Zeynəb (ə) günəşinin şüası bir ildən artıq davam etmədi.Həmin Hüseynsiz biriillik həyat Zeynəb(ə.) üçün çətin olsa da, bu müddət ərzində böyük səbir və təmkinlə Kərbəla hadisələrini camaata çatdırmaqla və təbliği ilə məşğul olur.Mədinədən də Kənan vilayətinə, Şama təbliğat üçün səfər edərkən orada vəfat edir. Belə bir əzəmətli həyatdan sonra əbədiyyən pak ailəsinə qovuşan Xanım Zeynəb Hz.Peyğəmbərin və İmamların mərifətinin, ibadət və bəndəliyinin uca zirvəsindən dərs almış və bizlər üçün Allaha itaət, iffət, fədakarlıq, təqva, əxlaq, əhdə vəfa və Allah yolunda səbir və dözüm dərsinin nümunəsidir.

Əhli-cahanə oldu çox vəfası Zeynəbin,
Baxma ki, həddən idi dərdi-bəlası Zeynəbin.
İmam Hüseyn xahəri,Həzrət Əli düxtəri,
Həzrəti Fatimədir cün anası Zeynəbin.
Başı bəlalı idi, qəlbi yaralı idi,
Yeddi fələkdən ötdü ah nəvası Zeynəbin.
O, dəşti Kərbəlada itirdi yeddi qardaş,
Aləm iki oğlu, dil vəfası Zeynəbin.
Ruqəyyə üç sinnində ağlayar idi zar-zar,
Yox idi başqa qövmi əqrəbası Zeynəbin.
Gördü səri-Hüseyni, nizədə ta yaralı,
Hanı deyərdi indi Mürtəzası Zeynəbin. (Hacı Sultan)

Allahın qəza və qədərinə çox böyük mətanətlə dözmüş,bütün ilahi imtahanlardan səbir timsalı olaraq alnıaçıq, üzüağ çıxmış xanım Zeynəb

(ə) atasının evində olarkən ən gözəl övlad, ərinin evində olarkən ən layiqli,sevimli həyat yoldaşı, gözəl ana, vəfalı bacı əxlaqı təcəssüm etdirmişdir. Xanım Zeynəb babası Hz.Peyğəmbərin və atası Hz. Əlinin vəsiyyətlərini yerinə yetirən, sədaqətli, vəfalı, təmkinli, mübariz və dinimiz uğrunda canından keçən xanımlardan biridir.

Hz. Əbulfəzl haqqında:-Hz.Əbülfəzli Hz.Əlinin Ümmül Bənidən olan övladıdır. O,çox uzun boylu, uzun qollu, qüvvətli,şücaətli, fədakar, mərifətli insan idi.Hz.Əbülfəzli atası Hz. Əlinin bütün xüsusiyyətlərini irsi olaraq özündə cəm etmiş və özü də atasına oxşamağa çalışmışdır. O,Peyğəmbəri və onun qızı Fatiməni o dərəcədə çox sevirdi ki, həmişə Allaha üz tutub deyərdi:"Kaş mənim də anam Peyğəmbər qızı Fatimə olardı."Onun Allaha və Peyğəmbərin övladlarına olan sevgisi hədsiz,tükənməz və ümmansız idi. Hələ kiçik yaşlarından Həsən,Hüseyn və Zeynəb ilə bir yerdə böyüyən Əbülfəzli, onları öz canından da çox sevmiş və onların yolunda hər an həyatından belə keçməyə hazır olmuşdur. Əbülfəzli həmişə İmam Hüseyn ilə bir yerdə olmuş, hər işdə ona dayaq və köməkçi olmuşdur. Onun bir çox şücaətləri və qəhrəmanlıqları olmuşdur.Qardaşı İmam Hüseynin Kərbəla müsibətində də Əbülfəzli Abbas son nəfəsinəcən onunla bir yerdə olmuş və bu döyüşdə qəhrəmancasına şəhadətə çatmışdır.Müqəddəs məzarı Kərbəlada böyük ziyarətgahdır. İmam Hüseynin Müqəddəs məscidindən bir az aralı Əbülfəzli-Abbasın Müqəddəs məscidi yerləşir.

A.Bakıxanovun"Riyazul-Qüds"əsərindən:
Hər dəm gəlib fəğana dili-zarım, ağlaram,
Soldu xəzani-zülm ilə qülzarım,ağlaram.
Hər məclisi əzada mən zari-binəva,
Ta var dilimdə qüvvəti-danışmaq ağlaram.
Bəzmi-vüsaldan məni saldı fəğanə çərx,
Qaldı qiyami-məhşərə dildarım ,ağlaram.
Əhli-Vətən tapılmadı ta dəfnün eyləsin,
Qaldı Fəratın üstə Ələmdarım ağlaram.

4-CÜ İMAM ZEYNAL-ABİDİNİN HƏYATI

Dördüncü məsum imam Hz. Əli ibn Hüseyn hicri 38-ci ildə şaban ayının 5-də Mədinədə dünyaya gəlmişdir. Atasi Seyyidüş-şühəda İmam Hüseyn,anası İran padşahı Yezdikürd ibni-Şəhriyarın qızı Şəhrəbanidir. Künyəsi Əbil-Həsən, ən məşhur ləqəbi Zeynal-abidin və Səccaddır.

Görünüşü:-Qaməti miyanə, tükləri qırmızı,sinəsi böyük,başında alnının iki tərəfdən tükləri yox idi.O,babası Hz. Əliyə çox bənzəyirdi.

Aşura hadisəsi zamanı onun 23-24 yaşı olmuş və həmin gün bərk xəstələnib, qızdırma içində olub, yerindən belə qalxa bilməməsi səbəbindən döyüşlərdə iştirak edə bilməmişdi. Bu da Allahın əmri və istəyi ilə baş vermişdi. Yoxsa o da İmam Hüseynin başqa balaları kimi şəhid olardı və bununla da imamlıq silsiləsi kəsilərdi. O, az bir müddət ərzində xəstə olmuş, sonra sağalaraq 35 il İmamlıq etmişdir.

İmam Səccad Aşura faciəsi zamanı Kərbəlada olmuş, atası şəhid olduqdan sonra əsirlər ilə birlikdə Kufəyə,sonra isə Şama aparılmışdır.O faciədən sonra İmam Səccadın başlıca vəzifəsi İmam Hüseyn qiyamının məqsədini tanıtdırmaq və təbliğ etmək olmuşdur.

İmam Səccadın imamlıq dövrünün çoxu Əbdul-Malik Mərvanın hakimiyyəti illərinə təsadüf etmişdir.O dövrdə bu dövlətlərdə dini dəyərlər tənəzzülə uğrayırdı. Bidətlərin geniş yayıldığı bir zəmanədə İslam təlimlərindən xəbərsiz olan camaatı maarifləndirmək, onlara moizə və öyüd-nəsihət etmək imam Səccadın əsas vəzifələrindən idi.

Burada bir çox İslam dəyərləri təhrifə uğramışdı, hətta qiblədən başqa Peyğəmbərin qıldığı namazdan əsər-əlamət qalmamışdı.Ənəs ibn Malikin dövründən bir qədər sonra Həsən Bəsri deyirdi:"Əgər Hz.Peyğəmbər sizin aranıza qayıtsa, sizə öyrətdiklərinin içərisində qiblədən başqa heç nəyi tanımayacaq". Belə bir zamanda İmam Səccad dini təbliğ etməklə, insanların əqidə və düşüncələrini səhv istiqamətlərdən döndərməklə, yalançı alim və dindarlarla mübarizə aparmaqla dini əhkamları yaşatmağa çalışırdı.Müəyyən qadağalara baxmayaraq, o, İslam əhkamını və əxlaqını öz tələbələrinə öyrədir və cəmiyyəti maarifləndirməklə məşğul olurdu.

Həcc ziyarətlərinin birində, Bəni Ümməyyə xəlifəsi Əbdül Malik də Məkkədə idi.O təvaf edib, Həcəri-Əsvədə yaxınlaşmaq istəyirdi, lakin camaat çox olduğundan keçə bilməyib,bir tərəfdə gözləməyə başlayır. Bu əsnada İmam Zeynul-Abidin təvafın qurtarıb Həcəri-Əsvədə yaxınlaşmaq istəyəndə camaat aralanıb ona yol verir. Camaatın Peyğəmbər övladına qarşı olan hörmət və rəğbəti onu hiddətləndirir. Bu hadisədən sonra o,İmam Səccadı bir bəhanə ilə zindana saldırır. Sonra isə onu zəhərləyərək şəhid edir.

Vəfatı:-Onun şəhadət tarixi barədə fikirlər müxtəlifdir:-Məhərrəm ayının 12-si, hicrətin 92-94-ci illəri qeyd edilir. Məzarı isə Mədinə şəhərində Bəqi qəbiristanlığında, əmisi İmam Həsənin qəbrinin yanındadır.

5-Cİ İMAM MUHƏMMƏD BAQİRİN HƏYATI HAQQINDA

O Cənabın adı Muhəmməd, atası Zeynul-abidin, anası İmam Həsənin qızı Fatimədir. Həm ata, həm də ana tərəfdən onun nəsli Hz.Əliyə yetişdiyi üçün ona "nəcibul-tərəfeyn",yəni iki tərəfli nəcib olan şəxs deyirdilər. O, hicri 57-ci ildə Mədinə şəhərində dünyaya göz açmışdı.

Görünüşü:-İmam Muhəmməd Baqir ortaboylu, qarabuğdayı,iri cüssəli, enlikürək, girdəsifət, qarasaçlı, çatmaqaş, irigözlü görkəmli bir şəxs idi.

İmam Baqir (ə.s.) dövrünün mövcud siyasi-ictimai vəziyyətini nəzərə alıb bütün səyini ilahi maarifin təliminə və təbliğinə həsr edirdi. O, bir çox elmi məsələləri izah etməklə elmin inkişafına zəmin yaratdı. Cəmiyyətdə elmə artan maraq və sövq sonralar o Həzrətin oğlu İmam Cəfər Sadiqin böyük bir elm mərkəzi təsis etməsilə nəticələndi. İmam Baqir (ə.s.) elm, zöhr, təqva vəfəzilətdə ata-babalarından sonra Bəni-Haşim şəxsiyyətlərinin sərvəri idi. Onun böyük elmi, əxlaqi keyfiyyətləri dostu da, düşməni də özünə cəlb edirdi.O, Həzrətdən şəri hökmlər, Quran təfsiri, İslam tarixi və başqa mövzular haqqında saysız hədislər, rəvayətlər nəql olunubdur. Bütün alimlər onun elm və təqvasından, həmçinin əhli-sünnə məzhəbinin bütün mötəbər alimləri və tarixçiləri onun əsərlərindən və elmindən bəhrələnmişlər.

Peyğəmbərin dostlarından olan Cabir ibn Abdullah Ənsardan belə buyurulur ki:-Peyğəmbər (s.ə.s.) mənə belə buyurmuşdu: "Məndən sonra sən mənim nəslimdən olan bir şəxsi görəcəksən ki, adı mənim adım olacaq və özü də mənə oxşayacaq. O, elm qapılarını insanların üzünə açacaq."Həqiqətən də, İmam Baqir, qapılarını açdığı elm xəzinələri ilə çoxlu böyük alimlər və tələbələr yetişdirdi.

İmam Baqir (ə.s.) beş Əməvi xəlifəsinin hakimiyyətini görmüşdü.Bu xəlifələrin içində yalnız biri İslam tarixində müəyyən yaxşı əməlləri ilə əsər qoymuşdur.O, məclislərdə, məscidlərdə və namazlarda Hz. Əlini lənətləməyi qadağan etmiş və Xanım Fatiməyə atası Peyğəmbər(s.ə.s.) tərəfindən bağışlanan Fədək bağlarını onların övladlarına qaytarmışdı.

Bu xəlifənin cidd-cəhdinə baxmayaraq, Əhli-Beyt haqqında uydurulan yalançı hədis və yazıları ləğv etdirə bilmədi. Çünki ondan əvvəl olmuş xəlifələrə sadiq olan ravilər o yazıları gizlədərək üzə çıxarmadılar. Sonra hakimiyyətə gələn Yezid ibn Əbdul Malik və ondan sonra da qardaşı Hişam ibn Əbdul-Məlik əvvəlki xəlifələr kimi paxıllq və qorxudan Peyğəmbər övladlarına qarşı yenə də yalançı təbliğatlar apardılar.İmam Baqirin camaat arasındakı böyük nüfuzu və hörməti, onun

İmam kimi tanınması Hişam ibn Əbdul Məliki çox qorxudurdu və onu özü üçün çox böyük təhlükə hesab edirdi.Bu səbəbdən onun əmri ilə İmam Baqirin atına zəhərlənmiş yəhər bağladılar və o zəhər İmamın bədəninə sirayət edərək, onu şəhadətə yetirdi. O, öz ölümündən əvvəl Hz.Peyğəmbərin mirasını,silahını və İsmi-Əzəmi və bir çox gizli yazıları oğlu Cəfərə təslim etdi.

İmam Baqir hicri 114-cü ilində Mədinə şəhərində vəfat etmişdir. Müqəddəs Bəqi qəbiristanlığında ata-ana və babasının yanında dəfn edilmişdir.

6-Cİ İMAM CƏFƏRİ SADİQİN HƏYATI HAQQINDA

O, Həzrətin mübarək adı Sadiq(doğruçu),Cəfər isə ləqəbidir. Cəfər-ərəb dilində axar nəhr, çay,arx mənasındadır.Elm, bilik və ilahi feyzlərlə sinəsi dolu olan bu insan, həqiqətən, sonsuz mənfəətlər mənbəyi olan bir nəhr kimi idi.Onun atası İmam Muhəmməd Baqir, anasının adı Qəribə künyəsi-Ümmü Fərvədərdir. Bu qadının anası Əsma, Əbdür-Rəhman ibn Əbu Bəkrin qızı idi.

Cəfəri Sadiq hicrətin 83-cü ilində Rəbiül-əvvəl ayının 17-də Mədinə şəhərində dünyaya gəlmişdir.

Görünüşü:-Onun dərisi ağ, üzü qırmızı,boyu bir az uzun və nazik, qaşları çatma,dişləri seyrək idi.

O Həzrətin İmamlıq dövrü Hicri 132-ci ildə süquta uğrayan Əməvilər hakimiyyətinin sonlarına və Abbasilər hakimiyyətinin əvvəllərinə təsadüf edir.Bu dövrdə müxtəlif firqələr və məzhəblər meydana gəlmişdi. İlk Abbasi xəlifəsi olan Səffahın dövründə, Bəni Abbasın hakimiyyəti hələ möhkəmlənmədiyindən onun dövründə camaata və Peyğəmbər ailəsinə zülmlər hələ kütləvi hal almamışdı.

O dövrdə İmam Sadiqin əzəmətli elmi vasitəsi ilə mötəbər hədislər, şəriət qanunları, dinin və əxlaq qanunlarını inkişaf etdirmək üçün çoxlu tələbələr yetişdirirdi.

Tələbəsi olan Əbu Hənəfi onun haqqında belə deyirdi:-"Elmdə Cəfər Sadiqdən üstün olan kimsəni görmədim."

İmam Cəfəri Sadiqin təbiət elmlərindən, təbiət sirlərindən bəhs etmiş əsərləri indinin özündə də alimləri heyrətləndirir."Tohidi-Müzəffəl"adı ilə tanınan kitab bu nümunələrdən biridir.İmam bu kitabı Müfəssəl ibn Ömərə diktə etmiş və o da yazmışdır.Bu kitabda insanın yaranışı, onun xarici və daxili duyğuları,fitri xüsusiyyətləri, bədən əzaları, həmçinin müxtəlif növ heyvanların yaranışı, yerin-göyün yaranışı, təbii

fəlakətlərin səbəbləri və sair mövzular barədə bəhs edilir.

Cəfəri Sadiq (ə.s.) o dövrün bütün fəlsəfi və əqidəvi firqələrinin nümayəndələri ilə söhbətlər aparmış,yetərli dəlillər ilə həqiqi İsla mın babası Peyğəmbərdən qalan və nəsildən-nəslə ötürülən şəriət qayda-qanunlarını onlara öyrətməyə çalışmışdır.

İmam Sadiqin bütün dünyanı öz elmi və bilikləri ilə fəth edən çoxlu tələbələri olmuşdur. Onun sayı 4000-dən çox olan tələbələri dünya və din elmlərinin hamısına yiyələnərək İslamın bu günə qədər yaşamasında böyük rol oynamışlar.

Qeyd etmək lazımdır ki, Cəfəri Sadiqin fəaliyyəti təkcə elm və maarif sahəsini inkişaf etdirmək ilə bitmirdi. O, Həzrət böyük elm mərkəzi təsis etməklə yanaşı, siyasi fəaliyyətlər də aparmışdır.

İkinci Abbasi xəlifəsi Əbu Cəfər Mənsur Dəvaniqi çox zalım, qəddar və daşürəkli bir insan olmuşdur.O,öz hakimiyyəti dövründə xüsusi paxıllığı və tamahkarlığı ilə yanaşı, camaatı dözülməz iqtisadi çətinliklər və sıxıntılar ilə üz-üzə qoymuşdu.O, İmam Sadiqin siyasi fəaliyyətindən çox narahat idi.İmamın xalq kütlələri tərəfindən sevilməsi və onun əzəmətli elmi Mənsurun bu nigarançılığını daha da artırırdı. Mənsur özünün xəlifəliyini möhkəmləndirmək üçün Əli (ə.s.) nəslini tamamilə qırıb yox etmək istəyirdi. Bu nəsildən olan insanlara zülm edir,adi yaşamaq üçün olan şəraitlərdən belə onları məhrum edirdi.Belə bir zamanda İmam Cəfəri Sadiq də zalım hökumətin əziyyətlərinə məruz qalır.

Mənsur sifariş ilə bir neçə dəfə onu zəhərləyir, lakin imam öz imamət ecazkarlığı ilə təhlükələrdən xilas olur. Nəhayət, axırıncı dəfə verilən zəhərin güclü təsirindən İmam Cəfəri Sadiq vəfat edir.

İmam Cəfəri Səccad Hicrətin 148-ci ilində, Şəvval ayının 25-də 65 yaşında Mədinə şəhərində vəfat edir.Vəfatı zamanı öz oğlu Musa Kazimə vəsiyyət edib, imamət işlərini, İsmi-Əzəmi və Peyğəmbərdən qalan bir çox əmanətləri ona təslim edir.

İmam Cəfəri Sadiq (ə.s.) Mədinə şəhərində Bəqi qəbiristanlığında ata-babalarının yanında dəfn edilmişdir.

7-Cİ İMAM MUSA KAZİMİN HƏYATI HAQQINDA

O Həzrətin mübarək adı Musa, künyəsi Əbul-Həsən və ləqəbi Kazimdır.Atası İmam Sadiq, anası Həmidə adlı çox fəzilətli bir qadın olmuşdur.İmam Kazim hicri 128-ci ildə Mədinənin yaxınlığında olan Ədva adlı bir kənddə dünyaya gəlmişdir.

Görünüşü:- Boyu uca,lakin bədəni zəif idi,rəngi qarabuğdayı, qabaq dişləri bir-birindən aralı idi. Hicri 148-ci ildə atası İmam Sadiqin vəfat etdiyi vaxtdan etibarən İmam Musa Kazimin imamlıq dövrü başlayır.35 və ya 38 il imamlığı dövründə Abbasilərin dörd xəlifəsi onun müasiri olmuşdur. O, atasının elmi fəaliyyətini davam etdirərək çoxlu tələbələr və alimlər yetişdirmişdir.

Xəlifələrdən Mənsur Dəvaniqinin və Harun ər-Rəşidin hakimiyyəti dövründə Ələvilər ilə Haşimilərin birləşərək,onlara qarşı,bir-birinin ardınca baş verən silahlı qiyamları məğlubiyyətlə nəticələnmişdi.Bu baxımdan Musa Kazim (ə.s.) Abbasi hakimiyyətinin mənfur simasını açıq göstərmək və camaatı ayıltmaq üçün cəmiyyətin müxtəlif təbəqələri arasında təbliğat-təşviqat işləri aparırdı.

İmam Musa Kazimin imamətinin əvvəlində xəlifə olan Mənsur ona çox əziyyət etmirdi.Lakin sonra gələn xəlifələr ona və onun tərəfdarlarına çox zülm etdilər. Xəlifə Harun ər-Rəşid isə onu Bağdada apartdıraraq orada həbs etdirir.Uzun müddət həbslikdə qalandan sonra xəlifə tərəfindən zəhərlənərək qətlə yetirilir.Hicri təqvimi ilə 183-cü ildə 54 yaşında vəfat etmiş və Kazimeyn şəhərində dəfn edilmişdir.

8-Cİ İMAM RZANIN HƏYATI

O Həzrətin mübarək adı Əli, Rza isə onun ləqəbidir.Rza-razılıq mənasındadır.Bu keyfiyyət digər imamlarda da olmuşdur, lakin onun bu xüsusiyyəti odur ki, onunla həm dost olanlar, həm də ki, münafiq olanlar,ondan razı olublar.

İmam Əli ibn Musa hicri 148-ci ildə Zilqədə ayının 11-də Mədinə şəhərində dünyaya göz açmışdır. Atası İmam Musa Kazim, anası Tuktəm adlı fəzilətli bir qadın olmuşdur. Sonradan atası həmin qadına Tahirə adı vermişdir.

İmam Rzanın 20 il davam edən İmamlıq dövrü Harun ər-Rəşidin və Abdulla əl-Məmunun xəlifəlik dövrünə təsadüf etmişdir.

Xəlifə Harun ər-Rəşid İmam Kazimin qətlində günahlandırılmasın deyə, İmam Rzaya qarşı təzyiqləri azaldaraq ona nisbi azadlıq vermişdi. Bu vəziyyətdən istifadə edən İmam Rza elmi fəaliyyət ilə məşğul olaraq ata-babalarının vəsiyyət və göstərişlərini yerinə yetirməklə çalışmışdır. O öz elmi və təqvası ilə insanlar arasında çox hörmət qazanmışdı.İstər onun tərəfdarları, istərsə də onunla münafiq olanlar hamı ona hörmət bəsləyir və sözünü eşidib, ona rəğbət bəsləyirdilər.

Məmun hakimiyyətə gələnə qədər İmam Rza doğma şəhəri Mədinə

şəhərində yaşamışdır. Məmun hakimiyyətə gəldikdən sonra o Həzrəti Xorasana çağırtdırır. Camaatın ona qarşı olan məhəbbət və hörməti onu çox qıcıqlandırırdı. Baxmayaraq ki,özü də ona hörmət və rəğbət bəsləyirdi, lakin paxıllıq və qısqanclıq hissi onu daxildən didib-dağıdırdı. Məmun bir gün evinə İmam Rzanı qonaq çağıraraq, öz əli ilə verdiyi üzüm vasitəsi ilə onu zəhərləyir.İmam durub getmək istəyəndə ondan soruşur ki:"Hara gedirsən?"İmam da ona cavab verir ki,"Göndərdiyin yerə."Onlar imamlıq qüdrətilə hər şeydən agah idilər.

İmam Rza(ə.s.) hicri 203-cü ildə 55 yaşında şəhadətə qovuşur, elə Xorasanda (Məşhəd şəhərində) dəfn olunmuşdur.

9-CU İMAM MUHƏMMƏD TƏQİNİN HƏYATI

O Həzrətin mübarək adı Muhəmməd, künyəsi Əbu Səfər, məşhur ləqəbləri Təqi və Cavaddır. O hicri 195-ci ilin ramazan ayında Mədinə şəhərində dünyaya göz açmışdır. Onun anasının adı Reyhanə və ya Səbikə xanım, Peyğəmbərin zövcələrindən biri olan Mariya Qibtiyyənin nəslindən idi.O öz dövrünün ən fəzilətli qadınlarından biri olmuşdu.

Görünüşü:-Bədən quruluşu mütənasib, yaraşıqlı idi,ortaboylu, qövs şəklində bir-birinə bitişik qaşları, qırmızı mayil ağ surəti, qara gözləri var idi.

Atası İmam Rza vəfat etdikdə onun təxminən 8 yaşı var idi və o Həzrət kiçik yaşlarından İmam olmuşdur.O zaman bəzi alimlər o Həzrətin İmam olmasına şübhə edirdilər.Həcc mərasimində ətrafdan gələn alimlər onun yanına gəlib, 30 mindən artıq suallar ilə ona müraciət edirlər. O Həzrət bütün suallara lazımi və inandırıcı şəkildə cavab verir. Bu işdən sonra bütün alimlər onun imamətini qəbul etdilər. Onu İmam Rzanın canişini və zəmanə İmamı kimi tanıdılar. Sonra Məmun onu Bağdada çağırtdırır,onun şəninə məclis quraraq oraya alimləri toplayır ki, onu sorğu-sual etsinlər. Bütün sorğu-suallara çox ləyaqətlə cavab verdikdən sonra Məmun da ona hörmət bəsləyir. Sonra Həcc zamanı Məkkədən qayıdanda Mədinədə qalır. İmam Taqi də öz atası kimi onu nə gözlədiyini qabaqcadan bilirdi.Bunun üçün o, öz oğlu Əli-Naqi Həzrətlərinə vəsiyyət edir və babalarından qalan əmanətləri təhvil verərək Bağdada yola düşür.

Məmunun ölümündən və Mötəsim hakimiyyətə gəldikdən sonra o Həzrəti Bağdada gətirdir. Sonra isə Ümmü-Fəzlin əli ilə ona zəhər verərək şəhadətə yetirir.

Bu dünyada cəmi 25 il ömür sürən İmam Muhəmməd Təqi 220-ci

ildə haqqa qovuşmuş, Bağdadın Qüreyş məzarlığında Kazimidə,babası Musa Kazımın yanında dəfn edilmişdir.

10-CU İMAM ƏLİ NƏQİNİN HƏYATI

O Həzrətin mübarək adı Əli ibn Muhəmməd, Nəqi isə ləqəbidir. O, hicri 212-ci ildə zilhiccə ayının 15-də Mədinə yaxınlığında Sərya adlı məntəqədə dünyaya göz açmışdır.

Görünüşü:-O Həzrət ortaboylu, ağ üzlü, yanaqları bir qədər şişkin, qırmızı, irigözlü,qaşları aralı,dişləri aralı idi.

Atası İmam Təqinin vəfatından sonra hicri 220-ci ildə 8 yaşında İmam olmuşdur. O, 32 il müddətində imam olmuş, hicri 254-cü ildə 42 yaşında Samirra şəhərində şəhid edilmiş və öz evində də dəfn edilmişdir.Onun imamlıq dövrü Abbasi xəlifələrindən altısının hakimiyyət dövrünə təsadüf edir. İmam Nəqi xəlifə Mötəsil tərəfindən zəhərlənərək şəhid edilmişdir.

Bu İmam da yaşadığı müddət ərzində yalnız İslam dininin hökmlərini və şəriət qanunlarını insanlara öyrətməklə məşğul olaraq, babasının gətirdiyi dini yaşatmağa çalışmışdır.O, öz ölümünün vaxtını bilərək, oğlu Həsən ibn Əsgərə ata-babalarından qalan bütün vəsiyyət və əmanətləri çatdırmışdır.

11-Cİ İMAM HƏSƏN ƏSGƏRİ HAQQINDA

O Həzrətin adı Həsən, Əsgəri isə onun ləqəbidir.O, hicri tarixi ilə 232-ci ildə Rəbbül-axır ayının 8-də Mədinədə dünyaya gəlmişdir.

Atası Həzrət Nəqi,anası isə Hübeysə adlı təqvalı bir qadın idi. Bəzi tarixçilər onun adının Süsən olduğunu qeyd etmişlər. Təqvalı və elmli olan bu qadın, İmam Həsən Əsgərinin şəhadətindən sonra böhranlı bir dövrdə insanların pənahgahı olmuşdur.

İmam Həsənə"Əsgəri"ləqəbi xəlifənin əmri ilə Samirədə"Əsgər" adlı məkanda yerləşdirildiyi üçün verilmişdir.

O Həzrət 22 yaşında ikən atası vəfat etmişdir. İmam Əsgəri altı il İmamlıq etmiş və qısa müddət ərzində bir-birindən zalım və qəddar üç Abbasi xəlifəsinin müasiri olmuşdur.

Guya Ələviləri himayə etmək və Bəni Üməyyədən onların intiqamını almaq şüarı ilə qiyama qalxan Bəni Abbas xəlifələri camaata verdiyi vədlərə əməl etməyərək, zülm və özbaşınalıqda Bəni Üməyyə xəlifələrini belə geridə qoydu.

Məlum olduğu kimi Abbasi xəlifələri bacardıqları qədər Məsum

İmamların fəaliyyətini məhdudlaşdırmağa cəhd göstərmiş və onları hədsiz təzyiq altında qoymuşlar. Bu təzyiqlər İmam Cavadın, İmam Nəqinin və İmam Həsən Əsgərinin Samirədə olduğu dövrdə özünün son həddinə çatmışdı.Qeyd edək ki, üç İmam cavan yaşlarda şəhid edilmişdir;İmam Cavad 25, İmam Nəqi 42,Həsən Əsgəri 28 yaşında. Bu fakt onlara qarşı yönəldilən təzyiqlərin hansı dərəcədə olduğunu göstərməkdədir.

Abbasi hökumətinin təqib və təzyiqlərinə baxmayaraq, İmam Həsən Əsgəri siyasi və elmi fəaliyyətini davam etmişdir və bu sahələrdə o Həzrətin apardığı işləri aşağıdakı bəndlərdə göstərmək olar:

1)Həqiqi İslam maarifini təbliğ etmək.

2) Nümayəndələr təyin etmək, qasidlər və məktublar göndərməklə uzaq əyalətlərdən öz tərəfdarları ilə əlaqə yaratmaq.

3)Məxfi şəkildə fəaliyyət.

4)Tərəfdarlarını maddi tərəfdən təmin etmək.

5)İmamları inkar edənlərin diqqətini haqqa cəlb etmək.

6)İnsanlara qeyb elmini və dini əhkamları öyrətmək.

7)12-ci İmamın qeyb dövrünü hazırlamaq.

Abbasi xəlifəsi Mötəmid gördükdə ki, camaat arasında İmam Həsən Əsgərinin nüfuzu və hörməti gündən-günə artır, həbs,təzyiq və tədbirlər əks nəticə verir,o öz ata-babalarının köhnə üsuluna əl atıb,İmamı məxfi şəkildə zəhərlətdirir.

Hicrətin 260-cı ilində 28 yaşında şəhid edilərək,Samirra şəhərində öz evində, atasının pak məzarının yanında dəfn edilir.

12-Cİ İMAM MEHDİ SAHİBƏZ-ZAMAN (QEYBDƏDİR)

Şəriət yolunu Muhəmməd açdı,
Təriqət gülünü Şah Əli seçdi,
Bu dünyadan neçə yüz min ər keçdi,
Onlar ittifaqda, Mehdi yoldadır. (Ş.İ. Xətayi)

İmam Həzrət ibn əl Həsən əl Mehdi hicri 255-ci il Şaban ayının 15-də Samirə şəhərində dünyaya gəlmişdir.Onun adı Muhəmməd və künyəsi Əbu Əbdullah və ya Əbül-Qasım, Peyğəmbərin adı və künyəsi ilə eynidir.Onun ləqəbləri Hüccət, Qaim, Mehdi,Sahibəz-Zaman, Xəlfi Salehdir. Onun atası on birinci İmam Həsən Əsgəri (ə.s.), anası isə möhtərəm xanım Nərciz xanımdır. Nərcizin əsil adı Məleykə olmuşdur.O, Qeysəri-Rumun qızı, Hz. İsanın həvarilərindən olan Şəmunun nəslindəndir.

Onu öz əmisi oğluna nikah etmək istəyəndə iş pozulmuş, həmin gecə Peyğəmbər (s.ə.s.) və qızı Fatimə (ə.) onun yuxusuna gəlib, İmam Həsən Əsgərini ona göstərmişlər.

Məleykə ona aşiq olmuş,sonra yuxuda ona Müsəlmanlığı təlim edərək, İmam Həsən Əsgəriyə nikah etmişlər. O, bu məqsədə çatmaq üçün ərəb əsirlərinə qoşularaq, satılmaq üçün kənizlərə qatılmışdır.

Bir tərəfdən də Həsən Əsgəri yuxuda onu görmüş, yuxuda Məleykənin görünüşü və onu nə şəkildə satın alınacağı haqqında ona məlumat verilmişdi. Sonra İmam Həsən Əsgəri ona xəbər verilən müəyyən pul məbləğində kəniz adı ilə alıb, sonra isə onunla evlənmişdir.

Abbasi xəlifəsi İmam Həsən Əsgərinin oğlunu, axırıncı imamı ələ keçirib öldürmək məqsədilə onun evini ciddi nəzarət altında saxladığına görə,İmam Mehdinin anadan olması çox gizli şəraitdə baş vermişdi. Hətta Nərcis xanımın hamilə olması doğuşun son anınacan heç bilinməmişdir. Bu barədə ən etibarlı xəbər Həzrət Mehdinin anadan olmasının canlı şahidi olan,İmam Həsən Əsgərinin bibisi Həkimə xanımın verdiyi xəbərlərdir.

Həsən Əsgəri həyatda ikən onun dostları və yaxınları İmam Mehdini yaxından görmüşlər.Bu görüşlərin biri haqqında alim Həsən ibn Əyyub ibn Nuh belə deyir:-"Biz sonrakı İmamın kim olması barədə soruşmaq üçün İmam Həsən Əsgərinin yanına getdik. Biz qırx nəfər idik.Biz ondan bu barədə soruşanda içəriyə İmam Həsənə oxşayan bir oğlan uşağı daxil oldu.İmam Həsən Əsgəri onu göstərərək dedi**:-"Bu məndən sonra sizin İmamınız, mənim sizin aranızdakı canişinimdir. Onun əmrinə tabe olun və məndən sonra ixtilaf yaratmayın.Yoxsa özünüz həlak, dininiz məhv olar..."**

Hz. Mehdinin qeybə çəkilməsinin üç əsas səbəbi göstərilir.

Bildiyimiz kimi, Allah-taala insanları imtahan etmək üçün dünyaya gətirmiş və bu dünya da imtahan və sınaq səhnəsidir. Burada insanlar öz imanları, səbirləri və Allahın əmrlərinə itaətkarlığı sayəsində tərbiyə olunub kamala yetişirlər.

Hz.Mehdinin qeybə çəkilməsi ilə insanlar sınağa çəkilirlər: imanı və əqidəsi möhkəm olmayanların iç üzü peyda olur və onlar bu barədə şəkkə düşürlər.Lakin iman və əqidəsi möhkəm olan şəxslərin o Həzrətin zühurunu gözləmək və çətinliklərə dözmək sayəsində əqidələri daha da möhkəmlənir.

İmam Musa Kazim (ə.s.) buyurmuşdur:**-Beşinci oğlum qeybə çəkildikdə dininizi qoruyun və muğayat olun ki, kimsə dininizdən çıxmasın.O istəsə də, istəməsə də mütləq qeybə çəkilməlidir.Onda bəzi möminlər öz əqidələrindən dönəcəklər. Allah- taala onu qeybə çəkməklə Öz bəndələrini sınağa çəkir**..."

Din rəhbərlərinin sözlərindən belə başa düşülür ki,İmam Mehdini qeybə çəkməklə bəndələrini sınağa çəkməsi Allahın ən çətin sınaqlarından biridir.

Bu çətinliklər iki cəhətə görədir:

1)Qeyb dövrü həddən artıq uzun çəkəcəyindən insanların çoxu bu barədə şəkk edəcək.Bəziləri onun doğulmasından, bəziləri isə Həzrətin ömrünün bu qədər uzun ola bilməsindən şəkk edəcək.

Peyğəmbər (s.ə.s.) bu barədə belə buyurmuşdur:"Mənim nəslimdən törənən Mehdi (ə.s.) mənim tərəfdarlarım və ardıcıllarımın gözündən qeyb olacaq.Yalnız o şəxslər onun İmamlığına olan əqidələrini qoruyub saxlaya biləcəklər ki, Allah-taala onların qəlblərinə imanı layiq bilmişdir."

2)İmam Mehdinin qeybi dövründə bir çox çətinliklər, təzyiqlər və acı hadisələr baş verəcək, buna görə də insanlar dəyişiləcəklər. Yəni imanı və əqidəni qorumaq, dini saxlamaq çox çətin bir iş olacaq və insanların imanını təhlükələr hədələyəcəkdir.

Mərhum Sitətül İslam Şeyx Nuri ("Nəcmus-saqib") kitabında o Həzrətin iki qeybi barədə məlumatlar vermişdir.Bunlar iki mərhələyə bölünür:-kiçik qeyb dövrü və böyük qeyb dövrü.

Kiçik qeyb dövrü Hicri 260-cı ildən (İmam Həsən Əsgərinin vəfatından) başlayaraq 329-cu ilə qədər(İmamın dördüncü xüsusi naibinin ölümünə qədər) təxminən 69 il davam etmişdir. Kiçik qeyb dövründə onun tərəfdarları ilə əlaqəsi kəsilməmiş, onlar xüsusi və çox məhdud şəkildə İmamla əlaqə saxlamışdılar. Kiçik qeyb o, İmamın həyatını qorumaq üçün idi, çünki o, camaat arasında zahir olsaydı,onu mütləq öldürəcəkdilər. Kiçik qeyb dövrünü onun tərəfdarlarının böyük qeyb dövrünə hazırlıq mərhələsi hesab etmək olar.

İmam Mehdinin qeybə çəkilməsinin birinci mərhələsi başa çatdıqdan sonra üzünmüddətli böyük qeyb dövrü başlanmış və bu mərhələ indiyədək davam edir.

Sahibəz-Zamanın dörd canişini olmuşdur:

1.Osman ibni Səid Əmri.

2.Osman ibni Səidin oğlu Muhəmməd ibni Osman.

3.Hüseyn ibni Ruh.

4.Şeyx Əbül Həsən Əli ibni Məhəmməd Səmiri.

Rəvayət olunur ki, o Həzrət zühur edən zaman 313 əshabı onun ətrafında toplanacaqdır.

İmam Mehdinin mübarək əlamət və işarələri:

O Həzrət Peyğəmbərimizə(s.ə.s.)çox bənzəyir.Onun alnı geniş, ağ və parlaqdır. Üzü qəşəng və nurludur. Ortaboylu,sağ yanağında bir

xalı vardır. Surəti elədir ki, heç bir göz onun gözəlliyində bir surət görməmişdir.

Sahibəz-Zamana aid olan xüsusiyyətlərdən bəziləri:

1) Qütb Ravəndi "Xərayic"də İmam Sadiq (ə.s.)rəvayət edir ki:

Peyğəmbərimiz(s.ə.s.)tərəfindən Meracda ona verilən xəbərlərdən və Hz.Cəbrail tərəfindən gələn vəhydən övladı Mehdi haqqında belə deyərdi:"O Cənabın nuru on dörd məsumların nurları arasında,ulduzlar arasında parıldayan bir parlaq ulduz kimidir."

2)O Cənab nəsil cəhətdən şərəfli əsil-nəsəbə malikdir.Nəsli ata tərəfdən bütün müqəddəs əcdadlarının vasitəsilə Peyğəmbərimizə,ana tərəfdən isə Rum Padşahlarına çatır.O Hz. İsanın canişini Şəmun Səfayadək davam edib sona çatır.

3)O Həzrətin doğum günü iki mələk o Cənabı ərşin pərdəsi arxasına aparmış və Allah-taala ona buyurmuşdur:"Ey mənim bəndəm! Eşq olsun sənə!And içirəm ki, bəndələrimin hidayətini, işimin aşkar olmasını və dinimə köməklik göstərilməsini sənə əta edim və bəndələrimi sənə görə bağışlayım."

4)Rəvayət olunur ki, Beytul-Həmd Sahibəz-Zamana məxsus bir evdir. O Həzrət dünyaya göz açdıqdan bəri orada bir çıraq şölələnir və o, qılıncla zühur edənədək sönməyəcək.

5)O Həzrətin künyəsinin Peyğəmbərin künyəsi ilə bir olması. "Mənaqib"də rəvayət olunur ki, Allah Rəsulu buyurmuşdur: "Uşaqlarınıza mənim adımı qoyun,lakin künyəmı qoymayın."

6)O Həzrətin adına ehtiram edilməsi və yer üzündə sonuncu imamın o Həzrətin olması.

7)Doğulduğu gündən qeybə çəkilməsi,müqəddəs aləmdə mələklərlə ünsiyyətdə olması,Ruhul-qüddusə Cəbrailə (ə.s.) tapşırılması, nur aləmində və müqəddəs səmada o Həzrətin müqəddəs bədən üzvlərinin hər birinin Bəni Adəm və şeytanların çirkin günahlarına azacıq da olsa aludə olunmadan tərbiyə olunması.

8)O Həzrət kafirlərlə, münafiqlərlə və fasiqlərlə heç bir vaxt rabitədə olmamış, buna görə də viladət günündən bu günədək bir zalımın əli o Həzrətə çatmamış və onların mənzillərindən uzaq olmuşdur.

9)Heç bir zalımın beyəti o Həzrətin boynunda ola bilməz.

Qeydlər:"Elamul-vəra" kitabında İmam Həsəndan rəvayət olunur ki:

"O Həzrət bizim İsa ibni Məryəmin arxasında namaz qılacaq. Qaimimizdən başqa hər birimizin boynunda öz zəmanəmizin tüğyançılarının bir beyəti vardır."

10) Həzrətin kürəyində Rəsullullahın mübarək kürəyində olduğu kimi bir əlamət vardır ki, ona Peyğəmbərlərdə nübüvvətin xətmi, sonu deyilir. Ola bilsin ki, o Cənabın kürəyindəki işarə, vəsiliyin (canişinlik) xətm və sonuna işarədir.

11)Allah-taala səmavi kitablarda və Merac hədislərində başqa imamlardan fərqli olaraq, o Həzrəti müxtəlif ləqəblərlə qeyd etmiş, lakin şərəfli adını çəkməmişdir.

12)O Həzrətin zühuru üçün baş verən möcüzəvi ayələr, səma və yer əlamətləri heç bir imamın təvəllüd və zühuru üçün görünməmişdir.

Qeydlər: Hətta "Kafi"kitabında İmam Sadiqdən rəvayət olunmuşdur ki: "Tezliklə biz onlara üfüqlərdə və onların nəfslərində (özlərində) öz ayə və nişanələrimizi göstərəcəyik ki, onlar onun haqq olmasını bilsinlər"(Fussilət-53)

Bu ayədə Həzrətin zühuru zamanı baş verə biləcək hadisələrə işarə olunur. **"O,Allah tərəfindən olan bir haqq və həqiqətdir ki, camaat onu görəcək və o Həzrətin zühur edəcəyi şübhəsizdir**." Həmin əlamət və işarələr çoxdur. Bəzi alimlər onların 400-ə yaxın olduğunu qeyd edirlər.

13)Həzrətin zühur edəcəyi zaman səmadan onun adı ilə bir nida ediləcəkdir.

Necə ki, bu bir çox rəvayətlərdə gəlmişdir. Əli ibni İbrahim "Vəstəmi yəvmə yunədil-munadi min məkanin qarib" Yəni:-"**Carçı yaxın bir yerdən nida edən gün(ona) qulaq asın.(Qaf-41)**

Bu ayənin təfsirində İmam Sadiqdən rəvayət edir ki, "Carçı Qaimin və atasının adı ilə nida edəcəkdir."

Qeydlər:Hömaninin**"Qeybət"** kitabında İmam Baqirdən rəvayət olunur ki:"Səmadan carçı Qaimin və atasının adını nida edəcək. Qərbdə və Şərqdə olanların hamısı bu nidanı eşidəcək.O səsin qorxusundan yatmışlar oyanacaq, ayağa duranlar oturacaq, oturanlar ayağa duracaqlar."Həzrət buyurmuşdur ki, o səs Cəbrailin səsidir ki, Ramazan ayının 23-də cümə gecəsi eşidiləcəkdir.Bu haqda çoxlu hədislər gəlib bizə çatmışdır. İstər şiə, istərsə də sünni hədisçiləri tərəfindən müxtəlif sənədlər və rəvayətlər bu hadisənin doğruluğunu təsdiq edir.

14)Fələklərin (səmavi cisimlərin)hərəkət sürəti azalacaqdır.

Qeydlər:Şeyx Mufid, Əbu Bəsirdən nəql edir ki, İmam Baqir Həzrəti Qaimın rəftarı və hakimiyyəti haqqındakı uzun bir hədisdə buyurdu:

"Kainatın hərəkət sürəti 7 il azalacaq. Belə ki, onun hər ili sizin on iliniz qədər çəkəcək. Sonra Allah-taala istədiyi hər bir şeyi bərpa edəcək. Soruşdum:-Sənə qurban olum, illər necə uzanacaq? Buyurdu:-"Allah göyə əmr edəcək ki, yavaşısın, hərəkətini azaltsın. Buna görə də günlər

və illər uzanacaq. Mən dedim:-"Deyirlər, əgər göydə bir dəyişiklik olsa, aləm məhv olar?"Buyurdu:-"Bu ateistlərin sözləridir.Bu sözlərin müsəlmanlara dəxli yoxdur.Necə ki, Allah Peyğəmbərə (s.ə.s.) xatir ayı iki bölmüşdü, Yuşa ibni Nuh üçün günəşi geri qaytarmış və eləcə də Qiyamətin bir gününün uzunluğunun sizin min ilinizə bərabər olduğunu xəbər vermişdir."

15) Həzrəti Əlinın öz xətti ilə yazdığı"Müshəfin" Sahibəz-Zamanın yanında olmasıdır.Əli(ə.s.) Peyğəmbərin vəfatından sonra Quranı Peyğəmbərə möcüzəli şəkildə nazil olduğu kimi, ardıcıl, ayə və surələrin yerlərini əvəz etmədən toplayaraq səhabələrə təqdim etdi, onlar isə bəzi ayələri qəbul etməkdən boyun qaçırdılar.Bundan sonra Həzrət onu gizlətdi.Həmin Quran ayələri indiyə qədər qalmaqdadır və Sahibəz-Zaman onları aşkara çıxaracaq.

16)O Həzrətin başının üzərində həmişə ağ bir bulud olacaq və üzərinə kölgə salacaq ki, Ali Muhəmmədin Mehdisi budur.

O,yer üzünü ədalətlə dolduracaqdır, necə ki, zülmlə dolu idi. Onun səsini dünyanın şərqində və qərbində olan bütün insanlar və cinlər eşidəcəkdir.

17)Mələklər və cinlər aşkar olaraq o Həzrətin əsgərləri və köməkçiləri olacaqlar.

18)İllərin ötməsi,fələyin dövranına baxmayaraq, o Həzrətin bədən üzvlərində, zahiri görünüşündə heç bir dəyişiklik olmamışdır.İndiyə kimi Həzrətin şərəfli ömründən 1110 il keçməsinə, hələ bundan sonra da nə qədər illər keçəcəyinə baxmayaraq,o Həzrət 40 yaşında cavan kimi zühur edəcək.

Qeydlər: Şeyx Səduq Əbus Səlat Hərəvidən rəvayət edir ki:İmam Rzadan soruşdum ki, Qaimin zühur edəcəyi zamanda əlaməti nədən ibarətdir? Həzrət buyurdu:"Zühurun əlaməti budur ki, qoca yaşlarında ikən cavan oğlan qiyafəsində görünəcək,nəzər salanda güman ediləcək ki, o Həzrətin 40, yaxud daha az yaşı vardır."

19)Ölmüş insanların bir dəstəsi dirilərək Həzrətin qoşununda olacaqlar.

Qeydlər: Şeyx Mufid nəql edir ki,yeddi nəfər Musa Peyğəmbərin qövmündən, Əshabi-Kəhf, Yuşa ibni Hun, Salman Farsi, Əbu Zər, Əbu Dəccanə Ənsari, Miqdad və Malik Əştər o Həzrətin əshabı olacaqlar və müxtəlif ölkələrdə hakimiyyət başına təyin ediləcəklər. Həmçinin hədisdə gəlmişdir ki, hər kəs 40 sabah Əhd duasını, "Allahummə Rəbbənnuril-əzimi"oxusa, Sahibəz-Zamanın ənsarından (köməkçilərindən) olacaqdır.Əgər Həzrətin zühurundan qabaq vəfat etsə, Allah-taala onu o Həzrətlə qovuşduracaqdır.

20)Yer öz təkində olan gizlənmiş xəzinələri, ləl-cəvahiri üzə çıxaracaqdır.

21)O Həzrətin mübarək vücudu sayəsində insanların ağılları kamilləşəcək və Həzrət öz mübarək əlini onların başlarına qoyacaq və bununla da Habil öldürülən gündən indiyə kimi camaatın kin-küdurəti və həsəd kimi çirkin xasiyyətləri onların ürəklərindən çıxacaq.O Həzrətin bolluca elmləri, hikmətləri möminlərin qəlblərinə həkk olacaq və heç bir mömin öz mömin qardaşının elminə möhtac olmayacaq.

22)Həzrətin səhabələrinin görmə və eşitmə qabiliyyətləri artacaq. Belə ki, 25 km məsafədən Həzrət onlarla danışacaq və onlar da İmamı görəcəklər.

23)Sahibəz-Zamanın səhabələrinin ömürləri uzun olacaqdır.

24)Çətinliklər,bəlalar və zəifliklər o Həzrətin səhabələrindən götürüləcəkdir.

25)Sabibəz-Zamanın əsgər və köməkçilərinin hər birinə qırx kişinin gücü veriləcəkdir, qəlbləri dəmir parçası kimi bərkiyəcəkdir. Belə ki, hər vaxt dağı yerindən oynatmaq istəsələr,buna qüdrətləri çatacaqdır.

26)Həzrəti Peyğəmbərin bayrağı Sahibəz-Zamanda olacaqdır.

27)Həzrəti Peyğəmbərin zirehi Sahibəz-Zamandan başqa heç kəsin əyninə olmaz, yalnız onun bədənində Peyğəmbərin bədənindəki kimi durar.

28)Kafirlər və münafiqlər tərəfindən yaranmış qorxu, həmçinin təqiyyə yoxa çıxacaq və Allaha ibadət etmək,dünyəvi və dini işlərdə ilahi göstərişlər əsasında hərəkət etmək üçün şərait yaranacaq,baxmayaraq ki, möminlərin bir hissəsinin əlləri müxaliflərin qorxusundan və zalımların rəftarına uyğun şəkildə ləyaqətsiz işlərə bulanmışdır.Belə ki,Allahtaala Qurani-Kərimdə vədə vermişdir:“

-Nur-55-Allahın özü bəyəndiyi dinini (islamı) möhkəmləndirəcəyini (hər tərəfə yayacağını)və onların qorxusunu sonra əmin-amanlıqla, arxayınçılıqla əvəz edəcəyini vəd etmişdir.

29)Elmlər öz nəhayət dərəcəsinə çatacaq.

Qeydlər:Qütb Ravəndi “Xərayic”də İmam Sadiq rəvayət edir ki,elm 27 hərfdən ibarətdir ki,bütün Peyğəmbərlər o 27 hərfdən cəmi ikisini gətiriblər. Camaat bu iki hərfdən çox elm öyrənə bilməyəcəklər. Lakin Qaimimiz zühr edəcəyi zaman 25 hərfi də, aşkar edəcək və onu camaat arasında yayacaq və bu 25 hərfi o iki hərfə əlavə edəcək, bununla 27 hərf tamamlanacaq.

30)Sahibəz-Zamanın səhabələri üçün səmadan qılınclar gətiriləcək.

31)Bütün heyvanlar Həzrətin səhabələrinə itaət edəcəklər.

32)Sahibəz Zaman məlun Dəccalın ölümündə Həzrəti İsaya kömək edəcək.

Qeydlər:O Dəccal Allahın qiblə(Məkkə)əhalisinə göndərdiyi bəladır. Əli ibn İbrahim özünün Qurana yazdığı təfsirində İmam Baqirdən rəvayət edir ki,"Qul huvəl-qadiru əla ən yəbəsə əleykum əzabən min fəvqikum"

(əl-Ənam-65) ayəsini Dəccala və Səyhəyə (səmadan gələcək nida) təsfir etmiş və buyurmuşdur:"Bütün Peyğəmbərlər camaatı Dəccal ilə qorxutmuşdur."

Dəccalın gəlişi zamanı baş verənlər:Dəccal məlun, dünyada qan tökməyə və fitnə-fəsad üçün bütün qadın, kişiləri və şeytanları özünə cəlb edəcəkdir.O, təkgöz, çox qüvvəli, güclü və mahir sehrbazdır. Bütün sehrbazlar, kafirlər vələdüzzinalar(bic doğulmuşlar), zinakarlar, fırıldaqçılar Dəccalın ətrafında toplanacaqlar və özlərini camaata haqq olan,yəni öz tərbiyəsizlik və həyasızlıqları ilə camaatı üstələyib, özlərini ən üstün təbəqəli,ziyalı, ağıllı kimi göstərəcəklər. Zinakarlıq, pozğunluq və həyasızlıqla vəzifə ,var-dövlət, hörmət, iş, mövqe sahibi olaraq,mömin və saf insanlara acıq verərək,öz şad, xürrəm həyatları ilə fəxr edəcəklər. İnsanlar da bunları bilə-bilə onlara tabe olaraq, susub göz yumacaqlar və onları tərif edib həsrət çəkəcəklər. Gənclər özlərini onlara oxşatmağa, onları yamsılamağa həvəs göstərərək dini, imanı unudacaqlar.Şeytanlar bütün çalğı alətlərindən istifadə etməklə cürbəcür musiqilər çalıb oxuyacaqlar və bununla Dəccalın ətrafındakıların qəlblərini məşğul edəcəklər. Beləliklə də, ağıldankəm kişi və qadınların gözlərində elə ləzzətbəxş cilvələndirəcəklər ki, onların hamısı rəqs etməyə başlayacaqlar.

Bütün camaat həmin o (şeytani,şəhvət hissini coşduran) nəğmə və musiqiləri, cəzbedici səsləri eşitmək üçün onun ardınca hərəkət edəcəklər. Elə bil bütün xalqlar məst olacaqlar.

Qeydlər:Qiyamət qopacağı zaman Hz.İsa yer üzünə enəcək.

Hz. İsa gəlmədən əvvəl Həzrəti Mehdi Məkkə və Mədinə Hərəmlərində ortaya çıxacaq, sonra Qüddusa gələcək, ondan sonra Dəccal gələcək. Həzrəti İsa da Dəməşqdə Doğu Minarəsindən enərək Dəccalı məhv edəcək. Bundan sonra Hz.İsa Hz.Mehdi ilə görüşəcək və Qüddusda Məscidi-Əqsada namaz qılacaqlar. Hz.Mehdi Hz. İsaya namazı qılmaq üçün yol göstərəcək. Lakin Hz.İsa: "Bu namaz sənin üçün qılınır və sən bu namazı qıldırmağa məndən daha layiqsən" deyəcək.Hz.İsa Hz. Peyğəmbərin şəriətini qəbul etdiyi məlum olsun deyə Həzrəti Mehdinin arxasında namaz qılacaq.(İmami-Əzəm,Fikhul-Əkbər, Əliyyul Qari Şərhi,tərcümə Yunus Vəhbi Yavuz,İlavəli 3.Şağrı Yayınları s. 284)

Qeydlər: Əbu Əmamənin rəvayətində gəlibdir ki, Peyğəmbərimiz belə buyurmuşdur:-"Hər bir mömin Dəccalı görüb öz ağzının suyunu onun üzərinə atsa və onun sehrini sındırmaq üçün mübarək "Həmd" surəsini oxusa, Dəccalın sehr və cadusunun o şəxsə təsiri olmaz.O məlun aşkar olub,yer üzünü fitnə-fəsad, hərc-mərcliklə dolduracaq. Onunla Qaimin qoşunu arasında müharibə baş verəcək, nəticədə Dəccal Həzrəti İsanın mübarək əli ilə qətlə yetiriləcəkdir. **("əl-Mehdi "Şeyx Abbas Qumi)**

Qeydlər:Həzrəti Mehdinin zühurundan sonra bütün müsəlmanlar imanlarını təzələyib, yer üzünə yayılan zülm və təcavüzləri qaldırıb, yerinə haqq və ədaləti yerləşdirəcək.Bir çox hədis və əqidə kitablarında açıqca ifadə edildiyi kimi Dəccal adlanan bir tiranın komandanlığı altında 7 min əsgər İslamı məhv etmək üçün hərəkətə keçəcək və bunun nəticəsində müsəlmanlarla vuruşub nə qədər qalib gələrsə də, nəticədə məğlub olacaqdır.

Hz. İsa Allahın əmri ilə göyə qalxdığı kimi, Qiyamətə yaxın bir zamanda, yenə Allahın əmri ilə yer üzünə enəcək və İslam ədalətini tətbiq edəcəkdir.(**Böyük Şafi İntihali,Xəlil Günənç iləvəli s.23.)**

Bu haqda Peyğəmbərimizdən söylənən hədislər: 1.Peyğəmbərimizin hədislərində içində yaşadığımız"axır zaman" adlandırılan bu dövrdə əvvəlcə fitnələr yaşanacağı, sonra isə mübarək günlər yaşanacağını bildirilmişdir.

2.Peyğəmbərimiz (s.ə.s.) Axır zamanı, Quran əxlaqının və İslamın gözəlliklərinin dünyanın hər yanında yayılıb,yaşanacağı günlər ilə tərif etmişdir.

3.Müasir dövrümüzdə İslam aləmində yaşanan çətinliklər və əlamətlər elə Həzrəti Mehdinin zühurunun yaxınlaşmasını müjdələyir.

4.Həzrəti Mehdi İslam dinini Hz. Peyğəmbərin zamanında olduğu kimi ucaldacaq.Yer üzündə məzhəbləri qaldıracaq.Xalis həqiqi dindən başqa və onun məzhəbindən başqa heç bir məzhəb qalmayacaq**." (Muhəmməd B. Rəsul əl Bərzəmci, Qiyamət Əlamətləri s. 186-187).**

5."Həzrəti Mehdi Axır zamanda dünyaya gələcəkdir, Peyğəmbərimizin (s.ə.s.) soyundan(Əhli Beytindən) olacaqdır. Mehdi (ə.s.) Hz. İsa ilə görüşüb, bütün məzhəbləri qaldıracaq, yalnız onun məzhəbi qalacaqdır**." (H. Elmi İşıq,Səadəti Əbədiyə,s.35)**

6.Peyğəmbərimiz buyurmuşdur: "Dünyanın ömrünə sadəcə bir gün qalsa belə, Allah mənim Əhli-Beytimdən bir adam gön-dərəcəkdir. O, dünyanı zülmdən dolduqdan sonra, gəlib ədalətlə dolduracaqdır**."(Sünən Əbu Davud c.14,s. 402)**

Hz.Peyğəmbərdən və onun on bir övladının hamısından İmam Mehdinin qeybi barədə hədislər söylənmişdir. Bunlardan bir neçəsini qeyd edək:

1)İmam Əli buyurur:"Peyğəmbər (s.ə.s.) belə buyurmuşdu: "Yer üzünü zülm və haqsızlıq bürüdüyü zaman Hüseyn nəslindən bir nəfər ümmətə rəhbərlik edərək, haqq-ədaləti bərpa edənə qədər dünyanın axırı gəlib çatmaz."

2)İmam Hüseyn(ə.s.) buyurur:"Əgər dünyanın axırına bircə gün qalsa, Allah-taala həmin günü uzadar və mənim nəslimdən olan bir kişi qiyam edib zülmlə dolan dünyanı haqq-ədalətlə doldurar. Mən babam Peyğəmbərin belə buyurduğunu eşitmişəm**.("Hədisi Qüdsi")**

Qurani-Kərimdə Allah-taala belə buyurur:

Qəsas-6-"Biz yer üzündə zəif düşüb əzilənlərə nemət vermək, onları yer üzünün rəhbər və varisi etmək istəyirik."

Hər bir ayın18-dən axırına qədər Sahibəz-Zamanın təsbihi (zikri)vardır: "Subhanəllahi ədədə xəlqihi,subhahəllahi riza nəfsihi, sunhanəllahi midadə kəlimatihi subhanəllahi zinətə ərşihi vəlhəmdu lillahi mislə zalik."

Hədis:-"Hədisi-Qüdsi"Muhəmməd ibni Əli ibni Hüseyn ibni Babəveyhdən. İmam Gəfəri Sadiqdən, Peyğəmbərimizdən buyurur ki, Həzrəti Mehdinin əhvalatı da Nuhun əhvalatına bənzəyir:-Nuhun ömrünün uzun olmasının səbəbi bu idi ki, Allah-taala onun qövmünə bəla nazil etmək istəyəndə Cəbraili(Ruhul-Əmini) yeddi dənə ağac toxumu ilə Nuha göndərdi.Cəbrail (ə.s.) dedi:

-Ey Allahın Peyğəmbəri!Allah-taala buyurur:-Onlar mənim bəndələrim, məxluqlarımdır.Mən bəlanı onlara tərəf yalnız o vaxt göndərərəm ki, əvvəlcə dəvəti təkid edəm, höccəti onlara tamamlayam. Geri qayıt və öz qövmünü bir daha haqqa dəvət et. Mən sənin haqq olmağını onlara göstərəcəyəm. Bu dənələri yerə ək,çünki bunlar cücərib böyüdükdən,yaşıllaşıb meyvə verdikdən sonra sənin qurtuluş yolun hazırlanacaqdır. Bu xəbəri sənin lə olan möminlərə də xəbər ver.

Nuh onları əkdi. Onlar cücərib böyüdü, qol-budaq ataraq meyvə verdi. (Əlbəttə, bunlar çox uzun müddətdə oldu.) O,Allahdan vədəsinin gerçəklənməsini istədikdə, Allah ona göstəriş verdi ki, yeni əmələ gələn toxumları, təzədən əksin və səy edib çalışsın ki, höccəti öz qövmünə tamam etsin.

Nuha iman gətirən şəxslər bu mövzudan xəbərdar olduqda,onlardan üç yüz nəfəri dindən döndü.Onlar deyirdilər:"Əgər Nuhun dediyi sözlər, Allahın əzab vədəsi düzdürsə, Allah da heç vaxt Öz verdiyi vədəsinə xilaf çıxmaz. Bəs nə üçün indiyə kimi əzab nazil olmadı?"

Nuh hər dəfə öz ardıcıllarına göstəriş verirdi ki,ağacın dənələrini əksinlər. Nəhayət, yeddi dəfə əkdilər, ağaclar böyüyüb inkişaf etdi. Bu müddət ərzində ona iman gətirənlərin əksəriyyəti dindən çıxdılar.Yalnız 70 nəfər onun dinində qaldı.

Sonra Allah Nuha vəhy etdi:"Ey Nuh!İndi hər şey zahir oldu. Haqq sənin qövmün üçün aşkar oldu. Hər xəbis batini var idisə, zahir oldu. Əgər sənin əzab istədiyin vaxt mən kafirləri həlak edib öldürsəydim,o zaman sənə iman gətirib, sonra mürtəd olanlar diri qalacaqdılar. O zaman Mənim sənə, xalis iman gətirən möminlərə, habelə sənin nübüvvətinə sarılanlara verdiyim vədə düzgün olmazdı.Çünki Mən vədə vermişdim ki, onları yer üzünün canişinləri edəcəyəm. Mən onların əksəriyyətinin zəif imanlarından arxayın idim.Batinlərinin xəbis, niyyətlərinin bəd olmasını bilirdim.Bu halda onları necə Özümə canişin bilərdim və onlara necə əmin-amanlıq bəxş edə bilərdim?Onların imanları həqiqi olmadığına görə yer üzərində sonradan canişin olacaqları təqdirdə öz müxaliflərini öldürəcəkdilər ki,özlərini qüdrətə çatdırsınlar.Əgər onlar nifaq, münafiqlik və bədniyyət xüsusiyyətləri ilə özlərini möminlərlə yanaşı görsəydilər, heç kəs onları tanımasaydı, daha da ürəklənəcək və öz qardaşlarını düşmənçiliyə çəkəcək və risalət əldə etmək üçün müharibə aparacaqdılar.Onların möminlərin arasında olması ilə yanaşı dində necə aramlıq, möminlər arasında əmin-amanlıq bərqərar ola bilərdi?!Belə bir vədə gerçəklənməzdi.

Lakin mən əzabın nazil olmasını təxirə saldım ki, onlar möminlərdən seçilsinlər və onlar imanlarından dönsünlər. İndi ki, bu iş həyata keçdi,Mən öz əzabımı sənin qövmünə göndərirəm.Sən bizim köməyimizlə böyük bir gəmi düzəlt.

Gəmiyə minən zaman Allah Nuha belə vəhy etdi.Ey Nuh!Əgər gəminin qərq olmasından qorxursansa, Mənim üçün min dəfə təhlil (Lə iləhə illəllah)və təsbih(subhanallah) de və Məndən nicat istə. Mən səni və sənինlə gəmidə olanların hamısını qərq olmaqdan xilas edərəm."

Hədis: Qummi Şəhr Coşəbdən rəvayət edir ki, Həccac mənə dedi:"Quranda bir ayə vardır ki, məni şəkkə salmışdır."

Mən onun hansı ayə olduğunu soruşduqda o bu ayəni oxudu və dedi: "And olsun Allaha, mən çox yəhudi və xristian öldürmüşəm, lakin heç birini, hətta dodağını tərpətməklə də olsa, İsanın Peyğəmbərliyini iqrar etməsini görməmişəm."

Mən dedim:"Allah bu sözü deyəni islah etsin.Ayənin mənası sən deyən kimi deyil.

O dedi:-Bəs necədir? Dedim:"Qiyamətdən qabaq Hz. İsa yer üzünə nazil olar. Hz. İsaya iman gətirənlər içində bir nəfər də,yəhudi və xris-

tian qalmaz.Yəni hamı İslamı qəbul edər.O qiyam edən Hz.Mehdinin arxasında namaz qılar.

Həccac dedi:"Vay olsun sənə, bu təvili kimdən öyrənmisən?"

Dedim:-Mənə bunu Muhəmməd ibn Əli ibn Hüseyn(imam Muhəmmədi Baqir ə.s) hədis olaraq söyləmişdir.

Həccac dedi:"Sən bu sözü saf çeşmədən götürmüsən."

İSLAM TARİXİ HAQQINDA QISA MƏLUMAT

Açıqlama:Peyğəmbərimiz (s.ə.s.)bütün ərəb ölkələrinə İslam dinini yaydıqdan və Miladi tarixi ilə 632-ci ildə vəfat etdikdən sonra hakimiyyətə gələn dörd xəlifə:Əbu Bəkir, Ömər, Osman və bütün İslam dininin yükünü çiynində daşıyan, Peyğəmbərimizin valisi olan Hz.Əli tərəfindən İslam dini Şimali Afrikaya, Suriyaya, Fələstinə,İraqa, İrana,Orta Asiya ölkələrinə yayılaraq, Bizansın və Sasanilər imperiyasının yerini tutan böyük bir imperiyanın dininə çevrildi. "Raşidi"("düz yolla gedən,"insaflı") xəlifələrindən sonra hakimiyyətə Peyğəmbərimizlə daima rəqabətdə olan Bəni Üməyyə-Əməvilər nəslinin xəlifələr sülaləsi gəlir.

Miladi VI əsrin sonu VII əsrin əvvəllərində Əməvilər xilafəti ciddi surətdə zəifləməyə başlamışdı.Bu zəifləmənin bir çox tarixi səbəbləri var idi ki, bunlardan bir neçəsini burada qeyd edək:-Əməvi dövlətini idarə edənlər və onların yerlərdəki valiləri eyş-işrətlə məşğul olaraq,camaatdan vergiləri günbəgün artırırdılar. Əməvi hökumətində müsəlman birliyi pozulmuş və artıq ölkədə qardaş qırğını tez-tez baş verirdi. Ətraf ölkələrlə də münasibətlər pozulub tez-tez müharibələr baş verirdi.Əməvilər yeni İslamı qəbul etmiş şəxslərə münasibətdə ayrı seçkilik edirdilər, çünki təzə müsəlmanlığı qəbul edən şəxslər xəzinəyə can bahası, cizyə ödəməli idilər. Buna görə onlar valilərin müsəlmanlaşdırma siyasətini bəyənmirdilər. Müsəlman olanlar isə artıq onların hərəkət və pozğunluqlarına dözə bilmirdiər.

Əməvilərin süqutunun ən böyük səbəbi isə onların əvvəldən bəri Peyğəmbər və onun övladları ilə olan ədavəti idi.Bu,vaxtı ilə Bəni Haşim ilə Bəni Üməyyə tayfasının qarşıdurmasından qaynaqlanan, sonralar Hz. Muhəmməd ilə Əbu Süfyan arasında, Hz.Əli ilə Müaviyyə arasında olan ədavətlər idi. Ən sonda isə Müaviyyənin oğlu Yezidin tərəfindən İmam Hüseynin vəhşicəsinə qətlə yetirilməsi, xanım Zeynəb və imam Səccadın apardığı güclü təbliğat artıq müsəlmanların səbrinin daşması üçün son damla oldu.Elə bundan sonra Əməvilərin süqutu baş-

layır və Miladi VII əsrin ortalarına yaxın onların hakimiyyəti məhv olur.

Bu dövrdə şiə məzhəbi arasında fikir ayrılığı mövcud idi.Kimisi imamətə imam Səccadın,başqa bir tərəf isə Hz.Əlinin Xovlə adlı qadından dünyaya gəlmiş oğlu Muhəmməd ibn Hənəfiyyənin rəhbərliyni qəbul edirdi.İmam Səccadın şəhadətindən sonra Peyğəmbərin göstərişlərini əsas tutaraq, Hz.Muhəmməd Baqiri İmam kimi tanısalar da başqa bir qrup onu Əməvilərə qarşı mübarizədə passivlikdə təqsirləndirərək, İmam Səccadın oğlu Zeyd ibn Əlini özlərinə rəhbər təyin etmək istəyirdilər.

Belə bir şəraitdən Abbasilər istifadə edərək hakimiyyəti ələ ala bilirlər. Abbasilər sülaləsinin kökü Hz. Muhəmmədin əmisi Abbas ibn Əbdülmütəllibə bağlı idi. Abbas ibn Əbdülmütəllib özü İslam dininin inkişafı üçün xeyirli yardım göstərmişdir. Lakin Hz. Muhəmməd (s.ə.s.) əmisi Abbas barədə nə qədər sevgi və qayğı ilə danışsa da,onun övladlarına qarşı bir o qədər narazılıq və bezarlıq bildirmişdir.O Həzrət Bəni -Abbas sülaləsinin gələcəkdə törədəcəkləri bütün cinayətləri Peyğəmbərlik gücü ilə qabaqcadan hiss etmiş, Əhli-Beytə Abbasilər tərəfindən yetişəcək əziyyətlər barədə 150 il əvvəldən xəbərdarlıq etmişdi.

Həqiqətən də, Abbasi xəlifələri öz hakimiyyətləri dövründə Peyğəmbərin övladlarını və onların tərəfdarlarını təqib edib incitmişlər. Onlar öz qəzəb və şəhvət hisslərindən doğan paxıllıq, qısqanclıq və öz vəzifələrini itirmək qorxusundan, çox böyük siyasətlə şairlərə, hədis yazanlara,yazıçılara, tarixçilərə pul və vəzifə təklif etməklə imamlara qarşı əks təbliğatlar aparmışlar. İmamları insanların gözlərindən salıb cılızlaşdırmaq üçün onlar haqqında yalançı tarix, şeirlər, hədislər, rövzə və mərsiyələr yazdırmışlar. Əməvilər kimi Abbasilərin də xəlifəlik dövründə Peyğəmbər(s.ə.s.) övladlarının başına müsibətlər gətirilmiş və onlara zülm olunmuşdur. Lakin bütün bu çətinliklərə baxmayaraq, Peyğəmbər(s.ə.s.) övladları İslam dininin yayılıb vüsət tapması və Quranda buyurulan elmlərin inkişaf etməsi üçün öz elmi bilikləri ilə çalışıb çoxlu tələbə və alimlər yetişdirmişlər.

Abbasilər xilafəti Hicri 132-ci ildən 656-ci (Miladi 749-cu ildən 1258-ci) ilə kimi hakimiyyətdə olmuşdur.Beş əsrdən artıq müddət ərzində hakimiyyətdə olan bu sülalənin 37 nümayəndəsi xilafətə başçılıq etmişdir. Bu beş əsr hakimiyyətdə olan Abbasilərin nüfuzu həmişə eyni dərəcədə olmamışdır. Bəzən xəlifələr böyük nüfuza sahib olmuşlar, bəzən isə müxtəlif siyasi qüvvələr və dövlətlərlə müharibələr etmişlər. Lakin bütün bunlara baxmayaraq İslam dinində buyurulan bütün elmlər

və göstərişlər sayəsində elmi-tərəqqinin, mədəniyyətin inkişafında böyük nailiyətlər əldə edə bilmişdilər.

Abbasilərin hakimiyyəti dövrü:Abbasilərin hakimiyyəti dövründən-VII əsrin ortalarından XIII əsrə kimi İslam ölkələrinin sayı artmış, İslam dini və elmi inkişaf edərək bütün dünyanı fəth edə bilmişdi. Elmə verilən böyük qiymətin sayəsində bir sıra alimlər yetişmiş və elm aləminə böyük töhfələr verilmişdi.

Abbasilərin xəlifəlik dövrünü İslamın, elm və mədəniyyətin çiçəklənməsi dövrü adlandırmaq olar. Əsasən buna səbəb İmam Cəfəri Sadiqin babası və atası (Hz.Peyğəmbər(s.ə.s.) Hz.Əli) tərəfindən ona bildirilmiş elimlərin tələbələrinə çatdırılması idi. Abbasilərin xəlifəliyinin ilk dövrlərində müəyyən zaman oldu ki, Hz.Peyğəmbərin övladları üçün , onların tələbələr yetişdirmək və İslam elmini tədris etmək üçün müəyyən şərait yarandı Elə bunun nəticəsində də, həmin dövrlərdə İslam elmi,yəni bütün dünya elmləri inkişaf etdi. Müsəlman aləminin dünya elminə bəxş etdiyi nəhəng şəxsiyyətlərin bir çoxu həmin dövrlərdə yetişmişdir.Avropa gerilik və cəhalət girdabında boğularkən, xristian dini hər növ elmi inkişafın qarşısını almaq üçün çalışarkən, müsəlman Şərqi durmadan inkişaf edir, yeni-yeni elmi və mədəni nailiyyətlər qazanırdı.Bu, ilk növbədə, İslam dininin mütərəqqi xarakteri və müsəlman alimlərinin fədakarlığı sayəsində mümkün olmuşdu.Bu dövrdə elm dili kimi yalnız ərəb dilindən isrifadə edilməsinə baxmayaraq, alimlərin əksəriyyəti qeyri-ərəblərdən ibarət idilər.

Təfsir elmi miladı tarixi ilə 824-dəYəhyə ibn Ziyad Fərra, 923-cü ildə, də Əbu Cəfər Muhəmməd ibn Cərir Təbərinin"Cameül-bəyan fi-il Quran" əsəri, Fürat ibn İbrahim Kufi, Əli ibn İbrahim Qummi (920) və sair bu kimi alimlərin yazdıqları təfsirlər kitabları, təfsir elmində mühüm rol oynamışdır.

Hədis elmində:- Səhih hədis alimlərinin əsərləri:-"Səhih ül-Buhari", "Səhih müslim","Sünəni əbu Davud",Sünən-üt-Tirmizi", Əbu Bəsir (765), Əbu Həmzə Sumali (767),Muhəmməd ibn Nöman Mömin-Üttaq (765), Malık ibn Ənəs(796), Abdulla ibn Mübarək (814), Təyalisi(819), Hümeyd(834), Əhməd ibn Bəzənti (836), İmam Cəfəri Sadiqdən, İmam Kazımdan,İmam Rzadan və İmam Təqidən, İbn Səd (845), İshaq ibn Rahubeyh(853), Əhməd ibn Hənbəl(856), Əbu Cəfər Muhəmməd ibn Səffar Qummi (903), İmam Həsən Əsgərin səhabəsi olmuşdur, Əbül-Qasim Səd ibn Abdullah Əşəri Qummi və Əbül-Abbas Abdullah ibn Cəfər Himyəri Qummi 10-və 11-ci imamın əshabəsi olmuşlar, Bərqi(894),İbn Babiveyh (941), Şeyx Əbu Cəfər Muhəmməd ibn

Küleyn"Əl Kafi", "Üsuli Kafi" və (941)İbn Xüzeymə (924), Əsfərayini (928), Təhavi (934)İbn Həbban(965), Təbərani (971),Əbül Qasim Cəfər ibn Muhəmməd Qummidir ki, İbn Qövliveyh deyilir, Muhəmməd ibn Ömər Kəşşi və sair bu kimi hədis alimləri olmuşdur.

Müsəlman alimləri bir çox ixtira və kəşfləri ilə avropalıları əsrlərlə qabaqlamışdılar. Ərəb ölkələrində, İslamı qəbul etmiş başqa ölkələrdə və Orta Asiya ölkələrində elm Avropa ölkələrinə nisbətən daha geniş inkişaf etmişdi. Burada astronomiya, tibb, riyaziyyat, kimya, coğrafiya, botanika, tarix və memarlıq elmləri inkişaf edərək, bir çox alimlər yetişmişdi. Orta Şərqdə yerləşən ölkələrdə astronomiya və fəlsəfə yüksək inkişaf mərhələsinə çatmışdı.Çox böyük zəhmət və cidd-cəhdlər hesabına İslam dünyası bir neçə əsr ərzində dünyanın elm və mədəniyyət mərkəzinə çevrildi.Elmlə məşğul olmaq istəyənlər Çinə yox, Xilafətin paytaxtı Bağdada üz tuturdular.

Fəlsəfə və kəlam elmi özünün ən yüksək inkişaf mərhələsinə çatmışdı. İslamın Ərəbistan sərhədlərini aşaraq, digər torpaqlara nüfuz etməsi nəticəsində əcnəbi millətlərin elmi-mədəni irsi ilə yanaşı, fəlsəfi düşüncə təlimləri də müsəlmanlar arasında yayılmağa başlamışdı. Qədim tarixə malik İran, Hindistan və Misir fəlsəfi məktəblərinin zəngin irsi müsəlman alimlərini özlərinə cəlb etmişdi.Məhz həmin zamanlar Pifaqor, Platon, Aristotel, Arximed, Qalen, Hippokrat və bu kimi dahilərin əsərləri ərəb dilinə tərcümə edilmişdi.

Müsəlman dünyasında coğrafiya müstəqil elm kimi formalaşır. Coğrafiyaşünas-səyyahların əldə etdikləri informasiyalar sonrakı dövrlərdə İdrisi,Yaqut Həməvi,İbn Bətqutə kimi alimləri yetişdirdi və onların elmin inkişafında əvəzsiz əməkləri olmuşdur.

Cəbr elminin təməlini qoymuş Xarəzmi (780-850) ilk dəfə sıfır işarəsindən istifadə etmişdir. O,"əl-Cəbr-vəl-Müqabilə"adlı ilk Cəbr kitabını yazmışdır. Məşhur riyaziyyatçı-astronom Əbu Abdullah ibn Musa Xarəzminin coğrafiya sahəsində mühüm çalışmaları vardır. Xəlifə Məmun ona Yer kürəsinin atlasını hazırlamağı sifariş etmişdi.Xarəzm bu sifarişi icra edərək "Surətül-ərz" adlı məşhur əsərini yazır. O, bu əsərində Bətlimusun(Ptolemey) coğrafi məlumatlarına və xəritələrinə düzəlişlər etmişdi.Kitab o zaman məlum olan torpaqların xəritələrini əhatə edirdi. Xarəzm daha çox riyaziyyatçı kimi tanınırdı.

Mənşəcə fars olan Əbu Əli Əhməd ibn Ömər ibn Rüştə Miladi 903-cü ildə"əl-Əlaq-ün-nəfisə"adlı əsərində səma təbəqələrinin quruluşunu, Yer kürəsinin ölçüləri barədə maraqlı məlumatlar verir.Kitabın coğrafiya bölümündə yeddi iqlim qurşağı üzrə ölkə və şəhərlər barədə

məlumatlar öz əksini tapmışdır.Müəllif kitabda Azərbaycanı 5-ci iqlimə daxil edərək, Xəzər dənizi, Kür və Araz çayı barədə söhbət açmışdır.

İbn Fəqih Həmədani(miladi 902),İbn Xordadbeh(913),Əbu Zeyd Bəlxi(934), İstəxri(951) və sair bir çox coğrafiya elminin alimləri bütün dünyanın, ölkələrin dəniz və çayların,torpaqların quruluşu və iqlimi haqqında çoxlu tədqiqatlar apararaq,coğrafiya elmi haqqında əsərlər yazmışlar.

Tibb sahəsində həkimlərin sultanı kimi tanınan İbn Sinanın (980-1037) tibb aləminə yeniliklər gətirən"Əl-Qanun"adlı əsəri həm İslam dünyasında, həm də Avropada əsas tibb kitabı sayılmışdır. "Tibbin İncili" adını qazanmış, 600 il Avropa ali məktəblərində dərs vəsaiti kimi tədris olunmuşdur.İnb Sina tibb də daxil olmaqla,29 müxtəlif elm sahəsindəki ixtiraları ilə avropalılar üçün nümunə olmuşdur.İbn Rəbbin Təbəti (922)? İbn Zəkəriyyə Razi (920) və sair bu kimi alimlər tibb elmində böyük nailiyyətlər əldə edərək, bu sahəni inkişaf etdirmişlər. 57-ci Miladı ilində Tibb sahəsində, həkimlərin sultanı kimi tanınan İbn Sinanın (980-1037) tibb aləminə yeniliklər gətirən"Ən-Qanun"adlı əsəri həm islam dünyasında, həm də Avropada əsas tibb kitabı sayılmışdır."Tibbin İncili" adını qazanmış, 600 il Avropa ali məktəblərində dərs vəsaiti kimi tədris olunmuşdur.İnb Sinanın tibb də daxil olmaqla,29 müxtəlif elm sahəsindəki ixtiraları, avropalılar üçün nümunə olmuşdur.

Bağdadda, Bəsrədə,Rey və bütün İslam ölkələrində xəstəxanalar tikilir, əczaçılıq, zoologiya, nəbatat, heyvanat elmləri inkişaf edərək, çoxlu əsərlər yazılır.O dövrün qüdrətli həkimlərindən sayılan Razi(864-925) çiçək və qızdırma xəstəliklərini kəşf etmiş və bu mövzuda ilk dəfə əsər yazmışdır.

Fateh Sultan Mehmətin müəllimi olan Ağşəmsəddin (1389-1459) mikrobu kəşf etmişdir.

Əli ibn Abbas müasir cərrahi əməliyyatlara uyğun tərzdə xərcəng əməliyyatını həyata keçirmişdir. Onun qələmə aldığı "Kitabül-Məliki"adli tibb ensiklopediyası kitabından bu gün də istifadə olunur.

Kiçik qan dövranını İbnün Nəfis (1210-1288) avropalılardan 300 il əvvəl kəşf etmişdir və İbn Sinanın"Qanun" kitabına yazdığı şərhdə bu məsələnin incəliklərini göstərmişdir.

Təbabət tarixi üzrə mütəxəssis Nuüberqer yazır:"Şərqdəki müalicə ocaqları orta əsr səyyahlarının hamısını eyni dərəcədə heyrətləndirirdi. Xəstəxanaların təşkili və fəaliyyətiİslam sivilizasiyasının nəhəng nailiyyətlərindən idi".

Ömər Xəyyam müasir təqvimlərdən daha dəqiq olan təqvim tərtib etdi:həmin cədvəllərdə hər 5000 ildə 1 günlük xətaya yol verilirdisə, Qərbdə istifadə olunan təqvimlərdə bu cür təhriflər hər 3300 ildən bir

baş verməsi nəzərdə tutulurdu.

Riyaziyyat sahəsində də müsəlmanların qazandıqları nailiyyətlər avropalıları heyran qoymuşdu. Məsələn, məşhur qərb alimi Sak Rister belə söyləmişdi:-"İntibahımızın riyyaziyyat müəllimləri müsəlmanlardır." Fransız alimi E.F.Qofte isə öz heyranlığını belə ifadə etmişdir:"Avropalılar yalnız cəbri deyil, digər riyaziyyat elmlərini də müsəlmanlardan almışdır;həqiqətən, bugünkü Qərb riyaziyyatı İslam riyaziyyatından başqa bir şey deyildir".

Başqa müsəlman alimlərindən biri də Bəttandır(850-929).O, faktiki olaraq triqonometriya elminin əsasını qoymuşdur.

Dünyanı qarış-qarış gəzmiş Övliya Cəlaləddinin (1304-1369) səyahətnamələri misilsiz tarix və coğrafiya xəzinələridir.

İbn Baytar(1191-1248) öz kitabında 1400-ə qədər bitki və dərman növünün təfsirini vermiş və əsər Miladi XVI əsrə qədər elm mənbəyi olmuşdur.

Tarixci İbn Xəldin(1332-1406) sosioloqiya elminin qurucusu olaraq xatırlanır. Memarlıq sahəsində isə memar Əcəmi Naxçıvani (XII əsr) və Memar Sinan(1489-1588) xatırlanır.

1065-ci ildə yaradılmış"Nizamiyyə"universiteti bir çox elm ocaqları üçün nümunəyə çevrilmişdir. İslam hakimiyyəti dünyada 500 il hökm sürdü. Əlbəttə, bu, onun qeyri-müsəlman xalqlar arasında məhz mədəniyyət cəhətindən üstünlüyü sayəsində idi.Məşhur tarixçi Yəqubi qeyd edirdi ki, 891-ci ildə o təkcə Bağdad şəhərində 100-dən çox kitabxana saymışdı.

İraqın Nəcəf şəhərindəki kitabxananın fondu 40 min kitabdan çox idi. Ərəbistan yarımadasının cənubundakı Müəyyədilər kitabxanasında 100 mindən çox, İrandakı Marağa kitabxanasında 400 mindən çox kitab var idi. O zaman dünyadakı ən böyük kitabxana isə Qahirədəki"Əziz "kitabxanası idi.Burada 1 milyon 600 yüz min kitab,o cümlədən riyaziyyata aid 6500, fəlsəfəyə aid 1800 kitab mühafizə olunurdu.

Holland alimi Dauzi qeyd edir ki, müsəlman əhali yazmağı,oxumağı bacarırdı. Halbuki o zaman kilsə xadimlərinin çox az hissəsi yaza bilirdi.Həmin alim əlavə edir:"Bu çiçəklənən sivilizasiya qərbdəki kilsə xadimlərini,sadə xristianları özünə cəlb edirdi.Onlar maneəsiz surətdə Kordova, Sevilya, Toledo kimi şəhərlərə gedir, buradakı müsəlman Universitetlərində məşhur ilahiyyatçıların mühazirələrini dinləyirdilər.

Müsəlman alimlərinin ən şox məşğul olduğu elm sahələrindən biri də astronomiya elmi idi.Həmin elm ocaqlarında qazanılan nailiyyətlər elm sahəsinə əsrlərlə bələdçilik etmişdir.

Məşhur alim Biruni (973-1048) dünyada ilk dəfə Yerin öz oxu və günəş ətrafında fırlanması ideyasını irəli sürmüşdür.Biruni Yerin çevrəsinin uzunluğunu Eratosfendən və bir sıra özündən əvvəlki müsəlman alimlərindən daha dəqiq hesablamışdı. Biruni 18 kimyəvi maddənin xüsusi çəkisini hesablamış, suyun sıxlığını hesablamağa nail olmuşdu.

Bu sahə üzrə Azərbaycan alimi N.Tusi"Kitab şəkil dita"(1201-1274)əsərini yazmışdı.Şərqin ən böyük rəsədxanası Azərbaycanın cənubundakı Marağa şəhərində yerləşir.Abbasilərin hakimiyyəti dövründə İslam elminin bütün sahələri inkişaf edərək bütün dünyanı əhatə etmişdi.(İslam tarixi 2-3- hissə Natiq Rəhimov)

QURANİ-KƏRİMDƏ HARAM AYLAR HAQQINDA

Haram aylar haqqında Qurani-Kərimdə belə buyurulmuşdur:

ət-Tovbə-36-Həqiqətən, Allah yanında ayların sayı göyləri və yeri yaratdığı gündən bəri Allahın Kitabında 12-dir. Bunlarda 4-ü haram (Rəcəb, Zilqədə, Zilhiccə və Məhərrəm) aylardır. Bu, doğru dindir,İbrahim və İsmailin gətirdikləri dinin doğru hesabı və hökmüdür. Ona görə də həmin aylarda özünüzə zülm etməyin.

əl-Bəqərə-217-Səndən haram ayda müharibə etmək barədə soruşurlar. De ki,"O ayda müharibə etmək böyük günahdır.Amma insanları haqq yolundan qovmaq, Məscidul-Hərama girməyə mane olmaq və oradakıları kənara çıxarmaq Allah yanında daha günahdır. Fitnəkarlıq, adam öldürmək daha böyük günahdır.

Rəcəb ayı haqqında:Rəcəb həm haram aylardan,həm də mübarək aylardan biridir.Bu ayın da müəyyən gecələri var ki, Allah tərəfindən şərafətli adlanıb və müəyyən ibadət əməlləri vardır.Bu ay şərafətli və mübarək aylardan biri kimi Allahın öz ayı adlanır.

Rəcəb ayının 1-ci gecəsi şərafətli gecələrdən biridir, o gecənin özünəməxsus əməlləri vardır.Bu gecələrin öz namazı, zikrləri vardır və bu günlər qüsl edib, oruc tutmaq günahların bağışlanması üçün yaxşıdır.

Rəcəb ayının ilk cümə gecəsi də müqəddəs gecələrdən hesab edilir. O gün də qüsl etmək, oruc tutmaq savabdır. Bu gecənin də öz namazı və oxunan duaları vardır.

Rəcəb ayının 13-cü günü Hz.Əli Kəbə evində dünyaya gələn günüdür. Bu günün də öz namaz və ibadətləri vardır.

Rəcəb ayının 27-ci gecəsi Peyğəmbərliyə məbəs olan və Hz.Cəbrailin ona nazil olan günüdür. Bu gün də qüsl etmək, oruc tutmaq buyurulub və bu gündə tutulan oruc 70 ilin orucuna bərabərdir. Ümumiyyətlə, bu ayın

bütün günləri və gecələri bizim özümüz üçün,günahlarımızın tökülməsi və bağışlanmağımız üçün Allah tərəfindən bizə verilən fürsətdir.

Zilqədə ayı haqqında:-Uca Allahın Quranda buyurduğu haram aylardan biridir.

Seyyid ibni Tavusun nəql etdiyi rəvayətdə,bu ay duaların qəbul olunduğu ay kimi tanınmışdır. Peyğəmbərimizdən bu ayın bazar günündə böyük fəzilətə malik namaz rəvayət olunmuşdur. O namazı qılan şəxsin tövbəsi qəbul olar və günahları bağışlanar Dünyadan iman ilə köçər və qəbri nurlu olar.Allahın məğfirəti onun valideyn və övladlarına nəsib olar.

Zilqədənin 15-ci günü ibadət və hacət gecəsidir. Zilqədənin 25-ci gecəsi mübarək gecələrdəndir ki, Allahın rəhmət və məğfirəti nazil olar. Zilqədənin 25-ci günü isə Dəhvul-ərz günüdür və bu, il boyu tutulan orucun fəziləti ilə seçilən dörd gündən biridir. Bu günün ibadəti, orucu, istiğfarı (tövbəsi) Allah dərgahında qəbul olunar. Bir sözlə, Allah dərgahında sirləri bizə məlum olmayan, ancaq bizim üçün haram buyurulub və Allah tərəfindən ibadət və itaətə çağırılan bu ayların,yəqin ki, Allah dərgahında bir hikməti vardır.

Zilhiccə ayı haqqında:Bu ayın ilk 10 günü ayın ən fəzilətli günlərindəndir və bu günlərdə edilən ibadət və xeyir işlər Allah yanında sevimlidir. Qurani-Kərimdə Zilhiccə ayının ilk 10 günü haqqında belə buyurulur:

Fərəc-4-ayəsində And olsun sübhə ki, o zaman gözəl zamandır! Yaxud Zilhiccə ayının, ya bayram gününün sübhünə and olsun!And olsun o gecəyə, (Zilhiccə ayının əvvəlinə, 10 günə) And olsun cüt və təkə ki, Allah yaratmışdır.And olsun qaranlığı qurtarıb,sübhün işığı gələn zaman tamamlanan gecəyə!Deyilən bu andlarda ağıl sahibləri Allahın qüdrəti,qüvvəsi və onun qəribəlikləri haqda düşünər.

Peyğəmbərimiz öz hədislərində belə buyurmuşdur:"Bu günlərdə edilən ibadətlər saleh əməllər, malı və əməli ilə edilən ibadətlər, Allah yolundakı cihada bərabərdir."

Çox təəssüf ki, ictimaiyyətimiz mənəviyyatımıza zidd olan, fəsadlarla dolu bayramları qeyd edirlər,lakin Allahın bizə bəxş etdiyi mübarək günlər barəsində məlumatlara sahib deyillər. Həqiqətən, biz yaranışdan günahlara meyilliyik. Allah-taala insanları günahlardan təmizləmək və tövbə etmələri üçün müəyyən məqamlar, günlər ayırmışdır.Bunlardan Ramazan ayı, Zilhiccə ayının mübarək 10 günü və sair bu kimi günləri göstərmək olar ki, bunlar bizlər üçün bir fürsət və hədiyyədir.

Yaradılmışlar arasında nəyi isə seçmək,üstün etmək Allahın qanun-

larındandır. Məsələn,insanlar arasında Peyğəmbərlər seçməklə, digər insanlardan üstün etmiş,məkan baxımından Məkkə Mədinəni bütün məkanlardan, zaman baxımından Ramazan ayını digər aylardan üstün etmiş, gecələr içərisində qədr gecələrini digər gecələrdən üstün etmişdir. Hətta Peyğəmbərləri də dərəcələrinə görə birini- digərindən üstün etmişdir. Bu haqda Qurani-Kərimdə belə buyurulur:

əl-Bəqərə-253-Allah belə buyurur:"Bunlar Peyğəmbərlərdir. Bəzisini bəzisindən üstün etmişik. Onların içində eləsi vardır ki, Allah onunla bilavasitə danışdı. Musa ilə Turi-Sinada, Muhəmməd ilə Merac gecəsində. Bəzisinin dərəcəsini uca etdi, başqa Peyğəmbərlərə vermədiyi fəziləti ona verdi, Muhəmməd Peyğəmbər kimi. Biz Məryəm oğlu İsaya ölü diriltmək, xəstələrə şəfa vermək kimi möcüzələr verdik və onu pak ruh ilə,Cəbrail ilə qüvvətləndirdik."

Zilhəccənin 10 günü də seçilmiş günlərdəndir və bu da Allahın şənindəndir.

Məhərrəm ayı haqqında:Qəməri təqviminin adından göründüyü kimi, Ayın hərəkəti əsas götürülərək tətbiq olunmuş təqvimdir. 622-ci ildə Peyğəmbər Məkkədən Mədinəyə hicrət etmişdir. Bununla əlaqədar olaraq bu təqvimə Hicri-qəməri adı verilmişdir. Məhərrəm ayı Hicri-qəməri tarixinin ilk ayı və haram aylardan biridir. Bu ay böyük və əzəmətli aydır.Allah seçdiyi bu ayları öz fəzilət və ehsanı ilə şərəfləndirib, insanların da bu aylara hörmət bəsləməsini istəmişdir. Buna müvafiq olaraq, Allah, bu ayların hörmətini qoruyacaq hökmlər endirmişdir. Məsələn, bu aylarda müharibə edib qan tökmək haram buyurulmuşdur.Bu aylarda çoxlu Allaha yalvarmaq, günahlarımızı istiğfar etmək, bir-birimizə qayğı göstərmək, ehsan etmək və Allahın bütün yaratdıqlarını sevib, candildən Allahdan başqa heç bir Allahın olmadığını qəlblə təsdiq etmək buyurulmuşdur.

Məhərrəm ayının 10-cu günü başqa Peyğəmbərlər tərəfindən də ehtiram və hörmətlə qarşılanmışdır və bu gündə xüsusi mərasimlər keçirilmişdir. Ərəblər İslamdan əvvəl cahiliyyət dövründə bu günü oruc tutar və Kəbə evinin örtüyünə təzim göstərib dəyişərdilər. Belə ehtimal olunurdu ki, bu adət İbrahim Peyğəmbər kimi keçmiş Peyğəmbərlərin şəriətindən gəlmişdi.

Buxari və Müslim ibn Abbasdan belə rəvayət edir ki, Rəsulullah Aşura günündə oruc tutub və səhabələrinə də buna əmr etdiyi zaman dedilər ki,"Ya Rəsulullah, bu günü yəhudilər və nəsranilər ehtiram edib oruc tuturlar".Buzaman Rəsulullah buyurur:-"Gələn il Məhərrəmin 9-cu və 10-cu günlərində də oruc tutarıq."

Alimlər bu günü xristianların da qeyd etməsini Hz. İsanın şəriətində, Hz.Musadan qalan bu ibadətin qadağan edilməməsi ilə izah edirlər. Yəni bu gündə həm yəhudilər, həm də xristianlar oruc tuturlarmış.

Peyğəmbərimiz də bu ayın 9-cu və 10-cu günündə oruc tutmağı bizlərə müstəhəb buyurmuşdur.(Müslim) ibn Abbasdan belə buyurur ki,Peyğəmbərimiz bu oruc haqqında belə buyurmuşdur:-"Bu oruc keçmiş ilin günahına kəffarədir."

Ümumiyyətlə, Məhərrəmin 10-cu günü ilə əlaqədər tarixdə bu gündə baş vermiş hadisələr haqqında çoxlu məlumatlar qeyd edilmişdir. Bunlardan ən müdhişi isə Aşura günü baş vermiş Kərbəla faciəsidir ki,bütün tarixin məcrasına təsir etmişdir. Çünki bu faciə Peyğəmbərimizin öz nəvəsi haqqında**"Hüseyn məndəndir,mən də Hüseyndənəm","Kim Hüseyni sevərsə, Allah da onu sevər,**"**deyib əzizlədiyi istəkli nəvəsi İmam Hüseynin başına gətirilmişdir.Hətta Quranda buyurulmuş bu ayəni"-Ya Rəsulullah! De:- Mən sizdən bütün risalətin müqabilində Əhli-beytimə məhəbbətdən başqa bir şey istəmirəm(Şura-23)-**deyib,buyurulduğuna baxmayaraq, təəssüf ki, həmin insanlar əmanətə xəyanət etmişlər.Bu insanlar tərəfindən Peyğəmbərin nəvəsi öz doğmaları ilə birlikdə,vəhşicəsinə qətlə yetirilmişdir.

Hicrətin 61-ci ili Mühərrəm ayının onu, cümə günündə baş verən qanlı hadisə bu günə qədər İslam dünyasına öz təsirini göstərməkdədir. Həmçinin bu aylar bizim bu dünyadakı sınağımız, sınaqdan üzüağ çıxsaq, axirətdəki Cənnəti- məkanımızdır.

Lakin indi hegemon dövlətlərin müsəlman dövlətlərinə qarşı apardıqları siyasətin çox gücləndiyi bir dövrdə İslam dinini,onun mədəni, ali,ən sonuncu və kainatın dini olduğunu,olduğu kimi təqdim etmək çox mühümdür. Həmçinin, Allahın bizlərə verdiyi bütün nemətlərlə yanaşı,bəxş etdiyi müqəddəs Kitabın, müqəddəs ayların, zəngin vətənin və gözəl insanların dəyər-qiymətini bilib, Allaha şükür edək. Bu nemətlərin qədrini bilib, əzizləyərək,yüz əllə, dişimiz-dırnağımızla bərk-bərk yapışaraq, itirməməyə çalışaq.Çünki tarix təkrar olunur və ya "Səlib yürüşü" (1054-1271)"adlı mübarizə hələ də davam edir, fərq yalnız yürüdülən siyasət və üsuldadır. Bəlkədə bu siyasət bütün İslam dünyası məhv edərək,yalnız batil, yalançı inancların bütün dünyanı tutması, yəni,Fironluq ideyasıdır.Lakin Fironun aqibəti də hamıya məlumdur.

XAÇ-SƏLİB YÜRÜŞÜ HAQQINDA QISA MƏLUMAT

Səlib yürüşləri fasilələrlə 1096-1270 illərdə olmuşdur. 8 xaç yürüşü təşkil edilmişdir. 1095-ildə Fransanın Klermo şəhəri yaxınlığındakı

düzdə xalq yığıncağında Roma papası II Urban nitq söylədi.O xalqı qılınca qurşanmağa,İsanın qəbrini kafirlərdən (müsəlmanlardan) xilas etməyə çağırdı. Xristian rəvayətinə görə Hz.İsa Fələstində Qüds şəhərində (Yerusəlimdə) dəfn olunmuşdu. Papa vəd edirdi ki, günahkarların bütün günahı bağışlanacaq. Əsas səbəb isə İslam dövlətlərinin sürətlə inkişafı, elmin bütün sahələrində onların yüksək nailiyyətləri və bütün dünyanı fəth edən İslam mədəniyyəti idi.

Çoxları"Müqəddəs torpağı"azad etməyə hazır olduqlarını bildirdilər. Paltarlarına qırmızı parçadan xaç tikdilər.Şərqə yürüş edənləri səlibçilər, yürüşü isə Səlib yürüşü adlandırdılar. Səlib müharibəsinin səbəbi:XI əsrin sonunda Avropada quraqlıq və aclıq,cahillik, çirkinlik, elmsizlik və feodalların varlanmaq hərisliyi, torpaqsız cəngavərlərin olması, ruhanilərin yeni torpaqlar ələ keçirmək istəyi idi. Avropada güman edirdilər ki, Səlcuq imperiyası dağıldığına görə oranı tutmaq asan olar.

I Səlib müharibəsi 1096-cı ilin yazında başlandı. Bu müharibədə yoxsul kəndlilər iştirak edirdilər.Bizans imperatoru onları Kiçik Asiyaya keçirdi. Səlcuqlar səlibçiləri qılıncdan keçirdilər. I Xaç Yürüşü-1096-1099- Şərqdə xristian dövlətləri yarandı.

II Xaç Yürüşü-1147-1149-Alman səlibçiləri səlcuqlar tərəfindən darmadağın edildi. Fransız cəngavərlərinin Dəməşqi ələ keçirmək istəyi baş tutmadı.

III Xaç Yürüşü-1189-1192 -Akra şəhəri işğal olundu və Qüds krallığının paytaxtına çevrildi.

IV Xaç Yürüşü-1202-1204-Konstantinopol işğal olundu və Bizans İmperiyası süqut etdi. Onun yerinə Latın İmperiyası yaradıldı.

V Xaç Yürüşü-1217-1221-Alman, ingilis,holland və macar cəngavərləri Misir sərhədində olan Damyetta qalasını tuta bildilər. Lakin sonra daxili çəkişmələr hərbi uğursuzluğa səbəb oldu.

VI Xaç Yürüşü-1228-1229-Alman imperatoru II Fridrix Misir sultanı ilə müqavilə bağladı. Buna görə o, Qüdsü və Fələstinin bir sıra şəhərlərini ələ keçirdi. Lakin 1244-cü ildə müsəlmanlar Qüdsü geri qaytardılar.

VII Xaç Yürüşü-1248-1254 -Fransa kralı IX Lüdovikin başçılıq etdiyi səfər Misirə yönəldilmişdi,lakin tam uğursuzluqla başa çatdı.

VIII Xaç Yürüşü-1270 -IX Lüdovikin başçılıq etdiyi səfər bu dəfə Tunisə yönəldilmişdi. Sahilə çıxdıqdan az sonra ordu arasında xəstəlik yayıldı. Kral özü də xəstəlikdən vəfat etdi.Səlibçilər qarşılarında rəqib kimi yalnız türkləri görürdülər. Xaçlılara qarşı böyük müvəffəqiyyət qazanmış sultanlar,həmçinin onların müzəffər, qüdrətli orduları da yal-

nız türklərdən ibarət idi.Bunlar Nurəddin Zəngin, Səlahəddin Əyyub, I Qılıc Arslan kimi sərkərdələr idi. Böyük tarixçi Ravəndi bu həqiqəti belə ifadə edir.

"Ərəbin,əcəmin, rumun torpağında söz haqqı türklərə məxsusdur. Onların qılınclarının qorxusu bütün İslam düşmənlərinin ürəyində möhkəm yaşayır."

Səlib yürüşü Avropaya bir çox yeniliklər gətirdi. İnsanlar gigiyenaya riayət etməyə, müntəzəm surətdə çimməyə, şəkərdən istifadə etməyə,ipək paltarlar geyməyə, ipək xalılardan istifadəyə, çini qablar, şüşə məmulatları, müxtəlif ədviyyatlar işlətməyə başladılar. Xaçlı səfərləri memarlığı da əhəmiyyətli surətdə dəyişdirdi. Qəsrlərdə gizli yollar, müdafiə qüllələri və başqa yeniliklər Avropada yayılmağa başladı. Adı çəkilən dövrdə Qərbin daxilində də xeyli yeniliklər oldu, Bank sistemi inkişaf etdi, ədəbiyyat yeni mərhələyə qədəm qoydu, habelə qeyd etmək lazımdır ki, sonradan Renessans adını alacaq güclü ədəbi hərəkatın məhz həmin dövrdə ilk işartıları görünməyə başlamışdı. İctimai həyatda da mühüm dəyişikliklər yaşandı. Şəhərlər müstəqillik qazandı, feodal əsarətinə qarşı etiraz səsləri ucalmağa başladı.

Son olaraq onu demək olar ki, Səlib yürüşləri Avropa üçün mühüm ictimai-siyasi, həm də mədəni hadisə oldu. Bu, Qərbin yeni ticarət yolları axtarmaq cəhdlərindən biri idi. Daha sonra onlar bu məqsəd naminə dəniz yollarını inkişaf etdirəcək və başqa qitələrə də gedəcəkdilər. Əgər belə demək mümkündürsə, Xaçlı yürüşləri Qərbin daha sonrakı əsrlərdə aparacağı kolonial müharibələrdən ilki idi. İlk cəhd uğurlu alınmadı, lakin bu proses davam etdirildi və nəticədə Avropa inkişaf yoluna qədəm qoyaraq başqa regionları geridə qoydu.

Müasir dövrümüzdəki Masonluğun tarixini araşdıran ekspertlərin əksəriyyətinin fikrincə, onun kökü Səlib yürüşlərinə qədər gedib çıxır. Düzdür,massonluq rəsmən 18-ci əsrin əvvəllərində İngiltərədə qurulub, amma əslində onun gizli tərəfləri dediyimiz kimi 12-ci əsrə gedib çıxır. Həmin dövrdə masonluğun yaranmasında "Tampliyerlər ordeni" adlandırılan Cəngavərlər qurumunun böyük rolu olub.

"Yeni Masonluq sistemi"adlı kitabda Tampliyerlərin tarixi, masonluğun mahiyyətini,dünyaya göstərdiyi təsiri dahà dərindən araşdırılaraq,"Qlobal Masonluğ"un nə olduğu ortaya çıxarılır.

MƏZHƏBLƏRİN YARANMA SƏBƏBLƏRİ

Bütün dinlər, məktəblər və etiqadi-ayinlər daim öz inkişaf yolunda bir neçə firqəyə, məzhəbə bölünmüşdür. Bunun da bir neçə səbəbləri vardır:

1-ci Bəşər əndişəsinin xüsusiyyətləri: Yəni, insanlar hər bir fikri və nəzəri məsələ barədə dərindən düşündükdə müxtəlif nəticələr əldə edirlər və bu zaman müxtəlif nəzəriyyə və fikirlər meydana çıxır.

Dini-nəzəri prinsiplər nə qədər çox və rəngarəng olsalar, bir-birindən fərqli olan təhlillərin yaranması üçün meydan daha da genişlənir.Buna görə də insanların hamısı bir növ özlərinə haqq verir ki,dini əsaslar və prinsiplər barədə nəzəriyyə irəli sürüb onları təhlil etsinlər. Buna görə də ixtilaf və çəkişmələrin, eləcə də qarşıdurma və cəbhələşmənin qarşısını almaq mümkün deyildir.

2-ci İctimai dəyişiklik:-Məlum olduğu kimi, cəmiyyət daim dəyişiklik və inkişafdadır. Bəşər həyatında vaxtaşırı yeni ictimai şəraitlər əmələ gəlir.

İctimai dəyişikliklər də dini ayinlərə,etiqad və inanclara yeni-dən baxılmaq zərurətini yaradır.Belə bir prosesdə alimlər və ideoloqlar din barəsində yeni-yeni təhlil və təfsirlər çıxararaq, etiqadi- ayinləri yeni ictimai şəraitlə uyğunlaşdırmağa çalışırlar. Bununla da öz məktəblərinin ümumbəşəri tərəqqidən geri qalmamasını istəyirlər. Sonra isə özləri əqidə üsullarının dövri tələbata cavab vermədiyini gördükdə,başqa sözlə desək, bu ayinlərin öz ardıcıllarının səadət və xoşbəxtliyini təmin etmədiyini müşahidə etdikdə,öz din və məktəbləri barədə yeni-yeni təhlillər təqdim etməyə başlayırlar.Bu da, adətən, yeni nəzəriyyənin meydana gəlməsi və nəhayət, məzhəb və firqənin yaradılması ilə nəticələnir.

3-cü Şəxsi mənafelər və məqsədlər:-Tarix göstərir ki, xalqın dini etiqadları daimi olaraq qüdrət və sərvət sahibləri tərəfindən sui-istifadələrə məruz qalmış, qazanc axtaranların əlində bir alət kimi istifadə edilmişdir.

Dinin bünövrəsi qoyulduğu zaman,qüdrət sahibləri Peyğəmbərlərin dəvətinin qarşısını almaq üçün apardıqları mübarizənin müsbət nəticə vermədiyini gördükdə, öz həqiqi niyyətlərini dindarlıq pərdəsi altında gizlədərək, dini ayinləri daxildən təhrif edərək gözdən salmağa çalışmışlar.Onlar məkrli planlarla dini qanunları ürəkləri istəyən kimi təfsir və təhlil etmiş, səmavi əqidələri ləkələmək üçün səy göstərmişlər. Şəxsi, qövmi, yaxud sinfi mənafelər xatirinə həqiqi dinləri dəyişdirib, onları öz bildiyi kimi izah edən şəxslərdən əlavə,həmin hədəflə din və məzhəb yaratmağa çalışan başqa qruplar da vardır. Bunlardan biri də dünya ağalığına can atan imperialist və istismarçı qüvvələrdir.Onlar tarix boyu insanları əsarət altına almaq,onların var-dövlət və sərvətlərini qarət etmək üçün camaatın məlumatsızlığından və sadəlövhlüyündən

istifadə edərək, onları özlərinin quraşdırdığı saxta etiqadlara doğru sövq etdirmişlər.

4-cü-Azğınlığın yeni cilvəsi. Dinin təsis olunduğu vaxtdan uzun müddət keçdikdən, habelə din barəsində müxtəlif təfsir və nəzərlər irəli sürüldükdən sonra ictimai dəyişikliklərin doğurduğu zərurət dinə yenidən baxış üçün şərait yaradır. Din alimləri və dindarlar mövcud təfsirlərə şəkk-şübhə ilə yanaşaraq, dini məsələlərdə təhrif və azğınlıqların baş verməsi ehtimalını bəhanə edərək,dində islahat aparılmasını istəmişlər.

MƏZHƏBLƏR HAQQINDA QISA MƏLUMAT

Məlum olduğu kimi, hal-hazırda müsəlman dünyasında 5 əsas şəriət məktəbi-məzhəb mövcuddur:-cəfərilik, hənəfilik, şafiilik, hənbəlilik və malikilik.Dünya müsəlmanlarının hamısı şəriət hökmlərində bu məzhəblərdən birinə tabe dirlər. Artıq coğrafi regionlar və bütöv dövlətlər belə hər hansı məzhəb baxımından müəyyənləşmişlər. Məsələn,ən yaxın qonşularımız olan Türkiyədə hənəfilik, İranda cəfərilik, şimal-qərbi Afrika ölkələrində maliki, Misirdə şafii məzhəbi geniş yayılmışdır.

1.Cəfəri məzhəbi 6-cı İmam Cəfəri Sadiq tərəfindən sistemləşdirilmişdir. Əslində, bu məzhəbin bütün qanunları Hz. Muhəmməd Peyğəmbərin zəmanəsindəki şəriət qanunları ilə eynidir. Çünki Cəfəri Sadiq (ə.s.) öz ata və babalarının, şəxsən Həzrət Peyğəmbər tərəfindən müəyyən olunmuş şəriət qanunları ilə yaşayıb və özündən sonra gələn nəsillərə də bunları vəsiyyət etmişdir. Imam Cəfəri Sadiqdən nəql olunur ki, Peyğəmbərimiz (s.ə.s.) İslamı ilk qəbul edən kişi Hz. Əliyə, qızı Fatimeyi Zəhraya və nəvələrinə onun dini və şəriət qanunlarını və namaz qaydaları öyrədib, necə vəsiyyət etmişdirsə, onlar da həmin vəsiyyəti nəsildən-nəslə ötürərək olduğu kimi yaşatmışlar. Həmçinin Peyğəmbərin və onun on bir övladının qıldığı namaz və dini qanunlar onların tərəfdarları tərəfindən davam etdirilir.

Əslində şiə məzhəbi Əli ibn Əbu Talibin dövründə yaranmışdır. Peyğəmbər axırıncı Həcc ziyarətindən döndüyü zaman, Allahdan ona gələn vəhy səbəbi ilə Hz. Əlini özündən sonra Əmirəl-möminin, xəlifə seçir və bütün Hacıların Hz.Əliyə beyət etməsini əmr edir. Hacıların hamısı bir nəfər kimi ona beyət edərək onun xəlifəliyini qəbul edirlər.

Peyğəmbərin vəfatından sonra onun vəsiyyətinin əshabələri tərəfindən yerinə yetirilməməsi, yəni Qədir-Xum çölündə verdikləri əhddən dönmələri idi. Onlar bu beyəti pozub"Şura"adlı yığıncaq düzəldərək

Əbu-Bəkri xəlifə seçirlər.Bununla da ərəb ümməti arasında ixtilaf əmələ gələrək,"Cəmaət"və"Şiə" adlanan iki hissəyə bölünürlər. Bu hərəkat "Cəməl"və"Süffeyn"döyüşündən sonra daha da güclənmişdir. Bundan sonra Hz.Əliyə sədaqətli olanlar onun tərəfində qalaraq, şiə məzhəbini yaradırlar.Yəni Peyğəmbərin əmr və göstərişlərini yerinə yetirərək, onun seçdiyi insanın tərəfində olurlar.

Burada qeyd etmək lazımdır ki,İmam Cəfəri Sadiq, həqiqətən,

12 imam şiəliyinə yeni həyat vermiş, onu zəmanənin sınaqlarına, düşmənlərin hücumlarına və sair məzhəblərin rəqabətinə tam ləyaqətlə dözə biləcək hala gətirmişdi.

O Həzrətin Mədinədə təşkil etdiyi dərslərdə 4000 nəfərdən artıq tələbə iştirak edirdi. Əhli-sünnənin məzhəb başçıları Əbu Hənəfi və Malik ibn Ənəs də İmam Sadiqdən dərs almışlar. İmamın tələ bələri yer üzünə yayılaraq, Cəfəri məzhəbinin əqidə əsaslarını yaşatmışlar.

Bütün dünyada əsil İslam dinindən olan aqil və alim insanlar təriqətindən asılı olmayaraq həqiqəti görür, İslam Peyğəmbərini onun övladları ilə birlikdə sevib, onlara dəyər verərək, yaşayırlar.

2.Əzəm Əbu Hənəfi:-Adı Numandır. Atasının adi Sabitdir.

Hicrətin 80-cı ilində Kufədə doğulmuşdur və Hicrətin 150-ci ilində Bağdadda vəfat etmişdir.

Hənəfinin atası Sabit İmam Hz. Əlinin xidmətində olmuş və öz nəsli üçün onun duasını almışdır.Əzəmin atası rəhmətə gedəndən sonra, anası imam Cəfəri Sadiq ilə evlənmişdir. Əzəm də bu möhtərəm insanın yanında yetişmişdir. Əhli-Beytdən olan bir çox İmamları görmək şərəfinə nail olmuşdur və onlardan İslam dinini mükəmməl öyrənib müctəhid dərəcəsinə yetişmişdir.

Müctəhid Əzəm öz məzhəbini,Hənəfiyyə məzhəbini yaratmış və halhazırda dünya müsəlmanlarının böyük bir hissəsi bu məzhəbdəndirlər.

Əbu Hənəfi yaşadığı dövrdə hakimiyyətdə olan əvvəl Əməvi xəlifəsi Mərvan ilə, sonra isə Abbasi xəlifəsi Mənsur ilə (ona vəzifə təklif etsələr də) daima müxalifətdə olmuşdur.Bunun əsas səbəbi xəlifələrin Peyğəmbər övladlarına olan münasibəti idi.Hənəfi Zeyd-şəhidin və Həfsüz-Zəkiyyənin qiyamlarını dəstəkləyir və hakimiyyətin Əli (ə.s.) övladına məxsusluğunu müdafiə edirdi. Buna görə də bəzi tədqiqatçılar onun əslində zeyd (şiə-məzhəbinin bir qolu)məzhəbindən olduğunu ehtimal edirlər. Hənəfinin şəxsən qələmə aldığı əsərlər günümüzə qədər gəlib çatmamışdır.Ona aid kitablar şagirdləri tərəfindən tərtib edilmişdir.Bunlar:-"əl-Fiqh-ül-əbsət", əl-Alim-vəl-mütəəlim" və sairə kitablardır.

3.Malik ibn Ənəs:-Hədis alimləri sırasında adı çəkilən bu şəxs Yəməndən idi. Atası Yəmən hakimiyyətinin zülmündən Mədinəyə köçmüş və Qüreyşə mənsub Bəni-Teym qəbiləsi ilə qohum olmuşdu.

Malik ibn Ənəs Hicrətin 93-cü ilində Mədinədə doğulmuş və Hicrətin 179-cu ilində Mədinədə vəfat etmişdir.

Malik fiqh elmini məşhur Mədinə fəqihi Rəbiət Ürrəydən öyrənmişdi. Rəvayətə görə nə zaman hədis söyləmək istəsəydi,dəstəmaz alıb,ətir vurar, saç-saqqalını darayıb vüqarla minbərdə oturardı. Özünün söylədiyinə görə 70 nəfər böyük alimdən icazə aldıqdan sonra müəllimlik fəaliyyətinə başlamışdır.

Malik inb Ənəs öz məzhəbini qurarkən həm hədis əhlinin, həm də rəy əhlinin görüşlərini ümumiləşdirərək,orta bir yol tutdu. Maliki məzhəbində Quran, sünnə və səhabələrin dedikləri ilə yanaşı, Mədinə alimlərinin fikri də əsas sayılır. Çünki bu məzhəbə görə Mədinə alimləri bir məsələ barədə yekdil fikirdədirlərsə, səhv ola bilməz.

Özünün qələmə aldığı əsər"Müvətta"adlı hədis kitabıdır.İkinci kitabı isə tələbələri tərəfindən qələmə alınmış"Əl-Müdəvvənət-ül-kübra"adlı fiqh kitabıdır.

4.Əbu Abdullah Muhəmməd,ibn İdris Mütəllibi Şafii:

Hicri 150, Miladi 767-ci ildə Fələstin bölgəsində Qəzzə məntəqəsində doğulmuşdur. Rəvayətə görə Şafiinin təvəllüdü Əbu Hənəfinin vəfat gecəsinə təsadüf etmişdir. Şafii Qüreyş tayfasından,Bəni Haşimdən idi. Ulu babası Şafii Muhəmməd Peyğəmbərin (s.ə.s.) səhabəsi olmuşdur.

Şafii uşaq ikən atasını itirmiş, min bir əziyyətlə böyümüdür. İbtidai təhsil aldıqdan sonra Məkkəyə getmiş, orada ərəb dilinin gözəlliklərini öyrənmişdir.O sonra Mədinəyə getmiş,burada Şeybanidən hədis dərsi alır, sonra isə Malik ibn Ənəsdən dərs alır. Şafii həm elmdə, həm də əməldə öncül idi. Şeir, dilçilik və tarixdə məharət sahibi kimi seçilir, zahidanə həyat tərzi keçirirdi.Şafii bir müddət Yəmənin Həcran bölgəsinin qazisi olmuş, lakin az sonra Əli (ə.s.) övladına mehriban münasibətinə görə,şiəlikdə təqsirli bilinib, Harun Rəşid tərəfindən vəzifədən kənar edilmişdir. İmam Şafinin məzhəbi hədis əhli ilə rəy əhli arasında orta mövqeyə malikdir. Bunu Şafiinin Mədinədə Malik ibn Ənəsdən, Bağdadda Həsən Şeybədən dərs alması ilə izah edirlər.

Şafii Quranla sünnəni eyni dərəcədə mötəbər sayırdı.O, Əhli-Beytə böyük məhəbbət bəsləyirdi. O öz şeirləri ilə bu məhəbbəti tərənnüm edirdi. Onu rafiçilikdə (şiələri-"dindən çıxmış"mənasını verən bu adla çağırırdılar)günahkar bilənlərə müraciət edərək deyirdi:

Əgər Ali Muhəmmədi sevmək dindən çıxmaqdırsa,

Şahid olun ki, mən dindən çıxmışların ən azğınıyam!

Şafiinin bu beyti isə Hz.Əliyə münasibətdə ifrat həddə çatan sevgisini aşkara çıxarır:

Şafii elə bir halda öldükü bilmədi:

Onun rəbbi Əlidir, yoxsa Allah?!

Şafiinin 100 adda əsərləri olmuşdur.Bunlardan:-"Ehkam-ül-Quran", "İxtilaf-ül-hədis","Üsul-ül-fiqh"və sair kitabları toplanmışdır.

Şafii hicri 204-cü ildə (miladı-819-820) 54 yaşında Misirdə vəfat etmişdir.

5-İbn Hənbəl kimi tanınan Əbu Abdullah Əhməd ibn Muhəmməd ibn Hənbəl Şeybani Hicri 164-cü ildə(miladi-780-781) Bağdadda dünyaya gəlmişdir. Valideynləri Bəni Şeyban qəbiləsindən idilər. Əhməd ibn Hənbəlin Mərvdə doğulduğu, lap kiçik yaşlarından ailəsi ilə birlikdə Bağdada gəldiyi də ehtimal olunur.

Əhməd ibn Hənbəl kiçik yaşlarından atasını itirir.Əvvəlcə Bağdadda Əbu Yusifdən dərs alır, sonra isə Məkkə, Mədinə, Kufə, Bəsrə və Misir bölgələrinə səfərlər edib, böyük hədis alimləri ilə görüşür. Onun Hicaz bölgəsinə səfəri zamanı İmam Şafii ilə görüşü ona böyük təsir göstərir.

Əhməd ibn Hənbəl həm hədisçilik, həm də fiqh elmlərində bacarıq sahibi idi. İbn Hənbəl Quranın qədim, əzəli olduğuna inandığı üçün o dövrün xəlifələri olan Məmun və Mötəsimin təzyiqlərinə məruz qalmışdır. Onu Quranın sonradan yaranma olduğunu söyləməyə məcbur etmək üçün həbsə atmış və incitmişdilər.

Lakin o, öz əqidəsindən ömrünün sonuna qədər əl çəkməmişdir. O, hicrətin 241-ci ilində Bağdadda vəfat etmişdir.

Hənbəli fiqhi hədislərə böyük önəm verməsi ilə fərqlənir.Bu məzhəbdə hər hansı bir məsələ barədə Quran və sünnədən qəti hökm tapmayanda, səhabələrin fətvalarına əməl edirlər. Bu məzhəb onun oğulları Əbül-Fəzl Saleh və Əbu Əbdürrəhman tərəfindən davam etdirilmlşdir.

Bu təriqətlər haqqında qısa məlumatdan sonra məlum olur ki, bütün bu təriqətlərin təməl-bünövrəsinin əsasını qoyan insanların elminin mənbəyi yenə də Peyğəmbərimizin övladları, imamlarımız olmuşlar və onlar imamlarımızı hədsiz sevmişlər.

Bu dörd imam Quran və Əhli-Beyti yolu ilə nəql olunan səhih hədislərə və ənənəyə tabe olaraq:Bir evim əhli,həmin evin vəziyyətini daha yaxçı bilər, biz ənənəni Əhli-Beytdən öyrənməliyik,-"demişlər.

HAQQI GÖRƏ BİLMƏK

Açıqlama:Hz.Peyğəmbərin, Hz.Əliyə qarşı olan hədsiz məhəbbəti, hörməti, onu hamıdan əziz tutması, hər işində onunla birlikdə olub onu özündən sonra vəsiy, xəlifə elan etməsi həmişə Hz.Peyğəmbərin ətrafında olan bəzi insanları qısqandırmış və Peyğəmbərimizin vəfatından sonra isə bu açıq-aydın əməli şəkildə özünü büruzə vermişdir. Hətta Peyğəmbərimiz bu məsələ haqqında əvvəlcədən Hz.Əliyə xəbərdarlıq edərək, onun və övladlrının bu yolda çox haqsızlıq və müsibətlərlə rastlaşacaqlarını bildirmişdir.

Qeyd edildiyi kimi tarix boyu Hz.Əliyə qarşı bir çox haqsızlıqlar edilmişdir. İndi qeyd edəcəyimiz bu hadisə isə ona qarşı edilən ən böyük haqsızlıqlardan biri olub, onu insanların gözündən salmaq və hörmətsiz etmək üçün bir bəhanə, bir fürsət olmuşdur.Bu elə bir haqsızlıq idi ki, insanların qəlbinə qara ləkə salaraq,tarixboyu Peyğəmbər övladlarına qarşı şəkk-şübhə yaratmışdır.İkiüzlü,İslamı parça-parça etmək istəyən yalançı, paxıl, qısqanc dindarlar bütün İslam dünyasında Peyğəmbərin əziz övladlarına qarşı insanların məhəbbət və inamını zəiflətmək, qəlblərə vəsvəsə salmaq üçün"Boyük günah"lardan biri hesab edilən bu məsələdən mahircəsinə istifadə etmişlər.

Lakin bu yalnız imanı zəif olan, cahil insanları şübhəyə sala bilərdi. Dinindən və təriqətindən asılı olmayaraq imanı kamil olan, elm verilmiş kəsləri isə aldatmaq qeyri-mümkündür. Çünki bu insanlar elm alıb, bəsirət gözləri ilə haqqı görür və İslamın qüdrətini ucaltmaq,Allahın rizası, Peyğəmbərin razılığını qazanmaqdan başqa, heç bir məkrli niyyət və məqsədləri olmayanlardır.Bu hadisə belə olmuşdur:

Açıqlama: Peyğəmbərimiz Muhəmməd (s.ə.s.) hər səfərə çıxdığı zaman həmişə zövcələrindən birini özü ilə səfərə aparardı. Bir səfərində Peyğəmbər(s.ə.s.) zövcəsi xanım Aişəni özü ilə birlikdə səfərə aparmalı oldu. Səfərdən sonra Mədinəyə qayıtmaq üçün karvan hazırlandığı zaman xanım Aişə bir işdən ötrü çölə çıxır. Qayıtdıqda kəcavəsinə minərkən görür ki, boynunda olan boyunbağısı yoxdur. O həmin yerə qayıdaraq boyunbağını axtardığı zaman karvan,kəcavədə xanım Aişənin olmadığını hiss etmədən yola çıxır (bunu da nəzərə alaq ki, Peyğəmbərimizin bu zövcəsinin yaşı kiçik, özü də incə-zərif idi, bu səbəbdən də kəcavədə olmamasını hiss etməmişdilər). Xanlm Aişə qayıdanda görür ki, karvan artıq köçmüşdür və onun kəcavəsini də aparıblar. O yəqin bilirdi ki,onu axtarmağa gələcəklər. Odur ki, həmin yerdə əyləşib gözləyir. Həmişə karvanın arxasından gələn və geridə qalanları götürən Sərvan Aişəni

görür və onu tanıyaraq bir kəlmə də olsa danışmadan dəvəni yatırdıb, onu mindirərək Mədinəyə çatdırır.Bu hadisə Mədinə əhli arasında söz-söhbətə səbəb olur.

Xanım Aişə nəql edir ki:"-Mədinəyə gəldikdə bir ay xəstə oldum, heç bir şeydən xəbərim yox idi.Təkcə Hz.Peyğəmbərdən həmişəki kimi mehribanlıq görmürdüm. O yalnız daxil olub salam verər və buyurardı:-Əhvalınız necədir? Bu isə məni kədərləndirirdi. Bir gün eşitdim ki, camaat arasında mənim barəmdə bir para sözlər danışırlar. Həzrət mənim evimə gəldikdə dedim:-Ya Rəsulallah! Mənə izin verərsənmi atamın evinə gedim? Fikrim bu idi ki, bu söz-söhbətin həqiqətini öyrənim. Həzrət mənə izin verdi. Mən atam evinə gedib, anamdan soruşdum ki, camaat mənim barəmdə nə danışır?

O dedi:"Qızım, hansı qadın gözəl olsa və əri onu çox istəsə, onun günüləri belə böhtan sözlər yayarlar ki,əri bu sözləri eşidib ondan üz döndərsin."

Əslində isə bu şayiələri yayanlar Peyğəmbər və ailəsini gözdən salmaq istəyən fasiqlər idi. Müsəttəh ibn Əsanə Aişənin atası Əbu-bəkr ilə xalaoğlu idi. O həm miskin, həm də mühacir idi və Aişənin barəsində hamıdan çox danışan da elə o idi.

Əbubəkr ona həmişə xərclik verərdi,lakin onun Aişə barəsində danışdığını eşitdikdə and içdi ki, ona xərclik verməyəcək.Aşağıdakı ayə nazil olandan sonra isə dedi:"And olsun Allaha! Mən istəyirəm ki, Allah məni bağışlasın, mən yenə də onun haqqını verəcəyəm."

Bəzi təfsirlərdə gəlmişdir ki, səhabələrdən bir dəstə də böhtançılara nəfəqə və sədəqə verməyəcəklərinə and içmişdilər. Quranda bu haqda nazil olan ayə belədir:

Nur-22"Sizin dövlətliləriniz yaxın qohumlara, miskinlərə, Allah yolunda köçənlərə ehsan və yaxşılıq etməməyə görə and içməməlidirlər. Məgər siz istəmirsiniz ki, Allah sizin günahlarınızı bağışlasın?Allah bağışlayan və rəhm edəndir."

Rəvayətlərə görə, Peyğəmbər(s.ə.s.) Üsamə ibn Zeydi və Həzrət Əlini çağırıb Aişə barəsində məsləhət istəmiş və Üsamə:-Ya Rəsulallah! Aişə sənin ailəndəndir, ondan bir pislik mənə məlum deyil,-deyə cavab vermişdir.

Hz. Əli isə guya demişdir ki:"Bu haqda Aişənin cariyəsindən soruşun."

Qeyd:-Doğrudan da çox qəribə və təzadlı bir sözdür. Əgər Aişə xanım orada tək, cariyəsiz qalmışsa, bunu da hamı bildiyi halda, belə bir cavabı Hz.Əli necə verə bilərdi?

Bildiyimiz kimi Hz.Əli Peyğəmbərə, onun vəhyinə ilk inanıb, ilk iman gətirən bir şəxs idi. Onu canından çox sevən, Allaha,Peyğəmbərə

vəhy olunana inanan, özü Peyğəmbərlə birlikdə bu yolda bütün çətinlik və əziyyətləri yaşayan, özü də qeyri-adi xüsusiyyətlərə malik olan bir insan necə belə cavab verə bilərdi?

Bu hadisə haqqında Hz. Əlinin belə bir cavab verə bilməsinə inanmaq,həqiqətən də Peyğəmbərin vəhyinə, Hz. Əlinin Peyğəmbərə iman gətirməsini, ümumiyyətlə, bütün islam tarixini danmaq deməkdir.

Həqiqətən də, Şeytanın vəsvəsəsi dəhşətli və Allahın da bizlər üçün bir sınağıdır. Şeytan bu hadisədən istifadə edərək dostların qəlbinə şübhə, vəsvəsə salmağı bacardı.

Qurani-Kərimi,İslam tarixini oxuyub,öyrənib, özü dərk edib, başa düşən insanlar Hz.Peyğəmbərin bəsirət gözünün açıq olduğunu, Allahın vəhyi ilə hər şeyi bildiyini, bilmədiyini də Allahdan istəyən kimi ona vəhy olunduğunu bilmirlərmi?

Əlbəttə,Peyğəmbər(s.ə.s.) özü çox gözəl bilirdi ki, bu şayiələri kimlər, hansı məqsəd ilə yayırlar. Peyğəmbər özü hər şeyi gözəl bildiyi üçün bu hadisələrdən sonra yalnız Hz.Əlinin özündən sonra vəsiy, xəlifə ola biləcəyini hamıya aşkar elan etdi. Deməli, tarix boyu belə yalanlarla əsil İslam tarixinin üstündən qara xətlər çəkərək,dini bölə-bölə firqələrə parçalamışlar.

Xanım Aişənin başına gələn bu hadisə isə Allaha da, Peyğəmbərə də gün kimi aydın idi və bu haqda Aişə xanım belə buyurur:

"-Sonra bu ayə nazil oldu.Həzrət bizim evimizə gəlib dedi:-Ey Aişə! Şad ol! Allah ayə nazil edib səni böhtandan xilas etdi."

Nur-11-ardı və 13-cü ayə"Böhtan atan şəxsin hər birinə qazandığı günahın cəzası yetişəcək.Bu günahın böyüyünü edənə böyük cəza var. (Həmin şəxs Əbdullah ibn Übeydən ibarətdir ki, böhtançıların böyüyü idi.O,camaatı başına toplayaraq deyirdi ki: "Sizin Peyğəmbərinizin arvadı dəvənin üstündə Səfyanla birlikdə gəldi.")

Siz bu yalan sözü eşitdikdə nə üçün mömin kişi və qadınlar özləri kimi olan şəxslər barədə yaxşı gümana gəlmədilər? Gərək deyəydilər ki, bu söz aşkar yalandır.Nə üçün bu sözə 4 şahid gətirmədilər?Onlar şahid gətirməsələr,Allahın hüzurunda və hökmündə yalançıdırlar."

Nur-24-"Həqiqətən, pis əməldən xəbəri olmayan və Allaha iman gətirən iffətli qadınlara zina nisbəti verən kəslər dünyada və axirətdə Allahın rəhmətindən uzaq oldular.Onlar üçün böyük əzab vardır."

Belə bir ayələrin nazil olmasına baxmayaraq, Peyğəmbərin düşmənləri bu məsələ ətrafında müxtəlif mülahizələr yürüdərək, yalan və iftiralarla Peyğəmbərin ailəsinin içində ayrı-seçkilik salmaq və Hz. Əlini siyasi səhnədən uzaqlaşdırmzq üçün istifadə etdilər.

Həqiqətən də Hz.Əli Allahın ən böyük adı olan Səbir adının canlı təcəssümü idi.

Açıqlama: Bu məsələyə bir az da aydınlıq gətirmək üçün İmam Əlinin həyatı və xütbələri qeyd edilmiş"Nəhcül-Bəlağə"(9-12 xütbə) kitabını oxuduqca, məlum olur ki, şeytana və öz nəfslərinə qulluq edən şəxslər aranı qızışdıraraq, bu məsələni hətta"Cəməl" döyüşü adlanan müharıbəyə qədər çatdıra bilmişdilər. Hz.Əli bu xütbələrdə həmin şəxslərin adlarını açıqlayıb, Peyğəmbərin ailəsinə yalan sözlərlə qarışıqlıq saldıqlarına görə onları münafiqlər adlandıraraq, tənbeh etmişdir.

Təfsir yazarlar və tarıxçilər qeyd edirlər ki,bu müharibədən sonra, xanım Aişəyə Allah əmri ilə,Peyğəmbərimiz tərəfindən,vəhy və ya yuxu vasitəsi ilə bu işin bir çox hikmət və həqiqətləri, əsl düşmənin isə kim olduğu bildirilir. Və o gündən sonra Xanım Aişə ömrünün sonuna gədər, bayıra çıxmayıb, evindən oturaraq, ibadət və itaətlə məşğul olur. Xanım Aişənin Peyğəmbərlə yaşadığı dövrdə olan hadisələr haqqında qeydləri və coxlu hədisləri vardır.

Qeyd: Bu hadisənin burada qısa qeyd edilərək,açıqlanmasının əsas səbəbi, dövrümüzdə elmi biliklərin inkişaf etdiyi,insanların dünyagörüşünün geniş olduğu, cahiliyyət dövrünün əsrlərlə geridə qaldığı və İslam dininin mücadilə etdiyi bir dövrdə,bu hadisə haqqın da cəmiyyət içərisində,xüsusən də cavanlar arasında uzun,dolaşıq, qızğın mübahisələrin getməsinin şahidi olmağımızdır.

Sanki fərqli firqələrdən olan İslam ümmətinin bundan başqa heç bir dərdi-səri və onları hər an gözləyən təhlükələri yoxdur.

Burada, İslam tarixi haqqında olan mövzularda qeyd edildiyi kimi, Peyğəmbərimizin vəfatından sonra Hz. Əlini və ailəsini rəhbərlikdən uzaqlaşdırmaq üçün onlar haqqında bir çox yalan və iftiralar söylənilmişdir. Hal-hazırda isə Peyğəmbərin ailəsi haqqında bir çox gizli mətləblərə artıq elmi biliklərlə aydınlıq gətirildiyi bir dövrdə ailə-məişət söhbətləri ətrafında bu qədər mübahisələrin getməsi və ya cavanların beyin-düşüncəsində bu məsələ ətrafında bu qədər şəkk-şübhələrin fırlanmasının özü düşünən insan üçün bir çox həqiqətləri ortaya qoyur. Yəni artıq bir çox həqiqətlər insanlara aşkar olmuşdur və insanlarda savad çoxaldıqca onları aldatmaq da çətinləşmişdir.Bu səbəbdən uzaqgörən münafiqlər indi dövrün nəbzini tutaraq bir az incə, bu məsələ haqqında insanların beyin-düşüncəsini qurd kimi yeyirlər.Bu da cəmiyyəti bir-birindən ayırmağa çalışan qüvvələrin, həqiqətən də,nə qədər aciz olduqlarını ortaya çıxarır.

Həqiqət isə bir dənədir: o da, kimliyindən,təriqətindən, dünyagörüşündən, elmi biliyindən asılı olmayaraq, hamımızın birləşərək

Allahın bizə bəxş etdiyi İslam dinini qoruyub, Allaha qarşı üsyan

etməməyimizdir.Məlum olduğu kimi Qurani-Kərimdə buyurulur ki, haqq batilin başına çırpılaraq mütləq qalib gələcəkdir. Həm də bunu bilməlik ki, bizim bilmədiyimiz, hikmətlərini belə anlamadığımız işlər çoxdur. Məsələn, bildiyimiz kimi Quran 23-il müddətinə ayə-ayə və ya surə halında,yavaş-yavaş, Peyğəmbərimizin həyatında və ətrafında baş verən hadisələrlə əlaqədar olaraq nazil olmuşdur.Bu hadisənin baş verməsindən sonra isə insanları "qadınlara zina töhməti vurmaq" kimi pis hərəkətlərdən uzaqlaşdırmaq üçün Allah tərəfindən ayələr nazil oldu və bu ayələr beş ən böyük günahlar siyahısına daxil olundu.

Deməli, bəlkə də bu hadisə baş verməsəydi, bu cürə hikmətli və mənaları çox olan ayələr də nazil olmazdı.Həmçinin bu hadisə tarix boyu İslam dünyasında olan insanlar üçün bir sınaq, bir imtahan vasitəsi oldu.Bu səbəbdən də, hikmət və sirlərini başa düşmədiyimiz belə mövzular haqqında,təkəbbürlük hislərinə uyaraq, özümüzün haqq olduğunu sübut etmək üçün istifadə edərək, imanimızı əldən verməyək.

Allahı, İslam dinini,Vətəni, el-obanı və dünyamızın əmin-amanlığını düşünürüksə, hamımız birləşərək Uca Allahın bizlərə bəxş etdiyi bu nemətləri qorumağa çalışaq.Çünki Məhşərdə Allahı və Peyğəmbərimizin qarşısında heç kəs, heç kəsin yerinə cavab verməyəcəkdir. İndi isə bütün İslam dünyasında olan insanları birliyə, haqqı görməyə çağıraraq,çox sakitcə,bütün İslam dünyasında,öz Səhih hədisləri ilə tanılan,məşhur hədisçilərin yazdıqları həqiqətləri oxumağa sizi dəvər edirəm və bunları oxuduqdan sonra,bir çox həqiqətlər sizə aydın olar. Çünki bu mübahisələri yalnız savadsız insanlar edirlər. Artıq elm-texnikanın inkişafı və əsrlərlə aldadılan insanların həqiqəti bilmək istəyi bir çox qaranlıq mətləblərin üzərinə işıq salmışdır.1995 və 2010-cu ilə qədər müddətdə Türk və dünya alimlərinin təşkil etdikləri dini tarixi, elmi araşdırmalar bir çox həqiqətləri üzə çıxartdı və həmin proyekt"Mürşit"proqramı adlanır.

Kimin necə ibadət etməsini, kimin ibadət və itaətinin düz olmasını, həmcinin kimin nəyə layiq olduğunu Qadir Allah hamıdan yaxşı bilir.Burada, bu söhbətin açıqlanmasının səbəbi isə cavanlarımızın bilib-bilmədiyi məsələlər haqqında mübahisələri və bir də yalanlarla cəmiyyətdə qarışıqlıq salmaq istəyən münafiqlərin artmasıdır. Lakin siz heç kəsin fətvasına, qəşəng, bəlağətli danışıqlarına qulaq asmayın, özünüz oxuyub,araşdırıb öyrənin və hamımız birləşərək vətənimizi, dinimizi, məssəbimizi qoruyaq və"Kövsər " surəsində buyurulduğu kimi Qiyamət gününədək dinimizi yaşadaq.

Həmin hədislər:-**Səhihi-Buhari,cild.-1-səh.-120-124.cild 2-səh.**

206-127-126-205,cild-3-səh.39-74-161-387(Xeybər müharibəsi babında) cild-4.səh.127,"Tarixül-Xüləfa" cild-7- səh.121-130,

Tarixi-Təbəri c.4.s.141,c.2.s.319,

Tarixi-ibni-Əsir cild.3.səh.206.Təbəri, ibn.Əsir Mədaininin tarixi əsərləri, "Səhihi-Tirmizi" cild.5.səh.696-300,

Xəsəisun-Nəsai,cild. 67, Müstədriki-Həkim cild.3.s.110

"İstiyab"cıld.3.səh.38-45, "Ruzayun-nəzəri"cild.2,səh.198,

Sünəni-Daremi,cild.s.54, Tarixi-ibn. Əsir c.2.s.26.

(Burada yalnız sünnü alimlərinin bəzilərinin adlarını qeyd etdik, çünki belə hədislər çoxdur. Düzdür bu kitablarda da bir çox hədisləri təhrif edərək dəyişdiriblər və bir çoxlarını isə tamamilə kitabdan çıxarıblar.Bu səbəbdən də bu kitabları çalışın Türkiyədən əldə edəsiniz, çünki burada Vahhabilərin dini dükanlarında,həmin kirablar həddən artıq nazikləşib,incəliblər.)

İSLAM DİNİNDƏN İNSANLARIN ƏN BÖYÜK İMTAHANI

Qurani-Kərimdə həlak olmuş qövmlərin tarixini oxuduqca məlum olur ki,bu qövmlərin həlak olmalarının əsas səbəbi öz Peyğəmbərlərini təkzib edib, kitablarını təhrif edərək, Allaha qarşı üsyan etmələri olmuşdur. Yəni, Uca Allah yer üzündəki bütün insanlara, qövmlərə nə qədər Peyğəmbər göndərib, müqəddəs kitab nazil etmişsə də, insanlar yenə də öz həvai-nəfslərinə uyaraq Allaha qarşı üsyan etmişlər. Bu səbəbdən də Allah-taala bütün bu qövmləri məhv edərək, tarimar etmişdir. Qurani-Kərimdə bu qövmlər haqqında baş verən əhvalatları təfsilatı ilə bizlərə çatdırmışdır ki, bizlərdə bu əhvalatlardan dərs alaraq, öyüd-nəsihət götürək.

Peyğəmbərlərə nazil olan kitablar; Tovrat, İncil,Zəbur haqqında yazılmış qısa məlumatlardan məlun olur ki, bu qövmlərdə öz kitablarını təhrif edib, özlərinə sərf edən kimi neçə-neçə Tövratlar və İncillər yazıb, insanlar arasında ayrıseçkilik salaraq, ayrı-ayrı firqələr yaratmışlar. Bütün bunlara baxmayaraq Allah-taala yenə də bu xalqlara rəhm etmiş, onlara bir daha fürsət verərək öz kitablarında adı çəkilmiş yeni bir dinə, axırıncı Peyğəmbərə və axırıncı, kainatın dini olan, İslama inam-imana dəvət etmişdi.

Alim Allah bizlərə bəxş etdiyi hikmətlərlə dolu müqəddəs kitabı isə ins və cinsdən özü qoruyaraq,bir hərfinə belə heç kəsin toxuna bilməyəcəyini bu ayələr vasitəsilə bizlərə bildirmişdir:

"əl-Buruc-22-Bu Quran Lövhi-Məhfuzdandır!Quran Allah

dərgahında qorunur. Ona Şeytan əli dəyə bilməz, o heç zaman təhrif olunmaz!"

"əl-Fussilət-42-Nə öncə, nə də sonra batil ona yol tapa bilməz, şeytan onun bir sözünü, bir hərfini belə dəyişdirə bilməz."

Bu ayələrdən də məlum olur ki, Allah-taala insanların xislətinə bələd olduğu üçün artıq Qurani-Kərimi özü qoruyaraq, bu işdən insanları qorxudub, çəkindirmişdir. Çünki Qurani-Kərim axırıncı səmavi kitab olub və Məşhər gününədək insanların sığınacaqları yeganə güvənc qaynağıdır.

Bəs Alim-Allah bizləri,yəni İslam dünyasında olan insanları hansı müqəddəs dəyərlərlə imtahan edir? Bu suala cavab vermək üçün Peyğəmbərimizin Meracda Allahdan istədiyi yeganə diləyini, Peyğəmbərimizin biz ümmətindən, bizlərdən istədiyi yeganə diləyini, birdə Quranda Allahın bu haqda nazil etdiyi ayələrin hikmət və dəyərini araşdırıb öyrənməklə bilmək olar.

Yəni, Peyğəmbərimiz Meracda olduğu zaman, Hz.Cəbrail ilə birlikdə bütün sirlər aləmini gəzmiş, Allahın yaratdığı bütün möcüzələri görmüş, həmçinin Cənnət, Cəhənnəmi də gördükdən, öz ümmətinin və balalarının da taleyini bildikdən sonra, Allahdan istədiyi yeganə şey, yalnız ümmətinin(bizlərin) bağışlanaraq, Cəhənnəm odundan qurtarmağımız olmuşdur. Bu yolda o, hər şeyini, hətta əzizlərinin həyatını belə fəda etmişdir.

Bildiyimiz kimi Allahın yaranış hikmətlərindən biri də, həyatda insanın öz övladını canından da çox istəməsidir.İndi siz özünüz düşünün ki, Peyğəmbərimizin qeyri-adi möcüzələrlə dünyaya gəlmiş, Allahın Öz Fatir adını və Kövsərini bəxş etdiyi qızı Fatiməni və onun övladlarını nə qədər sevirdi. Qızı xanım Fatimə ilə Əlinin evlənməsinə dair enən vəhyi, sonra isə bu iki insanın izdivacından dünyaya gələn övladlarının da qeyri-adi möcüzələri, bu yolda canlarından bilə-bilə keçmələri insanı bir daha düşündürərək əmin edir ki,həqiqətən də burada nə isə Allahın biz insanlara demək istədiyi hikmətlər vardır.

Peyğəmbərimiz öz ümmətinin onun əzizlərinin başına gətirdikləri haqqsızlıq, xəyanət və onları zülmlə qanlarına qəltan edəcəklərini əvvəldən bilsə də, yenə də övladlarının da, bu dinin, bu ümmətin yolunda qurban getməsinə razı olmuş və onların talelərini

Allahın öz ixtiyarına qoymuşdur. Çünki bilirdi ki, Adil Allah insanları bu dünyaya imtahan etmək üçün göndərir və insanların Cənnət və ya Cəhənnəmə layiq olduğunu özlərinə sübut etmək üçün bir çox şeylərlə bərabər müqəddəs dəyərlərlə də imtahan edəcəkdir.Bəlkə də elə bu

səbəbdən Peyğəmbərimiz Allahın ilk yaratdığı ruh, ən istəkli bəndəsi, Rəsulu olmuş, onun övladları isə Muhəmməd ümməti üçün bu dünyada bir sınaq, əbədi dünyada isə Kövsərə, Cənnətlərə aparan yollarda bələdçi və himayədar təyin olunmuşlar.

Bu kitabda müəyyən qədər Peryğəmbər və onun övladlarının həyatları haqqında məlumatlar verilmişdir. Buna baxmayaraq, dünya alimlərinin və İslam dininin əsl alimlərinin onlar haqqında yazdıqlarını və yaxud da, ərəb dilini mükəmməl öyrənərək, təfsirlərsiz,Quran ayələrini özünüz araşdırın.Yaxud da ağlin, düşüncənin dərk etdiyi bir həqiqətlə düşünün ki, nə üçün bu firqə və məzhəblər Peyğəmbərin əzizlərinə, doğmalarına qarşı bu qədər haqqsızlıqlar ediblər və insanların qəlblərinə bu qədər şəkk-şübhə toxumu töküblər?

Yenə də bütün dünyavi, kin-kidurət, mənəm-mənəm hisslərini kənara qoyaraq haqqın gözünün içinə baxaq və düşünək.Peyğəmbərimizin biz ümmətdən təvəqqəsi Qurani-Kərimdə buyurulduğu kimi: ”Öz risalətim əvəzində Quranı və övladlarımı sizə əmanət qoyaraq, onları əzizləyib, sevməyinizi istəyirəm,”-deyərək, bərk-bərk tapşırması olmuşdu.(əş-Şura-23)

Həmçinin Uca Allahın onları bizlərə dəfəndəfən tanıdaraq:”Onları bütün dünyadaki insanlardan da pak-pakizə etdim,”-deyə buyurub, bir daha onların haqq olduğunu bizlərə bildirmişdir. (Əhzab-33)

Bütün bunları bildikdən sonra, qayıdırıq öz kitablarını təhrif edən ümmətlərə. Deməli, onların ən böyük imtahanı, Allahın onlara verdiklərini bəyənməyərək, Ona üsyan edib, özlərinə sərf edən kimi yeni-yeni fətvalarla dolu kitabları ortaya çıxarıb, insanların gözlərinə kül üfürmələri olmuşdur.

İslam ümmətinin, yəni bizlərin Allahın və Peyğəmbərimizin qarşısında olan ən böyük imtahanı isə onların qoyduğu əmanətlərə və əmrlərə qarşı olan münasibətmizdir. Deməli bizimdə imtahanımız müqəddəs Quranı (əlimiz çatmadığı üçün) təhrif deyil, Peyğəmbərimizin qoyduğu əmrləri təhrif etməkdir. Bu əməlin özü, elə Allahın əmrlərinə qarşı çıxmaqdır.

Qaldı ki,Peyğəmbərin vəfatından sonra baş verən hadisələr;bir onu xüsusi qeyd edək ki, Peyğəmbərin sevdiyi insanları sevmək bizim mənəvi borcumuzdur. Ailəsində baş verən hadisələrin məna və hikmətləri də Allaha bəllidir. Bizim vəzifəmiz onların səhvlərini araşdırmaq deyil, əksinə o,səhvləri öyrənib özümüz üçün nəticə çıxarmaqdır.

Burada bir **hədisi** qısa da olsa qeyd etmək istəyirik:Bir gün Peyğəmbərimiz məsciddə oturub, moizə etdikdən sonra, orada otu-

ranlara belə bir sual verir:-Əgər sizə bir adam pislik etsə əvəzində nə edərsiniz? Orada oturanların cavabı:-Əvvəlcə güzəştə gedər və bağışlayarıq,"-deyə cavab verirlər.Peyğəmbərimiz bu sualı bir də təkrar edəndə orada oturanların yarısı:-Əvəzində biz də pislik edərik,"-deyə cavab verirlər.Peyğəmbərimiz bu sualı bir daha təkrar etdikdə orada oturanların hamısı cavab verir ki:"Əvəzində ona daha çox pislik edib, cəzalandırarıq."Bu zaman Əli (ə.s.) məscidə girir və həmin sualı Peyğəmbərimiz ona da verir.Bu sualı bir necə dəfə təkrar etsədə, hər dəfə də eyni cavabı alır. Axırda Əli (ə.s.) deyir:

-"Ya Peyğəmbər! Canım sənə fəda olsun! Sən bu sualı mənə yüz dəfə belə versən, yenə də eyni cavabı məndən eşidəcəksən. Çünki, mənə yüz dəfə, bəlkə ondan da çox belə pislik etsələr, yenə də mən heç vaxt heç kəsə pislik etməyib, əksinə əvəzində ona daha da çox yaxşılıq edəcəyəm." Peyğəmbərimiz belə cavab verir:"Mən bunu çox yaxşı bildiyim üçün səni hamıdan çox istəyirəm və inanıram ki, məndən sonra sənə nə qədər pislik etsələr də,sən yenə də yaxşılıq edəcəksən.Bu səbəbdən də bu dinin məndən sonra qoruyucusu, mənim vəsim (dinimi, əmanətlərimin, daşıyıcısı, davamçısı) sən və sənin övladların olacaqdır."

Həqiqətən də, Əhli-Beytin həyatını oxuyub, öyrənsəniz, şahid olarsınız ki, onlar İslam dinini yaşatmaq üçün yaşayıb və bu ümmətin yolunda cəfalar çəkərək həyatlarını qurban vermişlər.Elm və texnikanın inkişaf etdiyi, hegemon dövlətlərdə olan dinlərin inkişaf edərək vüsət tapdığı müasir dövrdə,14-əsr bundan əvvəl Peyğəmbərimizin ailəsində baş vermiş, ailə-məişət söhbətləri haqqında müxtəlif firqədən olan insanların uzun-uzada mübahisələr etməsi və bundan istifadə edərək İslamı parçalamağa çalışan munafiqlərin fitnələrinə uyaraq, cahillik etməyimiz, İslamın zəifləməsinə səbəb ola bilər. Bu səbəbdən də özümüzün bədbəxt olub, fitnələrə uyan İslam dövlətlərinin, müharibələr üzündən tarimar olmuş, insanları qırılaraq, təhqir olunmuş avam müsəlmanların gününə qoymayaq.

Bu məsələ haqqında düşünürkən,həmişə uşaq vaxtı məktəbdə oxuduğum bir təmsil yadıma düşür. Bu təmsil belədir: Bir-birinə dost, dayaq olan iki öküz olur. Bir şir də onların ətrafında hey vurnuxaraq istəyir ki, onları parçalayıb vesin.Lakin, hansı birinə yaxınlaşırsa, o biri öküz onu müdafiə edib, birləşərək şiri qovurlar. Şirin, onlara gücü çatmayacağını başa düşüb, fikirləşərək hiyləyə əl atır. Öküzlərdən birinə yaxınlaşaraq güya, o biri öküzün onun və balalarının haqqında danışdığını, yalandan, olmayan sözləri deyərək, öküzün qəlbində o biri öküzə qarşı vəsvəsə və kin-küdurət yaradır. Sonra isə o biri öküzə yaxınlaşaraq eyni ilə o, öküzə dediyi sözləri onun

üçün də təkrar edir.Bu öküzün də qəlbində şəkk-şübhə baş qaldıraraq, qəzəb hissi ilə aşıb-daşır. Axırda elə alınır ki, bu iki öküz bir-birlərinə nifrət edərək vuruşmağa başlayırlar.Bu fürsətdən istifadə edən şir,hər ikisini ayrı-ayrı tutaraq, boğub, sonra da ləzzətlə yeyir.”

İndi, məsəli bizdən uzaq, biz haqdan nə qədər uzaqlaşsaq, bir o qədər də parçalanaraq zəiflələşəcək və bu da düşmənlərimiz üçün bir fürsət olacaqdır.

İslam tarixinin ilk dövrlərindən elə bu günə kimi onun düşmənləri İslam dininə qarşı yalan və fitnələrlə dolu siyasətlər aparmışlar. Hətta Peyğəmbərimizin öz ailəsinin içində hansısa zəif bir cəhətdən istifadə edərək ayrı seçkilik salıb, insanları firqələrə ayıraraq, bir-birinə qarşı qoymuşlar ki,hakimiyyəti özləri rahat idarə etsinlər.

Peyğəmbərimizin balalarından (Əhli-Beytdən) dərs alan dörd-sünnü təriqətinin imamları,Peyğəmbərimizin övladlarının yolunda hər əzablara, əziyyətlərə dözərək, həmişə onları müdafiə etmişlər. Lakin tarixdən məlumdur ki, bu təriqətləri bir-birinə qarşı qoymaq üçün, o dövrdə, elə indiki dövrdə də, dinimizin düşmənləri hər cür siyasətlərə əl atmışlar. Peyğəmbərin xanımlarından birinin həyatında baş verən bir hadisə əsrlər boyu kişilərin və qadınların başlarını qatmaq üçün düşmənərə gözəl fürsət vermişdir.

Əgər bu qədər Allaha,Peyğəmbərə inanıb, iman yiyəsi olub, haqq tərəfdarı olaraq, Peyğəmbərin ailəsinin təəssübkeşliyini çəkiriksə onda”Mənim anam”,”Canlı Quran”-deyə həmişə əzizləyən,Allahın da“Kövsər”adı verərək, Kövsər bulağını bəxş etdiyi qızı, Xanım Fatiməni də yada salaq. Elə o dövrdə Xanım Fatimənin başına gətirilən müsibətləri, haqsızlıqları, ona qarşı olan zülmü, bu zaman övladının sidq olmasını, sonra isə bu zülmlərə dözməyərək şəhadətə yetməsini də xatırlayaq.Peyğəmbərin özünün bərk-bərk tapşırıb, bizlərə əmanət qoyduğu, istəkli qizının da haqqını müdafiə edək.Çünki Xanım Fatimə və övladları bu dinin uğrunda qurban getmişlər.

Ey Cənnətə getmək istəyən, Allahın da, Peyğəmbərin də ondandan razı olmasını istəyən möminlər! Burada qısa yazılanları, tarix kitablarını, Peyğəmbərin öz hədislərini, ən əsası isə Quranı-Kərimi oxuyun və onda başa düşərsiniz ki, bir insan“Kövsər”hovuzundan su içib, dəstəmaz almasa, Cənnətin heç bir qapısından içəri daxil ola bilməz!Bu haqda Peyğəmbərin öz dilindən söylənən hədislərdə açıq-aydın xəbərlər verilir**.(Hədisi-Qüdsi),(Üsuli-Kafi)**

Hədis:-Əbu Hureyrədən. Hz.Peyğəmbər (s.ə.s.)”Canım əlində olan Allaha and olsun ki, yad dəvənin hovuz başından qovulduğu kimi bəzi

insanlarda mütləq onun kənarından qovulacaqlar.Axirət günü-Aldanma Günüdür. (yovmi-Təğabun,Təğabun-9-).Bu gündə insanlar anladıqlarını anlayacaqlar.Dünyada özlərini Muhəmməd ümməti olduğunu sanarlar, Hz.Muhəmmədin şəfaətinə nail olacaqlarını zənnedərlər. Bax, o gün, bu dünyada nə üçün yaşadıqlarının səbəbini anlayacaqlar. O gün insanların nəzərində, Hz.Muhəmmədin qoyduğu əməllərini düzgün yerinə yetirdiklərini zənnedən saxtakarların əməlləri üzə çıxacaq və onların hamısı Muhəmməd(s.ə.s.)ə məxsus olan(xanım Fatimənin də bir adı olan) "Kövsər"dən qovulacaqlar.(**Səhihi-Buhari. h.1095,s.311,)**

Hədis:Əbu Hureyrədən nəql olunur. Hz.Peyğəmbər buyurur: Mən Kövsər hovuzunun başında ayaqüstə durduğum vaxt bir dəstə insan gəlirdi, mən onları tanıdım.Bu arada mənimlə onlar arasında bir nəfər çıxaraq dedi:"Tez-tez arxamca gəlin!"Mən: "Bunları hara aparırsan?"-dedim."Vallahi Cəhənnəmə götürürəm," -deyə cavab verdi."Bunların günahı nədir?"-dedim."Bunlar səndən sonra geriyə dönərək, arxa tərəfə getdilər, dindən çıxdılar,"-dedi.Sonra baxdım ki, yenə dir dəstə insan gəlir, mən onları da tanıdım.Bu dəfə də onlarla mənim aramda bir nəfər çıxaraq:"Tez-tez arxamca gəlin"-dedi."Bunların günahı nədir?-deyə yenə soruşdum.Bunlardan səndən sonra özlərinə təzə-təzə təriqətlər düzəldərək, dindən çıxdılar",-deyə cavab verdi. Bunların heç birinin Cəhənnəmdən qurtaracağını zənn etmirəm.Yalnız dəyər verilmədiyindən öz hallarına buraxılan dəvələr kimi tək-tək, inamları möhkəm olan, aldanmayan, haqqı görən insanlar Cəhənnəmdən qurtarıb, "Kövsər"dən su içərək, dəstəmaz alıb, Cənnətə gedə bilərlər,"deyə buyurmuşdur. **(Səhihi-Buhari. h. 1095, s.2132)**

Çox təəssüf ki, Allahın pak-pakizə etdiyi, Peyğəmbərimizin bizlərə əmmanət qoyduğu əzizlərini müxtəlif, cılızlaşdırılmış şəkildə təsvir edən hədisləri özlərindən uydurараq, böyük alimlərin hədis kitablarının içərisinə daxil etmişlər. İndi isə demokratik şəraitdən istifadə edərək bu hədis kitablarının içərisindən həqiqətə uyğun olan səhih hədisləri (imamlar, namaz, möhür və.s.) göz-görəsi təhrif edir və yaxud da bu kitabların içərisindən çıxararaq, bu kitabları günü-gündən nazikləşdirirlər.

Doğrudan da bu işlərə məətəl qalırsan ki, bu hansı siyasətin nəticəsidir? Bu səbəbdən də ayıq olub, düşmənlərin fətvalarına uyaraq, aldanmayaq. Bunun üçün də əsas məsələ yalnız təmənnasız, plansız,düzgün bilik, bir də öz vətənini, dinini, ümumiyyətlə Allahın bizə bəxş etdiyi bütün nemətləri dəyərləndirərək, haqqı danmadan yaşamağımızdır. Elə bu da Adil-Allahın bizi bu dünyadaki müqəddəs dəyərlərlə etdiyi imtahanıdır.

MÜRACİƏT

Vətənsiz ağlamazsızmı?Sinələr dağlamazsızmı?
Yadlar Vətən deyəndə, ürəkdən ağlamazsızmı?
Ağlaram-ağlaram ellər, sinələr dağlaram ellər.
Qaytarsalar torpağımı bir də ağlamaram ellər.

Açıqlama:Bu müraciəti kitabın sonunda yazmaq istədiyimiz halda, yeri gəldiyi üçün burada qeyd etmək istəyirik.

Əgər səbriniz çatıb,bu kitabı axıracan oxusanız, müşahidə edəcəksiniz ki, Allahın bizi sevə-sevə necə yaratması və bizə nə qədər dəyər verərək, ən gözəl şeyləri bizlərə qismət etməsi haqqında dəfən-dəfən, hər mövzuya uyğun olaraq qeyd etmişik.Həmçinin, Qadir Allahın bütün yaratdıqlarına bizim də dəyər verərək sevməyimiz haqqında da təkrar-təkrar qeydlər olunmuşdur.

Qadir Allah yenə də biz insanlara dəyər verərək, elə doğulduğumuz andan"Vətən" adlanan,yaşayıb sonra da ölmək üçün bir məkan bəxş etmişdir.Bu məkanda hamı sənin dilində danışır, hamı tərbiyə-mənəviyyat cəhətdən demək olar ki,eyni əqidədədirlər, dinimiz, adət-ənənələrimiz birdir, yemək-içməklərimizdə eyni çeşitdədir. Hətta simalarımız da birbirinə bənzəyir. Ən əsası isə sən özünü burada özgə, yad hiss etmirsən və qəlbində bir arxayınçılıqla bərabər, hər şeyin sənin üçün doğma və əziz olduğunu dərk edirsən. Sanki burada hər kəs sənə tanış, əziz, hər şey, hətta adicə bir ağac belə sənin bütün ömrünü xatırlada biləcək bir yadigardır.Hələ musiqimizi,muğamlarımızı dinləyərkən,ruhlarımızın belə ali məqamlara pərvazlandığını demirəm. Hətta uşaqlığımız, gənclıyımız keçən doğma yerləri gördükdə, keçirdiyimiz o hisslərin heç bir sözlə ifadə edilmədiyini və nə qədər əziz olduğunu təsəvvürünüzə gətirin.Bu hisslərin nə qədər müqəddəs olduğunu və heç bir dünya malı ilə əvəz edilmədiyini yəqin ki,qəriblikdə var-dövlər içində, çox gözəl yaşayan,lakin qəlbi Vətən həsrəti ilə alışıb yanan insanlar daha gözəl təsvir edə bilərlər. Qəlbində, Allahın insana bəxş etdiyi ruhun "ülvü ruh"adlanan xüsusiyyətindən payı çox olan kimsələrin isə, vətənin torpağı olmalarını, onlar üşün vətənsiz yaşamalarından daha əzizdir.

Vətən insanın özü, bir şəxsiyyət kimi insanın mənliyi, Allahın bizim "ülvü ruhu"muza dəyər verərək qismət etdiyi ən böyük nemət və Məşhərdə də sorğulanacaq ən çətin suallardan biridir.

Əgər dünyanın yaxın tarixinə nəzər salsaq, açıq-aydın
görərik ki, bir ölkəni tarimar etmək üçün əvvəlcə, öz gizli xəfiyyələri

vasitəsilə ölkədə daxili qarşıdurma, qardaş qırğını salarlar. Sonra isə hegemon dövlətlər guya,bu ölkəyə kömək etmək məqsədilə-"Dovşana qaç, tazıya da tut!"siyasətini yürüdərək,bu ölkəni də,insanlarını da(qoca-cavan demədən) futbol meydançasındaki top kimi ortaya qoyarlar. Hətta, hegemon dövlətlərin bu futbol oyunundan o qədər xoşlarına gələr ki, illərlə bu oyunu oynayaraq özləri üçün zövq alarlar. Əgər belə bir oyunların və ortada təpiklə o üzə, bu üzə atılan topların aqibətini bilmək istəyirsinizsə, heç uzağa getməyin, elə televizoru açıb, əvvəllər çox qüdrətli olan İslam dövlətlərinin, indiki halına baxıb, özünüz nəticə çıxarın.

Bütün bunları oxuyub bildikdən sonra, üzümüzü gələcəyimiz olan cavanlarımıza tutaraq müraciət edirik:"Öz şəxsi çətinliklərinizdən (işsizlikdən, pulsuzluqdan), bir sözlə maddi vəziyyətinizdən, kimdənsə xoşunuzun gəlib-gəlməməsindən, nəyinsə düz olub olmamasından, hansı təriqətdən olub, hansı şəkildə ibadət etməyinizdən, əqidə və düşüncələrinizdən asılı olmayaraq, ən əsası isə nəfsi istəklərinizə uymayaraq, Allahın bizə bəxş etdiyi ən böyük dəyərlər olan Dinimizi və bir də Vətənimizi hər şeydən üstün tutub qorumağa çalışaq. Çox ayıq olun, heç bir qurum və yaxud məkrli insanlar sizi aldadıb, ortaya salaraq, öz xalqınıza və Vətəninizə qarşı silaha çevirməsinlər. Şükür, Allaha ki, indiki dövrdə hamınızın savadı vardır və özünüz hal-hazırda bədbəxt olmuş İslam dövlətlərində baş verən müharibələrin necə başlanmasını araşdırıb, diqqətlə öyrənin və arif olaraq heç kəsə aldanmayın.Fürsət verməyin ki, düşmənlərimiz elə bizim özümüzdən, özümüzə qarşı silah düzəldərək, gələcəyimizi, ümumiyyətlə bizim kimi seçmə bir xalqı və bizim vətənimiz kimi gözəl bir diyarı parçalayaraq, dağıtsınlar. Hətta,bəzi məkrli insanların arzuladığı kimi bizlərin nə vaxtsa dünyada yaşayıb-yaşamadığımızı belə bəşəriyyətə unutdursunlar. Çox ayıq olun...

Könlümün sevgili məhbubu mənim,
Vətənimdir,vətənimdir,vətənim!
Məni xəlq eyləmiş əvvəlcə Xuda,
Sonra vermiş vətənim nəsvü nüma.
Vətənim verdi mənə namü nəmək,
Vətəni məncə unutmaq nə demək?!
Anadır hər kişiyə öz vətəni:
Bəsləyib sinəsi üstündə onu.
Südüdür kim, dolanıb qanım olub,

O Mənim sevgili cananım olub.
Saxlaram gözlərim üstə onu mən,
Ölərəm, əldən əgər getsə vətən.
Vətənin neməti nisyan olmaz,
Naxələflər ona qurban olmaz.
Vətən -əcdadımızın mədfənidir,
Vətən-övladımızın məskənidir.
Vətəni sevməyən insan olmaz,
Olsa, ol şəxsdə vicdan olmaz! (Abbas-Səhhət.Vətən.1909)

VƏHHABİ TƏRİQƏTİ

Bütün dünyanın, Avropa ölkələrinin,həmçinin vaxtı ilə bizlərə təlim edilən ateizm, darvinizm siyasəti,artıq təkamül prosesini keçmiş Avropa alimləri tərəfindən rədd edilir və Allahın varlığını qəbul edirlər.Artıq İslam dinini də olduğu kimi qəbul edən alimlərin sayı günü-gündən artmaqdadır.Lakin həmin bu təkamül prosesi illərdən sonra, bu gün Asiya ölkələrində, həmçinin qədim adət-ənənəsi olan bizim ölkəmizdə sürətlə yayılmaqdadır. Cəmiyyətimizin müəyyən hissəsi xarici və daxili qüvvələrin siyasətinə inam gətirərək Teizmə (tək Allahın varlığına inanan fəsəfi görüş) Deizmə inam gətirərək,axırda da gəlib elə ateizm çıxacaqlar. Deizmə-tək Allahın varlığına inanan 17-ci və 18-ci yüzillikdə İngiltərə, Fransa və Amerika yaranan dini bir fəlsəfi qrumdur. Deizm ya da Yaradançılıq, bütün tüm dinləri rədd edən,ancaq Tanrının varlığına inanan inanç şəklidir. Dinlər rəddedildiyi üçün Quranda buyurulan əmrlər, Peygəmbərlər, müqəddəs kitablar, savab, günah, ahirət, cənnət, cəhənnəm, mələk, cin və şeytan kimi anlayışların heç birini qəbul etmirlər.

Vəhabilik İslam dinində XVIII əsrdə formalaşmış dini-siyasi cərəyandır. Əsası İslam alimi,İslam metafizikasının və dində yeniliklərin əleyhdarı olan İbn Teymiyyənin (1263-1328) davamçısı Muhəmməd ibn Əbdül Vəhab ət-Təmimi (1703-1792) tərəfindən qoyulmuşdur.Vəhabi terminin geniş yayılmasına baxmayaraq bu cərəyanın tərəfdarları özlərini "sələfi" (ərəb-əcdad) adlandırırlar.

Muhəmməd ibni Əbdülvəhhab təqribən 1704-cü ildə indiki Səudiyyə Ərəbistanı ərazisində doğulmuşdur. Onun atası Əbdülvəhhab ibni Süleyman Hənbəli məzhəbindən olub Zeynə şəhərinin qazisi idi. Muhəmməd ilk təhsilini öz doğma şəhərində atasından almağa başladı lakin erkən gənclik illərindən Muhəmmədin söylədiyi fikirlər onun

həmşəhərlilərini narahat edirdi. O, özünə qədərki alimlərin fikirlərini qətiyyətlə rədd edərək, bir çox milli adət-ənənələri və dini ritualları pisləyirdi.Məsələn, Peyğəmbərin qəbrini ziyarət etmək, övliyaların ruhunu vasitəçi sayaraq dua etmək və s. bu kimi mərasimləri tənqid atəşinə tuturdu. Muhəmmədin dedikləri elə bir həddə gəlib çatdı ki, İslam dininin əsas normalarını və prinsiplərini pozduğuna görə atası onu lənətləyib evdən qovdu. Məhəmməd ibni Əbdülvəhhab evi tərk edərək təhsil almaq bəhanəsi ilə Məkkə və Mədinə şəhərinə getdi, lakin təhlükəli ideyalar yaydığı üçün alimlər tərəfindən baykot edilərək şəhərdən çıxarıldı.Bunun ardınca Muhəmməd İraqın Bəsrə şəhərinə yola düşür və oradakı mədrəsəyə daxil olur. Bəsrədə İngiltərənin Westhind şirkətində ticarət agenti adı altında fəaliyyət göstərən ingilis

kəşfiyyatının gizli casusu Hemferlə tanış olur. Müsəlmanlar arasında nifaq və pərakəndəlik salmaq vəzifəsini daşıyan Hemfer, Muhəmməd ibni Əbdülvəhhabın fikirlərinin göydəndüşmə olduğunu görüb, onunla sıx dostluğa və əməkdaşlığa başlayır. Hemferin təsiri ilə Muhəmmədin beynindəki fikirlər daha da inkişaf edərək radikal forma almağa başlayır. Bəsrədən qayıtmaq ərəfəsində Hemfer Muhəmmədi həvəsləndirdi ki, bacardıqca qısa müddət ərzində öz ideyalarını sistemləşdirib tətbiq etsin. Bəsrədə bir müddət təhsil aldıqdan sonra müsəlman alimlərin haqlı narazılığı ilə üzləşmiş Muhəmməd oradan qaçıb Ərəbistana qayıtdı. Atası Əbdülvəhhab və qardaşı Süleyman ona nə qədər nəsihət verdilərsə, Muhəmməd bunları qəbul etməyib öz əqidəsində qaldı. Qeyd etmək yerinə düşər ki, Muhəmməd ibni Əbdülvəhhabın fikirlərinə qarşı yazılmış ilk tənqidi kitabın (Əs-savaiqul-ilahiyyə fürrddi əlәl-vəhhabiyyə) müəllifi onun doğma qardaşı Hənbəli məzhəbli görkəmli alim Şeyx Süleyman ibni Əbdülvəhhab idi. Muhəmməd ibn Əbdül Vəhhab hesab edirdi ki, əsil İslama yalnız Muhəmməd Peyğəmbərin davamçılarının ilk üç nəsli tərəfindən (Əl-səlәf əs-Saleh)riayət olunub.

O, dindəki yeniliklərin əleyhinə çıxaraq onları küfr hesab edirdi.

1932-ci ildə Əbdül Vəhhabın ideyalarının davamçısı sayılan Səud sülaləsi hakimiyyətə gələrək müstəqil Səudiyyə Ərəbistanı dövlətini yaratdı və bu dini-siyasi cərəyanı dövlət siyasətinə çevirdi.İslamdakı yeniliklərə qarşı müxalifət aparan İbn Teymiyyənin baxışları İslam məzhəblərinin ziyalı təbəqəsinin etirazına səbəb olsa da, bir əsrə yaxındır ki, bu ideyalar yenidən İslam cəmiyyətində baş qaldırmış və müzakirə obyektinə çevrilərək özünə geniş auditoriya tapmışdır. Ərəbistana qayıtdıqdan sonra Muhəmməd xeyli müddət öz doğma şəhərinə gələ bilmədi. Lakin tədricən tərəfdarlarının sayı çoxaldıqdan

sonra Muhəmməd Üyeynəyə dönüb orada məskunlaşdı.Lakin o burada fəaliyyətsiz durmayıb öz ideyalarını həyata keçirməyə başladı. Müsəlmanlar tərəfindən ehtiram bəslənilən məzarlara qarşı xüsusi nifrəti olan Muhəmməd ibn Əbdülvəhhab ikinci xəlifə Ömərin qardaşı Zeyd ibni Xətabın qəbrini uçurtdu.Bundan xəbər tutan Ərəbistan hakimi onu cəzalandırmaq istərkən, Məhəmməd qaçıb Detriyyə şəhərinə sığındı. Detriyyə Hz.Muhəmmədin dövründə peyğəmbərlik iddiası etmiş yalançı Müsaylamənin vətəni idi. Beləliklə, təqribən 1747-ci ildən başlayaraq Detriyyə şəhəri vəhhabilərin paytaxtı oldu. Həmin dövrdə Detriyyə şəhərində Üzeynə adlı kiçik qəbilənin şeyxi Muhəmməd ibni Səud hakimiyyət sürürdü. Onun başçılıq etdiyi quldur dəstəsi səhrada yaşayan köməksiz və tənha ailələrə, habelə kiçik şəhərlərə və kəndlərə hücum edərək var-dövlətini götürürdü. Muhəmməd ibni Səudə bu işdə ingilis kəşfiyyatı da kömək edir, onu silahla təchiz edirdi. Əsas məqsəd-İngiltərənin strateji düşməni olan Osmanlı imperiyasının tərkib hissəsi sayılan Ərəbistanda vəziyyəti gərginləşdirmək və ərəb torpaqlarının osmanlı nəzarətindən çıxmasına nail olmaq idi. Belə ki,İngiltərənin Ərəb torpaqları üçün müstəmləkəçilik planları vardı.Məhəmməd ibn Əbdülvəhhabın ideyaları da İngilis kəşfiyyatı üçün bir növ göydəndüşmə idi.Üzeynə qəbiləsinin quldur fəaliyyətinə ideoloji don geyindirmək üçün məhz Muhəmməd ibni Əbdülvəhhabın ideyalarından istifadə olunurdu. İngiltərə kəşfiyyat orqanlarının səyi nəticəsində Muhəmməd ibni Əbdülvəhhabla Muhəmməd ibni Səudun görüşü baş tutdu və onlar müqavilə bağladılar. Müqaviləyə görə bu iki şəxs bütün qüvvələrini sərf edərək ərəbləri özlərinə tabe etməli və güclü dövlət qurmalı idilər. Əldə edilmiş razılığa əsasən qurulacaq dövlətin rəsmi hakimiyyəti Muhəmməd ibni Səud və onun nəslinin əlində, ideoloji sahədəki rəhbərlik isə Muhəmməd ibni Əbdülvəhhab və onun xəlifəsində olmalı idi.Məhəmməd ibni Səud (o,Səudiyyə Ərəbistanın krallarının əcdadıdır) qısa müddət ərzində ətraf məntəqələrə yürüşlər təşkil edərək camaatı özünə tabe etməyə müvəffəq olur. Vəhhabilərin silahlı dəstələri müsəlmanları silah gücünə məcbur edirdi ki,Vəhhabi əqidəsini qəbul etsinlər. Kim bu təklifləri qəbul edirdisə, sağ qalır, qəbul etmirdisə, öldürülürdü.Köməksiz insanları tabe etmək üçün hər cür çirkin vasitələrdən istifadə olunurdu.Məsələn:-Vəhhabilər Taif şəhərinin əhalisinə hücum edərək, onların bütün əmlakını əllərindən almış, hətta əyinlərindəki paltarları da qarət edərək, ac-susuz və çılpaq insanları səhraya qovmuşdular. Sonra Vəhhabilər həmin adamlara elan etmişdilər ki, əgər sağ qalmaq istəyirlərsə, mütləq yeni məzhəbə

keçməlidirlər. Aclıqdan üzülmüş adamların bir hissəsi bu təklifi qəbul edərək, bir ovuc buğda müqabilində vəhhabilərin cərgəsinə qoşuldu, qalanları isə aclıqdan və vəhhabi qılıncının zərbəsindən həlak oldular. Onlar1800-ci ildə müsəlmanların müqəddəs şəhəri Kərbəlaya hücum etdilər, həmin gün Qədirxum bayramı olduğundan Kərbəla əhalisinin əksəriyyəti qonşu Nəcəf şəhərinəİmam Əlinin qəbrini ziyarət etməyə getmişdilər, şəhərdə isə qadınlar və uşaqlar, köməksiz qocalar qalmışdı.Vəhhabilər:"Kafirləri öldürün, Allaha şərik qoşanları qətl edin"-şüarı ilə qəfildən şəhərə daxil olub, müsəlman ları qılıncdan keçirməyə başladılar. Onlar evlərində gizlənmiş adamları öldürür, əmlaklarını qarət edirdilər. Əlacsız qalan Kərbəlalılar İmam Hüseynin məqbərəsinə pənah gətirib məsciddə gizlənirlər. Lakin vəhhabilər yenə onlara aman verməyib məscidin içindəcə qətl-qarəti davam etdirdilər.Vəhhabilər İmam Hüseynin məzarı üzərindəki taxta sənduqəni söküb yandırdılar. Məsciddəki bahalı xalçaları, çilçıraqları, zinət əşyalarını daşıyıb apardılar. Bu hadisə zamanı Kərbəlanın beş min nəfərdən artıq sakini şəhid edildi.Həmin il vəhhabilər Nəcəf şəhərinə də həmlə etdilər.Lakin Nəcəf dini elmlər mərkəzinin müəllimləri tələbələri silahlandıraraq şəhərin müdafiəsini təşkil etdilər (onlara mərhum Ayətullahul-üzma şeyx Cəfər Kaşifulqita rəhbərlik edirdi).Nəcəfi ala bilməyən vəhhabilər geri çəkilməyə məcbur oldular. Sonrakı illər ərzində vəhhabilər Nəcəf və Kərbəla şəhərlərinə hücum etsələr də, müvəffəqiyyət qazana bilmədilər.

Əbdül Vəhhabın tərəfdarları bir sıra dövlətlərə, o cümlədən Osmanlı sultanı III Səlimə (1761-1808) yazılı dəvətlər göndərmişlər. 15 il ərzində Nəcd və Yəmən vəhabiliyi qəbuletdi 1766-c ildə Məhəmməd ibn Səud vəfat etdikdən sonra yerinə oğlu Əbdül Əziz keçdi. O,qılınc gücünə vəhabi təlimini yaymaq işini davam etdirdi. 1733-cü ildə vəhabilər Məkkə xalqını dəvət etmək və oranın alimləri ilə mübahisə etmək üçün 30 nəfərdən ibarət alim heyətini Məkkəyə göndərdilər.Vəhabi alimlər bu mübahisədə öz görüşlərini müdafiə etməkdə aciz qaldılar və Məkkə qazisi onların küfrünə hökm verdi.

1802-ci ildə vəhhabilər Ərəbistanın cənubundakı Taif şəhərini işğal edərək şəhərin müsəlman əhalisini qılıncdan keçirdilər. Onlar hətta quran oxuyan şəxslərə də aman vermir,həmin vəziyyətdə qətlə yetirirdilər.Vəhhabilərin gözündə qeyri-vəhhabi müsəlmanların hamısı kafir və müşrik olduğundan, nə adamların özünə, nə də əmlakına ehtiram bəsləyirdilər.Vəhhabilər"müşrik malıdır" bəhanəsi ilə Taiflilərin evindəki Quran nüsxələrini, Buxari və Müslimin "Səhihi" adlı məşhur hədis kitablarını küçələrə tökərək bu müqəddəs kitabları ayaq altına saldılar.

Həmin il vəhhabilər müsəlmanların qibləgahı olan Məkkəyə hücum edərək oranı işğal etdilər.Bir neçə gün ərzində davam etmiş əməliyyat nəticəsində Məkkədəki bütün müqəddəs ziyarətgahlar (Kəbədən başqa) uçuruldu. Peyğəmbərin babası Əbdülmütəllibin, atası Abdullahın,həyat yoldaşı Xədicəyi Kübranın məzarı üzərindəki məqbərələr yerlə-yeksan edildi.Məkkə alimlərinə əmr olundu ki, mədrəsələrdə Muhəmməd ibni Əbdülvəhhabın kitablarını tədris etsinlər.

1803-04-cü illərdə ilyarımlıq mühasirədən sonra Peyğəmbər şəhəri Mədinə də vəhhabilərin əlinə keçdi.Həzrət Muhəmməd Peyğəmbərin məqbərəsindən başqa Mədinənin bütün ziyarətgahları viran edildi, (vəhhabilər əvvəlcə Peyğəmbərin məzarını da uçurmaq istəyirdilər, lakin müsəlmanların qəzəbindən qorxaraq bu fikirdən əl çəkdilər),dörd İmamın (İmam Həsən,İmam Zeynulabidin, İmam Baqir və İmam Sadiq ə.s.)qəbri, Bəqi qəbiristanlığındakı məzarları, habelə xeyli başqa müqəddəs yerlər külüng və bellə tarmar olundu.Vəhhabilər müqəddəs ziyarətgahlarda saxlanılan dörd sandıq dolusu ləl-cəvahiratı qarət edib, apardılar.

Vəhhabilər 1800-1810-cu illər arasında Ciddə, Bəhreyn, Suriya, İordaniya və başqa məntəqələrə mütəmadi yürüşlər təşkil edərək bu ərazilərin bir hissəsini işğal etməyə və bütün regionu qorxu altına salmağa müvəffəq oldular. Qeyd edilmişdir ki, vəhhabilərin fəaliyyəti tarix boyu eniş-yoxuşlu və pilləvari olmuşdur, belə ki, sürətli inkişaf mərhələsindən sonra təqribən 1812-ci ildən başlayaraq,vəhhabilər Osmanlı imperiyasının təzyiqi qarşısında geriləyərək müvəqqəti tənəzzül etdilər. Onların böyük əksəriyyəti etdikləri cinayətlərin müqabilində cəzalandırıldı.1819-cu ildə Detriyyə şəhəri Osmanlı əsgərləri tərəfindən fəth olundu.Bundan sonrakı 100 il ərzində vəhhabilər yeni gizli paytaxtda-Riyad şəhərində toplaşaraq, məxfi şəkildə öz fəaliyyətlərini davam etdirdilər.

Birinci dünya müharibəsinin başlanması ilə Ərəbistanda da vəziyyət kəskin surətdə dəyişdi. Həmin müharibədə məğlubiyyətə uğramış Osmanlı imperiyası, bütün Ərəbistan əraziləri İngiltərə və Fransa dövlətinin mandatı altına keçdi.Bu ərazilərdə İngilis və Fransız qoşunları yerləşdirilməyə başladı.Həmin dövrdən başlayaraq İngiltərə öz köhnə müttəfiqi vəhhabilərlə əlaqələri daha da gücləndirdi.1919-cu ildə ingilislər Nəcd vilayətinə müstəqillik verərək Səud sülaləsindən olan Əbdüləziz ibni Səudu hakimiyyətə gətirdilər.Əbdüləziz 6 il ərzində(hər il 40 min lirə almaq etibarı ilə) İngiltərə hökumətindən yardım alaraq fəaliyyət dairəsini genişləndirdi.

XX əsrin ilk illərindən başlayaraq xeyli qüvvətlənmiş vəhhabilər, öz hərbi fəaliyyət dairələrini genişləndirdilər.İngiltərə hökumətinin və ordusunun birbaşa himayəsi altında vəhhabilər 1924-26-cı illərdə əvvəlcə Taif şəhərini,sonra Məkkəni və Mədinəni ələ keçirdilər. 100 il ərzində müsəlmanlar tərəfindən bərpa edilmiş və hətta qaytarılmış ziyarətgahlar yenidən yerlə-yeksan olundu, həmin dövrdən başlayaraq vəhhabilik bütün Ərəbistanın rəsmi ideologiyası, Səudlar sülaləsi isə ölkənin kralı oldu.

Vəhhabilərin əsas əqidəsi Allahdan başqasına and içmək, nəzir və qurban kəsmək, Peyğəmbər və övliyalardan şəfaət diləmək, onların və öz doğmalarının qəbirlərni ziyarət etmək, qəbirlərin üzərini tikmək, qəbirlərin üstündə dua etmək, ölülər üçün Quran oxumaq olmaz və bu kimi müqəddəs əməllərə qadağalar qoymaqla həm insanın öz keçmişini, tarixini və ən əsası isə İslamın tarixini yerlə-yeksan edib məhv etməkdir. Bir millətin, xalqın keçmişi olmasa, gələcəyi necə ola bilər? Çox böyük bir siyasətlə və Quran ayələrini insanlara yarımçıq təqdim etməklə, demək olar ki, Peyğəmbər və onun övladlarının qoruyub saxladıqları, Peyğəmbərin bizə əmanət qoyduğu İslam dininə xəyanət etdilər.

Vəhhabilər xaricdən çox güclü maliyyələşərək insanlara maddi və mənəvi dayaq göstərərək, öz sıralarını genişləndirməkdə davam edirlər. Vəhhabilik bir virus, infeksiya, mikrob kimi yayılmaqdadır və çox dəhşətli olan isə,bu təriqətdən olan insanların qeyri-adi görünüşləri ilə birlikdə, onların insanlara və dünyaya baxışlarıdır. Onların sanki öz əql və düşüncələri yoxdur və bu firqədə olan insanların hamısının baxışlarında sanki həyat, yaşayış dayanmış və yalnız özləri və öz əqidələrindən başqa,dünyada heç nə və heç kəs yoxdur**. ("Vahhabi məzhəbi" Cəfər Sübhani,"Vəhhabiliyin təhlili" Humayun Hümməti)**

Açıqlama:Vahhabi təriqətinin siyasət və planlarını araşdırıb, öyrəndikcə, müşahidə etdiyimiz məqamların, əlbəttə, hamısını yox, birikisini burada qeyd etmək istərdik. Deməli, bu təriqət zamanın, şəraitin nəbzini tutaraq digər təriqətlərdə yaranmış təhriflərdən,fikir ayrılıqlarının nəticələrindən çox gözəl istifadə edərək,yalnız öz təriqətlərinin haqq olduğunu dəlillərlə sübuta yətirirlər.Bu,sanki"Oğru elə bağırır ki,doğrunun bağrı yarılır" məsələinə bənzəyir.Halbuki hamımız həmin fəsadçıları da çox gözəl tanıyırıq və bir-iki nəfərin məqsədli fəaliyyətlərini bütün təriqətin ideya-məqsədinə şamil etmək qətiyyən düzgün deyildir. İnsanlar isə yalnız maddı gözlərinin gördüklərinə inanırlar. Çünki illərlə dindən uzaq düşüb, bu sahədə heç bir bilik,

təsəvvürləri olmadıqları və özlərinin də həssas unsanlar olub, bəzi şeyləri qəbul etmədiklərindən,nicat yolu kimi vahhabi təriqətinə üz tuturlar. Onlar bu təriqətdə sanki bir qurtuluş, özünə inam, təskinlik tapıb və hər şeyin ürəklərincə olduğunu düşünürlər. Sonradan bu hisslərə əlavə olunan öz aləmlərində özlərindən razılıq və ”Allahın”da onlardan razılığı kimi inamın, əslində, susuz səhrada uzaqdan görünən ilğımdan(mirajdan) başqa bir şey olmadığını başa düşə bilmirlər.

Əsl həqiqət isə çox dərindədir, həqiqəti görmək üçün gərək insanın bəsirət gözü açıq olsun.Çünki sizin maddi gözünüzün görmədiyi, özünüzün də oxuyub-öyrənmədiyi və əsil elmin, mədə niyyətin, təqvanın, ən əsası isə dinimizin əsl həqiqətləri olan və bizi uca məqamlara aparacaq yolu göstərən“ilahi nur”çox qalın pərdənin arxasındadır. Bu pərdəyə tarix boyu insanlar və ya şeytanlar elə insanların özlərini çaşdırmaq, aldadıb özlərinə cəlb etmək üçün müxtəlif rənglərdən istifadə edərək cürbəcür tablolar çəkmişlər. Sonra isə”hansımızın tablosu qəşəngdir”deyib, araya mubahisələr salaraq, insanların başını qatıb, onları ömürləri boyu əsl həqiqəti görməyə qoymamışlar.İndiki dövrümüzdə isə hərtərəfli inkişafımızla əlaqədar olaraq yağlı boyaların çeşidlərinin artması və həvəskar rəssamların da çoxalması nəticəsində o pərdənin insanların görə biləcəkləri tərəfi, üzü artıq müxtəlif çeşidl tablo və portretlərlə dolaraq, qarışıq, anlaşılmaz bir şəklə düşmüşdür. Lakin bu pərdənin o qarışıq üzünü qaldırıb əsil həqiqəti görmək üçün yəqin ki, Alim Allahın qədər-qisməti, sonra isə insanın özünün məqsədi, ağlı və elmi olmalıdır. Bunun üçün o qədər Allaha inam, elm, iman lazımdır ki, pərdənin görsənən üzündəki o tablolar səni özünə cəlb edərək yoldan saxlamasın və sən bu yolu azmadan, heç nəyə, heç kəsə baxmadan o rəngli pərdəni qaldırıb arxasındakı nurun içinə daxil ola biləsən. Bax onda əsil rahatlığın, qəlbindəki nurun, asudəliyin, özünə inamın nə olduğunu bilərsən. O zaman qəlbinin hər kəsə qarşı hörmət, məhəbbətlə dolduğunu, hər kəsi olduğu kimi qəbul edib, bəndələrini Allahın öz ixtiyarına qoyaraq, bu dünyanı gözəl görüb, özünün də, ruhunun da necə sərbəst, rahat olduğunu hiss edərsən.Yalnız onda dərk edəcəksən ki,bizi bu imtahan dünyasına öz“ülvi ruhu”nu bəxş edərək göndərən Qadir Allah bizi nə üçün yaradıb və biz hansı amalla yaşamalıyıq ki, əbədi dünyanın gözəlliklərinə,ən əsası isə Uca Yaradanın vəslinə çata bilək . (Ya qismət, İlahi)

Bu da bir həqiqətdir ki, tarix boyu, elə insanın ilk yaranışından bu günə kimi, sonra isə qiyamətə qədər olacaq müddət ərzində Adil Allah həmişə müxtəlif bəhanələrlə bizi imtahan etmişdir ki, bizlərin həqiqətən

də nəyə layiq olduğumuzu elə özümüzə sübut etsin.Bu səbəbdən də Şeytana və bu xislətlə yaşayan insanlara şərait, imkan, meydan yaratmışdır ki, inkişaf edərək daha çox yayılsınlar. Necə ki, Qadir Allah İblisə,"Adəmin bir övladı olanda,sənin iki övladın olacaq"dediyi kimi. Üstəlik də İblisin bizlərə müsəllət olmağına icazə verərək imtahanımızı daha da çətinləşdirmişdir.

Onu da bilin ki, fitnə-fəsad, yalan, qəddarlıq, çoxaldıqca, bizim də sinağımız çoxalır və imtahanımızın sualları da mürəkkəbləşir.

Bir şeyi qeyd edək ki, Allah-taala öz istəkli bəndələrini daha çox imtahan edir, istəmədiyini isə özbaşına buraxır ki, onlar da özləri üçün kef-damağdadırlar. Yəni ölkəmizdə bu təriqətə daxil olmuş insanların əksəriyyəti hissiyyatlı, vətənpərvər, qeyrətli, namuslu, demək olar ki, Allahın bəsirət gözünü açmaq istədiyi, seçmə bəndələridir. Mən inanıram ki, bu insanlar suallarla dolu həyatlarının müəyyən çətin vaxtlarında, təsadüf və yaxud da zərurət nəticəsində bu təriqətin güclü psixoloji təsiri altına düşmüşlər. Heç nə yox, təkcə onu qeyd etmək istəyirik ki, bir təriqətin ki, ideologiyası milli-mənəvi, dini-müqəddəs şeylərə dəyər verməyərək dağıtmaq, keşmişin üstündən xətt çəkərək unutmaq, özlərindən başqa yer üzündə olan bütün insanları bir insan, bir canlı kimi belə görməmək,onlara qarşı nifrət,qəzəb,öldürmək-dağıtmaq siyasətini aparmaqdırsa,hansı"dini" təriqətdən danışmaq olar?Axı İslam dini Allahın biz insanlara bütün yaratdıqlarına dəyər verərək yaşamağı təlim edən və insana ən ali duyğuları bəxş edən, sevgi-məhəbbət dinidir.

Yenə də üzümüzü tutub, vətənini, dinini sevən qeyrətli balalarımıza müraciət edərək deyirik, nə qədər gec deyil, qəflətdən ayılın. Bizdə, Allaha dua edərək sizlərin bəsirət gözünüzün açılıb, haqqı görmənizi Qadir Allahdan təvəqqə edirik. Əgər özünüz bir az fikirləşsəniz, görərsiniz ki, Allahın bu imtahanı sizin qismətinizə düşübsə, deməli, siz Allahın ən çox imtahan etdiyi istəkli bəndəsisiniz.Bir az da dərindən fikirləşsəniz, heç kəsə qulaq asmayıb, özünüz bu elmi oxuyub-öyrənib, başa düşüb görərsiniz ki, həqiqətən, bu dünyanın çətinlikləri müvəqqətidir. Əsil iman isə sizin əbədi dünyanıza apara biləcəyiniz haqqı görüb, tanımaqdır.Bir də onu bilin ki, Alim Allah ən istəkli bəndələrini müqəddəs dəyərlərlə(valideyn,vətən,din-məssəb,adət-ənənə) daha çox imtahan edər,onları seçim qarşısında daha çox qoyar,onları həyatları boyu elə çətin yollara salar ki,o insan özü dərk edərək, özü istəyərək,özü haqqı axtararaq,özü haqqı tapsın.

MƏQALƏ
BU GÜN İTİRDİKLƏRİMİZ ÜÇÜN SABAH CAVAB VERƏCƏYİK

Hud-119 - "Allah insanların dində ixtilafda olub-olmayacaqlarını, özlərini necə aparacaqlarını əzəldən bildiyi üçün onların bütün gələcək işlərini və hərəkərlərini öz qüdrət Qələmi ilə, Lövhu-Məhfuzda yazmışdır."

Yaşadığımız Sovet hakimiyyəti dövründə dinəmizə qarşı qadağalar və ateizm siyasəti yeridilsə də, xalqımız öz dini və irsi adət-ənənələrini, məshəblərini açıq-gizlin qoruyub saxlaya bilmiş və bu dövrümüzə qədər yaşatmışdır.

Bu gün inkişaf edərək hər sahədə böyük nailiyyətlər əldə etmiş, demokratik dövlət olan ölkəmizdə dinimizə də böyük dəyər verilir, yeni-yeni məscidlər tikilir və dinimizə aid lahiyə və proqramlar hazırlanır. Hətta dinimizin həqiqətləri haqqında bilgilər artıq orta təhsil sistemində də yavaş-yavaş tətbiq edilməyə başlanmışdır.Lakin bütün bu keçid mərhələlərində olan cəmiyyətimiz, bu gün dinimiz haqqında çox az məlumatlara sahibdirlər və din dedikdə beyinlərdə yalnız"Molla"obrazı canlanır.Əslində isə dünyəvi elmlərin hamısını özündə cəmləyən, ruhani və mənəvi elmləri öyrədən, kainatın son dini olan İslam dini, Allahın bizlərə də dəyər verib bəxş etdiyi müqəddəs dindir.

Demokratik ölkəmizdə bütün bu proseslərdən yəni, cəmiyyətin din haqqında məlumatlarının mükəmməl olmamasında çox məharətlə istifadə edən bəzi xarici və daxili qüvvələr müxtəlif dini təriqətləri ölkəmizdə yaymağa başladılar. Qısa bir müddərdə çox elmlə, müəyyən mənbələrə istinadlarla, istədikləri kimi Quran ayələrini təfsir edərək, bəlağətli söhbətlərlə təbliğatlar apararaq, yeniliyə can atan, dinimizi daha yaxından tanımaq istəyən bəzi savadlı gənclərimizi, həmçinin maddi və mənəvi dəstəyə ehtiyacları olan bəzi imkansız insanları öz sıralarına cəlb edə bildilər. Bununlada ölkəmizdə müxtəlif məshəblərə qulluq edən təriqətlər yarandı. Sonra məlum oldu ki, bu təriqətlər yeni-yeni fətvalarla cəmiyyət arasında, dinimizə kök-məshəbimizə və qədim milli adət-ənnələrimizə qarşı şəkk-şübhə yaradır və onlara öz köklərindən uzaqlaşdırmaqa çalışırlar. Elə bununla da,bütöv bir xalqın öz dinini, keçmiş və gələcəyini, mənəvi dəyərlərini bəyənməməyi, onlardan üz döndərməyi təlim etdilər.

Bu məsələlərlə əlaqədar olaraq cəmiyyətin içində müxtəlif suallar yaranmışdır. Həmin sualların bir neçəsini burada açıqlamaq istəyirəm.

Deyirlər ki, güya ölülər üçün Quran,Yasin surəsini oxumaq, doğmalarının qəbirlərini və tarix boyu müqəddəs saydığımız ocaqları, pirləri ziyarət etmək düzgün deyildir, hətta haramdır. Hər halda bu fətvanı verən insanlar özlərini dindar hesab edirlər və Quranda yazılan ayələrdən də xəbərləri vardır.Onda belə bir sual ortaya çıxır: İnsan öldükdən sonra torpağın altında yox olan cismi ilə birlikdə ruhuda yox ölurmu?

əl-Maun -1-Ya Muhəmməd!Qiyamətdə cəza verilməyi və ölümdən sonrakı həyatı təkzib edən kəsi gördünmü?

Bidiyimiz kimi Allahın ilk yaratdığı Nuri-Muhəmməd, Lövhu-Məhfuz, Qələm, Əql, beş kimsənin ruhu və Qiyamət gününədək dünyaya gələcək bütün insanların ruhları olmuşdur. Allah-taala əqı, şüur verərək yatardığı ruhlar aləminindən 2 min il sonra cisimlər aləmini, Hz.Adəmin palçıqdan cismini yaratdı və ona öz ruhundan üfürdü. İnsan ruh və bədəndən ibarətdir. Ruh özü isə müstəqil, bədənin varlığından asılı olmayan bir cövhərdir və onun zehni mülahizələri dərk etmək qabiliyyəti vardır. **(”Hədisi qüdsi” və“Qırx sual”Mövlana Furati).**

Hz. Adəmdən çox öncə var olmuş əql-şüura sahib olan ruhlarımız isə zərrəciklər şəklində kainatda imtahan dünyasına gəlmək üçün öz növbəsini gözləyirlər və vaxtları gəldikcə, müvəqqəti bir qəlibə (bədənə) salınaraq bu imtahan dünyasına göndərilirlər.Bu insanlar yazılan, zaman və həyatı faili-müxtar(güya istədikləri kimi) yaşayırlar. Müvəqqəti gəldikləri bu dünyanı tərk etdikdən sonra ölən cisimləri torpağa basdırılır, əql və şüura sahib olan ruh isə, yaşadışı həyatı yaddaşında saxlayaraq yenə də müvəqqəti olaraq, Bərzax aləminə aparılır. Bərzax aləmində (“aləm misalı”olan yer) ruhlar, öz əməllərinə, günah və cavablarına görə müxtəlif məqamlarda, müxtəlif vəziyyətlərdə qalıb, dünya həyatındaki insanlarla birlikdə Qiyamət gününün gəlməsini gözləyirlər.Allahın əmri ilə Qiyamət günü gəlib, birinci dəfə İsrafil (ə.s.)suru çalması ilə hər şey,hamı məhv olacaq. Sonra isə Allahn əmri ilə İsrafil(ə.s.) ikinci dəfə suru çalacaq və hamımızın cisimləri torpaq altinda çürüyüb,gözlə belə görünməyən balaca zərrəciklərdən (malekullardan) ibarət olduğumuz halda,təzədən öz bədənlərimizdə, hətta öz barmaq izlərimizlə bərabər qəbirlərdən çıxaraq Məhşərdə, haqq-hesab üçün toplanacağıq. Hətta bir-birimizə sual edəcəyik ki, görən biz ”bir gün, bir saat,yoxsa bir necə gün” bu torpağın altında qalmışıq? Məhşərdə haqq hesabdan sonra hər kəs öz cismi və ruhu ilə birlikdə ya Cəhənnəmə, ya da ki, Cənnətə göndəriləcəkdir.

“ət-Tovbə-101-“Biz onlara iki dəfə:-dünyada və qəbir evində (Bərzəxdə)əzab verəcəyik. Sonra axirətdə ən böyük əzaba uğradacağıq.”

“əl-Əhqaf-35- Onlar əzab verilən günü gördükdə elə güman edərlər ki, dünyada sadəcə bir saat qalıblar.Yəni Bərzəx aləminin,ya Qiyamət gününün uzunluğu müqabilində dünyada sürdükləri ömür çox az görünər.”

Deməli,çox əvvəldən var olmuş, müəyyən bir zaman bu dünyada yaşayıb, sonra da ruhlar dünyasına qayıdacaq ruhlarımız Allahın Heyy ismi-şərifi(Allah nə mürgüləyir,nə də ki,yatır) kimi həmişə oyaqdır və heç vaxt ölməyəcəkdir.Allah bunu bizə hər gün sübut edir.Yəni,biz gecələr yatdığımız zaman belə bizim”ülvü ruh”umuz yatmır və “Ruhlar aləminə” pərvaz edir və qayıtdıqdan sonra isə biz artıq dərk edir, özümüzü bilir və ayılırıq.Yatdığımız zaman bizim nəfəs alıb verməyimiz, orqanlarımızın fəaliyyət göstərməsi isə ruhun cismə məxsus olan heyvani, şüursuz, instik xüsusuyyətidir.Əgər Allahın əmri olsa Ruh özünün iki xüsusiyyəti ilə birlikdə bədəni tərk etsə, insan yuxu zaman ölər. Ölən bədəni tərk edən ruh həmin yaddaş və şüurla birlikdə Qiyamət gününəcən yaşayacaqdır.

“Zumər-41 və əl-Ənam-60-Allah elədir ki, gecələr sizi yuxu səbəbi ilə öldürər, cisminiz yataqda, ruhunuz isə yuxu aləmini gəzər.Bu minvalla sizi bir növ ölüm halına salıb hiss-həyəcandan məhrum edən, gündüz isə sizi dirildərək nə etdiyinizi, nə qazandığınızı bilən Odur.O sizi gündüz yuxudan oyandırar ki, müəyyən edilmis vaxta qədər yaşayıb,sonra əcəl gəlib yetişsin.Sonra ölərək, Allahın hüzuruna qayıdacaqsınız. O sizə cəza verməklə etdiyiniz əməllər barəsində xəbər verəcəkdir. Allah öz bəndələri üzərində qələbə çalandır. O şeytanlardan qorunmaq üçün sizə mələklərdən ibarət qoruyucular göndərər.Nəhayət, birinizin ölüm vaxtı gəldikdə, Allahın əmrinə tabe olan ölüm mələkləri onun ruhunu qəbz edər. Onlar öz əməllərində heç bir qüsura yol verməzlər. Sonra özlərinin həqiqi ağası, Allaha tərəf qayıdarlar. Xəbərdar ol!Bu günün hökmü Allah üçündür.O hesab edənlərin ən sürətlisidir.”

Biz hələ sağ ikən öz ruhumuz, yəni mənəvi qidamız üçün, həmçinin bu dünyada ins və cindən qorunmağımız, bir çox dünyavi və ruhani istəklərimiz üçün Quran oxuyur, Allaha dua edir, dinimizin buyurduğu hökmləri yerinə yetirməyə,ibadət və itaət etməyə çalışaraq, Rəhman Allahdan əfv olunmağamızı diləyirik.Bu da Allahın hələ ki, bədəni olan bizim ruhumuza verdiyi şansdır ki, qısa bir zamandan istifadə edib,hər kəs özü üçün Cənnət savabını qazana bilsin.

Onda cisimləri artıq olmayan,ancaq ruhları diri olan nənə-babalarımızın ruhu üçün Quran, Yasin və sair surələri oxuyaraq, dua edib onlar üçün Rəhim Allahdan rəhm, mərhəmət diləməyimiz niyə

düzgün deyildir? Axı ruhlar ölmürlər, həmişə sağ olan ruhların öz əzizlərinin sevgilərinə, onları yad etmələrinə bəlkə də biz dirilərdən də çox ehtiyacları vardır. Buna sadə misal, rəhmətə getmiş əzizlərimizi yuxularımızda müxtəlif vəziyyətlərdə görməyimizdir. Deməli,Qurani-Kərimin, Yasin surəsinin və duaların oxunmasına istər sağ insanların ruhları üçün, istərsədə ölmuş insanların ruhları üçün oxunması elə Rəhman (bu dünyada) və Rəhim(əbədi dünyada) olan Allah tərəfindən buyurulmuşdur.Çünki Quran, Allaha dua heç vaxt ölməyən insan ruhunun maddi, mənəvi və ruhani qidasıdır.

Əgər, həqiqətən də sizin dediyiniz kimi insan ölüb tamamilə yox olursa, ölüyə, yox olmuş çürüntüyə,bir daha rastlaşmayacağımız,bir daha xatırlamayacağımız və bir daha dirilməyəcəyimiz ölülər üçün Quran oxumaq nəyə lazımdır ki?Qurani-Kərimin ayələrində insanın iki dəfə ölüb, iki dəfə dirilməsi, ruhların daim var olması və ölüm, Qiyamət, məhşər, mizan, Cənnət, Cəhənnəm haqqında çoxlu ayələr varsa nəyə əsaslanıb, Allahın Öz ruhundan bəxş etdiyi elə Heyy (diri) olan ruhlarımızı ölü adlandırırsınız? Sizin və sizin törəmələrinizin əsrlər boyu (7 nəsil) genini daşıyacağınız insanların, bu dünyada nəsillər yetişdirib özündən sonra sizin kimi yadigarlar qoymuş əb-əcdadlarınızın həqiqətən də, izsiz, nişansız yox olduğuna, ölü olduğuna inanırsinizsa onda heç onları yad etməyin.Çünki ruhları incitmək,qəlblərinə dəyib onları ölü adlandırmaq, ruhları təhqir etmək,həm də Allahın buyurduqlarına qarşı çıxmaqdır.

a)Ölən insanları,yəni əzizlərimizin qəbrlərini ziyarət etmənin də bir çox hikmətləri vardır.Ən birinci xatırlayaq ki, Qabil qardaşı Habili öldürdükdən sonra, çaşıb qaldığı zaman, Allah-taala bir qarğanın digər ölmuş qarğanı torpağı qazaraq basdırmasını göstərib,ona dərs verdi və həmin gündən də bütün ölülər torpağın altında basdırılırlar.Əgər bu işdə bir hikmət olmasa idi elə o vaxt Allah-təala insanlara, ölənlərini xatırlamamaq üçün başqa bir yol göstərərdi və ölülərdən də bir əsər-əlamət və bir nişanə belə qalmazdı və heyvanlar kimi yerlərdə çürüyüb yox olardılar.

b)Başqa bir hikmət yuxarıda qeyd edildiyi kimi Qiyamət günü insanların torpaqdan yenidən dirilməsi yəni, hər bir cismin torpaqda zərrəciyinin qalması.

Sonra isə insanın öz keçmişini(əsl-nəcabətini) unutmaması və hər qəbirstanlığa getdiyimizdə ölümün haqq olduğunu bir daha xatırlayaraq, onun lap yaxında olmasını və yaşadığımız dünyanın müvəqqəti olduğunu, alinib-verilən nəfəsin belə sayda olduğunu və dünyaya belə

siğmayan “mən”liyimizin (təkəbbürlüyümüzün) bir heç olduğunu xatırlatmaqdır.

q)Birdə qəbirstanlığa girdikdə həqiqətən maşin-maşin,ev-ev, gəlincik-gəlincik oynayan biz insanların bu fani dünyada müvəqqəti yaşadığımızı bir daha dərk etməkdir.

d)Həmçinin də ruhları daim var olan əzizlərimizi xatırlayıb, onları yad etmək, onların ruhlarını sevindirməkdir. Bir də ki,insanın özünə, kökünə qayıtmaq və xatırlamaq ki,sənin əslin-kökün, nəcabətin var, sən ot-ələf deyilsən və sənin keçmişin və səndən sonra da gələcəklərin var.

İndi özünüz düşünün ki, əgər bizim keçmişimiz olmasa gələcəyimiz bəs necə ola bilər? Bir az dərindən düşünəndə insan dəhşətə gəlir,axı,insanın əsl-nəcabəti, kökü, nənə-babası, ana-nənəsi, əb-əjdadı, dini, məssəbi, vətəni,bir sözlə bütün müqəddəs dəyərləri unudulmaq üçün yaddaşlardan silinirsə, onda bəzi canlılardan (bəzi heyvanlar öz adət-ənənələrinə çox sadiqdirlər) bizim nə fərqimiz vardır?Axı insan bütün canlılardan, hətta mələklərdən belə üstün yaradılıb və insan adının bəxş edilməsinin səbəbi də Allahın ruhu vasitəsilə gözəl duyğuların, müqəddəs dəyərlərin bizlərə bəxş edilməsidir.Hətta surətlərimizin belə(digər canlılardan fərqlı) gözəl,yaraşıqlı yaradılmasının səbəbi Allahın öz “ülvü ruhu”na verdiyi dəyərin nəticəsidir.Allahın bəxş etdiyi bütün bu müqəddəs dəyərlər elə bu dünyadaki, biz insanların imtahanıdır. Əgər biz İslam elminin şəhərinə Peyğəmbərimizin buyurduğu qapıdan girsək heç kəs bizi aldada bilməz və heç kəs bizi müqəddəs dəyərlərimizdən uzaqlaşdıra bilməz.

3.Bildiyimiz kimi Miladı 8-ci əsrdən başlayaraq Azərbaycana və İran Azərbaycanına İslam dini “dörd xəlifə” dövründə Hz. Əlinin təşəbbüsü ilə yayılmışdır.Əməvilərin və Abbası xəlifələrərinin hakimiyyəti dövründə xəlifələr tərəfindən Peyğəmbər övladları təzyiqlərə məruz qaldıqlarında İraq, İran və Azərbaycan torpaqlarında məskunlaşmışlar. Zamam–zaman baş verən tarıxı hadisələrlə əlaqədar olaraq və bəlkə də bizlərə Allahın böyük lütf və mərhəmətinin nəticəsi olaraq, Azərbaycan torpaqlarında Peyğəmbər övladlarının nəslindən gələn və seyyid və seyyidələr bütün başqa ölkələrə nisbətən daha çox məskunlaşmışdır. Bununla əlaqədar olaraq elə hamımız uşaq yaşlarımızdan müqəddəs sandığımız ocaqları, pirləri ziyarət etmişik və bu pirlərə gedəndə valideynlərimizin həvəslə hazırlaşdığını, müxtəlif yeməklərin, halvalavaşların bişirilməsinin, qoyun qurbanı kimi müxtəlif nəzir-niyazların paylanmasının da şahidi olmuşuq. İndi də pir və ocaqlara gedəndə insanlarda bir saflaşma,bu dünyanın qarışıqlığından çıxaraq bu müqəddəs

məkanlarda özünü dərk etmə prosesi baş verir.İnsanların simalarında ciddiləşmə,dua edərək Allaha yaxınlaşma, müşküllər içindən çırpınan insanların Allaha yalvarış pıçıltıları sanki insanı,öz insanlığına qaytarır. Kim deyir ki, bütün müqəddəs yerlərə,ocaqlara gedəndə insanlar həmin ocaqdan imdad istəyir? Bu qədərmi insanlarımızı, millətimizi cahil, nadan görürsünüz? Hətta qədim-kökü olan və ya olmayan ölkələrdə,müxtəlif dinlərdən olan millətlərin belə müqəddəs bildikləri,daş-divar, qəbir, məkan, ocaq yerləri vardır. Elə yaxın qonşularımız özlərinki olmayanları, bütün daş-divarları müqədədslədirərək öz adlarına çıxmaqdan heç yorulmurlar.Ancaq Qadır Allah bizim Vətənimiz qədər heç bir diyara bu qədər gözəlliklər, ulular, müqəddəs ocaqlar bəxş etməmişdir. İndi insanları ocaqlara getməkdən diksindirərək bəlkə də,ən böyük imtahanımızı yaşayırıq. Axı bizdən əvvəl də qövmlər çox olmuş, (Qurandan) Allahın verdiyi nemətlərə xor baxdıqlarına görə Allah onları da yer üzündən silmiş, yerlərinə başqa-başqa qövmlər gətirmişdir. Buna görə də bu məsələlərdə bir az ehtiyatlı olmaq və Allahdan qorxmaq lazımdır.Bir də onu bilin ki, bizim xalqımız, millətimiz pirlərə, müqəddəs ocaqlara, məscidlərə gedəndə yalnız tək bir olan Allaha yalvarmağa, Allahdan istəməyə,saf, təmiz, sakit, dərgahın belə açıq olduğu yerlərdə Allaha daha da yaxınlaşmağa, öz müşküllərini dilə gətirərək, ilahi hislərlə Allahla təmas qurmağa gedirlər.Çünki evlərdə, kafelərdə, parklarda,barlarda,kino və konsertlərdə, kişilərin çayxanalarda, qadınların gözəllik salonlarında bayağı söhbətlərlə başlarını qatdığı, televiziya qarşısında seriallara baxmaqda, bir xalqın mədəniyyətini,tərbiyəsini mənəviyyatını güzgü kimi nümayiş etdirən sossial şəbəkələrdə oturub oyunlar oynamaqda, bir sözlə dünya aləminin insanların başlarını qatdığı bu məkanlarda, Allahla təmas qurmaq qeyri-mümkündür.Axı Şeytanın ən xoşu gəldiyi yerlərdə insanların Allahı unudaraq, (həmin məkana uyduqları üçün) Allaha dua etmələri, Allaha yalvarmaları çox çətindir.Siz cəmiyyəti müqəddəs yerlərdən uzaqlaşdırdıqca, cəmiyyətin də mənəviyyatında pozğunluqlar əmələ gəlir. Bu bəs Vətənə, dinə, millətə,dilə,qədim adət-ənənələrə, keçmişə və gələcəyimizə xəyanət deyil, bəs nədir? Bu gün elm-texnikanın inkişaf etdiyi, informasiya bolluğu olduğu bir dövrdə bütün dünya xalqlarının artıq dərk edərək,öz keçmişinə, dininə,qədim, müqəddəs məkanlarına döndüyünü, həmçinin dahi, müqəddəs şəxsiyyətlərinə olan münasibətlərini də izləyin. Hamı bilir ki, Allah təkdir, Onun heç bir şəriki yoxdur. Bununla belə Allah ilk yaratdığı insanı Adəmi (ə.s.) Peyğəmbər etmişdir və Yer üzündə heç vaxt dinsiz və Peyğəmbəri olmayan bir insan, bir millət olmamış-

dır.İnsanlara həmişə yol göstərən,istiqamətləndirən şəxslər olmuşdur. Qiyamət günü də hər Peyğəmbər öz ümməti üçün şahidlik edəcək. Bu səbəbdən də Allahın əmrlərini və Peyğəmbərin göstərişlərini yerinə yetirmək hər bir İslam ümmətinin mənəvi borcudur.

ən-Nəcm-32- "Sənin Allahın çox bağışlayandır.Allah sizi yaratmamışdan da qabaq yaxşı tanıyırdı. O vaxt ki, sizin əcdadınızı torpaqdan yaratdı. Siz analarınızın bətnində olduğunuz zamanda Allah sizi yaxşı tanıyırdı.Buna görə özünüzə paklıq nisbəti verməyin, özünüzü böyük sayıb tərif etməyin. Allah sizin təqvalı olanınızı çox yaxşı tanıyır."

Bütün bu məsələrlər mənə uşaq vaxtı gördüyüm bir filmi xatırladır. Özbəkfilmin (deyəsən)çəkdiyi bu filmdə çox qocaq, insanlar içərisində qəhrəmanlığı ilə ad çıxarmış bir gəncin, tayfa başçısı olan anasına və vətəninə, xalğına,obasına qarşı olan məhəbbətinin necə ağlından silinməsindən bəhs olunur.Qoçaqlığı ilə hamını qorxuya salmış bu oğlanı, bir gün qatı düşməni hiylə ilə ələ keçirir və başını qırxaraq, qoyunun soyulmuş dərisini onun başına yapışdırır. Günlər keçdikcə altdan çıxan saç, dərini keçib,çıxa bilmədiyindən, başın içinə qayıdır.Bir müddət sonra isə həmin insan ağlını, dərrakəsini itirməyə başlayır və ona verilən əmrləri robot kimi yerinə yetirir.Bir gün oğlunu diyar-diyar axtaran qocaq ana,gəlib oğlunu burada tapır.Oğlunu səsləyib çağırsada, ananın üzünə baxan o qəhrəman oğul onu tanımır və düşmənin "onu öldür" əmrinə tabe olaraq həyatından da çox sevdiyi anasını gözünü qırpmadan belə öldürür.Bütün bunları əvvəldən müşahidə edən, düşmənin balaca oğlu atasının bu əməlindən dəhşətə gəlir və özünü dağın başından ataraq öldürür. Bu filmin adı "Manqurd"yəni,insanlıqdan çıxmış, nə keçmişi, nə əzizi, nə müqəddəsi olmayan, ruhu oğurlanaraq, kiminsə əmrinə tabe olan, əldə düzəldilmiş ,heç bir hissiyatı olmayan robot deməkdir.(Bu gün də buna bənzər müəyyən mərhələləri keçib, özünü müsəlman, insan adlandlranlar "Allahu Əkbər"deyərək günahsız insanları doğram-doğram edirlər.)

Bütün edilən bu qadağalar sanki insanların qəlbini daşlaşdırır.Birbirinə qarşı,keçmiş və gələcəyə qarşı,bir sözlə ətrafında olanlara qarşı biganəlik, saymamazlıq yaradır. Dinimizdə buyurulan hökmlərin Nübuvvət, Ədl,Cihad və Məad (ölümdən sonra dirilmək) kimi hökmləri pozur. Çünki bu insanlar özlərindən başqa,öz əqidələrində olmayan, ətrafdakı insanları insan kimi görmürlər və onlara qarşı ədalətli olmaq haqqında da düşünmürlər.Cihad qanunu, ən birinci müqəddəs dəyərlərə (vətən, xalq, ana-ata, din, dil, ailə, keçmişə və gələcəyə) dəyər vermək, onlar uğrunda cihad etməkdir, yoxsa cihad edirəm deyib, günahsız in-

sanları qırmaq deyildir. Məada(ölümdən sonra həyat) da münasibət, ölülərə olan münasibətdən aydın olur.

ət-Təkasur-1-8-Dünya həyatı sizi məşğul etdi.O zamana qədər ki, qəbrləri ziyarət etdiniz,yəni ölüb qəbirə girdiniz.Belə deyildir.Tezliklə biləcəksiniz! Xeyr belə deyildir!Siz tam yəqinliklə bilsəydiniz ki, mütləq Cəhənnəmi görəcəksiniz! Sonra mütləq siz Allahın verdiyi nemətlərdən sual olunarsınız. Allahın hər bir bəndəsinə ehsan etdiyi nemətlər sonsuzdur.

əl-Muminun-114-115- Allah buyurdu:-Siz dünyada yalnız bir müddət qaldınız. Nə qədər çox qalsanız da, sonu olduğu üçün azdır. Siz bilin ki, dünya ömrü az, axirət əzabı isə tükənməzdir.Ey yenidən dirilməyi inkar edənlər!Siz belə güman edirsiniz ki, biz sizi əbəs yerə yaratmışıq və siz bizim tərəfimizə qayıtmayacaqsınız?

ÜSULİ-DİNİN 5-Sİ-MƏAD

Qaf-15-Məgər biz məxluqatın ilk yaranışında acizmi qaldıq ki, onları öləndən sonra da yaratmağa aciz qalaq? Onlar öləndən sonra yenidən yaranacaqları barədə şəkk-şübhədədirlər.

əl-Ənam-95-Şübhəsiz ki, toxumu da, çəyirdəyi də cücərdib çatladan, ölüdən diri, diridən də ölü çıxardan(ölü yumurtadan diri toyuq, diri toyuqdan ölü yumurta yaradan) Allahdır.Axı siz ondan necə üz döndərirsiniz?

Loğman-28-Sizin hamınızın yaradılması və dirilməsi yalnız bir nəfərin yaradılması kimidir.

əl-Isra-49-51-Müşriklər dedilər:-Biz sür-sümük, çürüyüb ovxalanmış torpaq olandan sonra yenə də dirilib insanmı olacağıq? Bu, çox təəccüblüdür.Ya Muhəmməd! De ki, əgər bacarırsınızsa, daş, ya dəmir olun.Ya elə insan olun ki, ürəyinizdə özünüzü (dağlar,göylər kimi) böyük bir məxluq hesab edin!Yenə də Allah sizi dirildəcək.

əl-Qiyamə-32-40-O,Allahı nə təsdiq etdi,nə də namaz qıldı, sonra da özünü darta-darta öz ailəsinin yanına getdi.Məgər o güman edirdi ki, özbaşına buraxılacaq, əzaba layiq olmayacaq və öləndən sonra dirilmə,Qiyamət yoxdur?Məgər bizi bir qətrə nütfədən yaradan Allah,ölüləri diriltməyə qadir deyilmi?

Açıqlama:-Üsuli dinin 5-ci maddəsi Məaddır. Məad-lüğətdə "qayıtmaq" mənasını verir.Yəni, Qiyamət günü ruhun ikinci dəfə bədənə qaytarılması və insanın bu dünyada yenidən dirildilməsidir. Məad müqəddəs İslam dininin əsaslarındandır.

Məad məsələsinə inanmaq:-Əvvəli ölümlə başlayan qəbir əzabına, sonra Bərzəx aləminə, daha sonra isə Qiyamət gününün olacağına və bu gündə hər kəsin Allahın hüzurunda duracağına, özünün dünyadakı əməlləri barəsində haqq-hesab verəcəyinə inanmaqdır.

Həmçinin Qiyamətin baş verməsi ilə bu dünya həyatının tükənərək sona çatmasına, İsrafilin surunun ikinci dəfə çalınması ilə torpağa dönmüş cismimizin ruhu ilə birləşərək yenidən dirilməsinə, hesab, sual, mizan, sirat körpüsünə və əməllərimizə görə əbədiyyən qalacağımız məkanın Cənnət və ya Cəhənnəm ola biləcəyinə inanmaqdır.

İnsanın qısa dünya həyatı əbədi axirət həyatını təmin etmək və ondan ötrü tədarük görmək üçündür.Burada insanın lətif ruhu onun kəsif bədəni içində qəfəsdə olan quş misalındadır. Ruhu bu qəfəsdən azad edən ölümdür.Cismani ölümdən sonra insanın ruhani həyatı, yəni ikinci və əbədi həyatı başlayır.

Allahın qüdrət və iradəsi ilə yaradılan insan, bu dünyada az və ya çox yaşadıqdan sonra öləcək və bədəni çürüyərək torpaq olacaq.Yalnız insanın cövhərini, həqiqi varlığını və üstün cəhətini təşkil edən ruh maddi olmadığı üçün yaşamağa davam edəcəkdir.

İnsanı ilk dəfə yoxdan var edən Allah onun cismini Qiyamət günü təkrar yaradacaq, ruhunu ona göndərərək təkrar dirildəcək,bu dünyada etdiklərindən hesab çəkib, cəza və mükafatını verəcək.Bu səbəbdən də, insanın dünya həyatına inandığı və burada səadəti üçün çalışdığı kimi, axirət həyatına da inanması və axirəti üçün çalışması gərəkdir. Əslində, bu dünya bir gözləmə, bir imtahan və axirət üçün əkin yeridir. Burada nə əkilirsə, orada da o biçiləcəkdir.Axirətə inamı əsaslı bir şəkildə dərk etdikdən sonra insan həyatında baş verən dəyişiklikləri başqa bir şəkildə qəbul edə bilir.

Allaha və axirətə inam insanın ümidlərini yeniləmək, qəmini azaltmaq və qarşısındakı çətinlikləri dəf etmək üçün böyük bir yardımçıdır. Çünki belə bir səbirə sahib olan kimsə başına gələn fəlakətlər qarşısında ümidsizliyə düşmür.

N. Gəncəvinin əsərlərinin tədqiqi və elmi təhlili göstərir ki,alim-şair hələ XII əsrdə təbiətdə mövcud olan və fundamental xarakter daşıyan ölümdən sonra dirilməyin mümkün olduğunu, müasir dövrün fizika alimlərinin xüsusi önəm verdiyi saxlanma qanunlarının varlığını dərk etmiş və yazmışdır:

Su dönsə torpaqda çiçək ətrinə,
Qayıdar əslində o bir gün yenə...

Torpaqda çürüyən bədənlərimiz,
Dağılır, dəyişir, yox olmur təmiz.
Yerində qalarsa o dağıntılar,
Bir yerə yığanda yenə canlanar.
Torpağa tökülən şeylər təmamən,
Torpaqda dirçəlib qalxır yenidən.

Qeyd olunan nümunədən aydın görünür ki, N.Gəncəvi maddənin, materiyanın saxlanma qanunlarını yaxşı bilib və göstərib ki, kainatda heç nə yox olmur, ancaq bir formadan başqa formaya, bir keyfiyyətdən başqa keyfiyyətə, bir haldan digər hala keçir.

Peyğəmbər (s.ə.s.) qəbirdən diriləcəyimiz haqda xəbər verdi.

Şad ol, ömrü çarpma kədərlə daşa,
Bu zalım dünyada sən adil yaşa.
İndi ki, dünyanın sonu yoxluqdur,
Zənn et ki,yoxsan, ömrü azad vur başa. (Ömər Xəyyam.)

ən-Nəba-1-18-Peyğəmbərlik məqamına yetişəndən sonra insanlara xəbər verdi ki, siz öləndən sonra diriləcəksiniz. Müşriklər bu barədə inkar yolu ilə bir-birindən soruşarlar.Onun üçün də Allah buyurdu:-Məxluqat bir-birindən nə haqqında soruşur? Böyük bir xəbər haqqında,elə bir xəbər ki, onda ixtilaf edərlər. Siz ixtilaf etməyin və tezliklə bilərsiniz. Məgər sizin üçün yeri biz döşəmədikmi? Dağları yerin hərəkətinə mane olub, möhkəm olması üçün dirək etmədikmi? Biz sizi cüt yaratdıq və sizin yuxunuzu da sizin üçün rahatlıq etdik. Gecəni sizin üçün istirahət, gündüzü isə dolanışıq vaxtı etdik.Sizin üçün yeddi möhkəm göy bina etdik və göydə işıqlı çıraq (günəş)yaratdıq.Sıxılmış buludlardan çox tökülən yağış nazil etdik ki, yerdə dən və bitkilər yetişsin.Həqiqətən,haqla batili ayırd etmə günü əzəldən müəyyən edilmiş vaxtdır.Sur çalınacağı gün qəbirlərdən dəstə-dəstə məhşərə gələcəksiniz.

əl-Həcc-5-6-Ey insanlar!Əgər Allah insanları hesab üçün dirildəcəyi günə şübhə edirsinizsə, baxın ki, biz sizin əsliniz olan Adəm və Həvvanı torpaqdan yaratdıq.İnsanı yoxdan vücuda gətirən, əlbəttə ki, öləndən sonra da onu yenidən diriltməyə qadirdir.

əl-Hicr-23-Həqiqətən, öldürən və dirildən də varis də Bizik. Tezliklə yenə deyərlər ki, bizi ikinci dəfə kim qaytaracaq?Ya Peyğəmbər! De ki, sizi birinci dəfə yoxdan vücuda gətirən yenidən qaytaracaq.Bu sözü eşitdikdə başları ilə hərəkət edib, sənə istehza edərlər və deyərlər ki, bu

nə vaxt olacaq?Ya Muhəmməd!De ki:"Bəlkə də, bu yaxın zamanda!"O gün ki, Allah sizi çağırar,siz məcburi halda qəbul edərsiniz, ərəsatda məhşərə gələr, Allaha həmd edərsiniz. Siz elə güman edərsiniz ki, dünyada ancaq az bir müddət qalmısınız,çünki dünya ömrü az, axirət müddəti isə çoxdur.

ər-Rum-19-Allah ölüdən diri, diridən də ölü çıxardar, necə ki öləndən sonra torpağı dirildir.Siz də (qiyamət günü dirildilib qəbirlərinizdən) belə çıxarılacaqsınız.

əl-Kəhf-65-66-İnsan deyir:"Məgər mən öləndən sonra,diri olan halda qəbirdən çıxacağam?"Bəs onda nə üçün onu yoxdan yaratdığımızı xatırlamır.

əs-Səcdə10-14-Onlar dedilər:"Yerdə torpaq olub itəndən sonra təzədən yaranacağıqmı?"Bəli, onlar öz yaradanları ilə görüşməyə inanmırlar. Onlara de ki,sizə vəkil olan Məlakul-mövt (ölüm mələyi)sizi öldürər, sonra tanrınızın yanına qaytarar.Sənə ibrət olar onda ki, günahkarları Rəbblərinin yanında başıaşağı görərsən. Deyərlər:"Ey Rəbbimiz ,biz gördük və eşitdik.İndi bizi qaytar, qoy yaxşı bir iş görək,biz artıq yəqinə çatmışıq."İstəsəydik, hər kəsə düz-doğru yolda olmağı qismət edərdik. Lakin Mənim Cəhənnəmi cinlər və insanlarla dolduracağım vədim həqiqətdir. Belə bir günü unutduğunuz üçün indi cəzasını çəkin. Biz də sizi unutmuşuq. Gördüyünüz işlərin cəzası olaraq əbədi əzabı dadın. Yalnız o adamlar bizim ayələrimizə iman gətiriblər ki,bizim ayələrimizi eşidən kimi səcdəyə düşüb, paklıqla Pərvərdigarına sitayiş edərlər və dikbaşlıq etməzlər. Böyürlərini yastıqdan ayırıb xof ilə rica arasında Tanrını çağırar və onlara verdiyimizdən möhtacı olanlara bağışlarlar.Heç kəsin xəbəri yoxdur ki, gördüyü yaxşı işlərə görə onun üçün qeyb aləmində gözləri işıqlandıran mükafat yığılıbdır.Mömin bir şəxs ilə azğın bir kəs heç vaxt bir ola bilməz. Yaxşı iş görənlər əməllərinin əvəzi olaraq behişt bağçalarında yerləşəcəklər. Lakin azğınların yeri oddur.O böyük əzabdan qabaq onlara dünya əzabını da dadızdırarıq ki,bəlkə qayıdalar.

ən-Nəhl -65-Allah göydən yağış endirər, onunla yer üzünü öldükdən sonra (quruduqdan) dirildər.Öyüd-nəsihətə qulaq asanlar üçün bunda bir ibrət vardır.Allah ölü torpağa həyat verib diriltdiyi kimi, insanları da öləndən sonra diriltməyə qadirdir.

əl-Qiyamə-1-5-And içirəm Qiyamət gününə!And içirəm günah etdiyi üçün,yaxud yaxşı"əməlim azdır"-deyə özünü qınayan nəfsə. İnsan elə güman edir ki, biz Qiyamət günü sümükləri bir yerıə yığa bilməyəcəyik? Bəli, biz onun sümüklərini də, hətta barmaqlarının ucun-

dakı barmaq izlərini də düzəltməyə qadirik!Lakin insan bundan sonra da günah etmək, pis işlər görmək və ya Qiyaməti danmaq istəyər.

Açıqlama: Qurani-Kərimdə insanların ölümdən sonra dirilməsi Allah üçün çox asan olduğu bildirilir. Bu ayədə barmaq uclarının vurğulanması son dərəcə hikmətlidir.Çünki bütün insanların barmaq izləri tamamilə bənzərsiz və təkrarsız, tamamilə özünəməxsusdur.Yer üzündə yaşamış insanların barmaq izləri də bir- birindən fərqlidir.Elə bu səbəblə barmaq izi hər kəsə məxsus çox əhəmiyyətli bir "şəxsiyyət vəsiqəsi" sayılır və bütün dünyada bu məqsədlə istifadə edilir.Ancaq əhəmiyyətli olan, barmaq izinin bu xüsusiyyətinin ancaq XIX əsrin sonlarına yaxın kəşf edilmiş olmasıdır.

Ondan əvvəl insanlar barmaq izini heç bir xüsusiyyəti və mənası olmayan xətlər olaraq görmüşlər.Lakin Quranda o dövrdə heç kimin diqqətini cəlb etməyən barmaq izləri vurğulanır və bu izlərin ancaq dövrümüzdə kəşf edilən əhəmiyyətinə diqqət çəkilir.

Hədis:-Peyğəmbər(s.ə.s.) belə buyurmuşdur:"Cənnət sizə ayaqqabınızın bağından daha yaxındır, Cəhənnəm də həmçinin." **("Hadisi Qüdsi")**

QƏZA-QƏDƏRƏ İMAN

Həyatın sirrini bilsəydi ürək,
Bilərdi ölümün sirri nə demək.
Bu gün sağlığında bir şey bilməyən,
Ölüb getdi, sabah nə dərk edəcək. (Ömər Xayyam)

Nəhl-64-Biz bu kitabı-Quranı sənə yalnız müşriklərə ixtilafda olduqları tövhid, qiyamət,qəza-qədər və s.bu kimi məsələləri izah etmək və möminlərə bir hidayət və mərhəmət olsun deyə nazil etdik!

əl-Mulk-1-Mütləq hökmranlıq əlində olan Allah ucalardan da ucadır.

Açıqlama:-Bu mübarək ayə Allahın qüdrət əzəmətini və Mulk ismi-şərifinin mahiyyətini açıqlayaraq, bütün məxluqatın Allahın hakimiyyəti altında olduğunu bildirir. Bütün dünya və axirət aləmləri, qüdrət-əzəmət, xeyir-bərəkət əlində olan, istədiyini var edən, istədiyini yox edən,istədiyi bəndələrinə nemət, izzət, şərəf verən, istədiyi bəndəsini zəlalətə və zillətlərə düşürən Allah müqəddəs və əbədidir.

Qədər-Allahın əzəldən axıra qədər olmuş və olacaq pis-yaxşı, hər şeyin olma zamanını,yerini və necə baş verəcəyini əzəldən bilməsi, sonra da bunu tədbir və təsdiq etməsidir.

Qəza isə zamanı gəlincə əzəli elminə və təqdirinə uyğun olaraq əşya və hadisələri yaratması və bu hadisələrin baş verməsidir.Buradan belə

məlum olur ki,qədər Uca Allahın elmi və iradə sifətinin bir təcəllisi, yəni hər şeyi əvvəldən bilməsidir. Qəza da təkvin(yaratma,xəlq etmə) sifətinin əsəridir, yəni bildiyini yerinə yetirməsidir.Allah bütün kainatı və kainat içində olan canlı, cansız bütün varlıqları bir proqrama görə yaratmışdır.Allah kainatda meydana gələcək bütün hadisələri bildiyi kimi ən kiçik bir zərrənin nə kimi hərəkətlər edəcəyini belə ən incə təfərrüatına qədər bilir.Elmi hər şeyi əhatə etmişdir.

Kainatda görünən əvəzsiz nizam və xariqə, düzüm onu Allahın bilərək planladığı,hər şeyi plan və proqrama görə zamanı gəlincə yaratmaqda olduğunu göstərir.Deməli, Allahın kainatı yaratmadan əvvəl yazdığı bu proqrama ”qədər” deyilir.Zamanı gəlincə bu proqramı tətbiq etməsinə də,“qəza”deyilir.Bu halda Allahın hər şeyi əzəldən bildiyinə və bu bilgi ilə yaratmaqda olduğuna tərəddüdsüz olaraq iman etməkdir.

ən-Nəml-75-Göylərdə və yerdə(heç kəsin bilmədiyi) elə bir şey yoxdur ki, açıq-aydın kitabda (Lövhü-Məhfuzda) yazılmış olmasın.

ət-Tovbə-51-De ki,Allahın bizim üçün yazdığından başqa, bizə heç bir müsibət yetişməyəcək.O bizim mövlamızdır və möminlər Allaha təvəkkül edərlər.

əl-Hədid-22-Sizin həyatınızda qıtlıq, aclıq, xəstəlik, ölüm və bir çox müsibətlər üz vermədi ki,onun haqqında canlarınızı yaratmamışdan qabaq Lövhü-Məhfuzda yazılmamış olsun.Bu işləri sizin haqqınızda əmələ gətirdik ki, əlinizdən çıxan şeylərə görə məyus olmayasınız.

Çünki dünyanın bütün nemətləri çox tez aradan gedəndir.Allah bütün təkəbbürlüləri və başqasının yanında fəxr edənləri sevməz.”

Qəza və qədərə inanmaq insanda ümidsizliyin və kədərin ən böyük əlacıdır.İnsan başına gələn fəlakət və müsibətlərə, qədərə olan inancı vasitəsi ilə Allahın təqdiri, qisməti kimi baxıb özü-özünə təsəlli, təskinlik verə bilər. Onun yazdığı qismətə razılıq göstərər.Qüdrəti sonsuz bir Allahın nəzəri, əmri altında olduğunu hiss edər.Bu bəla və müsibətin Allahın tərəfindən gəldiyini bildiyindən qurtarmaq üçün yalnız Ona yalvarar.Gələn müsibəti özü üçün kəffarə və əfv səbəbi olduğunu düşünər,səbir və mətanət göstərər.

Qədərə iman edən qədərdən əmin olar:-Qədərə iman insan ruhunu dünya qədər ağır yükdən də qurtarar.Çünki insan bütün kainatla əlaqədardır.İnsanın məqsədləri və arzuları sonsuzdur.Qüdrət, iradə və bacarığı isə sinirli və məhduddur. Arzu və məqsədlərinin, düşüncə və fikirlərinin bəzən mində birini belə gerçəkləşdirməyə gücü çatmaz.Bu halda onun arzu və istəkləri onu mənən sıxar, ruhunu əzər, qəlb və vicdanını susdurar və ümidsizliyə düşürər.Onda qədərə iman,bu haldakı

bir insanın ümid işığı və ən böyük təsəlli qaynağıdır.Daha sonra isə qədər insanı qürur və kibrdən qurtarar.

Nəfsin insanı havalandıraraq yoldan çıxarmasına və insanın fironlaşmasına mane olar.Bütün şər və xeyirin, qədər və qəzanın yalnız Allah tərəfindən olmasına inanmaq,insanın səbirli olmasına, gətirər,xoş gündə tüğyan,bəla günündə də üsyan etməsinin qarşısını alar.

Xeyiri də,şəri də yaradan Allahdır.Buna inanmaq qədərə inanamağın bir hissəsidir. Ancaq kainatda yaradılan xeyirlər əsil, şərlər isə felidir. Xeyirlər külli, şərlər isə cüzidir.Şərin yaradılması xeyirin həqiqəti və gözəlliyinin ortaya çıxması üçündür. Məsələn, xəstəlik olmasa sağlamlığın nə dərəcədə qiymətli bir nemət, böyük bir qənimət olduğunu bilməzdik. Qaranlıq olmasa, işığın dəyəri anlaşılmazdı. Pislik olmasa, yaxşılığın fəzilət və üstünlüyü dərk edilməzdi.

Aləmdə xeyirin yanında cüzi olan şərlər heç yaradılmasaydı, xeyirin mahiyyəti və gözəlliyi tam görünmədiyi kimi,xeyirin dərəcələri,çeşidləri də bilinməzdi və nəticədə şər və zərər ortaya çıxardı.Ayrıca şər və xeyir çox zaman insanın anlayışına və baxışına görə dəyişməkdədir. İnsan bəzi şeyləri özü üçün şər və ya çirkin bilərkən,əslində, o şeyin onun üçün tamamilə xeyirli olduğunu dərk etmir.İnsan zahirpərəst və səbirsiz olduğu üçün ilk baxışda öz mənfəətinə lazım bildiyi hər hadisəyə şər hökmünü verə bilər.Bunu bir misalla açıqlayaq:-Mühüm bir iş üçün təyyarəyə minəcək bir adamın təyyarəyə gecikməsi bu onun üçün şər olaraq görünə bilər. Çünki planları pozulmuş,mənfəəti əldən getmişdir.Lakin daha sonra havada təyyarənin qəzaya uğradığını eşidəndə onun üçün şər görünən bir şeyin nə qədər xeyirli olduğunu başa düşər. Deməli, əslində, ilk baxışda insana şər kimi görünən bir çox hadisələr, nəticə etibarı ilə xeyirli olmaqdadır.

Şərin Allah tərəfindən olmadığını söyləmək Allahın Elm, İradə və Qüdrət sifətlərini danmaq deməkdir.Lakin kainatda meydana gələn hər bir iş Allahın istəyi və yaratması ilə olur.Uca Allahdan başqa heç bir Allah yoxdur. Bu haqda Qurani-Kərimdə buyurulur:

ər-Rəhman-33-Ey insan və cin tayfası!Əgər göylərin və yerin kənarından çıxıb qaça bilsəniz və Allahın qəza-qədərindən qurtara bilsəniz, çıxın! Əlbəttə, kənara çıxa bilməzsiniz,o qüvvə sizdə yoxdur. Bu yalnız Mənim əmrim ilə, Allahın qüdrət və qüvvəsi ilə mümkün ola bilər.

Hədis: Bir qoca Hz. Əlidən soruşdu:-Bizim Şama Siffin döyüşünə getməyimiz Allahın qəza və qədəridirmi? Hz.Əli belə cavab verdi:-Bitkiləri, çəmənləri bitirən,məxluqata can verən Allah eşqinə deyirəm

ki, hansı yerə ayaq qoysaq və hansı tərəfə getsək, bu ancaq Allahın qəza və qədəri ilədir.

-Elə isə bizim yorulmamız boşunadır?Bizim üçün mükafat, əcr və savab qazanmaq yoxdurmu?-deyə qoca soruşar.Hz.Əli cavab verər:

-Ey qoca, siz gedərkən Allah sizə gedişiniz üçün böyük əcr verdi. Dönüşdə də dönüşünüz üçün əcr verdi.Çünki siz bunları edərkən zorla etmədiniz, buna məcbur edilmədiniz,bunları öz arzunuzla etdiniz.

-Bizi qəza və qədər bu işə məcbur etmədimi?-deyə qoca soruşdu.

-Yazıq! Sən elə bilirsən ki, qəza sənə yapışıb, qədər sənə sarılıb dayanıb? Əgər iş belə olsaydı, savab və əcr batil olardı, vədə, əmr və nəhyə ehtiyac qalmazdı.Günah işləyəni Allah pisləyib, yaxşılıq işləyəni isə öyməzdi.Bu sözlər şeytanın və kafirlərin sözləridir. Allah bəndələrini faili-muxtar yaratdı.Pis şeylərdən çəkindirmək üçün də nəyh etdi.Rahat olan şeyləri əmr etdi.Zorlayaraq üsyana və ya boynundan çəkərək itaətə məcbur etmədi.

İnsanlara Peyğəmbərləri boş-boşuna göndərmədi.Göyləri-yerləri və bunlar arasında olan varlıqları boş yerə yaratmadı- deyə Hz. Əli cavab verər.Bundan sonra qoca yenə də soruşdu:

-Elə isə bizi hər işə sövq edən qəza-qədər nədir?Hz.Əli buyurdu:

-O, Allahın əmri və hökmüdür.Və arxasından bu ayəni oxudu:

-"Mən insanları və cinləri,ancaq mənə ibadət etmələri və məni tanımaları üçün yaratdım." Qoca sevinərək ayağa qalxdı və dedi:

-Sən o kəssən ki, sənə itaət sayəsində Qiyamət günü Allahın rizası umulur. Dinimizin anlaya bilmədiyimiz məsələsini bizə açıqca izah etdin.Allah sənə bunun ən gözəl əcrini versin. **(Timrizi)** Hədis:Peyğəmbərimiz buyurur:-Bu gün əməl günüdür hesab günü deyil, sabah isə hesab günüdür əməl günü deyil. **(Zubdətul Əhadis)**

Hədis: Peyğəmbərimiz buyurur:Allah öz bəndələrinə xitab edərək belə buyurur:-Ey mənim bəndələrim! Altı şey Məndən, altı şey də sizdən olmalıdır:

1–Bəla məndən, səbir etmək, dözüm isə sizdən.

2-Bağışlamaq Məndən, tövbə isə sizdən.

3- Ruzi yetirmək məndən, şükür etmək isə sizdən.

4- Behişt məndən, itaət etmək isə sizdən.

5- Qismət məndən, qismətə razı olmaq isə sizdən.

6-Qəbul icabət etmək Məndən,dua etmək isə sizdən. **(Zubdətul əhadis.)**

ALLAH HƏR ŞEYİ GÖZƏL YARATDI

Açıqlama:-Dünya aləminin mənşəyi, Tanrıdan başqa bütün digər varlıqlardan ibarətdir.Çünki bu varlıqları yaradan yalnız uca Tanrıdır. Ağıllı insanlar dünyanın mənşəyi haqqında müxtəlif fikirlər irəli sürüblər.Filosoflardan Fales demişdir:"Aləmin bir yaradıcısı vardır. Ağıllar bu yaradıcının sifətini mahiyyətcə deyil, ancaq onun əsərləri etibarı ilə dərk edə bilərlər.O elə bir ünsür yaratmışdır ki,onda varlıqlar və məfhumların şəkli vardır.İstər mənəvi, istərsə də maddi aləmdə olan bütün varlıqların şəkli həmin ünsürdə vardır."

Allahın yaratdığı hər şey gözəldir.Allahın ehsan etdiyi maddi-mənəvi nemətlərdən gözəl istifadə etməyi bacarmayanlar, bu məxluqatın gözəlliyini görə bilməzlər.Bu möhtəşəm və bənzərsiz gözəlliyi kəşf etmək üçün yaranmışlara"hikmət nəzəri"ilə baxmaq lazımdır.Hər yaranmış məxluqun maddi halı-görünüşü və mənəvi halı-xislət və xasiyyətləri, həmçinin onun üçün bu dünyada müəyyən olunmuş vəzifələri arasında bir ahəng vardır.Hər məxluqun və hadisənin kainat içində yeri və ümumi ahəngdə iştirakı da "gözlərimizi qamaşdıracaq" gözəllikdədir.

Həyat olaraq sadəcə dünya həyatını bilənlər,axirəti inkar edənlər və ya axirətdən xəbərsiz olanlar,bu dünya həyatının da heç bir gözəlliyini görə bilməzlər və bu qısa dünya həyatından da, həqiqi olaraq, heç bir zövq ala bilməzlər.

Əlbəttə, Allahın sevə-sevə yaratdığı bu dünya heç də pis və alçaq deyildir və Allahın yaratdığı hər şey gözəldir və Allahın buyurduğu kimi heç bir yaratdığı şeylərdə qüsur və çatışmamazlıq yoxdur. Dünya da, içindəkilər də dünya yaranandan elə həmin dünyadır. Lakin biz insanlar özümüz yaşadığımız zaman müddətində,öz nəfs və xislətimizə uyaraq ona bağlanır, ondan çox şey umaraq, ondan inciyirik.

Bu haqda Qurani-Kərimdə belə buyurulur:

əl-Hicr-24-Həqiqətən, biz sizdən əvvəl gələnlərin və sonra gələcək kəslərin əhvalatını bilirik.Allah hər şeyi bizim üçün gözəl xəlq etdi.

ət-Tin-4-Biz insanı surətlərin ən gözəlində yaratdıq.Bütün heyvanların qaməti əyridir.Onlar ayaqları və əlləri ilə yeriyir və ağızları ilə yemək yeyirlər.Amma insanın qəddi düzdür, təkcə ayaqları ilə yeriyir və əlləri ilə yeməkləri ağzına qoyur.

əl-Əla-1-5-Uca olan Allahın adını pak bil!O elə bir Allah ki, hər şeyi yaratdı və onları nizama saldı. Elə bir Allah ki, qədərincə yaratdı sonra hidayət etdi.

əl-Əraf-10-Yer üzündə sizi yerləşdirdik və keçinmənizin yollarını

orada sizə öyrətdik. Sizi yaradıb, sizə surət bağışladıq.

əl-Mumin-65-O elə bir Allahdır ki, yeri sizin üçün qərargah etdi, göyü ucaltdı, sizin surətinizi çəkdi və gözəlləşdirdi, pak şeylərdən ruzi verdi.Bütün aləmlərə pərvəriş verən Allah ucadır.

Hədis: Peyğəmbər (s.ə.s.)buyurur:-İnsandan başqa heç nə öz tayından min dəfə üstün deyil. **(Zubdətul əhadis.)**

ALLAH SEVGİSİ VƏ ALLAH QORXUSU

Eşqdir mehrabı uca göylərin,
Eşqsiz, ey dünya, nədir dəyərin?!
Eşqin qulu ol ki, doğru yol budur,
Ariflər yanında, bil, eşq uludur.
...Eşqsiz olsaydı xilqətin canı
Dirilik sarmazdı böyük cahanı.
Eşqsiz bir adam bir neydir-qırıq,
Yüz canı olsa da, ölüdür artıq.(N.Gəncəvi)

əl-Əhzab-39-O Peyğəmbərlər ki, Allahın hökmlərini təbliğ edər, risaləti tərk etməkdən çəkinər və Allahdan başqa heç kəsdən qorxmazlar.Allah özü haqq-hesab çəkməyə kifayətdir.

əl-Bəyyinə-8-Allah onlardan, onlar da Allahdan razı olmuşlar.Bu yalnız Allahdan qorxan kimsəyə məxsusdur.

əl-Muddəsir-55-Allah layiqdir ki, ondan qorxsunlar və o günahları bağışlayandır.

əl-Əraf-154-Hidayət və rəhmət Allahdan qorxan kimsələrə məxsusdur.

Açıqlama:-İslamın insanlara öyrətdiyi ilahi əsaslardan biri də Allahı sevmək və Ondan qorxmaqdır.Mömin kəs neməti, lütfi və kərəmi sonsuz olan Rəbbinə qarşı böyük bir sevgi və hörmətlə bağlanacaq. Onun rəhmət və mərhəmətinin hər şeyi əhatə etdiyini düşünəcək, nə qədər günahkar olsa da, onun əfvindən ümidini kəsməyəcəkdir. Uca Allahın rəhməti, sevgisi və şəfqəti sonsuz olsa da, bunun yanında qəhr və əzabının şiddətli olduğunu da unutmayaraq ondan qorxacaq və qəzəbindən əmin olmayacaqdır.

Qorxunun ifratından ümidsizlik doğar.Çox ümidlənmək isə insanı qəflətə atar və aqibəti haqqında düşünməz. Bu baxımdan Allahın əzabından əmin olmaq, yəni, Allahın mütləq əzab verəcəyindən və yaxud da rəhm edəcəyindən ümid kəsmək dinimizdə qadağan edilmişdir.Bu halda möminin qəlbi Allahın hüzurunda qorxu ilə ümid arasında,Ona

layiq bir qul olma həyəcanı ilə döyünməlidir. İmanın kamalına dəlalət edən bu hala qorxu ilə ümid arasında olan hal deyilir. Həqiqətən də, Allaha olan iman sadəcə Allahı sevmək və ya sadəcə ondan qorxmaqla gerçəkləşə bilməz.İkisinin bir arada olması vacibdir.İnsan Allaha sevginin yaradacağı təskinlik və itaətsizlikdən, yalnız Allah qorxusu ilə qurtara bilər. Sadəcə qorxunun verəcəyi ümidsizlik halından da insanı qurtaracaq Allah sevgisi, rəhmətinin genişliyinə və əfvinin sonsuzluğuna olan inamdır.

Allah ilə dost, sevgili olub qəlbini ona bağlayan və bütün zamanını qəlbində onunla danışan insanda qorxuya və ümidə şübhə və tərəddüd hiss edilməz. Qorxu və ümid nəfsin hüzur və sükut tapmasına səbəb olan bir qüvvədir və qorxmayan qəlb viran olar.Buna misal olaraq İslam alimlərindən biri belə buyurur:

-Qorxu Allaha qarşı bəndənin edəcəyi pisliklər qarşısında duran ən böyük bir sipərdir.Allah sevgisinin girdiyi bir qəlbdə qorxu və ümidə şübhə hiss edilməz.Belə bir kimsədən qorxunu gətirən hər hansı bir pislik gözlənilməz, çünki o qəlb Allah sevgisi və qorxusu ilə yaşayar.

Deməli:-"Xeyirin əvvəli Allah sevgisi, hikmətin əvvəli də Allah qorxusudur,"demişlər.Əslində, Allaha olan sevgi qədər ondan qorxmaq da son dərəcə dadlı və gözəl bir haldır.

Böyük düşüncə və duyğular sahibi Mühəmməd Füzuli də "**Hədiqətüssüəda"**əsərində şəriət qapısından keçərkən təriqət aləminə də nəzər salır, İlahi məhəbbət və gözəlliyi duyub dərk etməyi də inam və məslək yolçuluğunun təzahürü kimi səciyyələndirir. Şəriət, təriqət, mərifət və həqiqət yollarını işıqlandıraraq insan həyatının məqsəd və vəzifəsini müəyyənləşdirir. Surətpərəstlik, zahiri aldanışlardan özünü təcrid etməyən kəsin hümməti də, ömrü də qısa olur, çünki o, məna zövqünü anlamaqdan çox uzaqdır:

Könlünün gözü ilə məna mülkünü seyr edən insan bəqa mülkünün sultanıdır, surətdə fani olan məna dünyasında əbədidir:

Biz bəqa mülkünün istiqbal ilə sultaniyiz,
Məna ilə baqiyiz, surətdə gərçi faniyiz.

Bəqa-fəna, surət-məna, batin-zahir, nəfs-aşiq anlayış və məfhumlarını qarşılaşdıran Füzuli irfani-fəlsəfi düşüncələrini rəmzi surətlərlə ümumiləşdirir. Əlçatmaz sevgili olan Tanrını sevməyi, İlahi nuru qəlbində gəzdirib xəbis-riyakar, düşkün ehtiras və meyllərdən uzaqlaşmağı ümdə şərt kimi qarşıya qoyur:

Gəldi ol dəm ki, qılam canımı cana fəda,
Eyləyəm ərzi-məhəbbət, qılam izhari-vəfa.

Füzuliyə görə"dəvayi-məhəbbət"asan deyil;qəm oduna şam kimi yanmayan aşiq sevgilisinə qovuşa bilməz. Şamın həyatı onun yanmağı olduğu kimi, aşiqin də sevgisi onun şam kimi yanmağıdır:

Də'vayi-məhəbbət etmək asan olmaz,
Cəm olmaz əgər könül pərişan olmaz.
Aşiq qəm oduna yanmasa şəm' sifət,
Məqbuli-hərimi-vəsli-canan olmaz.

Eşq bəndəni –qulu Allaha, sufini, Haqqa, aşiqi məşuqa, yara, canana bağlayan ən ali hiss, ən uca duyğudur. Bəndə ilə Tanrı arasında yeganə və ən muhum ünsiyyət vasitəsidir. Sevənlə sevilən, həbiblə məbub arasındakı ünsiyyət və bağlılığın eşq və sevgidən özgə vasitəsi yoxdur. Buna görə də təsəvvuf və irfan inancında eşq və sevgi əhatəli bir anlayışdır. Haqq yolcusunun yüksəliş pillələrində yerinə yetirdiyi və yerinə yetirməli olduğu butun zahiri əməllər və batini niyyətlər, istək və məqsədlər, sadə zöhddən və zikrdən tutmuş ali mərifətə, Haqqın həqiqi muşahidə məqamına qədər hər cür fəaliyyət yolları və üsulları eşqə bağlıdır. Eşq bunların hamısını öz cərcivəsinə alır.

Eşq qulu Haqqa yönəldən bir cazibə quvvəsidir.Bu qüvvə heç bir hislə ifadə edilə bilməz.Allaha qarşı olan sevgi insanın həyatda yaşaması üçün bir stimul və məqsəddir. Bunu duyub yaşayanlar üçün imtahan dünyasında yaşamaq çox asandır. Eşq insan qəlbinə bəxş edilmiş ilahi zövq və feyzdir.

Eşq və nəfs bir-birinə tamamilə ziddir. Eşq doğru, nəfs isə əyri yolun müşayiətcisidir. Eşq qulu kamala və həqiqətə, nəfs isə cəhalətə və şeytani hisslərə qovuşdurur. Əslində sevgi insanın fitrətindədir. Əgər həmin sevgi Haqqa doğru yönəlirsə, **bəqa** yolunun ruhi qüvvəsinə çevrilir,. Əgər nəfsin toruna düşürsə, fəna yolunun müşaiyətçisinə cevrilir. Yəni eşq insanı bəqaya, nəfs isə fani olana yönəldir. Başqa sözlə, məhəbbət və eşq nəfsə uyduqda Tanrı sevgisi dünya sevgisi ilə əvəzlənir. Maddi dünya ehtiras və həvəsləri əsl sevgi kimi dərk edilir və naqis ehtiraslar, dünyəvi düşüncə və maraqlar bəndənin həyat idealına, yol yoldaşına çevrilir. **Ağıl** da qəlbin bir hissəsidir. Ağıl Allahın insana bəxş etdiyi ilahi nemət, lutf və fəzilətdir. Allah insanı xəlq etdi,sonra ona həyat, daha sonra iradə, ən sonda isə ağıl verdi.

Bütün Peyğəmbər və sonuncu Peyğəmbər Hz.Məhəmməd **məhəbbət və eşqi** eyni şey hesab etmirlər. Bir qayda olaraq,irfan sahibləri də eşqi məhəbbətin daha şiddətli dərəcəsi kimi dəyərləndirirlər. Adətən eşq közun özunə, məhəbbət isə közun işığına bənzədilir. Yəni eşq atəş, məhəbbət isə onun nurudur.

Buna görə də eşq daha cox yandırıb yaxır. Onun hərarəti daha çoxdur. Ancaq eşq və sevgi nə qədər əzəmətli duyğu, möhtəşəm hiss olsa da, bir o qədər də cəfaverici xislətə malikdir. Buna görə təsəvvufdə "**eşq müşkülü", "bəlayi-eşq"** adlanan ayrıca bir anlayış hakimdir. Orta əsr klassiklərimizin çox tez-tez bədii dillə "eşq müşkülü"ndən və "bəlayi-eşq"dən şikayət etmələrinin səbəbi də budur. Belə ki, eşq işi ilk öncə asan və cazibədar görunur. Lakin elə ki, bu dərdə mübtəla oldun onun müşkülləri ortalığa çıxır. Eşq və məhəbbətin çətin, ağır, əzabverici bir hiss olduğu bəlli olur. Vəhdəti-vucud fəlsəfəsinə görə vəhdət aləmindən ayrılıb kəsrətə düşən zərrənin "**şəbi-hicran"**günləri başlayır. Öz əslindən ayrılan zərrə "şəbi-hicran"ın zülmət və qaranlığında vücudu-küllun sevgisi ilə əzab çəkir. Bu sevgi artdıqca cəfa da artır. Əslində isə eşq yolunda daha cox əzab çəkmək bəndənin Haqqa olan sevgisinin böyüklüyünə dəlalət edir. Füzulinin Məcnunun dili ilə ifadə etdiyi kimi insan "bəlayi-eşq ilə" nə qədər çox "aşina" olursa, nə qədər çox məşəqqət və qovğa çəkirsə, vücudi-mutləq qarşısında öz eşqinin böyüklüyünü, məhəbbətdə sabitqədəm və sədaqətli olduğunu bir o qədər cox isbata yetirmiş olur.

Vəhdəti-vucud fəlsəfəsinə gorə əslində **eşq, aşiq** və **məşuq, məhəbbət, həbib və məhbub, sevgi, sevən** və **sevilən** mahiyyətdə eynidir. Sadəcə olaraq təzahurlər fərqlidir. Həm də müşkül iş olan eşqin həqiqətini hər kəs anlaya, cəfasını hər kimsə çəkə bilməz. Onun zövq və səfasını ancaq **eşq zövqu olanlar,** cəfasını isə həqiqi əzabkeşlər və sadiq bəndələr cəkə bilər.

Eşq ağıl və elmdən daha yuksəkdir. Ağıl və elmlə ancaq maddi dunyanı və ona aid bilikləri kəsb etmək, anlamaq olar. Əvvəlcə də dediyimiz kimi, bunlar ilahi həqiqətləri anlamaq üçün kifayət etmir. Həmin həqiqəti dərk etmək və ona catmaq yalnız eşqin yardımı ilə mümkündür.

ən-Həşr-18-Ey möminlər!Allahdan qorxun!Hər bir şəxs sabaha nə hazırladığına baxsın. Allahdan qorxun, çünki Allah etdiklərinizdən xəbərdardır.Sabah gəlincə, qəbir, Sirat, Mizan və Məhşər,o, dəhşət gününə hazırlıq deməkdir. Çünki hər nəfəsin hesabı, canlı olaraq sizə ediləcəkdir və baxaq görək, həmin gün üçün nə göndərmişik.

əl-Ənbiya-50-Möminlər isə gizlində, ya aşkarda Allahdan qorxub günah etməzlər. Onlar Qiyamətin vəhşətindən qorxarlar.

ALLAHIN“SİFƏTİ-SÜBUTİYYƏ”SİFƏTLƏRİNİN HİKMƏTİ

Hər sifəti, vücudu əzəli və əbədi,
Kainatın varlığı, yoxluğu əlindədi.
Heçdir bu iki cahan ülviyyəti önündə,
Bir nəfəsdir ömrümüz əzəməti önündə. (“Sirlər Xəzinə.”)

əl-Həşr-24-O elə bir Allahdır ki,yaradandır, bütün cisimləri və sifətləri yoxdan vücuda gətirəndir, surət çəkəndir.Gözəl adlar onun üçündür. Göylərdə və yerdə olanlar ona təsbih edir.Allah qələbə çalan və hökm edəndir.

Açıqlama: Özümüzün keyfiyyətini və əşyanın mahiyyətini araşdırıb düşünsək, varlıqların vəziyyətinə, kainatın hal və hərəkətlərinə bəsirət gözü ilə baxsaq, aləmin bütün parçalarının Allahın sənətilə sonradan yarandığını ağıl gücü ilə dərk edərik.Uca Allah bütün gözəllikləri yalnız insana deyil, bütün yaratdıqlarına, heyvanat və nəbatat aləminə də vermişdir.Bunların hər birinə gərəkli olan şeyləri vermiş, görünüşlərini gözəl cizgi və rənglərlə bəzəmişdir.O halda insan vücudunu diqqətlə incələsək,Uca Allahın sifətlərinin sirlərini öyrənmiş olarıq. Bir insan nə qədər elm və sənətdəki incəlikləri çox öyrənib, bilirsə, şairin, yazıçının, alimin, sənət sahiblərinin dəyərini də o qədər dərk edər.Uca Allahın da işlərindəki bu incəlikləri, ağılagəlməz hikmətləri araşdırdıqca, onun böyüklüyünün və elminin sonsuz olduğunun şahidi oluruq.

Deməli,Uca Allahın “**Sifəti-sübutiyyə”**sifətlərini öyrənib tanımaq insanın özünü, vücudunu tanımasının əsasıdır. İnsan vücudunun yaranışını və orqanların vəzifələrini öyrənən elmə,dində “Təşhis”elmi deyilir. Həkimlər bu elmi sadəcə həkim olmaq üçün öyrənərlər və bu elmi din ilə əlaqələndirməzlər.

Qurani-Kərimin 119 ayəsində Allahın sifətləri haqqında qeyd edilmişdir. Öz qüdrət və əzəmətini bizlərə tanıtmaq istəmişdir.Əgər Allahın sifətlərinin keyfiyyətlərini tam öyrənib,onların xüsusiyyətlərini görüb, tanıya bilsək, onda Qüdrət sahibi olan Allahı da tanıya bilərik.

Allahın**“Sifəti-sübutiyyə**”(sifəti-kəmaliyyə) sifətləri səkkiz keyfiyyətdən ibarətdir və bunlardan üçü:Qadir, Alim, Mürid sifətlərinin əlamətləri biz insanlarda vardır. Qalan beşində isə bizə çox şeyləri anladan hikmət və işarələr vardır:Həyy, Müdrik, Qədim, Mütəkəllim, Sadiq.

1.**Qadir-“Sifəti-sübutiyyə**”sifətinin xüsusiyyəti:-Allah Qadirdir, yəni qüdrət sahibidir. İnsan əqlinə gələn və gəlməyən hər bir şeyi icad

edə bilər, bir şərtlə ki, o şeylərin vücuda gəlməsinin bir hikməti olsun.

Bu haqda Quranda buyurulur:

"əl-Maidə-120-Göylərin, yerin və onlarda olan hər şeyin hökmü Allaha məxsusdur, Allah hər şeyə qadirdir."

Qadir sifətinin bizdə olan əlaməti:-Bizi faili-muxtar yaratmasıdır. Yəni,bizə bəxş etdiyi bədəni,əzalarla birlikdə öz ixtiyarımıza buraxmış və biz istədiyimiz kimi yaşayırıq.Bizim ən böyük imtahan və böyük sınağımız da elə özümüzü, həqiqətən də, faili-muxtar bilməyimizdir. Əslində isə bütün ruh,bədən,həyat və axirətimizlə Qadir Allahın nəzarət,əmr və hökmü altındayıq.

2.Alim:"Sifəti-sübutiyyə"sifətinin xüsusiyyəti:Allah-Alimdir, yəni elmlidir. Həm də Onun elmi insanların elmi kimi deyildir. Allahın elmi özündəndir. Allah bütün mövcüdatı bilir, bütün məxluqatı elmi ilə tanıyır, nə yerdə nə də göydə, heç bir şey Onun elminin xaricindən çıxmaz.

Alim-sifətinin bizdə olan əlaməti:-Alim-Allahın bizə verdiyi əql və şüurdur ki,bu da bildiyimiz kimi ruhumuza bəxş edilmiş əzəl və əbədi nemətdir.

3.Mürid:"Sifəti-sübutiyyə"sifətinin xüsusiyyəti:-Allah idarə edəndir, yəniAllah yaratdığı şeylərin xeyrini və lüzumunu məsləhət bildiyi üçün vücuda gətirib, yaratmadığı şeyləri isə Kainata və insanlara xeyri olmadığı üçün vücuda gətirməyib.Bütün felləri idarə edən odur,çünki bütün canlılar Allahın iradəsi ilə hərəkət edir.

Qurani-Kərimdə bu haqda belə buyurulur:

-əl-Bəqərə-29-"O, hər şeyi haqqı ilə biləndir.Ey İnsanlar!Uca Allah yer üzündə hər nə varsa, hamısını sizin istifadə edə bilməniz üçün yaratdı, vücuda gətirdi və onlardan istifadə etməniz üçün sizə qabiliyyət verdi.Onun hər yaratdığında elə faydalar, hikmətlər vardır ki,bunların tamamını yalnız O özü bilir."

Mürid-sifətinin bizdə olan əlaməti:-Qəza-qədərimizi əvvəldən yazan Adil Allah, bizə ağıl-şüur, sərbəst hərəkət və seçim qabiliyyəti verərək, əməl və niyyətimizə görə də qəza-qədərimizi dəyişdirməyə qadir olduğunu bildirərək, bizi faili-muxtar etməsidir.

4.Həyy-"Sifəti-sübutiyyə"sifətinin xüsusiyyətləri:-Allah-taala Həyydir, yəni diridir.Allahın diri olması canlıların diri olması kimi deyildir.Allahın diri olmadığı vaxt olmayıb,gələcəkdə də olmayacaq. Elm və qüdrəti olan bir zatın diri olması istər-istəməz labüddür.

Qurani-Kərimdə bu haqda belə buyurulur:

"-əl-Bəqərə-255-O,nə mürgüləyər,nə də dərin yuxuya dalar. Göylərdə və yer üzündə hər nə var,Onundur.Kim onun izni olmadan,

onun yanında şəfaət edər? Önlərində və arxalarında olanı bilir və onun elminə, öz istədiyi şeydən başqa,heç nə əhatə edə bilməz. Onun kürsüsü göyləri və yeri ehtiva edir.Onları qorumaq ona çətin deyildir.O, ali rütbəli və çox böyükdür.”

Həyy-sifətinin hikmətləri və əlaməti:-Bu sifətin əzəmət və böyüklüyünü müqayisə etmək və özümüzün həqiqətən də yalnız Allahın yaratdığı bir varlıq olduğumuzu hiss etmək üçün açıq-aydın bir dəlildir. Hər gecə bizi öldürüb, səhər yenidən dirildən Allah bunu hər gün bizə xatırladır ki, Mən sizi istədiyim vaxt öldürüb, istədiyim vaxt da diriltməyə qadirəm.

Heyy sifətinin əlaməti isə bizə bəxş edib,əmanət verdiyi ruhun daim oyaq olmasıdır.(bu haqda yuxu mövzusunda açıqlama verilib.)

5.Müdrik-“Sifəti-sübutiyyə”sifətinin xüsusiyyətləri:-Allah dərk edən və hər şeyi biləndir.Onun insanlar kimi duyğu üzvlərinə ehtiyacı yoxdur. Dərk etmək onun zatındadır.O,hər şeydən xəbərdardır, ona gizli qalan heç bir şey yoxdur.

Müdrik-sifətinin hikməti:-Uca Allahın bizlərə bütün duyğu üzvlərini bəxş edib,bunları öz ixtiyarımıza vermişdir. Bununla belə, onların həvəs və hallarını, fitnə və fəsadlarını, rəzalət və xislətlərini, qəzəb və cihadını, niyyət və mətləbini bizdən də yaxşı tanıdığını bildirir.Həmçinin Şeytanı da bu duyğu üzvlərinə müsəllət edərək, daima bunlarla bizi imtahan etdiyini də xəbərdar edir və bütün bunların fitnələrindən qorunmağın da yolunu öyrədərək, yalnız Onu çağırıb, yalnız Ona sığınmağımızın nicat yolu olduğunu bizlərə bildirir.

6.Qədim-“Sifəti-sübutiyyə”sifətinin xüsusiyyəti:-Həm əzəli, həm də əbədi olan şeyə qədim deyirlər.Qədim-keçmişdə, hazırda və gələcəkdə yox olmayandır.Allah hər şeydən əvvəl var imiş, kainatı yaradıb, axırda hər şeyi yox edib axıra qalacaq və onun olmayan vaxtı olmayacaq. Vacibül-vücud, yəni vücudu vacib olan,yox olması mümkün olmayan yalnız Allahdır.

Qədim-sifətinin işarə və hikməti: Allahın bu sifətinin xüsusiyyəti: bizi lap qədimdən, hələ heç Adəmi yaratmamışdan da qabaq yaxşı tanıdığını, həyatda yaşadığımız zaman şah damarımızdan da yaxın olub,qəza-qədərimizin də əlində olduğunu,ölüm və axirətimizin də harada olacağını bilən, yalnız Özüdür.Yox olması mümkün olmayan yalnız Allahdır.

7.Mütəkəllim-“Sifəti-sübutiyyə”-Yəni Allah danışandır.Onun danışmaşı insanların danışmağı kimi deyildir.Bu o deməkdir ki,O danışıq yaradır, sözlər, kəlmələr xəlq edir.

Mütəkəllim-“Sifəti-sübutiyyə”sifətinin işarəsi;Allahın bizə bəxş

etdiyi danışmaq,fikirləri bəyan etmək xüsusiyyətimizin olmasıdır.

8.Sadiq-"Sifəti-sübutiyyə"-sifətinin xüsusiyyəti:-Yəni Allah doğruçudur, ondan yalan vəd gözləmək olmaz, onun şəninə heç layiq də deyil. Çünki yalan ya acızlikdən, ya da ehtiyacdan irəli gəlir. Bu sifətlər isə onda yoxdur. Odur ki, Allaha yalan nisbət vermək,onun haqqında zülmdür.

Sadiq-sifətinin hikmətləri: Qurani-Kərimdə bildirdiyi: yaranışımız, ruhumuz, həyatımız, ölüm, bərzax aləmi,yenidən dirilmək, Məhşər, Sirat, Cənnət, Cəhənnəm və onlarda baş verənlər haqqında xəbərlərin, vədlərin haqq olduğunu bilməkdir.Bunlara inanmamaq isə Yaradana qarşı üsyandır.

İNSANIN YARANIŞININ HİKMƏTLƏRİ

Muminun-13-14-Biz Adəm övladını nütfə halında möhkəm bir yerdə (ana bətnində) yerləşdirdik.Sonra nütfəni laxtalanmış qana çevirdik, sonra laxtalanmış qanı bir parça ət etdik, sonra o bir parça əti sümüklərə döndərdik,sonra sümükləri ətlə örtdük və daha sonra onu yeni bir məxluq olaraq yaratdıq.Yaradanların ən gözəli olan Allah nə qədər uca, nə qədər uludur.

Hədis:("Hədisi-Qüdsi") Muhəmməd ibn Yəhya,Şeyx Səduq:-Cəfəri Sadiqdən rəvayət edir:-Allah-taala yer üzünün torpaq və sularından hazırlanmış öz qüdrət əli ilə Adəmi yaratdı.Rəvayətlərdə deyilir ki, Adəm-"qabıq"və ya"dəri"mənasını verən "Ədim" sözündən əmələ gəlib. Çünki Adəmin bədəni yerin qabığından yığılmış rəngbərəng palçıqdan yaranmışdır;ona acı, şor və şirin sular qarışmışdır.Odur ki, onun gözünün suyu şordur;belə olmasaydı, göz bəbəyinin piyi əriyərdi. Onun qulaqlarına yığılan şirə acıdır;belə olmasaydı, ora xırda həşəratlar girərdi. Burunun içindəki rütubət bəd iylidir; belə olmasaydı insan xoş iyləri duymazdı. Həmçinin ağızın suyu şirindir;belə olmasaydı, insan yemək və içməkdən ləzzət almazdı.Adəmin bədənini yaratdıqdan sonra Allah-taala ona öz ruhundan üfürdü, Adəm bu ruhdan cana gəlib dirildi. Sonra asqırıb dedi: "Əlhəmdulillah,"-yəni"Həmd olsun Allaha". Allah-taala buyurdu: "Yərhəmukallah,"-yəni "Allah sənə rəhm edər".

Fatir-11-Allah sizi torpaqdan,sonra nütfədən xəlq etmiş,sonra da sizi kişi və qadın olmaqla cüt-cüt yaratmışdır.O bilmədən heç bir qadın hamilə olmaz və bari-həmlini yerə qoymaz.Ömür sahibi olan birinin uzun ömür sürməsi də, onun ömrünün qısaldılması da ancaq kitabda (Lövhu-Məhfuzda) yazılmışdır. Həqiqətən, bu, Allah üçün çox asandır.

Açıqlama: Qurani-Kərimdə buyurulduğu kimi insan 9 ay ana

bətnində, 3 zülmət içində yerləşərək, əvvəlcə cansız, sonra yarımcan, axırda tam canlı olmaqla, bir müddət o zülmət məhbəsdə qalandan sonra, çətinlik və məşəqqətlə bu dünyaya,ona yad olan başqa bir aləmə gəlir. Qəflətən dəyişən mühit onun bütün əzalarını qıcıqlandırıb, ağrıdır.O öz rahatlığını təmin edə bilmir, şikayətlərini deməyə nə qüdrəti, nə də taqəti olur.O öz iztirablarını ağlamaq ilə ifadə edir. İnsanın bu dünyadakı müsibətləri elə bu vaxtdan başlayır.Sonra onun ömrünün hər dövrünə məxsus zilləti, əziyyəti və axırda da canvermə dəhşəti vardır.

RUH HAQQINDA

Uçur Ərş aləminə bədəndən qurtulanlar,
Cəbrail qanadını taxır ruhuna onlar.
İki dünyanı atan tutur qəlb dünyasını,
Ruh aləmində tapır nemətlərin xasını.

əs-Səcdə-9-Sonra onu düzəldib bir biçimə saldı və ona Ruhundan üfürdü. Sizin üçün qulaq, gözlər və könüllər var etdi. Nə az şükr edirsiniz?

əl-Hicr-29-Mən onu yaratdım, şəkilləndirdim, sonra öz ruhumdan üfürdüm. Onun bədəninə ruh daxil etdim ki, cansız olan bədən dirilsin. Mələklərə:"Ona səcdə,təzim edin,"- dedim.

Açıqlama: İnsanlar bu dünyaya ruhlar aləmindən gəlmişlər. Allah insanların bədənlərindən əvvəl ruhlarını yaratmışdır.Daha sonra hər bir ruha,ayrı-ayrı bir bədən geyimini geyindirərək onları bu dünyaya göndərmişdir. Deməli, Allah biz insanları ona görə yaratmışdır ki, öz Xaliqimizi tanıyıb, ona ibadət edək.Bu ibadət isə mərifət və ibadətdən, yəni elm və əməldən ibarətdir. Allah-taala insanı ruhunun və əqlinin olması ilə kəramətli yaratdı.İnsanlıq ruhdan asılıdır,bədən isə ruhun qəlibidir və ondan bir alət kimi istifadə edir.

Sufizmdə **ruh, bədən, nəfs, ağıl və qəlblə** bağlı ozunə məxsus duşuncə tərzi və yozumlar movcuddur. Quran məntiqinə soykənən təsəvvuf və irfan inancına gorə insanın maddi covhər olan bədənində Haqqın ozunəməxsus olan ruh vardır. Quranın bir necə ayəsində buna işarələr vardır. *əl-Hicr* surəsinin 29-cu ayəsində isə Allah-taalanın Adəmə (ilk insana!) surət verib ona oz ruhundan ufurduyu aşkar şəkildə nəzərə catdırılır. Bir hədisdə isə belə deyilir**: "Allah əvvəl o şeyi xəlq etdi ki, ruh idi".** İrfan əhlinə gorə bu ilk yaranan isə Hz.Məhəmməd Peyğəmbərin ruhu idi. Deməli, cismdə ruhun varlığı həm dini, həm də

təsəvvufi etiqadda təsdiq və qəbul olunur. Bu münasibətlə Qurandan bu surələri gətirir: "De ki, ruh mənim Allahımın əmrindədir". (Quran 17:87).

Alimlərin bəzilərinin fikrincə ruh iki mənaya gəlir. Birinci, ruh buxar kimi lətif, gizli, cismani qəlbin iç boşluğundadır. Damarlar vasitəsi ilə vücudun digər bölümlərinə yayılır, bədən içində dövr edir,vücuddakı həyat qaynağıdır. Ruhun nurunun bədənə yayılması, otağın içindəki işığın otağa yayılmasına bənzər. Ruh yanan işığı təmsil edir.Həkimlər ruh dedikdə bu anlatdığımız ruhu kəsb edirlər. O lətif bir buxardır və o, qəlbın hərarətidir.Buna "heyvani run"-deyilir.

Ruhun ikinci mənası isə insanda olan lətif, gizli, sirli və idrak edən bir varlıqdır. İnsanın içində onunla söhbət edən,dərdləşən, düşündürən və həmişə onunla olan, Allah tərəfindən insanlara bəxş edilmiş bir varlıqdır.Buna da "ülvü ruh","insani ruh"-deyilir.

Ruhla bədən arasındakı ziddiyyətin başlıca səbəbi nəfsdir. Nəfslə mucadilə və onun öldurulməsi təsəvvufdə Haqq yolcusu və kamil insan üçün ən başlıca vəzifələrdən sayılır. Cünki nəfs qəlb ilə Haqq arasındakı **hicabdır**. Həm vucud, həm də nəfs irfani düşüncədə insanı, daha doğrusu, onun "mən"ini vəhdətdən ayıran pərdə kimi dəyərləndirilir. Nəfs cox zaman **şeytan** adlandırılır və insanın daxilindəki **şeytanın** məhz nəfs olduğu gostərilir.

Bədən xəstələndiyi kimi ruh da xəstələnə bilir.Bədəni müalicə etmək üçün təbabət elmi köməyə gəlir, ruhu müalicə etmək üçün isə əxlaq elmi var. Ruh bədənin pozulmasından sonra da qalmaqda davam edir. Çünki o mücərrəd və bəsit cövhərdir, onun varlığı bir həqiqət olduğuna görə, yox olması da mümkün deyildir.İnsan öldükdən sonra torpağa basdırılır,onun ruhu isə azad olur,qəfəsdən çıxan bir quş kimi ali məqamlara pərvaz edir.Bu haqda Cəlaləddin Rumi belə deyir:

Mələklər aləminin bağından gəlmiş
Bir quşam,bu dünya əhli deyiləm.
Bu quş üçün iki-üç günlüyə,
Bədənimdən bir qəfəs düzəldiblər.

Dünya elmləri ruh haqqında məsələyə cavab verə bilmir.Ruh barədə ilk əsəri Aristotel yazmışdır, sonra bu məsələ ilə Əbu Əli İbni Sina, Qərbdə isə İngilis alimi məşğul olmuşdur.Lakin onların heç biri ruhun mahiyyətini açа bilməmişlər. İnsan ruhunda elə bir sirlər vardır ki,biz hələ onun əlifbası ilə tanış deyilik.

İnsan özünü dərk edəndən ruhu (ürəyi) ilə,yəni öz-özü ilə danı-

şır.Bəzən qəlb dilə gəlib insana gələcək hadisələrdən xəbər verir, ölümlərdən, sevinclərdən və bir çox şeylərdən danışır. Həmçinin, yatdığımız zaman yuxularımızda ruhumuzun bütün aləmləri seyr etməsi, müxtəlif insanlarla və ruhlarla görüşməsi ruhumuzun hikmətlərindəndir. Bu qüdrət nədir, haradandır, bunu bilmək,dərk etmək mümkün deyildir.

Ruh barəsində insanlar Peyğəmbərimizdən soruşdular, o isə özündən heç nə demirdi.O, yalnız Allahdan gələn vəhyi insanlara çatdırırdı. Bu məsələ barəsində aşağıdakı ayə nazil oldu:

əl-İsra-85-Ya Muhəmməd!Səndən ruh,ruhun mahiyyəti və keyfiyyəti haqqında soruşarlar.De ki:"Ruh Rəbbimin əmrlərindəndir. Allahın əmri ilə yaradılmışdır.Sizə yalnız cüzi bir bilik verilmişdir!"

Bu ayədə insanlara ruhun mahiyyəti bildirilmir.Bunun iki səbəbi ola bilər,ya Allah bu sirrin açılmasını məsləhət bilmir,ya da ki, bu mənanı dərk etmək üçün insanın qabiliyyəti çatmaz.

"40 sual" kitabından:Danışan insani nəfs, insani ruh və rəbbani əmridir. O bir cövhərdir ki, öz şəxsində hər maddədən mücərrəd ikən eşq ilə bağlandığı bədənin işlərini tədbir üçün heyvani nəfsin yeri olan ürəyin ortasında olan qara nöqtə süveydada heyvani nəfs ilə yaxınlaşmış və qucaqlaşmışdır. Onun vasitəsiylə bədən üzvlərinin hamısında öz vəzifəsini yerinə yetirər.

Torpaq, yəni cisim çox qatıdır, pak ruh isə çox lətifdir və heyvan nəfs bu əhəmiyyətli və əhəmiyyətsiz arasında olduğundan ikisinin arasında vasitəçi olmuşdur. Bununla da heyvani nəfs ilə qucaqlaş bu ülvi ruhun adı könül olmuşdur və nəfsin bir tərəfini heyvani nəfsin kəsafəti qaranlıq etmişdir. Camalın aynası və Zül-Cəlalın nəzərgahı və etibar, izzət və şərəf tapmışdır. Lakin bu güzgü, heyvani sifətlərimizlə tozlanmışdır. Özümüzün mənfi hislərindən güzgü eqoizm örtüyü ilə örtülü qalmışdır. Bu səbəbdən də insan ruhu, özünü tapmayıb, Mövlasını tapmaz olmuşdur. Öz aləmindən üz çevirmiş və heyvani nəfsin hökmü altına gəlmiş və ona əsir olub qalmışdır. Halbuki, nəfs, xidmətçiləri ilə birgə insan üçün, bədən məmləkətinə xidmətçilər olaraq təyin olunmuşlar.İnsanın bu qədər xidmətçilərindən əlavə başqa üç xüsusi xidmətçisi də vardır ki, bunlar nitq, nəzəri ağıl və əməli ağıldır.

əl-Əraf-54-"Xəbərdar ol!Cəsəd və ruh ələmləri Allah üçündür. Aləmlərə pərvəriş verən Allah ucadır."

Bu ayədən isə məlum olur ki, bizim ruhumuz da, cismimiz də, bunların hikmət və sirləri də yalnız uca Allaha məxsusdur.Bizlər isə bu haqda Qurani-Kərimdə buyurulan və Peyğəmbərimiz tərəfindən (Meracda gördüyü və Hz. Cəbraildan vəhy ilə aldığı məlumatlardan)bizə çatdırılanlardan başqa heç nə bilə bilmərik.

Hədis:-Cəfəri Sadiqdən Muhəmməd ibn Müslim belə rəvayət et-

mişdir: ”Öz ruhumdan ona üfürdüyüm zaman”-ayəsi haqqında ondan soruşdum ki: -Bu üfürmək necə olur? Buyurdu:-Ruh külək kimi hərəkət edər. Ruh adlandırılması da elə buna görədir.Külək mənasını verən “ruh” kökündən əmələ gəlmişdir.Çünki ruhlarla külək (ruh) eyni növdəndirlər.**(Usuli Kafi-1c.216.)**

Dini hekayə:Məcnun Leylisinin yaşadığı kəndə getmək üçün dişi bir dəvəyə minir. Bir müddət yol gedirlər. Məcnunun bütün dərdi sevgilisinin kəndinə tez çatmaq idi. Dişi dəvə isə dərədə buraxdığı balalarını düşünür və dərdi onlara qovuşmaq idi. Məcnun bir az düşüncələrə daldığında, dəvə tez geriyə dərəyə dönər, balaca balalarına çatmaq üçün səmtini dəyişərdi. Məcnun özünə gəldiyində dəvənin yolunu təkrar Leylinin kəndi səmtinə döndərərdi.

Bu yolçuluq iki gün belə, bir irəli, iki geri davam edər.Məcnun illərlə yollarda imiş kimi çaşıb qalar. Baxar ki, bu iş daha belə gedə bilməz və dəvəsindən enərək dəvəyə belə deyər:-Ey dəvə, ikimiz də aşiqik, lakin sevdiklərimiz fərqli yerlərdədir.Biz bir-birimizlə yol yoldaşı ola bilmərik. Bizim birlikdə olmağımız, ikimizi də istədiyimiz hədəfə çatdıra bilməyəcək. Ən düzü-doğrusu bizim yollarımızın ayrılmasıdır,-sonra da dəvəni sərbəst buraxar.

Açıqlaması: Bu hekayədə Məcnun insan ruhunu təmsil edir.Ruh Rəbbinə aşiq olduğundan ona doğru getmək istər.Lakin nəfs dəvəsi ona davamlı mane olar.Dəvə maddi arzuların arxasınca qaçan nəfsin simvoludur. **(Mövlanə Cəzalinin” Kimyayi Səadət”-tərcümə A.Aydın.)**

TİBB ELMİ VƏ İSLAM

Bildiyimiz kimi Anatomiya elmi tibb elminin əsasını təşkil edir. Həkimlər isə insan bədəninin həm daxilində, həm də xarıcində yerləşən bədən üzvlərinin fəaliyyətini, onlarda baş verən dəyişiklikləri ,əgər xəstəlik varsa onların müalicəsi yollarını araşdırıb ,öyrənirlər. Adətən biz həkimlərə müayinə olunmaq üçün müraciət etdikdə,onlar yenə də ağriyan bədən üzvündə baş verən dəyişiklik və xəstəlikləri araşdırır və dərmanlar yazaraq qarşısını almaq yollarının bizlərə öyrədirlər. Çox vaxt bəzi həkimlər bizlərə:əsəbləşmə,çox yemə, fikir etmə, qəzəblənmə,səbrli ol və təmizliyə riayət et və sair bu kimi məsləhətlər də verirlər.

İslam dinində də insanın həm daxili həm də xarici bədən üzvləri haqqında, onların keyfiyyəti, xüsusiyyəti və fəaliyyəti haqqında məlumat verən,“təşrih” elmi adlanan tibb elmi vardır. Dünya tibb elmindən, İs-

lam tibb elminin fərqi ondan ibarətdir ki,həkimlər artıq xəstə bədən üzvünü müayinə və müalicə edirlər,İslam elmində isə o xəstəliyi törədən səbəbləri və bunun qarşısını alma üsullarını bizlərə öyrədir. Təşrih elmi bütün xəstəliklərin yaranmasına səbəb olan bu duyğu üzvlərinin hərəkət və fəaliyyətini ağıla tabe edib və bu duyğu üzvlərini bir-birinə nəzarətçi edərək yaşamağı bizlərə öyrədir. Bunların hər birinin məlum vəzifələri və halları vardır.Birinə zərər dəysə, insanın işi dünyada və axirətdə zərər görər.

Əlbəttə tibb elmini inkişafı çox mühüm və önəmlidir. Lakin İslam dini tibb elmini din elmi ilə birlikdə öyrənilməsini tövsiyə edir və tibb elminin din elmindən ayrı düzgün inkişaf edə bilməyəcəyini bildirir.

Peyğəmbərimiz (s.ə.s.) bu haqda belə bir hədis buyurur:

"İki elm vardır.Bunlardan birincisi tibb və (ilmi hifzi sihhə) səhhəti hifz edən elm, dəgəri də (Ulumi Diniyyədir) Din elmidir."

İnsanın səhhəti yaxşı olmasa, ibadət və itaət yerinə yetirə bilməz. Yaşamaq və çalışmağında da əziyyət çəkər.

Peyğəmbərimizin tövsiyə və buyurduqlarının əsas məqsədi isə:Tibb elmində xəstələnmiş bir insanın müalicədən əlavə, o insanın xəstə olmasını, səhhət və rahatlığının qorunmasını və bunun üçün lazım olan tədbirlərin əvvəlcədən yerinə yetirilməsini xəstəyə öyrətməsidir. İnsan vücudunun yaranışını və orqanların vəzifələrini öyrənən elmə,dində "Təşhis"elmi deyilir.

İNSAN ORQANİZMİ HAQQINDA QISA MƏLUMAT

İbrahim 34-Allah sizə istədiyiniz şeylərin hamısından vermişdir. Əgər Allahın verdiyi nemətləri saymaq istəsək,onu sayıb qurtarmağa gücünüz çatmaz. Quruda və dənizdə olanların hamısını O bilir. Həqiqətən, insan çox zalım, həm də çox nankordur.

Açıqlama: Yer üzündəki bütün canlılar, təbiət, heyvanat, nəbatat və onlarda olan bütün əzalar, hətta bədənlərindəki hüceyrələrin sayları belə Uca Allahın nəzarəti və əmri altındadır. Həmçinin Hz. Adəmdən başlayaraq, bu anda yaşayan insanların və Qiyamətə qədər dünyaya gələcək olan insanların sayı, onların vücudları, əzaları, bədənlərindəki hüceyrə sayları Uca Allaha məlumdur və Onun nəzarəti altındadır.Allah hər şeydən xəbərdardır, Onun elmi sonsuzdur.

İnsan orqanizmində 100 trilyona yaxın hüceyrə vardır.Bu hüceyrələrdən bəzisi qan hüceyrələri, bəzisi sümük, başqa birisi sinir, bəzisi ayaq və əldə olan əzələ hüceyrələri, dəri hüceyrəsi funksiyasını daşıyırlar. Orqanizmimizdə bir-birindən fərqli şəkildə hər orqa-

nın funksiyasını yerinə yetirməyə çalışan 200 növ hüceyrə vardır.Bu hüceyrələrin hər biri millimetrin yüzdə biri qədər olmalarına baxmayaraq, onların fəaliyyəti nəhəng bir fabrikə bənzər.Hər saniyədə insan orqanizmində dəyişikliklər baş verir:-Gözümüzdə 100 milyard iş prosesi baş verir.Vücudumuzda 50 milyon hüceyrə ölür və 50 milyon hüceyrə yaradılır.Gözümüzdən beynimizə saniyədə 10 milyon bilgi göndərilir. İnsan bədənindəki hər bir hüceyrənin hərəkəti Allahın nəzarətindədir və onun əmri ilə hərəkət edir. Bədəndə olan hüceyrələr (məsələn, əzələ və sümük hüceyrələri) inkişaf dövrü zamanı bölünərək çoxalırlar. Bu hüceyrələrə nə qədər bölünmələri lazım olduğunu bildirən yenə böyümə hormonudur. Bu, olduqca möcüzəvi prosesdir. Çünki hipofiz adlı noxud böyüklüyündə bir ət parçası, bədəndə olan bütün hüceyrələrə hökm edir və bu hüceyrələrin həcmcə və ya bölünərək böyümələrini təmin edir. Bu hüceyrələrin insan bədənini xaricdən görməsi, bədənin nə qədər böyüməsini və hansı mərhələyə gəldikdə dayanmalı olduğunu bilməsi qeyri-mümkündür. Bu qüsursuz sistem ilə böyümənin və bu hormonun ifraz olunmasının hər mərhələsi nəzarətdə saxlanır. Haqqında danışdığımız hüceyrələr ağlı, şüuru olmayan zülallardan ibarətdir.Hamı bütün bu əməliyyatları hüceyrələrin həyata keçirmədiyini bilir. Hüceyrələrə nə qədər böyümələrinin lazım olduğunu ilham edən sonsuz ağıl sahibi olan Allahdır. Məsələn, insan özü boyunun uzunluğu, orqanlarının böyüklüyü ilə bağlı qərar verə bilməz. Bunları hipofiz vəzi tərəfindən ifraz olunan böyümə hormonu yerinə yetirir.Böyümə prosesi iki fərqli şəkildə reallaşır. Bəzi hüceyrələr həcmlərini artırırlar, bəzi hüceyrələr də bölünərək çoxalırlar. Böyümə hormonu bütün bədən hüceyrələrinə təsir edir. Hər hüceyrə hipofiz vəzindən özünə gələn mesajın mənasını bilir. Əgər böyüməsi lazımdırsa, böyüyür, bölünərək çoxalması lazımdırsa, çoxalır. Məsələn, yeni anadan olmuş körpənin ürəyi yetkin insanın ürəyinin təxminən 16-da biri (1/16) qədərdir. Buna baxmayaraq, bütün hüceyrələrin sayı yetkin insanın ürəyindəkilərlə eynidir. Böyümə hormonu inkişaf dövründə ürək hüceyrələrinə tək-tək təsir edir. Hər hüceyrə böyümə hormonunun özünə əmr etdiyi qədər inkişaf edir. Beləcə, ürək böyüyərək yetkin bir insan ürəyi halına gəlir.

Beynimiz 1,5 kq-dır və beyində 100 milyard sinir hüceyrələri vardır. İnsan başının yuvarlaq olması, zərbələrdən qorunması və beyin orqanları üçün daha geniş bir yer olması üçündür. Beyin yumşaq və əsılli bir cövhərdir ki, rəngi ağdır. O, arterial və vena damarların özündən, beynin anası olan pərdədə və kəlləyə bitişik olan pərdədən birləşmişdir.Beynin quruluşu bir üçbucağa bənzər ki, onun bazası başın ön tərəfindən, iki

kənarı ilə əhatə olan bucaqları başın arxa nahiyəsində yerləşir. Bədənin hiss və hərəkəti, beyin ilə tamamlanmışdır ki, bədən hissləri yumşaq sinirlər ilə, üzvlərin hərəkətləri sərt sinirlər vasitəsiylə yerinə yetirilir. Baş beyni xaricdən üç qişa-sərt, hörümçək torunabənzər və yumşaq qişa ilə örtülmüşdür. Sərt qişa ikitəbəqəli olub, biri kəllə boşluğunu daxildən örtür, digəri baş beyninin xarici qişasını təşkil edir. Hörümçək torunabənzər qişa nisbətən nazik, şəffaf, qan damarları və sinirlərlə zəif təchiz olunmuşdur. Yumşaq qişa damar və sinir lifləri ilə zəngin olub, baş beyninin qidalanmasında bilavasitə iştirak edir.

İnsanın baş beyni üç əsas hissədən-beyin kötüyündən, beyincikdən və beyin yarımkürələrindən təşkil olunmuşdur. Baş beyində 12 cüt kəllə sinirinin, o cümlədən, qoxu, görmə, üçlü eşitmə-müvazinət, üz, azan, dilaltı, dil-udlaq və s. sinirlərin mərkəzləri yerləşir. Üzümüzdə mimika funksiyasını yerinə yetirən cəmi 28 ədəd bir-birindən ayrı əzələ var. Güldüyümüz zaman üzümüzdə 17 əzələ eyni vaxtda bükülür.

İnsan başının bütün orqanların üstündə və yüksəkdə olması, şanının böyüklüyü ilə ululuğunu bildirmək və onda olan ağıl cövhərinin qiymətini bildirmək üçündür. Boyun enlilik və uzunluğunun müxtəlif biçimdə olması, baş ilə rahat münasibət və bağlılığı,onun ağırlığına dayana bilməsi üçündür. Başın on duyğu orqanının başlanğıc yeri olması onun şərəf və dəyərini artırmaqdadır. Başın bir tək sümük olmayıb yeddi əzələdən meydana gəlmiş olması, vücudun hər tərəfə rahat çevrilməsi üçündür.İnsan başını dövrəyə alan 5 sümük parçaları vardır ki, bunlardan dördü divar kimi geriyə,biri isə qəlib kimidir.Bu dörd divarın yaradılışı, alın sümüyündən də bərkdir.Çünki yıxılmaq, düşmək onların üzərində olur. Muasir elmi faktlara gorə insanın baş beyinqabığı 14 milyarda qədər huceyrələrdən təşkil olunub. Baş beyinqabığında coxlu qırışlar və şırımlar var. Bunlar beynin səthini xeyli artırır. Üc dərin şırımla baş beyinqabığı dörd hissəyə bölunur: alın payı, təpə (və ya əmgək) payı, ənsə payı və gicgah payı. Birinci mərkəzi şırım alın və təpə paylarını ayırır. İkinci ənsə-təpə şırımı ənsə, təpə və gicgah payları arasından kecir. Ücüncü lateral şırım isə gicgah payını alın və təpə paylarından ayırır.Baş beyinqabığı tam bir vəhdət halında işləyir və insanın psixi fəaliyyətinin maddi əsasını təşkil edir. Yaddaş, nitq, təfəkkur və davranışın idarə edilməsi kimi psixi funksiyalar böyuk yarımkürələr qabığı ilə bağlıdır. Alın payı beyin yarımkürələrinin yaxşı inkişaf etmiş payı sayılır və insan beyninin ümumi sahəsinin 29%-ni təşkil edir. Bu payda nitqin əsas mərkəzi yerləşir. Onun ən ön hissəsi isə şəxsiyyətin

keyfiyyətinin, yaradıcılığının və əlavə məşğuliyyətinin formalaşmasında iştirak edir.Hesab olunur ki, alın payı həm də təcavuz mərkəzidir. Bir sözlə, baş beyin qabığının alın payı insanın hansı əməl sahibi olmasını təmin edir. Onun yaxşı və ya pis olması, məhz bu payın nəzarəti altından gedir. Yəni insanın törətdiyi butun əməllərə alın payı nəzarət edir və bu əməlləri törədir.

Alının nuru könüllərin tacıdır, iki qaş iki gözün kölgəliyi nurlu üzün hilalı, ayıdır.Gözlərin burunla iki qaş arasında olması, gözlərin bir-biri ilə toqquşmasının qarşısını alır və başın qabaq tərəfində olması vücudun bütün işlərində ona yol göstərici olması üçündür. Göz qapaqları, göz yuvarlağının örtüyü, gözlərin pis nəzərdən qoruyucusudur.Göz qapaqları gözü müxtəlif işlərdən qoruduğu kimi, yuxu zamanında da göz yuvarlaqlarını örtmək vasitəsilə qoruyur və gözü süsləyən kirpiklərlə birlikdə gözü toz-duman kimi zərərli şeylərdən qoruyur.Göz bəbəyinin qara, ətrafının ağ olması bəzək və gözəllik üçündür. Göz nurunun qara nöqtəsi ona orqanlarının ən dəyərlisi sifətini verməkdədir. Göz bəbəyinin yuvarlağın ortasında olması, təbəqələrinin vacibliyindəndir. Göz yuvarlağının oval olmasının səbəbi; göz nurunun ətrafa yayılmasını asanlaşdırmaq üçündür. Dodaqların qırmızı, dişlərin inci kimi olması gözəllik üçündür. Burunun qığırdaq, xəfif olması yıxılmalardan zərər görməməsi üçündür.Burun dəliklərinin geniş olması qoxunu tez və çox alması, ifrazatın rahat axması üçündür.

Dişlərin yeməkləri kəsmək və qırmaq, yeməkləri çeynəmək, düzgün düzülmələri danışıq zamanında hərflərin və səsin düzgün çıxması üçündür.

Dilin sümüksüz olması tikəni ağızda hərəkət etdirmək, kəlmələri rahat ifadə edib, bildirmək üçündür. Dilin dodaqlarla və dişlər tərəfindən həbs edilmiş olması az danışmaq üçündür. Dil bir olduğu halda göz və qulaqların iki olması yaxşı görüb, yaxşı eşitməyimiz üçündür.Bu qədər orqan və qüvvətlərin belə bir yerdə (başda) toplanmış olması,Cənabi-Haqqın qüdrətinin kamalını göstərmək və sənətinin ululuğunu bildirmək üçündür. İnsan orqanlarının şəkil və biçimlərini düşünüb başa düşmək, lütf və kəramətini bilməkdir.

Orqanizmimizdə həyatımızı xilas edən bir qapı var.Bu qapı nəfəs borusunun düz yuxarısındakı qırtlaq qapağıdır.Udqunanda qırtlaq qapağı bağlanır, bununla nəfəs borusunun girişi də qapanır və yediyimiz şeylər nəfəs borusuna düşmür.

Qan damarları orqanizmin hər tərəfində dolaşır,bu damarların uzunluğu düz sahədə açılsa, 100 km qədərdir.

Bədənimizdə 206 sümük var və bunların hamısı öz yerlərinə şüurlu

surətdə yerləşdirilmişdir.Sümüklər sərt, metaldan 5 dəfə möhkəmdirlər. Sümüklərimizin içi arı pətəkləri kimi oyuq olduğu üçün, onlar yüngüldürlər.

Ağciyər: Qırmızı gül rəngində olan ətdən və öz borusunun qığırdaqlarından və ürəkdə bitən arterial damarlarla birləşmişdir.Ağciyər, özlüyündə hissizdir. Lakin pərdəsinin az bir hissi vardır. Bunun mənfəəti, ürəkdə doğan təbii hərəkətdən bədəni nəfəslə hərəkətə gətirməkdir.

Ürək: Konusvari şəklində bir cisimdir ki, məkanı sol tərəfdən sinənin ortasında, təpəsi sol tərəfdə qoyulmuşdur. Rəngi qırmızı nar kimidir. O, lətif ət ilə sərt pərdədən ibarətdir. O, təbii hərəkətin mənbəsi hesab edilir. Onun iki mədəciyi vardır ki, sağ mədəciyi, az ruh və çox qan ilə dolu olmuşdur. Onun kanalları vardır ki, onlarla ürəkdən ağciyər tərəfinə qida gedir, ağciyər dən də ürəyə fərah, hava gəlir. Onun sol mədəciyi, az qan və çox ruh ilə dolmuşdur. O, arteriyaların bitmə yeri olmuşdur.

Diafraqma yəni sinə pərdəsi: Sağlam, həssas və hərəkətli sinirlə birləşmişdir. Bunun mənfəəti, sinənin yayılması və büzülməsi üçündür.

Mədə: Yumru bir orqandır ki, ət, sinir, arterial və vena damarları ilə birləşmişdir. O, üç hissəyə bölünmüşdür. Birinci hissə yemək borusu, ikinci mədə ağzı və üçüncüsü isə mədə dibi adlanır. Yemək borusu, ağızdan gəlib, qışqır sümüyünün bitimində sona çatmışdır. Mədə ağzı, yemək borusu şəklindədir və ətsizdir. Mədə dibi, ətli yaradılmışdır. Yeri, göbəyin üstüdür. Mədənin mənfəəti, qidanı həzm etməkdir.

Bağırsaqlar: Qatlanmış həssas sinirləri olan cisimdir.Sinir, yağ, arterial və vena damarları ilə birləşmişdir. Bunlar sayca yeddidir: Birinə qapaqcıq, birinə 12 barmaq, birinə mühafizəkar, birinə incə, birinə əyri, birinə kolon və birinə düz bağırsaq deyilir.Düz bağırsaq, makat halqasına bitişikdir. Bunların mənfəəti artıq qidanı bədəndən xarıc etməkdir.

Qaraciyər: Ət, arterial və vena damarlar ilə özünü örtən pərdədən ibarətdir. Qara ciyərin özündə hiss yoxdur, ancaq üzərində ki, pərdənin hissi çoxdur. Onun rəngi donmuş qana bənzədilmişdir. Qara ciyərə qan damarları bitişmişdir.Onun yeri, sağ tərəfdədir. Xarici, arxa qabırğalara bitişik, içi mədəyə tərəf, üstü sinə diyaframının altı və ləyən sümüyünə bitişikdir. Qaraciyərin vəzifəsi, mədədən bədənə daxil olan yeməkləri qana çevirməkdir.

Öd: Qaraciyər yapışıq yaradılmışdır. O, öd (öd) kisəsinin içindədir. Onu mənfəəti, ödü, qaraciyərdən çəkməkdir.

Dalaq: Buğumlu bir cisimdir ki, ət və arteriyalarda biləşmişdir. Rəngi, qaraciyərə bənzərdir. Öz zatında hissi olmayıb, pərdəsi həssasdır. Onun yeri, sol tərəfdə, arxa qabırğalar ilə mədənin arasındadır. Onun mənfəəti, ödü qaraciyərdən özünə çəkməkdir.

Böyrəklər: İkisindən hər biri, az qırmızı olan sərt ət ilə çox yağdan və arterial damarlarla birləşmişdir. Böyrəklərin öz nəfsində hissi olmayıb, pərdəsinin hissi çoxdur. Bunların yeri kürəyin altındadır. Mənfəəti, sidiyi çəkib, məsanəyə axıtmaqdır. Beləliklə belə bir şah əsəri yaradaraq, həm xarıcımızı həm də ki, daxilimizi düzgün, mütanasib və gözəl yaratmışdır.

Dalağın vəzifəsi qara ciyərdə köpük rəngində olan limfanı qandan təmizləməkdir. Bədəndə safra dediyimiz sarı köpük vardır ki,öd kisəsinin də vəzifəsi onu toplamaqdır. Böyrəyin vəzifəsi qandan artıq suyu almaqdır.

Orqanizmimizdə həyatımızı xilas edən bir qapı var.Bu qapı nəfəs borusunun düz yuxarısındaki qırtlaq qapağıdır.Udqunanda qırtlaq qapağı bağlanır, bununla nəfəs borusunun girişi də qapanır və yediyimiz şeylər nəfəs borusuna düşmür.

Orqanizmimizdə həzm proseslərinin getdiyi yol cəmi 10 metr uzunluğundadır.Cənabi-Haqq şəkil və biçim verdiyi insanın bədənində dörd qarışıq qan, bəlgəm, safra, sevda dumanı(nütfə) yaratmışdır.

Aləmi bu şəkil və surətdə yaradan Cənabi-Haqq, tayı-bənzəri olmayan insan aləmini ən gözəl şəkildə və ən bəyənilmiş surətdə yaradıb şəkil verdikdən sonra, üfürdüyü ruhu ilə bəzətmiş və aydınlatmışdır. İnsanı bədən və ruh baxımından yaratmışdır və insanlar zəka və qabiliyyətlərinə görə bir-birindən fərqlidirlər. Onurğa beyni. Onurğa beyni 41-45 sm uzunluğunda olub, öndən arxaya doğru yastılaşmış silindr şəklindədir. O, onurğa kanalında yerləşmişdir. Yuxarı ucu birinci boyun fəqərəsinin yuxarı kənarı bərabərində uzunsov beyinə keçir. Aşağı ucu isə ikinci büzdüm fəqərəsinə qədər enir. Onurğa beyni quruluşca ağ və boz maddədən ibarətdir. Ağ maddə xaricdə, boz maddə isə daxildə yerləşir. En kəsiyində boz maddə qanadları açılmış kəpənək formasında görünür. Onun ön hissəsi ön buynuzları, arxa hissəsi isə arxa buynuzları əmələ gətirir. Döş və bel hissəsində yan buynuzlar da vardır. Ön buynuzlarda hərəki neyronların cismi, arxa buynuzlarda ara neyronlar və yan buynuzlarda simpatik mərkəzlər yerləşir. Onurğa beynindən çıxan və ona daxil olan sinir lifləri ön və arxa kökləri təşkil edir. Fəqərəarası dəlikdə ön və arxa köklər bir-biri ilə birləşərək, 31 cüt qarışıq onurğa beyni sinirlərini əmələ gətirir. Bunlardan 8 cütü boyun, 12 cütü döş, 5 cütü bel, 5 cütü oma və bir cütü büzdüm sinirləridir. Onurğa beynindən ətraflara gedən sinirlər çıxdıqları yerlərdə iki qalınlaşma: boyun qalınlaşması və bel qalınlaşması yaradır. Boyun qalınlaşması nahiyəsində yuxarı ətraflara, bel qalınlaşması nahiyəsində isə aşağı ətraflara gedən

sinirlər çıxır. Onurğa beyninin hər bir cüt sinirə müvafiq hissəsi onurğa beyni seqmenti adlanır. Deməli, onurğa beyni 31 seqmentdən ibarətdir. Onurğa beyni üç qişa ilə örtülmüşdür: sərt, hörümçək torunabənzər və yumşaq qişa. Sərt qişa onu xaricdən örtərək lifli birləşdirici toxumadan əmələ gəlmişdir. Hörümçək torunabənzər qişa damarsız olub, sərt qişanın altında yerləşir. Yumşaq qişa daxildə olub, onurğa beynini xaricdən əhatə edir. Bu qişa qan damarları ilə zəngin olub, onurğa beyninə bitişmişdir. Onurğa beynindən çıxan 31 cüt sinirin arxa kökləri hissi neyronların aksonlarıdır. Bu neyronların cisimlərinin yığını onurğa beyni düyünlərini əmələ gətirir. Ön köklər hərəki neyronların aksonlarıdır. Onurğa beyninin iki əsas funksiyası vardır: reflektor və nəqledici funksiya. Reflektor funksiyası hərəkəti təmin edir. Onurğa beyni baş beyni ilə birlikdə daxili orqanların: ürəyin, mədənin, sidik kisəsinin, cinsiyyət orqanlarının işini tənzim edir. Onurğa beyninin ağ maddəsi nəqledici funksiyanı yerinə yetirməklə mərkəzi sinir sisteminin bütün şöbələri arasında əlaqə yaradır və bunların bir-biri ilə əlaqəli şəkildə işləməsini təmin edir.

GÖZLƏR HAQQINDA

"Gözlər onu (görub) dərk etməz" Gözun quruluşunun və funksiyasının muasir elm tərəfindən ətraflı oyrənilməsi gostərir ki, o, fotokameraya bənzəyir.Onun ön hissəsi işıq şualarını qəbul edən və fokuslaşdırıb torlu qişaya oturən şəffaf linzalardan ibarətdir

Vücudumuzda 50 milyon hüceyrə ölür və 50 milyon hüceyrə yaradılır. Gözümüzdən beynimizə saniyədə 10 milyon bilgi göndərilir. İnsan bədənindəki hər bir hüceyrənin hərəkəti Allahın nəzarətindədir və onun əmri ilə hərəkət edir. Gözlərin hər ikisi də yeddi təbəqədən və üç rütubətdən təşkil olunmuş və ümumi sayı on təbəqə olaraq bişdirilmişdir.Birinci təbəqə, mültəhimədir ki, havaya təmas edən təbəqədir. İkinci təbəqə, qariniyyədir ki mültəhimədən sonradır. O, rəngsiz yaradılmışdır ki, altında olan təbəqənin rəngiylə rənglidir.Üçüncü təbəqə, eyniyyədir ki, ya qara ya Şəhla. ya sarı və ya mavidir. Mültəhimənin altında, rəngiylə bəzənmiş Zəhra. eyniyyə təbəqəsindən sonra ağ rutubətdir ki, şəffaf və aydındır. Bundan sonra şüşəyə bənzər rutubətdir ki, ərimiş şüşəyə bənzər. Beşinci təbəqə, şəbəkiyyədir ki, şüşəyə bənzən rütubətdən sonradır. altıncı təbəqə, meşimiyyədir ki, ona bənzəmişdir. Yeddinci təbəqə, salbəyidir ki, hamısından sərt və göz sümüyünə bitişikdir. Bu təbəqələrin faydaları çoxdur.

İşıq şuası gözə duşən kimi billurdan kecib goz almasının daxili qişası olan torlu qişaya düşür. Torlu qişada gözun reseptorları (cöpcüklər və kolbacıqlar) yerləşir. Torlu qişada işıq, sinir impulslarına cevrilir və bunlar görmə sinir ilə baş beyinə-böyuk yarımkurələr qabığının gormə nahiyyəsinə öturulur.

20-ci əsrin ikinci yarısında sübüt olunub ki, işıq şuası gözun torlu qişasına duşən kimi göz onu hiss edir, yəni qıcıq baş beyinə hələ öturülməmiş göz işığı görur.

N. Xartlayn əməkdaşları ilə birgə subut edib ki, torlu qişa işığa (və ya işıq qıcığına) ayrı-ayrı reseptorların yığımı kimi deyil, yalnız bütöv bir mürəkkəb fizioloji sistem kimi cavab verir. Torlu qişanın işığa reaksiya vermə qanuna uyğunluqları sinir mərkəzlərinin işinin qanuna uyğunluqlarına oxşardır. Bütün bu faktlar onu göstərir ki, güzun torlu qişası baş beynin ayrı-ayrı bölmələri kimi dərk etmək qabilyyətinə malikdir. Deməli, göz təkcə görmək yox, həm də öz beyni (torlu qişa) hesabına dərk edə bilir.Qurani-Kərimin əl-Ənam (6-cı) surəsinin 102-ci və 103-cu ayələrindəbuyurur ki:-"O Allah Rəbbinizdir! Ondan başqa hec bir tanrı yoxdur. Hər şeyi yaradan odur. Buna görə də yalnız ona itaət edin. O, hər şeyə vəkildir.Gözlər onu görüb dərk etməz. O, gözləri dərk edər. O, lətifdir (cisimlikdən uzaqdır) və hər şeydən xəbərdardır".

Quran ayəsində gözun dərk etmək qabiliyyəti barədə olan ifadə gözun beynə (beyin toxumasına) malik olmasını göstərir. Belə ki, dərk etmək qabiliyyəti yalnız beynə məxsus olan xassədir.Beləliklə, gözun öz beyninə malik olmasının alimlər tərəfindən 20-ci əsrdə sübüt olunmasına baxmayaraq, bu barədə ilk elmi məlumat 1400 il bundan əvvəl Qurani-Kərimdə verilir.

Hədis: Peyğəmbərimiz buyurur ki:"Hər birimizin yaranışı ana rəhnində (nütfə) olaraq 40 günə toplanır. Sonra 40 günə qan parçası olur,40 gündən sonra ət parçası halına gəlir.Ondan sonra Allah bir mələk göndərir və o ət parçasına ruh üflər.Allah o mələyə bu dörd kəlməni yazmasını da əmr edər; ruzisini, əcəlini, əməlini, üsyankar və yaxud da itaətkar olacağını**.(Səhihi-Buhari.)**

GENETİKA HAQQINDA

Muqəddəs Qurani-Kərimin əl-Əraf (7-ci) surəsinin 172-ci ayəsində deyilir: (Ey Peyğəmbərim!) Xatırla ki, bir zaman Rəbbin Adəm oğullarının bellərindən nəsillərini cıxardıb onları özlərinə (bir-birinə) şahid tutaraq:"Mən Sizin Rəbbiniz deyiləmmi?" - soruşmuşam, onlar

da:”Bəli, Rəbbimizsən!” - deyə cavab vermişlər. (Belə bir şahidliyin səbəbi) qiyamət günü:”Biz bundan qafil idik”. Bu ayədə”Adəm oğullarının bellərindən nəsillərini cıxarıb onların özlərinə şahid tutarıq” ifadəsində atadan (valideynlərdən) övladlara (nəsillərə) əlamətlərin irsən kecməsi fikri verilmişdir.

Əlamətlərin doğrudan da irsi olaraq valideynlərdən yeni nəslə oturulməsini ilk dəfə 1884-cu ildə K. Negeli, O. Kertovic, E. Strasburger və A.Veysman göstərmişlər. Belə ki, spermatoziod (kişi cinsi hüceyrə) yumurta hüceyrəsi (qadın cinsi hüceyrə) ilə birləşib mayalandıqdan sonra rüşeym əmələ gəlir. Spermatozoid atanın, yumurta hüceyrəsi isə ananın irsiyyət maddəsini (irsi məlumatları) rüşeymə öturur. Ruşeymdən əmələ gələn yeni orqanizm (nəsil) hər iki valideynin genetik xassələrinə malik olur. Erkək və dişi cinsi hüceyrələr birləşdikdən sonra onların nüvəsi bir-birinə qarışır. Nüvənin tərkibində irsiyyət maddəsinin (idioplazmanın) olmasını 1888-ci ildə T. Boveri göstərmişdir. Nuvədə irsiyyət maddəsinin xromosomdan ibarət olması isə 1900-cu ildə kəşf olunub. İsvecrə alimi R. Mişer dezoksiribonuklein turşusunu (DNT) 1868-ci ildə kəşf etməsinə baxmayaraq, Amerika alimləri O. Everi, K. Makleod və M. Makkarti DNT-nin irsi məlumatlar daşımasını xeyli sonra sübut etdilər.

İrsiyyət amillərini ifadə etmək ucun U. Betson 1906-cı ildə genetika anlayışını, 1909-cu ildə isə V. Yohansen gen terminini elmə daxil etdi. Alimlərin fikrincə gen DNT-nin irsi informasiya daşıyan ən kicik bir hissəsidir. İnsanın bütün xüsusiyyətləri haqqında məlumat ayrı-ayrı genlərdə yerləşir.İnsanın genetikası ingilis alimi F.Qaltonun 1876-1909-cu illərdə apardığı tədqiqatlar sayəsində yaranmışdır. O, insanın bir cox xüsusiyyətlərinin valideynlərdən uşaqlara irsi kecməsini öyrənmişdir. F.Qalton və rus alimlərindən N. Koltsov, A. Serebrovski və Y. Filipcenko insanın bəzi mənəvi xassələrinin (keyfiyyətlərinin) də irsi kecməsini öyrənmişlər.

Artıq elm sübut edib ki, hər bir insanın fərdi (rüşyem əmələ gələndən sonrakı) inkişafı genetik və ictimai proqramlar üzrə gedir. Genetik proqram insanın xassələrinin formalaşması (inkişafı) ücün əsasdır. Məsələn, insanın boyunun hündürlüyü (uzunluğu) genlər vasitəsilə təyin olunur. Lakin boyun uzunluğu genetik təyin olunmuş həddə catmaq ücün boy hormonunun (samototropinin) orqanizmdə sintez olunması vacibdir (hormonun sintezi də genetik təyin olunur). Afrikada yaşayan Buqimen və Piqmey tayfalarının boyu 150 sm-dən yuxarı olmur. Baxmayaraq ki, onların orqanizmində boy hormonu normal sintez olunur. Deməli, boyun uzunluq həddi genetik təyin olunmuş (genlərdə həkk olunmuş)

həddən yuxarı qalxa bilmir. Hər bir nəsil ücün, hətta hər bir fərd ücün bu hədd genetik, yəni irsən təyin olunub.

Allah –taala genetika elmi ilə biz insanlara bildirmək istədiyi isə bir hikmətdir ki, yox olmuş bədənlərimizin gözə görünməz hüceyrələri ilə təzədən diriltməyə qadirdir.

QƏLB ALƏMİ HAQQINDA

Açıqlama: Allah insan aləmini ən gözəl şəkildə, nurilə bəzəmiş, onların görünüş və xüsusiyyətlərini, əxlaqını müxtəlif yaratmışdır. Beləcə insan öz görünüşündən,öz xasiyyətini tanıyaraq ehtimal ilə öz əxlaqını gözəlləşdirər.Daha sonra yaxınları və dostlarının xarici görünüşlərinə ağıl və fərasətlə baxaraq,onların iç hallarından və əxlaqlarından agah ola bilər.Onlara ya əxlaqlarına görə rəğbət və məhəbbət bəsləyər, ya da ağıl ilə gözəl yola verər.

O, Qadir və hakim olan Allahın hikmət və qüdrətinin əsərlərini, görəcək gözü olanların gözünə dünyanı işıqlandıran günəşdən də daha aydın göstərər, onların bəsirət gözünü açar.

Bu haqda Qurani-Kərimdə buyurulmuşdur:

-“Quranın haqq olduğu müşriklərə bəlli olsun deyə,Biz qüdrət nişanələrimizi onlara həm xarici aləmdə,həm kainatda,göylərin və yerin ətrafında, həm də onların öz qəlblərində mütləq göstərəcəyik. Məgər Rəbbinin hər şeyə şahid olması kifayət deyilmi?”

Cənabi-Haqq insanın vücudunu ən mükəmməl və gözəl şəkildə yaratmışdır. Orqanlarını bir-birinə uyğun və simmetrik etmiş, özünü isə nəzakətin və gözəlliyin nümunəsi etmişdir.Bədənin gözəlliyini vəsf etməkdə, bildirməkdə və anlatmaqda dil acizdir. Üzünün gözəlliyi, içinin təmizliyi və kamalı, xasiyyətinin yumşaqlığı, təbiətinin yaxşılığı, danışığının gözəlliyi ilə dünyada bənzərsiz bir varlıqdır.

Bədən qəlbin qabığıdır, eyni şəkildə insanın bədəni aləmin özüdür.Ürək də bədənin özüdür.O halda özü-özünə olan könül, Beyti-Rəhmandır. Dünyaya aid olan bilgilər bədən elminə köməkçi olduğu kimi, bədən elmi də qəlb elmlərinə yardımçı və yolgöstəricidir. Bədənin yaradılışında sayılmayacaq qədər əcaib yaradılış, təəccüblü hikmətlər, müxtəlif zinətlər vardır. Qəlbin bədəndə düzgün işləməsi bədənin sağlamlığı deməkdir və qəlb bədənə hakimdir. Biolagiya elmində aparılan araşdırmaların nəticəsi olaraq məlim olmuşdur ki,beyin qəlbə itaətedir. Məsələn: ana bətnində olan uşaq tərpənən zaman əvvəlcə beyində deyil, uşağın qəlbində dəyişiklik baş verir. Alınan nəticələr göstərmişdir

ki, beynin işləməsi, qəlbin işləməsinə bağlıdır. Qəlbin içində, beynin içindəki sinirə oxşar bir sinir sistemi vardır və bu "qəlbin beyni"həm beyni,həm də bədəni idarə edir. Nerokardiolaji və ya qəlb-beyin araşdırmaları zamanı müəyyən etmişlər ki,qəlbin beyinlə bağlı olmayan 40 000 sinir hüceyrəsindən ibarət, sirli bir aləmi vardır. Bu sinir sistemi "qəlbdəki beyin" olaraq tanılır. Beynin mücərrəd və analitik məntiqi zəkasının yanında qəlbin də hiss və duyum zəkasını vardır.Bütün hiss və həvəsimiz qəlbdən çox sürətlə beynə gedir və ürəyin döyüntüsünün ritmi ilə qan dövranı vasitəsiylə bədənə yayılır.Qəlbin ritminin vəbütün bədənə yayılan biomaqnit enejisini tək bədən deyil, ətrafdakılarda bu enerjini hiss edirlər.Yəqin ki, bu da ruhumuzun xüsusiyyətləri ilə əlaqədardır.

Qəlbin özünə məxsus elmini tanımaq isə çox mürəkkəbdir və insan hələm-hələm öz qəlbini tanıyıb, anlaya bilməz.Özünü tanımadığı halda özgəsini tanıdığını,onun haqqında bilgi sahibi olduğunu iddia edən bir kimsə, özünün bir tikə çörəyi olmadığı halda, şəhərdəki bütün yoxsulları doyduracaq qədər onlara yemək verəcəyini iddia edənə bənzəyir ki, bu da yaramaz bir işdir. Ona görə də heç kəs bir kimsə haqqında fikir yürüdə bilməz,əgər bunu edə bilirsə, yalnız özünəməxsus olan(öz xislət və dünyagörüşünə uyğun) fikirləri söyləmiş olar.Bu da çox yaramaz və günah bir hərəkətdir.

Qəlb insana böyük, qiymətli bir cövhər kimi verildi və üzəri vücudla örtüldü. İnsanlar onu öyrənməyib unudarlarsa çox böyük zərərlərə düşərlər.Qəlbi araşdırmaq,öyrənmək,dünya ilə mücadilədən qurtarmaq və layiq olduğu yüksək dərəcəyə qaldırmaq üçün çox çalışmaq lazımdır. Qəlbin ali məqama yetməsi o biri dünyada sonsuz, tükənməyən sevincə və ruziyə sahib olmasıdır.

Bu dünyada isə insanın şərəfi özündə olan qabiliyyəti və yaradıcılığı ilə həqiqi şərəf və hörmətə çatmasıdır.Yoxsa dünyada ondan ayıblı və biçarə kim vardır ki? O, aclığın, susuzluğun, soyuğun, xəstəliyin, ağrının, sıxıntının, acizliyin, qəzəb və şəhvətin əsiridir. Rahatlıq tapdığı və ləzzət aldığı şeylər də ona zərər verməkdədir. Fayda verənlərsə acı və iztirabla qarışıqdır.Allahın qüdrəti ilə insan hörmətli, əziz, alim olduğu kimi,çox da aciz və məzlumdur.

Bütün bunlar kimi insanın içində və xaricindəki hər orqan bir iş üçün yaradılmışdır.Bəlkə də insanın vücudu aləmin bir hissəsi və kiçik görüntüsüdür;sümük-dağa,tər-yağışa, tüklər ağaclara, beyin göylərə, duyğu orqanlarımızı ulduzlara bənzətmək olar. Bu siyahını uzatmaq da olar, lakin son olaraq bunu demək olar ki,aləmdəki hər şeyin insanda bir

işarəsini, bənzərini tapmaq mümkündür. Zahirdə olan (gözlə görünən) orqanların hər birində o qədər fayda vardır ki, insanların çoxu onlardan xəbərsizdirlər.

Məsələn, insan vücudunda yüzlərcə sümük, sinir, damar və yenə yüzlərcə ixtiyari hərəkətlər tərtib olunmuşdur ki, hər biri bir başqa sifətdə, bir başqa xidmətdə və bir başqa hərəkətdədirlər.Hər biri bir iş üçün yaradılmışdır.

İnsan nə qədər elmli olsa da, beynindəki balaca bir damarın tutulması insanı ya dəli edər, ya da ki öldürər.Bir az malından itirsə, qəmgin olar, ac qalsa, aclıqdan dayana bilməz, min cürə yollara əl atar, iki gün çimməsə isə kəsif qoxu verər.Buna görə insan öz şərəfini bildiyi kimi, nöqsanlarını və çarəsizliyini də bilməlidir ki, bəlkə özünü tanıya bilsin.

Musa ibn Cəfər buyurur ki:"Bəşər nə qədər Allaha yaxın olarsa, bir o qədər də öz zəif və acizliyini anlamış olar.Əql nə qədər artarsa, acizlik də bir o qədər artar".

İNSANIN ZAHİRİ VƏ BATİNİ HİSSLƏRİ

Açıqlama:Bədən bir ölkə,qəlb isə onun sultanıdır.Qəlbin də vücuda ehtiyacı vardır.Vücud su, torpaq, hava və atəşdən meydana gəlmişdir. Buna görə də zəif və möhtacdır.İnsan bədəni zahiri və batini hisslərdən təşkil olunub.Zahiri hisslər insanın bədəninə, batini hisslər isə onun ruhuna xas olan qüvvələrdir. Zahiri hisslər gözlə görünən beş düyğu üzvüdür,batini hisslər isə bəzən ruh, bəzən də qəlb dediyimiz qismdir.

İnsanın əsli elə batini dediyimiz,gözlə görünməyən qismdir. Görünən orqanlar batini hisslərin əsgərləri və xidmətçiləridir.

Biz batini hisslərimizə çox vaxt qəlb deyirik.Lakin Qəlb dedikdə bizim sinəmizin sol tərəfində yerləşən yumru ət parçası deyil, Qəlb-insanın əsli kimi anlaşılmalıdır.Yoxsa qəlb sözündə məna əgər bu ət parçasıdırsa, onda heyvanlarda da və ölüdə də, həmin ürəkdən vardır və gözlə də göründüyünə görə zahiri hiss qismindədər. Bizim Qəlb-dediyimiz varlıq bu dünyaya keçici olaraq gəlmiş olan şeydir, yumru olan o ürək və digər orqanlarımız onun əsgər və ordularıdır. Bu içdəki və üzdəki əsgərlər qəlbin əmrindədirlər. Qəlb nə əmr edirsə, onu yerinə yetirərlər. Əsgərlərin qəlbə itaət etməsi mələklərin Allaha itaət etməsinə bənzər ki,onlar heç vaxt Allahın əmrindən çıxmazlar.Bu iş axirət ticarəti bitincəyə kimi, yəni insan ölənəcən davam edər.

Məsələn:-Dilə əmr edincə dil danışar, ələ, ayağa əmr edincə hərəkət edərlər, gözə əmr edincə, baxar, düşünmə qüvvəsinə əmr edincə,

düşünər.

Vücudun iki cür: biri daxildən-aclıq, susuzluq kimi, biri də xaricdən-atəş, su və digər təhlükələr kimi düşmənləri vardır. Bu səbəbdən Allah-taala bizim həm daxildən, həm də xaricdən qorunmağımız və bizim özümüz üçün əsgərlər təyin etmişdir.

1) İnsan aclıq və susuzluq üzündən yemək və içmək istər.Bunun üçün onun iki əsgərə ehtiyacı vardır.Biri görünən əl, ayaq və mədə kimi, digəri isə gizlidir.Yemək və içmək arzusu kimi.

2)Xaricdəki düşmənlərdən qorunmaq üçün insanın iki əsgərə ehtiyacı vardır. Görünən əl, ayaq və silah kimi, görünməyən isə qəzəb və hirs kimi.

Bu anlatdığımız əsgərlər gözlə görünən təhlükə və ehtiyaclar üçündür. Gözlə görünməyən ehtiyaclar və təhlükələr üçün isə duyğulara ehtiyac vardır. İnsan bədənində gözlə görünən beş duyğu üzvü vardır ki, bunlara zahiri hisslər deyilir.

Zahiri hisslər bunlardır: 1.bəsirə-görmə, 2.samiə-eşitmə, 3.zaiqə-dad bilmə, 4.şəmmə-qoxu bilmə, 5.lamisə-toxunaraq dəri ilə hiss etmə.

Zahiri hisslər vasitəsi ilə insanın bədəni görməli, eşitməli, xoş ətirli, yumşaq, zərif və incə şeyləri hiss etməklə ləzzət alır.Göz vasitəsi ilə görür, qulaq vasitəsi ilə qulaq asır, burun vasitəsi ilə qoxu bilir, ağız vasitəsi ilə yeyir,əl və bədənin başqa üzvləri vasitəsi ilə hiss edir.

Batini hisslərin, yəni, görünməyənlərin yeri beyindədir. Batini hisslər də beş dənədir:

-Dərk etmə, əzbərləmə qüvvəsi, xatırlama qüvvəsi, fəhm, zənn etmə qüvvəsi və bir də xəyal qüvvəsidir.Bunların hər birinin məlum vəzifələri və halları vardır.Birinə zərər dəysə, insanın işi dünyada və axirətdə zərər görər.

1.Dərk etmə-(Hissi müştərək)-zahiri hisslərin dərk etdiyi şeyləri batini hisslərə ötürür və körpü kimidir.

2.Əzbərləmə qüvvəsi-(Hafizə qüvvəsi)-mənəvi şeylərin xəzinəsinin saxlandığı yerdir.Oxuduğu hər bir şeyin məzmununu öz hafizə qüvvəsinə tapşırır, lazım olan zamanda məna və məzmununu ondan alıb istifadə edir.

3. Xatırlama qüvvəsi -(Vahimə qüvvəsi)-zahiri hisslərin xəbərini təhlil edir, yaxşısını pisdən ayırır.

4.Fəhm, zənn-hiss etmə qüvvəsi-(Mütəvəkkilə qüvvəsi)-hər cür mühakimələr qurmaqda hadisələrə münasibətini düşünüb və ümumi nəticələr çıxarır.

5. Xəyal qüvvəsi –(Mütəxəyyilə)-xarici aləmdə olan cisimlərin

şəklini, surətini, hiss-zənn etmə qüvvəsindən alıb saxlayır və lazım olan vaxtda onu xəyalında bərpa edir.Odur ki, buna xəyal qüvvəsi deyilir.

Lakin hər bir insanın xatırlama qüvvəsi üçün mütləq banklarda olan və açarı yalnız özündə gizli bir seyfi olmalıdır ki, o seyfi özündən başqa heç kəs açа bilməsin. Yəni insanın çox gizli sirləri Allah ilə öz arasında qalmalıdır.Həmçinin başqa insanların sirləridə orada gizlədilməlidir ki, insan özünü rahat hiss etsin və qəlbi vəsvəsədən azad olsun.

Hədis: Peyğəmbərimiz (s.ə.s.) belə buyurur:-Mən Allahı Meracda ən gözəl surətdə gördüm.Onunla danışıb, əmrlərini aldım. Demək ki,həqiqi iman yiyəsi olmaq ibadətdə insanlara görüntü edərək şeytana uymaq yox, qəlbin və insan nəfsinin təmizlənməsidir. Bu təmizlənmənin əlamətləri vardır. Qəlbin təmizlənməsinin əlaməti: İlahi elmlərin öyrənilməsi və bu ilhamın kitab və sünnəyə uyğun olmasıdır. Nəfsin təmizlənməsinin əlaməti də bütün pis xasiyyətlərdən qurtarmasıdır. Onda çaşıb qalmaq, təkəbbür, kin, kədər, şəhvətə meyl, kimdənsə zəhləsi getmək, kiməsə qarğış etmək halları olmaz. Bütün bu halları qəlbindən çıxaran adam rahatdır, qəlbi salamatdır. O qəlb, rahatlıq içində ilahi məclisə gəlib, Allahı ilə yalnız qalıb. Çünki xalqın bir qisminə artıq məhəbbət bəsləyib onları güdüb araşdırmır ki, Allahdan ayrı qalsın və ya insanların bəzilərindən nifrət etmir ki, qəlbi pozulub bulansın və Allahdan uzaq olsun. Onun insanlara sevgisi də, nifrəti də yalnız Allah üçündür. Bu məqamda ən vacib olan şey daim hücum çəkməyə hazır olan nəfsani hisslərimizi zərərsizləşdirməkdir ki, bunlara nail olaq**. ("Sahihi Bahari")**

Hədis:Cənabi-Haqq Hz.Davuda buyurur:

-Ey Davud! Sən nəfsini bil ki, məni biləsən.Hz.Davud:

-Ya Rəbbi! Nəfsimi və Səni necə bilə bilərəm?-deyə soruşdu. Cənabi-Haqq buyurdu:-Nəfsini aciz, zəif və keçici bil ki, Mənim qüvvətli və baqi olduğumu biləsən. **(Hədisi Qüdsi)**

Dini hekayə:Bizlər bu dünya deyilən anbarda buğda toplayan insanlar kimiyik. Anbarımızı buğda ilə doldururuq, lakin buğdamızın anbardan yavaş-yavaş azaldığını hiss etmirik. Buğdamızın belə azalmasının səbəbinin anbara girən bir siçovul olduğunu heç düşünmürük.Bu siçovulun hiylə və bicliklərlə anbarımızdakı buğdanı boşaltdığını görə bilmirik.Əməyimiz boşa çıxıb gedir.

Ey Haqqı tələb edən kişi, əvvəlcə siçovuldan qurtarmağın çarəsini bilməliyik.Onu uzaqlaşdırdıqdan sonra öz anbarımızı istədiyimiz kimi dolu saxlaya bilərik.

Açıqlaması:-Etdiyimiz bütün gözəl əməllər, işlər, ibadətlər, insani davranışlar, yardımlar bizim üçün axirət anbarına yığdığımız savab-buğdadır.Bu mənəvi anbarın oğrusu olan siçovul isə nəfsimiz və onun

arzularıdır.Yığdığımız əməllərin boşa getməməsi üçün nəfs siçovulunu, könül anbarından qovmalıyıq**. (Mövlanə Cəzalinin "Kimyayi Səadət"-tərcümə A.Aydın.)**

DUYĞU ÜZVLƏRİ HAQQINDA

Yaşadığımız dünya ilə bağlı bütün məlumatlar bizə beş duyğu vasitəsiylə çatır. Yəni biz gözümüzün gördüyü, əlimizin toxunduğu, burnumuzun iylədiyi, dilimizin daddığı, qulağımızın eşitdiyi dünyanı tanıyırıq. Doğulduğumuz gündən etibarən bu duyğulara bağlı olduğumuz üçün "xarici dünya"nın duyğu üzvlərimizin bizə tanıtdığından fərqli ola biləcəyini heç vaxt düşünməmişik.

Halbuki, bu gün bir çox elm sahəsində aparılan araşdırmalar son dərəcə fərqli nəticələrə gəlmiş, hisslərimiz və qavradığımız dünya ilə bağlı ciddi şübhələrin meydana gəlməsinə səbəb olmuşdur.

Bu yeni anlayışın çıxış nöqtəsi isə belədir: Bizim "xarici dünya" hesab etdiklərimiz, yalnız elektrik siqnallarının beyində yaratdığı təsirlərdir. Almanın qırmızılığı, taxtanın sərtliyi, hətta ananız, atanız, ailəniz, sahibi olduğunuz bütün mallar, eviniz, işiniz və bu məqalənin sətirləri yalnız və yalnız beyninizdəki elektrik siqnallarından ibarətdir.

Məşhur filosof Corc Berklinin (George Berkeley) bu təəccüblü həqiqət ilə bağlı şərhi belədir: "Onları gördüyümüz, toxunduğumuz və hiss etdiyimiz üçün həmin obyektlərin varlığına inanırıq. Halbuki hisslərimiz yalnız zehnimizdə var olan fikirlərdir. Bu halda hisslərimiz vasitəsilə qavradığımız obyektlər fikirlərdən başqa bir şey deyil və bu fikirlər zehnimizdən başqa yerdə ola bilməzlər …Madam ki, bütün bunlar yalnız zehində var olan şeylərdir, o halda kainatı və digər maddələri zehnimizin xaricində olan varlıqlar kimi xəyal etsək, səhv etmiş olarıq… Onda əhatəmizdə olan və maddə dediyimiz hər şeyin zehinimizin xaricində bir varlığı yoxdur."

R.L. Qreqori bizim çox təbii qarşıladığımız görmə hadisəsindəki möcüzəvi vəziyyəti belə ifadə edir:

"Görmə hadisəsinə o qədər öyrəşmişik ki, cavab tələb edən sualların olduğunun fərqinə varmaq böyük təxəyyül tələb edir. Lakin buna diqqət edin: Gözlərimizə kiçik, "kəlləmayallaq" görüntülər verilir və biz ətrafımızda bunları mükəmməl varlıqlar olaraq görürük. Retinanın üzərindəki işıq fotonları nəticəsində maddi dünyanı qavrayırıq. Bunun möcüzədən heç bir fərqi yoxdur."

Bu vəziyyət digər duyğu üzvlərimiz üçün də eynilik təşkil edir. Səs, toxunma, dad və qoxu elektrik siqnalı olaraq beyinə çatır və buradakı

müvafiq mərkəzlərdə qəbul edilir. Eşitmə hadisəsi də belə baş verir. Xarici qulaq, ətrafdakı səs dalğalarını qulaq seyvanı vasitəsiylə yığıb orta qulağa çatdırır; orta qulaq bu səs titrəşmələrini gücləndirərək daxili qulağa ötürür; daxili qulaq da bu titrəşmələri elektrik siqnallarına çevirərək beynə göndərir. Eynilə görmə prosesində olduğu kimi eşitmə prosesi də beyindəki eşitmə mərkəzində reallaşır. Kəllə sümüyü işığı keçirmədiyi kimi səsi də keçirmir. Bu səbəbdən "xaricimiz" nə qədər səs-küylü olsa da beynin içi tamamilə səssizdir.

Buna baxmayaraq ən dəqiq səslər beyində eşidilir. Sağlam insan qulağı heç bir xışıltı olmadan hər şeyi eşidir. Səs keçirməyən beyninizdə orkestrin simfoniyalarını dinləyir, izdihamlı mühitin bütün səs-küyünü eşidirsiniz, bir yarpağın xışıltısından tutmuş reaktiv təyyarələrinin səs-küyünə qədər geniş tezlik intervalında bütün səsləri eşidə bilərsiniz. Amma həmin anda həssas bir cihazla beyninizin içindəki səs səviyyəsi ölçülsə, burada dərin səssizliyin olduğu aydın olar.

Bir cisimdən gələn işıq seli retina üzərinə tərs şəkildə düşür. Burada elektrik siqnalına çevrilən görüntü beynin arxa tərəfindəki görmə mərkəzinə ötürülür. Görmə mərkəzi dediyimiz yer kiçikdir. Beyin işığı keçirmədiyi üçün görmə mərkəzinə də işığın çatması mümkün deyil. Yəni biz parlaq və dərinlikli bir dünyanı kiçik və işığın əsla çata bilmədiyi nöqtədə hiss edir və ya görürük..

Qoxu hissimizin meydana gəlməsi də buna bənzərdir. Vanil qoxusu, gül qoxusu kimi uçucu molekullar, burunun epitelindəki titrək tüklərdə olan qəbuledicilərə gəlir və burada qarşılıqlı təsir yaradırlar. Bu təsir beynimizə elektrik siqnalı olaraq çatdırılır və qoxu kimi qavranılır. Nəticədə bizim yaxşı ya da pis deyə adlandırdığımız qoxuların hamısı uçucu molekulların qarşılıqlı təsirlərinin elektrik siqnalına çevrildikdən sonra, beyində yaratdığı təsirdən başqa bir şey deyil. Parfüm, çiçək, sevdiyiniz yeməyin, dənizin qoxusunu, xoşunuza gələn və ya da gəlməyən hər cür qoxunu beyninizdə hiss edirsiniz. Lakin qoxu molekulları beynə heç zaman çata bilməzlər. Səs və görüntüdə olduğu kimi beyninizə çatan yalnız elektrik siqnallarıdır. Nəticə olaraq, doğulduğunuz andan etibarənbeyninizdən xaricdəki obyektlərə aid bildiyiniz qoxular duyğu orqanlarınız vasitəsi ilə hiss etdiyiniz elektrik qıcıqlarıdır.

Bir ocağın işığını və istiliyini hiss etdiyimiz anda belə beynimizin içi qapqaranlıqdır və temperaturu heç dəyişmir.

Eləcə də insan dilinin ön tərəfində dörd fərqli tip kimyəvi qəbuledici var. Bunlar duzlu, şirin, turş və acı dadlarına uyğun gəlir. Dad qəbulediclərimiz bir sıra kimyəvi prosesdən sonra bu hissləri elektrik siqnallarına çevirir və beyinə çatdırır. Bu siqnallar da beyin tərəfindən

dad hesab edilir. Şokoladı ya da sevdiyiniz meyvəni yediyinizdə hiss etdiyiniz dad, elektrik siqnallarının beyin tərəfindən şərh olunmasıdır. Beyninizin xaricində olan əşyaya isə əsla çata bilməzsiniz; şokoladın özünü görə bilməz, iyləyə bilməz və dada bilməzsiniz. Beyninizə gedən dadbilmə sinirləri kəsilsə, onda yediyiniz hər hansı bir şeyin dadının beyninizə çatması mümkün olmaz, dadbilmə hissinizi tamamilə itirərsiniz.

Burada qarşımıza daha bir həqiqət çıxır. Bir yeməyi daddığımızda bir başqasının o yeməkdən aldığı dadın və ya bir səsi eşitdiyimizdə başqa birisinin eşitdiyi səsin bizim qəbul etdiklərimiz ilə eyni olduğundan əmin olmaq mümkün deyil. Bu gerçəklə əlaqədar Linkoln Barnet (Lincoln Barnett) belə deyir:

"Bir insanın qırmızını görməsi ya da eşitməsinin başqa bir insanınkı ilə eyni olub-olmadığını bilmək mümkün deyil."

Toxunma hissimizə gəldikdə də fərqli bir şeyin olmadığını görürük.. Bir cismə toxunduğumuzda xarici dünyanı və əşyaları tanımağımıza səbəb olan məlumatlar, dəridəki sinirlər vasitəsilə beyinə çatdırılır. Toxunma hissi beynimizdə meydana gəlir. Zənn edildiyi kimi toxunma hissini qəbul etdiyimiz yer barmaq uclarımız ya da dərimiz deyil, yenə də beynimizdəki toxunma mərkəzidir. Bizlər əşyalardan gələn elektrik qıcıqlarının beynimizdə şərh olunması nəticəsində sərtlik və ya yumşaqlıq, isti və ya soyuq kimi hisslər qəbul edir və bunları birbirindən fərqləndiririk. Hətta bir cismi tanımağımızı təmin edən ən incə təfərrüatı belə bu qıcıqlar sayəsində əldə edirik. Bu mühüm həqiqətlə bağlı B. Rassl (B. Russel) və L. Vitgeynşteyn (L. Wittgeinstein) kimi məşhur filosofların düşüncələri isə belədir:

"…bir limonun həqiqətən var olub olmadığı və hansı müddət ərzində var olduğunu hesaba çəkmək və araşdırmaq mümkün deyil. Limon yalnız dillə aydın olan dad, burunla alınan qoxu, gözlə görülən rəng və formadan ibarətdir və yalnız bu xüsusiyyətlər elmi araşdırmanın və mühakimənin mövzusu ola bilər. Elmin obyektiv dünyanı bilməsi əsla mümkün deyil." (5)

Yəni Maddi dünyanın əslinə çatmağımız qeyri-mümkündür. Əlaqədə, təmasda olduğumuz bütün əşyalar, əslində görmə, eşitmə, toxunma kimi hisslərin cəmindən ibarətdir. Müvafiq mərkəzlərində məlumatları şərh edən beynimiz, həyatımız boyu maddənin bizim xaricimizdəki "əsli" ilə deyil, beynimizdəki kopiyaları ilə münasibətdə olur. Biz isə bu kopiyaları xaricimizdəki həqiqi maddə zənn edərək yanılırıq.

NƏFSİN QİSM VƏ XÜSUSİYYƏTLƏRİ

Nə üçün su səpirsən pak, təmiz atəşinə?
Yel kimi yedək atı axı nə lazım sənə?
Ox atma ki, hədəfin öz düşüncəndir sənin,
Atın öz ayağındır, qamçını az vur, çəkin!
Qaçaq-quldura bənzər beş duyğudan uzaqlaş,
Səninki qəlb yoludur. Qəlbi dərk etməyə qaç!
Nəfs, qərəz kirindən pak deyilsə bədənin,
Qızıl geysən də, daşca dəyərin yoxdur sənin.
Paklıq, təmizlik nuru bürüsəydi hər kəsi,
Kimlə, nəylə dolardı Cəhənnəmin mədəsi?
Yalnız Cəhənnəmdən yox, hər istidən-soyuqdan,
Səni saxlayan zireh düzlük, paklıqdır, inan.
Əyriliyin yükləyər boynuna neçə nöqsan,
Düz olsan, hər bəladan, hər qəmdən qurtularsan.
("Sirlər Xəzinəsi")

əl-Fussilət-53-Həqiqətən,varlığımızı anlayana qədər onlara həm zahiri aləmlərində, həm də öz batini aləmlərində, nəfslərində öz qüdrətimizi göstərərik.Bununla da Allah aşkara çıxarar ki, Allah haqdır.

Səcdə- 7-9-O, yaratdığı hər şeyi gözəl yaratdı, insanı yaratmağa palçıqdan başladı. Sonra onun nəslini nütfədən -bir qətrə zəif sudan əmələ gətirdi. Sonra onu düzəldib insan şəklinə saldı və ona Öz ruhundan üfürdü.

Məhz insanın malik olduğu bütün gözəl xüsusiyyətlər Allahın ona "üfürmüş" olduğu ruhdan qaynaqlanır. İnsan əgər nəfsin fücuruna, həvasına bağlanıb, bu ruhu örtməsə, Allahın ali sifətlərindən bəziləri onun üzərində olar. Vicdan insana Allahın üfürdüyü "ruhdan" qaynaqlanır.Ümumiyyətlə, Quranın bütün hökmləri, insanın vicdanına uyğun, o vicdanın tələblərinə görə müəyyən edilmişdir.Quranda "Rum" surəsindəki iki ayə bu mövzu ilə bağlıdır:

Rum-29-30-Lakin zülm edənlər nadanlıqla nəfslərinin istəklərinə (həvalarına) uydular. Allahın yoldan çıxartdıqlarını doğru yola kim sala bilər? Onlara kömək edə bilən kəslər də olmaz!

Batildən haqqa tapınaraq üzünü Allahın fitri olaraq insanlara verdiyi dinə tərəf tut. Allahın dinini heç vəchlə dəyişdirmək olmaz. Doğru din budur, lakin insanların əksəriyyəti bilməz".

Ayələrə görə, inkar edənlər nəfslərinin fücuruna, yəni həvəslərinə

inanaraq yollarından azmışlar. Buna qarşı möminlərin boynuna düşən Allahın insanlara vəhy yolu ilə çatdırdığı dinə riayət etməkdir. Bu din Allahın insanları yaratdığı fitrətə (yaradılışa), yəni Allahdan onlara üfürülmüş olan ruha, vicdana ən uyğun olan həyat tərzidir.

Quranda nəfsin iki ayrı tərəfi olduğu bildirilir və nəfsin bir qisminin "həva"dan, yəni insanı Allahın yolundan döndərən xudbin istəklərdən və hərislikdən yarandığına diqqət yetirilir. Nəfsin digər tərəfi olan vicdan isə insanı Allaha və dinin varlığına yönəldir, nəfsin içindəki "fücur"dan çəkinməsini təmin edir.

Zariyat-20-21-"Yer üzündə də həqiqətən,təsdiq edənlər üçün bir çox ibrətlər vardır. Nəfslərinizdə də bir çox əlamətlər vardır."

Fələklərin, nəfslərin və ağılların ortaya çıxmasındakı sıranı, təbiətin mərtəbələrini onların dəyişməsini, atəş, hava su və torpağa qayıdışlarının dəlillərini, mədən ,bitki və insanın doğuşunu və bunların arsında vasitə olan ruhların gəldikləri və getdikləri yeri, bədənlərini (qəliblərini), zaman, dövran və keyfiyyətini dörd maddə ilə hökmlə bəyan edir.

"40 sual" kitabından:Əgər nəfs, sadə, bəsit cisimlərdə "mutəvəssit" vasitəçi olsa ona: fələkləri (atmosferi) nəfs və ya ünsürü nəfs deyərlər. Əgər nəfs cisimlərdə vasitəçi olub, lakin onların inkişaf və böyüməsini təmin etmirsə, o cisimlərə: mədən deyərlər. Bunlar:qızıl, gümüş, ləl və daş kimi. Əgər nəfs, mürəkkəb cisimlərə böyümə və inkişaf bəxş edərsə, o cisimlərə: bitkilər deyərlər. Otlar, çiçəklər, ağaclar, meyvələr kimi. Əgər nəfs, mürəkkəb cisimlərə həm böyümə və inkişaf, həm hiss və hərəkət, bəxş edib, danışma verməzsə, ona: Danışmayan heyvan deyərlər. Heyvanat, atlar, vəhşi heyvanlar və quşlar kimi. Əgər danışmağ bəxş edərsə, ona: İnsan deyərlər ki, varlığın zirvəsi, hər mövcudatın xülasəsi odur. Cahan ağacının meyvəsi və kainatın tamamlayıcısı odur. Bu halda nəfs, hər mərtəbədə başqa bir isimlə adlandırılır.Cansız cisimlərdə ona "təbii nəfs",bitkilərdə "nəbati nəfs",heyvanlarda "heyvani nəfs" insanda isə "insanı nəfs" və ya "danışan nəfs" deyərlər.Nəfs bu mərtəbələrdə tamamilə hamıya bəxş edilmişdir.Elə bir canlı cansız yoxdur ki, onuna nəfs bəxş edilməsin Nəfsin ifratı pis əxlaqdır. Nəfsin azlığı da qüsurdur, çünki insan onunla xeyirli arzularına çatmaq üçün tənbəllik edər, çalışmaz. Deməli nəfsin çoxluğu da,yoxluğu da düzgün hesab edilmir.

Açıqlama:Nəfs və onun tərifi:- Mücərrəd bir gövhər olan ruh insanın mənəvi aləmini təşkil edir və insanın həyatını təmin etdiyi üçün ruh adlanır.

İnsana öz nəfsindən yaxın bir şey yoxdur.O halda özünü bilməyən,

Allahı necə bilə bilər?"Mən özümü yaxşı tanıyıram"-deyən insanın dəlillərinə baxmaq lazımdır. Özünü tanımaq demək, özünün həqiqətini, dünya yolçuluğuna haradan gəlib, haraya gedəcəyini, nə üçün yaradıldığını, dünyaya nə üçün gəldiyini, səadət və fəlakətinin nələrə bağlı olduğunu bilmək, düşünmək gərəkdir.Özümüzü tanımaq üçün əvvəlcə gərək öz nəfsimizi tanıyaq.Nəfsimizi tanımaq üçün isə, batinimizdə olan nəfsin qidasını, növlərini, xüsusiyyətlərini bilməliyik.İnsanın bədəni və üzvləri, nəfsin alətidir.

Nəfs insanı həqiqi varlıqdan ayırıb "kölgə dunyaya" bağlayan maddi dunya həvəsləri və ehtiraslarıdır. Tamah, dunya nemətlərinə aludəcilik, sərvət, dovlət, mənsəb, şəhvət həvəsi, şohrətpərəstlik, zahiri təntənə və dəbdəbəyə meyl, zahiri gozəlliyə aldanış və s. nəfsani ehtiraslar sırasındadır. Nəfsin ozunun də bir necə mərtəbəsi (əmmarə nəfs, ləvvamə nəfs, mulhimmə nəfs, kamil nəfs və s.) olduğu gostərilir.

Nəfs özü iki: nəzəri və əməli cəhətdən fəaliyyət göstərir:

1.Nəfsin nəzəri cəhətdən olan fəaliyyəti odur ki, insan ilk öncə özünün yaranışına, onu əhatə edən təbiətdə baş verən hadisələrə,Allahın yaratdığı bütün gözəlliklərə və onun hər zərrəsində olan hikmətə baxıb həqiqəti taparaq Tövhid məqamına gəlsin, Böyük yaradanı tanısın.

Bu haqda Qurani-Kərimdə buyurulur:

əl-Qiyamə-2-And olsun nəfsə ki,özünü qınayandır. Nəfs beş qisimdir:

1)Nəfsi əmmarə-hər zaman pisliyə əmr edir.

2)Nəfsi ləvvamə-günah edən kimi özünü məzəmmət edir.

3)Nəfsi mütməinnə-haqqa yəqin edib ona yetişməyə can atır.

4)Nəfsi raziyyə-Allah tərəfindən yetişən nemət və bəlalara razı olar.

5)Nəfsi müləhhimə-Allah tərəfinə, səadətə və işin aqibətinə ilham olunar.

2.Nəfsin əməli cəhətdən olan fəliyyəti isə odur ki, insan rəzil işlərdən, şər fikirlərdən, şeytan vəsvəsəsindən özünü çəkindirib, Allahın razılığından kənar olan şeyləri nəzərindən və əməlindən çıxarsın. Bütün bunlara əməl etmək mümkün olarsa, onda insan həqiqi mənada kamil bir insan olar.İslam dini insanları bu şəkildə görmək istəyir.

Hər bir insan bu sifətlərdə hansının özündə olduğunu, hansının əsil, hansının əmanət olduğunu bilməlidir.Bunları bilməyən xoşbəxt olub-olmadığını bilə bilməz və hər birinin ayrı qidası və ayrı səadəti vardır.

İnsanların görünməyən tərəfində dörd sifət vardır və bu sifətlərin öz qidası vardır.

1.Yırtıcı xasiyyətli-(Qüvvəyi qəzəbiyyə):-Hər işə qeyzlə, qəzəblə

yanaşır, yırtıcı kimi hamıya əziyyət, əzab, zülm etmək istəyir.

Bu qüvvənin özü isə şəhvət qüvvəsini və şeytan qüvvəsini ram edib, onları cilovlamaq üçün lazımdır.Çünki bu iki qüvvə çox vaxt əqlə tabe olmurlar, yalnız qəzəb qüvvəsinin qarşısında diz çökürlər.

Yırtıcı xasiyyətinin qidası və səadəti-öldürmək,hirslənmək, kin-küdurət və intiqamdır.

2. Heyvan xasiyyətli-(Qüvvəyi şəhəvviyə):-Heyvan kimi yeyib-içib və cinsi əlaqədə olmaq arzusundadır.

Bu qüvvə olmasa, insan yemək yeməz, cinsi əlaqəyə meyl etməz, onda bədən həlakətə gedər və nəsil kəsilər.Nəfsin fəaliyyəti üçün bədən bir alətdir, hər bir əməl onun vasitəsi ilə icra edilir və onunla da kamala çatır.Bu baxımdan şəhvət qüvvəsi nəfs üçün lazımlı bir vasitədir.

Heyvan xasiyyətinin qidası və səadəti-yemək yemək,yatmaq və cütləşməkdir.

3.Şeytan xasiyyətli-(Qüvvəyi vəhmiyyə):-Həmişə məkr, hiylə, fəsad və cürbəcür ixtilaflar törətmək niyyətindədir.

Bu qüvvə isə incə mətləbləri dəqiq dərk etmək və səhih məqsədlər üçün müxtəlif hiylələr axtarıb tapmaqda faydalıdır.

Şeytan xasiyyətinin qida və səadəti-plan qurmaq, hiylə işlətmək, aldatmaq,bədbəxt etməkdir.Buradan məlum olur ki,bu qüvvələr bir-birinə zidd mənalarda fəaliyyət göstərsə də hər biri müəyyən sərhəd daxilində insana lazımdır. Yalnız bu sərhədi keçdikdə fəsada səbəb olar.

4.Mələk xasiyyətli-(Qüvvəyi əqliyyə):-Şeylərin həqiqətini öyrənir, yaxşını pisdən ayırır. -Uca Allahı görmək və Allahdan qorxaraq hər an Allahın nəzərini özündə hiss etməkdir. Bunlarda yırtıcı və heyvani sifətlər yoxdur.

“40 sual”kitabindan:-Özündə mələk cövhəri olan adam,Uca Allahı tanımağa çalışır və özünü Allahı görə biləcək səviyyəyə gətirir. Şəhvət və hirsin əlindən özünü qurtarır, heyvani və yırtıcı sifətlərin nə üçün ona verildiyini anlayıb, başa düşməyə çalışır. Bu sifətlər insanlara verilərkən, insanların onlara əsir olması üçün deyil, xidmətlərində çalışması üçün yaradılmışdır.Şübhəsiz ki, dünyada keçən ömrümüz boyu bunlardan həddi aşmadan faydalanmağımız üçün yaradılmışdır. Hər halda,Allah özü hər şeyi çox gözəl bilir və bu hissləri bizə özü bəxş etmişdir.Bu hissləri bizə bəxş etməklə,bizi sınayıb, bunlardan necə istifadə edəcəyimizi, həddimizi aşıb və ya aşmayacağımızı bilmək istəmişdir. Səadətə çatmaq istəyənlər isə bu pis sifətləri ayaqlarının altına alır və üzünü səadətin olduğu tərəfə çevirir və Cənnəti qazanır.

İnsanın qəlbi çirkinliklərdən tamamilə saf olduqda,elə ilahi

məziyyətlərə və şeylərə nail olur ki,bu biliklər alimlərə də müyəssər olmaz. Hər kəs öz qüvvəsi və istedadı qədər həqiqət aləmindən bir şeyi əxz edə bilir,ona yaxınlaşmış olur.Lakin bu ülvi aləmə yol tapmaq üçün qəlbi təmizləmək, heyvani fikirlərdən təmizlənmək və dünya məhəbbətini qəlbdən çıxarmaq buyurulmuşdur.Bu xüsusiyyət Allahın Peyğəmbərlərinə, İmamlarına və istəkli bəndələrinə məxsusdur**.(Mölana Furati.)**

Bu haqda Qurani-Kərimdə belə buyurulur:

-əl-Qiyamə-14-Bəlkə hər insan öz nəfsindən xəbərdardır, hər kəs öz əməlini başqasından yaxşı bilir.

Hədis: Peyğəmbərimiz buyurur:-Sənin düşmənlərinin ən düşməni sənin iki tərəfin arasında,qəlbində olan nəfsdir**. (Zubdətul əhadis.)**

Dini hədis: Bir ilantutan qışda dağlara ilan axtarmağa gedir və dağda dolaşan zaman soyuqdan ölü kimi donub qalmış böyük bir ilan görür.O,əjdahaya bənzəyən belə bir böyük ilanı heç vaxt görməmişdi. Camaatı cəlb edərək pul qazanmaq məqsədi ilə ilanı sürüyərək Bağdada gətirir. Görənlərə:-Biz bir-birimizlə boğuşduq, çətin olsa da sonunda ölü olaraq ilanı ələ keçirdim-deyərək qürurlanırdı.

Dəclə çayının kənarında,yüksək bir yerə ilanı qoyaraq tamaşa göstərmək üçün camaatı yığmağa çalışırdı.İlantutan hər ehtimala qarşı tədbiri də əldən buraxmamışdı. Qalın iplərlə ilanı bağlayıb, üstünə də bir çul örtmüşdü.İnsanların marağını artırmaq üçün çulun ucundan qaldırır və camaata ilanı göstərirdi.Minlərcə camaat toplaşmışdı.Daha çox adamın yığılması üçün səbirlə gözləyirdi.

Bu arada Bağdadın günəşi ilanın üzərinə düşür və isti günəşin şüaları onun buzunu əridərək, yavaş-yavaş ilanı hərəkətə gətirirdi. Camaatın çaşqınlığı və marağı daha da artırdı.Yaxşıca istidən qızınan ilan özünə gələrək, ipləri qırır. Bunu görən camaat qışqıraraq qaçmağa başlayır. İlantutan isə qorxusundan nəfəsi kəsilərək heç tərpənmir.Əjdaha boyda ilan onu bir loğmada udaraq sümüklərini qırır.

Açıqlaması:-Ey insan oğlu!Bizim nəfsi-əmmarəmiz də əjdaha böyüklüyündəki ilan kimidir.Onun ölmüş, yatmış görünüşü də aldadıcıdır. Günah işlətmək üçün əlimizə bir fürsət keçdiyində anidən canlanıb,fironluğa başlar. Yüzlərcə Musanın, Harunun yolunu kəsər. Nəfsimizlə yaxşıca savaşa, cihada duraq, üstünə mücadilə qarları yağdıraq ki, soyuqdan donmuş bir halda qalsın. Şəhvət günəşi ilə nəfsimizi canlandırarıqsa,bizi bir loğmada udar. **(Mövlanə Cəzalinin" Kimyayi Səadət")**

Nəfsin əsarətindən qurtarılması və onun oldurulməsi zərurəti xeyir

və şər yolunun secimi kimi Quranda da xususi şəkildə nəzərə catdırılır:

əş-Şəms-9-Nəfsini (gunahlardan) təmizləyən mutləq nicat tapacaqdır! Onu gunaha batıran isə, əlbəttə, ziyana uğrayacaqdır.

İSLAMIN İRFAN ELMİNDƏN İNCİLƏR

İnsan bədəni böyük bir ölkə, qəlb də onun padşahıdir. Qəlbin bədəndə saysız hesabsız əskərlərə eytiyacı vardır.

Müddəsir-31- "Rəbbinin əsgərlərini, ondan başqası bilməz."

Özümüzü tanımaq üçün əvvəlcə gərək öz nəfsimizi tanıyaq. Nəfs özü iki: nəzəri və əməli cəhətdən fəaliyyət göstərir:

Uca Allah qəlbi yaratdı və dünya aləmində yaşaması üçün bədən ölkəsini, həmçinin əmrlərə tabe olan əsgərləri də ona tabe etdi. Qəlb bu nemətin haqqını gözləyir və padşah kimi ölkənin ortasında oturur.Ağıl da qəlbin xidmətçisidir. Qəlb, Uca Allahı qiblə, axirəti vətən, vücudu danışan heyvan, dünyanı qonaqlama yeri, əl ayaq və digər orqanları xidmətçi, ağlı-vəzir, şəhvəti-maliyyəçi qəzəbi -polis, duyğu orqanlarını isə rabitəçi edər. Hər birinin öz, işi və vəzifəsi vardır.

Rabitəci olan beş düyğu orqanları vücuda xidmət edir və ağılın xidmətçiləridir. Çünki ağıl Allahın yaratdıqlarının qüdrət və hökmünü bilir.Qəlb də Allahın cəmalını görmək üçün yaradılmışdır.Bu işlə məşqul olduqda digər xidmətçilər də buna tabe olurlar.

Nəfsin əməli cəhəti: İnsanın bədənini böyük bir şəhərə bənzətmək olar.Əl-ayaqları şəhərin sənətçiləri, qəlb şəhərin padşahı, ağıl isə onun vəziridir. Şəhvət-heyvani qüvvəsi heç nədən doymaz, hər şeyə düşkün, pozğun, yalançı və pis fikirlidir və daima dünyada olan bütün malları alıb toplamaq istər. Qəzəb,yırtıcı,vəhşi-qüvvəsi də vurub-yıxıb, dağıtmaq istər və o qızğın, azğın və kobuddur. Bu səbəbdən də ağıl bunların hamısını idarə etməyə çalışar. Ağılın sözünə heç cür qulaq asmaq istəməyən şəhvət hissini qəzəb hissinə həvalə edər.Bunun üçün qəzəb-qüvvəsinə əmr edər ki, şəhvət qüvvəsi ilə daima müharibə etsin, onu döyərək törədəcəyi səhvlərin nəticəsi ilə qorxudsun. Həmçinin qəzəb-qüvvəsi də coşan kimi ağıl ona törədə biləcəyi fəlakətin nəticəsini xatırladaraq, onu sakitləşdirsin. Padşah olan qəlb daima vəzirlə-ağılla görüşərsə, onunla danışıb məsləhət edərsə, yalançı və hiyləgər olan şəhvət qüvvəsini qəzəb qüvvəsinin ixtiyarına verərsə, qəzəb qüvvəsini də ağılın nəzarəti altında saxlayarsa o şəhərdə əmin amanlıq olar və insan rahat yaşayar. Əgər belə olmasa ağıl və ruh məğlub olar, vücud yararsız ,insan şikayətçi, padşah da peşiman olar.

Vücud da duyğuların təməlidir və vücud duyğulara xidmət edir. Duyğular isə ağılın cəsus və tələyə salanıdır.Çünki ağıl Allahın yaratdıqlarının qüdrət və hökmünü bilir. Demək duyğular ağılın xidmətçiləridir. Ağıl isə qəlbin xidmətçisidir.Qəlb də Allahın cəmalını görmək üçün yaradılmışdır.Bu işlə məşqul olduqda digər xidmətçilər də buna tabe olurlar.

HARADAN GƏLİB,HARAYA GEDİRİK?

Özündən hər kim ki,deyil xəbərdar,
Bir qapıdan girər, birindən çıxar...
Heç kəs öz könlünə tutmayır irad,
Odur varlığını eləməz abad. (N.Gəncəvi.)

Açıqlama:Özündə çeşidli dəyişikliklər meydana gələrək dünyaya gələn insan, cisim və ruha aid bütün yolları keçmiş və bugünkü hala gəlmişdir. İndi artıq qaranlıq və aydınlıq pərdələrini tamamilə ortadan qaldırmış, özünü tanımış, sonra da onu yaradanın, başlanğıcının nə olduğunu, sonunun nə olacağını, haradan gəldiyini və təkrar hara gedəcəyini öyrənmək istər.

Bəli, belə qısa izahdan sonra anlaşılır ki, insan ruhu hər nə qədər bədənlə bərabər və ona yaxın görünürsə də, əsasən ruh zatı etibarı ilə bədəndən ayrıdır.Bədən keçici və hər an dəyişməyə məruz qalıb, daim dəyişməkdədir. Ruh bədəndən bu cəhətinə görə ayrıdır, bədənin uğradığı bütün dəyişiklikləri seyr edərək baxır.Ruh qalıcı-Baqidir, çünki o,"Aləmi-Ülvi"dən gəlmişdir. Ruh bədənin dəyişən hallarını seyr edərək, başlanğıc və sonu olan yollarını təmkinlə keçir.

Hikmət kitablarında ruhun bədəndən ayrı olduğunu sübut edən bir çox dəlillər vardır.Məsələn:50 yaşında bir insan həm ruha, həm də bədənə sahibdir.Bu insanın 5 yaşındakı ruhu necə idisə, bu gün də eynidir. Ruhda cismi heç bir dəyişiklik olmamışdır. Bədən isə müxtəlif dəyişikliklərə uğramış və haldan-hala girmişdir.Sifəti, bədəni dəyişmiş, boy, en və hərəkətlərində dəyişikliklər baş vermişdir.Əvvəllər çox gözəl idi,indi isə əvvəlki gözəlliyini itirmişdir. Ruhda isə heç bir dəyişiklik baş verməmiş, ölümdən sonra da, Bərzaxda da, Qiyamətdə də, Məhşərdə də, Siratda da ruh həmən olacaq və nə qocalacaq, nə də öləcək. Məhşərdən sonra ya bədən ilə Cənnətə gedib bəxtəvər olacaq,ya da Cəhənnəm əzabı ilə əzab çəkən bir bədbəxt olacaq.

Allah-taala bizi verdiyi bütün nemətlər ilə birlikdə imtahan üçün

yaradıb. Cənnət və Cəhənnəmi bizim üçün hazırlayıb və önümüzdəki təhlükənin ciddi və dəhşətli olduğu haqda da bizə xəbərdarlıq edib. Ağıllı insan məkanının harada, aqibətinin necə olacağı haqda düşünüb, öyrənib dərk etmək istəyir. Çünki həyatı boyu etdiyi səhvlər, Allaha qarşı etdiyi üsyanlar və onun əmrlərinə qarşı çıxdığı vaxtlar da olmuşdur. Dəfələrlə Allahın qəzəb və ya razılığını qazanmışdır. Buna görə həyatının bu ikisindən hansı ilə bitəcəyini bilmək çətindir.Bunu bilənə qədər qayğısı böyük,üzüntüsü uzun,sıxıntısı isə şiddətlidir.

Halbuki insan vicdan aynasının qarşısına keçib bir özünə,bir də aləmlərə baxdığı zaman ibrətlə görəcəkdir ki, kainatın yanında onun varlığı lap kiçik və bir nöqtə qədər balacadır. Dünya və dünyadan daha böyük milyardlarla səmavi cisimlərin gəzib dolaşdığı bu kainat içində insanın varlığı nə ola bilər? Digər insanlarla müqayisədə bizim üstün bir tərəfimiz yoxdur. Hamımız Həzrəti Adəmin və Həvvanın övladlarıyıq. Yaradılışdakı dəyərlər baxımından eyni səviyyədə olan insanlar arasında mal,sərvət, güc və qüvvət iftixar etməyə vəsilə ola bilməz.

Bildiyimiz kimi, insan bədəninin başlanğıcı və sonu torpaqdır. Necə ki, Qurani-Kərimdə buyurulmuşdur:

-**Taha-55-**Sizi ondan(torpaqdan)yaratdıq.Ölümünüzdən sonra da sizi yenə torpağa döndərəcəyik.

"əl-Ələq-6-8-Xeyr! Həqiqətən, insan azğınlıq edir. Onun üçün ki, özünü hər kəsdən ehtiyacsız görür. Bütün insanların dönüşü sənin Allahına tərəfdir. Insan əsil maddəsini düşünəcək olarsa, qarşısına bir yığın palçıq çıxar."

Palçıqla iftixar ağıl sahibi olan insana yaraşmaz.Lakin ağlında səhv edən və çaşan vaxtları olur ki, buna da həvayi-həvəslərimizə uymaq deyilir. Böyüklük və əzəmət yalnız Allaha məxsusdur.Kim özünü böyük görüb, təkəbbürlülük edərsə, Allah onu zəlil edər. Günəş işığını ayaqlar altına sərdiyi üçün ucalmışdır, insan da təvazökarlıqda günəş kimi olmalıdır ki, Allah onu başlara tac etsin. Buna görə yalnız Allahın qarşısında səcdə edərək,öz nəfsimizə və yaxud da başqa insanların nəfs və xislətlərinə əyilməyərək günəş kimi yuxarıdan, öz niyyət və əməllərimizlə yer üzünə nur saçaraq yaşamağı bacaraq. Şərəf və etibarı nəfsani hisslərə uyaraq, böyüklük tapmaqda axtaranlar,onu heç bir zaman tapa bilməzlər. Başı təvazökarlıqla rükuya, huşu ilə səcdəyə gedən insan vücudu, özünü torpaq səviyyəsində görüb, öz mahiyyətini başa düşürsə, Allah da onu ucaldar. Cismilə yer üzündə, ismilə mələklər yanında dəyər qazanar. Qeyd: İndi isə dediklərimizi çox sadə dildə təkrar edəcəyik. Qeyd etdiyimiz kimi Qüdrət sahibi olan, hər şeyi gözəl ya-

radan Allah bizim bədənlərimizi bütün yaratdıqları canlılardan üstün və gözəl yaratmışdır. Bunun hikməti də odur ki, biz özümüzə və ətrafımızdakılara baxıb, həqiqətən də fəxr edək ki, bizi Alim Allah belə gözəl yaradıb.Elə bütün insanlarda,hamımızda belə düşünürük ki,biz hamıdan üstünük. Ancaq, bunu dəqiq bilək ki, bu, fəxr etdiyimiz gözəl bədən iylənmiş, qoxumuş, bəlkədə,dünyada ən murdar, ayıbını yalnız torpaq örtə biləcək ət parçasından başqa bir şey deyıldır. Bəs Alim Allah bu gözəl bədəni nə üçün bizə qismət etmişdir?Əsil hikməti də elə budur ki, Alim olan Allah öz zərrəciyindən, əql və şüur verdiyi "ülvü ruhun"dan bizlərə bəxş etdiyi üçün, öz ülviyyətinə dəyər verərək bizləri də belə gözəl yaratmışdır və həmin o,"ülvü ruh" bədənimizdən çıxdığı zaman, qeyd etdiyimiz kimi qoxuyan, heç kəsin qəbul etmədiyi, hətta doğmalarımızın belə yüyürərək tez torpağa basdıracağı meyyitdən başqa bir şey deyilik. Hikmət sahibi olan Allah bunu hər gün bizə xatırladır, lakin fikir vermirik. Yəni, su olmaması və yaxud da xəstəlik səbəbindən 3 gün yuyuna bilməyən insanın bədəninin kəsafətdən ibarət olduğunu ona xatırladır.

Əgər belə deyilsə bəs nə üçün bu qədər yuyunur, təmizlənir və qiqiyenamıza nəzarət edirik? Nə üçün bəs quşlar, heyvanlar çimmirlər? Bir az ba bu dünyanın bitib-tükənməyən müşküllərini kənara qoyub, hikmət aləminə baş vurun və özünüz düşünün. Hətta xəyal gücüylə,tam həyatınızı yaşayaraq, nəticəyə, sona dabaxın.

Deməli bizim,mənəm-mənəm deyərək,fəxrlə gəzdiyimiz bu müvəqqəti bədənimiz Allahın bizə dəyər verərək bəxş etdiyi Öz "Ülvü ruhu"nun hikmətlərindəndir.Həqiqətən də Uca Allah bizi həddən artıq sevib, bizə hər şeyin gözəlini nəsib edib və hər işindən bizi xəbərdar edərək, həm bədənimizdə, həm də ətrafımızda işarələr və əlamətlər də qoyub ki, kim olduğumuzu bilək və unutmayaq.

Dini hekayə: Bir gün artıq yerləşdiyi bədənin rəzalətlərinə təkəbbürlülüyünə dözməyən ruh, dilə gələrək bədənə deyir:-Nə yaman mənəm-mənəm deyirsən? Elə yeriyib, elə gəzirsən ki, elə bilki heç vaxt ölməyəcəksən.O qədər özündən razı, müştəbehsən ki, ətrafında olanları, özün kimilərini belə bəyənmirsən.Hamıya yuxarıdan elə baxırsan ki,sanki səndən başqa yer üzündə olanlar sənə bənzəyən varlıqlardır,lakin sənin kimi heç vaxt, heç kəs ola bilməz. Heç bir dəfə mənim haqqımda fikirləşmisən? Heç fikirləşmisənmi mənə bu qüdrəti verən kimdir?

Bədən özün dartaraq belə cavab verir:-Mən bilmirəm sən haradan,necə mənimlə danışırsan, ancaq bunu bilirəmki, mən nə nağıllara,nə röyala-

ra, nə də gözümlə görmədiyim bir şeyə, heç vaxt inanmaram. Anamatam dünyaya gətirib, öz həyatımı da özüm bildiyim kimi yaşayıram. Mənim heç kəsin göstəriş və ya məsləhətinə ehtiyacım yoxdur. Mən özüm hər şeyi hamıdan da yaxşı bilirəm.

Bu cavabdan heyfsilənən ruh, çox kədərlənir. Allaha üz tutaraq, müraciət edir:Ey məni yaradan!Mənə əql-şüur verən!And verirəm Sənin qadirliyinə,məni bu bədbəxt bədəndən azad et.Sonra isə bədənə deyir:Birdən mən sənin yanından çıxıb getsəm,yenə də belə qürurlanarsanmı?

Bədən:Bu bədəni, bu qüruru mənə Allah bəxş edib və məndə özüm bilərəm necə yaşayaraq.Elə bu zaman Allahın əmrilə ruh bədəndən çıxır və bədən bir daş parcası kimi yərə düşür...

Açıqlaması: Deməli, hamımız inanırıq ki, Allah var!Lakin Onun buyurduqlarına əməl etməyə, Onun varlığını hiss etməyə daxilimizdəki bir "Mən"imkan vermir. (Elə bizi bədbəxt edən"Mən"dir) Hər əməlin əvəzi olduğu kimi, kim olduğumuzu unutduqda da Uca Allah gec-tez bizə xatırladacaqdır. Bu xatırlatma bu dünyada müsibətlərdən, əbədi dünyada isə bitib-tükənməyən dəhşətli əzablardan və Cəhənnəm odunda əbədi çəkilən məşəqqətlərdən ibarət olacaqdır. Qiyamət günü isə cismimizin də torpaqdan çıxaraq ruhumuzla birləşib, Uca Allahın qarşısında zəlilcəsinə durduğu zaman, onda dərk edəcəyik ki, həqiqətən də cismimizi də, ruhumuzu da idarə edən,onların sahibi və bütün yaranmışların sahibi yalnız Vahid olan Allahdır.

ət-Təğabun-3-Allah göyləri və yeri üstün bir hikmətlə yaratdı. Sizə şəkil verdi və şəkillərinizi gözəl yaratdı. Nəhayət, dönüş Onadır.

əl-Qəsas-88-Onun zatından başqa hər şey yoxluğa məhkumdur. Hökm ancaq Onundur; yalnız ona dönəcəksiniz.

Hədis:-Cəfəri Sadiqdən buyurulur:-İnsan mənliyinin dayağı əqldir. Anlayış, qavrayış, hafizə və savad ağıldan qaynaqlanır. İnsan ağıl ilə kamilləşir. Əql insanın yolgöstəricisidir. İnsan onunla görünər. Hər işin açarı əqldir.İnsan öz əqlini nur ilə dəstəkləyəndə alim, hafiz, anlayışlı və qavrayışlı olur. Onun sayəsində, niyəni? nə üçünü? bilir. Ona öyüd verəni və pisliyini istəyəni bir-birindən ayırır. Bütün bunları bildikdə gedəcəyi yolun səmtini, görüşmə və ayrılma nöqtəsini tanıyır. Təkliyi Allaha məxsus bilir. Allaha itaət etməyə çalışar.İçində olduğu vəziyyəti dərk edir. Nə üçün yaşadığını, haradan gəldiyini və hara getdiyini anlayır.Bunların hamısı əqlin möhkəm olmasının əlamətləridir**.("Üsulu Kafi")**

Göydə Tanrıdan, yerdə nəfsindən qafil İnsan!
Həmişə can hayında, bədən qayğısındasan.
Əbəs yerə bu qədər"Mənəm! Mənəm!"deyirsən,
Öləcək mənəmliyin göz yumduğun dəmdə sən.
Qucaqlama cahanı bu mavi qübbə kimi,
Qamarlama səninki olmayan bir aləmi.
Ürək canın önündə paklığıyla öyünər,
Ancaq onun yanında "adi torpağam" deyər.
Nizaminin torpağı güc-qüvvət almış ondan,
Xırdaca bir danədir Tanrının dərgahından.("Sirlər xəzinəsi.")

NƏFSİNİ TANIYANLAR

Sən çalış yaxşıca öyrən dünyanı,
Bəşəri, bitkini,daşı, heyvanı.
Qalacaq əbədi hər şey dünyada.
Öyrən günlərini vermədən bada.
Kim öz-özünü düşmüşdür başa,
Ona ölüm yoxdur,o ölməz, haşa.
Nəqşini bilməyən fanidir,fani,
Baqi say bu nəqşi bilən insanı.
Tanısan özünü,köçsən cahandan,
Yenə bu dünyada yaşayacaqsan.
Özündən hər kim ki deyil xəbərdar,
Bir qapıdan girər,birindən çıxar. ("Yeddi gözəl")

Açıqlama: Ölümün əslini bilməyincə,axirətin əslini kimsə bilə bilməz. Həyatın əslini bilməyincə, ölümün əslini bilmərik. Ruhun əslini bilməyənəcən də,həyatın da əslini bilə bilmərik. Ruhun əslini bilmək, öz nəfsini bilməkdir. **(Mövlana Cəzalı)**

əş-Şəms-7-15-"And olsun nəfsə və onu yaradana!O nəfsə ki, günahkar və təqvalı olma yollarını bildirdi. Nəfsini pak edən şəxs nicat tapdı, nəfsini nadanlıqla batıran kəs ziyankar oldu.İnsan öz əməlinin aqibətindən qorxmadığı kimi, Allah da öz əzabının aqibətindən qorxmaz!"

Açıqlama: Duyğuların varlığı da vücuddadır. Nəfsini bilən və tanıyan adam Allaha yaxın olur, nəfsini bilən sevincli və imanlı olur, haqqın mərifətini, aləmin əsrarını da bilir. O kimsələrdən ağlı olan kəs üzüntülü və kədərli, arif olan isə sevincli olub sevər, sevilər. Bunun üçün Əli

(ə.s.)buyurur ki:-Özünü tanıyan, Allahını tanıyar.”

Allahını tanıyan insanın əzab-əziyyəti çox olar, lakin onların ağrısını hiss etməz. Arif bütün bu işlərdə özünü Allaha təslim edib işlərini ona həvalə edər,özü isə aradan çəkilmiş kimi sakitlik, rahatlıq içində, yalnız qəlbində Allah məhəbbəti və zikri olar. Zahid yürüyən,Arif isə uçandır. Zahidin ibadəti vacib buyurulduğu üçündür, Arifin ibadəti isə zövq almaq üçündür. Zahid axirəti istərkən, Arif mövlasını istər. Zahid nəfsi ilə, Arif isə mövlası ilə birlikdədir. Zahid dili ilə, Arif isə qəlbi ilə zikr edər. Arif Allaha nə qədər yaxın olursa insanlardan o qədər uzaq olar və ehtiyacını yalnız Allaha bildirər.Mömin Allahın nuru ilə baxarkən, Arif Allah ilə baxar, mömin Allahın ipindən tutarkən, Arif Allaha tutulur. Möminin qəlbi vardır, lakin Arifin qəlbinin sahibi vardır. Nəfsini tərk edən isə Allahı bilən və tanıyan, arifi-billah olur.Arif isə bədəndən ruha girmiş ruhunu yiyəsi olan Allahına fəda etmişdir. O bənzərsiz sənətkarın sənət və icadının sirlərini görünən və görünməyən aləmdə müşahidə arifl ərə gün kimi açıq-aydındır.Arifllər dünyanı olduğu kimi qəbul edib,öz hisslərinə hakim kəsilərək Allaha sığınanlardır.Bu ona bənzəyir ki,böyük bir süfrəyə dünyanın bütün naz-nemətləri düzülüb, Arif o süfrənin ətrafında dolaşsa da,nə o nemətlərin görünüşü, nə də qoxusunu hiss edir, çünki onun qəlbi Ülvi-aləmdə, nəfsi isə cismindən qabaq torpağın altındadır.

“Yer üzündə də həqiqətən,təsdiq edənlər üçün bir çox ibrətlər vardır. Nəfslərinizdə də bir çox əlamətlər vardır**.”(Zariyat-20-21)**

Dini hekayə:Öz nəfsi ilə mücadilə edən adam bunu belə anladır:

-Şəhid olmaq ümidilə silahsız, boş əllə açıq bir şəkildə nəfsim ilə yetmiş dəfə savaşa girdim.Bədənimdə ox yarası almadığım yer qalmadı. Vücudum qılınc yaraları ilə xəlbirə döndü, lakin şəhidlik nəsib olmadı. Özüm öz nəfsimlə vuruşaraq,hey haqq-hesab aparardım, ölməyəcək qədər yeyib-içir, az yatıb, insanlara çox qarışmayıb,nəfsimlə mücadiləni davam etdirirdim.

Bir gün bir dəstə insanın müharibəyə getmək üçün yığışdığını gördüm, məndə də savaşa getmək istəyi oyandı.Nəfsim mənə:

-İndi buyur,get savaş meydanına-deyirdi.

Nəfsimin belə canfəşanlıq etməsi və məni savaşa göndərməsi məni heyrətə gətirdi, çünki nəfsin ibadətdən, itaətdən və yaxşı işlərdən xoşu gəlməz. Bu səbəbdən nəfsimə səsləndim:

-Ey nəfsim, doğru de görüm ki, mənim savaşa getməyimi istəməyinin səbəbi nədir? Əgər doğru deməsən, səni daha çox haqq-hesab edib, məhv edəcəyəm.

Bu zaman nəfsim səssiz-sədasız, gözəl bir ifadə ilə içimdən belə səsləndi:-Bu gün sən davamlı haqq-hesabınla məni öldürürsən, davamlı işgəncə görürəm.Yeməksiz, icməksiz, yuxusuz, qeybətsiz və eşidib, görməksiz qoyub,canımı yavaş-yavaş alırsan.Üstəlik mənim çəkdiyim bu zülmlərdən heç kəsin də xəbəri yoxdur. Savaşda isə sənlə birlikdə birdəfəlik ölərəm.Səni də şəhid olduğun üçün insanlar tərif edərlər.

Bu sözlərdən sonra nəfsimə:-Həm münafiq, həm də ikiüzlüsən. Bu dünyada münafiq olduğun kimi, ölümündən sonra da münafiqsən.Nə bu dünyada müsəlman olursan, nə də ki o biri dünyada. İki dünyada da yaramazsan-dedim.

Açıqlaması:-Sufilər nəfsləri ilə edilən müharibəni böyük savaş olaraq qəbul edərlər. Düşmənlə edilən savaş isə kiçik savaşdır. Nəfslə edilən böyük savaşda şəhid olmanın önəmini Mövlana belə anladır:-Dünyada məhəbbət qılınıcı ilə Allah yolunda şəhid olmuş necə kişilər vardır ki, onlar dünyada adətən ölmüş kimi görünürlər. Əslində onlar yaşayan ölülərdir. Bu,"Ölmədən əvvəl ölünüz" hədisi şərifinin sirrini açıqlayır. Yəni daha həyatda ikən öz nəfslərini öldürmüşlər. Onların yer üzündəki bədənlərində hələ ölmədən əvvəl heyvanı nəfsləri ölmüş, insani ruhları diri qalmışdır. Onlar axirətə diri olaraq gedərlər. **(Mövlanə Cəzali.)**

İNSANLARI TANIYA BİLMƏK

Güzgüsü pak olmayanın çarə yoxdur pasina,
Qaldı məhrum bi əbəd,biliklə həmrah olmadı.
Hər nə qılsan yaxşı, pis, axır sanə ol tuş olur,
Çəkmədi xəcalət hər kim ki, bədxah olmadı.
Zövqü şövqin günlərində kim, olar yarım dedi,
Bir məlamət güni gəldi, kimsələr yar olmadı.
Çün qul oldun, ey Xətayi, bəndəfərman ol, yəqin,
Bəndəfərman olmayanlar layiqi-şah olmadı.
Şah ismaıl Xətai (1487-1524)"Tərcibənd."
Şah Xətai seyrə çıxdı, açdı Hürrü qəbrini,
Bar-İlaha,əfv qıl kim, tövbəkaram doğrusu.

Açıqlama: Cəmiyyətimizdə müxtəlif formalarda nəzərə çarpan bu hallarla çox rastlaşırıq.Bunlar yalnız biz insanlara məxsus olan yalan, həsəd, qeybət və sair bu kimi rəzalətlərdir ki, qəlb və göz aynamızı kirlədərək hər kəsi özümüz görmək istədiyimiz kimi bizə göstərir. Yuxarıda qeyd edildiyi kimi, əgər insan özünü tanıya bilsəydi, yəqin ki,

nəfs qüvvəsindən əmələ gələn bu rəzalətləri də törətməzdi.

Qurani-Kərimin ayələrindən göründüyü kimi həyatda rastlaşdığımız hər bir şeydə, həmçinin eşitdiyimiz, gördüyümüz hər bir hadisədə Allahın bizə bildirmək istədiyi bir çox işarə və əlamətlər vardır.Əgər bir az düşünsək, gün ərzində rastlaşdığımız insanlarda, eşitdiyimiz, gördüyümüz bütün işlərdə, danışdığımız sözlərdə, bizim hər an Allahın bir sınaq və imtahanında olduğumuzu başa düşərik. Quranın ayələrindən məlum olur ki, bizim bütün həyatımız yalnız zərurətdən doğan təsadüflərdən ibarətdir.Yəni,yaşadığımız bütün həyatımız və başımıza gələnlər yalnız Qüdrət sahibinin əmri və göstərişləri ilə baş verir.

Qurani-Kərimdə Allah-taala butün törətdiyimiz rəzalətlərin nəticəsini bizlərə təkrar-təkrar anlatsa da,yenə də nəfsi istəklərimizə uyaraq nə qeybətdən,nə şərdən, nə yalandan, nə fitnədən, nə biganəlikdən, nə arsızlıqdan, nə təkəbbürdən, nə də bu kimi rəzalətlərdən özümüzü qoruya bilirik. Bu səbəbdən də yavaş-yavaş, gözümüzün gördüyü haramlarla, dilimizin törətdiyi dəhşətlərlə, qulağımızın eşitdiyi fitnə-fəsadla, əzaların nəfsi istəklərimizə uyaraq törətdiyi bəlalarla,ən əsası isə qeybət etdiyimiz insanların ağır yükünü də çiynimizə alaraq böyük bir yüklə əbədi dünyamıza yaxınlaşırıq. Hələ əbədi dünyaya çatana qədər bu ağır yüklərlə hansı mərhələlərdən keçib, hansı dəhşətləri yaşayacağıq və əbədi yerimizdə bizi nələr gözləyir,onu da Muntəqim olan Allah bilir.

Burada, duyğularımız, nəfsimiz və mahiyyətimiz haqqında müəyyən dərəcədə məlumat verilsə də, insan Allahın elə bir yaratdığı varlıqdır ki,onu Allahın özündən başqa heç kəs tanıya bilməz, nə özümüz, nə də ki doğma anamız.

Bizi yaradan Qadir Allah bunu açıq-aydın bildiyi üçün bizə Quran və Peyğəmbər göndərib xəbərdar edərək, qorxudaraq, məsləhət verərək, başa salaraq, yol göstərərək bütün bu rəzalətlərdən uzaq olmağımızı anlatmışdır. Hətta, təsadüfən günah etsək,tez tövbə edərək,islah olmağımızın yollarını da göstərmişdir.Yox əgər bu rəzalətləri törətməkdə davam edərək, artıq vərdişkar olsaq, Quranda əbədi Cəhənnəmi də gözlərimizin önünə gətirərək, təsvir edib qorxutmuşdur. Lakin yenə də öz daxilimizdəki o bir "Mən!", özümüzə, mal-dövlətə, uşağa güvəncimiz, nəfsimizin bizi arxayın edərək, yeni-yeni arzulara səsləməsi, özümüzü hamıdan ağıllı, üstün,qoçaq sanmağımız və daxilimizdəki sözlə ifadə edilməyən xislətimizlə əlaqədar olan bir qüvvə bizləri arxayınlaşdırıb, həqiqətləri görməyə mane olur. O qədər qəlbimizdə bir "Mən!"var ki, imkan vermir nə Allahımızı nə də ki, özümüzü tanıyaq.

Bəzən görürsən ki, ilk dəfə rastlaşdığımız insan haqqında beynimizdə

müəyyən bir fikir-rəy yaranır və çalışırıq ki,o insanı daha yaxından tanıyıb öyrənək və onu müəyyən qədər də olsa, özümüz üçün kəşf edək.

Bəzən də insanın özünün görüb-hiss etdiyi,öz şəxsi məlumatı gedib beynə çatmamış, başqa,şeytan xislətli insanın öz qəlb və göz güzgüsündə əks etdirdiyi pis reklam və məlumat, o insan haqqındakı düşüncələri bir anda alt-üst edərək bərbad edir. İndi görün ki, özü paxıllıq, həsəd və cahillik çirkabına bulaşmış bu insan, neçə adamın qəlb güzgüsünü özünün çirkabına bulaşdıraraq, Cəhənnəm üçün, şeytan kimi özünə dost yığır ki,orada çox darıxmasın.

Əslində isə heç kəs,kiminsə haqqında nə dilini, nə də gözünü tərpədib bir söz danışmaq qüdrətində deyildir. Əgər bunu edə bilirsə, deməli, o insan, "Əstəğfurullah"özünü Allaha şərik qoşur.Çünki kimin kim olduğunu,özünün kim olduğunu,kimin bir göz qırpımı qədər zaman müddətində başına nələr gələ biləcəyini, bizi nələr gözlədiyini, həmçinin əzizlərimizin başına nələr gələ biləcəyini, hansı vəziyyətdə, harada, necə öləcəyimizi və ən əsas əbədi dünyada, əbədiyyən harada olacağımızı Alim Allahdan başqa heç kəs bilə bilməz.

Bütün bunlara baxmayaraq, Allah-taala bizlərə ağıl-şüur verərək həyatda yaşağımız müddətdə, insanlarla ünsiyyət qurmaq üçün tam olmasa da, müəyyən qədər bir-birimiz haqqında beynimizdə bir fikir və bir obraz yaratmaq qabiliyyətini bizlərə bəxş etmişdir. Həmçinin bir insan haqqında beynimizdə yaratdığımız obraz,yalnız özümüzə məxsus və fərdidir. Yəni,bir adam hamı üçün yaxşı və ya pis ola bilməz və hamımız qəlb gözümüz ilə bir-birimizə baxaraq, beynimizdə o adam haqqında fikir yaradırıq. Deməli, həyatda hər bir şəxs qarşısındaki insanı öz düşüncə, öz anlayışilə və özü istədiyi kimi tanıya bilər.Yəni o insanı Allah tanıyan kimi deyil,özünün ağıl-düşüncəsi dərk etdiyi kimi görə bilər.Yenə də Qurani-Kərimdə buyurulduğu kimi ən əvvəl özümüz-özümüzü islah edib, qəlb güzgümüzü təmizləməliyik ki, orada özgələrini də tam, aydın seçib görə bilək. Bunu ona bənzətmək olar ki, güzgü gözümüz, güzgünün cilalanmış arxa tərəfi isə qəlbimizdir. Öz qəlbimizlə göz güzgümüzü hansı dərəcədə cilalayırıqsa o, səviyyədə də göz güzgümüz qarşımızdakıları əks etdirir.

İnsanları tanıya bilməyin bir başqa tərəfidə yəqin ki,ruhumuzla, qəlbimizlə əlaqədardır. Məsələn:"Leyli və Məcnun" əsərində olduğu kimi, siması çox da gözəl-göyçək təsvir ediməyən Leyli obrazının"sən Leyliyə Məcnunun gözü ilə bax!"məsəlinə bənzər.

Bəzən də, təsadüfən ruhumuza yaxın olan insanlarla rastlaşırıq və bizdə belə düşüncə yaranır ki, sanki bu insanı çox-çox əvvəldən tanıyıb,

bilirsən.Bu da yəqin ki,ruhumuzla əlaqdardır.

Müşahidələrimizin nəticəsi olaraq bunu da qeyd edək ki,insanlar içərisində elələri var ki, ümumiyyətlə onları tanımaq,onlar haqqında bir fikir yaratmaq qeyri-mümkündür. Çünki bu insanlar düşdükləri şəraitlə, vəziyyətlə əlaqədar olaraq, fərqli-fərqli cildlərə girərək özləri haqqında insanda bir-birinə zidd olan fikirlər yaradırlar.Bu fikirlər o, qədər dəyişilir ki, artıq o insanın kim olduğunu tanımaq olmur.Bu insanlar ariflər, bir də ki cahillərdir.

Arifləri ona görə tanımaq olmur ki, hər hansı bir şərait olursa olsun,o özünü elə göstərər ki, sanki həmin şəraitdə və həmin insanlara uyğulaşmış və onlarla birlikdədir. Əslində isə o öz aləmində,öz dünyasındadır. Çünki onun cismi yerdə, ruhu isə çox uzaqlardadır və onun qulaqları səsdədir. O, bu dünyada Allahın bütün yaratdıqlarına, gördüyü hər şeyə, hər kəsə dəyər verib, hər an, bu dəqiqə yola çıxacaq mühacırə bənzəyir.O hər an bu gözəl şəhəri həmişəlik tərk etmək üçün hava limanında gözləmə salonunda oturub, öz təyyarəsini gözləyən sərnişinə və bu gözəl şəhərə bir daha qayıtmayacaq deyə, məhəbbət və təəssüflə oradakılara baxan turistə bənzəyir. O Allahına şükür edir ki, belə gözəl şəhərə gəlib, bu qədər gözəlliklər gördü.Lakin indicə təyyarə gələcək və o öz doğma yurduna qayıdacaq. Fikri-zikri, sözü hərəkəti, düşüncəsi hər an gələ biləcək olan təyyarəyə necə minəcəyi və öz doğma yurduna nə hədiyyələr aparacağı,bütün əzablara dözərək mövlasını görə biləcəyi haqdadır. O elə bir həsrətdir ki, onu sözlə ifadə etmək qeyri-mümkündür. Bu hissi müəyyən qədər tanıtmaq üçün, Həccə gedib,ruhlarının zərrəcikləri orada qalan və hər ildə Həccə getməyə can atan insanlarin keçirdiyi hisslərə bənzətmək olar.

Cahilləri (dələduzları) də ona görə tanımaq olmur ki, bu insanlar öz ruhlarını şeytana satmış, yalnız dondan-dona girərək, insanların ürəklərinə yol tapmağa çalışarlaq. Onların məqsədi insanların qəlblərinə girərək, yalnız maddi və mənəvi ziyan vurmaq, aldatmaq, tələ qurmaq deyil, hətta o qəlbləri tarimar edərək xaraba qoymaqdır. Onlar özlərini insanlarla, həmçinin cəmiyyət arasında ən mehriban,yaxşı insan kimi göstərərək dostlar, ailələr arasında, cəmiyyətdə qarışıqlıq salaraq, yalnız öz nəfsi və maddi xeyirləri haqda düşünərlər.Bu yolda hansı şəklə, hansı hala istəsə özünü qoyar ki, təki aləm qarışıb, məssəb itsin və bu cür həyat onların həyatda yaşamalarının məqsəd və mənasıdır.

Deməli, bir daha məlum olur ki, biz hələm-hələm nə özümüzü nə də ki, həyatımız boyu rastlaşdığımız insanları tam tanıya bilmərik. Çünki hər kəsi tanıyan və bilən, yalnız Özü, bizi yaradan və bu qədər

hikmətlər bəxş edən, Qadir Allahdır. Ən önəmli olan isə insanların səni tanıyıb,bilmələri deyil, önəmli olan Alim Allahın sənin qəlbinin içini görüb, sənin nəfəsindən belə xəbərdar olduğunu bilməkdir.

ALLAHI VƏ ONUN YARATDIQLARINI SEVMƏK

Allah, istəmirəm özgə məhəbbət,
Bəndə sevgisinin sonu puçuymuş,
Hansı aşiq görmüş vəfa, sədaqət
Səndən qeyrisinə məhəbbət suçmuş.
Allah, özün boyda sevgi ver mənə,
Bir insan oğlunun sevgisi yalan,
Bu yer sevdalara nağıl, əfsanə,
Mənə sevgi yolla öz mehrabından.(Hacı xanım Telli)

ALLAH SEVGİSİ HAQQINDA

Qurani-Kərimdə 9 ayə buyurulmuşdur:

Ali-İmran-31-32-De ki:-Əgər Allahı sevirsinizsə, onda Mənə tabe olun. O da sizi sevib, günahlarınızı bağışlasın. Allah bağışlayan və rəhimlidir.De ki:-Allah və onun Rəsuluna itaət edin. Əgər üz çevirsələr, bilsinlər ki, Allah kafirləri sevməz.

Açıqlama:-İnsanlıq tarixində ən böyük əxlaq və mənəviyyat məktəblərinin qurucuları Peyğəmbərlər olmuşlar. Onlar insanları dinə dəvət etdikləri zaman, ən birinci, Allahı və insanları sevməyi onlara öyrətməyə çalışmışlar.Çünki sevgi bəsirət gözünün işığı və fitrət nurudur. Bu nur insanın duyğularının sultanıdır.Sevgi qəlbdə hakimiyyət qurduqdan sonra, bütün çətinliklər həll yolunu tapacaqdır.Sevgisiz yaşamaq bir fəlakətdir, həm özü, həm də ətrafındakılar bədbəxtdirlər, çünki sevgi həyatın məğzi və cövhəridir.Bir insanın qəlbində yaradana və yaranmışlara, canlı-cansız təbiətə sevgi, mərhəmət yoxdursa, o, cansız müqəvvaya bənzər. O özü üçün yeyər-içər, yatar-durar, həyatda heç bir iz, xatirə qoymadan ölüb-gedər. Yalnız özü üçün yaşayıb və yalnız özünü sevən insanlar günəş altında boş-boşuna yanan şama bənzərlər ki nə işığından, nə də ki, istisindən heç kəs fayda görməz.

Sevgi hissi Allahın bizə bəxş etdiyi bütün əza, hiss-duyğu üzvləri kimi bir əmanətdir.Tanrı bütün duyğu üzvlərini bizə bəxş edib sonra onların istifadəsində həddimizi aşmamağı buyurduğu kimi, ən ülvi hiss olan sevgini də israf etməməyi,daimi və müqəddəs saxlamağı bizlərə

tövsiyə edir. Əlbəttə, bu sevgi insanların bir-birinə olan ülvi sevgisidir ki, onu təmiz, bütöv saxlayıb xırdalamadan, çörək qırıntılarına döndərmədən, əbədi dünyaya özünlə birlikdə aparasan.Əgər bir qəlb o bütöv, ülvi məhəbbəti qoruyub saxlaya bilmirsə,onda bizim Allahın yalnız duyğu üzvləri bəxş edib,lakin ağıl vermədiyi canlılarından fərqimiz yoxdur.

Vədud-Allah "Ülvü ruhla"əlaqədar olan sevgi cövhərini hər kəsin öz xislətinə görə bəndələri arasında müxtəlif miqdarda bölüşdürmüşdür. Bu cövhərdən qismətinə çox düşənlərin xoş halına. Əgər belə insanlar Allahın onlara bəxş etdiyi bu cövhərin dəyərini dərk etmişlərsə, onda, onların Allaha, Onun bütün canlı-cansız yaratdıqlarına və öz qismətinə düşənlərin məhəbbəti tükənməz və əbədidir.Onlar bu dünyada müvəqqəti, əmanət verilən bu müqəddəs cövhəri qoruyub bulandırmadan, əsil sahibinə çatdırmaq üçün canlarından (cismindən) belə keçərlər.

Ruhu sevgidən yoğrulmuş insan dünyaya həris olmaz.Onun nəzərində dünya da, axirət də Allahındır. Başqasının mülkünə göz dikməz, əsil mülk sahibinin bəxş etdiklərinin qədrini bilər və israf etməz.

Sevgilər də müxtəlifdir; vətənə, təbiətə (canlı-cansız), valideynlərə, övlada və bütün yaranmışlara.Bir də elə bir məhəbbət vardır ki, o insanın özündən və ruhundan da yüksəkdə duran bir sevgidir,o da Allaha olan sevgimizdir. O elə bir sevgidir ki, insanın qəlbini, ruhunu doldurur, insanı bir şəxsiyyət, bir varlıq kimi özünü hiss etməyi, özünə və başqalarına hörmət etməyi, hər şeyi gözəl görməyi (niyyətin gözəl olması), gələcəyə ümidlə baxmağı, həyatın bütün çətin anlarına səbirlə sinə gərməyi öyrədir. Allaha olan sevgi yaşadığımız bu müvəqqəti dünyada sevgisiz yaşamağın mümkünsüzlüyünü və əbədi dünyada da Onun sevgisini qazanmaq ümidini bizə bəxş edir.

əl-Maidə-54-"İman edənlərin Allaha olan sevgisi hər şeydən daha çoxdur."

Allahı səmimi sevgi ilə sevənlər bir-birləri ilə dostdurlar.Lakin cürbəcür fikirlər ilə, günah işlətməklə dostluq edənlər bu dünyada bir-birlərini çox sevdiklərini söyləsələr də, ancaq axirətdə bir-birlərinə düşmən kəsilərlər.

əz-Zuxruf-67-"Dünyada günah etməklə bir-birinə dost olanlar, Qiyamətdə bir-birinə düşmən kəsilərlər."

Könül Allahın evidir. Könül evini, qəlbi dünya sevgisi ilə dolduranda o qaralar.Ancaq dünyanın sahibini-Allahı sevəndə, bəsirət gözü açılar, ruhlar ölməzlik qazanar və kainat oxunası bir kitaba çevrilər. Bu

sevgiyə bağlanan insanın mənəviyyatı kainat qədər geniş, hüzuru və nəşəsi daima təzə və ölümsüzdür.

İslam alimlərinin bəziləri Allah sevgisinin hər şey üzərində mövcud olduğunu bildirmişlər və Allah sevgisi haqqında belə buyurmuşlar:"Ey Kərəm sahibi olan Allah! Sənin sevgin hər işdə və hər vəziyyətdə mənim qəlbimdədir. Rəbbimi xatırladım deyəndə çaşıram, mən Onu heç unutdum ki, unutduğumu xatırlamış olum? Səni andığım zaman ölüb, sonra da dirilirəm.Əgər Sənə hüsnü-zənnim olmasaydı, heç dirilməzdim."

Hədis: Hz. Əli buyurur:-Həzrəti Peyğəmbərdən sünnəsi haqqında soruşdum O mənə belə buyurdu:-"Sərmayəm mərhəmət və şəfqətdir. Dinimin əsli ağıldır, Əsasım və təməlim sevgidir, Allahı zikr etmək ünsiyyətim, etimad isə xəzinəmdir, Silahım elmdir, Geyimim səbirdir, Qənimətim rizadır, Sənətim zahidlikdir, Qüvvətim iman. Şəfaətçim doğruluq, Dostum dözüm, Əxlaqım cihaddır,Namaz isə iki gözümün qərargahıdır, Allahı sevən yaşar, dünyaya meyl edən çaşar, Axmaq olan sabah-axşam leş yeyər, ağıllı adam isə öz qüsurlarını araşdırar. **"(Zubdətul əhadis.)**

Dini hekayə:Bir sufi könlünü fərəhləndirmək və mənən bir nəşə yaşamaq məqsədilə bir bağçaya gedər.Ədəblə bir küncdə oturub gözlərini yumaraq xəyallara dalar. Könlünün dərinliklərində ləzzətlərə doğru seyr halında olan sufini bir anlayışsız, yatmış olduğunu zənn edərək dümsükləyir:-"Nə yatmısan?Gözünü aç,bu güllərin gözəlliklərinə, çiçək açmış ağaclara,yamyaşıl çəmənliklərə bax. Cənabi-Haqq Quranda: "Allahın rəhmət əsərlərinə baxınız"-deyə buyurmuşdur.Sufi:-"Ey arzularının əsiri olan bədbəxt!Allahın ən gözəl əsəri könüldür.Bayırda olan, bağ-bağça və bütün yaşıllıqlar könüldəkinin əksi, xəyalların kimidir. Əgər bu dünyada gördüyün bağ-bağçalar və yaşıllıqlar könül aləmindəki sevinc sevgisinin əksi olmasaydı, Allah bu xəyal aləminə "Aldanma yurdu"-deməzdi.

Açıqlanması:-Bir gün qəflət yuxusu bizə gəlincə, yəni ölüm gəlib çatınca, insanın gözləri açılır.Həqiqət görünür,lakin onu son nəfəsdə görmək nəyə yarar? Ölmədən öncə ölən kişi, yəni dünyadakı bu gözəlliklərin əslindən, kökündən xəbərdar olan kişi nə xoşbəxtdir.

RUHUMUZ VƏ SEVGİ

Açıqlama: Yuxarıda qeyd etdiyimiz kimi Allahın özünün sevə-sevə, öz "ülvü ruhu"ndan bəxş edərək yaratdığı varlıq olan biz insanların mayası sevgidən ibarət olduğu üçün yaşayıb ölməyimiz də elə sevgidən

ibarətdir. Bu məsələ bir az da aydınlıq gətirmək istərdik.Yəni Allahın bu dünyada yaratdığı hər şey çox gözəldir və bu dünyada gördüklərimiz əbədi dünyamızda, Cənnətlərdə görə biləcəyimiz gözəlliklərin yalnız bir faizidir.Bununla bərabər bu dünyada yaranışımız, həmçinin bu dünyada Allahın yaratdığı gözəlliklər də boş-boşuna deyildir.

Bizim üçün buyurduğu bütün imtahanlarla bərabər ülvü məhəbbətində öz sorşu-sualı vardır.Əslinə baxsaq,elə bizim insan adlana bilməyimizin tərkib hissəsi elə ülvü məhəbbətin varlığından ibarətdir.Yuxarıda qeyd edildiyi kimi Allahın bizə bəxş etdiyi,bizim yaşamağımız üçün vacib olan duyğu hislərimizdə buna əlavə etsək,onda qısa olaraq belə deyərdik. Deməli, Alim Allah bu dünyada gözəl yaşamaq üçün bizlərə hər şey bəxş etmişdir.Bizim ruhumuzun əsası,"ülvü ruh"dan ibarətdir, çünki,"ülvü ruh" bizə sevməyi, sevgini öyrədir. Yəni,"ülvü ruh"Allahın yaratdıqlarını, həmçinin insanın özünün-özünə dəyər verməsini öyrədir. İnsanın özünün-özünə dəyər verməsi isə təkəbbürlülük, yəni insanları özündən aşağı görmək deyildir,əksinə aşağıda sadalanlardan ibarətdir: doğmalarına, ailəsinə, həyatı boyu rastlaşdığı insanlara hikmət gözü ilə baxmaq,hər kəsdən pislik və yaxud da yaxşılıq görərək həyat dərsi almaq, özünü xəbərçiliklə, ondan buna söz gəzdirməklə, qeybətlə, fitnə fəsadla, pozğunluqla, başqasının qarşısında gözü kölgəli olmaqla, müqəddəs dəyərlərə xəyanət etməklə, yalanlarla, satqınlıqla, özgələrini güdüb-araşdırmaqla, özgələrin həyatlarına pis niyyətlə müdaxilə etməklə, ümumuyyətlə hiss niyyət və duyğularla yaşayaraq insanın özü-özünü xərcləyib, tükətməsinin mənasız və günah olduğunu dərk etməkdir. Yəni,bütün bu rəzalətləri torətməklə, o Allahın ülvü ruhunu xırdalayıb, alçaltmamaqdan ibarətdir. Yoxsa ki,bizi hamıya qarşı məğrur edən bir "Mən",özgələri bəyənməyərək, özündən aşağı görmək deyil, əksinə insanın öz "ülvü ruh"una dəyər verərək, Ona layiq yaşamağıdır.

İndi isə üzümü yenə də gənclərimizə tuturaq demək istəyirik ki,ülvü duyğuları heyvanı hislərinizlə qarışdırmayın. Əgər qəlbinizdə Allah məhəbbətini yerləşdirə bilsəniz, həyatınızın da necə mənalı, gözəl keçdiyini, bu həyatın sirlərlə dolu,möcüzəvi işlərini diqqətlə izləyib, hikmətlər axtararaq, əbədi dünyanın, əbədi gözəlliklərinə çatmaq üçün yaşayarsınız."Ülvü məhəbbətin isə heyvani duyğulardan çox uzaqlarda olduğunu dərk edərsiniz. Çünki ülvü məhəbbət qarşılıqlı hörmət, nəvaziş, qayğı, gözlərin bir-birinə dikilərək, uzun-uzada söhbətindən, insanı ruhlar aləminə aparacaq ülvü, saf-təmiz məhəbbətdən ibarətdir. Bu ülvü duyğular yalnız insanlara məxsusdur. Düzdür elə hevanlar var ki, onların bir-birinə münasibətində, etibarında bizlər üçün bir çox

əlamətlər və hikmətlər də vardır. Bu səbəbdən də hər şey öz əndazəsində çox gözəldir, həddi aşdıqda isə atalar demişkən:"Həddən artıq içilən su da insanı öldürə bilər."

Ülvü məhəbbəti yaşamağa çalışın, çünki bu müvəqqəti dünyada ondan qiymətli heç nə yoxdur və əbədi dünyaya aparacağınız ən gözəl duyğuda elə bundan ibarətdir. Çünki, ruhlar aləmindən gəlmiş, ağılşüuru olan"ülvü ruh",yenidən Allahın öz ruhundan sevgi, məhəbbətlə yaratdığı Ruhlar aləminə qayıdacaqdır.

Əhvalat:Məşhur Kolumbiya yazıçısı,"Nobel" mükafatı laureatı Qabriel Qarsia Markes xərçəng xəstəliyinə tutulduqdan sonra dostlarına məktub yazır. Əslində bu,əcəlin yaxınlaşdığını hiss edən Markesin bütün dünyaya müraciəti idi:

-"Əgər Allah mənə bir az da ömür bəxş etsəydi, hər düşündüyümü söyləməz, ancaq söylədiyimi mütləq düşünərdim.

Hər şeyə dəyər verərdim və bunu dilə gətirərdim.Yəni dəyərli bir şey görəndə, dilə gətirib onu qiymətləndirərdim. Az yatardım, daha çox yuxu görərdim. Çünki bilirəm ki, gözlərimizi yumduğumuz hər dəqiqədə işıqdan 60 saniyə məhrum oluruq. Danışanda hər kəsi dinləyərdim.İnsanlara daha çox dəyər verərdim.

Əgər Allah mənə bir qədər də ömür bəxş etsəydi, sadə və təmiz geyinərdim, özümdən sonra paylanacaq geyimlərə o qədər də dəyər verməzdim. Əgər kimdənsə incimiş olsaydım, qəlbimdəki qəzəbi bir buzun üzərinə yazıb, günəşin çıxmasını gözləyərdim.

Əgər bir az da Allah mənə ömür versəydi, insanları sevdiyimi onlara söyləməkdən çəkinməzdim. Allahın verdiyi bütün nemətlərə şükür edərək yaşayardım.

İnsanlara Allahın yaratdığı təbiəti və canlıları deyil, yalnız özüözlərini çox sevdikləri üçün qocaldıqlarını və sevgidən uzaq olduqları üçün daşqəlbli olduqlarını üzlərin söyləməkdən çəkinməzdim. Bir uşağa qanad verərdim, ancaq uçmağı öyrənməyi öz ixtiyarına buraxardım. Qocalara ölümün yaşla deyil, unutqanlıqla (başla) gəldiyini söyləyərdim.

Ey insanlar, sizdən o qədər şey öyrəndim ki?!Mən sizə baxıb, öz əksimi o güzgüdə gördüm və öz qəbahətlərimi dərk edərək, özümü tanıdım.

Heç kəs əsil xoşbəxtliyi sıldırım qayalara dırmaşarkən yaşandığını anlamır, hər kəs xoşbəxtliyi dağın zirvəsində olmaqda görür.

Hər zaman üçün bir sabah var və həyat bizə daha gözəl işlər görmək üçün fürsət verir.Nə gənc üçün, nə də qoca üçün sabah olacağına təminat yoxdur. Bu gün sevdiklərini son dəfə görə bilərsən. Ona görə də çox gözləmə,elə indi sevdiklərini, Allahın sənə bəxş etdiyi bütün nemətləri,

ata-ananı,bacı-qardaşlarını, həyat yoldaşını, övladlarını çox sevdiyini deməyə gecikmə.

Qadınlara, xüsusən də kişilərə müraciət edərək deyirəm ki, ailələrinizi çox sevin, onlara hər işdə kömək edin, adi sözlərlə belə bir-birinizi sevindirin.Sevdiklərinizə yaxın olun! Sevginizi itirməkdən qorxun!Çünki onda insanlığımızı və ruhumuzu itirmiş olarıq. Onlara çox ehtiyacınız olduğunu etiraf edin! Sizə bəxş edilən hər zamanın, nemətin dəyərini bilin! Onlar üçün zaman ayırın.Çünki zaman quş kimi uçub gedir...

ZAMAN HAQQINDA

Allahın bizlərə bəxş etdiyi sərvətlərdən olan zamanın dəyərini çox vaxt biz insanlar dəyərləndirə bilmirik. S.Şirazi deyir ki, "Bir şəlalə qarşısında otur və ömrün gedişini seyr et."Həqiqətəndə zaman o qədər sürətlə axır ki, bəzən günləri belə qarışdırırıq. Bəzən " Aaa….. nə tez gəldi getdi bu həftə" deyərək, təəcüb də edirik.Uşaqlar zamanı tələsdirərək gənc olmaq istəyərkən, yaşlılar zamanı yavaşıtmağa, saxlamağa çalışırlar.Çünki, hər keçən günün ömrümüzü qısaltdığını çox yaxşı görürük.

İnsan düşünür ki."Gəncliyimdə belə güclü idim,belə bacarıqlı idim. Sonra düşünür ki,ah… nə sıxıntilar, nə əziyyətlər çəkdim və yaxud nə gözəl sevincli xoşbəxt günlər yaşadım.Valideyn qulluğunda durdum, övladlar böyütdüm,açılı-şirinli günlər yaşadım və düşündüm ki, butun bunlar həmişə belə olacaq və heç vaxt bitməyəcək…

Ancaq zaman nə tez gəldi keçdi…heç bilmədim belə…Yenə də Allahın bu gününə şükür. Allah bizləri imandan ayırmasın. Bəzilərinə gülümsəyir, bəzilərinə isə iki damla göz yaşı veririk. Lakin sonradan ürəyimiz mütləq yumşalır və "Görən mən onun yerində olsaydım ,mən necə hərəkət edərdim"-deyə düşünürsən.

Mənim vaxtım, mənim ömrüm dediyimiz,əslində isə bir anına belə sahib olmadığımız, bir anını belə geriyə çevirə bilmədiyimiz və ya "Mən bu anı yaşamaq istəmirəm" deyib,tərk etmək istədiyiniz və yaxud da "Bu vaxtı bu zamanı təkrar yaşamaq istəyirəm" deyərək saxlamaq istədiyiniz " zaman,yalnız Allaha məxsus və Onun hökmündədir.

Bizim üçün zaman önəmli olduğu kimi Allah da öz uca Kitabinda zamana and içir: "Vəl Əsr"yəni, Əsrə and olsun ki," –deyir.Hər şeyin Rəbbi olan Allah niyə görən zamana and içir? Hər halda yinə də Rahman Rahim ismi şerifinin sirridir.

Qiymətini bilməyib zamanı öldürmək əslində insanın özünün ən böyük zülmi, ən acı dərdidir. Yinə də rəhmətindən ümid kəsilməz, bir

çox yaşanan zamanın içərisində dəyərləndirilən bir anın hər şeyi silib süpürməsi, insanı adam etməsi, əbədi Cənnətləri qazandırması da mümkündür.

Zamanı boşa keçirmək bir yana bir də zamandan şikayət edən, yaşadığı xətaların səbəbkarının zaman olmasını və bununlada özünü rahat hiss edərək ,zamanı günahlandırıb,üsyan etməkdir.

Zamanın nisbiliyi məsələsi dövrümüzdə sübut edilmiş elmi həqiqətdir. Ancaq bu həqiqət keçən əsrin əvvəllərində Eynşteynin nisbilik nəzəriyyəsi ilə ortaya çıxmışdır. O dövrə qədər insanlar zamanın nisbi qavrayış olduğunu, mühitə görə dəyişdiyini bilmirdilər. Ancaq tanınmış alim Albert Eynşteyn nisbilik nəzəriyyəsi ilə bu həqiqəti açıq şəkildə sübut etdi. Zamanın kütlədən və sürətdən asılı qavrayış olduğunu irəli sürdü. Bəşəriyyət tarixində heç kim bu mövzunu açıq şəkildə dilə gətirməmişdi.

Ancaq tək bir istisna ilə! Quranda zamanın izafi (nisbi) olduğunu göstərən məlumatlar verilirdi. Bu mövzu ilə bağlı ayələri belədir:

Həcc-47-Rəbbinin dərgahında bir gün sizin saydığınızın min ili kimidir! O, göydən yerə qədər olan bütün işləri idarə edir.

Səcdə-5-Həmin işlər, sizin saydığınızın min ilinə bərabər olan bir gündə Ona doğru yüksələr.

Allah Qatında zaman yoxdur. Bütün hadisələr bir anda baş verir və o "bu andır". Biz, bizə edilən təlqinə görə keçmiş, bu an və gələcək kimi bölmələrə ayrılmış zaman hissələrini yaşadığımızı zənn edirik.

Əslində isə "keçmiş" kimi qavrayışa malik olmağımızın tək səbəbi hafizəmizə bəzi hadisələrin verilməsidir. Məsələn, orta məktəbə getdiyimiz an hafizəmizdə olan məlumatdır və biz buna görə bunu keçmiş hadisə kimi hiss edirik. Gələcəklə bağlı hadisələr isə hafizəmizdə yoxdur. Buna görə də biz hələ xəbərdar olmadığımız hadisələri "yaşanacaq", "gələcəkdə baş verəcək" hadisələr kimi qəbul edirik. Əslində isə keçmiş bizim üçün necə yaşanmış, təcrübədən keçirilmiş, görülmüş hadisələrdirsə, gələcək də eyni şəkildə yaşanmışdır. Ancaq bu hadisələr bizim hafizəmizə verilmədiyi üçün biz bunları bilmirik.

Əgər Allah gələcəklə bağlı hadisələri də hafizəmizə versəydi, onda gələcək də bizim üçün keçmiş olardı. Ancaq Allah bizə hadisələri müəyyən sıra ilə, kiçikdən böyüyə doğru axacaq şəkildə, sanki keçmişdən gələcəyə axan bir zaman var imiş kimi hiss etdirdiyi üçün bizə gələcəyimizlə bağlı hadisələri bildirməz, bunlar haqqında məlumatı hafizəmizə yerləşdirməz. Gələcək bizim hafizəmizdə yoxdur, ancaq Allahın sonsuz hifzində bütün insanların keçmişləri və gələcəkləri vardır.

Bu, bir insanın həyatını artıq mövcud olan bir filmdən izləməsi kimidir. Film artıq çəkilmiş və bitmişdir. Ancaq bu filmi irəliyə ötürmə imkanı olmayan insan kadrları bir-bir seyr etdikcə həyatını görür. Hələ seyr etmədiyi kadrların isə gələcəyi olduğunu zənn edərək yanılır.

Allah üçün keçmiş, gələcək, indi – hamısı birdir. Elə buna görə də Allaha heç bir şey gizli qalmır. Belə ki, ayədə də bu həqiqətə diqqət çəkilmişdir:

Loğman-16-"Oğlum, (dünyada gördüyün hər hansı yaxşı yaxud pis iş) bir xardal dənəsi ağırlığında olsa da, bir qayanın içində, yaxud göylərdə və ya yerin təkində olsa da, Allah onu ortaya gətirər (aşkar edər). Həqiqətən, Allah lətifdir, (hər şeydən) xəbərdardır."

Allah-taala Qurani-Kərimin bir çox ayələrində qeybi, yəni görünməyəni, bilinməyəni, şahid olunmayanı bilənin yalnız Özü olduğunu bildirir. Bunlardan birində belə buyurulur:

Cumuə-8-De:"(Qorxub) qaçdığınız ölüm sizi mütləq yaxalayacaqdır. Sonra siz gizlini də, aşkarı da bilənin (Allahın) hüzuruna qaytarılacaqsınız. O da sizə nələr etdiyinizi bir-bir xəbər verəcəkdir!"

Adətən qeybin sadəcə gələcəyə aid məlum olmayan məlumatlar olduğu düşünülür, ancaq əslində həm keçmiş, həm də gələcək qeybdir. Keçmişdə yaşananlar da, gələcəkdə yaşanacaqlar da Allah Qatında saxlanılan məlumatlardır. Ancaq Allah Öz Qatında olan qeyb xəbərlərindən bəzilərini insanların hafizələrinə verərək bunları bilinən, yəni müşahidə edilən hala salır. Allah bəzi ayələrində keçmişə aid məlumatlar verərək Peyğəmbərimizə (s.ə.s.) bunların qeyb xəbərləri olduğunu söyləmişdir. Hud surəsində belə buyurulur: "Bunlar sənə vəhy etdiyimiz qeyb xəbərlərindəndir. Bundan qabaq onları nə sən, nə də ümmətin bilirdi. Səbr et. Həqiqətən, (gözəl) aqibət müttəqilərindir!" (Hud surəsi, 49)

Allah Peyğəmbərimizə (s.ə.s.)hələ yaşanmamış bəzi hadisələrlə bağlı xəbərlər də vermişdir ki, bunlar gələcəyə aid qeyb xəbərləridir. Məsələn, Məkkənin fəthi (Fəth surəsi, 27) və Romalılar bütpərəstlərə qarşı qələbəsi (Rum surəsi, 3-4) kimi hadisələr hələ baş vermədən əvvəl Peyğəmbərimizə (s.ə.s.) bildirilmişdir. Peyğəmbərimizin qiyamət əlamətləri, axırzamanla bağlı hədisləri də o dövrün bütün insanları üçün qeyb xəbərlərini Allahın ona öyrətdiyini göstərir. Məsələn, Hz. Yusifin qardaşlarının tələsinin boşa çıxacağı xəbər verilmiş, (Yusuf surəsi, 15), Hz. Musanın anasına körpə oğlunu Fironun zülmündən xilas olacağı və peyğəmbər olacağı vəhyi ilə açıqlanmışdır. (Qəsəs surəsi, 7)

Keçmiş, gələcək, hafizə haqqında bütün bu izah edilənlər Qurana əsaslanan və qədərin dərk edilməsini təmin edən çox əhəmiyyətli

məlumatlardır. Bu mövzunu qavrayan mömin Allaha və Onun yaratdığı qədərə təslimiyyətin gətirdiyi təvəkkülü tam şəkildə yaşayacaqdır. Bir ayədə möminlərin belə dediklərindən xəbər verilir:

Tövbə-51-De: "Allahın bizim üçün yazdığından başqa bizə heç bir şey üz verməz. O bizim ixtiyar sahibimizdir. Buna görə də möminlər yalnız Allaha təvəkkül etsinlər!"

Bütün bu həqiqətlər bizi mübahisə edilməz nəticəyə gətirir: gördüyümüz, toxunduğumuz, eşitdiyimiz və adına "maddə", "dünya" ya da "kainat" dediyimiz anlayışlar, yalnız və yalnız beynimizdə yaranan elektrik siqnallarıdır.

Məsələn, meyvə yeyən bir insan meyvənin əslini deyil, beyinindəki kopiyasını hiss edir. Bir insanın "meyvə" deyə adlandırdığı şey, meyvənin ölçüsü, dadı, qoxusu və yumşaqlığına aid elektrik sinallarından ibarət informasiyanın beyində qavranılmasından ibarətdir. Əgər beyinə gedən görmə sinirini kəssəniz, meyvə görüntüsü də o anda yox olar. Və ya burundakı qəbul edicilərdən beyinə gedən sinirlərdə meydana gələn hər hansı qüsur qoxu hissinizi tamamilə ortadan qaldırar. Çünki, meyvə bir sıra elektrik siqnallarının beyin tərəfindən şərhindən başqa bir şey deyil.

Uzaqlıq hissi də düşünülməsi vacib olan digər məsələlərdən biridir. Əlinizdə bir kitabın olduğunu düşünək. Uzaqlıq deyəndə bu kitabla aranızdakı məsafə nəzərdə tutulur və bu beyninizdə meydana gələn boşluq hissidir. Bir insanın özündən çox uzaqda hesab etdiyi maddələr də əslində beyninin içindədir. Məsələn, insan göyə baxıb ulduzları seyr edir və bunların milyonlarla işıq ili uzaqda olduqlarını hesab edir. Halbuki ulduzlar onun içində, beyinindəki görüntü mərkəzindədir. Bu yazıları oxuyarkən içində olduğunu hesab etdiyiniz otağın da əslində içində deyilsiniz; əksinə otaq sizin içinizdədir. Bədəninizi görməyiniz sizi otağın içində olduğunuza inandırır. Ancaq bunu unutmayın ki, bədəniniz də beyninizdə yaranan görünütüdür.

NƏFSİMİZİN ƏMƏLLƏRİ HAQQINDA
ƏQL HAQQINDA

Əql hər yerdə bir xəzinə aşkara çıxarsa,
Allahın adından ona acar düzəldər. ("İqbalnamə" N. Cəncəvi.)

əl-Bəqərə 269-Allah istədiyi şəxsə hikmət bəxş edər. Kimə hikmət bəxş edilmişsə ona çoxlu xeyir verilmişdir. Bunu ancaq ağıllı adamlar dərk edərlər.

Açıqlama: Allah-taala bütün əşyalardan əvvəl küllü ağlı icad edib, yaratmışdır.Buna ilk ağıl və ya ilk cövhər deyərlər.İlk ağıl üç bilgidən ibarətdir;Allahı tanımaq, özünü(nəfsini) tanımaq, bir də öz ehtiyaclarını bilməkdir ki,bununla da yalnız Allaha möhtac olduğunu dərk etməkdir.

Əql, şüur nə deməkdir? Baxan gözə, eşidən qulağa, danışan dilə və düşünən qəlbə sahib olmaqdır. Hz.Peyğəmbərdən soruşanda ki:-Ən ağıllı insan kimdir? O da:-İslamın içində yaşayanlardır-deyə buyurmuşdur.

Allah insanı yaratdıqdan sonra ən birinci ona əql vermişdir. İnsan məhfumu əql ilə bağlı şeydir. Yer üzündə əqli olan varlıq yalnız insandır. Uca Allah insanlara əql və duyğu üzvlərini vermiş, heyvanlara duyğu üzvlərini verib əql verməmişdir. Mələklərə isə əql verib, duyğu üzvlərini verməmişdir.

Əql-ruhun günəşidir.İnsan onun vasitəsi ilə elm sahibi və hər şeyə cavabdeh olur.Yaxşı iş ilə pisi ayırır. Əql insanın gedəcək yolunu aydınlaşdırır, haqq və gerçəyi bildirir.İnsan onun vasitəsi ilə öz əbədi axirətini qazanır.Əql sahibi olan insanlara ağıllı deyilir.

Qurani-Kərimdə əql haqqında 56 ayə buyurulmuşdur:

Ali-İmran-191-Ağıl və anlayış sahibləri o kəslərdir ki, ayaqda ikən, oturarkən,yanları üzərində yatarkən Allahı anarlar, göylərin və yerin yaranışı üzərində düşünərlər və deyərlər:-Ey Rəbbimiz! Sən bunları boşuna yaratmadın.Sən Münəzzəhsən, bizi atəş əzabından qoru.

əl-Həşr-2-Ey ağıl sahibləri!İbrət götürün ki, Peyğəmbər öz cəmiyyəti ilə necə qələbə çaldı və Allahın köməkliyi ilə öz dinini aşkar etdi.

Hədis:Cəbrail (ə.s.) nazil olub Adəmə (ə.s.) dedi:-Ey Adəm! Mənə əmr olunub ki, üç şeydən birini sənin ixtiyarında qoyum. Hansını istəsən seç, digər ikisini isə qaytar.

Adəm (ə.s.) soruşdu:-Ey Cəbrail! O üç şey hansılardır? Cəbrail (ə.s.) dedi:"Agıl, həya və din."

Adəm (ə.s.) buyurdu:"Mən əqli seçdim." Cəbrail (ə.s.) həya və dinə:-"Qayıdın"-dedi. Onlar dedilər:"Ey Cəbrail! Bizə əmr olunub ki,əql harda olsa, biz də orada olaq."(Əlləmə Kuleyni."Usuli Kafi")

Hədis:Hz.Əli əql barədə belə buyurmuşdur:-Allah-taala əqli gizli xəzinədə saxlanmış sağ tərəfindəki nurdan yaratdı.Sonra:

-Elmi-onun nəfsi.Dərrakə və düşüncəsi onun ruhu.Həyanı onun gözü. Hikməti onun-dili.Mehribanlığı-onun hikməti Rəhməti-onun qəlbi qərar verdi. Sonra onun daxili əzalarını on şeydən əmələ gətirdi:-Yəqinlık, iman, sidq, sükunət,vüqar, mehribanlıq, təqva, ixlas,bəxşiş, qənaət, təslim, razılıq və şükr.(Əlləmə Kuleyni."Usuli Kafi")

Hədis:İmam Cəfəri Sadiq buyurmuşdur ki:"Kimin əqli varsa, dini, kimin dini varsa Cənnəti vardır."

Hədis: Peyğəmbərimiz buyurur:-Cövhər-dörddür.Əql-cöv-hərdir, onu aradan aparan isə qəzəbdir. Din cövhərdir, onu aradan aparan isə həsəddir. Həya cövhərdir, onu aradan aparan isə tamahdır. Saleh əməl cövhərdir, onu aradan aparan isə qeybətdir. **(Üsuli Kafi)**

Hədis:("Üsuli-Kafi"1c.səh.30.)Səmaə ibn Mərhan belə rəvayət etmişdir: -Bir gün Əbu Əbdullahın(Cəfəri Sadiqin)yanında idim. Onun yanında bir neçə dostu vardı. Söz əql və cəhalət mövzusundan düşdükdə,Əbu Abdullh buyurdu:-Əql və cəhalətin ordusunu tanıyın ki, doğru yolu tapasınız.Sonra davam edərək buyurdu: -Azzə (şöhrətli) Cəllə (Ulu) Allah ağılı yaratdı.Əql ərşin sağ tərəfindən Allahın nurundan yaradılan ilk ruhani varlıqdır.Allah əqli yaratdıqdan sonra ona:-Geri qayıt-dedi, əql geri qayıtdı.Sonra ona:-Yaxına gəl-dedi, əql yaxına gəldi.Allah- təalə belə səsləndi:-Səni böyük bir yaradılışla yaratdım və səni bütün yaratdıqlarımdan üstün tutdum.

Sonra Allah cəhaləti duzlu və qaranlıq bir dənizdən yaratdı. Ona:-Geri qayıt-dedi.Cəhalət isə gəlmədi.Buna görə də Allah ona:-Təkəbbürləndin-dedi və onu lənətlədi.

Daha sonra ağıla 75 əsgər bəxş etdi.Cəhalət Allahın əqlə verdiyi qiyməti, ona bəxş etdiyi əsgərləri görəndə daxilində ağıla qarşı düşmənçilik duyğusu baş qaldırmağa başladı və belə dedi:"Ey mənim Rəbbim!Bu da mənim kimi bir varlıqdır.Sən onu yaratdın, onunla yaxşı rəftar etdin və onu gücləndirdin.Mən isə onun ziddiyəm. Lakin mənim ona qarşı qoyulacaq gücüm yoxdur.Ona verdiyin kimi mənə də əsgərlər ver."Allah buyurdu:"Yaxşı,ancaq bundan sonra mənim əmrimə qarşı çıxsan, səni və əsgərlərini rəhmətimdən uzaqlaşdıracağam."Allah sonra ona da 75 əsgər verdi.

1-Xeyir əqlin vəziridir,onun ziddi, cəhalətin vəziri şərdir.
2-İman-ziddi inkar.
3-Təsdiq- ziddi küfr.
4-Ümid- ziddi ümidsizlik.
5-Ədalət-ziddi ədalətsizlik.
6-Məmnunluq-ziddi ruhiyyənin pis olması.
7-Şükür-ziddi nankorluq.
8-Nikbinlik-ziddi bədbinlik.
9-Təvəkkül-ziddi hirs.
10-Şəfqət-ziddi daşürəklilik.
11-Mərhəmət-ziddi qəzəb.

12-Savad-ziddi savadsızlıq.
13-Dərrakə-ziddi axmaqlıq.
14-İffətlilik, şərəflilik-ziddi şərəfsizlik,rəzillik.
15-Tərki-dünyalıq-ziddi dünyapərəstlik.
16-Yumşaqlıq-ziddi sərtlik.
17-Utancaqlıq-ziddi utanmamaq.
18-Təvazökarlıq-ziddi təkəbbürlülük.
19-Borcu tez vermək-ziddi borcu saxlamaq.
20-Ciddilik-ziddi yüngüllük.
21-Sakitlik-ziddi boşboğazlıq.
22-İtaətkarlıq-ziddi dikbaşlıq.
23-Mərufət-ziddi inkar.
24-Səbir-ziddi səbirsizlik.
25-Dözüm-ziddi-intiqam.
26-Zənginlik-ziddi kasıblıq.
27-Xatırlamaq-ziddi yaddan çıxarmaq.
28-Əzbərləmək-ziddi unutmaq.
29-Güclü istəmək-ziddi uzaqlaşmaq.
30-Qənaətbəxş olmaq-ziddi güclü istəmək,ehtiras.
31-Köməkləşmək-ziddi qıymamaq,paxıllıq.
32-Dostluq-ziddi düşmənçilik.
33-Vəfa-ziddi-vəfasızlıq.
34-İtaət-ziddi asilik.
35-Zəka-ziddi kütbeyinlik.
36-Salamatlıq,əminlik- ziddi bəla.
37-Sevgi-ziddi nifrət.
38-Doğruluq-ziddi yalan.
39-Haqq-ziddi batil.
40-Güvənmək-ziddi xainlik.
41-Səmimilik-ziddi səmiyyətsizlik.
42-İzzət-ziddi səfehlik.
43-Bir-birinin eybini örtmək-ziddi bir-birində qüsur tutmaq.
44-Öz fitrətindən əməlisaleh olmaq-ziddi hiylə ilə aldatmaq.
45-Sirr saxlamaq-ziddi sirri ifşa etmək.
46-Namaza ürəkdən yanaşmaq-ziddi namaz qılmamaq.
47-Oruc tutmaq-ziddi oruc tutmamaq.
48-Həcc,Allahla əhdləşmə-ziddi əhdi pozmaq.
49-Cihad-ziddi cihaddan qaçmaq.
50-Yanında danışılan sözü sirr kimi saxlamaq-ziddi xəbərçilik.

51-Ata-anaya yaxşılıq etmək-ziddi ata-ananın üzünə qayıtmaq.
52-Doğruluq-ziddi riya.
53-Məşhur olmaq-ziddi tanınmamaq.
54-Örtünmək-ziddi açıq-saçıqlıq.
55-Təqviyyə(çəkinmə)-ziddi üzlülük.
56-İnsaf-ziddi tərəfkeşlik.
57-İnsanlara zülm etməmək-ziddi azğınlıq,təcavüzkarlıq.
58-Təmizlik-ziddi çirklilik.
59-Həya-ziddi-həyasızlıq.
60-Mülayimlik-ziddi qəddarlıq.
61-Rahat-ziddi məşəqqət.
62-Asanlıq-ziddi-çətinlik.
63-Bərəkət-ziddi-bərəkətsizlık,tükənmək.
64-Bərabər qalmaq-ziddi dayanmadan yarışmaq.
65-Hikmət-ziddi həva-həvəs.
66-Ciddilik-ziddi yüngüllük.
67-Xoşbəxtlik-ziddi bədbəxtlik.
68-Tövbə-ziddi-günah etməkdə israr.
69-Bağışlanma istəmək-ziddi boş-boşuna ümidlənmək.
70-Diqqət və mühafizə-ziddi etinasızlıq.
71-Allaha yönəlib,yalvarmaq-ziddi Allahdan üz çevirmək.
72-Çalışmaq-ziddi tənbəllik.
73-Sevinc-ziddi hüzn.
74-Qaynayıb,qarışmaq-ziddi ayrılıq.
75-Səxavətlilik-ziddi xəsislik.

Ağılın sayılan bu əsgərlərinin hamısı, ya Peyğəmbərlərdə,onun Əhli-beytində,ya da Allahın qəlbini sınayıb təmizlədiyi mömində cəm ola bilər. Lakin Əhli-Beytin dostlarına gəlincə, onlardan elə bir kəs yoxdur ki, bu əsgərlərin bir neçəsinə sahib olmasın,get-gedə təkamülə doğru yol almasın və cəhalətin əsgərlərindən təmizlənməyə çalışmasın.Allah bizi və sizi itaətinə və razılığına yetişməyə müvəffəq etsin.

Hədis-İmam Cəfər ibn Muhəmməd Sadiq (ə) buyurdu:-Allah Quran oxuyan şəxsi həddindən artıq mükafatlandırar.Yadda saxlamaq nə qədər çətin olsa belə,ona səy göstərsə,o zaman Allah ikiqat savab verər**. (SavabulƏməl,s.227)**

Bu torpağın qanını göstərdi bir gül ilə,
Əqlin nəbzini tutdu ürəyin öz əlilə.
Çox gəzdi, çox dolaşdı ayaqyalın xəyallar,
Qapısından əliboş qayıtdı nalan, naçar.

Çox vurnuxdu düşüncə, anlamadı sirrini,
Göz axtarıb tapmadı Tanrının bənzərini.
Ağıl dedi: - Aradım, ədəbsiz addım atdım,
Ədəb onun özüymüş, yenə ona qayıtdım.(N. Gəncəvi)

QORXU HAQQINDA

Açıqlama: Qorxu, insanın həyatda sevmədiyi bir şeylə qarşılaşması və bu səbəbdən də qəlbin kədərlənməsi və üzüntüyə düşməsidir. Qorxu, əslində insanı Allaha yaxınlaşdıran biliyə və əmələ çatdıran ilahi bir qüvvədir.

İnsan həyatındakı başqa hadisələr kimi qorxu da, bir elmi-hal və onun nəticəsində baş verən əməldir.Elmi-hal-yəni,insanı xoşuna gəlməyən bir hadisəyə mübtəla edən səbəbi bilməkdir ki,bu səbəb də insanın şəhvət hissinin arzularıdır. Qorxu nəticəsində baş verən əməl isə, peşmançılıq, alçalma, günah hissini göz önünə gətirib şəhvət hissini söndürməkdir. İnsan həyatındakı qorxu bir neçə mənada başa düşülür.

1.Batinimizdə olan qəzəb hissinin əməli fəaliyyətlərindən biri olan qorxu:

Yəni, nəfsi istəklərimizdən olan şəhvət hissini, hədələyərək,zövq almaqdan uzaqlaşdırmaq üçün qəzəb hissi qorxu əmələ gətirir

Necə ki, insan şirin balı zəhərli,acı bilib yemədiyi kimi qorxu da sevdiyi pis işləri, pis görmə səviyyəsinə gətirir. Şəhvət hisslərini bu qorxu atəşi ilə yandıraraq qəlbində kədər, hüzn meydana gətirər və əzalarını tərbiyə edər. Qorxu hissi alışan şəhvət hissinə uyan insanı qorxudaraq, peşmançılıq duyğularını göz önünə gətirər. Sonradan baş verə biləcək nəticələr, insanın oyanan qeyrətini qorxuya salar və aqibətinin necə olacağını düşünərək öz şəhvət istəklərini boğub,dəf edər.

2.Qorxunun bu halı günahından deyil, qorxduğu şeyin xüsusiyyətindən ola bilər. Məsələn:-Aslanın pəncəsinə düşən kimsənin duyduğu qorxu kimi. Duyduğu bu qorxu aslanın yırtıcı və parçalayıcı bir varlıq olduğunu bildiyindəndir.Sel və ya yanğın zamanı insanın duyduğu qorxu da belədir.Çünki yanğının xüsusiyyəti yandırmaq, selinki isə boğmaqdır. Gələcəkdə baş verə biləcək təhlükələrin səbəblərini bilmək qəlbin kədərlənməsinə səbəb olar. Elə bu qorxu-qəlbin yanmasıdır.

3.Əsasən Allahdan ən çox qorxanlar onu ən çox yaxşı tanıyanlardır.

Qurani-Kərimdə Uca Allah buyurur:

Fatir-28-Allahdan öz bəndələri içərisində ancaq alimlər qorxar. Onlar elm sahibləri olduqları üçün Allahın vəhdəniyyətini, heybət və

əzəmətini daha yaxşı başa düşür və Ondan daha çox qorxurlar.

Göz yaşlarının axıdılması və silinməsi qorxu sayılmaz. Həqiqi qorxu cəzaya səbəb ola biləcək şeylərdən çəkinməkdir.

-Hər kəs qorxduğu şeydən qaçar, fəqət Allahdan qorxan ona daha yaxın olar.Qorxu qəlbinə sarılan və qorxunun qalib gəldiyi kimsənin durumu da belədir. Nəfsini nəzarət edib onu hesaba çəkməsi və onunla savaşmasının qüvvəti qəlbin kədəri və atəşi arasında qorxunun məsafəsi qədərdir.

Qorxunun qüvvəti Allahın calalını, sifətlərini və fellərini tanıyıb özünün xətalarını, başına gələcək təhlükələri və çətinliklərini hiss etməsinə görədir. Allahdan qorxmaq da belədir.Allahdan qorxmaq, onun zatını və sifətini bildiyindən,onun bütün aləmi istədiyi an yox edə biləcəyini və kimsənin də buna mane ola bilməyəcəyini düşünməkdir.Öz günahlarının hamısından Allahın xəbərdar olmasını və etdiklərindən sorğulanacağını dərk etdikdən sonra isə qorxusu daha da artar.Demək olar ki, qorxu insanı pisliklərdən çəkindirər, yaxşılıqlar etməyə həvəsləndirər,bütün əzalar üzərində öz hökmünü göstərər və pisliklərdən qoruyar.Allahdan qorxmayan insan həyatda çox qorxaq olar.Bütün məxluqatdan qorxmaqdansa, bir olan Allahdan qorxmaq daha rahatdır. Çünki Allahdan qorxan üçün başqa bir qorxu yoxdur. Diz ağrısından deyil, Allah qorxusundan ağlasaq, Cəhənnəm bizi yandırmaz.

Hədis:Abdullah ibn Abbasdan qorxanların halından soruşdular.O bu soruya belə cavab verdi:-Qorxanların qəlbləri qorxu xəncəri ilə yaralanmışdır, gözləri də ağlar vəziyyətdə yaşıldır.Onlar hey deyərlər: "Ölüm bizi gözləməkdə, məzar hər an önümüzdə, Qiyamətdə toplanacağımız mütləq, yolumuzun üzərində Cəhənnəm var, Allahın hüzurunda hesab vermə məcburiyyətimiz də var.Bütün bunlar haqq ikən necə sevinə bilirik? **("Zübdətul əhadis.")**

əl-Muminun-58-62-O kəslər ki, öz Allahının heybətindən qorxarlar, öz Allahının ayələrinə iman gətirərlər,öz Allahına şərik qərar verməzlər, onların qəlbləri qorxa-qorxa verəcəkləri şeyi(ehsan və ya sədəqəni) verərkən, düşünərlər ki, görən, bu ehsan Allah yanında qəbul olacaq, ya yox.Onlar Allah tərəfinə qayıdacaqlar.Bu deyilən kəslər yaxşı işlər görməyə tələsir və başqa işlərdə önə düşərlər ki, əməllərinə görə Allah onlardan razı olsun.

Ali-İmran-175-Sizi yalnız o, Şeytan öz dostlarından, güya onların çox qüvvətli olması ilə qorxudub çəkindirə bilər.Ancaq siz onlardan qorxmayın. Məndən, Mənə qarşı olmaqdan qorxun.

Hədis: Peyğəmbərimizdən soruşdular ki:-Cəhənnəmdən xilas olma-

nın çarəsi nədir? Sevgili Peyğəmbərimiz belə buyurdu:

-Dilini mühafizə et, evində oturub işlətdiyin günahlar üçün ağla.

Yenə Peyğəmbərdən soruşdular:

-Ümmətindən Cənnətə rahat girə biləcək kimsələr varmı?

Peyğımbərimiz buyurdu:-Bəli, var! Onlar işlətdikləri günahları yada salıb, Allahdan qorxaraq, əfv diləyib ağlayan kimsələrdir. **(Səhihi Buhari.)**

Hədis:Xızırın Musaya nəsihəti.Şeyx Səduq İmam Sadiqdən "Əmali" kitabında rəvayət edir ki, Hz.Musa Hz. Xızırdan ayrılarkən üzünü tutub ona dedi ki:"Mənə bir nəsihət et! Hz.Xızırın Hz. Musaya etdiyi nəsihətlərdən bir neçəsi bunlardır:

1."Ləcacətdən(bilərəkdən haqqı qəbul etməməkdən)uzaq ol!

2.Məqsədsiz iş görmə! Səbəbsiz gülmə!

3.Öz səhvlərini yadına sal və camaatın səhvlərini üzlərinə vurma!

4.Heç kəsi günahına görə danlama!

Bilməlisən ki, Allahın ən çox istədiyi üç şeydir:

1.Mal-dövlət sahibi olanda orta səviyyədə yaşamaq.

2.Qüdrət sahibi olanda başqasının təqsirindən keçmək.

3.Allahın bəndələri ilə yaxşı rəftar etmək.

Elə bir insan yoxdur ki,dünyada başqaları ilə yaxşı rəftar etsin,ancaq Allah Qiyamətdə onunla yaxşı rəftar etməsin.Hikmətin əsası və bünövrəsi Allahdan qorxmaqdır."

ŞƏHVƏT HAQINDA

Açıqlama:-Şəhvət qüvvəsi insan həyatında ən fəal bir qüvvədir. İnsanın həyat fəaliyyəti əsasən bu qüvvə ətrafında dövr edir.Odur ki, bu qüvvə ilə bağlı olan rəzalətlər və fəzilətlər daha çoxdur. Şəhvət qüvvəsinin ən böyük rəzaləti şirrə adı ilə məşhur olan xəstəlikdir. Bu söz insanın təbiətində olan hərislik mənasında işlənir. Hərislik yeməyə, cinsi əlaqəyə, dünya malına və başqa işlərə ola bilər.Bəzi hallarda buna acgözlük deyirlər.Ümumiyyətlə, şirrə insan üçün ən böyük bəlalardan biridir.Şəhvət hissinin ifratı sönüklük və laqeydlikdir.

Qəlbin əsgərləri və düşmənləri çoxdur.İnsan vücudu bir şəhərə bənzər:-Əl və ayaqlar şəhərin sənətçiləri, şəhvət-maliyyə müdiri, qəzəb isə polis müdiridir.Şəhərin padşahı qəlb, vəziri isə ağıldır. Şəhvət hissi pozğunçu, hər şeyə düşkün və pis fikirlidir.Vəzir,yəni ağıl nə əmr verərsə, onun əksini etməyə çalışar.Daima ölkədə olan malları alıb toplamaq istər, gözü doymaz.Polis müdiri olan qəzəb isə qızğın, azğın və

hörmətsizdir. Daima yıxmaq, asmaq və yandırmaq istər.Padşah olan qəlb daima (vəzirlə)-ağılla görüşüb, onunla danışarsa,məsləhətləşərsə, yalançı və çılğın olan (maliyyə müdirinə)-şəhvət hissinə dəyər verməzsə,onu qısqanclıqdan çəkindirmək üçün (polis müdirinə) qəzəbə, onu güdməyi, cəzalandırmağı və haqsızlığına görə onu döyüb incitməyi əmr edərsə, o məmləkətdə-qəlbdə, asayiş,əmin-amanlıq olar.Əgər insan bu hissləri idarə edə bilirsə, səadət yolunu tapar, əks halda isə insan şikayətçi,qəlb də peşman olar.

Məryəm-59-Onlardan sonra namazı tərk edib, şəhvətə uyan bir nəsil gəldi. Biz onları Cəhənnəmdəki Gəyy dərəsinə atacağıq.

Hədis:Rəsulu Əkrəm buyurur:-İnsanı həlak edən üç şeydir;1-garnı 2- şəhvəti 3- dili**.("Zubdətul əhadis")**

Hədis:Peyğəmbərimiz buyurur:-Hər kəs qəb-qəb, zəb- zəb və ləb-ləb şərindən özünü saxlasa, nicat tapar. Qəb-qəb-qarın, zəb-zəb-tənasül üzvü, ləb-ləb-insanın dilidir.("Zubdətul əhadis")

Hədis: Peyğəmbərimiz buyurur:-Mənim ümmətimin Cəhənnəmə gedənlərinin çoxu öz qarınları və tənasül üzvləri cəhətindən olar. **("Zubdətul əhadis")**

Hədis:"Hədisi-Qüdsi"-Peyğəmbərimiz buyurur:-Allah-taala belə vəhy edir:-Günəş şüaları buzu tez bir zamanda əridib suya döndərdiyi kimi, yaxşı əxlaq da günah və xətaları əridib aradan aparar.

Dini hədis:-Yer üzündəki pislikləri, zülmləri, günahları və tökülən qanları görən, mənəvi saflıq içərisindəki Harut və Marut isimli iki mələk Allaha belə dedilər:

-"Bu insan oğlu nə qədər yazıq olub.Əgər Sən bizlərə fürsət versəydin, dünyaya ədaləti, sevgini, mərhəməti və ibadəti onlara öyrədərdik." Allah onlara:-"İnsandakı nəfsani duyğular və şəhvət sizdə olsaydı, daha pis olardınız,daha çox günah işlərdiniz,"-buyurdu.Harut və Marut adlı mələklər özlərinə çox güvəndiklərindən təmiz qalacaqlarına söz verdilər.Bundan sonra Rəbbul Aləmin onlara şəhvət duyğusunu verərək yer üzünə göndərir.Onlar Babil şəhərində hakimlik etməyə başlayırlar. Lakin haqq yolunda elə tələlər, imtahanlar var ki, dağları belə saman çöpü kimi göyə sovurar.

Bir gün bir gözəl qadın bir iş üçün onların yanına gəlir. Mələklər bu mükəmməl gözəlliyə elə heyran olurlar ki, az qala ağılları başlarından çıxsın.Allaha verdikləri sözü unudurlar.Lakin qadın onların arzularını yerinə yetirmək üçün bəzi şərtlər irəli sürür. Ya ərini öldürüb qatil olacaqlar, ya bütə sitayiş edəcəklər, ya da ki, şərab içəcəklər. Onlar şəhvət sərxoşluğu içərisində şərab içməyi uyğun bildilər.

Şərab içib sərxoş olan mələklərə qadın:-Bir şərtim də var,siz hər gün İsmi-Əzəm oxuyaraq göyə çıxırsınız.Onu mənə də öyrədin-deyir. Mələklər arzularına çatmaq üçün bu son şərti də qəbul edirlər.

İsmi-Əzəmi öyrənən qadın onu oxuyaraq göyə çıxır və bir daha yer üzünə dönərək kirlənmək istəmir.

Haqq-taala mələklərin dünya və ya axirət əzabından birini qəbul etmələri seçimində onları sərbəst buraxır.Harut və Marut dünya əzabını seçirlər və onlar Allahın əmri ilə Babil qapısından başıaşağı asılıdırlar.Orada Qiyamət gününədək əzab çəkəcəklər. **(Mövlanə Cəzalinin"Kimyayi Səadət"-farscadan tərcümə A.Aydın.)**

Hədis:("Hədisi-Qüdsi")-Peyğəmbərimiz buyurur:-Allah-taala belə vəhy edir: "Sirkə balı çürüdüb xarab etdiyi kimi, pis əxlaq da insanın yaxşı əməllərini xarab edər."

Pis təbiətli adam bütün ömrünü,
Behişt hurilərilə həmdəm olsa.
O,səfalı yerdə gecə-gündüz,
Cəbraildən ədəb elmi öyrənərsə.
Bu etiqaddayam ki, işin sonunda,
Ondan pislikdən başqa şey aşkar olmaz.
Əgər parlaq gövhər illərcə,
Qiymətsiz olub,torpaq üzərinə düşərsə.
İnanıram ki,onun etibar aynasına,
Torpaqdan toz qonar.
Əgər torpaqdan götürülsə,
Yenə həmin gövhərdir.
Şahların tacının zinətinə layiqdir.

QƏZƏB HAQQINDA

Açılama:-Qəzəblənmək nəfsin elə bir novüdür ki, intiqam almaq şəhvəti ifrat dərəcəyə çatır.İnsanın əsəbləri qara rəngə boyanır, zülmət əql nurunu örtüb onu zəiflədir.Qəzəbin ifratı insanı əqlin, şəriətin və siyasətin sərhədlərindən kənara atır, onlara fikir verməyə macal və vaxt qoymur.Bu anda insan ani olaraq əqldən məhrum olur. Qəzəb insan üçün böyük təhlükə yaradan bir haldır, bu halda o hər cürə cinayət törədə bilər.

Hz.Əli bu haqda buyurur:-Qəzəblənmək dəliliyin bir növüdür,çünki onun sahibi sonra peşman olur.Əgər peşman olmasa, deməli, o,

həqiqətən, dəlidir.

Təəssüf ki, bəzi insanlar qəzəblənməyi kişiliyə xas olan keyfiyyət hesab edirlər. Halbuki qəzəbləndikləri zaman etdikləri hərəkətlər yalnız uşaqlara və dəlilərə xas olan hərəkətlər olur.Bu zaman onlar qarşısındakı əşyaları vurub sındırır və əl-qol atırlar.

Peyğəmbərimiz(s.ə.s.) bu haqda belə buyurur:"Şücaətli o şəxslərdir ki, qəzəb halında özünü ələ ala bilirlər."

Bir tərəfdən də Allahın bizə bəxş etdiyi bu qəzəb qüvvəsini tamam yox etmək olmaz, çünki onun müəyyən dərəcələri insana lazımdır. Bu cür qəzəb insanda qeyrət və hümmət yaradır. Məsələn, öz daxilimizdəki şəhvət hissini idarə etmək üçün qəzəb hissindən istifadə edirik.Yəni, şəhvət hissi bir şeyi çox istədikdə (çox yenək,içmək,geyinmək, gəzmək,cinsi hərislik və.c) qəzəb hissi onu hədələyir və bu həvəsdən çəkindirir.

Qəzəbi yatırdıb və ondan xilas olmaq üçün əxlaq alimləri çoxlu vasitələr təklif edirlər:

1.Qəzəbə səbəb olan şeyi öz qəlbindən uzaqlaşdırmaq. Məsələn, təkəbbürlük xudbinlik, istehza, fəxr, zarafat, mal-dövlət və şöhrət hərisliyi kimi yaramaz hissləri özümüzdən uzaqlaşdırmaq.

2.Qəzəblənən şəxs qəzəbin bir qəbahət olduğunu və şəriətdə də pisləndiyini xatırlamalıdır.

3.Qəzəbi yatırmağın şəriətdə tərifləndiyini və savab olduğunu yada salmaq.

Peyğəmbərimiz bu haqda belə buyurur:-Hər kəs xalqdan öz qəzəbini yatırsa, Allah Qiyamət günündə əzabını ondan götürər.

Tövratda yazılıb ki, Allah-taala Musaya belə deyir:-Səni həyəcanlandıran kəsdən öz qəzəbini yatır, mən də səndən öz qəzəbimi yatırım.

4.Qəzəblənən şəxs hər dəfə qəzəbin pis nəticələrini və sonra da ondan peşman olacağını yadına salsa, öz qəzəbini söndürə bilər.

5.Qəzəblənən şəxs nəzərə almalıdır ki, bizim həyatımızda olan hadisələr Allahın məsləhəti üzrə olur və onun razılığı olmadan heç bir hadisə baş verə bilməz. Belə olduqda Allahın məsləhətinin əksinə gedib qəzəblənmək ona etiraz əlamətidir.

6.Qəzəblənən şəxs düşünməlidir ki, Allahın qüdrəti daha böyükdür, onun qəzəbi daha şiddətlidir və onun qəzəbindən xilas olmaq mümkün deyil.

7.Qəzəblənən şəxs qəzəbləndiyi zaman sifətinin eybəcər və özünün gülünc hala düşdüyünü bir lentə çəkib, sonra da özünü müşahidə etsə,

öz hərəkətlərindən, danışdığı sözlərdən çox xəcalət çəkər. Buna görə də insan qəzəblənən zaman ayaq üstə olsa, gərək otursun, oturmuşsa, gərək uzansın, soyuq su ilə dəstəmaz alsın.

əş-Şurə 36-O kəslər ki, böyük günahlardan və rəzil işlərdən çəkinərlər, birinə qəzəbləndikləri vaxt onun günahlarını bağışlarlar.

Hədis: Peyğəmbərimiz buyurur:-Allah belə buyurdu:-Öz izzət və calalıma and olsun! Məni çağıran məzlum, yəni zülmə məruz qalmış bəndəm başqa bir şəxsə zülm etmiş olduğu halda dua etsə, həmin bəndənin duasını qəbul etmərəm. **(“Hədisi-Qüdsi”)**

Hədis:İmam Sadiq buyurur-Allah-taala Peyğəmbərlərə belə vəhy etmişdi:Ey Adəm övladı! Qəzəbləndiyin zaman Məni yad et ki, Mən də qəzəbləndiyim zaman səni yad edim və səni öz qəzəbimə düçar olan şəxslərin arasında məhv etməyim. Mənim nüsrət və köməyimə razı ol! Çünki Mənim sənə kömək etməyim, sənin özünün özünə kömək etməyindən yaxşıdır**. (“Hədisi-Qüdsi”)**

Dini hekayə:Bir ustanın gözü çəp olan şagirdi var idi.Bir gün usta şagirdinə evə gedib rəfdən bir şüşəni gətirməsini istədi.Gözləri çəp olan şagird evə gedib rəfə baxdıqda, orada iki şüşə olduğunu görür. Dönüb ustasının yanına gələrək:-Usta rəfdə iki şüşə var, hansını gətirim?-deyə soruşur.Usta da:-Oğlum,o rəfdə bir şüşə var və bir şüşəni də al, gəl,-deyir.

Gözləri çəp olan şagird etiraz edib və rəfdə iki şüşənin olduğunu təkidlə bildirir. Uşağa şüşənin bir dənə olduğunu başa sala bilməyəcəyini başa düşən usta:-O zaman get şüşələrin birini yerə vurub qır, digərini isə götür gəl-deyir.

Şagird gedib şüşənin birini yerə vurub parçalayınca iki şüşənin də yox olduğunu başa düşür.

Açıqlaması:-İnsanların arzu və qəzəbləri hər şeyi çəp görmələrinə səbəb olar və onlar bu səbəbdən gerçəyi görə bilməzlər və bu xətaların özlərinə nə qədər ziyan edə biləcəyini də düşünə bilməzlər. **(Mövlanə Cəzalinin” Kimyayi Səadət”)**

DİL HAQQINDA

Söz ruhdur, can üçün böyük dərmandır,
Cantək əzizliyi bəlkə ondandır.
Söz deyən qəvvasdır, söz isə gövhər,
Bu gövhər çox çətin əmələ gələr.
Sözündə çoxluğa qoyma yer olsun,

Birin yüz olmasın, yüzün bir olsun.
Su artıb həddini aşarsa əgər
İçəni doydurmaz, mütləq qərq edər..
...Çox söyləmək sənə bəlkə asandır,
"Çox oldu" desələr, böyük nöqsandır. ("Xosrov və Şirin")

Açıqlama:-İstər böhtan,istərsə də qeybət, tənə, məsxərə, yalan və bu kimi digər rəzalətlər insanın dilinin törətdiyi afətlərdəndir. İnsanın batinində yaxşı,pis fikirləri zahirə çıxaran, üzvlərin şəriri dildir. O insanın batinindəki pisliklərı çox asan büruzə verir. Lakin onun törətdiyi nəticələr çox ağır, onları aradan qaldırmaq da çox çətin olur.Odur ki, dilin xidmətindən ehtiyatla istifadə edərək, mümkün qədər onu az işlədək.

Dilin törətdiyi fəsadlar nə qədər böyük olursa, onunla ibadət etmək, Allah yolunda və Allah rizasına danışmaq o qədər asan, savabı və əcri isə qat-qat artıqdır. Odur ki,bu cür asan yolla savab qazanmaq əvəzinə dili nəfsin ixtiyarına verib, onun vasitəsil böyük-böyük günahlar qazanıb, özümüzü axirətin şiddətli cəzasına məhkum edən bizlərin işi çox çətindir.

Dil insanın qəlbinin tərcümanıdır,onun vasitəsilə qəlbin sirləri zahirə çıxır, insan onu həm xeyrə, həm də şərə istifadə edə bilir.

əl-İsra-28-Əgər Rəbbindən dilədiyin bir mərhəməti gözləmək məqsədilə onlardan çəkinirsənsə, onlarla yumşaq danış.

Hədis: Bir gün Loğmana dedilər ki,qoyun kəs və onun ən pak, ən yaxşı yerini gətir.Sonra isə başqa bir qoyun kəsib onun da ən pis yerini gətir.Loğman qoyunları kəsib hər ikisinin ürəyini və dilini gətirdi.Ondan bu barədə soruşduqda Logman buyurdu:-Əgər pak olsalar, bu iki şeydən ən pak və yaxşı şey yoxdur.Əgər pis olsalar, bu iki şeydən ən pis şey yoxdur**. ("Zubdətul əhadis.")**

Hədis: Hz. Loğman öz oğluna buyurdu:"Əziz oğlum! Bil ki, mən dörd Peyğəmbərə xidmət etdim.Onların danışdıqları sözlərindən dörd cümlə öyrəndim. O dörd cümlə budur:

1.Namaz qıldığın hər zaman öz qəlbini qoru.

2.Hər zaman süfrə başında otursan, öz boğazını qoru.

3.Hər zaman başqasının evində olsan, gözünü qoru.

4.Hər zaman camaat içində olsan, dilini qoru.

Iki şeyi yadda saxla və iki şeyi unut.Yadında saxlayacağın iki şey

Allah və ölümdür.Yadından çıxaracağın iki şey isə sənin başqasına etdiyin yaxşılıq və başqasının da sənə etdiyi pislikdir.

Sözün də su kimi lətafəti var.
Hər sözü az demək daha xoş olar.
Bir inci saflığı varsa da suda.

Artıq içiləndə dərd verir su da.
İnci tək sözlər seç, az danış, az din.
Qoy öz sözlərinlə dünya bəzənsin.
Az sözün inci tək məvası solmaz.
Çox sözün kərpic tək qiyməti olmaz. (N.Gəncəvi "Leyli və Məcnun")

TAMAH

Açıqlama:-Təmə sözündən götürülüb və xalqın malında gözü olan mənasındadır. Bu nəfsin bir növüdür və ən pis rəzalətdir.

Peyğəmbərimiz buyurur:- Təmədan uzaq olun, o hazır fəqirlikdir. Tamahkar adam cəmiyyət içində də, xalq arasında da həmişə zəlil olur və ona alçaq nəzərlərlə baxırlar. Belə adamın xalqa olan etimadı Allaha olan etimadından çox olur. Ona görə də Allahdan ümidini kəsib, gözünü xalqın malına dikər.

Hədis: İmam Muhəmməd Baqir belə buyurur:"Əgər istəyirsiniz ki, Allah hər istədiyiniz şeyi sizə versin, xalqdan tamamilə ümidinizi kəsib, yalnız Allaha ümid edin. Allah sizin qəlbinizdəkiləri bilir və istəsə bütün istəklərinizi sizə əta edər."

Ümumiyyətlə, insanın şərafəti onun ali təbiətli olmasındadır. Öz nəfsini güdən şəxsin qarnı ac olsa da, gözü tox olub, xalqın malından təmənnası olmaz.

Hədis:"Hz. Adəm nəhy olunmus ağaca yaxınlaşan zaman, tamah onu həmin ağacın meyvələrindən yeməyə vadar etdi."

Hədis:İmam Cəfəri Sadiq buyurur:-Küfrün kökü üç şeydir:

1-Tamah, 2-Təkəbbür, 3- Həsəd.

Hədis:Həzrəti Peyğəmbərdən rəvayət olunur:-Allah-taala belə buyurmuşdur ki, mən insanların istədiyi beş hacəti beş yerdə qərar vermişəm,onlar isə ayrı yerdə axtarırlar:

1- İzzət və şərəfi Mənə itaət etməkdə qərar vermişəm,insanlar isə onu sultanların qapısında, onlara xidmət etməkdə axtarırlar.Bəs onu nə vaxt taparlar?

2- Mən elm və hikməti aclıqda qərar vermişəm, insanlar isə onu toxluqda axtarırlar. Bəs onu nə vaxt taparlar?

3- Mən rahatlığı behiştə qərar vermişəm, insanlar isə onu dünyada axtarırlar. Bəs onu nə vaxt tapacaqlar?

4- Mən sərvəti qənaətdə qərar vermişəm, insanlar isə onu var-dövlətin çoxluğunda axtarırlar.Bəs onu nə vaxt taparlar?

5-Mən öz razılığımı insanların həva-həvəsləri, nəfsin istəkləri ilə

müxalifətdə qərar vermişəm, insanlar isə onu mənim əmrlərim ilə müxalifətdə axtarırlar. Bəs onu nə vaxt taparlar**? (Hədisi Qüdsi)**

TƏKƏBBÜR

Ey tanrıdan, özündən daim qafil olan kəs,
Can qeydinə qalmaqdan saralaraq solan kəs.
"Mən-mən" deyib öyünmə, axır can da çıxandır,
Can boğaza gələndə bircə anda çıxandır.
Göylər kimi, dünyanı bürüməyə can atma,
Nə ki, sənin deyildir, sürüməyə can atma,
Dünya yıxıb gücüylə hər ərini dünyanın
Tutmaz tamah tərəzin gövhərini dünyanın. ("Sirlər Xəzinəsi")

əl-İsra-37-Yer üzündə təkəbbürlə gəzib dolanma.Çünki sən nə yeri yara bilər,nə də boyca yüksəlib dağlara çata bilərsən.

əl-Bəqərə-206-Ona Allahdan qorx dediyiniz zaman günahkarlıqla qürura qapılar. Onun üçün Cəhənnəm nə pis yataq yeridir.

əl-Mumin-60-Sizin Allahınız buyurdu ki, Mənə dua edin, Məni çağırın ki, sizin duanızı qəbul edim.Şübhəsiz ki, mənə ibadət və dua etməyərək təkəbbürlük edən kəslər tezliklə zəlil olan halda Cəhənnəmə daxil olarlar.

əd-Duxan-19-Allaha qarşı ucalıq etməyin,təkəbbürlük göstərməyin və imandan üz döndərməyin! Həqiqətən də, mən sizin üçün sehr olmayan, möcüzə olan aşkar dəlil gətirmişəm!

əl-İnfitar-6-Ey insan!Kərim olan Allaha qarşı səni nə məğrur etdi? Allah bütün nemətlərini sənə mərhəmət etdi. Bəs nə üçün şükür etmək əvəzinə müşrik oldun?

Açıqlama:-Qəzəb qüvvəsinin rəzalətlərindən biri də kibrdir. İnsan özünü başqalarından üstün tutaraq,hamını özündən aşağı görərsə, buna kibr deyilir.Nə qədər ki, bu arzusu qəlbindədir və bu niyyətini öz əməlləri ilə həyata keçirməmişdir,bu xislətə kibr deyilir.Lakin bu niyyətini zahirdə, açıq-aşkar hərəkət və davranışları ilə büruzə verərsə,buna təkəbbür deyilir.Bu da Allaha qarşı çıxmaq kimi bir günahdır və qürurlanmaq kimi bir qaranlığa girər. Öz kibrini zahirə verən şəxs işlə və ya sözlə başqalarını təhqir edir, incidir. Məsələn:-Bir yerdə,bir məclisdə oturduqları zaman gözəl söhbətlərə qulaq asmaq istəmir, kimsə bir ağıllı söz danışanda o özünü saxlaya bilməyib, onu hər vasitə ilə təhqir etməyə, alçaltmağa, başqalarının yanında o insan haqqında olmayan

söz danışıb, onu tamam əzib, hörmətsiz etməyə çalışır. Məclislərdə, yol gedəndə özünü hamıdan qabağa salır və hamının yalnız onun fikirlərinə tabe olmasını və yalnız onun sözünün qəbul olunmasını istəyir.

Kibr və təkəbbür çox böyük bir bəladır və bu haqda Quranda çoxlu ayələr nazil olmuşdur:

ən-Nəhl-23-"Həqiqətən, Allah təkəbbürlü kəsləri sevməz"."O kəslər ki, mənim bəndəliyimdən təkəbbürlük edirlər, tezliklə xar halda Cəhənnəmə daxil olarlar."

Təkəbbürlük etmək bəzən qatı cəhalətdən irəli gəlir, belə adam o qədər nadan olur ki, elmdən və digər biliklərdən xəbəri olmadığı kimi, öz nadanlığından da xəbəri olmaz.Təkəbbürlüyün digər səbəbi tuğyandır. Necə ki, İblis, Firon, Nəmrud kimi azğınlar bütün arzularına nail olduqdan sonra tüğyan edirlər və özlərini Allah sayaraq, insanları özlərinə səcdə etdirməyə çalışırlar.

Allah-taala insan oğluna cürbəcür nemətlər vermişdir.İnsan bu nemətlərin həqiqi sahibini unutduğu zaman qəflətə düşər; mal və sərvətin, güc və qüvvətin özünə aid olduğunu hesab edib, böyüklük etməyə başlar.Hava verilmiş balon kimi mənlik duyğusu qabarar, artıq özündən başqa bir kimsənin nə fikrini,nə də ki etdiklərini bəyənər.Əsil həqiqəti belə olsa,onu başqasının ağzından eşitməyi qəbul etməz. Özünü ağılda dahi, qüvvətdə rüstəm və sərvətdə üstün görər.Nəticə etibarilə bu duyğu insanı inkar fırtınasına batırar və özünü öz nəfsinə tabe edər. İblis də təkəbbürlüyü üzündən, özünün atəşdən. Adəmin isə torpaqdan yaranmasını müqayisə edərək Allaha qarşı çıxmışdı.İndi də öz adlarını özgələrə qoyaraq, yəni abır-həya gözləyərək yaşayan insanlara,yaman təkəbbürlüdür-deyərək,insanların gözlərinə külü üfürüb,özlərinin daha düzgün olduqlarını məharətlə sübut edirlər.

Əlbəttə, böyüklük və əzəmət yalnız Allaha məxsusdur, biz insanlar da onun yaratdığı ən gözəl sənət əsəriyik.Kim özündə böyüklük görər və təkəbbürlük edərsə Allah onu zəlil edər. Şərəf və etibarı böyüklükdə arayanlar onu heç bir zaman tapmazlar.

əs-Sad-75-Allah buyurdu:-Ey İblis! Sənə mənim öz əlimlə yaratdığıma səcdə etməyə nə mane oldu? Təkəbbürlük etdin, yoxsa özünü yuxarı tutdun?

əl-Bəqərə-34-Biz mələklərə Adəmə səcdə edin dedikdə, İblisdən başqa hamı səcdə etdi. O lovğalanaraq imtina etdi və kafirlərdən oldu.

Deməli bu təkəbbürlükdür; yəni özünü hamıdan üstün bilmək və heç kəsi bəyənməmək.Bu da paxıllıqdan, yəni qəzəb hissindən doğan rəzalətdir.

Dini hekayə:Özünü bəyənmiş bir xarici dili bilən adam, gəmi ilə səyahət edirdi.Yolda gəmiçidən soruşdu:-Hansısa bir xarici dili bilirsənmi?

-Xeyr, bilmirəm,- deyə gəmiçi cavab verir.

Adam:-Ömrünün yarısı boş keçmiş,-deyə cavab verir.

Gəmiçi dil bilgili adamın davranışından narahat olur,lakin səsini çıxarmır.Bir müddət sonra dənizdə fırtına qopur.Külək gəmini dalğaların üzərindən bir çuxura doğru sürükləyirdi.Dalğalarla boğuşan gəmiçinin gözü adama sataşır və uca səslə soruşur:

-Müəllim, üzmək bilirsinizmi?

Dil alimi qorxu içərisində büzüldüyü yerdən cavab verir:-Xoş sözlü, gözəl gəmiçi, bilmirəm. Gəmiçi:

-Yazıq, ömrünün tamamı getdi.Gəmi bu çuxurdan qurtara bilməz, batar,-deyərək dil aliminə gözəl dərs verir.

Açıqlaması:-Bir az bildiyi elminə məğrur olan kimsəni adam yerinə qoymayan, qafillərdir. Dini elmlərə yiyələnməyən alimlər bu dünyada bir az işə yarasalar da, həyat gəmiləri ölüm girdabına girincə, o bilgilərin bir işə yaramadığını anlarlar. **(Mövlanə Cəzalinin" Kimyayi Səadət"-tərcümə A.Aydın.)**

Hədis:Hz.Əli buyurur:-Üc şey təvazökarlıq əlamətidir. Öz fəxrini kənara qoy, böyüklüyünü, kibrini, başıaşağı et və qəbrini yada sal.

TAĞUT HAQQINDA

Ey məğrurlar ağası,qüruru tərk et, bir an!
Səndən yaxşılıq görsün,feyz alsın bütün cahan.
Xəstəyə vermə zəhmət,dinclik verən ol, ancaq.
Nə olar ağalıqdan bir saatlıq ol uzaq.

Açıqlama:-Tağut-tüğyan sözündəndir-haqqı aşmaq deməkdir. Tağut-Allaha qarşı üsyan etmək, yalnız öz mənafeyini,öz üstünlüyünü fikirləşərək, hamını yalnız özünə tabe etməyə məcbur edən şəxsə, həddi aşan məxluqa deyilir. Bu insanlar öz beyinlərində tutduqları məqsədə çatmaq üçün bütün qeyri-insani üsullardan istifadə etməyə, hətta bütün şəriət və etik qaydaları aşmağa qadir olan insanlardır.Bir sözlə, Allahlıq iddiası ilə yaşayan insanlara deyilir. Bu da şəhvət hissinin rəzalətlərindəndir.

Tağut sözü Quranda 8 yerdə buyurulmuşdur.

əl-Ənkəbut-40-Qarunu, Fironu və Hamanı yadına sal! Musa onların

yanına Allahın möcüzələrilə gəldi.Lakin onlar yer üzündə təkəbbürlük etdilər,iman gətirmədilər və xilas olmaq üçün qaça bilmədilər.

ər-Rum-42-Ya Muhəmməd! De ki, Yer üzünü seyr edərək baxıb görün sizdən əvvəl olanların aqibəti necə oldu? Onların etdikləri əməllərə görə onları həlak etdik və şəhərlərini xarabazara çevirdik. Onların çoxu Allaha şərik qərar verənlərdən idilər.

ən-Həml-65-"Göylərdə və yerdə qeybi Allahdan başqa heç kəs bilməz."

Deməli, hər şeyi bilən yalnız Allahdır. Ancaq insanın hər şey bildiyini iddia etməsi Tağutdur. Kiminsə öz istəyi ilə ona Allah kimi ibadət etməsindən məmnun olaraq qürurlanan şəxs Tağutdur. İnsanları hər bir hiylə ilə özünə cəlb edərək,özünə ibadət etməyə çağıran kimsə də, Tağutdur. Qeybi bildiyini iddia edərək, insanları özünə cəlb edərək, qürurlanan şəxs Tağutdur.

Dini hekayə: Zalımın biri illərcə bir yoxsula qan qusdururmuş. Onu hər şeydən yoxsul etmişdi.Ocağı sönmüş, övladları isə peşman bir hala düşmüşdü.Bu zülm belə sürüb gedərkən, canı boğazına gələn zavallı məzlum bir gün zalıma belə söylədi:-Ey zalım!Sən zülmünü davam elədin. Fəqət bunu bil ki, mənə qarşı etdiyin haqsızlıqların cəzasını dörd yerdə mütləq çəkəcəksən.

Ölüm hamımızı alıb götürəcəkdir.Qəbir hamımızı içinə göməcəkdir. Qiyamət haqq-hesabında hamımız bir arada toplaşacağıq və səndən qulhaqqı barədə soruşacaqlar.O zaman ən böyük cəza verici Allah aramızda haqlı ilə haqsızı ayırd edib,ən doğru hökmü verəcəkdir**.(Mövlanə Cəzalinin)**

Qarışqaya belə zülm edən nəfər,
Zülmünə ilandan bir əvəz görər.
Yol keçirdim, gördüm balaca bir quş,
Qarışqa ovuyçun pusquya durmuş.
Ovunu boğazdan keçirməmişkən.
Ayrı quş ovladı özünü birdən.
Belə görəcəksən pislik etdinsə,
Əvəz verəcəkdir dünya hər kəsə.
Ədalət aynası –böyük asiman.
Səndən gördüyünü əks edər hər an.
Bəlli bir şeydir ki, pislik edənlər,
Öz işindən özü çəkəcək zərər.

Eşitməmişsənmi bu məşhur sözü:-
“Hər kim quyu qazsa, düşəcək özü”. (“Xosrov və Şirin”)

HƏSƏD HAQQINDA

Könül verəm kimsəyə, bir azca ağıllı ol,
Öz yükün sənə bəsdir, onsuz da çətindi yol.
Nə vaxtacan əl atıb özgə budağına sən,
- Dövlətim kaş bir az da çox olsun! - deyəcəksən?
Tutalım, qamarlayıb, aləmi tutdun da sən,
Gedəndə ki, əl çəkib, əliboş gedəcəksən!
Nəfs vurub dağıdır hər cür qayda-qanunu,
Qoy qənaət qılıncı vursun nəfsin boynunu.
Bu firuzə qübbə ki, fövqünə çatmır xəyal,
Sənin üçün genişdir, idrak üçün darısqal.
Ya heç fikirləşmədən keçir dünyanı ələ,
Ya nəfsinlə aləmi öz başına dar elə.
Heyhat, bir könül əhli, uca, ulu qalmadı,
Cahanda mərifətli Adəm oğlu qalmadı.
Bizim doqquz katibin bir cüt hünərnaməsi,
Nişan verə bilmədi məna dolu bir əksi.
Məslək düşmənlərindən dostluq umma sən əbəs,
İlanlar zəhər verər, dirilik suyu verməz.
Məna yolunda yürü, bilik başın tacıdır,
Bil ki, qanan bir düşmən qanmaz dostdan yaxşıdır.
(”Sirlər xəzinəsi.”)

Açıqlama: İnsanların dininə, dünya və axirətlərinə,əxlaqına və sağlamlığına zərər verən, günahlara sürükləyən xüsusiyyətlərindən biri də həsəddir. Həsəd Allahın bəndələrinə ehsan etdiyi nemətlərə qısqanclıq duymaqdır. Həsəd Allahın təqdirinə qarşı mübahisə və etiraz etmək mənasına gəlir.

Bir şəxsin sahib, həm də ona layiq olduğu bir nemətin onun əlindən getməsini arzu etmək həsəd və ya paxıllıq adlanır. Lakin o şəxsin əlindən onların getməsini istəməyib özü üçün də bunları arzu etməyə qibtə deyilir. Həsəd haram, qibtə isə mübahdır.

Paxıllıq rəzalətlərin ən pisi və xəbisidir. Doğrudan da paxıl olan insan hər kəsdə nə nemət görürsə, ondan narahat olur; Allahın nemətləri isə nəhayətsizdir. Odur ki, bu nemətlər həmişə onu qısqandırıb, acıqlandı-

rır. Bir dəstə insanların mehribanlığı və ya kimlərinsə xoş münasibətləri onu dəhşətə gətirir, onların mehribanlığını alt-üst etmək üçün min-bir hiylələrdən istifadə edir.Allahın verdiyi müəyyən ömür müddətini puç edərək, bütün fikirlərini yalnız onun-bunun həyatını izləyib, araşdırmaqla keçirir. Paxıllıq etdiyi şəxsin haqqında nə qədər pis düşünüb, danışırsa, həmin adamın o qədər də günah və əzablarını öz üstünə götürür.Paxıl insan gecə-gündüz özgələr haqda düşünməklə öz sağlamlığına zərər vuraraq ömrünü qısaldır.Bu işdən o özü bu dünyada əziyyət və zillət çəkir, əbədi dünyada isə o, insanların günahları da çiynində Cəhənnəmə vasil olacaqdır.

Hikmət alimləri müəyyən edirlər ki, pis işə razı olan şəxs şər adamdır, hətta əgər öz düşməninə də pislik yetişməkdən razı qalarsa, ona şər adam, ya da şərir deyilir.Yer üzündə uzun ömür sürən bir şəxsdən üzünömürlü olmasının səbəbini soruşmuşlar:"Həsədi buraxdım, ona görə də bu qədər yaşadım,"-deyə cavab vermişdi. Həsəd yalnız maddi dünyaya təsir etməklə yanaşı insanın ruhunu da pərişan edir. Etdiyi yaxşılıqların savabını da məhv edir.

Bu haqda Peygəmbərimiz(s.ə.s.) belə bir hədis buyurmuşdur:-Həsəddən çəkinin. Zira həsəd atəşin odunu yediyi kimi yaxşılıqların əcrini yeyib tükədər. **(Zubdətul əhadis.)**

Həsəd bir çox günahlara da səbəb olan fəlakətdir. Belə insanlar məzlum rolunda zalımlardır.Paxıllıq barədə Quranda çoxlu ayələr və Peyğəmbərimizdən çoxlu hədislər vardır:

-"Bir-birinizə paxıllıq etməyin, əlaqəni kəsməyin, düşmənçilik etməyin; Ey Allah bəndələri qardaş olun."

-"Dinin afəti(düşməni) paxıllıq,şöhrətpərəstlik və bir də fəxrdir.

-Mömin şəxs qibtə edər, paxıllıq etməz."

Allah kainatın xaliqi və yeganə Rəbbidir.İstədiyi neməti istədiyi kimsəyə verər və istədiyi zaman da almağa sahibdir. İstəmədiyi kəsə nemət verməyə məcbur deyildir ki, vermədiyi zaman haqsızlıq və ədalətsizlik olsun.Onun verməsi lütf, verməməsi də hikmətdir. Bəndə bunları ibrətlə seyr edib Allahın təqdirinə təslim olmalıdır. Belə olan halda həsəd edən şəxs Allahın bəndələrinə lütf və ehsan etdiyi nemətlərinə qısqanclıq edib:-Nə üçün məndə bundan yoxdur, lakin onda var-deyə həsəd aparmaz.

Həsəd elə bir xəstəlikdir ki, ona tutulan kimsənin nə gecə yuxusu,nə də ki, gündüz rahatlığı var. Nəfsin alışdırdığı qısqanclıq atəşi onu davamlı surətdə daxildən yandırıb, qaraldır. Həsəd kimi nifrət edici bir sifət, dünyada nə qədər cinayətlər törətmiş, nə qədər nahaq qanlar tök-

müş və nə qədər evlər dağıtmışdır. Həsəd-təkcə ictimai nizam-intizamı qarışdırmır, həsəd dünyadakı insanları bir- birinə düşmən edir. Qəzəb hissi həsəd edən insanları da bir dəqiqə rahat buraxmır və onların yaşayışlarını qara və acı edir. Həsəd hissindən qovrularaq, gecə-gündüz intiqam almaq üçün plan və tədbirlər düşünür. Bütün həyat sərmayəsini boş-boşuna yandıraraq külünü göylərə sovurur.

Buna ən böyük misal:-Hz. Adəmin iki oğlundan biri Qabil həsəd üzündən qardaşı Habili qətlə yetirdi.

əl-Fələq -5-Paxılın həsəd çəkən zaman şərindən və zərərindən Allaha pənah aparıram.

Hikmət:Sədi Şirazinin"Gülüstan"əsərindən: Paxıl, Allahın başqasına verdiyi nemətindən paxıllıq edər və günahsız adamlardan da zəhləsi gedər.

Kütbeyin bir kişi gördüm ki, varlı,
Bir şəxsin dalınca hey qeybət edir.
Dedim ki, ay xacə, sən bədbəxt isən,
Xoşbəxt bir adamın günahı nədir?
Paxıla istəmə bəla, o yazıq,
Olmuşdur əbədi bəlaya düçar.
Nə lazım olsan paxılla düşmən,
Onun paxıllıqtək öz düşməni var.

Hədis:Şeyx Səduqdan.Musa ibn Cəfərdən rəvayət edir.Əbu Əbdullah (ə.s.) belə buyurur:-Ey İmranın oğlu! Allah buyurur:-Mənim insanlara bəxş etdiyim fəzilətlərə görə onlara həsəd aparma. Gözlərini onların üstünə dikmə, yəni"nə üçün onlar bu nemətlərə sahib olmalıdırlar, amma mən olmamalıyam?"-demə. Həsədin dalınca getmə, çünki həsəd aparan şəxs nemətlərim qarşısında qəzəblənmişdir. O, mənim bəndələrimin qismətlərinin ziddinədir. Hər kəs belə olsa, Mən ondan deyiləm, o da Məndən deyil. Mənim dərgahımdan qovulmuşdur.**(Hədisi Qudsi.)**

Razi ol cahanda öz qismətindən,
Özgənin haqqını çeynəmə gəl sən.
Bir də ayağını öz yorğanından,
Artıq uzadanlar bədbəxtdir inan.
Bir quş ki, həddindən artıq ucalar,
Özünü fəlakət yoluna salar.
İlan düz getməsə yoluyla əgər,
Özünə sarılıb,dolaşıq düşər.
Silaha sarılsa bir zahid axmaq.

Onun qazandığı sillə olacaq.
Aslanla döyüşə çıxsa tülkülər,
Bilinər kimdədir qılıncla hünər. ("Leyli və Məcnun")

QEYBƏT HAQQINDA

Açıqlama:-Qeybət odur ki, başqa adamın haqqında elə söz deyilsin ki, əgər o adam bu sözü eşitsə, ondan xoşu gəlməz. Qeybət elə bir rəzalətdir ki, çox vaxt qəzəb, kin, həsəd və ədavət nəticəsində ortaya çıxar. Qeybət qəzəb qüvvəsinin rəzaləti hesab olunur.

Bir nəfər Peyğəmbər(s.ə.s.)dən soruşdu ki, əgər bir şəxsin mövcud olan nöqsanı barəsində deyilsə, o da qeybət sayılırmı? O Cənab buyurdu:"Bəli. Bir şəxs həqiqətən mövcud olan nöqsanları demək qeybət sayılır. Əgər onda olmayan bir şeyi ona nöqsan tutsan, ona qeybət yox, böhtan deyərlər."

Qeybət həmişə sözlə deyil, işarə və rəmzlə də ola bilər. Qeybət böyük günahlardan biridir.

Bu haqda Quranda belə buyurulur:"Biriniz digərinin qeybətini etməyin, qeybət zinadan pisdir. Heç mömin qardaşınızın ölmüş ətini yemək istərsinizmi? Siz bunu xoşlamazsınız, onun sözünü də danışmağı xoşlamayın.Allahdan qorxun!"

Bu ayədə Allah qeybətin nə dərəcədə iyrənc olduğunu bildirmək üçün qeybət etməyi bu cür təsvir edir. Əgər insan özü bir az dərindən düşünsə, qeybətin pis əməl olduğunu başa düşər. Axı qeybət edən adam başqalarının bədənində, xasiyyətində və ya əməllərində olan eyibləri görə bilirsə, özündəki nöqsanları bəs niyə görə bilmir? Məgər bu adamın özündə heç bir nöqsan yoxdur? Axı bütün insanların özlərinə görə qəbahət və nöqsanları vardır. Əgər qeybət edən adam başqalarının xilqətində olan eyibləri deyib ona irad tutursa, belə adam Xaliqə, yaradana irad tutmuş olur.

Qeybət etməkdən qurtarmaq üçün Allahın buyurduğu əmrləri yerinə yetirməklə bərabər, özgələrin ayıbları haqqında deyil, özümüzün qüsur və ayıbları haqqında düşünmək daha düzgündür. Qeybət etdikdən sonra peşman olub, tövbə etsə, Allahın haqqını vermiş olur,ancaq qeybət etdiyi adamın haqqından azad olmur. Əgər qeybət etdiyi adam ölübsə, onun üçün ehsan, sədəqə versin, Quran və dua oxusun ki, bəlkə o qeybətə müqabil ola bilsin.Əgər o adam sağdırsa, ondan halallıq alsın. Ancaq əgər o bu qeybətdən xəbərdar olanda, ədavət və fitnə qalxacaqsa, bu barədə ona xəbər verməyib onun üçün dua və istiğfar etsin, onun könlünü almaq üçün onu xoşlandıran işlər görsün, hədiyyələr vasitəsi ilə

mehribanlıq münasibəti göstərsin. O dərəcəyə qədər ki, etdiyi qeybətinə müqabil olduğuna və bu günahı yuyub apardığına əmin olsun.

Qeybət haqqında Qurani-Kərimdə buyurulur:

əl-Qələm-11-13-Qeybət edənə, söz gəzdirənə itaət etmə! O, insanlar arasında fitnə-fəsad salar.O, xeyirli işə çox mane olandır, xeyirin özgə bir şəxsə yetişməsini istəməz, həddini aşan və günahkardır. O, xeyirsiz və günahkar olandan sonra bədxasiyyət və haramzadədir.

əl-Huməzə-1-Vay olsun o şəxslərə ki,qeybət edərlər, sözu adamın dalınca deyər və üzdə tənə vurar.

"Huməzə"istər dil ilə, istərsə də göz-qaş ilə bir şəxsin ardınca deyilən sözə deyilir. Amma "Luməzə"eyib tutmaq, məsələn kar, kor və bütün eyibli sözlər ilə çağırmaq-deməkdir.

əl-Hucurat-11-12-Ey möminlər! Sizdən bir qövm başqa bir qövmə rişxənd etməsin!Ola bilsin ki,onlar sizdən daha yaxşı olsunlar.Bir qadın da digər bir qadına iztehza etməsin ki, istehza olunan ondan daha yaxşı ola bilər və özünüzə eyib tutmayın. Pis ləqəblər ilə birbirinizi çağırmayın. İmandan sonra fasiqlik pis addır, yəni möminə kafir demək və ya istehza etmək çox pis işdir. Güman və zəndən çəkinin! Həqiqətən, bəzi gümanlar günahdır. Möminlərin dalınca axtarış etməyin. Biriniz digərinin qeybətini etməyin! Qeybət zinadan pisdir. Sizdən biriniz ölmüş qardaşının ətini yeməyə razı olarmı? Bu sizdə ikrah hissi oyadar,qeybət də belədir, Allahdan qorxun.Həqiqətən, Allah tövbəni çox qəbul edəndir və rəhm edəndir.

əl-Mutəffifin-30-36-Möminlər onların yanından keçən zaman, kafirlər gözləri ilə onlara işarə edib,eyib tutarlar. Kafirlər öz adamlarının yanına qayıdanda şadlıqla qayıdarlar. Möminləri görəndə isə deyərlər ki, siz haqq yoldan azıb, Muhəmmədə aldanıbsınız. Kafirlər möminlərə nəzarətçi göndərilməyiblər ki, onların işlərinin həqiqətinə yetişsinlər. Əgər öz işləri ilə məşğul olsaydılar, daha yaxşı olardı. Bu gün, Qiyamət günündə isə möminlər kafirlərin halına gülərlər. Möminlər taxtlarda oturub kafırlərin əzabına baxarlar və deyərlər:-Kafirlər öz əməllərinin cəzasını aldılarmı?

Hədis: Peyğəmbərimiz(s.ə.s.) buyurur ki:-Müsəlmanın qanı, malını, namusu və abrını, şərəfini tökmək müsəlmana haramdır**. ("Zubdətul Əhadis.")**

Hədis: Peyğəmbərim belə buyurur:-Qeybət zinadan da pisdir, çünki zina edən şəxs tövbə etsə, Allah onun günahından keçib bağışlayar. Lakin qeybət edən şəxsi onun sahibi bağışlamasa, onu Allah da bağışlamaz. **("Zubdətul Əhadis.")**

Hədis: Peyğəmbərimiz (s.ə.s.) buyurur:-Hər kəs müsəlman kişinin və ya müsəlman qadının qeybətini eləsə, onlar bu qeybət edən adamı bağışlamayanacan, onun orucu və namazı qırx gün qəbul olunmaz. **("Zubdətul əhadis.")**

Hədis:Peyğəmbərimiz (s.ə.s.) buyurur:-Qeybət edilən bir məclisdə din xaraba qalar. Onda qeybət eşitməkdən öz qulaqlarınızı saxlayın, çünki qeybətə qulaq asan adam qeybət edən kəslə həmin qeybətə şərikdir. **("Zubdətul Əhadis.")**

Hədis: Muhəqqiq Şeyx Şəhid buyurur:-Qeybətin iki növü vardır. Fəqihlər arasında ən məşhur olan qeybətin birinci növü budur: -Qeybət, bir insan haqqında onun olmadığı bir yerdə onun xoşu gəlməyəcəyi şeylər söyləmək,qınamaq və pisləmək məqsədi ilə onu xalq arasında xoş qarşılanmayacaq şeylərlə hallandırmaqdır.

İkinci növün müxtəsər məzmunu isə belədir: Qeybət, nisbət verilməsi xoşa gəlməyəcək xatırlamaqdır**.("Hədisi Qüdsi")**

Hədis: Peyğəmbərimiz buyurur:"Hər kəs öz üzündən həya pərdəsini atmış olsa, onun üçün qeybət yoxdur."Başqa bir hədisdə "Fasiq üçün qeybət yoxdur".Yəni günah və haram işlərlə aşkara məşğul olan adam üçün qeybət etmək haram deyil, çünki onlar etdikləri bütün əməllər üçün nə Allahdan, nə də Cəhənnəm əzabından qorxurlar. **("Hədisi Qüdsi")**

Hədis: Səkuni deyir:- İmam Sadiq Hz.Peyğəmbərin belə buyurduğunu söylədi:-Qeybət müsəlman şəxsin dininə, yeməyin mədəyə etdiyi təsirdən daha tez təsir gösrərir. Rəsuli-Əkrəm davam edərək belə buyurdu:-Namazı gözləmək üçün məsciddə oturmaq başqa bir nəticə doğurmadığı halda ibadətdir. Sual verdilər ki:-Ya Rəsulallah! Hansı nəticəni doğurmadığı halda? Peyğəmbər buyurdu:-Qeybəti! **("Üsuli-kafi" c.2. səh:201.)**

Dini hekayə:-Dörd hindli müsəlman namaz qılmaq üçün məscidə gəlib namaza başlayırlar. Bu zaman azançı içəri girir, namaz qılan hindlilərdən biri namazda olduğunu unudaraq azançıya səslənir:

-Müəzzin, azan oxudunmu?Yoxsa, namazın vaxtı hələ gəlməyib? -deyə soruşur.Yanındaki hindli:-Qardaşım, namaz qılarkən danışmaq namazı pozar,-deyir. Digər Hindli:-Lakin, sən ona xəbərdarlıq edərkən, sənin də namazın pozuldu,-deyər. Dördüncü Hindli:-Allaha şükürlər olsun ki, sizin düşdüyünüz xətaya mən düşmədim. Danışaraq namazımı pozmadım,-deyər.

Bu şəkildə dörd Hindli müsəlmanın namazı pozulmuş oldu.

Açıqlaması:-Nəfsani fikirlərini tərk etməyən, pis əxlaq sahibləri mənən xəstədirlər.Xəstəliyi müalicə etmək üçün səy göstərilməlidir. Öz

ayıbını və qüsurlarını görmək, mənəvi xəstəliyin əlacıdır. Başqasının ayıbını görmək, o ayıbı satın almaqdır. Öz qüsur və ayıbları ilə məşğul olanlar çox xoşbəxtdirlər. **(Mövlanə Cəzalinin" Kimyayi Səadət"-tərcümə.)**

Hədis:-Peyğəmbər(s.ə.s.) buyurur:-Həqiqi mömini sizə tanıdımmı? Mömin o kəsdir ki, sair möminlər onu öz mallarına və canlarına əmanətdar bilsinlər. Müsəlmanın kim olduğunu deyimmi? Müsəlman o şəxsdir ki, bütün müsəlmanlar onun dilindən, əlindən amanda qalsınlar. Mömin o şəxsdir ki,pisliklərdən əl çəkib, Allahın haram buyurduqlarını tərk etsin. Mömin şəxsə haramdır ki, başqa möminə zülm etsin,ya onu xar etsin,yaxud arxasınca qeybət etsin, və yaxud da onu öz yanından qovsun. **("Usuli-Kafi "2 s.235.)**

Yaxşı insan qalmayıb, şər şərə yaraşıbdır,
Dünya bal süfrəsidir, arılar daraşıbdır.
Dövrə bax ki, alçalıb zülmdən, şərdən bəşər,
Azğınlığın əlindən qaçır bəşərdən bəşər.
İnsanda nə ləyaqət, nə mərdlik qalıb indi,
İnsandan insanlığı namərdlik alıb indi.
Çoxdan yoxa çıxıbdı ədalətli Süleyman,
Haqsızlıqdan görünməz pəriyə dönüb insan. ("Sirlər xəzinəsi")

PIÇILDAŞMAQ HAQQINDA

əl-Mücadilə-8-9-Pıçıltı ilə danışanların yenə də pıçıldamaqlarını görmədinmi? Bu qadağan olunan işi yenə də görməyə başladılar. Yenə də günaha batıb, Peyğəmbər ilə düşmənçilik etmək və sözündən çıxmaq üçün pıçıldaşırlar. Ey iman gətirənlər,əgər bir-birinizlə pıçıldaşırsınızsa da, günah, düşmənçilik və Peyğəmbərin sözündən çıxmaq haqqında pıçıldaşmayın. Hamını hüzurunda toplayacağı gündən-Allahdan qorxun.

Hud-5-Xəbərdar ol!Onlar-münafiqlər sinələrini aşağı edərlər, xəlvət danışmaq üçün sinələrini bir-birinə yapışdırarlar ki, sözlərini Allahdan gizli saxlasınlar.Allah onların gizli və aşkar əməllərini bilir.Həqiqətən, Allah sinə sahiblərindən xəbərdardır.

Dini həkayə:Torpaq yeməyə vərdiş olan adam şəkər almağa dükana gedir. Satıcı hiyləgərin biri idi.Tərəzidə istifadə etdiyi ağırlıqlar daşdan deyil, torpaqdan idi.Adam:-Şəkər almaq istəyirəm, -deyir.

Dükan sahibi tərəzinin bir gözünə torpaq qoyur, o biri gözünə şəkəri

qoymaq üçün şəkər çuvalının yanına gedir ki, şəkəri doğrayıb gətirsin. Bu arada adam dayana bilməyərək tərəzidəki torpaqdan bir parça qoparıb yeyir və çox xoşuna gəlir.Dükançı görməsin deyə torpaqdan parça-parça qopararaq yeməyə başlayır.

Dükançı isə onu çoxdan görmüşdü və özünü o yerə qoymurdu. Öz-özünə düşünürdü:-Ye, bir az da çox ye, axmaq adam.Sən yedikcə qazanan mənəm. Bir azdan sonra şəkəri çəkib əlinə verdikdə, kimin kimi aldatdığını daha yaxşı anlayacaqsan.

Açıqlaması:-Söz zinasından xoşlanırsan, amma həqiqətdə, özündən qopardığın əti qənimət bilib yemiş olursan.Çünki səni Cəhənnəmə sürükləyən bu əməlin Haram baxış insanın səbrini azaldır və daha çoxuna, betərinə yönəldir**.(Mövlanə Cəzalinin" Kimyayi Səadət")**

Əqrəb qədər qorxulu deyil hər an əjdaha?
Əqrəb səni öldürər udanacan əjdaha.
Kiçik düşmən - ən böyük, ən vəhşətli bəladır.
Onu saya salmamaq ən dəhşətli bəladır.
Düşmən kiçik olsa da, can atandır qisasa.
Arifsənsə, unutma, əl qatandır qisasa. ("Sirlər xəzinəsi")

EYİBLƏNMƏK HAQQINDA

Açıqlama:-Şəhvət qüvvəsinin rəzalətlərindən biri də eyiblənməkdir, yəni başqasının eybini axtarmaq, onlarda olan nalayiq işləri və sifətləri aşkara çıxarmaq deməkdir. Bu rəzalət, adətən, ədavət, həsəd, paxıllıq nəticəsində olur. Çox vaxt isə nəfsin xəbisliyindən meydana çıxır. Necə ki, şair deyir:

"Xoş nəzər heç bir eybi görməz,
Lakin bəd nəzər pislikləri aşkara çıxarar."

Qurani-Kərimdə və Peyğəmbər(s.ə.s.) tərəfindən buyurulan hədislərdə eyibçilik, xalqın eyiblərinə göz qoymaq, onları axtarıb tapmaq şiddətlə məzəmmət edilmişdir.Allah-taala tərəfindən Qurani-Kərimdə bu haqda bir çox ayələr buyurulmuşdur:"Bir-birinizin ayıblarını axtarmayın."

Başqa bir ayədə:"O kəslər ki, möminlərin nalayiq əməllərini aşkar etməyi xoşlayırlar, onlar üçün dərdli əzab vardır."

Hədis: Peyğəmbərimiz (s.ə.s.) buyurur:-Hər kəs başqalarının nalayiq əməllərini aşkara çıxarıb yaysa, o əməlləri özü etmiş olar.Hər kəs başqa

bir kəsin eyibini zahirə çıxarsa, ona irad edib tənə vursa, özü o eybə mübtəla olmayınca ölməz**.(Hədisi Qudsi**)

Hədis: Bir gün Peyğəmbərimiz məscidə gəlib minbərə qalxdı və uca səslə buyurdu:"Ey dilində müsəlman olub, qəlbində müsəlman olmayanlar, müsəlmanların eyiblərini axtarmayın; hər kəs müsəlmanların eyiblərini axtarıb aşkara çıxarsa, Allah da onun eyiblərini zahirə çıxarıb, onu rüsvay edər.Ən rəzil adam o kəsdir ki, özü cürbəcür eyiblərə aludə olduğu halda, başqalarının eyiblərini deyib onlara irad tuturlar. Bu həmin adamın batini aləminin murdar və xəbis olmasını göstərir**."(Usuli Kafi)**

Əlbəttə,bu bir həqiqətdir ki, eyibləri daha çox olan yəni, xislətində şeytanın tüğyan etdiyi və əzalarında qəbahət və günahların aşıb-daşdığı kimsələr onun-bunun haqqında daha çox qeybət edərlər ki, öz eyiblərini ört-basdır edib, başqalarının gözlərinə kül üfürsünlər.Həm də öz-özlərinə haqq qazandırıb,yəni"məndən də betərləri var"düşünərək təskinlik tapsınlar. Beləliklə bu dünyada yaşamağın mənasını yalnız onun-bunun həyatını izləyib, araşdırmaqda görərlər.

İslam dininin irfan elmi(insan psixalogiyası) və təşhis (insan anatomoyası) elminin alimləri, çox mürəkkəb məxluq olan insanın zahiri və batini hisslərini təhlil edərkən məlum olmuşdur ki,qəlbində Allah qorxusu və məhəbbəti olan bir kimsə, həm günahlar etməkdən, həm də özgələrin günahlarını dilə belə gətirməkdən, Cəhənnəm odundan qorxduğu kimi qorxar.O qorxunun şiddətindən kiminsə haqqında pis fikirləşməkdən belə çəkinər. Həyatda istər-istəməz kiminsə haqqında görüb-eşitdiklərini beyninin xəyal qüvvəsi(vahimə hissi) adlanan qismində bərk-bərk basdıraraq, nəfsi-ləvvamə ilə üstünü örtər.Çünki, o kimliyini dərk etmiş, Qiyamət günü dirilərək, Məhşərdə hamının ayıblarının bir-birinin yanında açılacağına, bütün ayıb və günahların üzə çıxaraq hamıya məlum olacağına və hər kəsin öz əməllərinə görə hansı mərhələlərdən keçib, hansı dəhşətləri yaşayacağına tam yəqinliklə inanır.

Deməli,məlum olur ki, öz eyib və səhvlərini görən, Allahdan və Cəhənnəm odundan qorxaraq heç kəsə dilindən və əməlindən ziyan verməyə istəməyən şəxs, başqalarının eyiblərini deməkdən utanıb xəcalət çəkər.Onların eyiblərini gizli saxlayıb xalqa bildirməz.Bu sifət, insan üçün bir fəzilətdir və bunun saysız dərəcədə savabı vardır.Həm də bu keyfiyyət alicənablığa dəlalət edən, yüksək insani xislətdir.Allah insanların eyiblərini gizlətdiyi kimi, insanlardan bir-birlərinin eyiblərini örtüb gizlətməlidirlər.

Ali-İmran-118-120-"Ey iman gətirənlər,özünüzdən başqa sirdaş

tutmayın. Onlar sizin aranızda fəsad salmağa çalışarlar.Sizin zəhmət çəkməyinizi sevərlər. Onların sinələrində gizli saxladıqlari aşkardakı sözlərindən daha böyükdür. Əgər anlasanız, sizə Öz ayələrimizi bəyan etdik.Xəbərdar olun. Siz kafirləri sevməkdə səhv edirsiniz. Siz onları sevirsiniz, onlar isə sizi sevməzlər. Siz Kitabın hamısına iman gətirmiziniz, sizinlə görüşən zaman,"iman gətirdik" -deyər, xəlvətdə olduğu zaman isə acıqlarından barmaqlarını gəmirərlər.Həqiqətən, Allah sinələrin alimidir. Əgər sizə bir nemət yetişsə onlara pis gələr.Əgər bir pislik yetişsə, ona şad olarlar.Əgər ədavətə səbir etsəniz və onlara qarışmaqdan özünüzü saxlasanız, onların hiylələri sizə zərər verməz."

ŞƏMATƏT HAQQINDA

Məsxərəylə kimsəni görsə gözün oyuncaq,
Olacaqsan dünyada axır özün oyuncaq.
Yaxşını da, pisi də üzləyiblər hər zaman,
Yaxşı bil ki, pisləri pisləyiblər hər zaman. ("Sirlər xəzinəsi")

Açıqlama:- Şəmatət şəhvət qüvvəsinin rəzalətlərindəndir.O çox vaxt ədavət və həsəd nəticəsində meydana çıxır.Başqasının bədbəxtliyinə,pis gününə və kədərinə şadlanıb sevinməyə şəmatət deyilir.Şəmatət edən adam belə hesab edir ki, bədbəxtliyə düçar olan adam buna layiqdir. Lakin onun bu mülahizəsi öz xəbisliyindən və batini çirkinliyindən, həm də Allahın qoyduğu qəza-qədərə inanmamağından irəli gəlir.Bir şeyi dərk etmək istəmirlər ki, hər insanın Lövhu-Məhfuzda yazılmış qədər,tale yazısı var.Bizi idarə edən, öldürən-dirildən,bizə verən,bizdən alan Uca Allahdır və hər bir iş onun təqdiri ilədir.

Həyat təcrübələri göstərir ki, şəmatət edən adam o vaxtda qədər ölmür ki, şəmatət edib sevindiyi o bədbəxt hadisəyə özü düçar olsun və ona bir başqası şəmatət etsin.

Hədis:-İmam Cəfər Sadiq buyurur:-Öz müsəlman qardaşına şəmatət etmə, əgər etsən Allah ona rəhm edər və o, bəlanı sənə nazil edər**. ("Hədisi Qüdsi")**

Dünyanın bütün faydaları qürurdur,
Şadlıq edənlərin şadlığı da həmişəlik deyil.
Bizə şəmatət edənlərə de ki, ayıq olsunlar,
Həqiqətən, dünyanın bədbəxtlikləri dövr edir. (Sirlər Xəzinəsi)

Aqil şəxs düşünməlidir ki, şəmatət etdiyi kəsə varid olan bəla ona da varid ola bilər, həm də onun sevinməyi öz müsəlman qardaşının əziyyətinə və özünün axirət əzabına səbəb olar.Bundan əlavə, insanın dünyada bəlalara qirifdar olması onun pis və ya yaxşı adam olmasına dəlalət etmir.Bütün Peyğəmbərlər və övliyalar dünyada həmişə zillətdə olublar.Bu onların pisliyinə deyil, Allahın yazdığı qismətə dəlalət edir. Neçə ki, buyurulur:"Dünya möminlər üçün zindandır."

Şəmatət edən kəslər bütün bunları nəzərə alıb, başlarına gələcək bəlaya giriftar olmamış, özlərini islah etsinlər.Necə ki atalar sözündə deyildiyi kimi:"Gülmə qonşuna,gələr başına."

əl-Bəqərə-155-157-"Biz sizi qorxu, aclıq və malınızın, canınızın, məhsulunuzun qıtlığı ilə imtahan edərik.Yəni sizə bəzi müsibətlər yetirərik ki,sizin bəlalara səbir etməyiniz və Allahın qəzasına razı olub olmadığınız xalqa məlum olsun.Səbir edənlərə müjdə ver. O kəslər ki,onlara müsibət gələn zaman deyərlər:-Həqiqətən,biz Allahın mülkü və quluyuq, müsibət zamanında Allaha tərəf qayıdarıq. Allah bu zikri oxuyan hər kəsin keçmiş günahlarını bağışlar.Bu şəxslərə Allah tərəfindən bağışlanma və ehsan vardır.Onlar Allah tərəfə hidayət olunmuşlar."

Ali-İmran-125-Bəli onlar yəni müşriklər təxirə salmadan sizin üstünüzə gələn zaman əgər səbir edib Allahdan qorxsanız və Peyğəmbərin əmrlərinə itaət etsəniz, Allahınız sizin üçün nişan qoyulmuş (yəni, başlarında şücaət nişanəsi olan ağ əmmamələr ilə)beş min mələk ilə sizə kömək edər.

Dini hədis:-Süleyman (ə.s.) hər sabah Məscidi-Əqsaya gəlir, tam bir ixlas ilə Allaha ibadət edərdi. Hər gün məscidin yerində yeni bir otun yetişdiyini gördükdə ondan soruşardı ki:-Adın nədir, nəyə fayda verirsən? Hər ot ona cavab verər, adını, nə işə yaradığını, hansı xəstəliyə əlac olduğunu, hansı vəziyyətdə zərərli olduğunu, ona söyləyərdi. Hz.Süleyman aldığı bu bilgiləri həkimlərə söyləyərdi. Onlar da aldıqları bu bilgi əsasında insanlar üçün dərman düzəldərdilər.

Bir gün Süleyman (ə.s.) adəti üzrə, sabahın qaranlığında məscidə gəlir. İnsanların dərdlərinə əlac olacaq bir ot varmı deyə ətrafa göz gəzdirərkən, yeni yamyaşıl,təzə, gözəl, pələngə oxşar bir ot görür.

Ot tez Süleymana salam verir.Süleyman(ə.s.) gözəlliyinə təəccüblə baxdıqı otun salamını alıb,ondan soruşur:-Söylə görək ki, sənin adın nədir?

Ot dedi:-Padşahım,mənə keçibuynuzu deyərlər,bitdiyim yerlər yıxılar,viran qalar-deyir.Süleyman(ə.s.) tez düşünür ki:-Mən sağ olduğum müddətcə bu məscid yıxıla bilməz.Bu yalnız mənim ölümümdən

sonra mümkün ola bilər. Keçibuynuzunun burada bitməsi, mənim əcəlimin gəldiyinə işarədir.

Açıqlaması:-Əslində, insanın qəlbi bir məsciddir.Bədəni orada səcdəyə qapanmışdır.Pis fikirli yoldaş qəlbdə bitən keçibuynuzu kimidir.Əgər sənin qəlbində pis bir yoldaşa qarşı sevgi varsa, o könül məscidinin yıxılmasına işarədir.Özümüzə gəlib, pis fikirli yoldaşlardan uzaqlaşaraq onlarla az danışaq.Pis, xəbis fikirli yoldaşın məhəbbəti qəlbində yaşıllaşıb, boy atarsa, könül məscidinin yıxılacağı mütləqdir. (**Mövlanə Cəzalinin"Kimyayi Səadət" tərcümə A.Aydın.)**

YALAN HAQQINDA

Açıqlama:Yalan danışmaq ən alçaq və xəbis sifətdir, həm də böyük günahdır.Şeylərin haqqında həqiqətə əks olan xəbər yalan adlanır. Əgər yalan deyilməsi həsəd, ədavət və kin nəticəsində olarsa o qəzəb qüvvəsinin rəzaləti hesab olunur.Tamahkarlıq dünya malı ələ gətirmək xatirinə və yalançılarla əlbir olmaq səbəbinə deyilərsə onda bu qəbahət, şəhvət qüvvəsinin rəzalətindən sayılır.

Qurani-Kərimdə yalan haqqında nazil olan ayələr:

Hud-18-Öz tərəfindən olan sözü yalan yerə Allaha istinad verən kəsdən daha zalım kimdir?Onlar Allahın hüzuruna gətirilərlər. Şahidlər deyərlər:-Allaha yalan deyən kəslər bunlardır.Xəbərdar ol! Zalımlara Allahın lənəti olsun.

əz-Zumər-4-Şübhəsiz yalan danışan və nemətlərə qarşı çox kafir olan kəsləri Allah Cənnətə tərəf hidayət etməz.

əs-Səff-3-Ey möminlər niyə etməyəcəyiniz şeyi deyirsiniz? Etməyəcəyiniz bir şeyi demək, Allah yanında böyük düşmənçiliyə səbəb olar.İnsan başqasına dediyi sözə gərək özü əməl etsin.

əl-Ənkəbut-10-13-İnsanlardan bəzisi deyərlər:"Allaha iman gətirmişik" lakin Allah yolunda bir əziyyət gördükdə o əziyyəti Allahın əzabı kimi başa düşərlər.Allah tərəfindən bir mədəd çatdıqda:"Biz də sizinlə idik,"deyərlər. Allah dünya adamlarının könlündən keçənlərdən agahdır.Əlbəttə,Allah bilir ki, kimlər mömindir, kimlər münafiqdir. Kafirlər möminlərə dedilər:"Bizim yolumuzla gəlin və günahlarınızın yükü bizim boynumuza".Halbuki onlar heç kəsin günahlarını boyunlarına almayacaqlar və yalan deyirlər.Bəlkə də,onlar öz günah yükləri ilə birlikdə başqalarının da günahlarını daşıyacaq və Qiyamət günü toxuduqları yalanlar üçün sorğuya çəkiləcəklər.

əl-Bəqərə-42-Haqqı batilə qarışdırmayın və həqiqəti bilə-bilə haqqı gizlətməyin.

ən-Nisa-112-Səhvən və qəsdən günah edib, onu günahdan uzaq olan insanın üstünə atsa, öz boynuna böhtan və böyük günah götürmüşdür.

Nur-11-Xəbəriniz olsun ki, iftira edənlər sizlərdən bir dəstədir. Onu haqqınızda pislik hesab etməyin!Bəlkə də o sizin üçün bir yaxşılıqdır. Onların hər birinin qazandığı günah vardır.Allah sizə əcr verər, böhtan atdıqlarına görə isə Allah onlara əzab verər.

Hədis:İmam Cəfər Sadiq öz atası İmam Muhəmməd Baqirdən belə nəql edir:-Atam Əli ibni Hüseyn mənə dedi:-Ey mənim oğlum!Beş səxs ilə yoldaşlıq etmə, danışma və yolda dostluq etmə.İmam Muhəmməd Baqir dedi:-Ey əziz atam! Onlar kimlərdir? Onları mənə tanıtdır. İmam buyurdu:

1.Yalançı ilə oturub-durma!Çünki o,ilğım kimidir. Yaxını sənə uzaq, uzağı da yaxın göstərər.

2.Fasiqlə, günah əhli ilə oturub-durma.Çünki o,səni bir tikəyə, hətta ondan da azına satar.

3.Paxılla oturub-durma.Çünki sənin ona maddi-mənəvi bir ehtiyacın olduğu zaman o, səni bunlardan məhrum edib, arxadan vurar.

4.Axmaq ilə oturub-durma.Çünki o,sənə xeyir vermək istəyər, amma nadanlıq üzündən sənə zərər vurar.

5.Sileyi-rəhim (qohumluq əlaqələrini qoruyan)etməyən adamla oturub durma. Çünki mən onun Qurani-Kərimdə üç yerdə lənətlənmis olduğunu görmüşəm.

Sileyi-rəhimin beş faydası vardır: l-Əməllərin qəbul olmasına səbəb olar.2-Var-dövləti çoxaldar.3-Bəlaları dəf edər.4- Öləndən sonra haqq-hesabı asanlaşdırar.5- Insanın ömrünü uzadar.

Hədis: Hz.Əli buyurur:"Yaxsılıq et ki, sənə də yaxşılıq etsinlər. Başqalarına rəhm et ki,sənə də rəhm etsinlər. Xeyirlı və yaxşı söz danış ki, yaxşı yad olunasan. Qeybət etməkdən çəkin (çünki qeybət Cəhənnəm itlərinin yemidir).Halalzadə olduğunu güman edən, amma qeybət etməklə camaatın ətini yeyən şəxs yalan deyir.Halalzadə olduğunu güman edən, amma mənimlə və övladlarımla düşmənçilik edən şəxs yalan deyir.Halalzadə olduğunu güman edən, amma zina etməyi çox sevən şəxs yalan deyir.Allahı tanıdığını güman edən, amma gecə-gündüz Allahın hüzurunda günah etməyə cürət edən şəxs yalan deyir.Sileyi-rəhim et!Yəni qohumluq əlaqələrini bərqərar et ki, Allah da sənin ömrünü uzatsın. Əxlaqın yaxşı olsun ki, Allah da qiyamət günü sənin hesabını yüngülləşdirsin**." (Zubdətul Əhadis.)**

Hədis:İmam Əsgəridən buyurulur:-Bütün günahlar və pisliklər bir evdə yerləşdirilib. Onun açarı isə yalan danışmaqdır. **(”Zubdətul əhadis.”)**

Hədis:Peyğəmbərimiz yalan barədə belə buyurur:-Məbada yalan danışasınız, həqiqətən, yalan danışmaq günaha yol açır, günah isə Cəhənnəmə yol açar.

Bu pərdənin dalında ən qəribə oyunlar,
Bu pərdə mahir rəqib, göz aldadan sehrkar.
Çınlayır dünya sazı... rəqqası yoxdur, heyhat!
Dəniz cəvahir dolu... qəvvası yoxdur, heyhat! (”Sirlər Xəzinəsi”)

XƏYANƏT HAQQINDA

Açıqlama:Şəhvət qüvvəsinin rəzalətlərindən olan məkr, hiylə və xalqın malına, canına və namusuna xəyanət etmək Allah yanında böyük günahlardan sayıldığı kimi, cəmiyyət içində də ən alçaq sifətlərdən biri hesab olunur.

əl-Muminin-8-O möminlər öz əmanətlərini və əhdlərini qoruyub saxlayarlar, əhdə vəfa edərlər.

əl-Məaric-32-O kəslər ki,öz əmanətlərinə və əhdlərinə xəyanət etməzlər.

Hədis: Loğman oğluna deyərdi:-Hikmətdən mənə hər nə olubsa, ancaq doğru danışmaq və əmanəti öz sahibinə dürüst qaytarmaq sayəsində olub.

Dini hekayə: Loğman Peyğəmbərin adı Quranda keçir, hətta onun adına surə də vardır. Həbəşli və zənci olduğu rəvayət olunur.

Loğman bir Padşahın xidmətində ikən, digər kölələr tərəfindən çox qısqanılırdı.Bir gün Padşah Loğmanı digər kölələr ilə birlikdə bağçaya meyvə yığmağa göndərir. Kölələr bağçadan topladıqları meyvələri görməmiş kimi böyük bir iştahla yedilər.

Padşahın yanına gəlincə isə:-Meyvələrin hamısını Loğman yedidedilər.Buna görə Padşah Loğmana acıqlanaraq, deyinir.Loğman Padşahın əsəbiləşməsinin səbəbini araşdırıb öyrənəndə belə deyir:-Ey kərəm sahibi olan əfəndim!Kölələr haqqında bir qərar vermədən əvvəl onları bir imtahan et.Hamısına ilıq su içirt, sonra isə sən atlı, biz isə piyada olaraq qaçaq.O zaman meyvələrin kimin yediyi anlaşılar və haqqımızda doğru qərar verərsən.Padşah Loğmanın dediyi kimi edir. Sonra onları yuxarı, aşağı qaçırdır. Kölələr yorğunluqdan qusmağa başlayırlar. Bu vəziyyətdə kimin yalan danışdığı ortaya çıxır.

Açıqlaması: Güzgüyə "məni çirkin göstərmə" desən, fayda verməz. Tərəziyə nə qoyarsan, onu da çəkər. Qiyamət günü də Allah bütün gizlətdiklərimizi, gözəl-çirkin demədən ortaya tökərək hesab edər. **(Mövlanə Cəzalinin" Kimyayi Səadət")**

Hədis: Peyğəmbərimiz buyurur:"Məndən 6 şeyi qəbul edin, mən də sizin üçün behişti zəmanət verim:

1 - Danışanda yalan danışmayın
2-Vədə verəndə vədinizə xilaf çıxmayın.
3- Əmin olub bir şeyi əmanət alsanız, ona xəyanət etməyin.
4- Gözlərinizi haramdan qoruyun.
5- Övrətlərinizi haramdan qoruyun.
6-Əllərinizi və dillərinizi haramdan qoruyun. **("Zubdətul Əhadis.")**

Bir gün meydana çıxıb bir neçə qəlp pul kəsən,
Bir qəlib qayırdılar özlərinə bənzəyən.
Onların zahirləri batinləri kimi tunc,
Hər kəlməsi, hər sözü qorxuncdan daha qorxunc.
Qarşında əyilərək,düz gəlsələr də sənlə,
Arxanda kölgəni də çaparlar,yaxşı dinlə;
Şamdan sadə, uddansa düyünlüdür hər biri,
Batinləri çirkindir, gözəldir zahirləri.
Kömək əlləri yoxdur, edərlər zülm,əziyyət,
Hey yazarlar haqqında min eyib, min şikayət.
Öyrənmişlər ağızdan-ağıza məhəbbəti,
Möhkəm düyünləmişlər qəzəblə ədavəti.
İsti, fəqət ciyərdən daha da soyuqdurlar,
Diri, ancaq ürəkdən ölümə yavuqdurlar.
Onların söhbətinə asma ürəkdən qulaq,
Ayıq deyilsənsə , qoyma bu palçıqa ayaq,
Sirr söyləmə , verərlər dağ kimi əks-səda.
Sus, biabır edərlər səni bu gen dünyada.
Səndən danışıb, sənə görünərlər əziz,
Beləliklə, sirrini öyrənərlər tərtəmiz.
Dost sənin zəhərini həmişə şərbət bilər,
Eyib işləsən belə onu bir hünər bilər
Dostluğun məlhəmidir canı eyləyən rahat,
Əgər belə deyilsə, nakəsdir gəl onu at!. ("Sirlər xəzinəsi")

SİRR SAXLAMAQ HAQQINDA

əl-İsra-34-Başladığınız əhdlərə vəfa edin! Həqiqətən, Qiyamət günü verdiyiniz əhd barədə soruşulacaqsınız. İnsanların sirrini açmaq, eyibləmək də böyük rəzalətdir. Çünki sirr eyibli də ola bilər, eyibsiz də.

Hədis:Peyğəmbərimiz (s.ə.s.)buyurur:-İki nəfərin arasında danışılan söz əmanətdir. Yəni bu əmanətə xəyanət edib, o sözü başqa yerdə danışmayın. **("Üsuli-Kafi")**

Hədis:Həqiqətən, öz müsəlman qardaşının sirrini açıb danışmaq, ona xəyanət etməkdir. (Zubdətul əhadis.)

Hədis:Peyğəmbərimiz buyurur:-Xoş o ad-sansız bəndənin halına ki, Allah onu tanıyır, ancaq xalq onu tanımır.Belə şəxslər hidayət yolunun çırağı, elm və hikmət çeşməsidir.Hər zülmət,fitnə onların vasitəsi ilə işıqlanar, nə sirləri faş edərlər,nə işlərin üstündən pərdə götürərlər, nə də xalqa əziyyət etmək fikrində olarlar, onlar riyadan uzaq və xudnümalığa biganədirlər.**(Hədisi Qudsi.)**

Açıqlama:Doğrudan da bu xislət insanlığa yaraşmayan bir rəzalətdir. Bu rəzalətin ziddi, yəni sirri gizli saxlamaq insan üçün vüqar yaradan bir fəzilətdir.Sirr saxlamaq iki cürdür:

Birinci,özgənin sirrini saxlamaq, ikinci isə hər kəsin öz sirrini saxlamasıdır. İnsanın sirri onun iki halı ilə əlaqədar olaraq meydana çıxır. Ya onun şən, firavan və xoşbəxt halında, ya da yoxsul, bədbəxt, nakam halında.

Bu halların hər ikisində insan öz sirrini gizli saxlamaq istəyir. Çünki birinci halda düşmənlərin və paxıl adamların şərindən və bəd nəzərindən qorunmaq istəyir, ikinci halda isə düşmənlərin sevinib, kam almasına, dostların kədərlənməsinə, özünün xalq arasında xar olmasına və düşüncəsiz insanların şəmatətinə səbəb olur. Odur ki, heç kəs öz sirrini gərək dostlarına da deməsin, çünki dostların da dostları var, onlar bu sirri bir-birinə ötürərək faş edərlər.Söz də quş kimi şeydir ki, nə qədər sənin əlindədir, o heç yerə gedə bilməz.Elə ki buraxdın daha onu tuta bilməzsən.Yaxşı deyiblər:-"Söz nə qədər ki səndədir, sən ona hakimsən. Elə ki danışdın, o sənə hakim olar."

Sirrimi xalqa desəm xar olaram,
Sənə desəm, daha da möhtərəm olaram."Yeddi gözəl")
Xəzinə gizlədiblər dağda, bu sirri açma,
Rüsvay edərlər səni, yanlarında danışma.
Küy basarlar: guya sən can-ciyərsən onlara,

Yalmanıb, yaltaqlanıb səndən yol umanlara.
Sülh edərlər səninlə, zay etməkçün sübhünü,
Allah vursun onların ülfətini, sülhünü.
Nəfs, mənfəət güdən hər ünsiyyət, hər tədbir,
Düşmənliklə mayalı dostluğun kəfənidir.
Gəlir güdən dostluğun məgər səliqəsi var?
Xeyr! Düşmənlik ilə gizli əlaqəsi var.
Dost sənin zəhərini qənd sanar, şəkər bilər,
Eybini də az qala ləyaqət, hünər bilər.
Dost rahatlıq, səadət verən məhrəmdir sənə,
Əgər belə deyilsə, uyma, dərd, qəmdir sənə.
Həddini aşan sevgi bənzər atəşə, oda.
Pişik istədiyindən yeyər balasını da.
Dost kimdir? Dost sirrini saxlayan bir vəfadar,
Məgər dostmu yel kimi hər pərdəni açanlar?!
Onların fikri-zikri səni yolmaq, şaşırmaq,
Qazancını, ruzini bir əfsunla aşırmaq.
Üzdə aşiqin kimi mehriban görünərlər,
Dar gündə atıb qaçar, sanki toza dönərlər.
Qılıq göstərən dostu inkar edirsə qəlbin,
Dost deyil, düşməndir o, buna əmin ol, əmin
Aləmdə hər varlığın bir incə pərdəsi var,
Sənin də min sirrini bircə ürəyin saxlar.
Sənin öz ürəyinin qıfılı yoxsa əgər,
Məgər sənin sirrini qıfıllarmı özgələr?
Nəfəsi nəfəsindən ən yaxın dost istəsən,
Onu kənarda gəzmə, öz qəlbindən istə sən.
Bir halda ki, tutmusan ön cəbhədə yerini,
Onda yüz dost içindən seçməlisən birini.
Dostunun dost zatını sınaqdan keçirmədən,
Gizli gövhərlərini qarşısına tökmə sən. (”Sirlər Xəzinəsi”)

XƏBƏRÇİLİK HAQQINDA

Açıqlama:Nəfsin ən xəbis rəzalətlərindən biri də xəbərçilikdir və nəmmamlıqdır. Xəbərçi və nəmmam adamlar ən alçaq və xəbis kəslərdir. Bu haqda Quranda belə buyurulur: ”İtaət etmə hər yalandan and içən həqirə, çox eyib edənə, söz gəzdirmək üçün çox gəzənə, yaxşılığa mane olan günahkar zalıma, bədqılıq haramzadəyə”.

Bu ayədən məlum olur ki, xəbərçilik edən şəxslərin zatı halal olmur. Yenə də Quranda buyurulur:"Vay hər söz gəzdirən və qeybət edənin halına."Peyğəmbərimiz buyurur:"Heç bir xəbərçi Cənnətə daxil ola bilməz."

Başqa bir hədisdə:-Allahın ən çox düşmən tutduğu adamlar onlardır ki, xəbərçilikdən ötrü dostların arasına girib, müsəlman qardaşları bir-birindən ayırır və pak adamların eyiblərini axtarırlar.

Xəbərçi, nəmmam adamlar cəmiyyətin ən şər və xəbis fərdləridir. Onlar həmişə yalan, qeybət, məkr, xəyanət, həsəd, hiylə,insanlar arasında nifaq və ədavət salmaq kimi işlərlə məşğul olarlar.

Peyğəmbərimiz buyurur:-Hər bir yalana günah yazılır,lakin hərbdə deyilən yalan istisna olunur,çünki hərb özü hiylə və kələkdir.Hər bir iki nəfər arasında sülh yaratmaq üçün deyilən yalan da istisna olunur.

İnsan-24-Allahın hökmünə səbir et! Müşriklərə, günahkarlara və kafirlərə itaət etmə!

Ali-İmran-200-Ey inananlar!Səbir edin, düşmənlərinizdən daha səbirli olun.

ət-Tovbə-47-51-Həqiqətən,Allah etdiyiniz işləri əhatə edən və biləndir.Əgər onlar sizinlə birlikdə (cihada) çıxsaydılar fəsad və şərdən başqa bir şey artırmaz, sizin aranıza girib,ürəklərə qorxu salmaq, niyyətləri xarab etmək, fitnə salmaq istərdilər.Aranızda imanları zəif olduğuna görə onların sözünü eşidənlər var.Elə xəbərçilər var ki,sizin sözlərinizi eşidib onlara çatdırar. Yaxud aranızda münafiqlərin sözünü və vəsvəsələrini qəbul edənlər var. Allah zalımları tanıyır.

Həqiqətən, bundan əvvəl fitnə salmaq istədilər.Sənin üçün bəzi işləri və hiylələri tədbir tökdülər.O zamana qədər ki, haqq gəldi və Allahın əmri aşkar oldu.Onlar sənə kömək yetişməsini, dininin ucalmasını istəməyən kəslərdir.Onlardan elələri var ki, deyər:-Mənə izin ver və məni fitnəyə salma!Xəbərdar ol! Onlar fitnəyə düşdülər. Şübhəsiz,Cəhənnəm kafirləri əhatə edəndir.

Əgər sənə yaxşılıq yetişsə, onlara pis gələr, qəmgin olarlar. Əgər sənə müsibət gəlsə şad olub deyərlər:-Yaxşı ki, biz öz işimizi bundan qabaq yerinə yetirdik və şad olan halda geri qayıdarlar.

De ki:-Allahın bizim üçün (Lövhu-məhfufda) yazdığından başqa bizə heç bir bəla və müsibət yetişməz.Bizim ağamız odur.Buna görə də möminlər yalnız Allaha təvəkkül etməlidirlər. **(Kitabul-Bəyan fi təfsiril-Quran.)**

MƏKR VƏ HİYLƏ HAQQINDA

Dünyanın işini yaxşı düşün sən!
Nə əкsən, onu da bil, biçəcəкsən.
Yaxşı iş də görsən, pis iş də, inan.
Unutmaz onları bu qoca dövran.(”Xosrov və Şirin”)

Aşıqlama:Əql qüvvəsinin rəzalətlərindən biri də qəzəb və şəhvət qüvvələrinin tələblərinə uyaraq məkr, hiylə, kələk və fırıldaq deyilən tədbirlərdir. Bu sözlərin hamısı bir mənanı bildirir və əql qüvvəsinin sağlam, düzgün olmayan istiqamətdə ifrat dərəcəsidir. Ona görə bu qabiliyyət zəka anlayışının ziddidir. Bu elə bir üsuldur ki, həmin fırıldaq adam cürbəcür üsullarla öz mənafeyi üçün insanlara çox böyük ziyanlar vura bilər.

Məkrin hədləri, üsulları və dərəcələri vardır.Belə adamlar gah gizli, gah da mahiranə şəkildə plan cızıb, sonra onu üsulluca həyata keçirirlər. Bəzən elə üsulluca hazırlanırlar ki, hətta böyük zəka sahiblərini də asanlıqla aldada bilirlər.Bəzən isə özünə qarşı möhkəm əminlik və dəyanət inamı yaratdıqdan sonra, öz məkrli planlarını həyata keçirirlər.

Məkr ən təhlükəli şeytana xas olan rəzalətdir və onun günahı aşkar şəkildə zərər yetirməkdən böyükdür.Çünki məkr sahibi aldatmaq istədiyi adamı əvvəlcə arxayın edir, sonra da aldadır. Aldanan adam açıq düşmənlə mübarizə aparmaq üçün müəyyən tədbirlərə əl atıb,onu zərərsizləşdirə bilər. Lakin bu gizli düşməni yalnız aldandığını dərk edəndə tanıya bilər.

Peyğəmbərimiz(s.ə.s.) buyurmuşdur ki:-Müsəlmana məkr edən adam bizdən deyildir.Məkr və hiylə işlədən adam onu bilməlidir ki,onun bu işlərinin nəticəsi gec-tez özünə qayıdacaqdır.

ən-Nəhl-126-127-Əgər əzab etsəniz, sizə olunan əzab miqdarında əzab verin!Əgər əzab verməyib səbir etsəniz, şübhəsiz, səbir etmək, səbir edənlər üçün intiqam almaqdan yaxşıdır. Səbir et! Sənin səbrin yalnız Allahın köməyi ilədir. Müşriklərin yalandan imana gəlməsinə görə qəmgin olma. Sənə hiylə etdiklərinə görə sıxılma!

Ali-İmran-28-Möminlər kafirləri özlərinə dost tutmasınlar. Möminlərdən başqa heç kəsi dost tutmayın.Hər kəs bunu etsə, Allahdan və o dostluqdan bir şey gözləməsin. Allah sizi özündən qorxudur, qayıdacaq yer Allah tərəfinədir.

əz-Zuxruf-80-Müşriklər elə güman edirlər ki, biz onların xəlvət danışdıqlarını eşitmirik. Əsla belə deyildir. Allah onların əməllərindən

xəbərdardır.Onların yanında olan elçilərimiz, onların etdikləri əməlləri yazarlar.

əl-Qaf-39-Səbir et o sözlərə ki, sənin haqqında deyirlər. Günəş çıxmazdan və batmazdan əvvəl Allahına həmd etməklə təsbih et! Bu vaxtlar sübh, zöhr və əsr namazlarından ibarətdir.Gecənin bir hissəsindən axşam, xiftən, ya gecə namazını qıl.Səcdələrdən sonra Allaha təsbih et!

Daim özünə bənzər saxta sikkələr kəsən,
Qəlbi kimi boş qəlib yapanları tanı sən.
Gendən bax, üzdən tanı, onların içi zülmət,
Sirr vermə, barmağına dolar səni kəmfürsət.
Qarşında işıq kimi parlaq görünər onlar,
Arxanca kölgə kimi oğrun sürünər onlar.
Üzdə şam kimi dümdüz, içi ud kimi düyün,
Düzlüyün arxasında əyrilikdir gördüyün.
Səndən həzər vurarlar nöqsanını görənlər,
Yaxşını tez unudub, yamanını görənlər.
Öpüb qucarlar səni, sözdə məhəbbətləri,
Dərinlərdə qıvrılar kinləri, nifrətləri.
Nitqləri alovlu, ciyərləri buz kimi,
Ürəklər çoxdan ölmüş, özləri toppuz kimi. (”Sirlər xəzinəsi”)

TƏQVA HAQQINDA

Açıqlama:-Qurani-Kərimdə 150-dən çox ayədə “təqva” sözü işlədilmişdir. Təqvanın lüğəti mənası Allahdan çəkinmək, qor maq və Allahın bizi həmişə gördüyünü hiss etməkdir.

Təqvalı olmağın əlamətləri:-Təqva Allahın xoşuna gəlməyən hər şeyi, kin-küdurəti qəlbdə saxlamamaqdır.Təqvaya nail olmaq, qəlbimizdəki nəfsi hisslərimizlə deyil, Qadir Allahın hakim olması ilə mümkündür. Allah onu qəlbində gəzdirənlərə iki qüvvə vermişdir: səbir və dua.Allaha təslim ibadətsiz olmaz, sadəcə tək ibadətlə də olmaz, ancaq Allaha təslim olan qəlblə mümkün olar.Allah ən çox ondan qorxanları sevir, onu çox düşünüb və çağıranlardan xoşu gəlir. Qorxunun ən qısa dərəcəsi insanın öz əməllərinə nəzarət edib və özünü şübhəli şeylərdən qorumağa çalışmasıdır.Belə şübhəli şeylərdən uzaqlaşmağa ”Vəra” deyilir. Qorxusu daha da artıb, bütün şübhəli şeylərdən artıq uzaqlaşırsa, buna da“Təqva”deyilir.Təqva bəzən insanın çəkinilməli olan vəziyyətlərə düşməsinə mane olmaq üçün çəkinilməli olmayan şeylərdən də uzaq

tutar.Buna bir də Allaha ibadət əlavə edilirsə, bu vəziyyətdə olan artıq tərk edəcəyi dünyaya bağlanmaz və nəfsini Allah rizasından uzaq olan şeylərlə israf etməz. Deməli, harada siddiq varsa orada da təqva, təqvanın olduğu yerdə vəra, vəranın olduğu yerdə iffət vardır.İffət insanın öz şəhvət istəklərindən özünü qoruması deməkdir.

Allah-taala həyatda hər nəyi yaratmışsa, hamısını çox gözəl yaratmışdır.Xarici görünüşümüz nə qədər gözəl olsa da, əgər əxlaqımız pisdirsə, bu gözəlliyin nə faydasi vardır ki?Həqiqətən də, təqvasız edilən ibadətin əhəmiyyəti yoxdur. Fətvanın(dini əmrlər) həll etmədiyini təqva həll edir.Təqvasız fətva meyvənin içini deyil,qabığını yeməyə bənzər.Yəni, ibadət edib, lakin itaət etməmək, ilahi əmrlərə tabe olmayaraq yaşamaq. Allahın bizə öz nurundan bəxş etdiyi qəlbimiz Allahın əmanəti olduğu üçün kainatdan da böyükdür. Ona görə də təqvalılar Allahın onu hər an gördüyünə əminliklə inanıb, özünün də sanki Allahı görüb-eşitdiyi kimi ona ibadət edərlər.

Həya imanın qaynağıdır.Bir insanın qəlbi Allahın lütfü ilə doldumu, artıq yel qayadan nə götürə bilər? Artıq pisliklər onun iman gücünə zərər verə bilməz. O, Allahı qarşısında hiss etdiyindən özü də heç kəsə pislik edə bilməz, hətta pislik haqda düşünməkdən belə qorxaraq,tez Allaha sığınar.

Müasir dövrdə insanlar dini Qurani-Kərimdən deyil, insan beyninin məhsulu olan kitablardan öyrənirlər.Belə elmlə təqvalı olmaq mümkün deyil. Bu haqda Peyğəmbərimiz belə buyurur:-Elə insanlar var ki, Qurani-Kərimi oxuyarlar, lakin onun mənaları, hikmətləri haqda düşünməzlər.

Təqvalılar Qurana öz sevgililərinin məktubu kimi tamam eşqlə üz tutarlar.Hz.Əli təqvalıların Quran oxuyan zaman vəziyyətlərini belə təsvir edir:“Gecələr namaz qıldıqları vaxt Quranı oxuyub, diqqətlə onun mənaları barəsində fikir edərlər.Quranın nurundan öz dərdlərinə dərman arayarlar.

Behişt barəsində olan ayələrə yetişərkən sevinər, Cəhənnəm barəsində olan ayələri oxuyarkən ürəkləri kədərlənər, elə bil ki, Cəhənnəmdə əzab çəkənlərin fəryadını eşidərlər. Namaz vaxtı rüku edib, səcdə üçün torpağa əyilər və Allahdan günahlarının bağışlanmasını və Cəhənnəm odundan azad olmalarını arzulayarlar. **(“Nəhcül-Bəlağə”)**

əl-Furqan -63-Mehriban olan Allahın bəndələri o kəslərdir ki, yer üzündə təvazökarlıq ilə gəzərlər, nadanlar onlara ağır sözlərlə xitab edən zaman onların cavabında gözəl sözlər deyərlər.

əl-Həcc-36-Təvazökarlar Allahın adı çəkiləndə, onun əzabı ilə

qorxudulanda onların qəlbləri qorxar.Allah yolunda yetişən bəlalara səbir edənlərə, namaz qılanlara, verdiyimiz ruzidən Allah yolunda sərf edənlərə və yaxşılıq edənlərə müjdə ver!

Ali-İmran-76-Bəli, əhdinə vəfa edənlər və təqvalı olanlar bil-sinər ki, Allah təqvalıları sevir.

ər-Rad-35-Təqva sahiblərinə vəd edilən Cənnətin sifəti budur ki,ağaclar altından çaylar axar, yeməkləri də, kölgələri də daimidir. Bu, Allahdan qorxub pis əməllərdən çəkinənlərin, təqvalıların aqibətidir. Kafirlərin aqibəti isə Cəhənnəmdir.

Dini hekayə.Şirin danışığı olan, lakin sərt düşüncəli bir adam yolun üstündə tikan kolları əkir.Oradan keçənlər ona xəbərdarlıq edirlər ki, tikanları yolun üstündən çıxardıb atsın.Adam deyilənlərə fikir vermir.Tikan kolları hər keçən gün böyüyür, gəlib-keçənləri narahat edir,insanların paltarlarını yırtır, ayaqlarını cızırdı.

Bu bölgənin rəisi:-Bu tikanları yolun üstündən çıxar,-deyə ona əmr edir. Adam da:-Narahat olma, bir gün çıxararam, -deyir.

Sabah çıxararam sonra çıxararam, deyərək xeyli zaman keçir. Tikan kolları isə xeyli böyümüşdü.Bölgənin rəisi onu çağırıb yenə də əmr edir ki, o tikanları oradan çıxarsın. Adam yenə:-Narahat olmayın çıxaracağam,-deyə cavab verir. Belə cavabı eşidən, bölgənin rəisi belə deyir:-Sən hər dəfə sabah edəcəyəm deyə bu işi ləngidirsən. Lakin buna diqqət etmirsən ki, hər keçən gün o tikanlar böyüyür, güclənir,dərinlərə kök salır.Tikanları sökəcək olan sən isə hər gün qocalırsan, gücün, qüvvən azalır.

Açıqlaması:-Mövlanə buyurur:Sən hər bir pis xasiyyətini bir tikan bil.O tikanları Hz.Əlinın Xeybər qalasının qapısını qopardığı kimi, nəfsinlə mücadilə edərək qoparıb at**. (Mövlanə Cəzalinin" Kimyayi Səadət.")**

Dini hekayə:-Hörmətli bir alimin bir dinsizlə mübahisəsi düşdü, lakin onunla höcətləşə bilmədi. Söz qalxanını yerə qoyub qayıtdı. Biri ona dedi:Bu qədər bilik və kamal sahibi olmağına baxmayaraq bir dinsizin öhdəsindən gələ bilmədin?

Dedi:"Mənim elmim Quran, hədis və imamların dediklərinə əsaslanır,o isə bunların heç birinə inanmir,onun dedikləri də mənim işimə yaramır.

Bir kəs ki, Qurana inanmayır heç
Cavabı odur ki, cavab vermə keç!
Ağıllı olanlar heç vaxt vuruşmaz,

Alim nadanlara heç də baş qoşmaz.
Sözünü acıqla söyləsə nadan,
Ağıllı dindirər onu mehriban.
İki alim qoymaz bir tük qırılsın,
İstəməzlər sülhə zəncir vurulsun
Hər iki sözləşən olarsa cahil,
Ehtiram zəncirin tez qırarlar bil.
Birinə bir nadan çirkin söz dedi,
O biri təmkinlə belə söylədi:
Sən məndə çox eyib axtarma hədər,
Bilməzsən eybimi mən bilən qədər.

Hekayət:Eşitmişəm ki, alimlərdən biri demişdir:-Başqasının sözun kəsib danışmaq, öz qanmazlığını etiraf etməkdir.

Hər sözün, ey alim, baş ayağı var,
Sözün arasına söz qatma zinhar.
Ağıllı sakitlik görməsə bir an,
Dil acıb bir söz də söyləməz inan.
(Sədi Şirazi (1184-1291) "Gülüstan "əsərindən)

ƏXLAQ HAQQINDA

Cismindəki mənlikdə sənin sadə vüqarın,
Əfsanədir onsuz da dünya dövləti-varın.
Saxla onu,vardırsa əgər namusun arın.
Ey dost, bu həyatın yolu çox vaxt dumandır,
Dünyada nə dərdin olsa alçalma amandır.
Mənlik gərək olsun sənin bir qətrə qanında,
Yoxdursa əgər, fərz elə ki,yoxdu sanın da.
Daim gərəkdir o sənə ömrün hər anında,
Ey dost ola bilsin, elə mənlik özü candır,
Dünyada nə dərdin ola alçalma amandır.(Əvəz Məmmədov)

əl-Muminin-97-Gözəl xasiyyət ilə pis xasiyyəti dəf et! Biz onların dedikləri sifətləri daha yaxşı bilirik.

əl-İsra-57-Möminlər Allahın rəhmətini istərlər və əzabından da qorxarlar. Sənin Allahının əzabı qorxuludur.

əl-Həşr-18-Ey iman gətirənlər! Allahdan qorxun!Hər kəs sabah nə edəcəyinə, axirət üçün nə hazırlayacağına nəzər salsın.Allahdan qorxun, həqiqətən Allah etdiklərinizdən xəbərdardır.

əl-Əraf-33-De ki,"Rəbbin çirkin-həyasızlıqların aşkarını da, gizlisi-

ni də, günahları və haqsızcasına üsyan etməyi haram etmişdir.Həmçinin Allah haqqında heç bir dəlil nazil olmadan ona şərik çıxarmağınız da və bilmədiyiniz şeyləri Allah haqqında deməyiniz də haramdır.

Açıqlama: Mövlanə Cəzalinin (”Kimyayi Səadət”) kitabından: İnsanın hər əzasının təmiz olması çox yaxşıdır: əli, ayağı, gözü, könlü və ağlı. Daxili aləmin təmizlənməsi ruhun xasiyyətinə bağlıdır.Bunun üçün mühüm olan əvvəl ağıl, sonra isə əxlaqdır. İnsanın varlığının, yaşantısının on hissəsindən yeddi hissəsi əxlaq, üç hissəsi isə elmdir. Halal ruzi, baxan göz, eşidən qulaq, qəlb, ağızdan çıxan söz düzgün oldumu Allahtaala mələklərə buyurar: ”Gedin onun qəlbini təmizləyin və o bəndənin nəfsini sol tərəfində zəncirləyin.”

Etdiyimiz yaxşı əməlləri Allah rizası üçün etmək, gözəl əməlləri gizli tutmaq,gizli günahları əfv edər və bununla da daxili aləmimiz təmizlənər. Edilən gizli, yaxşı əməllər nisbətində iç aləmi təmizlənər. Gizli günah gizli yaxşı əməl və tövbə ilə silinər.Açıq ibadəti gizli üsyan həlak edər. Allahı sevmək heç bir şeyə bənzəməz. Bütün nəfsani hisslərə qadağa qoyulub, tək Allahı sevməkdən doyulmaz. İxlassız edilən 50 il ibadətdən, ixlasla edilən bir il ibadət daha xeyirlidir. İxlassız bir əməl, təməlsiz binaya bənzər. İxlas Allahın bir olduğunu təsdiqləyir. Etdiyimiz ibadəti Allah üçün edəcəyik. Namaz qılmaq Allahın əmridir, lakin namazın yanında qəlbi və niyyəti düzgün tutmaq şərtdir.İmandan sonra namaz əməllərin ən üstünüdür. Oruc 12 ayda bir, zəkat və Həcc imkanı olanlara vacibdirsə, namaz bütün insanların ildə 1825 dəfə Allaha qonaq olmağıdır.

Allah sevgisi qəlbində yer tutmayan insanlar adət etdikləri kimi əməl edərlər. İxlassız əməl insanı nə öldürər, nə də ki imana gətirir. Allahdan uzaq olanlara şeytan müsəllət edilmişdir.Etdiyimiz əməllərdən nəfsimizin xoşu gəlir, ancaq Allahın xoşuna gəlmir.

Gözlərimizdən elə bir yaş gəlsin ki,o yaş üzümüzə deyil, qəlbimizə, içimizə damcılasın. Göz nurdur, onu pis şeylərə baxmaq üçün istifadə etməyək. Zərərsiz yaşamaq haqdır, haqsız yaşamaq zərərdir,çünki ziyana məhkumdur.Allah və Rəsuluna yaxınlaşmaq üçün onların ən xoşladığı şey cihadi-əkbər, yəni nəfsimizlə mücadilə etmək və şeytanla edilən savaşdır.

Peyğəmbərimiz Ühud savaşından dönərkən böyük bir savaşa hələ yeni başladıqlarını söyləmişdi. Səhabə:-Ya Rəsulullah, bundan da böyük savaş olarmı?-dedikdə, Peyğəmbərimiz nəfsin və şeytanın böyük düşmən olduğunu və bunlarla ediləcək savaşın ən böyük savaş olduğunu buyurmuşdur.

Gündə min dəfə belə Allahı çağırsaq, yenə də onun şükrünü əldə edə

bilmərik.Təslimi-haqq olmayan haqsızlıqdan yaxa qurtara bilməz. Allah insanlara fürsət verir, lakin biz insanlar o fürsəti qaçırırıq, ikinci fürsət isə ələ gəlməz. Nə qədər ah-vay etsək də, sonrakı nəticəni dəyişdirə bilmərik. Şüur nə deməkdir?Baxan gözə, eşidən qulağa, danışan dilə və düşünən qəlbə sahib olmaqdır.

Boş yerə hər birimiz özümüzün haqq olduğunu düşünüb, özümüzdən razı olmayaq. Hər əməlimiz, fikrimiz haqqında zərrə qədər də unudulmadan, özümüzə xəbər veriləcəkdir. Öz-özümüzdən şikayətçi olaq, başqasından deyil.Öz ayıblarımızı qoyub, başqalarının ayıbları ilə əlləşmək şüursuzluqdur. Qəzəb hissinin rəzalətindən olan paxıllıq hissləri ilə, qazandığımız imanı və özümüzü yandırıb kül etməyək. Kimsənin ayıbını araşdırmaq hüququ bizdə deyildir.Hamımızım özümüzə görə çoxlu ayıb və qüsurlarımız vardır. Heç kəsi bəyənməyərək, özgələrin əməllərini araşdırmaq, xoşu gəlməyən kəsi əzmək üçün uzun-uzun fikirləşmək bizə verilən ömür zamanının boş xərclənməsidir. Qiyamətdə isə yaşadığımız zamanın hər anı və dəqiqəsi haqqında haqq-hesab verəcəyik.

Bir ağılsız başın və bir parça ət olan dilin əlindən nə çəkir bu bədən və ruhumuz? Sonra haqq-hesabda, məhşərdə nələr çəkəcək? Çox dəhşətlidir, əgər hər an bunu düşünsək ki, bu duyğu üzvlərinin üzündən həm bu dünyada, həm də axirətdə bizləri nələr gözləyir, bu şəhvət, qəzəb və nəfsimizi yüksək qalaların içərisində əl-qolunu qandallayıb həbs edərdik.

Kimsənin malına gözünü dikəndə malın gedər, kimsənin canına gözünü dikəndə isə canın gedər. Ruhən və mənən müalicə görülməyən insanlar hər zaman xəstədirlər. Bütün insanlar bunu bilirlər, lakin İslamın buyurduğu kimi yaşamağa həvəs və istək göstərmirlər. Can cəsəddə ikən bunları dəyərləndirmək vacibdir, çünki bunlar Allahın əmrləridir.Allahın sevdiyi qullar Allahın xoşu gəlmədiyi şeyləri tərk edən kimsələrdir.

Halal yemək ye, oruc tut, beş vaxt namaz qıl, qəza namazını qıl, lakin başdan baxan göz və dil bütün iç-batini dünyamızı alt-üst etməyə qadirdir. Gərəkli olan ədəb və həyadır.

İnsanların qudurması heyvanların qudurmasına bənzəməz. Cürbəcür işlərlə məşğul olanlar, küçələrdə həya etmədən cürbəcür şəkildə gəzənlər və "heç kəsdən, heç nədən utanmamağını" özləri üçün şüar edənlər əqrəbdən də betərdilər.Çünki əqrəbi və qudurmuş heyvanı bir yolla da olsa, zərərsizləşdirmək olur.

Bu dünyanı həyası olmayanlar yıxmasa, başqa bir şey yıxa bilməz. Nə xarici,nə də ki daxili qüvvələr. Dara düşdükdə Allah-Allah, rahatlığa çıxdıqdan sonra isə mənəm-mənəm deyirik. Hər şeyin bir sonu olduğunu bilə-bilə, dünyaya uyub öz-özümüzü aldada-aldada, nəfsani

hisslərimizə uyaraq yaşayırıq. Allahın səbri isə böyükdür.1001 isminin biri "Qəhhar",1000-i "Rəhmət "ismidir. Allahın əmrlərinə müxalif olanlar, sanki Allaha savaş açmışlar. Allaha savaş açmaqla bir şey əldə edə bilsəydi, Şeytan bir şey əldə edərdi**.Mövlanə Cəzalinin ("Kimyayi Səadət")kitabından.**

Açıqlama: Qurani-Kərimdən həlak olmuş qövmlər haqqında ayələri oxuyarkən, aydın olur ki, Allah-taala bütün qövmlərə Peyğəmbərlər vasitəsi ilə din-şəriət və yaşama qayda-qanunlarını bildirmişdir. Lakin həmin qövmlər hədlərini aşaraq, göndərilən Peyğəmbər və şəriət qanunlarına tabe olmayaraq özlərini həlaka uğratmışlar.Lut qövmü öz tərbiyəsiz hərəkətlərinə görə,Mədyan qövmü azğınlaşıb, qudurduqlarına görə Səmud qövmü nankorluqlarına görə,yəni bütün qövmlər Allahın əmrlərinə qarşı çıxdıqlarına, nankorluqlarına və ya həya-abırlarını itirdiklərinə görə Allah-taala tərəfindən məhv edilmişlər.

Qurani-Kərimdən və Peyğəmbərimizin buyurduğu səhih hədislərdən məlum olan Qiyamət əlamətlərinin bir çoxu artıq açıq-aşkar görünməkdədir. Bu səbəbdən yaşadığımız müasir dövrdə Allah tərəfindən bizə bəxş edilən dinimizin göstəriş və qanunlarına düzgün riayət etməyə çalışaq ki, bizim aqibətimiz də o qövmlər kimi olmasın.

Hamımızın bildiyi bir həqiqət vardır ki, biz Azərbaycanlıyıq və dinimiz də İslam dinidir.Bizim gözəl milli adət-ənənələrimiz və öz millətimizə məxsus davranış, geyim və sair qayda-qanunlarımız vardır. Allahın bizə bəxş etdiyi milli dəyərlərlə bərabər, İslam əxlaqı ilə zinətləndirməsi bizlər üçün böyük nemət və mükafatdır. Bu səbəbdən milli adət-ənənələrimiz və dinimizin qanunlarına çox dəyər verib qiymətləndirməliyik ki, Allahın qəzəbi tutub bizləri də tar-mar etməsin.

Əslinə qalsa heç kəs, heç kəsə yol göstərmir, heç kəs də heç kəsin əməlinə görə nə bu dünyada, nə də axirətdə cavab verməyəcəkdir. Allahın isə ümumiyyətlə, heç kəsin ibadət-itaətinə heç ehtiyacı da yoxdur. Sadəcə bizim kimliyimizi,haradan gəlib haraya gedəcəyimizi Quran və Peyğəmbər(s.ə.s.) vasitəsilə bizə çatdırır.Qalan işlər isə özümüzə həvalə edilib, hər kəs öz qərarında sərbəst və öz hərəkətlərində müstəqil olaraq,öz əbədi dünyasındakı evinin bənnası da elə özüdür.

Hədis: Peyğəmbərimiz(s.ə.s.) buyurmuşdur:-Beş bəyənilməmiş xislət vardır ki, onlarda beş nəsihət və bəla vardır:Hər bir dəstə öz əhdi-peymanını pozsa, Allah onların düşmənini onlara müsəllət edər. Hər bir dəstə Allahın buyurduğu kimi deyil, başqa əsasda hökm edərsə, hökmən onların arasında yoxsulluq artar. Hər bir dəstənin arasında yaramaz işlər olarsa, onların arasında ölüm çoxalar.Hər bir dəstə çəkidə

aldatmağa adət edərsə, hökmən onlar nəbatatlardan və ruzilərdən məhrum olar,qəhətliklə cəzalanarlar. Hər bir dəstədə abır-həya gedər, təbii fəlakətlərlə üzləşərlər. **("Mənhəcüş-Sadiqin" təfsirindən.)**

Dini hekayə:Hz.Musa zamanında İsrail oğullarının ruzisi göydən gəlirdi. Bir zəhmətə və sıxıntıya girmədən Allahın lütfikərəmindən bəslənirdilər.Hz.Musanın qövmü arasında bu ilahi yardımın qiymətini və dəyərini bilməyən cahillər də vardı. Bunlar verilən nemətlərə nankorluq edərək:-Biz torpaqda yetişən soğan, sarımsaq,mərcimək kimi tərəvəz və göyərtilər istəyirik,-dedilər.

Etdikləri bu haqsızlıq göy üzündən gələn süfrənin kəsilməsinə səbəb oldu, yeməkləri gəlmədi, bildirçin quşunun ətinə,qüdrət halvasına həstər qaldılar.Bağça bellədilər, tarla sürdülər, əkin əkib-biçdilər və yorğunluqdan əldən düşdülər.

Musa (ə.s.)bunlar üçün təkrar şəfaətçi oldu və Allaha yalvardı. Kərəmi bol olan Allah,içində cürbəcür nemətlərin olduğu, boşqablarla dolu süfrəni göydən endirdi.Bu səfər Hz. Musa onlara yalvararaq xəbərdarlıq etdi. Bu süfrə davamlıdır, yer üzündən çəkilməyəcək və əskilməyəcək. Aləmlərin Rəbbi olan Allahın süfrəsində acgözlük etmək, qəzəblənmək nankorluqdur."

Musa (ə.s.)sanki onları heç xəbərdar etməmiş kimi, bu küstaxlar özləri üçün gələn süfrədən də yemək oğurladılar.Dilənçi xarakterli, görməmişlərin hirsi üzündən bu ilahi rəhmət qapısı da bağlanır.

Açıqlama:-Qəzəb,yoxluq səbəbi Allaha qarşı ədəbsizlikdir. Özümüzü əla almağı bacaraq. Allahdan ədəbli bir insan olmağı diləyək və ədəbi əldə etmək üçün Rəbbimizə yalvaraq. Ədəbi olmayanın Allahın lütfindən məhrum qalacağını başa düşək. **(Mövlanə Cəzalinin"Kimyayi Səadət"-tərcümə A.Aydın.)**

Sən ki bu gün pozursan Tanrıyla peymanını,
Nə cür qurtaracaqsan öz əhdindən canını?
Könlün seçən yolla get, yalnız o yolu tanı,
Sən ki dünya görmüsən,rədd et iki dünyanı.
Aşağı baxma, torpaq ləngidər qədəmini,
Çox da qanrılma geri, qorxudar kölgən səni.
Könüllərdən ruzi yığ, yolda ev-eşikmi var?
Yaş axıt gözlərindən, axı, təşnədir yollar. ("Sirlər Xəzinəsi")

ƏMƏLLƏR MÜQABİLİNDƏ DƏRƏCƏLƏR VARDIR

əl-Əhqaf-19-Əməllərin müqabilində bütün möminlər üçün dünyada dərəcələr vardır.Allah onların əməllərinin əvəzini kamil surətdə verər və onlara zülm olunmaz.

əş-Şura-19-Axirət əkinini və xeyirini istəyən,axirətin əkin yeri olan dünyada yaxşı əməllər edən kəslərin, əkinini artırarıq (hər bir yaxşı əməlinə on qat muzd verərik). Dünya əkinini və malını istəyən kəsə də dünya malından verərik.Lakin onun üçün axirətdə heç bir pay yoxdur.Əgər Allahın haqq sözü olmasaydı, əlbəttə, bu dünyada əzab nazil etməklə onların arasında hökm olunardı. Həqiqətən, zalımlar üçün axirətdə dərd gətirən əzab vardır.

Muhəmməd-12-Kafirlər dünyadan çox az müddət faydalanarlar, dördayaqlılar kimi yeyər və ləzzət apararlar. Od onların sakin olduqları yerdir.

Hədis:İmam Əli səhabələrinə müraciət edərək buyurur ki, Allahın kitabından sizə ən ümid verən ayədən xəbər verimmi? Dedilər ki:-Buyur!O cənab bu ayəni oxudu:-Sizə nə müsibət yetişərsə, sizin əllərinizin kəsb etdiyi şeylərə görədir, hələ çox günahlardan Allah keçir. (Zubdətul əhadis.)

Hədis: Peyğəmbərimizdən buyurulur:-Bir müsəlmanın başına zəiflik, xəstəlik gəlirsə, kədər, acı və üzüntüdən tikan batmasına qədər hər nə müsibət baş verirsə, Allah bütün bunları o müsəlmanın günahlarına qarşılıq sayar. **(Zubdətul əhadis.)**

əz-Zilzal-7-8-Kim dünyada zərrə qədər yaxsı is görmüşdürsə, onun xeyrini görəcəkdir, mükafatlanacaqdır. Kim də zərrə qədər pis iş görmüşdürsə, cəzasını çəkəcəkdir. Yəni bizə dünyada hansı bəla və müsibət üz verərsə, bizim etdiyimiz günahların müqabilində olur və onların cəzasıdır.Elə buna görə də Allah bu ayəni ən çox ümid verən ayə hesab edir.Bu mənada ki, insanın başına gələn bəlalar onun günahlarını azaldar, axirət əzablarını yüngülləşdirər.

Dini hekayə:-Bir dərədəki quyu yüksək divarlar ilə əhatə olunmuşdu. Divarın üstündə də susamış dərdli bir adam dururdu. Onun suya yaxınlaşıb, susuzluğunu yatırması üçün divar ona əngəl olurdu. Zavallı adam gözünün önündəki suya çatmaq üçün sudan çıxmış balıq kimi çırpınırdı. Birdən ağlına divardakı kərpicləri qoparıb suya atmaq gəldi. Kərpicin düşməsi ilə suyun çıxardığı səs adamı sərxoş etdi. Sonra da divardan qopardığı daşları bir-birinin ardınca suya atmağa başladı.Dərə dilə gəlib dedi:

-Ey insan oğlu!Belə kərpic ataraq, niyə məni narahat edirsən? Bunun sənə nə faydası var? Susamış adam:

-Kərpic atmanın mənə iki faydası var.Birincisi,kərpic düşdüyündə çıxan su səsi susuzluğumu xəfiflədir.İkincisi,qopardığım hər kərpic daşı,divarı bir az da alçaldır və məni suya yaxınlaşdırır,"-deyə cavab verir.

Açıqlaması:-İnsanın suya, yəni Allaha çatmasını əngəlləyən nəfsani arzulardan ibarət olan varlıq divardır.Susayan kimsənin suya çatmaq üçün çırpındığı kimi,insan da varlıq divarını yıxmaq üçün cəhd göstərməlidir.**(Mövlana Cəzalı"Altın Ögüdlər" tərcümə)**

Hədis:İmam Zeynal-abidin Əlidən buyurur ki:-Xızır (ə.s.) Musa ibni Imrana etdiyi axırıncı vəsiyyətində belə buyurdu:-Hər kəsi bir günaha görə danlama. Doğrudan da Allah yanında ən sevimli şey üçdür;imkanı olan zaman orta səviyyədə olmaq, qüdrətli olan zaman güzəştə getmək, bağışlamaq və Allah bəndələri ilə mehriban rəftar etmək. Hər kəs dünyada biri ilə mehribancasına rəftar etsə, Allah da Qiyamət günü mütləq onunla mehribanlıqla rəftar edəcək. Hikmətin də əvvəli Allahdan qorxmaqdır. **("Üsuli kafi"Əlləmə Kuleyn)**

SƏBİR HAQQINDA

əl-Qəsas-54-Səbir etdikləri üçün onlara iki dəfə mükafat veriləcəkdir. Onlar yaxşı əməlləri ilə pis əməli dəf edərlər və verdiyimiz ruzidən Allah yolunda fəqirlərə sərf edərlər.

əl-Furqan-75-76-Allahın əmrinə, Peyğəmbərin itaətinə və düşmənlərinin əziyyətinə səbir etdikləri üçün səbirləri müqabilində o tayfaya behişt guşəsi mərhəmət edilər və orada şad edən sözlərlə, salamlarla qarşılanmış olarlar, mələklər onları Cənnətdə qarşılayarlar. Behiştdə həmişəlik olarlar. O guşə necə gözəl mənzil və iqamətgahdır.

Açıqlama:-İnsanın ali xislətindən biri də onun səbirli və mətin olması, bəlalara təhəmmül edib dözə bilməsidir.Bəzi insanlar başlarına bir bəla və müsibət gəldikdə qışqırıb, özlərini döyüb fəryad edirlər. Buna cəzə və ya el arasında cəzə-fəzə deyilir. Bu da qəzəb qüvvəsinin rəzalətlərindəndir. Bu rəzalət, həqiqətən də Allahın verdiyi qismətə,təqdirə etiraz etməkdir.Odur ki, müsibət baş verdikdə cəzə etmək faydasızdır, çünki müqəddər, yəni qismət olan şey olmalıdır. Həm də bir müddət keçəndən sonra o cəzə və təşviş tədricən sakitləşir və tərk edilir. Belə isə onu əvvəldən tərk etmək lazımdır ki, onun əcri əldən çıxmasın.

Cəzənin ziddi bir fəzilətdir ki, adı səbirdir. Səbir bəla və müsibət baş verdikdə iztirab, təşviş, şikayət etməmək,özünü (aramını) saxlamaqdan ibarətdir. Səbrin müxtəlif növləri vardır:

1)Müharibələrdə vuruşun şiddətinə səbir etmək şücaət adlanır, onun ziddi isə qorxaqlıq-rəzalətdir.

2)Qeyzlənmiş şəxs öz qeyzini udub, səbir etsə, bu cür səbirə həlimlik deyilir, onun ziddi qəzəb-rəzalətdir.

3)Yemək və cinsi üzvlərin şəhvətinə müqavimət göstərib, səbir etmək iffət adlanır, onun ziddi şirrə bir rəzalətdir.

4)Eyş-işrətin tərkinə səbir etmək zahidlik, onun ziddi isə hərislik-rəzalətdir.

Buradan məlum olur ki, imanın əxlaq şərtlərinin çoxu səbirdən asılıdır.Səbirli olmaq üçün insan öz mənəvi cəhətini,əqidə və imanını qüvvətləndirməli, nəfsin həvəslərini zəiflətməlidir.

Səbirin fəziləti,onun savabı dünyada və axirətdə xoş nəticələnər. Səbirin çətinliyinin müddəti dünyada azdır, onun əcri və savabı isə axirətdə sonsuzdur.Səbirsizlik, cəzə-fəzə etmək həm dünya işinə, həm bədənə zərərdir, səbir isə hər iki cəhətdən faydalıdır. Necə ki,Əmirəlmöminin Əli (ə.s.)buyurur:-Əgər səbir etsən, təqdirdə olan şey olacaq, əgər cəzə etsən, yenə də təqdirdə olan olacaq, amma sən günah qazanacaqsan.

Nəfsin istəkləri ilə mübarizəyə girişib,onları tədricən zəifləşdirmək və cilovlamaqla səbirə nail olmaq olar. Nəfsin istəklərini, qəzəb və şəhvət qüvvəsini zəifləşdirmək üçün az yemək, ibadət etmək, şəhvəti həyəcana gətirən şeylərdən uzaq olmaq lazımdır.

Bunları düşünüb əməl edən şəxsə səbir etmək çətin olmaz.

Hədis:Peyğəmbərimiz buyurur ki:-Allah-taala belə buyurur: "Bir mömin qulumun dünyada sevdiyi əzizini əlindən aldığım zaman, o mömin qulum səbir edərsə, məndən onun mükafatı Cənnətdir." **(Zubdətul Əhadis.)**

SƏBİRLƏ ALLAHDAN KÖMƏK İSTƏMƏK

əl-Bəqərə-45-Müsibət vaxtında səbir etmək və namaz qılmaqla Allahdan kömək diləyin!Bu, ağır iş olsa da,Allaha itaət edənlər üçün ağır deyildir.

əl-Bəqərə-153-Ey iman gətirənlər, səbir etmək üçün namazla Allahdan köməklik istəyin. Həqiqətən, Allah səbir edənlərlədir.

əl-Kəhv-27-Allahın razılığını istəyərək səhər-axşam öz pərvərdigarına ibadət edən kəslərlə birlikdə səbir et və özünü saxla.

Hədis:İmam Sadıqdən nəql edilir:"Allah-taala Hz.Musaya vəhy etdi:"Ey Musa! Mənə layiq olduğum kimi şükür et."Musa ərz etdi:"Ey Rəbbim! Sənə söylədiyim hər bir şükrün özü Sənin mənə bəxş etdiyin bir nemət olduğu halda, necə Sənə layiq olduğun kimi şükr edim?Buyurdu:"Ey Musa! Bütün uğurlarını Mənim bəxş etdiyimi dərk etdiyin zaman, şükrünün haqqını yerinə yetirmiş olarsan."

SƏBİRLƏ İMTAHAN OLUNURUQ

əl-Ənfal-46-Allaha və onun Peyğəmbərinə itaət edin! Aranızda fikir müxtəlifliyi ilə mübahisə etməyin ki, zəif olarsınız və yeliniz, padşahınız aradan gedər.(yel-qələbə, padşah isə qoruyucu qüvvə kimi rəmzi mənada işlədilib)

Muhəmməd-31-Biz sizi imtahan edərik ki, içinizdən cihad edən və səbir edən kəsləri biləк. Sizin xəbərlərinizi də biləк ki, dediyiniz sözlərə əməl edirsiniz,ya yox?

əş-Şura-43-Əlbəttə,kim intiqam almayıb bağışlasa,səbir edib güzəştə getsə, bu, onun bu hərəkəti (şəriətcə) çox bəyənilən əməllərdəndir.

ət-Təğabun-11-Allahın izni olmadıqca sizə heç bir müsibət yetişməz. Kim Allaha iman gətirsə və onun hər bir cəzasına razı olsa, Allah onun qəlbini səbir etməyə hidayət edər. O bilər ki, bu iş Allah tərəfindəndir və əgər səbir etsə, böyük bir mükafata yetişər. Allah hər şeyə Alimdir!

Hədis:-Peyğəmbər(s.ə.s.) buyurur ki:"Sevdiklərinizə yalnız sevmədiyiniz şeylərə səbir etməklə qovuşa bilərsiniz**". (Zubdətul-**Əhadis.)

İMAN GƏTİRƏNLƏRİN SƏBRİ

əs-Səcdə-24-Qövmün əziyyətlərinə səbir etdikləri üçün onları rəhbər qərar verdik. Onlar bizim əmrimizlə insanları hidayət edirdilər və onlar bizim ayələrimizin Allah tərəfindən olduğunu yəqin bilirdilər.

əl-Əsr-3-Təkcə o kəslər istisna olmaqla ki, iman gətirdilər,yaxşı əməllər etdilər,bir-birinə haqqı,Allaha tabe olmağı, günahdan çəkinməyi vəsiyyət etdilər və bir-birinə itaətin zəhmətinə, günahı tərk etməyə, taqət etməyə səbir etməyi vəsiyyət etdilər.

əz-Zumər-11-Ya Peyğəmbər! İnsanlara de ki,ey mənim mömin bəndələrim! Allahdan qorxun,ona qarşı günah işlətməyin!Yaxşı əməl

edənlər üçün bu dünyada yaxşı muzd, axirətdə isə behişt vardır.Allahın yeri genişdir.Şübhəsiz ki,səbir edənlər üçün saysız-hesabsız gözəl əcr vardır.

Hədis:İmam Əli(ə.s.)dən rəvayət olunur:Səbirə önəm ver. Səbir iki şey üçün edilir ki, bunlardan biri digərindən də üstündür. Məsələn, başa gələn fəlakətlərə, bəlalara qarşı səbirli olmaq gözəl şeydir. Lakin Allahın haram etdiyi şeylərə qarşı səbirli olmaq ondan daha gözəldir. Bunu unutma ki, imanın ən böyük qoruyucusu səbirdir.Çünki yaxşılıqların ən üstünü səbirli olmaqdır.Təqva isə ancaq səbirlə mümkün olar.

ŞÜKÜR HAQQINDA

əl-Fatihə-2-Hər bir şükür və səna yaranmışları yoxdan yaradıb, zahiri və batini nemətlər verən, ruzi verən, işlərini sahmana salan və bütün yaranmışları tərbiyə edən Allah üçündür.

Loğman-12-Loğmana hikmət verib dedik:"Allaha şükür et. Ona görə ki, hər kim şükr etsə, öz xeyrinə edib və hər kim naşükürlük etsə, Allahın onun şükrünə ehtiyacı yoxdur və Allah tərifə layiqdir".

əl-Bəqərə-152-Məni yad edin ki,mən də sizi yad edim.Mənə şükür edin, naşükür olmayın.

İbrahim-7-Rəbbiniz belə bəyan etdi:"Əgər sükür etsəniz sizin nemətinizi artıraram. Əgər naşükürlük etsəniz, həqiqətən, Mənim əzabım siddətli olacaqdır.

TÖVBƏ HAQQINDA

Açıqlama:İnsanların mələklərə bənzəyən müəyyən cəhətləri olsa da, lakin insan mələk deyildir.Yəni hər insan cürbəcür xətalar edir, əsas olan odur ki,günahda israr etməyib tövbə-istiğfar etsin. Heç xətaların olmaması mümkün deyildir, lakin xətalarda israr etməyib, yaxşılıqları pisliklərdən ağır gələnlərin əbədi Cənnətə nail olacaqları haqda Quranda xəbər verilir. Dinimizdə bütün günahlardan tövbə etmənin vacib olduğu haqda çoxlu göstərişlər vardır.

Günah etməkdə israrlı olmaq qəzəb və şəhvət qüvvəsinin rəzaləti, bu işlərdən tövbə etmək isə həmin qüvvələrin fəzilətidir. Hər hansı bir günah etmiş olan şəxs öz əməlindən peşman olubsa, yeganə nicat yolu tövbədir.Tövbənin mənası odur ki, günah iş tutmuş şəxs bu işin günah olduğunu bilib sidq ürəklə peşman olsun,o günah onu o qədər kədərləndirib narahat etsin ki, bu işdən peşman olub, bir daha belə iş

görməyəcəyi haqqında özünə söz versin. Qurani-Kərimin ayələrindən də məlum olur ki, günah edən şəxsə vacibdir ki, tez tövbə etsin, təxirə salmasın.

Allah-taala bütün günahlardan tövbə etmənin vacib olduğunu buyurmuşdur. İşlənən günah əgər başqalarının haqqı ilə bağlı olmayıb sadəcə Allaha qarşı işlənmişsə, belə bir günahın bağışlanması üçün üç şərt vacibdir:

1-O günahı tərk etmək.

2-O günahı işlətməyinə peşman olmaq.

3-O gunahı tövbə etdikdən sonra bir daha işlətməyəcəyinə dair söz vermək.

Əgər bu şərtlərdən biri əskik olarsa, o tövbə düzgün sayılmaz. İşlənmiş günah əgər başqa insanların haqları ilə bağlıdırsa, belə bir tövbənin qəbulu üçün dörd şərt vacibdir. Bunlardan ilk üç dənəsi yuxarıda deyilənlərdir.

4-Haqq sahibi ilə halallaşmaqdır. Bu anlaşma haqqın düzgünlüyünə görə dəyişik şəkildə olur.Başqalarına aid mal alınmışsa, yiyəsinə qaytarılmalıdır. Birisinə zina töhməti ilə iftira etmişsə bunun haqqına qatlanmalıdır (dayaqlanmalıdır), qeybət etmişsə, qeybət etdiyi şəxsdən gedib üzr istəməlidir.

Tövbə edənlər dörd qismə ayrılırlar:

1-Keçmişdə tövbə edib ölənə qədər tövbəsini qoruyub saxlayanlardır.

2-Böyük günahlardan tövbə edib, ibadətlə məşğul olub, lakin hərdənbir səhvən xırda günah edib, sonra özünü danlayaraq, günah etməyəcəyinə and içənlərdir.Belə adamlar xeyir əməllərlə şər əməllərinə qalib olarlar.

3-Öz günahlarından tövbə edir, bir müddətdən sonra tövbəsini unudur,yenə də günah edir və bu işindən tövbə etmək istəyir, ancaq təxirə salır.

4-Öz günahlarından tövbə edir, sonra unudur öz əməllərində olub,təzədən tövbə etməyi də unudur. Onlar günahda israr edənlər sırasına daxil olarlar.

Qurani-Kərimdə insanların imtahanı ilə əlaqəli olaraq bildirilən və ən çox önə çəkilən əsaslardan birisi də budur;insan nə qədər pislik etmiş olarsa olsun,onun üçün qurtuluş qapısı daima açıqdır, tövbə-istiğfar etmək vasitəsi ilə ən günahkar insanlar belə hər an yeni və gözəl bir başlanğıc edə bilərlər.İnsanlar üçün Allahın tövbə qapıları son nəfəsəcən açıqdır.

Bu haqda Quranda buyurulur:

əl-Ənkəbut-7-Allaha iman gətirən və yaxşı işlər görən kəslərin əməl dəftərlərindən günahlarını pozar və yox edərik! Onlara yaxşı əməllər etdikləri üçün dünyada etdikləri əməllərdən daha yaxşı və gözəl mükafatlar verərik!

Yusif-87-Allahın mərhəmətindən ümidinizi üzməyin.Allahın mərhəmətindən yalnız kafirlər ümidlərini üzərlər.Allahın insanların tövbə etməsindən çox xoşu gələr və buna görə tövbə etmələri üçün onlara şərait yaradar.

Haçan ki, Adəm kimi tövbən bilinər sənin,
Çirkinlik ləkələrin tamam silinər sənin.
"Günahkaram" deyənin nə qorxusu, nə dərdi?!
Etirafı Adəmi peyğəmbərə döndərdi.
Tövbənin riqqətilə qəlbi vurdu o vaxtdan,
Yer üzündə səltənət taxtı qurdu o vaxtdan.
Ədalət tarlasını vəfa xışı xışladı,
Bərəkətli torpağı bəşərə bağışladı. ("Sirlər xəzinəsi")

Dini hekayə: Bir dərviş dağa çəkilərək sadəcə ibadətlə məşğul olurdu. Yalnızlıq onun ən yaxın dostu idi.Allah tərəfindən ehsan edilən mənəvi nemətlər içərisində idi.Dağda cürbəcür meyvə ağacları var idi və o, meyvələrlə dolanırdı.Bir gün öz-özünə söz verərək:

-"Bu meyvələri daha yerindən qoparmayacağam. Külək salsa və yaxud da özü-özünə nə vaxt yerə düşərsə, mən də götürüb yeyərəm"-deyir.

İmtahan vaxtı gəlincəyə qədər, dərviş sözünə sadiq olur.Beş gün müddətində nə külək əsir, nə də ki bir dənə dəolsa armud yerə düşür. Elə bil ki, armudlar sanki ağaca yapışıb qalmışdılar. Dərvişin acından hərarəti qalxır və artıq aclığa dözümü qalmır. Bu arada külək əsərək ağacın meyvələrini onun lap yanınacan əyirdi. Lakin yerə salmırdı, dərviş isə səbirlə meyvənin özünün yerə düşməsini gözləyirdi və əlini armuda uzatmırdı. Gözləri nazlı-nazlı sallanan armudlara həsrətlə baxırdı. Külək bir daha budağı ona sarı əyəndə o dayana bilmədi, aclığın verdiyi iztirablarla armudu qoparıb yedi və öz-özünə verdiyi sözdən döndü.

Bir müddət sonra onun olduğu yerə 20-30 nəfər oğru gələrək, oğurladıqları malları bölüşdürməyə başladılar.Əşyaları bölüşdürərkən sultanın adamları onları dövrəyə alır, səhvən dərvişi də onlarla birlikdə tuturlar. Orada tutulan oğruların hamısının sol ayaqları ilə sağ əllərini kəsirlər. Dərvişin də sağ əlini kəsib sol ayağını kəsmək istədikdə dərviş Allaha yalvarır:-Allahım, əlim andıma sadiq olmadı, meyvəni qopart-

dığı üçün kəsilməsini başa düşdüm. Bəs mənim ayağımın nə günahı var?-deyir.Bu anda bir atlı tələsik gələrək cəllada səslənir:

"Ey cəllad! Etdiyin işə bir bax.Bu insan Allahın seçkin qullarından filankəsdir,"-deyir. Cəllad bir anda nə edəcəyini bilmir və çox təəssüflənib komandirə xəbər göndərir. Komandir yüyürərək dərvişin yanına gəlib onun sol əlindən tutaraq:-Allah şahiddir ki,sənin kim olduğunu bilmirdik. Etdiyimiz bu iş üçün bizi bağışla, haqqını halal et,"-deyir. Dərviş komandana:-Mən günahımı da, başıma gələn bu işin səbəbini də bilirəm. Sözümdən döndüyüm üçün Allah əlimi aldı.Onun hökmünə əlim, ayağım, hər şeyim fəda olsun.Sən heyifsilənmə, bu mənim qədərimdir.Sənin heç bir günahın yoxdur.Haqqımı sənə halal edirəm,"-deyir.

O gündən sonra dərvişin adı xalq arasında"əli kəsilən şeyx"olaraq tanınmağa başlayır.Özünə otlardan və qamışlardan bir koma düzəldib, orada həsir hörməklə dolanışığı qarşılayırdı. Bir gün onun yanına xəbərsiz biri girir və onun iki əli ilə həsir hördüyünü görür və bunu camaata xəbər verir. Şeyx bu kəramətin xalq arasında yayılmasına çox heyifsilənir:"Ya Rəbbi! Mən bunu camaatdan gizlətməyə çalışdım,lakin sən bunu aşkara çıxardın.Hikmətini sən bilir- sən,"-deyə dua edir.

Bundan sonra ona Cənabi-Haqdan belə vəhy gəlir:"Əlin kəsildiyindən sənə inanmayanlar,xəbis insanlar guya sənin özünü xalq qarşısında göstərən və riyakar olduğun üçün əlinin kəsildiyini və Allahın da səni insanlar arasında rəzil etdiyini"-söyləyirdilər.İnsanların səni inkar edərək və ya haqqında pis fikirləşərək qəzəbimə uğramalarını istəmədim. Sənin bu halını onlara göstərib bildirməklə utanmalarını və dedi-qodularını tərk etmələrini istədim".(**Mövlanə Cəzalinin"Kimyayi səadət"-tərcümə)**

ALLAH TÖVBƏNİ QƏBUL EDƏNDİR

Üzr istəyənlərin suçundan кeçən
Xaliqin adıyla başlayıram mən.
Ehtiyacı yoxкən bir an da bizə,
Odur sahman verən hər işimizə.
Cisim deyil, odur cismi yaradan,
Münəccimlər qalmış bu işə heyran.
Yerdən göyə кimi, günəşdən aya
Bitməz səxavəti, heç gəlməz saya.

əl-Bəqərə-160-Ancaq tövbə edənləri, islah olanları və gizlətdiklərini aşkar edənlərin tövbəsini qəbul edərəm. Mən tövbələri qəbul edən və Rəhiməm.

Muhəmməd-19-Bil ki,Allahdan başqa məbud yoxdur.Öz günahların üçün bağışlanma dilə.Allah sizin dünyadakı dolanma yerinizi və axirətdə qayıdacaq yerinizi bilir.

ən-Nisa-17-18-Anlamadan pis əməl edərək tez tövbə edənlərin tövbəsini qəbul etmək yalnız Allahın öhdəsindədir.Allah onların tövbəsini qəbul edər. Allah saf niyyət ilə tövbə edənləri biləndir, həkimdir.Günah işlər görüb ölüm gələn zaman və ölməyini yəqin edərkən:"Həqiqətən, mən indi tövbə etdim, -"deyən kəslərə tövbə yoxdur. Belə insanların tövbəsi qəbul olunmaz. Həmçinin küfr halında ölənlərə də tövbə yoxdur.Onlar üçün dərd gətirən əzab hazırlanmışdır.

ən-Nur-32-Hamınız Allaha tərəf qayıdın, günahlardan peşman olub tövbə edin ki, bəlkə Cəhənnəmdən nicat tapasınız və Cənnət səadətinə yetişəsiniz.

Hud-3-Günahlarınızın bağışlanmasını Allahdan istəyin, sonra onun tərəfinə qayıdın. Allah sizə müəyyən olan ölüm vaxtına qədər gözəl şeyləri qismət edər.

ən-Nəhl-119-Anlamadan günah edən, ondan sonra tövbə edib, islah edən kəslərə gəldikdə sənin Allahın tövbədən sonra bağışlayan və rəhm edəndir.

Hud 91-Allahdan bağışlanma istəyin! Sonra tövbənizin üstündə dayanın! Mənim Allahım rəhm edən və sevəndir.

əl-Adiyat-6-7-Həqiqətən, insan öz Allahına qarşı nankordur və Allah buna şahiddir.Yaxud insan öz-özünə şahiddir ki, Allahın verdiyi mətləbə qarşı nonkorluq edir. Həqiqətən, Allah tövbəni çox qəbul edəndir!

Hədis:Rəsuli-Əkrəm buyurur:"Xəta və günahın kiçikliyinə deyil, kimin qarşısında etdiyinə bax!(**Buharil-ənvər 77-79)**

Hədis: Peyğəmbərimizdən buyurulur:-Günahlardan tövbə edən şəxs, bəzən elə olur ki, güya o heç vaxt günah etməyib. Sonra buyurdu:-Bilirsinizmi, tövbə edən şəxs necə olmalıdır? Dedilər xeyr, bilmirik. Peyğəmbərimiz buyurdu:-Mömin şəxs öz günahlarından peşman olub tövbə edəndə Allah dünyada və axirətdə onun üzünə öz rəhmətindən min qapı açar, səhər və axşam Allah ondan razı olar.Müstəhəb namazlar qıldlqda onların hər rükəti üçün ona birillik ibadət savabı yazar. Oxuduğu hər ayə üçün Qiyamət günü Siratdan keçəndə ona bir nur əta edər. Öləndə onun qəbrini nurani, üzünü ağ edər**. (Hədisi Qudsi.)**

Dini hekayə-Uzaq bir yerdən şəfqətli bir dostu Hz.Yusifin ziyarətinə gəlir.Hz. Yusif bu uşaqlıq dostu ilə oturub söhbətə başlayır və qardaşlarının qısqanclığından, onu quyuya atmalarından, zindanda keçən günlərdən, çəkilən sıxıntılardan sonra, ilahi yardımın yetişməsindən uzun-uzadı söhbət edirlər. Sonunda Yusif (ə.s.) soruşur:-Dostun qapısına əli boş getmək dəyirmana buğdasız getmək kimidir.Bizə nə hədiyyə gətirmisən?

Dostu utana-utana:"Sənə hədiyyə gətirmək üçün bir neçə şeyə baxdım, fəqət heç birini sənə layiq görmədim.Qızıl mədəninə qızıl qırıntısı hədiyyə edilməz, dənizə bir damla su hədiyyə edilməz. Sənə könlümü və canımı gətirmişəm desəm, xırmana buğda satmağa getmiş kimi olaram. Sənin gözəlliyindən başqa Misir ölkəsinin anbarında olmayan bir şey yoxdur. Ey gözümün nuru Yusifim!Sənə hədiyyə olaraq ayna gətirmişəm.Günəş kimi parıldayan gözəlliyinə baxdıqca sevinər və məni xatırlarsan. Adətən, gözəllər hey aynaya baxarlar,"-deyir.

Açıqlamasi-Haqq olan Uca Allah məhşər günündə insanlara: Qiyamət günü üçün nə hədiyyə gətirmisən?-deyə soruşacaq.Əgər buna inanırıqsa,nədən hazırlıq içərisində deyilik?Bir az da olsa dünya nemətlərinin ləzzətini bir tərəfə qoyaraq, haqqa qovuşacağımız gün üçün hədiyyə hazırlayaq. Gecə və gündüz Allahdan bağışlanma diləyək. **(Mövlanə Cəzalinin"Kimyayi Səadət")**

TÖVBƏNİ GEC OLMAMIŞ BU DÜNYADA İKƏN EDƏK

əl-Fəcr-21-25-Sənin Allahının əmri və hökmü gəlib mələklərin səf-səf duracağı və Cənəhhəmin(məhşər meydanına) gətiriləcəyi gün-məhz o gün insanlar (öz günahlarını) xatırlayacaqlar.Lakin o zaman tövbə etməyin faydası yoxdur, tövbəni dünyada etmək lazım idi.

əs-Səcdə 11-12-Ya Rəsulum!De ki:Sizə müvəkkil olan ölüm mələyi canınızı alacaqdır. Sonra da Qiyamət günü Rəbbinizin hüzuruna qaytarılacaqsınız! Kaş günahkarları, Sənin Rəbbinin hüzurunda başlarını aşağı dikib: "Pərvərdigara, dünyada yalan hesab etdiyimiz Qiyaməti və onun əzabını gordük.İndi bizi dünyaya qaytar ki, yaxşı işlər görək."Biz sənə tam yəqinliklə inandıq!"deyənləri görərdin.

əl-Ənam-43-Onlara bizim çətinliyimiz və əzabımız gəldikdə bizə tərəf qayıdıb tövbə etmək lazım idi.Lakin qəlblər bərk oldu. Şeytan onların əməllərini özləri üçün zinətləndirdi.

Dini hekayə: Bir mömin eşidiləcək səslə "Mülk" surəsinin axırın-

cı 30-cu ayəsini oxuyurdu. Oradan keçən inkarçı bir filosof: "Əgər siz görsəniz ki, suyunuz dərinə, quyularda batmışdır, onda sizə nuş olan suyu kim gətirə bilər?"-ayəti kəlməsini eşidən kimi etiraz etdi:-"Qazma ilə qazar, dərində gedən suyu çıxararıq. Nə var ki bunda?"-deyər.

Filosof o gecə yatıb yuxusunda igid bir insan görər. O igid filosofa bir yumruq vurar ki, iki gözü də birdən kor olar. O igid filosofa:"Ey ağılsız adam!Əgər edə bilirsənsə gözünün dibindən qazıb bir işıq çıxart,"-deyər.

Filosof qorxu ilə yuxusundan ayıldıqda iki gözünün kor olduğunu anlayar. Qəlbi küfrlə dolu olduğundan ağlayıb-sızlayıb tövbə də etməz. Tövbə edə bilsəydi, Allahın lütfi ilə gözləri təkrar görə bilərdi.

Açıqlaması:Tövbə edə bilmək üçün peşmanlıq gərəkdir.İnsanın içi yana-yana, ah edərək, göz yaşları tökərək, acizliyini dilə gətirərək, Allahın rəhmətinə səbəb ola biləcək tərzdə tövbə etmək.

Peyğəmbərimiz(s.ə.s.): "Tövbə peşmanlıqdan ibarətdir"-demişdir.

Könül şimşəyi peşmanlıqla çaxmasa, göz buludu yağış yağdırmaz. Göz yaşı yağış kimi yağmasa, günah atəşi necə sönə bilər**? (Mövlanə Cəzalinin" Kimyayi Səadət"-tərcümə.)**

Hədis: Peyğəmbərimiz (s.ə.s.) buyurmuşdur:"Qiyamət günü bu suallara cavab verməyincə o adam Cənnətə düşməz: Ömrünü nələrə xərclədin? Əməllərini nələrə sərf etdin? Vücudunu haralarda və nələrlə tükətdin?" **(Zubdətul Əhadis.)**

Hədis: Peyğəmbərimiz(s.ə.s.) buyurur:"Bu dörd əzanızı dörd şeylə təmizləyin: "Üzlərinizi göz yaşlarınızla, Dillərinizi Allah zikrilə, Qəlblərinizi Allah qorxusu ilə, Günahlarınızı tövbə ilə. **("Zubdətul Əhadis.)**

Bir muzd istəmədən ruzi bəxş edər,
Yaqut olur daşlar, istəsə əgər.
Kimsə əbədi qəm çəkməyib, inan.
Keçər hər günahdan verərkən nemət,
Əlindən yapışar heyran qalan vəqt.
Ona şükr etməyə olarkən asi,
"Ayıl!" deyə, verər qulaqburması,
Bütün yaranmışlar, bir diqqət eylə,
Təğyir tapır ancaq onun hökmüylə.
Rahatlıq, əziyyət - budur qismətin,
Bəzən yoxsul edər, bəzən də zəngin.
Bu dünyanın vardır ikicə rəngi:

Bəzən rumlu olur, bəzən də zəngi.
Bəzən zülm evini o bərbad edər,
Bunun kədəriylə onu şad edər. (N. Gəncəvi)

TÖVBƏ EDİB BELƏ DUA EDƏK

Ali İmran-191-194-O kəslər ki ayaq üstə, oturduğu yerdə, uzandığı halda Allahı zikr edərlər, Göylərin və yerin yaranmasında fikrə dalarlar və onlardan ibrət götürərlər və deyərlər:-Pərvərdigara,bunları nahaq və əbəs yerə yaratmamısan, Sən əbəs iş görməkdən paksan. Bizi Cəhənnəm odundan qoru.Pərvərdigara, Sən Cəhənnəm oduna daxil etdiyin kəsi, həqiqətən, rüsvay edərsən, zalımlara heç bir kömək yoxdur.Pərvərdigara, biz nida edəni(Peyğəmbəri)eşitdik.O imana çağırıb:"Allahınıza iman gətirin"-deyərdi. Biz iman gətirdik.Bizim böyük günahlarımızı bağışla.Kiçik günahlarımızın üstünü ört.Bizi öldürüb, yaxşı insanlarla məhşərə gətir. Pərvərdigara, öz Peyğəmbərlərinə vədə verdiklərini bizə də ver.Bu dünyada etdiyimiz əməllərə görə bizi Qiyamətdə rüsvay etmə. Şübhəsiz, Sən öz vədənə müxalif olmazsan.

Hədis:İmam Muhəmmədi Baqir buyurur:-Zülm üç novdür: Birinci o zülmdür ki,İzzət və Calal sahibi olan Allah onu bağışlayar. İkinci, o zülmdir ki, Pərvərdigar onu bağışlamaz.Üçüncü, o zülmdür ki,Allah onu digərlərinə saxlamaz. Pərvərdigarın bağışlamayacağı zülm, Allaha hər hansı bir şeyi şərik qoşmaqdır.Allahın bağışlayacağı zülm isə bəndələrlə Onun arasında onların öz nəfslərinə etdiyi zülmdür. Amma Allahın digərlərinə saxlamayacağı və göz yummayacagı zülm isə insanların bir-birinə etdikləri zülmdür.(**Zubdətul əhadis.)**

MÜVƏQQƏTİ DÜNYA HƏYATI

Dünyada səfa var ki, səfa da görək onda?!
Vəfa görən varmı ki, vəfa da görək onda?!
Torpaq üstə kim vardı-qucub haçandı torpaq,
Bizə öz udduğundan söhbət açandı torpaq?!
Hər gözəlin çöhrəsi bir ləçək, yarpaq olub,
Hər şahzadənin başı tapdanan torpaq olub.
Vermişik bu dünyaya biz öz gəncliyimizi,
Doğmaca balasıyıq, niyə qocaltdı bizi?
(N.Gəncəvi."Sirlər xəzinəsi")

Necə ki,Nyuyork Elmlər Akademiyasının müəllimi Karisi Moruson deyir ki**:"Həyatın sirlərlə dolu yaranışı zərif bir məsələyə bağlıdır, lakin biz o məsələnin dərk olunmasında acizik."**Yaranış qəribə olduğundan ali düşüncələr onun əslinə vara bilmir.Hətta biologiya elmində ən dərin düşünən alimlər belə onun keyfiyyətinə heyran qalıblar. Həyatın tapılması fizika elminin ən maraqlı mövzularından biridir. Uzun tədqiqatlara baxmayaraq, bu məsələ hələ də həll olunmamışdır.

Açıqlama:-Dünya bir qonaqlama yeridir,əbədiyyət yurdu deyildir. Bizlər bu dünyaya bir-bir gələn qonaqlarıq.İnsanın ilk ocağı ana qarnı, ikinci isə qəbir çuxurudur.Həqiqi yurdu isə bundan sonradır. İnsanın ömründən əskilən hər bir il bu yolçuluğa yaxınlaşdırır.Aldığı hər nəfəs ilə əcəlinə yaxınlaşır.Bu dünya əbədiyyata qovuşduran bir körpü kimidir.Allah-taala buyurur ki, ağıllı insan ehtiyacı qədər dünya ilə keçinib axirəti üçün çalışandır.Bu həqiqəti görən kimsə yığdığı bütün xəzinələrin qızıl-gümüş deyil, kül və torpaq olmasını arzulardı. İnsan nə qədər mal toplayarsa toplasın, onun nəsibi ancaq yedikləri və geydikləridir. Arxasınca qoyduğu bütün malları onun üçün bir peşmanlıq və həsrət səbəbi olar və ölüm anında ölümü çətinləşdirər. Halal malın hesabı, haramın isə əzabı vardır.

Dünyanın rahatlıq verən günləri çox azdır.Çoxu yorğunluq və məşəqqət ilə keçər. Buna görəmi biz axirət rahatlığını, bitib-tükənmək bilməyən mülkü əldən qaçırırıq? Ağıllı insana axirətdəki əbədi rahatlığını əldə etmək üçün bəzi çətin günlərə səbir etmək rahat olur.Dünya axirətin yanında heç bir dəyər ifadə etməz, aralarında heç bir bənzərlik yoxdur.Çünki axirət sonsuzdur, onun əbədiliyini ağıl və idrak dərk edə bilməz.

Bu dünya müvəqqəti olduğu kimi, insanların həyatı da müvəqqətidir. İnsan beyni, ağlı, düşüncəsi, elmi və biliyi yaradılışın gizli sirlərini və təbiətin o biri tərəfini görüb dərk edə bilməz.Biz dünyanın zahirini, təbiətin bir bucağını görürük.Təbiətin zahirini elm gözü ilə görüb dərk etmək olar, ancaq təbiətin görünməz cəhətini dərk edə bilmərik. Ola bilsin ki, maddənin qalın pərdəsi arxasında rəmzi bir dünya və ondan da rəmzi amillər vardır. Doğrudan da, bizim elmi biliyimiz bu cür müstəsna hadisələri izah etməyə qadir deyildir.

Dünyanın ən yaxşı dürüst təsvirini Hz.Əli **"Nəhcül-bəlağə**" kitabında belə təsvir etmişdir:-İnsanlar afət və bəlalarla dolu olan bu etibarsız və müvəqqəti "Dünya evinə"özlərini bağlamasınlar.Ondan vəfa və şəfqət təmənnasında olmasınlar."

Dünya həyatı haqqında Qurani-Kərimdə 30 ayə vardır.

əl-Casiyə-24-Kafirlər dedilər:-Dünya həyatından başqa heç bir həyat yoxdur.Ölürük və dirilirik.Yəni biri vəfat edir,o biri anadan olur. Dünya həmişə belə olub və belə də olacaq. Allahın bu işlərə dəxli yoxdur, nə öldürür, nə də dirildir.Bizi öldürən ancaq zəmanədir. Allah onların sözlərini rədd edərək buyurdu:"Onların bu barədə heç bir elmi yoxdur! Zəmanənin özü də yaranmışdır,məxluq Xaliq ola bilməz! Onlar ancaq güman edirlər və zənn ilə düşünürlər.Həqiqətdən isə heç bir xəbərləri yoxdur!

Yunus-23-Onlara çətinlik və möhlətdən nicat verdiyimiz vaxt yer üzündə nahaq yerə günah edərlər.Ey insanlar!Dünyada neçə gün diri qalmaq ləzzəti ilə etdiyiniz günahlarınız yalnız sizin özünüz üçündür. Sonra sizin qayıdacağınız yeriniz bizim tərəfimizədir. Biz sizə etdiyiniz əməllərdən xəbər verərik.

Hədis:-Dünya haqda Peyğəmbərimiz (s.ə.s.) belə buyurur:-Dünyadan çəkinin,çünki onun sehri Harut və Marutun sehrindən daha betərdir. İlk sehri və aldatması belə olur:-O, sənə özünün səninlə birlikdə olduğunu göstərir, həmişə sənin yanında durduğunu zənn etdirir. Halbuki bir az düşünsən, onun davamlı səndən qaçdığını və nifrət etdiyini, bunu səssiz bir şəkildə hər an yavaş-yavaş etdiyini başa düşərsən. **(Zubdətul əhadis.)**

Hədis:Dünyanın misalı kölgəyə bənzər.Kölgəyə baxdığın zaman onun sakitcə durduğunu zənn edərsən. Halbuki o, davamlı hərəkət etməkdədir. İnsan ömrü də belədir. Davamlı yavaş-yavaş axar gedər, hər an nöqsanlaşar.Dünya da eyni şəkildə sənin heç xəbərin olmadan səni tərk edər, səndən uzaqlaşar,heç hiss etməzsən nə vaxt çəkilib gedər. **(İbn Əbi-Dünya„Zemmud-dünya" 162**)

Hədis:İsa(ə.s.) belə buyurmuşdur:-Dünyanın arxasınca qaçanın halı dənizdən su içən kimsənin halına bənzər.O nə qədər çox içsə, o qədər susuzlayar və yanğısı artar.Bu insan ölənə kimi bu suyu içsə də, susuzluğu getmədən həlak olub gedər. (**"Usulu-Kafi" Əlləmə Kuleyni.)**

Hədis: Peyğəmbərimiz buyurur:-Dənizə düşən kimsənin islanmaması mümkün olmadığı kimi dünyaya uyanın da kirlənməməsi mümkün deyildir. **(Əbu-Dünya, Zəmmud dünya-89).**

Dini hekayə:Malsız, mülksüz, dələduz bir adam var idi.O çox acgöz və arsız idi. Eyni zamanda insanları aldadırdı.Bir gün onu etdiyi əməllər üzündən tutub həbsxanaya saldılar.Qısa zamanda oradakıları da bezdirir.İnsanlıq şərəfini ayaqlar altına alan bu adam çağırılmadığı halda, milçək kimi hər süfrəyə qonurdu. Altmış kişinin yediyini təkbaşına yeyirdi. Salamsız-kəlamsız, üzlülüklə oturduğu süfrədə heç kimsənin bir

tikə yeməsinə aman verməzdi. Zindandakılar bu vəziyyəti nəzarətçiyə şikayət edirlər:

-Ya bu rəzil adamı buradan götürün, ya da ki onun yeməyini ayrı göndərin.Nəzarətçi bu vəziyyəti araşdırıb, həbsxanada olanların haqlı olduğunu görür və o adamı yanına çağıraraq:

-Bu zindandan çıx get,evində otur,-deyir.Adam:

-Həbsxana mənim üçün Cənnət kimidir.Əgər məni oradan çıxarsan, yoxluqdan və yoxsulluqdan ölərəm, -deyir.

Nəzarətçi bu adamın dələduz və heç bir şeyinin olmadığının bütün şəhərdə bilinməsinə və insanların onu tanımasına qərar verir. Dükançıları çağırıb ona heç nə satmamalarını və heç kəsin ona borc verməməsini, ondan kim şikayət etsə də,bu işə baxılmayacağını bildirir və onu şəhəri gəzdirərək hər kəsin tanımasını əmr edir.

Sonra isə bu saxtakarı odun satanın dəvəsinə mindirib,axşama qədər şəhərdə dolaşdırırlar ki, onu hamı tanısın.Axşamacan onu şəhərdə gəzdirən odunçu:-Sabahdan bəri dəvəmə mindin.Dəvə üçün bir ovucluq saman pulu ver-deyərək, ondan haqqını istər.Saxtakar:-Şəhərdəki bütün canlı-cansız nə varsa, hamısı mənim nə mal olduğumu öyrəndi. Sən öyrənmədinmi? Bu vaxta qədər dəvənlə mənim müflis birisi olmağımı eşitdirmək üçün dolaşdırdın,bəs məni tanıya bilmədinmı?İndi isə yeri get evinə,-deyər.

Açıqlaması:-Bu rəvayətdə müflis adam dünyadır. Nəzarətçi-bizİ bu dünyanın aldadıcı olduğundan xəbərdar edən, dükançılar isə ənbiya və övliyalardır ki, keçici dünya zövqlərinə dalmamağı insanlara öyrədərlər. Dəvəçi də qəflət əhli olan insanları təmsil edir. Qəflət içərisindəki insanlar onların nəsihətlərinə qulaq asmaz,dünyadan fayda umarlar**. (Mövlanə Cəzalinin" Kimyayi Səadət")**

DÜNYA HƏYATINI DOST TUTUB, ÇOX SEVƏRLƏR

Kim bilir bu qoca dünya, sonsuz dövr,
Nə qədər ömr edib, nələr görmüşdür?
Onun dövranını bir adam görməz,
Dünyadan mərhəmət görmədi heç kəs.
Bu dövranda beş gün ömrün var ancaq.
Burda nə göz görər, nə dinlər qulaq.
Yüz bir hiylən ola, yüz fənnin ola,
O, harınlığından ayrılmaz əsla.
Çox dünya qazanın qaynatdı fələk,
Yenə də bişmədi xörəyi gerçək. (Xosrov və Şirin)

əl-Qiyamə-19-31-Siz tez keçib-gedən dünya həyatını sevirsiniz. Axirəti tərk edib, dünyaya meyl edirsiniz.Çox üzlər o gün təzə və təravətlidir, möminlər o günü şaddırlar və öz Allahlarının savabına tərəf baxarlar. Həmçinin,o gün çox üzlər qaralandır və güman edərlər ki,onların haqqında bel sındıran qərarlar veriləcək.

Hud-15-16-Hər kəs axirətdən üz döndərib dünya həyatını və zinətini istəsə, biz onların əməllərinin əvəzini elə bu dünyada verərik. Onlar orada naqis olmazlar.Yəni,cəzalarından və haqlarından heç bir şey azalmaz.Belə ki,qohumlara baş çəksələr, dilənçini naümid etməsələr, məzlumun fəryadına çatsalar, yaxud da başqa yaxşı əməllər etsələr, onlara bol ruzi, cansağlığı və övlad verməklə əvəz verərik. Onlar o kəslərdir ki, Cəhənnəm odundan başqa onlar üçün axirətdə heç bir şey yoxdur. Dünyada etdikləri əməllər heç oldu.Onların bu dünyada etdikləri yaxşı əməllər batildir.Çünki o əməllər Allahdan ötrü yox, dünya həyatından ötrü icra olunmuşdur,axirətdə əcrə və savaba layiq deyil.

ən-Nəcm-29-31-Bizə zikr etməkdən üz çevirən, Tövhidi iqrar etməyən və dünya həyatından başqa bir şey istəməyən kəsdən üz çevir!Onların elmi elə bu qədərdir ki, dünyanı axirətdən artıq bildilər. Həqiqətən, sənin Allahın onun yolundan azanları və hidayət tapanları çox gözəl tanıyandır! Göylərdə və yerdə nə varsa, Allaha məxsusdur!O, pis əməl edənlərə pis cəza, yaxşı əməl edənlərə isə gözəl mükafat verəcəkdir!

İnsan-27-Bu kafirlər fani dünyanı dost tutarlar, qarşılarında olan Qiyamətin ağır gününü tərk edərlər, ona tədarük görməzlər.Biz onları yaratdıq, onların damarlarını möhkəm etdik.

Hədis:Həzrəti Peyğəmbərdən soruşdular:-Nə üçün biz Allahı çağırırıq, lakin O bizim dualarımızı qəbul etmir?Halbuki Allah Özü buyurub:"Məni çağırın, sizin dualarınızı müstəcəb edim".Həzrət buyurdu:Həqiqətən, sizin qəlbləriniz on şey vasitəsi ilə ölüdür;

1.Siz Allahı tanıyırsınız, ancaq Ona itaət haqqını yerinə yetirmirsiniz. 2.Quran oxuyursunuz, ancaq onun göstərişlərini yerinə yetimirsiniz.

3.Peyğəmbərə məhəbbət bəslədiyinizi iddia edirsiniz, halbuki onun övladları ilə düşmənçilik edirsiniz.

4.Şeytanla düsmən olduğunuzu iddia edirsiniz, lakin əməldə onunla müvafiqsiniz.

5.Behiştə məhəbbət bəslədiyinizi iddia edirsiniz, lakin ona çatmaq üçün əməl etmirsiniz.6.Cəhənnəmdən qorxduğunuzu iddia edirsiniz, halbuki öz bədəninizi pis əməllər görməklə ona sarı aparırsınız.7.Camaatın eyibləri ilə məsğul olursunuz, lakin öz

eyiblərinizdən xəbərsizsiniz.8.Dünya malı ilə düsmən olduğunuzu, ona məftun olmadığınızı iddia edirsiniz, halbuki özünuz onu hərisliklə toplayırsınız. 9.Öz ölülərinizi dəfn edirsiniz, ancaq onlardan ibrət almırsınız. Buna görə də dualarınız qəbul olunmur.(**Zubdətul əhadis.)**

Açıqlama:-Allahı və axirəti unudub, sırf dünya həyatı üçün yaşayanlar başqalarını da çıxılmaz və qaranlıq bir yola dəvət edərlər və onları Allahın əmrlərindən uzaqlaşdırmağa çalışarlar.Belə adamlar üçün Qurani-Kərimdə belə buyurulur:

ər-Rum-7-8- Onlar dünya həyatının ancaq zahirdə olan işlərini: yeyib-içmək və ləzzət aparmağı bilərlər.Amma hansı şeyin onlara zərər verdiyini bilməzlər.Onlar axirətdən xəbərsizdirlər. Günah müqabilində necə əzab olunacaqlarını bilmirlər. Məgər Allahın göyləri,Yeri və onların arasında olan məxluqatı haqla öz qüdrətini bildirmək və müəyyən müddət üçün yaratdığını öz qəlblərinizdə fikirləşmirsinizmi? Həqiqətən də insanların çoxu Allahla qarşılaşacaqlarını inkar edərlər! Dirilərək əməllərinin cəzasını alacaqlarını bilmirlər.

Dini hekayə: Bir adam bez parçalarını toplayaraq əmmaməsinin içinə doldurmuş, üstünə də sarıqlı sarımışdı.”Beləcə əmmaməsi böyük, ehtişamlı görünəcək,girdiyi məclislərdə etibarı artacaqdı,”-deyə öz-özünə düşünürdü.Böyük, hündür papaqla insanların ona daha çox hörmət bəsləyəcəyini düşünürdü.

Bu əmmamənin görünüşü Cənnət geyimlərinə bənzəyirdi, içi isə münafiqlərin qəlbi kimi çirkin və rəzil bir halda idi.Adam göstərişli qiyafəti ilə səhər tezdən mədrəsənin yoluna çıxar.

Alaqaranlıqda adam soyan oğru da öz hünərini göstərmək üçün yol üzərində pusqu qurub,kiminsə gəlməsini gözləyirdi.Adamın başındakı papağın çox ehtişamlı olduğunu görən oğru, papağın çox pul edəcəyini düşünür və papağı adamın başından qapıb qaçmağa başlayır.Adam oğrunun ardınca bağırır:

-Oğlum,sarığı açıb, elə-belə götür.Əvvəl bir yoxla, içinə bax, bəyənirsən al, götür,o zaman sənə haqqımı halal edərəm.

Oğru qaçarkən bir yandan da sarıqları açar.Sarıqları aşar-açmaz, xirda bez parçaları hər tərəfə dağılar.O möhtəşəm papaqdan əlində balaca bir bez parçası qalar.Oğru da bu bez parçasını hirslə yerə çırpıb:-Ey düşüncəsiz kişi, bu hiylə ilə məni işimdən, gücümdən, qazancımdan etdin,-deyə bağırar.

Adam:-Hiylə etdim və səni aldatdım,amma sənə xəbərdarlıq da etdim ki, sarığı açıb,sonra götür,-deyər.

Açıqlaması:-Dünya da belədir.Bir gözəlliklə açılar-saçılar, amma vəfasızlığını da bağıra-bağıra söyləyər. Ey baharların gözəlliyindən heyran qalan, son baharın o soyuqluğuna və sarılığına bax. Gümüş bədənlilərin bədəni səni ovladısa da, o yaşıllıq sonrasında pambıq tarlası kimi bir bədəni də gör.Aslanların sırasında gedən igid sonunda bir fələyə məğlub olar. **(M.Cəzalı"Altın Ögüdlər" -tərcümə Hüseyn Okur.)**

DÜNYA HƏYATI OYUN-OYUNCAQDAN BAŞQA BİR ŞEY DEYİLDİR

Hər gələn dünyaya mənim der,sən qədim dünyasan,
Cümlənin könlün alıbsan, nə əcəb səyyadsən?
Hər kəsə bir yüz ilə verdin muradın dünyada,
Xızr olan buldu həyatı, bildi kim zülmatsən.
Hər kiminlən oynadın, çəkdin, çevirdin çərxini,
Hiç arif nəqşini duymaz, əcəb nərradsan.
Dünyanın malıvü mülkü, gəncinə aldanma kim,
Əvvəli zərqü nicatdır, axiri zəhmətsən.
Ey Xətayi, sən cahanın cövrünə şad ol müdam,
Çünki sevgin dust iləndür, eşq ilə ustadsən. (Xətayi."Dəhnamə")

Açıqlama:Dahi şair Firfovsinin (Firfovsi Əbülqasım Mənsur bin Həsən Firfovsi 971-1030 Tus.ş.) 35 il müddətinə yazdığı,60000 beyitdən ibarət böyük "Şahnamə" əsərində bu sözləri öz elm və həyat təcrübəsinə istinad edərək, bir sitat kimi yazmışdır:"Ağıllı adam, sənin düşmənin olsa da, cahil bir dostdan yaxşıdır. Bilgisi olanın gücü olar. Dünya başdan-başa əsli olmayan bir məsələdən başqa bir şey deyildir."

əl-Ənam-32-Dünya həyatı oyun və əyləncədən başqa bir şey deyildir. Məgər dərk etmirsiniz? Axirət yurdu isə sübhəsiz ki, əbədi həyatdır, kaş bilərdilər!

əl-Ənam-70-Dinlərini oyun-oyuncaq tutan, ya kefləri istədiyi şeyi özlərinə din götürən kəsləri tərk et!Onları dünya həyatı aldatmışdır, axirəti unutmuşlar.Onların yadına sal və nəsihət et ki, hər bir nəfəs öz qazandığı əməlinin pisliyi ilə həlak olar. Allahdan başqa onun üçün bir dost və şəfaət edən yoxdur.Əgər əzabdan xilas olmaq üçün ixtiyarında olan hər bir şeyi əvəz versə də,qəbul olunmaz.Onlar üçün qazandıqlarına görə qaynar sudan içki vardır.Kafir olduqlarına görə dərd gətirən

əzab da onlar üçündür.Yəni içlərini qaynar su, çöllərini Cəhənnəm odu yandıran.

əl-Əraf-51-Dinlərini oyun-oyuncaq edən, dünya həyatına aldanan kəslər bugünkü gündə qarşılaşacaqlarını unutduqları kimi biz də bu gün onları yadımızdan çıxardarıq. Bir də ona görə ki, bizim ayələrimizi inkar edirdilər.

əl-Kəhf-44-45-Ya Peyğəmbər! Onlara(insanlara) bəyan et ki, dünya həyatı,onun tez fani olması su kimidir ki, onunla yerin otları qarışıb göyərdi və az müddətdən sonra həmin otlar qurudu, küləklər onu heç yoxmuş kimi götürüb dağıdar.Allah hər şeyi yaratmağa və fani etməyə qadirdir.Mal və övlad dünya zinətidir, tez aradan gedər. Həmişəlik qalan yaxşı əməllər, sənin Allahının yanında arzulamaq cəhətdən mal və övladdan daha yaxşıdır.

Logman-33-Ey insanlar Rəbbinizdən qorxun.Ehtiyatlı olun ki, dünya həyatı sizi aldatmasın. Şeytan sizi Allaha arxayın edib,"-tovlamasın! Allah Öz bəndələrinə mehribandır,onların hamısını bağışlayacaq,günahlarından keçəcək",-deyə, tovlamasın.

Dini hekayə:Hz.Həmzə yaşlanmasına baxmayaraq bütün vuruşlarda iştirak edir və zirehsiz vuruşardı.Onun bu vəziyyətini görənlər:-Ey Peyğəmbərin əmisi! Sən Allahın "Özünüzü təhlükəyə atmayın"ayəsini bilmirsənmi? Gəncliyində, gücün-qüvvətin yerində ikən zirehsiz savaşa girməzdin,indi qocalandan sonra düşmənlərin arasına qorunmamış girirsən? Sən də bizdən yaxşı bilirsən ki, qılınc və mizraqda duyğu yoxdur,-deyə ona öyüd-nəsihət verirdilər.

Hz. Həmzə bu halı belə açıqladı:-Mən gəncliyimdə ölümü yox olmaq kimi görürdüm.Lakin Muhəmmədin nuru sayəsində fani dünyaya bağlılığım qalmadı. Ölüm mənim üçün həqiqət qapısının açılması kimidir. Ölüm kiminsə gözünün önünə təhlükə olaraq gəlirsə,"Özünüzü təhlükəyə atmayın"ayəsi də onun üçün keçərlidir. **(Üsulu-Kafı-1c.)**

Bu dünyanın üstünə çəkib qələm, şad yaşa!
Möhnətinə, dərdinə duyma ələm, şad yaşa!
Uzaq yola çıxırsan, mənzilin çox uzaqdır,
Azuqəni hazırla, son mənzil - ölüm haqdır. ("Sirlər xəzinəsi")

Müxtəlif mövzular haqqında

MİNNƏT QOYMAQ

əl-Bəqərə-264-Ey iman gətirənlər!Minnət qoymaqla və əziyyət etməklə ehsanlarınızı batil etməyin. O kəslər ki, Allaha, Qiyamət gününə iman gətirməzlər və özünü camaata göstərmək üçün malını sərf edərlər,onun misli saf daş kimidir ki, üstündə torpaq olub, sonra onun üstünə iri damlalı yağış yağıb və daşı tər-təmiz edib. Allah ehsan edib, sonra əziyyət və minnət qoyan adam üçün iki misal çəkmişdir. Əvvəl onu Allaha və Qiyamət gününə inanmayan və riya ilə ehsan edən kəsə bənzətmişdir. Belə bir kafirin ehsanı batil olduğu kimi, ehsan edib sonra minnət qoyan kəsin də ehsanının batil olması aşkardır.

İkinci misal isə həm ehsan edən kafiri, həm də ehsan edib minnət qoyanı daşa, ehsanı onun üstündə olan torpağa, küfrü və minnəti isə bərk yağışa bənzətmişdir. Yağış daşın üstündə olan torpağı apardığı kimi, minnət qoymaq, əziyyət vermək və kafir olmaq da ehsanın əcrini batil edər.Odur ki, Allah-taala buyurur:

-Bu cür ehsan edənlər qazandıqlarından bir şeyə qadir ola bilməzlər. Yəni etdikləri əməl müqabilində bir savab və əcr yetişməz. Allah kafir olan qövmü xeyir və savaba hidayət etməz. Ayədən məlum olur ki, riyakarlıq, minnət qoymaq və əziyyət vermək kafir sifətidir və möminlər bundan çəkinməlidirlər.

əl-Muddəsir-6-Etdiyin yaxşılığı çox bilib başa qaxma!Gördüyün yaxşı bir iş müqabilində heç kəsə minnət qoyma!

SALAM VERMƏK

Salam haqqında Qurani-Kərimdə 11 ayə nazil olmuşdur. Salam Allahın ismi-şəriflərindən olub pak və eyibsiz deməkdir.

Mücadilə-8- Kafir və münafiqlər sənin yanına gəlib sənə elə salam verdilər ki, Allah sənə o cürə salam verməmişdi.Onlar gəlib Peyğəmbərə deyirdilər:"Əs-Samu əleykə"(yəni,sənə ölüm olsun). Onlar belə düşünürdülər ki,Peyğəmbər bu sözü"Əs Salamu əleykə" kimi başa düşəcək.Bir-birlərinə deyirdilər ki,əgər bu adam Peyğəmbərdirsə, dediyimiz sözün müqabilində nə üçün Allah bizə cəza vermir?Allah onların cavabında buyurur:"Cəhənnəm onlara kifayətdir ki, ora yetişəcəklər və orada yanacaqlar, ora nə pis qayıdacaq yeridir.

ər-Rad-23-24-Əbədi Cənnətdə mələklər onlara bütün qapılardan yaxınlaşaraq deyəcəklər:"Bütün dözümünüz üçün sizə salam olsun. Axirət evi nə gözəldir."

Məryəm-62- Orada boş söz eşitməzlər.Sözləri ancaq salamdır və səhər-axşam ruziləri hazırdır.

Yunis-10-Cənnətdə duaları budur:"Ey Allahım! Sən paksan. "Orada hər sözləri salamdır və dualarının sonu da budur.

Furqan-63-Rəhman Allahın bəndələri yer üzündə çox təvazö ilə addımlayanlardır və nadanlar onları çağıranda "Salam" deyib keçərlər.

Dini hekayə:Qonşuluq münasibətlərinə və insanlığa dəyər verən bir şəxs tanıdığı bir kar adama qonşusunun xəstə olduğunu xəbər verir.Kar olan adam qonşusuna dəyməyin lazım olduğunu, lakin kar olduğu üçün onunla necə hal-əhval tutacağı haqda düşündü. Fikirləşdi ki,onun danışığını dodaqlarının tərpənişinə görə təxmin edib ona görə də söhbət edərəm.Ziyarətə gedəcəyi zaman qonşusu ilə nə danışacağı haqda fikirləşdi ki, gedən kimi qonşudan soruşaram:"Ey mənim dərdli qonşum, necəsən? O da mənə: "Yaxşıyam, qonşu,"-deyə cavab verər. Sonra nə yemək yediyini soruşaram.O hər halda mənə:"Şərbət içdim və ya mərcimək şorbası yedim,"-deyər.Mən də:"Nuş olsun"-dedikdən sonra müalicə üçün hansı həkimin gəldiyini soruşaram.O da:"Filan həkim,"deyincə: "O həkimin ayağı çox uğurludur,"-deyərəm.

Başında qurduğu bu fikir ilə qonşusunun ziyarətinə gedər. Salam verib otaqda oturduqdan sonra:"Necəsən, qonşum?- deyə soruşar. Xəstə:"Vəziyyətim çox pisdir, ölürəm,"-deyər.Kar adam:-"Allaha şükürlər olsun,"-deyincə xəstənin ürəyi sıxılar, qonşusunun bu sözü ona təsir edər. Şükrün heç yeridirmi deyə fikirləşərkən, kar adam yenə soruşar:"Nə yeyirsən?"Xəstə əsəbiləşərək:"Zəhər, zəqqum,"-deyə cavab verər.Kar adam yenə də əvvəldən fikirləşdiyi kimi təbəssüm edərək: "Nuş canın olsun,"-deyər. Bundan sonra xəstə lap əsəbiləşər,lakin yenə də bir söz deməz.Kar adam soruşmağa davam edər:"Müalicə üçün hansı həkim gəlir?"Artıq dayana bilməyən xəstə, bütün hirsi ilə:"Kim gələcək? Əzrail gəlir.Sən necə qonşusan? Çıx get burdan,"- deyə qışqırar. Kar adam isə öz sakitliyində:-"Doğrudanmı o gəlir? Onun ayağı çox uğurludur. Sevin, şadlan, artıq xəstəliyindən qurtardın,"-deyə cavab verər.

Xəstə belə bir qonşusu olduğu üçün çox təəssüflənir."Biz bu qonşunu heç tanımamışıq. Bu bizim elə can düşmənimiz imiş,"-deyə düşünər.

Kar adam isə icazə istəyərək qalxar və qonşuluq haqqını ödədiyini düşünərək sevinclə qonşusunun evindən ayrılar.Kar adam vəzifəsini yerinə yetirməyinin sevincini yaşayan zaman, qonşusu onun haqqında: "Xəstə ziyarətinə, halı sormaq, könül almaq üçün gələrlər. Adam qəlbimi qırdığı kimi, xəstəliyimi də artırdı,"- deyə düşünər.

Açıqlaması:-Kar adam qonşusunu Allah rizası üçün deyil, adət-ənənəni yerinə yetirmək üçün ziyarət edir.Savab işlətdiyini düşünür. Halbuki qonşuluq etmək istədiyi halda həm qonşuluqdan, həm də dostluqdan məhrum olar. Bunun kimi, bəndənin ixlasla etmədiyi əməllər də Allah qatında eyni nəticə verir.Camaata özünü göstərmək üçün edilən işlər insanı gizli şirkə, düşüncələrə düşürə bilər. Savab yerinə günah qazandırar. **(Mövlanə Cəzalinin" Kimyayi Səadət"-tərcümə A.Aydın.)**

BÖYÜKLƏRƏ VƏ ALİMLƏRƏ HÖRMƏT EDİB YER GÖSTƏRİN

O, böyük ağıllı, ayıq hökmdar,
Əmr etdi, verildi belə bir fərman:
"Alimdir gözümdə ən əziz insan
Elmlə, hünərlə!-başqa cür heç kəs,
Heç kəsə üstünlük eləyə bilməz!
Rütbələr içində seçildi biri
Hamıdan ucadır alimin yeri!" (İsgəndərnamə.)

Açıqlama:-Bir gün cümə namazında məscid camaatla dolmuşdu. Həzrəti Peyğəmbər Bədr müharibəsində iştirak edən möminləri başqa mühacir və ənsarlardan çox sevərdi. Bu məclisə həmin möminlərdən bir neçəsi girib Peyğəmbərə və orada əyləşənlərə salam verirlər. Orada oturanlar salamın cavabını qaytarsalar da, onlara yer vermirlər və onlar ayaq üstə qalırlar. Bu iş Həzrətə ağır gəldiyindən orada oturan ənsarlara üz tutub buyurur ki:"Ey filankəslər, yerinizdən qalxın ki,gələnlər əyləşsinlər." Ayağa duranlara bu söz ağır gəlir və onlar narazı olurlar. Bu vəziyyətdən münafiqlər tez istifadə edib, onlarla Peyğəmbərin arasını vurmaq üçün Peyğəmbərin onlara qarşı ədalətsiz rəftar etdiyini bildirdilər. Bundan sonra Allah tərəfindən həmin bu ayə nazil oldu, sizdən iman gətirənləri və elm sahiblərini, Allah iman gətirməyənlərdən və cahillərdən neçə dərəcə uca edər. Çünki alim, Allaha və Peyğəmbərə itaət etməyə görə başqaları ilə bərabər və elminə görə onlardan uca ola bilər. Allah etdiyiniz əməllərdən xəbərdardır.

Qeyd: Bir məsələni burada qeyd etməyi özümüzə borc bilirik və bu sözümüz cavanlaradır. Həmin tövsiyyə bundan ibarətdirki, böyüklərə, alimlərə, dindarlara, düzgün elm öyrədənlərə, müəllimlərə qeyri-adi istedadı olan insanlara, dəyərli sənətkarlara, onun kimliyindən asılı olmayaraq, (kimliyinə görə özü Allah qarşısında cavab verəcək), Allahın bir

az da olsa "Ülvü ruhunu"parlaq etdiyi, şəxslərə dəyər verərək, hörmət etsinlər.

Yenə də qeyd edirik ki, insanları tanımaq çətindir və çox vaxt ilk görünüş aldadıcı olur.Lakin bir alimə, vətəni, dini üçün çalışan insanlara, bu yolda canlarını belə fəda edən, hətta bu yolda şəhidlik zirvəsinə qədər yol gedən insanlara, yəni vətəni,əsil dini (münafiqələrin yolunda yox) uğrunda vuruşmuş insanlara rast gəldik də Allahın büyürduğu kimi, yol göstərib, hörmət edin. Bu ayədə buyurulduğu kimi:

əl-Mücadilə-11-Ey iman gətirənlər!Sizə "yerinizi genişləndirin ki, başqaları da əyləşsin" dedikdə, genişlik yaradın ki, Allah da Cənnətdə sizin yerinizi genişlətsin. Sizə"qalxın"deyildikdə, ayağa qalxın!

Dini hekayə:Cənabi-Haqdan Hz. Musaya belə bir xitab gəlir: "Ya Musa! Xəstələndiyimdə nə üçün mənim halımı soruşmağa gəlmədin?"Bu xitab qarşısında sarsılan Musa (ə.s.) deyər:"Ya Rəbbi! Sən qüsurlardan, xəstəliklərdən, nöqsan sifətlərdən uzaqsan.Bu xitabın sirrini mənə öyrət."Allah-taala belə cavab verər: "Mənim seçilmiş bir bəndəm xəstələnib, onu ziyarət etmiş olsaydın, məni ziyarət etmiş kimi olardın."

Açıqlaması:-Allah ilə bərabər olmaq istəyən kişi, Allah dostları olan insanların hüzurunda otursun. Onlar ilə bərabər olmaq bizə insanlığımızı xatırladır.Mənəvi qüsurlarımızı görərək, tərbiyə almamıza səbəb olur. Böyük alimlərin, ziyalı insanların, əsil dindarların arasında olmaq, onlarla bir məclisdə oturmaq insanı mənən təmizləyir. Bu çirkaba batmaqda olan dünya aləmindən uzaqlaşdıraraq, təmiz, ülvi bir aləmə aparır. **(M.Cəzalı"Altın Ögüdlər"-tərcümə)**

İNSANLAR BİLMƏDƏN ÖZLƏRİNƏ BƏD DUA EDƏRLƏR

əl-İsra-11-İnsan özünə xeyir dua edən kimi, bəd dua da edir. İnsan hər bir işdə tələskəndir.

Açıqlama:-Bu ayədə Allah dua edən şəxsin duasını qəbul etməyi xəbər verir. Lakin bəzi duaların qəbul olmaması Allah yanında olan bəzi hikmətlərə əsasən baş verir.

Dini hekayə:Bir oğru, ilanoynadanın sandığını oğurlayır. Axmaq oğru dəyərli bir şeyi oğurladığını düşünərək sevinirdi. Sandığın qapağını açan kimi ilan oğrunu çalır və onu öldürür.İlanoynadan isə yox olan ilanı tapmaq üçün oğrunun dalınca düşür. Bir yandan da ilana qovuşmaq üçün Rəbbinə dua edib, yardım diləyir. İlanoynadan belə gəzərkən,

oğrunu yerdə ölmüş görür.Oğrunu ilanın çalıb öldürdüyünü görüncə:-"Bizim ilan oğrunu təmizlədi.Oğrunu tapıb, ilanı geri alaram, deyə dua edirdim. Allaha şükürlər olsun ki,o dua qəbul edilmədi. İlanımın oğurlanması zərər yox, xeyir işim oldu"-deyə düşünür.

Açıqlanması:-Elə dualar vardır ki, dua edənin əleyhinədir.İnsanın zərərinə və həlakına səbəb olacaq bu duaları Allah bizə qarşı olan kərəm və mərhəmətindən qəbul etməz. İnsan isə dualarının qəbul olmadığını düşünər.**(M.Cəzalı"Altın Ögüdlər"tərcümə)**

Dini hədis:-Bir gün Allahın Rəsulu (s.ə.s.)dəstəmaz almaq üçün su istəyir və dəstəmaz alır. Sonra əlini uzadıb ayaqqabısını götürmək istərkən bir iri quş gəlib onun ayaqqabısını götürüb havaya qalxır. Quş ayaqqabını havada üzü-üstə çevirdiyindən, içindən bir ilan düşür. Bundan sonra isə quş ayaqqabını gətirib Peyğəmbərin qarşısına qoyur. Quşun Allahın izni ilə Peyğəmbəri qorumaq üçün ayaqqabını aldığı anlaşıldıqda Peyğəmbər (s.ə.s.) belə buyurur:-Bu hadisə məni ilandan qorumaq üçün Allahın bir lütfüdür.Allahım!İki ayaq üzərində gəzənlərlə qarnı üstə sürünənlərdən Sənə sığınıram.

Açıqlaması:-Cəza olaraq gördüyümüz bəla və müsibətlərin sonu bizim üçün xeyirli ola bilər. Böyüklərin düşüncələri:"Sıxıntı anlarında könlün arxayınlıq içində olmasıdır"-deyə buyurmuşlardır. Sufilər isə üzüntü və sıxıntını gizlin bir qızıl xəzinəsi kimi saxlarlar**. (M.Cəzalı"Altın Ögüdlər"-tərcümə.)**

BAŞQALARINA BƏD DUA ETMƏK

Bəd duadan saqın, mehriban danış,
Pusquda durmasın yolunda qarğış.
Birdən qoca qarı, cavan ah çəkər,
Hədəfə ox vurar erkən bir səhər... (N. Gəncəvi)

Hədis:-Ənis b. Malik rəvayət etmişdir:-Kim özünü hər hansı bir şey ilə öldürsə, Qiyamət günündə onunla da əzab verilər. **(Səhihi Buhari.)**

Hədis: Peyğəmbərimiz (s.ə.s.)buyurur:-Heç biriniz başqa birisinə; Allah sənə lənət etsin, Allahın qəzəbinə uğra, Cəhənnəmdə yan kimi bəd dualarla lənət etməsin. **(Hədisi -Qüdsi)**

Hədis: Peyğəmbərimiz (s.ə.s.)buyurur:"Əsil mömin kimsəni söyməz, kimsəni lənətləməz, sözündə həddini aşmaz və həyasızlıq etməz**."**

(Hədisi -Qüdsi)

Hədis:-Peyğəmbərimiz(s.ə.s.)buyurur:"Bir qul başqa birinə lənət etdiyi zaman o lənət göy üzünə çıxar; lakin o lənətə qarşı göy üzünün qapıları qapanar,yer üzünə enər,onun da qapıları qapanar. Sonra sağa,sola gedər, girəcək yer tapmayınca, lənət edilən adama dönər.Əgər o lənətə layiq deyilsə, bu səfər kim lənət edibsə, ona dönər.(**Hədisi -Qüdsi)**

Hədis: Peyğəmbərimiz buyurur:-Gənc bir qadın üzərində camaatın qiymətli malları olan bir dəvə üstündə gedərkən Allahın Rəsulunu gördü. Peyğəmbərimizin də aralarında olduğu camaatın yol keçməsi üçün dəvə mane olurdu.Qadın dəvəyə:-"Allahın lənəti sənə olsun, yürü" deyərək bəd dua etdi.

Bunu eşidən Peyğəmbərimiz (s.ə.s.) dedi:"Lənətlənmiş dəvəni yanınızda saxlamayın." (Ədu Davud və Tirmizi.)

Lənət -Allah dərgahından qovulmaq və uzaqlaşmaq anlamındadır.Bu yalnız insanın Allahdan uzaqlaşmasına səbəb olan sifətləri öz üzərində topladığı zaman baş verir. Bu da küfr və zülmün rəzalətidir.

Məsələn:"Allahın lənəti zalımların və kafirlərin üzərinə olsun" sözü yalnız Allaha məxsusdur. İnsanların bir-birlərinə qarğış edib, lənətləməsi Allahın qədərinə qarşı üsyandır və bu çox təklükəlidir. Hansı bir vəziyyət olursa-olsun, qəzəbləndiyiniz adamı yalnız Allah rücu edə bilərsiniz.

Lənəti yaradan hallar:1.Küfr(üsyan). 2.Bidət.(razılaşmamaq)

3.Fisq-(mənəvi pozğunluq) (üsyan)

Açıqlama:-Dünya alimləri müəyyən etmişlər ki, insanların bəd dua, nifrin etməsi göyün qoruyucu qatına, yer kürəsinin ritminə güclü təsir edir. Müşahidələr zamanı məlum olmuşdur ki, müəyyən bir toplumun birlikdə etdiyi bəd dua da, xeyir dua da təbiətin ahənginə təsir edir. Müasir dövrümüzdə təbiətdə baş verən hadisələr və təbii fəlakətlər biz insanların bir-birimizə qarşı olan mənfi münasibətlərimiz nəticəsində əmələ gəlir. Keçmiş həlak olmuş qövmlər kimi, bizim də öz xislətimiz və əməllərimiz yalnız özümüzə qayıdacaqdır. Çünki göy üzü bizdən nə alırsa, onu da özümüzə qaytarır.

MUSİQİ HAQQINDA

Çaylar Bethovenə, Üzeyir bəyə,
Dağlar babalara vüqar veribdi,
Simfoniya veribdi, Qatar veribdi. (M. Arif)

Açıqlama:Bütün dünyanın, planetlərin, günəşin, ayın, bütün göy və yer cisimlərinin öz səsi və öz ahəngi vardır. Peyğəmbərimiz Merac zamanı Ərşə qalxarkən göy üzündə və onun qatlarında olan bütün göy cisimlərinin öz ahəngi, öz səsi olduğunu, Lövhu-Məhfuzda bütün yaradılacaqların qədərini yazan qələmin də öz səsi (cırıltısı) olduğunu və bu səslərin ta Ərşə qədər davam etdiyini qeyd etmişdir.

Yer üzündə də yağışın, ağacların, yarpaqların, qarın, küləyin, zəlzələnin, çayların, dənizin, təbiətin, quşların,heyvanların və insanların, bir sözlə,bütün canlı və cansızların hamısının öz səsi və öz ahəngi vardır.İlk yaranan insandan başlayaraq, müasir dövrümüzdə və Qiyamətə qədər də bu belə davam edəcək, təbiətin və insanların öz musiqisi və öz ahəngi olub və olacaqdır.

Bəzən belə yanlış bir iddia irəli sürülür ki, guya İslamda təsviri sənət və musiqi qadağandır. İslamda sənətin sırf dünyəvi və dini tərəfləri birbirindən təcrid edilmir. Bəşərin dünyəvi və mənəvi yaşamı arasında uzlaşma və vəhdət önə çəkilir. Ancaq dünyəvi zövq insanların nəfsini Haqdan ayırmalı deyil, onun ruhu həmişə öz mənəvi əslinə yönəlməlidi.

Allah insanları yaradarkən onlara bir çox nemətlər ilə birlikdə duyğu üzvlərini də bəxş etmişdir.Bu hisslər ilə də bizi daim imtahan edərək, həddimizi aşmamağı tövsiyə etmişdir. Başqa duyğu üzvlərimizin istifadəsində həddi gözlədiyimiz kimi musiqi duyumunda da heyvani hisslərə deyil, ruhi, mənəvi hisslər ilə Allaha meyl etməliyik. Bundan əlavə, əgər hiss etmisinizsə,qəzəbin nifrətin, eşqin, məhəbbətin, ümumiyyətlə, insanın bütün hisslərinin öz musiqisi, öz ritmi vardır. Elmi dildə bu ritmə bioenerşi deyillər ki,bu zaman həmin səslər özlərini müxtəlif rənglərlə təzahür edirlər.

Musiqi bəşər mədəniyyətinin möcüzəsi, insan duyğularına olduqca güclü təsir göstərən ən yetkin sənət növüdür. Muğam isə çox uzun təkamül yollarını keçən, mürəkkəb sistemli zəngin bir musiqi növüdür.Şərq xalqlarının dünya sivilizasiya xəzinəsinə bəxş etdiyi dəyərli, elmi, mədəni və mənəvi töhfələr içində muğam sənəti özəlliklə seçilir. Bu mükəmməl, zəngin zövq sahibləri üçün nəzərdə tutulmuş sənət orta əsrlərdə İslamlaşan İspaniyadan tutmuş Hindistanadək geniş bir coğrafi məkana yayılmışdı. Muğam sənətinin ilkin nişanələri qədimlərə gedir, məsələn, bunu bayatıların avaz və ruhunda tapa bilərik. Onun inkişafı X-XIV əsrlərdə təşəkkül taparaq, zirvələrə yüksəlmişdir.

Tanrı insan və şeytanı, xeyir və şəri yaratmışdır.İnsanlar da həm halal musiqi, həm də də haram olan, şeytani musiqiləri bəstələmişlər. Halal musiqi ruhu oxşayaraq həyat həqiqətlərini insana dərk etdirib,

insana gözəl hisslər bəxş edərək, onu sanki ilahiləşdirir və Allaha qovuşdurur. Belə musiqi həyatın ritminə də, ahənginə də gözəl təsir edərək təbiətdə mülayim iqlim, insanlarda isə gözəl əhvali-ruhiyyə yaradır. Məsələn,belə rəvayət edirlər ki, Hz.Davudun xoş səsi, melodiyası Haqqa meyl yaradırdı.

Ümumiyyətlə, musiqi ruhu bir duyğudur ki, Allah bizə bəxş etmişdir. Yəni musiqi "ülvi-insani ruha" aid bir şeydir. Necə ki, ruhun iki xüsusiyyəti vardır, müsiqinin də iki xüsusiyyəti vardır. Biri "ülvi-insani" musiqidir ki, insana ülvi-müqəddəs hisslər bəxş edərək,ülvi aləmə aparıb, Allahın sevə-sevə tərtəmiz yaratdığı əsil insanlıq zirvəsinə qaldırır. Digəri isə "heyvani-Şeytani" musiqidir ki, İblisin narahat səsi nəfsi-həvayi (şəhvət hissi)hərəkətə gətirir. Haram, Şeytani musiqi insanlara verilmiş heyvani hissləri oyadaraq sanki onu insan cildindən çıxarıb heyvanlaşdırır və insan həm özünü, həm də Yaradanını unudur.

Biz özümüz bunu hiss etməsək də bu hallar təbiətin ahənginə pis təsir edir və onun ritmini pozur. Bu səbəbdən də nə qədər haram musiqilər, haram işlər və insanların bir-birlərinə nifrəti artıb, sevgisi azalacaq, bir o qədər də təbiətdə təbii fəlakətlər, zəlzələlər, ölümlər və bir çox qorxulu hadisələr baş verəcəkdir. Təbiət biz insanlardan aldığını-sevgini sevgi ilə, qəzəbi də qəzəb ilə özümüzə qaytaracaqdır.

Müasir dövrümüzdə şeytanın ordusu çoxaldığı kimi, haram musiqilər və haram işlər də çoxalmışdır.Həmin bu şeytani musiqi altında rəqs edən insanlar diskotekalarda və rəqs meydançalarında rəqs edən zaman özlərini qıraqdan müşahidə etsələr, həqiqətən də quduzlaşmış heyvanlara bənzədiklərinin şahidi olarlar. Ümumiyyətlə, insanı insanlıqdan çıxaran və Allahını unutduran, şeytana uyaraq özünün nəfsinə tabe edən, haram əməllər kimi, bu cür musiqilər də haramdır.

Halal musiqi isə Xalq şairimiz Bəxtiyar Vahabzadə demişkən: "Həyatın özü elə musiqidir"-sözünə istinadən, insana xoş təsir bəxş edir,onun ruhunu oxşayaraq ülvi, müqəddəs duyğulara, insanlığın ən yüksək mərtəbəsinə qaldırır və onu Allaha, həmçinin onun yaratdıqlarına qarşı sevgi və mərhəmətə çağırır. Dinimizdə buyurulan,"Üsuli-dinin" üçüncü qanunu olan Ədl onun qanunlarına, bütün yaradılmışlara və Yaradana qarşı sevgi, hörmət və ədalətə çağırır.

Əbdülqadir Marağayi misiqiyə olan sevginin qaynağını Allahda görür və bu sənətin dəyərini əsaslandırmaq üçün"Məqasidül-əlhan" kitabının başlığını "Bismillah"dan sonra belə başlayır:"Şükür olsun. O Allaha ki, səsləri ürəyəyatımlı tərzdə, ləhnlə (melodiyalar) və nəğmələrlə zinətləndirmişdir. O, bunları şöbələr və məqamlar şəklinə

salaraq dövrlər yaratdı, həmin dövrlər vasitəsilə ton (nəğmə) və melodiyaların sağlam təbiətə malik insanlar tərəfindən anlaşılıb, tanınmasına səbəb oldu.”O sonra belə davam edir:-“Sağlam zehinə və təbiətə malik olan hər bir insan musiqiyə meyillidir. Südəmər körpə də xoş səsdən sakitləşir. Çətinlik, kədər və hüzn baş verdikdə xoş avaz eşitmək insana rahatlıq və hüzur gətirir.”(13.v.2a)

Mövlana Cəlaləddin Rumi səma və musiqiyə aid 135 beytdən ibarət əsəri olan **“Məsnəvi” və 18 beytlik”Neynamə”**sinin bütün ideya məzmununu bir sadə neyin naləsi üzərində quraraq, musiqinin ruhun səmalara, Allaha qayıdışına təsirini təsvir edir.Ruh Allah tərəfindən qəlbə yerləşdiyindən və ən ali harmoniyanın ruhlar aləmi ilə bağlı olduğundan, musiqi, ilk növbədə, qəlbə və ruha təsir göstərir.Keçmiş Peyğəmbərlərimiz zamanında da və onların gətirdikləri dinlərdə də ilahi musiqilər olmuş və bu musiqilər insan həyatında mühüm rol oynamışdır.

Tövrat və İncildə də axırıncı Peyğəmbərin əlində bir kitab ilə, isti Ərəbistan çöllərindən musiqi, avazla, tərtillə Quran oxuya-oxuya, yeni bir dinlə nazil olacağı haqqında xəbərlər bildirilmişdi.

Quran ahəngi həyatın özü və bütün mənfi enerjiləri məhv edən bir qüvvədir. Həmçinin gözəl, ruhu oxşayan musiqi həyatın özüdür və bizim oxuduğumuz mərsiyə,növhə,ilahilər və azanımızın özü də elə musiqi üzərində oxunur.

Azərbaycan xalqının Allah tərəfindən bizlərə bəxş etdiyi bir çox nemətləri ilə birlikdə gözəl musiqisi, yeddi muğamı, (Segah, Rast, Şur, Çahargah, Bayatı-Şiraz,Hümaun) opera əsərləri, klassik əsərlər və muğam üstündə gözəl musiqiləri vardır ki, yer kürəsinin digər qitələrində yaşayan xalqlara belə bir musiqilər bəxş edilməmişdir. Muğamda iki əsas qütb:Yer və Göy, hissi və mənəvi, dünyəvi və dini-mistik, maddı və ruhi tərəflər bir-birindən ayrılmır. Bundan əlavə, muğam insanın zahiri hissləri ilə yanaşı, onun təxəyyülünə və düşüncələrinə də təsir göstərir. İnsanın dərketmə və batini bəsirət qabiliyyətini gücləndirir və görüş üfüqlərini genişləndirir. Deməli, muğamın idraklı əhəmiyyəti də vardır.

İslam mədəni mühitində musiqi haqqında ümumi baxışlar hələ Əbu Nəsr Fərabi(870-950 və İbn Sinanın (980-1036) əsərlərində irəli sürülsə də, muğam sənətinin yeni məqamlarının sistemli tədqiqi əsasən Qüdrətdin Şirazi(1236-1311),Səfyəddin Ürməvi (1217-1294), Əbdulqadir Marağayi (1353-1435) və Fətullah Şirvaninin (1417-1486) əsər və risalələrində öz ifadəsini tapmışdır.

Görkəmli bəstəkarımız Üzeyir Hacıbəyovun 19-cu əsrdə yaratdığı əzəmətli 12 sütunlu (Üşşaq, Nəva, Əbusəlik, Rast, Əraq, İsfəhan, Zirafkənd, Bözörq, Zəngulə, Rahəvi, Hüseyni, Hicazi) və 6 qülləli-avazlı (Gəvəşt, Gərdaniyə, Səlmək, Novruz, Mayə,Şahnaz) kimi gözəl əsərləri bütün dünya musiqisinin inkişafına təkan vermişdir. 19-cu əsrdə **Qara Qarayev, Fikrət Əmirov, Niyazi v**ə bir çox bəstəkarların əsərləri Azərbaycan və dünya misiqisinin inkişafında mühüm rol oynamışlar.

Mərsiyə,növhə də musiqi üzərində ifa edilir, bizim özümüzün səsi, danışığımız da bir musiqi ifadə edir. Qeyd etdiyimiz kimi elə bir canlı və cansız yoxdur ki,onun öz səsi və öz ahəngi olmamış olsun. Deməli, həqiqətən də həyatın özü başdan-ayağa elə musiqidir.Bu haqda Peyğəmbərimizdən belə hədis söylənilir**:"Quran oxuyarkən onu öz səsinizlə zinətləndirin.Hər bir şeyin özünəməxsus zinəti vardır. Quranın da zinəti gözəl ahəngdir".**

Bütün elmlərin mənbəyi Qurani-Kərimdə olduğu kimi, insan duyğularının, harmoniyasının və Allaha ucala bilməsinin sirləri də elə bu müqəddəs kitabdadır.

Böyük alim,dini tədqiqatçı olan Ə.Əhmədovun apardığı tədqiqatlar göstərir ki**, N.Gəncəvi** təbiət, humanitar, dəqiq elmlərlə bərabər, musiqi elminin sirlərinə də dərindən bələd olmuşdur. Onun əsərlərində musiqi alətlərinin və muğamların adlarına, musiqi məclislərinin təşkili, quruluşu və gedişi qaydalarına rast gəlirik.Bu baxımdan şairin **"Xosrov və Şirin"** poeması daha çox səciyyəvidir. Burada Nizami müxtəlif musiqi alətlərini və Xosrov Pərvizin sazəndəsi olan Barbədin çaldığı havaları peşəkar musiqiçi səviyyəsində təsvir edir.

Nəğmələr səslənir, səslənirdi hey...
Dünyanı bürüyüb asiman кimi,
Barbəd gətirmişdi fəğanə simi.
Nəğməylə dostlara səfa verirdi,
Xəstə ürəкlərə şəfa verirdi.
Qalxıb ucaldıqca udunun səsi
Hər teli çalırdı Davud nəğməsi.
Zəngulə xoş səslə axıb gedirdi,
Nəfəsi Isatəк can bəxş edirdi.
Manqala dönmüşdü əlindəкi ud,
Кönüllər yanırdı onda, sanкi ud.
O, şəкər töкürdü çalan əliylə,
Yatırdı bərк gecəquşular belə.

Burduqca bərbətin aşıqlarını,
Bərbət ucaldırdı ahu-zarını.
Mizrab vuran zaman ipək tellərə
Büründü nəğməyə bütün dağ-dərə.
Nikisa adlı bir çalğıçı vardı,
Qoçaq, munis nədim, çox pürvüqardı.
Gündə bir havanı yaradan fələk
Onu yaratmışdı öz səsilə tək.
Ruddan mövzun səslər çıxaran usta
Nəğmədə durğunu etmişdi icad.
Elə şirin-şirin hava çalırdı,
Quşlar belə yerdə qanad salırdı.
O qədər gəlirdi nəğmə xoşuna,
Zöhrə dolanırdı fələk başına.

Ə.Əhmədovun araşdırmasına görə Nizami öz əsərlərində ud, rud, rübab, çəng, ərğənun, bərbət, kamança, setar, tənbur və s. kimi simli alətlərin,ney, mizmar, kərrənay, şeypur, musiqar və s. kimi nəfəs alətlərinin, kus, təbil, dohol, məqrə (böyük təbil) və s. kimi zərb musiqi alətlərinin adını çəkmişdir.

Bir insan bilirəm hər nəğməni mən,
Nəğmə də insanla bir doğulubdur.
Ürəkdə sevinci, qəmi kəşf edən
İlk səyyah bəlkə də nəğmə olubdu
Nəğməni körpə tək böyüdüb insan,
Nəğmə ana olub - ovunmuşuq biz.
Dərdin, ehtiyacın tufanlarından
Azmı nəğmələrlə qorunmuşuq biz?!
Sellər uyudubdur laylalarımız,
Çöllər uyudubdur holavarımız.
Odlu şeirlərlə suvarıb bəzən
Qəzəb qılıncını babalarımız.
Vətən nəğmələri olmasa bir an
Könüldə gül açıb yaz ola bilməz.
Nəğməsi olmayan, şeyri olmayan
Bir xalqın tarixi yazıla bilməz!
Fikirlər dolanır başımda min-min,
Görən doğrudanmı oxunmur şeir?

Görən doğrudanmı insan qəlbinin
İncə hisslərinə toxunmur şeir?
Məmməd Araz (Görən doğrudanmı oxunmur şeir?)

MƏRSİYƏ HAQQINDA

Bəşər müxtəlif millətlərə, müxtəlif dinlərə, müxtəlif dillərə bölünməsinə baxmayaraq, hər zaman qəmi və sevinci eyni cür dərk edir, eyni hissləri keçirirlər və bu qəmi-sevinci sözlərlə büruzə verirlər.Insanlar qədim dövrlərdən şadlıqlarını ifadə edən nəğmələr, kədərli olmalarını bildirən hüznlü şeirlər yaratmışlar.Hələ eramızdan əvvəl VII əsrdə Yunanıstanda elegiya adlı kədər, qəm və hüznü ifadə edin şeirlər yaranmağa başlamışdır.

Böyük Səlcuqlar dövründən başlayaraq İraqi-Ərəbdə yurd salan müsəlman şairlərlə bərabər, hətta xristian ərəblər və bütpərəst hindli şairlər də mərsiyələr işləmişlər.Bütün bu əsərlər içərisində ən məşhuru Möhtəşəm Kaşaninin, Qumrinin, Racinin şeirləridir. Ərəb yazıçıları içərisində birinci olaraq Əbu Müxnəf bin Yəhyanın (VIII əsr) "Kitabi-məqtəlil Hüseyni" əsəri geniş yayılmışdır. Bu əsər həm də ilk ərəb romanı kimi tanınmışdır.Ərəb dilində yazılmış ilkin məqtəllərdən biri də Əbül-Fərəc İsfahaninin (897-967) "Məqatilüt-Talibin" adlı əsəridir. Bu əsərdə Cəfər bin Əbu Talibin və övladının şəhadəti, Kərbəla vaqiəsi daha çox tarixi planda əksini tapmışdır. XI əsr müəllifi Əbu İshaq İsfərayinin**"Nurül-ayn fi Məşhədi Hüseyn"** adlı əsəri də bir məqtəl örnəyi kimi səciyyəvidir. Burada Müaviyə və Yezid haqqında məlumat verilmiş, Kərbəla hadisələri təsvir edilmişdir.

Ümumiyyətlə, ərəblərdə məqtəl yazmaq ənənəsi uzun əsrlər boyu davam etmiş, rəngarəng nümunələrdə yaşamışdır. İranda da məqtəllər yazmaq ənənəsi çox qədimdir. Xüsusilə iranlıların içərisində Kərbəla vaqiəsi geniş yayıldığından məqtəl yaratmaq ənənəsi dərin kök salmış və sabitləşmişdir.İranda Büveyhilər (932-1055)və Səfəvilər(1499-1750) zamanında məqtəli-Hüseyni mövzusu geniş vüsət qazanmış, onların məfkurə və inam məsələsinə çevrilmişdir. Fars ədəbiyyatında Hüseyn Vaiz Kaşifinin (?-1505) "Rövzətüşşühəda" əsəri (1502) ilk məqtəl örnəyi kimi rəğbət qazanmış, ədəbi dini abidə kimi geniş yayılmışdır. M.Füzuli də bu əsərin adını öz əsərində çəkmiş və onu "Hədiqətüs-süəda"nın əsas qaynağı saymışdır: "məşhur olan "Rövzətüş-şühəda" kitabıdır ki, mövlana Hüseyn Vaiz tərəfindən tarixdən faydalanmaqla onu şərh etmiş və təfsir edib diqqətlə yazmış və rəvayətləri yenidən canlan-

dırmışdır. Məsrəi Tuasinin "Kitabi əlməlhut fi qətli ət-tufuf" əsərində əksini tapan əhvalatlar tarixi və əfsanəvi səciyyəsi ilə seçilir. Ələvilərdən sayılan Seyyid Raziəddinin (1193-1266) əsəri də bu silsilədən yazılmış əsərlərdən biridir.

Türk ədəbiyyatında ilk məqtəl örnəyi Qəstəmonlu Şazinin "Dastani məqtəli-Hüseyni" əsəridir. O bu əsəri 1361-ci ildə mənzum şəkildə yazıb bitirmişdir.

Əsər 3313 beyt və on fəsildən ibarətdir.1499-cu ildə Yəhya Baxşinin yaratdığı "Məqtəli-Hüseyni" əsəri də çox səciyyəvidir. Həcmi 976 beytdən ibarət olan bu əsər mənzum bir əsərdir.Sadə və aydın bir üslubda yazılmış Yəhya bin Baxşinin əsəri İmam Həsən və Hüseynə müraciətlə başlayır. Bütün bunlardan başqa türk ədəbiyyatında Lamiinin (1532), Hacı Nuər Raddin Əfəndinin (1530) əsəri, Gelibolulu Caminin "Səadətnamə" əsəri (1534), Aşiq bin Əli Nəttanın (1520-1572) tərcüməsi, habelə müəllifi bəlli olmayan çoxlu əsərlər də tanınmaqdadır.

Azərbaycan ədəbiyyatında hələlik bəlli olduğu kimi ilk dəfə olaraq Nişati məqtəl mövzusunda bir əsər yaratmış, Şah Təhmasibin əmri və Şiraz hakimi Sərxan Zülqədərin göstərişi ilə Hüseyn Vaizinin "Rövzətüş-şühəda" əsərini "Şühədanamə" adı altında 1538-ci ildə türkcəyə tərcümə etmişdir.Səfəvi şahının buyruğu ilə əsər yazan Nişati gerçəkdə isə türk oymaqlarının mənəvi ehtiyacını nəzərə alaraq yeni bir əsər yaratmışdır.

Azərbaycan ədəbiyyatşünası F.Köçərli isə Füzulinin nəsr yaradıcılığını və ilk dəfə 1845-ci ildə Qahirədə çap edilmiş"Hədiqətüs-sühəda" əsərini türk və əcəm nəsri tarixində yeni bir hadisə kimi mənalandırır. Şərq aləmində, xüsusilə Azərbaycanda da ilk mərhələlərdə oxşamalar, bayatılar, ağı və sağurlar yaranmağa başladı və bununla da insanlar öz qəmlərini, kədərlərini başqalarına çatdırmağa başladılar. Daha sonralar isə, məna etibari ilə bunlara yaxın, lakin məzmun,üslub, dil və kompozisiya cəhətdən bir qədər fərqli olan mərsiyələr yaranmağa başladılar. Əvvəllər məşhur şəxsiyyətlərin və hökmdarların ölümünə ithaf olunan bu ağılar, Kərbəla faciəsindən sonra isə Azərbaycanda mərsiyə ədəbiyyatı təşəkkül tapmağa başladı."Hophopnamə"nin sahibi Mirzə Ələkbər Sabirin yazdığı mərsiyələr, yaxud Əliağa Vahidin mərsiyələri, göstərir ki, Azərbaycanda kommunistlərin hakimiyyəti dövründə də İslami mahiyyət qorunub saxlanmışdır.

Mərsiyə ədəbiyyatının İslamın qorunub saxlanmasında böyük rolu olmuşdur.Təkcə bunu qeyd etmək yetər ki, Sovet imperiyası dövründə heç bir dini ədəbiyyat olmadığı zaman insanlar təkcə mərsiyələrlə Kərbəla hadisələri haqqında məlumatlara yiyələnmiş, Imam Hü-

seynin şəxsiyyətini dərk etmişlər. Bundan əlavə mərsiyə ədəbiyyatı insanlara qəhrəmanlıq, amal uğrunda mübarizə aparmaq öyrədir. Məşhur ədəbiyyatşünas Fürudin bəy Köçərli deyirdi:"Əgər iradü etiraf olunsa ki, kədər ilə səfa və qəm ilə sürur və yaş ilə nur bir yerdə ola bilməz, bunlar bir yerdə olduğu halda uyuşmaz, onda deyə bilərik ki, bəli, Imam Hüseyn müsibətində bir feyz vardır, bir yandan ağladır, bir yandan nuraniyyət bəxş edib şad qılır, bir yandan qəmləndirir, bir yandan qüssədən azad edir. Bir yandan şikəstəvü pərişanhal edir, bir yandan uca məqamlarda dövr etməyə pərü bal verir. Bu feyzü bərəkət, bu qeyri-adi halət və xüsusiyyət ancaq Seyyidüş-şühəda müsibətü əzasına müxtəssdir,(mənsubdur) ancaq mahi-mühərrəmdə tərtib olunan təziyələrdə hiss olunur…"

Bəli, Köçərlinin dediyi kimi, insan mərsiyə oxunan məclislərdə özgə bir hal tapır, nə qədər qəmlənsə də, qəlbi atəşlə dolur və başqa bir halət tapır.

Mərsiyə ədəbiyyatını əsasən iki yerə bölmək olar ki, bunlar özləri də sonradan bir neçə yerə bölünürlər:

1) Mərsiyə, növhə,fərd,əfrat,Rovzə,sədayi,cuşi.

2) Məqtəl-Kərbəla hadisələri barədə olan irihəcmli mənzum və mənsur əsər.

Yuxarıda qeyd etmişdim ki, mərsiyə əsasən sağur, ağı və bayatılardan təşəkkül tapmışdır.

Bayatı və oxşamalar da iki hissəyə bölünür:

1)Kərbəla hadisəsindən əvvəl deyilən bayatılar;

Burada dini motivlər olmadığı üçün sadəcə olaraq bir bacı tərəfindən qardaşa və ya ana tərəfindən oğula nisbət deyilmişdir.

2)Kərbəla hadisələrindən sonra deyilən bayatılar;

Burada atrıq hər bir ana öz övladının nəşi üstündə ağlayanda artıq övladını Əli Əkbərə bənzədir, hər bir qardaşı ölən bacı qardaşını oxşayanda Imam Hüseyni (ə) və ya Əli Əkbəri yada salır.

Sonradan bu bayatılar getdikcə kompleks şəklində oxunmağa başlandı.Yəni 5-6 bayatının birləşməsindən şeir kimi, primitiv mərsiyə kimi oxunmağa başlandı. Getdikcə bu bayatılar tam şəkildə mərsiyəyə çevrilməyə başladı.

XII-XIII əsrlərdə mərsiyələr yaranmağa başlasa da hələ ki, bu mərsiyələr bayatı formasından tam olaraq qurtula bilməmişdi. Şah İsmayıl Xətainin bir mərsiyəsinə nəzər salaq:

Bu gün matəm günü gəldi,
Ah Hüseynü,va Hüseyn.

Sənin dərdin bağrım dəldi,
Ah Hüseynü, va Hüseyn.

Bundan sonrakı zaman ərzində isə mərsiyə ədəbiyyatı nə qədər inkişaf etsə də, ən uca zirvəyə XVIII-XIX əsrlərdə çatmışdır.Bu dövrdə mərsiyə ədəbiyyatında özünəməxsus yer tutan şairlərdən Mirzə Muhəmməd Təqi Qumri, Molla Muhəmməd Hüseyn Mərğeyi Dəxil, Hacı Əbülhəsən Raci, Hacı Rza Sərraf Təbrizini bu ədəbiyyatın formalaşmasında böyük işlər görmüş və özünəməxsus məktəblər yaratmışlar ki, hələ də müasir şairlər həmin ədəbiyyat günəşlərinin şüasının əsərindən çıxa bilmirlər. Artıq bu zaman mərsiyə və növhələrin məqtəsi iki misra və sonrakı bəndlər isə 4 misradan ibarət olur. Bəzən bəndlərin arasında fərdlər olurdu ki, bu da qəsidə formasında olaraq həddən artıq qəmli şeirdir. Bundan da müasir rövzələr yarandı.Bunlar da bir neçə təsnifata bölünürlər:Mərsiyə, növhə, fərd, əfrat, rövzə, sədayi, cuşi. Mərsiyələrin çoxu Hümayun və Şur havalarında, yaxud Hüseyni, Zabul və Hicaz üstündə ifa edilir.

QURANİ-KƏRİMİN TƏRCÜMƏSİ VƏ TƏFSİRİ TARİXİ

Dünyada ərəb olmayan digər millətlər İslam dinini qəbul etdikdən sonra Qurani-Kərimi öz ana dillərinə tərcümə etməyə başladılar.Bu sahədə İran və Türk alimləri mühüm fəaliyyət göstərmişlər.

Hz.Peyğəmbərin dövründə Qurani-Kərimin bəzi ayələri xarici dövlət başçılarına diplomatık məktublar göndərildiyi zaman, göndərilən elçilər tərəfindən tərçümə edilərdi.Böyük tarixçi və hüquqşünas olan Əs-Səraxsi belə deyir:"Rəvayət edildiyinə görə iranlılar, Peyğəmbərin ən yaxın dostu və əshabəsi olan Salman Farsiyə məktub yazaraq Quranın birinci surəsini tərcümə etməsini ondan istəmişlər."

Tacus-Şəriə də"Nihaye haşiətül-hidayə" adlı əsərində belə deyir: "Salman Farsi Peyğəmbərə(s.ə.s.) müraciət etmiş və onun razılığı ilə Quranın birinci surəsini fars dilinə tərcümə etmişdir. Bildiyimiz kimi Salman Farsi Peyğəmbərin ən yaxın əshabələrindən biri idi. Beləliklə, demək olar ki, Qurani-Kərimin az da, olsa, ilk tərcüməsi Həzrəti Peyğəmbərin zamanında edilmişdir.

Türklər İslamdan əvvəl buddizim,zərdüştilik və xristian dinləri ilə təmas qurmuşdular. Türk xalqlarının 10-cu əsrin ortalarında İslam dinini kütləvi olaraq qəbul etdikdən sonra,bu yeni dinin təlimatını və əsaslarını öyrənmək və dinin əsas mənbəyi olan Qurani-Kərimi anlamaq üçün onun tərcüməsinə böyük ehtiyacları vardı.

İslamdan əvvəl türklər arasında uyğur əlifbası yayılmışdı.İlk Quran tərcümələrinin də bu əlifba ilə tərcümə edilmə ehtimalı vardır.Lakin bu əlifba ilə yazılmış mükəmməl Quran tərcüməsi tapılmamışdır.Bu günümüzə qədər gələn ən əski türkcə Quran tərcüməsi bunlardar:-

1.Rusiya Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunda olan tərcümə.

2.Türk və İslam əsərləri Muzeyində olan tərcümə.

3.İstambulda millət kitabxanasındakı tərcümə.

4.Mançestr şəhərində yerləşən Rylands kitabxanasındakı Quran tərcüməsi.

1378-1503-ci illərdə paytaxtı Təbriz olan Ağqoyunlu dövlətində dövlət dili Azərbaycan dili idi. Qaraqoyunlular isə1380-1467-ci illərdə Şirvan istisna olmaqla bütün Azərbaycan, indiki Ermənistan ərazisi,Gürcüstanın bir hissəsi,qərbi İran və İraqı əhatə edən dövlət idi. Qaraqoyunlular Oğuz-türk əsilli tayfalardır. Bayraqlarında təsvir olanan qoyunun rənginə görə Qaraqoyunlular(1410-1468) adlanırdı.Faruk Sürənin apardığı tədqiqatlara görə Ağqoyunlu sultanı Uzun Həsən Quranı Azərbaycan dilinə tərcümə etdirib,hüzurunda oxutdurub ki, bu da müqəddəs kitabımızın dilimizdə ilk tərcüməsi sayılır.Bu dövrdə Azərbaycan və türk dilləri gündən-günə artırdı. Hürufi mütəfəkkirlər Quranda ərəbcə tərcüməni mətnlə yanaşı, türkcə məala da yer verirdilər.

Qurani-Kərimin Azərbaycan dilinə tərcüməsi orta çağlardan başlasa da, əlyazma şəklində qalaraq, çap edilməmişdir.Günümüzə qədər gələn tərcümə və təfsir isə Bakı qazisi Muhəmməd Kərim Ağa Bakivinin (1853-1938) "Kəşfül-həqayiq an nükətil-ayati vəd-bədaiq" adlı əsəridir.Bu Quranın tərcüməsi Axund Kərim Ağa Əlizadə tərəfindən tərcümə edilmişdir.Bu tərcümə Azərbaycanın milyonçu və xeyriyyəçi oğlu,vətəni, xalqı üçün böyük xidmətləri olan və yaddaşlarda gözəl xatirələr qoyan Zeynalabdin Tağiyev tərəfindən sifariş edilmiş və maliyyələşdirilmişdir. Üç cilddən ibarət olan bu təfsir-tərcümə"Kaspi" qəzetinin Buxariyyə mətbəəsində çap edilmişdir. Birinci və ikinci cildi 1904-cü ildə, üçüncü cildi isə 1906-cı ildə nəşr olunmuşdur.

1908-ci ildə Zaqafqaziya müsəlmanları Məhəmməd Kərim Mövlazadə Şəkivinin(1854-1932)"Kitabul-bəyan fi təfsiril-Quran" adlı təfsiri,əski əlifba ilə Tiflisdəki Qeyrət mətbəəsində çap edilmişdir.1920-ci il aprelin 28-də Azərbaycanda dini imtiyazlar aradan qaldırılır və "Allahsızlar Cəmiyyəti"qurulur ki, bu da müsəlmanlara qarşı ateizm təbliğatını artırır.

Bütün bunlara baxmayaraq dini fəaliyyətlər gizli də olsa, davam etdirilirdi.İkinci dünya müharibəsindən sonra isə bu təbliğat daha çox zəifləyərək,öz gücünü itirməyə başladı.

1962-ci ildə Əhməd Həşimzadənin yazıb tamamladığı 4 cildlik "Təfsirul-Quranil-əzim" adlı təfsiri əski əlifba ilə yazılmış və Azərbaycan Elmlər Akademiyasının Əlyazmalar İnstitutuna verilmişdir.

Azərbaycan ədəbiyyatçısı Əli Fəhmi Ələkbərov 1969-1970-ci illərdə Vasim Məmmədəliyevin redaktəsi ilə Bəqərə, Ali-İmran və Nisə surələrinin doqquz ayəsini tərcümə etmişdir.

1991-ci ildə Azərbaycan öz müstəqilliyini qazandıqdan sonra akademik Ziya Bünyadovun Vasim Məmmədəliyev ilə birlikdə hazırladıqları Quran məalı kiril əlifbası ilə çap edilmiş, sonra isə həmin bu Quran məalı 1996-cı ildə latın əlifbası ilə çap edilmişdir.

1997-ci ildə Nəriman Qasımoğlunun kiril əlifbası ilə hazırladığı tərcümə işıq üzü görmüşdü.2000-ci ildə İranın Beynəlxalq "Əlhuda" Nəşriyyatının tərçüməçilər qrupu tərəfindən yeni bir Quran məalı hazırlanmışdır.Həmin bu ildə Məhəmmədhəsən Qənioğlu və Tariel Bilaloğlunun latın qrafikası ilə hazırladıqları Quran tərcüməsi və təfsiri Türkiyə Diyanət Vəqfi tərəfindən nəşr edilmişdir.

HƏDİS ELMİ HAQQINDA

"Hədis" sözünün mənası "yeni" deməkdir.Eyni zamanda xəbər, əsər mənalarında da işlənir.Terminoloji mənası söz,əməl,əxlaq fitrəti ilə təsvir olunaraq Həzrəti Peyğəmbərə mənsub edilən amillərdəndir.

Hədislərin mətnlərinə görə bir neçə bölümü vardır:

1-ci-Qövli hədislər:-Peyğəmbərin müxtəlif hadisələrlə bağlı söylədiyi hədislər.

2-ci-Feli hədislər:-Peyğəmbərin gördüyü işlər,dəstəmaz alması, namaz qılması,Həcc ayinlərini yerinə yetirməsi ilə bağlı olan hədislər.

3-cü-Təqriri:-Peyğəmbərin bu və digər hadisəyə münasibət bildirdiyi hadisələrdir. Bu münasibətlər sükut, gülümsəməklə və yaxud bir kəlmə söz ilə ifadə olunur.

4-cü Qüdsi hədislər:-Bu hədislər vəhyə bağlı olub,Allah tərəfindən təlqin olunan hədislərdir.Qurani-Kərimdə həm söz, həm də məna Allaha məxsusdur.Qüdsi hədisdə isə mənanın Allaha, sözün Peyğəmbərə aid olduğu bildirilir.Qurani-Kərimlə Qüdsi hədislər arasında olan fərqlər bunlardır:

1-ci-Namazda Qurani-Kərimdən surələr oxuyuruq, ancaq Qüdsi hədisdə isə oxumaq olmaz.

2-ci-Quran oxuyan şəxsə hər bir hərf üçün 10 savab verilir. Qüdsi hədislərdə isə belə şey yoxdur.

3-cü-Qurani-Kərim Hz.Cəbrail vasitəsi ilə Allah tərəfindən nazil olmuş, Qüdsi hədis isə ilham və ya yuxuda bildirilmişdir.

Hədisə aid olan elmlərin birinin adı rical elmidir.Bu elm vasitəsi ilə hədis ifadə edənlər araşdırılır.İkinci elm isə dirayə elmidir.Bu elmin mövzusu hədisi tanımaqdır, hədislərin qisimləri və səviyyələri bu elmdə izah edilir. Hədis Qurani-Kərimdən sonra İslam hüququnun ikinci ana qaynağı kimi qəbul edilir.O, Quranı açıqlayır və onun hökmlərini izah edir. İslamı hədissiz təsəvvür etmək mümkün deyil.Buna görə də müsəlmanlar Peyğəmbərin sağlığında ikən hədisin əzbərlənməsinə, qorunmasına və anlatılmasına böyük diqqət göstərmişlər.Bu diqqət sonrakı nəsillərdə də davam etmişdir.

Bəzi mənbələrin verdiyi məlumata görə, Qurani-Kərimin böyük əksəriyyəti nazil olduqdan sonra Həzrəti Peyğəmbər ondan hədis yazmağa icazə vermişdir.İslam alimlərinin böyük əksəriyyətinin verdiyi məlumata görə, İslamın ilk çağlarında və Allah Rəsulunun öz göstərişi ilə çoxlu sayda hədis kitabları qələmə alınmışdır.Bu hədisləri Hz.Əliyə, Fatimə əleyhaya, Salman Farsiyə, Əbuzər Küffariyə və başqalarına yazdırmışdır.Təəssüf ki, bu kitabların heç biri bizim günümüzə qədər gəlib çatmamışdır.

Hədis tarixindən məlum olur ki,Hicri-qəmər tarixinin I-II əsr-lərində çoxlu hədis kitabları meydana gətirilmişdir.Lakin bu dövrdə meydana gətirilən hədis kitabları, hicri 3-5-ci əsrlərdə qələmə alınan hədis kitabları qədər məşhur olmamışlar. Bildiyimiz kimi ilk dövrlərdə qələmə alınan hədis kitablarında, bütün növ hədislər yer almışdır.Demək olar ki,3-cü əsrdən etibarən, hədis əsərlərinin yazılıb,kitab halına salınması dövrü başlanmışdır.Hicri 3-cü əsrdə meydana gətirilən hədis kitablarından 6-sı,"Kütubi Sinnə" hazırda İslam dünyasının etimad etdiyi ən məşhur kitablardandır.Bu kitabların müəllifləri aşağıdakılardır:-

1-ci Səhihi Buxari,Səhihi Müslüm-Səhih kitabları-Əl-cami in Səhih-doğruların cəmi.

2-ci-Sünəni-Tirmizi,Sünəni Əbu Davud,Sünəni ibni Macə, Sünəni Nəsaih-Sünən kitabları,yəni fiqhi babları.

Hicri-qəməri tarixinin 40-cı ilində meydana gələn hədis kitablarının içində ən mötəbəri və Qurandan sonra İslamın əsas qaynağı olan Hədis kitabları "Kutubu ərbəə"-Dördüncü kitab adlanır.Bu kitabların müəllifi

hicri 4-cü əsrin əvvəllərində vəfat etmiş Muhəmməd ibn Yaqub ibn əl Kuneynidir.

Hicri 4-5-ci əsrlərdə meydana gətirilən hədis kitabının adları və müəllifləri aşağıdakılardır:-

1-ci-"Üsulu-Kafi"- Əlləmə Kuleyni.

2-ci"Mənla Yəhzuruhul fəqih"-Şeyx Səbuh.

3-cü-"Məhzibun əhqaf","əl-İstizarfimə Əxvar"-müəllifi- Şeyx Tusi.

QURAN DİNLƏMƏYİN XEYRİ

Hollandiya psixoloqu, professor Van der Hovenin qeyri-adi bir kəşf etdiyi bildirilir. O deyir ki, Qurani-Kərimi oxumaq və "Allah"deyə tez-tez adını çəkmək insanın sağlamlığına müsbət təsir göstərir.O, bunu təcrübə yolu ilə sübuta yetirmişdir. Bu tədqiqatlarda ən təəccüblü fakt odur ki,Van der Hoven müsəlman deyildi. Professor öz kəşfini üç il ərzində bir çox xəstələr üzərində apardığı dərin tədqiqatlarla təsdiqləyir. Onların bəziləri də müsəlman deyildilər. Çoxu isə ərəbcə bir kəlmə belə bilmirdi.Xəstələrin hamısına"Allah"sözünü düzgün tələffüz etməyi öyrədirlər.Bu təcrübənin xüsusən ruh düşkünlüyünə məruz qalan, ümidsizliyə qapılan və psixoloji gərginlikdən əziyyət çəkən insanlarda son dərəcə heyrətləndirici təsiri olub. Psixoloq deyir:"Quranı ərəbcə oxuya bilən və bu müqəddəs kitabı daim mütaliə edən insanlar, psixoloji cəhətdən müdafiə olunublar."

Professor qeyd edir ki, "Allah" sözünü ərəbcə təkrar etmək də yaxşı nəticə verir.O izah edir ki, "Allah" sözündə hər bir hərf psixoloji xəstəliklərin müalicəsində öz rolunu oynayır.

Amerikalı həkim, müsəlman alim Əhməd əl-Kadiyin Panama şəhərindəki "Əkbər" klinikasında (Florida ştatı) apardığı araşdırmalar zamanı ucadan oxunan Quran ayələrinin böyük əsəb keçirmiş, ürək xəstəliyindən və bəzi başqa xəstəliklərdən əzab çəkən xəstələrə müalicəvi təsir göstərdiyini aşkarlayıb.Tədqiqat üçün ərəb dilini bilməyən və Ouran haqda təsəvvürü olmayan kişi və qadınlar seçilib.Onlara Ərəb dilində Quranı oxuyub,sonra ingilis dilində tərcümə edirdilər. Quran ayələrinin xəstələrə təsirinin nəticəsi ən müasir kompyuterlər və alətlərlə izlənilirdi. Bir il ərzində aparılan tədqiqatların nəticəsi Şimalı Amerika Tibbi Konqresində (1984-cü il avqust,Missuri şəh.) açıqlanıb. Bəlli olub ki, Qurana qulaq asan xəstələrin 97 faizi stressdən qurtarıb və bu onların orqanizminə nəzarət edən xüsusi cihazlar vasitəsi ilə təsdiqlənib.

İSLAM DİNİNİN BUDAQLARI FÜRUİD-DİN

Füruiddin(dinin budaqları)-insan bədəninin tərbiyə və mühafizəsi üçün Allah tərəfindən verilmiş qanundur.Füruiddin həmçinin insanın və insan cəmiyyətinin cismani cəhətdən səhhət və mühafizəsini təmin edən tədbirlər və qanunlardır.

Füruiddin 10 qanundan ibarətdir.İbadət-"Allaha xidmət etmək deməkdir."

1.Namaz-Gündə 5 dəfə Allaha yaxın olmaq məqsədi ilə qılmaq.

2.Oruc-Müsəlmanların hər il Ramazan ayında, sübh tezdən axşam gün batanadək haram işlərdən və yeyib-içməkdən çəkinmək.

3.Həcc-Kifayət qədər vəsaiti və səfər üçün fiziki qüvvəsi olan hər bir müsəlmanın ömründə bir dəfə Kəbə evini ziyarət etməsi.

4.Cihad-Allah yolunda müqəddəs savaş,həmçinin onun buyurduqlarını yerinə yetirmək üçün insanın öz nəfsi ilə savaşı.

5.Xüms-İldə bir dəfə bir müsəlmanın artıq qalan malının beşdə birini Allah yolunda verməsi.

6.Zəkat-Hər bir müsəlmanın malının müəyyən hissəsini kasıblara və xeyir işlərə xərcləməsi.

7.Əmr be-məruf-yaxşı işə çağırmaq.Hər bir müsəlman insanları haqq yoluna,yaxşı işlərə dəvət etməlidir.

8.Nəhy əz-münkər-pis işlərdən çəkindirmək.Hər bir müsəlman insanları pis yoldan qaytarmalı və onları günah işlər görməkdən çəkindirməlidir.

9.Təvəlla-Allahın dostları ilə dostluq etmək.

10.Təbərra-Allahın düşmənləri ilə düşmən olmaq.

Açıqlama: Əhkam-İnsanların həyatda dini vəzifələrini müəyyənləşdirən İslamın əməli göstəricilərinə "əhkam" deyilir.

Hər bir işi ki, insan əmələ gətirir, o əmələin İslamda xüsusi hökmü vardır.Bu elə hökmlərdir ki, əməli işlərimizdə boynumuza gələn təklifləri izah edir və yol göstərir.Bu hökmlər beş hissədən ibarətdir: -vacib, müstəhəb, haram, məkruh və mübah.

NİYYƏT HAQQINDA

Bütün yaşamağımızın əsası,mənası niyyətdir.Uca Allah bizim əməllərimizi dəyərləndirmək üçün ibadət-itaətimizə və niyyətimizə baxar. İslam dinində bütün ibadətlər, əməllər niyyətə bağlıdır. Niyyət insanda bu üç sifətin olması ilə əmələ gəlir.

1-ci Elm,2-ci İradə, arzu etmək,3-cü Qüdrət, güc-qüvvə.

Məsələn, insan yeməyi görməyincə yeməz. Görsə, lakin yemək istəməsə yenə də yeməz. Görüb yemək istəsə, lakin əllərinin iflic olması yenə də yeməyi götürüb yeməsinə mane olar. Bu halda hər hərəkətin başında bu üç amil insanda olmalıdır. Hərəkət gücə, güc də istək və iradəyə bağlıdır.Lakin istək elmlə bağlı deyildir. Bəzən elə şeylər vardır ki, göz onu gördüyü halda, könül onu istəməz. Lakin elmsiz istək meydana gəlməz, çünki insan bilmədiyi şeyi istəməz. İnsanı hərəkətə gətirib iş görməyə sövq etdirən bu üç amildir.

Hədis: Peyğəmbərimiz (s.ə.s.) buyurur: "Əvvəlcə əməlin niyyətini, sonra isə əməlini öyrən."

"Möminin niyyəti əməlindən və etdiklərindən önəmlidir."

"Mənim hüzuruma çıxanda öz hərəkət və əməllərinizlə deyil,öz niyyətinizlə çıxın**."(Zubdətul Əhadis.)**

Bununla,"əməlsiz niyyət niyyətsiz əməldən daha üstündür" demək istəmişdir. Deməli, niyyətsiz əməlin ibadət və əməlsiz niyyətin də itaət olmadığı məlum olur. İbadət iki şey ilə yerinə yetirilir:biri qəlb, digəri isə vücudla. Qəlb ilə yerinə yetirilən ibadət vücud ilə yerinə yetirilən ibadətdən üstündür. Niyyət qəlblə əlaqədardır, vücudun hərəkətləri ilə deyildir. Əslində, hərəkət niyyətin əməli üçün gərəklidir.Deməli, bütün məqsəd qəlbin dəyişməsidir. Qurtuluş və ya fəlakət elə qəlbin özündədir.

Hədis: Peyğəmbərimiz (s.ə.s.) buyurur:"Uca Allah sizin malınıza və ya görünüşünüzə baxmaz, qəlbinizə və niyyətinizə baxar. Qəlbdən kəsb edilən şey niyyətdir."(**Zubdətul Əhadis.)**

Hədis: Peyğəmbərimiz (s.ə.s.) buyurur:"Bütün əməllər niyyətə görədir;hər kəsə ibadətinin əvəzi niyyətinə görə verilir.Allah üçün yola çıxanın(Həccə gedənin) köçü Allah üçündür.Bir malı qazanmaq və ya bir qadın ilə evlənmək üçün yola çıxanın köçü Allah üçün deyil, öz istəyi üçündür**." (Zubdətul Əhadis.)**

Hədis:(Hədisi Qüdsi) Peyğəmbərimiz(s.ə.s.) buyurur:-Dünyada malını şəriətin əmrlərinə xərcləyən kimsə ilə onu görüb qəlbində-"mənim də malım olsaydı,belə xeyirli işlərə xərcləyərdim",-deyə düşünən kimsə də, eyni savabı alır.Şəriətə görə var-dövləti olub, lakin xərcləməyən kimsəyə baxıb-"mənim də malım olsaydı heç kəsə heç nə verməzdim",-deyən kasıbın da günahı, malını verməyən dövlətli qədər olar

Hədis: Həsən Bəsri Peyğəmbərimiz(s.ə.s.) buyurur:-Sonsuz Cənnət bu bir neçə günlük əməllə deyil,sonsuz yaxşı niyyətlərlə əldə edilir. **(Zubdətul Əhadis.)**

1-Cİ NAMAZ

Könül sahiblərinə əxlaq, hikmət göndərən,
Ruzi uman kəslərə ruzi, nemət göndərən.
İdrakın hər telinə düzüb inci, mirvari,
Düşüncənin gözünə işıq gətirən Tanrı.
Uca, pak alınlara səcdə nişanı vurar,
Cahanın şahlarına qızıldan tac qoydurar.(N.Gəncəvi)

Açıqlama:-Allaha yaxınlaşmanın təməli və dinin sütunu Namazdır. Namazda Həcc var,Oruc var, kəlmeyi-Şəhadət var.Kafir ilə müsəlmanı bir-birindən ayıran Namazdır. Əməlsiz namaz olmaz, namazsız da heç bir şey olmaz.Namazda hər şey həll olar.Könlün ustası, memarı namazın özüdür.

Namaz Qiyamət günündə Adəm övladının əməlləri arasında araşdırılacaq ilk əməldir. Əgər o, yaxşı olsa, bəndənin digər əməllərinə də baxılacaq.Qiyamət günü gələndə bəndəni çagırıb ondan soruşulacaq ilk şey namaz olacaq. Namazın içində hər cür ibadət toplanmışdır; təşbih, təhlil, təkbir, həmd, səna, təhiyyat, zikr, rüku, səcdə, Kəbə (qiblə) və sair. İnsan namaz qılmaqla başından tutmuş ayaq barmaqlarının ucuna qədər vücud parçalarının hamısı ilə Uca Allahın ibadətində durmuş olur. Mələklərin ayrı-ayrı etdiyi bu vəzifələrin tamamı namazdadır və ümməti Muhəmmədə Merac hədiyyəsi olaraq verilmişdir. Namaz insanı gün ərzində bir çox pis əməllərdən çəkindirir, insanın gözünü, qəlbini sanki özünə götürür. İyirmi dörd saatda beş vaxt namazı tərk edənlər sanki Allaha qarşı çıxırlar. Namaz bizi gündə beş dəfə, ildə isə 1825 dəfə Allah hüzuruna götürür. Namaz insanı haramlardan qoruyur. İki namaz arası Allah insanların pislik və günahlarını silir, qəlbi yumşaldır. Azanda "Allahu Əkbər "deyəndə, Allah öz hüzuruna bizləri dəvət edir ki, ona təzim və sitayiş edək. Niyyətdən sonra Fatihə surəsi ilə namaza başlayan kimi, sanki gözlərin önündə bir pərdə açılır və insanın maddi gözünün görə bilmədiyi, Allah ilə bizim aramızda əlaqə, rabitə yaranır. İnsan namazdan sonra qəlbində bir yüngüllük və rahatlıq hiss edir. Namazın əvvəlində Allahın razılıgı, sonunda isə əfvi vardır. Allahın əmr etdiyi kimi Namaz və oruc sırf bədənə aid ibadətlərdir. Orucda səhhətin vəziyyəti, xəstəliyi səbəbindən güzəştlər varsa da, namazda belə şərtlər və güzəştlər yoxdur. Zəngin-kasıb, sağlam-xəstə hər bir müsəlman namazı əda edəcəkdir. Ayaqda dura bilməyən, bir xəstəliyi olan otturaraq qıla bilər. Oturduğu halda əyilib qalxa bilməyən, səhhəti yol verməyən,

rüku və səcdəni işarə ilə edə bilər. Oturmağa belə imkanı olmasa, yatdığı yerdə işarə ilə namazını qıla bilər. Namaz, bizdən əvvəlki ümmətlərin hamısına fərz qılınmış bir ibadətdir. Məsələn, Hz. Loğmanın oğluna "Oğulcuğum, namazını dosdoğru qıl" deyə nəsihət etdiyi xəbər verilir. Hz. İsmayılın qövmünü namazı qılmağı əmr etməklə tərifləməsi və Hz.İsanın beşikdə ikən möcüzə olaraq danışması:"Mən hər harada olsam, oranı mübarək etdi. Mənə həyatda olduğum müddətcə namaz qılmağı, zəkat verməyi əmr etdi."Yəni dünyaya Tanrı tərəfindən göndərilən bütün Peyğəmbərlərə namaz qılmaq vacib buyurulmuşdur.

Hədis: Peygəmbər(s.ə.s.) bir gün, ətrafındaki ümmətinə:"Altı xüsusda mənə söz verin, mən də sizin Cənnətə girmənizə şahid olum,"-deyə buyurdu.Əshab:-"Ey Allahın Rəsulu, onlar hansılardır?,"-dedilər. Rəsulu Əkrəm:-"Namaz qılmaq, zəkat vermək, əmanətə xəyanət etməmək, zinadan uzaq olmaq, haramdan qorunmaq, dil və pis sözlərdən qorunmaq,"-deyə cavab verdi.

Əməlsiz namaz olmaz, namazsız da heç bir şey olmaz.24 saatda beş vaxt namazı tərk edənlər, Allaha beş dəfə savaş açmış kimidirlər.Çünki Allah öz bəndələri ilə danışmaq üçün gündə beş vaxt namazda insanları öz hüzuruna dəvət edir.Əgər insan beş vaxtda namaz qılıb,Allah ilə dərdləşmək istəmirsə, deməli o insanın bu dünyada heç bir müşkülü, dərdi yoxdur və özbaşınadır.

Əlbəttə, Qurani-Kərimdə buyurulan ayələrdən məlum olur ki, Allahın biz insanların ibadətinə ehtiyacı yoxdur. Lakin özü bizi sevə-sevə yaratdığı, anamızdan da çox sevdiyi və bizim Cəhənnəm odunda yanmamağımızdan ötrü bu vacib əməlləri bizim öz xeyrimiz naminə buyurmuşdur.Allahın hər bir insana sonsuz nemətlər bəxş etdiyini və bu nemətlər haqqında Allaha hesab verəcəyimizi xatırladıqda, Allahın beş vaxt namazı əmr etməsinin bizlər üçün" məhz böyük lütf" olduğunu anlamalıyıq.Bu mövzu ilə əlaqədar olaraq Qurani-Kərimdə belə buyurulur:

ət-Təkasur-8-"Sonra mütləq siz Allahın verdiyi nemətlərdən sual olunarsınız.Allahın hər bir bəndəsinə ehsan etdiyi nemətlər sonsuzdur."

Hər bir insan faydalandığı və ona ehsan edilən nemətlərdən hesab verəcəkdir.Bu nemətlərin hesabını necə verəcək və bu yükün altından necə çıxacağımız haqqında düşündükdə, namazı xatırlamalıyıq.

Hədis: Hz.Peyğəmbərimizdən soruşurlar ki:"Bir müsəlman namaz qılarkən fəryad edib ağlarsa, namazı pozularmı?

Peyğəmbər (s.ə.s.)belə cavab verir:"Adamın nədən ağladığını öyrənmək gərəkdir. Allah eşqı ilə ağlayıb,günahlarından peşmanlıq du-

yub, göz yaşı tökərsə, namazı pozulmaz. Hətta o namaz daha da aydınlaşıb, məqbul namaz olar. Çünki namazı könül rahatlığı ilə qılmaq lazımdır. Yox, əgər namaz qılan adam, bədənindəki bir rahatsızlığı, sıxıntısı, əzizinin ayrılığı səbəbindən ağlayırsa, namazı pozular. Çünki namazın kamalı, dünyalıq olan şeyləri undub, Allaha uymaqdır**. (Hədisi Qüdsi.)**

NAMAZ HAQQINDA NAZİL OLAN AYƏLƏR

Qurani-Kərimdə namaza aid 53 ayə vardır.

Məryəm-55-O, öz ümmətinə namaz qılmağı,zəkat verməyi əmr edirdi. Ənkəbut-45-Bu kitabda sənə vəhy olunanı tilavət eylə və namaz qıl,cünki namaz adamı pis və yaramaz əməllərdən saxlar.

əl-Əla-15-19-O kəslər ki,Allahın adını zikr etdilər,namaz qıldılar.Lakin siz aldadıcı dünya həyatını axirət həyatından üstün tutdunuz.Halbuki axirət evi daha xeyirli və daha əbədidir.Bu söz daha öncəki Peyğəmbərlərə verilmiş səhifələrdəndir.İbrahimin və Musanın səhifələrində.

əl-Ənam-162-De ki; Mənim namazım da, ibadətim də həyatım və ölümüm də aləmlərin Rəbbi olan Allah üçündür.

İnsan-25-Allahın adını sübh və axşam zikr et!Gecənin bir qismində Allaha səcdə et,gecə namazı qıl, uzun gecələrdə Allahı təsbih et!

Taha-132-Əhlinə namaz qılmağı əmr et,özün də namaza səbirlə davam et. Məişət çətinliklərinə döz.Biz səndən ruzi istəmirik, əksinə, sənə ruzi verən Bizik. Gözəl aqibət təqva sahiblərinindir.

əl-Müddəsir-3-4- Allahı böyük bil və ona təkbir de!Libasını və nəfsini namaz üçün nəcasətdən pak et!

əl-İsra-78- "Ya Peyğəmbər!Günortadan sonra gecə namazına kimi namazlarını qıl!Sübh namazını da qıl!Həqiqətən, sübh namazında mələklər nazil olarlar.Gecənin bir vaxtında yuxudan oyan, sənə xas olan əlavə namazı qıl!"Bu ayə Həzrətə gecə namazının vacib olduğunu bildirir.Ona gədər ki, sənin Allahın səni qəbirdən qalxızıb səni bəyənilmiş yerə götürə.

əl-Maun-4-5-6-Vay olsun o cür namaz qılanlara ki,onlar namazlarda qafildirlər (səhlənkarlıqları üzündən namazlarını vaxtlı-vaxtında qılmazlar)Onlar namazlarında riyakarlıq edərlər.

Hədis:-Peyğəmbərimiz (s.ə.s.)buyurmuşdur:"Allah öz izzət və calalına and içib, buyurmuşdur ki, namaz qılanlara və səcdə edənlərə əzab verməyəcək." (**Zubdətul əhadis.)**

Hədis: Şeyx Səduq”Məcalis”kitabından:Rəsuli Əkrəm (s.ə.s.) buyurur: ”Allahın Sixail adlı bir mələyi var.O, Allahdan namaz qılanlar üçün bəraət alır. Möminlər sübh oyanıb namaz üçün dəstəmaz alaraq, sübh namazını qıldıqları zaman o mələk Allahdan onların bəraətnamələrini alır ki, onda belə yazılır:-“**Həqiqətən, Mən əbədi olaraq qalan Allaham. Ey Mənim qadın və kişi bəndələrim, sizi öz hasarımda qərar verdim, hamınızı öz himayəm altına aldım. Öz izzət və calalıma and olsun ki, sizi xar etmərəm, günortaya qədər bütün günahlarınız bağışlanmışdır.”**

Zöhr namazı qıldıqdan sonra həmin mələk ikinci bəraəti də onlar üçün Allahdan alır.Onda belə yazılır**:”Mən qüdrətli Allaham.Ey Mənim kəniz və qullarım, sizin günahlarınızı və pis işlərinizi bağışladım və sizi Öz razılığımla böyüklük və calal sarayına varis etdim.”**

Əsr namazının vaxtı çatanda möminlər dəstəmaz alıb, namaz qıldıqları zaman o mələk Allahdan üçüncü bəraəti alır. Onda belə yazılır**:”Həqiqətən,Mən,Calal (sifətləri kamal həddində olan) Allaham ki,Mənim adım böyük, səltənətim əzəmətlidir.Ey Mənim qulam və kənizlərim! Sizin bədənlərinizə Cəhənnəm odunu haram etdim, sizə yaxşı insanların yerində məskən verdim. Öz rəhmətimlə bütün şər insanların şərini sizdən uzaq etdim.”**

Gün batan zaman, möminlər namaz qılarkən həmin mələk dördüncü bəraəti onlar üçün alır.Orada belə yazılır**:”Həqiqətən, Mən Cabbar (bəndələrin ixtiyarında olmayan),Kəbir (kamal həddində olan) və Mütəal (uca məqamlı) Allaham.Ey mənim bəndələrim! Mənim mələyim sizin tərəfinizdən Mənə doğru razılıqla qayıtdı. Mənə vacibdir ki, sizi razı salam və Qiyamət günündə sizin arzu, istəklərinizi əta edəm.”**

Xiftən namazı vaxtı olanda həmin mələk beşinci bəraət fərmanını Allahdan alıb gərirər.Orada belə yazılar**:”Mən yeganə Allaham,Məndən başqa heç bir məbud və Rəbb yoxdur.Ey mənim bəndələrim,evlərinizdə özünüzü paklayıb, Mənim evimə, məscidə tərəf gəldiniz və Mənə zikr etməklə məşğul oldunuz, Mənim haqqımı tanıyıb, vacib etdiklərimi yerinə yetirdiniz.”**

Sonra Allah həmin mələyə xitab edib buyurdu:“Ey Sixail!Mən səni və sair mələkləri şahid tuturam ki, onlardan razıyam.” **(Hədisi qüdsi.)**

AZAN EŞİTDİKDƏ OXUNAN DUA

Hədis: Cabirdən: Peyğəmbər(s.ə.s.) buyurur:Azan səsini eşitdiyiniz zaman:"Allahummə Rabbi hazihid-dəvətit-təmməti vəs-salatil-qaiməti,ati Muhəmmədinil-vəsilətə vəl-fədilə,vəb`əshi məqamən Mahmudən həmə va adtəhu."

Mənası:-Ey bu, bir bütün çağırışın və qılınan namazın sahibi olan Allahım! Muhəmmədi vəsilə fəziləti ver!Ona vəd etdiyin kimi onu Məqani-Mahmud da dirilit.Qiyamət günündə şəfaətini əsirgəmə!

(Əhməd(3,354) Buhari(əzən 8,1,152)

NAMAZIN HƏRƏKƏTLƏRİ HAQQINDA

əl-Bəqərə-238-Namazları və orta namazı qoruyun.Müticəsinə Allah üçün qiyam edin.

əl-Həcc-77-Ey iman gətirənlər, rüku edib,səcdə qılın və Allaha sitayiş edin və saleh işlərə əl atın, bəlkə səadətə çatasınız.

Yuxarıda qeyd edildiyi kimi İslam dinində hər bir iş niyyətə bağlıdır. Namaz qılmağa başlarkən də mütləq niyyət etmək lazımdır.

Namaz qılmaq haqqında qısa məlumat:-İki rükətli sübh namazını qılmağa başlarkən:

1.Dəstəmaz almaq üçün niyyət etmək.

2.Qiyam, yəni əllər düz aşağıda, ayaqlar bir-birinə yaxın, ayaqüstə düz durmaq. Azan, İqamə demək və Sübh namazını qılmaq üçün niyyət etmək.

3."Təkbiratül-ehram," yəni namazın əvvəlində "Əllahu Əkbər" demək. Sonra isə Həmd surəni demək.Yəni Fatihə və İxlas surələrini oxumaq.

4.Rükuyə getmək, yəni əyilərək əllərimizi budların üzərinə elə qoyuruq ki, bu zaman əl barmaqlarının ucları diz qapağının üstündə olsun. Əlbəttə, burada əsas məqsəd bizim rükuyə əyilməyimizdir. Hər kəs öz gücü çatdığı qədər, boyuna, sağlamlığına uyğun da əllərini dizlərinin üzərinə qoya bilər.

5.Sonra yerə əyilib İki dəfə səcdə, yəni alın ilə birlikdə 7 əzanı yerə qoyaraq səcdə etmək.Birinci səcdədən sonra rahat oturaraq, "əstəğfurullahi rəbbi ətubi və ileyhi" deyərək, ikinci dəfə əyilərək yenə də 7 əzanə yerə qoyaraq səcdə etmək.(Bunlar vacibdir:1-alın, 2-iki əllərin içi, 2-iki dizlər, 2-ayaqların barmaqlarının ucu. Qalan əzaların,qolların,sinənin yerə dəyməsi müstəhəbdir.)Sonra ayağa qalxaraq qiyam etmək.

6.Qiraət,yəni 2-ci rükət üçün ayaq üstə duraraq "Həmd surəni" oxumaq.

7.Qunut, yəni əlləri üz müqabilində tutaraq qunut söyləmək. Sonra yenədə rükuyə getmək və sonra yenə də yerə əyilərək iki dəfə səcdə etmək və iki səcdə arası rahat otururaq, "əstəğfurullahi rəbbi ətubi və ileyhi"demək.

8.Təşəhhüd, yəni sonra rahat otururaq təşəhhüd və salamları demək.

Əlbəttə,burada tam aydınlığı ilə namaz qılma qaydalarını açıqlamaq mümkün deyil,lakin müşahidə etdiyimiz bir məsələyə aydınlıq gətirmək istəyirik ki, qadınlar namaz qıldıqları zaman,qunut vaxtı və ya bütün namaz müddətində əllərini sinə və çiyinlərindən yuxarı qaldırmasınlar.

əl-Maidə-6-Ey möminlər! Namaz qılmağa durarkən üzünüzü və əllərinizi dirsəklər ilə birlikdə yuyun, başlarınıza və ayaqlarınıza topuğa qədər məsh çəkin.Əgər cünub olsanız, qüsl edin.Allah sizə zəhmət vermək istəmir. Sizi öz nemətini tamamlamaq üçün zahiri və batini nəcasətdən pak etmək istəyir, özünüzü pak saxlamaqla bütün xəstəliklərdən xilas olarsınız.

Hədis:-Ənəs ibn.Malik Peyğəmbərdən nəql edir:Namazlarında gözlərini səmaya qaldıranların nələri vardır? Sonra buyurdu:Ya bu hərəkətlərini tərgeitsinlər, ya da ki, gözləri kor olar**."(Səhihi-Buhari-431)**

Yəni, namaz vaxtında gözləri yuxarı qaldırmaq,düzgün deyildir,çünki, Allah hər tərəfimizdədir.

Hədis:-Aişə xanımdan söylənilir:"Rəsulullahdan namazda sağa-sola dönməyi soruşdum:"Bu, Şeytanın bəndənin namazından oğurlayıb, qaçdığı bir çalmadır,"-deyə cavab verdi**.(Səhihi-Buhari-432)**

2.Dəstəmaz haqqında:Dəstəmaz insanları istər zahirən,istərsə də daxilən təmizliyə aparır. Dəstəmazın vacibliyi haqqında Quranda ayə nazil olmuşdur. Dəstəmaz bəlli bədən üzvlərini üsuluna görə yaxalamaqdan və məsh etməkdən ibarət bir təmizlik, ibadət və itaətdir. Dəstəmazın mənəvi bir çox faydaları və savabları olduğu kimi, maddi olaraq da çox faydaları vardır. Vaxtlı-vaxtında dəstəmaz alan bir müsəlman təmizliyə riayət etmiş və özünü bir çox xəstəliklərə səbəb olan amillərdən qorumuş olur. Dəstəmaz almağa niyyət etməmişdən qabaq vacibdir ki, hərtərəfli yuyunub pak olmaq, sonra isə pak, təmiz paltar geyinmək lazımdır. Dəstəmaz alarkən məsh çəkilən yerlər nəm olmamalıdır.

Dəstəmaz alarkən ağız və buruna su alıb yaxalamaq (müstəhəb də olsa, yaxşı əməldir), üz və qolları yumaq, başın ön hissəsinə və ayaqla-

ra məsh çəkmək vacibdir. Üzünü yumamışdan əvvəl əlləri biləklərinə qədər,sonra qolunu dirsəklərdən barmaqların ucuna qədər yumalıdır. Dəstəmaz alarkən üzü və qolları iki dəfə yumaq lazımdır. Üzünü alının yuxarısında baş tüklərinin çıxdığı yerdən çənənin ucuna qədər yumaq lazımdır.Hər iki qollarını yuduqdan sonra əllərdə qalan dəstəmaz suyunun yaşı ilə başın ortasından sağ əl ilə yuxarıdan aşağıya doğru məsh çəksin. Başa məsh çəkəndən sonra əldə qalmış suyun nəmi ilə sağ ayağı sağ əl ilə, sol ayağı da sol əl ilə barmaqların arasından ayağın üstunə, oynaqlara qədər məsh çəksin.

Dəstəmaz alarkən oxunan dualar:-Niyyət:-Əuzu billəhi minəş şeytanir racim. Bismilləhir rahmənir rahim deyib;dəstəmaz alıram namaz qılıb, ibadət etmək üçün vacibi qürbətən illəllah-deyib niyyət etməlidir.

Suyu açarkən:-Əlhəmdulilləhilləzi cəələl mə`ətahuran və cəələl İslamə nuran:

Mənası:-"Suyu təmizləyici, İslamı nur edən Allaha Həmdu-sənalar olsun"-deyərlər.

Əlləri yuyarkən:-Allahummәc`əlni minət-təvvabinə vəcəlni minəl mutətəhhirin-

Mənası:-İlahi məni tövbə edənlərdən, pak olanlardan qərar ver.

Ağıza su alarkən:-Allahummə ləqqini huccəti yovmə əlqakə ətliq lisani bizikrikə.

Mənası:-İlahi! Səninlə görüşdüyüm gün hüccətimi mənə təlqin et və dilimi sənin eşqinlə danışdır.

İstinşaq(suyu buruna çəkdiyi)vaxt desin:-Allahummə lətuhərrim əleyyə rihəl-Cənnəti, vəcəlni mimmən yəşummu rihəhə vərəvhəhə və tuybəhə.

Mənasi:-İlahi mənə Cənnət qoxusunu haram etmə və məni Cənnət iyini iyləyənlərdən qərar ver!

Üzü yuyanda:-Allahummə bəyyiz vəchi yövmə təsvəddu fihil-vucuh və lə tusəvvid -vəchi yövmə təbyəddu fihil-vucuh.

Mənası:-İlahi, üzlər qara olduğu gün mənim üzümü ağart və üzlərin ağ olduğu gün mənim üzümü qaraltma.

Sağ əli yuyanda:-Allahummәə`tini kitabi biyəmini bəl-xuldə filcənani biyəsari və həsibni hisabən yəsira.

Mənası:-İlahi, mənim əməl kitabımı sağ əlimə ver və Cənnətlərdə əbədi qalmağı əta et və mənim hesabımı yüngül hesablardan qərar ver!

Sol əlini yuyanda:-Allahummə lə tu`tini kitabi bi şiməli və lə min vərai zəhri və lə təc`əlhə məğlulətən ilə unuqi və əuzu bikə muqattiətin niran.

Mənası:-İlahı mənim əməl kitabımı sol əlimə və arxa tərəfdən vermə və əməl kitabımı boynumdan asılı halda qərar vermə. Mən odun-atəşin parçalarından Sənə pənah aparıram!

Başına məsh çəkdiyi vaxt:-Allahummə qəşşini birəhmətikə və bərakətikə və əfvikə.

Mənası:-İlahi! Məni öz rəhmət, bərəkət və əfvinlə ört.

Ayağına məsh edəndə:-Allahummə səbbitni qədəmiyyə ələs sırati yövmə təzillu fihil-əqdəmu vəc`əl sə`i fimə yurdikə ənni yə Zəl-cəlali vəl-ikram.

Mənası:-İlahi! Qədəmlərin lərzəyə gəlib sürüşdüyü gündə məni Siratda sabit qədəm et!Və səyimi Sənin məndən razı olduğun şeylərə qərar ver.Ey Calal və İkram sahibi.

Açıqlama:-Hər insan bir gün ərzində beş dəfə belə niyyət edib dəstəmaz alarsa, o insan gün ərzində şeytanın hiylələrindən və müxtəlif xəstəliklərdən qorunmuş olur və mənəvi zəngilliyə qovuşur.

Hədis:-Cəfəri Sadiq (ə.s.)Peyğəmbərimizdən belə buyurur:

-Təmizlik imanın yarısıdır.”Əlhəmdu-lillәl”-Mizanı doldurur, Sübhanallahi vəlhəmdu lilləhi” göylərlə yer arasını doldurur, namaz nurdur, sədəqə-qoruyandır, səbir işıqdır. Quran isə ya lehinə, ya da ki əleyhinə dəlildir. Bütün insanlar səhər evdən çıxarlar,kimisi nəfsini satar, kimisi onu azad edib atəşdən qurtarar, ya da həlak edər. **(Zundətul Əhadis.)**

NAMAZ QILMAĞA MANE OLANLAR

əl-Ələq-9-13-(Ya Peyğəmbər!)Gördünmü o kimsəni(Əbu Cəhli) ki, mane olur.Bir bəndəyə(sənə) namaz qıldığı zaman mane olanı gördünmü? Ey nəhl edən! Namaz qılanın hidayət üzrə olduğunu gördünmü? Namaz qılana mane olan kəs Allahı və Peyğəmbəri təkzib edir və imandan üz döndərir.

Bu ayə Əbu-Cəhl haqqında nazil olmuşdur.Bir gun o görür ki, Həzrət məsciddə namaz qılır, amma heç kəs ona mane olmur. Kafirlərin yanında söz verir ki, Həzrət namaz qılan zaman onun başına daş salıb namaz qılmağına mane olsun.Həzrət namaza başladıqda Əbu-Cəhl böyük bir daş götürüb onun başına salmaq istəsə də, sala bılmədi. Ondan soruşduqda ki, nə üçün bunu etmədin? O dedi:-Mənimlə onun arasında böyük bir xəndək gördüm ki, ətrafında mələklər var idi.

Həzrət buyurdu:-And olsun Allaha!Əgər o, mənə yaxınlaşsaydı, mələklər onu parça-parça edərdi. Namaz qılanı namazdan kim saxlaya bilər?

Dini hekayə:-Sevgili Peyğəmbərimiz bir gün Şeytanla Məscidin qapısında rastlaşınca, ondan soruşur:-Ey Şeytan, buralarda nə edirsən? Lənətlik Şeytan:"Məscidin içinə girib namaz qılan filanıncı adamın namazını pozmaq istəyirdim. Lakin arada oturub, gözlərin yumaraq xəyala dalan insandan qorxdum"-deyərək öz məqsədini bildirir.

Sevgili Peyğəmbərimiz (s.ə.s.) bu məsələdəki incə məqamı anlamaq üçün bu sualı verir:-Ey Şeytan, Rəbbinə qarşı ibadət edən, ona yalvarıb-yaxararaq namaz qılan mömindən qorxmursan, hər şeydən xəbərsiz, gözlərin yuman o kəsdən qorxursan?

Şeytan belə cavab verdi:-Məsciddə namaz qılan mömin cahil bir kimsədir. Ona görə onu çaşdırmaq və namazını pozmaq asandır. Lakin gözlərini yumub oturan kişi alim bir kəsdir.O, namaz qılanın namazını pozduğum zaman həmin alimin tez yetişib onu düzəldəcəyindən qorxdum**."(Mövlanə Cəzalinin" Kimyayi Səadət"-tərcümə)**

Hədis:-Peyğəmbər(s.ə.s.) gecə namazına qalxdıqda bu duanı deyərdi:-Həmd yalnız Sənədir.Haqq olan Sənsən.Sənin vədin də haqdır. Sənə qovuşmaq da haqdır.Sözün də haqdır.Cənnət də haqdır.Cəhənnəm atəşi də haqdır.Bütün Peyğəmbərlər də haqdır. Muhəmməd də haqdır. Qiyamət də haqdır. (**Buxari, Müslim.)**

BAYRAM NAMAZI

əl-Əla-14-O kəs ki Allahın adını zikr etdi və bayram namazı qıldı.

əl-Kövsər-2-Ona görə də Qurban bayramı günü öz Allahına namaz qıl və qurban kəs!

Hədis: Peyğəmbərimiz (s.ə.s.) belə buyurmuşdur: "Ey camaat! Həqiqətən, məndən sonra heç bir Peyğəmbər və sizdən sonra heç bir ümmət gəlməyəcək.Agah olun!Öz Rəbbinizə ibadət edin, gündə beş dəfə namaz qılın, mübarək Ramazan ayının orucunu tutun, Allah Evinin ziyarətini-Həcc ziyarətini yerinə yetirin,mallarınızın zəkatını verin.Behistə daxil olmaq üçün öz əmr sahiblərinizə itaət edin!**(Hədisi Qüdsi)**

CÜMƏ NAMAZI

əl-Cumuə-9-10-Ey möminlər!Cümə günü namaza çağırıldığınız zaman Allahı zikr etməyə səy edin, camaat namazına tələsə-tələsə gedin və alış-verişi tərk edin ki, işinizi görməklə namazın vaxtı keçər. Bu sizin üçün çox xeyirlidir, əgər özünüzə yetən xeyir və şəri bilsəniz. Namaz qılınıb tamam olandan sonra yer üzünə dağılışın. Hər kəs öz

işinin dalınca getsin və Allahdan ruzi istəyin, alış-veriş edin və onun nemətləri müqabilində Allaha çox zikr edin ki, bəlkə nicat tapasınız!

Hədis:-Peyğəmbər (s.ə.s.) buyurmuşdur:-Hər kəs cümə günü qüsl etsə və təmiz libas geyinib özünə ətir vursa, Allah onun əvvəlki cümə ilə bu cümə arasında olan günahlarını bağışlayar**. (Zubdətul Əhadis.)**

Açıqlama:-Cümə namazı sübh namazı kimi iki rükətdir. Cümə namazı cümə günlərində camaatla qılınır və imamla birlikdə 5 nəfərdən az olmamalıdır. Əgər cümə namazı qılınarsa, zöhr namazına kifayət edər. Namazdan qabaq iki xütbə oxunur. Birinci xütbədə Allaha həmd-səna deyilib,təqva və günahlardan qorunmaq tövsiyə edilərək, Qurandan qısa bir surə oxunur.Sonra imam durub qalxaraq ikinci xütbəyə başlayır.İkinci xütbədə Allaha həmd-səna edib,Peyğəmbərə və imamlara salavat göndərilir və ayrılıqda kişi və qadınlar üçün Allahdan bağışlanma istənilir. Xütbə ayaq üstə oxunur və iki xütbə arası imamın otururaq fasilə verməsi vacibdir.

Bu namazın 1-ci rükətində Həmddən sonra Cümə surəsi, ikinci rükətdən sonra isə Həmddən sonra Munafiqun surəsi oxumaq müstəhəbdir. Qadın və qocaların cümə namazında iştirakı vacib deyildir.

GECƏ NAMAZI

"Qəlbin nurunu axtardım, onu təfəkkür və ağlamaqda tapdım. Siratdan keçmək üçün icazə axtardım və onu gecə namazında tapdım."(İmam Cəfəri Sadiq.)

əl-Muzəmmil-20-Ya Peyğəmbər!Həqiqətən, Rəbbin bilir ki,sən yatağından qalxıb bəzən gecənin təqribən üçdə ikisini,bəzən yarısını,bəzən də üçdə birini namaz qılırsan.Sənlə birlikdə bir zümrə yaxınların da belə edir.Gecəni də , gündüzü də ancaq Allah ölçüb müəyyən edər. Allah sizin bunu ölçüb-saya bilməyəcəyinizi, yəni bütün gecəni oyaq qalıb ibadət edə bilməyəcəyinizi bildiyi üçün bu barədə sizə rüsxət verdi. Gecə durub namaz qılmağı siz möminlərə vacib etmədi,onun yerinə gündə beş vaxt namaz qılmağı buyurdu.

Quranda sizə müyəssər olanı oxuyun.Gecə (təhəccüd) namazı sizə vacib olmadığı üçün,gecələr onu gücünüz çatdığı qədər qılıb, Quran oxuyun.Allah bilir ki, içərinizdə xəstələr də olacaq, bəziləri Allahın kərəmindən ruzi axtarmaq üçün yer üzünü gəzib dolaşacaq, digərləri isə Allah yolunda vuruşacaqdır. Elə isə Quranda sizə müyəssər olanı oxuyun, namaz qılın, zəkat ödəyin və Allah yolunda gözəl borc verin**!(Kitabul-Bəyan-fi Təfsirul Quran.)**

Hədis:İmam Cəfəri Sadiq buyurur:-Dünya malı və övladlar bu dünya həyatının,gecə namazı isə axirət həyatının zinətidir. **(”Hədisi Qüdsi”)**

Hədis:-Peyğəmbər(s.ə.s.) buyurur:-Göydəki ulduzların yer əhli üçün verdiyi işıq kimi,gecə namazı və Quran oxunan evlər də səma əhli üçün işıq saçır.”

Gecə namazı 11-rükətdir. Onun səkkiz rükəti gecə nafiləsi niyyətilə Sübh namazı kimi iki rükət-iki rükət qılınır. ”Əssəlat, əssalat, əssalat”başlayıb:

1.Niyyət-İki rükət gecə namazının nafiləsin qılıram qürbətən illəllah. (Sübh namazı kimi qılınır)

2.Niyyət-İki rükət gecə namazının nafiləsin qılıram qürbətən illəllah. (Sübh namazı kimi qılınır)

3.Niyyət-İki rükət gecə namazının nafiləsin qılıram qürbətən illəllah. (Sübh namazı kimi qılınır)

4.Niyyət-İki rükət gecə namazının nafiləsin qılıram qürbətən illəllah. (Sübh namazı kimi qılınır)

5.Niyyət-İki rükət Şəffi namazın qılıram qürbətən illəllah. 1-ci rükətdə “Həmd”,sanra “Nas”surəsi, 2 -ci rükətdə ”Həmd”, sonra ”Fələq” surəsi oxumaq yaxşı olar.)

6. Niyyət-Bir rükət Vitr namazın qılıram qürbətən illəllah. Bir “Həmd”, üç-“İxlas”,bir “Fələq”,bir “Nas”surələri,və ya tək bir surə də oxumaq olar.

Sonra qunut tutub aşağıdakı dualar oxunur:(əlləri üz müqabilində tutub)

70 dəfə”Əstəğfirullahə rəbbi və ətubu ileyh”deyilir.

300-dəfə:-Əl-Əfv deyilir və 40 dəfə:-Əllahümməğfir lil mömininən vəl möminət, vəl musliminən vəl muslimat” deyib rüku, sonra da iki dəfə səcdəyə gedərək,Təşəhhüd və Salamlar deyilir.

Gecələr Hz. Əlinin qıldığı dörd rükətli namaz şəfa tapmaq, işləri sahmana salmaq, tilsim və bir çox dərdlərdən qurtarmaq üçün niyyət edilərək qılınır.

İki rükət-iki rükət qılınır.”Əssəlat,əssalat,əssalat”başlayıb:

Niyyət:Hz. Əlinin qıldığı dörd rükətli namazı qılıram qürbətən lləllah.

Bu namaz da iki rükət-iki rükət qılınır.

1.rükətdə bir “Həmd”, 50 “İxlas”.

2.rükətdə bir “Həmd”, 50 “İxlas”. Təşəhhüd və salam.

3. rükətdə bir “Həmd”, 50 “İxlas”.

4. rükətdə bir “Həmd”, 50 “İxlas”. Təşəhhüd və salam.

Ümumi dörd “Həmd “, 200 “İxlas”.

Hədis: Peyğəmbərimizdən soruşurlar: Gecənin bir vaxtı vardırmı ki,mömin bəndə dua etdikdə duası qəbul olsun? Həzrət buyurdu:-Bəli! İstəsə hər gecə, gecə yarısının üçdə biri qalana qədər.

SƏFƏRDƏ NAMAZI QƏSR(QISA) QILMAQ

əl-Nisa-101-Səfərə çıxdığınız zaman kafirlərin sizə zərər yetirəcəklərindən qorxsanız, namazı qısaltmaq, dörd rükətli namazı iki rükət qılmaq sizə günah hesab edilməz. Həqiqətən, kafirlər sizinlə düşməndirlər.

ən-Nisa-103-Namazı qurtardıqdan sonra ayaq üstə,oturan yerdə, uzanan halda Allahı zikr edin. Bəlkə zikrinizə görə sizi düşməniniz qarşısında qalib etsin. Arxayın olduğunuz zaman tam qayda ilə namaz qılın.Həqiqətən, namaz müəyyən olunmuş qərarla möminlər üçün yazılmışdır.

MÜHARİBƏ ZAMANI VƏ QORXU ANINDA QILINAN NAMAZ

ən-Nisa-102-(Hüdəbiyyə döyüşündə, zöhr namazı vaxtında, Bilal azan verəndə, Cəbrail nazil olaraq bu ayəni Peyğəmbərimizə öyrətdi ki,döyüş və qorxu zamanı belə namaz qılsınlar.)

Sən onların arasında ikən namaz qılmaq istəsən, camaatın bir hissəsi sənlə namaza qalxıb, silahlarını da özləri ilə götürsünlər. Səcdə edən zaman birinci rükətdə sənlə qılıb, ikinci rükəti özləri qılıb, namazlarını tamam etsinlər. Sonra sizin qarşınızda olsunlar, sizi qorusunlar. Sonra sən ikinci rükətdə o qədər səbir et ki, namaz qılmayıb, namaz qılanları qoruyan dəstə gəlsinlər və sənlə namaz qılsınlar və silahlarını özləri ilə götürsünlər.Təşəhhüd və salamların vaxtını o qədər uzat ki,bu dəstə də ikinci rükəti özləri qılıb,namazı sənlə birlikdə bitirsinlər.Yəni döyüşdə və qorxu anında iki rükətli qəsr namazını,bir-birinizi qorumaq şərti ilə növbə ilə yerinə yetirin.

VƏHŞƏT NAMAZI

Bu namaz rəhmətə gedən insanın qəbirə qoyulduğu ilk gecənin hər bir zamanında qılına bilər.Lakin gecənin əvvəlində şam, xiftən və ya şam namazından sonra qılmaq daha yaxşıdır.İki rükətdən ibarət olan bu namazın qılınma tərzi belədir:

1-ci rükətdə Həmddən sonra bir dəfə”Ayətəl-kürsü”, 2-ci rükətdə, Həmddən sonra 10 dəfə“Qədr”surəsi oxunur.Namazın salamından sonra belə deyilir:

Əllahummə səlli əla Muhəmmədin və ali Muhəmmədin vəb`əs səvabəha ilə qəbri fulan(adı).

MÖMİNLƏR ALINLARINDAKL SƏCDƏ İZİNDƏN TANINARLAR

əl-Fəth-29-Muhəmməd Allahın Peyğəmbəridir. Onunla iman gətirən kəslər kafirlərə qarşı şiddətli, qüvvətli və ürəkləri bərkdir ki, İslam dinini yaya bilsinlər. Lakin öz aralarında bir-birlərinə rəhm edərlər. Namaz qılıb çox rüku və səcdə edərlər. Görərsən ki, Allahdan fəzl və mərhəmət istərlər. Onların möminlik nişanəsi səcdənin əsərindən alınlarında var. Belə ki, axirətdə səcdə yerləri ay kimi ağarar. Bu Tövratda və İncildə yazılıb.O,elə bir əkindir ki, öz şaxələrini aşkar edər, onları qüvvətli edər. Kiçik budaqlar böyüklərin sayəsində düz durar və əkinçiləri təəccübə gətirər. Möminlər də əvvəl zəif, sonra bir-birlərinə dəstək verərək qüvvətlənərlər. Nəticədə öz qüvvələri ilə kafirləri acıqlandırarlar.

Qurana iman gətirənlərə və saleh işlər görənlərə Allah keçmiş günahlarının bağışlanmasını, böyük əcr verməsini vəd etmişdir.

MÖHÜR HAQQINDA MƏLUMAT

Əzəl yer üzünə mən gəlməmişdən,
Qurduğun nizamı görməmişdim mən.
Torpaqdan yaratdın mayəmi mənim,
Torpaqdan yem aldı bütün bədənim.(“Leyli-Məcnun”)

ət-Tovbə-119-Ey möminlər!Allahdan qorxun və doğru danışanlarla olun.

əl-Fəth-29-Onların möminlik nişanəsi alınlarındakı səcdənin əsəridir. Belə ki, axirətdə səcdə yerləri ay kimi ağarar. Bu Tövratda və İncildə də yazılıb.

Açıqlama:-İslam dünyasında olan insanların müəyyən hissəsi namaz qıldıqları zaman möhürdən istifadə edirlər. Başı təvazökarlıqla rükuya, huşu ilə səcdəyə gedən insan vücudu özünü torpaq səviyyəsində görüb, öz mahiyyətini başa düşürsə, Allah da onu ucaldar. Cismilə yer üzündə, ismilə mələklər yanında dəyər qazanar.

Namaz qılarkən səcdə zamanı alının möhürə qoyulmasının bir çox hikmətləri vardır.

1-ci hikmət:-Bildiyimiz kimi möhürün tərkibi müqəddəs torpaqlardan, Məkkə, Mədinə və Kərbəla torpağından ibarətdir.Qurani-Kərimdə insanın torpaqdan yaranması haqqında çoxlu ayələr vardır:

əl-Muminun-12- And olsun biz onu süzmə palçıqdan yaratdıq.

İnsanın palçıqdan yaranması haqqında bu kimi ayələrdən də məlum olur ki, Allah ilk insanı, Hz.Adəmi palçıqdan yaratmışdır. Müasir elm aləmi 14 əsrdən sonra sübut etmişdir ki, həqiqətən də insan bədəninin toxumalarının əsasını torpağın elementləri təşkil edir. İnsan bədəninin toxumaları 26 kimyəvi elementdən ibarətdir. Bunların 100% -dən 95 %-ni 6 element –oksigen(O), fosfor(P), karbon(C), hidrogen(H),sulfat(HSO), nitrat (HNO)təşkil edir ki, bu da bütövlükdə torpağın tərkibində olan elementlərdir.

Məlum olduğu kimi torpaqdan yaranan insan vəfat etdikdən sonra da torpaqda basdırılır, yəni torpağa qayıdır. Biz də səcdə də alnımızı möhürə qoyan zaman möhürə deyil, tək bir olan Allaha səcdə edərək, öz yaranışımız, aqibətimiz haqqında bir daha düşünür, bu dünyanın müvəqqəti olduğunu dərk edir və təkəbbürlülükdən uzaqlaşırıq.

Hədis:Cəfəri Sadiqdən buyurulur: Peyğəmbərimiz buyurur: ”Allah torpağı, yeri mənim üçün səcdəgah, paklıq vasitəsi qərar verdi.” **(Hədisi Qüdsi.)**

2-ci hikmət:-İslam dininin meydana gəldiyi çox isti iqlimi olan Ərəbistanda o dövrdə əhalinin çoxu yarıpalçıq evlərdə yaşayırdılar. Azan verilən zaman namaz qılmağa tələsən insanlar, səcdə zamanı alınlarını isti, qaynar qumun üzərinə qoyduqlarından onların alınları qumun istisindən qabarlayardı.Bu səbəbdən Peyğəmbərimiz (s.ə.s.) əmr edir ki, hamı bu müqəddəs yerin torpağını su ilə qarışdırıb, möhür halına gətirərək, ciblərində gəzdirsin və namaz vaxtı harada olmaqlarından asılı olmayaraq, ciblərində gəzdirdikləri sərin möhürdən istifadə etsinlər ki, isti qum alınlarını yandırmasın.

Hal-hazırda Türkiyədə Peyğəmbərin “müqəddəs əşyaları” saxlanan “Tapqapı” adlanan muzey-sarayda,Peyğəmbərə aid olan bir çox əşyalar ilə birlikdə, Peyğəmbərin namaz vaxtı alnını qoyduğu “möhür”də nümayiş olunur.Bundan belə qənaətə gəlmək olar ki, həqiqətən, Peyğəmbərimiz səcdə zamanı, alnını cürbəcür əşyaların, parça və ya xalçanın üzərinə deyil, sərin möhürün üzərinə qoymuş və bu əməli öz ümmətlərinə də buyurmuşdur.

(Səhihi-Buhari,s.110.h.311İbn.Abdullah Ömərdən) Belə söylənilir:Peyğəmbər(s.ə.s.) belə buyururdu:Həcc,Ümrə və digər səfərlərə çıxdığı və Mədinə məscidindən kənarda olduğu zaman namaz qılarkən alnını torpaq parçasının üstünə qoyardı,-deyə hədisdə bildirilir.

3-cü hikmət:-Namazda möhürdən istifadə edilməsinin haqq olduğunu sübut edən səbəblərdən biri də Peyğəmbər və onun övladlarının möhürlə namaz qılmasıdır. İlk İslamı qəbul edən və ilk dəfə Peyğəmbərin arxasında namaz qılan kişi Peyğəmbərin bütün işlərinin davamçısı Əli(ə.s.)və Həzrəti Peyğəmbərin həyat yoldaşı xanım Xədicə-Kubra olmuşdur. Sonra bu namazı qızı-iki dünya xanımı Fatimeyi-Zəhra, onun övladları və tərəfdarları bu ənənəni, bir çox maneələrə baxmayaraq, bu günümüzə kimi yaşadıb saxlaya bilmişlər. Hal-hazırda Peyğəmbərin əmr və göstərişlərini düzgün yerinə yetirməyə çalışan insanlar, Peyğəmbərin, sonra isə onun övladlarının qıldığı namazı qoruyaraq, onlar kimi namaz qılırlar. Yəni,həm Quranda buyurulduğu kimi:-"Ya Peyğəmbər!Biz sənin üçün torpağı səcdəgah etdik."Həmçinin,Peyğəmbərimizin öz ümmətinə göstəriş verdiyi kimi namazın hərəkətlərini yerinə yetirir və alnımızı müqəddəs torpaqlardan gətirilən möhürün üzərinə qoyuruq.

Tarixdən məlum olduğu kimi həm Əməvilərin, həm də Abbasilərin xəlifəlikləri dövründə Peyğəmbərin qıldığı namaz və göstərişlərindən bir çoxları təhrif olunmuşdur. Belə ki, Ənəs ibn Malikin dövründən bir qədər sonra Həsən Bəsri deyirdi:"Əgər Hz.Peyğəmbər (s.ə.s.) sizin aranıza qayıtsa, sizə öyrətdikləri içərisində qiblədən başqa heç nəyi tanımayacaq".

Hədis:Zühri belə deyir:-Şamda Ənəs ibn-Malikin yanına getdim. Onun ağladığını gördüm.Nə üçün ağladığını soruşduğumda cavab verdi ki:"**Peyğəmbərin vəfatından sonra hər şeyin həqiqi şəklinin dəyişdiyini gördüm,bircə namaz qalmışdı,onu da korladılar"(Tarixi-Təbəri, c.2.s.220)(Müsnəri-İmam Əhməd.)**

Səhihi-Buxaridən(1.c.s. 74. və 2.c.s. 154.), Səhihi-Müslimdən (1.c.s. 260. və 2c.s.143.) Yenə Səhih Müslimdən nəql olunmuş hədislərdə Peyğəmbərin əmrlərinin və namazlarının dəyişdirilməsi,təhrif olunması və onların əsasən kimlər tərəfindən, necə dəyişdirilməsi haqqında açıqlamalar verilmişdir.

Açıqlama: Tunisin Qəsrə şəhərində 1943- cü ildə dünyaya gəlmiş maliki məzhəbindən olan və elmi tədqiqatları nəticəsində sonradan şiə məzhəbini qəbul edən Doktor Tucani əl-Səmavinin ərsəyə gətirdiyi "Necə hidayət oldum"adlı (1976) kitabında Peyğəmbərin möhür ilə namaz qıldığı haqda geniş açıqlamalar verilmişdir.O,sünni alimlərindən Buxarinin, Timrizinin və bir çox böyük alimlərin yazdığı hədis kitablarından bəhrələnərək, daha 11 kitab yazmışdır. Bu kitablarda Peyğəmbərin valisi, həmişə onunla bərabər olan, onun elminin davamçısı olan Hz.Əli və onun övladlarının (12 imamın) haqq olduğunu və həqiqətən də bu yolun Allah və Peyğəmbərin yolu olduğunu elmlə sübuta yetirmişdir.

Doktor Tucani öz kitablarında Peyğəmbər(s.ə.s.)in ölümündən 150 il sonra,bir çox tarixi səbəblərdən, həmçinin xəlifələrin bir-biri ilə çəkişmələri nəticəsində yaranan digər məzhəblərin də aralarında bir çox fikir ayrılıqlarının olduğunu, hətta Qurandakı ”Bismilləh” kəlməsində də onların fərqli düşüncələrə malik olduqlarını bildirir.

Doktor Tucani”Bütün nurlar Peyğəmbər ailəsindən saçır”adlı kitabında Qurani-Kərimin özündə Əhli-Beyt haqda bir çox ayələrin nazil olduğunu və Hz.Peyğəmbərin öz hədislərində də dönə-dönə buyurub,vəsiyyət etdiyi:“**Məndən sonra dinin elmi Əli (ə.s.) və Fatimənin (ə.) övladları vasitəsi ilə davam edəcək və dünyaya yayılacaqdır və onların düşüncələri arasında Qiyamət gününəcən heç vaxt fikir ayrılığı olmayacaqdır**” mövzusunu dəlillər ilə çox gözəl şəkildə aydınlatmışdır. Doktor Tucani “Necə hidayət oldum “kitabında bildirir ki, Əhli-Sünnə alimlərindən olan Buxarinin və Timrizinin hədislərində Peyğəmbərimizin namaz qıldığı zaman həqiqətən də alnını möhürə qoyması və Əhli-Beyti haqqında çoxlu səhih hədislər vardır. Bu haqda Buxarinin hədis təfsirində buyurduğu bu hədis buna bir nümunə ola bilər:“Bir gün Peyğəmbərimiz (s.ə.s.)namaz qılmaq üçün, həyat yoldaş xanım Aişədən öz möhürünü istəyir.O cavab verir ki:-“Üzürlü olduğum üçün bəlkə əlimi möhüra vürmayım və siz həsirin üstə namaz qılasınız. Lakin Həzrəti Peyğəmbər cavab verir ki: “Sənin əlinin möhürə heç dəxli yoxdur” və namazı yalnız öz möhürü ilə qılacağını bildirərək buyurur: “Dünyada ən fəzilətli şey torpaqdır.Allah torpağı mənim üçün səcdəgah və pak şey qərar veribdir”.

Açıqlama: Son illərdə dünyada baş verən dəyişikliklər və ölkəmizdə də yaranan demokratik şərait bütün təriqətləqdən olan insanların ölkəmizdə öz güclü dini təriqətçilik təbliğatlarını aparmaq üçün bir fürsət yaratdı.Onlar da bu fürsətdən və dini savadsızlığımızdan istifadə edərək, cəmiyyətimizdə müxtəlif təriqətlər yaradaraq, əhalini öz əslindən uzaqlaşdırmağa çalışırlar.

Qeyd etdiyimiz kimi Peyğəmbərimizin və ailəsinin qıldığı namaz və ibadəti əsirlərlə canları bahasına yaşadaraq, bizlərə çatdıran arif insanlarla birlikdə, bu torpaqda yaşayan,İmamların nəslindən gələn Seyidlərin çox olmasının da böyük təsiri olmuşdur. Bu səbəbdən də Qədir-Xümda(tam mövzu yuxarıda qeyd edilib) baş verən hadisədən, yəni, Allah tərəfindən gələn əmrdən və Peyğəmbərimizin verdiyi qərardan sonra bütün haqq sevərlər elə bu haqq yolunu tutaraq, əsirlər boyu heç kəsə aldanıb,uymadan və bu qanunlarda heç bir dəyişiklik etmədən,bu günümüzə qədər yaşatmışlar. Uca Allahın bu torpağa və

bu millətə qarşı olan böyük lütf və mərhəmətinin nəticəsidir ki,bu torpaqda İmamların nəslindən gələn seyyidləri məskunlaşdıraraq, bu haqq yolunda getməyi bizlərə də qismə etmişdir.

Yəni, cəmiyyətimiz Peyğəmbərimizin, onun yolunun davamçısı Hz. Əlinin, qızı Fatimənin və nəvələrinin (Əhli-Beytinin) tərəfdarlarının yaşatdıqları təriqətdəndirlər. Bu haqq yolunun hikmətlərini yəqin ki, Hz. İsa ilə bir zamanda zuhr edəcək Sahibəz-Zaman,12-ci İmamımız bütün həqiqətlər ilə birlikdə bizlərə aşkar edəcəkdir.

Lakin yuxarıda qeyd etdiyimiz səbəblər üzündən vətənimizdə bu təriqətdən olan insanların sayı yavaş-yavaş azalmaqdadır.Buna görə də cəmiyyətimizin həqiqi, təmənnasız,məqsədsiz düzgün dini biliklərə çox ehtiyacı vardır.Hal-hazırda isə dini,vətəni sevən insanların, ən əsası isə bütün seyyidlərin həm Allah, həm də əsil-nəcabətlərinin qarşısındaki mənəvi borcu, bu haqqı qoruyub, yaşatmaqdır.

Əlbəttə, biz burada öz əqidələrimizi heç kəsə məcburu qəbul etdikmək fikrində deyilik və onu da başa düşürük ki, tək ibadət, həm də itaət deyildir.Yəni, insanın həm əməli, həm qəlbi, həm də ibadəti yalnız özünün Allah qarşısında ki,qorxusu və hünəri qədərdir və hər kəs öz hesabını özü verəcəkdir. Sadəcə olaraq bizim təklifimiz ağıl və şüurla fikirləşərək, elm və təqva ilə hərəkət edən hər bir kəsə,həqiqətləri araşdırıb, özünün tapmasını təklif etməkdir.

Bir də bunu qeyd etmək istərdik ki, əgər Uca Allah: Namaz zmanı su olmazsa torpağa təyənnüm edin,"çünki torpaq pakdır," deyə buyurursa, onda pak torpağa alnı qoymaq hər halda digər əşyalardan daha xeyirlidir.

Hədis:Fatimei-Zəhra əleyha buyurmuşdur: "Atam, Peyğəmbər Muhəmmədin torpağını qoxulayan bir insana başqa ətir axtarmağa nə gərək var?!"

Hədis:(Səhih-Buhari 225-227-1278) Cabir ibn. Abdullah Hz. Peyğəmbərdən belə söylədiyini deyir**:"Məndən əvvəl heç bir kimsəyə verilməyən bir özəllik verildi:Yer üzü mənim üçün məscid və torpağı isə təmizləyici tərin olundu.Yəni yer üzünün hər yerində namaz qıla bilərəm və yerdəki,torpaq mənim üçün bir təmizləyicidir**."

Torpağın su olmadıqda təyənnüm etmək, paklanmaq üçün bir təmizləyici olduğu haqda həm Qurani-Kərimdə, həm də hədislərdə qeyd edilmişdir. Əgər torpaq bir təmizləyici, saflığdırsa, bəs onda nə üçün Allaha səcdə etdiyimiz vaxt alnımızı o saflığın üzərinə deyil, hansısa bir parcanın, ayaqlar alrında olan xalçanın üzərinə qoymalıyam? Məgər parça və yaxud da xalçaya sitayiş etmək olar?

Önəmli məsələ kimin nəcə namaz qılmasında deyil,haqqı görə-görə danmaq bir tərəfə, həm də ona irad tutaraq gözdən salmaqdır.

(Bütün hədis kitablarından Peyğəmbərin möhür üzərində namaz qılması haqqında hədislər tamamanilə çıxardılmışdır.Yaınız bir-iki dənə,o da qarışıq, torpağa təyənnüm haqda hədislər qalıb.Başa düşmək olmur ki, nə üçün öz əslimizin yaradılışından, bədənimizin tərkib hissəsindən, dəfən-dəfən Qurani-Kərimdə saflığı, paklığı haqda ayələr nazil olan torpaqdan bu qədər qorxur, utanır və təkzib edirik.Torpaq,möhür adı çəkiləndə sanki, dəhşətli, günah, haram bir iş tutmusan.Nədir insanları bu qədər öz kökündən,əslindən uzaqlaşdıran?İnşaallah, hər halda haqq gec-tez üzə çüxar...

Açıqlama:İndi isə həqiqətən namaz qılan insanın keçirdiyi duyğularını və bu zaman əgər möhürdən də istifadə edərsə torpağın qoxusunun ona etdiyi təsiri sizin üçün açıqlamaq isrətdik:İnanın ki, insan möhürlə namaz qılarkən, öz bədəninin həqiqətən də yalnız torpaqdan ibarət olduğunu və özünü torpaqlar içində olan balaca bir zərrəcik kimi hiss edir. Səcdə zamanı hər alnı möhürə qoyduqda torpağın qoxusunu hiss edir və öz cismini də torpağın içində hiss edərək, bir daha təkəbbürlülük, mənəmlilik kimi hisləri tərk edir, hətta bədəninin nə qədər aciz, köməksiz olduğunu hiss edirsən. Bu zaman öz bədənini unudaraq, həqiqətəndə səni idarə edənin,səni bir varlıq kimi sən edənin, yalniz Allah olduğunu və bizlərə bəxş etdiyi ruhun Ona aid olduğunu anlayırsan. Hətta Məşhər gününü,o torpağa bulaşmış halda qəbirdən necə çıxacağını və o torpağın qoxusunu hiss edirsən.

Bəlkə də bu səbəbdən Alim olan Allah namazı bizə qeyri-şərtsiz, başqa əməllərdən də vacib buyurmuşdur. Çünki namaz zamanı insan özününü kim, nədən ibarət olduğunu gündə beş dəfə xatırlayaraq, yavaş-yavaş özünü dərk etməyə başlayır. Bununla da özünə, öz“ülvü ruhu”na daha çox dəyər verərək,“ülvü ruhu”na layiqli yaşamağa çalışır. Öz duyğu üzvlərinin hislərini o,“ülvü ruhun” ayaqları altına atır. Səni idarə edən bədən və onun hissləri deyil, əbədi yaşayacaq olan və Allahın bu bədəni“ülvü ruhu”na bir qəlib kimi müvəqqəti geyindirdiyini dərk edirsən. Bu zaman qəlbində insanlara, təbiətə kainata və bütün yaranmışlara qarşı olan fərəh və sevincini ifadə edə bilmirsən, bütün pisliklərə yalniz ibrət gözü ilə baxaraq düşünürsən. Həmçinin Allahın yaratdığı digər varlıqları mələkləri yanında və ətrafında hiss edir, şeytan və cinləri də olduqları kimi qəbul edərək Allahın işlərini susaraq yalnız müşahidə edirsən. Bu zaman insan həqiqətən də kim nə olduğunu dərk edərək dəhşətə gəlir və başa düşürsən ki, bütün bu varlıqlar,elə biz də içində yalnız Allahın ixtiyarında, onun əmr və göstərişlərinin icrasındayıq. Bütün yaranmışların onun izni olmadan gözünü belə qırpmağa ixtiyarı yoxdur.

Bütün bu yaşadıqlarından sonra bu qeyri-adi hisslər beyninə həkk olaraq, ali duyğular bəxş edir.Hər namazdan sonra daha gözəl fikirlərlə həyata və yaranmışlara baxırsan və dərk edirsən ki, Qadir Allahın yatardığı hər şey ifadə edilməyəcək qədər gözəldir.

NAMAZ ZAMANI HƏRƏKƏTLƏRİMİZ HAQQINDA

Dövrümüzdə də namaz qılınan zaman hər firqə özü bildiyi kimi namazın hərəkətlərini yerinə yetirir. Namaz, insanların duruşundan, hərəkətlərindən asılı olmayaraq hər bir müsəlmana vacıb buyurulan əməldir.Yuxarıda qeyd edildiyi kimi, bütün Muhəmməd ümməti, Peyğəmbərin və onun ev əhlinin qıldığı namazı qılmağa çalışaraq, ağıl və elmlə bir vəhdət, birlik nümayiş etdirməlidir ki, Allahın "Kövsər" surəsində buyurduğu kimi,"İslam dini Qiyamət gününədək yaşaya bilsin."

Müasir dövrdə alimlər sübut etmişlər ki, namazda qiyam zamanı əlləri düz tutaraq budların üzərinə qoyulması, insan bədənindəki mənfi enerjini əllərdən ayaqlara, sonra isə yerə ötürür.Bu səbəbdən, namaz qıldıqdan sonra insanın əsəbləri sakitləşir və dünyaya baxışları təzələnir. Namaz qılarkən necə dayanmaq qaydası haqqında Qurani-Kərimdə belə buyurulur:

"əl-Bəqərə-238-239-Namazları və orta namazı qoruyun. Müticəsinə Allah üçün qiyam edin."

Bu ayədən də göründüyü kimi namazın öz qılınma qaydaları vardır. Qiyam vaxtı qaməti düz saxlayaraq, əlləri düz tutaraq, başı bir az aşağı əyib, müticəsinə, gözləri oyan-buyana çevirmədən, düz möhürə baxmaq lazımdır. Sonra isə rükuya gedən zaman isə gözlər iki ayaq baqmaqlarının arasına baxmalıdır.Bu minval ilə namaz zamanı gözlər möhürdən və ayaq barmaqlarının arasından başqa heç bir səmtə baxmamalıdır.

Həmçinin, müsəlmanları namaza çağıran azanın sözlərində olan: **- "Qədqamətus salət"** tərcüməsi:-"Qamətinizi düzəldin, namaz üçün düz dayanın" mənasında bizləri Uca Allahın qarşısında düz dayanmağa çağırır. Namaz qıldığımız zaman əgər biz Allahın qarşısında durub, onunla söhbət ediriksə, necə əllərimizi bağlayıb,ayaqlarımızı da aralı qoyaraq dayana bilərik? Belə sual oluna bilər ki, hansı tələbə müəlliminin qarşısında əlləri bağlı dayana bilər?Və yaxud da hansı əsgər öz komandirinin qarşısında əlləri bağlı, ayaqları aralı dura bilər? Hansı xalq öz rəhbərinin qarşısında və ya ölkənin himni çalınanda əlləri bağlı dayana

bilər? Sadəcə olaraq bu haqda insan özü bir az düşünsə,müqayisə etsə və bir anlıq özünü yaradanın qarşısında hiss etsə, özü düzgün nəticə çıxara bilər. Çünki Qadir Allah bütün yaranmışlardan da ucadır. Əgər insan hər hansı vəziyyətdə işi keçən insandan öz vəzifəsinə, işinə görə qorxaraq, onun qarşısında düz, müticəsinə dursa, bəs necə olur ki, bütün məxluqatı yaradanın qarşısında özü istədiyi kimi dura bilir?

Axı Quranda Allah buyurur ki, siz yaranmışlardan və yaxud da öz canınızdan deyil,yalnız Məndən qorxun! Hər halda Yaradanı qarşımızda hiss etsək və buna qəlbən inansaq ki, həqiqətən də O,bizi görür, onda namaz qıldığımız zaman onun qarşısında düz qamətdə, əllərimizi düz tutaraq, başımızı müticəcinə aşağı əyərək və qəlbimizdə bir ümid, təsəlli və həm bu dünyamız, həm də aqibətimiz üçün qorxu, həyəcanla dayanarıq. Bir an bunu düşünün, hiss edin və özünüzü Qiyamət günü, Məhşərdə, Allahın qarşısında hiss edin, bunu təsəvvürünüzə gətirin və görün ki, nəinki qollarınızı qaldırmağa heç barmaqlarınızı tərpətməyə belə iqtidarınız olmaz. Onda Uca Allahın qarşısında necə dayana bilərsinizsə, o şəkildə də namazda dayanın və özünüz düzgün nəticə çıxarın.

(Aşağıda qeyd edilmiş, Məşhərdə kim Allahın qarşısında necə duracaq və necə gətiriləcək mövzusunu oxuyun.)

BEŞ VAXTDA NAMAZ QILMAQ

Hədis: Hz.Əli buyurur ki, Allahın Rəsulu günəş yüksəkdə olduğu (batışa doğru bir az meyl etdiyi) zaman, qılınan əsr namazından sonra günəş batanacan namaz qılmağı qadağan etmişdi. **Tayalisi (müsnəd p.108,) Şafii (Umm 7,154.),Əhməd (1,80, 129) Əbu Davud p.1274) Nəsai (məvakit 36,1,280,)**

Hədis:Əbu Məlihdən:Büreydə belə deyərdi:İkindi(əsr) namazını gecikdirmədən, tez qılın,çünki Hz.Peyğəmbər belə buyurmuşdur. **(Buhari, Məvakit 15, 1, 138) və Nəsai (Salat 15,1, 236), Yahya ibn.Kəsir Əbu Kilabə, Əbi-Məlih Büreydə** əsl sənədlə söyləmişdir.).

Hədis:Ənəsdən qeyd edilir:-Əs`ad Səhl ibn.Huneyf deyirdi ki: Ömər ibn. Abduləziz ilə öylə(zöhr) namazının qılıb çıxdıq.Ənəs ibn.Malikin yanına gəldikdə onun ikindi(əsr) namazını qıldığını gördük. Dedim ki:Bu qıldığın namaz nədir? O cavab verdi ki: "İkindi namazıdır.Allah Rəsulu ilə qıldığım namaz elə budur." Hz.Peyğəmbər öylədən(zöhr) bir az sonra ikindini(əsr) qılardı.(**Buhari-Məvakit 13\6,138) Müslim Məsacid p.196, s.434 və Nasai Məvakit 8\4,1,253)**

Hədis:Əbu Səid rəvayət edir:"Allahın Rəsulu(s.ə.s.)zöhr və əsr namazındakı qiyamını uzadaraq Bəqərə surəsinin oxuyardı, sonra isə son iki rəkətdə isə qısa surələr oxuyaraq namazını uzadardı. Eyni ilə Əsr namazini da belə qılaraq, camaatla birlikdə tamamlayardı.

Hədis:Ənəs Rəsulullah (s.ə.s.)da buyurur: Şübhəsiz Allahın hər namaz vaxtında, belə səslənən bir mələyi vardır."Ey Adəmoğulları! Öz əleynhinizə yandırdığınız atəşi Namaz üçün qalxaraq söndürün**."(Buhari-təfsir1\1\ VI,92, Tirmizi-3359-60)**

Hədis:İbn Abbasdan və Cabirdən söylənən eyni:Allahın Rəsulu buyururdu:Ən üstün namaz,qunutu uzun olan namazdır**. ("Müslim-Musafirin p.164, -Tirmizib p. 1453 bənzərini rəvayət etmişdir.)**

Hədis:Abddullah inb.Fədaidən:Allahın Pəsulu(s.ə.s.) mənə çox şeyi öyrətdi. Öyrətdikləri arasınd:"Beş vaxt namaza davam et!"- buyruğu da var idi.Dedim ki:"O vaxtlar işlərin çox olduğu vaxtlardır, mən elə bir şey söylə ki,onu etdiyim zaman daha heç nəyə ehtiyacım qalmasın və yetərli olsun.Peyğəmbərimiz belə buyurdu: iki əsrə davam et! Soruşdum ki, bu nə deməkdir?

Belə açıqlama etdi**:"Günəş doğmamış(bir əsrə) qılınan sübh namazı, birdə günəş batdıqdan(iki əsrə) sonra qılınan şam namazı. (Əbi Davud-428)**

Hədis:Əbu Musa belə nəql edir:Peyğəmbərimizdən namaz vaxtlarını soruşduqda, o:"Iki gün bizimlə namaz qıl,öyrən,"- dedi. Səhər qaranlıqda, günəş çıxmamamış sübh namazı üçün Bilala əmr etdi ki, azan versin.Sonra günəş göyün tam təpə nöqtəsində olanda azan oxunub şöhr namazı üzün qiyam etdilər, daha günəş yüksəklikdə ikən yenə azan oxutdurub, ikindi namazı üçün qiyam etdilər.Günəş batdıqdan sonra əmr edib,şam namazını və gecə namazını qıldırdı**. (Müslim, məcasid,178-9) Müslim (məsacid 176-7.)vəTirmizi ("Həsən qarib sahih"152)**

Hədis:ibn.Abbasdan nəql olunur: Allahın Rəsulu (s.ə.s.)buyurdu: "Cəbrail,Beyti-Şərifin yanında, namazda iki dəfə imamlıq etdi. Birinci öylə(zöhr) namazını, günəş göyün tən ortasında olanda, sonra ikindi(əsr) namazını, kölgələrin bir az uzandığı zaman, sonra axşam (şam) namazını günəş tam batıb, iftar vaxtında,yatsını (xiftəni) isə artıq üfüqlərdə aydınlıq qalmadığı (hava tam qaralan) zaman,sabah namazını dan yeri ağarmamış, orucu(obaşdanı) yedikdən sonra qıldırdı.Sonra Cəbrail dedi:Ey Muhəmməd! Bunlar səndən əvvəlki Peyğəmbərlərin namaz qıldıqları vaxtlardır.Namaz vaxtı bu üc vaxtdır.Günəş doğma-

mış (qaranlıqda), günəş göyün tam təpə nöqtəsində olanda, sonra batış nöqtəsinə meyl edəndə, günəş tam batanda və tam qaranlıqda**.(Bu hədisin əsl sənədi belədir:Abdurrəhman ibn.el-Həris, ibn. Ayyaş, ibn. Əbu Rəbiə Həkim, ibn. Həkim, ibn. Abdad,ibn,Huneyf an Nafi, ibn Cübeyd(s.77-8) və el-Hakim (1.193) söylədilər. Buhədisi Əhməd (1\333,354)Əbu Davud (393)**

Hədis:Nəsai və Cabirdən nəql edilir:Peyğəmbərimiz(s.ə.s.) buyurmuşdur:"Cəbrail Peyğəmbərimizə namaz vaxtlarını öyrətmək üçün nazil oldu.Peyğəmbər onun arxasında camaatla səf tutdu. Öylə(zöhr) namazını günəş tam göyün ortasında olanda, ikindi(əsr) namazını isə günəş göyün ortasından batıya doğru meyl etdiyində qıldırdı.Axşam namazını günəş batdıqda, gecə namazını isə tam hava qaralanda qıldırdı**.(Nəsai,məvakit 10,1,255,) Təbərani (əl-Evsat 1/916, əl-Həkim ,1/196)**

Hədis:ibn.Abbasdan nəql edilir: Allahın Rəsulu (s.ə.s.) sabah namazından sonra günəş doğuncaya qədər,günəş tam göyün ortasında olanda zöhr,günəş batmağa doğru meyl etdiyində qılınan əsr namazından sonra günəş batana qədər namaz qılmağı qadağan etdi. **Buhari(məvakit-30,1,145,)Müslim(müsafirin p.286-7,s.566-7)Tirmizi(p.183)**

Hədis:Əbu Bəsrə əl-Ğıfari nəql edir:Allahın Rəsulu (s.ə.s.) bizə günəş batışa tərəf meyl etmək istəyəndə ikindi namazını bitirdikdən sonra buyurdu:Bu namaz sizdən öncəkilərə də verildi, amma onlar zay etdilər. Ona görə də, hər kim bu namazı davam edib qoruyarsa, iki kərə əcr alar.Ondan sonra şahit(ulduzlar) doğuncaya qədər heç bir namaz yoxdur" **Beyhaki(1,440)**

Hədis:Ənəs Peyğəmbərdən nəql edir:Allahın Rəsulu ikindini qıldığı zaman,günəş yüksəkdə parlardı,belə ki,günəş bir az batı tərəfə meyl edərdi.(**Bu haqda 6-hədis vardır.Lafit Buhari və Şüayb aniz Zühri an Ənəs əsl sənədi ilə)(Müslüm məcasid p. 192.s.433.)**

Hədis:Ənəs nəql edir: Allahın Rəsulu(s.ə.s.) hava çox isti, qızmar olduğu zaman, ikindi namazını gec qılardı, yava qızmar olmadıqda elə vaxtında, günəş tam göyün ortasından batış nöqtəsinə meyl etdiyi zaman qılardı**.(Əbu Davud 408**)

Hədis:"**Merac Sahibi hədis":Muhəmməd ibn.Amr ibn. Həsən Əli ibn Talibdən** nəql olunur:əl-Hacca namazlarını ard-ardına qılardı. Bu halı Cabirdən soruşduqda belə cavab verdi:Allah Rəsulu (s.ə.s.)ögləyi qılacağı zaman günəş tam göyün təpə nöqəsində olurdu, ikindini qıldığı zamam günəş batışa döqtu meyl etmiş olurdu. Axşam namazını günəş batdıqda qılardı.Yatsını da hava tam qaraldıqdan sonra qılardı,Bəzən

məscidə insanların çox toplandığını görüb, axşam (şamdan) namazından dərhal sonra da yatsını (xiftəni) qılardı.Öylə namazın da camaatın məscidə toplanması ilə əlaqədar olaraq, öylə namazının ikinci rükətində qunutu və qiyamı uzadardı.Namazdan dərhal sonra qısa surələr oxuyardı və ikindi namazına başlayardı**.(Darimi(1/267), Buhari (məvahit 18,1, 140 məvakit 21,1,141,Müslim(məsacid p.233-4,s.446), Beyhaki (1, 434\449)Şubə ən Sad ibn.İbrahim, ibn.Amr ibn. əl Həsən, an Cabir əsl sənəd ilə.)**

Hədis:Bir gün Ömər Abduləziz ikindi (əsr) namazını gec qılırdı. Bunun üçün Urvə ibn.Zübeyr onun yanına gəlib belə söylədi: Muğirə ibn. Çudə də Küfə də ikindi (əsr) namazını gecıkdirmişdi. əl Ənsari ona belə demişdi: "Nədir bu ey Muğirə? Bilmirsənmi bir gün Cəbrail gəlib namazın qılınma qaydalarını və vaxtını

Allahın Rəsuluna öyrətdi.O da ona uyaraq öglə (zöhr) namazını, sonra da ardınca ikindi (əsr) namazını qıldı və dedi ki, bu, Allahın namazları vaxtında qılmaq haqqında olan əmrləridir ki, mən sizə çatdırdım. Bundan sonra Ömər ibn.Abduləziz belə dedi:

-"Nə söylədiyinə diqqət et!Yəni demək istəyirsən ki, Allahın Rəsuluna namaz qılmağı Cəbrail öyrətdi?

Urvə dedi:Əlbəttə! Bəşir ibn.Əbu Məsud babasından belə nəql edirdi**.("Buhari (məvakit 1\1,132.), (Bed`ul halk 6\15,4,81.), (mağazi 12\12,5, 17) Müslim(məsacid 166-7,s. 425-6) Nəsail (məvakit 1\1, 245-6) və ibn.Məcə(p.668) əz-Zühri an Urvə an Bəşir ibn. əbu Məsud Əbihi əsli sənədi. Əbu Məsud.)**

QİBLƏ-YƏNİ NAMAZ VAXTI ÜZÜ KƏBƏ EVİNƏ DAYANMAQ

Qurani-Kərimdə Qiblə haqqında nazil olan ayələr;

əl-Bəqərə-142-150-İnsanların səfehləri deyərlər.Onları üz tutduqları qiblədən döndərən nədir? De ki, şərq və qərb Allahındır, istədiyi kəsi doğru yola hidayət edər.

Açıqlama:-Cənab Peyğəmbər Məkkədə olarkən, namaz qılanda üzünü Beytül-Müqəddəsə tutardı. Bu minvalla 13 il keçdi. Mədinəyə hicrət edəndən sonra yenə17 ay Beytül-Müqəddəsə tərəf namaz qıldı. Yəhudilər dedilər ki:"Bizim dinimizin haqq olması ondan bilinir ki, Muhəmməd namazını və başqa ibadətlərini bizim qibləyə tərəf icra edir."Bu söz Həzrətə ağır gəldi və ürəkdən istədi ki, müsəlmanların da öz qibləsi olsun. Cəbrail nazil olub dedi:"Ey Allahın Rəsulu! Bunu Al-

lahdan istə, Allah sənin xahişini rədd etməz.”(Sonra bu ayə nazil oldu.) Həqiqətən, biz sənin üzünün göyə tərəf çevrildiyini gördük. Beləliklə, biz sənin üçün qibləni, sənin istədiyin tərəfə Məscidil-Hərama tərəf döndərdik.Hər yerdə olsanız olsanız üzünüzü o tərəfə döndərin və bu xitab bütün ümmətədir. Kitab verilən kəslər bilirlər ki, bu haqdır və Allah tərəfindəndir.

(Həzrət Mədinənin xaricində bir məsciddə namaz qılan zaman, zöhr namazından iki rükət qılmışdı ki, Hz.Cəbrail nazil olub, onun üzünü Məkkəyə tərəf döndərdi. Bununla kişilər qadınların, qadınlar da kişilərin yerində durdular və qalan iki rükəti Məkkəyə tərəf qıldılar. Bu məscidə”Qiblətəyn”(iki qibləli) məscid deyilir. Bəli, beləcə biz sizi ümmətlərin ən yaxşısı elədik ki,insanlara şahid olasınız,Peyğəmbər də sizə şahid ola. Üz tutduğunuz qibləni də buna görə dəyişdik ki, kimin Peyğəmbərə tabe olduğunu və kimin ona qarşı durduğunu öyrənək.

Sən kitab əhlinə hər bir dəlil gətirsən də, onlardan bir çoxu sənin qiblənə tabe olmazlar. Sən də onların qibləsinə tabe olan deyilsən. Onlar bir-birinin qibləsinə tabe olan deyillər.Yəhudilər Beytul-Müqəddəsə, nəsranilər Günəş çıxan tərəfə üz tutarlar. Hər kəsin üz tutduğu bir yer vardır.O yerə döndərən Allahdır.Yaxşı işlərdə, itaətlərdə bir-birinizi keçməyə səy edin. Harada olsanız da, Allah hamınızı bir yerə cəm edəcəkdir.)

Harada olsanız, üzünüzü Məscidi-Hərama döndərin və bu Allah tərəfindən buyurulmuş haqq sözdür. (Kitabul bəyan fi təfsiril Quran)

MÜBARƏK ÜÇ AYLAR HAQQINDA

Qurani-Kərim enməzdən əvvəl insan oğlu cəhalət içində qalıb, qəlbini küfr buludları bürümüşdü. İnsan həqiqəti, Allaha ibadət və itaəti buraxmış, daşlara, ağaclara və bütlərə tapınmağa başlamışdı. Cinayət, rəzalət və avamlıq hər yeri bürümüşdü.

Belə bir zamanda Allah onlara rəhm və mərhəmət edərək Qurani-Kərimi nazil edir.Bununla da bəndələrinə maddi ehsanlar bəxş etdiyi kimi, mənəvi ehsan da bəxş edib, hidayət yolunu öyrədir. Həmçinin Allah biz günahkar insanlara dua edərək əfv diləmək, tövbə etmək fürsətini vermək səbəbilə müqəddəs aylar, günlər, gecələr, saatlar müəyyən etmişdir.

Dinimizdə buyurulan dörd haram aylar olduğu kimi, üç də mübarək aylar vardır. Bəzi günləri bəzi günlərdən üstün və fəzilətli etmiş, bəzi gecələri də bəzi gecələrdən daha dəyərli etmişdir. Bütün bu hikmət

və incəliklərin gizli sirri bəndələrin bu günlərdə daha çox dua, ibadət edərək saflaşmalarıdır. Bu ehsanlara nail olan kəslər böyük bir sərvətə nail olarlar.

əz-Zumər-53-Ey Rəsulum! Mənim tərəfimdən ümmətinə de ki: "Ey günah işlətməklə nəfslərinə qarşı israf edib, həddi aşan bəndələrim! Allahın rəhmətindən, sizi bağışlamasından ümidinizi kəsməyin. Çünki şirk və küfrdən başqa, istədiyi bəndələrindən bütün günahları bağışlayar. Çünki O, Ğafurdur (çox bağışlayandır), Rəhimdir."

Günah yükünün altında ömür sərmayəmizi israf edərək, boş-boşuna xərcləyib bitiririk. Halbuki dünyaları versək, keçən ömrün bir dəqiqəsini belə geri qaytara bilmərik. Bu səbəbdən Allahın rəhmət dənizinə baş vurmalı, rəhmət dənizindən faydalanmalıyıq. Mübarək üç ay Allahın rəhmət dənizinin coşduğu mübarək günlərdir ki, ömrümüzü boşa keçirmiş bizlər ayılaraq bu rəhmət günlərindən istifadə edək. Çünki gələn il bu ayların bizlərə bir daha qismət olması barədə heç bir sənədimiz və ya qarantımız yoxdur.

Qurani-Kərimdə belə buyurulur:

əl-Bəqərə-203-"Sayılmış günlərdə Allahı yad edin.İki gün qabağa düşən bir günah etməmişdir. Gecikən hər təqvalı da bir günah etməmişdir. Allahdan qorxun və onun hüzurunda toplanacağınızı bilin."

Bu aylar:**Rəcəb, Şaban və Ramazan** aylarından ibarətdir.

1- Rəcəb ayı, mübarək aylardan biridir.Bu ay həmçinin haram aylardan olub, Allahın ayı hesab edilir.

2-Şaban ayı da mübarək və şərafətli aylardan biri olub Peyğəmbərimizin ayı hesab edilir. Bu ayda da oruc tutmaq, tövbə, istiğfar etmək, insanın özü üçün verilən bu fürsətdən istifadə etmək çox mühümdür.

3-Ramazan ayıdır ki, bu da bütün İslam dinindən olan insanların ayıdır. Bu ayda oruc tutmaq vacib buyurulmuşdur.

Bu aylarda Quran oxumağın savabı haqqında çoxlu səhih hədislər buyurulmuşdur.

1-Cİ MÜBARƏK RƏCƏB AYI

Sevgili Peyğəmbərimiz üç mübarək ayların birincisi olan Rəcəb ayı girdiyi zaman bu duanı oxuyardı:

-"Allahummə barik lənə fi Rəcəbə və Şəəbənə və bəlliğnə ramədan",-yəni:

-“Allahım! Rəcəb və Şabanı haqqımızda mübarək et və bizi Ramazana qovuşdur.”

Peyğəmbərimiz başqa bir hədisdə belə buyurur:“Rəcəb-şərif ayı çox böyük fəzilətli və mübarək bir aydır. Belə ki, Allah Rəcəb ayında yaxşılıq və savabları qat-qat, bol-bol mükafatlandırır.”

“Kim Rəcəb ayında on gün oruc tutarsa, Allah o kimsənin bütün istək və diləklərini yerinə yetirər”.

“Rəcəb-şərifin bir gün əvvəlində, bir gün ortasında,bir gün axırında oruc tutan kimsəyə Allah-taala bütün ayı oruc tutmuş kimi savab verir.”

Rəcəb ayının birinci günü rəvayətlərə görə Hz.Nuh gəmisinə minmiş və gəmidə olanlara oruc tutmaq əmr olunmuşdur.

Bu gündə Əmirəl-möminin Hz.Əli Kəbə evinin içində dünyaya gəlmişdir.

Bu ayın hər gününün öz namaz və ibadətləri vardır.

Hz.Peyğəmbərdən belə bir hədis buyurulur:-“Rəcəb ayı Allaha məxsus özəl aydır.Yəni Rəcəb Allah ayıdır.Şaban ayı mənim ayımdır. Ramazan ayı isə ümmətimin ayıdır”-deyirdi.

Rəcəb ayında iki mübarək gecə vardır. Bunlardan biri Rəcəb ayının ilk cümə gecəsidir.Digəri isə Rəcəb ayının 27-ci gecəsidir. Bu gecə Məbəs gecəsi, yəni Rəsulu Əkrəm səlləllahu ələyhi və alihi və salləmin Peyğəmbərliyə seçildiyi gündür. Bu gecələrin özünəməxsus namaz və zikrləri vardır.

Rəcəbin 27-ci gecəsini “Merac gecəsi” kimi də qeyd edirlər. Merac, Peyğəmbərin iki yeddi qat göylərə oradan Ərşi-Ələya, Sidrətul-Muntəhaya gecənin az bir zamanında səyahət etməsi hadisəsidir.Rəcəb ayının dəyərinin böyüklüyünü başa düşmək üçün Peyğəmbərimizin buyurduğu bir hədisi yada salaq:-“Cənnətdə elə bir köşk vardır ki, ona ancaq Rəcəb ayında oruc tutan kimsədən başqası girə bilməz.Yalnız Rəcəb ayında oruc tutan kimsə girər.”

Cənnətdə bir nəhr vardır ki, ona Rəcəb adı verilmişdir. Rəcəb nəhrinin suyu süddən bəyaz, baldan dadlıdır. Bir kimsə Rəcəb ayında bir gün oruc tutsa,Cənabi-Haqq o quluna bu nəhrdən su içirdər və o bəndə bir daha susamaz.

Rəcəb ayının hər günü və gecəsi üçün müəyyən olunmuş ibadətlər, oruc, namaz və zikrlər vardır.Rəcəb ayı Allahın zatına məxsus bir ay olduğu üçün “İxlas” surəsini çox oxumaq savabdır.

Rəcəb ayında olunan zikrlər:

“Əstəğfirullahə və əsəluhu əttəvbə.”

10-gün-Sübhənəllahul Həyyul Qayyum.

10-gün-Sübhənəllahul Əhədus Saməd.

10-gün-Sübhənəllahul Ğafurur Rahim.” **(“Məfatihul-cinan.”)**

Dini hekayə:-Hz. İsa bir gün gəzərkən uca bir dağın təpəsinə çıxır. Dağın təpəsində yüksək qayalar, yaşıl çəmənliklər və buz kimi suyu olan ceşidli böyüklükdə bulaqlar var idi.Hz. İsa bu könül fərəhləndirici gözəlliyin ortasında heyran-heyran dolaşarkən gözünə süd kimi ağ uca bir qaya sataşır. Qayanın gözəlliyi qarşısında heyran qalır.Qayanın yanında bir zeytun ağacı da var idi.

Uca Allah bu anda vəhy yolu ilə Hz.İsaya belə səslənir:-Ey Mənim sevgili Peyğəmbərim İsa! Sənə bu gördüyündən qat-qat gözəl bir mənzərə göstərimmi? Hz. İsa ilahi səsləniş ə:-Heç olar ki, istəməyim,ey varlıqların ortaqsız Sahibi!-deyə cavab verir.Hz.İsanın bu cavabından sonra həmin qaya ikiyə bölünür və Hz.İsa qayanın içindən ağ saqqallı bir qocanın çıxdığını görür. Sonra bu nur üzlü qoca ağ qaya üzərində namaz qılmağa başlayır. Hz. İsa bu görünüşə çaşqınlıq içində baxırdı.

Uzun müddət bu qeyri-adi gözəlliyə baxdıqdan sonra o, namazını bitirən qocaya yaxınlaşaraq salam verib soruşur:-Bu gördüyüm Nə yaxşı zeytun ağacı burada bitib? Nurlu qoca gülümsəyərək:-O gördüyün zeytun ağacı mənim hər günkü qidamdır. Ağacda yetişən zeytunlarla il boyunca qarnımı doydururam və uzun müddət insanlar arasına heç qarışmadan bu mağarada ibadət edirəm,- cavab verir. İsa (ə.s.) qocadan soruşur:”-Neçə ildir ki, bu qaya oyuğunda Allaha ibadət edirsən? Nurlu qoca cavab verir:-Tam dörd yüz ildir ki, bu mağarada qalıram və bütün vaxtımı Uca Yaradana ibadət edərək keçirirəm. Bu qədər uzun illər içində, bir kərə belə bu mağaradan çıxaraq insanlar arasına girməmişəm.”

Hz. İsa bu nurlu qocanın sözündən hüdudsuz sevinc duyur.Ümməti arasında çoxlu günahkarların yanında belə bir Allah adamının olmasına iftixar hissi duyur.Hz. İsanın qəlbini genişləndirən iftixar hissinə görə Uca Allah vəhy yolu ilə ona səslənir: ”Ey Mənim sevgili Peyğəmbərim, Məryəm oğlu İsa!Mənə dörd yüz ildən bəri durmadan ibadət edən bu nur üzlü qoca ümmətindən biridir-deyə düşünərək bu nurlu qocanın ibadətindən iftixar hissi duyursan və buna görə yerdən-göyə qədər haqlısan.Fəqət bunu da bilməlisən ki, səndən sonra Muhəmməd adında bir Peyğəmbər göndərəcəyəm.Bütün kainatın qurtuluşu xatirinə yaratdığım bu sevgili Peyğəmbərimə Bəraət və Qədr gecələri verəcəyəm.

İçində rəhmətimin bol-bol yağacağı bu gecələr Şaban ayının on beşi (Bəraət) gecəsi və Ramazan ayının son on gününə düşən Qədr gecələridir.Muhəmməd ümməti arasında bu gecələri təmiz ürəklə

ibadətlə keçirən qulum, sənin ibadətinə heyran olduğun bu nur üzlü qocadan mənim nəzərimdə daha üstün dərəcəlidir.”

Allah biz Muhəmməd ümmətinə bəxş etdiyi bu mübarək gecələri gözəl ibadətlə keçirməyi bizlərə nəsib etsin. (M.Cəzalı “Altın Ögüdlər”-tərcümə Hüseyn Okur.)

2-Cİ-MÜBARƏK ŞABAN AYI

Peyğəmbərimizin Şaban ayı haqqında:”Şabanu şəhri”-yəni “Şaban mənim ayımdır,”-deyə buyurmuşdur. Allah-taala bu ayda ibadət və ehsan verən bəndələrinə işarə edərək mələklərə belə buyurur:”Ey mələklərim!”Baxın görün. mənim bəndələrim Rəsulumun ayı olan Şaban ayına necə rəğbət və hörmət göstərirlər. Calalım haqqı,mən də bu bəndələrimə məğfirət edər, bağışlaram.”

Peyğəmbərimizin Ramazan ayından sonra ən çox oruc tutduğu ay, Şaban ayı olmuşdur.

Rəsulu-Əkrəm buyurur ki:“Şabanı Şərifdə bir gün oruc tutan qulumu Cənabi-Haqq Cəhənnəm əzabından əmin edər.Dünya və axirət ilə əlaqədar işlərini ehsan edər.İki gün oruc tutan kimsənin qəbrində iki mələk Qiyamətə qədər gözləyərək o bəndəyə yoldaş olar.Üç gün oruc tutan kimsənin sual-cavabı yüngül olar.

Yeddi gün oruc tutan kimsəyə Cənabi-Haqq Qiyamət günü övliya olan kimsələr ilə bərabər həşr edər və Cənnətdə o quluna öz camalını göstərər.”

Hz. Əlinin rəvayət etdiyi bir hədisi-şərifdə buyurulmuşdur ki: “Şabanın on beşinci gecəsinə yetişdikdə ibadət etmək üçün qalxın.Gündüzləri oruc tutun.Allah günəş batdıqdan sonra dünya səmasına rəhmətilə təcəlli edib buyurur:“Bir məğfirət, bağışlanma diləyən yoxdurmu ki onu bağışlayım,bir ruzi istəyən yoxdurmu ki,ona ruzi verim,bir dərdlərinə dərman istəyən yoxdurmu ki,ona afiyət verim?! ”Bu dəvət uzun-uzadı davam edər.”

Bu gecədə beş böyük hikmət var:

1.Hikmətli hər iş bu gecə vəzifə sahiblərinə təklif olunar. Lövhu-Məhfuzdaki İlahi təqdirlər arasında il ərzində cərəyan edəcək hadisə və başa gələcəklər haqqında dəyişikliklər bu gecədən etibarən başlanar və Qədr gecəsində tamamlanar. Ruzi ilə və təbiətdə (yağış,qar və.s.) bağlı nüsxə Hz. Mikayila, hərb, zəl-zələ və diğər fəlakətlərlə əlaqədar nüsxə Hz. Cəbrailə,bəndələrin əcəlləri ilə bağlı nüsxə Həzrəti Əzrailə verilir.

2.Bu gecə edilən ibadətin fəziləti çox böyükdür. Belə rəvayət edilir

ki:-Həzrəti Peyğəmbər bu gecədə Bəqi qəbiristanına gedib, möminlərə və şəhidlərə dualar edərdi. Həmçinin namaz qılıb, çox səcdədə qalardı və belə dua edərdi:"Ya Allah, əzabından əfvinə sığınıram, qəzəbindən rizana sığınıram."

3.Bu gecə də Mehdi Sahibəz Zamanın təvəllüd günüdür.Bu dünyada qeybdə olan imamın zühuru ilə bütün dünya nura boyanacaq, əmin-amanlıq bərpa olunacaqdır.Cənabi-Haqq bütün Muhəmməd ümmətinin dünya durduqca var olacağına və axirətdə də Muhəmməd ümmətinə rəhm olunacağına vəd verir.

4.Bu gecə məğfirətin bolluğu, bağışlanma, duaların qəbul olmasıdır.

Bu ayda Quran oxumaq və salavat gətirmək çox savabdır.

5.Bu gecə Həzrəti Peyğəmbərə şəfaət səlahiyyətinin tamamı verildi. Belə ki, Peyğəmbərimiz Şaban ayının on üçüncü gecəsi ümmətinə şəfaət edə bilmək üçün Allaha Meracda yalvarmış və ona ümmətinin üçdə birinə şəfaət etmə səlahiyyəti verilmişdir. Ümmətinə son dərəcə məhəbbət bəsləyən Rəsulullah ümmətindən olanlar üçün daha çox şəfaət edə bilməsi arzusu ilə çırpınardı.

On dördüncü gecədə ibadətlə məşğul olub,Allaha ümməti üçün şəfaət diləyini təkrar edirdi.Ümmətinin üçdə ikisinə şəfaət etmə səlahiyəti verildi. Aləmlərə rəhmət olaraq göndərilən Peyğəmbərimiz on beşinci gecəni də ibadətlə keçirtdi və Allaha ümmətinə şəfaət etmə səlahiyyətinin genişlənməsi üçün dua etdi. Bundan sonra ona ümmətinin hamısına şəfaət etməsi üçün səlahiyyət verildi.

Şaban ayının 14-dən 15-nə keçən gecəsinə "Bəraət" gecəsi də deyilir.Qurani -Kərim Bəraət gecəsində Lövhu-Məhfuzdan alınmış və bir bütöv halında dünya göyünə endirilmişdir. Sonra isə Allahın əmri ilə Cəbrail (ə.s.) vasitəsi ilə yer üzünə yavaş-yavaş 23 il müddətinə Peyğəmbərimizə vəhy yolu ilə nazil edilmişdir. Bu gecənin mübarək olmasının başlıca səbəbi də budur. Bəraət borcdan və günahlardan qurtarmaq mənasındadır. Bundan başqa bəraət məhbusa verilən əfv fərmanına da deyilir.

Bu haqda Qurani-Kərimdə belə buyurulur:

ər-Rəd-39-Allah Həmin kitabdan istədiyi şeyi məhv edər, istədiyini də sabit saxlayar. Bəndələrə aid hər hansı bir hökmü ləğv edib başqası ilə dəyişər və ya onu olduğu kimi saxlayar!Kitabın əsli Lövhu-Məhfuz Onun yanındadır.

əl-Ənkəbut-7-Allaha iman gətirən və yaxşı işlər görən kəslərin əməl dəftərlərindən günahlarını pozar və yox edərik! Onlara yaxşı əməllər etdikləri üçün həm dünyada, həm də axirətdə daha yaxşı və gözəl mü-

kafatlar verərik!

Şaban ayının 14-dən 15-nə keçən gecəsi mübarək gecələrdəndir. Bu gecədə ehsan vermək, namaz qılmaq, Quran oxumaq və Allahdan çoxlu bağışlanma diləmək lazımdır. Bu gecədə oxunacaq ən böyük dua "Kumeyl"duasıdır ki, onun oxunması Hz.Əl tərəfindən bizlərə tövsiyə edilmişdir. Bu dua Allahnın qarşısında bəndənin bağışlanması üçün etməli olduğu ən böyük duadır. Bu gecədə də bağışlanma, əfv, duaların qəbul olunması, diləklərin Allah tərəfindən yerinə yetirilməsi vardır.Allahın rəhməti bu gecədə sonsuzdur. Bütün mənəvi fəzilətlər bu gecədə təcəlli edər. Bu gecədə ümumi əvf elan edilmişdir.

Şaban ayının zikrləri:

10-gün-Ya Lətif cəllə Şənuhu.

10-gün-Ya Rəzzaq cəllə Şənuhu.

10-gün-Ya Əziz cəllə Şənuhu. ("Məfatihul-cinan." və "Tam dua kitabı.")

Təsbihlər:"Əstəğfirullahəl-əzimə və ətubu ileyh." "Subhanalla-hi vəl həmdulilləhi vələ iləhə illəllahu vəllahu əkbər.Vələ həvlə vəla qüvvətə illə billəhil Əliyyul Azim" və çoxlu salavat gətirmək savabdır.

3-CÜ-MÜBARƏK RAMAZAN AYI

Ramazanı Şərif Muhəmməd ümmətinin ayıdır. Peyğəmbərimiz bu ay haqqında belə buyurur:"Bu ayın əvvəli Rəhmət, ortası məğfirət, sonu Cəhənnəmdən qurtuluşdur."

Bir müsəlman olan kəs üçün bundan başqa arzu edəcəyi və ya istəyəcəyi böyük bir istək ola bilərmi?Dənizlər mürəkkəb, ağaclar qələm olsa, orucun mükafatını yazmağa yetməz. Çünki onun savabını, əcr və mükafatını Allah özü verəcəkdir.

Allah "Oruc mənim üçün tutulmuşdur. Onun mükafatını mən verirəm"-buyurmuşdur. Bu ayın axırıncı on günü müqəddəs günlərdən və gecələrdən sayılır.Bu gecələrin birində müqəddəs Qədr gecəsi vardır. Bu haqda Qurani-Kərimdə"Qədr"surəsi nazil olmuşdur.

əl-Qədr-1-5-Həqiqətən, biz Quranı Qədr gecəsi (Lövhu-Məhfuzdan) dünya səmasına nazil etdik! Ya Peyğəmbər! Qədr gecəsinin nə olduğunu bilirsənmi? Qədr gecəsi (savab cəhətdən) min aydan daha xeyirlidir. O gecə mələklər və ruh(Cəbrail) Rəbbinin izni ilə (həmin gündən gələn ilin Qədr gecəsinədək dünyada baş verəcək) hər bir işdən ötrü yerə enərlər, O gecə dan yeri söküləna kimi salamatlıq,əmin-amanlıqdır!(Qədr gecəsi heç bir bəla nazil olmaz,o bütünlüklə xeyir-bərəkətdən ibarətdir. O gecə mələklər yer üzündə gəzib Allahın müxlis bəndələrinə salam verərlər.

Buna görə də Qədr gecəsi səhərə qədər oyaq qalıb ibadət etmək lazımdır!

əd-Duxan-1-8-Haqqı batildən, halalı haramdan ayıran, açıq-aydın kitaba and olsun ki, Biz onu mübarək bir gecədə nazil etdik. Biz (o kitab vasitəsilə kafirləri öz əzabımızla) qorxuduruq! Hər bir hikmətli (yaxud dəyişilməsi mümkün olmayan) iş o gecə hökm (ayırd) olunur. Dərgahımızdan bir buyruq alaraq(il ərzində birinin başına gələcək bütün işlər, dünyada baş verəcək bütün hadisələr, xeyir-şər, əcəl, ruzi, xoşbəxtlik, bədbəxtlik və s.), bütün dəyişikliklər Lövhu-Məhfuzda yazılır və mələklərə bildirilir. Sənin Allahının tərəfindən rəhmət olan halda insanların behiştə getməsinə səbəb olsun.Həqiqətən, Allah bəndələrinin du larını eşidən və əməllərini biləndir. Ondan başqa haqq olan Allah yoxdur!O,insanları öləndən sonra dirildər və dirildəndən sonra öldürər.”

Peyğəmbərimiz Meracda olduğu zaman, göyün yeddinci qatında Hz. İbrahimlə görüşdükdə Hz.İbrahim Peyğəmbərimizə belə buyurdu:“Ümmətinə məndən salam söylə və onlara əmr et! Xəbər ver ki, Cənnətə fidan tikməyi çoxaltsınlar! Çünki Cənnət torpaqları gözəl, suyu dadlı, özü də geniş və gözəldir.”

Peyğəmbər (s.ə.s.) soruşur ki,Cənnətdə tikiləcək fidan nədir? Hz.İbrahim cavab verir ki:”Cənnətdə tikiləcək fidan:”Sübhanallah vəlhəmdulillah və lə ilahə illəllahu vallahu əkbər.Allahu Əkbər.Və lilləhil Həmd”-zikridir.

Mənası:-Allah hər nöqsandan pakdır, bütün təriflər ona məxsusdur, Allahdan başqa heç bir Allah yoxdur!Allah böyükdür! Bütün güc-qüvvət yalnız ona məxsusdur və yalnız Allaha həmd edək.

Ramazan ayının zikrləri:

10-gün-Ya Ərhəmər rahimin.

10-gün-Ya Ğəffər-əz-zunub.

Bu mübarək üç aylarda çoxlu istiğfar etmək, Qurani-Kərimi bütün oxumaq, İxlas, Qədr, Duxan, Ənkəbut, Rum surələri oxumaq və Kumeyl, Cövşən-Kəbir, Mücir və sair bu kimi duaları oxumaq və çoxlu salavat çəkmək savabdır.

ORUC TUTMAQ HAQQINDA

Açiqlama: Ayların ən şərəflisi və Allah dərgahında ən dəyərlisi Ramazan ayı,on bir ayın sultanı və ayların ən fəzilətlisidir.Bu ayda oruc tutmaq Allah tərəfindən bizlərə vacib buyurulmusdur.Bu ay günahlar əridən, rəhmət və məgfirət ayıdır. Ramazan ayı bizi qoruyan bir qala ,ifrat dərəcəyə çatmış günahlardan tövbə etmək üçün bir fürsətdir. Ra-

mazanda tutulan oruc tək cismimizin deyil, həm də nəfsimizin orucu olmalıdır.

Qurani-Kərimdə orucluq haqqında ayə hicrətin ikinci ilində Ramazan ayından əvvəl nazil olub və elə o ildə ilk orucluq keçirilib. Peyğəmbərimiz Allahın verdiyi hökmü insanlara çatdırmış və Ramazan ayının orucu dinimizdə vacib buyurulan əməllərdən olmuşdur.

Hədis:-Peyğəmbərimiz buyurmuşdur:-Həqiqətən, Ramazan (əritmə-yandırma) ayı, Allahın bərəkət, rəhmət və məğfirət ayıdır. Bu elə bir aydır ki, Allahın yanında ayların ən fəzilətlisidir. Onun gecələri, gündüzləri, saatları çox fəzilətlidir. Bu elə bir aydır ki, bu ayda biz Allaha qonaq dəvət olunmuşuq. Bu ayda nəfəslər təsbih (zikr), yatmağımız ibadətdir. Bu ayda Allah insanlara bir daha günahlardan tövbə etmək üçün fürsət verir. Bütün bu vacib buyurulan hökmlər dünya və axirət savabımız üçün Allahın bizə verdiyi töhfələr və fürsətlərdir.

Oruc tutmağın bir neçə hikmətləri vardır:

1.Allahın razılığını və sevgisini qazanmaq üçün edilən bu ibadət zamanı insan ona əziz olan, sevdiyi bir çox şeyləri tərk edir.

2.Oruc tutmaq təqvaya nail olmaq üçün fürsətdir.İnsan oruc olduğundan nəfsi hər dəfə onu günaha meyl etdirəndə o oruclu olduğunu yada salır və özünü bu günahlardan çəkindirir.Həmçinin oruc bədənimizin kəffarəsidir.

3.Oruc tutduqda qəlb təfəkkür etmək,dərindən düşünmək və Allahı zikr etmək üçün açılıb, genişlənir.

Həqiqətən, bu ay insanların günahlarını tövbə və yaxşı əməlləri ilə yandıran aydır.

əl-Bəqərə-183-187-Ey iman gətirənlər! Oruc tutmaq sizdən əv-vəlki ümmətlərə vacib olduğu kimi sizə də vacib edildi. Bəlkə bunun vasitəsi ilə siz pis əməllərdən çəkinəsiniz. Oruc tutmaq vacib olan günlər müəyyən edilmiş günlərdir. Bu günlərdə sizdən xəstə və ya səfərdə olanlar tutmadığı günlər qədər başqa günlərə oruc tutmalı dır. Oruc tutmağa taqəti olmayanlar isə hər günün əvəzində bir yoxsulu doyuracaq qədər fidyə verməlidir. Hər kəs xeyirli iş görərsə, həm oruc tutub, həm də fidyə(sədəqə) verərsə, bu onun üçün daha yaxşı olar.İnsanlara doğru yolu göstərən, bu yolu açıq dəlillər ilə aydınlaşdıran Qurani-Kərim Ramazan ayında nazil edilmişdir. Ramazan ayına yetişən şəxslər vacib oruclarını tutmalıdırlar.Allah sizin üçün yüngüllük istər, çətinlik istəməz.Allah sizə Ramazan ayının gecələrində qadınlarınızla yaxınlıq etməyə və nəslinizi artırmağa izin verdi. Onlar sizin üçün,siz də onlar üçün libassınız. Allah bilir ki, siz öz nəfsinizə xəyanət edərsiniz. Allah

sizin tövbənizi qəbul etdi və sizin günahlarınızı bağışladı. Səhər hava açıldıqdan hava qaralana qədər oruc tutun və gecəyə qədər orucunuzu tamamlayın.

əl-Mucadilə-4-Kim azad etməyə kölə tapmasa, iki ay sərasər oruc tutmalı, buna da gücü çatmasa, altmış yoxsulu yedirdib doydurmalıdır. Bu sizin Allaha və onun Peyğəmbərinə iman gətirməniz üçündür. Bunlar Allahın şəriəti və hökmləridir. Kafirlər üçün dərd gətirən əzab vardır.

əl-Məidə-89-Allah sizi bilmədən verdiyiniz əhdlərə görə cəzalandırmaz. Lakin bilə-bilə içdiyiniz andlar pozmağa görə cəzalandırar.Belə bir əhdi pozmağın kəffarəsi ailənizi yedirtdiyinizin orta hesabından, on yoxsulu yedirdib doyurmaq, yaxud geyindirmək, yaxud bir kölə azad etməkdir. Bunları etməyə imkanı olmayan səxs 10 gün oruc tutmalıdır.Bu 10 gününüz əhdlərin kəffarəsidir. Bununla belə əhdlərinizi pozmayın.Allah ayələrini sizə belə izah edir ki, bəlkə sükür edəsiniz.

Hədis:Peyğəmbərimiz (s.ə.s.) buyurur:"Hər şeyin zəkatı var, bədənin də zəkatı orucdur**."(Zubdətul əhadis.)**

Hədis: İmam Sadiq buyurur:"Oruc tutanda gərək gözun, səsin, bədəninin dərisi də oruc tutsun.O, Həzrət digər əzələri da sadaladı və buyurdu:Oruc tutduğun gün oruc tutmadıgın gün ilə eyni olmasın." **(Zubdətul əhadis.)**

Hədis: Peygəmbərimiz (s.ə.s.)buyurur:"Oruc, Cəhənnəm odu qarşısında bir sipərdir,oruc tutanın yuxusu da bir ibadətdir.Hər şeyin qapısı olduğu kimi, ibadətin də qapısı orucdur." **(Zubdətul əhadis.)**

Hədis:-Hz.Əli (ə.s.)Ramazan bayramında belə bir xütbə söyləyir:Ey camaat! Sizin bugünkü gününüz elə bir gündür ki,yaxşı adamlar savab qazanar,günahkarlar isə ziyan və xəsarət görərlər. Bilin və agah olun ki,oruc tutan kişi və qadınlar üçün savab və xoşbəxtlik budur ki,mübarək Ramazan ayının axırında bir mələk nida edərək deyər:"Ey Allah bəndələri!Sizə müjdə olsun! Allah sizin keçmişdəki günahlarınızı bağışladı.Görün gələcəkdə necə olacaqsınız.Siz Allahı yada salın,Allah da sizi yad etsin.Siz Allahı çağırın, Allah da sizə cavab versin**.(Nəhcül-Bəlağə.)**

HƏCC HAQQINDA

Ali-İmran-96-97-Həqiqətən, insanlar üçün ilk bina olunan ev Məkkədə olan evdir.Bərəkətlidir və aləmlərin əhlinə hidayətdir.Onların qibləsi və ibadətgahıdır. Orada aşkar əlamətlər, İbrahimin məqamı vardır.Oraya daxil olan, dünya qisasından amanda olar. Həccə gedib ziyarət etmək bütün insanlar üçün vacibdir. O insanlara ki, müəyyən

şərtləri yerinə yetirə bilsin, yol getməyə qüvvəsi olsun. Həqiqətən, Allah aləmlərin əhlindən ehtiyacsızdır.

əl-Bəqərə-150-Harada olsanız, üzünüzü Məscidil-Hərama tərəf döndərin ki, zalımlardan başqa insanların sizə qarşı dəlili olmasın.

əl-Kövsər-2-Ya Muhəmməd, ona görə də bu nemətlərə sükür edərək,Rəbbin üçün namaz qıl və qurban kəs.

Açıqlama:-Həcc ibadəti İslamın vacib buyurulmuş on əməllərindən biridir. Həcc kəlməsi lüğətdə kəsb və təvəccüh mənasındadır. Dini mənası isə məlum bir yeri müəyyən bir zamanda məlum hərəkətlərlə ziyarət etməkdir. Müəyyən zaman:-Şəvval, Zilqədə və Zilhiccə ayının ilk on günüdür. Həcc əməli hər kişi və qadına ömürdə bir dəfə, müəyyən şərtlərlə vacib buyurulmuşdur. Həccin çox hikmətli, maddi və mənəvi faydaları vardır.

Bütün buyurulan dini hökmlərdən fərqli olaraq, Həcc əməli müəyyən şərtlər əsasında müsəlmanlara vacib buyurulmuşdur.Həcc əməlini yerinə yetirmək üçün həm maddi-mənəvi,həm elmi və fiziki hazırlıq olmalıdır.Bu yola gedən Hacılar İslam dininin bütün hökm və qanunlarını, Füruid-din və Üsulid-dini bilməli, həm cismani, həm də ruhən hazırlaşmalıdırlar.

Bundan əlavə yol getmək mədəniyyətini,müəyyən zaman müddətində bir yerdə yol gedən insanların bir-birləri ilə münasibətlərini düzgün qurmağı bacarmalıdırlar.Bu müqəddəs yolda heç kəsi dili və ya əməli ilə incitməməli,günahlardan saflaşıb təmizlənmək əvəzinə, qazana biləcəyi savabı əldən verməməlidir.Bu yolda zərurətdən doğan,təsadüfən rastlaşdığı insanların onun üçün bir imtahan, bir sınaq olduğunu və bu yolda şeytanın da cəhdi-səyini unutmamalıdır. Çünki şeytan həmişə yanımızda hazırdır ki, qazandığımız savabları əlimizdən alıb, bizi azdırsın.

Bir əmrlə 14 əsrə yaxın bir dövrdə milyonlarca insanlar bu müqəddəs bölgəyə gəlməyə can atarlar. Allahın əzəmətini bütün duyğuları ilə başa düşən Hacılar, mılyonlarca insanın onun özü kimi düşünüb, inandığını görüb,müşahidə edərlər.İns və cinin, bütün şeytanların şübhə və vəsvəsələrinə əhəmiyyət və qiymət verməzlər. İmanları qat-qat qüvvət qazanar.

İslam dininin zühur edib aləmə yayıldığı, uğrunda mübarizə aparıldığı, canların fəda verilib qanların töküldüyü, müqəddəs bölgələri, möhtərəm İslam qəhrəmanlarının məzarlarını ziyarət etməklə, Hacıların könlündə İslamı bütünlüklə yaşamaq və ona xidmət etmək eşqi və sevgisi oyanır.

Bircə bunu fikirləşək ki, Allah bizi qonaq çağırır,biz Allahın evinə qonaq gedirik və bu yolda həm dünya, həm də axirət savabını qazanırıq.

Həcc ziyarətində möminlər eyni qayə və inancla Həcc əməlini yerinə yetirmək üçün bir araya gələrlər.Dünyanın heç bir yerində rastlaşmayan möhtəşəm birliklə, ibadət şüuru və həyəcanı ilə kainatın yaradıcısına yönələrək,ondan diləklə bağışlanma istərlər. Kamil bir inamla yaşayıb, ölməyi arzu edərlər.

Qazanılan mənəvi böyük eşqdən mövcud pis fikir,vərdişləri tərk edərlər və Allahın hökmlərindən daha möhkəm yapışarlar.

Ayaqyalın, başlar açıq olaraq bütün Hacıların ağa bürünməsi ölümü, kimliyindən asılı olmayaraq,hamının eyni vəziyyətdə bir yerə toplandığı o möhtəşəmlik də Məhşər gününü xatırladır.Beləcə qəlblər yumşalır, baxışlar başqalaşır,duyğular həyəcana gələrək mənəvi bayram keçirir.

Həcc ziyarətində Kəbə evinin təvafı zamanı sanki göydə ruhlarımız da bizimlə birliklə təvaf edir.Cismimiz yerdə, ruhlar isə göydə, qorxu və həyəcanla Allahın qarşısında titrəyərək ondan bağışlanma diləyir. Cismimizin nəfsi istəklərinə uyaraq, törətdiyimiz günahları sayıb, ağlaya-ağlaya, yalvararaq tövbə edir və ondan bağışlanma diləyirik. Kimliyindən asılı olmayaraq, günahlar içində çabalayan insanların öz varlığını unudub, ağlayaraq Allaha yalvarışları, həqiqətən, insana Qiyamət gününü xatırladır.

Allahın bizlərə vacib buyurduğu Həcc ziyarəti və bu ziyarət əməllərinin yerinə yetirilməsi zamanı bizim qəlbimizin çırpınaraq, ruhumuzun öz cismini belə unudaraq, Allahdan bu dünyada bağışlanma istəyə bilməsi Allahın biz müsəlmanlara verdiyi böyük bir nemət və fürsətdir.Çünki Allah bizləri bu dünyada ikən bağışlayır, əbədi dünyamızda isə bağışlanma diləmək gecdir. Həcc ziyarəti Allah tərəfindən biz müsəlmanlara verilən böyük hikmət,şərəf və fürsətdir.

O müqəddəs yerləri ziyarət edən hər bir zəvvar sanki öz ruhundan orada hissəciklər qoyur və həmişə qəlbi, ruhu ora getməyə can atır. Həccə gedib-gələn insanlarda Allah qorxusu,Qiyamət gününün qorxusu, bu dünya aləmində çirkablara batmaq qorxusu daha da artıb çoxalır. Həcc ziyarətinə gedib, bu hissləri yaşayan insanların dünyaya və insanlara baxışında böyük bir inqilab baş verir və insan hər şeyə gözəl gözlərlə baxır. İnsan Həcc ziyarətindən sonra kiçik(kliniki) ölümü yaşayıb,dirilən insan kimi,Allahın bizə bu ötəri dünyada verdiyi bütün nemətlərə dəyər verərək, şükür edib, bütün varlıqları sevməklə bərabər, əbədi dünya haqqında daha çox düşünür.

Yolçuluq əsnasında, qarşılaşdığı çətinliklər və məhrumiyyətlər insana nemətlərin qiymətini bilməyi və bunlara şükür etməyi öyrədir. Mal və mülkündən uzaq qalmaq, qohum-əqrəbadan uzaq düşmək, istirahət

etmək üçün imkan olmamaq insana fağırların ehtiyac və çətinliklərini xatırladır və beləcə insanın mərhəmət əlinin uzanmasına vəsilə olur. Həccdə cihad savabı vardır.Çünki onda həm səfər halı, həm nəfslə mücadilə, həm əziyyət və yorğunluqlara təhəmmül vardır. Həmçinin bu çətinliklər insana Quranda yazılan: ”Qiyamətdə sıra ilə gedəcəyimiz Məhşəri”- xartırladır.

KƏBƏ EVİ HAQQINDA

“40 sual” kitabından:-Beytul-məmur Firdevs Cənnətində qırmızı yaqutdan bir yüksək qübbə, idi. Haqq-taala, Həzrəti Cənnətdən yer üzünə endirdiyi zaman tövbəsini qəbul etməsi üçün ona ikram olaraq Beytul-məmuru yüksək Cənnətdən bu dünyaya endirmiş və Kəbənin yerinə qoymuşdur.Bu Adəm (ə.s.) üçün Cənnət yadigarı olsun, onu təvaf və ziyarət etsin. Beytul-məmurun iki qapısı vardı.Biri şimala, biri də çənuba açılardı. Beytul-məmurun içində nurdan üç qəndil var idi. Onların işığı nə qədər yeri aydınlatmışsa,o ərazi indi Kəbənin həramı olmuşdu. Allahın əmri ilə yeddi göydə olan mələklər növbə ilə enib, Hz.Adəm ilə birlikdə Beytül-Həramı təvaf edərdilər.Beytul-məmur, Hz.Adəmdən sonra Hz. Nuh zamanına qədər yer üzündə idi.Buradan tufandan əvvəl dünya göyünə qaldırılmışdır. Qiyamətə qədər orada qalıb, sonra yenə Cənnətdəki yerinə qaldırılacaqdır. Beyti-məmurun yer üzündə olan məkanında,Hz İbrahim Allahın əmri ilə Kəbəni bina etmişdir.Əgər Beytul-məmur, göydən düşsə, Kəbənin üzərinə enər.Yerdəki Kəbə ilə göydəki Beytul-məmurun arası Haramı-şərifdir.Hələ də Kəbənin divarında qoyulan və öpülən Həcəri-Əsvad daşı Beytul-məmurdan yadigar qalmışdır. Bu daş qırmızı yaqut ikən, tufanda Allahın əmri ilə Həcəri əsvəd (qara daş) olmuşdur.Beytul-məmurun dünya səmasında olmasının səbəbi odur ki,hər gün ora yetmiş min mələk girib,onda namaz qılarlar.Bunlar bir sinif mələklərdir ki, Beytul-Məmura bir dəfə girənə Qiyamətə qədər daha növbə çatmaz.**)**

HƏCC ƏMƏLİ ALLAH TƏRƏFİNDƏN VACİB BUYURULUB

əl-Həcc-29-Sonra Həcc əməllərinin hamısını yerinə yetirsinlər, nəzirlərini versinlər, qədim olan beyti təvaf etsinlər.

əl-Həcc-33-34-Hər kəs Allahın hörmətli məqamlarına, ya əməllərinə təzim edib düzgün yerinə yetirərsə, həqiqətən, o, qəlblərin təqvalı ol-

masındandır.Sizin üçün o məqamlarda müəyyən müddətə (qiyamət gününə)qədər mənfəətlər vardır.

Hədis:İmam Muhəmməd ibn Əli Baqir (ə.s.) buyurdu:"Hər kəs Məkkə şəhərində Quranı tam olaraq bir cümədən digər cüməyə qədər, ya da bu müddətdən daha çox müddətdə(yəni bir həftədən çox) oxuyub cümə günündə bitirsə,Allah ona onun dünyada olduğu ilk cüməsindən onun dünyadakı son cüməsinə qədər yaxşı əməllərin savabını verər". **(Savabul Əməl, səh. 225)**

HƏCCƏ GETMƏK ÜÇÜN HAZIRLIQ

1.Qohum-əqrəba ilə halallaşıb,vəsiyyət etsin,Allahdan səfərinin uğurlu alınması üçün dua etsin,bu niyyətə iki rükət namaz qılsın, qohum-əqrəba ilə vidalaşsın, özünün və ya ailəsinin əşyalarından imkansız adamlara sədəqə versin, bu yol üçün özünə xeyirli həmyoldaş seçsin,xoş əxlaq olsun, müəyyən duaları öyrənib tez-tez oxusun, ziyarətgahları ziyarət etsin, ruhən və cismən bu yola hazır olsun.Yol üçün müəyyən geyim və azuqə tədarükü görsün.

Həccə getmək üçün istifadə edilən pul halal olmalıdır və bu pulun xümsu verilməlidir. (Əgər illik gəlirin xümsu verilməmişsə və bu pul xümsü verilməmiş gəlirdəndirsə).

Həcc əməli müəyyən edilmiş vaxtda yerinə yetirilir

Həcc əməlinin müəyyən edilmiş vaxtı və vacib əməlləri haqqında Qurani -Kərimdə, Allah belə buyurur:

əl-Bəqərə-203-Həcc əməllərini zamanı, sayı bəlli olan günlərdə, zülhiccənin 10-cu,11-ci,12-ci günlərində Allahı zikr edin.Namazdan sonra təkbir deyin:-"Allahu-Əkbər,Allahu Əkbər.Lə iləhə illəlləhu, vallahu Əkbər.Allahu Əkbər.Və lilləhil həmd.Allahu Əkbər. Ələ mə rəzəqnə min bəimətil-əl-Ənam".

İki gün tələsənə günah yoxdur.Gecikən kəs üçün Zilhiccənin 13-cü günü də Minadan köç etsə, günah yoxdur. Bu, özünü həlaka salmaqdan qorxan kəs üçündür. Allahdan qorxun ki, Həcc əməllərindən sonra günahlara aludə olmayın.Bilin ki, həqiqətən,siz dünyada yaxşı və pis əməllərin cəzasını almaq üçün Allahın qarşısında toplanacaqsınız.

əl-Bəqərə-197-Həccin vaxtı müəyyən aylardır.O aylarda həcc vacib olan kəsə Həccdə cima etmək, pis söz danışmaq və vuruşmaq haramdır. Təlbiyəni çoxlu zikr etmək lazımdır.Təlbiyə:-"Ləbbeykə, Allahummə-ləbbeyk,

Ləbbeykə lə şərikə ləkə ləbbeyk".Hər cür yaxşı əməl etsəniz, Allah

onu bilir. Azuqə toplayın, həqiqətən, azuqələrin yaxşısı təqvadır.Ey qəlb sahibləri, məndən qorxun ki, ağlınızın hidayəti ilə yaxşını pisdən,haqqı batildən ayıra biləsiniz.

Açıqlama:- Kəbə evi Ərəbistanda yerləşir.Ərəbistan yarımadasının quruluşu düzbucaqlı kvadrat şəklində olub cənub-qərbi Asiyanın ən ucqar nöqtəsində yerləşir.Şimalda 12-32 dərəcəli coğrafi en dairəsində, 35-600 şərqi uzunluq dairəsində Afrika ilə Asiya arasında yerləşir. Ölkənin sahəsi (iki milyon) 2000000 km2 çatır. Ərəbistan şimaldan İordaniya və İraq ilə həmsərhəddir. Şərqdən İran körfəzi,Oman dənizi və Ərəb dənizi ilə həmsərhəddir. Cənubdan Ədən körfəzi, qərbdən isə Qırmızı dəniz ilə əhatə olunmuşdur.Göründüyü kimi, Ərəbistan üç tərəfdən beş dəniz vasitəsi ilə əhatə olunmuşdur.Yalnız şimaldan sərhədləri quru torpaqdır. Bununla belə, bu ölkənin daxili hissəsi canlı aləmin yaşayışı üçün zəruri olan sudan, demək olar ki, məhrumdur.

HƏCC ƏMƏLLƏRİNİN YERİNƏ YETİRİLMƏSİ HAQQINDA

əl-Bəqərə 196-Həcc və ümrə əməllərini Allahdan ötrü tam yerinə yetirin.

Yəni bütün şərt və vacibatı ilə Həcc və Ümrəni məhz Allahın fərmanının icrası üçün yerinə yetirin.Əgər qorxu,ya düşmənin olması və ya xəstəlik səbəbinə Həcci tamam etməkdə sizə məneəçilik olarsa, sizə müyəssər olan bir qurbanlıq göndərin.Əgər ehramdan çıxmaq istəsəniz, lazımdır ki,dəvə, mal, ya qoyundan, hansı mümkün olsa, hədiyyə göndərəsiniz. Qurbanlıq öz yerinə yetişməyənəcən başınızı qırxdırmayın. Əgər ihramda ikən ziyarət zamanı, sizdən xəstələnən və yaxud baş ağrısına tutulub, əziyyət çəkən olarsa, belə şəxs o zaman oruc, ya sədəqə, ya da qurbanlıq fidyə verməlidir.Belə şəxsin kəffarəsi odur ki, qurbanlığı göndərməmiş üzrlü səbəbdən, maneəçilik çıxan yerdə başını qırxdırsın və bununla yanaşı ya bir qoyun kəssin,ya üç gün oruc tutsun,ya da altı miskinə təam versin. Maneəçilikdən qurtarıb,əmin olduğunuz zaman Umrəyi-təmättödən sonra Həcci-təmättöni yerinə yetirsə, imkan daxilində qurban kəssin. Əgər qurban kəsə bilmirsə, üç gün oruc tutsun. Həccdən qayıtdıqdan sonra da yeddi gün oruc tutsun, on gün tamam oluncaya qədər bu hökm Məscidil-Həram,yəni Məkkə əhlindən olmayanlar üçündür.

əl-Bəqərə-198-200-Cahiliyyət dövründə Həccə gedən adam ticarət edə bilməzdi. Allah o hökmü götürüb buyurur:-Ticarət etmək ilə Al-

lahdan ehsan istəsəniz, sizin üçün zərər yoxdur. Ərəfatdan köçdüyünüz zaman Məhşərul-həramda Allahı yadınıza salın. Yadınıza salın ki,sizi İslam dininə hidayət etdi.Çünki siz bundan əvvəl azmışlardan idiniz.

Sonra insanlar köçən yerdən siz də köçün.Allahdan bağışlanma istəyin. Həqiqətən, Allah bağışlayan və rəhm edəndir.Həcc əməllərini yerinə yetirib, öz atalarınızı yadınıza saldığınız kimi,ya da ondan artıq Allahı yadınıza salın.

İnsanların bəzisi deyərlər:-Pərvərdigara, bizə dünyada yaxşılıq ver. Onun üçün axirətdə nəsib yoxdur, çünki onlar Allahdan yalnız dünyanı istəmişlər.

Onlardan bəziləri isə deyərlər:-Pərvərdigara bizə dünyada sağlamlıq, əmin-amanlıq, həsənə və axirətdə isə rəhmət və behiştdən ibarət olan həsənə ver.Bizi Cəhənnəm odunun əzabından qoru. Onlar üçün dünyada etdikləri yaxşı əməllərdən,kəsb etdikləri şeydən pay vardır. Allah tez hesab çəkəndir, insanların hamısının gözlərini yumub-açıncaya qədər tamamlayar.

əl-Bəqərə-125-128-O zaman ki, biz Məkkənin evini qayıdış, əmin-amanlıq və ziyarətgah etdik, İbrahim məqamını namaz qılan yer müəyyən etdik. İbrahim məqamı Beytin qapısının müqabilində iyirmi zira uzaqdadır,ətrafı dəmirlə əhatə edilmişdir.Orada bir daş vardır ki,cənab İbrahimin ayağı ona iz salmışdır.O, həmin daşın üstünə çıxaraq,Məkkə evini təmir etmişdir. Biz İbrahim və oğlu İsmailə əhd etdik ki,mənim evimi təvaf edənlər,namaz qılıb çox rüku və səcdə edənlər üçün pak saxlayın.

O zaman ki, İbrahim dedi:-Pərvərdigara,buranı əmin-amanlıq yeri et və bu şəhərin əhlinə bütün meyvələrdən ruzi ver və Qiyamət gününün doğruluğuna iman gətirmiş şəxslərə o meyvələrdən ruzi ver.Cənabi İbrahimin duasının bərəkətindən Məkkə şəhərində həmişə firavanlıqdır. İbrahim və İsmail Beytin bünövrəsini ucaldan zaman,yəni Məkkə evinin binasını təmir etməyə başlayanda hər ikisi dua etdilər:-Xudaya,bu evi təmir etməyi bizdən qəbul et. Həqiqətən, sən duaları eşidən və bizim niyyətlərimizdən xəbərdar olansan.Bizim hər ikimizi müsəlman, sənin əmrinəitaətkar, övladlarımızı da sənə inanan və itaətkarlardan et.Bizə ibadət yerlərimizi bildir, hansı ibadəti harada və nə cürə yerinə yetirmək lazımdır,bizə təlim et.Bizə layiq olmayan əməllərə görə bizi bağışla.Sən tövbələri qəbul edən və rəhm edənsən.

HƏCC ZAMANI BUYURULAN MÜSTƏHƏB QÜSULLAR

Zilhiccənin 8-ci və 9-cu günləri zöhr vaxtı əmələ gətirilən qüsul.
Ehram qüsulu.
Məkkəyə daxil olmaq qüsulu.
Məscidi Hərama daxil olmaq üçün qüsul .
Kəbə evini ziyarət etmək üçün qüsul.
Qurban kəsmək əməlini yerinə yetirmək üçün qüsul.
Tükün və saçın kəsilməsidir ki, bundan qabaq qüsul edilir.
Mədinəyi-Münəvvərin Hərəminə daxil olmaq üçün qüsul.
Peyğəmbər məscidinə daxil olmaq üçün qüsul.
Peyğəmbərin pak qəbrinin vida qüsulu.
Həcc əməlləri sıra ilə yerinə yetirilməlidir.

ÖMREYİ-TƏMƏTTÖ

(Ziyarət məqsədilə)

1-ci Möhrüm olmaq:-Niyyət, Ehram paltarını əyinə geymək, Ləbbəyk demək.

Yəni ehram paltarını əyninə geymək.Həcc boyunca Hacılar ehram deyilən kəfənə bənzər, tikişsiz bir geyim ilə örtülürlər. (bu zaman insan təmiz və pak olmalıdır)Bu hərəkət insanın ölməsini və dünya ilə əlaqəsinin kəsilməsini təmsil edir.Bütün Hacılar Məkkəyə çatmamışdan qabaq ehram paltarını geyinməlidirlər. Bunun üçün müəyyən olunmuş məkan əhkamı vardır ki, buna da Miqat deyilir.

Ehram geyinmək üçün şərtlər:-1-Niyyət,(“Ömreyi-Təməttö əməlini yerinə yetirmək üçün möhrüm oluram qürbətən iləllah).2-Ehram paltarını əyninə geymək,3-Təlbiyyə (ləbbeyk) demək.

əl-Maidə-1-Ey möminlər!Əhdlərinizə vəfa edin!Ehramda olan zaman özünüzə halal etməklə, haram olması sizə bəyan edilən heyvanlardan başqa, dördayaqlı heyvanlar, ya da onların bətnində olan balalar sizə halal edildi. Allahın hörmət etməyi buyurduğu əlamətlərə hörmətsizlik etməyin.Bu məkana gəldikdə Məscidil-həram, İbrahim məqamı, Səfa, Mərva, Mina, Ərəfat zamanı gəldikdə isə bayram günləri, Ərəfə günü və bu kimi günlərdə müəyyən olunmuş ibadətləri düzgün yerinə yetirin. Döyüş haram olan aylarda, Kəbədə olan qurbanlara və canlılara hörmətsizlik etməyin. Allahdan dünya və axirət üçün savab, feyz və razılıq istəyin,Kəbəyə üz tutan Hacılara hörmətsizlik etməyin.Əfv

etmək və təqvada bir-birinizə kömək edin.Günaha bais olan əməlləri etməkdə və düşmənçilikdə bir-birinizə köməklik göstərməyin.Allahdan qorxun!Həqiqətən,Allahın əzabı şiddətlidir.

2-ci-Təvaf:-Yeddi kərə Kəbənin dövrəsində dolanmağa deyilir. Təvaf Həcəri-Əsvəddən (Qara- daş qoyulan yerdən) başlayır və yeddi dəfə Kəbənin dövrəsinə dolanandan sonra həmin yerdə qurtarır.Kəbəni təvaf edən zaman gərək insanın sol çiyni Kəbəyə tərəf olsun. Hər bir dövrə Həcəri-Əsvəddə başlayıb və həmin yerdə qurtarır.

3-cü-Təvaf namazı-iki rükətdir.Bu namaz Məscidil-həramın həyətində, Məqamı-İbrahimdə qılınsın.Bu namaz gərək ki, düzgün və yüksək səviyyədə qılınsın,çünki vacib əməllərdəndir.

Açıqlama: Məqamı-İbrahim ona görə deyilir ki, İbrahim Peyğəmbər Kəbə divarlarını daha hündür etmək üçün ayağının altına qoyduğu və daşın üzərində onun ayaqlarının izi qalıb. Başqa rəvayətə görə isə o bu daşın üzərinə çıxaraq insanları Həccə dəvət edib. Bu daş dördbucaq şəklindədir, eni və uzunluğu 50 sm-dir.

İbrahim (ə.s.)məqamı Kəbənin məşriq tərəfinin 13 metrliyində yerləşir.İbrahim məqamı haqqında Qurani-Kərimdə Allah belə buyurur:

Həcc-26-Ya Peyğəmbər! Yadına sal ,bir zaman ki, İbrahimə Kəbənin yerini bildirdik.Allah İbrahimə Məkkə evini tikməyə əmr edəndə,Həzrət bilmədi ki, evi hansı tərəfdən tiksin.Cəbrail vasitəsi ilə Kəbənin yerini ona bildirdi.

İbrahim Beyti tikib qurtaranda Allah ona vəhy etdi ki, mənə heç bir şeyi şərik qərar vermə,məndən başqasına ibadət etmə! Mənim evimi şərik qərar verənlərdən və bütlərə sitayiş edənlərdən uzaq et və namaz qılıb, rüku edən və səcdəyə düşənlər üçün pak et!İnsanları Həccə çağır! Hz. İbrahim Məqamı-İbrahimdə duraraq səsləndi:-Ey insanlar! Allah sizi Həccə gəlməyə çağırır.Bunu qəbul edin!

Allah İbrahimin səsini ruhlara çatdırdı. Kim çavab verdisə, o Həccə gəldi.İnsanlar sənin yanına piyada və ya miniklə, uzaq- uzaq yerlərdən gələrlər. Onlar yolun uzun və ya zəhmətli olmasına baxmazlar.

4-cü-Səy:-Ömreyi-Təməttö və Həcc əməllərini vacib olan rüknlərindən biri də Səfa və Mərva dağı arasında 7 dəfə səy etməkdir. Səy etməyə başlarkən niyyət edilməlidir.

Səy-Səfa və Mərva arasında 7 dəfə gedib-gəlməkdir.Bu iki təpənin arasındakı məsafə 420 metrdir. Hər bir Hacı bu iki dağın arasını səy etdikdə 3 km-ə qədər, yəni 2940 metrə qədər,Allahın əmrinə itaət edib, yol getmiş olur.Səy edilən yerə Məsa deyilir. Bu yerin uzunluğu 400 metr, eni isə 20 metrə qədərdir.Səy haqqında Quranda Allah belə bu-

yurur:

-əl-Bəqərə-158-Həqiqətən, Səfa və Mərva Allahın ibadət etmək məqamlarının əlamətlərindəndir. Allahın evini qəsd edən, xüsusi qayda ilə ziyarət və təvaf edən,həcc və ümrə əməlini yerinə yetirən hər kəs üçün onların Səfa və Mərva arasında səy etməyin heç bir günahı yoxdur.Səfadan Mərvaya yeddi dəfə gedib-gəlməyə səy deyilir,yəni Səfadan Mərvaya dörd dəfə,Mərvadan Səfaya üç dəfə tələsik getmək səy adlanır.

5-ci-Təqsir:-Hacılar Səfa və Mərva arasında səy etdikdən sonra dırnağını, saçını və bığının tükünü qısaltmalıdır.

HƏCCİN VACİBİ ƏMƏLLƏRİ

Həcci-Tömməttönün vacib əməlləri:-Bu əməl zilhiccə ayının 9-cu günündən başlanır.

1-ci-Ehram.

2-ci-Vüquf-Zilhiccə ayının 9-cu günü Ərafatda dayanmaq. Ərafat səhrasında günorta azanından axşam azanına qədər qalmaq.Bu gün məhşər gününün bir nümunəsidir.

Bu yerin Ərafat adlandırılmasının səbəbi budur ki, Hz. Cəbrail Həccin əməllərini Hz.Adəmə öyrədəndən sonra ondan soruşdu:"Ərəftə"-tanış oldun, yəni Həccin əməllərini bildin? Hz.Adəm də dedi:-"Ərəftə"-bildim.

Elə bu səbəbdən də o yerə Ərəfat səhrası deyilir.Deyilənə görə bu səhra Məkkənin 24 km-də yerləşir və bu səhranın eni və uzunluğu bir yerdə 18 km-dir.

3-cu-Məhşərdə vüquf etmək: Zilhiccə ayının 10-cu gecəsi,yəni günortadan gün batana qədər Ərəfatda olduqdan sonra, gecə səhərə qədər Məşərul-Həramda (Ərəfat ilə Mina arsında olan uzun bir səhra-Müzdələfədə) niyyət edib,sübh azanından gün çıxanadək orada vüquf etmək(dayanmaq).Burada olan zaman 49 ədəd noxuddan böyük, fındıqdan kiçik daş yığıb,şeytanı daşlamaq üçün özü ilə götürmək.

4- cü-Şeytana daş atmaq: Hacılara vacibdir ki,Zilhiccənin 10-cu günü, sübh namazından gün çıxana kimi Müztəlifədə vüquf etdikdən sonra Minaya getsın və orada bir neçə əməllərini yerinə yetirsin.O əməllər bunlardır:

1-Rəmyi-Cəmərə-(şeytanı daşlamaq) adlı məşhur yerdən şeytana daş atmaq.

Zilhiccə ayının 10-cu günü,yəni Qurban bayramı günü Cəməreyi -Əqəbəni (böyük şeytanı) daşlamaq. Hacıların Minada cəmərəyə daş atmaqlarının səbəbi budur ki, şeytan orada Hz.İbrahimin gözünə görünüb və aldatmağa çalışmışdır.O, şeytanı daşla qovmuşdur və bu gündən də bu, sünnə olaraq qalmışdır.

5-Qurban kəsmək-Əqəbəni(böyük şeytana)daş atdıqdan sonra gərək Allah yolunda bir qurban kəssin.

Həcc-35-38-Hər bir ümmət üçün ibadət,ya qurban kəsmək yeri qərar vermişdik ki, Allahın onlara ruzi verdiyi dördayaqlı heyvanlardan kəsərkən Allahın adını çəksinlər. Dəvə qurban kəsməyi sizin üçün Allahın hörmətli əlamətlərindən etdik. Burada sizin üçün dünya və axirətdə xeyir vardır.

Ayaqüstə kəsən halda Allahın adını çəkin!"Bismilləh","Allahu Əkbər" deyib, sonra kəsin.Bir əlini bağlayın,o biri əl-ayağı üstə dursun. Dəvənin böyürləri yerə düşdükdə,onu fəqirlərə yedizdirin.

Qurbanlarınızın ətləri və qanları əsla Allaha yetişməz.Yalnız Allaha təqvalı olmaq qalar.

6-ci-Həlq etmək-başı qırxmaq və ya saçı qısaltmaq.

7-ci-Kəbəni təvaf etmək. Zilhiccə ayının 12-ci günü günorta azanından sonra Minanı tərk edərək Məkkəyə gəlsin,Allahın Beytini, Həcc-Töməttönün təvafı niyyəti ilə təvaf etsin.

8-ci-Sonra vacibdir ki,İbrahim məqamında **iki rükət namaz** qılmaq.

9-cu-Namazdan sonra isə **Səfa və Mərva arası 7 dəfə yenə səy** etmək lazımdır.

10-cu-ən-Nisa təfavı, istər kişi, istərsədə qadın, yəni bütün Hacılar bu təvafı yerinə yetirməlidirlər.

11-ci-iki rükət Nisa təvafının namazını qılmaq.

12-ci Mina dağında gecə səhərə qədər qalmaq.

13-cü- Zilhiccə ayının 11-ci günü və 12-ci günü isə həm 1-Cəməreyi-Ula (kiçik şeytanı),həm-2-Vusta (orta şeytanı), həm də 3-Əqəbəni, hər birinə 7daş ataraq, daşlamaq lazımdır.

Açıqlama:-Həcc əməlləri haqqında müəyyən dərəcə məlumat verilsə də, Həcc əməlinin yerinə yetirilməsi, qayda-qanun və göstərişlərini öyrənmək üçün şəriət kitablarına müraciət etmək lazımdır ki,bu müqəddəs əməl doğru-düzgün yerinə yetirilsin.

Bir daha versən də mənə ixtiyar,
Hakimlər hakimi, ixtiyarın var.

Ölüm pəncəsiylə döyüşməmiş mən,
Rüzgarın cilovu çıxmamış əldən,
Sən mənə rəhm edib yol göstər yenə,
Peyğəmbər qəbrinin ziyarətinə.(Leyli-Məcnun)

PEYĞƏMBƏRİMİZİN VİDA HƏCCİ HAQQINDA

Peyğəmbərimiz hicrətin 10-cu ilində Zilqədə ayında Həcc üçün hazırlandı. Özü ilə birlikdə Həccə getmək üçün Mədinədən kənarda yaşayan müsəlmanların da hazırlanmasına əmr verdi. Peyğəmbər ilə birlikdə Həccə getmək üçün çoxlu insanlar yığıldı.Hz.Peyğəmbər müsəlmanlara Həccin vacib əməllərindən danışdı. Sonra onlar birlikdə yola çıxdılar.

Peyğəmbərimiz Allaha həmd-səna, təsbih və təkbir dedikdən sonra belə dua etdi:"Ey Allahım! Bu Həcci mənim üçün, içində riya və şümə (göstəriş və şöhrət) olmayan düzgün və qəbul olunmuş Həcc et"

Peyğəmbərimiz Kəbənin Bəni Şeybə qapısına çatanda, Beytullahı görüncə, əllərini qaldırıb dedi:"Ey Allahım! Bu Beytin şərəfini, ululuğunu, heybətini, əzəmətini, davamını artır! Ona Həcc və Ümrəyə gələnlərin də şərəflərini, heybətlərini, ibadətlərini və yaxşılıqlarını artır!"

Peyğəmbər(s.ə.s.) Həcəri-Əsvəd tərəfdən təvafa başladı.Təvafın üç ilk dövrəsində addımlarını qısaldıb, bir az tez və hərəkətli yeridi.Hər dəfə də Yəmən və Həcəri-Əsvəd tərəfə gəldikdə:"Rabbənə atinə fid dünyə həsanətən və fil axirati həsanətən və qinə azabən-nər" **(Bəqərə158)-** ayəsini oxuyurdu.

Peyğəmbərimiz təvafın qalan dörd dövrəsini isə ağır-ağır yeriyərək,təvaf etdikdən sonra Məqamı-İbrahimə keçdi.Səsini xalqa eşitdirəcək dərəcədə yüksəldərək dedi:-"Məqamı-İbrahimdə namaz qılın" (əl-Bəqərə158).Bu ayəti oxudu.Məqamı-İbrahimin arxasından,üzü Beytullaha iki rükət namaz qıldı. Bu namazda İxlas surəsi ilə Kafirun surəsini oxudu.

Bundan sonra Peyğəmbər Kəbənin Bəni-Məhzum qapısından çıxıb Səfa təpəsinə getdi. Ora yaxınlaşanda bu ayəni oxudu:"Şübhə yox ki, Səfa və Mərva,Allaha ibadətə vəsilə olan nişanələrdəndir."(əl-Bəqərə-158).

Səyə Səfadan başladı.Səfaya çıxdı.Beytullahı görüncə,Qibləyə yönəldi.Beytullaha baxaraq Tövhid və Təkbir dedi.Üç və yeddi dəfə:"Bir olan Allahdan başqa Allah yoxdur! Onun yoldaşı və ortağı yoxdur.Mülk onundur!Həmd ona məxsusdur! Allahdan başqa heç bir Allah yoxdur!Allah vədini yerinə yetirdi.Quluna yardım etdi."

Yenə Təkbir və həmd dedikdən sonra Allaha istədiyi qədər dua etdi. Sonra Səfa təpəsindən Mərvaya tərəf yeriyərək endi.

Peyğəmbərimiz Səfa ilə Mərva arasında çox tələsərək, səy edirdi. O səy vadisinin ortasını keçəndən sonra isə bir az addımlarını yavaşıdırdı. Müsəlmanlara da belə deyirdi:“Ey insanlar! Şübhə yoxdur ki, Uca Allah Səyi sizə vacib buyurdu. Səy ediniz!”Sonra Mərva təpəsində də Təkbir və Tovhidi deyərək Mərvada səyi tamamlayır.

Peyğəmbərimizin vida Həcci zamanı Ərəfatda söylədiyi xütbə:

-Həmd Allaha məxsusdur. Ona həmd edin! Ondan yardım diləyin və ona tövbə edin! Nəfsinizin şərindən və əməllərinizin günahlarından Allaha sığının! Allahın doğru yola yönəltdiyi kimsəni heç kəs yolundan sapdıra bilməz.Əyri yola yönəltdiyini də, heç kəs düz yola yönəldə bilməz. Şəhadət edirəm ki, Allahdan başqa Allah yoxdur və yenə şəhadət edirəm ki, Muhəmməd onun qulu və Rəsuludur.Ey Allahın qulları! Mən sizə Allahdan çəkinmənizi tövsiyə edirəm və ona itaətə çağırıram! Sizə xeyir olan şeydən söz açmaq istəyirəm,- deyib, Allaha həmd-səna edərək, iki dizinin üzərində əyləşdi və dedi:-

Ey insanlar!Sözlərimə yaxşı qulaq asın! Vallahi bilmirəm, bəlkə də bu durduğum yerdə bir daha sizinlə görüşməyəcəyəm. Diqqətlə qulas asın! Sözlərimi dinləyib, əzbərləyən kişiyə Allah rəhmət etsin. Rəbbinizə qulluq edin, beş vaxt namaz qılın,Ramazan ayında orucunuzu tutun, Beytullahı Həcc edin, zəkatınızı könül xoşluğu ilə verin. Uca Rəbbinizin Cənnətinə girmək istəyirsinizmi?-deyə soruşduqdan sonra davam etdi:

-Gününüz haram və toxunulmaz bir gündür!Ayınız haram və toxunulmaz bir aydır.Bölgəniz Ərafat haram və toxunulmaz bir bölgədir. Ey insanlar! Burada canlarınız, mallarınız toxunulmaz və özünüz də birbirinizə haramsınız. Məbada çox günah işlədib, üzümə qara gələsiniz! Məndən görmüş, məndən eşitmiş, məndən soruşmuş olduğunuz şeylərlə mənə istinad edərək yalan uyduran kimsə özü üçün Cəhənnəmdə yer hazırlasın.

Xəbəriniz olsun ki, mən bir çox kişi və qadınları qurtaracağam. Qurtarmaq istədiyim bir çox insanlara gəlincə isə, onlar haqqında mənə qələbə çalınacaq və mən onlara kömək edə bilməyəcəyəm.

Mən sizlər haqda Uca Allahdan soruşanda ki:-Ya Rəbb! Bunlar da axı mənim səhabələrimdir! Uca Allahdan vəhy gəldi ki:

“Səndən sonra onların nələr etdiyini sən bilmirsən. Mənə və

Allaha qarşı etdikləri xəyanət və günahlara görə onlara rəhm olunmayacaq.”

Peyğəmbərimiz sözünə davam edərək dua etməyə başladı:

Mən bu gecəyə (Ərəfa gecəsinə) şahid olanlardanam.

Ey Allahım! Sənin buyurduğun kimi, bizim söylədiyimizdən daha üstün sənə həmd olsun!

Ey Allahım! Mənim namazım, ibadətim, diriliyim və ölümüm Sənin üçündür. Dönüşüm Sənədir.Mirasım da, ey Rəbbim, sənə aiddir!Ey Allahım! Qəbir əzabından, qəlbin vəsvəsəsindən, işlərin qarışıqlığından sənə sığınıram. Rüzgarların gətirdiyi afətin şərindən sənə sığınıram.Ey Allahım! Gözümdə bir nur, qulağımda bir nur, qəlbimdə bir nur yaşat! Qəlbimə genişlik ver, işlərimi yaxşılaşdır.

Ey Allahım!Qəlblərə vəsvəsə verən şeytandan, işlərin dolaşığından, qəbir fitnəsinin şərindən, gecənin və gündüzün gətirdiyi şeylərin şərindən, Sənə sığınıram!Ey Allahım! Məni hidayətinə çatdır. Keçmiş və gələcək günahlarımı bağışla.

Ey mərhəmətlilərin ən mərhəmətlisi olan Allah!Yaratdıqlarına və beytinin Hacılarına verdiklərinin ən üstününü bu axşam xatirinə mənə ver. Ey dərəcələri yüksəldən, bərəkətləri endirən, ey göyləri və yeri yaradan Allahım!Ey Allahım!Sən sözümü eşidirsən, yerimi görürsən, gizli-aşkar nəyim varsa, hamısını bilirsən.İşlərimin heç biri səndən gizli deyildir.Mən çarəsizəm, yoxsulam, səndən yardım və aman diləyirəm. Qorxuram! Günahlarımı etiraf edirəm. Bir çarəsiz səndən necə istərsə, mən də elə istəyirəm. Duamı qəbul etməkdən məni məhrum etmə.Ey bütün canlıların sığındığı, bütün möminlərin yardımçısı və qoruyucusu!

Yaxşılıq edənlər sənin rəhmətinlə qurtarıb, pislik edənlər isə öz günahları ilə həlak olurlar.Ümidlərimiz Səndə, diləklərimiz sənin yanında. Sənin ehsanını istər, rəhmətini umarıq, əzabından da qorxarıq.Qüsurlarımızın bütün ağırlığı ilə yenə qaçıb Sənə sığındıq. Sənin Beytul-Həramını ziyarət etməyə gəldik.

Ey dua edənlərin ehtiyaclarının sahibi və maliki Allah!

Ey susub duranların qəlblərindən nə keçdiklərini bilən Allah!

Ey diləklər çoxaldıqca comərdliyi, kərəmi artan, ehtiyaclar çoxaldıqca ehsanı da daha çox artan Allah!

Ey Allahım!Sən hər qonağı qaldırıb, əzizlərsən. Bizlər də Sənin qonaqlarınıq. Bizləri də Cənnətinə qaldırıb orada əzizlə! Sənin əfv yollarını axtaranlara əfv və məğfirət buyurulur.Bizlər hamımız bir yerdə Sənin Beytul-Həramına gəldik. Burada Vüqufda durduq.Bu mübarək yerləri gördük.Ümidimiz Uca qatında savab, rəhmət və əbədi mükafata nail olmaqdır.Ümidimizi boşa çıxarma Allahım!

Hədis:Malik ibn Ənəs, Peyğəmbərimizdən buyurur:-Allahın

Rəsuluna:-“Hansı əməl daha fəzilətlidir?”- deyə soruşulduqda:

-“Allaha və onun Rəsuluna iman gətirmək,”-deyə cavab verdi.

Sonra daha hansı fəzilətlidir?-sorulanda:

-“Allah yolunda cihad etməkdir,”-buyurdu.

-Daha sonra hansı əməl fəzilətlidir? –deyə təkrar soruşulanda:

-“Qüsursuz yerinə yetirilən Həcc əməlidir,”-deyə cavab verdi. **(Səhihi Buhari)**

HƏCCİ ƏKBƏT HAQQINDA

ət-Tovbə-3-Bu Allahdan və Onun Peyğəmbərindən böyük Həcc günü(qurban bayramı cümə gününə düşəndə-33-ildən bir), zulhiccə ayında, vacib olan Həcc-qurban bayramı və ya Ərəfə günü olduğunu insanlara bildirmişdir.

Hədis:-Ravilərdən Malik ibn Ənəs belə buyurmuşdur:Bir gün Allahın Rəsulu, xütbə oxudu və sonra belə dedi:-Ey insanlar !Allah sizə Həcci fərz qılmışdır,bu fərzi yerinə yetirin.Bir nəfər ondan soruşdu:-Ey Allahın Rəsulu, hər ildəmi Həccə gedəcəyik?

Allahın Rəsulu susdu. Adam sualı üç dəfə təkrar etdi. O zaman Həzrət buyurdu:-Əgər, “Bəli”desəm, onda hər il Həccə getmək vacib olardı.Sizin gücünüz də buna yetməzdi.Söyləmək istəmədiyim şeyləri məndən israrla soruşmayın. Çünki sizdən öncəkilərin həlak olmalarının səbəbi Peyğəmbərlərinə çox sual vermələri və bunun ucundan da anlaşılmazlığa düşmələridir. Sizə bir şeyi əmr etdiyim zaman gücünüz yetdiyi qədər onu yerinə yetirməyə çalışın. Sizə bir şeyi qadağan etdikdə onu buraxınız.”

Hədis: Peyğəmbərimiz buyurmuşdur:“Kim Həccə gedəndə şəhvəti tərk edib, günah işlətməzsə, pis söz danışıb və pis davranışlardan əl çəkərsə, keçmiş günahları bağışlanar.” **(Səhihi Buhari)**

Hədis: Peyğəmbərimiz buyurmuşdur:“Həcc və Ümrə üçün Beytullaha gedənlər, müsəlmanların Allaha göndərilmiş təmsilçiləridirlər. Dua edərsə, qəbul edər,məğfirət dilərsə, bağışlar.” **(Səhihi Buhari)**

Hədis:Peyğəmbərimiz buyurmuşdur:-Atəş körüyünün dəmir, qızıl və gümüşün pas və ləkələrini apardığı kimi, Həcc ilə Ümrə də insanların günahlarını aparar.”**(Səhihi Buhari)**

Hədis: Peyğəmbərimiz buyurur:-Malik ibn Ənəs rəvayət etmişdir:-“Kim Həccə gedər və bu yolda faydasız söz danışmazsa,Allahın əmrlərindən ayrılmazsa,təzə anadan olmuş uşaq kimi,günahsız oradan qayıdar.”(Səhihi Buhari.)

Hədis:İmam Bagir bu haqda belə buyurur:"O adamın ki, səfərdə dostları ilə gözəl əxlaqı olmayacaq və ya qəzəblənəndə hirsini boğmağa qadir olmayacaq, hər işdə əsəbiləşəcək, həmçinin günah etməkdən çəkinməyəcək, hansı bir ümidlə Allahın Beytinə ziyarətə gedir**?"(Hədisi Qudsi)**

Hədis:-Peyğəmbərdən buyurulur:"Allahın qullarını Cəhənnəmdən ən çox azad etdiyi gün Ərəfə günüdür**."(Zubdətul Əhadis.)**

Hədis:Əbi Davud və Tirmizidən.Peyğəmbərimiz buyurur:

-"Ramazan ayında edilən Ümrə-Həcci mənimlə birlikdə yerinə yetirilən Həcc əməlinə bərabərdir."

Hədis: Əbi Davud və Tirmizidən. Peyğəmbərimiz buyurur:-Bir gün bir nəfər Peyğəmbərin yanına gəlib soruşdu:"Ey Allahın Rəsulu, babam çox yaşlıdır, Həcc və ümrə əməllərini yerinə yetirməyə gücü çatmaz."Həzrət ona belə dedi:

-"Babanın yerinə sən Həcc və Ümrə edə bilərsən." Cihad

Açıqlama:-Allah-taala tərəfində cihad etmək hər bir insana vacib buyurulmuşdur. Hər bir kəs Allahın, vətənin, dininin, dilinin, ailəsinin, valideynlərinin, övladlarının və Allahın bəxş etdiyi bütün nemətlər uğrunda cihad etməlidir.Qurani-Kərimdə cihad mövzusuna aid 64 ayə vardır:

Cihad kəlmə mənası ilə cəhd etmək,qeyrət göstərmək,hər hansı bir işə var gücü ilə sarılmaqdır.İslam dininin ucalıb bütün insanlığın könlündə kök salması üçün maddi-mənəvi, hər cür imkanları ortaya qoyaraq edilən çalışmaların adıdır.

Quranım bir çox ayələri müsəlmanları təkrar-təkrar cihada çağıraraq, cihadsız imanın qısır və meyvəsiz olduğunu xatırlatmaqdadır.

Xalq arasında Cihad sözü deyildikdə, Allah yolunda din düşmənləri ilə vuruşmaq və Allah əmrlərinin tam zəfərini təmin etmək üçün lazım gələrsə, ölümü belə gözə almaq ağıla gəlir.Əslində, din düşmənləri ilə savaşmaq cihadın başqa çarə qalmadığı anlarda baş verə biləcəyi sonuncu vəziyyətdir. Həmçinin cihad təkcə din düşmənlərinə qarşı savaşmaq demək deyildir. Hətta Cihad sadəcə başqaları ilə mübahisə edərək, dinə düşmən olanları susdurub,yola gətirməyə çalışmaq da deyildir. Əsil cihad insanın öz nəfsini tərbiyə edərək İslamın əmrlərini yerinə yetirməyə çalışaraq, imanı nəfsin dərinliklərinə işlədib yerləşdirməkdir.

əl-Bəqərə-216-Cihad etmək xoşunuza gəlməsə də, sizə vacib buyurulmuşdur. Bəzən sizin xoşlamadığınız bir şeydə sizin üçün xeyir vardır. Cihadı xoşlamırsınız, lakin axirətdə onun səbəbinə Cənnətə daxil olanda sevinəcəksiniz.Bəzən isə sizin xoşladığınız şeydə şizin üçün şər

vardır.Haram olan şeyləri xoşlayırsınız.Bir halda ki,onun aqibəti şər və Cəhənnəmə səbəb olar. Allah bilir, siz isə bilmirsiniz ki, sizin üçün yaxşı və pis olan nədir.

əl-Bəqərə-218-İman gətirənlər mühacirət edərkən və Allahın yolunda cihad edənlər Allahın rəhmətinə ümid bəsləyirlər.Allah bağışlayan və mehribandır.

ət-Tovbə-41-Ağır və yüngül olan halda, qoca və cavan və ya hər hansı bir halınızla, mallarınız və canlarınızla Allah yolunda cihad edin. Əgər cihadın fəzilətini bilsəniz,bu sizing üçün nə qədər xeyirlidir.

Ali-İmran-170-171-Allah yolunda öldürülənləri ölü hesab etmə. Əksinə, onlar diridirlər.Allah yanında behişt ruziləri ilə onlara ruzi verilir.Onlar Allahın öz fəzlindən verdiyi nemətlə, şəhadətlə behiştdə şaddırlar və onlara gəlib çatmayan şəxslərə müjdə verərlər ki,onlar üçün qorxu yoxdur və onlar qəmgin olmazlar.Allahdan olan fəzl və nemət ilə şadlıq edərlər.Həqiqətən, Allah möminlərin əcrini zay etməz.

əl-Həcc-77-Allah yolunda haqq olaraq cihad edin!

əs-Səff-10-12-Ey iman edənlər!Sizləri aydın bir əzabdan qurtaracaq bir qazanc yolu göstərimmi?Bu qazanc yolu Allaha və Peyğəmbərə iman edib,mal və canlarınızı ortaya qoyaraq,Allah yolunda mübarizə etməkdir.Əgər bilsəniz bu sizin üçün çox xeyirli bir qazancdır.Allah cihad edənlərin günahlarını bağışlar və sizi ağaclar altından çaylar axan Cənnətə qoyar.Ən böyük qurtuluş budur.

əl-Ənkəbut-6-Cihad eyləyən öz xeyrinə cihad etmiş olur, ona görə ki, Allah dünya əhlinə möhtac deyildir.

Hədis:-Malik b.Ənəs rəvayət edir:-"Allah yolunda cihad edən möminlər üçün Allah Cənnətdə yüz dərəcə hazırlamışdır.Bu dərəcələrin hər birinin arası yerlə-göy qədərdir. **"(Səhihi Buhari)**

QURAN ELMİ VASİTƏSİ İLƏ CİHAD

əl-Furqan-52-Kafirlərə itaət etmə, onlar səni səhlənkarlığa dəvət edərlər! Onlarla Quran vasitəsi ilə böyük cihad et! Bunların sözlərini dil ilə batil etmək qılınc ilə cihad etməkdən yaxşıdır.

ət-Tovbə-32-Onlar Allahın nurunu, dəlillərini, İslam dinini, Quranı batil sözləri ilə (ağızlarıyla) söndürmək istəyirlər.Allah isə kafirlərin xoşuna gəlməsə də, ancaq öz nurunu (dinini) tamamlamaq istər.

Hədis:İmam Cəfəri Sadiq Hz.Əlidən buyurur:-İman dörd dirək üzərində durur ki, onlar da sağlam bilgi, səbir, cihad və ədalətdir**. (Zubdətul Əhadis.)**

MALININ HAQQINI VERƏN MÖMİNLƏR

əl-Leyl-5-21-Amma o kəs ki, malınının haqqını fəqirə verdi, təqvalı olduğunu göstərdi və gözəl sözü təsdiq etdi.O söz bundan ibarətdir:- "Hər kəs dünyada bir yaxşı əməl etsə, əvəzində on savab alar." Biz ona itaət, ibadət və ehsan etməyi asan edərik. (Yaxud Behiştə daxil olmağı onun üçün asan edərik.) Amma o kəs ki, malının haqqını verməyə, xəsislik edə və dövlətli olmaq istəyə, o gözəl sözə inanmaya, biz onun üçün çətinlik göndərərik, asan işini çətin edərik.

Xəsis adam Cəhənnəmə düşən zaman onun malı ona xeyir verməz. Bizim öhdəmizə düşən yalnız haqq yolunu göstərmək və hidayəti bəyan etməkdir.Axirət bizə məxsusdur.Mən sizi alovlanan od ilə qorxutdum. Bu oda yalnız alçaq olan kafir daxil olar.Təqvalı olan kəslər oddan uzaqlaşdırıldılar ki, öz malının vacibi haqqını verib təmizlənər. O şəxs istəyər ki,Allah yolunda pak olsun.O, heç vaxt riya ilə ehsan etməz. Ehsan edən kəsin boynunda heç bir kəsin minnəti yoxdur ki, onun əvəzi verilsin və etdiyi ehsan ona əvəz olunsun.O ancaq uca olan Rəbbinin rizasını qazanmaq üçün belə edər. And olsun ki, o, Allahdan verilən savaba görə tezliklə razı olacaqdır.

Hədis: Hz.Əli buyurur: "Bir kişi Hz.Peyğəmbərin hüzuruna gəlib ərz etdi:"Mənə elə bir əməl öyrət ki, Allah və Onun məxluqları məni çox istəsin, malım artsın, canım sağlam olsun, ömrüm uzansın və Qiyamət günü sənlə birlikdə dirilim."Həzrət buyurdu:"Bu altı xislətin, digər altı xislətə ehtiyacı vardır. Əgər Allahın səni çox sevməsini istəyirsənsə, Allahdan qorx və pəhrizkar, təqvalı ol. Əgər məxluqların səni sevməsini istəyirsənsə,onlara ehsan, yaxşılıq et və onların əllərində olan şeyləri öz ixtiyarında qoy. Əgər mal-dövlətinin çoxalmasını istəyirsənsə, zəkat ver.Əgər Allahın sənin ömrünün uzun etməsini istəyirsənsə, sileyi-rəhim et.(qohumluq əlaqələrini möhkəmləndir). Əgər Allahın Qiyamət günü səni mənimlə birlikdə diriltməsini istəyirsənsə,Vahid və Qəhhar olan Allahın qarşısında çox,uzun-uzadı səcdə et. **(Hədisi –Qüdsi)**

XUMS VƏ ZƏKAT HAQQINDA

Açıqlama:-Allah iman gətirən kəslərə, yəni Allaha inanıb Peyğəmbərə iman edən kəslərə sədəqə vermələrini təkid edir. Sədəqə və ya nəfəqə deməklə zəkat və xüms da nəzərdə tutulur. Xüms və zəkatı hər kəs özünün ehtiyacından artıq qalan maldan ayırıb yoxsullara verməlidir, onların verilməsi qaydaları haqqında şəriət kitablarımızda

geniş məlumatlar vardır. Zəkat dinin ən mühüm maddələrindən biridir. Lüğətdə zəkat-təmizlik, bolluq, artma mənasındadır. Quranda həmişə namazdan sonra zəkatın adı çəkilir. Zəkat aşağıdakı şeylərdən ayrılır; arpa, buğda, xurma, üzüm, mal-qara, qızıl və gümüşdən. Bu şeylərin hər birinin müəyyən həddi var ki, o miqdara çatdıqda ona zəkat düşür. Bunlar yalnız dövlətli adamlarda olur, beləliklə, dövlətli şəxslər bu şeylərdən zəkat ayırıb yoxsullara verməklə onları ehtiyacdan qurtarır. Çünki zəkat kasıbların malıdır,onlara zəkatı verdikdə boyunlarına minnət qoymaq olmaz.

Bu ayələrdən məlum olur ki,insan gərək dünya malına məhəbbət bağlamasın.Onu yığıb saxlasan, sənə heç bir fayda verməz.Heç kəs öz malını öləndə özü ilə aparmır. O dünyada qalıb,başqalarına qismət olur və çox vaxt da pis yollara sərf olunur.Lakin öz malından özgələrə pay ayıran kəslər o malı özü ilə aparmış olur.Bu haqda atalar sözündə belə deyilir:"Yedin-dadındır,verdin-adındır, qaldı-yadındır."

Nifaq etmək,sədəqə vermək haqqında buyurulan ayələrə nəzər salsaq, Allahın insan cəmiyyəti üçün etdiyi tədbirlərin nə qədər ali dərəcəli, əxlaq qaydalarına uyğun olduğunu görərik. Bu tədbirlər həyata keçirilən cəmiyyətdə heç bir kəs ehtiyac və çətinlik hiss etməz. İnsanlar minnət qoymadan, şəxsiyyətini alçaltmadan bir-birinin ehtiyacını ödəyərlər, çətin işlərə kömək edərlər.

əl-Bəqərə-195-Malınızı Allah yolunda sərf edin və özünüzü öz əllərinizlə həlakətə salmayın. Ehsan edin, həqiqətən, Allah ehsan edənləri sevir.

ət-Təğabun-15-17-Həqiqətən, mal-dövlətiniz və oğul-uşağınız sizin üçün ancaq bir sınaq vasitəsidir. Ən böyük mükafat(Cənnət) isə Allah dərgahındadır! Allahın əzabından bacardığınız qədər qorxun. Sizə verilən öyüd-nəsihətə qulaq asın. Allaha və Peyğəmbərə itaət edin və mal-dövlətinizi Allah yolunda xərcləyin. Bu sizin özünüz üçün xeyirli olar. Öz nəfsinin, xəsisliyindən, tamahından qorunub saxlanılan kimsələr,məhz onlar Allah tərəfindən nicat tapıb, səadətə qovuşanlardır. Əgər Allah yolunda gözəl, könül xoşluğu ilə bir borc versəniz, Allah sizin üçün əvəzini qat-qat artırar və sizi bağışlayar. Allah qədirbiləndir, həlimdir!

Yığdın dünya malını, bəli, dolu gedəsən,
Əlidolu gəlmişdin, əlidolu gedəsən?!
Varla köçən sanma ki, şər-xatadan qurtarıb,
Pul-parasız köçənlər hər xatadan qurtarıb.

Qazansan da, udsan da, çıxacaq var əlindən,
Nə veriblər, axırda alacaqlar əlindən.
Qiyamətə qoyarmı qalsın qisas bu dünya?
İstəyir ki, hamıdan alsın qisas bu dünya? (“Sirlər xəzinəsi.”)

HƏR KƏSİN RUZİSİNİ VERƏN ALLAHDIR

əl-Ənkəbut-60-62-Çoxlu canlılar var ki, öz ruzilərini qazana bilmirlər və yalnız Allah sizə və onlara ruzi yetirir. Allah istəsə, bəndələrinin ruzisini bol edər və ya azaldar. O, eşidən və biləndir.

əl-İsra-30-Sənin Allahın kimin istəsə, ruzisini açıq edər, ya da azaldar. Çünki O,özü bəndələrindən xəbərdardır və görür.

əz-Zumər-52-Onlar bilmirlərmi, Allah istədiyi kəsə bol ruzi verər və yaxud daraldar?

əz-Zariat-57-58-Mən yaranmışlardan ruzi istəmirəm ki,onlar mənə ruzi versinlər. Ancaq öz bəndələrinə ruzi verən Allahdır. Yaranmışların hamısı ona möhtacdır. Möhkəm olan və yenilməz qüvvət sahibidir.

Hud-6-Yer üzündə elə bir yaranmış canlı yoxdur ki,Allah onların ruzisini verməsin. Allah onların ruzisini verəndir. Onların qərargahlarını, atalarının belini, analarının bətnini, vəfat edəndən sonra əmanət qoyulan yerlərini bilir. Bunların hamısı aşkar olan kitabdadır.

XƏSİSLİK ETMƏYİN

əl-Adiyat-6-Həqiqətən, insan mal və əmlakı çox sevir, onu Allah yolunda xərcləməyə xəsislik edir.

əl-Huməzə-2-4-O kəs ki, pulu sevdiyi üçün mal topladı və onu saydı, yaxud xərcləməyib saxladı.Məgər o güman edir ki, malı onu həmişəlik saxlayacaqdır?Onu ölməyə qoymayacaqdır? Onun güman etdiyi kimi deyildir! Mütləq o şəxs Hütəməyə atılar. Hütəmə Cəhənnəmin bir adıdır. O, sümüyü əridər və dərini yandırar.

Ali-İmran-180-Allahın verdiyi ruzidən sədəqə verməyənlər xəsisliyin yaxşı iş olduğunu hesab etməsinlər. Əksinə, xəsislik onlar üçün şərdir. Tezliklə qiyamət günündə xəsislik etdikləri şey onların boyunlarına keçirilər. Göylərin və yerin mirası Allah üçündür.

Hədis:-İbni Babəveyh atasından nəql edir:-İmam Sadiq buyurur: “Asimanda nazil olan vəhylərdə belə deyilir:-Əgər Adəm övladının biri qızıl, digəri gümüşlə dolu olan iki vadisi olsa, üçüncü bir vadini də istəyər.Yəni Adəm övladının tamahkarlığının sonu yoxdur.Ey Adəm

övladı! Sənin qarnın bir dərya,yaxud(çox geniş bir yer) vadidir ki, torpaqdan başqa bir şey doldura bilməz**.("Hədisi Qüdsi-610-h.)**

VERİLƏN RUZİYƏ GÖRƏ ALLAHIN ZİKRİNİ UNUTMAYIN

ət-Təkasur-1-5- Allaha itaətdən sizi məşğul etdi, axirətdə mal-dövlətinizin və ya qohumlarınızın çox olmağı.O zamana qədər ki, qəbirləri ziyarət etdiniz, yəni ölüb qəbiristanlığa getdiniz.Belə deyildir! Sizin malınızın çoxluğu ilə fəxr etməniz yaramaz. Xeyr, belə deyildir! Tezliklə, ölən zaman işinizin nəticəsini biləcəksiniz. Belə deyildir!Əgər tam yəqinliklə bilsəydiniz, şübhəsiz ki, var-dövlətə görə Allahın zikrindən ayrılmazdınız.

əl-Munafiqun-9-11-Ey iman edənlər!Malınız və övladınız Allahı yad etməkdən sizi qoymasın.Hər kəs belə etsə, ziyankardır ki, böyük olan neməti kiçik bir şey müqabilində məhv etmişdir.Ölüm gəlməzdən əvvəl sizə verdiyimiz mallardan Allah yolunda sərf edin.Həmin şəxs deyər:-Ey mənim Allahım!Nə üçün mənə yaxın zamana qədər möhlət vermirsən ki, sədəqə verib saleh insanlardan olum?Birinci əcəl yetişdikdə Allah onu təxirə salmaz və ona möhlət verməz.Allah sizin əməlinizdən xəbərdardır.

VERİLƏN RUZİDƏN SUAL OLUNACAQSINIZ

ət-Təkasur-8-Sonra mütləq siz Allahın sizə verdiyi nemətlərdən sual olunarsınız.

əl-Kəhf-45-Mal və dövlət dünya zinətidir,tez aradan gedər.Allah yanında həmişəlik qalan yaxşı əməllərdir.

VERİLƏN RUZİYƏ ŞÜKÜR EDİN

Taha-80-Sizə verdiyimiz pak ruzilərdən yeyib mənə şükür edin. Əgər nankorluq edib şükür etməsəniz, mənim qəzəbim sizin üçün vacib olar. Kimə mənim qəzəbim yetişsə, həqiqətən, yuxarıdan aşağı düşüb həlak olar.

Ey ruzisi qalmış getmə, yiyəcəksən,
Ey əcəli çatmış qaçma,öləcəksən.
Özün üçün çalışsan da, əgər çalışmasan.

Yetirəcək öz ruzisin sənə böyük yaradan.
Sən ağzına girsən də lap qızmış şirin,pələngin
Bir şey olmaz əgər çatmamışsa əcəlin. (“Gülüstan”Sədi Şirazi.)

VERİLƏN RUZİ İLƏ İMTAHAN EDƏR

Açıqlama:-Allahın insanlara ruzini hər zaman bol-bol verməyib, bəzən daraltmasındakı hikmətlərdə, insanların bu dünyada nəfslərinin arzu etdiyi hər şeyə nail olmamalarında da Allahın rəhməti vardır.

Taha-l31-Kafirlərin bəzi zümrələrini sınamaq üçün onlara dünya həyatının zinəti olaraq, verdiyimiz mal-dovlətə rəğbət gözü ilə baxma,gözünü dikmə.

əl-Fəcr-15-Allah insanı nemətlə imtahan edib,mal və hörmətli tutaraq ona nemət versə,həmin bəndə deyər ki,mənim Allahım məni hörmətli tutdu. O,bununla özünü şad saxlar və belə güman edər ki, Allah yanında əzizdir. Lakin əgər Allah onu fəqirliklə imtahan etsə və ruzisini azaltsa, o bəndə deyər:-Mənim Allahım məni xar etdi, Allahın yanında mənim heç bir qədir-qiymətim yoxdur. Xeyr, bəndənin xəyal etdiyi kimi deyildir. Doğrusu, siz bir-birinizə hörmət etmirsiniz və bir-birinizi miskinə təam verməyə rəğbətləndirmirsiniz. Axı, biz sizə ruzi vermişik ki, həm özünüzə, həm fəqirlərə sərf edəsiniz. Siz nahaq yerə mirası, yetimlərin malını yeyərsiniz, mal-dövləti çox dost tutarsınız, mal yığmağı və vacibi haqları verməməyə hazırsınız.

əl-Bələd-5-7-Məgər insan elə zənn edir ki, ona heç kəsin gücü çatmayacaq, ondan bu malları haradan qazandığı barədə sual olunmayacaq. O deyər:-Mən çoxlu var-dövlət sərf etdim, Lakin dünyada riya ilə özünü göstərmək üçün sərf olunan malların qiyamətdə bir xeyri olmaz.O elə güman edir ki, onu bir şəxs görməz və ondan soruşmaz ki, bu malları haradan qazanıb,haraya sərf etmisən?

Hədis:Cəfəri Sadiq buyurur:”Camaatın fani dünyadaki istəyi dörd şeydir:

1-Sərvət və maddi imkanlar qənaətdəndır. Hər kəs onu mal- dövlətin çoxluğunda axtarsa, onu heç vaxt tapmayacaq.

2- Asayiş və rahatlıq.İnsanın yükünün az olmasındadir.Hər kəs onu yükünün ağır olmasında axtarsa, heç vaxt tapmaycaq.

3-Qəm-qüssənin azlığıdır.İnsanın məşğuliyyətinin, iş-gücünün az olmasıdır. Hər kəs onu məşğuliyyətin çoxluğunda axtarsa, onu heç vaxt tapmayacaq.

4- İzzət və şərəf Allaha itaət etməkdədir. Hər kəs onu məxluqa itaət etməkdə axtarsa,onu heç tapmayacaq.

VERİLƏN RUZİDƏN HEÇ KƏSƏ VERMƏYƏCƏYİNİZƏ AND İÇMƏYİN

ən-Nur-23-Sizin dövlətlilərіniz yaxın qohumlara, miskinlərə, Allah yolunda köçənlərə ehsan və heç kəsə yaxşılıq etməməyə görə and içməməlidirlər. Onlar günah və pisliyi bağışlamalı və güzəşt etməlidirlər. Məgər siz istəmirsiniz ki, siz başqalarının təqsirindən keçməklə, Allah da sizin günahlarınızı bağışlasın?

Yasin -47-Onlara:"Allahın sizə verdiyi ruzidən sərf edin, fəqirlərin vacibi haqlarını verin!"–deyilən zaman onlar deyərlər:-Allahın istədiyi təqdirdə,ruzi verə biləcəyi kəsə bizmi təam verək?

Allah buyurar:-Siz açıq- aşkar zəlalətdəsiniz.Allah imtahan üçün kimini varlı, kimini isə kasıb etmişdir. İmtahandan yaxşı çıxmaq üçün fəqir səbirli, varlı isə səxavətli olmalıdır.

Hədis:Rəsulu Əkrəm buyurdu:"Bir zaman gələr ki, mənim ümmətim beş şeyi sevər, beş şeyi yaddan çıxarar. Onlar mal-dövləti sevər, haqq-hesabı yaddan çıxarar. Qadınları sevər, huriləri yaddan çıxararlar. Qəsrləri sevər, qəbirləri yaddan çıxarar. Özlərini sevər, Pərvərdigarını yaddan çıxarar. Onlar məndən bezardılar, mən də onlardan bezaram. (**Zubdətul Əhadis.)**

QAZANDIĞINIZ ŞEYLƏRİN HALALINDAN, GÖZƏLİNDƏN EHSAN EDİN

əl-Bəqərə-267-Ey iman gətirənlər,qazandığınız şeylərin halallarından, gözəllərindən,sizin üçün yerdən çıxardığımızdan,dənli bitkilərdən sərf edin.Malın pisini və eyiblisini nəfəqə verməyə qəsd etməyin.Bir halda ki, siz onu başqa adamlardan özünüzə layiq bilib, alan deyilsiniz. Bilin ki, Allah ehtiyacsızdır.

Ali-İmran-92-Sevdiyiniz şeydən sərf etməyincə,yaxşılığa nail olmazsınız. Hər nədən sərf etsəniz,Allah ona Alimdir. Xüms və zəkat füruid-dinin vacib maddələrindəndir

XÜMS VƏ ZƏKAT FÜRUİD-DİNİN VACİB MADDƏLƏRİNDƏNDİR

əl-Bəqərə-254-Ey iman gətirən kəslər,nə qədər ki, qiyamət günü gəlməyib, sizə ruzi verdiyimiz şeylərdən sədəqə verin,qiyamət elə gündür ki, onda alver,dostluq, şəfaət yoxdur;kafirlər zülmkardırlar.

Muhəmməd-37-Əgər Allah sizin malınızı istəsə, onda siz xəsislik edib verməzsiniz. O zaman Allah sizin ona və Peyğəmbərə düşmən olduğunuzu bilər. Lakin Allah sizdən malınızın onda və ya iyirmidə birini fəqirlərə verməyinizi istəyir. Xəbərdar olun!Siz o kəslərsiniz ki, Allah yolunda malınızı sərf etməyə çağırılarsınız. Sizdən elələri var ki, xəsislik edib, vacib olan zəkatı və xümsu verməz. Hər kəs xəsislik etsə özü üçün etmişdir. Buna görə də hər kəs nə qədər Allah yolunda sərf etsə savabı özünə yetişər. Allah ehtiyacsızdır,sizin malınıza onun ehtiyacı yoxdur. Əksinə, siz ona və onun verdiyi ruziyə möhtacsınız. Əgər siz Allahdan və onun Peyğəmbərindən üz döndərsəniz, Allaha çox ibadət edən başqa bir qövmü sizinlə əvəzləyər. Onlar sizin kimi olmazlar və onlar Allahdan üz döndərməzlər.

Açıqlama:-Yeddi şeydə xüms vacibdir:1.Qazanc mənfəəti. 2.Mədən. 3.Xəzinə. 4.Harama qarışmış mal.5.Sudan çıxarılan cavahirat. 6. Müharibə qənimətləri.7.Torpaq və evdən gələn gəlirdən.

Bədənimizin kəffarəsi oruc olduğu kimi, zəkat və xüms da bizim qazancımızın kəffarəsidir.Bizlər üçün buyurulan bu əmrlər: namaz, oruc, Həcc, xüms, zəkat və sədəqələr yalnız bizim özümüzün,bütün əzab və müsibətlərdən, şeytanın əziyyətlərindən qorunmağımız və həm bu dünyada, həm də axirətdə xeyir tapmağımız üçündür.

Xümsun verilməsi:-Verilməli olan xüms iki yerə bölünməlidir; bir qismi seyyidlərə verilməlidir.Xüms illik gəlirin 1/5 hissəsi olub verilərkən, səfərdə möhtac qalmışa, elm öyrənənə,elm öyrədənə və Məscidlərimizin, dini ocaqlarımızın,elm ocaqlarının ehtiyaclarına və məscid imamının məsləhət bildiyi,ehtiyaclı insanlara verilməlidir.

Zəkat:-Sahibi olduğu bütün istehsal məhsullarından,kənd təsərrüfatı məhsullarından,mal-qara sahibindən,sahib olduğu qızıl əşyalarının zəkatı verilməlidir.Yəni 1 il ərzində bu məhsullardan gələn gəlirin 1 hissəsi, qohum-əqrəbaya, qonşuya,fəqirə, yetimə, miskinə və tanıyıb bildiyiniz, həqiqi ehtiyacı olan insanlara verilməlidir.

ər-Rum-39-Malınızı artırmaq üçün nüzula verdiyiniz mal Allahın yanında heç vaxt artmaz və Allah rizası üçün zəkat kimi verdiyiniz mal iki bərabər olar.

Hədis:-Peyğəmbərimiz buyurur ki,"Zəkat verərək mallarınızı qala içinə alınız."Malını qorumaq istəyən kişinin ən böyük mənəvi sığortası zəkatdır**. (Zubdətul Əhadis)**

SƏDƏQƏ VERMƏK HAQQINDA

ət-Tovbə-75-76-Onlardan,münafiqlərdən elələri var ki,Allah ilə əhd etdi:"Əgər Allah öz fəzlindən bizə versə və ruzimizi bol etsə, əlbəttə, sədəqə verərik.Lakin Allah öz fəzlindən onlara çoxlu mal verən zaman vacib haqqı verməyib xəsislik etdilər və Allaha itaət etməkdən üz döndərib, arxa çevirdilər.

Açıqlama:-Bu ayə Xətib oğlu Sələbə haqqında enmişdir. O, çox kasıb idi.Sələbə bir gün Peyğəmbərdən xahiş etdi:"Mənə dua et ki, Allah mənə çoxlu var-dövlət versin."Həzrət buyurdu:"Şükrünü yerinə yetirdiyin az mal,haqqını verə bilməyəcəyin çox maldan yaxşıdır."

Sələbə and içdi ki, bütün şəriət buyuran qanunlar ilə malının xüms, zəkat, sədəqə və fitrəsini vaxtlı-vaxtında verəcək. Peyğəmbərimiz dua etdi və Allah onun az qoyununa o qədər bərəkət verdi ki, Mədinəyə sığmayıb uzaq yerlərə getdi. Bununla da yavaş-yavaş nə cümə namazına, nə də ki o biri namazlara gəlib çıxa bilmədi. Peyğəmbərimiz onun mallarının zəkatını almaq üçün adam göndərəndə, Sələbə:"Zəkat elə cizyənin qardaşıdır"-deyib zəkat verməkdən boyun qaçırdı.Sələbə sonra peşman olub, zəkatını gətirsə də, artıq ondan heç bir şey qəbul olunmayacağı haqqında əmr gəlir və o, əbədi dünyası üçün heç nə qazana bilmir.

Hədis:-Peyğəmbərimiz buyurur:-Bir qurtum su da olsa, həm öz adınızdan, həm də ölüləriniz adından sədəqə verin.Buna gücünüz yoxdursa, Qurandan bir ayət oxuyun, əgər bunu da bacarmasanız, Allahdan əfvinizi diləyin. Sədəqə yetmiş cürə pisliklərin qapısını bağlayır və yetmiş min qat savab qazandırır. Malı artırar, xəstəliyi aparar, bəlanı uzaqlaşdırar,sahibinin şimşək kimi Sirat körpüsündən keçməsini təmin edər. (**Zubdətul Əhadis)**

Hədis:-Peyğəmbərimiz buyurur ki:"Uca Allah yer üzünü yaratdıqda yer hərəkətə gəlib uzanıb yayıldı.Allah da dağları yaradaraq onu möhkəmləndirdi.Bu yaratma hadisəsi qarşısında çaşıb qalan mələklərlə Uca Allah arasında belə bir danışma gedir:

Mələklər:Ya Rəbbi!Yaratdıqlarının içində dağlardan daha dəhşətli varlığın varmı? Allah-taala:-Bəli, dəmirdir!

Mələklər:-Ya rəbbi!Yaxşı, dəmirdən daha dəhşətli varlığın varmı? Allah-taala:-Bəli, atəşdir!

Mələklər:-Atəşdən başqa nə var? Allah-taala:-"Su"-deyə cavab verir. Mələklər:-Sudan başqa nə var? Allah-taala:-Külək.

Mələklər:-Küləkdən möhtəşəm yaratdığın bir varlıq da varmı?

Allah-taala:-Bəli var, insan oğludur.Çünki o, sağ əlinin verdiyi sədəqəni sol əlindən gizlədərək verər.

Bəli, gizlin verilən sədəqə, küləkdən daha güclü və daha təsirlidir.Çünki sədəqənin gizli verilməsi heç bir fani varlığın nəfsinin görmədiyini, Allah daha gözəl bilir.

Uca Allah belə buyurur:"Zəkat və sədəqələrinizi başqalarının gözlərindən gizlədərək, fağıra versəniz, bu sizin üçün daha çox savab qazandırar." **(Mecalıs Rumi.)**

Əvvəlki dövrlərdə yaşayan möminlər sədəqə və zəkatın gizli verilməsi prinsipinə o dərəcə bağlı idilər ki,sədəqənin kim tərəfindən onlara verildiyini anlamasınlar deyə gecə kasıbların qapılarına qoyardılar.

SƏDƏQƏ VƏ ZƏKATIN VERİLƏCƏYİ YER

ət-Tovbə 60-"Sədəqələr, zəkatlar Allah tərəfindən müəyyən edilmiş bir fərz, vacib əməldir."Sədəqə və zəkat ancaq fəqirlərə,onlardan daha çox ehtiyacı olan miskinlərə, sədəqəni toplayan işçilərə, ürəklərini əla almaq üçün,kamil mömin etmək, başqalarının onlara baxıb imana gəlməsi məqsədilə qəlbləri ülfət tapan, Allaha iman gətirsələr də, hələ kamil mömin olmayan kəslərə, yaxud düşmən hücumundan qorunmaq üçün sərhəddə qalan kəslərə, ağalarından əziyyət görən qul və kənizləri azad etməyə,borclu olanlara və onu verə bilməyənlərə, Allah yolunda cihad üçün, körpü tikmək,su çəkmək, mədrəsə açmaq məqsədilə sərf etməyə, səfərə çıxıb vətənə dönə bilməyən və bunun üçün borc da ala bilməyən yolçuya məxsusdur. Bu, Allah tərəfindən fərzdir. Allah bilən və hökm edəndir.

əl-Bəqərə-215-Allah yolunda mallarını necə sərf etmələri haqqında Səndən soruşurlar.De ki, "öz malınızdan əvvəl ata-ana, yaxın qohumlar, yetimlər, miskinlər və yoldan keçənlər üçün nifaq edin"-Allah gördüyünüz hər yaxşı işi bilir.

Açıqlama:-Allah yolunda gözəl niyyətlə verilən hər bir sədəqənin həm bu dünyada, həm də axirətdə mütləq əvəzi vardır. Sədəqə bu dünyada müsibət və bəlalardan,əbədi dünyada isə Cəhənnəm odundan insanı qoruyar.Əlbəttə kim necə bacarır,nəyə gücü çatır o cürə də sədəqə verə bilər.

VERİLƏN RUZİDƏN ALLAH YOLUNDA SƏRF EDİN

əl-Hədid-7-Allaha və onun Peyğəmbərlərinə iman gətirin!Sizin varis olduğunuz şeylərdən Allah yolunda sərf edin.Allah yolunda mallarını sərf edən kəsləri böyük mükafat gözləyir.

əl-Hədid-11-Kimdir o kəs ki,Allah yolunda gözəl və əvəzsiz borc versin?Allah o borcu onun üçün artırar və borc verən kəs üçün böyük əcr vardır.

əl-Bəqərə-245-Allaha gözəl borc verən kimdir?Allah onun üçün borc verdiyi məbləğdən neçə qat artırar.Allah alar və açar,fəqir edər və ya dövlətli edər.Siz Onun tərəfinə qayıdacaqsınız.

əl-Bəqərə-261-274-Mallarını Allah yolunda sərf edənlər bir ədəd toxum əkən kəs kimidir.Bir toxumdan yeddi sünbül göyərər və hər sünbüldə yüz ədəd dən olar. Allah istədiyi kəs üçün artırar. Bir dəndən yüz dən verən Allah,bir dən ehsan edən kəsə yüz dən ehsan etməyə qadirdir.

Allah yolunda mal sərf edib,sonra minnət qoymaqla heç kəsə əziyyət etməyin. Onlar qorxu görməz və Qiyamət günü hüznlü olmazlar. Onlar üçün Allah yanında əcr və muzd vardır.Yaxşı söz danışmaq və bağışlamaq, ardınca əziyyət gələn ehsandan yaxşıdır.

Ey iman gətirənlər, minnət qoymaqla və əziyyət etməklə ehsanlarınızı batil etməyin.O kəslər ki, Allaha Qiyamət gününə iman gətirməzlər və özünü camaata göstərmək üçün malını sərf edər: onun mislı saf daş kimidir ki,üstündə torpaq ola,ona iri damlalı yağış düşərkən daşı yuyub təmiz edər.Yağış daşın üstündə olan torpağı apardığı kimi, minnət qoymaq, əziyyət vermək və kafir olmaq da ehsanın əcrini batil edər. Odur ki, Allah-taala buyurur:-Bu cür ehsan edənlər verdiklərindən heç bir savab qazanmazlar. Mallarını Allahın razılığını qazanmaq və nəfslərini sabit qədəm etmək üçün sərf edən kəslər isə uca yerdə olan bostan və bağa bənzərlər ki, ora yağış yağsın və ağaclar iki qat meyvə gətirsin.

Ey iman gətirənlər, qazandığınız şeylərin halalından, gözəllərindən ehsan edin. Malın pisini və eyiblisini ehsan etməyə qəsd etməyin. Bir halda ki,siz o pis şeyi başqasından götürməzsiniz.Bilin ki, Allah sizin ehsanınızdan ehtiyacsızdır, O ancaq sizin öz xeyriniz üçün ehsan etməyi əmr etmişdir.

Şeytan sizi fəqirliklə vəsvəsə edər ki, güya ehsan etsəniz pulunuz qurtarar. Bununla o sizi pis işlərə və zəkat verməməyə dəvət edər. Allah sizə günahlardan bağışlanmağı və öz fəzlini vəd edir. Allah genişlik verən və biləndir. İstədiyi kəsə hikmət verər. Həqiqətən hikmət verilən

kəsə çox xeyir verilib.Nəsihəti ancaq qəlb sahibləri qəbul edər. Allah yolunda az ya çox, gizlin ya aşkar etdiyiniz ehsanları və nəzri həqiqətən Allah bilir.

Əgər aşkar sədəqə versəniz bu yaxşı şeydir, başqaları da görüb sədəqə verməyə rəğbət göstərərlər. Əgər sədəqəni fəqirlərə gizli versəniz, aşkar verməkdən daha yaxşıdır ki, sizin bəzi günahlarınızın kəffarəsi olar. Allah sizin əməllərinizdən xəbərdardır.Malınızdan sərf etdiyinizin xeyri sizin özünüz üçündür.Siz təkcə Allahın razılığını əldə etmək üçün sərf etmisiniz.Malınızdan sərf etdiyiniz hər şeyin əvəzi verilər.

Cihad etmək səbəbi ilə ruzi qazana bilməyən fəqirlərə sədəqə verin. İffətli olduqlarına görə onların halından xəbəri olmayanlar, onların dövlətli olduqlarını güman edirdilər.Sən onları əlamətləri:üzlərinin sarılığı və pərişan halları ilə tanıyarsan. Onlar güc ilə insanlardan bir şey istəməzlər. Öz mallarını gecə-gündüz, gizli-aşkar sərf edən kəslər üçün Allah yanında əcr vardır. Onlar üçün qorxu yoxdur və onlar hüznlü olmazlar.

Hədis:Peyğəmbərimiz buyurur:"Hər kəs kəsb etdiyi haram maldan sədəqə versə, qəbul olunmaz. Əgər ölsə, o mal onun üçün Cəhənnəmdə od olar." **(Zubdətul Əhadis)**

Hədis:"**Hədisi-Qüdsi**"-İmam Baqir (ə.s.) buyurur:-Allah-taala belə buyurur:-Ey Adəm övladı!Mən üç şeyi sizə ehsan etdim:

1-Sənin elə eyib və pis işlərinin üstünü örtdüm ki,əgər əhli əyalın və ən yaxın adamın onu bilsəydi,gizlətməzdi.

2-Sənə ruzi genişliyi və firavanlıq verib sonra səndən borc, Allah yolunda nifaq istədim,lakin sən özün üçün xeyir iş görmədin.

3-Əcəlin çatan zamana qədər sənə möhlət verdim ki,malının üçdə birini istədiyin kimi xərcləyəsən,yenə də sən onu xeyir yolda xərcləmədin.

DİNİMİZDƏ BUYURULAN ƏN BÖYÜK GÜNAHLAR HAQQINDA

Açıqlama:-Əbu Bəsir imam Cəfəri Sadiqdən rəvayət edərək deyir:-Ən böyük günahlar yeddidir.

1.-Qəsdən adam öldürmək.

2.-Riba-sələmə pul vermək.

3.-Allaha şərik qərar vermək,yəni kimisə Allahlaşdırmaq, Allahdan başqasından kömək diləmək

4.-İffətli qadına zina töhməti vurmaq, yəni, kiminsə haqqında bilə-bilməyə danışmaq.(

5.-Cihad meydanında fərarilik etmək,yəni döyüşdən qaçmaq, öz üzərinə düşən vəzifəni yerinə yetirməkdən boyun qaçirmaq.

6.-Aqq- valideyn, yəni ata-anaya söz qaytarmaq, onları incitmək.

7.-Hicrətdən sonra təərrüb,yəni harasa köçdükdən sonra imanı zəifləmək,öz dinində zəifləyib o dövlətin cəhalət qanunlarına uyub, haram yollara qədəm qoymaq.Yəni, başqa İslam dinindən olmayan, bir ölkəyə hicrət etdikdən sonra, öz dinini unudub, onların adət ənənəsinə uymaq. **(Hədisi-Qüdsi)**

Bunlardan başqa 150-yə yaxın əməllər böyük günahlardan və haramlardan sayılır.

Zina etmək və ləvat, şərab içmək, donuz əti və qan yemək,oğurluq etmək,yalan yerə şahidlik etmək,qohumlardan uzaq olmaq,yetimin malını yemək, ölçüdə və çəkidə aldatmaq,ara düzəltmək, diri heyvanı yandırmaq,malının zəkatını verməmək, murdar olmuş heyvanın ətini yemək,əmanətə xəyanət etmək,harama halal, halala haram demək, qadının kişi, kişinin qadın paltarı geyinməsi,namaz qılmamaq və dinin vacib əmrlərini tərk etmək, özünü öldürmək, zalımlara kömək etmək və sair.

BÖYÜK GÜNAHLARDAN BİRİNCİSİ

Açıqlama:-Dinimizdə Allah tərəfindən bizə buyurulan böyük günahlardan biri insan öldürməkdir.Qurani-Kərimin 8 ayəsində bu haqda buyurulmuşdur:

əl-Nisa-92-Bir möminin başqa bir mömini xəta və səhv istisna olmaqla öldürməsi caiz deyil.Səhvən mömini öldürən kəs bir qul azad etməli və əhlinə diyə verməlidir.

ən-Nisa-93-Qəsdən mömin öldürən kəsin axirət cəzası Cəhənnəmdir, həmişəlik orada qalacaq.Allah ona qəzəb və lənət edər, axirətdə olduğu kimi dünyada da onun üçün dərd gətirən əzab verər.

əl-Maidə-32-Kimsə bir kimsəni öldürə bilməz,dinimizə görə haqsız bir insanı öldürmək bütün insanlığı öldürmək kimi zülm və bəladır.

Böyük günahlardan ikincisi

Açıqlama:-Dinimizdə Allah tərəfindən bizə buyurulan böyük günahlardan biri də ribadır. Riba sələmçilik deməkdir və bu da ondan ibarətdir ki,ehtiyacı olan bir adam pullu bir adamdan borc alır.Pul verən kəs şərt qoyur ki,verilən pulun üstündə müəyyən faiz də verəcəksən. Məsələn,verilən 100 manatın əvəzində bir aydan sonra Buna el arasında mamilə də deyilir. Dinimiz ribanı haram edib. Borc vermək,yoxsullara

kömək etmək, ehtiyacı olanları çətin vəziyyətdən çıxarmaq İslam dinin də çoxbəyənilir, bu şərtlə ki, qaytaranda əlavəsiz qaytarılsın. Bu haqda Quran Kərimdə ayələr nazil olmuşdur:

əl-Bəqərə-275-277-Riba yeyən şəxslər qəbirlərindən yalnız cin vurmuş kimi durarlar. Bu əzab onun müqabilindədir ki,onlar "alış-verişdə riba kimidir" -dedilər.Bir halda ki,Allah alış-verişi halal, ribanı isə haram buyurmuşdur.Allah tərəfindən onlara nəsihət gələndən sonra,özlərini haramdan saxlasalar, keçmiş əmələ görə cəza verilməz. Ancaq ribanın günah olduğunu bildikdən sonra, yenidən təkrar edən kəslər odda yanıb, həmişəlik orada qalacaqlar.Allah ribanın bərəkətini götürər, ancaq sədəqəyə artım verər. Allah bütün naşükür və günahkar insanları sevməz.İman gətirib, saleh işlər görən və namaz qılıb,z əkat verən kəslər üçün pərvərdigarı yanında əcr vardır.

Ey iman gətirənlər,Allahdan qorxun!Əgər möminsinizsə, ribanı tərk edin!

Ali-İmran-130-Ey iman gətirən kəslər, ribanı ikiqatlı və çoxqatlı edib yeməyin.Allahdan qorxun, bəlkə nicat tapasınız.

ən-Nisa-161-Nəhy(qadağan)olunduqları halda riba (faiz) aldıqları və haram olan batil yol ilə camaatın malını yedikləri üçün tövbə edib iman gətirənlərə yox, bilə-bilə bu işlə məşğul olanlardan ötrü dərd gətirən əzab hazırlamışıq.

BÖYÜK GÜNAHLARDAN ÜÇÜNCÜSÜ

Dinimizdə buyurulan böyük günahlardan biri də kiməsə zina töhməti vurmaq və şər atmaqdır.

Hucurat-11-12-Ey iman gətirənlər! Bir qövm digərini lağa qoymasın.Ola bilsin ki,lağa qoyulanlar lağa qoyanlardan (Allah yanında) daha yaxşı olsunlar. Qadınlar da bir-birinə rişxənd eləməsin, rişxənd olunanlar rişxənd edənlərdən daha yaxşıdırlar. Bir-birinizə tənə etməyin, eyb tutmayın və bir-birinizi pis ləqəblərlə çağırmayın.Ey iman gətirənlər!Çox zənnə-gümana qapılmadan çəkinin. Şübhəsiz ki, zənnin bəzisi(heç bir əsasi olmayan zənn) günahdır. Bir-birinizin eybini, sirrini arayıb axtarmayın, bir-birinizin qeybətini etməyin. Sizdən biriniz ölmüş qardaşının ətini yeməyə razı olarmı? Bu sizdə ikrah hissi oyadar Allahdan qorxun(qeybət də belədir). Həqiqətən, Allah tövbələri qəbul edəndir, rəhmlidir.

Açıqlama:-Hər hansı bir insan başqa birisinə iftira etdiyində tək özü deyil, iftira etdiyi insan, iftiranı eşidən kəs, çox incə və həssas imtahan-

lardan keçirilir.

Bu haqda Qurani-Kərimdə belə buyurulur:

ən-Nur-2-16-38-Zinakar kişilərə və zinakar qadinlara yüz çubuq vurun.Allaha və axirət gününə inanırsınızsa, Allahın dini barəsində (bu işin icrasında) möminlərdən bir dəstə də onların əzabına şahid olsun(uç nəfər, ya ondan çox) şahidlik etməlidirlər. Zina nisbəti verməklə, iffətli və saleh qadınlara böhtan atan" bu qadın zina etmişdir deyən",sonra sözlərini sübut etmək üçün dörd nəfər şahid gətirməyən kəslərə səksən çubuq vurun.Əsla böhtan atan kəsin şəhadətini qəbul etməyin, çünki onlar fasiqdirlər.Günahların böyüyünü edən üçün də, böyük əzab var. Təkcə o kəslərdən şəhadət qəbul edin ki, bu böhtandan sonra tövbə edib,öz əməllərini islah etsinlər.Siz bu yalan sözü eşitdikdə nə üçün mömin kişi və qadınlar, özləri kimi olan şəxslər barədə yaxşı gümana gəlmədilər? Nə üçün bu sözə dörd şahid gətirmədilər? Bu ona görədir ki, o sözləri dillərinizlə, biri digərinə deyib, camaat arasında yaydınız.Siz elminiz və xəbəriniz olmayan və asan güman etdiyiniz sözləri ağzınızla danışırsınız.Bir halda ki,bu günah Allah yanında ən böyük günahlardandır.O sözü eşidəndə, nə üçün demədiniz ki,bu sozü danışmaq bizə layıq deyil. Həqiqətən, pis əməldən xəbəri olmayan və Allaha iman gətirən iffətli qadınlara zina nisbəti verən kəslər dünyada və axirətdə Allahın rəhmətindən uzaq oldular. Onlar üçün böyük əzab vardır. Gərək deyərdiniz ki,Pərvərdigara, sən bütün eyiblərdən pak və müqəddəssən.Pis əməllərin möminlər arasında şayə olmasını istəyən kəslər üçün dünyada cəza tətbiq edilməklə axirətdə də zəhmətli əzab vardır. Allah sizə nəsihət edir və əgər möminsinizsə o sozü bir daha deyəcəyinizi nəhl edir.Həqiqətən Allah bağışlayan və rəhm edəndir.

BÖYÜK GÜNAHLARDAN DÖRDÜNCÜSÜ

Açıqlama :-Böyük günahlardan biri də aqq-valideyn olmaqdır. Yəni ata-anaya zülm etmək,onları dilləri və əməlləri ilə incitməkdir.

əl-Ənkəbut-8-İnsana ata-anasına yaxşılıq etməyi tapşırdıq.Əgər onlar səni Məndən başqasına ibadət etməyə sövq etsələr, onda onlara itaət etmə.Hamı Mənə tərəf qayıdar və Mən gördüyünüz işlərdən sizi agah edərəm.

Loğman-14-19-Loğman öz oğluna dedi:-Mənim oğulcuğum!Allaha ortaq tutma, çünki ortaq tutmaq böyük günahdır.Ata-ananın haqqını ver, ata-anana şükür et. Əgər onlar Allaha ortaq tutsalar, sən də onlara itaət etmə. Ancaq onlarla dünyada yaxşı rəftar et,Allahın dərgahına qa-

yıdanların yolu ilə get. Siz hamınız ona sarı dönəcəksiniz və O,sizi etdiyiniz işlərdən agah edəcək.Mənim balam, əməlin xardal dənəsi boyda daşın içində,göylərdə və ya yerdə olsa, Allah hesaba alar. Çünki O, çox xırdaları da görən və hər şeydən agahdır. Mənim balam,namaz qıl, xalqı pis işlərdən çəkindir, xalqı yaxşı işlər görməyə yönəlt.Qarşına nə çıxarsa dözümlü ol və bütün bu işlər təsadüfü deyildir. Qürur ilə xalqdan üz döndərmə və yer üzündə təkəbbür ilə yol getmə, çünki Allah özünü bəyənənləri və təkəbbür edən kəsləri sevməz. Rəftarında orta yolu seç və səsini ucaltma,çünki səslərin iyrənci uzunqulağın səsidir.

əl-Əhqaf-15-17-Biz insana tövsiyə etdik ki,ata-anasına yaxşılıq etsin. Ana uşağı zəhmətlə boynuna götürdü, onu zəhmətlə doğdu. Uşağın ana bətninə düşməsi ilə süddən kəsilməsi otuz aydır.Uşaq son qüvvət həddinə,yəni kamil həddinə yetişdikdə dedi:-Ey mənim Allahım!Mənə ilham et ki, mənə, ata-anama verdiyin nemətə şükür edim. Bir də ona görə ki,sənin razı olduğun kimi hərəkət edim. Mənim övladlarımı islah et ki, saleh şəxslər olsunlar. Həqiqətən, mən sənin tərəfinə qayıtdım. Şübhəsiz ki, mən müsəlmanlardanam. Bu sözün sahibi o kəslərdir ki, biz onların etdikləri gözəl əməlləri qəbul edərik, günahlarından keçərik, Cənnət əhlindən hesab edərik. Bu onlara verilən doğru vəddir. O kəs ki, ata-anasına dedi:-Uf olsun sizə! Siz məni qorxudurdunuz ki, mən qəbirdən çıxarılaram və məhşərə gələrəm,bir halda ki, məndən qabaq çox qərinələr gəlib keçdi, heç onlar indiyə kimi dirilməyiblər.

Ata-ana Allaha pənah aparar və istərlər ki,övladları imana gəlsin. Onlar öz övladlarına deyərlər:-Vay olsun sizə,Qurana və Qiyamətə iman gətirin! Həqıqətən, Allahın vədi haqdır!Cavabında onlar deyərlər ki:-Bu dediklәriniz qədimlərin uydurduqları əfsanədən başqa bir şey deyildir! Belələri özlərindən əvvəl gəlib-getmiş cinlərdən və insaqa ibarət kafir ümmətlərlə birlikdə haqlarında əzab hökmünün gerçəkləndiyi kimsələrdir. Onlar,doğrudan da, ziyana uğrayanlardır!

Hədis; Imam Rzadan belə buyrulur:" Insanlar üçün ən qorxulu olan üç məqam vardır;

1-Anadan doğulub bu aləmi gördüyü gün.

2- Ölüb axirəti və onun əhlini gordüyü gün.

3-Dirilib, dünyada görmədiyi hökmləri görəcəyi gün.

HARAM BUYURULAN YEMƏK-İCMƏK

əl-Bəqərə-173-Ey iman gətirənlər,sizə verdiyimiz ruzilərin pak və təmizlərini yeyin.Əgər Allaha ibadət edirsinizsə,sizə verilən pak nemətlərə görə Allaha şükür edin.

Allah təkcə sizə ölmüş heyvanı,qanı,donuz ətini,Allahdan başqasının adına kəsilən heyvanı haram etdi.Əlacsız qaldığınız zaman bunlardan həddini aşmadan,ehtiyac olan miqdarda yeməkdə sizin üçün günah yoxdur.Allah bağışlayan və rəhm edəndir.

əl-Maidə-9-Şərab icmək,qumar oynamaq,bütə qulluq etmək murdardır,haramdır.

əl-Maidə-3-Şəri qayda ilə kəsilməmiş, özbaşına ölən murdar (ölü),qan, donuz əti haram buyurulmuşdur. Allahdan başqasının adı çəkilərək kəsilən heyvan, münxəniqə(məcuslar başı kəsilən,qanı axan heyvanı yeməzdilər, onu boğub öldürərdilər),movquzə(qoyunun əl-ayağın bağlayıb, onu ölənə qədər döyər, sonra onu yeyərdilər), mütərəddiyə (heyvanın gözlərini bağlayıb damdan atar, öləndən sonra yeyərdilər), nətihə(iki qoçu döyüşdürər, öləndən sonra yeyərdilər), vəhşi heyvanı öldürüb ətindən yediyi heyvan,fal oxları və böldüyünüz heyvanlar sizə haram buyuruldu. Ac olub, bu şeylərdən, günaha meyl etməyən halda,əlacsız qalıb yesə,Allah bağışlayandır.(Bu ayədə haram olan şeylər bildirilir. Bununla da Allahın rizasına uyğun, ən mükəmməl bir din olduğunu müjdələyir. Çarəsiz qalan müsəlmanlar haqqında da şəri məsələlər bəyan edilir. Cahiliyyət zamanında Kəbə evinin ətrafında qoyulmuş daşlar,bütlər var idi və bu daşlara ibadət edərək onların adına qurbanlar kəsilərdi ki,bunlar da haramdır.)

Hədis:-Əli ibn İbrahim atasından nəql edir:-İmam Cəfəri Sadiq buyurur:-Allah belə buyurur:Hər kəs məst edici şeylər içsə, yaxud ağlı tam kəsməyən bir uşağa içirtsə,Mən o şəxsə Cəhənnəmin, həmin (üfünətli və qaynar) sularından içirərəm.İstər o şəxs bağışlanmış olsun, istərsə də yox. Hər kəs Mənim razılığım üçün məst edici içkiləri tərk etsə, onu behiştə daxil edərəm,onu behiştdə rəhiqi-məxtumdan (çox ləzzətli olan) sirab edərəm və onunla,Öz dostlarımla rəftar etdiyim kimi rəftar edərəm. **(”Hədisi Qüdsi”601)**

HALAL OLAN ŞEYLƏR HAQQINDA

əl-Maidə 4-5-Halal olan şeylər haqqında səndən soruşarlar.De ki,pak şeylər: ürəyinin nifrət etmədiyi pak şeylər,təlim verdiyiniz iti dırnaqlı quşlar,dörd ayaqlı heyvanlar vasitəsi ilə ovlanan yırtıcı heyvanların ovu sizə halal oldu.Onların sizin üçün tutub saxladıqları və ovladıqları ətdən yeyin. Onun üçün Allahın adını zikr edin. Heyvanı ov üçün göndərən zaman“Bismilləh” deyin.Allahdan qorxun! Həqiqətən, Allah tez hesab çəkəndir.Bu gün pak şeylər və Əhli-kitabın təamı sizə də halal oldu.

Bunlar dənli bitkilər və Allahın adı ilə kəsdikləri heyvanlardır.Sizin də təamlarınız onlar üçün halaldır.

əl-Ənam-141-144-O, elə bir Allahdır ki,ucaldılmış və ucaldılmamış üzüm bağları, xurma ağacları, müxtəlif olan halda bağlar yaratdı.Onların hər birinin meyvəsi yetişən zaman yeyin, biçin günü zəkat haqqını verin,zay etməklə israf etməyin. Həqiqətən, Allah israf edənləri sevməz. Allahın sizə verdiyi ruzidan yeyin,şeytanın qədəmlərinə,izlərinə tabe olmayın. Səkkiz cift heyvanlardan yeyin! Qoyundan ikisini(erkək-dişi),keçidən ikisini,dəvədən ikisini,qaramaldan ikisini.İnsanları elmsiz və zəlalətə salmaq üçün yalandan Allaha böhtan atan kəsdən daha zalım kimdir?

ən-Nəhl-14-Təzə ət(balıq əti) yeməyiniz,taxdığınız bəzək şeylərinin (inci,sədəf, mərcan) çıxartmağımız üçün dənizi də sizə ram edən Odur. Allahın nemətindən sizin ruzi axtarmağınız üçün sən gəmilərin onu yara-yara üzüb getdiyini görürsən.Bəlkə bundan sonra Allahın nemətlərinə şükür edəsiniz.

HARAM BUYURULAN ƏMƏLLƏR

əl-Bəqərə-219-Səndən şərab və qumar barəsində soruşurlar.De ki,onların hər ikisini əmələ gətirmək insanlar üçün böyük günahdır. Çünki hər ikisi bütün şərlərin açarıdır.Səndən nəyi harada xərclədiyin və nəyə sərf etdiyin haqda soruşarlar.De ki,orta yol ilə rəftar etsinlər nə çox əli bərk,nə çox israfçı olsunlar.Beləcə Allah öz ayələrini sizə bəyan edir ki,bəlkə fikirləşəsiniz.

əl-Bəqərə-222-Səndən qadınların heyz halı haqqında soruşurlar. De ki,-"heyz bir çətinlikdir. Belə ki,bu günlərdə qadınlardan çəkinin və pak oluncaya qədər onlara yaxınlaşmayın".Şübhəsiz Allah tövbə edənləri və pak olanları sevir.

əl-Əraf-33-De ki,"Rəbbin çirkin-həyasızlıqların aşkarını da,gizlisini də günahları və haqsızcasına üsyan etməyi haram etmişdir. Həmçinin, Allah haqqında heç bir dəlil nazil olmadan ona şərik çıxarmağınızda və bilmədiyiniz şeyləri Allah haqqında deməyiniz də haramdır".

Açıqlama:Şəhvət quüvvəsinin rəzalətlərindən biri olan haram, həm bu dünya da, həm də axirət də insan üçün ən təhlükəli işlərdəndir. Haram insanın qəlbini qaraldar, fikrini Allahdan və onun qəzəbindən uzaqlaşdırar.

ALLAHIN BƏYƏNMƏDİYİ ƏMƏLLƏR

əl-İsra-31-38-Öz uşaqlarınızı yoxsulluq qorxusundan öldürməyin, biz həm sizə, həm də onlara ruzi verərik, onları öldürmək böyük səhvdir. Zinaya yaxınlaşmayın, zina pis iş və yalnış yoldur.

Allah öldürməsini haram etdiyi kimsəni öldürməyin, əgər haqq üçün olsa da. Kim zülm nəticəsindən öldürülsə, onun qanını istəyənə haqq vermişik.Ancaq intiqam işində həddinizi aşmayın ki, qələbə onunladır. (yəni həddi aşmamaqladır).

Yetim malına həddi buluğa çatanadək yalnız xeyir iş üçün yanaşın və öz əhdinizə vəfa edin ki, sorğulanacaqsınız.Bir şeyi ölçəndə ölçünü dolu götürün,düzgün tərəzi ilə ölçün ki,bu daha yaxşı və sonu gözəldir.

Bilmədiyiniz şeyin arxasınca getməyin, çünki qulaq, göz və ürək hamısı onun üçün sorğulanacaqlar.

Özünü bəyənə-bəyənə yer üzündə yerimə ki, yeri parçalamayacaqsan və ya dağlar ucalığına çatmayacaqsan.Bu işlər hamısı pisdir və sənin Allahın bunları bəyənmir.

KİM SİZƏ HALAL OLAN ŞEYLƏRİ HARAM ETDİ?

əl-Əraf-31-32-Ey Adəm övladı! Hər səcdə və ibadət vaxtında zinətlənin! Bayram günlərində, cümə günü məscidə və cəmiyyət arasına çıxanda qüsl edin,təzə libaslar geyinin, ətir vurun ki, camaat sizə nifrət etməsin. Halal olan şeyləri yeyin-için. İfrat, ya artıq tələb etməklə,yaxud halaldan harama təcavüz etməklə israf etməyin! Həqiqətən, Allah israf edənləri sevməz.Ya Peyğəmbər!De ki, geyim və sair gözəlliklərdən, Allahın yaratdığı zinətləri kim sizə haram etdi?Elə bir zinət ki,gözəl geyimləri öz bəndələri üçün zahir etmişdir.Eləcə də ruzi cəhətdən pak olan dadlı-məzəli şeyləri kim haram etmişdir? Bu zinətlər dünyada möminlər üçündür. Axirətdə də möminlərə məxsusdur. Dünyada bu zinətlərə kafirlər şərik olsalar da, axirətdə onlara şərik deyillər.Beləcə, biz ayələrimizi Allahın halal və haram əməllərini bilən qövmə təfsir ilə bəyan edərik. Allah verdiyi nemətləri deyil, onların istifadə olunmasında həddi aşmağı haram edir.

əl-Bəqərə-168-Ey insanlar,halal və pak halda olan şeylərdən; meyvələrdən və yeməklərdən yeyin.(Bu ayə yeməyin və geyimin yaxşısını özlərinə haram edən kəslər barəsində nazil olmuşdur.) Sonra buyurur ki, şeytanın izinə, yəni şeytan gedən yollarla, onun vəsvəsəsinə və pis əməllərinə tabe olmayın.Həqiqətən o,sizin üçün böyük düşməndir.

əl-Maidə-88-Allahın sizə verdiyi ruzilərdən halal və təmiz olanını yeyin. İnandığınız Allahdan qorxun!

əl-Maidə -87-"Ey möminlər!Allahın sizə halal etdiyi şeyləri özünüzə haram etməyin.Həddinizi aşmayın.Həqiqətən,Allah həddini aşanları sevməz."

Bu mübarək ayələrdən göründüyü kimi, Allah müsəlmanlara halal olan nemətlərdən istifadə etmələrini,fəqət bu xüsusda ifrat və israfdan çəkinmələrini əmr və tövsiyə etmişdir.Bəzi millətlər kimi yalnız dünyaya uymaq yaxud da,digər bəzi tayfalar kimi dünyadan tamam əlaqəni kəsib, cahilcəsinə bir dairə ətrafında yaşamaq da düzgün deyildir.Hər xüsusda ağılla hərəkət etməliyik.

Hər halda Allah-taala bizlərə bu duyğu üzvlərini boş yerə nəsib etməmişdir. Bu duyğu üzvləri:şəhvət,qəzəb və onlardan doğan rəzalətlər, bizlərin iradəsini sınamaq və bizləri imtahan etmək üçün bir vasitə kimi verilmişdir. Deməli həm geyinimizdə. həm də yeməyimizdə bu həddi gözləməliyik.

Allah-taala buyurur:"Ya Peyğəmbər!De ki:-Ey İslam şərəfinə nail olan qullarım! Allahın yaradıb sizin istifadə etmənizi halal buyurmuş olduğu tələbatı-yəni təmiz, ləziz, faydalı şeylərdən istifadə xüsusunda həddi aşmadan halal olanlara təcavüz etməyin, lazımından artıq israfa yol verməyin,əks təqdirdə ifrata düşmüş, neməti boş yerə sərf etmiş olarsınız.Bu halda da nə dünyada, nə də əbədi dünyada ilahı nemetlərə çatmaq mümkün olmaz. **(Kitabul-Bəyan fi təfsiril-Quran.)**

Açıqlama:Hz.Əlidən Hz.Peyğəmbər haqqında buyurduqları: Hz. Peyğəmbər hər sabah tezdən qalxar,ən gözəl qiyafətini geyər və sabah namazının hazırlığına başlardı. Həzrəti Peyğəmbər təmizliyə çox önəm verərdi. Birinin çirkli və ya səliqəsiz paltar geydiyini görüncə,onlara çox gözəl tərzdə təmizlik haqqında moizə edib,deyərdi:"Madam ki, Allah-taala sənə bu neməti qismət etmişdir, onda ondan gözəl və səliqəli istifadə et." Peyğəmbərimiz gözəl ətirləri çox sevərdi,"Süktə"deyilən gözəl qoxulu bir ətiri var idi.Əshabələri belə deyirdilər ki,Allahın Rəsulu hansı küçədən keçsə,oradan gözəl ətir iyi gələrdi.Onun özünün tərindən qızılgül ətri gələrdi.

Çox ağlamaq aparar gözlərin işığını,
Çox güləndə itirər sevinc yaraşığını.
Hər yaxşını, yamanı, hər köhnəni, tazəni,
Elə qiymətləndir ki, itirmə əndazəni.
Qalx, bu cahan mülkündə qəm də çək, səfa da sür,

Hər ikisi birlikdə-qoşa qanadlı ömür.
Hər sevinən ürəkdə yanğılı bir qəm də var,
Hər gündüzün gövhəri gecə bətnindən doğar.
Hanı elə bir kəs ki, dehr onu aldatmasın,
Dirilik suyu içsin, ölüm meyi dadmasın?!(”Sirlər Xəzinəsi”)

VAY OLSUN ÖLCÜDƏ VƏ ÇƏKİDƏ ALDADANLARA

əl-Mutəffifin-1-6-Vay halına çəki və ölçüdə aldadanların.Aldadanlar o kəslərdir ki,mal alanda özləri xalqın zərərinə ölçər və çəkərlər. Öz mallarını başqasına satanda, bir şey ölçən və çəkən zaman çəkini,ölçünü əskik çəkər.Məgər onlar bilmirlərmi ki,böyük bir gün üçün diriləcəklər. O gün bütün insanlar qəbrlərdən qalxaraq aləmlərin Rəbbi olan Allahın hüzurunda dayanarlar.

əl-Bəqərə-282-Ey imam edənlər, bir-birinizə bəlli bir zaman üçün, çox və ya az miqdarda borc verdiyiniz zaman,onu yazın və yaxud aranızda bir katib vasitəsi ilə borc kağızı imzalayın.Allahdan qorxun, Allah hər şeyi bilir.

Zərgər tərəzisitək dürüst olmaq istəsən,
Gərək hifz eləyəsən ürək düzlüyünü sən.
Sənə halal olmayan hər xırdaca arpadan,
Tərəzinin gözünə əskiklik gələr, inan.
Hər işin birər-birər gələcək öz yerinə, .
Son günündə qəfildən çıxacaq qənşərinə.
Gizli işlərin sənə açıq göstəriləcək,
Az verib, çox almağın ortalığa gələcək.
Bu alverdə özünü günahkar etmə, saqın,
Artıq verib, əskik al, çalış borcun qalmasın.(Sirlər xəzinəsi)

TİCARƏT SİZİ İBADƏTDƏN SAXLAMASIN

ən-Nur-38-Ticarət və alış-veriş insanları namaz qılıb, zəkat verməkdən saxlamaz. Onlar qorxarlar o gündən ki,qəlblər və gözlər bir haldan başqa bir hala dönər.Həm ibadət etmələri həm də qorxmaları ona görədir ki, Allah etdikləri əməldən də,gözəl əcr versin.Allah istədiyi kəsə hesabsız ruzi və əcr verər.

Hədis: Peyğəmbərimiz buyurur:”Haramdan bitən ətdən,od daha yaxsıdır**.”(Zubdətul Əhadis.)**

ƏHKAM-ŞƏRİƏT QANUNLARI HAQQINDA

Açıqlama:-İnsanların həyatda dini vəzifələrini müəyyənləşdirən, İslamın əməli göstərişlərinə"Əhkam"deyilir.

Hər bir işi yerinə yetirmək,yol göstərmək üçün İslamda xüsusi hökmlər vardır.Bu hökmlər beş hissədən ibarətdir:-vacib, müstəhəb, haram, məkruh və mübah əməllər.

1-Vacib-O işlərdir ki, gərək yerinə yetirilə və o əməli tərk etməyin müqabilində insanı əzab gözləyir.Bu vacib əməllər namaz, oruc və bu kimi vacib ibadətlərdir.

2.-Müstəhəbbi-O işlərdir ki,onu yerinə yetirmək yaxşıdır və savabı vardır.Lakin insan o işi tərk etsə, onu əzab gözləmir.

3-Haram-O işlərdir ki, insan gərək onları tərk edə.Əgər o işlərdən əl çəkməsə,onda həmin insanı əzab gözləyir.Bu o işlərdir ki, böhtan atmaq,yalan danışmaq,kimə isə dili və əməli ilə zülm etmək.

4-Məkruh-O işlərdir ki, onu tərk etmək yaxşıdır və o iş görülməsə cavabı vardır. lakin o iş görülsə belə onun əzabı yoxdur, məsələn; həddən çox yemək,çox yatmaq, və sair.

5-Mübah-O işlərdir ki, onu yerinə yetirmək və ya tərk etməyin nə əzabı var, nə də ki savabı vardır. məsələn; yol getmək və ya oturmaq və sair.Burada qısaca olaraq dinimizin mühüm hökmləri haqqında bir az məlumat vermək istərdik.

Vacibi namazlar

1-Gündəlik 5 vaxt namaz.

2-Ayət namazı,təbii hadisələr zamanı.

3-Meyyit namazı.

4-Kəbə evinin təvafı zamanı qılınan namaz.

5-Atanın,rəhmətə getdikdən sonra ,böyük oğlu üzərində ehtiyata əsasən vacib olan qəza namazı.

6-Əhd etmək,and içmək,nəzir demək və icarə üçün vacib olan namazlar və cümə namazı.

Vacibi qüsullar

1-ci Cənabət, 2-ci heyz, 3-cü nifas, 4-cü-istihazə, 5-ci məssi meyyit qüsulu, 6-cı meyyit qüsulu, 7-ci Nəzir,and,ziyarət və sair səbəbdən vacib olan qüsullar.

Nəcasət hökmləri-murdar sayılan şeylər

1-ci-Bövl (sidik),2-ci-Ğait(nəcis) 3-cü-Məni, 4-cü-murdar, 5-ci-Qan, 6-cı-İt,7-ci-Donuz, 8-ci-Kafir, 9-cu-Şərab,10-cu-Nəcis yeyən heyvanın təri.

KİŞİLƏR GÖZLƏRİNİ HARAMDAN QORUSUNLAR

ən-Nur-30-Ya Muhəmməd!Mömin kişilərə de ki, naməhrəmə baxmaqdan gözlərini örtsünlər,fərclərini,övrətlərini zina və ləvatdan qorusunlar,naməhrəm yerlərini gizlətsinlər və düzgün geyinsinlər. Çünki,Allah gördüyünüz işlərdən xəbərdardır.

əl-Mumin-19-Allah, gözlərin xəyanət etdiyini,gizlin naməhrəmə baxdığını və sinələrin gizlin saxladığı sirləri bilir.

əl-Fəcr-14-Həqiqətən sənin Allahın hər zaman görüb-gözləməkdədir.

əl-Muminun-18-Möminlər nicat tapdılar.Namaz qıldılar,zəkat verdilər,ayıb yerlərini zinadan qorudular.Öz halal övrətləri və satın aldıqları kənizlərdən, başqasını istəyənlər isə,hədlərini aşıb,Allaha düşmən çıxanlardır.Möminlər onlara verilən əmanətləri qoruyub saxlayar və verdikləri vədləri yerinə yetirərlər.

Açıqlama:-İstər kişi olsun, istərsə də qadın, gözlərini haramdan qorunması çox önəmlidir.Gözlərini haramdan qorumayan, mənəvi təhlükələrə məruz qalıb,bir çox təhlükələrə addım-addım yaxınlaşar və gözlərini mənən kor edər.Gözləri haramdan qorumaq üçün bizlərə xatırlanması gərəkən ən önəmli həqiqət, gözlərin bizə əmanət verilməsini xatırlamaqdır.

Bu haqda Qurani-Kərimdə belə buyurulur:

Yusif-31-Ya Muhəmməd! De ki, göydən və yerdən sizə kim ruzi verir? Sizə göz, qulaq verməyə kim qadir olar?Dirini ölüdən,ölünü diridən kim xaric edər?Göydə və yerdə olan işlərə kim tədbir tökər? Tezliklə deyərlər ki,bunları əmələ gətirən Allahdır. Onda deyin,Allahdan qorxmazsınızmı?

Hədis:-Malik ibn Ənəs rəvayət etmişdir:"İnsana zinadan nəsibi yazılmışdır. Şübhəsiz ki, insan bununla rastlaşacaqdır.Qulaqların zinası-dinlənməsi haram qadağan olmuş şeyləri dinləməkdir.Dilin zinası-söylənməsi haram olan sözləri söyləməkdir.Gözün də zinası haram şeylərə baxmaqdır**.(Səhihi-Buhari.Muhtasari Təcridi Sarih)**

Hədis:-Əbu Səid əl-Hudri Hz.Peyğəmbərdən rəvayət etmişdir: "Yollarda dayanmaqdan və ya oturmaqdan çəkinin."Yanında olanlar dedilər:"Yol üstündə oturmaq bizim üçün lazımdır, çünki bəzi söhbətləri orada danışırıq." Rəsulu-Əkrəm buyurdu: "Onda gərək yolun haqqını verəsiniz". Əshab soruşdu:

"Yolun haqqı nədir,Ya Rəsulallah?!"Rəsulu-Əkrəm buyurdu:-"Haram olan şeylərə baxmamaq, yoldan keçənləri rahatsız etməmək,

salam almaq, yaxşılıq etmək və pisliklərdən çəkindirmək. **(Səhihi-Buhari.Muhtasari Təcridi Sarih)**

QADINLAR HARAMLARDAN QORUNUB, ÖRPƏKLƏRİNİ ÖRTSÜNLƏR

əl-Mumtəhin-12-Ya Peyğəmbər!Beyət etmək üçün mömin qadınlar Allaha heç bir şərik qərar verməməli, oğurluq və zina etməmək, övladlarını öldürməmək, yalan və böhtan söz gəzdirməmək, yaxşı işlərdə sənə qarşı günah etməmək şərti ilə sənin yanına gəldikdə onlardan beyət al,onlar üçün bağışlama dilə!Həqiqətən, Allah bağışlayan və rəhm edəndir.

ən-Nur-31- Mömin qadınlara da de ki, gözlərini haram buyurulmuş şeylərdən çevirsinlər(naməhrəmə baxmasınlar),ayıb yerlərini (zinadan) qorusunlar(və ya örtülü saxlasınlar),öz-özlüyündə görünən (əl,üz)istisna olmaqla,zinətlərini(zinət yerləri olan boyun, boğaz, qol,ayaq və s.) naməhrəmə göstərməsinlər,baş örtüklərini yaxalarının üstünə çəksinlər (boyunları,sinələri görünməsin). Ey möminlər,hamınız Allahın qarşısında tövbə edin ki, səadətə çatasınız.

əl-Əhzab-59-Ey Peyğəmbər!Öz övrətlərinə və qızlarına və mömin kişilərin qadınlarına de ki, örtüklərinə bürünsünlər.Bu onlar üçün daha münasibdir ki, tanınsınlar və əziyyətə düçar olmasınlar. Yaxşılıq edib,pis işlərdən çəkinməsələr onların duaları qəbul olunmaz.

Açıqlama:-Bildiyimiz kimi İslam dini bütün dünya dinlərindən ən müasiridir. Bu,elm-mədəniyyət,tərbiyə və tərəqqi dinidir.Bu səbəbdən də İslam dinindən olan insanlar həm elmli, həm müasir, həm də İslamın qanunlarına uyğun yaşayıb və geyinməlidirlər.Əgər bütün qadınlarımız bu qanunları öyrənib,qəlbən sevib və dərk etsələr, şübhəsiz ki, bu ayələrdə buyurulan kimi geyinər və yaşayarlar.Bu göstərişlərin bizim üçün nə qədər hikmətli,dəyərli olduğunu bilsək, həm bu dünyada, həm də axirətdə səadətə çatanlardan olarıq.

Hədis:İmam Səfəri Sadiq(ə.s.)Hz.Peyğəmbərdən buyurulur: ”Zina əməli çoxalan zaman qəfil ölümlər artar, tərəzidə düzgün çəkməzlərsə, Allah onları qəhətlik və bahalığa düçar edər.Əgər camaat zəkat verməkdən imtina etsə, yer öz bərəkətini, əkin, meyvə və mədənlərini çəkər.İlahi hökmlərdə ədalətsizlik etsələr, zülmə və düşmənçiliyə kömək etmiş olarlar. Əgər əhd-peymanlarını pozsalar, Allah onlara öz düşmənlərini hakim edər.Qohumluq əlaqələrini kəssələr, mal-dövlətləri şər adamlara qismət olar**.(Zubdətul Əhadis.)**

Dini hekayə:-Bir qadının yeganə bir oğlu var idi.Bir gün bu cavan oğlan bərk xəstələnir.İki gözləri ağlayaraq oğlunun şəfa tapması üçün durmadan Allaha dua edən qadın, əgər oğlu sağalarsa, 7 gün məzarda qalacağına əhd edir.Uzun sürən xəstəlikdən sonra günlərin birində oğlan sağalır. Qadın hüdudsuz sevinclər içində Allaha şükür etsə də,verdiyi sözü yerinə yetirməyə hələ cürət etmir.

Bir gün yuxusunda məchul bir səs sərt və ciddi bir şəkildə"oğlun sağaldı, indi əhdini yerinə yetirmək lazımdır,yoxsa Allahın müsibəti bitməz və başına ağır bir bəla gələr"-deyə səslənir.

Qadın Allaha verdiyi sözdən qaça bilməyəcəyini anlayaraq, oğlunu yanına çağırır və deyir:-"Get indi mənə məzar ölçüsündə bir quyu qaz" və verdiyi vədi haqqında oğluna danışır.

Oğlu məzar ölçüsündəki quyunu hazırlayır və qadın canlı olaraq verdiyi sözü yerinə yetirmək üçün quyuya girir və Allaha belə dua edir:"Ulu Allahım! Bütün gücüm və imanımı yoluna qoyaraq yaşama arzusu ilə Sənə verdiyim sözü yerinə yetirərək, yeddi gün bu quyuda qalacağam.Allahım, məni qaranlıq və dar quyunun bəlasından qoru."

Duası qurtaran kimi Allahın yardımı ilə yandan bir dəlik açılır və oradan qaranlıq məzara işıqlar süzülür.Az sonra dəlik böyüyərək böyük bir pəncərə halını alır. Məzar dəliyindən baxanda rəngli,işıqlı və yaşıllıqlar içində,axar suyu olan bir bağça görünür.İki qadın bağça içərisində irəliləyərək ona tərəf gəlirdilər.Qadınlar ona yaxınlaşdıqdan sonra ona səsləndilər:"Ey dünyalı qadın!Əziz qonağımız! İçinə girdiyin quyudan çıx, yanımıza gəl"

Qadın sevinc içində məzardan çıxaraq gözəl səsli quşların ötüşdüyü bağçaya girir.Üç qadın birlikdə yaşıllıqlar içində bir müddət gəzdilər və bağçanın ortasındakı geniş bir hovuzun yanında oturdular.Dünyalı qadın çox maraqla o biri qadınları süzürdü.Qadınların birinin başına rəngli bir quş qonmuş və onu qanadları ilə yelpikləyirdi.O biri qadının da başına bir quş qonmuş,lakin uzun və dik dimdiyi ilə qadının saç-başını durmadan yolurdu.

Dünyalı qadın əvvəl,quşun qanadları ilə yelpiklənən qadından soruşur ki:"Bu yüksək dərəcəyə hansı əməlinə görə yetişmisən?"

Qadın bu suala belə cavab verir;-dünyada ikən sevgili bir həyat yoldaşım var idi, onun hər sözünə qulas asardım və bir-birimizə hörmət və izzətlə yaxınlaşardıq. Bu səbəbdən də bu dərəcəyə çatmışam.

Dünyalı qadın o biri qadından başında oturan quşun onun saç-başını hey yolmasının səbəbini soruşur.Qadın narahatlıqla belə deyir:"Dünyada əlimdən gəldiyi qədər yaxşılıq edirdim.Hər kəs məndən razı idi.Yal-

nız arada həyat yoldaşımın əmrlərinə qarşı çıxır və sözünə qulaq asmazdım.Bu səbəbdən də başımda oturan quş hey saç-başımı yolur.Nə olar sənə yalvarıram,sən təkrar dünyaya qayıdacaqsan,sənə yoldaşımın qaldığı ünvanı söyləyim.Sən də onunla görüşüb vəziyyətimi ona anlat və ondan xahış et ki, haqqını mənə halal etsin.Mən işgəncələrdən qurtarım.”Dünyalıq qadın yeddi gün onların yanında qaldıqdan sonra, məzara bənzər quyuya geri qayıdır.Elə bu vaxt da onun məzarının üstünü açaraq,onu quyudan çıxarırlar. Evinə dönən qadını ziyarət etmək üçün yaxın-uzaqdan insanlar gəlirlər.O ziyarətçilər arasında baş-saçı yolunan qadının da yoldaşı var idi.Dünyalı qadın, həmin kişiyə o biri dünyada olan yoldaşının sözlərini və xahişini çatdırır və kişi xanımını bağışlayaraq, haqqını ona halal edir.

Dünyalı qadın gecə yuxusunda əzab çəkən qadını,onun artıq əzabdan qurtardığını və ona təşəkkür etdiyini görür.

Allah bütün müsəlman qadınları namus və iffət yolundan ayrılmayaraq, Allahın əmr etdiyi kimi yaşamaqlarını nəsib etsin.Amin!

Hədis:-Malik ibn Ənəs rəvayət edir ki,Rəsulullah buyurdu: ”Cəhənnəm əhlindən iki sinif insan var ki,mən onları dünyada ikən görməmişdim.Bir qövmü inəyin quyruğu kimi qamçılarla zəbanilər döyərlər.İkincisi isə qadınlardır ki, bizdən sonrakı dövrdə açıq-saçıq, yarım çılpaq geyinəcəklər, pozğun şeylərə meyl edəcəklər, başlarını (saçlarını) dəvənin boynundakı hörüklər kimi maili sıxacaqlar.Onlar Cənnətə daxil olmazlar və onun heç qoxusunu da duymazlar.Halbuki Cənnətin qoxusu lap yaxın olan məsafədən hiss edilər.(**Buxari 7/83 “Rikak” 20.)**

Hədis:-Əmirəl-möminin Əli (ə.s.) buyurur:-Bir gün mən Fatimə-Zəhra (s) ilə Allahın Rəsulunun hüzuruna getdik və onu ağlayan gördük.Fatimə(ə) atasının nəyə görə ağladığını soruşdu.Həzrət cavab verdi:“Merac gecəsində Cəhənnəmi seyr edərkən orada olan qadınlara verilən əzablar yadıma düşdü, bu səbəbdən də ağlayıram.”

Xanım Zəhra(ə.)qadınlara verilən əzablar haqqında Rəsulullahdan soruşdu. Rəsullullah buyurdu:“Meracda mənə Cəhənnəmi göstərdikləri zaman oranın əhlinin ən çoxunun qadınlar olduğunu və onların saçlarından, dillərindən, döşlərindən asıldıqlarını gördüm. Bəzilərinin ağızlarına qaynayan irinli su töküldüyünü, bəzilərinin əl-ayağı bağlı və ilanların onlara sarıldığını, bəzilərinin başının ulaq başı,bəzilərinin başının isə donuz başı kimi olduğunu gördüm. Bəzilərinin əl, qol və bədənlərindən üfunətli çirk,irin axdığını,üfunət iyindən insanların onlardan qaçdığını və zəbanilərin onlara necə əziyyət verdiyini gördüm. Hz.Cəbraildan bu-

nun səbəbini soruşduqda buyurdu ki:”Bu qadınların çoxu sizdən neçə əsr sonra dünyaya gəlmiş “müsəlman”adlanan qadınlardır.Və onlar açıq-saçıq gəzdiklərinə və öz əzalarına yiyəlik edə bilmədiklərinə görə onlara belə əziyyət verilir.Onların bu əziyyətləri etdikləri pis əməllərin müddətinə görə davam edəcək.Elələri olacaq ki,bu əzab onlar üçün əbədi olacaq.” **(“Səhihi Buhari” Buharul-Ənvərdən.)**

Açıqlama:-Əsl İslam dinindən olan qadınların necə geyinmələri, özlərini necə aparmaları,dillərini, gözlərini və əzalarını necə naməh rəmdən qorumaları həm bu dünyada, həm də axirətdə bizlər üçün önəmlidir.Bu səbəbdən elə bu gün tövbə edib, o Cəhənnəm əzablarını gözlərimizin önünə gətirərək öz göz və dilimizə, həya və abrımıza, geyinib-keçinməyimizə, bütün hərəkət və əməllərimizə diqqət edək. Əgər həqiqətən İslam dinindəniysə, onun bütün əhkam, qayda və qanunlarına riayət etməyə çalışaq.Bu dünyada az bir müddət yaşayırıq, Cəhənnəm isə əbədidir.Bu səbəbdən də elə bu gün başımızı səcdəyə qoyaraq, hüzn, peşmançılıq,təəssüf hissi ilə Allahdan bağışlanma diləyək. Nə qədər ölüm bizi haqlamayıb,bu gün tövbə edərək islah olaq.

Saçlarımızı, özümüzü bəzəyib naməhrəmlərə göstərməyimiz, dilimizə, gözümüzə yiyəlik edə bilməməyimiz,qol-qıçlarımızın açıq olması və sair bu kimi əməllərimizin üzündən Cəhənnəmdə nələr çəkəcəyik?Bir an bunu düşünək.

Çox arzu edərdik ki,bu müasir elm-texnikanın inkişaf etdiyi bir dövrdə cavan qızlarımız bu haqda daha çox düşünsünlər.Muasir həyatımızın ahəngini tutaraq çox müasir dəbdə islam dininin buyurduğu kimi, həmçinin əsil Azərbaycanlı qadını kimi geyinməyə çalışaq. Elmi, dini biliklərə yiyələnək, kor-koranə deyil,təqva, tərbiyə və imanla İslamın həqiqətlərini dərk edək, əsil İslam hökmlərinə uyğun geyinək və yaşayaq. Öz qızlarımız və gəlinlərimiz də içində olmaqla,bütün Azərbaycanlı qızlarımıza tövsiyə edirik ki, Sovet dövründə yaşamış,indi isə çox-çox peşman olmuş bizlərin etdikləri səhvləri etməsinlər.İndi demokratik bir ölkə olan vətənimizdə hər kəs öz geyim tərzində sərbəstdir və kim necə istəyir,o cür də geyinir.Bu səbəbdən,bizlər də dinimizin buyurduğu kimi geyinib yaşamağa çalışaq. Həqiqətən,əbədi Cəhənnəm çox dəhşətdir. Allah o Cəhənnəm əzabından bizləri qorusun.Bizləri əfv etsin. Amin.

Necə ürək eləyib o ümmana girər can?
Necə, hansı hünərlə su içər o bulaqdan?
Vəsfində dilim dönməz, sıxar məni eyiblər,

“Tanrını dərk eləyən dilsiz qalar” deyiblər.
Çiy sözlərim göstərir sizdən xəcalətimi,
Əfv elə, əsirgəmə məndən mərhəmətini.
Dərgahına gələndə özümüzü itirdik,
Sənin səxavətinə böyük ümid gətirdik.
Ey dərdlilər hamisi, yar ol qəmxar ol bizə,
Çarəsizlər çarəsi, əlac et dərdimizə.
Söylə, kimə sığınaq, ey bənzəri olmayan?
Döyək hansı qapını? Yalnız sənsən əltutan.
Bizim ki qibləmiz yox sənin qapından kənar,
Bizə üz göstərməsən, üzümüzə kim baxar?
Bizdən başqa kim sənə bunca yalvara bilər?
Kim tökər gözlərindən qan-yaş dolu gilələr.
Əfv et günahlarmızı, ulu Tanrı, bağışla,
Sığınmışıq biz sənə ümidlə, yalvarışla.
Nizaminin adına şərəf gətirən Xuda!
Sənin qulun olmağım ağalıqdır dünyada.
Onun dilinə dua, şükür ərməğanı ver,
Səni dərk etsin deyə mərifət nişanı ver.(“Sirlər Xəzinəsi”)

QADINLAR HAQQINDA

Açıqlama:-İnsanlıq mədəniyyətinin təməli qadın və kişinin sosial həyatdakı qarşılıqlı əlaqələrinə dayanır.Bu üzdən tarixin ilk çağlarından dövrümüzə qədər, fəlsəfəçilərin, elm adamlarının zehnini bu sual çox düşündürür.Onlar İslamın həqiqətən də, ali,demokratik,sivil,müasir və haqq-ədalət dini olduğuna,həmçinin bu dinin bitib-tükənməyən elmi-mədəni kəşflərinə heyran qalmışlar.

Bütün dünya da,İslamdan əvvəlki cahiliyyət dövründə kişilərə böyük önəm verilmiş,qadınlara isə alçaq nəzərlərlə baxılaraq heç bir dəyər verilməmişdi.Hətta təzə doğulan qız uşaqlarını diri-diri torpağa basdırmış,qız uşağı doğulduğuna görə utanaraq,xəcalətdən üzə çıxarmamışlar.

İslam dininin bir günəş kimi doğuşundan sonra, Ərəbistanda və İslam dövlətlərində bu qanuna qadağa qoyularaq,ləğv edilmişdir.O vaxta qədər isə, hürriyət və və mülkiyyət haqqından məhrum olan qadın,xidmətçi səviyyəsində olan bəsit bir əşya kimi alınıb-satılan, ya da günah və pisliklər qaynağı olaraq görülürdü.Varlığına önəm verilməyən bir vəziyyətdə ikən, İslam dininin gəlişi ilə qadınlar haqqı olan, üstün

dəyərini tapmış, sosial həyatda yerini almışdır.

Çünki İslam,toplumun fərdləri kişi,qadın,uşaq,qoca-cavan,hamısı üçün ədalətli qanunlar verən bir nizamdır.İslam,verdiyi tərbiyə ilə insanları cəhalətdən doğan avamlıqdan və dolayısı ilə iztirab, rahatsızlıq və çətinliklərdən qurtarır.İslam,hər şeydən əvvəl kişi ilə qadın arasında adil davranma qanunu çıxarıb.Bu qanunlar da kişi və qadının fitri istedadları öncədən göz önünə alınmışdır.

Uca Allah kainatda hər şeyi,insan və digər canlıları,biri digərinin ehtiyaclarını təmin etmələri və həyatın davam etməsi məqsədilə cüt yaratmışdır.

Bu haqda Qurani-Kərimdə belə buyurulur:

əz-Zariyat-49-Hər şeydən cüt yaratdıq ki,bəlkə nəsihət qəbul edəsiniz və onlara baxıb Allahın qüdrətinə inanasınız.Gecə-gündüz, günəş-ay, kişi-qadın, işıq-zülmət.

ən-Nisa-19-Onlarla, qadınlarla gözəl davranın.O hər şeyi cüt yaradaraq, ancaq özünün tək olduğunu hərəkəti ilə isbat etmişdir. Tək başına yaşamaq insan fitrətinə uyğun deyildir.Qadınlar kişilər üçün, kişilər də qadınlar üçün,tamam bir parça kimidirlər və hər biri digərinə möhtacdır. Bir-birlərinin qüsurlarını örtərlər, ehtiyaclarını və yalnızlıqlarını təmin edərlər.Sonu əbədiyyətə gedən bu yolda bir-birlərinə dəstək olarlar.

əz-Zumər-6-7-Allah sizi bir nəfsdən,tək canlıdan yaratdı ki, o bütün insanların maddəsidir.Sonra onun cinsindən zövcəsini, Həvvanı yaratdı.Dördayaqlılardan sizə səkkizini nazil etdi;öküz, dəvə, keçi, qoyun hər birindən cüt, iki ədəd nəzərdə tutulur.Sizi analarınızın bətnində bir növ (nütfə, ələq, müzğə) yaratdıqdan sonra, başqa bir cür(kamil insan) yaratdı.

Yasin-36-Yerin yetişdirdiklərindən,insanların özlərindən və bilmədiklərindən,erkək və dişi olmaqla,cütlər yaradan Allah pak və müqəddəsdir!Eybsiz və nöqsansızdır!

Açıqlama:-Qadın bir bəzənmək, əyləncə və zövq almaq üçün yaradılmamışdır. Onu evin xidmətçisi kimi görmək və əsarətdə saxlamaq da düzgün deyildir.

Əvvələn, qadın ilahi göstərişlərdən sorumlu bir varlıqdır.Yəni o bir insan olaraq Allahın əmrlərinə tabe olub, ona ibadət və itaət etməli və öz axirət aləmini düşünməlidir.

Qadının ikinci vəzifəsi bünövrə salmaq,yuva qurmaq,övlad dünyaya gətirib, nəsil artırmaqdır.Üçüncü vəzifəsi kişinin yalnızlıqdan qurtarmaq, gücü yetən qədər onu dəstəkləmək və qəlb rahatlığını təmin etmək.Qadın kişinin dinini və dünyasını bütöv etmək, onu tamamla-

maq üçün yaradılmışdır.Qadın başa bəla deyil, könülə səfa olsun deyə, kişiyə əmanət edilib, yardımçı yaradılmışdır.

Qadın və kişi öz fitrətlərini bilsələr,Allahın hökmlərinə təslim olub və bir-birlərinin haqlarını gözəl qorusalar, o yuva Cənnət kimi olar.Çünki ilahi eşq və ədəb harada olarsa,ora Cənnət kimi əminamanlıq olar. Bu rahatlıq gözəl əxlaqlı möminlərə Allahın bir Cənnət hədiyyəsidir, Cənnətdən gəlmişdir, Cənnətə də götürər.

Dinimizdə qadın və kişi cismlərinə və vəzifələrinə görə bir-birlərindən fərqlənirlər. Ruhaniliklərinə görə isə Allahin nəzərin də bütün bəndələr eyni cür haqq-hesab ediləcəklər.Kişilər həm fiziki, həm də iqtisadi cəhətdən qadınlardan üstündürlər və buna görə də"ən-Nisa" surəsində buyurulduğu kimi:-"Kişilər qadınlar üzərində ixtiyar sahiblərididirlər". Yəni, qadınlara rəhbərlik kişilərin öhdəsindədir. Qadınlar isə bədəncə zərif, ruhiyyəcə lətif, hissiyyatlı, məhəbbətli məxluqlardırlar və onlar həmişə kişilərin diqqətinə, hörmətinə, nəvazişinə, məhəbbətinə və köməyinə möhtacdırlar.

Əlavə olaraq qeyd edək ki, qadınlar altı il kişilərdən qabaq dini vəzifələrə məsul olurlar.Kişilər şəri vəzifələr yaşına çatanadək, qadın artıq təkamül yolunun xeyli hissəsini keçir.Buna görə də ilahi yol, nəticədə hər iki cins üçün eyni olur və təbii olaraq namaz qılmaları məkruh olan günlərin əvəzi ödənmiş olur.

"əl-Əraf-189-Onunla rahatlıq tapsın deyə Adəm üçün,zövcəsi Həvvanı yaradan odur"-bu ayət qadınların yaranış hikmətini açıqlayır."

"ər-Rum-31-Onun qüdrət əlamətlərindən biri də budur:-sizin üçün cinsinizdən qadınlar yaratdı ki,onlarla ünsiyyət edəsiniz. Şübhəsiz ki,bunda fikrləşən insanlar üçün hikmətlər vardır."

Sevgi insanın xəmirinə qatılmış bir cövhərdir.Bu sevgi ən gözəl şəkildə,ailə yuvasında,baba ocağında və ana qucağında yaşanır və tapılır.Bu dünyada yaradılan hər bir varlıq boş-boşuna yaradılmamışdır. Hər kəs müəyyən bir vəzifə üçün,varlıq səhnəsinə çıxarılmışdır.Yəni bu dünyaya hər kəs müəyyən bir məqsəd üçün göndərilmişdir.

Hər bir insan istər kişi olsun,istərsə də qadın Allah tərəfindən şərəfli bir varlıq sifəti ilə yaradılmışdır.Quran İsra-70 ayədə belə buyurulur: "Şübhəsiz biz insan oğlunu şərəfli bir sifətdə yaratdıq."

Ancaq bu şərəfi iman və itaət ilə qorumayanlar,varlıqların ən alt dərəcəsinə düşməkdədirlər.Bu haqda Quranda Tin-5 ayədə belə buyurulur:

"Sonra biz qaytararıq onları aşağıların ən aşağısına.!Dünyada elm və mərifət almaq əvəzinə cəhalət və günaha batdıqları üçün Cəhənnəmin

ən aşağı dərəcəsinə yetişərlər.”

Kişi-qadın,hər bir insan yaşama və toxunmazlıq haqqına sahibdir. Kimsənin həyatı digərindən daha dəyərlı və ya dəyərsiz deyildir.Heç kəs də anadan doğularkən günahkar doğulmamışdır.Bir günah işləmiş insanın günahı sübut olunmayana qədər o günahsızdır. Bu barədə Quranda də belə buyurulur:

“əl-Maidə-32-Kimsə bir kimsəni öldürə bilməz,dinimizə görə haqsız bir insanı öldürmək,bütün insanlığı öldürmək kimi zülm və bəladır.”

Uca Allah əlbəttə istər kişi, istərsə də qadın,bütün insanları eşidir. Onun sevə-sevə yaratdığı bütün insanlar,onun nəzəri və qoruması altındadırlar və hamı ona qulluq üçün yaradılmışdır.Necə ki, bu ayədə əz-b Annemarie Schımmel’in (1922 - 2003 Alman İranolojist və İslam və Təsavvuf araşdırmacısı) bildirdiyinə görə əbcəd hərflərinin mahiyyətini bildirən rəqəmlər toplumu səmavi bilgilərdən qaynaqlanmışdır.Hətta sirli əbcəd hərflərindən doqquzunun Hz.Adəmə (ə.s.) ilk dəfə vəhy olaraq gəldiyi də qaynaqlara istinadən bildirilir.Əbcəd hərflərini yadda saxlamaq üçün 8-kəlmədən istifadə olunur:1)Əbcəd-başladı, (əlif, bə, cim, dəl 2)Həvvəz-Birləşdirdi (hə, vav, zə) 3)Hütti-Xəbərdar oldu, (hə, ta ,yə) 4)Kələmən-Sözə gəldi (danışdı) (kəf, lm, mim, nun)5) Səfəs-Tez öyrəndi, (sə, hə, zəl); 6)Qərəşət-Səliqəyə saldı, (gaf, ra, şın, tə); 7)Səxiz-Baxdı, 8)Zəziq-Tanış etdi (başa çatdırdı) (qaf, ra, şın, tə). Əbcəd hərflərinin hər birinin öz rəqəmi,öz rəmzi işarəsi vardır və bu rəflərin hər biri Allahın ismi şəriflərini bildirir.Bu hərflərin möcüzəvi sirləri İmam Qəzzali də əsərlərində“müsəlləsül-Qazalî” adı altında bu rəqəblərin hökmləri haqqında sirləri açıqlamağa çalışmışdır. Əslində isə bu rəqəmlərin sirr və hikmətləri yalnız Hz. Əli və onun övladlarına məlumdur.

Dünyanın hərflərlə yaradıldığı yazılmışdır. Hərflərin əlaqəsi biz zəncir formasında insanı duyğudan duyğuya götürür.Bir cümləni oxuyaraq, onun bir parçası oluruq, sanki bir işığın içinə axdığımız kimi. Bu axma hissi bizi bir məqsədə gətirir.

“40 sual” kitabında bildirildiyi kimi Allah-taala dörd ünsürü biri digərinin içinə girə bilən şəkildə var etdi: su, od, hava və torpaq. Məsələn:atəş havaya çevrilə bilər; hava da atəşə çevrilə bilər. Hərflərdə də Tə hərfi Ta hərfinə; Sin hərfi Sad hərfinə çevrilməsi kimi. Həqiqətən ünsürlərdən bu hərflər meydana gəlmişdir.

- Torpaq ünsüründən: pəltək Sə, Ta, Cim , Ləm, Hə, Nun və Mim hərfləri meydana gətirilmişdir.

-Su ünsüründən: Sin, Ğayn, Tə, Hə, Dad ,Fə ,Kəf meydana

gətirilmişdir.

-Hava ünsüründən: Zəl, Əiyn, Za, Sad və Vav hərfləri meydana gətirilmişdir.

Atəş ünsüründən : Həmzə, Qaf, Bə, Sin, Ra, Cim ,Ləm hərfləri meydana gətirilmişdir.

Bütün bu hərflər Əlifin həqiqətindən zühür etmişlər. Əlif, ruh və hiss olaraq onların,yəni bütün fələklərin fələyidir.Söylənilir ki, hərflər də ümmətlərdən bir ümmətdir. Onlar da Allahın əmrlərinə tabedirlər,onların öz adları, öz şəriətləri, öz peyğəmbərləri vardır və onlarda Allaha ibadət edirlər.

- "Əlif, Lam, Mim" dəki Əlif tövhidə işarədir; Mim, həlak edilə bilməz bir mülkə işarədir; bu iki hərf arasındakı Ləm isə, ikisi arasında rabitə üçün bir vasitədir. Ləm'ın xəttinin düşdüyü sətirə baxsan, Əlifin gövdəsinin orada onun ucuna çatdığını görərsən, Mim isə ondan aşağıya doğru enməyə başlayır. Sonra, orada "ən gözəl formadan" –xətdən "aşağıların aşağısı" na qədər enər ki, bura mim'in kökünün bitmə nöqtəsidir. Necə ki, Allah-təala belə buyurur: "... Biz insanı ən gözəl biçimdə yaratdıq! Sonra onu aşağıların aşağısına göndərdik. "

Əlif -Ləm-Mim hərflərində Ləm bir sifətdir. Mim isə onun əsəri və onun hərəkətidir.

Əlif, sözün başında olanda hərflərdən heç biri ilə birləşməz.Çünki o vəziyyətdə Əlif "Doğru Yol" dir (Sıratul-müstəqim), yəni ruhun "Bizə doğru yolu göstər! "deyərək istədiyi yoldur. (Fatihə Surəsi 1/6); bu yol Tövhid yoludur.

Əlif Ləm Mim hərfləri hərf olaraq üç dənədir və üç aləmi Bərzax və iki aləmi; bu dünya və əbədi dünya aləmi ilə əlaqənin həqiqəti bir araya toplamışdır.

- Əlif bir hərf kimi yalnız müqəttəə hərflərinin tələffüzü zamanı Əlif deyə oxunur.Əlifin məqamı "cəm" məqamıdır. Əlifin adları vardır. Onun adı Allahdır. Əlifin sifətləri vardır; onun sifəti, "Qayyumiyyət" dir.

- Həmzə; bu hərf həm şəhadət aləmindən həm də mələkut aləmindən olan bir hərfdir. Hərflərin sayında onunla əlaqədar bir mərtəbə yoxdur.

- Ləm və Əlif birlikdə yan-yana dayandıqları zaman, dost olurlar və hər biri digərinə bir meyl duyar. Bu meyl həm bir ehtirasdır (həva) həm də bir maraqdır. Deməli, meyl ancaq bir eşdən doğulur ...

Ləm bu babda Əlifdən daha güclüdür, çünki o Əlifdən daha çox aşiqdir: onun himməti daha mükəmməl bir yaranmaya, daha tam bir hərəkətə malikdir.

Ləm və Əlifin bağlanıb düyümlənməsində bir sirr vardır: Əlif Haqq-taalanın payı və Ləm isə insanın payı olduğundan, Əlif və Ləmi zikr

etdiyimiz zaman, bütün kainatı və onu Varadanını zikr etmiş oluruq.

Dairənin diametrini ortaya qoyan Əlif isə, əmr üçündür; o əmr də "Kun!" yəni "Ol" əmridir. Demək ki Əlif və Ləm həqiqət olaraq hər surəti qəbul edərlər, çünki bu ikisi digər bütün həqiqətləri toplayan iki mövcuddur. Bu hərflərin də bir aləmi vardır və insani aləmlə hərflərin bir ortaqlığı vardır. Bizdən bir qütb olduğu kimi, hərflərin də bir qütb var: hərflərin qütbü Əlifdir.

Hərflər içində iki imam vardır: bunlar Vav və Yə hərfləridir.

Hərflər aləmində sütunlar- dörd böyük vəli vardır ki, bunlar Əlif, Vav, Yə və Nun'dur. Bu hərflər eyni zamanda irab əlamətləridir. Əlif "Raculən" ın Əlif'idir. Vav "əl-əmrunə" nin Vav'ıdır. Yə "ələmrinə" nin Yə'sidir. Nun da "Yəf'əlunə" nin Nun'udur.

Məlumdur ki,aləm iki qisim üzrədir.

Birincisi "Qeyb aləmi" deyə adlandırılan aləmdir ki, bu, hisdən, duyğudan kənarda olan və- Ədədlərin sirləri, ruhları və mənzilləri, sayı Allahın yaranma içindəki, yəni kainatdakı sirlərindən bir sirrdir.

Havas hərflərinin beşinci Bə hərfidir. Bu hərf əvvəl gəlmişdir. Çünki hər surənin başında olan Bəsmələnin ilk hərfi Bə'dır. Başında Bismillah olmayan Tövbə-Bəraət surəsi də, yenə Bə hərfilə başlayır.

- Bəzi hərflər özü başqa hərflərlə bitişsə də,özündən sonra hərflərlə birləşməzlər.Bunla iki şəkildə yazılan:Əlif, Vav, Dəl, Zəl, Ra, Za hərfləridir.

Bütün hərflərin öz sirləri vardır.Bunlardan S-hərfi haqqında: Hansı sözün içərisində sin hərfi olsa, deməli o sözün mənasında bir sirr vardır. İnSan öz sirrlərini gizlətmək istər, eyni ilə torpağın pisliklərin üstünü örtüb,cila çəkdiyi kimi.Sirr aşkara çıxarılması istənilər və bunun üçün səbrlə gözlənilən bir şeydir. Açıqdadır,lakın hər kəs görə bilmədiyi üçün sirdir.

Ş-hərfi haqqında: Şin üstünlük rəmzidir. İçində yer aldığı kəlmə istər ülvü olsun, istərsə də adi içində Ş hərfi olan sözlər göz qamaşdırıcıdır.Bütün baxışları özünə cəlb edir. İçində Ş hərfi olan bir bir dənə olsa iddiasız kəlmə tapmaq mümkün deyildir. GünəŞ, atəŞ, eŞq, Şəhvət, Şövq, naxıŞ, Şhov, Şəhid. Bu kəlmələrə bənzər digər yaxın hərflərə də baxdıqda daha sadə, daha sakit bir hal görürük.

Ş hərfli kəlmələr ilə S hərfli kəlmələrin oxşarlığına baxaq və müqaisə edək:

AtəŞ dən yüksələn iSti, eŞq ilə alışan Sevgi, Şövq ilə yola düşən iStək, içində Ş hərfi olan kəlmələr şah kəlmələrdir.Şin hərfi olmaca Şah olmaz heç bir kəlimə.

Şin insanı tanıdıqda ,insanı Şəxsiyyət ,Şah ,Şeyx Şakir, Şaqird ,Şah-

suvar edər. Şərəfli edər,lakin Şeytanla işbirliyinə girdikdə isə şərəfsiz edər. Yandırıcı Günəş atəş, Şəms Şin ilə işıldar.

Sırrləri bildirən Sin hərfi Şinin yanında sönük qalsada ,Şin ilə qardaşdır. Aşiq olmaq yerinə sevməyi, şübhə etmək yerinə soruşub,öyrənməyə üstünlük verər.

Bir çox hərf üçün də bu müqayisə edilə bilər. Vav hərfindən bir çox idarəçi söz lər yaranar: Vasi, Vəzir ,Vali,Vəkil və sair bu kimi sözlər.

buyurulur:"Mən cinnləri və insanları mənə qulluq etsinlər deyə yaratdım"-bu həqiqəti ifadə etməkdədir.

Dinimizdə insanları qadın-kişi,bir-birindən ayırmaq yoxdur.Din günəş kimidir, bütün insanlara rəhmət və işıq saçar.Allaha və haqq dinə inanan,saleh əməl işlədən və haramdan çəkinən hər kəsə,öz rəhmətini bəxş edər.Bu haqda Quranda **Ali-İmran-95** ayədə belə buyurulur :

"Rəbbləri,onların dualarını qəbul etdi və bu hökmü bildirdi:-Sizdən kişi olsun və ya qadın olsun,saleh əməl edən kimsənin əməlini zay etmərəm və bu məsələdə siz mənim üçün eynisiniz."

Günah və savab da, inkar və üsyan da,bunları edən hər kəs eyni dərəcədə sorğulanacaqlar.Hesab anında və ədalət önündə hər kəs eynidir. Cənnət nemətləri kişi-qadına görə yox, edilən saleh əməllərə görə lütf edilir.

Bununla belə bəzi,dünyəvi məsələlərdə qadın,kişi kimi deyildir.

əl-Bəqərə-228-ayədə buyurulur ki,"kişilərin qadınlara görə bir dərəcə üstünlükləri vardır"

Bu ayədə Allah-taala kişilərin fiziki üstünlüyündən və onun hər şeyə görə daha çox cavabdeh olduğundan bəhs edir. Həmçinin, qadın-kişi arasındakı fərqi müəyyən vəzifələrə görədir:

-ən-Nisa-34-"Kişilər qadınların üstündə ixtiyar sahibi və qəyyumdur."

Bəzi səbəblərə görə ki,Allah birini digərindən üstün etmişdir. Kişilər kamil ağıl, gözəl tədbir,qüdrət cəhətdən, eləcə də ticarət, ibadət və cuhadi qüvvələri çox olduğundan, qadınlardan üstündürlər. Ona görə ki,öz mallarından qadınların geyimi və istəkləri üçün sərf edirlər.Saleh qadınlar isə itaətkar və öz ərlərinin mənafeyini qoruyarlar.Bu səbəbdəndir ki,Allah da onları qoruyar.

-əl-Hucurət -13-Ey İnsanlar! Şübhəsiz biz sizi bir kişi və qadından yaratdıq.Bir-birinizi tanımanız üçün qövmlərə,qəbilələrə ayırdıq. Mütləq ki,Allah yanında ən dəyərli olanınız, ondan ən çox qorxanınızdır. Şübhəsiz Allah hər şeyi yaxşı bilən və hər şeydən xəbərdardır."

İstər qadın, istərsə də kişi ədəbə deyil,nəfsinə uyduğu zaman-Allah

qorusun, Şeytanın əlində oyuncaq olar və bunun ən böyük zərəri ancaq onun özünə dəyər.İnsan üçün ən təhlükəli şey,nəfsinin hər arzusuna razı olmaq və Şeytani hisslərə uymaqdır.Öz hisslərini dinin ədəbi ilə idarə etməyən kimsə böyük zərərə düşmüş olar,buna da fitnə deyilir.Biz insanlar istər kişilərin,istərsə də qadınların fitnələrindən Uca Allaha sığınırıq və Uca Allah bir an,bir göz qırpımı qədər belə bizi öz nəfsimizlə özbaşına buraxmasın. Həqiqətən, Allah göylərin və yerin gizli işlərini bilir.O,sizin etdiyiniz əməlləri görəndir:

-"ən-Nəhl-97-Həqiqətən biz mömin olan, yaxşı əməl edən kişi və qadınları,pak surətdə dirildərik.Şübhəsiz,biz onların etdiyi əməllərin ən gözəlini onlara əcr verərik."

Alim Allah Quranda bizim üçün yaxşı və pis qadınlar haqqında belə misal çəkir:

-"ət-Təhrim -10-Allah kafir olanlara Nuh və Lut Peyğəmbərin zövcələrini məsəl çəkdi ki,bizim bəndələrimizdən olan, iki nəfər saleh insanın zövcələrindən idilər.Lakin hər ikisinə xəyanət etdilər, iman gətirmədilər. Nuhun zövcəsi deyərdi: "Nuh dəlidir!",Lutun zövcəsi isə qonaq gələndə, tez damda od yandırardı ki,camaatı xəbərdar etsin,onlar da gəlib qonaqlarla rüsvayçı hərəkətlər(ləvad) etsinlər.

Bu iki Peyğəmbər öz zövcələrindən Allahdan gələn bəlanı dəf edə bilmədilər.

O zövcələrə deyildi ki:"Cəhənnəmin oduna daxil olanlar ilə daxil olun."

Yaxşı qadınlar üçün isə Fironun zövcəsini və Məryəm ananı misal çəkir:

-"ət-Təhrim -11-12-Allah iman gətirənlər üçün Fironun zövcəsini misal çəkdi. O dedi:"Pərvərdigara, mənim üçün bir ev bina et və bu əzabdan məni xilas et! Firondan və onun dinindən mənə nicat ver."

İmranın qızı Məryəm öz fərcini haramdan qorudu.Biz ona öz ruhumuzdan üfürdük.O,Allahın sözlərinə və kitablarına inandı və Allahın fərmanına əməl edənlərdən oldu."

Açıqlama:-İslamdan əvvəl isə qadına bu qədər dəyər verilməzdi və onu qul kimi alıb satardılar.Bir zamanlar kiçicik,məsum,qızını diri-diri torpağa basdıran qədər vəhşiləşən insanlar,Hz.Muhəmməddən ilahi tərbiyə alınca,bilərəkdən bir qarışqanı belə incitməz hala gəldilər.Çünki nurla gerçəyi gördülər,ədəblə tərbiyə aldılar,haqqı tanıdılar,haqları qorudular.

Uca Allah,müqə ddəs kitabında qadınların haqlarını bəyan edən bir çox ayələr nazil etmişdir.İslam dinin də qadın,ana sifəti ilə "Cənnət,ayaqları altında olacağı"bir ucalığa qədər yüksəldilmişdir.

Bununla da,Uca Allah öz bəndələri arasından bizləri sevib-seçib və iki dünyada da məqamımızı uca etmək üçün İslam dinini bizlərə də bəxş etmişdir.Dinimiz humanist şəriət qanunları ilə bərabər, İslam tarixində adları qızıl hərflərlə yazılmış,Cənnət qadınlarının, Peyğəmbərimizin xanımı Xədicəi-Kubranın, qızı xanım Fatiməi-Zəhranın,nəvəsi xanım Zeynəbin həyatlarını bizlərə nümunə göstərərək düzgün yaşamaq tərzini də öyrətmişdir.

Özümüzün milli xüsusiyyət və dəyərlərinə gəldikdə isə, dahi şair Nizami Gəncəvi"Xosrov və Şirin" poemasında Şirin obrazının simasında qadınlığın ən gözəl sifətlərini toplayaraq,Yaxın Şərq ədəbiyyatında ilk dəfə olaraq hərtərəfli işlənmiş müsbət qadın obrazı yaratmışdır.Əsərin əvvəlində Şapurun dili ilə təqdim edilən Şirin öz yüksək mənəviyyatı, sədaqəti, qoçaqlığı ilə elə ilk görüşdən oxucuların rəğbətini qazanır. Şirin poemanın əsas qəhrəmanıdır. Həyati gözəllikləri sevən,bu Azərbaycan gözəlini şair həm də elmə,biliyə rəğbət bəsləyən,ilk məhəbbətinə son nəfəsinə qədər sadiq olan, fədakar bir sevgili kimi təsvir edir. Biz,elm və dünya görüşü olan,at sürən,qılınc vuran,ox atan,şən və qəhrəman bir qızın,qiyabi bir məhəbbətin ardınca getdiyini görürük.

Yaratdığı bu ideal qadın obrazı ilə çox tez itirdiyi sevimli qadını Afaqa əbədi abidə ucaltdığını qeyd edən şair,onu vətən qızlarına xas cəsarət, qürur, ismət, mənəvi yüksəklik,mərdlik kimi gözəl sifətlərlə səciyyələndirmiş, öz qəhrəmanını hər cür yaramaz, alçaq hərəkətlərdən uzaq,zəhmət və hünəri qiymətləndirməyi bacaran həssas bir adam,yaxşı dost,vəfalı ömür yoldaşı kimi əbədiləşdirmişdir.

Qadını həmişə cəmiyyətin tam ləyaqətli bir üzvü kimi görməyi arzulayan böyük şair tarixdən aldığı bu obrazı öz humanist ideyaları baxımından işləyib,qadınlıq haqqında yüksək fikirlərini onun vasitəsilə ifadə etmişdir.

Şair,tükənməz bir məhəbbətlə sevən Şirini saf mənəviyyata malik, ismətli qadınlıq qürurunu yüksək tutan bir adam kimi oxucularına sevdirir.Şirin nəhayətsiz dərəcədə sevdiyi Xosrovla kəbinsiz evlənmir. Ona Xosrovun gizlicə saraya gəlmək təklifini yetirən Şapura acıqlanaraq:

Mən gövhərəm, neçin gərək əksiləm,
Çağrılmamış gedəm, məgər mən yeləm?

Bu sözləri deyərək öz şərəfini alçaltmayacağını qəti bildirir.Şair xarici görkəmcə çox gözəl təsvir etdiyi sevimli qəhrəmanının daxili aləmini də olduqca zəngin,onun gözəl hüsnü ilə səsləşəcək səviyyədə göstərir. Onu dəlicəsinə sevən Fərhadla belə evlənməyi qəbul edə bilməyən Şirin,Xosrovun çılğın hərəkətlərinə baxmayaraq,onu gözləyir.

Nəhayət, kəbin kəsildikdən sonra evlənir və sevgilisindən əli üzüldüyü zaman,yəni Xosrovun ölümündən sonra isə Şirin də öz həyatına son qoyur.Şair onun bu fədakarlığını alqışlamaqla bərabər, qadınlıq haqqında danışmış, qadını ülvi bir varlıq kimi tərifləmişdir.

Alqış bu ölümə, əhsən Şirinə,
Öldürən Şirinə, ölən Şirinə.
Məhəbbət yolunda ölüm budur, bax,
Canana belədir canı tapşırmaq...
Çox gözəl arvad var mərdlikdə bir şir,
Çox ipək içində şirlər gizlənir.

Şirin dahi Nizami tərəfindən son dərəcə məharətlə, hərtərəfli işlənmiş, dünya ədəbiyyatı tarixində xüsusi yeri olan bir obrazdır. Belə yüksək, ağıllı və hərtərəfli müsbət təsvir edilən qadın obrazlarına Qərbi Avropada sonrakı əsrlərdə Şekspirin əsərlərin də təsadüf edirik. Dantenin Beatriçesi də,bir çox xüsusiyyətlərinə görə, Şirin obrazı ilə müqayisə edilə bilər.

Bəli, sənin işini səndən öncə gördülər,
Tanrının lütfüylə sən yüksəldin, ey bixəbər.
Dön bahar rüzgarına, çiçək gəmisi ol ki,
Bostandan qovmasınlar səni tikanlar təki.
Sakit axan su kimi yaşamağı seç peşə,
Yüngül suyun qiyməti ağır olur həmişə.
Yungül əsən rüzgarlar dolaşır hər iqlimi,
Ağırlar öz yerində qalır Qaf dağı kimi.
Tikan olma, aldanma qızılgülün hüsnünə,
Önə bax, bənövşə tək baş əymə öz köksünə.
Tanrı gözəlliyini görüb, çirkinliyi at,
Uzaqlaşıb özündən, Tanrı məqamına çat.
Üzr istəsən, suçundan birdəfəlik əl çəksən,
Dada yetən Tanrıdan lütflər görəcəksən.("Sirlər xəzinəsi")

EVLİLİK VƏ BOŞANMA HAQQINDA

Hədis: Peyğəmbə(s.ə.s.)buyurmuşdur:"Qadınlarınızla yaxşı davranın, onlara gözəl münasibət bəsləyin.Şübhəsiz onlar,əsil etibarı ilə qabırğa sümüyündən yaradılmışdır.Qabırğa sümüyünün ən əyri hissəsi,ən

üst qismidir.Onu öz halına buraxsan, getdikcə əyilib pozular,tam düzəltmək istəsən isə qırılar.Belə isə mövcud halları ilə,qadınlarınızla gözəl davranın və onlar haqqında gözəl danışın.”

Başqa bir hədisdə qadının qırılmasının boşanmaq olduğu göstərilmişdir:

“Qadının fitrətini yaxşı tanıyın və ona görə davranın.Onları qırıb incitməyin. Yumşaq təbiətliyi sevin,sevindirin və şükür edin. Dalaşdığınız zaman səbirli olun və həmən boşanmaq haqqında qərar verməyin. Qadını erkək kimi görməyin,onu olduğu kimi qəbul edin. İncə və zərif olan qadını, maddi və məişət çətinlikləri ilə yükləyib, onları erkəkləşdirməyin,onlara zülm etməyin.

Öz hərəkətləri,davranışı,danışığı,oturub-duruşu və hissləri ilə özünü kişilərə oxşatmaq istəyən qadınlara isə Allah lənət edir.Çünki Uca Allahın verdiyi fitrəti pozmaq,onu bəyənməyib dəyişdirməyə çalışmaq, əvvəlcə Allaha, sonra isə insanlıq həyatına qarşı bir cinayətdir. **(Buharinin,Nigah-79 və Müslım Raba-69.)**

ər-Rum-21-Sizin uçün onlarla ünsiyyət edəsiz deyə,oz cinsinizdən zövcələr xəlq etməsi,aranızda dostluq,sevgi mərhəmət yaratması da,onun qüdrət əlamətlərindəndir.Həqiqətən bu yaranışda düşünən bir qövm üçün ibrətlər vardır.

Açıqlama:-Bu ayədən də məlum olur ki,qadın kişidən incə və möhtərəmdir və qadın kişi kimi deyildir.Allah-taala bununla bizlərə bir daha anladır ki,qadın zərif, incə,həssas və hörmətə layiqli bir məxluqdur.

Qadının yaranış səbəbini anlamaq üçün, evliliyin həqiqətini dərk etmək, yəni qadınların bir zövcə,cütlük və həyat yoldaşı olmaq üçün yaradılışını bilməkdir. Evlilik həqiqətini incələdikdə ilk görünən mənzərə,onun kainatda təməl və önəmli qanun olmasıdır. Bu qanun atomlarda müsbət-mənfi,canlılarda erkək-dişi, insanlarda kişi-qadın,dünyada gecə-gündüz şəklində əks etdirilir.Evlilik qanunu rahat,birlik, hörmət və şərəfi saxlamaqla, Allahın ədalətinə, rəhmət və kərəminə bir ayna olur.Evlilik kainatda rəhmətin bir cilvəsi olduğu kimi,insanın da iradə və mənəviyyatını göstərir.

əl-Bəqərə-223-“Qadınlarınız sizin tarlanızdır.Əkininizə hansı yerdə,ya hansı zamanda istəyirsinizsə gəlin və xeyir bir iş özünüz üçün göndərin.Allahdan qorxun və bilin ki,Allahla görüşəcəksiniz.”

Ər-arvadın bir-birini tamamlaması,bir-birinə öyrəşməsi, yəqin ki,bir anda olacaq şey deyildir.Bunun üçün səbir gərəkdir.Tanrı da dünyanı bir günə yarada biləcəyi halda onu altı günə yaratmışdır. Əlbəttə,hər şey birdən var olmamışdır.Kainat milyard il yaşamış, nəticədə insan

kimi bir həqiqətin yaranması baş vermişdir.Evlilikdə də səbir elmini öyrəndikdən sonra,qadın və kişinin yaradılış qayəsini aydınlaşdıra bilərik.

Qurani-Kərimin ayələrin də ailə haqqında bir çox hökmlər bildirilir. Ər-arvad arasında yüksək dərəcədə ədalət və sevgi bu münasibətlərin qorunub saxlanılmasını,lazım gələrsə barış və islah yolunun xeyirli olmasını göstərir. Yox,əgər illərlə ailənin birliyini qoruyub,səbir edib,kişi və ya qadını islah etmək mümkün olmasa və yaxud da artıq insani münasibətlər aradan gedibsə və bu münasibətlərin axırı bir fəlakətə aparırsa, bu vəziyyətdə ər-arvadın gələcəkdə bir yerdə olub, olmamalarına dair qərar çıxarmaları münasibdir. Əlbəttə, bu halda nə maddi vəziyyətin pis olması,nə kişinin düşdüyü cürbəcür vəziyyətlər, (içki, uyuşduruçu və başqa qadınlar ilə münasibəti,evə gəlməməsi) boşanmaq üçün bəhanə ola bilməz,çünki bu halları müəyyən zaman müddətində,səbirlə islah etmək olar.Yox əgər ortada məhəbbət, hörmət,qadının və övladlarının gələcək həyatının təminatı üçün ümid yeri yoxdursa, qadın yalnız təhqir və hörmətsizlik görürsə və artıq kişinin islah olmasına ümid yoxdursa,bu zaman son çarə haqqında düşünmək lazımdır.

Bildiyimiz kimi cəmiyyətimizdə,keçmiş də olduğu kimi müasir dövrdə də ailələrin çoxu sevgi-məhəbbətsiz, ata-ananın məsləhəti ilə qurulur. Ancaq buna baxmayaraq bu ailələrin təməli qarşılıqlı hörmət, tərbiyə, insanlıq hissləri və ailənin-müqəddəs, Allahın əmanəti,neməti olduğunu dərk etdikləri üçün, bəlkə də təməli sevgi-məhəbbətlə qurulan ailələrdən daha da möhkəm və əbədi olur.

Əfsuslar olsun ki,müasir dövrümüzdə bəzi "kişi"lər sevgi məhəbbət bir yana qalsın, ailənin-Allahın biz insanlara dəyər verərək qismət etdiyi ilahi nemətlərdən biri olduğunu və ailənin nə qədər əlçatmaz "müqəddəs qala"olduğunu heç düşünüb, dərk etmədən, yalnız öz maddi və nəfsani (pis vərdişləri)maraqlarını düşünərək ailə qururlar. Əlbəttə,təməli məkrli məqsədlə qurulan ailənin aqibəti hörümcək toruna bənzər ki,yanından yel ötən kimi dağılar.

Cəmiyyətimizdə ailə qurmaq istəyən bəzi cavanlar,dinimizin şəriət qanunlarını, həmçinin onun nə qədər adil, müasir, mərhəmət-sevgi və humanist bir din olduğunu bilmədikləri üçün,bu din də qadına verilən dəyərlərdən də, xəbərləri yoxdur.

Dinimizin,insanlığın və dövlətimizin hüquq qanunlarına əsasən, müsəlman kişinin öz həyat yoldaşına zülm etməsi, əslində heç kişilikdən də deyildir.Çünki əsil kişi evində, ailəsinin qayğısına qalan,onu müqəddəs bilən,çöldə isə doğrudan da əsil kişi olan, kişidir.Yoxsa ki,

özündən zəif olan və özünə möhtac olan insanlara zülm etmək, övladlarına bir qarın çörək verərək, cəmiyyətdən təcrid etmək və qorxu içində böyüyən uşaqların cəmiyyət üçün savadsız və zəif, xəstə, yararsız böyütmək, yaşadığı qadına bir əşya kimi baxmaq,ona dəyər verməmək, özünün təbiyə və səviyyəsindəki sözlərlə onu təhqir etmək nəinki kişiliyə heç insanlığa da layiq deyildir.

"Hud-114-Zülm edən kəslərə tərəf meyl etməyin, onlara köməkçi olmayın,onlara qaynayıb-qarışmayın ki,Cəhənnəm odu sizə yetişər(və zalımlar kimi sizi də yandırar.) Allahdan başqa sizin dostunuz yoxdur. Sonra isə sizə kömək olunmaz, (nə bu dünyada, nə də axirətdə.)"

"əl-Bəqərə-49-"Yadınıza salın, o zaman ki,sizin sələflərinizi, Fironun arvadını xilas etdik.Yəni başqaları kimi Fironu Allah bilməkdən arvadını xilas etdik.Onlar sizi pis və şiddətli əzablar ilə incidirdilər.Bunda sizlər üçün böyük bir imtahan vat idi."

Bu səbəbdən də Hafid-(alçaldan), Rafi-(yüksəldən) Allah,yenə də bizi imtahan edib,bizə dərs verərək cəzalandırar.

Bütün bu deyilənlər qadınlara da aiddir.Yıxarıdakı mövzularda qeyd edildiyi kimi, qadınlar kişiləri tamamlamaq üçün yaradılmışdır və dinimizə görə bütün qadınlar qarşılıqlı hörmət və şərəflə öz həyat yoldaşlarına ram olmalıdırlar.Allahın biz qadınlara buyurduğu əmri bir daha təkrar qeyd edək:

ən-Nisa-34-"Kişilər qadınların üstündə ixtiyar sahibi və qəyyumdur."

Əgər bir qadın ərindən hörmət, məhəbbət və nəvaziş görürsə, yoxsulluğuna səbir edib,var-dövlətli olduğunda isə qudurmamalıdır. Cəmiyyət içərisində yoldaşına çox hörmətlə yanaşmalı,öz ismət və həyasını qoruyaraq öz evinin,ocağının, ailə və uşağının qayğısına qalmalıdır. Bildiyimiz kimi həyatda hərtərəfli kamil insan yoxdur,onda o, mələk olardı. Hamımızın özümüzə görə çatışmayan cəhətlərimiz, qüsurlarımız vardır.Bu səbəbdən də ailə münasibətlərindəki müəyyən çatışmamazlıqları hansısa bir yaxşı xüsusiyyətə qurban edərək,birlikdə yaşamağı davam etdirməliyik.Yoxsa həyatda bütün insanlar tək-tənha qalardılar.

Heç bir qadın təkliyi,sərbəstliyi,özbaşınalığı arzu edərək, ailəsini dağıtmamalıdır.Çünki ailənin dağılması Allahdan qorxan qadınlar üçün əslində bir faciədir. Həmçinin bu hal, ortada qalan uşaqların gələcək həyatı üçün böyük bir zərbə və təhlükədir. Qadının və yaxud da hər bir insanın tək qalması, əslində, bir fəlakətdir. Həyat isə çox mürəkkəbdir. Atalardan məsəl var ki:-"Adama gəl-gəl deyən çox olar, çörək verən az."Əgər bunu əsil kişi dərk edirsə gərək heç vaxt ailəsini başsız qoymasın. Artıq bu baş veribsə,yenə də öz uşaqlarının ehtiyaclarını tam

ödəyərək,onları heç kəsə möhtac etməməlidir.

Ailə, insan yaranışının qayəsidir və ailə hər hansı bir məqsəd və yaxud da plan üzrə qurulmamalıdır.Ümumiyyətlə, ailənin,uşağın nə olduğunu dərk etməyən,onun müqəddəsliyini,dəyərini bilməyən insanlar həyata gəlmələrinin də səbəbini, mənasını bilməzlər.

Hər bir ailə qarşılıqlı məhəbbət və hörmətlə yaşamalıdır və əgər bu, mümkün deyilsə,Allahın bu haqda ağıl sahibi olan insanlar üçün qoyduğu insanlıq və şəriət qanunları vardır.Qurani-Kərimdə Allahın bizlərə buyurduğu hökmlərdə boşanma haqqında çoxlu ayələr və ayrıca "Talaq"(boşanma) adlı surə vardır.

ət-Talaq-1-2 Ey Peyğəmbər! Qadınlara talaq verdikdə iddə (gözləmə müddəti) vaxtında verin. Allahınızdan qorxun!İddə zamanı qadınları evlərindən çıxarmayın. Talaq barədə Allahın hökmü budur. Hər kəs Allahın hökmünə təcavüz etsə, həqiqətən, özünə zülm etmişdir və günahkar olmuşdur.Qadınların müddətləri yaxın olduqda,ya onları yaxşılıq ilə saxlayın,ya da yaxşılıq ilə ayırın.

Hədis:"Peyğəmbərimiz buyurur ki:"Allahın ən çox nifrət etdiyi halal, boşanmaqdır."(**Zubdətul Əhadis.)**

Bu hədisdən də görünür ki,boşanma həyat şərtlərinin pisliyə döndüyü, ər-arvad arasında nifrət hakim olduğu və Allahın əmrləri ilə evlilik haqlarını yerinə yetirməyə imkan qalmadığı hallarda baş verən haldır. İslam bu xüsusda diqqətlə davranmış və zəif yaradılışı olan insanın bu halətini pis fikirlərdən qorumuşdur və artıq heç bir imkan qalmadıqda bu işə yol verir.

Dini hekayə:-Bir cavan oğlan bazarda gözəl qoxular satılan şöbəyə girir. Dükanlardan gül,çiçək kimi cürbəcür qoxular ətrafa yayılırdı.Adam bir-iki addım atdıqdan sonra,duyduğu bu qoxulardan başı gicəllənərək yerə yıxılıb,özündən gedir.

Camaat onun ətrafına yığılıb onu ayıltmaq üçün çarələr axtarırlar. Biri əli ilə onun nəbzini yoxlayır,biri üzünə su çiləyirdi. İçərilərindən biri"bəlkə ürəyi tutub və yaxud da təzyiqi qalxıb" deyərək müxtəlif mülahizələr irəli sürürdülər.Hər tərəfə xəbər göndərilərək onun qohum-əqrəbasını axtardılar ki,onlara xəbər verilsin.Nəhayət, onun yetim olduğunu və bir bacıdan başqa heç kəsinin olmadığını öyrənirlər.

Bacısı gəlib bu adamın dəri ustası olduğunu və sonra:

-Mən onun nədən özündən gedib yıxıldığını bilirəm.Siz də səbəbini bilincə onu ayıldarsınız-deyir.

Ürəyində isə öz-özünə danışaraq belə düşünürdü:"Qardaşım ruzisini əldə etmək üçün illərlə pis qoxular içində dəri aşılayaraq çalışıb.Pis-

liyin qoxusu onun beyninə, damarlarına qədər yayılmışdır. Həyatında ilk dəfə belə bir ətir bazarında olduğundan gözəl ətir qoxuları onu bu hala salmışdır.Dəriçinin bacısı kimsələr görməsin deyə,camaatı oradan uzaqlaşdırdı.Gizli bir şey söyləyirmiş kimi,başını onun qulağına yaxınlaşdırdı.Gizlicə əlindəki pisliyi qardaşının burnuna sürtdü.

Az sonra qardaşı ayılıb,özünə gəldi.Seyr edənlər heyrətlər içində qalaraq,"Bu adam xəstəyə bir ovsun oxudu,qulağına üflədi və adam da ayıldı"-dedilər.

Açıqlaması:-Öyüd verən kimsələr pisliyə batmış kişinin yaxşılaşması və ona bir qapı açılması üçün ənbər və gül suyu ilə müalicə etmək istərlər. Ancaq pislik içindəki insanlara təmiz nemətlər xoş gəlməz. Təmiz nemətlərin, gözəlliklərin, saflıqların dadını bilmək üçün əvvəlcə pisliklərdən uzaqda yaşamaq lazımdır. Yoxsa onlar pislik böcəyi kimi pislik daşıyıb,pislik axtarıb dururlar.Buna görə gül suyundan özlərini itirib yıxılarlar.Kim ki təmiz saflığı, gül qoxusunu başa düşməyib faydalanmırsa, mütləq ki, çirkinliyə alışmışdır.Belə adamlara nə qədər təmizlik saflıq bəxş etsən də, təmizliyi, bəyənməyib yenə də vərdiş olduğu pisliyi axtaracaqdır.**(Mövlana Cəzalı"Altın Ögüdlər"-tərcümə)**

BOŞANMA HAQQINDA AYƏLƏR

Şübhəsiz dərk eyləyər ki, can nədir, canan nədir,

Hər kəsin zatında olsa, mən deyən mənada eşq. (Hacı Mahir)

əl-Bəqərə-226-232-Qadınlara yaxınlaşmamağı and içən kəslər üçün dörd ay gözləmə müddəti vardır.Əgər andı sındırıb pozsalar, kəffarə vermək şərtilə qayıtsalar, həqiqətən, Allah bağışlayan və rəhm edəndir. Əgər talaq verməyə qəsd etsələr, Allah eşidən və onların qəlblərindən xəbərdardır.

Talaq verilmiş qadınlar özlərini üç heyz gözləyərlər.Kişilərin qadınların boynunda haqqı olduğu kimi,yaxşı qərar ilə qadınlar üçün də kişilərin boynunda haqq vardır.Kişilərin bir dərəcə qadınlardan üstünlüyü var. Hər ikisi bərabər olsa da qadını qorumaq,ona nəfəqə və geyim vermək kişiyə məxsusdur. Allah Qadir və hökm edəndir. Hökmlərə müxalif olub,yoldaşına zülm edənlərlərlə intiqam almağa və məsləhət ilə rəftar etməyə qadirdir.

Talaq vermək iki dəfədir.Kişinin qayıtmaq ixtiyarı olan talaq iki dəfə olur.Üçüncüdə isə"bain"adlanır ki,ərin qayıtmaq hüququ yoxdur. Yaxşılıq ilə saxlamaq, ya ehsanla azad etmək. Sizə qadınlara verdiyiniz mehriyyədən bir şey almağınız halal olmaz. Əgər kişi qadına üçün-

cü dəfə talaq versə,ondan sonra o,qadınla izdivac etmək həmin kişi üçün halal olmaz. O vaxta qədər ki,o qadın başqa bir kişiyə ərə getsin. Əgər ikinci ər öz xahişi ilə o qadına talaq versə, o surətdə bir-birinə qayıtmaqda günah yoxdur. Əgər hər ikisi,Allahın əmrlərini yerinə yetirəcəklərini zənn edərlərsə. Bunlar Allahın həddi və qərarlarıdır ki, onu alim olanlara bəyan edər.Qadınlarınıza talaq verdiyiniz və iddələri tamam olduğu zaman onları adi qaydada saxlayın.Qayıdan zaman qəsdiniz onlara zərər vermək olmasın.Onlara zərər vermək fikri ilə saxlamayın ki, zülm edəsiniz. Zülm vermək qəsdi ilə qayıdan kəs özünə zülm etmişdir. Allahın ayələrini istehza yolu ilə götürməyin,onda buyurulan hökm və əmrləri yüngül hesab etməyin.Allahın sizə olan neməti ki,qadınların özlərini və mallarını sizə halal etmişdir.Yadınıza salın,sizə nazil etdiyi kitab və hikmət ilə moizə edər ki,siz nəsihət qəbul edəsiniz. Allahdan qorxun və bilin ki,Allah hər şeyə alimdir.

Qadınlara talaq verdiyiniz zaman onların iddə saxlamaq müddəti yetişsə,onların yeni ərləri ilə nikah etməklərinə imtina etməyin. Yəni iddə-gözləmə müddəti başa çatdıqdan sonra qadınların yeni ər seçmələrinə mane olmasınlar. Əgər onların arasında yaxşılıqla razılıq əmələ gəlsə, bu əmr və nəhyilə Allah ona və qiyamət gününə iman gətirən kəslərə nəsihət edir.Bu əməllər sizin üçün xeyirli və pakdır. Allah bilir,lakin siz elminizin azlığına görə bilmirsiniz.

ən-Nisa-130-Əgər onlar(ər-arvad) bir-birlərindən ayrılacaq olsalar,Allah onların hər birini öz geniş lütf və kərəmi ilə ehtiyacsız edər. Həqiqətən, Allah geniş lütf və hikmət sahibidir!

Hədis:-Allahın Rəsulu Vəda Həccində oxuduğu xütbəsində belə buyurmuşdur:-"Qadınlarla gözəl davranmanızı tövsiyə edirəm.Çünki onlar sizin əmriniz altındadırlar, onların üzərinə çox getməyə haqqınız yoxdur.Lakin açıqca küfr edərlərsə, onlardan ayrı yatın. Əgər sizə boyun əyərlərsə, daha artıq üstünə getməyin.Biliniz ki, qadınlar üzərində haqlarınız olduğu kimi, onların da sizin üzərinizdə haqları vardır." **(Səhihi-Buhari)**

QADINLARIN MİRAS PAYI

əl-Bəqərə-241-Talaq verdiyiniz qadınlar üçün yaxşılıq ilə bir hissə vardır.Onu vermək təqva sahiblərinə haqdır. Dövlətli və fəqir olmasından asılı olmayaraq, arvadına talaq verən kəs,gərək ki, onu əliboş qoymasın.

əl-Bəqərə -234-Sizin ölənlərinizin qoyub getdiyi qadınlar dörd ay

on gün gözləməlidirlər. Onların iddə müddəti yetişən zaman onların öz barələrində (yeni ərə getmək üçün bəzənmələrində) gördükləri yaxşı əməllərə görə sizin üçün bir günah yoxdur.Allah sizin əməllərinizdən xəbərdardır**.**

YUXU HALI ÖLÜMÜ XATIRLADIR

Furqan-45-48-Allahın qüdrətini görmürsənmi ki,sübhdən günəş çıxana qədər kölgəni necə uzatdı?Nə çox qaranlıq oldu ki, ürəklər sıxılsın,nə də isti və işıqlıq oldu ki,gözə zərəri olsun.Əgər Allah istəsəydi, əlbəttə, onu sakin və həmişəlik edərdi, günəş çıxmazdı. Sonra biz günəşi kölgə üçün dəlil tutduq. Günəş olmasaydı, kölgə bilinməzdi,o ucaldıqca, kölgə azalar.Allah elə Allahdır ki,gecəni rahat olmağınız üçün örtük etdi,sizin bədəniniz üçün yuxunu rahatlıq və gündüzü də dirilik etdi.

Nəba-9-11-Sizin yuxunuzu sizin üçün libas etdik.Libas bədəni örtən kimi gecə də insanın üstünü örtür.Və gündüzü sizin üçün dolanışıq vaxtı etdik.

Açıqlama:-Bu ayələr Allahı tanıdan və onun sonsuz qüdrətini göstərən bir ayna və dəlildir.Yuxu ölümə bənzədilir,onun qardaşıdır və yuxu oxunması vacib olan bir kitabdır.Burada Allahın bizə və bütün kainata anlatmaq istədiyi,yaradanın bizimlə danışıb,sadə dildə özünü və bizləri bizim özümüzə tanıtmaq istəməsidir.

Bir dəfə Hz.Musanın qövmü ondan soruşur:"Allah da bizim kimi yatırmı?"

Hz.Musa cavab verir ki:-Heç Allah yatarmı?

Bu zaman Allahdan ona vəhy gəlir ki, ya Musa, gecə ayaq üstündə, əlində də bir cam tutaraq səhərəcən dayanarsan.

Bu əmri yerinə yetirən Hz.Musanı, gecənin bir vaxtı yuxu tutur və əlindəki cam düşüb sınır.Hz.Musa öz qövmünə anladır ki, əgər Allah yatmış olsa, yer kürəsi də belə cam kimi düşüb, alt-üst olar və kainat dağılar."

Allahın Sifəti-sübutiyyə sifətlərindən biri olan Heyy ismi-şərifi bunu bizlərə bir daha belə bildirir:

-Həyy-Allah Heyydir,yəni diridir.Allahın diri olması canlıların diri olması kimi deyildir.Allahın diri olmadığı vaxt olmayıb, gələcəkdə də olmayacaq. Elm və qüdrəti olan bir Allahın diri olması istər-istəməz labüddür.

Qurani-Kərimdə də bir çox ayələr vardır ki, Allahın həmişə oyaq ol-

duğunu, heç vaxt yatmayıb və heç vaxt mürgüləmədiyini bizlərə anladır.

-"əl-Bəqərə-255-Diri və həmişəlik olan Allahdan başqa məbud yoxdur. Onu mürgü və yuxu tutmaz."

Bu ayədən göründüyi kimi Allah daima Qəyyumdur-yəni Bütün varlıqları, yeri, göyü hər şeyi həmişə ayaqda tutandır.Biz yatarkən də bütün kainat, canlı-cansız nə varsa hamısı onun tərəfindən idarə edilir. Gecə dünyanın üzərini örtür,yəni gecə düşdükdə yer üzündə sakitlik yaranır və bütün canlılar yuxuya gedirlər.

Biz yatarkən ruhumuz bədəndən çıxsa da,bütün orqanlarımız (ürək, ciyər və s.) Allahın əmrilə fəaliyyət göstərir,dincəlir və yeni enerji toplayır. Bizim yatmağımız Allahın bizə verdiyi böyük nemətlərdəndir və bizlərə ölümü xatırladır. İnsan Allahın müsafiridir, yer üzü bizim üçün beşikdir. Dünyanın bir beşik, gecənin bir örtük və insanların da bir körpə olduğunu bizlərə bildirir. Bir yatan körpəyə nəzər salsaq onun nə qədər aciz olduğunu görərik. Bizlərin də gecələr yatmağımız bizə ölümü, acizliyimizi və nə qədər gücsüz olduğumuzu xatırladır. Əgər bir film kimi yatan anlarımızı çəkib, sonra o filmə tamaşa etsək, bunu daha aydın hiss edərik.

İslam alimlərinin fikrincə, insanın ruhu iki xüsusiyyətə malikdir. Bunlara:

1-ci"ruhu-insani","nəfsi natiqə",ya da"ruhu-qüdsi"adlanır (üçü də bir mənanı bildirir)

2-ci xüsusiyyəti**,"ruhu heyvani"**dir ki,həm insanlarda,həm də heyvanlarda olur. Ruhun bu xüsusiyyəti canlıların diriliyini təmin edir. Ruhun"ruhu-insani" xüsusiyyəti isə yalnız insanlara məxsusdur. İnsan yatan zaman"ruhu-insani" bədəndən çıxıb, mələklər və ya başqa aləmlərə gedir."Ruhu-heyvani" isə bədəndə qalır, ona görə də insan ölmür.İnsan öldükdə isə,ruh bu iki xüsusiyyəti ilə birlikdə bədəni tərk edir.

İnsanları heyvanlardan ayıran"ruhu-insani"dir.Yatan zaman ruhun" ruhu insani"xüsusiyyəti bədəndən getdiyi üçün insan ölüyə bənzəyir. Ona görə deyirlər ki: -"Yatdın-öldün"və yaxud da:-"Yatmaq ölümün qardaşıdır."

Qurani-Kərimin ayələrindən göründüyü kimi biz yuxuya gedən zaman ruhumuz bədəndən ayrılır,əgər ruh geri,bədənə qayıtsa, biz ayılacaq, qayıtmasa isə öləcəyik. Ruhların bu halı haqqında da ayələr buyurulmuşdur:

-"Zumər-41-Allah ölüm vaxtı canları qəbz edər,o kəslərin canını alar

ki, yuxudadır, lakin ölməyib.Hansı nəfsə ölum hökm olubdursa,onu ölüm halında saxlar,onun ruhu bədənə qayıtmaz. Ölüm hökm olunmayan digər bir nəfsi isə müəyyən vaxta qədər göndərər, ruhu onun bədəninə qaytarar. Həqiqətən, burada fikirləşən qövm üçün ibrətlər vardır."

Deməli,yuxu halında ruh bədəni tərk edir.(Yuxarıdakı mövzularda Allahın cisimlər aləmini yaratmamışdan əvvəl ruhlar aləmini yaratdığı və onlara əql-şüur verməsi haqqında məlumatlar verilmişdir.)Yatan zaman bədəndən ayrılan ruh,yaddaşında həkk olunmuş və həsrət çəkdiyi ruhlar aləminin seyrinə qalxır.Sonra isə Allahın əmri ilə bədənimizə qayıdır və biz heç özümüz də dərk etmədən, hər gün ölüb-dirilirik.

GÖRDÜYÜMÜZ YUXULARIN MAHİYYƏTİ HAQQINDA

Açıqlama:- Röya-yuxu halındakı görüş və ya görülən şey deməkdir. Röya nə surətdə yuxunu tapır,neçə qismə bölünür, hamısı idrakmıdır,yoxsa xəyal və düşüncələrimizdən ibarətdirmi? Bu suallara dair Qurani-Kərimdə,hədis kitablarında və elmi kitablarda açıqlamalar vardır.

Məlum olduğu kimi yuxu bir sirdir və ruha aid olan hadisələrdən biridir.Yuxu halında görülən bir çox hadisələr və mənzərələr, yuxunun ruhi bir xassə və mənəvi bir halət olduğunu göstərir.

Görəsən, bütün röyalar həqiqətdirmi? Yoxsa mücərrəd xəyaldanmı ibarətdir?Xeyr,röyaların hamısı həqiqət deyildir,bəzən bu röyalara xəyaldan ibarət batil şeylər də deyirlər.Belə yuxulara"Qarışıq röyalar"deyilir və bu röyalar insan beyninin yorğunluğu və gün ərzində baş verən hadisələr nəticəsində beyində yaranan qarışıqlıq,bir də öz nəfsimizdən doğan şeytani fikirlərlə əlaqədardır.Bu yuxularda şeytan qəlbə vəsvəsə, qorxu və şübhələr salaraq insanı çaşdırır.

Lakin bir çox röyalar xəyaldan ibarət deyildir və bəlkə bir çoxu həqiqətdir. Belə yuxulara "Sadiq röyalar" deyilir və belə röyalarda bizim ruhumuz tanıyıb, tanımadığımız insanlar ilə görüşür və müxtəlif vəziyyətlərlə qarşılaşır. Bəzən yuxularımızda müəyyən bir vəziyyətin və ya ruhun vasitəsi ilə keçmiş,gələcək hadisələr barədə bizə xəbərlər, işarələr verilir.Biz öz əzizlərimizi öz bədənlərində, hətta öz paltarlarında, cürbəcür vəziyyətlərdə görərək onlarla əlaqə yaradırıq.

Buna misal olaraq"Yusif"surəsindəki Yusif Peyğəmbərin yuxusu ilə əlaqədar olan ayələri və Peyğəmbərimizin(s.ə.s.) yuxulara çox önəm verərək, yuxu barəsindəki hədislərini göstərmək olar.

Fakt olaraq onu qeyd etmək istərdik ki,tanıdığmız bir insana yuxula-

rında, onun bu gün,sabah və gələcəkdə yaşayacağı hadisələr haqqında açıq-aşkar xəbərlər verilərək,film kimi ona göstərilir. Həmin hadisələr həqiqətən baş verdiyi zaman isə həmin insanda heç bir təəccüb hissi əmələ gəlmir.Bunu soruşduqda çox sakit tərzdə cavab verir ki, axı bu hadisəni mən yuxuda görüb,tam yaşayıb, elə həyəcanlanıb, elə əziyyət çəkmişəm ki,bu səbəbdən ikinci dəfə təkrar baş verdiyi üçün sanki eyni filmə baxıram.

Ruh mütəxəssisləri deyirlər ki,insan ruhu mələklər aləmindən gəlmiş lətif bir şeydir. O,bu kobud və kəsif bədəndə özünü qəribə hiss edir. İnsan yatanda ruh fürsətdən istifadə edərək, bədəndən ayrılıb öz əvvəlki yerinə-mələkut aləminə gedir və orada ruhlar ilə görüşür.İnsanın yuxuda gördüyü bəzi qeyri-adi şeylər və ya sonradan həqiqətə çevrilən hadisələr,sözlər və xəbərlər ruhun mələklər aləmində öyrəndiyi məlumatların məhsuludur.

Bir həqiqət var ki,istər mələk,istər ruh,istərsə də başqa qüvvələr yalnız Qadir Allahın əmr və göstərişlərinə tabedirlər.

Qurani-Kərimdə buyurulduğu kimi:"Allahın göy və yerdə yaratdığı, canlı-cansız bütün varlıqlarında, insanlara bir çox şeyləri anlatmaq üçün ibrət, nəsihət, işarə və əlamətlər vardır."

Həmçinin gördüyümüz müxtəlif və qeyri-adi röyalarda da Allah ruhumuz vasitəsilə bizlərə, hər iki dünyada baş verib və verəcəklər haqqında xəbərdarlıq etmək üçün müəyyən işarə və əlamətləri göstərir.

Bildiyimiz kimi həyatda az insan tapılar ki,yatdığı zaman röya görməsin. Lakin beyin və düşüncələrimizi dolduran dünya həyatının tükənməyən arzu və istəkləri həm bu dünyadakı, həm də röyalardakı Allahın əlamət və işarələri haqqında düşünməyə nə zaman, nə də ki həvəs qoyur.

Bundan belə nəticə çıxarmaq olar ki, yuxularda insanın yatdığı zaman ruhun azad olaraq bizim ağlımızın qəbul edə bilmədiyi, müəyyən zaman və məkan məhfumunu keçərək, keçmiş və gələcəyimizi seyr edir,ölmüş və ya yaşayan insanların ruhları ilə əlaqə saxlaya bilir. Əlbəttə, bütün bunların hamısı Allahın əmri və istəyi ilə baş verir və biz bu hadisələr haqqıda heç bir şey dərk edə bilmərik.

Buna görə də demək olar ki, insan nə vaxt yuxunun hikmətini və sirrini dərk etsə, bəlkə onda ruhun da,ölümün də hikmət və sirrini dərk etmiş olar.

Yuxu haqqında bir çox hekayələr və rəvayətlər vardır ki,onlardan biri haqqında qeyd edək:-Dövlətşah Səmərqəndi"Təzkirətüş-şüəra" kitabında rəvayət edir ki,şah Şüca yuxusuzluq xəstəliyinə tutulub, 30 il yata bilməyib. Bir gecə təsadüfən yatıb,yuxuda çox gözəl qeyri adi

məxluqları görüb. Bundan sonra o, həmişə yatmağa tələsib və yaxşıca şirin yuxuya gedərmiş.Ondan bunun səbəbini soruşanda o, belə beyt ilə cavab verib:

Yuxumda qəlbimdə sürurunu(fərəhini)gördüm,
Ona görə yatıb, yuxu görməyi sevirəm.

Əsərdə Şah Şücanın yuxuları haqqında məlumat verilməyib, çünki o, özü bu barədə izahat verməyib.Yuxu aləmində,yəni onun ruhu mələkut aləmində nə görübsə,ona aşiq olub.

Yuxu və yuxugörmə məsələləri təbabətdə və biologiya elmində hələ həll olunmamış problemdir.Bu sahədə çoxlu tədqiqat işləri aparılmasına, böyük əsərlər yazılmasına, mükəmməl cihazlarla təchiz edilmiş laboratoriyalar mövcud olmasına baxmayaraq, hələ ki, bu araşdırmalar nəticəsiz qalıb.

HƏR GÜN YATIB,OYANMAĞIMIZ BİZƏ NƏDƏN XƏBƏR VERİR?

Rum-23-Gecələr və gündüzlər yatmağınız və Allahın fəzlindən, ruzi istəməyiniz də Allahın qüdrət əlamətlərindəndir.Həqiqətən də bunda eşidən və fikirləşən qövmlər üçün əlamətlər vardır.

Açıqlama: Bizim hər gün gecə yatıb, səhər oyanmağımız Allahın bizə Qurani-Kərim vasitəsilə xəbər verib sübut etdiyi bir çox hikmətləri:-Ölümün yox olmaq deyil, insanın bir haldan başqa bir hala düşməsini və hər gün yatıb yuxudan ayıldığımız kimi, Qiyamətdə də ikinci dəfə, yenə öz cismimizdə diriləcəyimizi və insan ruhunun həmişə yaşayıb və yaşayacağını bildirir.Yəni bizim ruhlarımız heç cismimizə daxil olmadan əvvəl var olmuş,yatdığımız zaman öz aləmini,"Ruhlar aləmi"ni seyr edib, geri bədənə qayıtması ilə oyanmağımız isə bizlərə Qiyamət günü ruhumuzun cismimizə qayıdaraq, cismimizin təzədən oyanıb, diriləcəyini bir əlamət olaraq bildirir. Qiyamətdən sonra baş verəcəklər, Cənnət, Cəhənnəm xəbərləri isə ruhumuzun heç vaxt ölməyəcəyini və əbədi yaşayacağını bizlərə xəbər verir.

əl-Ənam-60-Allah elədir ki, gecələr sizi yuxu səbəbi ilə öldürər, cisminiz yataqda, ruhunuz isə yuxu aləmini gəzər.Bu minvalla sizi bir növ ölüm halına salıb hiss-həyəcandan məhrum edən, gündüz isə sizi dirildərək nə etdiyinizi,nə qazandığınızı bilən Odur. O sizi gündüz yuxudan oyandırar ki,müəyyən edilmis vaxta qədər yaşayıb,sonra əcəl gəlib yetişsin.Sonra ölərək, Allahın hüzuruna qayıdacaqsınız. O sizə cəza verməklə etdiyiniz əməllər barəsində xəbər verəcəkdir. Allah öz bəndələri üzərində qələbə çalandır. O şeytanlardan qorunmaqdan, sizin üçün mələklərdən ibarət qoruyucular göndərər.Nəhayət, birinizin ölüm

vaxtı gəldikdə, Allahın əmrinə tabe olan ölüm mələkləri onun ruhunu qəbz edər. Onlar öz əməllərində heç bir qüsura yol verməzlər. Sonra özlərinin həqiqi ağası, Allaha tərəf qayıdarlar. Xəbərdar ol!Bu günün hökmü Allah üçündür.O hesab edənlərin ən sürətlisidir.

Hədis:-Imam Cəfər Sadiq (ə.s.) buyurur: ”Hz.Peyğəmbər Hz.Cəbrailə buyurdu: “Mənə moizə et.”Cəbrail(ə.s.) ərz etdi:-Ya Muhəmməd! Nə qədər istəyirsən yaşa, onsuz da axırda öləcəksən. Nəyi istəyirsən sev, onsuzda axırda ondan əl çəkəcəksən. Hər kəsə nə əta olunsa, şübhəsiz onu Allah əta etmişdir. Hər kəs də şərdən saxlansa, şübhəsiz, Allah onu saxlamışdır. **(Zubdətul Əhadis.)**

ÖMÜR HAQQINDA

Səndən doymaq olarmı,həyat, sən nə şirinsən!
Ancaq hamının deyil, Sən həyatın qədrini
Yalnız bilənlərinsən !.....
Özünü bu dünyada heç kəs qonaq sanmamış
Ancaq ömrün özü də bərabər paylanmamış.
Ömür paylanan zaman görün kimə nə düşdü,
Üç yüz il boz qarğaya,on il şahinə düşdü.
Həyat, sən nə şirinsən,kim səndən doydu getdi?
Gedənlər bu dünyada qəlbini qoydu getdi.
Dünən qoca bir qarı,Dilində ahü-zarı
“Bu dünyanın əlindən gəlmişəm zara” – dedi.
“Ölmürəm ki, bir dəfə canım qurtara” – dedi.
Ürəkdənmi söylədi o, bu sözü, görəsən ?
Xeyr, inanmıram mən !O yana-yana dedi:
Dili söylədisə də,Ürəyində o dərhal:
“Lənət şeytana !” – dedi.
Həyat sevincin qədər əzabın da şirindir,
Səni mənalandıran o keşməkeşlərindir.
İki yüz il yaşadı ləzzət içində Loğman
Yenə möhlət istədi ölürkən Allahından.
Yatırdı göy çəməndə, çatdı ona Əzrail.
Söylədi: - İki yüz il.Ömür sənə bəs deyil?
Mən canını almağa gəlmişəm,nə sözün var?
Loğman dedi: - Sözüm yox,aldığını gəl apar.
Ancaq mənə macal ver bircə anlıq əcəldən,
Gəl canımı burda yox,o çəmənlikdə al sən.
Əzrail razılaşdı.....

Ayağa qalxdı Loğman,Yeridi,
Daş asıldı ancaq ayaqlarından,
Asta-asta yeriyib çatdı dediyi yerə.
Loğman baxdı göylərə,Loğman baxdı yerlərə
Bu son baxışı ilə üstündə iki yüz il
Yaşadığı cahanla vidalaşdı elə bil...
Özü vidalaşdısa,gözü qaldı cahanda
O düşündü bu anda :
“ Nə görmüşəm dünyada bu dünyaya gələndən?
Ah... elə bilirəm ki,dünən doğulmuşam mən.
Ömrümü verdim bada,Nə görmüşəm dünyada.”
Loğmanın gözü bu an bir gülə dəydi, durdu.
Ürəyi quş kimi gülə doğru uçurdu.
“ Ah... Onu kim üzəcək,bircə biləydim, - dedi
O gülü də iyləyib sonra öləydim”, - dedi.
Ancaq,ancaq nə fayda.... Yetişmiş artık əcəl,
Loğman dedi: - Hazıram, al canımı indi gəl.
Əzrail dedi: - Ancaq agah eylə məni sən,
Ölüm üçün nə fərqi bu çəmən, ya o çəmən?
Neçin məni qoymadın orda alım canını?
Loğman dedi: - Həyatın şirin olur hər anı.
Ordan bura gəlincə bir az ömür qazandım,
Onu da bu dünyadan özümə fayda sandım.
Qoca öldü.....
Dedilər: - Yaranan bir gün ölər.
Nəvələri çəməndən həmin gülü üzdülər,
Loğmanın qəbri üstə qoydular.
Titrədi gül,
Gülün ətriylə doldu bütün çayır,bütün çöl.
O, ətriylə saxladı yolçuları yolundan,
Torpağın altındasa bunu duymadı Loğman.
Həyat, sən nə şirinsən,kim səndən doydu getdi ?
Gedənlər öz qəlbini dünyada qoydu getdi.
Səndən doymaq olarmı,çoxun, azın da şirin!
Cürbəcür yazılar var ömrün varaqlarında ...
Həyatımın qayğısız,fərəhli çağlarında qədrini bilməmişəm .
Hələ nə var ki, “ömrüm qabaqdadır” – demişəm
Otuzdan adlayınca,gündə otuz min kərə
Başımı yellədirəm hədər keçən illərə.

Səndən doymaq olarmı, həyat, sən nə şirinsən!
Ancaq hamının deyil,Sən həyatın qədrini
Yalnız bilənlərinsən ! (Bəxtiyar Vahabzadə.(1925-2009)

əl-Muminun-114-115- Allah buyurdu:-Siz dünyada yalnız bir müddət qaldınız. Nə qədər çox qalsanız da, sonu olduğu üçün azdır. Siz bilin ki, dünya ömrü az, axirət əzabı isə tükənməzdir.

Ey yenidən dirilməyi inkar edənlər!Siz belə güman edirsiniz ki, biz sizi əbəs yerə yaratmışıq və siz bizim tərəfimizə qayıtmayacaqsınız?

əl-Əsr-2-Həqiqətən,insan ziyan içindədir,sərmayəsi olan ömründən hər gün azalır və günahı artır.

Tin-5-6-Sonra biz onları qaytararıq aşağıların ən aşağısına! Ömürləri uzun olduğu üçün qüvvələri zəif, süst olar və uşaqlıq halından da pis hala yetişərlər.Yaxud dünyada elm və mərifət almaq əvəzinə, cəhalət və günaha batdıqları üçün Cəhənnəmin ən aşağı dərəcəsinə yetişərlər. Təkcə o kəslər istisna olmaqla ki, iman gətirdilər, saleh əməllər etdilər. Onlar üçün qurtarmayan və həmişəlik mükafatlar vardır.

Taha-100-102-O gün sur çalınar və biz günahkarları məhşərə gətirərik. Onlar öz aralarında gizlin danışarlar və deyərlər ki, dünyada neçə gün qaldınız. Onlardan ən kamili deyər:-Siz dünyada yalnız bir gün qaldınız. Dünyanın uzun ömrü axirət günlərinin yanında bir gün kimidir.

Hədis:-Rəvayət olunmuşdur ki,bir kişi imam Huseyn ibni Əlnin hüzuruna gəlib öz vəziyyətindən şikayət edir.İmam Hüseyn(ə.s.) buyurur:"Yazıq Adəm övladı! Onun üçün hər gün üç bəla və müsibət vardır,amma onların heç birindən ibrət almır.Əgər ibrət alsa, dünyanın işləri və bəlaları onun üçün asan olar. Birinci bəla, hər gün onun ömrünün azalmasıdır. Doğrudan da, əgər onun var-dövlətində çatışmamazlıq olsa, kədərlənər, qüssəli olar. Halbuki əldən getmiş dirhəmlərin yerini sonradan gələn dirhəmlər doldurar. Ancaq ömrü heç nə qaytara bilməz. Ikinci bəla və müsibət onun ruzisidir. Əgər halal olsa, ondan hesabat alacaqlar və əgər haram olsa, ona əzab verəcəklər. Üçüncü bəla isə bunlardan da böyükdür,-deyə Həzrət buyurdu:-Elə bir gündüz-gecə olmur ki, axirət dünyasına bir mənzil yaxınlaşmamış olsun.Lakin Behiştəmi, yoxsa Cəhənnəmə gedəcəyini fikirləşmir**."(Zubdətul əhadis.)**

Hədis:Həzrəti Peyğəmbərimiz buyurmuşdur:-Beş şey gəlmədən, beş şeyi qənimət say:

1 -Qocalmazdan qabaq cavanlığın.

2-Xəstələnməkdən qabaq sağlamlığın.

3-Yoxsullaşmazdan qabaq imkanlı olmağın.
4-Giriftar olmazdan qabaq, boş vaxtının, istirahətinin.
5-Ölməzdən qabaq həyatın.
Ömür başdan-başa ,beşikdən qəbrə,

Həyatın sevinci, qəmi deyilmi?
Ölüm bir ömürlük iztirabların,
Ağrının, acının sonu deyilmi?
Keçir məqamlarla gündə yüz əldən,
Hansı əldir pozan, düzəldən?
Sənin güvəndiyin dünya əzəldən,
Əkilən,biçilən zəmi deyildi?
Ayaqlar altında yer oldu torpaq,
Sirrini, məğzini bilmədik ancaq.
Tapdaq etdiyimiz bu qara torpaq,
Əbədi mənzilin damı deyilmi? (Bəxtiyar Vahabzadə.)

ÖLÜM HAQQINDA

əl-Qəmər-50- Bizim ölüm əmrimiz göz yumub açınca deyilən bir kəlmə sözdən başqa bir şey deyildir.

əl-Mülk 2-O elə bir Allahdır ki,ölümü və həyatı yaratdı. Öldürmək və diriltmək Onun əlindədir. Bununla da sizin hansınızın əməl cəhətdən gözəl olduğunuzu imtahan edər.Allah qələbə çalan və bağışlayandır.

əl-Əraf-185-Göylərin və yerin aləmlərinə,Allahın yaratdığı şeylərə nəzər etibarı ilə baxmırlarmı? Onlar əcəlin yaxınlaşması ehtimalına,ölüm vaxtının yetişməsinə nəzər etməzlərmi?Nə üçün işlərini tədarük etmirlər? Qurana inanmırlarsa,bəs hansı sözə inanacaqlar?

əl-Hicr-5-Heç bir ümmət öz əcəlindən qabağa keçməz, nə də həmin əcəl müddətindən geri qalmaz.

Açıqlama: Acı bir həqiqət olan ölümün qarşısında hamı bərabərdir. Hər bir canlı onunla qarşılaşacaq və hər bir canlı ölümü dadacaqdır. Bu günə qədər heç kəsə ölməzlik bəxs olunmayıb.O gün nə mal fayda verər, nə də övlad,yalnız iman və təmiz bir qəlb ilə Allaha gələnlər fayda görər.

İnsanın dünyadakı varlığı bir başlanğıcdırsa da,axirətdəki varlığı davamlı və sonsuzdur. İslama görə bu dünya bir imtahandır.Pis və yaxşı insanlar bir-birindən fərqlənib seçilməsi üçün bu dünyada imtahandan keçirilirlər. Dünya həyatından sonra tam ayrı bir sonsuz həyat başla-

yacaq. Axirət bu sonsuz həyatın adıdır. Axirətə inam, öldükdən sonra diriləcəyimizə, dünyada etdiklərimizə görə sorğu-sual ediləcəyimizə və sonunda cəzalanacaq və ya mükafatlanacağımıza inanmaqdır.

Bizim əcəlimiz çatmamışdan, həsrət və təəssüf hissi keçirməmişdən öncə yaxşı olar ki, qəflət yuxusundan ayılaq,vacibatın, xeyir əməllərin və ilahi nemətlərin qədrini bilək.Çünki sabah öldükdən sonra əlimiz bu cür saleh əməllərə və ilahi nemətlərə çatmayacaq. Bu gün yaxşı əməl yerinə yetirmək günüdür və hesab-kitab yoxdur. Sabah isə hesab-kitab günüdür, əməl yerinə yetirmək üçün imkan olmayacaq. Şübhəsiz,bu dünya ötüb keçəcəyimiz, müvəqqəti, axirət isə əbədi olaraq qalacağımız evdir. Belə isə, ötüb keçəcəyimiz yerdən əbədi qalacağımız yer üçün azuqə, yol ehtiyatı götürək.

İnsanlardan bəziləri Allahdan yox,canlarından, yəni ölməklərindən çox qorxarlar. Lakin bu dünyanın fani olub,ölümün mütləq olduğunu bildikdən sonra əbədi dünyamızda bizə bəxş ediləcək məkanı düşünərək ölümdən yox, Allahdan qorxmağımız vacibdir. Allah-taala ilə mülaqat etməyə görə ölümdən qorxmamaq lazımdır.Axirət ruzisi bu dünyadakı kimi nə tükənir,nə də ki qurtarır,bu nemətlər əbədidir.

Dogrudan da həqiqi dost öz dostunun yolunda canını əsirgəməz. Odur ki, ariflər deyiblər:"Şübhə edənlərdən başqa heç kəs ölümə, kəharət bəsləməz. Çünki,dostun-dostla görüşməsi heç vaxt kəharətli olmaz."

Allahı dost tutmaq iddiasında olan,lakin övlad və mal məhəbbətinə görə heç cür ölmək istəməyən adamın dostluğu həqiqi deyil. Həmçinin dünyada müxtəlif bəlalara giriftar olan və bu iztirablı həyatdan xilas olmaq üçün ölməyi arzu edən kəsləri də Allahın dostu hesab etmək olmaz.

Bütün varlıqların yaradanı Allahdır,qayıdış da Allahadır.Bu qayıdışdan başqa bir tale yoxdur.Fərq yalnız əməl və niyyətdə,gedilmiş yol və məqsəddədir.Son isə budur:-Müəyyən olunmuş vaxtda, ayrılmış müddətdə ölümdür,Allaha qayıdışdır. Məhşər və toplanış günündə cəmlənməkdir. Allahdan da mərhəmət və məğfirət, ya da qəzəb və əzabdır.

Ölümdən böyük nəsihət yoxdur,ağıllı insanlar ondan yalnız ibrət alar. Ölümü elmi dillə təsvir etsək, ölüm yox olmaq deyil,bizim ruhlarımızın dünyamıza paralel olan başqa bir dünyaya keçməyidir.

Qurani-Kərimdən də məlum olur ki,insanlar dünya yarananadan zərrəciklər şəklində kainatda var idilər.İnsan dünyaya bir qəlibə salınaraq(cildə) göndərilir,sonra bizim adlandırdığımız ölüm ilə başqa dünyaya,bərzəx aləminə gedir,lakin insan ruhu heç vaxt ölmür. Çünki hələ Cənnətəcən yol gedəcək və orada əbədi qalacaq. Yaxud da

Cəhənnəmə gedəcək və orada özü üçün ölümü daim arzulayacaq, lakin ölməyəcək.

Ölüm canlı orqanizmin həyat fəaliyyətinin dayanmasıdır,yəni insan bədəninin, cisminin ölməsi deməkdir.Lakin bədənin yaşadığı müddətdə, insanın beynindən keçən bütün fəaliyyətlər,səs və görüntü dalğaları əql və şüura sahib olan ruha yüklənmiş olduğu üçün, bədəndən çıxan ruh özündə heç bir şey hiss etmədən yaşayır. Cismi ölmüş insan isə sanki həmin bədəndə olduğu kimi yaşamağını davam etdirir və tamamilə şüurlu və canlı olmasına baxmayaraq, maddi bədənindən istifadə edə bilmir. Xaricdə olan şeyləri görür, duyur,ancaq xaricə özü haqqında məlumat verməк iqtidarında olmur.

Bu haqda İbrahim Həqqi"**Mərufətnamə"** əsərində Hz.Peyğəmbər tərəfindən söylənmiş hədislərdən ölüm hadisəsini belə nəql edir:"Ölən insan bədəninin kimin yuduğunu,kimin kəfənlədiyini, kimlərin nə danışıb,nə etdiyini bilir.Əgər insan ölümdən sonra yaşamasaydı,onda qəbir əzabı deyilən bir söz də olmazdı."

Hz.Peyğəmbər soruşurlar ki, möminlərin ən ağıllısı kimdir? O da cavab verir:"Ölümdən sonrakı həyata ən çox inanıb,ona hazırlananlar. Çünki insanlar mütləq qəbir sıxıntısını, qəbir əzabını yaşayacaqlar, hətta heyvanlar da qəbrə qoyulan insanın fəryadını eşidərlər."

Böyük İslam alimi Mövlanə Cəzali bu haqda belə söyləyir:"İnsanların, ölümü yoxluq kimi qarşılamaları yanlışdır.Qəbirə qoyulan adamın şüuru yerində,ağlı başındadır.Qiyamətə qədər də yaşamağı şüurlu olaraq davam edəcək.Qiyamətdə o günün şərtlərinə uyğun bədəninə, hətta əvvəlki barmaq izlərinə qovuşacaqdır."

Hədis: Peyğəmbərimiz (s.ə.s.) buyurur:"İnsanlar bu dünyada yatıblar,elə ki, öldülər, oyanacaqlar və o zaman hər şeyin həqiqətini və əsil mənasını o aləmdə dərk edə biləcəklər." (**Zubdətul əhadis.)**

Unutma ki, nə mənim, nə sənindir bu dövran.
Bu fələyin borcunu qaytar daha özünə,
Nə almısan torpaqdan, satma baha özünə.
Oğul kimi tərk elə vida günü aləmi,
Comərdliyin mat qoysun qoy özünü, aləmi.
Görməsinlər qoy səni, yuxu kimi uzaqlaş,
Qovmasınlar qoy səni, bir su kimi uzaqlaş.
Alacaqlar canını girov deyə cahanda.
Yerdən ayrıl, biləsən gərdiş nədir fələkdə,
Gecə-gündüz dolanır, gərdişdədir fələk də,
Vəcdə gəlib şövq ilə yovuş ülvi aləmə,

Vidalaşıb həyatla qovuş ülvi aləmə.
Başa vurar ömrünü, dövranını dövranı.
Son nəfəsdə dodağın son kəlməni unudar,
Kimsə salmaz yadına, hamı səni unudar.
Zalım əcəl kəsməmiş nəfəsini dünyada,
Göstər eşqə qovuşmaq həvəsini dünyada.
Əcəl meyi həyatda hansı kəsə **nuş olar? "Sirlər xəzinəsi"**

ZALIMLAR HƏYATA HƏRİS OLARLAR

əl-Bəqərə-95-96-Zalımlar öz əlləri ilə göndərdiklərinə görə heç vaxt ölümü arzu etməzlər.Sən onları insanlar içində həyata ən həris olan kəslər kimi görərsən.Onlar Allaha şərik tutanlardan da hərisdirlər. Onların hər biri 1000 il ömür sürmək istəyər. Lakin bu onları əzabdan uzaqlaşdıra bilməz.Allah onların əməllərini görəndir.

Hədis:-Imam Həsən(ə.s.) ölüm halında ikən buyurmuşdur: "Axirət səfərinə hazır ol. Əcəlin gəlib çatmamışdan qabaq səfər azuqəsini tədarük gör.Bil ki,sən bu dünyanı istəyirsən,ölüm isə səni istəyir. Yaşadığın bir gün hələ gəlib başa çatmamış, gələn günlərin qəm-qüssəsini özünə yük etmə.Bil ki, nə qədər var-dövlət yığsan, ondan sənə qismət olan azuqədən çox bəhrə almayacaqsan,bu halda sən başqasının xəzinəsinin keşikçisi olursan.Bil ki, axirətdə dünya halalları barədə haqq-hesab, haramlardan əzab, sübhəli şeylərdən isə məzəmmət vardır. Belə isə dünyanı öz həyatında lazımsız bir şey kimi fərz et və ondan ancaq zəruri miqdarda götür. Əgər izzət və şərəf sahibi, hakimiyyət və səltənət sahibi olmadan, nüfuzlu olmaq istəyirsənsə,Allahın hüzurunda günah etmək zillətindən çıx və Allaha itaət etmək şərəfinə nail ol**!(Hədisi Qüdsi.)**

HƏR KƏSİN YAZILAN ÖLÜM VƏ ƏCƏL VAXTI VAR

Evdə qəlbin tutulmuşsa kənarə çıx, cahana bax.
Bir dəfədə bağa gedib, orda sərvi-rəvanə bax.
Əvvəlcə gəz bağ-bağçanı, sonra da get qəbristanə.
Dostlarını gəl, gör deyən, bu xərabə məkanə bax.
Çox badamı göz görərsən, tora düşmüş quşlar kimi,
Həmişəlik başlı qalmış, çoxlu püstə dəhanə bax.
Mənəm-mənəm deyən canlar, bütün yerin altındadır.
Torpaq altda qübar olmuş, qəmər üzlü canana bax.

Ey Xəqani nə dayanıb, bu dünyaya bağlanmısan?
Bir qırpımda sən onlardan görünməyən nişanəsən.

Açıqlama:-Məlum olduğu kimi,həyat sahibi olan məxluqat, ölümə məhkumdur.Bir insan nə qədər yaşasa da yenə də bir gün öləcək. Bütün yaranmışların müəyyən bir əcəli var və bu əcəl ölümlə gələcəkdir.Ölüm dünya ilə axirət arasında qurulmuş bir körpüdür.

əl-Əraf-34-Hər bir ümmətin əzəldən müəyyən edilmiş əcəl vaxtı(ölüm,tənəzzül və ya əzaba düçar olmaq) vardır.Onların əcəli gəlib çatdıqda nə bir saat gecikməz, nə də qabağa düşməzlər.

əl-Muminin-15-16-Həqiqətən də,yaranışdan sonra, əlbəttə. vəfat edərsiniz. Sonra isə siz, dirilib Qiyamət günündə məhşərə cəm olarsınız.

ər-Rəhman-26-Yer üzündə olan hər kəs fanidir, ölümə məhkumdur.

Yunus-49-Ya Muhəmməd !De ki:"Allahın istədiyindən başqa mən özümə nə bir xeyir, nə də bir zərər verə bilərəm.Hər ümmətin əzəldən müəyyən olunmuş bir əcəl vaxtı vardır."

Ali-İmran-144-Allahın izni,istəyi olmadan bir kəs üçün ölüm yoxdur. Əcəl tez və ya gec olmaz.Ölüm vaxtı yazılan yazı ilə müəyyənləşmişdir.

əl-Munafiqun-10-11-Ölüm gəlməzdən əvvəl sizə verdiyimiz mallardan Allah yolunda sərf edin.Həmin şəxs deyər:

-Ey mənim Allahım!Nə üçün mənə yaxın zamana qədər möhlət vermirsən ki, sədəqə verib saleh insanlardan olum?

Birinci əcəli yetişdikdə Allah onu təxirə salmaz və ona möhlət verməz.Allah sizin əməlinizdən xəbərdardır.

Hədis:Əli ibn.Hüseyn (ə.s.) buyurur:-Allah-taala belə buyurur:-Mən görmək istədiyim hər bir işdə, yalnız mömin bəndəmin ruhunu qəbz etdirərkən tərəddüddə oluram.Çünki o ölümə nifrət edir,Mən isə ona pislik çatmasını istəmirəm.Onun heç bir təxirə yol verilməyən mütləq əcəli gəlib çatan zaman Mən Cənnətdən ona tərəf iki gül göndərirəm, birinin adı Müsxiyə, digərinin adı isə Münsiyədir. Müsxiyə gülü onu mal-dövlətə qarşı rəğbətsiz edir,Münsiyə gülü isə ona dünya işlərini unutdurur**.(Hədisi Qüdsi.)**

Hədis:İnsanın həyatı boyunca üç yaxın dostu olur.Bunlardan yalnız bir dənəsi vəfalıdır.Digərləri insafsız və pislik etməkdən çəkinməzlər.

Bu üç dənədən biri dəyər verdiyimiz mal-dövlətdir.İkincisi övlad və qohum-əqrəbadır.Üçüncü dostun isə etdiyin xeyir əməllər və ibadətlərdir.

Öldüyün gün malın-mülkün səni yalnız buraxır.Övlad və dost səninlə məzarlığa qədər gələr,bir az dayanarlar,sonra isə hövsələləri çatmayıb,

getməyə tələsərlər.

Səninlə qəbirdə, daha sonra isə Qiyamətdə, sənə vəfalı olan ibadət, itaət və yaxşı əməllərindir**.(Zubdətul Əhadis.)**

Hədis:- Bir nəfər Peyğəmbər(s.ə.s.)in yanına gələrək ondan soruşur:- Ya Rəsulullah!Sən öz söhbətlərində axirət,ölüm haqqında danışarkən belə deyirdin:

-Ölüm belə bir şeydir ki, hər an ona hazırlıqlı olmalı və bunun üçün hədiyyələr hazırlamalıyıq.Bəs bu hədiyyələr hansılardır?

Peyğəmbər(s.ə.s.) belə buyurur:

1-ci. Hz.Əzrailin hədiyyəsi.

1.Yaxşı niyyətli olmaq.
2.Qəza ibadətlərini yerinə yetirmək.
3.Səfərə çıxan yolçu kimi ölümə hazırlaşmaq.

2-ci. Qəbrin hədiyyəsi.

1.Söz gəzdirməyi tərk etmək.
2.Həmişə təmiz olmaq,təmiz geyinmək.
3.Quran oxumaq.
4.Çoxlu salavat demək.

3-cü. İnkir və Minkirin hədiyyəsi.

1.Doğru danışmaq.
2.Qeybət etməmək.
3.Haqqı qəbul etmək.
4.Təvazökar olmaq,təkəbbürdən uzaq olmaq.

4-cü. Mizanın hədiyyəsi.

1.Əməlini Allah rizası üçün etmək.
2.Başqasına əziyyət etməkdən çəkinmək.
3.Gözəl əxlaq sahibi olmaq.
4.Allahı çox zikr etmək.

5-ci. Siratın Hədiyyəsi.

1.Qəzəbi udub,coşmamaq.
2.Təqva sahibi olmaq.
3.İbadətlərə ara vermədən davam etmək.

6-cı. Malikin hədiyyəsi(Cəhənnəm mələyinin).

1.Allah qorxusundan ağlamaq.
2.Gizli sədəqə vermək.
3.Üsyanı,asiliyi tərk etmək.
4.Ana –babaya yaxşılıq etmək.

7-ci. Cənnət mələyi Rizvanın hədiyyəsi.

1.Pisliklərdən, pis əməllərdən uzaq olmaq.

2.Nemətlərə şükür etmək.
3.Malını Allah yolunda xərcləmək.
4.Əmanətə xəyanət etməmək.

8-ci. Ruhun hədiyyəsi.

1.Az yemək.
2.Az danışmaq.
3.Az yatmaq.
4.Çoxlu istiğfar etmək.

9-cu. Peyğəmbərin hədiyyəsi.

1.Əhli-Beyti,balalarını sevmək.
2.Sünnəni-onun buyurduqlarına əməl etmək.
3.Peyğəmbərin sevdiklərini sevmək.

10-cu.Allah-Zülcəlalın hədiyyəsi.

1.Allahın əmrlərini yerinə yetirmək.
2.Qadağan etdiyi,haram etdiyi şeylərdən uzaq olmaq.
3.İnsanlara düzgün nəsihət etmək.
4.Bütün yaradılmışlara qarşı mərhəmətli olmaq,onları sevmək. **(Hədisi Qüdsi)**

HƏR NƏFƏS ÖLÜMÜ DADACAQ

əl-Ənbiya-35-36-Ya Muhəmməd!Səndən əvvəl də dünyada heç kəsə əbədi həyat, ölməzlik vermədik. Belə olduqda sən ölsən, onlar dirimi qalacaqlar?Bütün can sahibləri ölüm şərbətini dadacaq.Biz sizi xeyirlə, sağlamlıqla,mal-dövlətlə,şərlə, xəstəlik və kasıbçılıqla imtahan edərik. Hamınız bizim tərəfimizə qayıdarsınız ki, əməllərinizin cəzasını alasınız.

Ali-İmran-185-Hər bir nəfs ölümü dadacaq. Şübhəsiz ki, xeyrə-xeyir, şərə-şər olmaqla sizin tamam əcriniz Qiyamət günündə verilər. Oddan uzaq behiştə daxil olan kəs,öz muradına yetişdi. Dünya həyatı aldadıcı olmaqdan başqa bir şey deyil. Allaha itaət etməməyə aldadıcı bir alətdir.

Açıqlama:Bütün insanlar: gənc və ya qoca, gözəl-çirkin,kasıb-dövlətli olmasından asılı olmayaraq, heç kəs ölümdən canını qurtara bilməz. Bunu bilə-bilə insanların çoxu ölümü unutmağa, yaddan çıxarmağa çalışırlar. Lakin ölüm bizə çox yaxındır. Allah insana heç düşünmədiyi, heç gözləmədiyi zamanda ölüm mələyini göndərər.

Qolumuzdakı saata baxaq və düşünək ki, keçən hər bir saniyə bizi Allaha daha da yaxınlaşdırır.Bizim üçün də müəyyən olunmuş ölüm vaxtı gələcək.Bizim heç gözləmədiyimiz və buna inanmadığımız anda mələklər bizim canımızı alacaq.Bir anda dünyaya aid bütün işlərimiz öz

dəyərini, mənasını itirəcək,hər şeyə, hər kəsə yad kimi baxacağıq. Nə var-dövlətin, nə də dünya gözəlliklərinin gözümüzdə bir dəyəri olmaz. Sanki bu gördüklərimiz heç vaxt bizim olmamış,hamısı bir yuxu imiş və gözümüzlə uzaqdan hər şeyə baxa-baxa qalarıq.

Ona görə də mütləq baş verəcək bu halımızı, ölümü tez-tez xatırlayaraq Allah tərəfindən bizə verilən bütün nemətləri dəyərləndirməyə çalışaq.

Dini hekayə. Peyğəmbər(s.ə.s.) buyurur:-Ruh bədəndən ayrıldığı zaman bir səs yüksəlir. Səsin sahibi üç dəfə belə qışqırar:"Ey insan oğlu,sən dünyanı tərk edirsən, yoxsa dünya səni tərk edir? Dünya səni öz arxasınca sürüdü, yoxsa sən dünyanın arxasınca sürükləndin? Sən dünyanı öldürdün,yoxsa dünya səni öldürdü?

Meyit yuyulmaq üçün uzadılanda yenə eyni səs yüksələr:"Ey insan oğlu!Güclü, qüvvətli vücudun, bülbül kimi ötən dilin haradadır,nə üçün daha danışmır?Eşidən qulaqların niyə daha eşitmir? Hanı səmimi dostların, haradadırlar, niyə səni belə tək qoydular? Meyiti kəfənə bükərkən yenə eyni səs yüksələr və üç dəfə qışqırar:

"Ey insan oğlu!Əgər Allahın xoşluğunu qazandınsa, xoş halına. Yox əgər qəzəbini qazandınsa,vay halına.Əgər son mənzilin Cənnətsə, xoş halına,yox əgər Cəhənnəmsə, vay halına."

Ey insan oğlu, azuqəsiz uzun bir səfərə çıxırsan.Əbədiyyən isti ailə, yuvandan ayrılır, əzab və sıxıntılarla dolu bir aləmə köçürsən".

Cənazə tabuta qoyulduqda yenə eyni səs üç dəfə qışqırar:

-"Ey insan oğlu!Yaxşı əməllər işlətdinsə xoş halına.Tövbə edərək köçmüsənsə, yenə də xoş halına."

Meyit namazı qılınan zaman yenə həmin səs üç dəfə qışqırar:

-"Ey insan oğlu!Bu anda yaxşı və pıs əməllərini gözünün qarşısında görəcəksən. Yaxşılıq etmisənsə, yaxşılıqların əvəzini, pislik etmisənsə. pisliklərinin əvəzini görəcəksən."

Ölü qəbrin kənarına qoyulduqda:

-"Namazlı bir aləmdən əzablı bir aləmə gəldin.Varlılıqdan kasıblığa düşdün.Aydınlıqdan qaranlıqlar aləminə düşdün."

Ölü qəbrə qoyulduqda yenə həmin səs üç dəfə qışqırar:

-"Ey insan oğlu!Yer üzündə olarkən bərk addımlar ilə məğrur gəzirdin. İndi öldükdən sonra acıqlı halda ağlayırsan.Yenə dünyada ikən bol-bol danışır və sevincli görünürdün.İndi torpaq altında isə yaslı və hüznlüsən,eyni zamanda heç danışmırsan."

Nəhayət, camaat qəbrin yanından uzaqlaşanda yenə həmin səs üç dəfə qışqırar:-"Ey bəndəm, indi əməllərinlə təkbaşına qalmısan. Dünyadakı yaxınların, dostların və sevdiklərin hamısı səni tərk edib,

getdilər. Səni qəbrin soyuq qaranlığı içində tək-tənha qoydular.Halbuki sən onlardan ötrü mənə qarşı üsyan edib,pisliklərə bulaşdın. Onlardan ötrü halal haramı ayırd etmədən əlləşdin.Lakin bu gün mən iman sahibi olan bəndələrimə bir ananın balasına olan şəfqətindən daha çox şəfqətli hərəkət edirəm**."(Dəkail-ul Əxbər)**

Biz getsək, yenə də duracaq cahan,
Bizdən qalmayacaq bir iz, bir nişan.
Biz yoxkən çəkmirdi o, heç bir zərər,
Getsək də,görünməz onda bir nöqsan.(Ömər Xəyyam)

HARADA OLSANIZ, ÖLÜM SİZİ TAPACAQ

əl-Cumuə-8-Həqiqətən,sizin qaçdığınız ölüm sizi mütləq yaxalayacaqdır.Nə qədər onu sevməsəniz də, ondan qaçsanız da, o sizə yetişəcəkdir.Sonra siz gizli və aşkarı bilən Allahın hüzuruna qaytarılacaqsınız. O da sizə dünyada nələr etdiyinizi xəbər verər və əməllərinizin cəzasını alarsınız.

Hisa 78-"Harada olursunuzsa olun, hətta uca və möhkəm qalalar içərisində olsanız belə,ölüm sizi haqlayacaqdır."

əl-Ənbiya-69-Bütün can sahibləri ölüm şərbətini dadacaqdır.Biz sizi xeyirlə və şərlə imtahan edərik.Hamınız bizim tərəfimizə qayıdarsınız.

Qaf-19-Ölüm bihuşluğu həqiqətən gəldi. Bu sənin qorxub qaçdığın və onu inkar etdiyin ölümdür.

Hədis:Malik ibn Ənəs rəvayət etmişdir:Peyğəmbərimiz buyurur ki:"Başına gələn bir bəladan ötrü içinizdən heç kimsə özünə ölüm arzu etməsin və belə dua etsin: "Allahım,mənim üçün yaşamaq xeyirlidirsə məni yaşat,yox əgər mənim üçün ölmək xeyirlidirsə, məni öldür**".(Səhihi Buhari)**

Dini hekayə:-Hz. Süleymanın hökm sürdüyü dövrlərdə bir adam qaça-qaça Hz. Süleymanın hüzuruna gələrək,rəng-rufisapsarı, qorxudan tir-tir titrəyən halda Hz. Süleymandan ona kömək etməsini istəyir.

Hz. Süleyman bu adamdan soruşur:-"Nə olub sənə belə,nədir səni bu qədər qorxudan?

Yazıq adam nəfəsi kəsilə-kəsilə belə cavab verir:"Yolda Əzrail mənə elə hirslə baxdı ki,canımı alacağından qorxdum və qaçıb sənin yanına gəldim."

Hz.Süleyman:"Yaxşı,məndən istədiyin nədir?"-deyə soruşur.

Adam cavab verib,deyir:"Ey canları qoruyan ədalətli Padşah! Sənin hökmün küləyə çatar,küləyə əmr et ki,məni Hindistana götürsün.Bəlkə

o zaman canımı qurtararam.”

Hz.Süleyman küləyə adamı istədiyi yerə götürməsini əmr edir.Külək adamı Hindistana tərəf uçuraraq,aparıb ora qoyur.

Ertəsi gün divan qurulur və hər kəs Hz. Süleymanın hüzurunda toplanır. Hz.Süleyman Hz.Əzraildan soruşur:-Dünən mənim yanıma bir adam gəldi və sənin ona əsəblə baxdığını dedi.O müsəlmanı evindən,bağından, arvad-uşağından uzaqlaşdırmaqdan ötrü elə baxdın?

Hz.Əzrail:“Ey Süleyman!Mən ona əsəbi deyil,təəccüblə baxdım. Çünki Cənabi-Haqq:-O qulun canını bu gün Hindistanda al!- deyə əmr etmişdi. Mən də adamı burada görüncə təəccüblə öz-özümə düşündüm ki:-Bu adamın burada nə işi var?Bu adamın yüzlərlə qanadı olsa belə,bu gün onun Hindistana gedib çatması qeyri-mümkündür.Bu səbəbdən də ona maraq və təəccüblə baxdım. Lakin Hindistana getdiyim zaman o adamı orada gördüm və vəzifəmi yerinə yetirdim,”-deyərək Hz.Süleymana cavab verir.

Açıqlaması-İnsanlar yoxsulluqdan və ölümdən qorxarlar.Halbuki bütün dünya işlərini, ölüm həqiqətini qəbul edib,göz önündə tutaraq yerinə yetirməliyik. Kimdən nəyi qaçırırıq?Allahdan qaça biləcəyimizi düşünmək böyük bir cahillik deyildirmi? **”(Mövlanə Cəzalinin” Kimyayi Səadət”-tərcümə A.Aydın.)**

Hədis:Hz. Əli buyurur:-Müsəlmanın üç dostu vardır:

1.Birinci dost deyər ki, mən diriliyində də, öləndə də sənin ləyəm. Bu dost insanın əməlləridir.

2.İkinci dost deyər ki, mən qəbrin ağzına kimi sənin ləyəm .Bu dost insanın övladlarıdır.

3.Üçüncü dost deyər ki, mən ölənə kimi sənin ləyəm. O da var dövlətdir.İnsan öldüyü zaman onun var-dövləti vərəsələrinə çatar.

Qalx ayağa, cahanla vidalaşıb köç daha,
Fitnə-fəsad yurdunda qala bilməz köç daha,
Köçməlisən yurdundan daha gözəl yurda sən,
At hücrəni, bir qapı aç üzünə burda sən.
Qəlbin ahla, gözlərin yaşla dolar bu yolda,
Könül aşın, göz yaşın sirdaş olar bu yolda.
Zərrə qədər halına hanı yanan dünyada?
Ülviyyətə qovuşar canı yanan dünyada.
Köçüb könül oxşayan arif kəslər haçandır,
Yalqızlıqdan ülviyyət səni səslər haçandır.
Fənalığa uğrayıb talanınca varlığın,
Ayrılığın oduna qalanınca varlığın,

Qədəmini sidq ilə atmalısan mənzilə,
Atıb ağır yükünü çatmalısan mənzilə.
Dünya evi hədərdir, könül də bir məskənin,
Ucal uca göylərə, könüldədir məskənin. (“Sirlər xəzinəsi”)

ÖLÜM VAXTI HEÇ KƏS HEÇ KƏSƏ KÖMƏK EDƏ BİLMƏZ

əl-Bəqərə-48-“Qorxun, can vermək günündən ki,bir can sahibi o biri can sahibinə bir şeyi əvəz verə bilməz.Yəni can verən şəxsin layiq olduğu cəzanı bir nəfs(insan) ondan dəf edə bilməz və ondan şəfaət qəbul olmaz ki,onun şəfaəti ilə ölüm təxirə düşsün.Ondan bir nəfər əvəz kimi götürülə bilməz ki, onun əvəzinə başqa bir adam əvəz və fəda olsun. Ölümü və cəzanı ondan qaytarmaq üçün onlara kömək olunmaz.”

əl-Qiyamə-26-34-“Xeyr, can boğaza, köprücük sümüklərinə gəlib yetişəcəyi vaxt, məni kim xilas edə bilər?-deyiləcəyi,ayrılıq dəminin gəlib çatdığını anlayacağı və (ölüm qorxusundan qıçı-qıçına dolaşacağı) zaman aparılacağı yer Rəbbinin hüzuru olacaqdır.”

Hədis:İmam Cəfəri Sadiqdən buyurulur:”Allahı dost tutmaq iddiasında olan,lakin övlad və ya mal məhəbbətinə görə ölmək istəməyən adamın dostlugu həqiqi deyil.Həmçinin dünyada müxtəlif bəlalara giriftar olan və bu iztirablı həyatdan xilas olmaq üçün ölməyi arzu edən kəsləri də, Allahın dostu hesab etmək olmaz.

Bütün varlıqları yaradan Allahdır, qayıdış da Allahadır.Bu qayıdışdan başqa bir tale yoxdur.Fərq yalnız əməl və niyyətdə, gedilmiş yol və məqsəddədir.Son isə budur: “Müəyyən olunmuş vaxtda,ayrılmış müddətdə ölümdür,Allaha qayıdışdır.Məhşər və Toplanış günündə cəmlənməkdir. Allahdan da mərhəmət və məğfirət, ya da qəzəb və əzabdır**.(Zubdətul Əhadis.)**

əl-Vaqiə-83-96-Bəs nə üçün vəfat edərkən ruh hulquma yetişdikdə siz ona meyitə baxırsınız,onun əhvalını görürsünüz, ancaq ondan ölümü dəf edə bilmirsiniz.Biz ona sizdən daha yaxınıq,lakin siz bizi və ya bizim etdiklərimizi görmürsünüz.

Əgər sizə cəza verilməyəcəksə və əgər doğru deyirsinizsə,nə üçün ruhları bədənlərə qaytarmırsınız? Nə üçün əzizləriniz vəfat edəndə ölümün qarşısını ala bilmirsiniz və dayanıb baxırsınız?Əgər can verən şəxs Allaha yaxın olanlardandırsa, onun üçün vəfat edəndən sonra rahatlıq,y eməli,qoxumalı,nemətlə dolu Cənnət var ki, ruh ora daxil olar.Əgər sağ tərəf əshabındandırsa, o zaman sənə salamatçılıq vardır.

Ancaq əgər insan ikinci dəfə dirilmə və Peyğəmbərləri təkzib edənlərdən və haqq yolunu azanlardandırsa,onun azuqəsi qaynar sudandır,özü də Cəhənnəmə yetişəcəkdir.Şübhəsiz ki,Cəhənnəmə yetişmək haqdır.Elə isə böyük olan Allahın adını zikr et!

Açıqlama: Müsəlman alimləri ölümü və ölüm qabağı saatları təsvir edərkən bildirirlər ki, ölümqabağı canvermə yalnız canverən şəxsin hiss edə biləcəyi, təsvirəgəlməz güclü əzablarla müşahidə edilir.Can üstündə olan insan ölümün sıxıntısı,acısı, qəm və iztirabı ilə boğuşmaqdadır. Ölümqabağı ağrıların acısını həm bədən,həm də ruh çəkir.

Bədənindən ruhunu çəkib çıxarmaq üçün Ölüm mələyi əlini ölənin ağzına doğru uzadarkən, insan ona yalnız baxa-baxa durur. Bu zaman ağrılar bütün damarları, oynaqları,sinirləri, hər tükü və təpədəndırnağa qədər dərinin hər parçalarını bürüyür.Sanki bədən üzvləri küt mişarla, qılıncla kəsilir. Sonra ruhun ayaqdan yuxarıya olmaqla bütün bədənindən çəkilir.

İzahedilməz ağrı bütün bədənə yayılaraq,ölüm sıxıntısı ilə qəlb çırpınmağa başlayır. İnsan ölüm ağrısı ilə çırpınarkən Ölüm mələ-yinin çöhrəsi ilə üz-üzə gələcək.Bu çöhrə o zamanədək gördüyü ən gözəl və ya ən çirkın çöhrə olacaq.Bu zaman o nə qışqıra bilir, nə də fəryad edə bilir və həyat gücü artıq onu tərk edir. Artıq ölüm mələyi ayaqdan başlayaraq ruhunu çəkməyə başlayır. Ölüm görməni zəiflədir, dərrakəni dağıdır, nitqi iflic edir,can verən şəxs var gücü ilə qışqırmaq istəyir, ancaq bunu etmək gücündə olmur. Nəhayət, onun əzaları bir-bir ölməyə başlayır. Əvvəlcə onun ayaqları, topuqları və dizləri soyuyur. Ölüm udlağa çatana qədər bütün bədəni bürüyür, ürəyin bərk döyüntüsü ilə sinə qalxıb enir və bu vaxt o dünyaya və onun sakinlərinə vida baxışı ilə baxır, gözlərindən axırıncı yaş damlaları süzülür,onun üçün tövbə qapıları örtülür və onu böyük təəssüf və hədsiz qəm hissi bürüyür.Əgər o, hələ nə isə eşitmək halındadırsa,yalnız boğazından və sinəsindən çıxan fısıltı və xırıltını eşidə bilir.Ruhu da bədənini bu xırıltı və fısıltı ilə tərk edir. Dünyadakı müddətinin bitdiyini, ruhunun bir quş kimi qəfəsdən çıxıb azad olduğunu başa düşdükdə, o anda könlünə son dərəcə kədər, üzüntü və ya nəşə və sevinc hakim olur.Sonra isə hansı müjdə ilə qarşılaşacağının xiffəti onu daha da sıxır.

Hər insan əcəli gələndə ölər.Ölum insanın yox olması demək deyildir. Yalnız ruhun bədəndən ayrılması və sonsuz bir aləmə köçməsidir. İnsanın ölümü ilə bədəndən ayrılan ruh, Axirət aləminin başlanğıcı olan qəbir həyatını yaşayır. Qəbirdə İnkir və Minkir adında iki mələk insana bir sıra önəmli suallar verərlər.Bu sualların başlıcaları bunlardan:

”Rəbbin kimdir? Dinin nədir? Peyğəmbərin kimdir? Kitabın nədir? Ölümdən sonra dirilib hesab verməyə inanmaq imanın bir şərtidir.

Bu, gecədən sonra səhərin,bahardan sonra qışın gəlməsi kimi labüddür.Ölümlə ikinci dəfə doğulacağıq. Sanki dünya bir tarla, məhşər bir xırman,Cənnət və Cəhənnəm isə anbardır. Bütün yaxşılıqlar, gözəlliklər,faydalı və xeyirli,əməllər sahibləri Cənnətə toplancaq. Hər cür pislik, çirkinliklər, zərərli və xeyirsiz insanlar isə Cəhənnəmə toplanacaqlar.

Hədis: Peyğəmbər(s.ə.s.)buyurur:-İnsan ölüm döşəyində can çəkişdirdiyi zaman bir səs ölüm mələyinə:“Bir az burax,istirahət etsin,”-deyə səslənər.Can boğaza gəldikdə, yenə həmin səs:“Burax, əzalar birbiri ilə vidalaşsın,”-deyə səslənər.

Bundan sonra gözlər:-(Əssalamu əleykum ilə yövmil qiyamə) Salam sizə Qiyamətə qədər”-deyərək bir-birləri ilə vidalaşarlar. Qulaqlar,əllər, ayaqlar və nəhayət. ruh da bədənlə eyni şəkildə bir-biri ilə vidalaşarlar. (**Zəhrətüz-Riyaz)**

Hədis: Sevgili Peyğəmbərimiz Məhəmməd (s.ə.s.) qəbirdə insanların bu fərqli halını belə təsdiqləmişdir:”Qəbir, hər insan üçün dünyadakı durumuna görə ya Cənnət bağlarından bir bağça,ya da Cəhənnəm çuxurlarından bir çuxurdur.”Bundan aydın olur ki, hər insan vəziyyətinə uyğun olaraq qəbir həyatı yaşayacaq**.(Hədisi Qüdsi)**

Hədis:Hz.Əli buyurur:Allahın bir mələyi vardır ki,hər gün belə nida edər:“Ölmək üçün doğun.Fani olmaq üçün toplayın. Xarab olmaq,dağılmaq üçün tikin.” **(Zubdətul Əhadis.)**

Hədis:Hz.Loğman öz oğluna belə buyurdu:

1- Axirət səfəri üçün öz gəmini möhkəm düzəlt,çünki dərya çox dərindir.

2- Öz yükünü azalt və yüngülləşdir,çünki aşırımlar və mənzillər çox çətin və qorxuludur.

3- Öz azuqəni, axirət üçün yol ehtiyatını çoxalt, çünki səfər uzaqdır.

4- Öz əməlini xalis et,çünki əməli yoxlayan səxs çox yaxşı görən və gözüaçıqdır. **(Zubdətul Əhadis.)**

Axirəti düşünmək əmr olunmuş həmişə,
Həqiqi ağalıqda da qul olmaqdır dərvişə.
Gəl Süleyman mülkünü sorma hər an hardadır?
Mülk o mülkdür, soruş ki, bəs Süleyman hardadır?
Torpaq həmən, o boynu yoğun düşməndir,yaddır.
Çərx isə,boyunvuran həmin zalım cəlladdır.

Kim istər dünya ilə etsin dostluq, yoldaşlıq?
Vəfasızdır, bəllidir bizə ondakı qılıq.
Torpaqda yaşayanlar torpaq oldular. bir bax!
Bu torpaqda nələr var, nə bilir ki, o torpaq.
Hər bir yarpaq-üzüdür bir dilbər azadənin,
Təpəsidir basdığın hər yer bir şahzadənin.
Biz öz gəncliyimizi vermişik bu dünyaya,
Biz ki ondan doğmuşuq,nədən qocayıq aya? ("Sirlər xəzinəsi.")

İLK ÖLÜMDƏN SONRAKI BƏRZƏX ALƏMİ

Açıqlama:-İnsanın vəfat edib Qiyamət gününə qədər dalacağı yer Bərzəx aləmi adlanır.Bərzəxin lüğəti mənası pərdə,manie deməkdir. Yəni iki şeyin arasında dayanıb, onların bir-birinə qovuşmasına mane olan pərdə deməkdir.

Bərzəx aləmi bu aləmə oxşadığına görə, ona "aləm misalı"da deyilir. Bu oxşarlıq zahiri formaya görə deyilir,maddilik və digər xüsusiyyətlərinə görə isə fərqlidirlər. Məsələn:-Bərzəxdə bədən misalı bədəndir, yəni forması bu dünyadakı kimidir,lakin maddi deyildir,lətifdir. Onun üçün heç bir manie yoxdur.

Bu haqda İmam Sadiq (ə.s.) belə bir hədis buyurur:"Yuxuda misali bədən görsəniz, elə həmin dünyəvi bədəndir"-deyərsiniz.Yəni yuxuda vəfat etmiş adamı görsəniz, həmin dünyəvi bədəndə müşahidə edərsiniz,hansı ki onun maddi cismi qəbirdədir. Biz gördüyümüz isə misali bədəndir. Bərzəxdə bədənin dünyadakı kimi gözləri var, amma gözlərin yağı və ağrısı onda yoxdur."Bu gözlər Qiyamət gününədək görəcək, lakin dünyadakı gözlər kimi zəifləməyəcək."

Maddi olmayan Bərzəx aləmində bu dünyadakı kimi dərdlər yoxdur, həmçinin bu aləm axirət kimi də deyildir. Ölumdən sonra elə bir aləmə daxil oluruq ki, bu dünya ona nisbətən ana bətnini xatırladır.

Doğrudan da, hər bir insan yuxu görür və bu yuxu zamanında biz bir çox tanıdığımız və yaxud da tanımadığımız insanları görürük.Tanıdığımız insanları öz cismində, öz şəklində müxtəlif vəziyyətlərdə, yeyib-içən, cürbəcür geyimlərdə, ayrı-ayrı yerlərdə və ayrı-ayrı vəziyyətlərdə görürük. Əlbəttə, onların özləri kimi onların yemək-içmələri də maddi deyil, lətifdir.

Bu haqda Peyğəmbərin hədislərində belə buyurulur:"Ölən insanlar Bərzəx aləmində gözləyəcəklər. Əgər ölən adam mömin və saleh bir insan isə o Bərzəx aləmi ona Cənnət bağçası halına gələcək və minlərlə

il qalsa belə, sanki bir gün keçmiş kimi zənn edəcək.”

Ancaq kafirlər və günahkar insanlar üçün Bərzəx aləmi bir əzab yeri olacaq onların bir anı minlərlə il kimi uzun olacaq.Bərzəx aləmindəki həyat və zaman bu dünyadakı kimi deyil.Orada hər adamın öz əməlinə görə nemətlər və ya əzablar verilir. Bərzəx aləmindəkilərin də özlərinə görə bir həyatı vardır, ləzzətləri, əzabları, fərəh və sevincləri hiss edərlər. Lakin hələ maddi aləmdə olanlar ruhun bədəndən sonrakı həyatını və orada adamın nələr hiss etdiyini, nələrlə qarşılaşacağını normal duyğular ilə hiss edə bilməzlər.

Peyğəmbərimizin hədislərində mömin ruhların Bərzəx aləmində birbirlərilə görüşdükləri söylənilir. Ayrıca ölülərin həyatdakılardan xəbərdar olduqları və qəbirlərinin başına gedən kəsləri gördükləri haqda da rəvayət və hədislər vardır. Onlar üçün edilən dua və mənəvi hədiyyələrin kimlərdən gəldiyini belə bilərlər. Mömin ruhlar nemət içində olduqları və ruhları sərbəst olduqları üçün sərbəst gəzə bilərlər. Ancaq kafirlərin ruhları və günahları çox olan möminlərin ruhları əzabla məşğuldurlar.

Bərzax aləmindəki yaşayış necədir?-sualının cavabında Şah Vəliyyullah Dəhləvi belə deyər:”Bu aləmdə insanların (yəni ruhlarının) sayıla bilməyəcək qədər çox təbəqələri vardır. Lakin bu təbəqələr başlıca dörd sinifdir.Birincisi, oyanıqlıq (yəkəzə) əhli olanlardır ki,yaxşılıqları və pisliklərinə görə,yaxşılıq və ya əzab görəcək olan ruhlardır. İkincisi isə təbii yuxu halında olub yuxu görən;yuxu ilə fərəhləndirilən və ya əzablandırılan ruhlardır. Üçüncüsü, behimi,(heyvani) bunlar istiqamətləri zəif olanlardır. Bunlardan başqa bir də fəzilət əhli, mələkmisal, yaxşı ruhlar vardır ki, (dördüncü sinif) bunlar mələklərə qarışar, mələkmisal bir həyat sürərlər.” **(Huccetullahi’l-Baliğa, Qahirə 1355, I, s. 34-36).**

əl-Muminun-100-101-Onların birinə ölüm gəlib çatdığı zaman o belə deyər:Ey mənim Allahım, məni dünyaya qaytar.Bəlkə mən tərk etdiyim imana yenidən daxil olub,yaxşı əməllər edim.Xeyr, belə deyildir!Dünyaya qayıtmaq olmaz!Bunu onlar dil ilə deyirlər. Onların qarşısında diriləcəkləri günə qədər maniə (bərzax-pərdə) var ki, dünyaya qayıtmağa qoymaz.

əl-Əhqaf-35-Ya Peyğəmbər!Ulul-əzim Peyğəmbərlər kimi sən də səbir et.Onlar üçün əzabin gəlməsinə tələsmə!Onlar əzab verilən günü gördükdə elə güman edərlər ki, dünyada sadəcə bir saat qalıblar. Yəni Bərzəx aləminin,ya Qiyamət gününün uzunluğu müqabilində dünyada sürdükləri ömür çox az görünər.

Bərzəxdə əzablar da vardır, bu haqda Qurani-Kərimdə belə buyurulur:

ət-Tovbə-101-"Biz onlara iki dəfə:-dünyada və qəbir evində (Bərzəxdə)əzab verəcəyik.Sonra axirətdə ən böyük əzaba uğradacağıq."

"40-sual" kitabından: Allah Ərşi-əzəmin altında və onun nurundan,Ərşin dirəyinə bitişik qırmızı mərcan rəngində büynuz biçimində böyük və çox uzun, içi boş bir şey yaratmışdır ki,boşluğunda birinci və ikinci Bərzaxı yaratmışdır. Gələcəkdə insan bədəninə girəcək olan ruhlar ilə, gəlmiş və getmiş olan bütün ruhların yeri buradır. Göy və Yer kürəsi və digər gəzəgənlər, dairələr kimi heç biri digərinə toxunmadan bu boşluqda düzülmüşlər.Bu boş yer İsrafilin surudur ki, onun iç üzündə bir min yuvarlığa açılan, çuxur kimi çuxurlar qazılmışdır. Birinci Bərzəx aləmində gələcəkdə doğulacaq olan insanların bədənlərinə girəcək olan ruhlar yerləşir ki, hərə öz növbəsini gözləyir. İkinci Bərzəxdə bədəndən çıxıb,Qiyamət gününədək gözləyəcək olan ruhlar yerləşir. Onlar o iç üzdəki çuxurlarda məskunlaşmışlar. Uçan ruhların hər biri mərtəbələrinə görə o çuxurlarda öz məqamlarında yaşarlar**.**

Hədis:-Peyğəmbər Muhəmməd (s.ə.s.)buyurur:"Qəbir hər insan üçün dünyadakı durumuna görə, ya Cənnət bağçalarından bir bağça və yə Cəhənnəm çuxurlarından bir çuxurdur."

Hədis:-Həzrəti Peyğəmbərdən belə rəvayət olunur,Seyydi-şuhəda Həmzənin şəhadətindən sonra onu belə yuxuda görmüş ki, onun qabağında behişt meyvələrindən ibarət bir tabaq varmış.O, meyvələrdən yeyəndə özünün istəyi ilə nar üzümə,üzüm yenidən xurmaya çevrilirdi. Bərzəx aləminin bu fani dünyadan üstünlüklərindən biri də orada təsir gücünün böyüklüyüdür.

DÜNYANIN SONU HAQQINDA

Açıqlama:-Hər şeyin sonu,bir ölümü olduğu kimi,dünyanın da ölümü vardır.Gec və ya tez, bir gün mütləq bu dünyanın, yer və göylərin nizamı pozulacaq, yerdə və göydə olanların hamısı öləcəkdir.Həmən o günə "Qiyamət"deyilir. Əvvəli və sonu olmayan Vahid Allahdır. Çünki O, Əvvəldir və Axırdır.

Elmi tədqiqatlar nəticəsində müəyyən olunmuşdur ki,yer üzü 15 milyard il öncə, böyük bir partlama nəticəsində əmələ gəlmişdir. Qiyamətin qopacağı,bütün dinlərdə və səmavi kitablarda sübut olunduğu kimi,ağılla və elmlə də təsdiq olunmuşdur.Bu gün dünyanın və kainatın yıxılıb dağılması haqqında bir çox elmi mövzular ortaya qoyulmuş, düzgün hesablamalarla bir gün kainatın sonu gələcəyi və Qiyamətin qopacağı isbatlanmışdır.Fizika və astronomiya elmi ilə məşğul olan dünya alimləri

kainatın “entropiya”sının (nizamsızlığın göstəricisi) davamlı artdığını və yer kürəsinin də genişləndiyini bildirirlər.Bu artım maksimumdan keçər və nəhayət artım müddəti sıfır olar. O anda bütün hərəkət durar. Bu isə kainatın sonu deməkdir.

Yer kürəsi sürətlə hərəkətdədir və ulduzlar, qalaktikalar sürətlə bir-birindən uzaqlaşırlar. Dünyanın, kainatın böyüklüyünü, ölçüsünü, insan əqli dərk edə bilməz. Allahın “Ol!”əmri ilə yaranan və əz-Zariyat-47 ayəsində buyurduğu kimi: “Biz göyü qüdrətimizlə yaratdıq və biz onu genişləndirməkdəyik.”Bu ayədən də məlum olur ki, yer kürəsi get-gedə genişlənməkdədir.

Günəş Qalaktikada olan 200-250 milyard ulduzdan biridir. Yerdən 325 min dəfə böyük olsa da, kainatdakı ulduzların yanında çox kiçikdir. Günəş sistemi qalaktikanın mərkəzindən 30 min işıq ili uzaqlığındadır.Bu işıq ili isə 9 trilyon 460 milyard,800 milyon km-dir.Günəş saatda 72.000 km sürətlə fırlanır, qalaktikamız isə öz oxu ətrafında saatda 900.000 km sürətlə fırlanır. Qiyamət günü isə bu düzən darmadağın olacaq.

Məlum olduğu kimi kainatın yaradılması”Binq bənd” deyilən böyük partlayışla başlayıb.Həmin dövrdən indiyə qədər də kainat genişlənməkdədir.Alimlər bildirirlər ki, kainatın kütləsi kifayət edəcək miqdara çatanda bu genişlənmə prosesi cazibə qüvvəsinə görə dayanacaq və bu da öz daxilinə çəkilməyə,büzülməyə başlamasına səbəb olacaq. Kainatın büzülməsi prosesi isə axırda“Binq krənç”-”Böyük büzülmə” deyilən çox yüksək bir istilik və sıxılma ilə nəticələnəcəyi qeyd olunur. Bu isə bizə məlum olan həyatın yox olması mənasına gəlir. Bu haqda Quranda belə buyurulur:

-əl-Ənbiya-104-Biz yeri kitab səhifəsi kimi büküb qatlayacağımız günü yadınıza salın.İlk dəfə yaratdığımız kimi qaytarıb əvvəlki halına salarıq. Biz yerinə yetirməli olduğumuz vədi mütləq yerinə yetirəcəyik. Başqa bir ayədə:

-əz-Zumər-67-“Allahı lazımınca qiymətləndirmədilər.Halbuki, Qiyamət günü yer bütünlüklə Onun ovcunun içində olacaq, göylərisə Onun sağ əli ilə büküləcəkdir. O, aid etdikləri sifətlərdən tamamilə uzaq və ucadır. Açıqlama:XX əsrin əvvəllərində rus fiziki Aleksandr Fredman və Belçikalı astrofizik George Lemayt kainatın fasiləsiz hərəkət halında olduğunu və genişləndiyini bildirən hesablamalar aparmışdır. Bu, həqiqətən 1929-cu ildə müşahidələrlə sübut olunmuşdur. Amerikalı astronom Edvin Hubbi nəhəng teleskopla göy üzünü araşdırarkən ulduzların və qalaktikaların bir-birindən sürətlə uzaqlaşdığını kəşf edir. Ulduzlar və qalaktikalar ancaq bizdən deyil, həm də bir-birlərindən də

uzaqlaşırlar.Hər şeyin fasiləsiz olaraq bir-birindən uzaqlaşması"davamlı geniş-lənən"bir kainat mənasına gəlir. Bu kəşf astronomiya tarixində böyük kəşflərdən biri sayılır. Kainatın genişlənməsi sonrakı illərdə də təsdiq edildi. Mövzunu daha yaxşı başa düşmək üçün kainatı, doldurulmaqda davam edən bir şarın səthi kimi təsvir etmək olar. Şarın üstündəki nöqtələr şar dolduqca bir-birindən uzaqlaşdığı kimi, kainatdakı cisimlər də bir-birindən uzaqlaşır.Sonra isə son həddə çataraq, büzüşməyə başlayacaq. Əslində,bu həqiqət XX əsrin ən böyük alimi olan Albert Eynşteyn tərəfindən də nəzəri olaraq kəşf edilmişdi. Lakin Eynşteyn həmin dövrdə qəbul edilən "Statik kainat modeli"nə zidd çıxmamaq məqsədi ilə bu kəşfini bir kənara qoymuşdu. Eynşteyn sonralar bu hərəkətini" karyerasının ən böyük səhvi"adlandırır.Bu elm hələ heç bir insana məlum olmadığı halda,14 əsr bundan qabaq Qurani-Kərimdə açıqlanmışdır.

Dini hekayə:-Yaşlı bir adam dükana gələrək dükançıya:"Mənə tərəzini borc verərsənmi? Qızıl çəkəcəyəm,"-deyir.

Dükançı:"Məndə xəlbir yoxdur" deyir.Adam:"Mənimlə zarafat etmə, mən səndən tərəzi istədim,"-deyincə,bu səfər dükançı:

"Dükanımda süpürgə də yoxdur,"-deyə cavab verir.Adam əsəbi ləşərək:"Nəyə görə məni belə ələ salırsan?-deyə soruşur.

Dükançı cavab verir:"Tərəzi istədiyini eşitdim, fəqət sənin çox yaşlı olduğunu gördüm. Bədənin zəif, əlin-ayağın titrəyir. Qızıl tozlarını çəkərkən onları yerə, torpağa tökəcəksən.Tökdüyün qızıl tozlarını yığmaq üçün məndən süpürgə istəyəcəksən. Süpürdüyün qızılları torpaqdan ələmək üçün məndən xəlbir istəyəcəksən. Bu səbəbdən də son istəyəcəyin şeyi təxmin edərək, sənə əvvəldən:-"məndə xəlbir yoxdur,"- dedim.

Açıqlaması:-Ağıllı insanlar işin sonunu düşünərək əvvəldən tədbirlərini görürlər. Nadanlar isə işin sonunda başlarına vurub döyürlər. Yəni insan axirətdə başına gələcəkləri təxmin edərək,bu dünyada ikən hazırlıq görər ki, Qiyamət günü peşman olmasın. **(Mövlanə Cəzalinin" Kimyayi Səadət"-tərcümə A.Aydın.)**

Hədis:-Peyğəmbərimiz belə buyurur:"Allahın rəhməti 100 parçadır. Ondan bir parçası yer üzündə yaşayanlara, 99 parçası Cənnətdə, yalnız möminlərə veriləcəkdir. Kafirlər isə dünyaya bəxş edilən o, bir parçadan yararlanarlar.Axirətdə isə Cəhənnəmdə yanarlar.

Hədis: Cəfəri Sadiqdən buyurulur:Peyğəmbər(s.ə.s.) Qiyamət günü haqqında belə buyururdu:-Canım qüdrətinin əlində olan Allaha and içirəm,üç yer vardır ki, insan orada özündən başqa heç kəsi xatırlamayacaq.

1-ci "Mizan"tərəzisi qurulub, insanların əməlləri ölçüldüyü zaman.

Yaxşı əməllərin ağır və ya yüngül gəldiyi zaman.

2-ci Əməl dəftərləri paylandığı zaman, sağ və ya sol əlinə veriləcəyini bilənəcən.

3-cü Altında Cəhənnəmin alovu olan Sirat körpüsünü keçib qurtaranacan. **(Hədisi Qüdsi)**

QİYAMƏT HAQQINDA

Ey fələk! Dolanmağın yetməzmi, yavaşı sən
Ey yer! Qurtar bu zülmü, bu cövrü, savaşı sən.
Hər gecənin gündüzə dönməyi var əzəldən,
Ucalmağın, bəllidir, enməyi var əzəldən.
Zəlzələnin dəhşəti ərzə qorxu salanda,
Yerin dərin qatına lərzə, qorxu salanda,
Sərsəmlikdən torpağın coşar kini qəzəbdən,
Parçalayar fələyin zəncirini qəzəbdən
Sərsəri yel bağrını didib, sökər torpağın,
Zəncirini əliylə qırıb tökər torpağın. (“Sirlər xəzinəsi”)

QİYAMƏT GÜNÜNÜN BAŞ VERƏCƏYİ HAQDA XƏBƏRLƏR

Açıqlama:- Qiyamət haqqında Qurani-Kərimdə 1400 il bundan qabaq xəbər verilmişdir və burada əsas məsələ insanların ömrü deyil,yer kürəsinin, günəşin, ulduzların, yəni kainatın sonundan bəhs edilir. Allahdan Qurani-Kərimin ayələrində və Peyğəmbər (s.ə.s.) tərəfindən söylənilən səhih hədislərdə Qiyamətin gəlməsi və onun yaxınlaşdığı zaman dünyada baş verəcək hadisələr və əlamətlər haqqında bizə xəbərlər çatdırılmışdır.

İslam alimi və filosofuları bu suala hikmətli bənzətmə ilə cavab vermişdir:”Quran “Qiyamət yaxındır”-deyə fərman verir.Bu qədər illər keçdikdən sonra Qiyamətin gəlməməsi, onun yaxında olmasına da zəmanət vermir.Bilin ki,Qiyamət dünyanın əcəlidir.Qiyamət saatı yalnız insaniyyətin əcəli deyil ki, onu insan ömrü ilə müqayisə edək.Qiyamət bütün Yer kürəsinin, günəşin, ayın, ulduzların, dağların,dənizlərin və kainatın ölümüdür.”

Qiyamət gününə aid ayələrdən belə başa düşülür ki, Qiyamət günü Allah-taala kainatda var etdiyi,qoyduğu nizamı məhv edəcək. Günəşin, ayın öz orbiti üzrə hərəkəti, ulduzların düzülüşü, yerdə dağların,

dənizlərin, bütün canlıların nizamı pozulub məhv olacaq.Bütün səmavi dinlərdə Qiyamət gününün gələcəyi haqqında xəbərlər verimişdir.Bu haqda Qurani-Kərimdə belə buyurulmuşdur:"Öz yaranışını unudub;"bu çürümüş sümükləri kim dirildəcək?-"deyərək bizə misal gətirənə de ki:"Onu birinci dəfə kim yoxdan var etdisə, elə O da dirildəcəkdir."

İnsanların çoxu Qiyamət günü haqqında müəyyən dərəcədə məlumatları olsa da, bu haqda düşünmək və danışmaq istəməzlər. Qiyamət gününün gəlməsi, onda yaşanacaq qorxulu anları ağıllarına gətirməmək üçün bu haqda heç eşitmək də istəməzlər. Bu müvəqqəti dünyanın həqiqətlərini eşidib-görmək istəmədikləri kimi, əbədi qalacaq dünyalarının da həqiqətlərini yada salıb, xatırlamaq istəməzlər.

əl-Ənbiya-1-Qiyamətin zühuru sizdən nə qədər uzaqdırsa, Allah yanında bir o qədər yaxındır. Kafirlər Rəbbləri tərəfindən göndərilən hər bir öyüdü eşidir, lakin başlarını əyləncələrlə qatıb, oynamaqla məşğul olarlar.

əl-Nəcm-56-62-Qiyamət günü yaxınlaşdı,onun gəlməyini Allahdan başqa heç kəs bilməz!Məgər siz bu sözə təəccüblənirsiniz? Orada olan vədlərə gülürsünüz? Bəs nə üçün ağlamırsınız?Siz qəflətdə qalıb oynayanlarsınız! Allaha səcdə və ibadət edin!

əl-Mursəlat-7-Sizə vəd olunan əzab, əlbəttə, baş verəcək, yenidən dirilmək, məhşər, hesab mütləq olacaq.

Hədis:İmam Həsən Əsgəri buyurur:"Həqiqətən, sizin əcəlləriniz çatmaqda, günləriniz,ömürləriniz qısalmaqdadır. Ölüm isə gözlənilmədən gəlir. Hər kəs yaxşılıq toxumu əksə, ruzili, faydalı məhsul götürər. Pislik toxumu əksə, peşmançılıq məhsulu dərər."Hər bir əkinçi öz məhsulunu biçəcək. Hər bir tənbəl öz nəsibinə çatmaqla başqalarından arxada qalmaz, hər bir həris də onun üçün müqəddər olunmayan şeyləri əldə edə bilməz. Hər kəsə xeyir əta olunsa, sübhəsiz ki, onu Allah əta etmisdir. Hər kəs də şərdən saxlansa, şübhəsiz ,Allah onu saxlamışdır**.(Hədisi Qüdsi.)**

Hədis-İmam Cəfər ibn Muhəmməd Sadiq (ə) buyurdu:"Quranı qoruyan və ona əməl edən şəxs Qiyamət günü xeyirxah və sadiq mələklərlə birlikdə olar". **(Üsuli-Kafi, c.2,s.603)**

QİYAMƏT GÜNÜ İLƏ SİZİ QORXUTDUQ

Açıqlama:Allah-taala bizi verdiyi bütün nemətlər ilə birlikdə imtahan üçün yaradıb.Cənnət və Cəhənnəmi bizim üçün hazırlayıb və önümüzdəki təhlükənin ciddi və təhlükəli olduğu haqda da bizə

xəbərdarlıq edir. Lakin aqil insan məkanının harada, aqibətinin necə olacağı haqda düşünüb, öyrənib, dərk etmək istəyir. Çünki həyatı boyu etdiyi səhvlər, Allaha qarşı etdiyi üsyanlar və Onun əmrlərinə qarşı çıxdığı vaxtlar da olmuşdur. Dəfələrlə də Allahın qəzəb və razılığını qazanmışdır. Buna görə həyatının bu ikisindən hansı ilə sonlanacağını bilmək çətindir. Bunu bilənə qədər qayğısı böyük, qorxusu dəhşət, üzüntüsü uzun, sıxıntısı isə şiddətlidir.

Qurani-Kərimdə bir çox surələr və ayələr vardır ki, Qiyamət günündə baş verəcəkləri açıq-aşkar bizlərə çatdırıb,göz önündə canlandırır.Bunlardan:-Vaqiə, əl-Haqqə,(Haqq olan Qiyamət) Qiyamə, Nəba(Böyük xəbər),Təkvir (Sarınma), İnfitar (Parçalanma), İnşiqaq (Yarılma), Ğaşiyə (Bürüyən), Zilzal (Zəlzələ), Qariə (Ürəkləri dəhşətə salan qiyamət) və sair surələri göstərmək olar.

əl-Mumin-18-Ya Peyğəmbər! Onları hövlədən, ürəklərin ağıza gələcəyi, udquna belə bilməyəcəkləri yaxın günlə (Qiyamət günü ilə) qorxut.O gün zalımların nə bir dostu,nə də sözü keçən bir şəfaətçisi olar!

əl-Həcc-1-Ey insanlar!Allahın əzabından qorxun!Həqiqətən, Qiyamət gününün zəlzələsi böyük əmrdir, heç kəs ona tab gətirə bilməz.

İbrahim-42-44-Allahı zalımların etdikləri əməllərdən əsla qafil sanma!Allah onların cəzasını yubadıb elə bir günə saxlayar ki, həmin gün gözləri hədəqəsindən çıxar.Belə ki, onlar başlarını yuxarı qaldırıb durar, gözlərini də qırpa bilməzlər. Onların qəlbləri boşdur. Ürəkləri duyğusuzdur, qəlblərində xeyirdən heç bir əsər-əlamət yoxdur.İnsanları onlara gələcək əzab günü ilə qorxut. O gün zalımlar:"Ey Rəbbimiz! Bizə bir az möhlət ver. Biz Sənin dəvətini qəbul edər və Peyğəmbərlərə tabe olarıq!"Bəs əvvəllər sizə heç bir zaval toxuna bilməyəcəyi barədə and içməmişdiniz?!

Hədis-Rəsulullah (s.ə.s.)buyurdu: Şübhəsiz, Quran oxumaq-günahların bağışlanması, Cəhənnəm atəşindən müdafiə və əzabdan amanda qalmaqdır. Mərhəmət oxuyanın üzərinə enəcək, mələklər onun üçün bağışlanma diləyəcək, Cənnət həmin şəxsə can atacaq və Allah ondan razı olacaq**.(Biharul-Ənvar,93,17)**

ALLAH QİYAMƏT GÜNÜNÜN OLACAĞINA AND İÇİR

Qurani-Kərimin 165 ayəsində Qiyamət günü haqqında xəbərlər verilmişdir.

əz-Zariat-1-8-Andolsun (toz-torpağı)sovurub, dağıdan küləklərə.

And olsun yağışın ağır yüklərini daşıyan buludlara! And olsun sübh zamanı və gün arasında oyaq qalanlar üçün ruziləri bölən mələklərə!Sizə vəd olunan şey haqq-hesab mütləq baş verəcək.

ət-Tur-1-And olsun Tur dağına!And olsun yazılmış kitaba! Şübhəsiz ki, sənin Allahının əzabı baş verəcək.O gündə göylər hərəkətə gəlib çalxalanacaq.Dağlar yerindən qoparaq hərəkət edər.O gün Allahı təkzib edənlərə vay olsan.

əl-Qiyamə-1-2-Mən Qiyamət gününün olacağına and içirəm! Məgər insan güman edir ki, biz onun sümüklərini çürüyəndən sonra cəm edə bilmərik və onu yenidən dünyaya qaytarmağa qadir deyilik?Biz nəinki onların sümüklərini cəm edərik, habelə hissələri çox kiçik olsa belə,barmaq izlərini də düzəltməyə qadirik.

əl-Həcc-7-Qiyamət mütləq gəlməlidir,ondan heç şəkk-şübhə yoxdur. Həqiqətən, Allah qəbirdə olanları dirildər və qaldırar.

Büruc-1-3-And olsun bürclər sahibi olan göyə!And olsun vəd olunmuş günə! And olsun şəhadət verənə və şəhadət verilənə!

ən-Nəhl-38-39-Allaha möhkəm and içdilər ki, Allah ölüləri qəbirdən qaldırmaz. Əksinə, onları qəbirdən dirildib məhşərə gətirər. Allah doğruluqla vəd etmişdir.Allah bütün insanları Qiyamət günü dirildər ki, ixtilaf etdikləri şeyi onlara bildirsin və kafirlər də yalan danışdıqlarını bilsinlər.

Hədis: Hz. Əli buyurur:"Hər kəsdə altı xislət olsa, behiştdə istədiyi mətləbə çatar və Cəhənnəm odundan qurtulmaq barəsində fikirləşməz:

1.Allahı tanıyıb ona itaət etmək.
2-.Şeytanı tanıyıb ona itaət etməmək.
3.Haqqı tanıyıb ona tabe olmaq.
4.Batili tanıyıb ondan uzaqlaşmaq.
5.Dünyanı tanıyıb onu tərk edib,ondan üz döndərmək.
6.Axirəti tanıyıb onu tələb etmək.

SƏNDƏN QİYAMƏTİN NƏ VAXT OLACAĞINI SORUŞARLAR

Fussilət-47-Qiyamət gününü bilmək yalnız Allaha aiddir.Allahın elmi olmadan heç bir ağac yerdən çıxmaz və heç bir qadın hamilə olmaz, sonra da azad olmaz.Allah hamısının zamanını müəyyən edər.

Yasin-48-Onlar:-Əgər doğru danışırsınızsa, deyin görək, əzab nazil olacağı barədə verdiyiniz bu vəd, Qiyamət nə vaxt olacaqdır? - deyərlər.

Muhəmməd-18-Onlar Qiyamət saatının qəfildən başlarının üstü-

nü almasınımı gözləyirlər?Onun əlaməti artıq gəlmişdir.Qiyamət saatı gəlib çatdığı zaman ibrət almaları,peşman olub, tövbə etmələri nə fayda verər?Onlar Qiyamətin qəflətən gəlməsinimi gözləyirlər?

əl-Əhzab-63-Camaat səndən Qiyamət gününü soruşur.De ki: "Onun elmi Allahın yanındadır."Nə bilirsən,bəlkə də,tezliklə qopacaq!

əl-Əraf-187-Səndən Qiyamətin nə vaxt olacağı barədə soruşarlar. Ya Peyğəmbər! De ki,Qiyaməti bilmək yalnız Allah yanındadır.Onun vaxtını Allahdan başqa heç kim aşkar edə bilməz,baş verənə qədər gizli qalacaq. Qiyamətin qorxusu göylərdə və yerdə olanların əhli üçün ağır olar. O, qəflətən sizə gələr. Səndən bu haqda soruşarlar, elə bil ki, sən xəbərdarsan. De ki, onun,Qiyamətin elmi Allah yanındadır. Lakin insanların çoxu bunun Allaha məxsus olduğunu bilməzlər.

QİYAMƏTİN VAXTINI BİLMƏK YALNIZ ALLAHA MƏXSUSDUR

əs-Səba-2-Yerə girən və yerdən çıxan hər bir şeyi, göyə qalxan və göydən düşən hər bir şeyi O bilir.O,rəhmli və bağışlayandır. Kafirlər dedilər:"Bizim üçün Qiyamət gəlməyəcək."Zərrə qədər, ondan kiçik və ya böyük, göylərdə və yerdə Allahdan gizli deyil, hamısı aydın kitabdan(Lövhu-Məhfuzdan) gəlibdir."

əl-Nəhl-77-Göylərdə və yerdə gizlin olan əhvalatları bilmək Allaha məxsusdur. Qiyamətin gəlmək əmri bir göz qırpımına qədər, yaxud ondan da yaxındır. Allah hər şeyə Qadirdir.

əl-Fatihə-3-Haqq-hesab və Cəza gününün sahibi olan Allahdır.

Taha-15-16-Həqiqətən, Qiyamət günü, şübhəsiz ki, yaxında gələcək. Mən onun vaxtını, hər kəsə etdiyi əməl müqabilində cəza verilənə qədər gizli saxlaram.

Hədis-Rəsulullah (s.ə.s.)buyurdu:"Əgər bu dünyada asudəlik və uğur, şəhidlik, itirmə günü xilas olmaq, yolunu azmaq günündə doğru yola yönəlmək, Qiyamət gününün istisindən kölgə istəyirsənsə, o zaman Qurandan dərs götür.Həqiqətən, bu mərhəmətli kəlam, şeytandan müdafiə və yaxşı əməllər tərəzisi üçün ən ağır şeydir**. ("Qiyamət günü."Cəmiul Əxbar, s.78)**

KAFİRLƏR QİYAMƏT GÜNÜNÜ TƏKZİB EDƏRLƏR

əl-Maun -1-Ya Muhəmməd!Qiyamətdə cəza verilməyi və ölümdən sonrakı həyatı təkzib edən kəsi gördünmü?

əl-Furqan-11-Kafirlər səni təkzib etməklə, həmçinin Qiyamət gününə də inanmadılar və öləndən sonra diriləcəklərini də qəbul etmədilər. Qiyaməti təkzib edən kəslər üçün Cəhənnəmdə yandıran od hazır etdik!

əl-Bəqərə-8-Elə insanlar var ki, Allaha və axirət gününə iman gətirdiklərini deyərlər. Lakin onlar iman gətirən deyillər.

əl-Kəhf-35-36-Bağ sahibi olan kişi yoldaşları ilə söhbət edən zaman dedi:"Mən bu bağın fani olacağını güman etmirən. Mən güman etmirəm ki, Qiyamət saatı yetişəcək. Əgər mən öz Allahıma tərəf qaytarılsam, əlbəttə özüm üçün bu bağdan daha yaxşısını yaratmaq üçün yer taparam."

Açıqlama:-Bu ifadədə Allaha inandığını söyləyən, lakin Qiyamətin gələcəyini düşünməyən kimsələrin həqiqi anlayışları ortaya çıxır.

Başqa bir ayədə isə Qiyamət saatı ilə bağlı,şübhəyə düşən inkarçılar haqqında belə buyurulur:

əl-Caziyə-34-Onlara:-Allahın vədəsi haqdır,bu vədə mütləq yerinə yetişəcəkdir və Qiyamətin baş verməsində heç bir şəkk yoxdur,"-deyildiyi zaman:-"Biz Qiyamətin nə olduğunu bilmirik. Bu sözün doğruluğunu zəif zənn etməkdən başqa inamımız yoxdur.Biz Qiya-mətin baş verməsini müəyyən edən deyilik,"-demişlər.

QİYAMƏTİN YAXINLAŞDIĞINI XƏBƏR VERƏN ƏLAMƏTLƏR

ən-Ənam-158-Məgər onlar özlərinə yalnız əzab ilə mələklərin, ya sənin Allahının əmrinin, əzabının, ya onun əlamətlərinin bəzisinin gəlməsini gözləyirlərmi? Sənin Allahının əlamətlərinin bəzisi gələn gün, qabaqcadan iman gətirməyən nəfsin imana gəlməsinin, yaxud iman gətirdiyi zaman yaxşı əməl qazanmayan kəsin imanının ona xeyri yoxdur. Asi möminin nəfsi ilə imanı arasında, onun günahının çoxluğu və yaxşı əməlinin azlığı pərdə salmışdır, imanından, ibadətindən ona xeyir gəlməz. Ya Peyğəmbər! De ki gözləyin, həqiqətən biz də gözləyirik, görək ki, kim xilas olacaq, kim isə əzab görəcək.

əl-Adiyat-9-11-Məgər insan bilmir ki, Qiyamət zamanı qəbrlərdə olan ölülər qəbirlərdən qalxacaq? Sinədə olan sirlər hamıya məlum və aşkar olacaq. Həqiqətən də bu günki gündə sənin Allahın onlardan xəbərdardır və onların əməlləri müqabilində cəza verəcək.

Hədis:-Bir dəfə Peyğəmbərimiz Muhəmməd (s.ə.s.) məsciddə xütbə oxuyurdu. Camaatın içindən bir nəfər qalxıb dedi:

-“Ya Rəsulallah Qiyamət nə vaxt olacaq?”Peyğəmbərimiz buyurdu:”Bu barədə sual edəndən artıq heç kəs heç nə bilmir. Lakin Qiyamət qəflətən olacaq.Quranda xəbər verildiyi kimi, Qiyamətin nə vaxt baş verəcəyini yalnız Allah özü bilir. Lakin onun nişanələri və əlamətlərivardır ki, bununla da Allah insanlara sanki xəbərdarlıq edib, onları ayıldır. Həmin əlamətlərdən bir neçəsi bunlardır:

”Əsl elm məhv olar, pulu və gücü olan insanlar alimlik dərəcələri alar. Çoxlu zəlzələlər olar,fitnə-fəsad çoxalar. Dünyanı hərc-mərclik əhatə edər, imarətlər xaraba qalar, xarabalıqların yerində imarətlər tikilər.

İnsanlarda bir zərrə iman qalmaz,oxuyub-oynamaq, əyləncələr çoxalar, zinalar aşkar edilər, həya abır qalmaz. Çoxlu hündür binalar ucaldılar. Hündür binaları ucaltmaq üçün bəhsə girərlər. Batil əhli, haqq əhlinə qalib qələr. Quran oxumağa hərislik artar, Quran qızıla tutular, Quran müxtəlif havalarda və ritmlərlə oxunar.

Düzgün tələffüz edilməyən, lakin uca və gözəl səslə Quran oxuyanlar tərifl ənər. Qurana oxuyanın gözəl səsinə görə qulaq asarlar, mənasına görə yox. Quran ayələrinə qulaq asıb, dərk etmək, çox ağır gələr. İnsanlar Quran da yazılanları eşitmək istəməzlər,dünya həyatı haqqında söhbətləri eşitmək istərlər. Məclislərə yalnız qeybət, şər danışmaq və insanları araşdırmaq üçün gedərlər.Namazı gözdən salıb zay edərlər, hər təriqət özü bildiyi kimi namaz qılar. Məscidlər çoxalar, zinətlənər, məscidlərdə qalmaqallar çoxalar, məscidlərdən özləri üçün gəlir mənbəyi kimi istifadə edərlər. Xalq yalnız öz nəfsi istəkləri ilə yaşayarlar. Alimlər iki üzlü olarlar,yalançı dindarlar çoxalar, təriqətlər çoxalar,din yalnız dillərdə deyilər, qəlblərdə olmaz. Dini-imanı pula,vəzifəyə satarlar.Uşaqlara rəhm azalar, böyüklərə hörmət edilməz. Böyüklər susub, kiçiklər danışar. İşləri uşaqlar idarə edər. Camaat həyalı,təqvalı insanlara təkəbbürlü deyərlər, ondan qorxmadıqları üçün hər sözü onun üçün danışarlar. Abırsız, heç nədən utanmayan, hər sözü yerli-yersiz danışan insanlardan qorxaraq hörmət edib, əziz tutarlar. Onun dilindən, şərindən qorxub ona salam verərlər. Kişilər özlərini qızıl, gümüşlə bəzəyib, zinətləndirərlər və özlərini qadınlara bənzədərlər və ləvat çoxalar. Qadınlar özlərini kişilərə bənzədərlər,qadınlıq hisslərini unudarlar.Qadınlar tərbiyəsizlikləri ilə açıq-aşkar fəxr edib, özlərini öyərlər. İnsanlar da onlara hörmət edib, əzizlərlər.Əmin adamlar azalar. Xəbərçi, yaltaq, ikiüzlü adamlar çoxalar. Camaat münəccimlərə, falçılara inanarlar, lakin qəza-qədərə inanmazlar. Məhəbbəti və namusu pula satarlar. Həqiqi sevgi azalıb, məhv olar. Qohum-əqraba, qonşu və dost azalar, olanlar da bir-birlərinə pis gün arzularlar, bir-birlərinin pis günlərindən, ölümdən,

xəstəlikdən kam alarlar.

Sədəqəni cərimə hesab edərlər.Verdikləri sədəqəni hamıya nümayiş etdirərlər. Xüms və zəkatı verməzlər.Verənlər də düzgün ünvan seçməzlər. İnsanlara özlərini göstərmək üçün ibadət edərlər." **Mərufətnamə:-**Qiyamətin açıq əlamətləri:-İnsanlarda izzət-nəfs, qayğı, sevgi və mərhəmət, həya və ədəb, igidlik, sözündə durmaq, vəfalı olmaq, doğruluq, qoruyuculuq, dostluq, din, təqva və şəriətə bağlılıq qalmayacaq, şəhərlərdə məscidlər çoxalacaq, lakin içində camaat az olacaq, hər tərəfdə binalar yüksələcək,incə paltarlar geyiniləcək, qadın və kişilər çox bəzənəcəklər, qadınlar kişilərə, kişilərsə qadınlar kimi geyim, hərəkət, davranış və digər şeylərdə bir- birlərinə bənzəyəcəklər, qadınlar kişi, kişilər qadın işlərini görəcəklər,xeyir, bərəkət azalacaq, doğum azalacaq, şəriət qanunları satılacaq, pis insanlar bəyənilib əzizlənəcək, fəzilətli və təqvalı insanlar təhqir olunub və bəyənilməyəcəklər, zinalar çoxalaraq, qeyri-qanuni doğumlar (vələdəznalar) artacaq və məzarlar bəzədiləcək.

Qiyamətin gizli əlamətləri:-Dəccalın aşkara çıxması, ay tutulmalarının artması, üç il boyunca qıtlıq olması,böyük bir dumanın hər yeri əhatə etməsi, Hz. İsanın zühur etməsi, onun Dəccalı öldürməsi və İslam şəriətini dünyaya yayması, Mehdi Sahibəz Zamanın ortaya çıxması və 40 il ədalətlə hökm sürməsi,Yəcuc və Məcuc tayfalarının İskəndər (Zülqərneyin tikdiyi sədd) səddini aşaraq yer üzünə dağılması, Həzrəti İsanın Məkkəyə getməsi və orada vəfat etməsi, Allahın evi olan Kəbə evinin yıxılması, günəşin batdığı tərəfdən doğması və sonra da orada batması.

Bu əlamətlərin hamısı olub qurtardıqdan sonra, müşk və ənbər iyinə bənzər gözəl və sərin bir rüzgar əsəcək, bununla möminlərin ruhları şənlənəcək. Bundan sonra Quranın hökmləri yer üzündən qalxacaq və bütün insanlar cəhalətdə qalacaqlar,bu halət yüz il çəkəcək,ondan sonra Allah-taala İsrafilə suru üfürməyi əmr edəcək**.(İbrahim Haqqı tərcümə)**

Hədis:Həzrət Rəsulu Əkrəmdən buyurulur;"Bir zaman gələr ki, camaat alimlərə yalnız yaxşı və gözəl paltarına görə hörmət edərlər. Qurana yalnız gözəl səslə oxunduğuna görə qulaq asarlar. Allaha yalnız Ramazan ayında ibadət edərlər. Onların qadınlarında həya, kasıblarında səbir, varlılarında səxavət olmaz. Aza qane olmaz, çox ilə doymazlar.Onların fikir-zikirləri və qəmləri qarınları,dinləri pul, qiblələri arvadları,evləri isə məclisləri olar.Qoyun canavardan qaçan kimi,onlar da dini alimlərdən qaçarlar. Belə olanda Allah da onları üç bəlaya düçar edər:

1-Onların mallarının,var-dövlətlərinin bərəkətini alar.
2-Dünyada haqsızlıq çoxalar.
3-Dünyadan imansız gedərlər**." (Hədisi Qüdsi.)**

QİYAMƏT GÜNÜNÜN ADLARI

əl-Mumin-15-Qiyamət gününün adlarından biri **"Təlaq"-**dir.

əl-Mumin-18-21-Ya Peyğəmbər! Onları yaxın olan gündən qorxut! Qiyamət gününün digər adı **"Azifə"-**dir.

əl-Qariə-1-3"Qariə!"Qiyamət adlarından biridir.O gün qəlblər döyünər. Nədir Qariə? Sən nə bilirsən, Qariə nədir?

əl-Haqqə-1-3-Haqq olan Qiyamət!Nədir Qiyamət?Nə bilirsən ki,nədir Qiyamət?! Qiyamət gününün bir adı"**Haqqə"**hesab olunur. Yəni o günün baş verməsi haqdır.

əl-Ğaşiyə-1-2-Ey Peyğəmbər!Dəhşəti aləmi bürüyəcək günün xəbəri sənə gəlib çatdımı? Qiyamət gününün bir adı da **"Ğaşiyədir". (Bürüyəndir.)**

SUR BİRİNCİ DƏFƏ ÇALINANDA BAŞ VERƏN HADİSƏLƏR

QİYAMƏT QƏFİLDƏN QOPAR

Yasin-49-50-Onlar bazarda, küçədə bir-birləri ilə çənə-boğaz olarkən özlərini saracaq yalnız bir dəhşətli, tükürpədici səsə,İsrafilin surunun birinci dəfə çalınmasına bənddirlər.Artıq nə bir vəsiyyət etməyə iqtidarları çatar, nə də ailələrinin yanına qayıda bilərlər!

əl-Ənbiya-97-Doğru vəd, Qiyamət günü yaxınlaşdıqda kafir olanların gözləri dəhşətdən dərhal bərəlib:"Vay halımıza!Biz dünyada bundan qafil idik.Bəli,biz qafil olmuşuq.Peyğəmbərlərin dediklərinə inanmamaqla özümüzə zülm etmişik,"-deyərlər.

əl-Həcc-2-O görəcəyiniz gün hər bir süd verən ana əmizdirdiyi uşağını unudar, hamilə qadınlar azad olarlar və insanlar qorxunun çoxluğundan sərxoş halda gəzərlər.Halbuki onlar kefli deyillər.Bu, Allahın əzabının şiddətli olmasındandır.

ən-Naziat-6-O gün yer, göy lərzəyə gələcək, sarsılacaq. Onun ardınca bir sarsıntı da olacaqdır.İsrafılın suru birinci dəfə çalındıqda hər şey məhv olacaq.

GÖY YERİNDƏN QOPUB, BÜKÜLÜB PARÇALANACAĞI ZAMAN

Qurani-Kərimdə göyün qoruyucu bir tavan olduğu qeyd edilmişdir. Bu tavan bizi ultrabənövşəyi şüalardan qoruyur.Bu haqda Quranda belə buyurulur ki,Qiyamətdə göy öz tavan funksiyasını itirəcək.

ət-Təkvir-11-Göy yerindən qoparılacağı və ya büküləcəyi zaman.

ət-Tur-9-O gündə göylər hərəkətə gəlib sarsılacaq.

Haqqa-16-Və göy süst düşüb parçalanacaqdır!

əl-Muzəmmil-18-O gün göy parçalanacaq,Allahın vədi yerinə yetəcəkdir.

əl-Haqqa-16-Göylər yarılar,həmin gün süst və zəif olar.

ər-Rəhman-37-Qiyamət günü göy yarılıb,dağ edilmiş yağ kimi qıpqırmızı olduğu zaman.

GÜNƏŞ, AY, ULDUZLAR QARIŞIB YERƏ TÖKÜLƏCƏYİ ZAMAN

əl-Qiyamə-7-10-Göz heyrətlə bərələcəyi,Ay tutulacığı zaman, Günəşlə ay birləşəcəyi,hər ikisi qərbdən çıxacağı zaman-Məhz o gün insan: ”Qaçıb qurtarmağa yer haradadır?”-deyəcək.

ət-Təkvir-1-Günəş (əmmamə kimi sarınıb) sönəcəyi zaman.

ət-Təkvir-2-Ulduzlar göydən qopub yağış dənələri kimi yerə səpələnəcəyi zaman.

əl-Mursəlat-8-10- O zaman ki,ulduzlar məhv oldu və onların nuru getdi, göy yarıldı,göylər dağılıb,pərakəndə oldu.

QİYAMƏT GÜNÜ YER VƏ DAĞLAR TOZA DÖNƏCƏYİ ZAMAN

əl-Haqqə-13-15-Sur birinci dəfə üfürüləcəyi,yer və dağlar qaldırılıb bircə dəfə bir-birinə çırpılacağı(əzilib toza dönəcəyi) zaman, məhz o gün (vaqe olacağına heç bir şübhə olmayan) Qiyamət qopacaq!

əl-İnşiqaq-3-4-Yer uzadılıb,dümdüz olacağı.Qoynunda olanlar bayıra atılıb boşalacağı zaman.

əl-Qariə-5-Dağlar isə didilmiş yun kimi olacaqdır, yerlərindən qalxaraq zərrələr kimi havada uçacaqlar.

ət-Təkvir-3-Dağlar yerindən qopardılacağı,toz kimi havada uçacağı zaman.

DƏNİZLƏR QAYNAYIB BİR-BİRİNƏ QARIŞACAĞI ZAMAN

əl-İnfitar-3-Dənizlər qaynayıb bir-birinə qarışacağı zaman.

ət-Təkvir-6-Dənizlər od tutub yanacağı və ya dolub daşacağı zaman;

ət-Təkvir-4-(Bədəvi ərəblər çox əziz tutduğu)boğaz dəvələri başlıbaşına buraxılacağı zaman.

SUR BİRİNCİ DƏFƏ ÇALINANDA BÜTÜN CANLILAR ÖLƏR

Mərufətnamə:-Haqq-taalə İsrafilə suru üfürmək üçün əmr edər. Həmin o an surun nərəsinin heybətindən,surdan çıxan səsin şiddətindən o anda yeddi qat, iki göydə olan mələklərin və yeddi yerdə olan yaranmışların hamısı Qiyamətin qopduğunu sanarlar.Göylər və yerlər titrəyib sarsıntıya düşərlər, ulduzlar da tökülər.Saçlar, saq-qallar ağarar, hamilələr doğarlar, insanların hamısı özündən gedib, sərxoşlar kimi qalarlar. Bütün dağlar bu dəmdə düzlənərək, yerlərindən qopub havaya qalxar, açılmış pambıq kimi bulud olarlar. Yeddi qat iki göy parçaparça olub, yer üzünə su kimi əriyib tökülər.Dənizlərin suyu bir-birinə qarışıb, sonra qupquru olar, günəş və ayın işığı gedər, qapqara olarlar. **(İbrahim Haqqı tərcümə)**

ən-Nəml-87-Sur çalınan gün göylərdə və yerlərdə olanlar hamısı qorxarlar və qorxunun şiddətindən ölərlər.

əl-Qariə-4-O gün insanlar iztirab içində pərvanə kimi pərakən-də olub,bir-birinin üstünə tökülərlər.

QİYAMƏT GÜNÜ BÜTÜN MƏLƏKLƏR DƏ ÖLƏR

ən-Naziat-1-8-And olsun şiddətlə çəkənlərə-kafirlərin ruhlarını dərilərinin və dırnaqlarının arasından zəhmətlə çıxaran mələklərə. And olsun şad olanlara o mələklərə ki,möminlərin ruhlarını alanda onlara məqamları olan behişti göstərməklə şad olarlar.And olsun suda üzənlərə,Ahd olsun mələklərə ki, möminlərin ruhlarını aram ilə çəkib onları rahat qoyurlar.And olsun işləri tədbir edənlərə- o mələklərə ki, bəndələrinin işlərinin tədbirini tökürlər.O günki yerə hərəkət verər və zəlzələ başlayar.Bütün qəlblər o günki gündən qorxarlar və O gün bütün mələklər ölər.

YALNIZ ALLAHIN ƏRŞİNİ DAŞIYAN 8 MÜQƏRRƏB MƏLƏKLƏR QALAR

Haqqa-17-Ya Peyğəmbər! Mələklər də göyün ətrafında,Allahın əmrinə müntəzir olacaq və həmin gün sənin Rəbbinin ərşini onların başı üstündə səkkiz müqərrəb mələk daşıyacaqdır.

əz-Zumər-68-Sur birinci dəfə çalındı.Göylərdə və yerdə olanların hamısı o səsi eşidən kimi bihuş olub öləcək.Təkcə Allahın istədiyi bəndələri istisna olunar.Bunlar 8 müqərrəb mələklərdir.

SONRA MÜQƏRRƏB MƏLƏKLƏR DƏ ÖLƏCƏK

Ali-İmran-185-Hər bir kəs,hər bir canlı ölümü dadacaq.

YER BÜTÜNLÜKLƏ ALLAHIN OVCUNUN İÇİNDƏ OLACAQ

əz-Zumər-67-Qiyamət günü yer bütünlükdə Uca Allahın ovcunun içində olacaq.Göylər isə Onun sağ əli ilə büküləcəkdir.Bütün kainat Allahın hökmünə tabedir.

əl-Mumun-16-Qiyamət günü Allah buyuracaq:"Bu gün hökm kimindir? Heç kəsin qımıldanmağa belə cürəti çatmadığından Allah özü cavab verəcəkdir:"Bir olan,heç bir şəriki, bənzəri olmayan və qüdrətilə hər şeyə qalib olan Allahdır!"

"40 sual"kitabından:-Cahanı qaranlıq bürüyər və Ərş ucalıqdan aşağıların aşağısına, bəlkə pərdə altınadək düşər.Hər nə qədər yaradılmışlar və mələklər varsa, hamısı həlak olub, fəna olarlar.Ancaq Allaha yaxın mələklərdən səkkiz mələk qala Onlar Hz.Cəbrail, Hz.Mikail, Hz. Rizvan və Hz. Əzraildir. Sonrakı dördü: Ərşin daşıyıcılarıdırlar ki, onlardan birisi də Hz.İsrafildir. Bundan sonra Allahın əmri ilə Hz.Əzrail o yeddi mələyin də ruhlarını qəbz edər. Ən son öz ruhunu qəbz edərkən bir qışqırıq qoparar ki, sədası göyləri keçib, yerlərə gedər.

Bu halda hər can ölümü dadıb, yox olar.İki aləmdə bir kimsə qalmaz, ancaq Calal və ikram sahibi olan Allah qalar.Bu aləm xarab, boş,tənha, viranə kimi qırx il belə bu vəziyyətdə qalar.O zaman Allah:"Bu mülk kimindir?"-deyə soruşar. Lakin özündən başqa bir canlı olmadığı üçün yenə özü-özünə**:- "Bu mülk yalnız və yalnız Qəhhar olan Allahındır"-**cavabını verər.Bu surun ilk üfürülüşüdür ki,ondan bu,Allahın heybətləri baş verər.

İKİNCİ SURUN ÇALINMASI ARASINDAKI MÜDDƏT

ən-Naziat-7-İsrafilin birinci suru çalınanda bütün işləri görən mələklər də ölüb, İsrafılın suru ikinci dəfə çalındıqda isə hamı diriləcəkdir. (Bunların arası dünya vaxtı ilə müqayisədə qırx il çəkəcək).

Mərufətnamə:-Allah-taala Yer üzünü şiddətli bir küləklə dümdüz edər. Məhşər yerini Dəməşq səhrasının bir yerində,buranı yer üzündən yüz min dəfə daha geniş yer edər. Sonra Ərşin altında olduğu bilinən dənizdən 40 gün kişi mənisi kimi bir yağışı yer üzünə endirər və bütün dünyanı dəniz kimi su ilə doldurar.Yerdə olan və torpaq olmuş olan bütün insan və heyvan vücudları o yağışı canlarına çəkər,sonra bədənlərinin bütün qisimləri bir yerə yığılıb, hər cəsəd əvvəlki yerdən paxla kimi çıxıb,əvvəlki halına gələr. Sonra Allah 8 müqərrəb mələyi təzədən yaradar və İsrafilə ikinci dəfə suru üfürməsini əmr edər.O ikinci dəfə suru elə yavaş və şəfqətlə üfürər ki, Surun içində olan bütün ruhlar ətrafa yayılar və ruh öz bədənini tapar. Eyni ilə elə bil sürü içində anasını tapan quzu kimi. Məzarın torpağına bulaşmış halda səs gələn tərəfə baxa-baxa,uzun müddət bəla və imtahan gördüyümüz dəbirlərimizdən sıçrayıb qalxacağıq. Bütün mələklər hurilər, insanlar, cinlər, şeytanlar və heyvanlar bir anda dirilər və məhşər yerində toplanarlar. **(İbrahim Haqqı tərcümə.)**

İKİNCİ SUR ÇALINAN ZAMAN

əl-İnfitar-4-Qəbirlər çevriləcəyi(qəbrlərin altı üstünə çevrilib, ölülər oradan çıxacağı) zaman.

ət-Təkvir-7-Ruhlar bədənlərə qovuşacağı zaman.

ət-Təkvir-8-Diri-diri torpağa gömülən qız soruşacağı zaman:"O hansı günaha görə öldürüldü,"-deyə. Əməl dəftərləri açılacağı zaman. Cəhənnəm alovlandırıldığı zaman, Cənnət möminlərə yaxınlaşacağı zaman:-Hər kəs, dünyada bugünkü günə özü üçün yaxşı. pis nə hazır etdiyini biləcək.

ALLAH BÜTÜN MƏLƏKLƏRİ DİRİLDƏR

əz-Zumər-68-ardı:-İsrafilin suru ikinci dəfə çalınan kimi mələklər qalxıb müntəzir olacaqlar.

ən-Həba-18-19-Sur ikinci dəfə çalınan gün siz dəstə-dəstə, ya müxtəlif surətlərdə gələrsiniz. Göylər açılar, qapı-qapı olar, dağlar öz yerindən götürülüb,ilğım kimi olar. O gün mələklərin yerə enməsi üçün göydə qapı-qapı yarıqlar açılacaqdır.

“40 sual” kitabınfan::”Göy üzündəki bütün mələklər də böyüklü-kiçikli Allah qatında dəyərli olmaqlarına baxmayaraq yerə enərək, qorxudan boyunları bükülü Məhşərə toplaşarlar və deyərlər ”Həmd aləmlərin Pərvərdigarı olan Allah üçündür.”

İSRAFİL İKİNCİ DƏFƏ SURU ÇALANDA HAMI DİRİLƏR

Qaf-41-44-Ya Peyğəmbər!Carçının yaxın bir yerdən car çəkəcəyi gün deyilən sözü,surun səsini dinlə!O gün İsrafil uca səslə: ”Ey köhnəlmiş sümüklər,ey bir-birindən ayrılmış oynaqlar,ey ərimiş ətlər,ey dağılmış saçlar!Allah sizə haqq-hesab gününə gəlmək üçün yenidən birləşməyi buyurur!-deyəcək və suru ikinci dəfə üfürəcəkdir!O gün, bütün yaranmışlar dəhşətli,tükürpədici səsi doğrudan-doğruya eşidəcəklər.O gün qəbrlərdən çıxma günüdür! Şübhəsiz ki,dirildən də öldürən də Bizik. Axır dönüş də Bizim hüzurumuzadır!

Ya Peyğəmbər! O gün yer ayrılacaq, onlar torpağın altından, qəbrlərindən sürətlə çıxacaqlar.O gün bütün yaranmışların bir yerə toplanacağı məhşər günüdür.Bu bizim üçün asandır!

Qaf-20-Öləndən sonra yenidən dirilmək üçün sur çalınacaq. Bu,vəd olunmuş gün-əzab günüdür!

YER HƏRƏKƏTƏ GƏLİB, XƏBƏR VERƏR

əz-Zilzal-1-5-O zaman yer şiddətli hərəkətə gələr və bütün ağır yüklərini çıxarıb atar.Yer onda dəfn olunmuş ölüləri və xəzinələri bayıra atar.Yer üzündə insan deyər:-Yerə nə olmuşdur ki,bu cür hərəkət edir? O gün yer öz xəbərlərini nəql edər.

O deyər ki,filan şəxs mənim üzərimdə xeyirdən və şərdən ibarət filan əməli etmişdir.Çünki Allah yerə xəbərləri nəql etməyi bildirdi.

Kəhf-47-O vaxt yeri dümdüz görəcəksən,(möminlərin və kafirlərin) bir yerə toplayacaq,onların heç birini(kənarda) qoymayacağıq.

Açıqlama:(Mövlana Furati) “40 sual”kitabı. Sən də,mən də daxil olmaqla bütün yaradılanlar Allahın hüzuruna toplanmaq üçün qulağın və ağlın dərk etmədiyi bir səslə diksinəcəyik.Bu səsi eşidən kimi diksinib qorxar və qorxudan saçlar ağarar.Ayağının altındakı, başının üstündəki torpağın yarıldığını hiss edərsən.Məzarının torpağı ilə başdan-ayağa toz-torpaq içində sıçrayıb, ayağa qalxarsan. Sənlə birlikdə bütün yaradılanlar uzun müddət bəla və imtahan gördükləri qəbirlərinin toz-torpağına bulaşmış halda,elə dəhşətli bir görkəmdə ayağa qalxarlar

ki...Özünün və onların, birdən diksinib qəbirlərdən çıxmağını göz önünə gətir.Məxluqatın qarışıqlığı içərisində qorxu, üzüntü, qəm və kədərinlə təkbaşına,çılpaqlığını və zillətini təsəvvür et!Yer üzündəki hökmdarların, iqtidar sahiblərinin, handa bir mənəm-mənəm deyən kəslərin zəlil,qorxmuş halda öz zillətləri ilə boyunlarını əymiş halda,Uca Allaha tərəf gəldiklərini görərsən**.**

BÜTÜN ÖLÜLƏR DİRİLİB, QƏBİRLƏRDƏN QALXARLAR

Yasin-51-54-Sur ikinci dəfə çalınan zaman onlar qəbirlərdən, Qiyamət gününün qorxusundan Rəbblərinə tərəf sürətlə gedərlər! Onlar deyərlər:

-Vay olsun bizə!Kim bizi qəbirlərimizdən qaldırdı? Sonra onlar birbirlərinə deyərlər:"Budur Allahın vəd etdiyi və Peyğəmbərlərin xəbər verdiyi gün! Biz bu günə inanmırdıq. Peyğəmbərlərin dedikləri hamısı həqiqət imiş."Yalnız bir dəhşətli səs,İsrafil axırıncı dəfə suru çalan kimi onlar hamısı haqq-hesab üçün qarşımızda duracaqlar. Bu gün heç bir kəsə zülm olunmaz.Sizə ancaq etdiyiniz əməllərin cəzası veriləcək.

İbrahim-21-Bütün yaradılmışlar qəbirdən xaric olarlar, gizlin əməllərinin hamısı aşkar olar.

ən-Naziət-13-14-Doğrudan da(surun axırıncı dəfə çalınması) ancaq tək bir dəhşətli, tükürpədici səsdən ibarətdir.Onlar dərhal qəbirlərdən çıxıb, dümdüz bir yerdə olacaqlar! Bütün məxluqat torpağın altından çıxıb diriləcək, onun üstündəki ərəsati-məhşərə toplanacaqdır!

ONLAR QƏBİRDƏ BİR GÜN,YA BİR SAAT QALDIQLARINI SANARLAR

Rum-55-56-Qiyamət qopan gün, günahkarlar and içərlər ki,bir saatdan artıq qəbirdə yatmayıblar.Bəli,onlar belə yalan danışarlar. Bilik və iman sahibləri deyərlər:"Siz Allahın kitabında olduğu kimi, Qiyamət gününədək qəbirdə yatmısınız və bu Qiyamət günüdür ki, siz inanmırdınız."Bu gündə zalımların üzr istəmələri onlara fayda verməz.

Taha-102-103-O gün sur çalınar və biz günahkarları məhşərə gətirərik. Onlar öz aralarında gizlin danışarlar və deyərlər ki, dünyada neçə gün qaldınız. Onlardan ən kamili deyər:-Siz dünyada yalnız bir gün qaldınız. Dünyanın uzun ömrü axirət günlərinin yanında bir gün kimidir.

MƏHŞƏRƏ MALSIZ, ÖVLADSIZ, KÖMƏKSİZ VƏ ÜRYAN GƏTİRƏCƏKLƏR

Kəhf-49-Onlar Rəbbinin hüzurunda cərgə-cərgə gətiriləcəklər. Onlara belə deyiləcək:"Siz Bizim yanımıza sizi ilk dəfə yaratdığımız kimi (lüt-üryan, mal-dövlətsiz) gəldiniz.Lakin siz elə güman edirdiniz ki,Biz sizə verdiyimiz vədi (öləndən sonra diriləcəyinizi) yerinə yetirməyəcəyik?!"

əl-Ənam-94-Həqiqətən, insanlar dirildikdən sonra mələklər onları bizim hüzurumuza çılpaq,ilk dəfə anadan doğulduqları surətdə, ayaq-yalın və xitam(sünnət) olunmamış surətdə Məhşərə gətirərlər. Qiyamət günündə məhşərə tək gələrsiniz. Orada nə malınız, nə övladınız,nə də köməkçiniz olar.Sizinlə onların arası kəsildi.

əl-Qələm-42-43-O gündə ki, libas baldırdan açılar, bütün insanlar Qiyamətdə üryan olarlar.

əş-Şuara-88-O gün ki nə mal, nə də övlad xeyir verər.Ancaq sağlam qəlb ilə gələn kimsədən başqa.

Əməl dəftəri oxumağımız üçün qarşımıza qoyular

əz-Zumər-70-Sonra ikinci dəfə sur çalınar.O zaman insanlar ayaq üstə durub baxarlar.Yer Allahın nuru ilə nurlanar, ay və günəş olmaz.Əməl dəftərləri bəndələrinin qarşısına qoyular və onlar arasında ədalətlə hökm olunar.Hər kəsə etdiyi əməlin cəzası verilər və insanların etdiklərini Allah daha çox biləndir.

əl-Kəhf-49-Hər kəsin əməl dəftəri öz qarşısına qoyular.Görərsən ki, günahkarlar orada yazılan əməllərin cəzasından qorxar və deyərlər: -Ey qövm!Vay olsun bizə!Necə olub ki, bu əməl dəftərində nə kiçik, nə də böyük günah unudulmayaraq hesaba alınmışdır?Onlar dünyada etdikləri əməlləri hazır taparlar.Sənin Allahın bir kəsə zülm etməz ki, etmədiyi əməl yazılsın, ya yaxşılıq edənin savabından azalsın, ya da günahkarın əzabı artsın.

İNSANLAR QORXUDAN ƏZİZLƏRİNİN HALINI BELƏ SORUŞMAZLAR

əl-Muminun-101-Sur çalınan zaman bütün ölülər dirilib, Qiyamət bərpa olduqda,hesab zamanı gəldikdə o gün insanlar arasında qohumluq olmaz, onlar bir-birini tanımazlar, qohumluq heç kəsə fayda verməz, heç kəs başqasının əhvalını soruşmaz, hamı öz halına qalar,bir-birindən qaçarlar.

əl-Əbəsə-33-42-Qiyamətin, surun səsi gəldikdə insan öz qardaşından, zövcəsindən, ata-anasından və övladından qaçacaq, qorxudan yalnız özü ilə məşğul olacaq.O gün bəzi üzlər parlayacaq, güləcək və şadlanacaq.Bəzi üzlərə isə torpaq qonacaq və onları qaranlıq bürüyəcək. Onlar kafir və günahkarlardır.

əl-Mümtəhin-3-Əlbəttə, Qiyamət günü nə qohumlarınız, nə də övladınız sizə fayda verə bilməz. Qiyamət günü Allah sizin aranızda ayrılıq salar və sizin ilə yalnız öz əməliniz qalar.

əl-Məaric-11-O gün bir dost o biri dost haqqında heç nə soruşmaz. Hər kəs öz hayında olduğu üçün qohumlarla rastlaşdıqda hal-əhval tutmazlar. Hər kəs özü ilə məşğul olar, bir dəstə Behiştə, bir dəstə isə Cəhənnəmə tərəf gedər. Günahkar şəxs arzu edər ki, kaş bu günün əzabından özü salamat qalıb,əvəzində bu adamları fəda versin ata-analarından uca tutduqları öz övladlarını, övrətini və qardaşını, öz qohumlarını, yer üzündə olan adamların hamısını, təki Allah ona nicat versin.

əz-Zuxruf-67-Dünyada günah etməklə bir-birinə dost olanlar, Qiyamətdə bir-birinə düşmən kəsilərlər.

MƏHŞƏRƏ İKİ DƏSTƏ OLUB,SIRA İLƏ GƏLƏRLƏR

İbrahim-47-48-Qiyamət günü elə bir gündür ki,yer dəyişib başqa cür olar. Göylər də dəyişib başqa cür olar.İnsanlar qəbirlərindən çıxıb hesabdan ötrü tək və qəhr sahibi olan Allahın hüzuruna gedərlər.

Taha-108-O gün insanlar(qəbirlərdən qalxıb)heç bir başqa tərəfə meyil etmədən hamını məhşərə çağıran İsrafilin ardınca gedəcəklər. Rəhmanın əzəməti və heybəti qarşısında səsləri kəsiləcək,yalnız pıçıltı eşidəcəksən.

MƏHŞƏRƏ BİZİ MƏLƏKLƏR GƏTİRƏRLƏR

Qaf-21-Hər bir kəs Rəbbinin hüzuruna bir sürüyüb məhşərə gətirən və bir də əməllərimizə şahid olan iki mələklə gələcəkdir.

MÖMİNLƏRİ DƏSTƏ-DƏSTƏ MƏHŞƏRƏ CƏM EDƏRLƏR

Məryəm-85-87-Qiyamət günü biz təqva sahiblərini mehriban Allahın rəhmətinə dəstə-dəstə daxil olan halda cəm edərik.

KAFİRLƏRİ MƏHŞƏRƏ SÜRÜYƏRƏK GƏTİRƏRLƏR

əl-İsra-97-Biz mələklər Qiyamət günü onları üzü-üstə sürüyə-sürüyə, kor,lal və kar kimi məhşər ayağına çəkəcəyik.

Məryəm-86-Günahkarları isə heyvan kimi Cəhənnəm tərəfə susuz halda sürərik! Heç kəs şikayət etməyə qadir deyildir.

Hədis:-Ənəs ibn Məlik rəvayət edir ki, Bir nəfər Peyğəmbərdən soruşdu:"Ey Allahın Rəsulu! Necə olur ki, kafir üzü üstə həşrə gətirilir?"

Peyğəmbər(s.ə.s.) buyurdu:-Dünyada onu iki ayağı üstə yeridən, Qiyamət günündə onu üzü üstə yeritməyə qadir deyilmi**?(Səhihi Buhari)**

Mərufətnamə:-Bütün məxluqat kimliyindən asılı olmayaraq birbirinə qarışmış halda qorxu, üzüntü, qəm və kədərin içində çılpaq vəziyyətdə, zillət və dəhşət içində Surun çağırdığı səmtə gedərlər. Qiyamətin əzəməti və dəhşəti içində hər kəs öz dərdi,canı hayında olarkən;çox böyük, qorxunc sifətli, qorxu və şiddət saçan mələklər gələr. Günahkarları boyunlarından yaxalayıb hesab çəkmək üçün sürüyərək uca Allahın hüzuruna gətirərlər.

Bu vaxt Məhşər xalqı o qədər çaşıb qalarlar ki, gələn mələklərdən Allahı soruşarlar. Bu sual qarşısında mələklər, Rəbblərinin böyüklüyünü və qüdrətini düşünərək həyəcanlanaraq deyərlər, "Rəbbimiz sizin düşündüyünüzdən Münəzzəhdir. Lakin O sizi mənəvi hüzuruna alacaqdır."Bundan sonra mələklər saf (sıraya) durub, insanları dövrəyə alarlar. Bu zaman insanlar böyük bir qorxu və dəhşət içində olarlar. Sonra heyvanlar da imtahana deyil, Qiyamət gününün dəhşətindən qorxaraq başları aşağı halda çöllərdən gələrlər. İnsanlar özlərinə çox yaxın olan istinin hərarətindən tər tökərək dayanarlar. Günahlarına görə,kimi topuğuna, kimi dizinə, kimi sinəsinə, kimi boğazına qədər tərin içinə batarlar. (İbrahim Haqqı tərcümə)

BÜTÜN HEYVANLAR DA MƏHŞƏRƏ CƏM OLARLAR

ət-Təkvir-5-Vəhşi heyvanlar bir-birindən qisas almaq üçün bir yerə, məhşərə toplanacaqlar.

QİYAMƏT GÜNÜ ŞEYTAN DA MƏHŞƏRƏ GƏTİRİLƏR

əs-Səffat-158-Həqiqətən, cinlər bilirlər ki, onlar Qiyamət günündə əzab verilmək üçün hazır olacaqlar.

Mərufətnamə: Şeytanlar da azğınlıq, üsyan və inadlarından sonra Uca Allahın hüzuruna zillət içində, boyunları əyilmiş halda gələrlər. Yenidən dirilmək onların hamısına baş əydirmiş və məh-şərə sövq etməklə (yönəltməklə) onları bir yerə toplamışdır.

SİCCİNDƏ YAZILAN ƏMƏLLƏRİ ŞEYTANIN XOŞUNA GƏLMƏZ

əl-Mutəffifin-7-15-Şübhəsiz ki,pis əməllərə uyanların,kafirlərin əməl dəftəri (şeytanların əməlləri yazıldığı və ya Cəhənnəmin ən alt təbəqəsi olan) Siccindir! Sən nə bilirsən ki, Siccin nədir?! (Cəhənnəmin alov atəşi) nədir? O, yazılmış bir kitabdır ki, onda yazılan əməllər onların xoşuna gəlməz.

BÜTÜN MƏLƏKLƏR MƏHŞƏRDƏ SƏF-SƏF DURARLAR

əl-Fəcr-22-Rəbbinin əmri gəlib, mələklər səf-səf məhşərdə duracaqlar.

ən-Nəba-38-Cəbrailin və mələklərin səf-səf duracağı gün Rəhmanın izn verdiyi kimsələrdən başqa heç kəs danışmayacaq, danışan da doğrunu deyəcəkdir!

əl-Mumin-7-Ərşi daşıyan və onun ətrafında olan mələklər öz Rəbbinə həmd-səna ilə təsdiq edərlər. Ona qəlbən inanıb və möminlərin bağışlanmasını diləyərək belə deyirlər:"Ey Rəbbimiz! Sənin rəhmin və elmin hər şeyi ehtiva (bürümüşdür) etmişdir. Artıq tövbə edib, Sənin yolunla gedənləri bağışla,onları Cəhənnəm əzabından qoru.

HƏR PEYĞƏMBƏR ÖZ ÜMMƏTİNİN ETDİKLƏRİ ƏMƏLLƏRƏ ŞƏHADƏT VERƏR

ən-Nəhl -84-Qiyamət günündə biz hər tayfadan şahid qaldırarıq və onların Peyğəmbəri etdikləri əməllərə şəhadət verər.Daha kafirlərə danışmağa imkan verilməyəcək və üzrləri qəbul olunmayacaq.

əl-Mursəlat-11-Peyğəmbərlərə öz ümmətlərinə şahidlik etmək üçün bir qədər möhlət veriləcək,onların hamısını gətirib bir yerdə saxlayacağı zaman. Belə soruşacaqdır:"Bunlara hansı günə qədər möhlət verilmişdir? Həmin suala cavab olaraq deyiləcəkdir:"Haqla batilin ayırd ediləcəyi günə qədər!

əl-Mumin-51-Şübhəsiz ki, biz öz Peyğəmbərlərimizə və iman

gətirənlərə həm dünyada,həm də şahidlərin şəhadət verəcəyi Qiyamət günündə yardım edəcəyik!

Mərufətnamə:Bütün Peyğəmbərlər və imamlar üçün Cənnətdən geyim və minəcək gələr.Hamısı geyinib Buraqa minib gedərlər. Ərşin kölgəsindəki minbər və kürsülərdə rahat və salamatlıqla otururlar. Yerdə qalan bütün yaradılmışlar isə ac, susuz, başları açıq,vücudları çılpaq, yalın ayaqla yeriyərək,üzülmüş və yorğun bir halda məhşərdə toplanarlar,sıxlaşıb ayaq üstə dururlar.

UCA ALLAH BİZİ MƏHŞƏRƏ SORĞU-SUAL ETMƏK ÜÇÜN YIĞAR

əl-Casiyə-27-Göylərin və yerin hökmü ancaq Allah üçündür.

əl-Mücadilə-6-Qiyamət günündə Allah onların hamısını məhşərə toplayıb, dünyada etdikləri işlərdən xəbər verər. Allah o əməlləri hesab edib, əməl dəftərində yazıb və bəndələrin yadından çıxıbsa da, onun yadındadır. Allah hər şeyə şahiddir.

ən-Nəba-37-O,göylərin, yerin və onların arasında olanların Rəbbi, Rəhman olan Allahdır. Onlar-bütün məxluqat, Onun hüzurunda heç bir söz deməyə qadir olmazlar!

əl-Adiyat-10-Sinələrdə olan sirlər hamıya məlum və aşkar olacaq.

ət-Təkvir-14-Hər kəs (dünyada bu günə kimi özü üçün yaxşı, pis) nə hazır etdiyini biləcəkdir.

Açıqlama: Qurani-Kərimin ayələrində və Peyğəmbərimiz Muhəmməd (s.ə.s.) tərəfindən söylənən səhih hədislərdə bildirilir ki:- Uca Allah Qiyamət günü Peyğəmbərləri öz ümmətlərinə şahid tutaraq, bütün insanlara həqiqətən də, Özündən-Vahid Allahdan başqa heç bir Allah olmadığını, bütün kainatın yalnız Öz əlində olduğunu, sübut edəcəkdir. İnsanlara Peyğəmbərlər, Quran vasitəsilə hidayət yolunu göstərməyinə baxmayaraq,yenə də özümüzdən razı, arxayın,təkəbbürlü və maddi gözümüzün görmədiyi şeyləri eşidib, lakin heç cür qəbul edib təsəvvürümüzə gətirə bilməməyimizi, dünyadakı canlı-cansız, həmçinin öz canımızın ağrımağından qorxub, lakin bu günki gündən qorxmamağımızı, bizlərə axırıncı dəfə xatırladıb, cəzalandıracaqdır. Əsl qorxunun və ağrının nə olduğunu bizlərə agah edəcəkdir.

ALLAHIN BİZDƏN İLK SORUŞACAQI TÖVHİD ƏHDİ OLACAQ

(əl-Əraf-6)Bütün ümmətləri, Peyğəmbərə tabe olub-olmadıqları haqda sorğu-sual edəcəyik.Göndərilən Peyğəmbərlərdən də (dinimizi onlara təbliğ-edib,etmədikləri) haqqında da sorğu-sual edəcəyik. **(Zumər-41)** Sonra doğru yol göstərmək üçün bütün kitabları və Peyğəmbərləri təsdiq edən Quranı haqq olaraq nazil edib, **(Ali-İmran-85)**İslamdan qeyri bir din seçən kəsdən heç bir əməl qəbul olunmayacaq və axirətdə ziyan görənlərdən olacaqlarını, **(əl-Maidə-87)** Allahdan başqa heç bir tanrı yoxdur və olacağına heç şübhə olmayan Qiyamət günü sizi bir yerə toplayacağımı, kimin doğru danışacağını bilirəm, demədimmi?

Rəsulum Muhəmmədə vəhy edib**:(İxlas-2-3)"**De ki:-Allahdan başqa Allah yoxdur!İxtiyar sahibimiz və ibadətə layiq yalnız Allahdır!-deməyi bütün dünya əhlinə çatdırmağı əmr etdim.İlk yaratdığım insan olan Adəm Peyğəmbəri o vaxt, sizin verdiyiniz Tövhid əhdinə şahid etmişdim ki:-Bir zaman Adəm oğullarının bellərindən gələcək nəsillərini çıxardıb,onları bir-birlərinə şahid tutaraq:"Mən sizin Rəbbiniz deyiləmmi?"soruşmuş və onlar da (yəni, biz hamımız):-"Bəli Rəbbimizsən!"-deyə cavab vermişdilər. Bu şahidliyin səbəbi isə-Qiyamət günü (bu gün)"Biz bundan qafil idik, bizim xəbərimiz yox idi"-deməyəcəyiniz idi. Lakin zülm etməklə, günah törətməklə həddi aşıb, Allahın birliyinə şəkk edib, özünüzə başqa tanrı qəbul etdiniz.

(əl-Əraf-72) Bu zamana"**Qalu-Bəla",**həmin aləmə"**Zərr-aləmi",** həmin əhdə"Ələst əhdi"deyilir. Adəmdən əvvəl yaratdığı,zərrəciklər halında olan ruhumuzdan, Adəmi yaratdıqdan sonra onun yanında alınan əhd nəzərdə tutulur. Bildiyimiz kimi ruhumuz əbədidir və onun şüur-yaddaşı vardır.

(Qaf-26) təkzib edib, Qiyamət gününə də inanmadınız və öləndən sonra diriləcəyinizi qə qəbul etmədiniz.Bu da Qiyamət günü:

-əl-Casiyə-27-29-Qiyamət günü göylərin yerin Padşahlığı Allah üçündür. Həmin gün batil əhli ziyankar olarlar.Ya Peyğəmbər! Hər millətin əhlini müqəssirin hakim qabağında oturduğu kimi, dizləri üstə oturduğunu görərsən. Hər tayfa öz əməl dəftərinə tərəf çağırılar ki, gəlib onda yazılanları oxusunlar. Onlara deyilər:"Bu gün etdiyiniz əməllərin cəzası veriləcəkdir!"Onlara deyilər ki, bu bizim kitabımızdır.Sizinlə haqq ilə danışar və sizin əməlləriniz barədə şəhadət verər. Həqiqətən, dünyada etdiyiniz bütün əməllərinizi mələklərə biz yazdırarıq.

BİZƏ DÜNYADA QALDIĞIMIZ MÜDDƏT HAQDA XƏBƏR VERƏR

Naziyat-46-Onlar Qiyaməti gördükləri gün(dünyada və ya qəbir evində) yalnız bir axşam, yaxud bir səhər qaldıqlarını sanacaqlar.

əl-Muminun-112-113-Allah buyurdu:-Siz dünyada yalnız bir müddət qaldınız. Nə qədər çox qalsanız da, sonu olduğu üçün azdır. Siz bilin ki, dünya ömrü az, axirət əzabı isə tükənməzdir. Ey yenidən dirilməyi inkar edənlər!Siz belə güman edirsiniz ki, biz sizi əbəs yerə yaratmışıq və siz bizim tərəfimizə qayıtmayacaqdınız.

Səcdə-5-O göydən yerə qədər olan bütün işləri idarə edir.Sonra həmin işlər sizin saydığınız(dünya ilindən)min ilinə bərabər olan bir gündə, Qiyamət günündə Ona, Allah dərgahına yüksələr.

əl-Əraf-7-Sonra da onlara nə etdiklərini bildiyimiz üçün hamısını bir-bir üzlərinə söyləyəcəyik.Axı biz onların yanında idik,uzaq deyildik,onlardan xəbərimiz var idi.

UCA ALLAH DÜNYADA ETDİYİMİZ ƏMƏLLƏRİ ÖZÜMÜZƏ XƏBƏR VERƏR

əl-Qiyamə 13-O gün insana ömrünün əvvəlindən axırına kimi etdiyi bütün əməlləri, yaxud sağlığında gördüyü işlər və öləndən sonra qoyub getdiyi yaxşı, pis, nə varsa, hamısı xəbər veriləcəkdir.

Qaf-22-Onlara belə deyiləcəkdir:-Sən dünyada bu müdhiş günə uğrayacağından qafil idin. Artıq bu gün gözündən pərdəni götürdük.Sən bu gün sərrast görürsən!

əl-İsra-13-15-Qiyamət günü hər insanın əməlini boynundan asıb ayrılmaz etdik. Biz onlar üçün Qiyamət günündə yazılmış bir kitab çıxararıq.Ona deyilər:-Dəftərini,kağızını oxu!Bu gün hesab çəkməyə özün kifayət edərsən. Dünyada xeyir və şər əməllərin və bütün işlərin burada yazılmışdır. Dünyada haqq dinə daxil olmaqla hidayət tapan hər kəs özündən ötrü hidayət tapmışdır.Yolunu azmış isə özündən ötrü zəlalətə düşmüşdür. Heç kəs başqasının günahını öz boynuna götürməz. Biz Peyğəmbərləri göndərməmiş heç bir ümmətə əzab verməmişik.

HEÇ KƏSƏ ZÜLM ÖLUNMAZ, HAMIYA ÖZ ƏMƏLİNİN CƏZASI VERİLƏR

ən-Nəhl-111-Qiyamət günü gəldikdə öz-özü ilə vuruşar.Hər kə-sə öz əməlinin cəzası verilər və onlara zülm olunmaz.

Ali-İmran-25-Şübhə olmayan bir gün üçün onları cəm etdiyimiz zaman onların halı necə olar? Bütün nəfəslərə dünyada qazandıqları əməlin cəzası verilər və onların haqqında zülm olunmaz.

əl-Adiyat-11-Həqiqətən də, bugünki gündə, sənin Allahın onlardan xəbərdardır və onların əməlləri müqabilində cəza verəcək.

Mərufətnamə:-Hesab görüldükdən sonra Allah-taala heyvanları təzədən torpaq edər. O zaman kafirlər heyvanları qısqanarlar**:"Kaş ki biz də torpaq olardıq,"-**deyərlər.

QİYAMƏTDƏ SİZ ÜÇ SİNİF OLARSINIZ

əl-Vaqiə-1-10-O zaman ki, baş verməsi şübhə olmayan Qiyamət vaqe oldu, onun vaqe olacağını heç kəs dana bilməz.Yer hərəkətə gəlib şiddətlə titrədiyi, dağlar parça-parça olduğu və toz kimi səpələndiyi zaman. Siz üç sinif olarsınız. Biri sağ tərəfin əshabıdır. Kimdir onlar? Onların kim olduğunu tək Allah bilir. Biri sol tərəfin əshabı.Kimdir onlar? Onlar o kəslərdir ki, əməl dəftərləri sol əllərinə verilər. Biri də irəlidə olanlardır.Onlar, həqiqətən, Peyğəmbərlərə tabe olmaqla,çoxlu savabla irəlidə olanlardır. Onlar Allaha yaxın olanlardır. Üçüncü sinifin çoxu əvvəlki və keçmiş ümmətlərdəndir.Bir qismi də, axırıncı, Muhəmməd ümmətindəndir. Cənnətin ən yüksək təbəqələri onlara məxsusdur.

Mərufətnamə:-700 min Zəbani (Cəhənnəm mələkləri) Cəhənnəmi yer altından məhşərə götürərlər və camaatı sorğu-suala tutarlar. Məhşər əhli o halda hesablarının görülməsini gözlərlər. Dünyada ikən hər insanın sağ və sol çiynində oturan iki mələyin tutduğu əməl dəftərlərini sahiblərinə verərlər. Möminlərə və yaxşılara sağdan,kafirlərə və pis insanlara soldan verərlər. Sonra Allah-hər insanla vasitəsiz danışar. Hesablarını görərək məzlumun haqqını zalımdan alıb, onun yaxşılıqlarını alıb məzluma verər və ya məzlumun günahlarını zalıma yükləyər.

Hədis: Peyğəmbərimiz (s.ə.s.)buyurmuşdur:" Haqq-taala bəndələrini çılpaq, tozlar içində və qapqara olduqları halda məhşərə aparacaqdır. Üstlərində heç bir şey olmayacaq.Sonra Haqq-taala yaxında və uzaqda olan hər kəsin eşidə biləcəyi bir səslə buyurar:"Dəyyan olan həqiqi Malik və mülkün sahibi Mənəm."Cəhənnəmə düşən bəndənin Cənnətə

düşən bəndədə bir haqqı varsa,Cənnətə düşən bəndədən Cəhənnəmə düşən bəndənin haqqı alınmayanacan, o bəndə Cənnətə gedə bilməz. Həmçinin Cənnətə düşən bəndənin Cəhənnəmə düşən bəndədə bir haqqı varsa, Cənnətə düşən bəndənin o haqqı Cəhənnəmə düşən bəndədən alınmayanacan Cəhənnəmə gedə bilməz. Hətta bir sillə belə olsa, qisas alınmayanacan heç biri öz məkanına gedə bilməz.Bu da yalnız savab və günah alış-verişi ilə olur. Onun üçün siz ey Allahın bəndələri, Allahdan qorxun!Hər əməl, hərəkət və düşüncələrinizə görə cavab verəcəksiniz!" **(Səhihi Buhari)**

BƏZİ ÜZLƏRİN AĞ, BƏZİ ÜZLƏRİN QARA OLDUĞU GÜN

Ali-İmran-106-107-Bəzi üzlərin ağ,bəzilərinin isə qara olduğu bir gündə qara olan üzlərə deyilər ki,İman gətirəndən sonra kafir oldunuzmu?Kafir olduğunuz üçün əzabı dadın!Üzləri ağ olanlar Allahın rəhmətindədirlər. Onlar orada, behiştdə, həmişəlik olanlardır.

ƏMƏL DƏFTƏRİ SAĞ ƏLİNƏ VERİLƏNLƏR

əl-Haqqa-19-24-Ey insanlar!Siz o gün Allahın hüzurunda hazır olarsınız. Heç bir əməliniz Allahdan gizlin qalmaz.Əməl dəftəri sağ əlinə verilən kəs şad və razı olar.Öz dostuna deyər ki,mənim kağızımı alın və mənim kitabımı oxuyun.Mən dünyada yəqin etmişdim ki, axirətdə öz hesabıma yetişəcəyəm.Əməl dəftəri sağ əlinə verilən kəs şad və razı olar.Onun meyvələri yaxındır.O nə vaxt istəsə, əlini uzadıb meyvə ala bilər.Onlara deyilər ki,Cənnətdə, əvvəlcədən göndərdiyiniz əməllərin müqabilində nuşcanlıqla yeyin və için!

əl-İsra-71-O gün yaranmışların hamısını öz Peyğəmbərləri və imamları ilə birlikdə çağırarıq.Hər kəsin ki,əməl dəftəri sağ əlinə verilsə,onlar öz əməl dəftərini oxuyarlar.Və onlara xurma dənəsinin pərdəsi qədər də zülm olunmaz.

YA PEYĞƏMBƏR! SƏNİ DƏ ÖZ ÜMMƏTİNƏ ŞAHİD GƏTİRƏRİK

ən-Nəhl-89-Qiyamət günündə hər bir ümmətin öz cinsindən olan Peyğəmbərini dirildib onlara şahid gətirərik.Ya Peyğəmbər!Səni də bu tayfaya şahid gətirərik ki,öz ümmətinin əməlinə şahid olasan. Sənə Qu-

ran nazil etdik. O, hər şeyi,dünya və axirət işlərini aşkar bəyan edən hidayət, rəhmət və müsəlmanlara bəşarət verəndir.

"40 sual" kitabından:-Cənabi-Allah,Həbibi Peyğəmbər (s.ə.s.) Həzrətlərinə Liva-ul Hamd adlı bayraq verəcəkdir.Məhşər günündə bütün Muhəmməd ümməti bu bayrağın altında toplanacaqdır və Peyğəmbərimiz öz məqamına keçib,ümmətinə şəfaət edəcəkdir. Liva-ul-Həmd hələ ki, Cənnətdə olub, sonsuz bir səhrada Həmd dağı üzərində qoyulmuş, min illik yol uzunluğunda çox böyük bir bayraqdır. Başlanan yeri bəyaz gümüşdən və yaşıl qaşlardan, ucu qırmızı yaqutdandır. Onun üç şöbəsi vardır,iki şöbənin arası 500 illik məsafəsi olan üç sətir yazı vardır.

Birinci sətirdə:-"Bismilləhir Rahmənir Rahim".

İkinci sətirdə:-"Lə İləhə illəllah".

Üçüncü sətirdə:-"Əlhəmdulilləhir Rabbil Aləmin".Bu böyük bayrağın altında 70 min bayraq və 70 min sıra mələklər vardır.Hər sırada da 70 min mələk durub, Allahı təsbih edərlər.Bir də Beytul-Məmur vardır ki, bu Cənnəti Ftdə qırmızı yaqutdan, yüksək bir qübbədir**.**

MÖMİNLƏRƏ MÜJDƏ VERİLƏR

Məryəm-87-Yalnız dünyada iman gətirən şəxslər Allahın izni ilə şəfaətə layiq ola bilərlər.

əl-Həsid-12-15-Ya Peyğəmbər! Qiyamət günündə mömin kişilərin və möminə qadınların nurunun onların qabaqlarından və sağ tərəflərindən şölə saçdığını görərsən.Hər kəsin nuru əməli qədərincə olar, kiminin nuru dağ ucalığında olar, kiminin nuru isə az olar.

Mələklər onlara deyər:"Bu gün bəşarət olsun sizə!Yaxud sizin müjdəniz behiştlərdir ki, altından çaylar axar. Orada həmişəlik qalarsınız."Bu müjdə böyük uğurdur.Qiyamət günündə münafiq kişilər və münafiq qadınlar iman gətirənlərə deyərlər:-"Sürətlə getməyin, bir az gözləyin ki,sizin nurunuzdan alaq, onunla yolun qaranlığından xilas olaq. Onlara cavab olaraq möminlər deyərlər:"Əgər mümkündürsə,qayıdın geriyə, dünyaya,ya məhşərə, özünüz üçün nur axtarın.Biz bu nuru dünyada etdiyimiz ibadətlərə görə qazanıb bura gətirmişik."

Möminlər ilə kafirlər arasında sədd çəkilər,bu divarın qapısı vardır. Onun iç tərəfində rəhmət vardır, bayır tərəfində olanlara isə əzab vardır. Hər iki firqə öz yerlərində yerləşəndən sonra, münafiqlər möminləri səsləyib deyərlər:"Məgər biz sizinlə dünyada bərabər deyildikmi?"

Möminlər deyərlər:"Bəli,belədir!Lakin siz özünüzü fitnəyə atmaqla

həlak etdiniz. Dininizin haqq olduğuna şəkk etdiniz və uzun-uzadı arzularla Şeytan sizi məğrur etdi.Buna görə də Allahın əmri gəldi,öldünüz və dünyadan tövbəsiz getdiniz.”Bu gün münafiqlərdən heç bir fidyə qəbul olunmaz ki, onu verib özlərini əzabdan xilas etsinlər.Etdiyiniz günahlara görə o əzabdan qurtarasınız!. Sizin qərar tutduğunuz yer oddur!Ora sizə daha çox yaraşır.Ora nə pis qayıdacaq yerdir.

ƏMƏL DƏFTƏRİ SOL ƏLİNƏ VERİLƏNLƏR

əl-Vaqiə-41-49-Sol tərəf əshabı! Kimdir sol tərəfin əshabı?Onlar səmum yelində və qaynar sudadırlar.Qaynar tüstüdən yaranmış kölgənin altındadırlar, o kölgə nə sərin və nə də xeyir verəndir. Onlar bundan əvvəl dünyada nemətlə bəslənənlər idilər. Böyük günah içində israr edib durardılar və deyərdilər:-Biz öləndən,torpaq və sümük olandan sonra yenidənmi diriləcəyik?Yaxud,ulu babalarımız da dirilərlərmi?Ya Muhəmməd!Onlara de ki, əvvəlkilər də, sonrakılar da, dünyaya gələn hər bir kəs də, məlum bir günün müəyyən bir vaxtında mütləq hesab üçün məhşərə cəm olacaqlar.

əl-Haqqa-25-29-Əməli sol əlinə verilən kəs deyər:-Kaş kitabım mənə verilməyəydi! Hesabın nə olduğunu bilməyəydim!Kaş ölüm əbədi(qəti) olaydı!Bir daha dirilib,bu əzabı görməyəydim! Mənim malım Allahın əzabını dəf etmədi,səltənətim yox oldu-deyər.

Dini hekayə:-Qiyamət günü bir səs səslənəcəkdir.Səsin sahibi: -Mənə Allahlıq etmək istəyənlərin başçısı olan Fironu gətirin,-deyəcək. Ardından başında atəşdən başlığı,əynində qətrandan köynəyi olan halda Fironu gətiriləcəklər. Sonra eyni səs:-Böyüklük arzulayan zülmkarlar haradadır?-deyəcək. Butün zülmkarlar gətirilərək,başlarında Firon olmaqla Cəhənnəmə atılacaqlar.Yenə həmin səs gəldi:

-Qardaşı Habili öldürərək yer üzündə ilk dəfə qan axıdan Qadil haradadır?Bu dəfə eyni səs: -Qısqanclar,paxıllar haradadırlar?-deyəcək.Bütün qısqanclar və paxıllar toplanaraq,başlarında Qabil olmaqla Cəhənnəmə sürüklənəcəklər.

Həmin səs:-Yəhudi millətinin baş alimi Əşrəfoğlu Kad haradadır?-deyə soruşacaq.(Əgər Kad iman etsəydi, bütün Yəhudi milləti də haqq dinə, İslama girəcəkdilər).

Sonra Kad gətiriləcək. Bu dəfə eyni səs: -Haqqın və gerçəyin bilgisini saxlayanlar haradadır?-deyə çağıracaq. Başlarında Kad olmaqla bütün haqqı gizlədən, həqiqətin bilgisinə arxa çevirənlər Cəhənnəmə bağlanacaqlar.Yenə həmin səs:

-Allahın Rəsulunu yalanlayan Əbu Cəhl haradadır?- deyə soracaq. Ardından Əbu Cəhl gətiriləcək.Bu dəfə eyni səs:

-Allahı və onun Rəsulunu yalanlayanlar haradadır?-deyə soracaq. Ardından başlarında Əbu Cəhl olmaqla, Allahı və onun Rəsulunu yalanlayanlar Cəhənnəmə sürüklənəcəklər. **(Mövlanə Cəzalinin "Kimyayi Səadət"-tərcümə**

QİYAMƏT GÜNÜ KAFİRLƏRƏ DEYİLƏCƏK

Mumin-10-Küfr edənlərə Qiyamət günü Cəhənnəmə varid olduqda belə müraciət ediləcəkdir:-Allahın nifrəti, sizin dünyadakı pis əməllərinizə görə bu gün özünüzə və bir-birinizə olan nifrətinizdən daha böyükdür. Çünki siz imana dəvət olunduğunuz zaman öz küfrünüzdə davam edib dururdunuz!"

QİYAMƏT GÜNÜ KAFİRLƏR PEŞMAN OLARLAR

əs-Səcdə-12-Sən müşrikləri Allahının hüzurunda başlarını aşağı salanda görəsən.Onlardan hesab alınan zaman xəcalətin çoxluğundan deyərlər:

-Pərvərdigara! Biz sənin vədəni gördük və eşitdik. İndi bizi dünyaya qaytar ki, yaxşı əməllər edək. Onda, həqiqətən də, biz, Qiyamətin doğruluğuna yəqin edənlərdən olarıq.Kafirlər deyərlər:"Sən bizi iki dəfə öldürüb iki dəfə diriltdin."

Mumin-11-12-Onlar deyəcəklər:"Ey Rəbbimiz! Sən bizi iki dəfə öldürüb iki dəfə diriltdin. Birinci dəfə atalarımızın belində ölü (məni) vəziyyətində ikən, ana bətninə tökülərək,dünyada birinci dəfə diriltdin. Dünyada yaşayandan sonra ikinci dəfə öldürdün. İndi isə ikinci dəfə bizi qəbirdən diriltdin. Biz öz günahlarımızı etiraf etdik.İndi burdan çıxmağa bir yol varmıdır?Onlara belə cavab veriləcəkdir:"Bu əzab ona görədir ki, dünyada yalnız "Allahdan başqa heç bir tanrı yoxdur"-deyildiyi zaman inkar edirdiniz.Ona şərik qoşulduqda isə inanırdınız.İndi isə hökm uca və böyük olan Allahındır!"

SONRA MƏLƏKLƏR ONLARI LAYİQ OLDUQLARI YERƏ APARARLAR

əz-Zilzal-6-8-O gün insanlar geri qayıdarlar, ya qəbirdən hesab yerinə, ya hesab yerindən behiştə,yaxud Cəhənnəmə pərakəndə və

dəstə-dəstə olan halda ki,öz əməllərinin cəzasını görsünlər.Hər kəs zərrə ağırlığında xeyir əməl edibsə, onun savabını,zərrə ağırlığın da şər əməl edibsə, onun zərərini görər.

ALLAH CƏNNƏT MƏLƏKLƏRİNƏ ƏMR EDƏR

ən-Naziyat-4-Bir-birini ötdükcə ötən,möminlərin ruhlarını Cənnətə, kafirlərin ruhlarını isə Cəhənnəmə tez çatdırmaq üçün mələklər bir-biri ilə ötüşərlər.

ər-Rad-23-24-Mələklər,Cənnət əhlinin yanına hər qapıdan,oranın səkkiz qapısının hər birindən daxil olarlar və deyərlər:Dünyanın şiddətli bəlalarına,ya ibadətlərin çətinliyinə, ya günahlardan çəkinməyə səbir etdiyinizə görə sizə salam olsun!Nə yaxşıdır evin axırı ki,axirət evində qəlbiniz istəyən nemətləri gördünüz.

Qaf-31-33-Möminlərə deyiləcək:-Bu vəd edilmiş Cənnətdir. O, hər bir tövbə edib Allaha tərəf qayıdan,nəfsini haramdan,özünü günahdan qoruyan, Rəbbindən onu görmədən qorxan, haqqa dönən qəlblə gələn, bəndə üçündür.

ALLAH CƏHƏNNƏM MƏLƏKLƏRİNƏ ƏMR EDƏR

əl-Ələq-18-Biz də zəbaniləri,Cəhənnəmdəki əzab mələklərini çağırarıq!

İbrahim-49-51-Qiyamət günündə günahkarları bir-birinə bağlanmış, əlləri boyunlarında bağlanmış görərsən.Köynəkləri qır və qətrandandır.

Od onların üzlərini örtər.Bununla Allah hər nəfsə öz qazandığı pis əməl müqabilində cəza verər, Allah tez hesab çəkəndir.

ən-Nəba-40-O gün insan öz yaxşı,pis əməllərinin əvəzini görəcək,kafir isə:"Kaş bu əzabı görməmək üçün torpaq olaydım,"-deyəcəkdir!

əl-Furqan-22-Mələkləri görəcəkləri gün,yəni Qiyamət günü behişt ilə müjdə yoxdur!Mələklər onlara deyərlər:-Sizə müjdə vermək haram olmuşdur!

ət-Təhrim-6-Oraya qəlbi bərk olan mələklər malikdirlər ki, Allaha qarşı günah etməzlər və onun buyurduğu əmrləri yerinə yetirərlər.

əl-Mumin-19-21-Qiyamət günü günahkarların Cəhənnəmə daxil olması yaxın olar. O zaman ki, qorxunun şiddətindən qəlblər yerindən hərəkət edib, hülqumun yanına gələr.

Onlar qüssənin çoxluğundan qəmgin olarlar. Zalımların nə dostu, nə də şəfaət edəni olar. Allah gözlərin xəyanət etdiyini və sinələrin gizli saxladığı sirləri bilir və Allah haqq ilə hökm edər.

əl-Haqqa-30-37-Onu tutun və zəncirə çəkin, əllərini və ayaqlarını boynuna bağlayın.Sonra Cəhənnəmə daxil edin və uzunluğu yetmiş zira olan zəncirlə sarıyın. Çünki o, dünyada Allaha inanmırdı, camaatı miskinə təam verməyə həvəsləndirmirdi, zəkatı vermirdi. Onun üçün bu gün qohum və dostluq yoxdur. Cəhənnəm əhli üçün onun çirkindən başqa təam yoxdur, onu yalnız xətakarlar yeyər.

QİYAMƏT GÜNÜ CƏHƏNNƏM ƏHLİNƏ ŞEYTAN DEYƏR

İbrahim-22-Qiyamət günü iş bitdikdə,behişt əhli behiştə, Cəhənnəm əhli Cəhənnəmə daxil olar.Cəhənnəm əhli Şeytanı məzəmmət edər və bu vaxt Şeytan deyər ki:Allah sizə doğru vəd etmişdi və mən də vəd etdim ki,Allah kərimdir,mən sizi xilas edərəm.Mən öz vədəmə xilaf oldum və mən sizi zorla dünyada günah etməyə vadar etməmişdim. Təkcə mən sizi vəsvəsə etmək ilə çağırdım,siz də məni öz ixtiyarınız ilə qəbul etdiniz. Sizə yetişən əzaba görə məni məzəmmət etməyin, özünüzü məzəmmət edin.Mən sizin fəryadınıza yetişən deyiləm, siz də mənim fəryadıma yetişən deyilsiniz. Sizin məni, Allaha şərik qoşmağınızı da inkar etmişəm**.**

ƏDALƏT TƏRƏZİSİ-MİZAN QURULAR

Mövlana Furatı tərəfindən yazılmış**"Qırx sual"** kitabında Mizan haqqında Peyğəmbərimizdən soruşduqda, Həzrət belə cavab vermişdir:"Allah-taala Mizan tərəzisini ona görə yaradıb ki,bütün məxluqların əməlləri axirət günü onun köməyi ilə çəkilib ölçülsün."

Qurani-Kərimin 7 ayəsində əməl tərəzisi haqqında ayələr buyurulmuşdur.

(əl-Əraf-6-9) əl-Qariə-6-9-O gün ki, çəkini ölçmə,yəni əməlləri ölçmək haqq ilə olacaqdır. Tərəziləri ağır olanlar qurtaranlardır (yaxşı əməlləri pis əməllərindən çox olan) kimsə Cənnətdə xoş güzəran içində olacaqdır. Tərəzisi yüngül gələn kimsənin isə məskəni Haviyə(Cəhənnəmin dibi) olacaqdır.

əş-Şura-16-O elə bir Allahdır ki, Quranı və Mizanı haqq ilə nazil etdi.

əl-Ənbiya-47-Qiyamət günü ədalətli tərəzilər qoyarıq, heç kəsə zülm olunmaz. Əgər bir kəsin xaşxaş dənəsi ağırlığında xeyir, ya şər

əməli olsa, onu gətirərik və əvəzini verərik.Bizim ölçümüz, hesabımız düzdür və biz hər şeyi bilirik.

əl-Muminin-103-104-Kimlərin tərəzisi yaxşı əməllər ilə ağır gəlsə, nicat tapanlardır.O kəslər ki, tərəziləri itaətdən yüngül olar, onlar nəfslərinə ziyan edənlərdir.Onlar Cəhənnəmdə həmişəlik qalmalıdırlar.

əl-Mumin-17-Bu gün hər kəs öz əməlinə görə cəzalandırılacaqdır. Bu gün heç bir zülm, haqsızlıq ola bilməz.Allah tez haqq-hesab çəkəndir.

"**40 sual" kitabından:**Mizan Məhşərdə hər kəsin dünyada etdiyi işləri ölçməyə məxsus olan bir ədalət ölçüsüdür və bununla əməllərin yaxşı və pis miqdarı anlaşılmış olacaqdır. Axirət günü Mizan adlanan tərəzini Mikail (ə.s.) idarə etməlidir. Tərəzinin bir gözü nurdan,bir gözü zülmətdəndir. Nurdan olan göz möminlər, imanlılar, yəni savablar üçün nəzərdə tutulmuşdur. Zülmətdə olan gözdə isə günahkarların əməlləri çəkiləcəkdir. Tərəzi o qədər dəqiq çəkəcək ki, xardal dənəsi ağırlığında kiçik bir günah əlavə edilərsə, zülmət gözü aşağı dartılacaqdır.

Göyün qübbəsi tərəfdə olan bir mələk müşahidəçilik vəzifəsini yerinə yetirəcək və əbədi xoşbəxt həyatın kimlərə qismət, nəsib olduğunu o elan edəcəkdir. Beləliklə, axirətdə hər bir adam tutmuş olduğu əməllərinə görə bir-birindən fərqlənəcək. Allah-taala buyurmuşdur ki:"Əməllərin ölçüsü o gün ədl və fəzl ilə ölçüləcəkdir."

Mizan-tərəzisində ölçü dünya tərəzisinin əksinədir; ağır gələn yuxarı qalxar və Ərşə qədər yüksələr. Çünki onlar hörmətdə Ərşə yaxın olanlardır. Əgər yükü ağır gəlirsə,o vaxtda aşağı doğru enər və əsfələ yaxınlaşar. Çünki onlar hörmətsizlərdir. Imam Cəzali buyurur:

-Mizanın iki gözü vardır.Biri nurdan, digəri isə zülmətdən, qaranlıqdandır. Mizanın bir gözünü göy və yerlərin üzərinə qoysalar,o yenə də bunlardan daha böyük olardı. Nurdan olan gözün adı "Həsənə", zülmətdən olan gözünün adı isə"Seyyiət"dir.Mizan Ərşi-Əlanın altında asılıdır və Cəbrailin əlindədir.Ərşin sağında Cənnət vardır.Bu sağ tərəf olan hissə Həsənə qəfəsidir.Mizanın solunda isə Cəhənnəm vardır. Cəhənnəmin olduğu hissə isə Səyyiət qəfəsidir.

Peyğəmbərimiz (s.ə.s.) buyurur:Uca Allah Qiyamət günü Adəmə üç öyüd bildirər.Birinci öyüdündə:"Mən bütün yalançılara lənət etmişdim. Sənin bütün oğullarına isə rəhmət edərdim.Fəqət, gerçəkdən Cəhənnəm, onların hamısına vəd edilmiş yerdir**" (Hicr-43).**

İkinci öyüdündə:"Ey Adəm,"Sənin oğullarından heç birinə əzab etməzdim. Ancaq Mən onları təkrar dünyaya göndərsəm, yenə də pisliklər edəcəklər və Məni əsla anmayacaqlarını bilirəm."

Üçüncü öyüd:"Ey Adəm,Səni özümlə oğulların arasında hakim

təyin etdim. Get Mizanın yanında otur.Kimin xeyiri şərindən zərrə qədər artıq olsa, Cənnəti onlara verərəm. Hətta mənim kimsəni zorla Cəhənnəmə qoymayacağımı da bil!Lakin onlar zalım və asi olanlardır. Onun üçün onları atəşdə yandıraram. Çünki bunu qazanmış və buna layiq olmuşlar.”Əgər imanlılardan birinin əməlləri çəkilərkən, Mizanın günahı göstərən gözü nur gözündən azacıq ağır gələrsə, Allah-taala o qulundan mərhəmətini əsirgəməz. Gözlənilmədən bir mələk əlində bükülü kağız peyda olar və həmin kağızı Mizanın nurdan olan gözünə qoyar. Nəticədə Mizanın nurdan yaranan gözü ağır gələr və imanlılardan olan qulun əbədi taleyi müəyyənləşər. Ona Cənnət qismət olar.

Mühakimə prosesində olanlar təəccüblə bir-birinə baxıb soruşarlar:-O nə kağızdır ki, mizanın nurdan yaranmış gözünə atılması ilə həmin adamı əzablardan xilas edib, Cənnətə qoydular?

Onlar bükülü kağızı açıb baxarlar və görərlər ki, həmin kağızda aşağıdakı sözlər yazılıb:-Mənim bu qulum həyatda ömür sürərkən həmişə kəlmeyi şəhadət oxumuş, ”Allahdan başqa Allah yoxdur”- demişdir. Allahın bir olmasını dilinə gətirdiyinə görə Mən öz qulumu əzabdan azad edir, ona mərhəmət və şəfqət bəxş edirəm.

Allahın qatında insanlar sual-cavabdan sonra üç hissəyə ayrılacaqlar. Bunlardan heç savabı olmayan bir qismini Cəhənnəmdən çıxan qara rənglı zəbanilər quşları toplayan kimi təkrar-təkrar onları toplayıb, Cəhənnəmə atacaqlar. Cəhənnəm onları udar və onlar bir daha xoşbəxtlik görməyəcəkləri bir əzab içində olarlar.

Onlardan ikinci bir hissəsinin isə heç günahları yoxdur. Bir çağırışçı:”Hər işlərində, hər vəziyyətlərində Allaha həmd edənlər qalxsın”-deyə səslənər. Onlar da o anda qalxıb siratdan Cənnətə keçərlər. Gecə ibadətinə qalxanlar, ticarəti və işləri Allaha zikr və ibadətlərinə mane olmayan kimsələr də bu sırada olarlar. Bunlar elə bir xoşbəxtliyə qovuşarlar ki, onlar üçün daha heç bir əzab yoxdur.

Üçüncü, geridə qalan hissə isə çoxluq təşkil edən hissədir.Bunlar günahlarının və yaxud da savablarının tərəzidə daha çox gələcəyini bilməyən kimsələrdir. Lakin Uca Allah bunu bilir.Allah-taala cəzalandırmaqdakı ədalətini və əfv etməkdəki fəzlini göstərmək üçün bunu əvvəldən bildirməz. Savab və günahlarla dolu olan dəftərləri özlərinə paylanar və hər kəs öz kitabında savab və günahlarının yazılı olduğunu görər.Mizan qurular.Artıq gözlər dəftərlərinin savab və ya günah tərəfə qoyulacağına dikilər.Bu insanları dəhşət içində buraxan önəmli bir mənzərədir...

“**40 sual” kitabından:**Məhşərdə iki dirək üzərində,çox böyük bir

tərəzi qoyulub ki, hər dirəyin uzunluğu 500 illik yoldur.Bu tərəzinin hər gözü dünyanın böyüklüyü qədərdir. Bu tərəzidə Məhşər günün də insanların yaxşılıq və pislikləri ölçülər. Yaxşılıqları pisliklərindən ağır gələnlər Cənnətə,pislikləri ağır gələnlər Cəhənnəmə göndərilərlər. Allahın kərəm və mərhəmətinə və ya Peyğəmbərlər,imamlar,alim və salehlərin mərhəmətinə uğrayanlar müstəsna olunarlar. Lakin bunların da imanla ölmələri şərtdir.Çünki dünyadan imansız gedənlərə məğfirət,şəfaət və Cənnət yoxdur,əbədiyyən Cəhənnəmdən çıxmazlar. İmanla ölüb, pislikləri ağır gələnlər,əgər Allah məğfirət edər və Peyğəmbərlərin, imamların şəfaətinə nail olmuşlarsa, pislikləri qədər Cəhənnəmdə yanacaq və sonra Cənnətə girəcəklər. Zərrə qədər belə imanı olanlar günahlarına görə Cəhənnəmdə müəyyən müddət qalıb,sonra çıxaraq Cənnətə girəcəklər.

SİRAT HAQQINDA

Açıqlama: "Peyğəmbərə 40sual"kitabından.Sirat haqqında Peyğəmbərimizdən soruşduqda Həzrət belə cavab vermişdir:-Sirat elə bir körpüdür ki, Qiyamət günü Cəhənnəmin üstündən çəkiləcəkdir və keçilməsi çox çətin olan bir körpüdür.Sirat körpüsü qıldan incə, qılıncdan itidir.Bu haqda Qurani-Kərimdə belə buyurulur:

əl-Bələd-10-12-Biz ona iki yol-xeyir və şər,küfr və iman yollarını göstərmədikmi? Lakin o əqəbəni,(sərt yoxuşu) maniəni keçə bilmədi. Sən nə bilirsən ki, əqəbəni (Siratı) keçmək nədir ?

"**40 sual" kitabından"-** Sirat körpüsü tükdən incə, qılıncdan iti, uzunluğu 3 min illik yoldur. Bunun min ili yoxuş, min ili düz, min ili enişdir. Bu körpü Cəhənnəm üzərində qurulub və bütün Məhşər xalqıbunun üzərindən keçərlər. Kimi şimşək kimi tez, kimi ox sürəti ilə, kimi atın qaçması sürəti ilə keçib gedərlər,kimi də pislikləri üstünə yüklənərək, ağırlıqdan yavaş-yavaş gedərlər. Kimi Cəhənnəmə düşüb yanar. Cəhənnəm isə belə bağırar:-"Ey mömin tez ol çıx burdan! Çünki sənin nurun mənim atəşimi söndürər." Sonra bütün möminlər Sirat körpüsünü salamat keçərlər. Kövsər hovuzundan su içərlər. Ondan sonra Cənnətə girərlər. Hər kəs orada rütbə və məqamını tapıb, əbədiyyən zövqi-səfa içində qalarlar. Çünki Cənnət əhli hər an oranın müxtəlif nemətlərindən zövq və ləzzət alar, hər həftə Cənabi-Haqqı görmə şərəfinə nail olarlar. Onun Camalını gördükləri an, özlərindən gedərlər, gözlərin görmədiyi,qulaqların eşitmədiyi, ağla və xəyala gəlməyən sevinclər içində yaşayarlar.

”40 sual” kitabından:Allah-taala Cəhənnəmi öz qəzəbindən yaratmışdır. Cəhənnəmdən gələn küləkdən mələklər olmazın əzab çəkirdilər. Buna görə onlar Allaha müraciət edib Ondan aman dilədilər. Allahın mələklərə yazığı gəldi, onlara mərhəmət göstərdi.Qaşiyə adlı bir ilan yaratdı və ona əmr etdi ki, Cəhənnəmin yeddi qatını udsun.

Bir dəfə həmin ilan başını qaldıraraq, Allaha üz tutub deyir ki: ”Küləyi mənim ixtiyarıma ver.”İlanın sözləri Allaha xoş gəlmir. O, mələklərə əmr edir ki, ilana əzab versinlər. Mələklərin hərəsi odlu bir dəyənək götürərək ilanı döyəcləmək istəyirlər.

Qorxuya düşən ilan Allaha yalvarır ki,onu əfv etsin.Elə bu an Allahın taxtının pilləsinə yazılmış,”Muhəmməd Peyğəmbər “sözləri, ilanın gözünə sataşır. İlan Allaha üz tutub deyir:

-Ey Rəbbim!Sən Muhəmməd Peyğəmbərin adını öz taxtının pilləsinə yazdırmaqla çox ədalətli iş görmüsən.Yazıq və məzlum məxluq olan mən ancaq Səndən özümə qarşı mərhəmət istəyir və günahımın bağışlanmasını xahiş edirəm.

Allah-taala mələklərə deyir:-İlanı incitməyin, çünki Mənim Rəsulum olan Muhəmməd Peyğəmbərin adına zəmanət verdi.Mən onun günahını bağışladım və ona əmr etdim ki, ildə iki dəfə: yay vaxtı son dərəcə isti, qış vaxtı da soyuq külək üfürsün.

Qiyamət günü, ümumi sorğu-sual vaxtı Qaşiyə Allahın hökmü ilə ağzını açacaq və Cəhənnəmdə üzə çıxacaq, açılacaqdır. Cəhənnəm xidmətçiləri onun alt dodağından bir qıl götürüb Cəhənnəmin üstündən bir körpü-Sirat körpüsü salacaq. Cəmi insanlar bu körpüdən keçib getməlidirlər.Siratın uzunluğu 150 min verstdir və ya üç min illik yoldur. Onun əlli min versti (min illik yolu) sərt yoxuş, 50 min versti eniş, 50 min versti isə rəvandır. Mələklər yer əhlini əllərində odlu dəyənəklə bu körpünün üzərində qovacaqlar. Onda insanlar biləcəklər ki, Cəhənnəm nə deməkdir.

Peyğəmbər (s.ə.s.)buyurur:”Mən körpünün bir tərəfində dayanacağam və deyəcəyəm: -Mənim ümmətim, mənim ümmətim, dua edin!”

Körpünün o biri tərəfində mərhəmətli mələklər dayanacaqlar. Onlar deyəcəklər:-Allah Sən Özün kömək elə! Müsəlmanlar fəryad qoparacaqlar. Kimliyindən asılı olmayaraq bütün adamlar bu körpünün üstündən keçməlidirlər. Hər adam həyatda etdiyi əməllərə uyğun olaraq keçəcəkdir.Bu körpünü bəziləri yüyürərək, bəziləri quş kimi, bəziləri yeriyərək, bəziləri imək̆leyərək, bəziləri də qarnı üstə sürünərək keçəcəkdir.Sirat körpüsünü ildırım kimi keçənlər bir gün-bir gecəyə,quş kimi keçənlər bu yolu bir ilə qət edəcəklər.

Cəhənnəmlik olanlar körpüdən yel kimi Cəhənnəmə düşəcəklər. O adamlar ki, Cəhənnəmə düşməyə layiq deyillər,qıl körpüsünü sağ-salamat keçərək deyəcəklər: ”İlahi, Sən bizə böyük mərhəmət göstərdin,vəd etdiyindən artıq biz heç nə istəmirik.”

Hz.Peyğəmbərimiz buyurur:-Cəhənnəm üzərində Sirat körpüsü qurular. Bu körpüdən ümməti ilə ilk keçən mən olacağam. O gün Peyğəmbərlərdən başqası danışa bilməz. Bütün Peyğəmbərlər də:

” Allahım! Ümmətimə salamatlıq ver. Sən onları qoru”-deyə dua edərlər.

Cəhənnəmdə dəmir çəngəllər vardır. Bunlar Sədan ağacının tikanına bənzərlər. Siz heç Sədan ağacı görmüsünüzmü?”-deyə Peyğəmbərimiz soruşdu. Onlar da:”Görmüşük”-deyincə Peyğəmbərimiz:”O çəngəllər onun tikanına bənzərlər, lakin ondan çox böyükdürlər. Böyüklük dərəcələrini yalnız Allah bilir. Hər kəsi üsyan etdiyinə görə Cəhənnəmə çəkərlər. Onlardan bir qismi günahına görə atəşdə əriyərkən,bir qismi də xardal dənəsi qədər(bir az) odda qalıb,sonra da qurtarar.”

Qiyamət gününün çətinliklərindən ən çox salamat qalanlar,dünyada ikən o günü çox düşünüb, qorxunu qəlbində saxlayan və ona görə hazırlananlardır. Bu çətinliklərdən dünyada ikən qorxan və çəkinən kimsələr axirətdən əmin olarlar. **(Mövlana Furati)**

HƏR KƏSİN KƏKİLİNDƏN TUTARLAR

əl-Ələq-14-15-Məgər o kəs bilmir ki, Allah onun bütün əməllərini görür.Yox,yox! Əgər yaramaz əməllərinə son qoymasa,and olsun ki, Biz onun kəkilindən yapışıb Cəhənnəmə sürükləyəcəyik. Özü də yalançı günahkar kəkilindən!

Açıqlama:-Anatomiya elmi sahəsində son illərdə aparılan tədqiqatlar nəticəsində məlum olmuşdur ki,insan kəlləsinin ön alın hissəsində bütün hərəkətlərimizi idarə edən, planlaşdırma, yalan-doğru, yaxşı-yaman, aqressiya funksiyalarının mərkəzi yerləşir. Yəni insanın törətdiyi yaxşı və pis əməllər,başımızın alın hissəsində yerləşən beyin vasitəsi ilə idarə edilir.

14-əsr Qurani-Kərimdə yazılmış bu ayənin həqiqiliyini 20-ci əsrin sonunda alimlər öz elmi təcrübələri nəticəsində kəşf edib, təsdiq etmişlər.

O GÜN YALNIZ ALLAHIN İZNİ İLƏ DANIŞARLAR

əl-Mursəlat-29-38-Dünyada yalan saydığınız Cəhənnəmin tərəfinə gedin. O üç şaxəsi olan kölgənin tərəfinə. Həmin kölgə tüstüdən əmələ

gələrək, kafirləri üç tərəfdən, sağdan, soldan və yuxarıdan əhatə edər. O, sizi nə əziyyətdən, nə də odun şöləsindən saxlayar. Cəhənnəm böyük ocaqlar kimi qığılcımlar saçar. Bu gün o gündür ki, danışmağa qadir olmazlar. Onlara üzr istəməyə izin verilməz ki, üzr istəsinlər. Bu gün hökm etmək günüdür. Bu gün sizi və keçmiş ümmətləri bir verə yığarıq.

ən-Nəba-38-40-O gün ruh və mələklər səf çəkən halda dururlar və ancaq rəhm edən Allah izni verəndən sonra danışarlar. Heç kəs Allah hüzurunda söz deməyə qadir olmaz, ancaq Allahın izni ilə danışa bilərlər. Danışan şəxs doğru danışar, yalan danışmaz. Həqiqətən, biz sizi yaxın əzabla qorxutduq ki, Qiyamət çox yaxındır. Qiyamət günü hər kəs öz əlləri ilə etdiyi əməllərin muzdunu görər. Əgər itaət edibdirsə, savaba yetişər. Kafirlər deyərlər:"Kaş mən torpaq olaydım və torpaq halında da qalaraq, nə yenidən qayıdardım, nə də bu əzabı görərdim." Onlar Cəhənnəmdə həmişəlik qalacaqlar.

Taha-74-Hər kəs Allahın hüzuruna günahkar halda gəlsə,Cəhənnəm onun üçündür. O rahat olmaq üçün Cəhənnəmdə nə ölər, nə də diri qalar.

O GÜN HÖKM YALNIZ ALLAHA MƏXSUSDUR

əl-İnfitar-1-19-O zaman ki, göy yarıla, ulduzlar tökülə, dənizlər qarışa, qəbirlər alt-üst ola, o zaman hər kəs nə etdiyini və nə qoyub getdiyini biləcək. Ey insan! Kərim olan Allah qarşısında səni nə aldatdı?Allah bütün nemətləri sənə mərhəmət etdi. Bəs nə üçün şükür etmək əvəzinə müşrik oldun? Elə Allah ki, səni nütfədən yaratdı, sonra düzəldib kamil insan surətinə saldı. Sənə istədiyi surəti verdi. Sizi ata-anaya,qohumlara oxşar yaratdı. Xeyr! Daha doğrusu, siz qəza gününü təkzib edirsiniz. Həqiqətən, sizi saxlayanlar vardır. Onlar sizin istər xeyir, istərsə də şər əməllərinizi qoruyurlar. Onlar Allah yanında kərim olan kəslərdir, bəndələrin əməllərini yazanlardır.Sizin etdiyiniz şeyləri bilirlər.Yaxşı əməl sahibləri mütləq behiştdə, pis əməl sahibləri isə Cəhənnəmdə olacaqdır. Onlar Qiyamətdə Cəhənnəmə yetişərlər, behişt əhli behiştə yetişər. Günahkarlar Cəhənnəmdən əsla çıxan deyillər. Cəza günü heç kəs heç kəsin karına gələ bilməz. O gündə hökm etmək yalnız Allaha məxsusdur. Ondan başqa əfv, rəhm, ya intiqam və qəzəb edən kəs yoxdur.

BÜTÜN CANLILAR CƏHƏNNƏMİ GÖRƏR

Məryəm-67-71-And olsun Allaha! Əlbəttə, biz onları şeytanlar ilə birlikdə məhşərə gətirərik. Sonra onları əzabın şiddətindən dizi üstə düşən halda,Cəhənnəmin ətrafında cəm edərik.Sonra o tayfalardan hansı biri mehriban Allaha asi və günah edən olsa,o tayfanın içindən çıxararıq. Cəhənnəmə getməyə layiq olanları biz daha yaxşı tanıyırıq. Sizlərdən mömin və kafir, elə bir kəs yoxdur ki, Cəhənnəmə daxil olmasın. Bu sənin Allahına vacib və onun tərəfindən hökm olunmuş bir mətləbdir. Sonra Cəhənnəmdən o kəslərə nicat verərik ki, dünyada təqvalı oldular. Onlar behiştə daxil olarlar. Zalımları isə dizi üstə düşmüş halda orada saxlayacağıq.

ər-Rəhman-35-43-Sizin üstünüzə tüstüsüz alov və alovsuz tüstü, ya ərinmiş mis göndəriləcək. O zaman siz özünüzə bir kömək edən tapmazsınız.

əl-Kəhv-53-Günahkarlar Cəhənnəmin atəşini görüncə ona düşəcəklərini yəqin edəcəklər və oradan baş götürüb qaçmağa (kənara çıxmağa) bir yer tapa bilməyəcəklər.

ən-Naziat-34-38-O böyük bəla, Qiyamət gəldi. O zaman günahkarlara bəla yetişər və Cəhənnəm əhli Cəhənnəmə gedər. O insan dünyada səy ilə əmələ gətirdiyi xeyir və şər işləri yadına salar. O gün insanlara Cəhənnəm görünər və bütün yaranmışlar onu görər. O kəs ki, tuğyan etdi, həddini aşdı, dünyada sağ qalmağı axirətdən üstün tutdu.

ət-Təkasur-1-8-Dünya həyatı sizi məşğul etdi.O zamana qədər ki, qəbirləri ziyarət etdiniz, yəni ölüb qəbirə girdiniz.Belə deyildir. Tezliklə biləcəksiniz!Xeyr, belə deyildir!Siz tam yəqinliklə bilsəydiniz ki, mütləq Cəhənnəmi görəcəksiniz! Sonra mütləq siz Allahın sizə verdiyi nemətlərdən sual olunarsınız.

Yəqinliyin üç dərəcəsi var:

1)Elmul-yəqin:-Məsələn,bir şəxs uzaqdan tüstü görür və o tüstü ilə orada odun olduğunu yəqin edir.

2)Eynul-yəqin:-Həmin şəxs yaxına gedərək gözü ilə odu görür.

3)Həqqul-yəqin:-Barmağını oda vurur və od da onun barmağını yandırır.

Hədis:-Cəhənnəm Allahı inkar edib,Rəsuluna baş qaldıran kafirlər, münafiqlər, müşriklər, günahkarlar və zalımlər üçün hazırlanmışdır. Günahkarların atəşi əbədi deyildir. Kafirlərin atəşi isə əbədi olaraq sönməz.Orada ağıla gəlməyən cəzalar və əzablar vardır.

Hədis: Bir gün Həsən Bəsrinin yanında bir hekayə danışırlar. Cəhənnəmdə"Ey Hənnan (çox verən),Ey Mənnan (minnət edən)" deyə

ağlayıb, sızlayaraq min il əzab çəkdikdən sonra ən son çıxanın”Hinad” adında birisi olduğunu söylərlər. Söhbətin bu anında gildir-gildir göz yaşı axıdaraq ağlamağa başlayan Həsən Bəsri:”Kaş həmin Hinad mən olaydım”- deyir.

Yanında oturanların bu sözləri eşidəndən sonra donub qaldıqlarını görən Həsən Bəsri ibrətlə danışmağa başlar:”Niyə belə donub qaldınız? Hinad deyilən adam necə olsa, bir gün Cəhənnəmdən çıxmayacaqmı? Çıxacaq! Mənim isə çıxa biləcəyim məlum deyil.”

Açıqlama:Bütün işlər bellərimizi bükən, çöhrələrimizi solduran, ciyərlərimizi dağlayan, ürəklərimizi parçalayan, gözlərimizdən qanlı yaşlar axıdan bircə nöqtədə düyünlənmişdir. Bu nöqtə”Son nəfəsəcən imanı əldən verməmək və imanlı getməkdir. Həmçinin bu dünyadan imansız getmək qorxusudur.”Bu səbəbdən çətinliklə də olsa belə, niyyət, əməl, ibadət və itaətlə imanı qoruyub saxlayaq ki, bəlkə Cəhənnəm odundan xilas ola bilək.

CƏHƏNNƏM HAQQINDA

Cəhənnəm, Allahın əmrlərindən çıxan kafirlərin atılacaqları bir əzab, iztirab çəkmə aləmidir. Oraya atılanlar dünyada yaşadıqları müddətdə,dərəcə-dərəcə Allaha qarşı çıxmanın, dünyadakı mal və sərvət artırmanın arxasınca qaçaraq, boş-boşuna ömrü başa vurmanın cəzasını çəkəcəklər. Onun azğın alovları arasında çapalayacaqlar. Ürəyində iman nuru daşıyan bir mömin əbədiyyən Cəhənnəmdə qalmayacaqdır. Cəzasını çəkən, cəzası qurtardıqdan sonra Cənnətə yerləşəcəkdir.

Cənnət nemətlərindən uzaqda qalmağa dözmək,Cəhənnəmin əbədi o tukürpərdici qorxunc əzabına dözməkdən daha yaxşıdır. Bir müddət əzab çəkdikdən sonra bu əzabdan qurtarmaq ümidi olarsa, işlər onda yaxşı olar...

Bütün bunların əlacı imanı qoruyub saxlaya bilməkdir.Yoxsa tükənməz bir əzaba hansı ürək, hansı insan dayana bilər?

Bu səbəbdən Hz İsa belə buyurmuşdur:“Cəhənnəmdə əbədi qalmaq fikri, ürəyində qorxu duyğusu daşıyan insanların ürəklərini parçalar.”

Açıqlama:-Dünyada olan atəş yetmiş min dəfə həyat suyu və zəmzəm ilə yaxalanıb gəlmişdir.Cəhənnəmin atəşi isə ən kiçik iynənin dəliyindən fışqırsa, bir saniyədə dünyanı məhv edər.

Hədis:Mücahiddən rəvayət edirlər ki, Peyğəmbərimizdən belə buyurardı: ”Dünya atəşi Cəhənnəm atəşindən qorxur və bu (dünya) atəşi Cəhənnəm atəşindən Allaha sığınır”.

Başqa rəvayətdə:"Nəfsim əlində olan Allaha and olsun ki, o belə (dünya atəşi) Cəhənnəm atəşinə dönməmək və qurtarmaq üçün Allaha dua edir"-dedi.(**Zubdətil əhədis)**

əl-Əhqaf-20-O gün ki,kafirlərə odu göstərərik və deyərik:-Siz özünüzün dadlı təamlarını dünyada yeyib ləzzət apardınız,axirətiniz üçün heç nə saxlamadınız. Dünyada nahaq yerə təkəbbürlük etdiyinizə görə bu gün rüsvayedici əzab ilə cəzalanarsınız. Çünki siz fasiq olub, Allahın itaətindən çıxdınız.

Yunus-27-Günah qazananlara günahları qədər cəza verilər.

əl-Məaric-15-17-Həqiqətən, Cəhənnəm xalis tüstüdən yaranmış, alovlu atəşdir. O, bədənin dərisini və ətini çox qoparandır.O od dal çevirib üz döndərəni öz tərəfinə çəkər.

əl-Kəhf-100-O gün biz Cəhənnəmi kafirlərin gözü qarşısına gətirərik.

ət-Təkəsur 6-7-Ey müşriklər! Qiyamət günü Siz o Cəhənnəmi mütləq görəcəksiniz! Bəli, siz onu mütləq öz gözünüzlə görəcəksiniz!

Fatir-37-Onlar orada fəryad edib deyəcəklər:"Pərvərdigara! Bizi buradan çıxart ki, saleh əməllər edək. O əməlləri yox ki, (dünyada) edirdik! (onlara) Məgər sizə orada öyüd-nəsihət qəbul edəcək kimsənin öyüd-nəsihət qəbul edəcəyi qədər ömür vermədikmi? Hələ sizə qorxudan Peyğəmbərlər də gəlmişdir.Dadın (Cəhənnəm əzabını)! Zalımların **imdadına çatan olmaz!**

ət-Təkvir-12-Cəhənnəm alovlandırıldığı zaman.

Hədis:- Rəvayət edilir ki, Rəsulullah (s.ə.s.)buyurdu:"Qiyamət günü Uca və Böyük olan Allah Cəhənnəmliklərdən ən yüngül əzab olunana:"Dünya və dünyadakı hər şey sənin olsaydı, bu əzabdan qurtarmaq üçün onu sədəqə verərdinmi?"O da:"Bəli, sədəqə verərdim," deyəcəkdir. Allah ona:"Mən səni atəşə atmayacaqdım. Dünyada ikən səndən bundan da yüngülünü istəmişdim -Mənə şərik qoşmamağını. Lakin sən dünyaya gəldikdə Allaha ibadət etməkdən imtina etdin və şirkdən uzaq olmadın". **(Buxari "Rikak" 51, 49, Müslim 2805.)**

KAFİRLƏR CƏHƏNNƏMİ TƏKZİB EDİRDİLƏR

əl-Kəhv-101-Kafirlərə Cəhənnəmi bir növ göstərərik ki, inanmadıqları şeyi öz gözləri ilə görsünlər.Kafirlər o kəslərdir ki,onların gözü məni görməkdən pərdəli idi.Onlar həsəd və ədavətlərinin çoxluğuna görə Allahın sözünü eşidə bilmədilər. Kafir olanlar belə güman edirdilər ki, məni yox, bəndələrimi özlərinə dost tutarlar.

ən-Nəba-21-30-Cəhənnəm intizar yeridir,onun alovu kafirləri yan-

dıracağı günü gözləyir. O, həddini aşanların qayıdacaq yeridir, onlar Cəhənnəmdə həmişəlik qalacaqlar. Orada nə sərinlik, nə də içməyə bir şey taparlar, yalnız qaynar su və Cəhənnəm əhlinin irinindən başqa heç nə tapmazlar. Onların əməllərinə müvafiq cəza verilər. Onlar qiyamət hesabına ümid bəsləmirdilər, ona inanmırdılar və bizim ayələrimizi də təkzib edirdilər.Hər bir şey Lövhu-Məhzuf kitabında yazılmışdır. Onlara deyilər:-Ey kafirlər, təkzib etdiyiniz əzabı dadın!

əl-Kəhv-105-Onlar o kəslərdir ki,Rəbbinin ayələrini və (Qiyamət günü dirilib haqq-hesab üçün) Onun hüzurunda duracaqlarını inkar etdilər.Onların bütün əməlləri puça çıxmışdır.

əl-Furqan-11-17-Kafirlər səni təkzib etməklə, həmçinin Qiyamət gününə də inanmadılar və öləndən sonra diriləcəklərini qə qəbul etmədilər.Qiyaməti təkzib edən kəslər üçün Cəhənnəmdə yandıran od hazır etdik!Kafirlər Cəhənnəmi uzaqdan göründə, Cəhənnəmin qaynamasını və uğultusunu eşidərlər. Elə bir şəxs qalmaz ki, üzüstə düşməsin. Kafirlər bir-birinə bağlı vəziyyətdə zəncirlə əlləri boyunlarına bağlı halda mismar divara daxil olan kimi, Cəhənnəmdə dar yerə atılan zaman özləri üçün ölüm diləyərlər. Mələklər onlara istehza ilə deyərlər:-Bu gün özünüzə bir dəfə ölüm diləmə yin, çox ölüm diləyin! Bunun sizə heç bir xeyri olmaz.

ŞEYTANIN ƏSGƏRLƏRİ CƏHƏNNƏMƏ TÖKÜLƏR

əş-Şüəra-93-100-Allahdan başqasına ibadət edənlər bir-birinin ardınca təpələri üstündə Cəhənnəmə atılarlar. Şeytanın əsgərlərinin hamısı Cəhənnəmə tökülərlər. Onlar Cəhənnəmdə bir-biri ilə düşmənçilik edən halda belə deyərlər:"And olsun Allaha! Həqiqətən, biz açıq-aşkar yolunu azmışlardan idik.Çünki biz ibadətdə sizi-bütləri, aləmlərin Allahı ilə bərabər tuturduq.Bizi yalnız günahkarlar azdırdı. İndi bizə nə şəfaət edən, nə də mehriban dost vardır. Kaş bir də dünyaya qayıdardıq, möminlərdən olardıq ki, bizə də şəfaət olunaydı."

DƏSTƏ-DƏSTƏ CƏHƏNNƏMƏ APARILARLAR

əz-Zumər-71-72-Kafirlər dəstə-dəstə Cəhənnəmə sürüklənərlər və ora çatdıqda qapılar açılar. Ora vəkil olan mələklər deyərlər:-"Məgər öz cinsinizdən Allahın ayələrini oxuyan, sizi bu günlə qorxudan Peyğəmbərlər gəlmədimi? Onlar deyərlər:-"Elədir, Peyğəmbərlər gəldilər və bizi qorxutdular. Lakin öz əməllərimizə görə Allahın əzabı

biz kafirlərə nazil oldu.Onlara deyilər:"Həmişəlik olaraq orada qalmaq üçün bu qapılardan Cəhənnəmə daxil olun! Təkəbbürlük edənlərin yeri nə pisdir!"

əl-Mumin-76-Girin! Cəhənnəmin qapılarına(təbəqələrinə), orada əbədi qalmaq üçün!Təkəbbürlülərin sığınacağı necə pis yerdir!

ƏZALARIMIZ ÜZÜMÜZƏ DURARAQ ŞAHİDLİK EDƏCƏK

əl-Fussilət-19-29-Qiyamət günü Allahın düşmənləri Cəhənnəm oduna tərəf çəkilərək həbs olunarlar. Cəhənnəm oduna yetişdikdə qulaqları, gözləri, dəriləri, dünyada etdikləri əməllərə görə şahidlik edərlər. Onlar şəhadət verən öz dərilərinə, qulaqlarına, gözlərinə və başqa bədən üzvlərinə deyərlər:-Nə üçün bizim zərərimizə şəhadət verdiniz.Onlar cavab verərlər ki, hər şeyi danışdıran Allah bizi danışdırdı. Qiyamətdə onlara deyərlər:-Siz güman edirdiniz ki, sizin əməlləriniz gizli qalacaq və əməllərinizin çoxundan Allahın xəbəri olmayacaq?Allah barədə olan zənniniz sizi həlakə saldı. Siz özünüzə ziyan verənlərdən oldunuz.Allah sizi birinci dəfə yoxdan yaratdığı kimi, ikinci dəfə də dirildib öz tərəfinə qaytaracaq. Kafirlər Cəhənnəmdə odun içində olarlar və onlar Allahdan razılıq istəsələr də qəbul olunmaz, Allah onlardan razı olmaz. Onlar üçün özləri kimi şeytan sifət yoldaşlar qərar verdik. Qabaqlarında olanlarını: axirət işlərini, arxalarında olanı: dünya işlərini, onlara zinətli göstərdilər. Əzabın nazil olması barədə bizim sözümüz onlara vacib oldu.Sonra biz kafirlərə şiddətli əzab dadızdırarıq və dünyada etdikləri pis əməllərə görə axirətdə pis cəza verərik. Bu, Allah düşmənlərinin cəzasıdır və onlar üçün orada oddan həmişəlik ev vardır. Kafir olanlar Cəhənnəmdə deyərlər:-Ey bizim Allahımız! Cin və insandan olan və bizi azdıran iki nəfər kəsi göstər ki, onları ayaqlarımızın altına salaq və onları əskilmişlərdən edək.

Yasin-65-67-Bu gün biz onların ağızlarına möhür vurarıq ki, danışmağa qadir olmasınlar.Onların əlləri etdikləri əməllər barədə bizə danışarlar. Onların ayaqları qazandıqları əməllər barədə şəhadət verərlər. Dünyada etdikləri əməlləri bir-bir xəbər verərlər. Əgər biz istəsəydik, onların gözünü kor edərdik və ya onları başqa hala salardıq ki, birbirlərini ötmək üçün bir yerə gedib-gəlməyə gücləri çatmasın. Lakin biz onlara dünyada rəhm edərək əzablarını axirətə saxlamışıq.

CƏHƏNNƏMİN VADİLƏRİ

Məryəm-59-Onlardan sonra namazı tərk edib şəhvətə uyan bir nəsil gəldi. Onlar(Cəhənnəmdəki) Ğəyy dərəsinə düşəcəklər. (Yaxud, onlar da öz əməllərinin cəzasını alacaqlar.)

Hədis:-Əbu Umamə deyir ki: "Ğəyy və Əsam Cəhənnəmin ən alt qatında iki çaydır. Oradan Cəhənnəm əhlinin irini axar**". (İbn Əbi Dunyə.)**

Hədis:-İbn Abbas-deyir ki**:"Ğəyy-Cəhənnəmdə bir vadidir**. "Ğəyy-Cəhənnəmdə bir vadi olub dadı pis və dibi dərindir". Ğəyy-Cəhənnəmdə isti sudan bir çaydır. Şəhvətlərinə tabe olanların atılacağı yerdir."(İbn Əbi Dunyə.)

Hədis:-Əbu Qatabə deyir ki:"Asam-Cəhənnəmdə bir vadidir".

Hədis:-Şəfi b. Matia deyir ki: "Cəhənnəmdə bir qəsr vardır. Ona Həviyə deyilir. Kafir ona atılır dibinə çatmadan 40 il keçir".

Hədis:-Əmr b.Əbəsə deyir ki:"Falk-Cəhənnəmdə bir quyudur. İnsan oğlu Cəhənnəmdən əzab gördüyü kimi, Cəhənnəm də o quyudan əziyyət görür" (İbn Əbi Dunyə.)

Hədis:-Zeyd b.Əli-deyir ki:"Falk-Cəhənnəmdə üstündə bir örtük olan dərin bir quyudur. Üstü açıldığı zaman Cəhənnəm oradan çıxan istilikdən fəryad edər"(İbn Əbi Hətim.)

əl-Mursəlat-15-O gün Qiyaməti yalan sayanlar üçün Veyl vadi-si vardır.

Hədis:-Əbu Səid əl-Xudri rəvayət edir ki, Peyğəmbər (s.ə.s.)buyurdu:"

Veyl- Cəhənnəmdə bir vadidir (Başqa rəvayətdə: İki dağ arasında bir vadidir). Kafir oraya 40 ilə düşər.Lakin dibinə çatmaz" (Tirmizi 3164.)

Hədis:-Cəfəri Sadiq (ə.s.)rəvayət edir ki, Peyğəmbər (s.ə.s.) buyurdu: "Veyl-Cəhənnəmdə atəşdən bir vadidir ki, dağlar içinə atılsa, istiliyindən əriyərlər".(Təbəri.)

əl-Müddəsir-17-Mən onu sərt bir yoxuşa sürükləyəcəyəm: "Səud-atəşdən bir dağın adıdır. Kafir 70 il ona çıxar, çıxdıqdan sonra təkrar 70 il də Cəhənnəmə geri enər. Beləcə Cəhənnəmdə əbədiyyən əzab çəkər".

Hədis:-Ənəs ibn.Malik rəvayət edir ki, Peyğəmbər buyurdu: "Hüzun"-quyusundan Allaha sığının.Səhabələr:"Ey Allahın Rəsulu! Hüzun-quyusu nədir?"deyə soruşdular. Hz.Peyğəmbər:"Cəhənnəmdə bir vadidir. Cəhənnəm o vadidən hər gün 100 dəfə Allaha sığınır,"deyə buyurdu. Səhabələr:"Ey Allahın Rəsulu!Ora kimlər girəcəkdir?"deyə soruşdular.Peyğəmbər (s.ə.s.):"Əməllərində riya edən kimsələr (Başqa

rəvayətdə: Riyakar Hafizlər üçün)" deyə buyurdu. (Tirmizi 2384)

Hədis:-Cəfəri Sadiq(ə.s.) Peyğəmbərdən rəvayət edir:"Cəhənnəmdə bir vadi vardır.Cəhənnəm o, vadidən hər gün 7 dəfə Allaha sığınır. O vadidə bir quyu vardır.Vadi və Cəhənnəm ondan gündə 7 dəfə Allaha sığınır. O quyu da elə bir ilan vardır ki,Vadi, Quyu və Cəhənnəm ondan gündə 7 dəfə Allaha sığınırlar. Hafizlərin fasiq olanları ora düşər. Onlar:"Rəbbimiz bütə ibadət edənlərdən öncə bizdən başladı". Onlara: "Bilənlər bilməyənlər kimi deyildir" deyilər. **"(Üsuli-Kafi)**

Hədis:-Ata b.Yəsar deyir ki:"Cəhənnəmdə 70 min vadi vardır. Hər vadidə 70 min bölüm vardır.Hər bir bölümdə 70 min hücrə vardır. Hər hücrədə Cəhənnəm əhlinin üzünü yeyən bir ilan (Başqa rəvayətdə:Dəvə boynu kimi qalın ilanlar və Həbəşistan qatırı kimi əqrəblər) vardır. (Başqa rəvayətdə: Kafir və Münafiqlər bunların hamısına girmədən işləri bitməz)" (İbn Əbi Dunyə)

CƏHƏNNƏM KAFİRLƏR ÜÇÜN MƏNZİLDİR

əl-Kəhf-102-Kafirlər Məni qoyub qullarımı (mələkləri, Üzeyiri, İsanı və Başqalarını) özlərinə dost,hami edəcəklərinimi güman edirdilər? (Xeyr,onlar bəndələrimi Mənim əzabımdan qurtara bilməzlər).Biz Cəhənnəmi kafirlər üçün mənzillər hazırlamışıq!

əl-Ənbiya-100-Onlar Cəhənnəmdə ahzar edərlər və heç bir xoş söz eşitməzlər.

əl-Kəhv-106-Küfr etdiklərinə, ayələrimi və Peyğəmbərlərimi məsxərəyə qoyduqlarına görə budur onların cəzası-Cəhənnəm!

Hədis:-Həsən ibn Yəhyə əl-Huşani deyir:-Əhməd deyir ki: "Cəhənnəmdə hər evin, hər mağaranın, hər halqanın, hər ipin, hər zəncirin üzərində sahibinin ismi vardır".

Bu rəvayəti Süleymana danışdıqda ağladı və:"Vay olsun sənə! Bunların hamısı bir insana aid olsa, necə olur?"-dedi. Halqa boynuna, iplər ayağına, zəncirlər boynuna taxılsa, sonra atəşə, sonra da mağaraya atılar...".Bunlardan Allaha sığınırıq! (Əhməd 4/223.)

CƏHƏNNƏMİN GEYİMİ

əl-Həcc-19-Kafir olan kəslər üçün atəşdən paltar biçilmişdir; başlarına da qaynar su töküləcəkdir.

əl-Əhzab-64-67-Allah kafirləri lənətləyibdir və onlar üçün yandırıcı od hazırlayıbdır. Onlar orada həmişəlik qalacaqlar və özləri üçün

heç bir köməkçi tapmayacaqlar. Od içində yanıb, dəriləri dəyişilən gün deyərlər:"Kaş ki, Allaha və Peyğəmbərinə itaət edərdik."

CƏHƏNNƏMİN YEMƏYİ VƏ ZƏQQUM AĞACI

əl-İsra-60-Ya Peyğəmbər!Sənə göstərdiyimiz yuxunu, Quranda lənət olunmuş ağacı ancaq insanları imtahan etmək üçün əmələ gətirdik. Kafirlər ona istehza etdilər və dedilər ki, Peyğəmbər qeybdən xəbər verir,odun içində ağac olar? Əslində isə həmin lənətlənmiş ağac Cəhənnəmdədir və onu yeyən Cəhənnəm əhli Allahın rəhmətindən uzaqdır.

əs-Səffat-62-67-Qonaq olmağa bütün ləzzətlər yerləşən behişt yaxşıdır, yoxsa Cəhənnəmdə yerləşən zəqqum ağacı? Zəqqum ağacı Cəhənnəmdə meyvəsi acı olan ağacdır və Cəhənnəmdə olanların yemidir. Həqiqətən, biz onu zalımlar üçün qərar verdik ki, dünyada onun adını eşidəndə istehza edirdilər və deyirdilər:-Cəhənnəmdə də ağac olarmı, nə üçün od ağacı yandırmır? O elə bir ağacdır ki, Cəhənnəmin dibindən xaric olar və budaqları bütün dirəklərə gedib çıxar. Onun meyvələri çirkin və əcaib olduğu üçün, şeytanın başı kimidir. Cəhənnəm əhli mütləq o ağacın meyvəsindən yeyər və qarınlarını onunla doldurarlar, ya zorla yeyərlər. Sonra onlar üçün üstündən qaynar su ilə qarışmış irin var, susuzluğun çoxluğundan onu içərlər.

əd-Duxan-43-46-Həqiqətən də, zəqqum ağacı günahkarların yemidir. Ərinmiş yağ kimi, ya mis kimi qarınlarda qaynar.

CƏHƏNNƏMDƏKİ İÇİLƏCƏK SU

əl-Ğaşiyə-5-7-Onlara qaynayan çeşmədən içirdiləcəkdir.O çeşmə Cəhənnəm yaranan gündən indiyə kimi qaynayır.Onların yeməyi tikanlı oddan başqa bir şey deyildir.O yemək nə bədəni kök edər, nə də aclıqdan doyurar.

İbrahim-17-Onların arxasında Cəhənnəm yerləşir ki, orada ona su yerinə çirk və qan içirərlər. Damcı-damcı onu içəcək və ona heç xoş gəlməyəcək və ölüm hər yandan onu bürüyəcək,ancaq o ölməyəcək və ağır bir əzab onu gözləyir.

əl-Həcc-20-22-O suyun istiliyindən onların qarınlarında olanlar:bağırsaq, ciyər və sair orqanlar və dəriləri əriyər. Onlar üçün dəmir gürzlər vardır, o gürzlər(toppuzlar) ilə onların başlarına vurarlar. Kafirlər Cəhənnəmdən, qəmdən qurtarmaq istədikcə başlarına gürzlə

vurularaq geri Cəhənnəmə qaytarılarlar. Onlara deyilər: -"Dadın yandıran odun əzabını."

əl-Kəhv-29-Həqiqətən, Allahdan başqasına ibadət etməklə özlərinə zülm edən zalımlar üçün Cəhənnəm odunu hazırladıq. Cəhənnəmin pərdələri,ya tüstüsü onları dörd tərəfdən əhatə edər. Əgər odun və susuzluğun şiddətindən fəryada çağırsalar, onların fəryadına yağın löhümü, ya yaralardan axan çirk kimi su ilə yetişərlər. Onu üzlərinin qabağına gətirəndə üzlərini qızardar.O nə pis içki,o Cəhənnəm necə pis məskəndir.

əs-Sad-57-58-Bu, qaynar su bədənlərindən axan çirkdir.Qoy onu dadsınlar! Cəhənnəmdə əzablara oxşar daha başqa-başqa əzablar da vardır!

Hədis:-Amr ibn Şueyb atasından,o da babasından rəvayət edir ki, Rəsulullah (s.ə.s.)buyurdu:"Təkəbbürlülər (zalımlar) Qiyamət günü adam şəkilində kiçik qarışqalar kimi məhşərə toplanacaqlar. Onları hər tərəfdən zillət bürüyəcəkdir. Onlar Cəhənnəmdəki Buləs adlı zindana aparılacaqlar. Onları alovların atəşi bürüyəcək və onlara Cəhənnəm əhlinin bədənindn axan irindən içirdiləcəkdir.(Buxari"Ədəbul Mufrad" 557.)

CƏHƏNNƏMDƏ ZƏBANİLƏRİN VERDİYİ ƏZABLAR

ət-Təhrim-6-Ey iman gətirənlər! Özünüzü və əhli-əyalınızı elə bir oddan qoruyun ki, onun yanacağı insanlar və daşlar, xidmətçiləri isə Allahın onlara verdiyi əmrlərə asi olmayan, buyurduqlarını yerinə yetirən daş qəlbli və çox sərt təbiətli mələklərdir.

əz-Zuxruf-77-Onlar (Cəhənnəm gözətçisi Malikə) müraciət edib deyəcəklər:"Ey Malik! Qoy Rəbbin bizi öldürsün(bu əzabdan qurtaraq!)" O isə(min ildən sonra onlara):"Siz (həmişəlik burada) qalacaqsınız!"-deyə cavab verəcəkdir!

əd-Duxan-47-50-Allah Cəhənnəmin əzab mələklərinə (zəbanilərə) əmr edər:"Onu tutun və Cəhənnəmin ortasına sürüyün.Sonra onun başına əzab olaraq qaynar su tökün" -deyin:Allahın bu cür şiddətli əzabını dad! Bu həmin əzabdır ki, siz onun doğruluğuna şəkk edirdiniz."

əl-Müddəsir-31-Biz Cəhənnəm gözətçilərini yalnız mələklərdən etdik. Biz onların sayını ancaq kafirlərin imtahana çəkilməsi,kitab verilənlərin yəqinlik hasil etməsi(çünki onların kitablarında da onların sayı on doqquzdur),iman gətirənlərin imanının daha da artması,kitab əhlinin və möminlərin şübhəyə düşməməsi,həmçinin ürəklərində nifaq və şəkk mərəzi olanların:"Allah bu məsəllə nə demək istəyir?"

deməmələri üçün(on doqquz)etdik.Kafirlər bu ədədin hikmətini anlamaz,Allahın bu qədər az mələklə saysız-hesabsız günahkarların öhdəsindən gələ bilməyəcəyini deyərək ona istehza edərlər.Allah istədiyi kimsəni haqq yoldan belə azdırır və istədiyini də doğru yola salar.Rəbbinin ordularını(Allahın əsgərlərinin nə cür və nə qədər olduğunu) Özündən başqası bilməz.

Açıqlama: Bu ayələrdən də göründüyü kimi onlara:"Ətrafı qaranlıq,təhlükəli və əbədi olaraq qalacağınız, əzab çəkəcəyiniz bu Cəhənnəmdə yaşayın"-deyilir. Atıldıqları yerdə Cəhənnəm atəşi yanar və onlar bu atəşin yanacağı olarlar.

Mərufətnamə:Zəbanilər onları Cəhənnəmə atdıqları zaman, Haviyə Cəhənnəmi onları toplar.Artıq onlar üçün bir ümid yeri yoxdur. Onlar üçün yalnız həlak üstündən həlak vardır. Qurtarmaqları imkansızdır. Ayaqları, boyunları bağlı olduğu halda, günahdan üzləri qaralmış olar, fəryad edib durarlar.

Ey Malik! Biz cəzamızı bildik.Bu atəşdən də çox, bu dəmir buxxovlar bizə daha ağır gəlir.Belə ki, hər dəfə dərimiz əriyib axmaqdadır. Nə olar bizi buradan çıxar.Bir daha üsyan etmərik"-deyə bağırarlar. Lakin zəbanilərin:"Boş yerə qurtarmaq haqqında düşünməyin, artıq çox gecdir. Səsinizi kəsin və bir daha danışmayın. Çünki siz buradan çıxarılsanız belə, yenə əvvəlki vəziyyətinizə, küfr və üsyanınıza dönərsiniz"-dedikləri zaman, üsyankarlar artıq onlar üçün bir qurtuluş yerinin olmadığını anlarlar. Həyatdakı fürsətlərini tamamən itirdikləri üçün peşman olarlar. Lakin bu peşmanlıq onlara fayda verməz. Üzüqoylu Cəhənnəm atəşinə yuvarlanarlar. Cəhənnəm atəşi bir anda hər tərəflərini sarar. Onların yeyəcəkləri, içəcəkləri və yatacaqları sadəcə atəşdir. Atəş dalğaları arasında qıvrılır, dəmir toxmaqlar altında, zəncirlərin bədənlərinə verdiyi əziyyət içində qıvrılıb dururlar. Hər inləyəndə, bağıranda başlarına qaynar su tökülər. Dəriləri üzülüb, bağırsaqları tökülər. Başlarına dəmir toxmaqlarla hər vurulanda ağızlarından qan və irin tökülər. Ciyərləri susuzluqdan yanıb, ətləri tökülər. Sümükləri çılpaq qalar.Sonra onlara təkrar can verilər və təkrar əzab başlar. Çəkdikləri əzab ilə təbii olan ölümü çox arzularlar. Ancaq bu da onlar üçün imkansızdır. Bütün bunlar Cəhənnəmliklərin bəzi hallarıdır. Cəhənnəmin əzabları həddən çox,müxtəlif və daha çətindir.

əl-Ğaşiyə-3-4-O gün üzlər zəlil görkəm alacaq.(Boyunlarındakı zəncirləri, ayaqlarındakı qandalları daşımaqla,Cəhənnəmin pillələrini çıxıb-düşməklə boş yerə) zəhmət çəkib yorulacaqlar. Yanar oda girəcəklər.

CƏHƏNNƏMDƏ YER ÇOXDUR

Qaf-30-O gün biz Cəhənnəmə:"Sənə atılan bəndələrin çoxluğundan doldunmu?"-deyərik.Cəhənnəm deyər:"Yenə də varmı?Bayırda nə qədər insan qalıbdırsa, yenə də verin."

CƏHƏNNƏMDƏN QORXULU SƏSLƏR EŞİDİLƏR

əl-Mülk-6-9-Öz Allahına kafir olanlar üçün Cəhənnəm əzabı vardır. Cəhənnəm isə pis qayıdacaq yeridir. Cəhənnəmə atıldıqda, qazanda su qaynadan kimi Cəhənnəm odu da onu qaynadar və o orada qorxulu səslər eşidər. Az qalır ki, Cəhənnəmin qəzəbi çoxluğundan parça tikə olsunlar.Kafirlər oda atıldıqda Cəhənnəmin xəzinədarları onlardan soruşarlar:"Məgər sizə Allah tərəfindən qorxudan Peyğəmbər gəlmədimi? "Deyilər:"Bəli!Bizə qorxudan Peyğəmbər gəldi. Biz onları təkzib etdik və dedik ki, Allah heç bir şey nazil etməyibdir. Əgər biz eşitsəydik, ya fikirləşsəydik, Cəhənnəm əshabında olmazdıq."Onlar öz günahlarını iqrar edərlər.Lakin Cəhənnəm əhli nicat tapmaqdan uzaqdırlar. Mələklər onlara deyərlər:"Siz ancaq böyük azğınlıqdasınız."

əl-Muminun-107-108-Dedilər:"Ey bizim Allahımız!Bizi Cəhənnəm odundan xaric et, bizə öz bədbəxtliyimiz qələbə çaldı və haqdan azan bir qövm olduq. Bir də dünyaya qayıdıb günah etsək, şübhəsiz ki, zalımlardan olarıq."Allah buyurdu:

-"İndi odda sakin olun.Artıq sümük və torpaq olandan sonra danışmayın. Məgər mənim ayələrim sizə oxunmadı və siz onu təkzib etmədiniz? İndi təkzib etdiyiniz üçün əzabı dadın!

YERİN TƏBƏQƏLƏRİ HAQQINDA

"40 sual" kitabında:-Allah-taala öz qüdrət əli ilə yerləri birbirinin altında yeddi təbəqə yaratmışdır.Hər yerin genişliyi və hər iki yerin ara məsafəsini beş yüz illık yol edib, hava ilə dolu eləmişdir.

1-ci təbəqənin nəmı:-Dimkədır.Qısır rüzgar kimi havası xoşa gəlimli deyildir.Onda bir çeşid yaradılmış vardır ki, Bərşəm nəmı ilə məşhurdur. Orada həm hesab,həm də əzab vardır.

2-ci təbəqənin adı:-Cəldədir. Onda Cəhənnəmliklər üçün əzabın hər cürəsi hazırdır.Buranın qövmünün ismi:-Təmasdır. Burada bir-birlərini yeyərlər.

3-cü təbəqənin ismi:-Ərkədir. Onda böyük əqrəblər vardır ki, quy-

ruqları mızraqlara bənzəyər. Hər birinin quyruğunda üç yüz buğum vardır ki, öldürücü zəhər ilə doludur. Onun sakinləri bir xüsusi tayfadirlar ki onlara:-Qabəs deyərlər. Onların yiyəcəkləri torpaq, içəcəkləri rütubətdir.

4-cü təbəqənin adı:-Hərbadır.Onda dağlar kimi əjdahalar vardır ki, quyruqları uzun xurma ağacı kimidir.Əgər birinin zəhəri bəhri mühitə qarışsa, dənizdəki yaradılmışların hamısı həlak olarlar.Onun sakinlərinə:-Cülhan deyərlər. Onların nə gözləri, nə ayaqları vardır, ancaq iki qanadları vardır ki, uçarlar.

5-ci təbəqənin adı:-Məlsadır.Qövmünün adı:-Muhtatdır. Sayları hesaba gəlməz. Bir-birlərini yeyərlər. Orada kükürtdən dağlar kimi daşlar vardır ki, kafirlərin boyunlarına bağlayıb, Cəhənnəmə buraxarlar.

6-cı təbəqənin adı:-Siccindir. Cəhənnəmliklərin əməl dəftərləri oradadır. Sakinlərinə:-Kutatə deyərlər. Hamısı quş şəklindədirlər. Lakin əlləri adam əli kimi, qulaqları öküz qulağı kimi, ayaqları qoyun ayağı kimidir. Onlar mələklər kimidirlər;yeməzlər, içməzlər, yatmazlar və ciftləşməzlər. Daima Allaha ibadət edərlər. Bir atəşliklərin ruhları Qiyamətə qədər orada həbs olunmuşlar.

7-ci təbəqənin adı:-Ücbadır. Qövmünün adı:-Cüsumdur. Hamısı qısa boylu, qara həbəşli kimidirlər. Əlləri və ayaqları, yırtıcı heyvan pəncəsi kimidir.Yəcuc və Məcuc tayfasını onlar həlak edəcəklər. Hələ lənətlənmiş İblis tərəftarları ilə orada sakindirlər. Özü bir taxt üzərində oturur.Yandaşları ətrafında səf-səf durub, hər biri yer üzündə insan oğlunu azdırmaqla etdikləri fəsad və fitnələri İblisə ərz edərlər. Onlardan hər kimin şər və fəsadı çox və böyük olsa; İblis onu yanına alıb, saxta təriflər edib,iltifat edərək yaxınlarından sayar.Həmin bu yerin ortasında qaranlıqdan bir pərdə vardır. Qiyamət gününədək İblis və dəstəsi orada yaşayacaqlar. Şeytanlar və qoşunu öz azğınlıq, üsyan və inadkarlıqlarından sonra zillət içində sürünərək Məhşərə gələrlər. Məhşərdə, Mizanda İblis özü öz qoşununa qarşı şahidlik edəcək. Sonra isə əbədi olaraq Cəhənnəmə atılacaqlar. Həmin bu yerin ortasında qaranlıqdan bir pərdə vardır.Bu yeddi təbəqə yer , böyük bir mələyin ovucunun içində yerləşmişdir.

CƏHƏNNƏMİN TƏBƏQƏLƏRİ

Ourani-Kərimdə Cəhənnəm haqqında 58 ayə nazil olmuşdur. Cəhənnəmin təbəqələri haqqında isə belə buyurulur:

əl-Hicr-43-44-Şübhəsiz, Cəhənnəm onlara vəd olunmuş yerdir.

Cəhənnəmin 7 qapısı,7 təbəqəsi var. Bunların hamısından yuxarıda Cəhənnəmdir ki, ora ümməti mərhumənin günahlarının məskənidir. (Qatlar yuxarıdan aşağıya sayılır)

"40 sual" kitabında:- Allah yeddi qat yer altında olan yaşıl qaya,qırmızı öküz,böyük balıq və böyük dənizdən aşağıda öz qəzəbindən yeddi təbəqə Cəhənnəm yaratmışdır ki, hər təbəqəsi bir-birindən aşağıdadır. Bu yeddi təbəqə, böyük bir mələkin ovcunun içində yerləşir. Bu təbəqələrin hər birinin arası 500 illik məsafədədir. Cəhənnəmin 7 qapısı vardır.Hər birinin içində atəşdən 70 min dağ vardır. Hər dağda atəşdən 70 min dərə, hər dərədə atəşdən 70 min qala, hər qalada atəşdən 70 min ev, hər evin içində qaynar yağlar, zəncirlər, sandıqlar, itlər, ilanlar, əqrəblər, zəhərlər, qaynar sular, duzlar və zəqqum kimi min cür əzabverici əşyalar vardır. Cəhənnəmdə qara üzlü, göy gözlü, Zəbani deyilən, hamızı qəzəbli,qəddar, mərhəmətsiz və sayı-hesabı bilinməyən mələklər vardır. Allah Zəbanilərə Malik adında qorxunc bir mələyi başçı təyin etmişdir və 7 qat Cəhənnəmin hakimi odur. Hər Cəhənnəmin əzabı, öz altındakından daha yüngüldür**.**

CƏHƏNNƏMİN TƏBƏQƏLƏRİ VƏ ADLARI

Açıqlama:-Cəhənnəm, bütünlüklə kafirlər üçün yaradılmış, günahkar möminlərin də içinə girəcəyi Allahın qəzəbindən yaranmış yerdir. Onun hər qapısından müəyyən bir dəstə keçər, hər təbəqəyə bir tayfa daxil olar.

Cəhənnəm sonsuz əzab yeridir. Hər bir dində Cənnət və Cəhənnəmin həqiqətləri haqqında insanlara məlumatlar bildirilmişdir.

ər-Təkasur-7-Bəli, siz (Cəhənnəmə düşdükdən sonra) onu mütləq öz gözlərinizlə görəcəksiniz!

1-ci təbəqə sadəcə Cəhənnəm adlanır:- Muhəmməd ümmətinin asiləri üçün yaradılmışdır.Quranda buyurulur:

əl-Qəmər-45-52-Onlara vəd olunmuş yer,Cəhənnəmdir.Qiyamət günü müsibətli və çox acıdır. Üzləri üstə ora sürüklənən gün onlara deyilər:-Cəhənnəmə yetişməyi dadın! Həqiqətən biz sizə bənzər insanları həlak etdik.Edilən hər bir, kiçik və böyük əməllər, əməl dəftərində yazılmışdır. (Cəhənnəmin bu qatı Allahsızlar üçündür)

2-cı təbəqə Səqir adlanır: Bu təbəqəyə dinsizlər,din adından yalan danışanlar, İsa (ə.s.) Allahın oğludur deyənlər və bu **kimi dindar paltari geymiş dinsizlər, münafiqlər** daxil olacaqdır.

3-cü təbəqə Səqər adlanır:-Yəhudilər üçün hazırlanmış əbədi

məkandır.

əl-Müddəsir-26-30-Tezliklə mən onu Cəhənnəmə yetirərəm.Sən nə bilirsən **Səqər** nədir? Onun əsil həqiqəti məlum olmasada bəzi sifətləri budur ki,kafirlərdən bir nəfəri sağ qoymaz, onların hamısını öz tərəfinə çəkər və bədənin üzüvlərindən heç bir şey buraxmaz, hamısını yandırar. O,insanın dərisini dəyişdirib qaraldar. Həqiqətən **Səqər** böyük bəlalardan biridir.

4-ci təbəqə Qayyan,Cəhim adlanır:Mürtədlər, və şeytanlar üçündür.

5-ci təbəqə-Hütəmə adlanır:-Ğeyy quyusu buradadır, Yəcus-Məcus və kafirlərin yeri buradır.

əl-Huməzə-5-9-Sən nə bilirsən"Hütəmə" nədir? "Hütəmə" Cəhənnəmin alt qatlarından biridir. (Məhv edici xanə adlanır.)O, sümüyü əridər və dərini yandırar. O,Allahın yanar odudur.Elə bir od ki, ürəklərə yaxın olar.Dünya odu insanı xaricdən yandıraraq içəriyə sirayət edər.Amma Cəhənnəm odu içərini yandırar, sonra bayıra sirayət edər. Həqiqətən,Cəhənnəm odu onları əhatə etmiş onların heç bir tərəfdən çıxmağa yolları yoxdur.Hündur sütunlara bağlanmışlar, yəni Cəhənnəm onları əhatə etmiş və onlar mıxlar ilə mıxlanmışlar ki, yerlərindən hərəkət etməsinlər.

6-cü təbəqə Ləza adlanır:Bütə, atəşə tapınanlar,sehirbazlar üçündür.

7-ci- təbəqənin iki adı var;-1)-**Haviyə-** köhnə uçurumlu olduğuna görə belə adlanır. 2)-adı-Əsfəl-dir, ən aşağı təbəqə olduğuna görə belə adlanır. Yalançılar,münafiqlər və sairləri girəcək,onun atəşi, hərarəti,əzab və şiddəti hamısından üstündür.

Quranda bu təbəqə haqqında belə deyilir:

əl-Qariə-8-11-O kəs ki, onun çəkilmiş əməli yüngül olar, yaxşı əməlləri olmayıb pis əməlləri çox olar,Onun məskəni Haviyə və Cəhənnəmdir.Haviyə çox isti oddur. Düyada elə bir isti yoxdur ki, onunla müqayisə olunsun.

ən-Nisa-145-Həqiqətən, münafiqlər Cəhənnəmin ən aşağı dərəcəsindədirlər Cəhənnəmdən xilas olmaq üçün sən onlara heç bir köməkçi tapa bilməzsən.

CƏHƏNNƏMDƏN ALLAHA SIĞINMAQ

Ali-İmran-191-195-"O kəslər ki, ayaq üstə olanda da,oturanda da, uzananda da Allahı xatırlar, göylərin və yerin yaradılması haqqında

düşünər və deyərlər:“Ey Rəbbimiz! Sən bunları boş yerə yaratmamısan! Sən pak və müqəddəssən! Bizi Cəhənnəm odunun əzabından Özün qoru! Ey Rəbbimiz! Sən Cəhənnəm oduna atdığın şəxsi, əlbəttə, rüsvay edərsən və zalımlara kömək edən olmaz! Ey Rəbbimiz! Həqiqətən, biz:“Rəbbinizə inanın!”-deyə imana tərəf çağıran bir kimsənin çağırışını eşidib Sənə iman gətirdik.Ey Rəbbimiz! İndi günahlarımızı bağışla,təqsirlərimizdən keç (böyük günahlarımızı bağışla, kiçik günahlarımızın üstünü ört) və canımızı yaxşı əməl sahibləri ilə bir yerdə al! Ey Rəbbimiz! Öz Peyğəmbərlərin vasitəsilə bizə vəd etdiklərini ver və Qiyamət günündə bizi rüsvay etmə! Əlbəttə, Sən Öz vədinə xilaf çıxmazsan!”

Rəbbi də onların dualarını qəbul edərək cavab verdi:“İstər kişi, istərsə də qadın olsun, Mən heç birinizin əməlini puça çıxarmaram. Siz hamınız bir-birinizdənsiniz (dində kişi ilə qadın eynidir). Hicrət edənlərin (Məkkədən Mədinəyə öz dinini qorumaq məqsədilə köçənlərin), öz yurdlarından çıxarılanların, Mənim yolumda əziyyətə düçar olanların, vuruşanların və öldürülənlərin günahlarının üstünü, Allahdan bir mükafat olaraq, əlbəttə, örtəcək və onları ağaclar altından çaylar axan Cənnətlərə daxil edəcəyəm. Ən yaxşı mükafat Allah yanındadır!”

COVŞƏN KƏBİR DUASINDA CƏHƏNNƏMDƏN QORUNMAQ ÜÇÜN DUA

İlahi, həqiqətən, mən Səndən istəyirəm və Səni and verirəm Öz adına, ey Allah (daimi olan varlıq), ey Rəhim (rəhməti daim olan), ey Kərim (ehsan və nemət sahibi),ey Müqim, ey Əzim(əzəmətli), ey Qədim (əzəli), ey Əlim (sonsuz elmə malik), ey Həlim (qəzəbi təhrik etməyən), ey Həkim (hikmət üzündən iş görən), bütün eyib və nöqsanlardan pak və münəzzəhsən. Ey o Kəs ki, səndən başqa heç bir məbud yoxdur, bizim fəryadımıza yet, bizi oddan xilas et, ya Rəbb. Ey seyyidlərin ağası, ey duaları qəbul edən, ey dərəcələri yüksəldən, ey yaxşılıqları sevən, ey xətaları bağışlayan, ey istəyənləri əta edən, ey tövbələri qəbul edən, ey səsləri eşidən,ey məxfi şeyləri bilən, ey bəlaları dəf edən. Ey bağışlayanların ən yaxşısı, ey fəth edənlərin ən yaxşısı, ey kömək edənlərin ən yaxşısı, ey hakimlərin ən yaxşısı, ey ruzi verənlərin ən yaxşısı, ey həmd edənlərin ən yaxşısı, ey zikr edənlərin ən yaxşısı,ey nazil edənlərin ən yaxşısı, ey ehsan edənlərin ən yaxşısı. Ey qeybləri bilən, ey günahkarları bağışlayan, ey eyibləri örtən, ey qəm- qüssəni dağıdan, ey qəlbləri halbahal edən, ey qəlblərin təbibi, ey qəlbləri nur-

landıran, ey qəlblərlə üns tutan, ey qüssələri dağıdan, ey qəmləri aparan. Pak və münəzzəhsən, Səndən başqa heç bir məbud yoxdur, pənah ver bizə, pənah ver bizə, Cəhənnəm odundan xilas et, ya Rəbb.

Ey o kəs ki, Əla sifətlər Sənə məxsusdur. Ey o kəs ki,axirət və dünya Sənə məxsusdur. Ey o kəs ki, Cənnəti-Məva Sənə məxsusdur. Ey o kəs ki, böyük ayələr, ən gözəl adlar Sənə məxsusdur. Ey o kəs ki, hava-fəza, ərş və yer, asimanlar Sənə məxsusdur.

İlahi, Səndən istəyirik. Səni and veririk Öz adına, ey Əfuvv, ey Ğəfur, ey Səbur, ey Şəkur, ey Rəuf, ey Ətüf, ey Məsul (istənilən), ey Vədud, ey Sübbuh (pak), ey Qüddus (müqəddəs), günahlarımızı əfv et. Ey əzəməti asimanlarda olan, ey əlamət və işarələri yerdə olan.Ey o kəs ki, bütün işlər Sənə tərəf qayıdar. Sən pak və Münəzzəhsən, Səndən başqa heç bir məbud yoxdur, pənah ver bizə, bizi Cəhənnəm odunda yandırma, bizləri o oddan xilas et, ya Rəbb.

CƏNNƏT HAQQINDA

Açıqlama:Cənnət ərəbcə bağ deməkdir.Qurani-Kərimdə Cənnət geniş və olduqca gözəl vəsf edilir.Bu müqəddəs Kitabın 38 surəsində Cənnətdən söhbət açılır.

Cənnət, Allahın nemətlərinin ən üstünləri olan,rahatlıq və səfa diyarıdır. Oraya girənlər gözlərinin görmədiyi, qulaqlarının eşitmədiyi və xəyallarında belə canlandırmadıqları zənginlik və bolluqla, Allah nemətləri ilə qarşılaşacaqlar və bu hallarından sonsuz dərəcədə razı qalaraq, Allaha şükür edəcəklər. Lakin Cənnətliklərin qazandığı ən böyük dərəcə arada Allahın camalını görmək şərəfinə nail olmaq olacaqdır. Cənnət əbədi nemətlər yurdudur. Allah oranı Allaha ixlas ilə itaət edən və Rəsuluna tabe olaraq, təqva sahibi olan möminlər üçün hazırlamışdır. Orada olan nemətləri nə bir göz görmüş, nə bir qulaq eşitmiş, nə də bir insanın xatirindən keçmişdir. **(Cərir Təbərinin "Təbəreyi Kəbir")**

əl-Bəyyinə-7-8-Etdikləri əməllərin mükafatı olaraq (Allah dərgahında) möminlər üçün göz oxşayan nə cür nemətlər gizlənib saxlandığını heç kəs bilməz. Onların öz Rəbbi yanındakı mükafatı (ağaclar)altından axan Ədn Cənnətləridir.

əl-Hicr-45-48-Onlara deyilər:-Ora əmin-amanlıqla daxil olun! Biz Cənnət əhlinin qəlblərindən kin-küdurəti çıxarıb atdıq. Bir-birləri ilə qardaş olan halda taxtlar üstündə üzbəüz əyləşərlər. Onlar Cənnətdən xaric olmazlar və onlara heç bir zəhmət yetişməz.

Açıqlama:-Ayədən göründüyü kimi dünyadakı min illik zövqi-səfa Cənnətdəki bir gündən azdır. Cənnətdəki zövqü heç bir ağıl, idrak dərk edə bilməz, ağıl tərəzisi bunu çəkə bilməz.

Hədis:-Peyğəmbərimiz belə buyurur:"Allahın rəhməti 100 parçadır.Ondan 1 parçası yer üzündə yaşayanlara, 99 parçası isə axirətdə veriləcəkdir.99 parça Cənnətdə yalnız möminlərə veriləcək. Kafirlər isə dünyaya bəxş edilən o,bir parçadan yararlanarlar. Axirətdə isə Cəhənnəmdə yanarlar."(**Zubdətul Əhadis.)**

Hədis:Miaz İbn Cəbəl rəvayət edir:-Bir səfərdə Rəsullullah ilə bir yerdə idik.Ondan soruşdum ki:-Ey Allahın Rəsulu, məni Cəhənnəmdən uzaqlaşdırıb, Cənnətə aparacaq bir əməl öyrət. Hz.Peyğəmbər buyurur:

-"Mühüm bir şey haqqında soruşdun.Bu, Allahın nəsib etdiyi kimsə üçün rahatdır ki, Allaha ibadət edər, Ona heç bir şeyi şərik qoşmaz, namaz qılar, zəkat verər, Ramazan orucunu tutar, Həcc əməlini yerinə yetirər!"Sonra belə davam etdi:"Sənə xeyir qapılarını göstərimmi?"-deyə soruşdu.

-Bəli, ey Allahın Rəsulu!-dedim.

Peyğəmbər (s.ə.s.):-Oruc Cəhənnəmə pərdədir, sədəqə xətaları yox edər, eyni ilə suyun atəşi yox etməsi kimi. İnsanın gecələr qıldığı namaz salehlərin şuarıdır,-deyə buyurdu və sonra bu ayəni oxudu:-Onlar ibadət etmək üçün gecə vaxtı yataqlarından qalxar, Rəbblərinin əzabından qorxaraq və rəhmətinə ümid edərək Ona dua edərlər.Onlara ruzi olaraq verdiyimiz şeylərdən də ehsan edərlər. "

Peyğəmbər(s.ə.s.) sonra isə belə sual verdi:

-Bu din işlərinin başını, dirəyini və zirvəsini sənə tanıdımmı?

-Bəli, ey Allahın Rəsulu,"-dedim. Peyğəmbər davam etdi:

-Bu dinin başı İslamdır, dirəyi namazdır, zirvəsi cihaddır!

Sonra davam edib dedi:"Sənə bütün bunları tamamlayan baş amildən xəbər verimmi?"

-Bəli, ey Allahın Rəsulu"-dedim.

-Ey Miaz! Dilinə sahib ol! İnsanları üzləri və ya burunları üstə atəşə atan dilləri ilə qazandıqlarıdır."(Buxari,Elm-19)

Hədis:- Ənəs b.Məlik rəvayət edir ki, Rəsulullah (s.ə.s.) buyururdu: "Cənnət əhli 120 səfdir. Bu səfflərdən 80 mənim ümmətimdən, 40 isə digər ümmətlərdən olacaqdır".(**Buxari 2670.)**

DƏSTƏ-DƏSTƏ CƏNNƏTƏ APARARLAR

əz-Zumər-73-74-Allahın əzabından qorxan möminlər Qiyamətdə dəstə-dəstə Cənnətə aparılar. Cənnətə yetişdikdə,qapılar açıq olan halda onları gözləyən mələklər deyərlər:"Sizə Allahın salamı və rəhməti olsun! Siz yaxşı işlər görməklə dünyada pak idiniz. Həmişəlik olan halda Cənnətə daxil olun!"Onlar Cənnətə daxil olduqda deyərlər:Həmd olsun Allaha ki, Peyğəmbərlər vasitəsi ilə bizə verdiyi Cənnət vədi doğrudur. O bizə Cənnəti irs veribdir. Harada istəsək, mənzil edərik.Yaxşı əməl edənlərin əcri nə yaxşıdır."

ŞƏHİDLƏR CƏNNƏTDƏ ŞADLIQ EDƏRLƏR

Ali-İmran-169-170-Allah yolunda öldürülənləri, şəhidləri heç də ölü zənn etmə! Əsil həqiqətdə onlar diridirlər. Onlara Rəbbi yanında ruzilər əta olunar. Onlar Allahın öz mərhəmətindən bəxş etdiyi nemətə sevinər, arxalarınca gəlib hələ özlərinə çatmamış kəslərin, şəhidlərin axirətdə heç bir qorxusu olmayacağına və onların qəm-qüssə görməyəcəklərinə görə şadlıq edərlər.

İbrahim -23-İman gətirib yaxşı işlər görənlər isə ağaclar altında çaylar axan Cənnətlərə daxil ediləcəklər.Onlar Rəbbinin izni ilə əbədi orada qalacaqlar.Onların orada bir-birinə(yaxud Allahın, mələklərin onlara) günaydınlıq verməsi:"Salam"-demək olacaqdır!

Hədis:- Ənəs b.Məlik rəvayət edir ki,Rəsulullah (s.ə.s.) buyururdu: "Cənnətdə Allahın yolunda vuruşanlar üçün hazırlanmış 100 dərəcə vardır. Hər iki dərəcə arası göylə yer arası qədərdir" (Buxari 6/11, Həkim 1/80, Əhməd 2/335, 5/321.)

CƏNNƏTİN YEMƏK VƏ İÇMƏKLƏRİ

əl-Vaqiə-14-37-Onlar nemətlə dolu olan Nəim Cənnətlərində olacaqlar. Ləl-cəvahiratla bəzənmiş taxtlarda sanki padşahlar kimi bir-biri ilə üzbəüz əyləşərlər. Şərabla dolu piyalə, kuzə və qədəhlərdə verilər ki,o şərabı içməkdən başları ağrımaz, keflənməzlər. İstədikləri və bəyəndikləri meyvələri və quş ətini onlar üçün dolandırarlar. İrigözlü hurilər vardır, onlar sədəf içində gizlənmiş mirvari kimidirlər. Bu dünyada etdikləri əməllər müqabilində muzd olaraq verilmişdir.Onlar behiştdə faydasız və günaha bais olan söz eşitməzlər və yalnız bir-

birinə salam verərlər.

Sağ tərəf əshabı! Kimdir sağ tərəf əshabı? Tikansız Sidr ağacının altında və budaqları bir-birinin üstündə olan Təlh(xoş rəngli və xoş iyli ağac) ağacının altında daimi çəkilməyən kölgədə,heç vaxt kəsilməyən suda, dərilməylə qurtarmayan və dərilməyi qadağan olmayan meyvələrlə nemətləndirilənlər. Onlar bir-birinin üstünə yığılmış hündür döşəklər üstündə, ərlərini sevən həm yaşıd zövcələrlə oturub söhbət edərlər.

əl-Bəqərə-25-Ya Peyğəmbər!İman edib yaxşı əməllər edən kəslərə müjdə ver. Həqiqətən onlar üçün bağ və bağçalar vardır ki, onun ağaclarının altından arxlar cari olar. Behiştdə onlara verilən meyvələrdən yedikdə, deyərlər ki, bu adda olan meyvələrdən dünyada yemişik,lakin bunlar çox lətifdir. Allah behişt əhlinin bu sözünü təsdiq edib buyurar:"O meyvələr bir-birinə oxşar yetirildi. Dünya meyvələri ilə axirət meyvələrinin bəziləri surətdə bir-birinə bənzəyir, rəngləri eyni, dadları müxtəlifdir. Onlar behiştdə həmişəlik qalarlar,orada fəna və həlakət yoxdur.

"40 sual"kitabında:-Cənnət əhlinin arzuladığı,ürəyindən keçdiyi hər bir nemət dərhal qarşılarına gələr.Yüksək ağacların budaqlarından sallanmış meyvələr bir işarə ilə əllərinə gələr,istədikləri çeşidli meyvələrdən ləzzət alarlar və istədikləri yemək və içməyi də anında qarşılarında hazır görərlər. Çalışmaq və bişirmək dərdi burada olmaz. Çünki Cənnətdə zəhmət və atəş olmaz.Cənnət ağaclarının çoxu Tuba ağacıdır ki, kökü Sidrə, budaq və yarpaqları isə, bütün Cənnət köşklərinin içinə yayılmışdır. Eyni ilə günəşin lap yüksəkdə olduğu zaman işığının dünya evlərinə girdiyi kimi, onların da evləri Tuba ağacının budaqlarında işıqlanar. Cənnət əhli bu ağacın çeşidli meyvələrindən hər an ləzzət alarlar. Möminlər üçün rəngbərəng bəzənmiş və döşənmiş evlər vardır. Onlar bu evlərdə taxtlar üzərində otururlar və onlara hurilər xidmət edərlər.Cənnət xalqı hər zaman əmin-amanlıq, hüzur içində, dedi-qodu kimi pis xasiyyətlərdən, kədər, züntülərdən uzaq və xəstəliklərdən salamatdırlar.

CƏNNƏTDƏKİ BƏZƏKLƏR VƏ GEYİMLƏR

əl-Həcc-23 -Həqiqətən, Allah iman gətirib yaxşı əməllər edən kəsləri ağaclar altında çaylar axan bağlara daxil edəcəkdir.Onlar behiştdə qızıldan, dürrdən olan bilərziklər ilə bəzənərlər. Orada onların libası ipəkdən olacaqdır.

əl-Kəhv-30-31-İman gətirib yaxşı əməllər yerinə yetirən kəslərə gəldikdə, şübhəsiz, Biz gözəl əməl edənin əcrini və muzdunu zay etmərik. Onlar üçün altında çaylar axan həmişəlik Cənnətlər var. Onlar qızıl qolbaq və bilərziklər ilə zinətlənmiş olarlar. Sündüs və istəbrəq (ipək növləri) libaslar geyərlər, Cənnətdə gözəl taxtlarda söykənərlər. Bu nə yaxşı muzd və nə yaxşı söykənəcək yerdir.

CƏNNƏTDƏKİ NEMƏTLƏR

əz-Zuxruf-68-73-Ey mənim bəndələrim! Bu günün əzabından sizin üçün qorxu yoxdur. Siz qəmgin olmazsınız.Siz və zövcələriniz Cənnətə daxil olun! Siz şad olarsınız. Qızıldan düzəldilmiş kasa və kuzələr içi dolu nemətlə, hurilər onların arasında dolanarlar. Cənnətdə olanlar üçün ürəkləri istəyən və gözlərin ondan ləzzət apardığı şeylər vardır. Siz orada həmişəliksiniz və bu, sizin əməllərinizin müqabilində verilən Cənnətdir.Sizin üçün Cənnətdə çoxlu şeylər vardır ki, onlardan yeyərsiniz.

Hədis:"Hədisi Qüdsi"də Allah-taala da belə buyurmuşdur:"Ey insan oğlu! Sən dünyaya necə rəğbət və iltifat bəsləsən də, o fanidir. Nemətləri keçici, həyatı əzablıdır.Həqiqətən, Mənim qatımda mənə itaət edən insan üçün səkkiz Cənnət hazırlamışam. Qapıları da səkkizdir. Hər bir Cənnətdə zəfərandan yetmiş min bağça vardır. Hər bir bağçada inci və mərcandan yetmiş min bölgə vardır. Hər bir bölgə içində qırmızı yaqutdan yetmiş min saray vardır. Hər bir sarayda qaşlarla bəzədilmiş yetmiş min ev vardır. Hər bir evdə sarı qızıldan yetmiş min otaq vardır. Hər bir otağın içində sarı yaqutdan yetmiş min yataq vardır. Hər bir yatağın üstü incə ipəkdən yetmiş min döşəklə döşənmişdir. Hər bir döşək üzərində bir huri və hər bir hurinin önündə sarı qızıldan sini vardır. Hər bir sinidə rəngli cövhərlərdən yetmiş min boşqab vardır. Hər bir boşqabda müxtəlif çeşitli yeməklər vardır.

Hər bir saray altından axan dörd nəhr vardır. Bunlardan biri su, biri süd, biri şərab, biri də saf baldandır. Hər bir nəhrin kənarında yetmiş min ağac vardır. Hər bir ağacın yetmiş min çeşit meyvəsi və yetmiş min rəng yarpağı vardır. Hər bir ağac üzərində rəngli quşlardan yetmiş min çeşid quş vardır. Hər bir quş yetmiş min çeşid səda ilə Mənə təsbih edər. Mənim itaətkar bəndələrimə bunlardan başqa hər bir saatda yetmiş min çeşid hədiyyə bəxş edərəm ki, nə gözlər görmüş, nə qulaqlar eşitmiş, nə də ki könüllərdən keçmişdir. Cənnətliklərin geyimləri yetmiş qat Cənnət geyimidir. Bunlar çox incə və zərif ipəkdəndirlər. Cənnətliklər

Cənnətlərdən nə çıxarlar, nə də ölüm görərlər; nə qocalarlar, nə də qəmlənərlər. Nə qorxu, nə də dərd çəkərlər. Nə namaz qılarlar, nə oruc tutarlar. Nə xəstələnərlər, nə də ağlayarlar.Nə kiçik su tökərlər,nə də böyük su; ancaq gül suyu kimi tər tökərlər. Onda kim ki, mənim rizamı və Cənnətimi istərsə, dünyadan az ilə qənaət edib, dünyanın şanı olan izzət və ləzzətlərini tərk etsin və Həbibimə, Muhəmmədə (s.ə.s.) uyaraq, onun yolunda getsin."

"40 sual"kitabında:-Cənnətdəkilər üçün olan nemətlər hər vəziyyətdə hazır olub, arzu etdiklərində qarşılarına gələr.Yüksək ağacları bürüyən meyvələr, işarələri ilə əllərinə gələr və onlar çeşidli meyvələri yeyərək, ləzzət alarlar. Hər cürə yemək və içmək istəsələr, yanlarında hazır olar. Qazanmağa və bişirməyə ehtiyac olmaz və Cənnətdə əziyyət və atəş yoxdur.

Möminlər üçün rəngli döşəklərlə bəzənmiş saraylarda və otaqlarda, yastıqlar üzərində gözəl saçlı, hilal qaşlı,günəş üzlü, şirin sözlü,işvəli və nazlı, inci dişli,mərcan dodaqlı, gül yanaqlı,gözəl xasiyyətli,güldən təzə və təravətli huri qızlar vardır.Bunlar Cənnətliklərin təmiz zövcələridir. Hər birisi yetmiş qat paltar geyinmişdir. Rəngləri çeşidli, ölçüləri xəfifdir. Başlarına nur rənglərilə işıldayan taclar qoymuşlar. Müxtəlif cövhərlərlə işlənmiş taxtlar üzərində oturub, möminlərə baxarlar. Qarşılarında xidmət üçün neçə min uşaq və qılman səf-səf düzülərlər. Cənnətlərə girən möminlər orada əbədi qalıb və oradan çıxmazlar.Salamla şirin sohbətlər edib, boş sözlə əsla qəlbə dəyməzlər.Cənnətliklər üçün əsla qocalmaq yoxdur. Geyimləri tükənməz.Könülləri zəngin, gözləri toxdur. Yeyib-içərlər, lakin ayaq yoluna getməzlər.Yeyib-içdikləri lətif bir buxar kimi bədənlərindən çıxar və əsla bir damcı su tökməzlər. Oradakı hurilər və qadınlar heyzdən, nifasdan və buna bənzər şeylərdən uzaq və pakdırlar. Cənnətliklər hər an və hər zaman əmniyyət içindədirlər. Üzüntüdən, qəmdən daha qurtarmışlar. Xəstəliklərdən qurtarmış, səhhət və afiyətdə əbədi sevinc içindədirlər və səadətləri sonsuzdur. Möminlər üçün Rəhmanın mələkləri hər həftə bir dəfə mücəvhərlə dalanmış buraqlar(atlar) gətirib, Allah salam və dəvətini təbliğ edərlər, müjdələyərlər. Onlar da buraqlara (atlara)minib Ədn Cənnətinə yüksəlib gedərlər. Haqqın müsafirxanasına çatıb, ikram və izzətlərini görüb,çeşidli nemətlərini yeyib, salam və kəlamını eşidib, Haqqın camalını gözlərilə müşahidə edərlər.Görüntüsünün ləzzətindən məst olub,Cənnət nemətlərini belə unudarlar.Oradan Haqqın iznilə yenə də öz məkanlarına dönərlər.Bütün Cənnətlərin gözətçisi, hakimi sevimli və böyük bir mələkdir.Onun adı Rizvandır, özü də insana bənzər.

Cənnətlər içində gecə və gündüz olmaz. Bütün Cənnətlər bir an işıqsız qalmazlar.Çünki Cənnətlərin göyünün üzü Rəhmanın Ərşidir. Hər an Ərşin nurları onları işıqlandırar.

CƏNNƏTDƏKİ ƏRAF ƏHLİ HAQQINDA

əl-Əraf-43-44-Biz Cənnət əhlinin sinələrində olan şeyi, həsəd və kini kənar etdik.Elə bir Cənnət ki,onun altından çaylar axar. Onlar Cənnətə daxil olduqdan sonra dedilər:-Həmd Allah üçündür! O bizə Cənnəti hidayət etdi. Əgər Allah bizi hidayət etməsəydi, biz doğru yolu tapmazdıq. Həqiqətən, Rəbbimizin Peyğəmbəri haqq ilə gəldi. Onlara nida olunar ki,dünyada etdiyiniz əməllərə görə sizə irs verilən Cənnət budur.Cənnət əhli Cəhənnəm əhlinə nida edər ki, həqiqətən Allahımızın vəd etdiyini haqq olaraq tapdıq. Siz də Allahın sizə verdiyi vədini doğru tapdınızmı? Onlar dedilər: ”Bəli.”Sonra bir carçı səslənər:”Zalımlara Allahın lənəti olsun! Allahın yoluna mane olan insanları iman gətirib düz yol ilə getməyə qoymayan,Allah yolunda əyrilik axtaran,ilahi hökmləri öz istəkləri ilə dəyişdirən kəslər axirətə inanmayanlardır.”

Açıqlama:-Cənnət ilə Cəhənnəm arasında pərdə və sədd vardır.Bir tərəfin əhli o biri tərəfə gedə bilməz.Ərafda isə kişilər vardır ki,Cənnət və Cəhənnəm əhlinin hamısını əlamət və nişanələri ilə tanıyarlar. Əraf Cənnət və Cəhənnəm arasında olan uca bir yerdir. Öz nemət və ləzzətində nə Cənnətə yetişər, nə də əzabda Cəhənnəmə.

Bu haqda Əmirəl-möminin Hz.Əlidən hədis vardır ki, buyurur: “Biz Cənnət və Cəhənnəmin arasında dayanıb, onların əhlini əlamətləri ilə tanıyarıq.”Onlar Cənnət əhlinə nida edərlər:”Sizə Salam olsun.Yəni onları görəndə salam verərlər.Təkcə O Allahdır ki, öz fəzli ilə onları Cənnətə daxil edər.”

Əraf əhli Cəhənnəm əhlinin bir qismini əlamətləri ilə tanıyıb nida edərlər:”Dünyada topladığınız mal-dövlət və təkəbbürünüz sizə fayda etmədi.”Ərafda olanlar Cəhənnəm əhlinə deyərlər:”Bu Cənnət əhli həmin o kəslərdir ki, siz dünyada and içib deyərdiniz:-“Allahın rəhməti onlara yetişməz”.Bizim üçün Cəhənnəmdən qorxu yoxdur və biz qəmgin olmarıq.”

Cəhənnəm əhli Cənnət əhlini səsləyib deyərlər:”Bizim üstümüzə bir qədər su tökün. Çünki Cənnət ucada, Cəhənnəm isə alçaqdadır. Buna görə su verin, yerinə su tökün deyirlər.Yaxud Allahın sizə verdiyi təamdan verin. Onlar deyərlər:”Allah Cənnətin suyunu və təamını kafirlərə haram etmişdir.”

CƏNNƏTƏ TÖVBƏ EDİB,İMAN GƏTİRƏN KƏSLƏR DAXİL OLARLAR

Məryəm-60-61-Təkcə tövbə edən, iman gətirən və saleh əməllər edən kəslər heç bir şeydə zülm olunmadan Cənnətə daxil olarlar. Mehriban Allah öz bəndələrini görmədikləri Ədn Cənnətlərinə daxil edəcək.Allahın vədəsi mütləq yerinə yetəcəkdir. Behiştdə əbəs sözlər eşitməzlər, ancaq salam və rəhmət eşidərlər. Onların behiştdə sübh və axşam ruziləri vardır. Bu elə behiştdir ki, bəndələrimizdən dünyada təqvalı olanları ona varis edəcəyik. Cənnətdəkilər Cəhənnəm odunun səsini eşitməzlər

əl-Ənbiya-102-103-Həqiqətən dünyada etdikləri əməllər müqabilində bizim tərəfimizdən gözəl əcr verilər.Onlar Cəhənnəmdən uzaq olarlar,Cəhənnəm odunun uğultusunun səsini eşitməzlər. Mələklər onların qabaqlarına gəlib deyərlər:"Sizə vəd edilmiş savab verilən gün budur."

CƏNNƏTDƏKİ ÇEŞMƏLƏR

əl-Kövsər-1-Ya Peyğəmbər!Həqiqətən Biz sənə Kövsər, Cənnətdəki Kövsər hovuzunu bəxş etdik.

ər-Rəhman-46-45-Allahın hüzurunda durmaqdan qorxanlar üçün iki növ Cənnət vardır.Bu iki Cənnətdə iki axar çeşmə vardır. Biri Səlsəbil, digəri isə Təsnimdir. Orada hər meyvədən iki sinif vardır.Bir halda ki, onlar astarları qalın ipəkdən olan döşəkçələrə söykənərlər.İki Cənnətin meyvələrini dərmək onlar üçün asandır. Orada ərindən başqasına baxmaqdan gözlərini örtən zövcələr var ki, əvvəldən nə insan, nə də cin onlara yaxın olmamışdır.Sanki o zövcələr qırmızı yaqut və mərcandır. Yaxşılığın əvəzi yalnız yaxşılıqdır.

ər-Rəhman-66-78-Burada iki ədəd qaynayan çeşmə var. Burada hər növ meyvə, xurma və nar vardır. Onlar yaşıl döşəkçələrə, gözəl və qiymətli parçalardan əmələ gələn mütəkkələrə söykənərlər.Calal və Kərim olan Allahın adı ucadır.

əl-Ğaşiyə-12-Orada axar ceşmələr (Səlsəbil) vardır.

Muhəmməd-15-Təqvalılara vəd olunan Cənnətin vəsfi belədir ki, oradakı çayların suyunun rəngi və qoxusu dəyişməyir,elə çaylar var ki, içənlər üçün dadlı görünən şərabdandır.O,dünyadakı şərab kimi deyil və onlar əziyyət çəkməzlər.Orada saf baldan çaylar var.Onlar üçün Cənnətdə bütün meyvələrdən vardır. Bunlarla bərabər öz Allahı tərəfindən bağışlanmaq vardır.

“40 sual”kitabında:- Haqq-təala Ərşin ətrafında 8 böyük yaratmışdır. Dördü qardan da ağ və soyuq, dördü isə baldan dadlı və ləzzətlidir. Bu çaylar davamlı olaraq Ərşin ətrafında axar və onu təvaf edərlər.

Hər Cənnətin eni və uzunluğu yüz illik yol olan bir qapısı vardır. Hər qapının sarı qızıldan olan iki qanadı vardır.Rəngbərəng çeşidli qaş-qaşla bəzədilmişdir.Birinci Cənnət qapısının üzərində:“Lə İləhə illəlləh, Muhəmmədun Rəsulallah,”-yazılıb. Bütün Cənnətlərin torpağı müşk, daşları isə mücəvhərdir.Bitkiləri çeşidli rəngdə, çiçəkləri qırmızı zəfərandandır.Binalarının bir daşı qızıl, bir daşı gümüş,torpağı isə ənbərdir. Binaların ən gözəli ləldən və sarı yaqutdandır,hamısının qapıları müxtəlif rəngli qaşlardandır.Hər binanın qarşısında dörd nəhr axar. Bu nəhrlərin biri həyat suyu, biri xalis süd,biri təmiz şərab, biri isə süzülmüş baldandır. Nəhrlərin ətrafı meyvəli ağaclarla dolu və bəzənmişdir. Bu ağacların əbədiyyən qolları qurumaz, yarpaqları solmaz,tökülməz, meyvələri tükənməz. Bir-birindən gözəl və üstün olan bu səkkiz Cənnətdə axan daha bir çox nəhrlər vardır.Bu nəhrlərdən biri Rəhman nəhridir. Suyu bütün nəhrlərdən saf,baldan dadlı olan bu nəhrin rəngi qardan ağdır.

Nəhrlərdən biri də Kövsər nəhridir.Cənabi-haqq Kövsər hovuzunu Həbibi Muhəmmədə (s.ə.s.) vermişdir.Bu nəhrin qaynağı Ərşin altında olub oradan da Sidrəyə gəlir və oradan da Firdovs Cənnətinə tökülür.Yaydan atılmış ox kimi sürətli bir şəkildə Firdovs-Əla ilə digər Cənnətlərə axar. Kövsər hovuzunun qoxusu ənbərdən də xoşdur, ondan bir dəfə içən dadını əsla unutmaz. Həşirdən,Sirat körpüsündən keçdikdən sonra bütün Cənnətliklər Kövsər hovuzundan su içəcəklər. Birinci Cənnətin qapısı yanında və Kövsər nəhrinin yanında, rəngli cövhərlərdən sayılan, ulduzlardan daha çox olan evlər vardır.Kövsər hovuzunun bütün dövrəsi ən gözəl ləl və qırmızı yaqutdan, səf-səf yüksək ağaclar ilə dolanmışdır. Ağacların üstündə quşlar vardır ki,müxtəlif dillərdə Allahı təsbih edərlər. O hovuzun böyüklüyü Səfədan Yəmənə qədər olan yoldur.(300 fərsax yoldur) Onun suyu Ərşin altından Firdovsi Əlaya gəlir. Bu su, yaydan atılmış bir ox kimi sürətlə axar.Rəngi qardan ağ, ləzzəti şəkərdən şirin, qoxusu misk və ənbərdən güzəldir. Hər kim o sudan bir küzə içsə, bir daha susamaz və ölməz. (Buradaki ölüm məcazidir, müsəlmana əsla ölüm yoxdur.) O hovuzun kənarları qızıldan, torpağı misk və ənbərdən, içindəki daşlar incidən və mərcandandır. O hovuzın kənarında rəngli cövhərlərdən düzəldilmiş ulduz sayı dərər küzələr vardır.Qiyamət günündə əvvəlin və axırın bütün əshabım o küzələr ilə ümmətimə su verəcəkdir. Kövsərdən su içəcək olanlar kimlərdir desəniz,

dünyada bir nəsnəyə sahip olamamış ümmətimin fağir bəndələridir.

Cənnət nəhrlərindən biri Kafur,biri Nəsim,biri Səl-səbil,biri Rəhiqi-məhtumdur.Bu saydığımız hovuzlardan başqa, yüksək Cənnətlər içində axan minlərcə hovuzlar vardır ki, ətraflarında 100 minlərcə ağaclar,gözəl meyvələr vardır.Cənnətdəkilər üçün Sundus və istəbrəq kimi minbir rəngdə, dəyərli geyimlər, cürbəcür ləzzətli yeməklər və dadlı içkilər vardır ki,sayını yalnız Allah bilir.Cənnətlərin eni, uzunu, səkkiz qatdan hər iki qat arasındakı məsafə göylə yerin eni qədər,uzunluğu isə nəhayətsizdir.Hər iki dərəcənin arası 500 illik məsafədir.

Hədis: Allahın Rəsulu belə buyurmuşdur:"Qadir Allah Cənnətdəki Kövsər çayını mənim üçün yaradıb və mənə bəxş edib." **(Hədisi Qüdsi)**

Bu haqda Quranda belə buyurulur:

-Kövsər-1-3"Ya Peyğəmbər! Həqiqətən, biz sənə Kövsəri bəxş etdik!"

TUBA AĞACI HAQQINDA

"40 sual" kitabından:-Hz.Peyğəmbərə verilən suallardan biri Tuba ağacı haqqında idi.Peyğəmbərimiz (s.ə.s.) Tuba ağacı haqda belə buyurdu:

Allah-təala Sidrətül- Muntəhada, sarı qızıldan böyük bir ağac yaratmışdır ki, buna Tuba ağacı deyirlər. Gövdəsi qızıldan, qolları qırmızı mərcandan, yarpaqları yaşıl zümrüddən, meyvələri şəkərdəndir. Nəhayətsiz qolları,Cənnət köşklərinin üzərini örtmüşdür ki,saysız meyvələrini Cənnət əhli toplarlar. Eyni ilə günəşin lap yüksəkdə olduğu zaman işığının dünya evlərinə girdiyi kimi, onların da evləri Tuba ağacının budaqlarında işıqlanar. Qızıldan düzəldilmiş olan Tuba ağacı o qədər böyükdür ki, günəşin nuru dünyada hər yeri işiqlandırdığı kimi, onun da budaqları səkkiz Cənnəttin hamısının bütün köşk, saray, şağ-bağçalarını nura qərq edəcəkdir.Cənnət əhli bu ağacın çeşidli meyvələrindən hər an ləzzət alarlar.Möminlər üçün rəngbərəng bəzənmiş və döşənmiş evlər vardır.Onlar bu evlərdə taxtlar üzərində oturarlar və onlara hurilər xidmət edərlər.

Cənnət xalqı hər zaman əmin-amanlıq, hüzur içində dedi-qodu kimi pis xasiyyətlərdən, kədər,üzüntülərdən,qocalıqdan uzaq və xəstəliklərdən salamatdırlar.

Bütün Cənnətlərin hakimi və gözətçisi Rizvan adında mələkdir.Bu mələyin gecə-gündüz,bir an boş vaxtı olmaz. Cənnətlər bir an belə işıqsız qalmaz. Çünki Cənnətlərin tavanı Cənabi-haqqın Ərşidir.Ərşin nur-

ları daimi olaraq arada parlar.

Tuba ağacı mənim məqamımdır.Hər budaqda cürbəcür meyvələr vardır: Cənnət əhli nə çeşit meyvə yemək istəsə, həmən o əlinə gelir. Tubanın budaqları yaqutdan olub altı gülzardır.

MƏLƏKLƏR AXİRƏTDƏ DƏ SİZDƏN AYRILMAZLAR

Fussilət-30-Bizim Rəbbimiz:"Allahdır"-deyib, sonra öz sözünün üstə duran kəslərə mələklər nazil olar və qəbirdən çıxan zaman onları qarşılayaraq, onlara bəşarət verərlər:"Qorxmayın,qəmgin olmayın!Sizə vəd olunmuş Cənnətlə şad olun. Sizin dostlarınız dünyada biz idik, dünyada Allah tərəfindən sizə ruzi gətirərik, axirətdə də sizdən ayrılmarıq. Sizin üçün axirətdə istədiyiniz ləzzətlər və şeylər vardır. Bunlar rəhmli və mehriban Allah tərəfindən hədiyyədir."

CƏNNƏT İTAƏT VƏ İBADƏT EDƏNLƏR, TƏQVALILAR ÜÇÜNDÜR

əl-Ğaşiyə-9-11-O gün çox üzlər nemətlənərlər.Dünyada çəkdikləri zəhmətlərə görə razı olarlar.Uca behiştlərdədirlər.Orada boş söz eşitməzlər.

əd-Duxan-51-55-Həqiqətən, təqvalılar qorxusuz, xətərsiz yerdədirlər.Bağçalar və çeşmələr başında Sündüsvə istəbrəqdən (ipək növləri) tikilmiş libaslardan geyinib üzbəüz əyləşərlər.Onları hurilərlə evləndirəcəyik. Onlar behiştdə arxayın halda istədikləri meyvələrdən yeyəcəklər.

Qaf-31-35-Behişt təqvalılara yaxın olar.Behişt möminlərə uzaq deyildir.

Bu deyilən o şeydir ki,Allah tərəfinə qayıdan və özünü haramdan qoruyan bütün bəndələrə vəd olunmuşdur.Hər kəs gizlində Allahdan qorxsa və haqqa qayıdan qəlblə Allah hüzuruna gəlsə,ona deyilər:"Bütün bəlalardan əmin-amanlıqda olan halda behiştə daxil olun!Bu gün əbədi olan gündür. Onlar üçün behiştdə bütün istədikləri şeylər vardır.Onlar yeməli,içməli və bütün ləzzət aparmalı olan şeylərdən ləzzət alarlar. Bizim yanımızda onların fikrinə gələn şeylərdən daha da,artığı vardır."

əz-Zariat-15-16-Təqvalılar bağçalarda və çeşmə başındadırlar. Həqiqətən, onlar Qiyamətdən əvvəl ehsan edənlər idilər, həmişə itaət və ibadət edirdilər .

İnsan-5-22-(Bu ayə Əli ə.s. və onun övladları üçün nazil olub.) Həqiqətən, yaxşı iş görənlər və Allaha ibadət edənlər kafurla qarışmış, şərabla dolu camlardan içərlər. O elə bir çeşmədəndir ki, Allah bəndələri ondan içər və o çeşməni istədikləri tərəfə çəkib apararlar.

Etdikləri nəzirə vəfa edər, şəri faş və aşkar edən gündən qorxarlar. Təamı oruc tutub ehtiyacları olduqları halda onu yetimə, miskinə və əsirə verərlər. "Biz Allahımızdan çox zəhmətli və çətin olan günün əzabına görə qorxuruq"-deyərlər. Allah bu günün şərindən və şiddətindən onları saxladı, üzlərinə təravət, ürəklərinə şadlıq yetişdirdi.Orucun aclıq və susuzluğuna səbir etdiklərinə görə onların muzdu Cənnət və ipəkdən olan libasdır. Cənnətdə taxtlara söykənərlər. Orada nə gün, nə də soyuq görərlər.

Üstlərində ağacların kölgələri var.Oranın meyvələrini dərmək onlar üçün asan olar.Onlar üçün gümüşdən əmələ gəlmiş qabları və dəstəksiz şüşə küzələri dolandırarlar.Onlara kasalarda zəncəfil qarışığı sirab olunar.O,bir çeşmədəndir ki,Cənnətdə Səlsəbil adlanır. Cənnətdə həmişə cavanlar xidmət etmək üçün onların yanında dayanarlar. Sən onları gördükdə güman edərsən ki, sədəfdən təzə çıxmış və yer üzünə dağılmış mirvarilərdirlər. Onların üstündə olan libaslar yaşıl və nazik ipəkdəndir.Onlar gümüş bilərziklər ilə bəzənərlər.Sən baxdıqda orada müxtəlif nemətlər və çoxlu mülklər görərsən.Bu sizin mükafatınızdır, sizin səyiniz məqbuldur.

İYYİYUN-ƏMƏLLƏR YAZILAN KİTABDIR

əl-Mutəffifin-18-28-Xeyr!Möminlərlə kafirlər eyni ola bilməz. Şübhəsiz ki,yaxşı əməl və itaət sahibi olan möminlərin əməl dəftəri,Allahın ən müxlis bəndələrinin əməlləri yazıldığı və ya Cənnətin ən yüksək mərtəbəsi Nəimdə olan, İlliyyundadır.Sən nə bilirsən ki, İlliyun nədir? O yazılan bir kitabdır. Allaha yaxın olan mələklər ona şahid olar.Yaxşı əməl sahibləri,şübhəsiz ki, nemətlə dolu olan Nəim Cənnətlərindədirlər. Sən onları üzlərindəki, behişt nemətlərindən yaranan nurdan və şadlıqdan tanıyarsan.Taxt üstündə əyləşib Allahın onlara bəxş etdiyi nemətlərə tamaşa edərlər. Ağzı möhürlənmiş təmiz şərabdan içərlər.Onun möhürü müşkdür. Hər kəs o şərabdan içsə, ağzından müşk iyi gələr. Qoy yarışanlar onun üçün,belə bir nemətə nail olmaq uğrunda yarışsınlar. Ona təsnim (suyu) qatılmışdır.O (təsnim) elə bir çeşmədir ki, ondan (təmiz halda) yalnız (Allaha) yaxın olanlar içərlər.

əl-Casiyə-29-Onlara deyilər: bu, bizim kitabımızdır.Sizinlə haqq ilə danışar və sizin əməllərinizbarədə şəhadət verər.Həqiqətən də bunu biz yazdırdıq. Mələklər sizin dünyadakı bütün əməllərinizi yazıblar.

UCA BEHİŞTLƏRDƏDİRLƏR

əl-Fərc-27-30-Ey nəfsinə,imanına, ya Allah tərəfindən yetişən savaba və Cənnətlə bəşarətə arxayın olan kəs.Allahın savabına razı olan, bəyənilmiş olan halda Allahın tərəfinə qayıt.Mənim saleh bəndələrimin cərgəsinə daxil ol!Mənim Cənnətimə daxil ol!

əl-Vaqiə-10-Və bir də öndə olanlar.(Bunlar Allaha və Onun Peyğəmbərlərinə hamıdan qabaq iman gətirən,yaxşı əməllər etməklə hamını ötüb keçən, ömürlərini Allaha ibadətə həsr edən, var-dövlətlərini Allah yolunda xərcləyən kimsələrdir. Cənnətin ən yüksək təbəqələri onlara məxsusdur.

əl-Muminin-1-11-Möminlər nicat tapdılar.Elə möminlər ki, namazlarında Allaha boyun əyər, qadağan əməllərdən üz döndərərlər. Onlar zəkat verər, ayıb yerlərini zinadan qoruyarlar.Ancaq özlərinə halal olan övrətləri və satın aldıqları kənizlər istisna olunar.Bu qadınlardan başqasını istəyən kəslər hədlərini aşaraq,Allahı düşmən tutanlardır.

Cənnətə gedən möminlər öz əmanətlərini və əhdlərini qoruyub saxlayarlar.Onlar namazlarına riayət edərlər,öz vaxtında qılarlar.Bu sifətlərə malik olan kəslər varislərdir.Onlar behiştə varis olarlar. Onlar behiştdə həmişəlik qalanlardır.

CƏNNƏTİN QATLARI HAQQINDA

Açıqlama:"Peyğəmbərə 40 sual" kitabından.Peyğəmbərimiz buyurur: Allah-taala Ərş və Kursinin altında,yeddi göyün üstündə, Ərşin nuru ilə sudan, əkiz Cənnəti nurdan yaratmışdır. Göyün və yerin qatları olduğu kimi Cənnətin də qatları vardır.Bu qatlar göyün və yerin qatları kimi bir-birindən fərqlənir, biri digərindən yuxarıda yerləşir və ən yaxşısı da yuxarı qatdır.Biri digərindən üstün olan bu Cənnətlərin ən ucası Ədn Cənnətidir.

Cənnət haqqında Qurani-Kərimdə 72 ayə nazil olmuşdur.

Cənnətin hər bir qatının adları vardır:

1-ci qat **Darul-Cəlaldır.** Bu Cənnət ağ incidəndir.

2- ci qat **Darul-Səlam**,yəni dünya evi,dünya məskəni adlanır və qırmızı yaqutdandır.

3-cü qat-**Cənnətul-Məvadır,** yəni əbədilik məskəni,yaşıl qaşlarla bəzədilmişdir.

əs-Səcdə-18-İman gətirib yaxşı işlər görənləri, etdikləri əməllər müqabilində sakin olacaqları Məva Cənnəti gözləyir ki, Allah tərəfindən onlara bəxş edilmişdir. Möminlər dünyada onun müqabilində Allahın əmrlərinə əməl ediblər.

ər-Rəhman-62-64-Orada yaşılıqda daha iki Cənnət vardır(Firdovs və Məva Cənnətləri)Hər ikisi yaşıllığın şiddətindən qaralığa meyillidir.

4-ci qat-**Cənnəti –Xulddur**,yəni mavi Cənnət,sarı mərcandandır.

5-cı qat-**Cənnətul-Nəimdir** yəni səfalı Cənnət,ağ gümüşdəndir.

əl-Vaqiə-11-12-Bunlar (Allah dərgahına, Allahın lütfinə və mərhəmətinə) yaxın olanlardır.Bunlar Nəim Cənnətlərində olacaqlar.

6-ci qat**-Cənnəti Firdovstdir**, qırmızı qızıldandır.

əl-Kəhv-107-108-İman gətirib, yaxşı əməllər görənlərin mənzili isə Firdovs Cənnəti olacaqdır.Onlar o Cənnətdə əbədi qalıb, oradan ayrılmaq (başqa yerə getmək) istəməyəcəklər!

7-ci-qat-**Cənnətul-Qərardır ki,** sarı müşkdəndir.

8-ci-qat-**Cənnəti-Ədndir.**Tərləyən incidəndir.

Taha-75-76"Allahın hüzuruna mömin halda,yaxşı əməl edərək gələn kəs üçün uca mərtəbələr və dərəcələr vardır.Əbədi olacaqları Ədn Cənnətləri ki,(ağacları)altında çaylar axar.Bu,(günahlardan) pak olanların mükafatıdır."

Ədn Cənnəti böyük bir şəhərin ortasında və yüksək bir dağ üzərində olan, bir daxili qala kimi bütün Cənnətlərin içərisində və ortalarında olmaqla yeri, hamısından daha gözəl və daha üstündür.Cənnətdəki hovuzların çoxunun qaynağı buradadır.Siddiqlərin və Quran hafizlərinin yeri buradır.Ayrıca Allahın təcəllə etdiyi (göründüyü) yer buradır.

Necə ki, Rəd surəsi 29-cu ayədə deyilir:"Xos həyat və sığınacaq, iman gətirən və işləri saleh olanlar üçündür " və ya Kəhf surəsi 30-cu ayədə:"İman bəsləyib yaxşı iş görənlər bilsinlər ki, Allah təqvalıların əcrini zay etməyəcək."

İNSANDAN ƏVVƏL YARANMIŞLAR

ər-Rəhman-15-Cinlərin əcdadı Cannı da tüstüsüz atəşdən Biz yaratdıq.

Mərufətnamə:-Allah-taala ruhlar aləmini yaratdıqdan 2 min il sonra cisimlər aləmini yaratdı. Altı gündə Ərş-Ələdan qaranlıq pərdələrə çatana qədər, hamısını yaratdı. Müqərrəb mələkləri üçün Ərşi-Əzəmi, sonra isə Haffun və Saffun mələkləri üçün Ərşin yanında məskən ya-

ratdı.Digər mələklərin də hər birinə bir məkan düzəltdi. Kainatın hər tərəfini mələklərlə dolduran Allah yer üzünü də müxtəlif yaranmışlarla doldurur. Sonra Allah-taalaYer üzündə, öz hikməti ilə rəngsiz, dumansız və hərarətsiz tüstüdən Cannı yaratdı, adını Maric qoydu. Sonra qarısını yaratdı, ona da Maricə adını verdi.Onların izdivacından Cin tayfası törənmişdir ki,İblis də bunlardandır. Zamanla bu Cin tayfası çoxalaraq yer üzünə dolmuşdur. Onların əsil surəti insanlara bənzəyirdi,bədənləri isə mələklər kimi lətif olduğu üçün istədikləri şəkillərə girə bilirdilər. Nəhayət, dünyaya yerləşə bilməyəcək dərəcədə çoxalan cinlər Allahın əmri ilə dünya səmasına çıxmış və orada yaşamağa başlamışlar.Bütün cinlər gecə-gündüz Allaha ibadət edər və onun əmrindən əsla çıxmazdılar. Lakin 7 min il sonra, cinlərin yer üzündə qalanları pis işlər görməyə, qan tökməyə başlamış və ibadəti tərk edərək Allaha üsyan etmişlər.12 min il ərzində Allah tərəfindən onlar üçün göndərilən 120 Peyğəmbəri qətlə yetirmişlər.Sonra Allah onlara qarşı qəzəblənərək dünya səmasında yaşayan, İblis ilə uşaqlarını yer üzünə göndərmiş və dünyadakı cinlər ilə birlikdə toplayaraq, tumlarını atəş ilə yandırmışdır. Sonra başqa bir göydən göndərdiyi İblis torunlarını,bir dənizin adalarında yerləşdirmişdir. O zaman İblis Allaha çox ibadət və itaətdə olduğundan, Allah da onu göyün yeddinci qatına çıxarmışdır. Nəhayət İblisdən razı olmasının əvəzi olaraq onu Cənnətə qoymuşdur.Yer üzü boş qalmasın deyə yeri dünya səmasından göndərdiyi mələklərlə doldurmuşdur. Bunlar da 1000 il Allaha ibadət etmişlər. Beləcə Cinlərin yaradılmasının üstündən 20 min il keçmişdi.

Allah-taala Adəmi yaratmaq istəmiş, bunun üçün Hz.Əzraili göndərərək, quru torpağı gətirtmiş, sonra isə Hz.Cəbrailə torpağı su ilə yoğurub, xəmir halına gətirməsini əmr etmiş və 40 gün gözləmişdir. Allah-taala həmin xəmirə, ən gözəl şəkil vermiş və öz ruhundan başına üfürərək bitirmişdir. Bütün mələklərə Adəmə səcdə etmək üçün əmr etmişdir.Yalnız İblis ona səcdə etməmiş və lənətlənmişdir.

Bu əhvalat Qurani-Kərimdə belə təsfir olunmuşdur:

əl-Bəqərə-30-34-Ya Peyğəmbər! O zaman ki,sənin Allahın mələklərə buyurdu: -"Mən yer üzündə xəlifə yaradacağam!" Mələklər dedilər:-Yer üzündə fəsad edib, qan tökən kəslərimi yaradırsan? Biz səni təsbih edirik və səni pak bilirik."Allah onların cavabında buyurdu:-Həqiqətən, mən bilən şeyi siz bilmirsiniz.

Biz mələklərə:Adəmə (yaratdığıma) səcdə edin- dediyimiz zaman,İblisdən başqa bütün mələklər səcdə etdilər. İblis səcdədən imtina edib, təkəbbürlük etdi və kafirlərdən oldu.

QURANDA İBLİS (ŞEYTAN) HAQQINDA

Açıqlama: Qurani-Kərimdə cinlər haqqında bir çox ayələr və "Cinn" adlanan ayrıca bir surə də vardır. Qurani-Kərimdə 22 dəfə cinn sözü,7 dəfə cinlər sözü, 68 dəfə Şeytan(İblis) sözü, 17 dəfə şeytanlar sözü işlənmişdir. Bu dəlillər içərisindən məlum olur ki, İslam Peyğəmbəri təkcə insanları deyil, həm də cinləri xəbərdar edib qorxutmaq üçün göndərilmişdir. Quranda cin və şeytanın varlığını sübut edən ayələr var ki, bununla Allah insanları onlara inanıb uymamağı əmr edir. Allah-taala cinləri də özü yaradıb və onları Cənnətdən bu dünyaya qovub. Qiyamət gününəcən insanlarla bir yerdə olduqlarına görə onlara da bu axırıncı kitab ilə xəbərdarlıq edib qorxudur ki, bəlkə onlardan da iman gətirəni ola.

Filosoflar beş cövhərin varlığını (maddə, surət ,cisim, ruh və ağıl) isbat edərkən, başqa bir varlığın da mövcud olduğunu isbat etmişlər.

Bu varlıq üç qismə ayrılmışdır:

1-ci Mahiyyətcə xeyiri olub,şəri olmayan varlıq ki, mələklərdir.

2-ci Şər olub, xeyiri olmayan varlıq şeytandır.

3-cü Həm xeyir, həm də şər üçün qabil olan varlıq cindir.

Cinlər də insanlar kimi müxtəlif dinlərdəndirlər. Onların da müsəlman olanı və yaxud da qeyri-müsəlman olanı var. Cinlərin olmasını danmaq,sanki Quranı danmaqdır. Çünki Qurani-Kərim həm insanlar üçün, həm də cinlər üçün nazil olmuşdur. Qurani-Kərimdə bu haqda belə buyurulur:

əz-Zariyat-56-Mən cinləri və insanları ancaq mənə ibadət etmələri üçün yaratdım!

əl-Ənam-130-Ey insan və cinn tayfası!Sizə öz cinsinizdən ayələrimizi söyləyən və bu gününüzün (Qiyamət gününün) gəlib çatacağı barədə xəbərdarlıq edən Peyğəmbər gəlmədimi?

İblis Allaha qarşı çıxıb Adəmə səcdə etmədi

əl-Hicr-27-Biz Adəmi yaratmazdan qabaq tüstüsüz, yandırıcı oddan Cinni yaratdıq.

Açıqlama:- İblis səmada Allaha ən çox ibadət edən mələklərdən idi. Adəmin yaradılışına qədər,onun Allaha ən çox ibadət etməsi yenə də onun içindəki qısqanclıq, təkəbbür, qürur və azğınlıq hissini silə bilməmişdi.

Uca Allahın Hz.Adəmin nəslindən dünyaya gətirəcəyi Peyğəmbərlər, nəbilər haqqında xəbər verdikcə, İblis onlara verilən şərəfə görə qısqanıb, Allaha qarşı çıxaraq Adəmə səcdə etmədi. Uca Allah da üsyanının

cəzası olaraq,ona yetişəcək olan hər bir xeyirdən ümidini kəsərək, daşlanmağa layiqli Şeytana çevirdi.

əs-Sad-71-76-Xatırla ki, bir zaman sənin Allahın mələklərə belə söyləmişdi:-Mən palçıqdan insan yaradacağam! Mən onu yaradıb əza və surətini tamamlayandan sonra öz ruhumdan ona üfürdüyüm zaman ona səcdə edin! Elə ki, Allah Adəmi yaratdı və ona ruh daxil oldu, mələklərin hamısı ona səcdə etdilər. Təkcə İblis səcdə etmədi və kafirlərdən oldu. Allah belə buyurdu:"Ey İblis! Sənə Mənim öz əlimlə yaratdığıma səcdə etməyə nə mane oldu? Təkəbbürlük etdin, oxsa özünü yuxarı tutdun?" İblis dedi:"Mən ondan daha yaxşıyam. Çünki məni oddan, onu isə palçıqdan yaratmısan."

İBLİSİN ADƏM VƏ HƏVVANI ALDATMASI

əl-Əraf-20-Şeytan Adəmin və Həvvanın örtülü ayıb(övrət) yerlərini özlərinə göstərmək məqsədilə pıçıldayıb dedi: "Rəbbiniz sizə bu ağacı yalnız mələk olmamağınız və Cənnətdə əbədi qalmamağınız üçün qadağan etmişdir."

Beləliklə,Şeytan onları-Adəm və Həvvanı aldatmaqla aşağı saldı.

Bəqərə-36-Şeytan onları azdırıb meyvəni yedizdirməklə, nemətlər içində olduqları yerdən uzaqlaşdırdı.Biz də (Adəmə, Həvvaya və Şeytana):"Bir-birinizə düşmən kəsilərək buradan kənar olub yer üzünə enin!Yerdə sizin üçün müəyyən vaxta qədər sığınacaq və yaşayış vasitələri var,"-dedik.

İBLİSƏ QİYAMƏT GÜNÜNƏDƏK MÖHLƏT VERİLDİ

əs-Sad-80-83-Allah buyurdu:"Ey İblis!Çıx oradan (Cənnətdən)! Sən, həqiqətən, Mənim (rəhmətimdən,dərgahımdan) qovulmusan! Qiyamət gününə qədər Mənim lənətim sənin üstündən əskik olmasın!" İblis dedi:"Rəbbim, mənə insanların yenidən dirildikləri Qiyamət gününədək möhlət ver".

Allah buyurdu:"Sənə möhlət verildi.Dərgahımda vaxtı məlum olan günə qədər!"

İblis dedi:"Sənin izzətinə-qüdrətinə and olsun ki, bəndələrinin hamısını haqq yoldan azdıracağam.Yalnız Sənin sadiq bəndələrindən başqa!"

Allah buyurdu:Həqiqətən doğru deyirəm:"Mən mütləq Cəhənnəmi sənlə və sənin ardınca gedənlərlə (sənə uyan Adəm övladı ilə) dolduracağam."

əl-Əraf-14-18-İblis dedi:"Mənə Qiyamətə qədər möhlət ver!" Allah buyurdu: "sən möhlət verilənlərdənsən!"

İblis dedi:-Sən məni (Adəmə Səcdə etmədiyimə görə) azdırıb yoldan çıxartdığın üçün mən də Sənin düz yolunun üstündə oturub insanlara (Sənə ibadət və itaət etməyə)mane olacağam! Sonra onların qarşılarından və arxalarından, sağlarından və sollarından gələcəyəm və Sən onların əksəriyyətini şükür edən görməyəcəksən!"

Allah buyurdu: "Oradan (Cənnətdən) rüsvay olmuş və (mərhəmətimdən) kənar edilmiş (qovulmuş) halda çıx!Onlardan(insanlardan) hər kim sənə uysa,(cəzasını alacaqdır). Əlbəttə, Cəhənnəmi sizin hamınızla dolduracağam!"

Hədis:Şeyx Səduq; Peyğəmbər(s.ə.s.)dən rəvayət olunur:Adəm dünyaya,Yerə endi,ətrafa baxıb gördü ki,İblis ondan qabaq yerə enib. O əllərini qaldırıb dedi: "Pərvərdigara, mənim İblislə mübarizə aparmağa taqətim yoxdur, burada yenə onu mənə müsəllət etdin, qanın damarlarda cərəyan etdiyi kimi onu da mənim bədənimə daxil olmağa qadir etdin."

Vəhy gəldi ki:"Ey Adəm! İblisi sənə müsəllət etmişəmsə də onun müqabilində sənə başqa imkanlar və nemətlər vermişəm;-Əgər kim pis bir əməl fikirləşsə, onun əməl dəftərinə yazılmayacaq.Əgər əməli yerinə yetirsə, yalnız bir günah yazılacaq. Əgər o niyyətdə tutduğu yaxşı işi həyata keçirsə, onun üçün on savab yazılacaq."

Adəm ərz eylədi:"Pərvərdigara, daha da artır."

Vəhy gəldi ki:"Sənin övladından,dağlar boyda günahı olanlar tövbə etsələr,onların tövbəsini qəbul edərəm."

Adəm ərz eylədi:"Pərvərdigara, yenə də artır."

Allah dedi:-Mən onlara tövbə etmələri üçün ölüm ayağına qədər möhlət verərəm.

Adəm ərz etdi:"Pərvərdigara,bu lütf kifayətdir."

İblis dedi:-Pərvərdigara,sən mənimlə Adəm arasında nazil olub mənim ona vəsvəsə etməyimə mane oldun."

Vəhy gəldi ki:"Ey İblis,hər bir Adəm övladı doğulduqda onun müqabilində sənin iki övladın olar.

İblis dedi:"Pərvərdigara,daha da artır."

Vəhy gəldi:"Sənin övladın Adəm övladına şirin arzular vədə verib onu aldadar."İblis dedi:"Kifayətdir."("Hədisi Qüdsi")

ŞEYTAN CƏHƏNNƏM ÜÇÜN ÖZÜNƏ DOST YIĞAR

Şeytan insanın ortaq düşmənidir.Onların Cəhənnəmə girməsi üçün gecə-gündüz çalışır.Allah tərəfindən ona icazə verildiyinə görə şeytan adi insanlarla bərabər möminlərin də qəlbinə girərək, vəsvəsə salıb azdırmaq üçün çalışır.

ən-Nisa-117-119-Allahdan başqa bir şeyi,Şeytanı çağırmayın. Allah Şeytana lənət etdi və Şeytan dedi:-Əlbəttə, mən sənin bəndələrindən müəyyən olunmuş bir hissəsini götürərəm, onların yüzdə doxsan doqquzunu öz ardımca apararam. Onları azdırar, uzun-uzadı ömür sürmək, hesab və kitabın olmaması kimi xülyalara salaram.

əl-Nəhl-100-And olsun Allaha!Həqiqətən, biz səndən əvvəlki ümmətlərə Peyğəmbərlər göndərdik. Şeytan onların əməllərini zinətləndirdi və Peyğəmbərləri təkzib etdilər. Qiyamət günü Şeytan onların dostudur.Onlar üçün dərd gətirən əzab vardır.

əl-Əraf-38-Allah deyər:-"Cinlər və insanlar, sizdən öncə olmuş ümmətlərlə birlikdə oda girin.Oda girən hər bir ümmət öz məsləkdaşını lənətləyər. Hamı bir yerə toplandıqdan sonra, tabe olanlar rəhbər olan topluluqlara deyərlər:-"Ey Rəbbimiz! Bu Şeytanlar bizi sapdırdılar, onlara odun içində ikiqat əzab ver."

Allah deyər:"Hamınızın əzabı ikiqatdır, lakin siz bilməyirsiniz."

Fatir-6-Ey insanlar!Siz Allaha möhtacsınız, Allah sizin ibadətinizə möhtac deyildir. Həqiqətən, şeytan sizin düşmənizdir, həmişə sizi zəlalətə salmağa səy edər. Onu düşmən tutun! Çünki o, özünə tabe olanları günahlara sövq edər ki, Cəhənnəmdə onunla yoldaş olsunlar.

əz-Zuxruf-38-39- Qiyamətdə, ya vəfat etdikdən sonra bizim hüzurumuza gəldikdə deyər:"Kaş mənimlə sənin aranda şərq və qərb uzaqlığı olardı. Sən nə pis yoldaşsan. "Təəssüflənmək bu gün sizə fayda verməz.Çünki siz Şeytana tabe olmaqla özünüzə zülm etdiniz.Həqiqətən, siz əzabda şəriksiniz.

İNSANLAR ŞEYTANI ÖZLƏRİNƏ DOST TUTARLAR

əl-Kəhf-50-Məgər siz məni yox, Şeytanı və ya onun övladlarını özünüzə dost tutarsınızmı? Bir halda ki, onlar sizin düşmənlərinizdir. Göyləri və Yeri yaradarkən Mən şeytanı və övladlarını çağırmadım, onlardan heç bir kömək istəmədim. Mən insanları zəlalətə salanları özümə kömək üçün çağıran deyiləm.O gün Allah buyurur: İndi çağırın mənə şərik qoşduqlarınızı ki, sizi həlakətə uğradarlar. Lakin onlar cavab verməzlər. Günahkarlar Cəhənnəmin odunu görüb yəqin edərlər

ki,onlar ora düşəcəklər və ordan qayıtmağa yer tapmazlar.

əl-Həcc-3-4-İnsanlardan elələri var ki,heç bir şey bilmədən Allah haqqında mübahisə edirlər və Allahın itaətindən çıxaraq Şeytanın sözünə tabe olurlar.Şeytan üçün əvvəldən belə yazıldı ki, hər kəs onunla dostluq etsə, şeytan onu haqq yoldan azdırar və yandırıcı odun əzabına tərəf aparar.

əl-Ənam-121-Həqiqətən,şeytanlar öz kafir dostlarına vəhy edərlər ki, sizinlə mübahisə etsinlər. Əgər onlara itaət etsəniz, onda siz Allaha şərik tutarsınız, Allahın itaətindən çıxıb şeytana itaət edərsiniz.

əl-Ənam-128-Yadına sal o gün ki, Allah onların hamısını toplayar:-Ey şeytan tayfası!Həqiqətən, siz insanlardan çox oldunuz.Sizi dost tutan hər bir kəs sizin cinsinizdən olmasa da, sizdən hesab olunar. Yaxud siz insanlardan çoxunu yoldan çıxarmısınız. Onların insanlardan olan dostları dedilər:-Pərvərdigara! Biz bir-birimizdən xeyir götürdük. İnsanın şeytandan xeyir götürməsi onun göstərdiyi yol ilə getmək, haram olan əməllərdən ləzzət almaqdır.Şeytan da insanlardan möminləri özünə tabe edib, məqsədinə çatmaqda xeyir götürmüşdür. Biz müəyyən etdiyimiz vaxta gəlib çatdıq. Allah buyurdu ki, sizin məqamınız Cəhənnəmdir. Orada həmişəliksiniz.

ən-Nisa-60-Sənə nazil olmuş və səndən əvvəl gələn kitablara iman gətirdiklərini güman edən kəsləri görmürsənmi?Onlar özlərini müdafiə üçün şeytanın yanına getmək istəyirlər. Bir halda ki, ona inanmamaq əmr olunmuşdu. Şeytan onları haqdan uzaq olan azğınlığa salmaq istəyir.

Mərufətnamə:-Uca Allah öz qüdrət əli ilə yerləri bir-birinin altında yeddi təbəqə yaratmışdır. Hər yerin genişliyi və hər iki yerin ara məsafəsini beş yüz illik yol edib, hava ilə dolu eləmişdir.

Oradakı yeddinci təbəqənin adı:-Ücbadır. Qövmünün adı:-Cüsumdur. Hamısı qısaboylu, qara həbəşli kimidirlər. Əlləri və ayaqları yırtıcı heyvan pəncəsi kimidir.Lənətlənmiş İblis tərafdarları ilə orada sakindirlər. İblis özü bir taxt üzərində oturur. Yandaşları ətrafında səf-səf durub, hər biri yer üzündə insan oğlunu azdırmaqla etdikləri fəsad və fitnələri İblisə ərz edərlər. Onlardan hər kimin şər və fəsadı çox və böyük olsa, İblis onu yanına alıb, saxta təriflər edib,iltifat edərək yaxınlarından sayar. Həmin bu yerin ortasında qaranlıqdan bir pərdə vardır. Qiyamət gününədək İblis və dəstəsi orada yaşayacaqlar. Şeytanlar və qoşunu öz azğınlıq, üsyan və inadkarlıqlarından sonra zillət içində sürünərək Məhşərə gələrlər. Məhşərdə, Mizanda İblis özü öz qoşununa qarşı şahidlik edəcək. Sonra isə əbədi olaraq Cəhənnəmə atılacaqlar.

Bilməz ki, şəfqət nə, məhəbbət nədir,
Şeytanı nifrəti ölməyə qoymaz,
O bədbəxt kin səpir, xəyanət əkir,
Yaxşılıq toxumun bölməyə qoymaz.
Qəlbini, beynini sarır xəbislik,
Ruhuna, canına daraşır pislik,
Içini gəmirir azman hərislik,
Insanlıq binasın hörməyə qoymaz.
Keçdiyi hər yerdə qoparır tufan,
Ötənə-keçənə vermiz heç aman,
Quyruğu qapıda qaldığı zaman,
Yenə də papağın dəlməyə qoymaz.
Çünki dünya onu ölməyə qoymaz. (Hacı xanım Telli)

ALLAH İSTƏSƏ BİZLƏRİ ŞEYTANA HƏVALƏ EDƏR

əz-Zuxruf-36-Mehriban Allahın zikrindən üz döndərənə şeytanı həvalə edərik. Şeytan da onunla yoldaş olub axırda onu zəlalətə salar. Şeytanlar onları haqq yoldan saxlarlar.Onlar güman edərlər ki, Şeytana tabe olmaqla hidayət tapmışlar.

Fatir-9-O kəs ki, pis əməli ona zinətli göstərilmişdir. Şeytanın hiyləsi ilə o,həmin pis əməli gözəl görər. Həqiqətən, Allah istədiyi kəsi zəlalətə salar,istədiyi kəsi hidayət edər.Onların imana gəlməmələri sənin qəlbini incitməsin.Həqiqətən, Allah onların etdikləri əməlləri biləndir və buna görə onlara cəza verəcəkdir.

əs-Səba-19-22-Şeytanın onların haqqındakı gümanı doğruldu. Möminlərin müəyyən hissəsindən başqa,qalanları onun arxasınca getdilər.Lakin Şeytanın onların üzərində bir qüdrəti yox idi, fəqət biz istədik bilək, kimlərin Qiyamətə imanı var və kimlər onun haqqında şübhədədirlər və sənin Tanrın hər şeyin qoruyanıdır.De:-"Çağırın Allahdan başqa bildiyiniz allahları.Onlar göylərdə və yerdə bircə zərrəyə malik deyillər və yaranışda heç birisinin Onunla ortaqlığı olmayıbdır və Allaha dünyanı və insanı yaratmaqda yardım etməyiblər.Allahın yanında heç kəsin şəfaətinin faydası olmaz, məgər ki, o adamın haqqında O özü izn verə.

ən-Ənam-129-Beləliklə,biz zalımların bəzisini digəri ilə dost etdik. Zalımlar və şeytana taqe olanlar dünyada olduqları kimi axirətdə də bir yerdə olarlar, birlikdə əzab çəkərlər.

Açıqlama:Bu ayədən belə məlum olur ki, Şeytanlar da Allahın izni ol-

madan heç kəsə müsəllət ola bilməzlər. Şeytan Allahla bu haqda şərt kəsib və Allah da icazə verib buyurub ki, Mənə və Peyğəmbərlərimə inanmayanlara müsəllət olam.Başqa bir ayədə isə Allah-taala bildirir ki,Şeytanlar Qurandan üz döndərən, ona inanmayan kəslərə nazil olarlar.

ŞEYTAN VƏSVƏSƏSİNDƏN ALLAHA SIĞINAQ

ən-Nur-21-Ey möminlər! Şeytanın izinə və vəsvəsəsinə tabe olmayın,onun dalınca getməyin.Hər kəs Şeytanın izinə tabe olsa, həqiqətən o sizi nalayiq işlərə sövq edər. Əgər Allahın fəzli və rəhməti olmasaydı, sizdən bir nəfər də pak olmazdı və əzabdan qurtulmazdı.

ən-Nas-4-6-Adı Xənnas olan vəsvəsə edən şeytanın şərindən,elə xənnas ki, vəsvəsə edə insanların sinəsində. Həm cinlərdən, həm də insanlardan olan.

əl-Əraf -200-202-Əgər Şeytandan sənə vəsvəsə yetişsə, Allaha pənah apar.Həqiqətən, Allah sənin dua etməyini və sənin işlərini biləndir.Allahdan qorxan kəslərə şeytandan vəsvəsə və xülyalar yetişən zaman, Allahın əmr və nəhyini yada salarlar,bilərlər ki,bunlar Şeytan tərəfindəndir.O zaman onlar bəsirət əhli olarlar,xətanı düzlükdən ayıra bilərlər.Lakin Şeytanların qardaşları onları həlakətə çəkərlər,sonra da onlardan əl çəkməzlər.

ən-Nisa-120-121-Şeytan onlara yalnız aldanmağı vəd edər. Vəsvəsə edər ki:"Allah kərimdir,axırda tövbə edərsən".Allah öz rəhmətini şeytana ibadət edənlərdən uzaq etdi.Hər kəs Allaha itaət etməyi tərk edərək şeytanı özünə dost tutsa, ömür sərmayəsini verib,behişt əvəzinə Cəhənnəmi qazanar. Cəhənnəmdə qaçmağa yol tapmazlar.

Açıqlama:Şeytanın fitnələrindən qurtarıb, həqiqi Allah dostu olmaq istəyən insan qarşısındakı üç əngəli qaldırmaq məcburiyyətindədir:

1-ci Şeytan və onun aşılamaq istədiyi pis duyğu və düşüncələri.

Bu haqda Qurani-Kərimdə belə buyurulur:

-əl-Həşr-15- Şeytan insanı küfr və inkara sövq edər və deyər:" Allaha kafir ol! Kafir olduqda, mən səndən uzağam, mən aləmlərin pərvərdigarı olan Allahdan qorxuram."

2-ci Nəfs və arzuları ilə insanı daima çirkin,pis əməllər işlətməyə sövq etmək istər.Çünki nəfs gerçək yaradılışı ilə alçaq və qüsurludur. Uca Allah bu önəmli məsələni Yusif Peyğəmbərin dilindən bu sözlər ilə dilə gətirir:-Yusif-40 Şübhəsiz ki,nəfs sahibini daima pis işlər görməyə, pisliklərə sürüklər.

-əl-Naziat-40 Allahın hüzuruna çıxaraq hesab verməkdən qorxan və

nəfsinin çirkin istək və arzularını boğan kimsənin o biri dünyada sığınacağı yer, şübhəsiz ki, Cənnətdir.

3-cü Dünya və insanı yolundan azdıran dünya işləri.

Dünya,daima dünya işlərini axirətdən üstün tutar.Bu səbəbdən Allahtaala insanı dünyanın keçici və aldadıcı gözəllikləri ilə xəbərdar edər.

-əl-Naziyat-7 Allaha qarşı dikbaşlıq edən və dünya həyatını istəyən kimsənin sığınacağı yer, şübhəsiz ki, Cəhənnəmdir.

Şeytanın əsas məqsədi, istəyi və ən böyük arzusu insanı dinindən edib, özünə Cəhənnəmdə əbədi olaraq qalacaq dost toplamaqdır.

Bizimlədir həmişə iki mələk əzəldən,
Qurub insan oğluna İblis kələk əzəldən.
Üzü atəş, qəlbi buz ocağına dönmüşük,
İsti külük, od olub, sonra guya sönmüşük. (”Sirlər xəzinəsi”)

BİZ SƏMANI ŞEYTANLARDAN QORUDUQ

əş-Şüara-212-Həqiqətən, şeytanlar mələklərin sözlərini, ya Allahın vəhyini eşitməkdən kənar olunmuşlar.

əs-Saffat-6-10- Şübhəsiz, biz aşağı göyü ulduzlarla süsləndirdik. Onu itaətdən çıxmış, azğın şeytanlardan qoruduq ki, şeytanlar yuxarı aləmdə olan mələklərin dediklərinə qulaq asıb, ülvi aləmin sözlərini eşitməsinlər və hər tərəfdən qovulsunlar. Əgər birdən şeytanlar bir şeyi oğurlayarsa,onda onları parlaq ulduzlar təqib edib üstlərinə hər tərəfdən yandıran ox atarlar. Onlar üçün həmişəlik əzab var. Əgər şeytanlardan biri mələklərdən bir söz oğurlayıb öyrənsə,onu işıq saçan və yandıran od tutub yandırar.

Cinn-8-12-Biz göyü qəsd etdik,yuxarı aləmlərə çıxmaq istədik,gördük ki, aləm qüvvətli gözətçilər və işıqlı ulduzlar ilə doludur. Biz bundan qabaq mələklərin sözlərini eşitmək üçün göyün bəzi yerlərində oturardıq.Lakin indi eşitmək istəyəndə, işıqlı ulduzu yanımızda hazır görürük. Həqiqətən, biz başa düşə bilmirik ki, yerdə olan insanlara pislik istənilib və yaxud Allah onları islah etmək istəmişdir. Biz güman etdik və bildik ki, Biz Allahı aciz edə bilmərik.

CİNLƏRDƏN BƏZİLƏRİ QURANA QULAQ ASIB İMAN GƏTİRDİLƏR

əl-Əhqaf-29-32-Ya Muhəmməd!Yadına sal ki, Cinlərdən bir tayfanı sənə tərəf göndərdik.Onlar Qurana qulaq asırdılar.Peyğəmbərə

tərəf gəldikdə, Həzrət Quranı oxumağa başladı. Cinlərdən biri digərinə dedi:"Sakit olun, Quranın səsini eşidin!"

Quran oxumaq tamam olduqda onlar qorxmuş halda öz qövmlərinə tərəf qayıtdılar.İşə bax ki,cinlər Quranı eşidib ona iman gətirdikləri halda, bu müşriklər hələ də ondan üz döndərirlər.Onlar dedilər:"Ey qövmümüz! Həqiqətən biz bir kitab eşitdik ki,Musadan sonra nazil olub.O özündən əvvəl olan kitabları (Tövratı, İncili, Zəburu və səhifələri) təsdiq edən (Allahın bəndələrini)Haqqa və düz yola (İslam dininə) yönəldən bir kitabdır.

Ey Qövmümüz! Allahın carçısı Muhəmmədi qəbul edin və ona iman gətirin.Allah (Qiyamət günü) günahlarınızdan keçər və şiddətli əzabdan xilas edər!

Cinn-1-15-Ya Peyğəmbər!De:"Mənə vəhy olundu ki, bir dəstə cin (sübh namazı vaxtı Quran dinləyib öz həmcinslərinin yanına qayıtdıqları zaman) dedilər:"Biz çox qəribə,təsəvvür edilməz dərəcədə gözəl olan bir Quran eşitdik.O,(xalqa) haqq yolu göstərir. Biz ona iman gətirdik və biz bir daha heç kəsi Rəbbimizə şərik qoşmayacayıq. Həqiqətən,Rəbbimizin calalı zox ucadır.O özünə nə bir zövcə götürmüşdür, nə də bir uşaq!Doğrusu, bizim səfehimiz (İblis) Allah barəsində tamamilə yalan, haqdan uzaq sözlər söyləyirmiş. Biz elə güman edirdik ki, nə cin, nə də insan tayfası Allah barəsində yalan danışmaz.İnsanların bir qismi,cinlərin bir qisminə pənah aparar. Onlar belə xəyal edirdilər ki, cinlər onları qoruyacaq.Buna görə də onların küfrləri artıb, özlərini böyük hesab edirdilər.Siz cinlər kimi insan tayfası da güman etdi ki, Allah heç kəsi Musa və İsadan sonra Peyğəmbər göndərməyəcək.Biz bildik ki, biz Allahı aciz edə bilmərik.Hidayət edən Quranı eşitdikdə ona iman gətirdik.Hər kəs Allahına iman gətirsə, o kəs, savabın çoxluğundan, zülmün ona yetişməsindən qorxmaz.Bizdən Allahın əmrinə təslim olanlar və haqdan üz döndərənlər var.Hər kəs Allahın əmrinə boyun əysə,düz yol tapmışdır. Lakin haqq yoldan çıxanlar Cəhənnəmin odunlarıdır."Cinnlərin sözü tamam oldu.

əl-Furqan-1-Xeyir və bərəkəti artıq və şəni uca olan Allah haqq ilə batil arasında fərq qoyan Quranı öz bəndəsinə,Muhəmmədə nazil etdi ki,Quran vasitəsi ilə cin və insanlardan ibarət olan aləm əhlini qorxutsun.

ŞEYTANA FÜRSƏT VERMƏYƏK

Açıqlama:Əgər şeytana fürsət versək,o,bizi həlak edər.Şeytan Allah dərgahından qovulan zaman Allaha belə müraciət etdi:"Mən sənin tək

bir Allah olduğuna inanıram və Səndən üç şey istəyirəm:

1.Qullarını başdan çıxartmaq üçün mənə fürsət ver.

2.Təzə doğulan uşaqları mənə həvalə et ki, həddi-buluğa çatana qədər onu zinaya sürükləyim.

3.Bir də yatacaq yer istəyirəm ki, yaşlıların dilinin ortasında yataq yeri sərim ki, əli ilə edə bilmədikərini, dilləri ilə etsinlər,"-dedi.

Saf olmayan könüldə yaxşı məhsul yetişməz və boş könüllər şeytanın sığınacağıdır. Şeytan atəşdir və onda məhsul yetişməz. Özünü bəyənən və nəfsi olan insanların qazancının ortağı şeytandır. Bütün Peyğəmbərlər ümmətlərinin şeytanın vəsvəsəsindən qorunması üçün dua etdilər. Şeytan insan daxilinə şəhvani arzular və fitnə vasitəsilə girə bilir. Şeytan iynə ucu qədər bir dəlik tapsa, oraya öz sapını keçirər və insanları peşman edər.İnsanları ilahi əmrləri və ibadətləri yerinə yetirməyə qoymayan da şeytandır. Bu surə və ayələrdən məlum olur ki, şeytan və sehr vardır, lakin insanların onlara uymaması haqqında da göstərişlər verilir.

Qurani-Kərimdən məlum olur ki,həqiqətən, Allah-taala İblisi Cənnətdən yer üzünə qovaraq ona Qiyamət gününə qədər möhlət verib. Adəm övladlarını başdan çıxarmağı ona icazə verib.Buna baxmayaraq məlum olur ki, Allah özü istəməsə, yəni Allah icazə verməsə, İblis və onun övladları olan şeytan və cinlər biz insanlara zərər verə bilməzlər. Cinlər biz insanların zəif cəhətlərini taparaq o tərəfdən bizə ziyan vurmağa çalışırlar. Ən əsas məsələ isə cin və şeytanlar insanların Allahdan qorxanlarına deyil, şeytanların özlərindən qorxanlara nazil olurlar.

əl-Bəqərə-208-Ey möminlər! Hamınız bir yerdə sülhə(İslama) gəlin. Şeytanın yolu ilə getməyin, çünki o sizin açıq düşməninizdir.

əs-Səffat-158-Həqiqətən, cinlər bilirlər ki,onlar Qiyamət günündə əzab verilmək üçün hazır olacaqlar.

əl-Maidə-91-Şeytan şərab və qumarla yalnız aranızda ədavət və düşmənçilik salmaq,sizi namazdan və Allah zikrindən saxlamaq istəyir. Məgər siz geri çəkilməyəcəksiniz?

ər-Rəhman-31-Ey cinlər və insanlar!Tezliklə sizin hesabınızla məşğul olacağıq.

ər-Rəhman-33-Ey insan və cin tayfası!Əgər göylərin və yerin kənarından çıxıb qaça bilsəniz və Allahın qəza-qədərindən qurtara bilsəniz çıxın! Əlbəttə, kənara çıxa bilməzsiniz, o qüvvə sizdə yoxdur. Bu yalnız Mənim əmrim ilə, Allahın qüdrət və qüvvəsi ilə mümkün ola bilər.

ŞEYTANIN İNSANI AZDIRMAQ ÜÇÜN ÜSULLARI

Açıqlama:Şeytan insanı aldatmaq üçün bir çox üsullardan istifadə edir:

-Uca Allaha inanmamaq, Allahdan başqasının ona xeyir gətirib, əziyyətlərdən xilas edəcəyinə inanmaq.

-Dini məsələlərdə qəlblərə şəkk-şübhə,vəsvəsə salmaq və yalançı dindarlara uymaq.

-Yuxarıda qeyd edilən böyük günahlar və kiçik günahları törətmək.

-İnsanı boş işlərlə başını qatmağa,vaxtını mənasız keçirməyə, dünya həyatının ləzzətlərinə uymağasövq edər.

-Şeytan o insanlara da yaxınlaşar ki, ibadət etmədən yaxşı əməllər edər və deyər:"Sonra ibadət edərəm, indi vaxt çatdıra bilmirəm və yaxud da qocalanda ibadət edərəm".Bu zaman şeytan ona təsəlli verər və onu arxayınlaşdırar.

-Lənətlənmiş şeytan əvvəlcə bəzəyir,sonra isə yoldan çıxarır.Etdiyimiz pis əməllərə gözəl-gözəl adlar verər, yaxşı əməllərə isə pis adlar verərək bizi çaşdırar.

-İnsanın nəfsini, şəhvət və qəzəb qüvvəsinin bütün rəzalətlərini, insanın özünə qarşı istifadə edərək aldadar.

-Şeytan heç vaxt insana gəlib"get bu günahı törət, Cəhənnəmə düş" demir.O, insanı yavaş-yavaş, kiçik addımlarla Cəhənnəmə yaxınlaşdırır.

-Yalanı insanların gözündə gözəl göstərib,haqqın üstünü örtmək və insanları haqdan çəkindirmək.

-Özünü xeyirxah məsləhətçi, dost,arxa kimi göstərərək insanı aldadar və şeytanlardan olan insanlardan özlərinə yardımçı,arxa tutar.

-Dünya həyatına məhəbbət və ona həddən artıq ümid bəslədər.

Belə qənaətə gəlmək olar ki, Şeytana və onun əməllərinə düçar olmaq insanın özündən asılıdır və bunun üçün şəraiti insan özü yaradır. Yuxarıda sayılan əməl və günahlarımızla. Adətən, cinlər yalançı insanlara daha çox nazil olub onları aldada bilirlər.Bu haqda da Qurani-Kərimdə belə buyurulur:

əş-Şüəra-221-223-Şeytanların kimə nazil olduqlarını sizə xəbər verimmi? Hər yalan danışana,adını kahin qoyaraq xalqı aldadanlara nazil olarlar. Şeytanların sözünə qulaq asarlar və deyərlər ki,şeytanlar bizə xəbər vermişlər. Onların çoxu yalan danışanlardır.

ŞEYTANLARIN QEYBDƏN XƏBƏRLƏRİ YOXDUR

Açıqlama:Şeytanların bütün məşğuliyyətləri və səyləri insanları imandan uzaqlaşdırmaq,onlara günah işlər gördürərək kafir olmaları üçün çalışmaqdır. Bəşəriyyətin mənəvi yüksəlişində, Allaha xidmət vəzifəsini yerinə yetirməsində ən böyük manie şeytandır. Qurani-Kərimdə şeytan insan üçün "əduvvu-mubun"-"açıq düşmən " kimi vəsfləndirilmişdir.

Şeytan şübhə və fitnələrə qarşı meyilli olduğuna görə insanın nəfsi, qəzəb və nifrət hissləri vasitəsilə onda vəsvəsə hissi yaradaraq,onu öz təsiri altına alır,insanı bir çox mənəvi fəlakət və ziyanlara sürükləyir.

Əslində,şeytanlar kainatda icad və əməl baxımından heç bir qüvvəyə malik deyillər. Onlar Allahın mülkünə heç bir müdaxilə edə bilməzlər. Deməli, Allah istəməsə şeytanlar və insanlar, heç kəsə heç bir ziyan vura bilməzlər.

İnsanın həsəd, şəhvət hisslərinin rəzalətləri olan:-qeybət, vaxtını boş keçirmək, tamah, tələsmək, xəsislik, elmsizlik və sair bu cür halları vasitəsilə, şeytan ona müsəllət olaraq onu uçuruma aparır.Bu barədə hədisdə belə buyurulur:-Şeytan, qan orqanizmdə dövr edən kimi insan bədənində gəzir. Onun yollarını ac qalmaqla, oruc tutmaqla daraldın."

Əslində, şeytanın tək halda qüvvəsi yoxdur. Şübhə və fitnələri də zəifdir.Lakin əməlləri təxribat, pozub-dağıtmaq olduğundan, kiçik şübhə və fitnələrlə böyük nəticələr əmələ gətirir, böyük ziyanlar verir,buna görə də qüvvətli sayılır.Bütün bunları dərk etməyə çalışaraq şeytandan qorunmaq üçün yalnız Allaha və Qurani- Kərimə sığınaraq, özümüzü öz hisslərimizdən və şeytanın vəsvəsəsindən qoruya bilərik.

Adəm də İblis kimi Allahın əmrindən çıxdı,lakin öz əməlinə görə tez tövbə edərək kafirlərdən olmadı. İblis isə öz hərəkətlərində israrlı olaraq Allaha tövbə haqqında heç düşünmədi.Deməli,Tanrı bizim günahlarımızın böyüklüyündən asılı olmayaraq dünya həyatında, ölüm bizi haqlamamış səmimi tövbələrimizi qəbul edib, bağışlayandır. Qiyamət günü gəldikdə isə artıq tövbələr qəbul olunmayacaqdır. Dünya həyatı insan üçün sınaq müddətidir, İblis isə bir vasitədir. O elə bir sınaqdır ki, insanı doğru yoldan azdırmaq üçün bütün qüvvələrini səfərbər etmişdir.

İblisin dəstəsi cinlərdən,insanlardan,heyvanlardan olan və ona tabe olan kəslərdir. Cənnətdən qovulduqdan sonra lənətlənmiş İblisin insanları doğru yoldan azdırmaqdan, başqa peşəsi olmamışdır. Bu fəaliyyəti boyunca İblis böyük təcrübə qazanmış, ordusu da artaraq çox genişlənmiş və hələ də artmaqdadır.

Qaf-25-28-Xeyirə mane olanı, həddini aşanı, Allahın və Peyğəmbərin haqq olmasına şəkk edəni şiddətli əzaba atın.Onun yoldaşı olan, onu azdıran şeytan deyər:"Ey bizim Allahımız, onu biz azdırmadıq, o özü öz ixtiyarı ilə imandan uzaq olub, zəlalətə düşdü.

Allah buyurar:"Mənim yanımda bir-biriniz ilə ədavət və düşmənçilik etməyin!Şübhəsiz ki,mən sizin üçün dünyada sizi bu əzabla qorxudan Peyğəmbər göndərmişdim, lakin siz onun sözünə baxmadınız."

ən-Nisa-76-İman gətirənlər Allah yolunda,kafir olanlar isə Tağut yolunda vuruşarlar. Şeytanın dostları ilə vuruşun! Həqiqətən, Şeytanın qüvvəsi zəifdir.

Ali-İmran-175-Sizi yalnız o, şeytan öz dostlarından,guya onların çox qüvvətli olması ilə qorxudub çəkindirə bilər. Ancaq siz onlardan qorxmayın. Məndən, Mənə qarşı olmaqdan qorxun.

əl-Ənam-100-Cinlər Allaha şərik qoşdular.Halbuki cinin özünü də Allah yaratmışdır.Onlar heç bir elmə əsaslanmadan Allaha oğullar və qızlar təsəvvür etdilər.O, Münəzzəhdir və vəsf etdiklərindən daha üstündür.

əs-Səba-13-14-Cinlər Süleyman üçün uca binalar tikib, heykəllər, hovuz kimi kasalar və möhkəm qazanlar düzəldirdilər. Elə ki,ölüm hökmünü onun üçün vacib etdik, bir həşərat-taxtaqurdu, onun ölümünü xalqa aşkar etdi: əsasını yedi, elə ki Süleyman yıxıldı, onda cinlər anladılar ki, əgər qeybdən xəbərləri olsaydı, təhqirli əzabın altında qalmazdılar.

Açıqlama: Bu ayədən də bir daha məlum olur ki, cinlərin qeybdən xəbərləri yoxdur və hər bir iş və hərəkət yalnız Allahın əmri və göstərişi ilədir. Şeytanın gücünü, Allahın gücündən üstüb tutub, ona inanıb və ondan qorxanların isə aqibəti yanar od və Cəhənnəmdir.Bu haqda Qurani-Kərimdə belə buyurulur:-

əs-Səba- 40-42- Hamını toplayan gün mələklərə deyər: "Bunlar idilər sizlərə sitayiş edənlər?"Deyərlər:"Sən paksan, Sən bizim mövlamızsan, bizi başdan çıxaranlar isə düşmənlərimizdir."Bunlar cinlərə sitayiş edənlərdirlər və çoxları onlara inanırdılar.Həmin gün isə bir-birinizə heç bir xeyir və zərər yetirə bilməzsiniz və zalımlara deyərik:"Yalan hesab etdiyiniz odun əzabını dadın!"

ən-Nəhl-99-İman gətirib və öz Rəbbinə təvəkkül edən kəslərə şeytanın güc gəlməyə qüvvəsi yoxdur.Onun müsəllət olduğu kəslər yalnız ona itaət edənlər və bununla da Allaha şərik qərar verənlərdir.

Açıqlama:Belə bir təcrübəli düşmənlə mübarizə aparmaq üçün onun bütün üsullarını, zəif cəhətlərini, onun hansı tərəfdən gələ biləcəyini və

onu necə qova biləcəyimiz yollarını öyrənib ondan qorunmalıyıq. Bu da yalnız Allahın bizim üçün nazil etdiyi Qurani-Kərimin buyurduqlarını yerinə yetirməklə və bir də əvvəlki Peyğəmbərlərin, öz Peyğəmbərimizin və İmamlarımızın bizə etdiyi tövsiyələri yerinə yetirməklə mümkündür. Bir də Allahın bizə verdiyi duyğu üzvlərindən düzgün,həddi aşmadan istifadə etməklə İblisdən qoruna bilərik.

Bunun üçün Qurani-Kərimdə Allah tərəfindən buyurulan bir çox surə və ayələr vardır: (23/97)

1-ci -De ki, ey Rəbbim! Mən şeytanların vəsvəsəsindən Sənə sığınıram! Onların yanımda olmalarından yanımda peyda olub işlərimə ziyan vurmasından Sənə pənah gətirirəm, ey Rəbbim!

2-ci Nas, Fələq surələri.

3-cü Ayətəl Kürsi-(əl-Bəqərə-255-257)

4-cü Dəstəmazlı gəzmək.

Hədis-Rəsulullah (s.ə.s.) buyurdu:"Şeytanın ən çətin dözdüyü şəxs Quranı üzündən oxuyan şəxsdir". **(Savabul Əməl, səh. 231)**

SEHR HAQQINDA

Açıqlama:Sehrin tərifi:O,sehrkarla şeytan arasında əlaqə və istədiyi şeyə şeytanın köməkliyi ilə nail olmasıdır.

Sehr-sözünün mənası;-sehr batilin, yalanın haqq, doğru şəkildə təqdim edilməsidir. Ərəbcə sehr-meyl etdirmək, əymək, sağlamlığı yox edib,xəstəliyə meyl etdirmək,və ya gizli olan, gözə kül üfürmək, aldatmaq mənasını verir.

əl-Bəqərə-102-103-Onlar tabe oldular o şeyə ki, istər insanlardan, istərsə də cinlərdən olan şeytanlar Süleymanın səltənəti zamanı oxuyublar. Süleyman vəfat etdikdən sonra cinlər və sehirbazlar kitabça yazaraq Süleymanın taxtının altında gizlətdilər. Sonra özləri o kitabçanı tapıb camaata göstərərək insanlar arasında belə söz yaydılar ki,Süleyman bununla başqalarına qələbə çaldı. Odur ki, Allah buyurur:"Halbuki Süleyman sehr işlətməkdə Allaha kafir olmadı,lakin şeytanlar kafir oldular."Onlar insanlara sehr öyrədirdilər və deyirdilər ki,bu sehr işi Süleymandan qalmadır. (Eləcə də şeytanlar Küfənin yaxınlığında olan Babil şəhərində Harut və Marut adlı iki mələyə nazil olan şeyi insanlara öyrədirdilər.Hz.Nuhdan sonra sehrbazlar çoxalan zaman, Allah sehrbazların sehrlərini araşdırıb,onları batil etməyi öyrənmək üçün Peyğəmbərlərin yanına iki mələk göndərdi. Göydəkiməələklər insan övladlarının qəbahətlərini araşdırarkən,Allah hüzurunda onlara qarşı

iztehzalarını bildirdilər. Lakin Allahın insanların xeyrinə olan cavabı mələkləri razı salmadı və onlar insanları yoxlamaq üçün yer üzünə mələk göndərilməsinə icazə istədilər.Bunun üçün Harut və Marut adlı mələklər seçildi. Misir tarixinə görə Harut və Marut Misir padşahı Aryan zamanında yaşamışlar.Padşah mələklərdən sehr və onun batil olunmasını, sehr ilə möcüzələrin fərqini öyrəndi və insanları sehr ilə məşğul olmağı qadağan etdi.Necə ki, bir həkim zəhəri insanlara göstərib deyir ki,hər kəs bu zəhərdən bir-birinə qarşı istifadə etsə qatildir.Lakin əgər kimsə bu zəhərdən istifadə etsə,onun qarşısını almaq üçün filan dərmandan istifadə etmək lazımdır.Əlbəttə, heç kəsi zəhərləməyin.)

Belə ki,Allah buyurur:-Onlar,yəni iki mələk,sehr və onu batil etməyi bir kəsə öyrətməzdən qabaq deyirdilər:biz ancaq imtahan üçün varıq ki, siz yalnız öyrənəsiniz, lakin icra etməyəsiniz.Sehri işlətməklə kafir olmayın. Babil camaatı onlardan, Allahın əmrindən çixan o iki mələkdən kişi ilə zövcəsi arasında ayrılıq salan sehri öyrəndilər. Elə hiylələr və eyhamlar ki,məsələn filan şeyi filan cür edib,filan yerdə basdırsan,ər-arvad arasında ədavət olar. Lakin onlar Allahın izni olmadan heç kəsə xüsusi təsir ilə zərər verə bilməzlər. Əksinə, onların özlərinə zərəri olub,onlara xeyiri olmayan şeyləri öyrənirdilər ki, bu da onların din-imanlarını əllərindən aparırdı. Artıq onlar bildilər ki, dinini verib,sehri alan kəs üçün axirətdə, behiştdən bir pay yoxdur. Çünki sehr edənin əqidəsi budur ki, həqiqətən təsir edən Allah yox, sehrdir.Lakin onlar,sehrbazlar Allahın izni olmadan heç kəsə zərər vura bilməzlər.

Əgər onlar günahları və sehri tərk etməklə iman gətirib Allahdan qorxsalar, onlar üçün Allah tərəfindən əcr və cəza yaxşıdır.Əgər iman gətirməyin xeyrini və küfrdə qalmağın zərərini bilsəydilər.

əl-Bəqərə-168-Ey insanlar!Yer üzündə olan halal və təmiz şeyləri yeyin və Şeytanın ayağının yerinə ayaq basmayın.Çünki o,sizin aşkar düşmənizdir.

PEYĞƏMBƏRƏ QARŞI OLUNAN SEHR HAQQINDA

Açıqlama-Lübəyd ibn Əsəm adlı bir yəhudi Peyğəmbərə sehr edərək Bəni Zəriq tayfasının quyusuna atdı.

Həzrət xəstələnib yatan zaman Cəbrail (ə.s.) xəbər gətirib dedi ki, Lubəyd sehr edib quyuya basdırmışdır. Sənin mislin olan və sənin etibar etdiyin şəxs gedib o quyudan sehri çıxarsın.

Peyğəmbər (s.ə.s),Hz.Əlini göndərdi ki, gedib o quyudan deyilən əməli çıxarsın.Hz.Əli həmin quyunun içinə duşub gördü ki, quyunun

suyu xına kimi qırmızıdır. Hə qədər axtardısa, heç bir şey tapmadı. Onunla gələnlər dedilər:-İndi ki,quyudan heç bir şey tapmadın çıx, gedək Peyğəmbərə xəbər verək.

Həzrət buyurdu:"Nə Peyğəmbər(s.ə.s.) mənə yalan buyurmuşdur,nə də Peyğəmbərə yalan buyurublar!"

Sonra Həzrət buyurdu ki,quyunu ikinci dəfə axtaranda quyudan bir qutu tapdım.Qutunu tapıb Həzrətin yanına gələndə,Peyğəmbər mənə qutunu açmamı buyurdu.Qutunu açanda məlum oldu ki,qutunun işində xurma və onun içində tuk vardır.Həmin tüklərə 11 düyün vurulmuşdur. Sonra Cəbrail (ə.s.) əl-Fələq və ən-Nas surələrini nazil edərək, Peyğəmbərimizə dedi:"Ya Rəsullah!İyirmi dəfə bu surələri oxu!"Bu duaları oxuyan zaman,hər dəfə bu düyünlərin biri açılırdı, düyünlər tamam olandan sonra,Həzrət xəstəlikdən şəfa tapdı.

əl-Muminun-98-99-De ki:"Pərvərdigar Mən şeytanın vəsvəsələrindən sənə sığınıram.Ey Allahım!Şeytanların mənim yanımda olmalarından və məni sənə itaət etməkdən uzaq etməyindən sənə sığınıram."

əl-Fələq-1-5-Ya Peyğəmbər!De ki,sübhün Allahına pənah aparıram. Allah xəlq edən məxluqatın şərindən.Və qadınların şərindən ki, əfsun oxuyub düyünlərə üfürərlər.Bir də həsəd edənlərin həsədindən.

ən-Nas-4-5-6-De ki, mən insanları yaradıb pərvəriş verən Allaha pənah aparıram.O,insanların padşahıdır.İnsanların Allahıdır.Adı xənnas olan, vəsvəsə edən şeytanın şərindən. Elə xənnas ki,vəsvəsə edə insanların sinəsində.De ki, pənah aparıram uca Allaha həm cinlərdən, həm də insanlardan.

əz-Zuxfuf -62-Şeytan sizi süst etməklə Allahın dinindən saxlamasın. Şübhəsiz ki,o sizin böyük düşməninizdir.

əl- Mücadələ-19-Şeytan onlara qələbə çaldı,Allahı yada salmağı onların yadından çıxardı.Onlar şeytanın qoşunudur.Xəbərdar olun. Həqiqətən, şeytanın dəstəsi çox ziyankardır, onlar Cənnəti verib Cəhənnəmi alanlardır**.**

DUALAR HAQQINDA

Ə-uzu billəhi minəş şeytanir racim.
Bismilləhir rahmənir rahim.

Şeytanı qəhr edən dua:- Ə-uzu bi kəlimətilləhit təmməti min şərri mə xaləqa və zəraə və bəra-ə və min şərri mə yənzilu minəs səməi və min şərri mə yəə`rucu fihə və min şərri fitnətil leyli vən nəhəri və min şərri kulli tariqin.illə tariqan yətruqu bixeyrin yə rahmən.

Mənası: Peyğəmbərimiz (s.ə.s.) Meraca çixacağı vaxt şeytanlar əllərində atəşlər olduğu halda toplandılar.Peyğəmbərimizi yandırmaq üçün onun üstünə cummağa başladılar.Bundan sonra Cəbrail (ə.s.) dedi:"Ya Muhəmməd! Bu duanı oxu!"Peyğəmbər bu duanı oxuyan kimi onların atəşləri sönür,özlərini də Allah məhv edir.Bu duanı oxuyanlar şeytanın və cinlərin şərindən qurtarar. Şeytan gənc övliyalardan birinə belə dedi:"Mən sənin yanına gələndə dəvə kimi idim. Məni dinləməyib,bu duanı oxuduğun üçün məni sərçəyə çevirdin".

SEHRƏ,NƏFSƏ, NƏZƏRƏ VƏ CADUYA QARŞI OLAN AYƏLƏR

Açıqlama: Qeyd edidiyi kimi, insan və şeytanlara məxsus olan paxıllıq, qısqanclıq, ən əsası isə cahillik üzündən insanlar bir-birlərinə bəd dua edir və ona ziyan yetirmək üçün şeytan əməllərindən və üsullarından isrifadə edirlər. Yuxarıda şeytan əməlləri haqqında mövzuda qeyd edildiyi kimi, əgər Allah istəməsə nə insan, nə də ki, şeytan insana pislik yetirə bilməz.Çünki, bütün varlıqları Allah özü yaratmışdır və hər bir varlığında bu dünyada öz vəzifəsi və rolu vardır. Yəni,elə Şeytanın özü də Allahın izni olmadan,heç bir əməl edə bilməz.Sadəcə olaraq Uca Yaradan Şeytanı biz insanları sınayıb, imtahan etmək üçün bizlərə müsəllət etmişdir. Alim Allah bunların hamısını çox gözəl bildiyi, ağıl sahibi olan insanlara, həm özlərini bəlalara salan nəfslərindən, həm də digər insanların, şeytanların nəfslərindən qorunmaq üçün ibadət və itaətlə yanaşı, Qurani-Kərimdə dualar nazil etmişdir.

Bundan əlavə insanların nəfsi istəklərindən əmələ gələn və ya ola bilər ki, insan özüdə heç hiss etmədən,qarşısındakı insana gözə görünməyən, özündən mənfi enerşi(bioenerşi) ilə mənfi təsir edə bilər. (nəzər,nəfs) Əgər özünüzdə bir narahatçılıq və ya narahatçılığa səbəb olan bir hal hiss edirsinizsə, bir kasa su götürərək qarşınıza qoyub, aşağıda yazılan bu ayələri həmin suya oxuyun.Sonra isə bu suyu evin dörd küncünün divarlarına,astananın divarlarına çiləyərək, "Allahın izni ilə Atili Batil etdim",-deyin. Bu sudan özünüz və ailə üzvlərinizə də içə bilər. Həmçinin bu duaları hər gün sadəcə oxuyaraq, bütün pisliklərdən, nəfs və gözdən özünüzü və ailənizigün ərzində qoruya bilərsiniz. Ümumiyyətlə Kurani-Kərimi hər gün oxumaqla, onun hər surəsinin, hər ayəsinin, hər hərfinin belə nə qədər qüdrətə, hikmətə malik olduğunu və biz insanları həm özümüzdən, həm də ətrafımızdakılardan necə qoruduğunu,ən əsası isə Allahın nəzərini özünüzdə hiss edərsiniz.

Bu zaman gözlə görünməyən,əllə tutulmayan mənəvi bir atmosfer yaranır və oxuyanın üzərinə bir mərhəmət enər. Qurani- Kərimi oxumaqdan, duaları oxumaqdan qorxmayın, əksinə, bunu çox adi, gündəlik bir vəzifə (yemək-içmək) kimi qəbul edin. Bu dualar insanı pisliklərə aparmız, əksinə pislik və bəlalardan uzaqlaşdırar və qəlbinizə Allahdan elə xovf ,məhəbbət salar ki, siz artıq heç kəsə pislik arzulamaz, pislik etmək iqtidarında belə olmazsınız. Bir az dünyaya, həyata baxışlarınızı dəyişdirin və hər şeyə real baxın, dinimizdən, dualarımızdan utanmayın, qorxmayın. Adil Allah ayələrində buyurur ki,"siz Məni şağırın, siz Mənə dua edin, siz Mənə ibadət edin, siz yalnız Məndən istəyin, çünki eşidən, bilən və hər şeyi də verib, almağa qadir olan yalnız Mənəm!

əl-Fatihə-1-7-Bismilləhir-Rahmənir Rahim. Əlhəmdulilləhi rabbil ələmin.Ərrahmənir rahim.Məliki yəvmiddin.İyyəkə nəbudu və iyyəkə nəstəin. İhdinəs sıratal nustəqim. Sıratal ləzinə ən`əmtə əleyhim ğeyril məğdubi əleyhim və ləddа`llin.

əl-Bəqərə-1-5-Əlif .Ləm. Mim.Zəlikəl kitəbu lə raybə fih hudəl-lilmüttəqın. Əlləzinə yuminunə bilğaybi və yuqımunəs salətə və mimmə razəqnəhum yunfiqun.Vəlləziinə yuminunə bimə unzilə iləykə və mə unzilə min qablik və bil əxiratihum yuqınun.Ulaikə ələ hudəmmir rabbihim və uləikə humul muflihun.

əl-Bəqərə-74-Summə qasət qulubukum min bə`di zəlikə fəhiyə kəl hicərati əv əşəddu qasvəh və innə minəl hicərati ləmə yətəfəccəru minhul ənhər və innə minhə ləmə yəşşəqqaqu fəyəxrucu minhul məu və innə minhə ləmə yəhbitu min xəşyətilləh və məllahu bi ğafilin əmmə təməlun.

əl-Bəqərə-102-Vəttəbəu mə tətluş şəyətinu ələ mulki Suleymən vəmə kəfərə Suleymənu vələ kinnəş şəyətinə kəfəru yuəllimunən nəsis sihra vəmə unzilə ələl mələkeyni bi Bəbilə Hərutə və Mərut vəmə yuəlliməni min əhədin həttə yəqulə innəmə nəhnu fitnətun fələ təkfur fəyətəəlləmunə min humə məyufərriqunə bihi beynəl mər`i vəzəvcih vəmə hum bidarrinə bihi min əhədin illə bi iznilləh və yətəəlləmunə mə yədurruhum vələ yənfəuhum vələqad əlimu ləmənіş tərahu mə ləhu fil əxirati min xaləq vələbi`sə mə şərəv bihi ənfusəhum ləv kənu yə`ləmun.

əl-Bəqərə 156-Əlləzinə izə əsabət`hum musıbətun qalu innəllahi və innə ileyhi raciun.

əl-Bəqərə -255-Allahu lə iləhə illə huvəl həyyul qayyum.lə təxuzuhu sinətuv vələ nəvm ləhu,mə fis səməvati və mə fil ard. mənzəlləzi yəşfəu indəhu illə bi iznih yə`ələmu mə beynə eydihim vəmə xəlfəhum və lə yuhitunə bişeyim min ılmihi illə bimə şə`ə vəsiə kursiyyuhus səməvati

vəl ard vələ yuduhu hifzuhumə vəhuvəl əliyyul əzim.Lə ikrahə fid`din qat təbəyyənər`ruşdu minəl ğəy fəmən yəkfur bittağuti vəyu`min billəhi fəqədistəmsəkə bil ur`vətil vusqa lənfisamə ləhə vəllahu səmiun əlim. Allahu vəliyyul ləzinə ə-mənu yuxricuhum minəz zuluməti ilənnur vəlləzinə kəfəru əvliyəuhumut`tağutu yux`ricunəhum minən nuri iləz`zulumət uləikə əshəbun`nərihum fihə xalidun.

əl-Bəqərə-286-a-mənər rasulu bimə unzilə ileyhi mirrabbihi vəl muminun, kullun əmənə billəhi və mələikətihi və kutubihi və rusuluhu lə nufərriqi bey`nə əhədim mirrusuluh, və qalu səmiənə və ətəə`nə ğufranəkə rabbənə və ileykəl məsır.Lə yukəllifullahu nəfsən illə vusəhə ləhə mə kəsəbət və əleyhə məktəsəbət rabbənə lə tuə`xiznə in nəsinə əv əxta`nə,rabbənə və lə təhmil əleynə ısran kəmə həməltəhu ələlləzinə min qablinə, rabbənə və lə tuhəmmil`nə mə lə taqata lənə bih və əfu ənnə vəğfir lənə vərhəmnə əntə məv`lənə fənsurnə ələl qovmil kəfirin.

ən-Nisa-167-173-İnnəl ləzinə kəfəru və saddu ən səbililləhi qaddallu dalələn bəida.innəl ləzinə kəfəru və zaləmu ləm yəkunilləhu liyəğfira ləhum vələ liyəhdi yəhum tariqa.illə tariqa Cəhənnəmə xalidinə fihə əbədə vəkənə zəlikə ələllahi yəsira.yə əyyuhənnasu qad cə`əkumur rasulu bil həqqi mir rabbikum fə-əminu xeyral ləkum vəin təkfuru fəinnə lilləhi məfis səməvati vəl ard, və kanəllahu əlimən həkimə.yə əhləl kitəbi lə təğlu fi dinikum vələ təqulu ələllahi illəl həqq, innəməl məsihu isəbnu məryəmə rasulullahi və kəlimətuhu əlqahə ilə məryəmə və ruhum minhu,fə əminu billəhi və rusulih, və lə təqulu sələsəh intəhu xeyral ləkum, innəməllahu iləhuv vahid. Subhənəhə əy`yəkunə ləhu vələdul lədu mə fissəməvati vəmə fil ard vəkəfə billəhi vəkilə.ləy yəstənkifəl məsihu əyyəkunə əb`dən lilləhi və ləl mələikətul muqarrabun, vəməy yəstənkif ən ibədətihi vəyəs`təkbir fəsəyəh`şuruhum iləyhi cəmiə. Fə əmməl ləzinə ə-mənu və əmilus salihəti fəyuvəffihum ucurahum və yəziduhum min fədlih və əmməlləzinəs tənkəfu vəs təkbəru fəyuəzzibuhum əzəbən əlimən və lə yəcidunə ləhum min dunilləhi və liyyənduv vələ nəsıra.

əl-Əraf-54-innə rabbə kumullahulləzi xaləqas səməvati vəl ardə fi sittəti əyyəmin sümməstəva ələl arşi yuğşil ley`lənnəhəra yətlubuhu həsisən vəşşəmsə vəlqaməra vənnucumə musəxxəratin biəmrih, ələ ləhul xalqu vələmr. təbərakəllahu rabbul ələmin.

əl-Əraf-117-122-və əvheynə ilə musə ən əlqi əsak,fəizə hiyə təlqafu mə yə`fikun.fəvaqaəl həqqu vəbətələ mə kanu yə`ləmun. fəğulibu hunəlikə vənqaləbu sağirin.və ulqiyəs səhəratu səcidin. qalu əmənnə birabbil aləmin.rabbi musə və hərun.

əl-Əraf-179-və ləqad zəranə li Cəhənnəmə kəsiram minəl cinni vəl ins. ləhum qulubul lə yəfqahunə bihə vələhum ə`əyunul lə yubsirunə bihə vələhun ə-zənul lə yəs`məunə bihə,ulaikə kələn`əmi bəl hum ədall. ulaikə humul ğafilun.

ət-Tovbə-127-128- Vəizə mə unzilət suratun nəzara bəduhum ilə bəd.həl yərakum min əhədin summən sarafu sarafəllahu qulubəhum biənnəhum qovmul lə yəfqahun. Ləqad cə`əkum rasulim min ənfusikum azizun akeyhi mə ənittum hərisun aley`kum bil mumininə raufur rahim.

Yunus-81-82-fələmmə əlqov qalə Musa mə citum bihis sihru innəllahə səyub`tiluhu innəllahə lə yuslihu əmələl mufsidin. və yuhiqqullahul haqqa bi kəlimətihi və ləv kərihəl mucrimun.

əl-Hicr-16-17-və ləqad cəəlnə fissəməi burucən və zəyyənnəhə linnəzirin.və həfiz`nəhə min kulli şeytanir racim.

əl-İsra-110-111-Qulid ullahə əvid`ur rahmənə,əyyəm mətəd`u fələhul əsməul husnə,vələ təchər bisalətikə vələ tuxafit bihə vabtəğı beynə zəlikə səbilə. Və qulil həmdu lilləhilləzi ləm yəttəxiz vələdəv vələm yəkulləhu şərikun fil mulki vələm yəkul ləhu vəliyyum minəzzulli vəkəbbirhu təkbira.

əl-Kəhf-100-Və əradnə Cəhənnəmə yəvməizil lil kəfirinə arda. Əlləzinə kənət ə-əyunuhum fi ğitain ən zikri vəkənu lə yəstətiunə səm`ən. əfəhəsibəlləzinə kəfəru əy yəttəxizu ibədi min duni əvliyə. innə ə`ətədnə Cəhənnəmə lil kəfirinə nuzulə.qul həl nunəbbiukum bil əxsərinə ə`əmələ. əlləzinə dallə sə`yuhum fil həyətid dünyə vəhum yəhsəbunə ənnəhum yuhsinunə sun`ə. uləikəlləzinə kəfəru biəyəti rabbihim vəliqaihi fəhəbitat ə`əməluhum fələ nuqimu ləhum yəvməl qiyaməti vəznə.zəlikə cəzəuhum Cəhənnəmu bimə kəfəru vəttəxazu əyəti vərusuli huzuva. Innəlləzinə ə`mənu və əmilus salihəti kənət ləhum cəhənnətul firdəv`si nuzulə. xalidinə fihə lə yəbğunə ənhə hivalə. qul ləv kanəl bəhru midədəl likəliməti rabbi lənəfidəl bəhru qablə ən tənfədə kəlimətu rabbi vələv ci`nə bimislihi mədədə.qul innəmə ənə bəşərum mislukum yuhə iləyyə ənnəmə iləhukum iləhun vahid. fəmən kənə yərcu liqaə rabbihi fəl`yəə`məl əmələn salihən vələ yuşrik biibədəti rabbihi əhədə.

Taha-65-70-qalu yə Musə immə ən tulqiyə vəimmə ən nəkunə əvvələ mən əlqa.qalə bəl əlqu fəizə hibəluhum və isiyyuhum yuxəyyəlu ileyhi min sihrihim ənnəhə təs`ə. fə-əvcəsə fi nəfsihi xifətəm musə.qulnə lə təxəf innəkə əntəl ə`alə. və əlqi mə fi yəminikə təlqaf mə sanəu innəmə sanəu keydu səhir. vələ yuflihussəhiru heysu ətə.fəulqiyəs səhəratu succədən qalu əmənnə birabbi hərunə və musə.

əl-Ənbiya-69-70-qulnə yə`nəru kuni bərdəv vəsələmən alə ibrahim. Və əradu bihi keydən fəcəəl`nəhumul əxsərin.

əl-Muminun-113-118-Qalu ləbis`nə yəv`mən əv bəədə yəvmin fəsəlil əddin.Qalə il ləbistum illə qaliləl ləv ənnəkum kuntum təə`ləmun. əfəhəsibtum ənnəmə xaləq`nəkum əbəsən və ənnəkum ileynə lə turcəun. fətəə`ləllahul məlikul həqq. lə iləhə illə huvə rabbul ərşil kərim.vəmən yəd`u məəllahi iləhən əxara lə burhənə ləhu bihi fəinnəmə hisəbuhu ındə rabbih.innəhu lə yuflihul kəfirun.vəqul rabbiğfir vər`həm və əntə xeyrur rahimin.

Furqan-23-və qadimnə ilə mə əmilu min əmələlin fəcəəl`nəhu həbəəm mənsura.

əs-Saffat-1-10-vəssaffəti saffə.fəzzəcirati zəcra.fəttəliyəti zikra.innə iləhəkum ləvahidrabbus səməvati vəl ardi vəmə beynə humə vərabbul məşəriq. Innə zəyyənnəs səmə əddünyə bizinətinil kəvakib.vəhifzəm min kulli şeytanim mərid.lə yəsəmməunə iləl mələləil ə-ələ vəyuqzəfunə min kulli cənib.duhurav vələhum əzəbun vasib.illə mən xatifəl xatfətə fə-ətbə-əhu şihəbun səqıb.

əd-Duxan-43-44-İnnə şəcəratəz zəqqum.taəmul əsim.

ər-Rahmən-33-36-yə məəşəral cinni vəl insi inis tətaətum ən tənfuzu min aqtaris səməvati vəl ardi fənfizu lə tənfuzunə illə bi sultan. Fəbi əyyi ə`ləi rabbikumə tukəzzibən.yursəlu əleykuə şuvazum min nərin və nuhəsun fələ təntəsıran.

əl-Həşr-21-24-ləv ənzəlnə həzəl qur`ənə alə cəbəlil ləraəytəhu xaşiəm mutəsəddiən min xaşyətilləhi vətilkəl əmsəlu nədribuhə linnəsi ləəlləhum yətəfəkkərun. Huvəllahulləzi lə iləhə illə hu. ə-limul ğeybi vəşşəhədəh. huvər-rahmənur rahim.Huvəllahulləzi lə iləhə illə huvəl məlikul quddusus sələmul muheyminul əzizul cəbbərul mütəkəbbir. subhənəllahu əmmə yuş-rikun.Huvəllahul xaliqul bəriul musavviru ləhul əsmaul husnə, yusəbbihu ləhu mə fissəməvati vəl ard. vəhuvəl əzizul həkim.

Cinn-1-10-Qul uhiyə iləyyə ənnəhus təmə nəfərum minəl cin-ni fəqalu innə səmiə`nə qur`ənən əcəbə.yəhdi ilərruşdi fəəmənnə bih. vələn nuşrikə birabbinə əhədə.və ənnəhu təələ cəddu rabbinə məttəxəzu sahibətəv vələ vələdə.və ənnəhu kənə yəqulu səfihunə ələllahi şətata. və ənnə zanənnə əl lən təquləl insu vəl cinnu ələllahi kəzibə.və ənnəhu kənə ricəlum minəl insi yəuzunə biricalim minəl cinni fəzəduhum rahəqa.və ənnəhum zannu kəmə zanəntum əllən yəbəsəllahu əhədə.və ənnə ləməsnəs səmə fəvəcəd`nəhə muliət hərasən şədidəv vəşuhubə. və ənnə kunnə nəq`udu minhə məqaidə lissəmi fəmən yəstəmiil ənə yəcid ləhu şihəbər rasadə.

əl-İxlas-1-3-Qul huvəllahu əhəd.Allahus saməd.ləm yəlid vələm yuləd.vələm yəkul ləhu kufuvən əhəd.

əl-Fələq-1-5-Qul əuzu bi rabbil fələq.min şərri mə xaləq.və min şərri ğasiqin izə vəqab.və min şərrin nəffəsəti fil uqad.və min şərri həsidin izə həsəd.

ən-Nas-1-6-Qul əuzu birabbin nəs.məlikin nəs.iləhin nəs. Min şərril vəs`vəsil xannəs.əlləzi yuvəsvisu fi sudurin nəs.minəl cinnəti vən nəs.

VƏSVƏSƏDƏN QURTARMAQ ÜÇÜN DUA

Vəsvəsə və şübhə şeytandan gəlir.Vəsvəsə şeytanın işidir.Şeytan, ibadətlərdə insana davamlı şübhə və narahatçılıq fısıldamaqla hey əlləşər.İnsanın içinə girərək onun həyatını alt-üst etməyə çalışır.Bunun üçün bu zikr və duaları oxumaq lazımdır:

"Lə İləhə illəllah","Əşhədu ən lə ilahə illəllah və əşhədu ənnə Muhəmmədən əbduhu və rəsuluh"."Huvə lə əvvəlu vəl əxiru vəz zahiru vəl batinu və huvə bi kulli şeyin alim""Aməntu billəhi və Rusulihi."

Şeytanın uzaqlaşması üçün dua və zikr soyləmək bu xəstəliyin əlacıdır.

DUA HAQQINDA

Dua lüğətdə"çağırmaq" və "kömək istəmək" deməkdir. Dini termində isə Allah-taala ilə çətinliklərin həll olması və hacətlər üçün Allah ilə razi-niyaz etməkdir. Peyğəmbərimiz buyurur ki:"Dua ibadətin özüdür və ibadətin özü ilə əlaqədardır.Dua inananların silahıdır.Həmçinin:-Dua möminin silahı və dinin sütunudur!Müsəlmanlar dua sayəsində hər cür pisliklərdən, zərərlərdən, xəstəliklərdən qoruna bilərlər.Bu zərərlə şeytandan,insanlardan və öz nəfsindən də ola bilər.

Dua ən böyük ibadət və ən qüvvətli bir niyazdır.Ağlı olan bir müsəlman aldığı bir nəfəs qədər belə duadan uzaq olmaz.Dua qədər insanın imdadına çatan vasitə yoxdur.

Dua Cənabu Haqqa yalvarmaq Allahı anmaq və zikr etməkdir.

Dua Allahdan yardım diləmək və ona möhtac olduğunu bildirməkdir.

Dua ümidsizlərin ümid qaynağıdır.

Dua bütün diləklərin hacətlərin açarlarıdır.

Dua Uca Allaha yazılmış bir məktub misalıdır.

Çarəsiz və darda qalan kimsə dua ilə halını Uca Allaha ərz edir,bildirir, dərdində dua edərək ondan kömək diləyir.

Hədis:Sələmə ibn Əkva əleyha belə buyurur ki, Peyğəmbərimiz du-

aya başlayarkən belə deyərdi:

"Sübhanə Rabbiyəl Aliyyil alәl Vəhhab.Əuzu billəhi minəş şeytanir racim.

Bismilləhir rahmənir rahim."Allaha həmd edər və salavat gətirərdi, sonra isə öz diləklərini söyləyərdi."

Dua etmənin qaydaları

Hər əməlin bir üsulu,qaydası olduğu kimi dua etmənin də üsulu, qaydası və yolu vardır.Uca Allahın qatında duadan daha şərəfli dəyərli və qiymətli bir amil yoxdur.O halda bu qiymətli ibadətimizi yerinə yetirərkən bəzi şərtlərə də əməl etmək gərəkdir.

Duasının qəbul olunmasını istəyən kimsə bu şərtləri yerinə yetirməlidir.

1.Bütün günahlardan tövbə etməli

2.Duadan əvvəl bir xeyir əməl və savab işlətməli.

3.Dua edərkən sidq ürəklə və ixlas ilə etməli

4.Duanı dəstəmazlı üzü qibləyə dönərək dizi üstə oturub etməli

5.Dua etdiyi vaxt namaz qıldığı kimi sakit və qəlb rahatlığı ilə sağa-sola baxmadan və başqa söz danışmadan etmək lazımdır.

6.Duanı özü eşidəcək qədər gizli etməli ki, başqaları eşitməsin.

7.Dua edərkən ağız təmiz və pak olmalı,pis qoxumamalı,soğan, sarımsaq kimi şeylər yeyilməməlidir.

8.Dua edərkən əlləri yuxarı qaldırıb açıq tutmalı,dua bitdikdən sonra "Amin"deyilməlidir.

Dua etmənin qiymətli vaxtları

1.Azan ilə iqamə arasında edilən dua

2. Sübh vaxtı.

3. Ərəfə günləri.

4. Cümə gecələri

5.Bayram gecələri.

6. Ramazan ayında.

7. Quran oxunub bitdikdn sonra xətm olunan vaxt.

8. Vacib namazlardan sonra.

9.Tənha və kimsəsiz yerlərdə olduğun vaxt.

10. Mübarək gecələrdə(Rəcəb,şaban və ramazan gecələrin də)

11.Yağış yağdığı vaxt, günəş tutulduğu vaxt,yəni təbiət hadisələri zamanı.

Duası qəbul olunan kimsələr

1.Ana-atanın övladına etdiyi dua.Atanın duası tez yerinə yetir.

2.Xeyirli övlad olub, ata-ananın qullugunda duranların.

3.Quran əhlinin, Hafizi Quranların.

4. Kiminsə arxasınca qiyabi edilən dua.

5.Məzlumun duası.
6. Oruclu olan müsəlmanın duası.
7.Xəstələrin duası.
8.Yaxşı işlər edən kimsələrin duası.

YA VƏDUD DUASI

Hər kim bu"Ya vədud" duasını hər cür sıxıntı və çarəsiz qaldığı, ümidlərin kəsildiyi,ən çətin və ağır vaxtlarında oxuyarsa Allah-taala ona yardım edər:

"Yə vədudu, yə vədud! Yə Zəl-ərşil Məcidi Yə Mubdiu yə Muid! Yə fəə`alun limə yuridu əs`əlukə binuri vəchikəlləzi mələlə arkənə arşikə və əs`əlukə bi qudratikəl-ləziyə qaddər`tə bihə alə xalqıkə və birahmətikəl ləzinə vəsiə`tə kullə şeyin lə ilahə illə əntə Yə Muğisu əğisni!Yə Muğisu əğisni,Yə Muğısi əğısni!"

CƏNNƏTƏ GİRMƏK ÜÇÜN OXUNCAQ DUA

Təhrim-8-Ey iman gətirənlər!Allaha səmimi qəlbdən(bir daha günaha qayıtmamaq şərtilə) tövbə edin.Ola bilsin ki, Rəbbiniz günahlarınızın üstünü örtüb bağışlasın və altında çaylar axan Cənnətə daxil etsin.O gün Allah öz Peyğəmbərini və onunla iman gətirənləri xəcil etməz.Onların iman nuru (sirat körpüsündə onlara yol göstərmək üçün) sürətlə qarşılarından və sağ tərəflərində axıb şölə saçarkən onlar belə deyəcəklər:-"Ey bizim Allahımız!Bizim nurumuzu tamam-kamal eylə və bizi bağışla.Həqiqətən, sən hər şeyə qadirsən".

QURANDA PEYĞƏMBƏRLƏRİN DUALARI

Hz. Adəmin duası

əl-Əraf-23-Adəm dedi:"Ey Rəbbimiz!Biz özümüzə zülm etdik, əgər bizi bağışlamasan mütləq ziyan çəkənlərdən olarıq."

Hz. Nuhun duası

əş-Şüəra-117-Söylədi:-Ya Rəbbim,tayfam məni inkar edir. Mənimlə onlar arasında bir hökm et və məni və yanımdakı möminləri bəladan qurtar".

Hud-48-Ey Rəbbim!Elmim,biliyim olmadığı şeylər barəsində səndən bir şey istəməkdən sənə pənah aparıram.Əgər məni bağışlamasan və mənə rəhm etməsən mən ziyankarlardan olaram.

əl-Muminun-30-Ey Rəbbim!Məni bərəkətli, bol,mübarək bir yerə endir. Gerçək ki, Sən sığınacaq verənlərin ən yaxşısısan.

Nuh-28-Ey Rəbbim!Mənə,anama,babama,evimə mömin olaraq

gələn hər kəsə və daha sonrakı bütün mömin qadınlara və kişilərə bağışlayıcı olduğunu göstər və zülm istəyənləri hər zaman həlaka uğrat.

İBRAHİMİN ETDİYİ DUALAR

əl-Bəqərə-126-İbrahim dedi:"Ey mənim Rəbbim!Bu şəhəri bir əmin yer elə və onun əhlindən Allaha və Qiyamət gününə inananlara hər bir məhsuldan ruzi ver."

əl-Bəqərə-127-128-İbrahim və İsmail evin sütunlarının yüksəltdikləri zaman dedilər:"Ey Rəbbimiz, bizdən qəbul elə, çünki sən eşidən və bilənsən.Ey Rəbbimiz,bizi sənə təslim olanlardan elə. Bizim övladımızı da sənə təslim olanlardan elə Bizə ibadət ən-ənnəsini öyrət və tövbəmizi qəbul eylə.Çünki sən tövbə qəbul edən və mehribansan."

İbrahim-35-İbrahim söylədi:"Ey Rəbbim, bu ölkəni qoru, məni və övladlarımı bütlərin sitayişindən iraq et!"

İbrahim-40-Ey Rəbbim,məni və övladlarımı namaz qılanlardan et.Ey Allahım, mənim dualarımı qəbul et.

əş-Şuəra-78-88-İbrahim dedi:"Məni yaradan Allah məni düz yola hidayət edər.O kəs ki, mənə təam verər və su verər,məni aclıqdan və susuzluqdan saxlayar.Mən xəstə olanda mənə şəfa verər!O məni öldürər, sonra dirildər.O elə bir Allahdır ki, Qiyamət günündə mən ondan günahımın bağışlanmağını istəyirəm.Ey Rəbbim! Mənə hikmət bağışla və məni salehlərin sırasına qoş və mənim yaxşı xatirəmi gələcək nəsillərin dillərinə sal.Məni nemətli Cənnətin varislərindən et və qiyamət günü məni rüsvay etmə.Onda ki, nə malın faydası var,nə də övladın."

əs-Saffat-98-Dedi:"Mən Rəbbimə doğru gedirəm.O mənə düzgün yol göstərər."

HZ. MUSA VƏ HARUNUN DUASI

əl-Əraf-126-Ey Rəbbimiz, bizə dözümlülük yağdır və bizi müsəlman olaraq öldür.

əş-Şüəra-62-Musa söylədi:"Hər vaxt mənim Rəbbim mənimlədir və O mənə yol göstərəcəkdir."

əl-Ənam-162-De ki, Mənim namazım,mənim qurbanlığım, mənim həyatım və mənim ölümüm aləmlərin Rəbbi olan Allah üçündür.

əl-Bəqərə-200-201-İnsanlardan bəzisi:"Ey Rəbbimiz, bizə bu dünyada bir şey bağışla"-deyərlər.Bunlara axirətdə bir pay yoxdur. İnsanların bəzisi isə:"Rəbbimiz, bizə həm dünya,həm də axirətdə xeyir yetir və bizi odun əzabından qurtar"-deyərlər.

Taha-25-35-Musa dedi:"Pərvərdigara! Mənim sinəmi aç,işimi asanlaşdır,dilimin düyününü aç ki, sözümü anlasınlar.Mənim üçün əhlimdən bir vəzir təyin et.Onunla arxamı möhkəmləndir.Onu mənim Peyğəmbərlik işimdə şərik et ki, sənə çox təsbih edək,sənə çox zikr edək.Həqiqətən,sən bizi görənsən."

əl-Qəsas-35-Musa dedi:"Ya Rəbb,doğrusu mən nəfsimə zülm etdim. Artıq rəhmətinlə mənim günahımın üstünü ört.

HZ. YUNUSUN DUASI

əl-Ənbiya-87-88-Balıq sahibi,Yunusu yadına sal ki,balığın qarnının qaranlığında Allahı çağırıb dedi:Səndən başqa Allah yoxdur. Sən bütün eyiblərdən paksan. Həqiqətən,mən özümə zülm edənlərdənəm.

HZ. YUSİFİN DUASI

Yusif-33-Söylədi:"Ey Allahım, mənə dustaq olmaq mənim üçün istənilən şeydən daha əzizdir.Əgər bu qadınların məkrini məndən iraq etməsən,mən onlara meyl edərəm və onda nadanlara qoşularam".

Yusif-101-Söylədi:"Ey mənim Allahım,mənə hökmranlıq bağışladın və yuxuları yozmaq elmini öyrətdin.Ey göyləri və yeri yaradan Allah,Sən bu dünya və axirətdə mənim yol göstərənimsən. Məni müsəlman olaraq o dünyaya köçür və salehlərin yanına apar."

HZ.ZƏKƏRİYYƏNİN ETDİYİ DUA

Ali-İmran-39-Mehrabda Zəkəriyyə Rəbbini çağırıb dedi:"Ey Rəbbim! Mənə öz yanından pak bir uşaq ver.Doğrusu Sən duaları eşidənsən!"

Məryəm-4-Ey Rəbbim!Doğrusu artıq sümüklərim süst oldu, başım ağardı.Sənə dua etməklə heç vaxt ümidsiz olmamışam.

HZ.İSANIN ETDİYİ DUA

əl-Maidə-114-Məryəm oğlu İsa dedi:"Pərvərdigara bizim üçün göydən süfrə nazil et ki,bizim zəmanəmizdə hazır olanlar və bizdən sonra gələnlər üçün bayram olsun.Mənim Peyğəmbərliyimə əlamət və möcüzə olsun.Bizə ruzi ver!Sən ruzi verənlərin ən yaxşısısan."

HZ.ƏYYUBUN DUASI

əl-Ənbiya-83-84-Əyyubu yad et!Onda ki, Rəbbini çağırdı: "Mənə xəstəlik və əziyyət üz verib və sən mehribanların ən mehribansan." Duasını müstəcəb etdik, əziyyətdən onu uzaq etdik və ailəsini və ya onların tayını ona qaytardıq və bu bizim rəhmətimiz idi ki,möminlər həmişə bizi xatırlasınlar.

HZ.SÜLEYMANIN DUASI

Nəml-19-Süleyman dedi:"Mənim Tanrım,elə et ki, mənə və valideynimə bağışladığın nemətə görə lazım olan şükürü yerinə yetirə bilim.Sənin razılığına səbəb olan işlər görə bilim.Məni öz mərhəmətinə daxil edib,saleh bəndələrindən hesab et".

Sad -35-Süleyman dedi:"Ey mənim Allahım! Məni bağışla,mənə elə bir padşahlıq və mülk ver ki, məndən sonra heç kəs o cür səltənətə nail olmasın!Şübhəsiz Sənsən bütün dilәkləri verən Vəhhab."

HZ.PEYĞƏMBƏRİMİZİN CƏNNƏTƏ GİRMƏK ÜÇÜN OXUNACAQ DUA

ət-Təhrim-8-Ey iman gətirənlər!Allaha səmimi-qəlbdən(bir daha günaha batmamaq şərtilə) tövbə edin.Ola bilsin ki, Rəbbiniz günahlarınızın üstünü örtsün və sizi(ağaclar) altından çaylar axan Cənnətlərə daxil etsin.O gün Allah Peyğəmbərini və onunla birlikdə iman gətirənləri xəcil etməz. Onların (iman) nuru (qıl körpüsü üstündə onlara yol göstərmək üçün) önlərindən və sağ tərəflərindən axıb şölə saçarkən onlar belə deyəcəklər:"Ey Rəbbimiz!Bizim nurumuzu tamam-kamal elə və bizi bağışla.Həqiqətən, Sən hər şeyə qadirsən!"

HİKMƏTLİ AYƏLƏR

Hər dəfə kölgəmizə baxdıqda"Rəbbim!Gölgəmin səmimiyyətini mənə də qismət et!"-deyə bu ayəni oxuyaq:

ər-Rad-15-Göylərdə yerdə olanlar öz istəyi ilə,ya istəməyən halda səcdə edir.Onların kölgələri də səcdə edər,rüku və səcdə halında kölgə hərəkət edər.Onlar səhər axşam səcdə edərlər.

əl-Furqan 46-Sonra o kölgəni(günəşin yüksəlmsi ilə) yavaş-yavaş özünüzə tərəf çəkdik.Əgər kölgəni yerə birdən salıb,birdən çəksəydik, insanlar vahiməyə düşərdilər.

Günah işlətdiyimizdə peşman olub bu ayəni oxuyaq:-

əl-Furqan-70-Ancaq tövbə edib iman gətirən və yaxşı işlər görənlərdən başqa! Allah onların pis əməllərini yaxşı əməllərə çevirər. Allah bağışlayan və rəhm edəndir!

Yerimizə uzanıb yatmaq istədiyimiz zaman,Allahı zikr edərək bu ayəni oxuyaq:-

Ali-İmran-191-O kəslər ki,ayaq üstə olanda,oturanda, uzananda Allahı xatırlar,göylərin və yerin yaradılması haqqında düşünər və deyər: "Ey Rəbbimiz!Sən bunları boş yerə yaratmamısan!Sən pak və müqəddəssən! Bizi Cəhənnəm odunun əzabından qoru!"

Göydə bir-birini ötməyə çalışan buludları görəndə bu ayəni oxuyaq:

-əl-Əraf-57-Küləkləri öz mərhəməti önündə yağışdan qabaq müjdəçi olaraq göndərən odur!Belə ki, küləklər (yağmur yüklü) ağır buludları hərəkətə gətirdiyi(daşıdığı) zaman biz onları (buludları) ölü, qurumuş bir məmləkətə tərəf qovub,ora yağmur endirir və onunla hər cür meyvə yertişdirərik.Biz ölüləri də qəbirdən belə çıxardıb dirildirik. Bəlkə düşünüb ibrət alasınız.

Başımıza bir müsibət gəldiyi zaman rahatlanmaq üçün bu ayəni oxuyaq:

-ət-Təğabun-11-Allahın izni olmadıqca heç kəsə heç bir müsibət üz verməz.Kim Allaha iman gətirsə,Allah onun qəlbini haqqa doğru yönəldər və o dünyada baş verən hər şeyin Allahın əzəli hökmü, izni ilə olduğunu bilər.Allah hər şeyi, keçmişi, indini və gələcəyi biləndir!

Möcüzələrlə dolu olan göy üzünə nəzər saldıqda Allahı yada salaraq,Onun qüdrətini xatırlayıb səcdəyə qapanaraq bu ayəni oxuyaq:

-əl-Mülk-3-Yeddi göyü bir-birinin üstündə qat-qat yaradan da Odur. Ey insan! Sən Rəhmanın yaratdığında heç bir uyğunsuzluq görməzsən. Bir gözünü qaldırıb səmaya bax,heç orada bir yarıq, çat, nöqsan görə bilərsənmi? Sonra gözünü qaldırıb iki dəfə bax.Göz orada axtardığını tapmayıb zəif, yorğun düşərək yenə də Sənə qayıdacaqdır!

Dəftərinin sağdan verilməsini istəyənlər sağ tərəfə çəkilmək məcburiyyətindədirlər. Sağa gedən yol isə Muhəmməd Peyğəmbərin (s.ə.s.) yoludur.

Günəşin qürub etdiyini gördükdə bu ayəni oxuyaq:

əl-Furqan-47-Sizin üçün gecəni örtük,yuxunu rahatlıq, gündüzü də ruzi qazanmaqdan ötrü,dirilik vaxtı edən Odur.

Süfrəyə oturduğumuz zaman süfrəmizdəki nemətlər haqda dərin düşüncəyə dalaraq bu ayəni yada salaq və düşünək ki,dünyaya ruzi dalınca qaçmaq üçün gəlmədik.

-Əbəsə-24-İnsan hələ yeməyinə baxsın!Görsün ki,ona necə ruzi verdik.

Səbətə düşən hər bir balığı gördükdə bu ayəni yada salaq:

-ən-Nəhl-14-Təzə ət(balıq əti) yeməyiniz,taxdığınız bəzək şeylərinin (inci, sədəf, mərcan) çıxartmağımız üçün dənizi də sizə ram edən Odur. Allahın nemətindən sizin ruzi axtarmağınız üçün sən gəmilərin onu yara-yara üzüb getdiyini görürsən.Bəlkə bundan sonra Allahın nemətlərinə şükür edəsiniz.

TÖVBƏ EDƏNLƏRİN DUASI

Hz.Adəmin **tövbə duası**:"Rabbənə zaləmnə ənfusənə və in ləm təğfir lənə və tərhəmnə ləkunənnə minəl xasirin."

Mənası:Ey Uca Rəbbimiz!Öz canımızı yazıq etdik öz nəfsimizə zülm etdik.Əgər Sən bizi bağışlamasan, rəhm etməsən,biz ziyan edənlərdən, hicran içində qalanlardan,hər şeyini itirənlərdən olarıq.

Zikrlər:Əstəğfirulla,Əstəğfirulla,Əstəğfurulla.

"Təvvab,Ğəffar,Səttar,Ğafur" kimi ismi şəriflərini zikr etmək.

"Subhənallahi,əstəğfirullahə və ətubu ileyhi"

"Sübhənallahi və bi-həmdih"-100-dəfə demək.

Hədis:Səhih hədislərdə Peyğəmbərimiz (s.ə.s.)buyurur:Bil ki, günah işlətdiyin vaxt qəlbinə qara nöqtə kimi bir ləkə cızılır.Bəndə əgər tövbə edərsə, o qara ləkə gedər.Əgər tövbə etməz,öz günahlarını davam etdirərsə, o ləkə artar və bütün qəlbini bürüyər.Qəlbi pas tutar.Bu səbəbdən qəlbin cilası yalnız istiğfardır.

Peyğəmbərimiz (s.ə.s.) buruyurur: "Mənim qəlbimə nurani bir pərdə nazil olub, gündə 100 dəfə Uca Allahdan məğfirət dilər və mən istiğfar edərəm."

Hədis:Peyğəmbərimiz (s.ə.s.) buyurur:"Qadınlar topluluğu zamanı sədəqə verin və çox tövbə edin.Çox-çox tövbə-istiğfar edin."

Qadınlardan biri:"Ya Rəsulallah!Bizə nə olub ki,Cəhənnəm əhlinin çoxu bizik."Peyğəmbər (s.ə.s.)buyurur:"Çünki çox qeybət və çox lənət edərsiniz. Ərlərinizə və bir-birinizə küfr(üsyan) edərsiniz."

SEYYİDİ İSRİĞFAR DUASI

"Allahummə əntə rabbi lə ilahə illə əntə xaləqtəni və ənə əbdukə və ənə alə əhdikə və və adikə məs`tətaətu əuzu bikə min şərri mə sanə`ətu əbu`uləkə biniəmətti kə ələyyə və əbuu bizənbi fəğfirli fəinnəhu lə yəğfiruz zunubə illə əntə birahmətikə yə ərhəmər rahimin."

Mənası:"Allahım!Sən mənim Rəbbimsən.Səndən başqa ibadətə la-

yiq heç bir kəs yoxdur.Ancaq Sən varsan!Məni Sən yaratdın. Şübhəsiz mən sənin qulunam.Gücüm yetdiyi qədər,Zatı Əcəlli, Sənə verdiyim sözdə durmağa çalışıram.Ya Rəbbi,etdiyim günahların şərindən sənə sığınıram.Mənə lütf və ehsan etdiyin nemətləri iqrar və etiraf edirəm,günahlarımı da etiraf edirəm.Ya Rəbbi! Mənim günahlarımı bağışla,Səndən başqa günahları bağışlayacaq, məğfirət edəcək,əfv edəcək kimsə yoxdur.”

HƏR NAMAZDAN SONRA OXUNACAQ DUA

“Əstəğfirullahəl əziməlləzi lə iləhə illə huvəl həyyəl qayyumə və ətubu ileyhi.”

Mənası:“Heyy və Qayyum olan və özündən başqa məbud olmayan Allahdan günahlarımın əfvini və bağışlanmasını istəyirəm. Bütün xəta və qüsurlardan Allaha tövbə və rucu edirəm”.

Tövbə duası:”Əstəğfirullahəl Azimə və ətubu ileyhi, Əstəğfirullahəl azimə və ətubu ileyhi.Əstəğfirullahil azimәl kərimәlləzi lə ilahə illə huvə.əl Heyyəl Qayyumə və ətubu ileyhi.təvbətə əbdin zalımin linəfsihi lə yəmliku linəfsihi məvtən və lə həyətən vələ nuşuran.Və nəs`əluhut təvbətə vəl məğfiratə vəl hidəyətə lənə innəhu huvət təvvəbur rahim. Amәntu billəhi və mələikətihi və kutubihi və rusulihi vəl yəvmil əxiri və bil qadəri xeyrihi və şərrihi minəllahi təalə vəl bəəsu bəədəl məvtə həvaun əşhədu ənlə iləhə illəllahu və əşhədu ənnə Muhəmmədən əbduhu və rəsuluh.”

Mənası:“Tövbə ya Rəbbi!Tövbə ya Rəbbi! Tövbə ya Rəbbi! Əgər mənim əlimdən, gözümdən, qulağımdan və digər əzalarımdan bilərək və ya bilməyərək kəlimeyi-küfr, şirk, üsyan, xəta baş verərsə, mən onların cümləsindən tövbə etdim,peşman oldum. Bir daha işləməmək əzmi ilə, Sənə söz verirəm. Peyğəmbərlərin əvvəlincisi olan Hz.Adəmdən,axırıncı iki cahan sərvəri Muhəmmədə (s.ə.s.) və hər ikisinin arasında,nə qədər Peyğəmbərlər olubsa hamısına inandım və iman etdim.Peyğəmbərimiz, Sənin tərəfindən hər nə gətirib xəbər verdisə hamısı haqdır və həqiqətdir.Dilim ilə iqrar, qəlbim ilə təsdiq edirəm.”

TÖVBƏ EDİB BELƏ DUA EDƏK

Ali İmran-191-194-O, kəslər ki, ayaq üstə,oturduğu yerdə, uzandığı halda Allahı zikr edərlər.Göylərin və yerin yaranmasında fikrə dalarlar və onlardan ibrət götürərlər və deyərlər:“Pərvərdigara bunları nahaq və

əbəs yerə yaratmamısan,Sən əbəs iş görməkdən paksan.Bizi Cəhənnəm odundan qoru.Pərvərdigara,Sən Cəhənnəm oduna daxil etdiyin kəsi, həqiqətən rüsvay edərsən,zalımlara heç bir kömək yoxdur.Pərvərdigara, biz nida edəni(peyğəmbəri)eşitdik.O, imana çağırıb: "Allahınıza iman gətirin"-deyərdi.Biz iman gətirdik Bizim böyük günahlarımızı bağışla. Kiçik günahlarımızın üstünü ört.Bizi öldürüb, yaxşı insanlarla məhşərə gətir. Pərvərdigara,öz Peyğəmbərlərinə vəd verdiklərini bizə də ver.Bu dünyada etdiyimiz əməllərə görə bizi qiyamətdə rüsvay etmə.Şübhəsiz Sən öz vədənə müxalif olmazsan.

DÜŞMƏNƏ QALİB GƏLMƏK VƏ PİSLİKLƏRDƏN QORUNMAQ ÜÇÜN DUA

Düşmənə qalib gəlmək üçün 50 dəfə oxunur.

1)Yə huvə yə mən huvə yə mən lə huvə illə huvə.

2)Summun bukmun umyun fəhum lə yərciun.

3)Rabbi ədxilni mudxələ sıdqin və əxricni muxracə sıdqın vəcəlli min lədunkə sultanən nəsıran.

4)Bismilləhir rahmənir rahim. "Ya Allahu ya Allahu ya Allahu ya Hənnənu ya Mənnənu ya Dəyyənu ya Ğufranu ya Sultanu ya Burhənu ya Mustəanu ya Kərimu ya Həyyu Qayyumu ya Muğişu ya Ğiyəsəl mustəğisinə əğsini yə mucibəl mud`tarrinə xallisi yə muciru əcirni bilutfikə və kəramikə bicəi səyyidinə Muhəmmədin əleyhis salətu vəssələm."

5)Allahummə mun`zilәl kitəbi və muc`riyəs səhəbi və həziməl əhzəbi ihzimhim vən`surnə aleyhim.

Mənası:-Ey kitabı endirən, buludları yeridən,orduları məğlubiyyətə uğradan Allahım!Onları məğlubiyyətə uğrat və bizi onlara qalib et."

"Ya Rafiu" ismi şərifini 70 dəfə oxumaq."Ya Qahharu" ismi şərifini

əl-Əhzab-9-Ey möminlər üstünüzə qoşun gələn zaman,Allahın sizə göndərdiyi nemətləri yada salın! Biz onlara qarşı yel və mələklərdən ibarət qoşun göndərdik ki,siz onları görmürdünüz. Allah etdiyiniz əməlləri görür.

NƏZƏR AYƏLƏRİ

Açıqlama:-İnsan hər bir gözəllik gördükdə,bu gözəlliyi Allahın yaratdığını düşünmədən"Nə qədər gözəldir"desə,onda Allahı və onun nemətlərini unutmuş olarıq.Əksinə bir gözəllik gördükdə "Maşaallah"-

desək,bu gözəlliyin Allah tərəfindən yaradılmasını təsdiq etmiş olaraq. Bu səbəbdən ”Maşaallah” və “İnşaallah” kəlmələrini işlətmək Uca Allaha yüksəlməyin açarlarıdır.

Gözəl bir şey gördükdə “Maşaallah” zikrini etmər üçün Qurani-Kərimdə buyurulur:

əl-Kəhv-38-39-Həqiqi olan Allah mənim Rəbbimdir və mən ona heç kəsi şərik tutmaram. Bağına girdiyi zaman”Maşaallah, Allahdan başqa qüvvət yoxdur”demək lazım deyildimi? Əgər mal və övlad cəhətdən mənim səndən kasıb olduğumu görürsənsə,nə üçün belə etmədin?

“İnşaallah”zikri ilə bir işə niyyət edilməsi,hər işin, hər şeyin Allahın nəzarətində olduğunu yada salmaqdır.Əgər Allah istərsə həqiqətən niyyət etdiyi işin baş verə bilməsinə inanmaq,insan üçün böyük bir şəfadır. “İnşaallah”zikrini etmək barədə Qurani-Kərimdə belə buyurulur:

-əl-Kəhv-23-24-Hər bir şey haqqında,Allahın istəyini nəzərə almadan: ”Sabah mütləq bu işi görəcəyəm”-demə!Çünki “inşallah” deməyən şəxs özünü hər işdə müstəqil hesab edər.”İnşaallah”deməyi unutduğun vaxt Allahı zikr et,”inşaallah”de!De,ümid var ki, Allahım məni hidayət etsin, mənə elə möcüzə versin ki,hidayətə daha çox yaxın olsun.

Nəzər, göz dəyməsi vardır.Qurani-Kərimin ayələrində və hədislərdə, nəzərdən Allaha sığınmağın gərəkliyi bildirilməkdədir. Hədisi şəriflər də:“Nəzər,göz dəyməsi haqdır(vardır)”-deyə bildirilmişdir.

NƏZƏR DƏYİB, YIXILAN ADAM BU DUANI OXUSUN

“Bismilləh:Allahumməzhub hərrahə və bərdəhə vəhəsəbəhə.”

Mənası: Allahın bərəkətli ismiylə.Allahım bunun gözünün kəskinliyini və təsirini yox et və bütün zərərlərini çürüdüb yox et!Verəcəyi və ya verdiyi zərəri qabaqla və tamamən təsirsiz hala gətir və yox et.

Sonra desin:“Biiznillahi” Allahın izni ilə qalx.

“Nəzər dəyməsinə qarşı Qurani-Kərimdə səkkiz dua vardır.Kim bu ayələri hər gün oxuyarsa, kimsənin nəzəri ona dəyməz.Bu surə və ayələr bunlardır:

əl-Fatihə surəsi, Ayətəl-Kürsi, İxlas, Fələk,Nas surələri.

əl-Fatihə-1-7-Bismilləhir-Rahmənir Rahim.Əlhəmdulilləhi rabbil ələmin. Ərrahmənir rahim. Məliki yovmiddin.İyyəkə nəbudu və iyyəkə nəstəin. İhdinəs sıratal mustəqim.Sıratal ləzinə ən`əmtə əleyhim ğeyril məğdubi əleyhim və ləddа`llin.

Mənası:Həmd olsun aləmlərin Pərvərdigarı olan Allaha.Həmd olsun Rəhman və Rəhim olan Allaha.Həmd olsun din,cəza gününün sahibi olan Allaha.Yalnız Sənə tapınırıq və yalnız Səndən yardım diləyirik. Bizi doğru yola hidayət et.Nemət verdiyin kimsələrin yoluna apar, qəzəbə düçar olanların,(haqdan) azanların yoluna yox!

əl-Bəqərə-255-Allahu lə iləhə illə huvəl həyyul qayyum.lə tə`xuzuhu sinətuv vələ nəvm ləhu,mə fis səməvati və mə fil ard. mənzəlləzi yəşfəu indəhu illə bi iznih yə`ələmu mə beynə eydihim vəmə xəlfəhum və lə yuhitunə bişeyim min ılmihi illə bimə şə`ə vəsiə kursiyyuhus səməvati vəl ard vələ yuduhu hifzuhumə vəhuvəl əliyyul əzim.Lə ikrahə fid`din qat təbəyyənərruşdu minəl ğəy fəmən yəkfur bittağuti və yumin billəhi fəqədistəmsəkə bil urvətil vusqa lənfisamə ləhə vəllahu səmiun əlim. Allahu vəliyyul ləzinə əmənu yuxricuhum minəz`zuluməti ilənnur vəlləzinə kəfəru əvliyəuhumut`tağutu yuxricunəhum minən nuri iləz`zulumət uləikə əshəbun`nərihum fihə xalidun.

Mənası:-Allah, ondan başqa Tanrı yoxdur.Diri və Qəyyumdur. O,nə mürgüləyər,nə də dərin yuxuya dalar.Göylərdə və yer üzündə hər nə var,onundur.Kim onun izni olmadan,onun yanında şəfaət edər? Önlərində və arxalarında olanı bilir və onun elminə,öz istədiyi şeydən başqa,heç nə əhatə edə bilməz.Onun kürsüsü göyləri və yeri ehtiva edir.Onları qorumaq ona çətin deyildir. O,ali rütbəli və çox böyükdür. Dində heç bir məcburiyyət yoxdur.Hidayət sapqınlıqdan aydın şəkildə ayrılmışdır.Beləcə kim tağutu danıb,Allaha iman gətirsə,elə bir möhkəm ipdən yapışmışdır ki,qırılması mümkün deyildir.Allah eşidən və biləndir.

əl-İxlas-1-3-Qul huvəllahu əhəd.Allahus saməd.ləm yəlid vələm yuləd.vələm yəkul ləhu kufuvən əhəd.

Mənası:-De:-"Odur vahid Allah".O Allah birdir,heç bir şəriki yoxdur. Allah heç kəsə,heç nəyə möhtac deyildir!O, nə doğmuş,nə də doğulmuşdur!Onun heç bir tayı bərabəri,bənzəri yoxdur!

əl-Fələq-1-5-Qul əuzu bi rabbil fələq.min şərri mə xaləq.vəmin şərri ğasiqin izə vəqab.vəmin şərrin nəffəsəti fil uqad.vəmin şərri həsidin izə həsəd.

Mənası:-De:"Səhəri işıqlandıran Pərvərdigara sığınıram.Yaratdıqlarının şərindən və qaranlığın şərindən,onda ki, örtər.Və düyünlərə ovsun üfürən cadugarların şərindən və bir də paxılın şərindən."

ən-Nas-1-6-Qul əuzu birabbin nəs.məlikin nəs.iləhin nəs. Min şərril vəs`vəsil xannəs.əlləzi yuvəsvisu fi sudurin nəs.minəl cinnəti vən nəs.

Mənası:-Ya Peyğəmbər!De ki:"Pənah aparıram insanların Rəbbinə! İnsanların ixtiyar sahibinə;İnsanların tanrısına.Vəsvəsə verən, (Allahın adı çəkiləndə isə qorxudan) qaçıb gizlənən Şeytanın şərindən.O Şeytan ki cinlərdən də olur,insanlardan da!"

Yusif-67-və qalə yə bəniyyə lə tədxulu min bəbin vahidin vəd xulu min əbvabim mutəfərriqah,və mə uğni ənkum minəllahi min şeyin inil hukmu illə lilləhi əleyhi təvəkkəltu və əleyhi fəl yətəvəkkəlil mutəvəkkəlun.

Mənası:Söylədi:"Ey mənim oğlanlarım,bir darvazadan içəri keçməyin, müxtəlif qapılardan içəri girin.Mən artıq Allahın qəzasını sizdən iraq edə bilmərəm və Allahın hökmündən başqa hökm yoxdur. Mən ona təvəkkül etdim və təvəkkül edənlər yalnız ona təvəkkül edərlər.

əl-Qələm -51-52-və in yəkədulləzinə kəfəru lə yuzliqunəkə bi əbsarihim ləmmə səmiuz zikra və yəqulunə innəhu lə məcnunə və mə huvə illə zikrun lil ələmin.

Mənası:Həqiqətən, kafirlər Quranı eşıtdikləri zaman sənə qarşı olan həsədlərindən və qəzəblərindən, az qala səni gözləri ilə yeyələr.Onlar sənin barəndə:"O divanədir!"deyirlər.

Dua:Bismilləhir:Allahumməz həb hərrahə və bərdəhə və həbəsəhə.

Mənası:-"Biiznillahi-təala"-Allahın izni ilə qalx "desin.

Açıqlama:-Nəzər-göz dəymə haqdır.Ayətlərdə və hədislərdə də, nəzərdən Allaha sığınmaq lazım olduğu bildirilməkdədir.

Hədis:Nəzər haqqında Peyğəmbərimiz belə buyurmuşdur:-Nəzər,yəni göz dəyməsi dəvəni təncərəyə,insanı da məzara soxar."

Başqa bir hədis də isə belə buyrulur:-"Ümmətin çoxunun ölümü nəzərdən, göz dəyməsindəndir."

Hədis:-Peyğəmbər(s.ə.s.)buyurur ki,bu iki sözü:-inşaallah və maşaallahı zikr edənlər,dərin bir Allah eşqinə və kamil imana sahib olarlar.

1.Hər bir kəs bir iş görmək istədiyi zaman"İnşaallah"deməlidir.

2.İnsanlar üçün inşaallah deməkdən daha fəzilətli itaətçilik yoxdur.

Hədis:-İnşaallahın çox deyilməsi,imanı gözəlləşdirər.(İsmail Haqqı Bursəvi,"Şiadul İman")

ƏSƏBLƏŞƏN ANDA OXUNAN DUA

Allahummərğfirli zənbi və əzhib ğeyza qalbi və əcirni minəş şeytan.

Mənası:-Allahım günahımı əfv et,qəlbimdəki qəzəbi çıxar və məni şeytandan qoru.

GECƏ YATA BİLMƏYƏN KƏS ÜÇÜN DUA

Allahummə ğaratin nucumu və hədə`ətil uyubu və əntə həyyu qayyumu lə tə`xuzuhu sinətun vələ nəvmun yə həyyu yə qayyumu əhdi leyli və ənim əyni.

Mənası:-Allahım!Ulduzlar doğmuş,gözlər oyaq, halbu ki sən Həyy və Qəyyumsan.Uca Allahı heç vaxt mürgü və yuxu tutmaz.Ey əbədi və əzəli olan Allahım!Gecəmi sakit keçir,gözlərimi yatırt.

Sıxıntı və kədərli anında

1.Lə iləhə illəllahul azimul halim.Lə iləhə illəllahu Rabbussəməvati və Rabbul ardi və Rabbul arşıl kərim.

Mənası:-Allahdan başqa heç bir Allah yoxdur.Ancaq əzim, həlim olan Allah vardır.Allahdan başqa heç bir Allah yoxdur.Yalnız ərşi-əzəmin sahibi Allah vardır.

2.Lə İləhə illə əntə subhanəkə inni kuntu minəz zalımın.

əl-Kəhf surəsinin ilk 2 ayəsi və son 10 ayəsini oxumaq çətinlik və narahatlıqları dəf edər.

"Huvəl Hafizi vəl kafi vəhdəh" zikrini,əl-İxlas,əl-Nas,əl-Fələq surələrini oxumaq.

"Ya Həyyu,Ya Qəyyum,La İlahə illə əntə əs`əlukə ən tuhyiyə qalbi Əllahummə Sallı alə Muhəmmədin və ali Muhəmməd" duasını 3 dəfə oxumaq.

ŞƏFA AYƏLƏRİ

1-ci-Və Yəşfi sudura qov`min mu`minin**.(Tovbə-41)-**Möminlərin ürəyini sərinlədər.

2-ci-Və şifaun limə fissuduri və hudən və rahmətun lil muminin**.(Yunus-57)-**

-Ürəyinizdə olan xəstəlik üçün dərman və möminlər üçün göstəriş və rəhmət gəldi.

3-cü-fihi şifəun linnəsi innə fi zəlikə lə əyətən li qovmin yətəfəkkərun**. (Nəhl-69)**

-Allaha təvəkkül edən qövmlər üçün meyvələrdən cürbəcür içkilər alınar ki, onların əlacları bu içkilərdədir.

4-cü-və nu nəzzilu minəl Qurani mə huvə şifəun və rahmətun lil mu`minin.

(İsra-82)-Və bu Quranla möminlərə şəfa və rəhmət olan şeyi nazil etdik.

5-ci-Və izə məridtu fəhuvə yəşfin**.(Şüəra-80)-**Və xəstə olanda məni toxdadır.

6-cı-Qul huvəl ləzinə əmənu hudən və şifəun.(**Fussilət-44)-**

-De:"Bu kitab iman gətirənlər üçün doğru yolu göstərir və şəfadır."

Dua:-Peyğəmbərimiz(s.ə.s.)Həsən və Hüseyn xəstələndikdə bu duanı oxuyaraq deyərdi:"Babaniz İbrahim övladları İsmail və İshaq üçün bu duanı oxuyaraq bütün pisliklərdən Allaha sığınardı."Əuzu bi kəlimətilləhit təmməti min şərri şeytanin və həmmətin və min kulli əynin ləmmətin.

Mənası:-Bütün, zərər verən gözdən, zərərli və zəhərli həşərat-lardan və şeytandan Allaha sığınıram.

Peyğəmbərimizdən buyurulur ki,bir xəstəyə:"Bismillahi, turbətu ardinə, birikati bə`dinə,yuşfəsəkimənə, biizni Rabbinə,"-deyə dua etsin.

Mənası:"Allahın adıyla, yerdəki torpağı, birimizin oxuduğu dua və Rəbbimizin izniylə bu xəstəyə şəfa ver,"-deyərək ,möhürün torpağını su ilə qarışdırıb,şəfa dualarını da bura oxuyub üfürərək xəstənin əsas sinir nöqtələri sürtülsə,xəstə şəfa tapar**.(Səhihi-Buhari.s.607)**

Hədis:-Peyğəmbərimiz belə buyururdu:Kimin bir ağrıyan yeri olsa sağ əlini o ağrıyan yerin üzərinə qoyub bu duanı yeddi dəfə oxusunlar:-

"Bismilləhi əuzu bi izzətullahi və qudratihi min şərri mə əcidu və uhəziru."

Mənası:-Bismillah.Başıma gələn bu ağrının şərrindən, zərər və təhlükəsindən Allahın izzət və qüdrətinə sığınıram.

Peyğəmbərimiz buyurur:-Xəstə yatdığı yerdən bu duanı oxuyarsa,Cənnətlə müjdələnər.Özü oxuya bilməsə kimsə yanında səslə bu duanı oxusun.

La ilahə illəllahu vallahu əkbər,

La ilahə illəllahu vəhdəhu la şərikə ləh.

La ilahə illəllahu ləhul mülkü və ləhul həmd.

La iləhə illəllahu vəla həvlə vəla qüvvətə illə billəhil aliyyil azim.

Şəkər xəstələri üçün dua

Əsr surəsini 7 dəfə bir qab suya oxuyub içmək lazımdır.

Qorxu duası

Ali-İmran-18-Allah şahiddir ki, ibadətə layiq özündən başqa bir məbud yoxdur. Mələklər və elm sahibləri də şahid oldular.Allah ədalətlidir və ondan başqa bir məbud yoxdur.Elə bir Allah ki, qalib və həkimdir.

Dua:"Əuzu bi kəlimətilləhit təmməti min ğədəbihi və ıqabihi və şərri ibədihi və min şərri həməzətiş şəyətini və ən yəhdurun."

Mənası:-"Allahın qəzəbindən və əzabından,yaratdıqlarının və insanların şərrindən, şeytanların vəsvəsə və aldatmasından və şeytanın yanıma gəlməsindən,mənim ətrafımda hazır olmasından,Allahın tam olan kəlmələrinə sığınıram."

Mizanda ağır gələn təsbih

"Sübhanallahi və bihəmdihi subhanallahil əzim"-Bu zikri sübh namazından sonra 101 dəfə oxunub dua edilir və bu zikr ruzini artırır.

UNUTQANLIQ ÜÇÜN DUA

Bu duanı çox oxumaq yaddaş üçün xeyirlidir:-"Və qul rabbi ilmən, fikrən, zikrən daimə."

əl-Bəqərə surəsinin 286-cı ayəsi, əl-Bələd surəsi,əı-Ənam surəsinin 61-ci ayəsi,əl-Əla surələrini oxumaq yaddaş üçün xeyirlidir.

Yeməkdən əvvəl 21 dəfə"Ya Razzəq" ismi şərifini oxumaq zehni açır.

HACƏT ÜÇÜN

əd-Duxan surəsi 1-9-cu ayəyə qədər,Şaban ayının 14-cü gecəsi 30 dəfə salavat deyərək ,25 dəfə bu ayələri oxumaq hacət üçün xeyirlidir. əl-İsra surəsini 7 dəfə, Hud surəsini 13 dəfə oxumaq.

Xeyirli aqibət üçün

Namazdan sonra oxunan dualardandır:"Allahummə inni əs`ələukə husnəl hatiməti vəl xeyral aqibəti vəl əfinə"

Ailə sıxıntılarına qarşı

3-İxlas və Fatihədən sonra sabah və axşam, 7 dəfə bu duanı oxuyan kimsənin evində həmişə mehribanlıq olar:-"Həsbiyallahu lə iləhə illə huvə təvəkkəltu və huvə rabbul Ərşil Əzim."

Günün xeyirli və təklükəsiz keçməsi üçün

Evdən çıxarkən:"Təvəkkəltu aləllahi vəla qüvvətə illə billəhil aliyyil azim" oxunur və 7 dəfə Ayətəl kürsü oxunaraq, Allaha sığınmaq.

Dua-Allahummə inni ə`uzu bikə minəl həmmi vəl həzəni və ə`uzu bikə minəl əczi vəl kəsəli və əuzu bikə minəl cubni vəl buxli və ə`uzu bikə min ğələbətid deyni və qahrir ricəl.

Mənası:-Ey Allahım!Ələm və kədərdən,çaşqınlıqdan sənə sığınıram. Acizlikdən,tənbəllikdən,bitkinlikdən sənə sığınıram.Allahım borc altında əzilməkdən, adamların qəhrindən və onlara məğlub olmaqdan sənə sığınıram.

EVDƏN ÇIXARKƏN OXUNAN DUA

Dua: Bismilləhi.Təvəkkəltu ələllahi.Allahummə innə nəuzu bikə mi ən nuzillə əv nəz`limə əv nuz`limə əv nəchələ əv yuchələ əleynə.

Mənası:Allahım adınla çıxıram! Allahım ancaq Sənə güvənirəm! Allahım xətaya düşməkdən,əyri yola girməkdən,başqasına haqqsızlıq etməkdən və haqsızlığa uğramaqdan, cahillik etməkdən və cahilliyə məruz qalmaqdan Sənə sığınıram. əl-Bəqərə surəsi 155-ci ayəni oxumaq.

QƏBİR ƏZABINDAN QURTARMAQ ÜÇÜN

Bu dua hər namazdan sonra oxunmalıdır:"Allahummə inni əuzu bikə min azəbin finnəri və əzabin fil qabri"

Mənası: Allahım! Atəş içində və qəbrdə əzaba uğramaqdan Sənə sığınıram.

RUZİ AYƏLƏRİ

Hədis: Peyğəmbərimiz bu dua haqqında belə buyurur:-"Bu duanı oxuyan kimsənin dağlar qədər belə böyük borcu olsa,onu ödər və sonunda borc dərdindən qurtarar, fərəhə çatar."

Oxunacaq dua belədir:-Allahummə buhələlikə ən həramikə və əğnini bifədlikə əmmən sivəkə.

Mənası:"Ey Allahım, halal ruzini yetərli et və məni haramlardan qoru.Və lütfinlə mərhəmətinlə məni başqalarına möhtac olmaqdan qoru."

Ali İmran- 26-27-Allahummə məlikəl mulki tuəti mulkə mən təşəu və tənziul mulkə mimmən təşəu və tuizzu mən təşəu və tuzillu mən təşəu biyədikəl xeyru innəkə ələ kulli şeyin qadir. tulicul leylə fin nəhəra və tulicun nəhəra fil leyli, və tuxricul heyyə minəl meyyiti və tuxricul meyyitə minəl heyyi və tərzuqu mən təşəu biğeyri hisabin.

Mənası:-De ki,"Ya Allah mülk sahibi sənsən,istədiyin kimsəyə mülk verərsən, istədiyin kimsədən mülkü alarsan.İstədiyin kimsəni ucaldar, istədiyin kimsəni alçaldarsan.Bu yaxşılıqlar sənin əlindədir, Sən hər işə qadirsən.Gecədən azaldıb,gündüzə artırarsan, gündüzdən azaldıb gecəyə artırarsan.Dirini ölüdən çıxararsan və ölünü də diridən.Sən istədiyin kimsəyə hesabsız ruzi verənsən."

Ali İmran-73-De ki:"Fəzilət,ehsan, lütf, Allahın əlindədir. İstədiyi

kimsəyə onu verər.”

Ali-İmran-171-Onlara Allahın nemət və fəzilətinin (lütf və ehsanının) muştuluğunu verirlər.Allah möminlərin mükafatını boşa çıxarmaz.

əl-Hicr-19-20-Biz yeri genişləndirdik və orada böyük dağlar saldıq. Və hər şeydən qayda üzrə orada bitirdik.Sizin və siz ruzilərini verməyən insanların dolanışığını genişləndirdik.

Səba- 39- De:“Mənim Allahımdır ki, hər kəsin ruzisini istəsə bol edər və istədiyini daraldar.Əgər bir şeyi nifaq etsəniz əvəzini verəcək və o, ruzi verənlərin ən yaxşısıdır”.

əl-Qədr surəsini 360 dəfə oxumaq.əl-Adiyat surəsini 110 dəfə oxumaq.ət-Tələq surəsinin 2 və 3-cü ayələrini oxumaq ruzini artırar. Məryəm surəsini 7 dəfə oxumaq.

Namazdan sonra 18 dəfə “Ya Həyyu”ismi şərifini zikr etmək. “Ya Məlik”ismi şərifini 120 dəfə zikr etmək.

BOLLUQ VƏ BƏRƏKƏT DUASI

Hədis:Peyğəmbərimiz buyurur:-Allahummə innə ibrahimə kənə əbdəkə və xaliləkə dəakə lı əhli məkkətə bil bərakəti və ənə muhəmmədun əbdəkə və rasuləkə əd`ukə li əhlil mədinəti in tubərikə ləhum fi muddihim və vəsaihim mislə mə bəraktə li əhli məkkətə məal bərakəti bərakəteyni.

Mənası:-Peyğəmbərimiz (s.ə.s.)buyurur:-Allahım!Heç şubhəsiz ki, İbrahim Peyğəmbər seçilmiş qulun və yaxın dostundur.Ona görə də Məkkəlilərin(oğlu İsmail üçün) bolluq içərisində yaşaması üçün etdiyi duanı qəbul etdin.Mən də sənin seçkin qulun və son elçin olaraq sənə yalvarıram.Nə olar, Mədinəlilərə də bərəkət və bolluq bəxş et, bitki və məhsullarının bərəkətini artırıb iki qat et.

Hədis:-Peyğəmbərimiz (s.ə.s.) belə buyurmuşdur:Hər kim gündə 100 dəfə:“Lə iləhə illəlləhul Məlikul Haqqul Mubin”-zikrini deyərsə o kimsə üçün fağırlıqdan, yoxsulluqdan qurtarmaq bir əminlik və güvənc olar.Eyni zamanda qəbir vəhşətində və yalqızlığında onun üçün ən yaxşı yoldaş olar.”

əl-Huməzə surəsini oxumaq bol ruzi üçün xeyirlidir.

”Ya Mütəkkəbir”ismi şərifini zikr etmək.

Malının,övladının xeyirli olmasını istəyən şəxs gündə 10 dəfə “Əstəğfurullahə ənnəhu kanə Ğəffəra” zikrini etməlidir.

MƏHƏBBƏT AYƏLƏRI

əl-Bəqərə-74-Bundan sonra qəlbləriniz daş kimi bərkidi, hətta daşdan da bərk oldu.Çünki bəzən daşlardan bulaqlar axar,elələri də vardır ki,yarılanda ondan sular çıxar və Allahın qorxusundan aşağıya axar.Allah etdiklərinizdən xəbərsiz deyil.

əl-Bəqərə-156-Müsibətə məruz qaldıqları zaman"Allahdanıq və ona tərəf geri dönəcəyik"deyənlərə bəşarət ver.

Ali-İmran-14-Nəfsin istəklərinə;məhəbbət, qadınlara və uşaqlara sevgi, yığın-yığın yığılmış qızıl və gümüş,cins atlar ilə heyvanlar və əkinlər insanların gözündə gözəl göstərilmişdir.Bunların hamısı dünya həyatının əmtəəsidir.Halbuki, geri dönüləcək yaxşı yer Allahın yanındadır.

Ali İmran -31-De ki:"Əgər Allahı sevirsinizsə, mənə tabe olun ki, O da sizi sevib,günahlarınızı bağışlasın.Allah bağışlayan və rəhimlidir."

Ali-İmran-159-Allahın rəhmətinə görədir ki, sən onlarla bu qədər yumşaq davranan və mehribansan.Əgər sərt və daş ürəkli olsaydın,onlar dövrəndən dağılıb gedərdilər.Buna görə onları bağışla və onlara bağışlanma dilə,müəyyən işlərdə onlarla danış, məsləhət elə.Bir iş görmək istəyəndə Allaha təvəkkül elə, Çünki Allah təvəkkül eyləyənləri sevir.

ən-Nisa-13-Bunlar Allahın həddləri,əhkamıdır.Kim Allah və Peyğəmbərinə itaət etsə, onu içərisində çaylar axan Cənnətlərə aparar və həmişəlik orada qalar.Bu böyük bəxtiyarlıqdır.

əl-Maidə-55-Onlar möminlərin qarşısında təvəzökar və kafirlər qarşısında başı uca və güclüdürlər.

Taha-39-40-Sənə məhəbbət bəslədik ki, bizim gözümüz altında böyüyəsən.

Yasin-79-De ki:"Onları ilk dəfə yaradan dirildəcək" O,hər şeyi yaratmağa qadirdir.

BƏXT-TALE AÇILMASI ÜÇÜN DUA

əl-Əhzaq və **Məryəm** surələrini oxumaq xeyirlidir.

Qurandaki dua ayələri

əl-Bəqərə-32-Mələklər dedilər:"Pərvərdigara,Sən bütün nöqsanlardan paksan.Bizə öyrətdiyindən savayı bizim elmimiz yoxdur. Həqiqətən,Sən hər şeyə Alim və hər şeyi hikmətlə xəlq edənsən."

əl-Bəqərə 127-128-İbrahim və İsmail Beytin bünövrəsini ucaldan zaman dedilər:"Ey Rəbbimiz bizdən bunu qəbul et! Həqiqətən, Sən da-

ima eşidən və bizim niyyətlərimizdən xəbərdarsan.

Pərvərdigara,bizim hər ikimizi müsəlman və sənin əmrinə itaətkar et! Bizim övladlarımızdan yalnız Sənə boyun əyən insanlar vücuda gətir, bizlərə ibadətlərimizin yollarını göstər, tövbə etdikcə bizə rəhmətinlə bax.Tövbəni çox qəbul edən və bağışlayan, yalnız Sənsən."

əl-Bəqərə-201-İnsanlardan bəziləri deyərlər:"Pərvərdigara bizə dünyada sağlamlıq, əmin-amanlıq, kifayət qədər məişətdən ibarət olan həsənə və axirətdə də rəhmət və behiştdən ibarət olan həsənə ver.Bizi Cəhənnəm odunun əzabından qoru."

əl-Bəqərə-250-Dedilər:"Ey Rəbbimiz! Bizə çətinliklərə dözüm gücü bağışla,addımlarımızı sağlam et və həqiqəti inkar edən topluma qarşı bizə yardım et."

əl-Bəqərə-255-Allah, ondan başqa Tanrı yoxdur.Diri və Qəyyumdur. O nə mürgüləyər, nə də dərin yuxuya dalar.Göylərdə və yer üzündə hər nə var, onundur. Kim onun izni olmadan,onun yanında şəfaət edər? Önlərində və arxalarında olanı bilir və onun elminə, öz istədiyi şeydən başqa, heç nə əhatə edə bilməz.Onun kürsüsü, göyləri və yeri ehtiva edir.Onları qorumaq ona çətin deyildir.O ali rütbəli və çox böyükdür.Dində heç bir məcburiyyət yoxdur.Hidayət, sapqınlıqdan aydın şəkildə ayrılmışdır. Beləcə kim tağutu danıb,Allaha iman gətirsə,elə bir möhkəm ipdən yapışmışdır ki,qırılması mümkün deyildir.Allah eşidən və biləndir.

əl-Bəqərə-286- Allah yalnız gücü, taqət miqdarında təklif edər. Nəfsin qazandığı xeyir də, şər də özü üçün xeyirli və zərərlidir. Peyğəmbər dedi:"Allah buyurdu ki,bu cür dua edin:"Pərvərdigara, əgər unutsaq, ya səhv etsək bizi cəzalandırma. Pərvərdigara,bizdən əvvəlki kəslərə təklif etdiyin kimi,ağır təklifləri bizim boynumuza qoyma. Pərvərdigara,gücümüz çatmayan ağır təklifləri bizim öhdəmizə vermə.Bizim günahımızdan keç,bizi bağışla,bizə rəhm et.Bizim ağamız sənsən.Kafirlərə qarşı bizə kömək et!"

Ali-İmran-8-9-Pərvərdigara!Hidayət edəndən sonra bizim qəlbimizi, zəlalətə tərəf yönəltmə!Öz tərəfindən bizə rəhmət bağışla.Həqiqətən, sən çox bəxşiş verənsən.Ey Rəbbim,"Sən hesab-kitab üçün insanları, şübhə olmayan bir gündə toplayansan."Allah öz vədinə xilaf etməz.

Ali-İmran-16-17-"Ey Rəbbimiz, biz iman gətirdik, günahlarımızı bağışla və bizi od əzabından qoru"-deyənlər, səbirlilər, düzgünlər, baş əyənlər,təqvalılar, nifaq edənlər və səhər çağında bağışlanma diləyənlərdirlər.

Ali-İmran-23-"Ey Rəbbimiz, biz Sənin nazil etdiklərinə iman gətirdik

və Peyğəmbərlərə tabe olduq.Bizi şəhadət verənlər sırasına yaz”

Ali-İmran-26-27-De ki:“Ya Allah, mülk sahibi Sənsən,istədiyin kimsəyə mülk verərsən, istədiyin kimsədən mülk alarsan.İstədiyin kimsəni ucaldar, istədiyin kimsəni alçaldarsan. Bu yaxşılıqlar Sənin əlindədir, Sən hər işə qadirsən.Gecədən azaldıb, gündüzə artırarsan,gündüzdən azaldıb gecəyə artırarsan.Dirini ölüdən çıxararsan və ölünü də diridən.Sən istədiyin kimsəyə hesabsız ruzi verənsən.”

Ali-İmran-147-Onların səbirliləri, sözləri yalnız:”Ey Rəbbimiz günahlarımızı və işlərdə həddimizi aşmağımızı bağışla.Addımlarımızı sabitləşdir və kafirlər qarşısında bizə yardım et.”

Ali-İmran-193-194-Ey Rəbbimiz, biz,nida edən Peyğəmbəri eşitdik.O imana çağırıb:”Allaha iman gətirin!”-deyirdi.Biz iman gətirdik.Bizim böyük günahlarımızı bağışla.Kiçik günahlarımızın üstünü ört. Bizi öldürüb yaxşı insanlar ilə məhşərə gətir. O, Peyğəmbərlərə vəd etdilkərini bizə də ver.Bizi qiyamət günündə rüsvay etmə.Şübhəsiz sən vədinə müxalif etməzsən.Ey Rəbbimiz! Peyğəmbərlərin dilindən bizə vəd etdiyin şeyi bizə ver və bizi Qiyamət günündə rüsvay etmə. Çünki Sən vədindən dönməzsən.

ət-Tovbə-51-De ki,Allahın bizim üçün yazdığından başqa bizə heç bir müsibət yetişməyəcək.O bizim mövlamızdır və möminlər Allaha təvəkkül edərlər.

əl-Möminun-109-Bəli,mənim bəndələrimin bir bölümü söyləyirdilər: ”Ey Rəbbimiz!Biz iman gətirdik,bizi bağışla və bizə rəhmət yağdır ki, sən ən yaxşı rəhmət qılansan!

ət-Tovbə-128-De ki:“Allah mənim üçün kifayətdir.Ondan başqa Allah yoxdur.Ona təvəkkül etdim və böyük ərşin Rəbbi odur.”

əl-Furqan-74- Onlar deyərlər:“Ey Rəbbimiz! Övladlarımız və həyat yoldaşlarımızla bizim könüllərimizi şad et və bizi möminlərin imamı qıl.”

əl-İsra -80-81-Söylə:“Ey mənim Allahım, məni sidq və doğruluqla içəri keçirt və sidq və doğruluqla dişara çıxart və mənə öz tərəfindən qələbə və yardım bağışla.Haqq gəldi və batil məhv oldu”.

əl-Fatir-34-Deyərlər:“Şükür olsun Allaha ki, bizdən qüssəni uzaq eylədi,ona görə ki,bizim Pərvərdigarımız bağışlayan və şüküri qəbul edəndir.”

əl-Muninun-118-Ya Peyğəmbər! De ki:”Eymənim Pərvərdigarım! Məni bağışla və mənə rəhm et! Rəhm edənlərin ən yaxsısı Sənsən!”

əl-Mumin-61-Sizin Allahınız buyurdu ki,mənə dua edin, Məni çağırın ki,sizin duanızı qəbul edim.Şübhəsiz ki, mənə ibadət və dua

etməyərək təkəbbürlük edən kəslər tezliklə zəlil olan halda Cəhənnəmə daxil olarlar.

Başqa bir dua:-Aşağıda qeyd etdiyimiz bu dua haqqında sevgili Peyğəmbərimiz belə buyurmuşdur:"Kim ki, səhər açılan kimi bu duanı oxusa,axşama qədər ona heç bir müsibət, ziyan gəlməz. Axşamlar bu duanı oxusa, sabaha qədər heç bir müsibət gəlməz."

Həmin dua budur:-Allahummə əntə rabbi lə iləhə illə əntə əleykə təvəkkəltu və əntə rabbul ərşil əzim.məşəallahu kənə və mələm yəşə`ləm yəkun lə həvlə vələ quvvətə illə billəhil əliyyil əzim.ə`ələmu ənnəllahə ələ kulli şey`in qadir.və ənnəllahə qad əhəta bi kulli şeyin ilmən.Allahummə inni əuzu bikə min şərri nəfsi və min kulli dəbbətin əntə əxizun binəsıyətihə innə rabbi ələ sıratım müstəqim.

Mənasi:Allahım Sən mənim Rəbbimsən.Səndən başqa Allah yoxdur. Ancaq Sən varsan. Allahım Sənə təvəkkül etdim,sənə dayandım,sənə güvəndim.Sən Ərşi Əzimin sahibisən.Allahın dilədiyi olur, diləmədiyi isə əsla olmaz.İbadətlərə güc yetirmək və pisliklərdən qorunmaq ancaq uca və böyük Allahın qüvvət və qüdrəti ilədir.Bilirik ki, Allah hər şeyə qadirdir. Həqiqətən Allah, Öz elmi ilə hər şeyi yaratmışdır. Allahım!Öz nəfsimin şərrindən və qüdrət əli ilə yaratdığın bütün canlıların şərrindən Sənə sığınıram. Gerçək ki, mənim Rəbbim doğru-haqq ilə hökm edəndir.

SABAH –AXŞAM OXUNACAQ DUALAR

Peyğəmbərimiz hədisi şəriflərində belə buyurur:"Kim səhər tezdən üç dəfə:

-"Əuzu billəhis səmiil əlimi minəş şeytanir racim"-Mənası:"Allahın rəhmətindən qovulmuş şeytandan,eşidən və bilən Allaha sığınıram."-deyərək, Həşr surəsinin son üç ayəsini oxusa, Allah ona axşama qədər yetmiş min mələyi, salavat gətirmək və istiğfar etmək üçün, ona müvəkkil edər.O gündə öləcək olursa, şəhid olaraq ölər, yəni şəhidlik savabına yaxın bir savab qazanar."

Bu duanı(Huvəllahulləzi) ərşi- şərifi, sabah və axşam namazlarında oxumaq çox faydalıdır.

əl-Həşr-21-24-Ləv ənzəlnə həzəl quranə alə cəbəlil ləraəytəhu xaşiəm mutəsəddiən min xaşyətilləhi vətilkəl əmsəlu nədribuhə linnəsi ləəlləhum yətəfəkkərun. Huvəllahulləzi lə iləhə illə hu. əlimul ğeybi vəşşəhədəh. huvər-rahmənur rahim.Huvəllahulləzi lə iləhə illə huvəl məlikul quddusus sələmul muheyminul əzizul cəbbərul mütəkəbbir. subhənəllahu əmmə yuşrikun.Huvəllahul xaliqul bəriul musavviru

ləhul əsmaul husnə, yusəbbihu ləhu mə fissəməvati vəl ard. vəhuvəl əzizul həkim.

Mənası:Əgər biz bu Quranı dağa nazil etsəydik.Allahın xofundan dağı əyilmiş, parçalanmış görərdin.Bu insanlar üçün gətirdiyimiz misallardır ki, bu haqda düşünsünlər.Odur yeganə Allah. Ondan başqa bir məbud yoxdur.Gizli və aydını bilən, Rəhmandır (dünyada bütün bəndələrinə mərhəmət edəndir) və Rəhimdir (axirətdə yalnız muminlərə mərhəmət edəndir).Odur yeganə Allah, ondan başqa heç bir Allah yoxdur.Məlikdir (Mülkü və səltənəti daimi olandır),Qüddusdur (bütün nöqsan və səhvlərdən uzaqdır), Salamdır (bütün afət və kədərlərdən uzaqdır), Mumindir (əmniyyət verəndir), Muheymindir (hər şeyi gözləyib, qoruyandır),

Əzizdir (hər şeyə qalibdir),Cəbbardır (qullarının hallarını və ehtiyaclarını düzəldəndir).Varlığı çox ucadır.Mütəkəbbirdir (əzəmət və yaxşılıq sahibidir),Allah müşriklərin ona qoşduğu adlardan Münəzzəhdir.

Odur yeganə Allah ki, Haqdır (hər şeyi yaradıb,nəzarət edəndir), Bəridir (yoxdan var edəndir), Musavvirdir (bütün varlıqlara şəkil verəndir), Əsməul-hüsnalar, gözəl isimlər, Onundur. Bütün göylərdə və yerdə olanlar, hey onu təsdiq edir.O,Əzizdir (hər şeyə qalib və hər kamala sahibdir),Həkimdir (hikmət sahibidir).

Açıqlama:-Qeyd edildiyi kimi Bəqərə surəsinin-285 və 286-ci ayələri Peyğəmbərimizə Cəbrail (ə.s.) vasitəsi ilə deyil, Peyğəmbərimiz (s.ə.s.) Meracda olarkən Allah-taala tərəfindən vəhy edilmişdir.

Bu ayələr haqqında Peyğəmbərimizdən belə hədis buyurulur:-"Allah-taala Bəqərə surəsini tamamlamaq üçün, bu iki ayəni,Ərşi-Əlasının altındakı bir xəzinədən mənə verdi."

Peyğəmbərimiz əlavə olaraq buyurdu:"Bu iki ayəni öyrənin, ailə və uşaqlarınıza da öyrədib, əzbərlədin.Çünki bu iki ayə Rəhmətdir, həm Qurandır, həm də ki, duadır."

Bu iki ayənin mənəvi bərəkəti çox böyükdür.

Müslüm və Tirmizinin rəvayət etdiyinə görə,Peyğəmbər (s.ə.s.) bu ayətlərlə dua etdiyi zaman Allah-taala tərəfindən"Duanı qəbul etdim"buyurulduğu qeyd edilmişdir.

Həmçinin belə rəvayət olunur ki,Hz.Cəbrailda bu dua oxunub qurtardıqdan sonra "Amin-Ya Rəbbi, qəbul buyur" deməsini Peyğəmbərimizə söyləmişdi.

əl-Bəqərə-286-a-mənər rasulu bimə un`zilə ileyhi mirrabbihi vəl muminun, kullun ə-mənə billəhi və mələikətihi və kutubihi və rusuluhu lə nufərriqi beynə əhədim mirrusuluh, və qalu səmi`ənə və ətəə`nə

ğufranəkə rabbənə və ileykəl məsır.Lə yukəllifullahu nəfsən illə vusəhə ləhə mə kəsəbət və əley`hə məktəsəbət rabbənə lə tuə`xiznə in nəsinə əv əxta`nə,rabbənə və lə təhmil əleynə ısran kəmə həməltəhu ələlləzinə min qablinə, rabbənə və lə tuhəmmil`nə mə lə taqata lənə bih, və əfu ənnə vəğfir lənə vər`həmnə əntə movlənə fənsurnə ələl qovmil kəfirin.

Mənası-Allah-taala Merac gecəsi buyurdu:"Allah yalnız gücü, taqəti miqdarında təklif edər.Nəfsin qazandığı xeyir də,şər də özü üçün xeyirli və zərərlidir." Peyğəmbər dedi:Allah-taala buyurdu ki, bu cür dua edin:"Pərvərdigara, əgər unutsaq, ya səhv etsək bizi cəzalandırma. Pərvərdigara, bizdən əvvəlki kəslərə təklif etdiyin kimi, ağır təklifləri bizim boynumuza qoyma.Pərvərdigara,gücümüz çatmayan ağır təklifləri bizim öhdəmizə vermə. Bizim günahımızdan keç, bizi bağışla, bizə rəhm et.Bizim ağamız sənsən. Kafirlərə qarşı bizə kömək et.

DÖRD DÜŞMƏNDƏN QORUNMA DUASI

"Allahummə inni əuzu bikə min ğələbətid-deyni və ğələbətil əduvvi və şəmətətil ə`dai."

Mənası:-Allahım borcun qələbəsindən(artmasından),düşmənın qələbəsindən, şəmatətindən sənə sığınıram.

Dörd nemət istə

"Allahumməğfiril vər həmni verzuqni."

Mənası-Allahım! Günahlarımı bağışla,məni əfv et,dünya və axirətdə mənə acı, mənə mərhəmət eylə, doğru yolu göstər və məni ruziləndir.

CƏNNƏTƏ GİRMƏK ÜÇÜN OXUNACAQ DUA

ət-Təhrim-8-Ey möminlər!Allaha xalis tövbə edin.Ümid var ki, Rəbbiniz günahınızı örtüb bağışlasın, altından çaylar axan Cənnətə daxil etsin.O gün onlar deyərlər:"Peyğəmbəri və onunla iman gətirənləri rüsvay etmə." Onların nuru sürətlə qarşılarında və sağ tərəflərində gedər. Onlar deyərlər:"Bizim nurumuzu həmişə qalmaqla tamamla və bizi bağışla.Həqiqətən Sən hər şeyə qadirsən."

PEYĞƏMBƏRİMİZİN HƏR GÜN ETDİYİ ZİKRLƏR

1)Bismilləhir rahmənir Rahim-100 dəfə.

2)Əstəğfirulləh(kiçik) əl azim (böyük)-100 dəfə dedikdə böyük və kiçik günahlar əfv edilir.

3)Allahummәsәlli alә seyyidinә Muhәmmәdin vә alә ali Muhәmmәd 100 dәfә demәk(qovaq ağacından tökülәn yarpaqlar kimi günahaları tökәr,pis dilləri,qaralmış könülləri dirildәr, xaraba olmuş qәlbləri nәşәləndirәr) Gözәl bir şey görәndә, gözәl bir qoxu duyanda salavat gәtirmәk, başqa narahat edici hallarda isә, ”Hәsbünәllahi vә niәmәl vәkil;yәni(Allah bizә yetәr,o, nә gözәl vәkildir.) -demәk vә yaxud da:

“Vә innәkә lә`alә huluqin azim”yәni “Vә sәn ән böyük bir әxlaq üzәrindәsәn”(**Qәlәm-4)-**demәk faydalıdır.

4)La ilahә illәllah -100 dәfә demәk,qәlb xәstliklәrindәn vә böyük günahlardan tәmizlәyәr.

5) Allah -100 dәfә dedikdә, Allahın beş min ismini cәm edәrәk bir anda söyləmiş oluruq.

6)Hu-100 dәfә demәk Allaha qovuşmaq vә mәqsәdә çatmaqdır.Hu-İsmi-Әzәmdir. Övliyaların qәlb gözünü açan“Hu”dur.”Hu”-demәk,yәni Sәndәn gәldim,Sәn göndәrdin, Sәnә dönәcәyәm vә Sәnә qovuşacağam. ”Hu”hәdәfә qovuşmaq demәkdir.

Hәdis:İmam Cәfәri Sadiq buyurur;”Allah-taala Adәmә belә vәhy göndәrdi: “Ey Adәm! Mәn hikmәti sәnin üçün dörd kәlmәdә toplamısam. Biri mәnim üçün, biri sәnin üçündür;biri sәninlә mәnim aramda,biri dә sәninlә xalq arasındadır.Mәnim üçün olan şey budur ki, Mәnә ibadәt edәsәn vә heç bir şeyi mәnә şәrik qoşmayasan.Sәnin üçün olan şey budur ki,çox ehtiyaclı olduğun zaman әmәlinin müqabilindә sәnә әvәz verәcәyәm.Mәnimlә sәnin aranda olan şey budur ki, sәn dua edәsәn,Mәn dә sәnin duanı qәbul edim. Sәninlә camaat arasında olan şey isә budur ki, özün üçün razı olduğun şeyә camaatın üçün dә razı olasan.

PEYĞƏMBƏRİN (S.Ə.S.) OXUDUĞU ALLAHA SIĞINMA DUASI

Allahummә inni ә`uzu bikә minәl-buxli vә ә`uzu bikә minәl-cubni vә ә`uzu bikә min ән uәr Raddә ilә әrzәlil umuri vә ә`uzu bikә min fitnәtid-dünya vә ә`uzu bikә min әzabil qabir.

Mənası:-Allahımxәsislikvәtәnbәllikdәnsәnәsığınıram,qorxaqlıqdan sәnә sığınıram.Lap çox ömürdәn(qocalıb vә ağlı itirib,uşaq kimi olmaqdan)sәnә sığınıram,dünyanın fitnәlәrindәn sәnә sığınıram.Qәbir әzabından sәnә sığınıram.

QURAN DA BƏRABƏRLİK
QURANDA ALLAHIN RİYAZİ MÖCÜZƏSİ

Quran, göndərildiyi gündən qiyamət gününə qədər insanlığın tək yol göstəricisi olan son İlahi kitab olacaq. Ancaq 20-ci və 21-ci əsr texnologiyası ilə əldə etdiyimiz bəzi elmi gerçəklərin 1400 il əvvəl Quranda bildirilməsi Quranın Allahın sözü olduğunu isbat edən çox sayda möcüzələrdən biridir. Bu xüsusiyyətlərdən biri də ”riyazi möcüzə”lərdir. Bu möcüzəyə bir nümunə isə Qurandakı bəzi söz təkrarlarının verdiyi ortaq ədədi göstərmək olar. Bir-biriylə əlaqədar bəzi sözlər möcüzəvi şəkildə eyni sayda təkrarlanır.Əsasən alimlərdən Tarik Əl Suaidan Qurani-Kərimdə kəşf etdiyi müəyyən sözlər bir-birinə bərabər, həm qramatik, həm də riyazi baxımdan məna kəsb edir ki, bir neçəsini aşağıda qeyd edəcəyik

Yeddi göy 7 dəfə-Göylərin yaradılışı (xəlqı səmavat) 7 dəfə

Bitki 26 dəfə-Ağac 26 dəfə

Cəza 117 dəfə-Bağışlamaq 117X2=234 dəfə

De 332 dəfə-Dedilər 332 dəfə

İman 25 dəfə-Küfr 25 dəfə

Zəkat 32 dəfə-Bərəkət 32 dəfə

Yaxşılar (əbrar) 6 dəfə-Pislər (fuccar) 3 dəfə

Yaz-isti 5 dəfə-Qış-soyuq 5 dəfə

Şərab 6 dəfə-Sərxoşluq 6 dəfə

Ağıl 49 dəfə-Nur 49 dəfə

Dil 25 dəfə-Öyüd 25 dəfə

Fayda 50 dəfə-Korlama 50 dəfə

Sevgi 83 dəfə-İtaət 83 dəfə

Çevrilmə 28 dəfə-Sonsuz 28 dəfə

Müsibət 75 dəfə-Şükr 75 dəfə,

Günəş (şəms) 33 dəfə-İşıq (nur) 33 dəfə

Əlhuda 79 dəfə-Rəhmət 79 dəfə

Çətinlik 13 dəfə-Dinclik 13 dəfə

Xəyanət 16 dəfə=Xəbis (hiyləgər) 16 dəfə

İnsan 65-Torpaq (turabun) 17+Sperm (nutfə) 12+Rüşeym (ələq) 6+Bir dişlik ət (medaya) 3+Sümük (ızamun) 15+Ət (lehmun) 12=Cəmi 65

Qadın-24=Kişi-24 dəfə.\ Dünya-115=Axirət-115 dəfə.

Mələklər-88=Şeytan-88 dəfə.

Həyat-145=Ölüm-145 dəfə.\Xeyir-50= Şər-50 dəfə.\

İnsanlar-368=bəşəriyyət-368 dəfə. -
İblis-11=İblisdən qorunun-11 dəfə.
Müsibət-75=Razı olmaq-75 dəfə.
Sədəqə-73=Xəsislik-73 dəfə.
Zəkat-32=Bərəkət-32 dəfə.\
Azmış adamlar-17= Ölü adamlar-17 dəfə.
Möcüzə-60-Fitnə-60 dəfə.
Qızıl-8 =Yüngül həyat-8 dəfə.\Çətinlik-114=Səbir-114.\
Cənnət-77=Cəhənnəm-77 dəfə.
Muhəmməd-4=Şəriət-4 dəfə
İnsan-50=Məşəqqət-50dəfə.\Qazanc-50=İtirmək-50 dəfə.
Müsəlman-41=Cihad-41.\Bədbəxtlik-75=Xoşbəxtlik-75.
Salavat 5 dəfə-Namaz 5 vaxt

Maraqlıdır ki, "ay" sözü bütün Quranda 12 dəfə," gün"sözü 365 dəfə,"günlər"və"2 gün" sözləri 30 dəfə, yəni bir ay kimi istifadə edilib. Belə bir simmetriya və mütənasiblik təsadüfən alınarmı? Bu təsadüf ola bilməz!

QURAN OXUMAĞA BAŞLARKƏN OXUNAN DUALAR

1)Allahummə bil həqqı ənzəltəhu və bil həqqi nəzəl.Allahummə azzim rağbəti fihi vəc`alhu nuran libəsari və şifəən lisadri və zəhəbən li həmmi və ğammi və huzni.Allahummə zəyyin bihi lisəni və cəmmil bihi vəchi və qavvi bihi cəsədi və səqqıl bihi mizəni vərzuqni tiləvatəhu alə taətikə ənə əlleyli və ətrafən nəhəri vəhşurni məənnəbiyyi Muhəmmədin (sallalləhu aleyhi) və əlihi iləxyəril əbrarıl əthər.

2)Allahummə inni əşhədu ənnə həzə kitəbukəl munzəlu min indikə alə rasulikə Muhəmməd ibni əbdilləhi və kələmukən nətıqu alə lisəni nəbiyyikə cəaltəhu hədiyyən minkə ilə xalqikə və həblən muttəsılən fimə beynəkə və beynə ibədikə Allahummə inni nəşərtu əhdəkə və kitəbəkə Allahummə fəcəl nəzari fihi ibədətən və qıraəti fihi fikran və fikri fihi i`tibəran vəcalni mimmən ittəəza bibəyəni məva`izıkə fihi vəctənəbə məasıyəkə vələ tət`bəa ində qıraəti alə səmi və lətəcəl alə bəsari ğışəvatən vələ təcəl qıraəti qıraətən lə tədəbbura fihə bəl ic`ələni ətədəbbəru yə`ətihi və əhkəməhu əxizən bişərai dinikə və lə təcəl nəzəri fihi ğəflətən və lə qıraəti həzran innəkə əitər raufur rahim.

3)Allahumməc alil Qurənə lənə fiddunyə qarinən və fil qabri munisən və fil qıyəməti şəfiən və aləs sırati nuran və fil Cənnəti rafiqan və minən nəri sitran və hicəbən və iləl xeyrati kullihə dəlilən və iməmən bi fədlikə

və cudikə və kəramikə yə əkraməl əkraminə və yə ərhəmər rahiminə və salləllahu alə seyyidinə Muhəmmədin və əlihit tayyibinət tahirin.

BİSMİLLƏHİR RAHMƏNİR RAHİM (BƏSMƏLƏ HAQQINDA

Bəsmələ, Allahın-1001 İsmi-Məhfuzudur. Qəlbin açarları Bəsmələdir. Hər bir başlanğıc Bəsmələ ilədir. Rəhmət və Rəhim də bəsmələnin içindədir, Rəhman dünyada bəslər, Rəhim isə axirətə səslər. Nəfsi-əmmarə və şeytanın qamçısı, onları döyən və onların qorxduğu-Bəsmələdir. Bəsmələsiz yeməkdən unutqanlıq əmələ gələr. Bəsmələ könüllərin açarıdır, Bəsmələ Quranın açarıdır.

1.Hər arzusuna çatmaq üçün 786 dəfə bəsmələ oxunur.

2.Hər cür afətlərdən,oğrudan,yanğından və ani ölümdən qorunmaq üçün yatarkən 21dəfə oxunur.

3.Düşmən və zalım kimsədən qorunmaq üçün 51 dəfə oxunur.

4.İnsanın gözləmədiyi yerdən ruziyə nail olması üçün günəş doğarkən 600 dəfə bəsmələ,600 dəfə salavat-şərif oxumaq lazımdır. 5.Yaddaşını,şüurunu itirən kimsə 786 dəfə suya oxuyub 7 gün içsin.

6.Vəsvəsə və şübhələrdən qurtarmaq üçün 786 dəfə oxunur.

7.Qəlb gözünün açılması üçün 2500 dəfə oxunur.

8.Ticarətin gəlirli olması üçün 35 dəfə oxunur.

9.Məhərrəmlik ayının 1-ci günü 130 dəfə yazaraq üstündə gəzdirərsə, il boyu pisliklərdən qorunar.

10.Xəstəlikdən qorunmaq üçün 190 dəfə oxunur.

SURƏLƏRİN HİKMƏTLƏRİ HAQQINDA

əl-Bəqərə-32-Mələklər dedilər:"Sən paksan,bizə öyrətdiyindən başqa heç bir biliyimiz yoxdur,hər şeyi bilən və hikmət sahibi sənsən."

"Əuzubilləhi minəş şeytanir racim,Bismilləhir rahmənir rahim"-dedikdə şeytan uzaqlaşar."Bə" hərfi qapıdır,bir yandan dünyaya giriş,bir tərəfdən də dünyadan çıxışdır.

Qurani-Kərimin sirri əl-Fatihə surəsindədir.əl-Fatihənin sirri Bəsmələdədir, (Bismillahdır)Bəsmələnin sirri "Bə" hərfindədir,"Bə-hərfinin sirri də nöqtəsindədir.Həmin nöqtə, yəni elmin qapısı Hz. Əlidir. Hər şeyin bir qəlbi var; Quranın qəlbi Yasini Şərif, Yasinin qəlbi əl-Fatihə, əl-Fatihənin qəlbi, Bəsmələdir. "Dinli insan" olub, yaşama-

ğın qəlbi də Tövhiddir.

əl-Fatihə surəsini:“Quranın əsası”-“Fatihətul-kitab”Kitabı-açan yeganə surədir ki, Allah buyurur:-Mənimlə bu surə vasitəsi ilə danışın və Fatihəsiz namaz yoxdur.Yəni Fatihə surəsi vasitəsilə namaza başlayan kimi, sanki Allahla danışırıq.

Bu surə Məkkədə iki dəfəyə nazil olub və 7 ayədir.

Bu surədə Allah və onun sifətlərinə, məad məsələsinə, doğru yolun və bu yolda rəhbərin tanınması,Allahın hakimiyyətinin və səltənətinin qəbulu və ilahi övliyaların yolunun davamına məhəbbət və azğınların,qəzəbə düçar olanların yolundan imtina izhar olunur.Bu surəni yatarkən oxuyan ölümdən başqa hər cür pisliklərdən qorunar.

Cümə günü yazılaraq üstündə gəzdirilsə,cin şərindən qorunar. Gündə 100 dəfə oxunsa, şərdən qorunar.

Təklükə anlarında 10 dəfə oxunur və insanın bütün halətlərində şəfa və köməkdir.

Əli (ə.s.) buyurur:”Peyğəmbər(s.ə.s.) Allahdan bu sözü nəql edir:“ Mən Fatihəni özüm ilə bəndəm arasında bölmüşəm.”

1-Bəndə“Bismillah”-deyəndə Allahdan başqasından ümid kəsilir. Allah deyir:”Bəndəm mənim adımla başladı və mənə haqdır ki, onun işlərini sona çatdıram, halını bərəkətli edəm.”

2-Bəndə “Əlhəmdu lilləh” deyəndə,Allah deyər:”Bəndəm mənə həmd eylədi,nemətlərin mənim tərəfimdən olduğunu bildi, ondan dəf etdiyim bəlaların da mənim nemətimin çoxluğundan olduğunu bildi.Səni şahid tuturam ki, mən onun üçün dünya nemətlərindən başqa axirət nemətlərini də əlavə edirəm, ondan axirət bəlasını dəf edirəm. Eyni zamanda dünya bəlalarını da ondan uzaqlaşdıram.”

3-“Rabbil aləmin”-deyəndə, bəndə ilə varlıq aləmi arasında rabitə yaranır.

4-Bəndə “Ərrahmənir rahim,”-deyəndə.İnsan özünü Allahın lütf və kölgəsində hiss edər və Allah bəndəsinə deyər:”Bəndəm mənə şəhadət verir ki,mən Rəhman və Rəhiməm.Öz nemətlərimdən onun payını artırıb,öz bəxşişimdən onun mükafatını bol edim.”

5-“Məliki yovmiddin”-deyəndə qəflət və diqqətsizliyi öz gələcəyindən silib atmış olar və Allah bəndəsinə deyər:“Şahid olun! Bəndəm mənim qiyamət günümdə Padşah olduğumu etiraf etdiyi üçün həmin gün onun hesabını asan edərəm, savablarını artırıb, pisliklərindən keçərəm.”

6-“İyyəkə nə`əbudu”-deyəndə, riyakarlıq və şöhrətpərəstlik aradan götürülür və Allah bəndəsinə deyər:”Şahid olun! İbadətinə görə ona elə

mükafat verərəm ki, hər bir müxalif bu ibadətə qibtə etsin.”

7-“İyyakə nəstəin”-deyəndə fövqəl qüdrətdən qorxuya son qoyular və Allah deyər: ”Bəndəm məndən kömək istəyir və mənə pənah aparır. Mən ona hər bir işində yardım edərəm, çətinliklərində fəryadına çataram, müşküllərdə onun əlindən tutaram.”

8-“İndinəs sıratal müstəqim”-deyəndə haqq və doğru yol istənilir və haqq yolda olanlara bağlılığını elan edir və Allah bəndəsinə deyər:Bu mənim bəndəm üçündür və bəndəm üçün olmalıdır. İstədiyi şeyi onun üçün yerinə yetirərəm,arzu etdiyini ona bağışlayaram.”

9-“Ən-əmtə”deyən insan anlayır ki, nemətlər Allah tərəfindəndir və onun əlindədir.

10-“İhdinə”-deməklə haqq və doğru yol istənilir.

11-“Sıratal ləzinə ən-əmtə əleyhim”-deməklə insan haqq yolda olanlarla bağlılığını elan edir.

12-“Ğeyril məğdubi əleyhim vələddallin”-deməklə batil və batil əhlindən uzaqlıq bildirilir.

Bu surəni Allah-taala yalnız Peyğəmbərimizə məxsus etdi və ona şərəf verdi.Başqa Peyğəmbəri, heç kəsi şərik etmədi.Bu surədən yalnız Bəsmələni, Süleyman ibn Davuda “Bismilləhir Rahmənir-Rahim”kəlməsini əta etmişdi.(Nəml surəsi)

əl-Bəqərə-surəsi-286- ayədir-Bəqərə (İnək) adlanır.Mədinədə 10 il ərzində muxtəlif vaxtlarda nazil olmuşdur və 286 ayədir. Bismilləhir(Allahın adı ilə və Allahdan başqasından ümid kəsilər) Rahmənir Rahim-Rəhimli(bu dünyada) və Mərhəmətli(axirətdə)

Əlif Ləm Mim-bunlar müqəttəə hərfləridir.

Təhlükə anında və duanın qəbul olması üçün ilk 5-ayə (Əlif,ləm, mim) oxunur:1-dən 5-yə qədər olan ayələrdə bu kitabın Allah tərəfindən nazil olmasını bildirir.Həmçinin təqvalıların,qeybə inananların, namaz qılanların və öncəki Peyğəmbərlərə, onlara nazil olanlara inananlar üçün hidayət kitabı olduğunu və məhz onların da Allah tərəfindən səadətə çatacağından bəhs edilir.

Rəvayətlərdə deyilir ki, Peyğəmbərə xəbər verdilər:“Sabit ibn Qeysin evindən nur qalxır”.Həzrət buyurdu:“O,Bəqərə surəsini oxuyur.”

Onlar gəlib Sabitin özündən soruşdular ki:“Gecələr evində hansı surəni oxuyursan?”O cavab verdi:“Bəqərə surəsini.”

Göz dəyməsinə, cin və şeytandan qorunmaq, fağırlıqdan və dərddən qurtarmaq üçün bu surə oxunur. Bu surədə Ayətəl Kürsü, Əmənə Rəsulu və bir çox başqa dualar vardır.

Hədis-Rəsulullah (s.ə.s.)buyurdu:“Hər kim Bəqərə surəsinin ilk

dörd ayəsini, Ayətül Kürsini Bəqərə surəsinin 255-ci ayəsi və bu ayənin arxasınca gələn iki ayəni(256 və 257 "Və hum fihə xaliduna"ya qədər) və bu surənin(yəni Bəqərə) son üç ayəsini oxusa, öz həyat və sərvətində heç bir ziyan və qəm-qüssə görməz; şeytan onun yanına gəlməz və o, Quranı unutmaz". (Savabul Əməl, səh. 234)

Ali-İmran-surəsin-200-ayədir.-Borcdan qurtarmaq və zəngin olmaq üçün üç dəfə oxunur. Cəhənnəm odundan qorunmaq üçün bu surəni oxumaq lazımdır.

1-5-ci ayə hacət üçün oxunur. 8-ci ayəsi xəstəliyə və doğru yola yönəlmək üçün oxunur.25-27-ci ayələrində "İsmi-əzəm" vardır və bu ayələr ruzinin artması üçün oxunur.

"Şəhidəllah" və "Qulillahummə" ayələri bu surədədir.

ən-Nisə surəsi-176-ayədir.Qohumlar arasında anlaşılmazlığı aradan qaldırmaq üçün oxunur.Bu surəni oxuyandan Allah razı olar.Cümə günləri oxuyan qəbir sıxıntısından amanda olar.

əl-Maidə surəsi- 120 ayədir. Bu surəni oxuyana min savab yazılır və on pislik məhv edilir.Malın üstünə yazılıb qoyulsa, oğrudan amanda olar. Hər cür zərərlərdən qorunmaq üçün 7 dəfə oxunur.

İmam Sadiq (ə.s.) buyurdu:"Maidə surəsini Cəbrail (ə.s.) yetmiş min mələk ilə Peyğəmbərə(s.ə.s.) gətirdi."

Rəvayətdə deyilir ki,Peyğəmbər vida həccində buyurdu:"Maidə" surəsi Qurandan mənə nazil olan sonuncu surədir. Onun halalını halal, haramını haram bilin."

əl-Ənam surəsi-165-ayədir.Hacət və günahların bağışlanması üçün oxunur. 1 və 2-ci ayəni oxuyan üçün Allah min mələk göndərər ki, onu pislik və xəstəliklərdən qorusun.

İstək və diləklərin yerinə yetməsi üçün 7 dəfə oxunur.

Əbu-Bəsir rəvayət edir ki, İmam Sadiq buyurmuşdur:-Bu surə bir dəfəyə nazil olmuşdur. Onu yetmiş min mələk gətirmişdir. Onlar bu surəyə təzim edirdilər. Çünki yetmiş yerdə Allahın adı çəkilir. Əgər insanlar onun fəzilətini bilsələr, onu həmişə oxuyarlar. Allah bu surə ilə mənə və sizə izzət bəxş etmişdir. Kimin hacəti varsa,4 rükət namaz qılsın və hər rükətdə həmddən sonra"Ənam" surəsini oxusun.

əl-Əraf-206 ayədir.Bu surəni oxuyanda Allah onunla İblis arasında sədd yaradır. Axirətdə və Qiyamət günü ona şəfaət edər. Bu surəni yazıb üstündə gəzdirən düşməndən, azğınlardan və yırtıcılardan amanda olar. Dünya və axirət savabı üçün oxunur.

əl-Ənfal surəsi-75- ayədir.Bu surəni oxuyanda on pislik məhv olur,10 dərəcə yüksəlir. Düşmənlərdən qorunmaq,düşmənlərə qalib gəlmək, səfərdə yolu itirməmək və gözün şəfası üçün oxunur.Bu mübarək surə

zindandan, iftira və müsibətdən qurtarmaq üçün 7 dəfə oxunur.

ət-Tovbə surəsi-129.Hər cür şərdən qurtarmaq üçün 7dəfə oxunur. Yazılıb asılarsa, o, yer yanğından qorunar və ora oğru girməz.

Yunus-surəsi-109-ayədir.Bu mübarək surəni niyyətə oxusa, düşməni peşman olar.

İmam Sadiq buyurur:"Kim bu surəni davamlı oxusa, cahillərdən olmaz, Qiyamət günü Allah dərgahına yaxın olanlardan sayılar."

Hud surəsi-123-ayədir.Zalımdan intiqam almaq üçün üç dəfə oxunur.

Yusif-11-ayədir.Bu surəni evdə saxlasa,o ev bərəkətli və xeyirli olar. Oxuyan bəndə hörmətli, layiqli bəndə olar.İzzət və səadətə nail olmaq, bəxtin açılması üçün oxunur.

ər-Rad surəsi-43-ayədir.Qadınlar uşağa qalmaq üçün və düşmənin qəhri üçün oxunur.Peyğəmbər (s.ə.s.) buyurur:"Hər kəs Rad surəsini oxusa,Qiyamətə qədər səmadakı buludlar qədər Allah onun üçünsavab yazar.O,qiyamət günü ilahi əhdə yəqin edənlərdən olar."

İbrahim surəsi- 52-ayədir. Ağlayan və qorxan uşaq üçün və bəlalardan uzaq olmaq üçün yazıb qoluna bağlanır. Əxlaqın gözəlləşməsi üçün 10 dəfə oxunur.

İmam Sadiq buyurur:"Kim İbrahim və Hicr surələrini hər cümə namazında oxusa,fəqirlik,dəlilik və bəla ona yetişməz."

Peyğəmbər(s.ə.s) buyurur:"Kim bu surəni oxusa, ibadət edən və etməyənlərin müqabilində Allah-taala ona on savab verər."

əl-Hicr surəsi-99-ayədir.Yazıb qola bağlayanda ruzi bol olar və süd verən ananın südü çoxalar.Ticarətin qazanclı olması üçün üç dəfə oxunur.

ən-Nəhl surəsi- 128-ayədir-.Azğınlığın, fəsadın və bəlanın qaldırılması üçün 10 dəfə oxunur.

İmam Baqir buyurur:"Kim hər ay Nəhl surəsini oxusa, dinini dünyada kamilləşdirər, yetmiş növ bəladan uzaq olar,yeri Ədn Cənnətində olar."

Peyğəmbərimiz buyurur:-"Kim bu surəni oxusa, Allah ona dünyada verdiyi nemətlərə görə hesab çəkməz,ona ölüm zamanı ən gözəl vəsiyyət edən şəxsin əcrini verər."

əl-İsra surəsi-111-ayədir.Dünya və dini hacətlər və müşkül üçün 7 dəfə oxunur.Hiylələrdən qorunmaq üçün oxunur.Müşk və zəfəranla yazılıb dili tutulanlara içirilsə, şəfa tapar.

əl-Kəhf surəsi-110-ayədir.Bu surə düşmən şərindən qorunmaq, müşkül işləri aradan qaldırmaq, borc və narahatlığı aradan aparmaq üçün oxunur.

Bu mübarək surəni oxuyan kimsə hər cür fitnə və müsibətdən qorunar.

Məryəm surəsi-98-ayədir.Bu surəni yazıb, sonra suyunu içsələr, bütün qorxu bədəndən çıxar. Evin xeyirli və bərəkətli olması, bəxtin açılması üçün 7 dəfə oxunur.Bu surəni 41 dəfə oxuyan kimsə fağırlıqdan qurtarar.

Taha surəsi-135-ayədir.Allah bu surəni çox sevir.Peyğəmbər buyurur: Cənnət əhli Taha və Yasin oxuyacaq.Mələklər buyurur: "Xoş olsun o ümmətin halına ki,bu surələr onlara nazil olub.Xoş olsun o kəsin halına ki, bu surələri davamlı oxuyarlar."Bu surəni 21dəfə oxuyan kimsənin bəxti açılar,ruzisi çoxalar,camaat ona qarşı mərhəmətli olar,düşməni məğlub olar,elçi gedəndə qəbul olunar, vəzifəlilər qarşısında sözü keçər.Kim sübh vaxtı oxusa, ona ruzi gələr,camaatın ürəyi ona qarşı yumşalar,düşməni məğlub olar.

əl-Ənbiya surəsi-112-ayədir.İnsanlar yanında hörmətli və heybətli görünər və xəstə adam yanında gəzdirsə, şəfa tapar. Hər cür təhlükəyə qarşı oxunar.

İmam Sadiqdən nəql edilir:Peyğəmbər(s.ə.s.) buyurmuşdur:"Hər kəs bu surəni oxusa, Qiyamətdə hesabı asan olar. Quranda adı çəkilən hər Peyğəmbər Qiyamət günü onunla görüşər, salam verər."

əl-Həcc surəsi-78-ayədir.Məhşərin dəhşətindən əmin olmaq üçün oxunur. Hər kəs bu surəni hər üç gündə bir dəfə oxusa, həmin il Məkkə ziyarətinə gedər.

Həcc surəsində səkkiz ayə vardır ki,onlara Cənnətin açarları və çıraqları deyilir.Bu ayələr 124 kəlmədir ki,124 min Peyğəmbərlərin sayına işarədir. Allah Hz. İsa və Yəhyanı"kəlimə" adlandırmışdır.Hər kəs bu ayələri oxusa, sanki Peyğəmbərləri vəsilə qərar vermişdir. Allahın müqəddəs dörd adı bu ayələrdə çəkilir. Hər ayə onun adı ilə bitir. İbn Abbas deyir:"Quranda belə böyük ayələr görmədim, Hz.Peyğəmbərdən soruşdum ki, bu ayələr nədir?

Həzrət cavab verdi:-Bunlar Allahın səkkiz xəzinəsi,səkkiz sonsuz sirləridir.Burada İsmi-əzəm var.Kim onları oxusa, cin və insanların, düşmənlərin, həsəd edənlərin şərindən və şeytanın hiyləsindən azad olar.Elm və ruzi qapıları onun üzünə açılar,mətləbə çatar.

əl-Muminun surəsi-118-ayədir. Bu surəni oxuyan kimsələr iman və etiqad cəhətdən düzəlir, kamalı-imana yetir.Yazıb mağazanın divarına vursalar, alış-veriş çoxalar.İmam Sadiq buyurur: "Kim bu surəni oxusa, Allah onun işini səadətlə sona çatdırar." Həlakətdən qurtarmaq üçün 140 dəfə oxunmalıdır.

Nur surəsi-64-ayədir.Bu surəni oxuyan kimsə vəsvəsədən qurtarar,

kamalı-yəqinə və əminliyə çatar, həmçinin böhtandan qurtarar. İmam Sadiq buyurur:“Bu surəni oxumaqla öz mal və ailənizi möhkəm qalalara daxil edin.”

əl-Furqan surəsi-77-ayədir.Düşmənin pərişan olması üçün oxunur. İmam Kazım (ə.s.) İshaq ibn Əttara dedi:“Bu surəni tərk etmə.Hər kəs bu surəni hər gecə oxusa, Allah ona əzab verməz.”

əş-Şüəra surəsi-227-ayədir.Zərərdən qorunmaq üçün oxunur. Peyğəmbərimiz buyurmuşdur:“Hər kəs Şüara surəsini oxusa, Nuh, Hud, Şüeyb, Saleh, İbrahim, İsa, Muhəmməd (s.ə.s.) təsdiq edənlərin hər birinin müqabilində Allah ona savab verər.”

ən-Nəml-surəsi-93-ayədir-Bu surəni oxuyan kimsə düşmənlərın şərindən qorunar və ruzisi artar.

əl-Qəsəs surəsi-88-ayədir.Bəxt və bağlılığı açmaq,əzab, əsarətdən və borcdan qurtarmaq üçün oxunur.Peyğəmbərimiz buyurur: ”Hər kəs bu surəni oxusa saysız savab qazanar.”

əl-Ənkəbut surəsi-69-ayədir.Əqli zəif olan kimsələr üçün oxunarsa, şəfa tapar. İmam Sadiq buyurur:“Ramazan ayının 23-cü gecəsində Ənkəbut və Rum surələrini oxumaq savabdır. Həqiqətən, bu surə Allah yanında böyük şən sahibidir.”

ər-Rum surəsi-60-ayədir-Düşmənə qalib olmaq üçün oxunur.

Peyğəmbər buyurur:“Kim Rum surəsini oxusa, yerdə və göydə Pərvərdigarına təsbih edən hər mələyin müqabilində Allah ona on savab verər.”

Loğman surəsi-34-ayədir-Daxili xəstəliklərə qarşı 7 dəfə oxunur. İmam Baqir buyurur:”Bu surəni hər gecə oxuyan,iblis qoşunundan səhərə qədər qorunar.”

əs-Səcdə surəsi-30-ayədir-Afətlərdən əmin olmaq üçün oxunur.Bu surəni oxuyana 60 savab verilir, 60 günah pozulur,60 dərəcə verilir.

əl-Əhzab surəsi-73-ayədir-Nəsib və qismətin açılması üçün 7 dəfə oxunur.

Səba surəsi-54-ayədir-Bu surəni oxuyan kimsə cin şərindən əmin olar və ruzisi çoxalar.

Fatir surəsi- 45-ayədir-Bu mübarək surəni oxuyan kimsə məxluqat tərəfindən sevilir.

Yasin surəsi haqqında:83 ayədir. Bu surə Quranın qəlbi hesab olunur. Yasin surəsindən qabaq oxunacaq dua:

“Allahummə inni əs`alukə sabran cəmilən və qalbən səlimə və lisanən zakira və duaən mustəcəbə və kitabən yəminə və rizqan hələlən və nəiməm mukiməm və Cənnətən və həriran və nədratan və surura yə

qabiyəl həcət ya mucibəd dəavat ya kəşifəd durri vəl-bəliyyət yə alimməs-sirri vəl həfiyyət iqdi həcəti fi həzihis saətil mubərakəti bi hurməti Yasin vəl Quranil Kərim fəizə qadə əmran fə innəmə yəkululləhu kun fiyəkun fə subhənəlləzi bi yədihi mələkutu kulli şey`in və ileyhi turcəun və sallələhu alə seyyidinə Muhəmmədin və alıhi tahirin."

Bu surə Quranın qəlbidir və bu surənin hər bir ayəsi bir duadır.

Peyğəmbərimiz buyurmuşdur:-Uca Allah Taha və Yasin surələrini göyləri və yeri yaratmazdam min il əvvəl oxudu. Mələklər Quranı eşidən kimi:"Bu surələr onlar üçün nazil olan ümmətə müjdələr olsun. Bu surələri qəlbində gəzdirənlərə müjdələr olsun. Bu surələri oxuyan dillərə müjdələr olsun"-dedilər.Hər şeyin bir qəlbi var, Quranın qəlbi Yasini Şərif, Yasinin qəlbi Fatihə, Fatihənin qəlbi, Bəsmələdir. Təsəvvüfü yaşantının qəlbi də Tövhiddir."

Bu mübarək surəni 70 dəfə oxuyan kimsə, hər muradına çatar. 41dəfə oxuyan mətləb alar. Üç dəfə səhər, üç dəfə gecə oxuyan, bütün bəla və müsibətlərdən, özü və ailəsi qorunar.

Allahın İsmi şəriflərindən olan Mubun kəlməsi Yasin surəsində 7 yerdə qeyd edilmişdir. Buyurulur ki, Yasin surəsindəki Mubin kəlmələrinə yetişdikdə, Mubin duasını oxuyub Allahdan mətləb diləmək xeyirlidir.

Yasin surəsində olan 7 Mubin kəlməsində oxunan dua

Subhənəl munəffisi ən kulli mədyun. Subhənəl mufərrici ən kulli məhzun.subhənə mən cəalə xəzəinəhu beynəl kəfi vənnur.sibhənə mən izə əradə şeyən ənyəqulə ləhu kun fəyəkun yə mufərricu fərric, yə mufərricu fərric, yə mufərricu fərric, yə mufərricu fərric fərric fərric ənni həmmi və ğammi fərcən acilən ğeyra əcilin bi rahmətikə yə ərhəmər rahimin.

Hz.Peyğəmbər buyurur:"Yasin dünya və axirət xeyrini öz oxucusuna verir. Kim bu surəni qəbiristanlıqda oxusa, Allah həmin gün onların əzabını yüngülləşdirər, orada olan mərhumların sayı qədər oxuyan üçün savab yazar, o qədər də günahlarını pozar."

Peyğəmbər (s.ə.s.) buyurur:"Ya Əli!Yasin surəsini oxu!Onda on bərəkət vardır. Əgər ac oxusa, doyar, susuz oxusa, sirab olar, üryan oxusa, geyindirilər, dul, subay oxusa, evlənər, qorxaq oxusa, amanda olar, xəstə oxusa, şəfa tapar, məhbus oxusa, azad olar, müsafir oxusa, salamat qayıdar, ölmüş şəxs üçün oxunsa, günahları bağışlanar,yolunu azmış oxusa, yolunu tapar."

əs-Səffat surəsi-182-ayədir-Bu surəni oxuyan kimsələrin ruzisi çoxalar, darlıq çəkməz və hörmətli olar.İmam Sadiq buyurur:"Kim bu surəni hər cümə günü oxusa həmişə bəlalardan qorunar,dünya bəlaları

ondan uzaq olar, dünyada ona ən layiqli ruzi verilər.Allah-taala onun övladını, malını və canını şeytandan qoruyar.”

Sad surəsi-88 ayədir. Bu surəni oxuyan, zərər verən heyvanların şərindən əmin olar. Ruzisi artar, bəxti açılar və bütün xeyir qapıları üzünə açılar. İmam Sadiq buyurur:”Kim bu surəni oxusa, Allah Davud Peyğəmbər üçün ram etdiyi dağlar ağırlığında savab yazar, onu kiçik və böyük günahlar etməyə qoymaz.”

əz-Zumər surəsi-75 ayədir.Bu surəni oxuyan,xalq içində əziz və hörmətli olar.İmam Sadiq buyurur:“Kim bu surəni oxusa, Allah-taala ona dünya və axirət savabını verər,onu başqalarına qalib edər.Əgər fağırdırsa, mal-dövlət verər.

Hz.Peyğəmbərdən rəvayət olunur ki:-Allahın Rəsulu “Bəni-İsrail” və “Zumər” surələrini oxumamış yatmazdı.”

əl-Mumin surəsi-85 ayədir. Pis insanın şərindən əmin olmaq üçün 7 dəfə oxunur.Peyğəmbər (s.ə.s.) buyurur:“Hə-mim- lər Quranın bəzəyidir.”Quranda Hə, mim ilə başlayan yeddi surə vardır. Abdullah ibn Abbas deyir:“Hər şeyin məğzi olduğu kimi, Quranın da məğzi Həmim-dir.”

Peyğəmbər buyurur:-“Hə-Mim-lər yeddidir, Cəhənnəmin qapısı da yeddidir.Qiyamət günü bu surələr oranın qapılarını kəsərlər ki, onları imanla oxuyanlar Cəhənnəmə getməsinlər.”

Fussilət surəsi-54 ayədir. Bu surəni oxuyan kimsə yola getdikdə hər cür təhlükədən əmin olar, nəfsini məğlub edər. İmam Sadiq buyurur:“Kim Hə-Mim-lə başlayan bu surələri hər gecə oxusa, Qiyamət günü gözü nurlu və şad olar.O dünyada bəyənilmiş olar.”

əş-Şura surəsi-53 ayədir.İmam Sadiq buyurur:“Kim bu surəni oxusa, Allah Qiyamət günü onun üzünü on dörd gecəlik ay kimi edər,ona belə xitab edər:“Ey bəndəm!Dünyada bu surəni oxuyurdun, lakin savabını bilmirdin.Əgər savabını bilsəydin, onu həmişə oxuyardın.”

əz-Zuxruf surəsi-89 ayədir. Yeddi dəfə oxuyan kimsə hər muradına nail olar.

əd-Duxan surəsi-59 ayədir.Bu surəni üç dəfə oxuyan kimsə hər diləyinə çatar.İmam Sadiq buyurur:-“Mühüm işlər üçün 70 dəfə bu surəni oxusa, həll olar.”

əl-Casiyə surəsi-37 ayədir. Bu surə şərdən qurtulmaq üçün oxunur. Oxuyan qorxulu şeylərdən amanda olar.

əl-Əhqaf surəsi-35 ayədir. Bu surəni oxuyan kimsə cin şərindən amanda olur.İmam Sadiq buyurur:”Hər kəs bu surəni cümə gecəsi oxusa, ona saysız savab bəxş olunar.Hər gecə oxusa, Allah-taala onları

axirət və dünya qorxularından amanda saxlar.”

Fəlakətdən xilas olmaq üçün 3 dəfə oxumaq lazımdır.

Məhəmməd surəsi-38 ayədir.Zərərdən qurtulub səadətə nail olmaq üçün oxunur.İmam Sadiq buyurur:”Hər kəs bizim hal və malımızın sayını bilmək istəyirsə, bu surəni oxusun.Çünki orada bizim barəmizdə ayə vardır.”

Kim bu surəni oxusa, Allah ona Cənnət çaylarından su verər.

əl-Fəth surəsi-29 ayədir. Bu surəni 7 dəfə oxuyan kimsə hər müşkülünü həll edib, hər muradına nail olur.Bəxt-taleyin açılması üçün oxumaq xeyirlidir.

İmam Sadiq buyurur:“Fəth surəsini oxumaqla öz mal və ailənizi qoruyun. Bilin ki, hər kəs bu surəni davamlı olaraq oxusa, nida olunar:”Ey mənim bəndəm! Sən xüsusi bəndələrimdənsən.”

əl-Hücurat surəsi-18 ayədir. Bu surə xəstəliklərin şəfası və şeytandan uzaq olmaq üçün oxunur.

İmam Sadiq buyurur:-“Hər kəs bu surəni hər gecə oxusa, ya hər gün oxusa, Peyğəmbər(s.ə.s.)in zəvvarlarından sayılar.”

Qaf-surəsi-45 ayədir. Bu surəni cümə gecələri oxuyan axirət səadətinə nail olur.Qorxu üçün də oxunur.Hər gün üç dəfə üzü qibləyə oxumaq ruzini artırır.Ölüm anında olan insanın yanında oxunsa, can vermək ona asan olar.

əz-Zariyat surəsi- 60 ayədir. Bu surəni yetmiş dəfə oxuyan qıtlıq üzü görməz.

İmam Sadiq buyurur:-“Kim bu surəni gündüz, ya gecə oxusa, Allah-taala onun həyatını islah edər, ruzisini artırar,qəbirdə ona Qiyamətə qədər parlayacaq bir nur verər.”

ət-Tur surəsi-49 ayədir. Bu surəni oxuyan haqqa yaxınlaşar, dərdlərdən qurtarar.

İmam Sadiq buyurur:-Hər kəs bu surəni oxusa, Allah-taala ona dünya və axirət xeyrini verər.Əgər səfərdə oxunsa. salamatçılıq olar,əgər məhbus oxusa, azad olar.

ən-Nəcm surəsi-62 ayədir. Bu, surəni 21 dəfə oxuyan hər muradına nail olar.İmam Sadiq buyurur:-“Hər kəs davamlı olaraq hər gecə, ya hər gün bu surəni oxusa, camaat arasında yaxşı həyat keçirər,sevimli olar bağışlanar”

Hacətlərin yetməsi üçün 21 dəfə oxumaq lazımdır.

əl-Qəmər surəsi-55 ayədir. Bu surəni 70 dəfə oxuyan zalımın şərrindən qurtarar.

ər-Rəhman surəsi-78 ayədir. Bu xeyir qapılarının açılması üçün 70

dəfə oxunar.

İmam Sadiq buyurur:"Kim bu surəni öz zikri ilə birlikdə oxusa Allahın nemətlərinə şükür etmişdir."

əl-Vaqiə surəsi-96 ayədir. Bu surəni 41 dəfə oxuyan kasıblıq çəkməz,qazancı bərəkətli olar.

əl-Hədid surəsi-29 ayədir. Ruhi sarsıntıdan qurtulmaq üçün 75 dəfə oxunur.

əl-Mücadilə surəsi- 22 ayədir. Bu surə 3 dəfə düşmənə qarşı oxunur.

əl-Həşr surəsi-24 ayədir. Bu surəni 40 gün,40 dəfə oxuyan hər muradına nail olar.

əl-Mümtəhinə surəsi-13 ayədir.Bu surəni oxuyan kimsə haramdan uzaq olur.Borclu isə borcunu asanlıqla ödəyər.

əs-Səff- surəsi-14 ayədir. Bu surəni 70 dəfə oxuyan kimsə narahatçılıqdan qurtarar.

əl-Cümə surəsi-11 ayədir. Bu surəni evlənmək istəyən kimsə 7 dəfə oxuyar.

əl-Munafiqun surəsi-11 ayədir. Bu surə nifaqdan qurtarmaq, şərə hədəf olmamaq üçün 70 dəfə oxunur.

ət-Təğabun surəsi- 18 ayədir. Bu surə nəfəs darlığına qarşı suya 7 dəfə oxuyaraq içilir.

ət-Tələq surəsi-12 ayədir. Bu surəni üç dəfə oxuyan kimsə dostları ilə gözəl keçinər.

ət-Təhrim surəsi-12 ayədir. Bu surə yuxusuzluğu aradan götürmək üçün oxunur. Bu surəni 21 dəfə oxuyan kimsənin düşməni məğlub olar. İlan, əqrəb sancan zaman bu surəni oxumaq xeyirdir.

əl-Mülk surəsi-30 ayədir. Bu surəni 41 dəfə oxuyan hər bəladan və nəzərdən uzaq olar.

Qələm –Nun-surəsi-52 ayədir.Bu surə şərdən, nəzərdən qorunmaq və hər muradına nail olmaq üçün 71 dəfə oxunmalıdır.

əl-Həqqa surəsi-52 ayədir. Bu surə Axirət sevincinə çatmaq üçün 71 dəfə oxunur.

əl-Məaric surəsi-44-ayədir. Bu surə zəfərə çatmaq üçün180 dəfə oxunur.

Nuh-surəsi-28-ayədir. Bu surəni 100 dəfə oxuyan kimsə, düşmənini məğlub edər.

əl-Cinn surəsi-28 ayədir. Bu surəni 7 dəfə oxuyan kimsə nəzərdən uzaq olar.

əl-Muzəmməl surəsi-20 ayədir. Bu surəni 40 dəfə oxuyan kimsəyə

ruzi ummadığı yerdən gələr.

əl-Müddəssir surəsi-56 ayədir. Bu surəni oxuyan kimsə nəfsi istəklərindən qurtarar.

əl-Qiyamət surəsi 40 ayədir. Bu surəni cümə gecələri oxuyan kimsə axirət səadətinə nail olar.

əd-Dəhr-İnsan surəsi-31 ayədir. Bu surəni 70 dəfə oxuyan kimsə pis əxlaqdan qurtarıb, yaxşılar zümrəsinə daxil olar.

əl-Mursəlat-surəsi-50 ayədir.Bu surəni 7 dəfə oxuyan göz xəstəliyinə tutulmaz.

ən-Nəba- surəsi-40 ayədir.Əsr namazından sonra oxuyan dünya və axirət səadətinə nail olar.

ən-Nəziat surəsi-46 ayədir.Bu surəni hər gecə oxuyan kimsə son nəfəsini Kəlimei Töhvid ilə bitirər.

Əbəsə surəsi-42-ayədir. Bu surə yəqinə çatmaq uçun 7 dəfə oxunur.

ət-Təkvir surəsi-29 ayədir. Bu surə evdən sehrin çıxarılması və bütün müşküllərin həlli üçün 7 dəfə oxunur.

əl-İnfitar surəsi-19 ayədir. Bu surə hər murada nail olmaq üçün 21 dəfə oxunur.

əl-Mutəffifin surəsi-36-ayədir. Bu surə ağlayan uşağı sakit etmək üçün oxunur.

əl-İnşiqaq-surəsi-25 ayədir.Bu surə doğumun asan olması üçün 7 dəfə oxunmalıdır.

əl-Bürüc surəsi-22 ayədir. Bu surə fitnəçi və həsədçilərin şərindən qurtarmaq üçün 10 dəfə oxunur.

ət-Tariq surəsi-17 ayədir.Bu surə pəri və cin şərindən qurtarmaq üçün 3 dəfə oxunur.

əl-Əla surəsi-19 ayədir.Bu surəni 3 dəfə oxuyan səfərdən salamat evinə dönər.

əl-Ğaşiyə surəsi-26 ayədir.Bu surəni namazdan sonra oxuyan kimsəni Allah öz rəhmətinə qərq edər.Dünyada və axirətdə Cəhənnəm odundan amanda olar.

əl-Fəcr surəsi-30 ayədir. Bu surə bəlanı uzaqlaşdırmaq üçün
7 dəfə oxunur.

əl-Bələd surəsi-20 ayədir. Bu surə Qiyamətdə hesabın asan keçməsi üçün 7 dəfə oxunur.

əş-Şəms surəsi-15 ayədir. Bu surə hər cürə bəlalardan qurtulmaq üçün 41 dəfə oxunur.

əl-Leyl surəsi-14 ayədir. Bu surəni 10 dəfə oxuyan kasıbçılıqdan qurtarar.

əz-Zuha surəsi-11 ayədir.Bu surəni oxumağa davam edənlər ürək sıxıntısından və çətinliklərdən qurtarar.

əl-İnşirah surəsi-8 ayədir. Bu surəni oxumağa davam edən kimsə qəlb sıxıntısından qurtarıb bol ruziyə qovuşar.

ət-Tin surəsi-8 ayədir. Bu surəni 7 dəfə oxuyan kimsə pis əxlaqdan qurtarar.İtmiş şey üçün də oxunur.

əl-Ələq surəsi -19 ayədir.Bu surəni 7 dəfə oxuyan kimsə muradına çatar.

əl-Qədr surəsi-5 ayədir. Bu surə hər müşkülün həlli üçün 21 dəfə oxunur.

əl-Bəyyinə surəsi-8 ayədir. Bu surəni davamlı oxuyan kamil insanların məqamına çatar.

əz-Zilzal surəsi-8 ayədir.Bu surəni 40 min dəfə oxuyan kimsə düşməninə qalib gələr.

əl-Adiyat surəsi-9 ayədir. Bu surəni 3 dəfə oxuyan nəzərdən qorunar.

əl-Qariə surəsi-11 ayədir.Bu surə hər işin intizamı üçün 100 dəfə oxunur.

əl-Təkasur surəsi-8 ayədir. Bu surə dünyəvi və təbii müsibətlərdən qurtarmaq üçün gündə 3 dəfə oxunur.

əl-Əsr surəsi-3 ayədir. Bu surə daxili xəstəliklərin müalicəsi üçün oxunur.

əl-Hüməzə-surəsi 9 ayədir. Bu surə ruzi və insanların şərrindən qorunmaq üçün 21 dəfə oxunur.Gözdəyməyə qarşı oxumaq yaxşıdır.

əl-Fil surəsi- 5 ayədir.Şam ilə xiftən namazı arasında 1000 dəfə oxunsa bütün istəklərə çatmaq olar.

əl-Qureyş surəsi -4 ayədir. Bu surə gözəl əxlaqa sahib olmaq və müsibətlərdən qorunmaq üçün 7 dəfə oxunur.

əl-Maun surəsi-7 ayədir. Bu surəni 7 dəfə oxuyan Peyğəmbəri yuxusunda görər.

əl-Kövsər-surəsi-3 ayədir.Bu surəni 100 dəfə oxuyan muradına çatar.

əl-Kafirun-surəsi-6 ayədir. Bu surəni yatarkən oxuyan kəs, imanını şeytandan qoruyar.

ən-Nəsr surəsi-4 ayədir. Bəxtin açılması və arzuya çatmaq üçün oxunur.

ət-Təbbət surəsi-5 ayədir. Düşmənə qarşı oxunur.

əl-İxlas surəsi-4 ayədir. Bu surəni 100 dəfə oxuyan kamil bir imana yetər. 10 dəfə oxuyan kimsənin əməl dəftərinə günah yazılmaz.

əl-Fələq surəsi-5 ayədir. Sehri təsirsiz hala gətirmək və şeytanlardan qorunmaq üçün 41 dəfə oxunur.

ən-Nas surəsi 6 ayədir.Bu surə cin şərindən və böhtandan qorunmaq üçün 21 dəfə oxunur.

Quranı özünə yoldaş eylə:-Ya Rəbbi! Qurana və Quran endirilən o Peyğəmbər haqqına, qəlblərimizi Quran nuru ilə nurlandır. Quranı hər xəstəliyə qarşı şəfa, həyatımızda və ölümümüzdən də sonra bizə yoldaş eylə. Quranı bizə dünyada dost, qəbirdə qoruyucu, Qiyamətdə şəfaətçi, sirat körpüsündə nur,Cəhənnəmə qarşı pərdə və sipər, Cənnətə girməkdə rəhbər və dost, xeyirli işlərə çatmaq üçün yol göstərən və rəhbər eylə. Bunu fəzlin,comərdliyin, kərəmin, ehsanın və rəhmətin adına Səndən istəyirik.

Ya Allah! Bədbəxtliklərə səbəb olan günahlarımızı bağışla. Nemətləri dəyişdirən günahlarımızı əfv et! Ya Allah!duaların qəbul olmasına əngəl olan günahlarımızı əfv et, bəlaları gətirən günahlarımızı əfv et.Ya Allah! İşlətdiyimiz bütün günahları və bilib-bilməyərək işlətdiyimiz bütün xətaları özün əfv et.

Ya Allah! Zikrinlə Sənə yaxınlaşırıq və Sənin ismi şəriflərin xatirinə Səndən şəfaət istəyirik.Bizə şükrünü öyrətməyi,zikrini ilham etməyini diləyirik.Ya Allah! Səndən hüzur, təvazökarlıq və səbir diləyirik.

Ya Allah! Bizə mal verdiyində səadət də ver. Qüvvət verdiyində ağıl da ver.Təvazə verdiyində izzət də ver, iqtidar verdiyində bəsirət də ver. Bəla verdiyində iman da ver, nemət verdiyində şükür də ver. Gözəllik verdiyində iffət də ver, cəsarət verdiyində insaf da ver, çətinlik verdiyində səbir də ver.

KƏHF SURƏSİ HAQQINDA QISA MƏLUMAT

əl-Kəhf-9-27-surəsi:Ya Muhəmməd!Yoxsa Əhsabi-kəhfin və Rəqimin(mağara və Rəqim əhlinin) ayələrimizdən əcaib bir şey olduğunu güman edirsən? Xeyr, bu Bizim qüdrətimiz qarşısında adi bir işdir. Ya Muhəmməd! Xatırla ki,o zaman gənclər mağaraya sığınıb:"Ey Rəbbimiz! Bizə öz dərgahından mərhəmət bəxş et və işimizə fərəc ver!-demişdilər.

Biz onları mağarada illərlə (üç yüz doqquz il) yuxuya verdik.

Peyğəmbər mağara əhvalatını danışdıqdan sonra buyurdu ki, bu əhvalat çox qəribədir.O,bu sözü deməklə qarşısındakıların iman gətirməsini istəyirdi. Halbuki mağara yoldaşları və "Rəqim"adamları Allahın qüdrət əlamətlərindən idi."Rəqim" həmin mağaranın yerləşdiyi dağın adıdır.

Kəhf əhvalatı isə belə olmuşdur.Bir zamanlar Diqyanus adlı bir padşah insanları özünə itaət etməyə və yaxud da bütlərə sitayiş etməyə məcbur edirdi. Onun yaxın adamlarından olan bir neçə nəfər isə Hz. İsanın dinindən olub, Padşaha qarşı çıxırlar. Bir çox mübahisələrdən sonra onlar qərara gəlirlər ki, bu şəhərdən çıxsınlar. Şəhərdən çıxıb gedərkən yolda onlara yanında bir köpəyi olan çoban rast gəlir.Onlar birlikdə Padşahdan və onun zülmündən qaçaraq bir mağaraya sığınırlar.

Allah bu əhvalatı xəbər verib buyurur:-Onlar mağaraya pənah apararaq dedilər:-"Pərvərdigara, bizə öz tərəfindən rəhmət və nüsrət ver! Bizə bu işimizdə kömək edib nicat tapmağı qismət et." Həqiqətən, onlar elə cavanlar idilər ki, öz Allahlarına inanır, onu qəlbən çağırır və yalnız ona hidayət edirdilər.Ona görə də Allah onlara hidayət bəxş etdi. Biz mağarada neçə illər onların qulaqlarını bağladıq, elə yatdılar ki, qulaqları eşitmədi.Yuxunu onlar üçün üstün etməklə dualarını qəbul etdik.

Ya Muhəmməd! Əgər o zaman onlara baxsaydın.Günəşin doğduğu zaman onların mağarasının sağ tərəfinə meyil etdiyini, batdığı zaman isə onları tərk edib sol tərəfə yönəldiyini, mağaranın içinə düşüb onları yandırmadığını, onların da mağaranın ortasında geniş bir yerdə olduqlarını, küləyin onları oxşadığını və rahat nəfəs aldıqlarını görərdin. Sən onları oyaq güman edərsən, halbuki onlar həqiqətən yatmışlar. Çünki onların gözləri açıq idi, sanki danışırdılar. Biz onları sağ və sol tərəfə çevirirdik ki, mağaranın rütubəti onları çürütməsin. Onların köpəkləri mağaranın qarşısında, astanada ayaqlarını uzatmışdı.Əgər sən onları(bu vəziyyətdə) görsən, qorxudan qaçan halda onlardan üz döndərərsən.Onların heybəti səni tutar,qəlbin qorxu ilə dolar. Bu, Allahın möcüzələrindəndir. Allahın doğru yola saldığı kəs doğru yoldadır. Allahın yoldan çıxardığı şəxsə isə əsla doğru yolu göstərən bir rəhbər tapılmaz!

Allah onları yatırdığı kimi eləcə də oyatdı ki,öz aralarında bir-biri ilə sual-cavab etsinlər. Onlardan biri digərindən soruşdu:-Görən, biz neçə müddətdir ki, yatırıq? O biri cavab verdi ki,bir gün,ya da bir günün yarısı qədər. Çünki mağaraya daxil olanda sübh vaxtı idi. Günün axırında isə yuxudan oyanmışdılar. Onların mağarada qaldıqları müddəti Allah daha yaxşı bilirdi.Göylərin və yerin qeybi Allaha məlumdur. Allah çox görən və eşidəndir. Deyilənlərə görə onlar mağarada 300 il və yaxud da, 309 il yatmışlar. Göylərin və yerin qeybi Allaha məlumdur. Allah çox görən və eşidəndir.

Onların başçıları Təlmixa gənclərdən birinə pul verib bazara göndərir ki,yeməklərin pakını alsın və diqqət etsin ki, onu tanımasınlar. Bazara

gedən gənc adam çörək alarkən verdiyi pul köhnə olduğundan çörəkçi ondan soruşur:-Xəzinə tapmısansa, məni də şərik et, yoxsa gedib padşaha xəbər verərəm. O, şəxs dedi:-Mən xəzinə tapmamışam,bu Diqyanus sikkəsidir.Dünən biz şəhərdən çıxıb getmişdik, bu gün çörək almağa gəlmişik...

Bu söz-söhbət padşaha çatır. Məlum olur ki, Diqyanusun hakimiyyəti dövrundən əsrlər keçmiş və bir çox padşahlar gəlib-getmişlər. İndiki, hakimiyyətdə olan Padşah və əhalisi də Hz.İsanın dinindən idilər.

Allah bu əhvalatı xəbər verib buyurur:"Biz Padşahı xəbərdar etdik ki, Allahın vədinin haqq olduğunu bilsinlər,öləndən sonra dirilmək, savab və əzab doğrudur."Həqiqətən, Qiyamətin baş verməsində şübhə yoxdur. O zaman ki, öz aralarında mübahisə edirdilər, bir qismi deyirdi ki, yenidən dirilmək yoxdur, başqa biri deyirdi ki,cisimlər yox, ancaq ruhlar dirilir. Buna görə də Allah cismani dirilməyin doğru olduğunu onlara bildirmək istədi.

Padşah şəhər əhli ilə mağaraya onların yanına gəlib sual-cavab etmək istədikdə onlar yıxılıb vəfat etdilər.

Onların sayı haqda isə ixtilaflar vardır.Yəhudilər onların sayı üçdür, dördüncüsü onların köpəyidir, xristianlar onların sayı beşdir, altıncısı onların köpəyidir deyə qeybdən xəbər verdilər. Bəziləri deyirlər ki, onların sayı yeddidir, səkkizincisi isə köpəkləridir. Əlbəttə, onların sayını Rəbbimiz daha yaxşı bilir.

Ya Muhəmməd!Əshabi-Kəhf barəsində yalnız sənə açıq-aşkar nazil olan ayələrə əsaslanıb onlarla mübahisə et! Quranda olanlarla kifayətlənib çox dərinə getmə və kitab əhlinin heç birindən onlar haqqında bir şey soruşma!

HƏZRƏTİ MUSA İLƏ HƏZRƏTİ XIZIRIN ƏHVALATI

Kəhf-60-82-Allah Tövratı Musaya nazil etdikdən sonra Həzrətin xəyalına gəldi ki, görəsən yer üzündə məndən çox bilən varmı? Bu zaman Cəbrail nazil olub dedi:"Ya Musa!Allah sənə buyurur ki, iki dəryanın bir-biri ilə birləşən yerinə gedəsən və daşın yanında səndən daha çox bilən bir nəfər ilə görüşüb, ondan elm öyrənəsən. Onu görməyinin əlaməti budur ki, əlindəki quru balıq dirilib suya düşsün."Musa öz şagirdi ilə çörək və bir neçə quru balığ götürüb yola düşdülər.İki dəryanın bir-biri ilə birləşən yerinə çatdıqda onlar balığı yaddan çıxartdılar. Çünki şagirdi Yuşa balığı yuyub daşın üstünə qoymuşdu və balıq da dirilərək, dəryaya üz tutmuşdu. Onlar iki dəryanin birləşdiyi yerə çatdıqda Musa

öz şagirdinə dedi:bizim yeməyimizi gətir, nahar edək, həqiqətən də, bu səfərdə böyük zəhmətə düşdük. Şagirdi isə:-Biz daşın yanında oturanda mən balığı orada unutdum və balığın da dirilib dəryaya üz tutması çox qəribə bir haldır- dedi.

Musa balıq əhvalatını eşitdikdən sonra öz ayaq izləri ilə geri qayıdaraq, daşın yanında həmin adam ilə görüşür. Həmin adam Allah yanında rəhmət, vəhy və Peyğəmbərlik verilmiş və qeyb elmləri öyrədilmiş Xızır Peyğəmbər idi.Onlar görüşdükdən sonra Musa Peyğəmbər onunla yol gedərək bilmədiklərini öyrənmək istədi. Xızır Peyğəmbər isə:"Sən mənimlə yol gedə bilməzsən dedi.Çünki bu yolda mənim etdiklərimə səbir edib və mənə heç bir sual verməyəsən gərək."Musa dedi:"Əgər Allah istəsə, məni səbir edən görərsən və heç bir işdə sözündən çıxmaram."Sonra hər ikisi gəlib bir gəmiyə mindilər.Gəmiyə mindikdən sonra Xızır gəmini deşərək taxtasını çıxarır. Bu anda Musa təəccüblə gəmini nə üçün deşdiyini və sərnişinləri nə üçün batırmaq istədiyini soruşur.Xızır deyir:"Mən sənə demədim ki, sən mənimlə səbir edib, yol gedə bilməzsən. "

Musa deyir:"Aramızda şərti unutduğum üçün məni cəzalandırma və sənin yol getməyə mənə icazə ver."Onlar gəmidən düşüb bir qədər yol getdikdən sonra, rastlaşdıqları həddi-büluğa çatmayan bir oğlan uşağını Xızır vurub öldürür. Musa təəccüblə sual etdikdə, Xızır ona belə cavab verir ki, sən bir də mənə sual etsən, bir daha sənin yol getmərəm. Sonra onlar gedib bir kəndə çatdılar və oranın əhlindən yemək istədilər. Əhali onları qonaq etməyə razı olmadı. Sonra Xızır orada ucub, dağılmaqda olan bir divarı hörüb, yıxılmağa qoymadı.

Musa dedi:"Bu kəndin əhli bizə bir parça çörək vermədi.Əgər sən istəsəydin bu işə görə muzd alardın ki, bu gün dolanardıq.Bu sualdan sonra Xızır belə cavab verir:

"Biz sənin artıq burada ayrılacağıq və mən sənə səbir edə bilmədiyin, işlərin haqqında xəbər verəcəyəm. O, gəmi dənizdə işləyən bir neçə fağır şəxsə məxsus idi ki, onun qazancı ilə dolanırdılar. Mən gəmini ona görə nöqsanlı etdim ki, qarşıda dayanan bir Padşah nöqsansız gəmiləri zəbt edib işlədirdi, nöqsanlı gəmilərə isə dəyməyirdi. Cavan oğlana gəldikdə isə onun ata-anası mömin adamlar idilər. Mən onun alnında gördüm ki, həddi buluğa yetişəndən sonra kafir olacaq. Biz qorxduq ki, ata-anasına küfrlə təsir etsin. Ona görə Allah onlara daha xeyirli, iman və paklıq cəhətdən daha yaxşı bir övlad qismət etdi. (Peyğəmbərimizin şəriətində kafir əsirlərin böyüyünü öldürmək caiz olsa da, kiçikləri öldürmək olmaz.Ola bilsin ki, Xızırın şəriətində kiçiyi

öldürmək də caiz imiş. Hədisdə vardır ki, Allah o kişiyə bir qız övladı verdi ki,ondan Peyğəmbərlərin nəsli əmələ gəldi).

Divar isə bu şəhərdə olan iki yetimin idi və o divarın altında xəzinə var idi. Uşaqların atası isə saleh kişi idi. Allah istədi ki,uşaqlar həddibüluğa yetişən zaman divarın altındakı xəzinəni çıxarsınlar. Mən bu işləri öz əmr və iradəmlə, öz başına etmədim, əksinə, hər şeyi Allahın əmri ilə etdim və səbir edə bilmədiyin şeylərin yozumu budur.

Hz.Musa ilə Hz.Xızır yol gedərkən gördülər ki, bir quş dimdiyi ilə dənizdən bir damla su götürüb içir. Sonra yenə bir damla su içərək sağ və sol tərəfə, qibləyə,şimala tərəf və dəryaya atdı. Onlar bu işdən şox təəccübləndilər. Bu hadisəni müşahidə edən, çoban surətində bir nəfər dedi ki:-Quş sizə anladır ki,öz əməlinizi çox hesab etməyin! Sizin ikinizin də biliyi o quşun içdiyi dəryadakı damla qədər də deyildir. Axır zamanda bir Peyğəmbər gələcək ki, şərq, qərb və şimal tərəfin əhlinin elmi onun yanında dənizə nisbətən bir damla qədər olacaq.Burada Hz.Musa və Hz.Xızır bildilər ki, Allah tərəfindən onlara xatırlatma verilmişdir.

QURANDA HƏLAK OLMUŞ QÖVMLƏR HAQDA

Açıqlama:-Allah elçiləri vasitəsi ilə insanlara ilahi təbliği buyurmuş, lakin insanların bəziləri onların sözlərini qəbul etmiş, bəziləri isə onları təkzib edib, hətta onları incitmişlər.

Bu mövzu ilə bağlı olaraq Quranda cəlb edici məqamlardan biri də həlak edilmiş xalqların yüksək sivilizasiyaya, mədəniyyətə sahib olmalarıdır. Qurani-Kərimdə xalqların məhvolma səbəbləri onlarda Allahın vahidliyinə inamın olmaması səbəbi olsa da, Allahın buyurduğu ibrət və göstərişləri yerinə yetirməməkdə israrlı olmaları bu gün bizləri də çox düşündürməlidir.

Qurani-Kərimdə buyurulan bu ayə də bizi xəbərdarlıq edir:

əl-Ənkəbut-14-Biz Nuh qövmünə Peyğəmbər göndərdik və o, min ildən əlli il az onların arasında yaşadı.Qövmü zülmkar olduğuna görə tufan onları bürüdü.

Başqa bir ayədə isə bu haqda belə buyurulur:

əl-Əraf-4-Biz bir çox qəryə əhlini həlak etdik.Bizim əzabımız onlara Lut qövmü kimi gecə yatdıqları halda, ya Şüəyub qövmü kimi günorta vaxtı yuxuda olarkən gəldi.Məqsəd budur ki, əzab qəflətdə olduqları zaman gəlmişdir. Əzab gələn vaxt onların duası yalnız belə oldu:"Həqiqətən, biz öz nəfslərimizə zülm edənlərdən olduq. Peyğəmbərin sözünə itaət etməyib, günaha batdıq."

Hud-100-101-Bunlar bəzi məhv edilmiş məmləkətlərin xəbərlərindəndir ki, onları sənə nəql edirik.Bəzilərindən əsər-əlamət qalmış, bəziləri isə yerlə yeksan olmuşlar. Biz onlara zülm etmədik. Onlar özləri-özlərinə zülm etdilər. Allahdan qeyri ibadət etdikləri tanrılar Allahın əmri gəldikdə onlara heç bir fayda verm ədi,əksinə yalnız ziyanlarını artırdı.

ət-Tovbə-70-Məgər onlara keçmişlərin xəbərləri gəlmədimi?

Günah etdiklərinə görə hər biri bir əzaba tutuldular.Nuh qövmü tufanla qərq oldu.Ad qövmü küləklə məhv oldu.Səmud qövmü şiddətli səs ilə, İbrahim qövmü ağcaqanad ilə, Mədyən qövmü od ilə həlak oldu.Yerləri alt-üst olan Lut qövmü də həlak oldu.Onların hamısına möcüzələrlə Peyğəmbərlər gəlmişdi. Allah onlara zülm edən deyil,lakin onlar özlərinə zülm edərlər,çünki onlar Peyğəmbərin sözünü qəbul etmirdilər. Sənin qövmünə də səni təkzib etdiklərinə görə əzab gələcəkdir.

əl-Qəmər-9-38-Onlardan qabaq Nuh qövmü də bəndəmiz Nuhu təkzib edib, ona divanə demişdilər. Nuh (ə.s.) Allaha dua etdi və dedi: ”Həqiqətən, mən məğlub olmuşam, kafirlər mənə iman gətirmədilər. Allahım, mənə kömək et! Biz axar su ilə göylərin qapısını açdıq, yeri parçalayıb oradan çeşmələr çıxardıq. Göydən və yerdən axan su birbirinə qarışdı. Bu müəyyən olunmuş bir hadisə üçün Nuh qövmünün həlakı üçün nəzərdə tutulmuşdu.Biz Nuhu taxta və mismarlara malikolan gəmiyə götürdük.Gəmi kafirlərə cəza olmaq,onları sularda qərq etmək üçün iman gətirənlərlə birlikdə bizim köməyimiz ilə üzərdi.Nuh qövmünə gələn əzabı ibrət əlaməti etdik. Heç nəsihət qəbul edən varmı?

Ad qövmü Hud Peyğəmbəri təkzib etdi və əzaba düçar oldu.Biz onlara yeddi gecə,səkkiz gün bir-birinin ardınca nəhs gündə bərk külək göndərdik. O külək camaatı yerindən qoparardı və üzü üstə salardı. Sanki onlar yerdən qopmuş xurma ağacının kökləridir. Səmud qövmü onları qorxudan Peyğəmbərlərini təkzib etdilər. Onlar dedilər:-Məgər biz öz cinsimizdən olan bir nəfərəmi tabe olacağıq? Əgər ona tabe olsaq, biz zəlalətdə və zəhmətdə olarıq. Bizim aramızda onamı vəhy gəlməli idi? Əksinə, o danışdığı sözdə yalançıdır və özü də Peyğəmbərlik adı ilə aramızda böyüklük etmək istəyir. Allah onların cavabında buyurur:-Sabah bilərsiniz təkəbbürlük edən kimdir. Biz imtahan üçün onlara dəvə göndərdik ki, görək kim iman gətirəcək, sən onların əziyyətinə səbir et! Ya Saleh! Onlara xəbər ver ki,su aralarında bölünmüşdür, bir gün dəvəyə, bir gün də camaata məxsusdur. Hər hissə öz sahibi üçün hazırlanmışdır. Onlar yoldaşlarını çağırdılar, bir yerə toplaşıb, dəvəni

öldürmək üçün tədbir tökdülər. O,qılınc götürüb dəvənin qıçlarını kəsdi.Biz onlara bircə səs göndərdik. Hamı qurumuş ağacın budaqları kimi öldü. Hud qövmü də, Peyğəmbərləri təkzib etdilər. Biz onlara daş yağdıran külək göndərdik, hamı həlak oldu.Təkcə Lut və övladı istisna oldu. Onlara sübh zamanı nicat verdik. Lut onları bizim əzabımızla qorxutdu. Onlar Peyğəmbərə şəkk etdilər. Lutun qonaqları ilə eşqbazlıq etdilər. Biz onların gözlərini kor etdik. Bizim əzabımızı və qorxumuzu dadın! Onların övladı da bizim ayələrimizi və Peyğəmbəri təkzib etdilər. Biz də əzab göndərməklə qalib və qüdrət sahibi olan kəs kimi onları yaxaladıq.

əl-Haqqə-4-Səmud və Ad qövmləri Qiyamət gününü,başa dönülən günü təkzib etdilər. Səmud qövmü tüğyan etdiklərinə görə həlak oldular.Allah onlara yeddi gecə və səkkiz gün ardıcıl külək göndərdi. Sən həmin müddətdə o tayfanı ölü kimi düşmüş halda görərsən ki, sanki çürümüş xurma ağaclarının kökləridir. Onlardan heç bir nəfər də olsun sağ qalmadı. Firon və ondan qabaq olan qövmlər də xətakarlıqla gəldilər və Allahın Peyğəmbərinə qarşı asi oldular. Allah onları çox şiddətli əzab ilə yaxaladı. Nuh qövmü də çox günahlar etdi və su tüğyan etdikdə onlardan bəzisi xilas oldu, bəzisi isə suya qərq oldu. Bu nəsihəti yadda saxlaya bilən qulaqlar qəbul edər.

əl-Fəcr-6-Məgər sən görmədin ki, sənin Allahın Ad qövmünə nə etdi? Sütunlar sahibi olan İrəm nəvəsinə ki,onların tikdirdikləri şəhərin misli dünyada olan şəhərlərdə xəlq olunmayıbdır?!

əl-Bəqərə -66-Biz bunları onların yanlarında olanlara və sonradan gələn nəsillərə ibrət və nəsihət olsun deyə etdik.Yəni Biz onları həm o əsrdə olan insanları, həm də ondan sonra tədricən gələn insanları qorxunc və ibrətli hadisə kimi göstərdik ki, görüb və eşidib ibrət götürsünlər.Biz bütün bunları təqvalı insanlara moizə etdik.

QURANDA ADI ÇƏKİLƏN PEYĞƏMBƏRLƏR HAQQINDA

1.Hz.Adəm: Rəvayətə görə 1000 və ya1020 il yaşamış, Kufədə Həcəf şəhərində dəfn edilmişdir.

Adəm Peyğəmbər-uzunboylu, buruq və çox saclı,qırmızı bənizli, böyük gözlü, gözəl görünüşlü və saçı iki bölük halında hörgülü idi.

Həvva ana- Rəvayətə görə Cəddədə dəfn olunmuşdur.

Şiys, Adəmin övladı: Rəvayətə görə 912 il ömür sürmüş Məkkədə, Əbu Kubeys dağındakı mağarada dəfn edilmişdir.

2.Hz.İdris:-Rəvayətə görə Babildə və ya Misirin paytaxtı Mənəf şəhərində anadan olmuşdur.Atasının adı Uxnux idi.O, 365 il ömür sürmüşdür. O ağsaçlı,uzunboylu və iri sümük-lü, səsi incə, danışığı mülayim idi.

Əzrail(ə.s.) Cənnətin 4-cü qatında Allahın əmri ilə onun canını alıb.

3.Hz. Nuh:İlk Ulul-əzim Peyğəmbərdir.Rəvayətə görə 2500 il yaşamış, Nəcəfdə dəfn edilmişdir.O, uzunboylu, qarabuğdayı, böyük gözlü, iri vücudlu idi.

3 oğlu var idi:-Sam Ərəblərin babası,Ham Həbəşlərin babası, Yafes isə Rumların babasıdır.

4.Hz.Hud:-Sam nəslindən gələn Şalihin oğludur.Bir rəvayətə görə 400 il,digərinə görə isə 807 il yaşamışdır. O,orta-boylu, qarabuğdayı idi.Məkkədə bir dağın ətəyində dəfn edilmişdir. (Hakim, Müstəd-rək, c.2-səh.-563)

5.Hz.Saleh:Səmud ibn Əmir, ibni İrəm,i bni Sam, ibni Nuhun övladlarındandır. Ağa çalan qırmızı üzlü, saçları düz idi.

Vəfat edən zaman 258 və ya 280 yaşı var idi.Məkkədə Zəm-zəm və Həcəri-Əsvəd rüknü arasında dəfn edilmişdir.

Rəvayətə görə ümmətləri həlak olan Peyğəmbərlərdən, Hud, Saleh, Şüeyb Məkkədə vəfat etmişlər.

Rəvayətlərə görə Zəm-zəm və Həcəri-Əsvəd rüknü arasında 70-dən çox Peyğəmbər dəfn edilmişdir.

6.Hz.İbrahim:Orta boylu, ağbənizli, alagözlü, ağsaçlı, gülər- üzlü idi. İbrahim (ə.s.) Kənan elində xəstələnib 175 və ya 200 yaşında vəfat etmişdir.

7.İsmail (ə.s.):Hündürboylu, qıvrımsaçlı,üzü nurlu, qüvvətli, əlləri və ayaqları uzun idi. O,137 yaşında vəfat etmiş Məkkədə, Hicri-İsmailda anası Həcərin yanında dəfn edilmişdir.

8.İshaq (ə.s):Uzun boylu, qara gözlü,qarabuğdayı və ağ saçlı idi.

Fələstində Beytul-Müqəddəsdən 18 mıl uzaqlıqda,Məscid İbrahim deyilən yerdə ana-atasının yanında dəfn edilmişdir.

9.Lut (ə.s.): Ortaboylu idi.Lut (ə.s.) qövmünün həlakından 7 il sonra vəfat edib.

10.Yaqub (ə.s.): Zəif görkəmli,ağıllı və vüqarlı,gözəl üzlü idi.Qardaşı Eysdən daha gözəl danışırdı.O,Misirdə 147 yaşında vəfat edir və oğlanlarına vəsiyyət etdiyi kimi Qüdsdə babalarının yanında dəfn edilmişdir.

11.Yusif (ə.s.) Yaqub ibn İshaq ibn İbrahim (ə.s.) nəslindəndir. O,Misirdə anadan olmuşdur.Yusif (ə.s.) ağ bənizli,gözəl üzlü,qıvrım saçlı idi.Üzü günəş kimi parlardı.

Yusif (ə.s.) 120 il ömür sürmüş,cənazəsi Nil çayının kənarında basdırılmışdır,sonra isə çıxarılaraq Fələstinə aparılmışdır.

12.Əyyub (ə.s.) İshaq,ibn İbrahim (ə.s.) soyundandır.Əyyub uzun boylu, qıvrım saçlı idi. Yaşadığı yer Şam, Dəməşq, yəni Suriya idi. Eyyub(ə.s.)un 150 və ya 200 yaş arası ömür sürdüyü bildirilir. Qəbri Suriyada Bəsəniya şəhərindədir.

13.Zülkifl (ə.s.) Bişr ibn.Eyyub (ə.s.) nəslindəndir.70 il ömür sürmüş və Şam şəhərində dəfn edilmişdir.

14.Şüeyb (ə.s.) ibn.Mikail ibn.Mədyən ibn.İbrahim ə.s. və yaxud da onun ən yaxınlarının soyundandır və Mədyəndə anadan olmuşdur. Tarixçilər Mədyən şəhərinin İordaniyadan Məkkəyə gedən yolun üstündə olduğunu bildirirlər.İndiki Qırmızı dəniz sahilidə Təbuk şəhərinin qarşısında yerləşir.Şüeyb (ə.s.) orta boylu,buğdayı bənizli idi.

Şüeyb (ə.s). Mədyən xalqı həlak olduqdan sonra Məkkədə yerləşmiş və orada da vəfat etmişdir.Qəbrinin Kəbə evinin yanında Darün-Nəbvə ilə Bəni-Səhm qapısı arasında ki, yerdə olduğu rəva-yət olunur.

15-Musa ibn İmran, ibn. İshaq,ibn. İbrahim (ə.s) soyundandır. Musa ilə Harun (ə.s.) atabir-anabir bir qardaş idilər.Harun (ə.s.) Musa (ə.s)dan bir neçə yaş böyük idi.İsrail oğullarından olub, Misirdə anadan olmuşdu.

Hz.Musa uzunboylu,qarabuğdayı idi.Sağ əlində nübüvvət işarəsi var idi.Musa(ə.s.) 123 və ya 126 il ömür sürmüşdür.

16.Hz.Harun: Musa(ə.s.)nın ata-ana bir qardaşıdır.O, Musa dan bir az hündür, bir az ağbəniz idi.Harun (ə.s.) Musa (ə.s.) dan 3 il əvvəl rəhmətə getmişdir.Qəbri "Turi Sina"dakı Tur dağındadır.

17. 17.Hz.Xızır:Rəvayətə görə Xızırın soyu Eys ibn İshaqın oğullarından olub və babasının böyük bir kral olduğu bildirilir.Xızır(ə.s.) İsrail oğullarına Peyğəmbər olaraq kral Emisin zamanında göndərildiyi, hələ də sağ olub, hər il Həcc mərasimində İlyasla görüşdükləri də rəvayət olunur."Xızır"onun əsil ismi olmayıb, künyəsi idi.

Peyğəmbər(s.ə.s.) ona Xızır deyilməsinin səbəbini açıqlayaraq belə buyurmuşdur:"Xızır otsuz quru bir yerdə oturan kimi, o otsuz yer yaşıllanaraq,onun arxasınca dalğalanardı."Xızır (ə.s.) haqqında Kəhf surəsində,Musa (ə.s.) ilə onun söhbətləri qeyd edilmişdir.

18.Hz.İlyas:Harun ibn İmran soyundandır.İlyas uzun boylu, zəif bədənli, qıvrımsaçlı idi.O,Allah tərəfindən göndərilən Peyğəmbərlərdən olmuşdur.

19.Hz.Yəsə :Bu Peyğəmbərin adı Quranda iki dəfə gəlib və onu İlyasın şagirdi və canişini kimi tanıyırlar. ibn.İshaq, ibn. İbrahim soyundandır.

20.Hz.Yunus:ibn.Yaqub,ibn.İshaq ibn.İbrahim oğullarının soyundandır.Matta Yunisin anası idi.O, Musur xalqından idi.

Rəvayətlərə görə Yunis (ə.s.) Məkkəyə gedərkən vəfat etmiş və Şam ilə Mədinə arasında ki, Hərşa təpəsində dəfn olunub.

21.Hz.Davud:Yəhuzə ibn.İshaq, ibn İbrahim(ə.s.) soyundandır. Davud (ə.s.) qısaboylu, ağbənizli, mavigözlü,qırmızıüzlü, az və düz saçlı idi.Gur və gözəl səsli, təmiz qəlbli və çox anlayışlı idi.

Səduq"İkmaluddin" kitabında İmam Sadiqdən,o da Peyğəmbər (s.ə.s.)dən rəvayət edir ki, Hz.Davud 100 il ömür sürüb. Hz.Davud ömrünün axırında oğlu Hz.Süleymanı öz canişini etdi.

Davud (ə.s.) Beytül-Müqəddəsdə Davud kəndinin yaxınlığında dəfn olunmuşdur.

22.Hz.Süleyman:ibn Davud ibn Yəhüza,ibn İshaq,ibn İbrahimin nəslindəndir.Hz. Süleyman uzunboylu, iri vücudlu, nurlu və gözəl üzlü idi.Hz.Süleyman yaşının az olmasına baxmayaraq, atası Davudun ölümündən sonra ona krallıqla birlikdə Peyğəmbərlik və elm də verilmişdi.Hz.Süleyman Hz.Davudun yanında Beytul-Müqəddəsdə dəfn edilmişdir.

23.Hz.Loğman :Davud (ə.s.) dövründə yaşamışdır.Əsli Misirli, özü Nud qəbiləsinə mənsubdur.İsrail oğullarından bir adamın qulu olmuş,sonra onu azad edib var-dövlət vermişdir.

Loğman (ə.s.) Allah tərəfindən hikmət verilmiş və saleh bir qul idi. Loğman (ə.s.) Beytül-Müqəddəs yanındakı Remlə şəhərində vəfat etmiş, elə orada da dəfn edilmişdir.

Hz. Üzeyr -Harunun nəslindəndir.Qurani-Kərimin Bəqərə surəsi 159-cu ayəsində onun haqqında danışılır.

24.Hz.Zülqərneynin adı, soyu və Peyğəmbər olub-olmaması haqqında ixtilaflar vardır.

Qurani-Kərimdə Kəhv-83-100-ə qədər ayələrdə onun haqqında danışılır.

25.Hz.Zəkəriyyə:Harunun övladlarından olub,soyu Yaqub ibn Yəhüzə, ibn Davud,ibn Süleymana dayanır.O,ənbiya oğullarından olduğu üçün Beytül-Müqəddəsdə din işləri üzrə böyük idi.

Qurani-Kərimin dörd surəsində Zəkəriyyə (ə.s) adı zikr olunmuşdur. Həzrət Zəkəriyyə Şam şəhərində "Zəkəriyyə"məscidində dəfn olunmuşdur.

26.Hz.Yəhya:Həzrət Zəkəriyyənin oğlu idi.Yəhya (ə.s.) Şam şəhərində dəfn edilmişdir.

27-Hz.İsa:Məryəm(ə)in oğludur,Ruhul-Qüddusdur və qeybdədir.

28)Həzrəti Muhəmməd (ə.s.) Məkkə şəhərində 570 ci ildə anadan olmuş. 633-cü ildə Mədinə şəhərində vəfat etmiş və Mədinədə Peyğəmbər məscidində dəfn edilmişdir. **(Mir Həvənd,Ravzatus-səfa- tətcümə,5-111-İstambul-1258-ci il)**

BÜTÜN PEYĞƏMBƏRLƏRİN HƏYATI HAQQINDA QISA MƏLUMAT

HZ.ADƏM PEYĞƏMBƏR HƏYATI HAQQINDA

O zamanlar ki, eşqə səcdə qılan yox idi,
Yoxluq içində varlıq səssiz bir çocuq idi.
Lakin gəldi o xoşbəxt yoxluqdan bu varlığa,
Bəşər darvazasını açdı bəxtiyarlığa.
Nə "aşiq", nə də "məşuq" kəlməsi vardı hələ,
Nə varlığın varlığa gəlməsi vardı hələ.
Yoxluğa bəxtiyarlıq işığı saçdı Adəm,
Varlığın qapısını üzünə açdı Adəm.
Ondan əvvəl pəriydi, əcinnəydi həyatda,
Bəşərin ilk atası özüdür kainatda.
Xilafət bayrağını uca tutdu dağ kimi,
Endi də, yüksəldi də tutduğu bayraq kimi.
Pakdı ki, dərs alıbdı yerdə mələklər ondan,
Torpaqdan yaranıb ki, şərəfləndi yer ondan.
Cövhəri tutqunsa da, gövhər kimi safdı o,
Zərdi, məhək daşıdı, zərgərdi, sərrafdı o,
Göyün çilçırağından işıqlıdı kamalı,
Bəşərin varlığına bir aynadı camalı. "Sirlər xəsinəsi"

Açıqlama:-Adəm (ə.s.) yaranışı haqqında"Allah ilk insanı palçıqdan yaratdı" adlı mövzuda qeyd edilmişdir.

əl-Bəqərə-30-34-O zaman ki sənin Allahın mələklərə buyurdu: "Mən yer üzündə xəlifə(canişin) yaradacağam."Mələklər dedilər: "Biz Sənə şükür etdiyimiz, şəninə təriflər dediyimiz və Səni müqəddəs tutduğumuz halda, Sən yer üzündə fəsad törədəcək və qan tökəcək bir kəsimi yaratmaq istəyirsən?"Yer üzündə fəsad edən,qan tökən kəsləri yenə də yaratmaq istəyirsən?"Allah onların cavablarında:"Mən bildiyim şeyi siz bilmirsiniz!"- buyurdu.

Allah Adəmə yaranmışların hamısının adını təlim etdi.Sonra Allah

adları mələklərə nişan verdi və buyurdu:-Əgər siz doğru deyirsinizsə, bunların adlarını mənə xəbər verin.

Mələklər dedilər:-Pərvərdigara!Sən bütün nöqsanlardan paksan.Bizə öyrətdiyindən savayı bizim elmimiz yoxdur.Həqiqətən də Sən hər şeyə Alim və hər şeyi hikmətlə xəlq edənsən.

Allah buyurdu:"Ey Adəm!Onların adlarını mələklərə xəbər ver!"

Adəm bütün məxluqatın adlarını mələklərə xəbər verən zaman Allah mələklərə dedi:"Mən sizə göylərin və yerin gözlə görünməyən sirlərini və sizin zahirə çıxardığınız, yaxud gizli saxladığınız işləri bilirəm, söyləmədimmi?"

Biz mələklərə:"Səcdə edin"-dediyimiz zaman İblisdən başqa bütün mələklər səcdə etdilər. İblis səcdə etməkdən imtina edib, təkəbbürlük etdi və kafirlərdən oldu.

əs-Səcdə-7-9-O elə bir Allahdır ki,yaratdığı hər bir şeyi gözəl yaratdı və insanı yaratmağa torpaqdan başladı.

əl-Ənam-11-30-Allah buyurdu:-Adəmə səcdə etməyə əmr etdiyimiz zaman sənə nə mane oldu ki,səcdə etmədin?

Şeytan dedi:-Mən ondan yaxşıyam.Sən məni oddan, onu isə palçıqdan yaratmısan.Şeytan od ilə palçığın nuraniyyətini müqayisə etdi, lakin Adəm ilə özünün nuraniyyətinə fikir vermədi.

Biz Adəmə dedik:-Ey Adəm,sən və zövcən Həvva behiştdə sakin olun. İstədiyiniz meyvələri yeyin!Bu ağaca yaxın durmayın.Belə ki, əgər yaxınlaşıb o meyvədən yesəniz, əlbəttə, öz nəfsinizə zülm edənlərdən olarsınız.

Şeytan onlara vəsvəsə etdi.Məqsədi bu idi ki,onların örtülü olan yerləri aşkar olsun.Onlara dedi ki:"Allah sizi bu ağacdan istifadə etməyi yalnız mələk olmamağınız, yaxud burada həmişəlik qalmamağınız üçün qadağan etmişdir.Çünki bu meyvələrin xüsusiyyəti odur ki,onu yeyən kəs mələk olub,həmişəlik Cənnətdə qalar. "Beləliklə, Şeytan onları-Adəm və Həvvanı aldatmaqla aşağı saldı.Adəm Allaha yalandan and içməyin mümkün olmasını güman etmirdi. Buna görə ağacın yanına gəldi.Həvva həmin meyvədən üç ədəd dərib ikisini Adəmə verdi, biri isə özündə qaldı. O,meyvədən yeyərkən övrətləri görsəndi. Onlar övrətlərini behişt ağaclarının yarpaqları ilə gizlədirdilər.Yarpaq götürmək üçün hansı ağaca yaxın gedirdilərsə,əncir ağacından başqa bütün ağaclar onlardan qaçırdı. Allah onlara nida etdi:"Məgər mən sizi bu ağacdan nəhy edərək, Şeytanın sizin böyük düşməniniz olduğunu, onun sözünə baxmamağı demədimmi?"

Onlar dedilər:"Ey bizim Allahımız!Biz öz nəfslərimizə zülm etdik.

Əgər sən bizi bağışlamasan və bizə rəhm etməsən, şübhəsiz ziyankarlardan olarıq.”

Allah buyurdu:”Behşitdən aşağı düşün.Siz bir-birinizə düşmənsiniz. Sizin üçün yer üzündə müəyyən bir vaxta kimi qərargah və dolanacaq vardır.Orada-dünyada dirilərsiniz,orada vəfat edərsiniz və oradan əməlinizin cəzasını almaq üçün xaric olarsınız.”

HƏVVA ANAMIZIN YARANIŞI HAQQINDA

Ali Imran-1-Ey insanlar!Sizi bir nəfsdən:-Adəmdən,ondan da onun tayını Həvvanı yaradan və onun ikisindən çoxlu kişi və qadın törədən Allahdan qorxun.

Açıqlama:-Yer üzündə yaradılan ilk qadın Həvva anamız olmuşdur.O Adəmin sol qabırğasının sümüyündən yaradılmış və ona zövcə olaraq təqdim etmişdir. Sonsuz qüdrət belə təcəlli etmiş, ilk insanı cansız torpaqdan, ikinci insanı onun canlı vücudundan yaratmışdır.Bu sirr pərdəsi Qurani-Kərimdə belə açıqlanır:

-ən-Hisa-1-“Ey insanlar,Rəbbinizə qarşı gəlməkdən çəkinin.O Allah sizi tək bir nəfəsdən Adəmdən yaratdı, ondan da Həvvanı yaratdı.Onların hər ikisindən çoxlu kişi və qadın törədən Allahdan qorxun.

Ayədə keçən ”Ondan da eşini yaratdı” ifadəsi Həvva anamızın Adəmdan yaradıldığını bildirir. Bir çox alimlər Həvvanın, insanlığın özündən yaradıldığını, tək nəfsin (şəxsin) Adəmdən yaradıldığı xüsusda eyni fikirdədirlər. Bəzi alimlər isə Həvvanın, Adəmin artıq qalan torpağından yaradılması qənaətindədirlər.

Həvva anamız Cənnətdə yaradılmışdır. Bu hökm:”Sən və zövcən Cənnətdə qalın.”Bəqərə-35 və Əraf-19 ayətlərdən də məlum olur.

Hədis:Hədisi-Qüdsi-Şeyx Səduq-Peyğəmbərimizdən buyurur: Hədisdə belə buyurulur ki, Allah Adəmi torpaqdan yaradıb.Allahın əmri ilə mələklər ona səcdə etdikdən sonra O, Adəmi yuxuya verib və onun darıxmaması üçün Həvvanı yaradıb.

Adəm (ə.s.)yuxudan ayılanda, yanında özünə bənzər,lakin cinsi qadın olan bir bəşər gördü. Onun kim olduğunu soruşduqda Həvva onun öz dilində cavab verdi:-Mən Allahın məxluquyam və Allah məni sənin üçün yaratmışdır.

Adəm(ə.s.) Allahdan soruşdu:-Pərvərdigara!Mənə yoldaş olan bu məxluq kimdir?

Nida gəldi:-Ey Adəm,bu mənim kənizimdir.Sənə yoldaş olmasını istərmirsən?

Adəm(ə.s.):-Bəli,ey mənim Rəbbim.Bunun müqabilində sənə şükür

edərəm. Allah:-Onu məndən istə.

Adəm(ə.s.):-Mən onu səndən istəyirəm. Buna görə sənin razılığın nədir?

Allah:-Razılığım odur ki,dinimi ona öyrədərsən.

Adəm(ə.s.) qəbul etdi.Allah onda şəhvət hissini yaradandan sonra, Adəm (ə.s.)Həvvanı özünə tərəf çağırdı.Həvva qəbul etməyib dedi:-Sən mənim yanıma gəl.

Allah Adəmə əmr etdi ki,onun yanına getsin.O da qalxıb Həvvanın yanına getdi. Əgər belə olmasaydı, əksinə, qadınlar kişilərə elçi gedərdilər.

Başqa bir ayətdə belə buyurulur:"Ey insanlar, biz sizi bir erkək və bir də qadından yaratdıq.Bir-birinizi tanıyasınız deyə sizi qəbilələrə ayırdıq.Allah qatında ən şərəfliniz ən təqvalı olanınızdır.Uca Allah hər şeyi bilən və hər şeydən xəbərdardır.(Hucurat-13)

Uca Allah Adəm ilə Həvva barədə "ana-babanız"deyə bəhs etmişdir.

Hədis:"Hədisi Qüdsi"-Şeyx Səduqdən; Peyğəmbərimizdən rəvayət olunur:İblis Adəmə səcdə etmədiyi üçün lənətləndiyindən, Adəmə möhkəm ədavət bəsləyirdi və onun zövcəsi Həvva ilə Cənnətdə qalmaqlarını istəmirdi.İblis bir hiylə ilə onları aldadaraq,qadağan olunmuş meyvədən onlara yedirtdi.Bununla da onların fərmanı Allah tərəfindən çıxmış oldu və onlar Cənnətdən Yer üzünə endirildilər.Allah mələklərə əmr etdi ki, Adəmin əlindən tutub onu oradan çıxarsınlar. Adəm Cənnətdən çıxarkən dedi:-Ey Allahım,məni o "Ərşi-Əla"da adları yazılmış beş kimsələr xatirinə bağışla.

Allahda vəhy gəldi:"Yerə en, orada sənin tövbəni qəbul edərəm".

Adəm dünyaya,Yerə endi,ətrafa baxıb gördü ki,İblis ondan qabaq yerə enib.O,əllərini qaldırıb dedi: "Pərvərdigara,mənim İblislə mübarizə aparmağa taqətim yoxdur,burada yenə onu mənə müsəllət etdin,qanın damarlarda cərəyan etdiyi kimi onu da mənim bədənimə daxil olmağa qadir etdin."

Vəhy gəldi ki,ey Adəm, İblisi sənə müsəllət etmişəmsə də, onun müqabilində sənə başqa imkanlar və nemətlər vermişəm:-Əgər kim pis bir əməl fikirləşsə onun əməl dəftərinə yazılmayacaq.Əgər əməli yerinə yetirsə, yalnız bir günah yazılacaq.Əgər o,niyyətdə tutuduğu yaxşı işi həyata keçirsə onun üçün on savab yazılacaq. Sənin övladından,dağlar boyda günahı olanlar tövbə etsələr, onların tövbəsini qəbul edərəm.Mən onlara tövbə etmələri üçün ölüm ayağına qədər möhlət verərəm.

Allahdan vəhy gəldi ki,ey İblis hər bir Adəm övladı doğulduqda onun müqabilində sənin iki övladın olar.Sənin övladın Adəm övladına şirin arzular vəd verib onu aldadar.

Cənnətdən çıxdıqdan sonra Adəm və Həvva bir-birindən ayrılıb dün-

yanın müxtəlif guşələrinə düşdülər.Adəm Hindistanda Sərəndib dağına (indiki Seylon adasına), Həvva isə Cəddəyə düşdü.Cəddə adı da bu xəbərə əsasən meydana çıxıb.

Cəddə-ərəbcə "nənə"deməkdir.Həvva bəşəriyyətin ulu nənəsi olduğu üçün o şəhərə bu adı veriblər.Həvvanın qəbri də oradadır.

Adəm dünyaya düşüb o nemətləri itirdiyi üçün, həm də Allah-taala dərgahında asi olduğu üçün peşmanlıq,həsrət və xəcalətdən gecə-gündüz ağlayırdı.Bu minval ilə o 200 və ya 500 il ağladı.

Nəhayət, Cəbrayıl nazil olub onun tövbəsinin qəbul olunduğunu xəbər verdi.Sonra Cəbrayılın bələdçiliyi ilə Adəm Məkkəyə yola düşdü və orada Həcc qılarkən Ərəfatda,Həvvanı tapıb görüşdü. Onlar görüşüb,ağlayaraq Allaha belə dua etdilər:

-əl-Əraf-23-Ey Rəbbimiz!Biz öz nəfsimizə zülm edərək,yazıq olduq.Əgər sən bizi əfv edib bağışlamasan,bizə acıyıb rəhm etməsən, yəqin ki,onda ən böyük zərər və ziyana uğrayanlardan, pərişanlıq və bədxahlıq içində qalanlardan olarıq.O gündən etibarən onlar birgə yaşamağa başladılar.

Hədis:-Hədisi qudsi.Şeyx Səduqdan:-Əbu Əbdullah belə buyurdu:-Adəm Kəbənin astanasında dayanıb dedi:-Pərvərdigara! Mənim sapmalarımı güzəştə get, günahlarımı bağışla və məni elə çıxardığın evə qaytar.(yəni behiştə)

Allah buyurdu:"Sənin sapmalarına güzəştə getdim, günahlarını bağışladım. Tezliklə səni o evə qaytaracağam ki,səni həmin evdən çıxartmışdım."

Dünyada ilk Peyğəmbər və Nəbi Adəm (ə.s.) olmuş və ona 21səhifə endirilmişdir.Cəbrail (ə.s.) ona yazı yazmağı öyrətdiyi üçün əl yazmalarını özü yazardı.

Açıqlama:-Allah-taala Adəmin xilqətindən Həvvanı yaradaraq, onu təklikdən xilas etməklə bərabər gələcək insan nəslinin artması üçün vasitə yaratdı.Onlar Allahın fərmanı ilə evlənərək övlad sahibi oldular. Tarix və rəvayətlər də onun Həvvadan olan övladlarının sayı haqqında müxtəlif rəqəmlər söylənilir,bəziləri 40, bəziləri isə yüzdən yuxarı rəvayət edirlər.

Oğlanlarının adları Habil, Qabil, Şiys,qızlarının adları isə İnaq, İqlimə, Luza və sair adları tarixdə göstərilmişdir.

Adəmin övladlarının evlənməsi və insan nəslinin artması haqda müxtəlif nəzəriyyələr irəli sürülmüşdür.Tarixçilərdən bəziləri yazırlar ki, Adəmin Həvvadan hər doğuşda əkiz uşaqları dünyaya gəlib və bunlar bir-biri ilə əkiz olmayan tərəflə evlənibler.

Ancaq şiə alimləri tarixin belə baş verməsini inkar edirlər.Allah-

dan insan üçün behişt hurilərindən həyat yoldaşı göndərilməsini qeyd edirlər.Hətta Şiysin də yoldaşının hurilərdən olduğu qeyd edilir.

İmamlardan yetişən izahatlara görə qardaşla bacının evlənməsi bütün şəriətlərdə haram olduğu və Əbul-bəşər Adəmin bu harama düçar olmaması başa düşülür.Adəmlə Həvvanı gildən yaradan Allah, onun oğlanlarının evlənməsi üçün həyat yoldaşları yaratmağa və ya başqa aləmdən göndərməyə də qadirdir.

HABİL VƏ QABİL HAQQINDA

Hədis:"Biharul-ənvər"kitabında Cəfəri Sadiqdən nəql olanan rəvayətə görə,Allah-taala Adəmə vəhy etdi ki:"Sənə öyrətdiyim İsmi-əzəmi, əsmanı,verdiyim Peyğəmbərlik məqamını və Tabutu Habilə tapşır."Bunu eşidən Qabil hirslənərək Adəmin yanına gəlib öz narazılığını bildirir.Adəm ona deyir:"Övladım,bu iş Allahın əlindədir,hər kəsi istəsə, böyük məqama çatdırar.Sən böyük olsan da Allah bu məqamın Habilə verilməsini əmr etmişdir.Əgər mənim sözlərimin düzgünlüyünü bilmək istəyirsinizsə, hər biriniz bir qurbanlıq edin.Hər kəsin qurbanı qəbul olsa, o, bu məqama layiqdir. Qurbanın layiq olma əlaməti bu idi ki, göydən bir atəş gəlib onu aparar."

əl-Maidə-27-32"Adəmin iki oğlu-Habil və Qabilin əhvalatını doğruluqla onlar üçün oxu.Allah Adəmə vəhy etdi ki,vəsi olmağa Habili seçsin.Bir halda ki, Qabil ondan böyük idi. Qabil bu əhvalatdan xəbərdar olub qəzəblənərək dedi:-Mən vəsi olmağa daha çox layiqəm.

Adəm onlara əmr etdi ki, hər biri bir qurban aparıb Allah yolunda kəssinlər.Habilin qoyunu var idi. O, Allahın əmrinə razı olmaq niyyəti ilə yaxşı kök bir qoyun gətirdi.Qabil isə əkinçi idi. O, bir qədər sünbül gətirib fikirləşdi ki, onun qurbanı qəbul olsa da, olmasa,da haqq onunladır, onsuz da Adəmin sözünə razı olmayacaq.

Hər ikisi öz qurbanlarını apardılar.Birinin qurbanı qəbul olub digərinki isə qəbul olunmadı. Qabil qəzəblənərək dedi ki,nə üçün mənim qurbanım qəbul olmadığı halda, sənin qurbanın qəbul olsun? (Göydən atəş gələrək Habilin qurbanını aparır,Qabilinki isə yerdə qalır.) O,Habilə həsəd apararaq dedi:- Əlbəttə, mən səni öldürərəm.

Habil dedi:-Müqəssir olmağına və məni öldürməyinə bir səbəb yoxdur. Əgər sənin qurbanın qəbul olmayıbsa, özün müqəssirsən. Allah yalnız təqvalılardan qəbul edər.

Əgər sən məni öldürmək üçün əl qaldırsan,mən səni öldürmək üçün əl qaldırmaram. Mən aləmlərin pərvərdigarı olan Allahdan qorxuram. Mən istəyirəm ki, sən mənim günahım və öz günahın ilə Allaha tərəf qayıdasan və Cəhənnəm odunun yoldaşlarından olasan.Bu zülm edənlərin

cəzasıdır. Ayədən məlum olur ki, öldürülənin günahı qatilin boynuna qoyulacaqdır.

Şeytan Qabilə vəsvəsə etdi ki,əgər Habil sağ qalsa,onun övladı həmişə sənin övladına fəxr edəcək.O, Habili öldürməyə fürsət axtarırdı. Bir gün onun yatdığını görüb, böyük bir daş götürərək onun başından vurub, öldürdü.O bilmədi ki, qardaşını necə dəfn etsin.

Allah bir qarğa göndərdi.O yeri qazıb göstərdi ki,qardaşının bədənini necə yerə basdırsın.Qabil gördü ki,bir qarğa başqa bir ölü qarğanı dimdiyi ilə gətirib, ayaqları ilə yeri qazaraq onu dəfn etdi.O dedi:-Vay olsun mənə! Mən bu qarğa kimi aciz qaldım və qardaşımın meyidini dəfn etdim.O peşman olanlardan oldu.Buna görə də adət oldu ki,meyidi torpaqda dəfn etsinlər.

Bunun üçün biz yazdıq ki,yer üzündə fəsad etməmiş birini öldürən kəs,sanki insanların hamısını öldürmüşdür.

Rəvayətlərə görə Qabilin Habili öldürməyinin səbəbi Habilin böyük iftixara, xəlifəlik məqamına nail olması idi.

Açiqlama:-Beləliklə, həsəd öz işini gördü və Qabil Habili öldürməyə məcbur oldu. Ağıl, dərrakə,qardaşlıq hissi, Allahdan qorxu hissi və atanın sözünə riayət etmək, bunların heç biri onun həsəddən yaranan qəzəb hissini yatıra bilmədi.O sonra peşman olsa da,Habilin qanını töküb, hirsini soyutdu.

Həsəd kimi nifrətedici bir sifət,dünyada nə qədər cinayətlər törətmiş, nə qədər nahaq qanlar tökmüş və nə qədər evlər dağıtmışdır.Həsəd təkcə ictimai nizam-intizamı qarışdırmır, bəlkə də həsəd onları qanlarına qəltan edir. Qəzəb həsəd edən insanları da bir dəqiqə rahat buraxmır və onların yaşayışlarını qara və acı edir. Həsədlərinin intiqamını almayınca, ya da həsədin odunda yanıb külləri göyə sovrulmayınca, daima onun odunda yanıb əriyib gedirlər.

1-Cİ MƏLUMAT-TABUT,AXIR-SANDIQ HAQQINDA

Qurani-Kərimdə həmin Tabut haqqında buyurulur:

əl-Bəqərə-248-Peyğəmbərləri onlara dedi:Padşahlığın əlaməti budur ki,sizə bir Tabut gələr.Orada Allah tərəfindən arxayın olmaq üçün:-Bütün keçmiş Peyğəmbərlərdən qalma bəzi şeylər və gələcək Peyğəmbərlər haqqında əlamət və göstərişlər vardır ki,onu mələklər nüsrətdən ötrü gətirərlər.Tabutun xasiyyəti budur ki,hansı tayfanın arasında olsa, o tayfa Allah tərəfindən gələn qüvvətlə müharibədən qaçmaz və qələbə çalar.

Hədisi-Qüdsi-Şeyx Səduqdan"İləl" kitabı- İmam Cəfər Sadiq dən

buyurur:“Axır sandıq”-Tabut bir sandıq idi ki, Adəmə nazil olmuşdu. Onun içində Adəmdən Xatəmə qədər bütün Peyğəmbərlərin adı və surəti nəqş edilmişdi. Musa Peyğəmbərin əlində olan əsa, Adəm Peyğəmbər tərəfindən Cənnətdən gətirilmişdi və nə qədər o sağ idi tabut onunla idi Sonra nəsildən-nəslə ötürülərək Musa Peyğəmbərə gəlib çatmışdı ki, o da həmin sandığın içində idi.Süleyman Peyğəmbərin möhürü də, Adəm Peyğəmbər tərəfindən Cənnətdən gətirilmişdi və o möhür də həmin sandığın içində idi.O möhür vasitəsi ilə Süleyman Peyğəmbər bütün yaranmışların dilini bilmiş və təbii qüvvələri,məsələn: odu, suyu, küləyi özünə tabe etmişdi.O sandıq nəsildən-nəslə keçərək Bəni-İsrailə qədər gəlib çatmışdı. Onlar müharibələrdə o sandığı bayraq kimi qoşunun qabağında aparırdılar.Onun sayəsində qoşun həmişə qalib olurdu.

HZ.ADƏMİN VƏSİYYƏTİ

Açıqlama:-“Hədisi-Qüdsi”- Şeyx Səduqdan nəql edilmişdir:

Peyğəmbərlərdən rəvayət edir:”Adəmin oğlanlarından Şiys həddi-kamala çatdıqda,Allah-taala Adəmə vəhy edib buyurdu ki, səni filan gün qəbzi-ruh edəcəyəm.Sən öz oğlun Şiysə vəsiyyət eylə,İsmi-Əzəmi ona öyrət,Tabutun elmini ona təlim edib,təslim et.Mənim qərarım budur ki,Yer üzünü heç bir zaman hüccətdən xali qoymayım.Odur ki,Şiysi mənim xəlqimə Hüccət qərar ver.”

Adəm(ə.s.)vəfat etməmişdən qabaq Tabutun elmini və sirrini Şiysə təlim edib dedi:”Ey Hibətullah, mən öləndən sonra mənə qüsl verib kəfənə tutarsan,sonra meyitimi namaz qılıb bir tabutun içində qəbrə qoyarsan.

Ey Hibətullah,sənin vəfat vaxtın yetişəndə sən öz oğlanlarından ən yaxşısını özünə vəsiy qərar verərsən,çünki Allah-taala heç zaman öz xəlqini elm sahibi olan hüccətdən xali və rəhbərsiz qoymağa cayiz bilmir.Mən səni dünyada hüccət qoyduğum kimi,sən də dünyadan getməmiş öz yerinə xəlqə hüccət və vəsiy təyin edərsən.Tabutu,onun içindəkilərini,həmçinin İsmi-Əzəmi ona təslim edir,sonra deyir:-Xəbər ver ki, Nuh adlı bir Peyğəmbər gələcək, onun dövründə tufan olacaq.

Onun gəmisinə minənlər nicat tapacaq,minməyənlər isə qərq olacaqlar.Sən öz vəsiy seçdiyin oğluna tapşır ki,mənim sənə təlim və təslim etdiklərimi,o cümlədən Tabutu,o da öz vəsiyinə təhvil versin. Sonra o da özünün seçdiyi vəsiyə təhvil verməklə gedib Nuha çatsın. Ey Hibbətullah,o məlun Qabildən və onun övladından həmişə nəzərdə ol,onlara qarışma, övladların onun övladları ilə izdivac etməsinlər.”

HZ.ADƏMİN ÖLÜMÜ

Açıqlama:-"Hədisi-Qüdsi"-Səhl ibni Ziyaddan-Nəql edilmişdir: Peyğəmbərimizdən yer üzündə yazılmış kitab haqqında soruşduqda dedi:-Allah, Adəmin gələcəkdəki övladlarını onun gözü önündə zahir etdi. O, Davudu görəndə ərz etdi: "Pərvərdigara!Bu şəxs kimdir ki, onu Peyğəmbər seçərək izzət bəxş etmisən,lakin ömrünü qısa etmisən?"

Allah Adəmə vəhy etdi:"Ey Adəm, bu sənin övladın Davuddur. Onun ömrü qırx ildir.Yalnız Mən ömürləri təyin edir, ruziləri camaat arasında bölüşdürürəm. Mən istədiyim hər şeyi məhv edir, istədiyim şeyi saxlayıram."Ümmül –kitab" mənim yanımdadır. Əgər sən ömrünün bir hissəsini ona vermək istəsən,onun ömrünü artıraram."Adəm ərz etdi: "Pərvərdigara,mən ömrümün 60 ilini Davuda verdim,qoy onun ömrü 100 il olsun."

Sonra Allah-taala Hz.Cəbrailə,Hz.Mikailə və Hz.Əzrailə buyurdu:"Adəmin bu sözünü bir namədə yazın, çünki o tez bir zamanda öz sözünü unudacaqdır."

Onlar Adəmin sözlərini yazdılar və behiştdən gətirdikləri torpaqla möhürlədilər. Adəmin əcəli çatanda Hz.Əzrail onun yanına gəldi.Adəm dedi:"Hələ mənim ömrümə 60 il qalır." Hz.Əzrail dedi:"Sən ömrünün 60 ilini Davuda vermisən."

Bu zaman Hz.Cəbrail də Adəmin yanında nazil oldu və həmin yazılı məktubu oxuduqdan sonra Hz.Əzrail onun ruhunu qəbz etdi.

Adəm vəfat etdikdən sonra cənazəsini qaldırıb Məkkənin Əbu-Qüreys dağında dəfn etdilər.Onun qəbri Nuhun tufanına qədər orada idi.Tufandan sonra Nuh onu çıxarıb,Kufənin kənarında bir tabutda dəfn elədi.İndi onun qəbri Nuhun qəbri ilə birlikdə Ğəriydə (Nəcəf) yerləşir. Hz.Əlinin qəbri onların qəbrinin yanındadır.

HZ.ŞİYSİN HƏYATI HAQQINDA

Hz.Adəmin oğlu Qabil qardaşı Habili paxıllıqla öldürdükdən beş il sonra Şiys (Hibətullah-Allahın bəxşişi deməkdir) doğuldu. Şiys yer üzündə ilk vəsiydi.Həvva anamız Şiysə hamilə olunca, alnında parlamağa başlayan nur,Şiys doğulduğu zaman onun alnına keçmişdi.Şiys, Adəm oğullarının ən ulusu,ən üstünü idi və ona çox bənzəyirdi.

O,atasının vəsiyyətlərinə əməl edərək, Allahın itaəti və ibadəti ilə məşğul olurdu.Adəma (ə.s) nazil olan 10 səhifəyə əlavə olaraq Hibətullaha da 50-səhifə nazil oldu.Həm də Cənnətdən nazil olmuş

Bərəkə (və ya Nəzələ) adlı bir huri ilə izdivac etməklə Allah-taala onu şərəfləndirdi. O, Allahın əmri ilə Kəbəni daşdan tikib qaldırdı. Qabildən və onun övladlarından əlaqəni kəsib, ayrıldı. Qabil övladları Şeytana uyaraq Allaha deyil,atəşə sitayiş edirdilər.

Hibətullah 912 il ömür sürdü.Ölümünə yaxın,Allahın vəhyinə əsasən Tabutu və İsmi-Əzəmi öz oğlu Riysana təslim edib buyurdu ki,Peyğəmbərlərin mirasını Nuha təslim etsin.Nuhun qiyamına qədər həmin şeyləri, həm də mömin şəxslərin kimliyini Qabildən və onun övladlarından gizli saxlasın.

Rəvayətə görə Hz.Şiys Məkkə dağlarında,Əbu Qubeys dağındakı mağarada basdırılmışdır.

HZ. İDRİSİN HƏYATI HAQQINDA

Tarixdə Hz. İdrisin ən böyük Peyğəmbərlərdən olması və Allahın bütün mənəvi, zahiri və batini nemətləri onda toplanması qeyd olunur.İdris (ə.s)şəriət məsələlərinə rəhbərlik edirdi. Allahın əmri ilə ona Hz.Adəmdən qalmış əmanətlər və nübüvvət nuru ilə Peyğəmbərlik verilmişdi.Allah İdrisə öz ata-babalarının biliklərindən əlavə yeni elmlər də əta etmişdi və ona 30 səhifə nazil etmişdi. Quranda deyilən"Sühufiuvla" Şiysə və İdrisə nazil olan səhifələrə işarədir.İdris (ə.s)Allahın bütün zahiri və batini elmlərinə və hikmətinə vaqif olmuşdu. Allah Onu asimana qaldırmaq istədi. Odur ki, ona vəhy etdi ki, ona gələn vəhyə əsasən, öz oğlu Bərdə (Metti Şəlaha) vəsiyyət etsin.O, Allahın nurunu, hikmətini,Tabutu və İsmi-Əzəmi ona təslim etdi.Allaha ibadət və itaət etmələrini tövsiyə etdi.

Sonra isə Allahın əmri ilə asimana qaldırılmış və göyün 4- cü qatında vəfat etmişdir. Bu zaman İdrisin 335 yaşı var idi. Rəvayətə görə bir mələk onu öz qanadı üzərində asimanlara,sonra da Cənnətə apardı.İdris həmişəlik Cənnətdə qaldı.

Quranda İdris Peyğəmbərin adı iki ayədə Ənbiya-85 və Məryəm-57 də gəlmişdir:- onun haqqında Allah belə buyurur:

"Quranda İdrisi yad et!O, həqiqətən, büsbütün doğru danışan (siddiq) bir Peyğəmbər idi. Biz onu böyük məqama qaldırdıq."

Hədis:-("Qisəsül-ənbiya",Ravəndi, səh 78)-İmam Sadiqdən belə buyurulurdu:-O dövrdə mələklər yerə enib,camaatla əl verib salamlaşardı və söhbət edərdilər. Bu onların saleh, pak və layiqli bəndə olmalarından irəli gəlirdi.Bu vəziyət Həzrəti Nuha qədər davam etdi.

Hədis:-(Məcməül-bəyan"cild 6-, səh.519-"Buharil-ənvər" cild 17 səh 277.)Ümmü Sələmə Peyğəmbərimizdən rəvayət edir:-İdris peyğəmbərin

asimana qaldırılmasının keyfiyyətində də müxtəlif nəzəriyyələr verilmişdir.Bir sıra rəvayətlərdə deyilir ki, Allah mələklərdən birinin qanadlarını sındırıb bir adaya atır.O,İdris Peyğəmbər seçilənədək orada qalır.İdris(ə.s.) Peyğəmbər seçiləndən sonra yanına gəlib,Allaha onun haqqında dua etməsini istədi ki, Allah-taala onu bağışlayıb qanadlarını yenidən ona qaytarsın. İdris (ə.s) Onun üçün dua etdi və Allah-taala onu bağışlayıb qanadlarını qaytardı.Mələk İdrisə minnətdarlıq etmək üçün ondan soruşdu:-Sənin nə hacətin var?

İdris dedi:"Mən istəyirəm Məlәkül-məvt (Əzrail)ilə görüşmək üçün məni asimana aparasan.Çünki tənha onu xatırlamaqla həyat mənim üçün şirin deyil.

Mələk Allahın izni ilə onu asimana apardı və orada Əzraili (ə.s.) oturmuş halda gördü.O,təəccüblə öz-özünə başını tərpədirdi.

İdris (ə.s.) irəli gələrək salam verib soruşdu:

-Niyə başını tərpədirsən?

Əzrail (ə.s.) cavabında dedi:-Allah-taala sənin canını dördüncü asimanla, beşinci asimanın arasında alınmasını mənə fərman vermişdi. Sənинlə görüşməmişdən əvvəl fikirləşirdim ki,sən yerdə ola-ola, sənin canını asimanda necə alacağam- deyib,elə oradaca onun canını aldı.

Başqa bir rəvayətdə.**Hədis:**(Ravəndənin "Qisasül-ənbiya") kitabında İbni Abbasda rəvayət olunur ki:

Mələklərin Hz.İdrisin ibadəti haqqında təriflərini eşitdikdə, Hz.Əzrail Hz.İdrisi ziyarət etmək üçün Allahdan izin istəyir. Allah ona icazə verir. O,İdrisin yanına gəlib bir müddət onunla ünsiyyətdə olur. Bir az sonra Hz.İdris onu tanıyır və onu asimana qaldırmasını istəyir. Hz.Əzrail də Allahdan icazə alıb onu asimana aparır. Sonra Allahın izni ilə ona Cəhənnəmi, Cənnəti göstərir.Hz.İdris Cənnətə daxil olduqda oradan çıxmaq istəməmiş və Allahdan xahiş edib, orada həmişəlik qalması üçün canının alınmasını istəmişdi.Allah onun xahişini yerinə yetirir və Hz.Əzraildə elə oradaca Hz.İdrisin canını alıb.

Hədis:("Qisasül-ənbiya"səh 79.)İmam Sadiq Səhlə məscidinin fəziləti barəsində buyurur:-Hər vaxt Küfəyə getdiniz, hökmən Səhlə məscidində namaz qılın və Allahdan öz istəklərinzi diləyin. Çünki Səhlə məscidi İdris Peyğəmbərin evi idi və orada dərzilik edib, namaz qılardı.

HZ.NUHUN HƏYATI HAQQINDA

Qurani-Kərimdə 43 yerdə Nuhun adı gəlmişdir.

Ənkəbut-14"Biz Nuhu qövmünə Peyğəmbər göndərdik və o, min ildən əlli il az onların arasında yaşadı. Qövmü zülmkar olduğuna görə tufan onları bürüdü."

Açıqlama:-Allahpərəstlik və Tövhid məramının yolunda çoxlu əzab-əziyyətlərə qatlaşan Peyğəmbərlərdən biri də Hz.Nuh idi. Uzun ömür sürməsi, kafir və müşrik camaatın arasında qalması və dinin təbliği yolunda ağır mübarizələrə dözməsinə baxmayaraq ona çox az insan iman gətirdi.O dövrdə bütpərəstlik camaat arasında çox yayılmışdı.

O,ilk Ulul-əzim Peyğəmbər idi ki, Allah ona məxsus kitab və ayrıca şəriət əta edib,onu zəmanənin camaatı üçün göndərdi.Nuh Peyğəmbər indiki insan nəslinin ikinci atası sayılır.

Nuh-1-28-Biz Nuhu öz qövmünə Peyğəmbər göndərdik və buyurduq:-"Qövmünə şiddətli əzab gəlməmişdən əvvəl onları qorxut."

Nuh qövmünə dedi:-Ey mənim qövmüm! Mən sizi açıq-aşkar qorxudan bir Peyğəmbərəm.Allaha ibadət edin, ondan qorxun. Günah etməyin və Allah tərəfindən gətirdiyim əmrlərlə mənə itaət edin.Allah sizin günahlarınızı bağışlasın və sizin əcəlinizi müəyyən vaxta qədər təxirə salsın. Allahın müəyyən etdiyi vaxt yetişəndə, heç kəs əcəli təxirə sala bilməz.

Nuh dedi:-Ey mənim Allahım!Öz qövmümü gecə-gündüz sənin ibadətinə dəvət etdim.Mənim dəvətim onların ancaq nifrət və qəzəbini artırdı.Mən hər vaxt onları sənin tərəfinə çağırdım,onlar qulaqlarını tutub, libaslarını başlarına çəkdilər ki, mənim sözlərimi eşitməsinlər.Onlar küfrlərində israr edərək, təkəbbürlük etdilər.

Sonra onları aşkar səslə,sonra ahəstə,gizli səslə çağırdım.Sonra dedim ki,öz Allahınıza şirkdən tövbə edin! Həqiqətən, Allah bağışlamaq istədiyi kəsi çox bağışlayandır. Allah göydən sizə bol mənfəət verən yağış nazil edər.O sizə mal və övlad ilə kömək edər. Sizin üçün bağlar, bostanlar yaradar və çaylar axıdar. Sizə nə olubdur ki, Allahın axirətdə sizə savab verəcəyinə ümidvar olmursunuz? Allah sizi cürbəcür yaratmışdır. Allah sizin üçün yerdə nəbatatı cücərtdi. Sonra sizi yerə qaytarar,ölüb yerdə dəfn olunarsınız və sonra sizi yerdən xaric edər.

Nuh qövmünün iman gətirmədiyini gördükdə dedi:-Ey mənim Allahım! Onlar mənə qarşı çıxdılar və o kəsə tabe oldular, malları və övladları yalnız onların günahlarını artırdı.Yəni onlar dövlətlilərin sözünə baxıb dedilər:-Əgər Nuh həqiqi Peyğəmbər olsaydı, Allah ona dövlət verərdi.

Onlar çox böyük hiylə qurdular. Dövlətlilər fəqir və uşaqları öyrətdilər ki, Nuhu daşlayıb öldürsünlər.Onlar da Nuhu daşladılar və öldüyünü zənn edib çıxıb getdilər. Sonra Cəbrail (ə.s) gələrək dağların altından onu çıxarıb xilas etdi.

Onlar öz günahlarının səbəbi ilə tufanda qərq oldular və Cəhənnəm oduna daxil oldular.

Hz.Nuh dedi:-Ey Allahım!Yer üzündə bir nəfər də olsa kafir qoyma! Əgər sən onları sağ qoysan, sənin bəndələrini azdıracaq, ancaq günahkar və kafir doğub törədəcəklər. Pərvərdigara!Məni, mənim ata-anamı və mənin evimə daxil olan kəsləri bağışla! Mömin kişiləri və mömin qadınları da bağışla!Zalımları həlak et! Nuh (s.ə.) kafirlərə əzab olunmasını və möminlərin də bağışlanmasını Allahdan dilədi.Allah onun hər iki diləyini qəbul etdi.

Hud-28- 50-Nuh dedi:"Ey mənim qövmüm!Mən sizi Allaha tərəf çağırmaq müqabilində sizdən əcr və əvəz istəmirəm.Mənim əcrim ancaq Allah yanındadır. Mən iman gətirən kəsləri öz yanımdan qaytara bilmərəm. Həqiqətən, onlar öz Allahlarının rəhmət və savabına yetişəcəklər.Lakin mən sizi cahil və anlamayan qövmlər görürəm."

Nuha vəhy gəldi ki, bundan sonra sənin qövmündən əvvəlcədən iman gətirmiş kəslərdən başqa heç kəs iman gətirməyəcək.Onların etdikləri əməllərdən qəmgin olma! Bizim vəhyimiz ilə gəmi düzəlt! Özlərinə zülm edən kəslərə görə məni çağırma. Onlar qərq olmalıdırlar.

Nuh gəmi düzəltməyə başladı. Həmişə qövmün böyükləri onun yanından keçəndə istehza edirdilər. Nuh dedi:"Əgər indi siz bizə istehza edirsinizsə,sonra biz sizi məsxərə edəcəyik.Tezliklə bilərsiniz, kimə rüsvayedici və dərd gətirən əzab yetişər."

Biz dedik:"Ya Nuh!Gəmiyə özünlə hər heyvandan iki-iki, erkək və dişi götür!Öz ailənizdən də götür,təkcə o kəslər istisna olmaqla ki,keçmişdə onlar üçün həlakət sözü deyilmişdi."Onlar Nuhun zövcəsi və oğlu Kənandan ibarət idi.Nuha ancaq az bir adam, 80 və ya 72 nəfər iman gətirmişdi.

Nuh yanında olan möminlərə dedi ki:"Allahın adının köməkliyi ilə, gəmini hazır edən vaxt ona minin."Gəmi Nuhu və ona iman gətirənləri dağlar kimi böyük olan ləpələrin içindən aparırdı.Nuh öz oğlunu çağırdı.O isə gəmiyə minmək istəmədi və ləpələr oğul ilə ata arasına ayrılıq salıb,oğlunu sulara qərq etdi.

Sonra Allahın əmri ilə su çəkildi və gəmi Küfənin yaxınlığında Cudi dağında dayandı.

Nuh(ə.s.) dedi:"Pərvərdigara!Elmim olmadığı şeylər barəsində səndən bir şey istəməkdən sənə sığınıram.Əgər məni bağışlamasan və mənə rəhm etməsən, zülmkarlardan olaram."

Allah-taala buyurdu:"Ey Nuh!Bizim tərəfimizdən olan salamatçılıqla, gəmidən en. Sənə və sənինlə gəmiyə minən ümmətlərinə salamlar olsun!Onların nəslindən əmələ gələn bir para ümmətlər vardır ki,tezliklə onlara dünyada nemət və güzəran verməklə ləzzət sahibləri

edərik.Sonra günah etdiklərinə görə onlara dərd gətirən əzab yetişər. Bunlar qeyb xəbərləridir.Biz onu sənə vəhy edərik. Bundan qabaq nə sən, nə də sənin qövmün bunu bilmirdiniz.”

Qövmün əziyyətinə Nuh kimi səbir et! Həqiqətən, işin axırının xeyirli olması Allah üçündür.Çünki Nuhun aqibəti xeyirli oldu.

əs-Saffat-76-82-Biz Nuhu və ailəsini iman gətirdikləri üçün böyük əzabdan nicat verdik və onun nəslini qalanlardan etdik.Dünyanı su basandan sonrakı nəsillərin hamısını Nuhun övladlarından etdik. Bütün aləm əhlinin arasında Nuha salam olsun və Nuh bizim mömin bəndələrimizdəndir.Sonra yerdə qalanları,Nuha iman gətirməyənləri suya qərq etdik.Biz yaxşı əməl sahiblərini belə mukafatlandırarıq.

Açıqlama:(Səduq Əli ibni İbrahim və Ravəndi) Əhli-Beytdən nəql edir ki, Nuh Peyğəmbərin ömrü 2500 il olmuşdur. Belə ki, 850 il Peyğəmbərliyə yetişməmişdən əvvəl, 950 il camaat arasında təbliğdə, 200 il gəmi düzəltməkdə və 500 il isə gəmidən düşəndən sonra yaşamışdır. O, şəhərləri abad etmək, öz övladlarını yerləşdirmək və dinin təbliği ilə məşğul olmuşdur.

Hədis: Məsudi bir hədisdə qeyd edir ki,Nuh həzrətləri 2500 il dünyada ömür sürdü.Hz.Əzrail onun canını almağa gələn zaman, günün altında oturmuşdu.

Hz.Əzrail ona salam verərək dedi:

-Allah məni sənin ruhunu aparmaq üçün göndərib.

Nuh buyurdu:-Mənə möhlət ver,ağacın kölgəsinə qədər gedim.Əzrail ona belə dedi:

-Öz istəyinə əməl et!

Sonra Əzrail irəli gələrək ondan soruşdu:

-Ey o şəxs ki, Adəmin övladlarının içində hamıdan çox ömür sürən,dünyanı necə gördün?Nuh dedi:

-İndicə günün altından kölgəliyə keçənə qədər və ya iki qapılı bir ev kimi birindən daxil olub,o birisindən isə xaric oldum.

Quranda gələn Peyğəmbərlərin ən uzun ömür sürəni Nuh Peyğəmbər idi.(“İsbatul vəsittə”səh-18.

Açıqlama:Hz.Nuhun məskəni İraqda idi.Nuhun qəbri Nəcəfdə Hz.Əlinin məzarının yanında yerləşir.Nuhun 3 oğlu var idi:

1-ci oğlunun adı Sam;ağıllı, qavrayış və anlayışlı,qəlbi təmizliyində o biri qardaşlarından üstün olduğu üçün Nuh onu öz yerinə vəkil etdi. Ona Peyğəmbərlik sirlərinin incəliklərini və hikmətini öyrətdi. O biri oğlanlarına da Samın əmrlərinə tabe olmağı əmr etdi. Sama yer üzünün orta, üstün qismini;-Beytul-Müqəddəsi,Nil, Fərat, Dəclə, Ceyhan

və Feysun irmaqlarını ona tapşırır.Nuhdan sonra Sam Allaha ibadət və itaətlə məşğul oldu və 600 il ömür sürdü. O, Mürsəl Peyğəmbərlərdən hesab olunur. Sonra o, oğlu Ərfəhşədə Peyğəmbərlik sirlərini vəsiyyət edir.

Tarixçilər Ərəfxəçidi "Əbul-ənbiya "(Peyğəmbərlərin atası) adlandırırlar,460 il ömür etmişdi. Onun övladı Şalix Peyğəmbərlik məqamına yetişmişdir.O, 430 il yaşamış və öz məqamını oğlu Huda vəsiyyət etmişdir.

Hz.Nuh 2-ci oğlu Yəfəsə məğrib və məşriq arasında olan yerləri tapşırmışdı.Türklərdən, xəzərlərdən və daha başqalarından gələn, Avar olmayan bütün krallar Yəfəsin övladlarındandır.

Nuhun 3-cü oğlu Ham dəniz sahilində gəlib yerləşdi.Hamın Küş, Kənan,Hind və Sind adlı övladları da eyni adlı torpaqlarda yerləşmişlər.

HZ. HUDUN HƏYATI HAQQINDA

Şalixdən sonra onun oğlu Hud Allahın hökmü ilə şəriyyət sahibi oldu.Xəlqi hidayət etdiyi üçün ona Hud deyirdilər.Ona 40 yaşında Peyğəmbərlik verildi.Samın övladlarından möminlər, Ham və Yəfəs övladlarından da ona çox az insan iman gətirdilər.

Hud Hz.Adəmə çox oxşayırdı. Rəvayətlərdə onun ömrünün 807 il olduğunu yazırlar. O, Məkkə yolunda Əhqafda yaşayıb.

Bəzi rəvayətlərə görə Hudun qövmü 13 qəbilə idi ki, nəsilləri Ad ibni Ovs, ibni İrəm,ibni Nuha çatırdı.Bu qövmün camaatı varlı, cismi qüvvəli və uzun ömürlü idilər ki, sərvətləri başlarından aşırdı.Onların ölkələri Əhqaf idi və Ərəbistan yarımadasının cənub-qərbində,Yəmən və Həzrəmutun arasında yerləşirdi. Öz qonşuları arasında misli olmayan bir yer kimi tanınırdı.Əhalisinin boyları uca, ömürləri isə (400-500 il) çox uzun idi.Bu sərvət onları qəflət yuxusuna dalmağa və dünyadan xəbərsiz olmağa gətirib çıxarmışdı.

Camaat bütpərəst olduqlarına görə Hudun Peyğəmbərliyini qəbul etmirdilər.Allah o kafir və günahkar bəndələrə bəla nazil edərək, yeli onlara müsəllət etdi. Külək o dağları ovub qumlu səhralara çevirdi.

Qurani-Kərimdə Hud Peyğəmbərin adına bir surə və bir çox ayələr nazil olmuşdur.

əş-Şüara-123-Ad qövmü öz Peyğəmbərlərini təkzib etdilər.

Hud-51-61-Ad qövmünə qardaşları Hudu göndərdik.Hud dedi:"Ey mənim qövmüm! Bütlərə deyil, Allaha ibadət edin.Allahdan başqa sizin üçün heç bir Allah yoxdur. Siz ancaq yalançılarsınız.Mən

Peyğəmbərliyim üçün sizdən əcr və muzd istəmirəm. Mənim əcrim ancaq məni yoxdan yaradanın yanındadır.Allahdan bağışlanmaq istəyin,ona tərəf qayıdın.Allah sizin üçün yağış göndərər,torpağınız göyərər, torpağınız bar verər,gücünüz artar."

Onlar dedilər:"Ey Hud, sən bizə heç möcüzə gətirmədin ki, sənin sözünlə biz Allahlarımızı tərk edib sənə iman gətirək.Biz sənə heç bir söz demirik.Təkcə bunu bil ki, Allahlarımızın bəzisi sənə pislik yetiribdir. Onlar sənə ziyan vurmuş,sən də ağlını itirmisən."

Hud dedi:"Mən Allahı şahid tuturam və siz də şahid olun ki, həqiqətən mən sizin şərik tutduğunuz bütlərdən uzağam.Siz hamılıqla mənə hiylə edin,sonra möhlət verməyin. Mən o Allaha təvəkkül etdim ki,mənim və sizin Allahınızdır. Yerdə hərəkət edən elə bir yaranmış yoxdur ki,Allah onun əlindən tutmasın. Həqiqətən,O ədalətlidir.Mən artıq hökmləri sizə yetirdim, elə hökmlər ki, onun üçün göndərilmişdim. Əgər siz məndən üz döndərsəniz, küfrünüzə görə Allah sizi həlak edəndən sonra başqa bir qövmü sizin yerinizə gətirər."

Ad qövmünün həlakətinə bizim əmrimiz gələn zaman Huda və onunla bərabər iman gətirən kəslərə nicat verdik.

Bu Ad qəbiləsidir ki, Allahın ayələrini və möcüzələrini inkar etdilər. Allahın Peyğəmbərinə asi oldular.Dünya və axirətdə Allahın rəhmətindən uzaq oldular.Xəbərdar ol!Ad qövmü öz Allahlarına kafir oldular. Xəbərdar ol!Hud qövmündən olan Ad qəbiləsi Allahın rəhmətindən uzaq oldu.

Fussilət-15-16-Ad qövmünə gəldikdə,onlar nahaq yerə boyun qaçırdılar.Dedilər ki, bizdən daha qüvvətli kimdir?Məgər bilmirlər ki, onları yaradan Allah daha güclüdür.Ad qövmü bizim ayələrimizi inkar etdilər. Sonra biz onların üstünə nəhs günlərdə güclü yel göndərdik ki, bu dünyada onlara rüsvay olma əzabını dadızdırsın. Əlbəttə, axirət əzabı dünya əzabından daha çox çətindir. İlahi əzabı dəf etməyə onlara nüsrət verilməz.

Açıqlama:-("Məcməül- bəyan"cild 9, səh.189-190, Qumminin təfsiri, səh. 306.)Allah iman gətirməyən qövmün üstünə Sərsər və Əqim küləklərini göndərdi.

Quranda bu küləyin bir neçə xüsusiyyəti əks olunmuşdur:

1)"Əqim küləyi,yəni sonsuz (Ərəbcə, Əqim sonsuz kişi və qadına) deyilir.Yəni elə bir külək ki,nə ağacları tozlandırır,nə havanı saflaşdırır, nə də heyvanlara faydası var, bəlkə də nəyə yetişsə,onu qurudub məhv edər.

2)"Sərsər"küləyi.Onun üçün müxtəlif mənalar yazırlar.Məsələn deyirlər soyuq külək mənasındadır,ona şiddətli külək də deyillər.

3)”Atiyə”küləyi.Yəni tüğyan və fəğan edən külək. Rəvayətdə buyurulur ki, elə bir şiddətli küləkdir ki, hər bir şeyə yetişsə, onu çürümüş sümük kimi una döndərər. Nəhayət, sağlam bir şey qoymaz, hər şeyi yerlə-yeksan edər.

Deyilən külək yeddi gecə və səkkiz gündüz əsdi.Hamını cansız heykəllərə döndərdi.

Doğrudan da Hud qövmünün bütpərəsləri və Həzrətin düşmənləri üçün çox dəhşətli günlər idi.Çox çəkmədi ki, düzəltdikləri o cansız heykəllər qurumuş ağacın kötüyü kimi yerə düşdülər, hər yer xarabalığa çevrildi.Hər şey Əhqaf çölünün qumları altında dəfn olundu.Beləliklə, həyat səhifələri dünyanın lənəti və axirətin əzabı ilə bağlandı və əbədi olaraq ilahi rəhmətdən uzaq oldular.

Rəvayətə görə həlakdan sonra Hud öz ailə və səhabələri ilə Həzrəmuta və ya Məkkəyə gedirlər.Hud orada vəfat etmiş və Hicri-İcmaildə dəfn edilmişdir.

Hudun əcəli yetişən zaman Allahın əmri ilə Faliğ adlı oğlunu vəsiy qərar verir. Ona öz yanında olan İsmi-Əzəmi, hikməti, Peyğəmbərlik miraslarını və Tabutu təslim edir.

Faliğdən sonra Yəruğ öz atasının şəriət işlərini əlinə alıb,onun təriqətini davam etdirirdi.Onun zamanında Ovc ibni Ənaq nəslindən olan Əfrasiyab adlı bir kafir Padşah var idi.O Yəruğu Peyğəmbər olduğuna görə qətlə yetirir.Sonradan onun övlalarından daha beş nəfəri də qətlə yetirir.

Ümumiyyətlə, Ovc ibni-Ənaq nəslindən olan zalımlar 814 Peyğəmbəri qətlə yetiriblər.

Qətlə yetirilən Peyğəmbərlər yanlarında olan əmanətləri hər dəfə sonrakı vəsiyə təslim edirdilər.

HZ. SALEH HƏYATI HAQQINDA

Ad, yəni Hud Peyğəmbərin qövmünün həlakından sonra,Allah-taala Səmud qövmünü Yer üzünə hakim etmişdi. Saleh Peyğəmbər Samud qövmündə yaşayırdı. Səmud qövmü, Səmud ibni Amir, ibni İrəm, ibni Sam, ibni Nuhun övladlarından idilər. Salehin nəslinin Saleh ibni Übeyd, ibni Əsəf, ibni Maşix, ibni Həzirə də olduğunu yazırlar.

Səmud qövmü Hicazla Şam arasında yerləşən, Hicr bölgəsində yaşayırdılar.

əl-Hicr-58-Səmud qövmünün Mədinə ilə Şam arasında olan yurdlarının adıdır.Uca Allah Samud qövmünü uzun ömürlü yaratmışdı.

Səmud qövmünün məskənləri barədə fikir ayrılıqları mövcuddur.”Qisəsül- ənbiya” kitabında deyilir ki,tarixçilərin bəziləri yazır ki, onlar Ad qövmünün qalıqları idi.Bu axırıncı fikir Quran ayələrinə daha uyğundur.Çünki Saleh Peyğəmbərin dilindən, Allahın nemətlərini Səmud xalqına sadalayaraq buyurur:

əl-Əraf 74-O zaman ki Allah sizi yaratdı və sizi Ad qövmündən sonra xəlifələr etdi,onların yerində yerləşdirdi.Siz yerin yumşaq tərəfindən otaqlar tikərsiniz, dağları yonub ev düzəldərsiniz.

(Onların ömrü o qədər uzun idi ki, ömürləri tamam olmamış evləri xarab olardı. Buna görə dağları yonub ev düzəldirdilər.) Allahın nemətlərini yada salın! Yer üzündə fəsad edən halda həddinizi aşmayın.

Hədis:-Əyyaşi öz təfsir kitabında,İmam Baqirdən rəvayət edir ki, Hz.Cəbrail Salehin tayfasının əhvalatını Peyğəmbərə belə nəql etmişdir:-Saleh 16 yaşında ikən Peyğəmbərliyə seçildi və 120 yaşına kimi o tayfaya dini təbliğ etməklə məşğul oldu.Amma onun sözlərini qəbul etmədilər. Onların 70 ədəd bütləri var idi və onlar Allaha yox, bütlərə ibadət edirdilər.Saleh vəziyyəti belə gördükdə onlara dedi:

-Ey camaat, mən 16 yaşımdan 120 yaşıma qədər sizi dinə dəvət etdim. Ancaq siz qəbul etmədiniz.İndi mən sizin üçün iki təklif irəli sürürəm. Hansını qəbul etsəniz, ona əməl edərik. Birinci budur ki, məndən nə istəyirsinizsə istəyin, mən də bunu öz Allahımdan tələb edim və O da versin.İkincisi budur ki, mən sizin tanrılarınızdan bir şey istəyim. Əgər versələr, mən bu tayfadan çıxıb gedərəm. Çünki həm mən sizin əlinizdən, həm də siz mənim əlimdən təngə gəlmisiniz.Camaat hamılıqla dedi:

-“Ey Saleh, doğrudan da çox insaflı söz dedin.”

Bu iş üçün müəyyən bir gün təyin etdilər.Təyin olunmuş gün yetişdikdə bütləri çiyinlərinə alıb gətirdilər. Onlar özləri ilə yeyib-içmək də gətirmişdilər.Yeyib qurtardıqdan sonra Salehə dedilər:

”Ey Saleh, istədiyini dilə!”

Saleh onların ən böyük bütlərini çağırdı,amma o cavab vermədi. Saleh dedi:-“Niyə cavab vermır?”- dedilər:

-“Başqasını çağır,”-Saleh bir-bir hamısını çağırdı.Heç biri ona cavab vermədilər. Sonra üzünü camaata tutub dedi:

“Gördünüz ki, mən sizin bütlərinizi çağırdım,lakin heç biri cavab vermədi.İndi isə siz istəyin və mən öz Allahımı çağırım.”

Onlar dedilər:-“Ey Saleh!Biz səndən bir şey istəyirik.Əgər Allahın cavab versə,biz sənə itaət edərik.”

Sonra dedilər:”Ey Saleh! İndicə Allahından istə ki,bizim üçün bu dağ-

dan dişi, qırmızı rəngdə,çox tüklü və on aylıq bir dəvə göndərsin.”Saleh buyurdu:

-“Məndən istədiyiniz şey mənim üçün çox çətindir.Lakin Allahım üçün çox asan bir işdir.”

Saleh Allahdan istədi. Elə həmin vaxt dağdan dəhşətli bir səs gəldi və dağ tərpənərək ayrıldı və oradan onların istədikləri kimi bir dəvə xaric oldu. Camaat bu haləti görərək dedilər:

-“Ey Saleh!Doğrudan da Rəbbin duanı nə tez qəbul etdi.İndi isə bu dəvənin balasının da çıxmağını istə.”O Rəbbindən istədi.Dəvənin balası da dağdan çıxıb,öz anasının ətrafında dolanmağa başladı. Saleh buyurdu:-“Bu dişi dəvənin su içmək növbəsi bir gün sizin, bir gün də onun olsun.”Dəvə su içdikdən sonra çoxlu süd verirdi və camaat da bu süddən istifadə edirdi.

Millətlərin bədbəxtçiliyinin mənbəyi sayılan həsəd, paxıllıq və bu kimi çirkin insana xas olmayan sifətlər onları dəvəni öldürməyə sövq etdi və onlar da dəvəni öldürdülər.

Açıqlama:-Bu yolla Allah-taala onları imtahan etmək üçün bu hadisələri onların başına gətirdi və istədikləri xüsusiyyətdə dəvə göndərdi, amma bu imtahanın öhdəsindən gələ bilməyib onu öldürdülər. Allah“Qəmər”surəsində buyurur: “Biz dəvəni onları imtahan etmək üçün göndərdik.”

Salehin açıq-aşkar möcüzə gətirməyinə baxmayaraq yenə də çox az sayda bəndə ona iman gətirdi.Bu haqda Allah Quranda belə buyurur:

Hud-62-69-Səmud qəbiləsinə qardaşları Salehi göndərdik.Saleh dedi:-Ey mənim qövmüm!Allaha ibadət edin.Sizin üçün Allahdan başqa Allah yoxdur. O sizi yerdən yaratdı. O, sizə güc-qüvvət verməklə sizi, yerləri abad edib, tikib düzəldən etdi.

Allahdan bağışlanma istəyin,sonra tövbəni sındırmayın.Mənim Allahım duaları qəbul edəndir.

Dedilər:-Ey Saleh,bu sözləri deməzdən qabaq aramızda sənə ümid var idi.Xoş əxlaq, gözəl xasiyyətlərinə görə səndən yaxşı şeylər gözləyirdik. Atalarımızın ibadət etdiyi bütlərə ibadət etməyi qadağan edirsənmi?Biz sənin dəvət etdiyin dindən şübhəliyik. Həm də sənin dinin töhmət gətirəndir. Sənin xəyalın isə rəhbərlik etməkdir.

Saleh dedi:-Ey mənim qövmüm!Görəydiniz ki, mənə Allah tərəfindən verilən Peyğəmbərliyimə necə şübhə edirsiniz.Əgər mən Allaha asi olsam, o zaman Allahdan gələn əzabdan məni kim qoruya bilər?Əgər mən sizə tabe olsam, ziyandan başqa bir şey artırmazsınız.Ey mənim qövmüm!Bu sizin üçün Allahın dəvəsidir.Qoy Allahın yerində otla-

sın! Ona pıslik yetirməyin! Əgər pislik yetirsəniz, yaxın zamanda sizi şiddətli əzab tutar.

Amma onlar dəvəni tutub kəsdilər və sonra peşman oldular.

O dəvəni öldürəndə Saleh dedi:-Öz evinizdə üç gün ləzzət alın! Sonra sizə əzab nazil olacaq.Bu vəd danılmaz bir həqiqətdir.

Əzabın nazil olması üçün əmrimiz gələn kimi Saleh və onunla bərabər iman gətirənlərə öz tərəfimizdən olan rəhmət ilə nicat verdik. Həqiqətən, Allah qüvvətli və hər şeyə qələbə çalandır.

Zülm edənləri öz mənzillərində şiddətli səs tutdu,üzü üstə düşüb həlak oldular.Sanki dünən bu dünyada yox idilər.Onlar öz Allahlarına qarşı kafir oldular.

ən-Nəml-46-51-Saleh dedi! Ey mənim qövmüm!Siz nə üçün yaxşılıqdan qabaq pisliyə tələsirsiniz?Allahdan günahlarınızın bağışlanmasını istəmirsiniz ki,bəlkə sizə rəhm olunsun.

Qövmü dedi:-Biz sənə və sənինlə olanlara pis fal vurduq.

Saleh dedi:-Yox, sizin pis falınız özünüz üçündür. Allah tərəfindən qıtlıq sizə görə əmələ gəlmişdir. Siz imtahan olunan bir qövmsünüz.

Onlar Allaha and içən halda bir-birlərinə dedilər ki, əlbəttə, biz Saleh və onun əhlini gecə ikən tutarıq və onu ailəsi ilə birlikdə öldürərik. Sonra onun vəlisinə deyərik ki, biz onu öldürən yerdə olmamışdıq. Biz, həqiqətən, doğru danışanlarıq.

Onlar Salehi öldürməyə bir növ hiylə etdilər.Biz də onların hiyləsinə bir növ cavab verdik.Onlar Salehi öldürməyi qərara aldıqda, Allahın göndəribiyi,mələklər onların hər birinə bir daş atdılar. Onlar anlamazlar ki, Allahın əzabı haradan gəldi?Gör onların hiylələrinin axırı necə oldu?Həqiqətən,biz onların qəbilələrini həlak etdik. Budur, onların boş və viran evləri. Çünki onlar zülm etdilər.Şübhəsiz burada bilən qövmlər üçün əlamətlər var ki, zülmün cəzası həlakətdir.

Açıqlama:-Allaha və Peyğəmbərə iman gətirənlərə nicat verdik ki,onlar təqva sahibləri idilər.Bunlar Salehə iman gətirənlərdən ibarət dörd min nəfər idilər. Onunla birlikdə Mədyəndən çıxıb Həzrəmuta (Məkkəyə)səfər etdilər.

Nəhayət, Allah Nişa bən-Əmin adlı Peyğəmbəri məbus etdi. Özündən əvvəlki Peyğəmbərlərdən qalan miras ona yetişmişdi.O da ömrünün axırında bu mirası Saruğ bən Yəruğa, o da oğlu Saruğa,o da Tacura, o da Tarixə Peyğəmbərlərdən qalmış vəsiyyəti, əmanətləri, İsmi-Əzami və Tabutu təslim etmişdir.Tarix Həzrəti İbrahimin atası idi.

HZ.İBRAHİMİN HƏYATI HAQQINDA

əs-Səffat-83"Həqiqətən də, İbrahim Nuhun ardıcıllarından və onun yolu ilə gedənlərdən idi!"

Xəlilur-Rəhman İbrahim ən böyük Peyğəmbərlərdən biridir. Allah digər Peyğəmbərlərə nisbətən onu daha çox əzəmətlə yad etmişdir. Allah onu Hənif, Həlim, Əvvah, Münib və Siddiq kimi ləqəblərlə xatırlamışdı və onu özünə Xəlil seçmişdi. Xəlil o kəsə deyilir ki, məhəbbətdə heç bir nöqsan olmasın və Allahın dostunu özünə dost, düşmənini düşmən bilsin.Onun soykökü haqqında belə yazırlar ki, o, Nuh Peyğəmbərin Sam adlı oğlunun nəslindən gəlmiş, Tarixin oğlu idi.

Hz.İbrahimin anası da Ərfəxşəd ibn Sam, ibn Nuh oğullarından Kernda ibn Nuhənin qizi idi.

Hz.İbrahim "Kusa Rəbi"adlı İraqla Babil arasındakı məntəqədə doğulmuşdur. Şam və Rum yolu üzərində olan yerdə yaşamışdır.

Ulul-əzim Peyğəmbərlərdən biridir.Allah Kəbəni onun əli ilə tikdirtmiş və Kəbəni bütün insanların qibləsi qərar vermişdir. Allah bu ayədə onun Xəlil seçilməsi haqqında belə buyurur:

ən-Nisa-125-"Ehsan edən halda, ixlas ilə üzünü Allaha çevirən və pak olan halda, İbrahimin millətinə tabe olan kəsdən din cəhətdən kim gözəl ola bilər?Allah İbrahimi özünə dost tutmuşdur."

əl-Bəqərə-124-İbrahimi öz Rəbbi bir neçə kəlmə ilə imtahan etdiyi zaman, o imtahanların hamısını tamamladı.Ondan sonra Allah buyurdu:Ya İbrahim! Mən səni insanlara imam təyin edəcəyəm!İbrahim dedi ki, mənim övladımdan necə?Allah onun cavabında buyurdu:"Mənim əhdim zalımlara yetişməz."

əl-Bəqərə-130-131-Özünü zəlil edənlərdən başqa kim İbrahimin dinindən üz çevirər?Həqiqətən biz onu dünyada Peyğəmbərlik və Kəbə evini tikmək üçün seçdik.Şübhə yoxdur ki,o, axirətdə də əməli saleh olanlardandır.Rəbbi İbrahimə dedi ki,müsəlman ol!İbrahim dərhal dedi ki,aləmlərin Rəbbinə təslim oldum.

ən-Nəhl-120-Həqiqətən, İbrahim tək özü bir ümmət idi.O, müti batildən haqqa meyil edən idi.O,Allaha tabe olaraq müşriklərdən uzaqlaşmışdı.

HZ.İBRAHİMİN UŞAQLIĞI

Açıqlama:("Buharul-ənvər"-Ravəndinin"Qisasül-ənbiya"kitabında İmam Sadiqdən belə nəql edilir:"Azər İbrahimin ana babası və ya əmisidir və Nəmrudun xüsusi münəccimlərindən olub".

Əli ibn İbrahimin rəvayətindən,imam Sadiqdən belə buyurulmuşdur ki, Nəmrudun evi İraq və Babil arasında"Kusa Rabi" vilayətində idi. Hz.İbrahim ilk mübarizəsini də elə oradan başlamışdı.

Nəmrud zamanında insanlar ulduzlara aid bilgilərlə məşğul olurdular;-günəşin,ayın tutulması tarixini hesablayırdılar.Ulduzların durumuna görə bir çox hökmlər çıxarırdılar.

("Məcməul-bəyan"-cild 4- səh-325) Təfsirçilər belə nəql edirlər ki, Nəmrud(kafir padşah olub) yuxuda bir ulduzun çıxmasını və onun Ayın, Günəşin nurunu aradan aparmasını görür.Yuxu yozanlardan onun yozmasını soruşduqda:"Dünyaya sənin hakimiyyətini aradan aparan bir uşaq gələcək"-deyə bildirmişlər. Bəzilərinin dediyinə görə Nəmrud bunu keçmişlərin dediyindən və Peyğəmbərlərin kitablarından əldə etmişdir. Odur ki, o, həmin ildə dünyaya gələn oğlan uşaqlarının öldürülməsinə, kişilərin qadınlardan ayrılmasına, hamilə qadınların uşaqların dünyaya gətirənədək həbsdə, nəzarət altında olunmasına və dünyaya oğlan uşağı gəldikdə, uşağın məhvinə fərman vermişdi.

Şeyx Səduq "İkmədul-din "kitabında imam Sadiqdən rəvayət edir ki, bütün çətinliklərə, qadağalara baxmayaraq İbrahimin anası hamilə qaldı.O, hamilə olan zaman Nəmrud mama-qadını onun yanına yolladı ki,onun hamilə olub-olmamasını yoxlasın.Qadının bu işdə məharəti olsa da, Allah-taala elə etdi ki, onun hamilə olmasını başa düşmədi.

Şeyx Səduq və başqalarının rəvayətinə əsasən İbrahim öz atasının evində dünyaya gəldi və atası Nəmruddan qorxduğu üçün uşağı aparıb ona təhvil vermək istədi. Amma anası buna mane olub, uşağı aparıb bir mağaraya qoydu.

İbrahim qeyri-təbii olaraq böyüyürdü.Rəvayətlərə əsasən onun bir günlük inkişafı başqa uşaqların bir həftədə olan inkişafına bərabər idi. Onun ruzisini də Allah-taala onun öz barmağında qərar vermişdi.Anası da neçə gündən bir müxtəlif bəhanələrlə ərindən icazə alıb onun yanına gəlir,onu bağrına basıb,əmizdirib, sonra yenə də mağarada qoyub, şəhərə qayıdırdı.

Məsudi "İsbatul-vəsiyyə" də yazır ki, bütün Peyğəmbərlərdə olduğu kimi, Allah İbrahimin məhəbbətini anasının ürəyinə salmışdı.İbrahim anadan olduğu vaxtdan mağarada yaşayırdı.Bir gün də anası onun yanına gələndə İbrahim onun ətəyindən tutub məni də özünlə apar-dedi. Anası:-"Eybi yoxdur, qoy atandan icazə alım, sonra səni onun yanına apararam-" deyir.Sonra şəhərə gəlib, onun istəyini atasına çatdırır. Atası cavab verir ki:-Onu tanınmasınlar deyə yolun kənarında oturt, qardaşları gəlib yanından keçəndə onlarla birlikdə evə gəlsin."İbrahimin

anası belə də edib,onu evə gətirdi.Azər onu gördükdə həddən ziyadə onu sevdi.

əl-Ənəm-74-83-O zaman ki, İbrahim öz atalığı Azərə dedi:-Sən bütləri özünə Allah tutursanmı? Həqiqətən, mən səni və sənin qövmünü açıq zəlalətdə görürəm.Belə ki, biz İbrahimə Yerin,göyün padşahlığını göstərdik ki, Allahın qüdrətinə yəqinlik edənlərdən olsun.

Gecə qaranlıq olan zaman o,bir ulduz görüb dedi:-Bu mənim

Allahımdırmı?Ulduz qeyb olduqda o:

-Mən qeyb olanları sevmərəm-dedi.Sonra doğan ayı gördükdə dedi:-Bu mənim Allahımdırmı?

Ay batdıqda isə dedi:-Əgər Allahım məni hidayət etməsə, şübhəsiz, mən azğın qövmlərdən olaram.

Sonra Günəşi doğan gördükdə dedi:-Bu, mənim Allahımdırmı? Bu hamısından böyükdür.

O batdığı vaxt dedi:-Ey mənim qövmüm! Mən haqq olan məbuda şərik qoşduğunuz allahlardan uzağam.

Qövmü İbrahim ilə mübahisə etdi.O dedi:-Allah məni hidayət etdiyi halda,siz mənimlə onun barəsində mübahisə edirsinizmi? Sizin Allaha şərik tutduğunuzdan mən qorxmuram.Təkcə Allahımın bir şey istəməsi, mənə zərər verməsi istisnadır.Mənim Allahımın elmi hər şeyi əhatə etmişdir.

İman gətirib öz imanlarını zülmlə qarışdırmayan kəslər üçün arxayınlıq vardır.Bu bizim dəlillərimizdir.Biz onu İbrahimə verdik ki,o öz qövmü üçün hüccət olsun.Biz istədiyimiz kəsi elm və hikmətlə neçə dərəcəyə ucaldarıq.

əl-Ənkəbut-16-18-Biz İbrahimi öz tayfasına elçi göndərdik.O tayfasına dedi:"Yeganə Allaha tapının və ondan qorxun,əgər ağıllı olsanız, bu sizin üçün yaxşıdır".Tapındığınız bütlər sizə ruzi verə bilməz və Vahid Allaha ibadət edib ondan ruzi istəyin, çünki ona tərəf qaytarılacaqsınız.

əl-Bəqərə-258-260-Allahın verdiyi səltənət üzündən İbrahim ilə Allah barəsində bəhsləşən kəsi görmədinmi?(Yəni Nəmrudun İbrahim (ə.s) ilə olan mübahisəsi.) Nəmrud ona verilən padşahlıq müqabilində şükür etmək əvəzinə, Allah barədə mübahisə etməyə başladı.O zaman İbrahim dedi:"Mənim Allahım elədir ki, öldürər və dirildər."Nəmrud cavab verdi ki, mən öldürərəm və dirildərəm. O anlamadı və diriltməyi əfv mənasında başa düşdü.İki məhbus gətirib, birini öldürüb, digərini isə əfv edib dedi:-Bax,birini əfv edib diriltdim, o birisini isə öldürdüm. İbrahim isə onun əsil mətləbdən uzaq olduğunu görüb onun anladığı

tərzdə dəlil gətirərək dedi:-Həqiqi Allah günəşi şərq tərəfdən gətirər. Sən onu qərbdən gətir.Kafir olan kəs cavab verməyib məəttəl qaldı.Allah öz nəfsinə zülm edən qövmü hidayət etməz.

O zaman İbrahim dedi:-Allahım, mənə ölmüşləri necə diriltməyini göstər, gözüm, ilə görüm bəsirətim açılsın.Allah buyurur ki, mənim diriltməyə qadir olduğuma inanmamışsan?

Dedi ki, inanmışam,lakin qəlbim xətircəm olmaq üçün soruşdum.

Allah buyurdu ki, dörd ədəd quş götür və diqqətlə bax ki, ölüb diriləndən sonra onların həmin quşlar olmasına şübhən olmasın. Onları parça-parça et, sonra hər dağın üstünə onlardan bir parça qoy, daha sonra onları çağır ki, sənin üstünə sürətlə qayıdarlar. İbrahim quşların içindən dördünü seçdi: ördək, tovuz, xoruz və qarğa. Onların başını kəsib, özlərini də doğrayıb bir-birinə qatdı. Onları bölərək on dağın başına tökdü. Başlarını əlində saxlayaraq onları adları ilə çağırdı. O yanına dən və su qoyaraq baxırdı. Gördü ki, hissələr havada uçaraq birbirinə birləşəndən sonra tam bir bədən olaraq, hər biri gəlib öz başına qovuşdu. Sonra yaxınlaşaraq dən yeyib, su içdilər. Bil ki, Allah qalib və hökm edəndir. İbrahim həqiqət məqamında özünü ölü hökmündə bilib dedi ki, Pərvərdigara, mən səndən başqasını dost tutduğum üçün ölü hökmündəyəm, məni dirilt!

Hz.İbrahimin Nəmrud ilə sonrakı mübarizəsi haqqında Quranda belə yazılır:

əl-Ənbiya-58-70-And olsun Allaha, mən sizin bütlərinizi sındırmağa tədbir tökərəm, siz arxa çevirdikdən sonra. Nəmrud və əhalisi bayram yerinə getdikdən sonra İbrahim böyük bütdən başqa bütün bütləri parça-parça etdi.Sonra baltanı böyük bütün boynundan asdı ki,guya bütün bütləri bu böyük büt qırıb.Bununla da bəlkə bütpərəslər onun tərəfinə qayıtsınlar.

Onlar gəlib bütlərin məhv olduğunu gördükdə dedilər:-Bu işi bizim Allahımıza kim etmişdir? Kim edibsə, şübhəsiz, o zalımlardandır və biz eşitmişik ki, bir cavan onları pisliklə zikr edir.Ona İbrahim deyirlər və o, Azərin oğludur.

Azəri Nəmrudun yanına gətirdilər.Nəmrud dedi ki, sən mənə xəyanət edib oğlunu məndən gizlətmisən.

O dedi:-Ey padşah! Bu onun anasının işidir, çağırın ondan soruşun.

İbrahimin anası gəldikdə Nəmrud dedi:-Nə üçün oğlunu məndən gizlədibsən ki, allahlarımızın başına bu oyunu gətirib?

O dedi:-Ey Padşah!Sən rəiyyətin uşaqlarını öldürüb, nəsillərini kəsirdin. Mənim xəyalıma gəldi ki, əgər sənin axtardığın adam mənim

oğlumdursa, onu sənə verim ki, öldürəsən və başqalarını öldürməkdən əl çəkəsən. Əgər o deyilsə, qoy oğlum xilas olsun.İndi məlum olur ki, sənin axtardığın mənim oğlumdur.Bu oğlum, bu sən, nə istəyirsən elə də et!

Dedilər:-Onu camaatın gözünün qabağına gətirin ki, bəlkə hazır olanlar onun sözünə və işinə şahid olsunlar.İbrahim onlara belə cavab verdi ki, yox, bu işləri bütlərin böyüyü etmişdir.Əgər onlar danışırsa, kimin bütləri sındırdığını, o böyük bütdən soruşun.

Onlar öz-özlərinə, ağıllarına müraciət edərək bir-birlərinə dedilər ki, siz zalım adamlarsınız, elə bir məbuda ibadət edirsiniz ki, heç özünü pislikdən qoruya bilmir, bəs bizi necə qoruyacaq?

Sonra başlarını aşağı saldılar və dəlil gətirməyə acizlik edib dedilər:-Ey İbrahim,"Əlbəttə, sən bilirdin ki, bunlar danışan deyillər. İbrahim dedi:"Siz Allahdan başqa elə bir şeyə ibadət edirsiniz ki, sizə heç bir xeyir və ya zərər verə bilməz."

Cavab verə bilmədikdə, Nəmrud öz qövmü ilə İbrahim barəsində məsləhət edib dedi:-Əgər siz Allaha kömək edənlərsinizsə, onu yandırın və öz allahlarınıza kömək edin!

Nəmrud İbrahimi həbs etdi, digər tərəfdən isə odun toplamağı əmr etdi. İbrahimi oda atmaq günü gəlib çatdı.Nəmrud uca bir yerdə tamaşa etmək üçün yer düzəltdi və alov şölələndikdə elə bir istilik yarandı ki, quş havada uçarkən yanırdı.Büna görə mancanaq düzəldib,İbrahimi onun vasitəsi ilə oda atmaq istədikdə,Yer dilə gəlib dedi:-İlahi, mənim üstümdə sənin birliyinə iqrar edən yalnız İbrahimdir, onu odda yandırarsanmı?

Göyün mələkləri də həmin sözlərlə dilə gəldilər.Allah-taala buyurdu:"Əgər İbrahim dua etsə, mən qəbul edərəm."

Cəbrail (ə.s.)iztirab halında onun üçün dua etdi.Allah tərəfindən xitab gəldi:"Sakit ol!İbrahim mənim Xəlilimdir,hər nə istəsə, əmələ gətirərəm. Bu saat onun yanında nazil ol!"Hz.Cəbrail sürətlə nazil oldu, o zaman ki,İbrahim mancanaqdan yuxarı qalxmışdı. Cəbrail (ə.s.) dedi:-Ey İbrahim!-Hacətin varmı, icra edim?

O dedi:"Sənə ehtiyacım yoxdur, lakin Allahdan hacətim var."

Biz dedik:"Ey od, soyuq ol!O zaman od elə soyuq oldu ki,İbrahimin dişləri bir-birinə dəydi. Ey od salamat ol!Söz tamam olanda od gülüstan oldu, Cənnətdən taxt və döşənəcək gəldi. İbrahim(ə.s.) taxtın üstündə əyləşib Cəbrail (ə.s.)ilə söhbət etməyə başladı."

Nəmrud tamaşa edirdi ki,görsün İbrahim necə yanacaq? Gördü ki, bağçada bir nəfər ilə söhbət edir.Azərə dedi ki,oğlun öz Allahının yanında ən çox hörmətlidir.

Üç gün sonra odlardan əsər-əlamət qalmadı.Nəmrud Ibrahimin şəhərdən çıxmasına qərar verdi. Istədilər ki,ona hiylə və düşmənçilik etsinlər. Biz onları ziyankar etdik.

Ardı:-İbrahim öz qövmünü Allah tərəfə çağıran zaman onun qövmünün cavabı:"Onu öldürün,ya da yandırın ki,onun əlindən xilas olasınız!"-deməkdən başqa bir şey olmadı.

Ancaq Allah İbrahimə oddan nicat verdi. Həqiqətən,burada iman gətirən qövmlər üçün ibtrətlər vardır.

İbrahim onlara dedi:-Sizin Allahdan başqa özünüzə tanrı etdiyiniz, bu dünyada dostluq etmək üçündür.Sonra qiyamət günü bir-birinizi inkar edər,bir-birinizə lənət edərsiniz.Sizin qayıdacağınız yer Cəhənnəm oduna tərəfdir və sizin üçün heç bir köməkçi yoxdur.

Lut İbrahimə iman gətirərək dedi:-Mən İbrahim ilə Allahın buyurduğu yerə hicrət edəcəyəm. Allah yenilməz qüdrət sahibidir.

Açıqlama:-"Peyğəmbərlərin həyatı "kitabından-Tarixçilər İbrahim (ə.s.) üçün üç hicrət-səfər nəql edirlər. Biri Babildən Şama ikinci, Şamdan Misirə,üçüncü Misirdən Şama qayıtması. Qurani-Kərimdə İbrahim Peyğəmbərin öz vətənindən hicrət edib, Şama gəlməsi bir neçə yerdə zikr olunmuşdur.

SARA XANIMLA İZDİVAC

Açıqlama:-İbrahim(ə.s.) atəşin içindən sağ-salamat çıxdıqdan sonra bir çox adamlar ona iman gətirdilər.İbrahimə İman edənlər arasında Haranın oğlu Lut və böyük Haranın qızı Sara da var idi. Uca Allah ona Nəmrud ölkəsindən ayrılıb, Şam torpaqlarına getməsini əmr etdi.

Sonra Sara xanım heç vaxt boşanmamaq şərti ilə, ona evlənmək təklif etdi. İbrahim (ə.s.) Sara xanımla evlənən zaman 30 yaşında idi. Sara xanımın çoxlu qoyun sürüləri və geniş torpaq sahələri var idi ki, hamısını İbrahimin ixtiyarına verdi.

Sara xanım çox gözəl və yaraşıqlı bir qadın idi. Onlar Misirə hicrət etdikləri vaxt oranın kralı Firon(Ərarə)Sara xanımı görüb ondan xoşu gəlir. Onu yanına gətirilməsini əmr edir. Lakin ona əl uzatmaq istədikdə əlləri quruyur, nə qədər edirsə də, bütün quruyub ona yaxın gedə bilmir. Bu zaman o,İbrahim Peyğəmbərdən xahiş edir ki, onun sağalması üçün Allaha dua etsin və söz verir ki, onu sağaltsa, onları azad buraxacaq və onlara hədiyyə də verəcək. İbrahim (ə.s.) Allaha onun üçün dua etdi ki, onun əl-qolu açılsın.Fironun əlləri açıldıqdan sonra bir çox hədiyyələr versə də, onlar qəbul etmədilər. Fironun Huryə adlı bir ağıllı qızı

vardı.O, atasını başa salır ki, bunlar təmiz və şərəfli insanlardırlar və onları incitməyib öz yollarına buraxsın. Onlar Misirdən Şama dönəndə Huryə kənizlərindən ən gözəlini, Hacəri onlara hədiyyə etdi.

Onlar Şamda yaşayıb, sonra Fələstin torpaqlarında Remlə ilə Qüddus arasındakı Katt deyilən yerdə yerləşdilər. İbrahimin qardaşı oğlu Lutun da orada mal-dövlətləri artmışdı.Sonra Hz.İbrahim Lutu Sedən və Əmirə şəhərlərinə göndərdi.

İbrahim Peyğəmbər 80 yaşında ilk sünnət olunan insan idi. Ona bu vəhy Allah-taala tərəfindən gəlmişdi ki, bu da müsəlman olmağın şərtlərindən idi. Muharibələr vaxtı ölən insanlardan kimin müsəlman olması da bu şərtlə bilinirdi.

Hz.Adəm, Hz Şiys, Hz. İdris və Hz. Nuh süryani dilində, Hz İbrahim Şama gəlincə ibrani dilində, Hz İsmail ərəb dilində danışırdılar.

HACƏR XANIMLA İZDİVACI

İbrahim Peyğəmbərin Sara xanımdan övladı olmadığına görə Sara xanım özü kənizi Hacəri İbrahim Peyğəmbərə uşaq doğması üçün alır.

Hacər xanımın əsli Misirin Fərəmə adlanan bölgəsindəki Ümmülərəb kəndindən idi.O, Misirli idi və Firona kəniz olmamışdam qabaq Misir Küds krallarından birinin qızı idi.

Əmr ibn As Misiri fəth etməyə getdiyi zaman Peyğəmbərimiz ona buyurmuşdu:“Misiri fəth edən zaman onlarla yaxşı dolanaq. Çünki onlarla bizim qohumluq əlaqəmiz var.Misirlilər də bu fikri təsdiqləyib, etiraf edərək demişlər ki:”Doğru deyirsiniz, bizim kralımızın qızı Mənf xalqından idi. Kral da Mənf xalqının kralı idi. Sonra Ayni Şəms xalqı onu devirib taxtdan saldı və qızını da kəniz etdilər. Beləcə,Hacər xanım, Hz.İbrahimin xanımı sizin də ananızdır”-deyə etiraf etmişdilər.

İbrahim Peyğəmbər 86 yaşında Hacərlə evləndi və İsmail dünyaya gəldi.Bundan sonra Sara xanım Hacər xanımı qısqanıb incitməyə başladı.Sonra İbrahimə Allahdan vəhy gəldi ki, Hacər ilə İsmaili Məkkəyə, Beytül-Hərama aparsın.Bu yol zamanı Cəbrail onlara bələdçilik etdi. Onlar Məkkəyə yetişdikdə Cəbrail (ə.s.) ona dedi:“Burada sənin oğlunun soyundan Ümmi Peyğəmbər çıxacaq və Kəlimətül-Ulya onunla tamamlanacaq.”

Beləcə, Hacər xanım və balaca İsmail Məkkədə ağacsız, susuz bir yerdə məskunlaşdılar. Allah onlar üçün Zəm-zəm quyusunu nazil etdi və sonra oraya qonşu torpaqlardan insanlar yığıldılar. Məkkədə Beytül-Həramı daşlarla ilk tikən İbrahim (ə.s.) olmuşdur.Ona bu daşların tikiləcəyi yeri Cəbrail (ə.s.) göstərmişdi.

İbrahim-35-38-O zaman ki, İbrahim dedi:-Ey mənim Allahım! Bu Məkkə şəhərini əmin-amanlıq yurdu et!Məni və övladımı bütlərə ibadət etməkdən uzaq et!

Allahın əmri ilə zövcəsi Hacəri və oğlu İsmaili Məkkəyə qoyduqdan sonra dedi:"Ey Rəbbim!Mən ailəmdən bəzisini Beytül-Həramın yaxınlığında əkin bitməz bir vadidə sakin etdim ki, onlar da namaz qılsınlar!Elə et ki, insanlar onlara yaxın olsunlar.Onlara meyvələrdən ruzi ver ki, sənin nemətinə şükür edə bilsinlər.Sən bizim gizli və aşkar saxladığımız hər şeyi bilirsən.Yerdə və göydə səndən gizli heç bir şey yoxdur."

Hacər xanım 90 yaşında vəfat etmiş və Kəbəyə bitişik,yarım dairə səklində bir divarın yanında"Hicr"deyilən mübarək yerdə basdırılmışdır.

HZ.İSMAİL VƏ KƏBƏ EVİ

əs-Səffat-100-113-İbrahim Allahdan övlad istəyərək dedi:"Ey mənim Allahım, mənə saleh övlad bəxş et!"

Biz də ona həlim xasiyyətli bir oğlan uşağı (İsmail) ilə müjdə verdik.O yüyürüb- qaçmaq və atasına kömək edə bilmək çağına (on üş yaşına) çatdıqda(İbrahim) dedi:"Oğlum, yuxuda gördüm ki, səni qurban kəsirəm. Bax (bu barədə) nə fikirləşirsən!"O dedi:"Atacan!Sənə nə əmr olunursa, onu da et. İnşallah, mənim səbirlilərdən olduğumu görəcəksən!"

Belə ki, onların hər ikisi Allahın əmrinə razı oldular. İbrahim İsmaili Mina dağına apardı və başını kəsmək istəyəndə atalıq məhəbbəti, onu Allahın əmrindən çıxarmasın deyə,İsmaili üzüüstə yerə yıxdı.Bıçağı bir neçə dəfə onun boğazına çəkdisə də İsmailin başını kəsə bilmədi. İbrahim (ə.s.) qəzəblənərək bıçağı yerə atdı, bıçaq yerə düşəndə daşı kəsdi.İbrahim dedi:"Ey bıçaq, məgər İsmailin boğazı bu daşdan bərkdir?"Bıçaqdan səs gəldi ki, sən kəsməyi əmr edirsən, amma böyük və uca Allah kəsməməyi əmr edir".

Biz onu çağıraraq dedik:"Ya İbrahim!Şübhəsiz ki, sən yuxuda gördüyünə əməl etdin.Bunun üçün oğlunu kəsilməkdən əfv etdik. Habelə Allahın əmrinə təslim olmaqla,ehsan edənlərə mükafat verərik!"

Həqiqətən, bu qurban böyük və aşkar imtahandır ki, sən imtahan olundun və biz onu böyük bir qurban ilə(Habilin qurbanlıq qoçu ilə) əvəz etdik.Yəni Allahın əmri ilə Cəbrail Adəmin oğlu Habilin qurban etdiyi qoyunu gətirib dedi:"Ey İbrahim! Bu qoyunu İsmailin əvəzinə qurban kəs!"

Sonralar gələnlər arasında onun üçün(yaxşı ad, gözəl xatirə) qoyduq.Biz İbrahimə sonra doğulacaq İshaq ilə müjdə verdik.O, Peyğəmbərlərdən və saleh kəslərdən olacaq! Övlardlarının çoxluğu ilə İbrahim və İshaqa bərəkət verdik! Onların övladlarının içində iman və itaət səbəbi ilə öz nəfsinə ehsan edən və küfr, günaha görə aşkar zülm edənlər də var!

Açıqlama:-Rəvayətlərə əsasən Kəbə evini tikib və Həcc əməlini yerinə yetirən ilk şəxs Hz.Adəm olub.Sonra Nuhun tufanı zamanı Kəbə evini Allah-taala asimana qaldırmışdır. Allahın əmri ilə İbrahim (ə.s.) onun yerini təzələmək istədikdə,Hz.Cəbrail nazil olub, onun təməlinin yerini xətt çəkərək İbrahimə göstərib.

İbrahim (ə.s.) öz oğlu İsmail ilə Kəbə evini tikməyə başladılar.

Səduqun nəql etdiyi hədisə əsasən mələklər də bu işdə onlara kömək ediblər.Nəhayət, ev tikilib qurtardıqdan sonra Əbu Qubes dağında yerləşən"Həcərul-Əsvəd" adlı qara daşı Allahın göstərişi ilə gətirib özünə xas olan yerə qoydular.

əl-Bəqərə-127-129-İbrahim və İsmail Beytin bünövrəsini ucaldan zaman dua etdilər ki:"Xudaya, bu evi bizdən qəbul et! Bizim hər ikimizi müsəlman və sənin əmrinə itaətkar və gələn nəsillərimizi də sənə itaət edənlərdən et!Bizə necə ibadət edəcəyimizi öyrət və tövbələrimizi qəbul et! Həqiqətən, sən tövbəni qəbul edən və mərhəmətlisən.İlahi! Onlara özlərindən olan, sənin ayələrini onlara oxuyan, onlara kitab, hikmət öyrədən və onları pakizə edən bir Peyğəmbər göndər".

Bu ayədə göründüyü kimi İbrahim (ə.s.) və İsmail (ə.s.) Kəbə evini tikdikləri zaman Allaha dua etdilər.Allah-taala da onların dualarını qəbul etdi.

Açıqlama:-Beləliklə də Allahın Tövhid evi, Tövhid qəhrəmanı Kəbə evi, onun və oğlunun vasitəsi ilə tikilib qurtardı.İbrahimə əmr olundu ki, camaatı Kəbə evini ziyarət etməyə dəvət etsin.Bu barədə Allahın fərmanı belə idi:"Camaatı Həcc əməllərini yerinə yetirməyə çağır. Piyada, miniklə, hər uzaq bir yerdən sənə tərəf gəlsinlər, orada onlar öz xeyirlərinin şahidi olsunlar, Allahı müəyyən günlərdə yad etsinlər. Biz dili bağlı heyvanları onlara ruzi verdik.Elə isə onlardan həm özləri yesinlər və həm də kasıbları yedirtsinlər. Sonra Kəbə evini təvaf etsinlər."

İsmail Peyğəmbərin ləqəbi Sadiqul-vəd (Vədinə sadiq olan)idi. Onun haqqında Qurani-Kərimində belə buyurulmuşdur:

Məryəm 54-55"Bu kitabda vədəsinə sadiq olan İsmaili xatırla. O, Allahın göndərdiyi Peyğəmbər idi.Daima öz xanidanını namaza, zəkata əmr edərdi, Rəbbinin yanında sevimli idi."

Hz.İsmailin12 övladı olmuşdur.Ömrü 137 il olmuşvə anasının yanında "Hicri-İsmaildə"dəfn edilmişdir.

HZ.İBRAHİMİN QONAQLARI VƏ HZ.İSHAQ HAQQINDA.

Hud-70-74-Həqiqətən, bizim elçilərimiz insan surətində gəlib İbrahimə İshaq və Yəqubun bəşarət xəbərini gətirdilər və dedilər: "Sənə salam olsun!"İbrahim onlara cavab verib dedi:"Sizə də salam olsun."

İbrahim çox qonaqpərvər olduğu üçün onların qabağına bişmiş buzov gətirdi. Onların yeməyə əl uzatmadığını gördükdə,İbrahim bu hərəkəti xoşlamadı və qəlbində onlardan qorxdu.Onlar bunu duyub dedilər:"Ey İbrahim qorxma!Biz Lut qövmünə göndərilmişik, sənin qövmünü yox,onları həlak etməyə gəlmişik. Biz sənə isə İshaq adlı oğlan uşağı dünyaya gətirməklə və onun ardınca Yaqub ilə bəşarət veririk."

İbrahimin zövcəsi Sara ayaq üstə durmuşdu,pərdənin arxasından qulaq asırdı və bu sözü eşidəndə güldü.Sonra Sara dedi:"Vay olsun mənə!Mən 98 yaşında qoca qarı necə doğaram?Mənim ərim isə 120 yaşında qoca kişidir.Həqiqətən, bu iş çox təəccüblüdür."

əs-Səffat-112-Ona salehlərdən olan İshaqın Peyğəmbər olacağı ilə müjdə verdik.

Elçilər dedilər:"Allahın işinə təəccüb edirsənmi?Onun rəhməti siz əhli-beytədir. Həqiqətən, Allah bəyənilmiş və ehsan etməklə kərimdir."

İbrahim-39-41-Həmd Allah üçündür ki, yaşlı vaxtımda İsmaili və İshaqı mənə mərhəmət etdi! Mənim Allahım hər cür duanı eşidən və qəbul edəndir!

Ey Rəbbim! Məni və övladımı namaz qılan et,duamı qəbul et, haqq-hesab çəkilən gündə mənim, ata-anamın və möminlərin günahını bağışla!

Sara xanım 127 yaşında Kənan torpaqlarında Həbrudda vəfat etdi. Beytul-Quddüsdə Xəlilurrəhman adlanan yerdə Sara xanım,Hz.İbrahim ,oğlu İshaq və zövcəsi, Yağubun zövcəsi Ləya orada dəfn olunmuşlar.

HZ.İBRAHİMİN VƏFATI

Hədis:-Hz.İbrahimin vəfatı haqqında bir çox rəvayətlər vardır.

Bunlardan biri Səduqun("İlələüş-şərayi"sən.24) kitabında İmam Cəfəri Sadiqdən belə rəvayət edir:-Allah,Məlakul-movti ruhunu almaq üçün Həzrətin yanına göndərir.Hz.Əzrail ona salam verib deyir ki ,gəlmişəm səni haqqın dəvətinə aparam."

İbrahim deyir:”Heç görmüsən ki, bir dost öz dostunun ruhunu alıb öldürsün?”

Allahdan vəhy gəlir ki:”Heç görmüsənmi, bir dost öz dostunun görüşündən imtina etsin.Hər dost öz dostunun görüşünü arzulayır.”

Başqa bir hədisdə də Səduqun (“Əməli” səh.198)kitabinda yenə də Cəfəri Sadiqdən söylənilir:-Əzrail (ə.s.) onun canını almağa gələndə o, Allahdan ömrünün bir neçə il artırılmasını istədi.Allah-taala da bu duanı qəbul edib, ömrünü onun öz ixtiyarına buraxdı.Bu nemətin şükrünü tamamlamaq üçün Saraya dedi ki, yaxşı yeməklər hazırlasın və kasıblara ehsan etsinlər.O yeməyi hazırlayıb kasıbları ehsana dəvət etdi. Qonaqlar yığıldıqdan sonra İbrahim (ə.s.)onların arasında bir qoca gordü ki, qoca yeməyi ağzına apara bilmir,əli əsib yeməyi ora-bura tökür.Təəccüblə yanındakından soruşdu ki, bu qocaya nə olub? O da dedi ki, bu hal onun zəifliyi və qocalığı səbəbindəndir.Hz.İbrahim onun neçə yaşı olduğunu soruşdu. Cavabında gördü ki, bu qoca ondan iki yaş böyükdür. Özözünə fikirləşdi ki, mən iki ildən sonra bu hala qalacağam?Bu səbəbdən Allahdan özünə ölüm arzuladı.

Onun ömrünün müddəti haqqında müxtəlif fikirlər vardır.120-175 və ya 200 yaş.(“Təbərə tarixi”cild-1 səh.219)Onun Hibrin şəhərində,Beytul-Quddüsda, Xəlilurrəhman adlanan, özünün əvvəlcədən hazırladığı yerdə dəfn olunduğu yazılır.

HZ. LUTUN HƏYATI HAQQINDA

İbrahim peyğəmbərin qardaşı oğlu və ona ilk iman gətirən Lut Nəmrudun əlindən İbrahim(ə.s.) ilə birlikdə Fələstinə hicrət etdilər. Orada varlanaraq Mədinə və Şam arasında yerləşən Sədum şəhərinə köçürlər.Lut qövmü dörd şəhərdə yaşayırdılar. Bunlar-Sədum, Əmura, Əduma və Sabura idi.

əl-Ənbiya-71-Biz onu da, İbrahimin qardaşı oğlu Lutu da, Nəmrud tayfasının əlindən qurtarıb, bəşər övladına daim bərəkət verdiyimiz yerə,Şama qovuşdurduq.

əl-Ənkəbut-31-32-Bizim elçilərimiz İbrahimə Allahın ona oğul və nəvə bəxş edəcəyi haqda müjdə gətirdikləri zaman dedilər:”Həqiqətən, biz bu qəryənin əhalisini-Lut qövmünü həlak edəcəyik! Çünki onlar özlərinə zülm edənlərdir!”

İbrahim dedi:”O qəryədə Lut Peyğəmbər var,siz hamını məhv edəcəksiniz?”

Dedilər:”Biz orada kimin olduğunu çox yaxşı bilirik! Şübhəsiz ki, biz Luta və övrətindən başqa ailəsinə nicat verərik.O, övrət qəryədə qalıb həlak olanlardandır!”

Açıqlama:-Lutun adı Qurani-Kərimin 14 surəsində zikr olunub. Bu 14 surənin 11-də onun qövmünün adı və qövmü ilə mübahisəsindən qısa və ətraflı söhbət açılıb.Lut qövmünün yaşadığı şəhərlərin əhalisi pis əməllərlə məşğul olurdular ki, hələ o vaxta qədər tarixdə heç kəs bu işlərlə məşğul olmamışdı.Bu əməli onlara Şeytan öyrətmişdi.Bu haqda Quranda belə buyurulur:

əl-Əraf-80-82-Lutu da Peyğəmbər göndərdik.Bir zaman o öz tayfasına demişdi: ”Sizdən əvvəl bəşər əhlindən heç kəsin etmədiyi həyasızlığı (kişilər arasında olan cinsi əlaqə) sizmi edəcəksiniz? Siz qadınları atıb, şəhvətlə kişilərin üstünə gəlirsiniz. Siz, doğrudan, həddi aşmış bir tayfasınız.”

Lut tayfasının bu sözlərə cavabı(istehza ilə):”Onları(Lutu və ona tebe olanları)məmləkətinizdən çıxarın,çünki onlar(həddindən ziyada) təmiz(bu cür işlərlə məşğul olmayan)adamlardır!”-deməkdən başqa bir şey olmamışdı.

əl-Ənkəbut-29-30-Yadına sal Lutu!Bir zaman o öz qövmünə dedi:”Siz özünüzdən əvvəl aləmlərin əhlindən heç bir nəfərin etmədiyi pis işi edirsiniz?Həqiqətən də siz qadınlara yaxınlaşdığınız kimi kişilərə yaxınlaşırsınız və insanların yolunu kəsirsiniz.Yoldan keçənləri ləvat etmək üçün tutub saxlayırsınız,yaxud da oğurluq üçün yolları kəsirsiniz. Məclislərinizdə pis işlər görürsünüz!(Onlar məclislərində bir-birindən utanmayaraq mədə yeli çıxarar,ləvat və sair pis əməllər görərdilər.)”

Onun qövmünün cavabı:”Əgər sən doğru deyənlərdənsənsə, bizə Allahın əzabını göndər!”Lut dedi:”Pərvərdigara! Mənə kömək et! Fitnə-fəsad törədən qövmlər üçün əzab göndər!”

Ənkabut-33-Elçilər Lutun yanına gələn zaman Lut onları gözəl oğlan surətində görüb, qövmündən onlara pislik yetişəcəyindən qorxdu, bu iş ona pis göründü və onlara görə ürəyi sıxıldı.Onları qorumağa qüdrəti çatmayacağı üçün kədərləndi.Elçilər dedilər: ”Qorxma və bizə görə qəmgin olma!Həqiqətən də biz sənə və sənin ailənə nicat verərik! Yalnız sənin zövcəndən (Vailədən) başqa.O, qəryədə qalanlardan olacaq!”

Hud-80-84-Mələklər dedilər:”Ey Lut!Biz sənin Allahının elçiləriyik. Allah bizi onları həlak etmək üçün göndərib.Onların pislikləri sizə yetişə bilməz.Gecə ikən öz əhlin ilə şəhərdən qaranlıqda çıx get.Sizdən heç kəs arxaya baxmasın.Təkcə sənin zövcənə onlara yetişən əzabdan yetişəcək. Əzabın yetişmək vaxtı sübh açılandadır. Məgər sübh yaxın deyilmi?Onlara əzab nazil etməkdə əmrimiz gələn zaman,qəryəni alt-üst edərik.Başlarına elə daşlar yağdırdıq ki,bir-birinin üstünə qalanmışlar.

Allahının elmində o daşlar əlamətlər olarsa,zalımların başlarına yağması uzaq deyildir.Hər kəs zalım olsa,Allah onların üzərinə daş yağdırar.”

əl-Ənbiya-74-75-Luta Peyğəmbərlik hökmü və bütün məsələləri bilmək yolunu verib onu elə bir qəryədən uzaq etdik ki,pis işlər görürdülər. Həqiqətən,onlar Allahın itaətindən çıxan pis qövm idilər. Lutu öz rəhmətimizə daxil etdik.Həqiqətən,o saleh bəndələrdən idi.

ət-Təhrim-10-Allah kafir olanların, Nuh və Lut Peyğəmbərin zövcələrini məsəl çəkdi ki, bizim bəndələrimizdən olan iki nəfər saleh insanın zövcələrindən idilər.Lakin hər ikisi də xəyanət etdilər, iman gətirmədilər.

Nuhun zövcəsi deyərdi:”Nuh dəlidir!”

Lutun zövcəsi isə evinə qonaq daxil olan zaman damda od yandırardı ki, camaatı xəbərdar etsin. Onlar da gəlib qonaqlarla rüsvayçı hərəkətlər etsinlər.

Bu iki Peyğəmbər Allahdan gələn əzabdan heç bir şeyi zövcələrindən dəf edə bilmədilər.Onlara deyildi ki,Cəhənnəm oduna daxil olun.

Allah buyurur:“Biz bu əhvalatda ağıl sahibləri üçün açıq-aydın nişanələr qoyduq.”

Təbərsi”Məcməul-bəyan”kitabında nəql edir ki:”Onların ictimaiyyəti və məclisləri söyüş söymək,qapaz vurmaq, qumar oynamaq,daş atmaq və ləvat etmək kimi pis əməllər ilə keçərdi. Ləvat əməli ilə məşğul olan kəs isə Lutun qövmü ilə məhşərə gələr və zalımlardan hesab olunar.”

HZ.YƏQUBUN HƏYATI HAQQINDA

Yəqub (ə.s.) adı Qurani-Kərimdə İbrahim Peyğəmbərin əhvalatından əlavə daha çox Yusif surəsində və onun əhvalatı əsnasında qeyd olunmuşdur.Yəqub İshaq (ə.s.) oğlu,İbrahim (ə.s.) nəvəsi idi.

Səduqun (“İlələüş-şərayi” kitabında və“Məani-əxbər“)kitablarında imam Sadiqdən nəql olunur ki,Yəqub ilə Eys əkiz qardaşlar idilər. Eys birinci,Yəqub isə onun ardınca dünyaya gəlmişdi. Bu səbədən də ona,”arxadan gələn” yəni Yəqub adı verilmişdir.

Quranda bu haqda belə buyurur:

əs-Sad-45-47-Bizim bəndələrimiz İbrahim, İshaq və Yəqubu yad et ki, qüdrət və bəsirət sahibi idilər. Biz axirət evini xatırlamağı onlara xas etdik. Həqiqətən, onlar bizim yanımızda seçilmiş və xeyirxahlardır.

Yəqubun anası Rəfəqə onu Eysdən daha çox istəyirdi. Yəqub Peyğəmbərin əkiz qardaşı Eys anadan olandan ona paxıllıq etmiş, onu incitmiş və ona bir çox əzab-əziyyətlər vermişdi.

HZ.İSHAQİN YƏQUBA ETDİYİ TÖVSİYƏ

İshaq oğlu Yəquba -"Allah səni Peyğəmbər edəcək və səndən də xeyir və bərəkət vücuda gətirəcək"-dedi. Kənanlılardan heç bir qadınla evlənməməsini, Fəddanda yaşayan, dayısı Ləbanın yanına getməsini və onun qızları ilə evlənməsini tövsiyə etmişdi. (İbn Kubeydə, Maarif,s.18)

Anası da dayısının yanına getməyi tövsiyə etmişdi.Bundan sonra Hz.Yəqub Fəddana yola düşdü.Yolda gecəyə düşdüyü üçün bir daşı özü üçün yastıq edib yatır.Yuxuda başının üstündən göy qapılarından bir qapıya doğru bir nərdivan qoyulmuş və mələklərin o nərdivandan enib onu göyə çıxardığını görür.

Orada Uca Allah ona deyir:"Əlbəttə ki, Mən Allaham və Məndən başqa heç bir Allah yoxdur.Mən sənin və sənin atalarının da İlahisiyəm. Şübhəsiz ki, Mən səni və sənin zürriyyətini, səndən sonrakıları da bu Ərşi-Müqəddəsə varis etdim. Oranı sizin üçün mübarək qıldım.Kitabı, hikməti və Peyğəmbərliyi də sizlərdən bəzilərinə nəsib etdim. Sonra mən sənin yanındayam və səni o məqama yetişincəyə qədər qoruyacağam."**(Təbəri,tarix,c.1. s.164-ibn Xaldin,Tarixc.2,s.39)**

Bu haqda Quranda belə buyurulur:

əl-Ənbiya-72-73-Öz tərəfimizdən hədiyyə və ehsan olan halda ona İshaq və Yəqubu bağışladıq və hamısını saleh bəndələrdən etdik. Onları rəhbər etdik ki, insanları əmrimizə itaət etməyə hidayət edirdilər. Onlara yaxşı işlər görməyi, namaz qılmağı, zəkat verməyi vəhy etdik. Onlar bizə ibadət edənlər idilər.

2-Cİ MƏLUMAT.AXIR-SANDIĞIN,TABUTUN YƏQUBA TƏSLİM EDİLMƏSİ

Rəvayətə görə Tabut şimşad ağacından düzəldilən bir sandıq olub. Adəm Peyğəmbərdən Şiysə, ondan sonra onun oğullarına, daha sonra isə Hz.İbrahimə gəlib çatmışdı. O da öz növbəsində vəfat edənə yaxın Tabutu İsmaila, o da vəfatına yaxın oğlu Kaydara vəsiyyət etmişdi.Tabut da onun yanında saxlanılırdı.

İshaqın oğulları Tabutu Kaydardan istəyib demişlər: "Peyğəmbərlik sizdən başqa tərəfə çevrildi. Sizin Tabut içindəki Hz.Muhəmməd nurundan başqa nəsibiniz yoxdur.Tabutu bizə verin!" Kaydar isə Tabutu onlara vermək istəməmiş və onlara belə demişdir:"O mənə babamın vəsiyyətidir və onu heç kəsə vermərəm." Kaydar bir gün Tabutu açmaq istəmiş və onu heç cür açа bilməyəndə, səmadan belə bir səs eşitmiş:"Ey

Kaydar! Əlini çək, çünki bu Tabutu açmağa sənin üçün icazə yoxdur!O, Peyğəmbərlərə vəsiyyət edilmişdir və onu Peyğəmbərdən başqası açа bilməz. Sən onu əmin oğlu Yəquba ver!"Bu səsi eşidən Kaydar Tabutu çiyninə alıb,o zaman Yəqubun oturduğu Kənan vilayətinə yollanmışdır. Kaydar onlara yaxınlaşdığı vaxt Yəqub oğullarına:-"Allaha and içirəm ki, Kaydar Tabutla bura gəlir və tez qalxıb onu qarşılayın."

Yəqub (ə.s.) oğulları ilə birlikdə qalxıb onu qarşılamışlar.Yəqub onu qarşılayandan sonra o Kaydarın rənginin solğun və özünün zəiflədiyini görüb,ondan bu hala qalmağının səbəbini soruşur. Kaydar da cavab verir ki:"Çiynimdə daşıdığım Muhəmmədin nuru mənə çox ağır gəldi və ona görə bu vəziyyətə düşdüm, axı onun nurunu hər adam daşıya bilməz."

Hz.Yəqub Kaydarla görüşəndən sonra ona oğlunun dünyaya gəlməsini xəbər verir. Kaydar çox təəcüblənib soruşdu ki, sən bunu haradan bilirsən? Yəqub Peyğəmbər cavab verir ki:"Mən bu gecə yuxuda göy qapılarının açıldığını gördüm.Göylə yer arasında ay kimi yuvarlaq bir nur gördüm! Mələklərin səmadan bərəkətlə və rəhmətlə endiklərini gördüm!Anladım ki, bu Hz.Muhəmməd üçündür. Kaydar Tabutu əmisi oğluna verib,ailəsinin yanına qayıdanda, onun bir oğlu olduğunu görür. Kaydar çox sevinib onun adını Həməl qoyur.

YƏQUBA "İSRAİL" LƏQƏBİ VERİLMƏSİ

Yəquba verilən İsrail ləqəbi haqqında da muxtəlif fikirlər vardır. Bunlardan biri"İlələüş-şərayi"kitabında Cəfəri Sadiqdən nəql edilmişdir ki,"İsrail"sözünün mənası Əbdullahdır yəni, Allahın bəndəsi deməkdir.Çünki"İsra"-əbd (bəndə)"İl"isə Allah adıdır. Başqa rəvayətdə buyurulur ki,"İsra "qüvvəsi deməkdir."İl"də Allahın adı olub,"Allahın qüvvəsi"-deməkdir. Mərhum Təbərçi "Məcməul-bəyan"təfsirində deyir:"İsrailullah,"yəni Allahın xalis bəndəsi deməkdir.

Hz.Yəqubun haram etdiyi şeylər haqqında Qurandakı ayələr:

Ali-İmran-93-Tövrat nazil olmazdan əvvəl İsrailin (Yəqubun) özünə haram etdiyi şeylərdən başqa,bütün yeməkləri Bəni-İsrail övladlarına halal idi.Yəqub dəvə ətini yeyərkən və südünü içərkən beli ağrıyarmış. Buna görə də dəvə ətini yeməyi özünə haram etdi.Tövrat nazil olandan sonra Hz.Musa dəvə ətini özünə haram etməmişdi.Lakin yemirdi. Buna əsasən yəhudilər dedilər ki, bizim babalarımız onu yemədiklərinə görə haram olub.Bu səbəbə Allah buyurur:"Ya Peyğəmbər! De ki, əgər doğru deyirsinizsə, Tövratı gətirin oxuyun.Tövrat nazil olandan sonra Allaha yalan iftira deyənlər,öz nəfslərinə zülm edənlərdir."

HZ.YƏQUBUN ÖVLADLARI

Liyadan olan uşaqlar:1.Rubil, 2.Şəmun, 3.Lavi, 4.Yəhuda , 5.Yəşcər, 6.Riyalin. Rahildən olan uşaqlar:-1.Yusif, 2.Benyamin. Bülhadan olan uşaqlar:-1. Dan, 2.Naftalı Zülfadan olanlar:-1.Cad, 2.Əşir

Yəqubun iki övladından başqa, bütün övladları Fidan Aram şəhərində anadan olmuşlar.Yəqub var-dövlət sahibi olduqdan sonra Fələstinə köcmüş və Yusiflə Benyamin də Fələstində dünyaya gəlmişlər.

HZ.YƏQUBUN OĞLANLARINA VƏSİYYƏTİ

Qurani-Kərimdə Yəqubun adı İbrahim və İshaqın ardınca, ya da öz oğlanları ilə birlikdə və yaxud Yusif və onun qardaşlarının əhvalatlarındakı ayələrdə çəkilir.

Yəqubun həyatına dair Qurani-Kərimdə gəlmiş daha başqa bir mövzu,onun öz oğlanlarına ölümqabağı etdiyi vəsiyyətdir:

əl-Bəqərə132-133-İbrahim və sonra da Yəqub övladlarına vəsiyyət etdi ki: "Ey mənim övladım, həqiqətən, Allah sizin üçün İslamı din seçdi. Siz də ancaq müsəlman olaraq ölməlisiniz".

Yəqub vəfat edən zaman siz ona şahid idinizmi? O öz övladına dedi ki,məndən sonra nəyə ibadət edəcəksiniz?Bu sualı verməkdə Yəqubun məqsədi övladının Tövhidi iqrar etməsi və onlardan əhd-peyman almaq idi. Onlar dedilər ki, biz sənin Allahına və ataların İbrahimin, İsmailin və İshaqın Allahı olan tək Allaha təslim olub, ona ibadət edəcəyik. Hz.Yəqubun vəfatı

Yusif-100-101-Yəqub oğlu Yusifə qovuşduqdan sonra 17 il Misirdə yaşadı və orada naz-nemətlə gün keçirib bildi ki, bu dünyanın etibarı yoxdur.Odur ki, Allahdan ölüm istəyərək dedi:"Pərvərdigara!Sən mənə Peyğəmbərlik verdin, hədislərin, yuxuların yozumunu öyrətdin.Ey göyləri və yeri yaradan Allah! Dünya və axirətdə mənim köməyim Sənsən.Məni müsəlman olan halda öldür!Məni saleh kəslərə qovuşdur!"

Açıqlama:-Yəqub Peyğəmbər həyatda çəkdiyi bir çox əzab-əziyyətdən sonra 147 yaşında Misirdə dünyasını dəyişdi.Ölüm zamanı Yusifə vəsiyyət etdi ki, cənazəsini Fələstinə aparıb atası İshaqın və babası İbrahimin yanında dəfn etsinlər.Onun vəsiyyətini yerinə yetirib,Fələstində babalarının yanında basdırdılar.

Təbərsi "Məcməul-bəyan "təfsirində İbni İshaqdan rəvayət edir ki,Yəqubun cənazəsini basdırmaq üçün Beytul-Müqəddəsə gətirildiyi gün,qardaşı Eysin dünyadan gedən gününə təsadüf edir.Odur ki, əkiz qardaşların hər ikisini də babalarının yanında dəfn edirlər.

HZ.YUSİFİN HƏYATI HAQQINDA

Yusif (ə.s.)gözəl üzlü,buruq saçlı,böyük gözlü və üzü günəş kimi parıldayırdı.Elə bil ki,dünyanın gözəlliklərinin yarısı ona verilmişdi.

Hz.Yəqub oğlanları Yusifi və Benyəmini hamıdan çox istəyirdi. Yusifə qarşı məhəbbəti, ona verdiyi üstünlük onun imanı və ilahi təqvası idi. Bu barədə Quranda buyurulur:

Yusif-4-7-O zaman ki,Yusif atası Yəquba dedi:"Ey ata! Mən yuxuda gördüm ki, on bir ulduz gün və ay mənə səcdə edirlər." Yəqub dedi:"Ey oğul!Yuxunu qardaşlarına danışma, yoxsa sənə cürbəcür hiylələr edərlər.Yəqub onun yuxusunu bu cür yozdu ki, on bir ulduz, on bir qardaşındır, Gün atasından,ay isə anasından ibarətdir. Bir gün olacaq ki, bu adamlar onun şəninin ucalığına görə ona təzim edəcəklər.Buna görə də yuxunu qardaşlarına danışma. Həqiqətən də, Şeytan insanın açıq-aşkar düşmənidir.

Allahın səni başqalarından seçib.Allah sənə yuxu yozmağı öyrədər,bundan əvvəl babaların İbrahimə,İshaqa verdiyi dünya və axirət nemətlərindən, sənə vəYəqub övladlarına da verər." Həqiqətən də Yusifin və qardaşlarının əhvalatında insanlar üçün ibrətlər vardır.

Amma Yusifin qardaşları atalarının bu əməlini Şeytani hisslərə uyaraq, ədalətsizlikdə ittiham edirdilər.Bu qardaşlardan on biri Ləya adlı qadından,Yusif və Benyəmin isə Ləyanın bacısı Rahilədən dünyaya gəlmişdilər. İş o yerə gəlib çatır ki, onlar bu fikirlərini açıq-aşkar atalarına bildirirlər və bu haqda Qurani-Kərimdə belə buyurulur:

Yusif-8-100-qədər olan ayələr haqqında.Yusifin qardaşları bir-birinə dedilər:"Yusif və qardaşı Benyəmin atamıza bizdən daha əzizdilər.Halbuki, biz daha çoxuq.Həqiqətən, atamız açıq-aşkar zəlalətdədir.Yusifi öldürün, ya da uzaq yerə atın ki, həlak olsun. Ondan sonra atanız mehrini sizə salar və siz ondan sonra əməlisaleh qövm olarsınız. Yusifi öldürəndən sonra tövbə edərsiniz və tövbədən sonra saleh adamlar olarsınız."

Yusifin qardaşlarından biri dedi:"Yusifi öldürməyin.Adam öldürmək günahdır.Əksinə, əgər yerinə yetirəcəksinizsə,onu bir quyunun dibinə atın!Yol keçənlərin biri onu quyudan görüb aparsın."

Elə ki,Yusifin qardaşları məsləhət və məşvərətdən sonraYusifi öldürmək üçün müttəfiq oldular, atalarının yanına gəlib dedilər:"Ey ata!Nə üçün sən bizdən Yusif barəsində xatircəm olmursan. Həmişə onu yanında saxlayıb, bizimlə bir yerə getməyə qoymursan.Biz onu sevənlərik.Onu sabah bizimlə səhraya göndər,gedib bir yerdə oynayaq, gülək, əlbəttə biz onu hifz edənlərik."

Yəqub dedi:”Onu aparmağınız məni qəmgin və məyus edər. Mən qorxuram ki, onu qurd yeyə, siz də ondan xəbər tutmayasınız.”

Onlar dedilər:”Biz ki, qüvvətliyik.Əgər Yusifi qurd yesə, biz onda ziyankarlardan olarıq.”

Elə ki,Yaqub izin verdi, onlar da özləri ilə Yusifi səhraya apardılar və hər biri həmlə edib onu öldürmək istədi.Sonra isə sözü bir yerə qoyub,Yusifin əynindən köynəyini çıxarıb, onu bir su çəninə qoyub, ip bağlayıb su quyusuna salladılar və dedilər:”Ey Yusif, ulduzları, ayı və günü çağır, indi sənə səcdə etsinlər.”

Elə Yusif quyunun yarısına yetişəndə onlar ipi kəsdilər.Yusif quyunun dibinə düşdükdən sonra, içində olduğu çən onu suyun üzünə çıxartdı. Biz ona vəhy etdik ki, vaxt gələr sən qardaşlarına, onların bu işi barəsində heç özləri gözləmədikləri halda, özünün Yusif olduğunu xəbər verəcəksən.

Elə ki,Yusifi quyuya saldılar, onun köynəyini keçi balasının qanına boyayıb, axşam çağı ağlaya-ağlaya atalarının yanına gəldilər.

Dedilər ki:“Ey bizim atamız!Biz qaçıb bir-birimizlə ötüşürdük və Yusifi əşyalarımızın yanında qoymuşduq ki, onlara baxsın.Buna görə də ondan uzaqlaşmışdıq. Qayıdanda gördük ki, qurd onu yemişdir. İndi biz doğru danışsaq da sən bizə inanmayacaqsan.”

Onlar Yusifin köynəyinin üstünə qan ləkəsi yaxıb gətirmişdilər. Ancaq köynək heç yerdən parçalanmamışdı.Yəqub köynəyi görəndə dedi:”Mən belə mehriban qurd görməmişəm ki, bir şəxsi yeyəndə köynəyini parçalamasın.”

Yəqub dedi:”Bu sözün əsli yoxdur!Sizin nəfsiniz sizi bu işə sövq etmişdir.Bundan sonra mənim işim tükənməz səbir etməkdir. Dediklərinizin yalan olduğunu bilə-bilə yalnız Allahdan kömək diləyirəm.”

Yusif üç gün quyuda qalandan sonra Mədyən tərəfdən Misirə gedən bir karvan quyunun yanına gəlib su çıxarmaq istədi.Suçu qabını suya salan kimi Yusif su qabından asıldı.Suçu su qabını çıxaranda gördü ki,qabda bir gözəl oğlan var. O,Yusifi görən kimi dedi:”Ey qövm! Bəşarət olsun sizə!Bu bir oğlandır ki, quyudan çıxıbdır.”Karvan əhli Yusifi (orada gizlənmiş) qardaşlarından saxta pul və bir neçə dirhəmlə satın aldılar.Onlar Yusifi satılıq bir şey kimi qoruyub saxladılar.Allah onların nə etdiklərini biləndir.

Yusifi Misirdə satın alan Əziz öz zövcəsinə- Züleyxaya dedi ki, ona yaxşı bax, hörmət et! Onun üçün yaxşı mənzil düzəlt!Ümid var ki, o bizə xeyir verə, baha qiymətə satıb xeyir götürərik,ya da özümüzə oğul edərik.Çünki Əzizin xəstəliyi var idi, ona görə də zövcəsi ilə yaxın ola

bılməzdi. Onun zövcəsi cavan və gözəl idi. İstədi ki, onu Yusifə meyl etməkdən çəkindirsin.Buna görə də dedi ki,onu özümüzə oğul edək.

Biz Yusifi xilas edib, ona nemət verdik, ona hadisələrin,yuxuların yozumunu öyrətdik. Allah öz işində qalibdir. O zaman ki,Yusif gəncliyinin ən yetkin dövrünə 17 yaşına çatdı,ona hikmət ilə danışıq və elm verdik. Biz yaxşı işlər görənləri belə mükafatlandırdıq ki, müsibət müqabilində səbir edib, heç kəsin sirrini aşkar etmədi.

O zaman Züleyxa Yusifin gözəl camalını görüb, günbəgün onun eşqindən alışmağa başladı.O övrət Züleyxa ki,Yusif onun evində idi,ona meyil etməkdən ötrü öz tərəfinə çağırdı və yeddi otağın qapılarını bağlayıb dedi:“Yaxın gəl!”Yusif dedi:”Mən sənin bu hərəkətindən Allaha sığınıram.Bu pis işi görmək məni satın alan şəxsə, Əzizə xəyanət etməkdir. Həqiqətən, Əziz mənim ağamdır, mənə gözəl tərbiyə verib. Mən ona və Allaha qarşı xəyanət etmərəm! Həqiqətən, zalımlar doğruçu olmazlar.”

Doğrudan da qadın ona meyl salmışdı. Əgər Rəbbinin dəlilini görməsəydi,Yusif də ona meyl edərdi.Biz pisliyi və biabırçılığı ondan uzaqlaşdırmaq üçün belə etdik.O bizim sadiq bəndələrimizdən idi.Yusif ondan qaçmaq istədi.Hər ikisi qapıya tərəf cumdu.O zaman Züleyxa Yusifə yetişib, dal tərəfdən köynəyini tutdu ki, onu getməyə qoymasın. Yusif də onun əlindən qaçmaq üçün güc işlədəndə, Züleyxa arxadan onun köynəyini cırdı. Onlar qapının ağzında qadının əri ilə rastlaşdılar.Züleyxa gördü ki, əri onu bu halətdə gördü, işinin üstünü örtmək məqsədi ilə günahı boynundan atmaq istəyib ərinə dedi:”Sənin ailənə pislik etmək istəyənin cəzası, yalnız zindana salınmaq,ya da şiddətli əzaba düçar edilməkdir.”

Yusif dedi:”O məni tovlayıb, yoldan çıxartmaq istədi.”

Bir nəfər şəhadət verdi ki, əgər Yusifin köynəyi qabaqdan cırılmışsa,qadın doğru deyir,o isə yalançılardandır.Yox,əgər Yusifin köynəyi arxa tərəfdən cırılıbsa,onda qadın yalan deyir,Yusif isə doğru danışanlardandır.

Əziz Yusifin köynəyinin arxadan cırıldığını gördükdə Züleyxaya dedi:-”Bu sizin hiylələrinizdəndir. Həqiqətən də sizin hiyləniz böyükdür.Qadının kiçik hiyləsi , kişilərin böyük hiyləsindən də böyük olur.”

Əziz dedi:“Ey Yusif! Sən bu işi açıb-ağartma və bu sözü başqa yerdə söyləmə.”

Sonra üzünü Züleyxaya tutub dedi:”Sən də bağışlanmağını dilə. Çünki sən həqiqətən günah edənlərdənsən.”

Şəhərdə qadınlar dedilər:”Əzizin övrəti cavan qulunu tovlayıb, yol-

dan çıxarmaq istəyir.Biz onun açıq-aşkar doğru yoldan çıxdığını görürük.”

Elə ki, Züleyxa qadınların hiylələrini eşitdi,onlara xəbər göndərib, ziyafətə dəvət etdi və bu məclisə onlardan başqa 40 nəfər də Misirin qadınlarından çağırdı.Onlar üçün gözəl məclis düzəltdi və qadınların hər birinin əlinə meyvə kəsmək üçün bıçaq verdi.Yusifi zinətləndirib dedi ki,o qadınlar olan otağa keçsin.O zaman ki,qadınlarYusifi gördülər,onun camalına heyran qalıb, gözəlliyindən bihuş olaraq meyvə əvəzinə əllərini kəsdilər və qəlbləri Yusifin yanında olduğuna görə ağrını hiss etmədilər.

Dedilər:”Allah pak və münəzzəhdir ki,eyibdən uzaq olan bu cür insan xəlq edib.Bu oğlan bəşər deyildir.Bu Allah yanında əziz olan, mələkdən başqa bir şey deyil.Bu gözəllikdə insan olmaz.”

Züleyxa gördü ki,qadınlar Yusifi bir dəfə görməklə əllərini kəsiblər, dedi:”Bu, məni qınadığınız oğlandır.Bir halda ki, mən onu hər an görürəm.”

Sonra onun günahsız olduğunu bildirib dedi:”Əlbəttə mən onunla olmaq istədim.O isə imtina etdi.Əgər əmrimi yerinə yetirməsə, sözsüz ki, zindana atılacaq və zillətə düşənlərdən olacaq!”

Züleyxa bu məqsəd ilə Yusifi qorxutmaq istədi.

Yusif dedi:”Ey Rəbbim!Mənim üçün zindan bunların məni sövq etdikləri işi görməkdən xoşdur.Əgər bu qadınların fitnəsini məndən dəf etməsən,mən onlara meyl edər və cahillərdən olaram.”

Rəbbi Yusifin duasını qəbul edib,onu qadınların məkrindən qurtardı. Allah dua edənlərin duasını eşidən və ixlasla dua etməklərini biləndir.

Züleyxanın əri Əziz, Yusifin günahsız olduğunu bilərəkdən onu bir müddət zindana salmaq qərarına gəldi.Yusif ilə birlikdə iki cavan oğlanı da zindana atmışdılar. Onlardan biri Yusifin yuxu yozmasını eşidib gördüyü yuxunu ona danışıb, yozmasını istədi.O dedi:-“Mən yuxuda gördüm ki, şərab üçün üzüm sıxıram”.

O biri isə Yusifi sınamaq üçün yalandan belə dedi:”Yuxuda gördüm ki, başımda üç tabaq çörək aparıram.Quşlar da çörəkləri yeyirlər. Gəl bu yuxunu bizim üçün yoz.Həqiqətən, sənin yaxşı insan olduğunu görürük.”

Yusif belə cavab verdi:”Gördüyünüz yuxuların nə ilə nəticələndiyini yeyəcəyiniz təam gəlməmişdən qabaq mən sizə xəbər verərəm.Bu mənə Rəbbimin öyrətdiyi elmlərdəndir. Mən Allaha inanmayan və axirəti də inkar edən bir tayfanın dinini tərk etdim.Ey mənim iki zindan yoldaşım! Ayrı-ayrı tanrılar Allah olmağa daha layiqdir yoxsa, hər şeyə qadir olan

və qalib olan tək Allah?Sizdən biriniz yenədə ağasına şərab içirəcək.Üç gündən sonra Padşah səni çağıracaq və sən yenə də saqilik edəcəksən. Digəri isə üç gündən sonra edam olunacaq və quşlar onun başından dimdikləyib yeyəcəklər.”

Çörəkçi dedi:”Mən yuxu görməmişdim, səninlə zarafat edirdim.”

Yusif buyurdu:”Mənim sözüm başqalarının sözü kimi deyil, əksinə, başqa Peyğəmbərlərin verdiyi xəbərlər kimi qeybi xəbərlərdir. Haqqına soruşduğunuz iş belə həll olunmuş və asılman üçün fərman verilmişdir.”

Yusif bu iki nəfərdən nicat tapacaq olana dedi:”Ağanın yadına sal ki, zülm ilə zindana salınıb həbs olunmuşam.”Yusifin sözü Allaha xoş gəlmədi.

Hz.Cəbrail nazil olub dedi:”Ey Yusif!Xudavəndi Aləm buyurur ki, səni kim yaradıb?

-Yusif dedi:”Allah!

-Hz.Cəbrail :”Səni kim atanın yanında saxladı?”-Yusif:”Allah!”

-Hz.Cəbrail:”Səni quyudan kim çıxartdı?”-Yusif:”Allah!”

Hz.Cəbrail dedi:”Səni nə vadar etdi ki, Allahı tərk edib,özün kimi ehtiyacı olan bir kəsə üz tutasan?”Yusif ondan sonra neçə il həbsdə qalmalı oldu.

Saqi zindandan xilas olan kimi Şeytan “saqi”nin yadından Yusifi çıxartdı ki, Padşaha onun sözünü danışmasın.Buna görə Yusif neçə il zindanda qaldı.AllahYusifi zindandan çıxarmaq istəyəndə Padşah bir yuxu gördü.

Misir Padşahı Bəlid ibn Rəyan dedi:”Mən yeddi arıq inəyin yeddi kök inəyi yediyini gördüm ki, kök öküzlər arıq öküzlərin qarnına daxil oldular.Yeddi ədəd yaşıl sünbül və yeddi ədəd qurumuş sünbül gördüm ki,qurumuş sünbüllər yaşıl sünbülləri əhatə etmişdi. Kim bu yuxunu yoza bilirsə yozsun.”

Bütün kahinlər bu yuxunu eşidəndə aciz qaldılar.Onlar dedilər: ”Sənin yuxun qarmaqarışıq yuxudur,belə yuxuların yozumunu bilmirik.”

Bu yuxunu yozan olmadıqda saqinin yadına Yusif düşür və padşahın yanına gəlib, çörəkçi ilə öz əhvalatını danışır.Padşah onu Yusifin yanına göndərir ki,yuxunu ona danışsın.Saqi yuxunu Yusifə danışdıqdan sonraYusif ona belə cavab verir:“Siz yeddi il adətiniz üzrə əkin,bir miqdar istisna olmaqla,qalan biçdiyinizi isə saxlayın. Sünbüllərin üstündə saxlayın ki,bit düşüb onları xarab etməsin .Sonra bunun ardınca yeddi il quraqlıq olacaq.Onda əvvəlcədən həmin illər üçün tədarük etdiyinizi yeyər, gələcək illərdə əkmək üçün yalnız az bir miqdar saxlayarsınız.

Daha sonra insanların bol yağış görəcəyi bir il gələcək və o ildə bol meyvə olar ki, meyvələrin şirəsini sıxıb,bol-bol bəhrələnəcəklər.”

Yusifin dediklərini“saqi”Padşaha dedikdən sonra o da bu yozumdan çox təəccüblənir və Yusifi yanına çağırtdırır.

Elçi Yusifin yanına gəlib:“Padşah səni çağırır”-dedikdə,Yusif qəbul etməyərək ona belə cavab verir:“Ağanın yanına qayıt və ondan soruş ki,əllərini kəsən qadınların məqsədi nə idi?”Həqiqətən, mənim Allahım qadınların hiyləsindən xəbərdardır.

Elçi padşahın yanına gəlib əhvalatı ona xəbər verdi.Padşah da adam göndərib, qadınları yanına çağırdı.

Padşah dedi:“Yusifi tovlayıb yoldan çıxaranda məqsədiniz nə idi?”

Dedilər:“Allah bütün eyiblərdən pakdır.Biz onun barəsində heç bir pis şey bilmirik!”

Əzizin zövcəsi Züleyxa dedi:“Artıq həqiqət bəlli oldu.Yusifi tovlayıb yoldan çıxartmaq istəyən mən idim.O şübhəsiz ki, doğru danışanlardandır.”

Yusif dedi:“İndi vəzir bilsin ki, o evdə olmayanda mən onun zövcəsinə xəyanət etmədim.Həqiqətən,Allah xəyanət edənləri hidayət etməz.Mən özümü təmizə çıxarmıram.Rəbbimin rəhm etdiyi şəxs istisna olmaqla nəfs pis işlər görməyi əmr edər.Həqiqətən mənim Allahım bağışlayan və rəhm edəndir.”

Padşah Yusifin günahsız olduğunu bilən kimi dedi:“Yusifi mənim yanıma gətirin!Onu özümə ən yaxın adam edəcəyəm.”

Elə ki, Yusifi zindandan Padşahın yanına gətirdilər,Padşah onunla söhbət etdi. Onun elminin çoxluğundan,əmanət və dəyanətindən xəbərdar oldu və dedi:”Sən bu gün bizim yanımızda mövqe sahıbi və etibarlı bir şəxssən.”

Yusif dedi:”Məni Misirin xəzinələrinə məmur təyin et ki,mən əmanət verilən şeyi qoruya bilənəm.”

Əziz o günlərdə vəfat etdi və Padşah onun mənsəbini Yusifə verdi və sonra isə Züleyxanı da ona nikah etdi.

Biz Yusifi Misir torpağında mövqe və ixtiyar sahibi etdik.O Misirdə istədiyini edirdi.Biz istədiyimizə nemətlərimizi nəsib edər,yaxşı işlər görənlərin mükafatını zay etmərik.İman gətirib Allahdan qorxanlar, pis əməllərdən çəkinənlər üçün axirət mükafatı, əlbəttə, daha xeyirlidir. Misirin padşahı tək bir olan Allaha iman gətirib, Yusifi Misirdə ixtiyar sahibi etdi.

Quraqlıq illərində Kənanda və Yəqub övladlarının yaşadığı yerlərdə quraqlıq və aclıq oldu.Yəqub övladlarını ruzi,yemək dalınca Misirə

göndərir.Yusifin qardaşları gəlib onun hüzuruna daxil oldular. Onlar Yusifi tanımasalar da, o onları tanıdı. Ona görə ki, Yusif taxt üstündə oturmuş və əynində şahanə libas var idi.

Yusif onlar üçün ərzaq tədarükü hazırlanmasını əmr etdi.Yusif onlarla söhbət etdikdən sonra dedi:“Atabir qardaşınızı mənim yanıma gətirin. Məgər görmürsünüz ki,mən ölçünü düz verirəm və qonaqpərvərlərin ən yaxşısıyam.Əgər onu yanıma gətirməsəniz, məndən bir qab da belə ərzaq gözləməyin və onu gətirənə kimi Şəmunu öz yanımda saxlayacağam.”

Dedilər:”Tezlıklə Binyamindən ötrü atamızı razı salarıq və sözsüz ki, sənin əmrini yerinə yetirərik.”

Yusif xidmətçilərinə dedi:“Onların yemək almaq üçün gətirdikləri yun və qurutu onların mallarının içinə qoyun!Bəlkə ailələrinə döndükdə onu başa düşsünlər və geri qayıtsınlar.Yəqubun övladları atalarının yanına gəlib, astadan salam verib dedilər:”Ey ata!Biz böyük bir Padşahın yanından gəlirik.Əgər dünyada sənin oxşarın olsa idi, biz deyərdik ki, o sənə oxşayır.O bizdən söz aldı ki, qardaşımız Binyəmini onun yanına gətirək və sonra bizə buğda versin.Yoxsa o bizə buğda verilməsini qadağan etdi.Yenidən ərzaq almaq üçün qardaşımızı bizim ilə göndər. Biz, əlbəttə, onu qoruyacağıq ki, ona zərər yetişməsin.”

Yəqub dedi:“Bundan əvvəl Yusifi sizə etibar etdiyim kimi,onu da sizə heç etibar edə bilərəmmi?Allah özü ən yaxşı qoruyandır,özü mənim qocalığıma və zəifliyimə rəhm edər.”

Onlar yüklərini açdıqda mallarının özlərinə qaytarıldığını görüb dedilər:“Ata!Daha nə istəyirik?Mallarımız özümüzə qaytarılıb.Biz bu şeyləri aparıb, bir dəvə yükü də artıq ərzaq ala bilərik və qardaşımızı da qoruyarıq.”

Yəqub dedi:“Allah tərəfindən mənə əhdnamə verməyincə mən Benyəmini sizin ilə göndərmərəm.”Onlar and içib söz verdikdə Yəqub:“Allah dediyinizə şahiddir”- dedi.

Elə ki, səfərə getməyə hazır oldular Yəqub övladlarına vəsiyyət edib dedi:“Ey mənim övladlarım!Misirə eyni bir qapıdan daxil olmayın,ayrı-ayrı qapılardan daxil olun.” Yəqub (ə.s.) qorxurdu ki, onlara göz dəyər,çünki hamısı çox gözəl idilər.Bununla belə mən Allahın qəza-qədərini sizdən heç bir şey ilə dəf edə bilmərəm. Hökm yalnız Allahındır!Mən ancaq ona təvəkkül etdim.Siz də ona təvəkkül edin!”

Onlar atalarının dediyi kimi ayrı-ayrı qapılardan daxil olduqda, bu Allahın qəza-qədərini əsla onlardan dəf etmədi.Əgər ki, Allahın iradəsi onlara pislik yetirmək olarsa, hansı qapıdan daxil olacaqlarına baxma-

yaraq, yenə də onlara yetişərdi.Necə ki, onlara oğurluq töhməti vuruldu.Lakin atalarının diləyini yetirmiş oldular. Şübhəsiz ki, Yəquba onu öyrətdiyimiz üçün bir elm sahibi idi.Lakin ınsanların əksəriyyəti bunu bilməzlər.

Onlar Yusifin yanına daxil oldular.Yusif onlar üçün ziyafət təşkil edib,onlara təklif etdi ki, anası bir olan qardaşlar bir tərəfdə otursunlar. Benyəmini isə öz yanında oturdub ona dedi:"Mən sənin qardaşınam və bunu o biri qardaşlarına demə.O biri qardaşlarının bizim barədə etdikləri əməllərdən qəmgin olma."

Elə ki,Yusif qardaşlarının dəvələrinə buğda və ərzaq yığaraq, onlar üçün yol tədarükü hazırladı, buğda ölçdüyü piyaləni isə qardaşı Benyəminin yükünün içinə qoydu.Karvan yola düşdükdən sonra bir carçı onları çağırıb dedi ki, ey karvan əhli, dayanın!Siz oğrusunuz.

Karvan əhli dayanıb üzlərini onlara çevirərək:"Nə itirmisiniz?"-dedilər.

Onlar belə cavab verdilər:"Hökmdarın su qabını itirmişik və hər kəs onu tapıb gətirsə,ona bir dəvə yükü ərzaq verəcək."

Yusifin qardaşları dedilər:"And olsun Allaha ki, biz bura fitnə-fəsad salmağa gəlməmişik və biz oğru da deyilik."

Carçı soruşdu:"Əgər siz yalançı olsanız,sizin şəriətə görə oğurluğun cəzası nədir?"

Onlar dedilər:"Hər kəsin yükündən tapılıbsa, onun cəzası mal sahibinə kölə edilməsidir."

Yusifin qulamı əvvəl onların yükünü axtardı.Sonra isə Benyəminin yükünü axtarıb qabı ordan çıxartdı.Biz Yusifə belə bir tədbir öyrətdik ki, qardaşını o vaxta qədər həbs edə və bu tədbir atasının gəlməyinə səbəb olsun.Yusif Misir Padşahının qanunları ilə qardaşlarının əlindən Benyəmini alıb saxlaya bilməzdi.Ona görə Allah-taala istədi ki, bu tədbirlə Yusif öz istəyinə yetişsin.Allah öz istədiyinin dərəcələrini yüksəldər.

Karvan əhli dedilər:"Əgər Benyəmin oğurluq etmişdirsə,bundan qabaq onun qardaşı da oğurluq etmişdi."

Bu ona işarə idi ki,bibisi Yusifi çox istərdi və anası öləndən sonra onun qeydinə qalardı.Yusif bir qədər böyüyəndən sonra atası onu aparmaq istədi.İshaqın kəməri bibisinin yanında idi.Onu götürüb Yusifin libasının altından belinə bağladı.Yəqub götürüb Yusifi aparmaq istəyəndə bibisi iddia etdi ki, mənə atamdan irs qalan kəmər oğurlanıbdır.Onu axtarıbYusifin belindən tapdılar. Buna görə dəYusifin bibisi təzədən onu evinə apardı.

Qardaşları bu mətləbə işarə edəndə Yusif bu sözü ürəyində saxlayıb onlara açmadı və dedi:

-"Siz daha pis mövqedəsiniz, oğurluqdan mənim xəbərim yox idi. Amma həqiqətdə siz oğurluq edib qardaşınızı az pula satdınız .Mənə vəsf etdiyinizi Allah daha yaxşı bilir."

Onlar dedilər:"Benyəminin çox qoca atası vardır.Bizim birimizi onun yerinə alıb yanında saxla. Həqiqətən, biz sənin yaxşı adamlardan olduğunu görürük."

Yusif belə cavab verdi:"Allaha pənah aparıram ki, günahsızı günahkar yerinə tutub saxlasam, o zaman, sözsüz ki, haqsızlıq etmiş olarıq."

Onlar məyus oldular və qırağa çəkilib pıçıldaşmağa başladılar. Qardaşlarının böyüyü Rubin dedi:"Məgər siz bilməyirsiniz, atanız sizdən əhd alıbdır ki, Benyəmini qoruyaq?Hələ bundan əvvəl də Yusifin haqqında təqsirli oldunuz. Allah mənim haqqımda hökm verməyincə Misir torpağından ayrılmayacağam.Allah hökm edənlərin ən yaxşısıdır. Siz atamızın yanına qayıdın və əhvalatı ona nəql edib deyin:"Ey bizim atamız!Sənin oğlun oğurluq etdi.Biz ancaq bildiyimiz şey haqda şəhadət veririk.Bizim qeybdən xəbərimiz yoxdur."

Onlar atalarının yanına gəldikdə,Yəqub oğlanlarına dedi:"Xeyr, öz nəfsiniz sizi bu işə sövq etdi. Mənə yalnız tükənməz dözümlü səbir gərəkdir. Ola bilsin ki, Allah balalarımın hamısını mənə yetirsin O, həqiqətən, bilən və hikmət sahibidir."

Yusifin ayrılığından 40 il keçmişdi.O vaxt Yəqub o qədər ağlamışdı ki, qəminin çoxluğundan gözləri ağarıb, nuru azalmışdı.O, oğlanlarından çox acıqlı idi, amma qəzəbini bildirmir,heç kəsə şikayət və giley etmirdi.

Yəqubun övladları dedilər:"Allaha and olsun ki, Sən Yusifin dərdindən əldən düşüb xəstələnib öləcəksən."

Yəqub dedi:"Mən dərd-sərimi yalnız Allaha ərz edirəm və Allahdan vəhy ilə sizin bilmədiklərinizi bilirəm!"Ey mənim övladlarım! Gedin Yusifdən və qardaşından bir xəbər gətirin.Allahın mərhəmə tindən ümidinizi kəsməyin."

Yusif qardaşlarına dedi:-Yusifə və qardaşına nələr etdiyinizi bilirsinizmi?O bir-bir özünün və Benyəminin əhvalatını danışdı. Onlar dedilər:-Yoxsa sən Yusifsən?

Dedi:-Bəli, mən Yusifəm, bu da mənim qardaşımdır.Allah bizə bir yerdə olmaq ilə lütf etdi.Kim Allahdan qorxub səbir etsə, Allah yaxşı işlər görənlərin əməyini zay etməz. Onlar dedilər:"Allaha and olsun ki, Allah səni elm, helm və etiqadda bizdən üstün etmişdir."

Yusif dedi:“Bu gün sizə mənim tərəfimdən heç bir məzəmmət yoxdur. Allah sizin günahınızı bağışlar. Mən Allahdan sizin üçün bağışlanma dilərəm.Allah rəhm edənlərin rəhm edənidir.Bu köynəyimi aparıb atamın gözünə sürtün! O, yenidən görməyə başlayar. Bütün ailənizi də yığıb yanıma gəlin.

Karvan Misirdən ayrılıb Kənana yetişdi. Köynəyi Yəqubun üzünə sürtənkimigözləriaçıldı.Zəifliyiqüvvətlə,qocalığıcavanlıqla,qəmginliyi şadlıqla dəyişdi.Yəqub dedi:”Məgər sizə demədim ki,Allahdan gələn vəhy ilə sizin bilmədiklərinizi bilirəm?Mən bilirdim ki, Yusifin yuxusu yerinə yetəcəkdir.”

Dedilər:”Ata!Bizim üçün günahlarımızın bağışlanmasını dilə! Biz Yusif barədə günah etmişik.”

Yəqub dedi:”Tezliklə Allahdan sizin üçün bağışlanmaq dilərəm. Allah bağışlayan və rəhm edəndir.”

Onlar hazırlaşıb Misirə yola düşdülər.Onlar Misirə çatmamış yolda,çadırda Yusifin yanına daxil olduqda atası və analığı(xalası) onu bağrına basdılar.

Yusif dedi:-İnşaallah, arxayınlıqla Misirə daxil olun!

Misirə daxil olandan sonra Yusif ata-anasını öz taxtının üstünə gətirdi. Yəqub övladları ona təzim, səcdə edən surətdə Yusifin qarşısında əyildilər.

Yusif dedi:Ey ata!Keçmişdə gördüyüm yuxunun yozumu budur. Həqiqətən, Allah onu həyatda doğrultdu. Mənim Allahım mənə ehsan etdi o zaman ki, məni zindandan çıxartdı və məni bu məqama gətirdi. Şeytan mənimlə qardaşlarım arasında həsəd apararaq fəsad saldıqdan sonra sizi səhra və çöl həyatından ayırdı və şəhərli edərək bizi bir yerə yığdı. Həqiqətən, mənim Allahım bəndələrindən istədiyi kəsə lütf və mərhəmət edəndir.O hər şeyi bilən və hikmət sahibidir. Hz.Yəqub 17 il Misirdə yaşadıqdan sonra vəfat etdi və vəsiyyətinə əsasən Beytül-Müqəddəsdə dəfn edildi.

Yusifin övladları:- Efraim və Mişa adında oğlanları olmuşdur.

HZ.YUSİFİN ÖMRÜ VƏ DƏFN OLUNDUĞU YER

(“Məcməul- bəyan” 5.c.266.s.)Yusifin haqqında rəvayətlər müxtəlifdir.Bəziləri 110 il yaşadığını deyirlər.İmam Sadiqdən rəvayət olunur ki, Hz.Yusif 120 il yaşamışdır.

Təbərçi öz təfsirində nəql etmişdir ki,Yusif dünyadan getdikdən sonra onu mərmərdən olan tabuta qoyub Nil çayının ortasında dəfn etdilər.

Buna səbəb Onun ölümündən sonra Misir əhalisinin arasında düşən ixtilaf idi. Onların hər biri Yusifin onların ərazisində dəfn olunmasını istəyirdilər.Axırda belə qərara gəldilər ki,Nilin ortasında dəfn etsinlər. Bu qəbir Hz.Musa zamanına qədər o yerdə qaldı.Hz.Musa gələndən sonra onu Nildən çıxarıb Fələstinə apardı.

Məsudi"İsbatul-vəsiyyə"-də deyir:"Musanın Yusifi çıxarmasının səbəbi ona görə idi ki, Bəni-İsrail üçün yağış yağmırdı. Allah ona vəhy edib Yusifi çıxarmasını tapşırdı."

HZ.ƏYYUBUN HƏYATI HAQQINDA

Əyyub Hz.İbrahimin nəslindən olub, Eysin övladlarındandır və Hz.Yəqubla bir dövrdə yaşamışdır. Təbərə və Məsudi tarix kitabların da onun nəsli belə göstərilir:Eyyub ibn Əmvas, ibn Razix, ibn Rum,ibn Eys, ibn İshaq, ibn İbrahim. Onun anası isə Lutun qizi idi.

Təbərə yazır ki, Əyyub Bəsnə və Şam arasında yerləşən Əzruət kəndindəndir və sonralar bütün o sahələr Əyyuba məxsus olmuşdur. O,Yəqubun Liya adında qızı ilə evlənmişdir. Allah ona cürbəcür nemətlər vermişdi. O dövrdə heç kəsin onun qədər dəvəsi, öküzü, atı, qoyunu və başqa var-dövləti yox idi.

Qurani-Kərimdə Əyyub səbir və dözümlülük nümunəsi olan Peyğəmbər kimi bildirilir.Allah ona çoxlu mal, qüdrət, övladlar vermiş,daha sonra onu sınaqdan çıxarmaq,dözümünü yoxlamaq üçün onların hamısını əlindən almış, özünü də ağır xəstəliyə düçar etmişdir. İmtahan və bəla dövrü bitdikdən sonra, Əyyubun göstər-diyi heyrətamiz səbirə görə Allah-taala təzədən bütün var-dövlətini və övladlarını, hətta ondan artığını da ona qaytarmışdı.Bundan sonra onun dözüm və səbiri başqalarına nümunə olaraq nəql edilirdi.

Qurani-Kərimin dörd surəsində onun adı çəkilir. Allahın üstünlük verdiyi insanlar arasında onun haqqında belə buyrulur:"Onlar İbrahimin nəslindəndirlər.Davud, Süleyman,Əyyub,Yusif, Musa, Harun və biz yaxşı əməl sahiblərini belə mükafatlandırarıq.

Onun bəlalara mübtəla olmasının bir çox səbəbləri olmuşdur. Bunlardan biri də ("Təfsiri Qummi,"-də "İləluş- şərau"s.36.) buyurulduğu bu əhvalatdır:"Allah Əyyuba çoxlu nemətlər verdiyinə görə o Allaha gecə-gündüz şükür edərdi. O zaman asimanlara getməsi qadağan olunan şeytan mələklərin danışığını və onların Əyyub barəsində salam vermələrini eşitdi.Onun nemətlərə şükrlərini eşidib, ona paxıllıq etdiyindən Allaha dedi:-Pərvərdigara! Əyyubun bu qədər təşəkkür və şükürləri ona ver-

diyin çoxlu nemətlərə görədir. Əgər nemətləri ondan alsan,Sənə şükür etməyəcəkdir.

Allah-taala onu Əyyubun malına hakim etdi.Şeytan Allahın icazəsi ilə Əyyubun mal-dövlətini və övladlarını məhv etdi.Əyyub yenə Allaha şükür etdi.Şeytan Allahdan izn alıb, onun bütün tarlalarını yandırıb məhv etdi.Əyyub yenə də Allaha şükür etdi. Şeytan yenə də Allahdan izn alıb onun mal-qarasını,heyvanlarını məhv etdi.Əyyub yenə də Allaha şükrünü azaltmadı.Şeytan bu dəfə ərz edib dedi:-Məni onun bədəninə hakim et!Allah buyurdu:"Dil, ağıl və gözlərdən savayı səni onun bütün bədəninə hakim etdim!"

Şeytan zəhərli nəfəsini onun bədəninə üfürdü, bədəni başdan-ayağa yara tökdü. Uzun müddət bu vəziyyətdə Allaha dua və şükür etdi.Elə ki, bədənində qurdlar əmələ gəlib üfunətə çevrildi, camaat onu kənddən çıxarıb kənarda olan bir xarabalıqda yerləşdirdilər. Həyat yoldaşından başqa heç kəs onun yanına gedib-gəlmirdi.O qadın Əyyuba yemək hazırlamaq üçün camaatın arasına gedir, çətinliklə ona yemək tapıb gətirirdi.

Şeytan onun səbir və dözümünə məəttəl qalmışdı.Ona görə Şeytan Əyyubun ardıcıllarından olub,dağlara çəkilərək rahibliklə məşğul olan bir neçə nəfərin yanına gəlib dedi:"Gedin bu giriftar olmuş bəndənin yanına, bəlalarını soruşun."Rahiblər dəvələrə minib çox zəhmətlə Əyyubun yanına gələrək, ondan bu vəziyyətə qalmağının səbəbini soruşdular.Əyyub onlara cavabında buyurdu:

-"And olsun Allahın izzətinə!Mən, yetim və zəif adam yanımda olmadan çörək yeməmişəm.Hər zaman Allaha itaət sayılan iki iş qarşıma çıxıbsa, onların ən çətinini seçmişəm."

Bu zaman onlardan biri dedi:"Biz necə də pis iş gördük?Allahın Peyğəmbərini danladıq.O da məcbur olub Allaha etdiyi gizli ibadəti aşkar etdi."

Bu əhvalatdan sonra Əyyub (ə.s.) Allaha şikayət etdi. Allah-taala onun cavabında buyurdu:"Mənə ibadət etmək qüdrətini sənə kim vermişdir ki, təsbih və həmd də edəsən?Boynunda minnəti olan bir şeyə görə Mənim boynuma minnət qoyursan? Həmçinin ona verdiyi nemətləri bir-bir ona xatırlatdı."

Bu zaman Əyyub (ə.s.) bir ovuc torpaq götürüb,ağzına doldurub sonra dedi:"Pərvərdigara, haqq sənindir, bu neməti sən mənə vermisən. Beləliklə, etdiyi şikayətə görə Allahdan üzr istədi."

Bundan sonra Allah-taala bir mələk göndərib ona əmr etdi ki, ayağını yerə vur.Bu zaman yerdən bulaq qaynamağa başladı.Əyyub o suda

yuyundu. Beləliklə, bütün yaraları və xəstəlikləri sağaldı. İtirdiyi başqa nemətləri də Allah-taala bir-bir ona qaytardı.

Bu haqda Qurani-Kərimdə də belə buyurulur:

əs-Sad-42-43-Bizim bəndəmiz Əyyubu yadına sal!Bir zaman o, Allahına müraciət edərək belə dedi:-Şeytan mənə əl vuraraq bədənimə zəhmət və əzab yetişdirmişdir.

Allah onun duasını qəbul edərək buyurdu:-Ayağını yerə vur! Əyyub ayağını yerə vuran kimi iki bulaq nazil oldu.Allah buyurdu:-Bu iki çeşmədən biri yuyunmaq üçündür,onda yuyun!O biri çeşmə isə soyuq, içməli sudur.

əl-Ənbiya-83-84-Əyyubu yada sal o zaman ki,Allahı çağırdı və dedi: "Mənə zərər yetişdi.Sən rəhm edənlərin ən rəhmlisisən."

Biz onun duasını qəbul etdik və onda olan zərəri götürdük. Bədəni sağaldı.Ona övladlar verdik.Öz tərəfimizdən nemət olan halda Allaha ibadət edənlər üçün nəsihət olmaqdan ötrü bir o qədər də üstünə əlavə etdik.

Rəvayətə görə Əyyubun əhvalatı Şeytanı çox qəmgin edir, bu işdə uduzduğu üçün özünə yer tapmır.Ona görə qışqıraraq bütün köməkçilərini yanına çağırır. Onlara bu əhvalatı danışıb məşvərət etdikdən sonra Şeytanlardan biri belə deyir:"Bəs sənin məkr və hiylən necə oldu? Adəmi behiştdən necə çıxardın?Əyyubu da həmən yol ilə başdan çıxar."

Şeytan bu fikri bəyənir,bir kişi şəklində Əyyubun zövcəsinin yanına gəlib, onun sağalmaz bir dərdə düşdüyünü və bunun da əlacının, Allahın adı çəkilmədən kəsilən keçi ətinin olduğunu deyir.

Əyyubun xanımı onun yanına gəlib əhvalatı ona danışdıqda, Əyyub hirslənib bu işin Şeytanın işi olduğunu xanımına başa salır və deyir ki, sağalandan sonra sənə 100 şallaq vuracağam.

Əyyub sağaldıqdan sonra əhdini yerinə yetirmək istədi.Bu vəfalı və imanlı qadına necə şallaq vuracağı haqda fikirləşirdi,Allah-taala "Sad" surəsində vəhy etdiyi kimi ona da vəhy etdi ki, 100 nazik çubuğu bir yerə yığıb, yavaşcadan bir dəfə onu vursun:

əs-Sad-45-And içməyin də kəffarəsi budur ki,əlinə and içdiyin qədər, bir dəstə çubuq al!And içdiyin kimi 100 çubuğu bir-bir yox, bir dəstə edib birdən vur və andını sındırma!Həqiqətən, biz onu etdiyimiz imtahanda səbir edən gördük!Nə gözəl bəndə!O, Allaha sığınan bir şəxs idi.

Hədis:-Şeyx Kuleyninin imam Sadiqdən(ə) nəql etdiyi rəvayətdə Həzrət buyurur: Qiyamət günündə günaha aludə olmuş gözəl bir qadını hesab üçün gətirirlər.O qadın Allahın dərgahında belə ərz edir:"Pərvərdigara, sən məni gözəl yaratdın, mən də günaha düşdüm!"

Bu vaxt Məryəmi (ə.) gətirib deyirlər:”Sən gözəl idin, yoxsa o? Biz onu gözəl yaratdıq,ancaq o qeyri-adi gözəlliklə günaha düşmədi.”

Həmçinin gözəlliyinə görə günaha düşmüş bir kişini sorğuya gətirəndə o öz gözəlliyini səbəb gətirir.Onun da bəhanəsini kəsmək üçün Hz.Yusifi gətirib ona deyirlər:”Sən gözəl idin, yoxsa Yusif? Biz onu bu qədər gözəl yaratdıq, bununla belə o günaha aludə olmadı.”

Daha sonra cürbəcür bəlalara düçar olub,günaha düşmüş bir nəfəri gətirirlər.O da günahını belə bəhanə edərək deyir: ”Pərvərdigara, mənim bəla və giriftarçılığımı çətin etdiyin üçün günaha mübtəla oldum.Bu zaman Hz.Əyyubu gətirib deyərlər:”Sənin bəla və giriftarçılığın çətin idi, yoxsa onun? O da ağır bəlalara düçar oldu,ancaq üsyan etmədi və yolundan çıxmadı.

HZ.ƏYYUBUN VƏFATI

Hz.Əyyubun ömrü 226 il qeyd edilmişdir.Hz.Əyyub bəlaya düçar olmamışdan qabaq 73 yaşı olub,7 il xəstə olmuş,sonra isə 226 yaşa qədər yaşamışdır.O Həzrətin qüsl edildiyi yer və bulaq Nəva və Cövlanda qalmaqdadır.Bu yer Dəməşqlə İordaniyanın Təbəriyyi şəhərinin arasında yerləşir. Hz.Əyyubun qəbri Bəsəniyada yerləşir.

HZ. ZÜLKİFLİNİN HƏYATI HAQQINDA

Hz.Əyyubdan sonra oğlu Bişr (Zülkifl) ibn Əyyub Allahın əmri ilə Peyğəmbər olur.Hz.Əyyub ona Zülkifl ismini vermiş və xalqı Tövhid əqidəsinə-Allahın birliyinə inanmağa dəvət etməsini əmr etmişdi.O Şamda yaşayırdı.

Allah-taala Zülkifl haqqında Quranda belə buyurur:

əl-Ənbiya-85-İsmaili, İdrisi və Zülkifli yada sal!Bunların hamısı səbir edən Peyğəmbərlərdəndirlər.

Başqa bir surədə belə yazır:

əs-Sad-48-50-“Şübhəsiz ki, onlar dərgahımızda seçilmiş və ən yaxşı şəxslərdirlər.İsmaili, əl-Yəsə və Zülkifli də zikr et!Bunların hamısı seçilmiş və yaxşı şəxslərdirlər.Bu sözlər onları yada salmaq üçündür. Şübhəsiz ki,təqvalılar üçün qayıdacaq yerlərin ən gözəli vardır.”

Rum torpağında olan xalq Zülkifliyə iman gətirib,ona tabe oldular və ona inandılar. Ancaq Uca Allah onlara Allah yolunda cihad etmələrini əmr etdikdə, onlar bu əmri yerinə yetirməkdən boyun qaçırdılar və dedilər:

“Ey Bişr! Biz həyatı sevər, ancaq ölümü sevmərik.Bununla belə Allaha və onun Rəsuluna asi olmaqdan da uzağıq.Əgər ömürlərimizi uzatmasını və ancaq biz istədiyimiz zaman bizi öldürməsini Allahdan istəsən,onda ona ibadət edər və onun düşmənləri ilə müharibə edərik.”

Zülkifli onlara:-“Siz məndən böyük bir şey istədiniz.Mənə çox ağır bir təklif etdiniz”- dedi.Sonra qalxıb namaz qıldı və Allaha belə dua etdi:

-“Ey Allahım!Sən elçilik vəzifələrini təbliğ etməyimi mənə əmr etdin, mən də təbliğ etdim.Qövmümün səndən istədiklərini məndən gözəl bilirsən. Məni, özümdən başqasının günahı ilə yükləmə.Mən sənin qəzəbindən rizana, cəzandan əfvinə sığınıram”-dedi.

Uca Allah Zülkifliyə:“Sən öz qövmünə Mənim onlar üçün seçdiyimin,onların özləri üçün seçdiklərindən daha xeyirli olduğunu öyrətmədinmi?”-deyə vəhy etdi.

Zülkifl bu vəhyi qövmünə çatdırdı və onlar da Allah tərəfindən öz əcəlləri gələndə ölməyə razı oldular.

Zülkifl 75 yaşında Şamda vəfat etdi.

HZ.ŞÜEYBİN HƏYATI HAQQINDA

Tarix yazanlar arasında ixtilaf olan Peyğəmbərlərdən biri də Həzrət Şüeybdir.Tövratda onun adı Yəsrin gəlmişdir.

Yəqubinin tarixi kitabında onun ata-babalarını belə yazır:”Şüeyb ibn Səbfun İqnad ibn Sabit,inb Mədyən,ibn İbrahim nəslindəndir.

“İsbatul- vəsiyyə”də belə yazılır:-Şüeyb-Nabit ibni İbrahimin övladlarından olmuşdur və İsmailin və İshaqın nəslindən deyil. Ancaq ana tərəfin nəsli Luta yetişir.

Hz.Şüeybin yaşadığı şəhər və onun qövmü Mədyən adlanmışdır. Mədyən sözü Qurani-Kərimin yeddi surəsində gəlmişdir.

əl-Əraf-85-93-Mədyən şəhərinin əhlinə onların qardaşı Şüeybi göndərdik. Həmin şəhəri bina etdiyinə görə onun adını veriblər. Şüeyb də Mədyən nəslindəndir.Gözəl surətdə nəsihət etdiyinə görə ona”xətəmül-ənbiya” deyirdilər.O dedi:

-“Ey mənim qövmüm!Tək olan Allaha ibadət edin!Ondan başqa sizin üçün heç bir məbud yoxdur. Həqiqətən, sizə mənim Peyğəmbərliyimin doğruluğunu bildirən dəlil və möcüzələr Allah tərəfindən gəldi.Ölçü və çəkidə vəfalı olun,düz rəftar edin.Şəriət və Peyğəmbər vasitəsi ilə islah olandan sonra küfr və zülm ilə yer üzündə fəsad etməyin. Əgər mömin olsanız, bu sizin üçün yaxşıdır. Hər yolun başında əyləşib Allaha iman

gətirənləri qorxudaraq yolundan döndərməyin! Əgər sizin bir qisminiz mənimlə göndərilən (dini hökmlərə) inanmış,bir qisminiz isə inanmamışsa, Allah aramızda öz hökmünü verincəyə qədər səbir edin.Axı O, hökm verənlərin ən yaxşısıdır"!"

Şüeyb qövmündən olan təkəbbürlü başçılar dedilər:"Ya Şüeyb! Biz səni və səninlə birlikdə iman gətirənləri öz qəryəmizdən xaric edərik, ya da sözsüz bizim dinimizə qayıdarsan."

Hud-95-Qövmü dedi:"Ey Şüeyb!Biz sənin sözlərinin çoxuna inanmırıq. Əlbəttə, biz səni öz aramızda bədən,göz cəhətdən zəif görürük. (Çünki Şüeyb o qədər ağlamışdı ki, gözləri zəifləmişdi.)Sən bizim üçün əziz deyilsən.Əgər qövmünün hörməti olmasaydı, səni daşqalaq edərdik."

Əraf -85-93surəsinin ardı:Şüeyb dedi:"Məgər biz sizin dininizə nifrət edən deyildikmi? Həqiqətən, Allah bizə sizin dininizdən nicat verdikdən sonra,əgər biz sizin dininizə qayıtsaq,o zaman Allaha böhtan atmış olarıq.Bizim Allahımız hər bir şeyi öz elmi ilə əhatə etmişdir. Biz Allaha təvəkkül etdik.Pərvərdigara, bizimlə qövmümüzün arasında haqq ilə hökm et!Sən hökm edənlərin ən yaxşısısan."

Şüeyib qövmünün kafir başçıları bir-birinə dedilər:"Əgər siz Şüeybə tabe olsanız, o zaman, şübhəsiz, ziyankar olarsınız."

Onları dəhşətli bir sarsıntı(yerdən zəlzələ,göydən tükürpədici bir səs) bürüdü və onlar öz evlərində diz üstə düşüb qaldılar(bir göz qırpımında həlak oldular).

Şüeybi yalançı adlandıranlar sanki evlərində heç bir şənlik (nemət) içində yaşamamışdılar. Şüeybi təkzib edənlərin özləri ziyana uğrayanlardan oldular.

Şüeyb onlardan üz döndərib dedi:-"Ey mənim qövmüm! Həqiqətən, mən Allahın göstərişini yerinə yetirdim, sizə nəsihət verdim. Kafir bir qövmə görə necə qəmgin olum?

Şüeybin tayfası Əshabi-Əykə, Mədyən şəhərinin yaxınlığında yaşayırdı.

əş-Şüəra-176-189-Əykə əhalisi də Peyğəmbəri təkzib etdilər.O zaman ki, Şüeyb onlara dedi:-Nə üçün Allahdan qorxmursunuz?

Ölçünü düz ölçün, İnsanların haqqını azaltmayın,yer üzündə fitnə-fəsad salanlardan olmayın! Dedilər:"Sən bizim kimi adi bir insansan! Biz sənin yalançı olduğunu güman edirik.Əgər doğru deyirsənsə,onda bizim başımıza göydən bir parça daş sal! "Dedi: "Sizin nə etdiyinizi Allahım daha yaxşı bilir."

Onu təkzib etdilər.Sonra onları oddan əmələ gəlmiş kölgənin əzabı tutdu. Yeddi gün elə isti oldu ki, hərarətin şiddətindən küləyin əsməsini

istədilər. Od onların hamısını yandırdı.Həqiqətən,o günün əzabı böyükdür.

Şüeyb dedi:-Mənim qövmüm, sizin yanınızdakı bütlər Allahdan əzizdirmi? Qüvvəniz çatan qədər əməl edin.Mən də Allahın əmrinə əməl edirəm.Tezliklə bilərsiniz ki, kim yaxşı və pis iş görür.Allah tərəfindən kimə əzab gəlsə, onu rüsvay edər. Hər kəs ki, yalançıdır, Allahın əzabı ilə rüsvay olar. Əzabı gözləyin!Mən də sizinlə gözləyirəm."

Əzabımız gələn zaman,onunla bərabər,ona iman gətirənlərə öz tərəfimizdən olan rəhmət səbəbinə nicat verdik. Zalımları elə şiddətli səs (zəl-zələ) tutdu ki, hamısı həlak olub,öz evlərində üzü- üstə qaldılar.

Belə ki,Şüeybin bir-birinin qonşuluğunda yerləşən həm Mədyən, həm də Əshabi-Əykə camaatını hidayət etməyi Allah tərəfindən əmr olunmuşdu.

Sanki o şəhər heç yox idi.Xəbərdar ol!Mədyən qövmü də Səmud qövmü kimi Allahın rəhmətindən uzaq oldu.

HZ.ŞÜEYBİN ÖMRÜ VƏ DƏFN EDİLDİYİ YER

Şüeybin dili ərəb dili idi. Bəzi rəvayətlərdə deyilir ki, qövmü həlak olduqdan sonra Şüeyb ona iman gətirənlərlə birlikdə Məkkəyə gələrək ömürlərinin axırına qədər orada qaldılar.Ömrünün 140 və ya 242 il olduğu rəvayət edilir.

Qəbrinin möminlərin qəbirlərinin yanında, Kəbənin ətrafında Darün-Nədvə ilə Bəni Səhm qapısı arasındakı yerdə olduğu rəvayət edilir.

HZ.MUSA HAQQINDA

Hz.Musa ibn İmran, ibn Yashür, ibn Kahis, ibn Lavi, ibn Yaqub, ibn İshaq, ibn Hz.İbrahimdır və Harun onun ata və anabir qardaşı idi. Ondan bir yaş böyük idi.

Yusif ibn Yəqub zamanında 2-ci Firon Əmr ibn İmlak ibn Lavəz,ibn Sam soyundan gələn Rəyyan ibn Vəlid olub.O zaman Hz.Yusif onu Allaha imana dəvət etmiş, o da iman etmişdir.

Rəyyanın ölümündən sonra onun yerinə keçən, eyni soydan olan Kabus ibn Musad olmuşdur.Rəyyan ölümündən əvvəl onu nə qədər Allaha, imana dəvət etmişsə də,o bunu qəbul etməmişdir və o kafir bir insan idi. Kabus ibn Musad ölüncə,yerinə qardaşı Bəlid ibn Musad keçdi və qardaşının zövcəsi Asiya xanım ilə evləndi.Vəlid ibn Musad qardaşı Kabusdan daha kafir, daha azğın idi.

HZ.MUSADAN ƏVVƏLKİ DÖVR

Musanın əhvalatına başlamazdan əvvəl Bəni-İsrailin Misir dövlətindəki vəziyyətinə nəzər salaq.Hz.Yusifin həyatından bəhs edilən zaman dedik ki,Hz.Yusif öz atası Yəqubu, qardaşlarını və onların bütün ailələrini Misirə gətirdir.Yusif Misir Padşahından onlara Casan torpaqlarını verməsini istəyir və onlar orada məskunlaşırlar. Onların Misirin ətrafında yerləşmələrinin səbəbi,Yusifin ailəsinin tək bir Allaha sitayiş etməsi və Misir əhalisinin çoxunun bütpərəst olması idi.Yəqub övladları o məntəqədə,Misir dövlətində yeni bir həyata başladılar.İsrail xanədanının sayı (Tövratda deyildiyinə görə)yetmiş nəfər idi.Onların sayı get-gedə artır,yeni övladlar dünyaya gəlirdi.Hz.Yəqub vəfat etdikdən sonra, onu aparıb Fələstində dəfn etdilər.Hz.Yəqubdan sonra İsrail övladları Yusifin başçılığı ilə şad-xürrəm yaşayırdılar. Misir xalqı ona və onun əhlinə çox hörmət edirdi.Hz.Yusif dünyadan köçdükdən sonra onun xalqı yeni Firon tərəfindən yavaş-yavaş sıxışdırılmağa başladı.İsrail övladlarının çoxalması onu qorxuya saldı və onların birləşib qiyam etməsindən qorxdu.Bu səbəbdən onlara əzab-əziyyət verir, pərakəndə salır və öldürürdü.Xüsusilə bu, Musa zamanında dünyaya gəlmiş Firon tərəfindən daha qabarıq şəkildə idi. Firon bütün çirkli və çətin işləri onlara gördürür və onların üstündə məmurlar qoyub, rahatlıq vermir, onlara zülm edirdi.

Qurani-Kərimdə bu haqda buyurulur:

əl-Bəqərə 49-Onlar sizi pis və şiddətli əzablar ilə incidirdilər. Gündüzlər uca binalar tikir, hamballıq, fəhləlik edir, gecələr isə ayaqlarını zəncir ilə bağlayırdılar ki, qaçmasınlar.Sizin oğlanlarınızı öldürürdülər,qızlarınızı diri saxlayırdılar ki, özlərinə kəniz etsinlər.

əl-Qəsas 3-6-Həqiqətən,Firon yer üzündə ucalıq və təkəbbürlük etdi. Misirin əhalisini tayfalara böldü.Onlardan bir tayfanı hörmətli etdi,Bəni-İsrail tayfasını isə zəif edərək onların oğlan uşaqlarını öldürüb, qız uşaqlarını diri saxlardı.Çünki münəccimlər ona Bəni-İsraildən bir nəfər oğlan uşağının doğulacağını və Fironun onun əli ilə həlak olacağını xəbər vermişdi.Həqiqətən, Firon fitnə törədənlərdən idi.

(Firon bir gecə yuxuda görür ki, Beytul-Müqəddəs tərəfdən bir atəş gələrək Misirlilərin və qibtilərin evini yandırdı. Atəş hər yeri yandırıb viran etdi.Təkcə Bəni-İsrailə heç nə olmadı. Münəccimlər onun yuxusunun yozumunu belə etdilər ki, Bəni-İsraildən bir uşaq dünyaya gələcək, sənin səltənətini viran qoyacaq və ardıcıllarını bu torpaqdan çıxaracaq. Artıq onun dünyaya gəlişi yaxındır.)

Biz də minnət qoyaraq Misirdə zəif olan kəsləri insanlar üçün rəhbər etdik.Bəni-İsrail nəslindən Padşah seçmək və onları Fironun mülk və malına varislik etmək istədik.İstədik ki, Misirdə onları qüdrət sahibi edək.Bəni-İsrail tayfalarının əli ilə Firon və qoşununun qorxduğu şeyi onlara göstərək. Belə ki, Fironun səltənəti Bəni-İsraildən olan bir kişinin əli ilə aradan getsin.

HZ.MUSANIN HƏYATI HAQQINDA

"Qisasul-ənbiya "(Nəccar c-157-də) kitabında yazır:İmran-Musanın atası, Lavinin nəvəsi Yikabidlə ailə qurmuşdu.

Münəccimlərin Firona xəbər verdikləri müəyyən olunmuş, uşağın ana bətninə düşəcəyi gün, o bütün Bəni-İsraildən olan kişi və qadınları bir-birindən ayırmışdı. İmran o gecə Fironun sarayında gözətçilik etmə əmrini almışdı.Gecə İmranın arvadı onun yanına gəlir.

Sabahı gün Münəccimlər Firona bildirirlər ki:-"Bütün ciddi nəzarətlərə baxmayaraq çox çəkməyəcək ki, həmin uşaq dünyaya gələcək".

Firon işi belə gördükdə Bəni-İsraildən dünyaya gələcək hər bir oğlan uşağının qətlə yetirilməsini əmr edir.

İmran Fironun qorxduğu işin elə onun vasitəsi ilə baş verdiyini, arvadının hamilə olduğunu hiss etdikdə, o gecənin əhvalatını gizlətməyi öz arvadına tapşırdı və hadisənin sonunu Allahın öhdəsinə qoydu.

Günlər keçir, Bəni-İsraili Fironun zülmündən xilas edəcək şəxsin - Musanın vilayəti yaxınlaşırdı.Həzrət Mehdi (ə.c.) rəvayətlərinə müvafiq olaraq Yukabidin hamiləlik dövründə də onun hamilə olması zahirdə bilinmədi. Musanın dünyaya gəldiyi günə qədər bir kəs o qadının hamilə olmasını bilmədi.

Vəhb ibn Münəbbihdən nəql olunmuşdur ki,Musanın doğum vaxtı çatdıqda, Firon uşaq götürənlərə tapşırdı ki,bütün qadınları yoxlasınlar, görsünlər ki, hansı qadın hamilədir.Onlar gəlib Musanın anasını da yoxladılar,Allahın işindən onun hamilə olduğunu hiss etmədilər.Musa dünyaya gəldiyi gecə bacısı Məryəmdən başqa heç kəs bunu bilmədi.

HZ.MUSANIN UŞAQLIĞI

Musa dünyaya gəldikdən sonra Allahdan vəhy gəlir ki, onu bir sandığa qoyub, Nil çayına buraxsın.Bu haqda Quranda buyurulur:-

əl-Qəsas-7-14-ayələr.Biz Musanın anasına bildirdik, nə qədər ki,onun tələf olmasından qorxur ona süd versin.Fironun xəbərdar olub,onu

öldürməsindən qorxsan,sandığa qoyub dəryaya, Nil çayına atarsan! Onun tələf olmasına görə qorxma və qəmgin olma!Biz onu sənə sağlam qaytarıb, öz tərəfimizdən göndərilən Peyğəmbərlərdən edərik.

Fironun zövcəsi Asiya çadırda Nilin sahilində oturub istirahət edirdi. Gördü ki, suyun üzərində bir sandıq var və əmr edir ki, o sandığı çıxarıb gətirsinlər.Fironun adamları onu çıxardırlar.Firon sandığı açıb Musanı görəndə qəzəbləndi və dedi:-Mən oğlan uşaqlarının öldürülməsini əmr etdiyim halda, necə olub ki, bunu öldürməyiblər?

Fironun zövcəsi Asiya dedi:-Sən bu il əmr etmisən, o isə keçən il anadan olub! Allah Fironun gözünə pərdə saldı və qəlbinə də məhəbbət.

Fironun zövcəsi dedi:-Bu uşaq sənin və mənin gözlərimizin işığıdır. Onu öldürməyin, bəlkə bizə xeyir verdi, yaxud onu övladlığa götürdük.

Onlar ölümlərinin o uşağın əlində olmasını,yaxud axtardıqları uşağın həmin uşaq olduğunu bilmirdilər.

Musanın anasının ürəyi səbirsiz oldu.Az qaldı ki, ah-nalə ilə Musanın kimliyini bildirsin.Əgər biz onun qəlbinə səbir əta etməsəydik, mütləq o Musanı aşkar edərdi. Biz ona səbir verdik ki, inananlardan olsun.Biz onu anasına qaytaracağımıza söz vermişdik.Musanın anası qızına (Məryəmə) dedi:-Qardaşının dalınca get! Onun əhvalatından xəbər tut!Musanın bacısı hər tərəfi axtardı və gördü ki, Firon tayfası uşağı tapıb Nil çayından çıxardılar.

Biz anası gəlməmişdən əvvəl Musaya dayələrin südünü haram etmişdik.Hər hansı bir qadın ona süd vermək istəyirdis, o qəbul etmirdi. Bacısı əhvalatı belə görəndə dedi:-Sizin adınızdan ona zamin olub ona yaxşı baxacaq,ona qarşı mehriban olacaq ev adamlarını sizə nişan verimmi?

Fironun adamları Musanın bacısına dedilər ki, Musaya süd verə biləcək qadın tapsın.Musanın bacısı gəlib anasını Fironun sarayına aparır.Musa onun döşünü qəbul edən kimi onlar şad oldular və Musanı ona verdilər ki, onu əmizdirib saxlasın.

Allah buyurdu:-Beləliklə, biz Musanı anasına qaytardıq ki, onu görməklə gözü işıqlansın,qəmlənməsin və Allahın vədinin haqq olduğunu bilsin.Lakin insanların çoxu Allahın vədinin haqq olduğunu bilməzlər.

əl-Qəsas-15-22-Musanın yetkinlik dövrü.Musa Misirin yaxınlığında yerləşən şəhərə əhalisindən xəbərsiz girdi.O gün bütün camaat bayram keçirilən yerə getmişdi.Musa o şəhərdə iki nəfər adamın pul üstündə vuruşduğunu gördü.Onlardan biri Musanın öz adamlarından-Bəni -İsraildən, digəri isə düşmənlərdən-qibtilərdən idi.Musanın adamların-

dan olan bir nəfər onu, düşməni dəf etmək üçün fəryadla çağırdı.Musa onu əli, yaxud əsa ilə vurub öldürdü və dedi:-Bu şeytan əməlindəndir ki, məni qəzəbləndirdin. Həqiqətən də, şeytan Adəm övladı ilə düşməndir və aşkar zəlalətə sürükləyəndir!

Musa dedi:-Pərvərdigara, həqiqətən, mən qibtili öldürməklə nəfsimə zülm etdim. Əgər onu öldürməyimi bilsələr, şübhəsiz ki, onun əvəzinə məni öldürərlər.Bunun üçün məni bağışla.

Allah Musanı bağışladı.Allah bağışlayan və rəhm edəndir.

Musa dedi:-Pərvərdigara!Mənə verdiyin mərhəmət müqabilində bundan sonra mən mütləq günahkarlara arxa və kömək olmaram.

Beləliklə, Musa həmin şəhərdə qorxan halda səhəri açdı.Səhər gördü ki, dünən ondan imdad diləyən kəs, fəryad çəkərək yenə onu köməyə çağırır.

Musa ona dedi:-Doğrudan da sən yolunu azmışlardansan.

Musa onların hər ikisinin düşməni olan şəxsi dəf etmək istədikdə, o şəxs dedi:-Ey Musa!Dünən bir nəfəri öldürdüyün kimi, məni də öldürmək istəyirsən? Sən xeyirxah olmaq istəmirsən!

Qibtili gedib əhvalatı Firona xəbər verdi və dünən qibtilini öldürənin Musa olduğunu bəlli etdi.

Misir şəhərinin ucqarından bir nəfər sürətlə gələrək Musaya dedi:-Ey Musa! Fironun vəzirləri məsləhət və məşvərət edərək belə qərara gəldilər ki, səni öldürsünlər.Elə bu saat Misir torpağından çıx!Mən həqiqətən də sənə məsləhət edənlərdənəm.

Əhvalatdan xəbər tutan Musa qorxu və intizar içində şəhərdən çıxıb dedi:-"Ey mənim Allahım, mənə zalım qövmdən nicat ver!"

Musa hara gedəcəyini bilmirdi və heç bir səfər tədarükü görmədən yola çıxdı. Misirin üç günlük məsafəsində olan Mədyənə üz çevirən kimi dedi:-Ola bilsin ki, Allah mənə Mədyənə tərəf gedən düz yolu göstərsin!

Allah Musanın duasını eşidərək onu Mədyənə yetişdirdi.

əl-Qəsas-23-28-Musanın evlənməsi.Musa Mədyən kənarındakı bir quyuya çatanda, o quyunun yanında bir dəstə adam gördü,onlar heyvanlarına su içirirdilər. Onların yanında iki qadın var idi ki, onları quyudan su çıxarmağa və qoyunlarını suvarmağa qoymurdular.Musa onlara dedi:-Sizə nə olub, nə üçün qoyunlarınızı su içməyə qoymursunuz?

Onlar dedilər:-Çobanlar qoyunlarını suvadıb getməmiş, biz öz qoyunlarımıza su vermirik! Atamız da qocadır,ona görə qoyunları suvarmağa biz gəlirik!

Musa çobanlara dedi:-Siz əvvəlcə bu qadınlara yol verməlisiniz, sonra öz qoyunlarınıza su verməlisiniz.Onlara bu söz pis təsir etdi və ona su qabını verərək"get özün su ver"-dedilər.

Musa qabı alıb quyudan su çəkərək onların qoyunlarını suvardı. O qabı quyudan çıxarmaq çox çətin idi.Musa o qaba su doldurub özü tək çıxardı.

Qadınlar öz evlərinə qayıtdılar. Musa getməyə bir yer tapmayaraq kölgəyə qayıtdı və dedi:- Pəvvərdigara!Həqiqətən də mən sənin mənə nazil edəcəyin xeyirə möhtacam ki, bir parça çörək yeyərək qurtulum.

Qızlar evlərinə qayıdanda atalarına bu əhvalatı danışdılar və o da qızlarına onu evə dəvət etmələrini istədi.

Qızların biri utana-utana Musanın yanına gələrək dedi:-Atam suvarmanın haqqını vermək üçün səni çağırır.Musa qızların atası Hz.Şüeybin yanına gəldi,oturub çörək yeyəndən sonra,onun Fironun adamlarından öldürdüyünü və onu axtardıqlarını dedi.

Hz.Şüeybə dedi:-Qorxma, artıq sən zalım qövmlərin əlindən nicat tapdın! Bu yerdə Firon mülkiyyəti yoxdur.

Qızların biri dedi:-Ey ata,onu muzdla çoban tut!Çünki bu güclü və etibarlı adam muzdla tutduqlarının ən yaxşısıdır!

Musaya qarşı Şüeybin qəlbində sevgi yarandı və dedi:-Səkkiz il mənə xidmət etmək şərti ilə qızlardan birini sənə ərə verirəm.Əgər sən tamamlayıb on ilə çatdırsan, bu artıq sənin tərəfindən olan ehsandır. Mən səni əziyyətə salmaq istəmirəm.Əgər Allah istəsə, sən mənim saleh kəslərdən olduğumu görərsən!

Musa dedi:-Bu şərt mənimlə sizin aramızdadır.Bu iki müddətin hansını tamamlasam, sənin tərəfindən mənə heç bir vəchlə təsir olmasın. Allah bizim danışığımıza şahiddir.

əl-Qəsas-29-33-Musanın Misirə qayıdışı.Musa müəyyən müddəti tamam edən zaman Şüeybin qoyunlarını özünə qaytardı,öz hissəsini götürərək ailəsi ilə birlikdə Misirə tərəf yola çıxdı.Tur dağı tərəfdə od görərkən zövcəsinə dedi:

-Siz burda durun!Mən uzaqda od gördüm.Bəlkə gedib ondan sizin üçün bir xəbər gətirim,yaxud bir parça oddan gətirim ki, bəlkə siz onunla qızınasınız!

Musa odun yanına gəlib çatanda vadinin sağ tərəfində mübarək yerdə olan ağacdan belə bir nida gəldi:"Ey Musa! Başmaqlarını ayağından çıxart! Sən Tuva adlanan pak yerdəsən.Aləmlərin Rəbbi olan Allah mənəm!" Allah əmr etdi:"At əsanı!"

Musa(ə.s.) əsanı yerə atanda əsa Allahın izni ilə əjdahaya döndü. Musa gördü ki, əsa balaca ilan kimi hərəkət edir.

Musa heç dala da baxmayaraq qaçmağa başladı.Ona belə nida olundu:-"Ya Musa! Bəri gəl,qorxma!Həqiqətən, sən əmin-amanlıqdasan."

Əlini yaxana sal ki, ağ nur kimi çıxsın.Bu iki əlamət Allahın tərəfindən sənin üçün, iki növ dəlildir. Biz səni Firona və onun qövmünə tərəf göndərdik.Həqiqətən onlar fasiq qövmlərdir!

Musa dedi:-Ey Allahım! Mən onlardan bir nəfəri öldürmüşəm, qorxuram ki, onlar da məni öldürələr.Qardaşım Harun məndən yaxşı danışandır, onu mənimlə göndər ki, Mənə köməkçi olsun və məni təsdiq etsin. Onların məni təkzib edəcəyindən qorxuram.

Taha-25-Pərvərdigara, mənim sinəmi aç!İşimi asanlaşdır!Dilimi aç ki, sözümü anlasınlar.Qardaşım Harunla arxamı möhkəmləndir ki, səni çox zikr edim! Həqiqətən, sən bizi görənsən. Hz.Musaya Peyğəmbərlik verildi

Taha-40-46-Allah buyurdu:"Ya Musa! İstədiyin mətləblər sənə verildi.Sən neçə illər Mədyən şəhərində qaldın.Sonra müəyyən olan zaman gəldin, 40 yaşına dolduqda Peyğəmbərliyə seçildin.Mən səni özümə dost seçdim. Sən və qardaşın mənim möcüzələrim ilə gedin! Mənim sözlərimi yetirməkdə süstlük etməyin.Firona tərəf gedin! Həqiqətən, o həddini aşmışdır! Ona yumşaq sözlər deyin, xoş danışın.Bəlkə o nəsihət qəbul etsin, ya qorxsun."

Musa və Harun dedilər:"Biz qorxuruq ki, Firon bizə əziyyət verər."Allah buyurdu:

"Qorxmayın, mən sizinləyəm, eşidirəm və görürəm!"

HZ. MUSANIN FİRONUN YANINA GƏLİŞİ

Taha-47-74-Fironun yanına gedib deyin:Biz ikimiz də sənin Rəbbinin Peyğəmbərləriyik.Bəni-İsraili bizimlə göndər,onlara əzab vermə, onları azad et! Həqiqətən, biz Allah tərəfindən möcüzə gətirdik. Allahın rəhməti və əzabından salamat qalmağı hidayətə tabe olan şəxsə şamildir.

Firon dedi:"Sizin Allahınız kimdir, ya Musa?"

Musa dedi:"Rəbbimiz hər şeyə öz surətini və şəklini verən , sonra da ona doğru yolu göstərən Allahdır!"

Firon dedi:"Keçmiş tayfaların halı necədir?"

Musa dedi:"Onların əhvalatlarını bilmək mənim Allahımın yanında olan kitabdadır. (Lövhu-Məhfuzdadır.)Allahım səhv etməz və heç nəyi unutmaz. O elə bir Allahdır ki, yeri sizin üçün döşənəcək qərar verib, su-yağış göndərdi, müxtəlif otlar və meyvələr yetişdirdi ki,həm özünüz, həm də malqaranız istifadə etsin.Sizi yerdən yaratmış və oraya da qaytaracaqdır. O bizi bir dəfə də məhşərdə, hesab-kitabdan ötrü yerdən çıraxacaqdır."

Biz Firona möcüzələrimizin hamısını göstərdik.O təkzib etdi və iman gətirməkdən yayındı.O dedi:”Ya Musa!Gəlmisən ki, bizi öz sehrinlə yerimizdən çıxarasan?Biz sənə göstərdiyin sehrin mislini göstərərik. Bizimlə öz aranda vəd olunmuş yer müəyyən et ki, nə biz, nə də sən xilaf çıxmayasan.Elə bir yer ki, düz və hamar olsun.”

Musa dedi:”Vəd edilən gün,bayram günü olsun.İnsanlar günorta vaxtı cəm olsunlar.”

Firon hər növ hiyləsini və sehirbazları vəd edilmiş yerə topladı.

Musa sehrbazlara dedi:”Vay olsun sizə, Allaha böhtan atmayın və yalan danışmayın.”

Firon və qövmü dedi:”Bu iki nəfər sehrbazdır.İstəyirlər ki, sizi sehrləri gücünə öz yerinizdən çıxarıb aparsınlar, məzhəblərin ən yaxşısı olan məzhəbimizi batil etsinlər.Hiylə alətlərinizi toplayıb vəd olunmuş yerə səf-səf gəlin.Həqiqətən,bu gün qələbə çalan nicat tapar.”

Onlar dedilər:”Ey Musa!Ya əvvəlcə sən əsanı tulla, ya da biz birinci tullayaq.”Musa dedi:-“Xeyr, əvvəlcə siz tullayın!”

Onların ipləri və əsaları,sehrləri gücünə Musaya və tamaşa edənlərə hərəkət edən kimi göründü. Musa öz ürəyində qorxdu.Biz dedik ki,qorxma! Həqiqətən, sən ucasan! Sağ əlindəki əsanı tulla ki, sehrbazların düzəltdiklərini udsun.Həqiqətən, onların cadusu sehrbaz şəxsin hiyləsindən başqa bir şey deyildir.Sehrbazlar isə harada olursa olsun mətləbə çatmazlar!”

Sehrbazlar üzü üstə yerə sərilib dedilər:-Biz Harun və Musanın Rəbbinə iman gətirdik.

Firon dedi:”Siz məndən izin almayıb Musanın Allahına iman gətirdiniz, çünki o həqiqətən də sizə sehr öyrədən böyüyünüzdür. Əlbəttə, mən də sizin əllərinizi,ayaqlarınızı çarpaz kəsdirib,xurma ağaclarının kötüklərindən asdıracağam.”

Sehirbazlar dedilər:”Biz heç vaxt səni bizə gələn bu açıq möcüzələrdən və bizi yoxdan yaradan Allahdan üstün tutmarıq. Əlbəttə,siz bizim hansımızın əzabının şiddətli və həmişəlik olduğunu bilirsiniz. Necə istəyirsənsə hökm et! Sən yalnız bu dünya həyatında hökm edərsən. Biz Allahımıza iman gətirdik ki, bizim günahlarımızı bağışlasın, bizi sehr etməyə vadar etdiyin günahdan da keçsin.Kim Rəbbinin hüzuruna günahkar kimi gələrsə, onu Cəhənnəm əzabı gözləyir.Allahın hüzuruna mömin halda,yaxşı əməl edərək gələn kəs üçün isə uca mərtəbə və dərəcələr vardır.

HZ.MUSA İLƏ FİRONUN MÜBARİZƏSİ

əl-Əraf-127-137- Firon qövmünün böyükləri dedilər:"Sən Musa və onun qövmünü sağ qoyursan ki, yer üzündə fəsad etsinlər?"

Firon dedi:"Tezliklə keçmiş adət üzrə, mən onların oğlan uşaqlarını öldürər,qız uşaqlarını diri saxlaram.Həqiqətən, biz onların üzərində qələbə çalanlarıq."

Musa öz qövmünə dedi:"Allahdan kömək istəyin və səbir edin.Yer üzü Allahın mülküdür.Onu bəndələrindən istədiyi kəsə irs olaraq verər. Axirət təqvalılar üçündür."

Bəni-İsrail dedi:"Səndən qabaq bizə əziyyət verilmişdir.Sən gələndən sonra da əziyyət verməkdən əl çəkmədilər.

Musa dedi:"Bəlkə də Allahınız sizin düşmənizi həlak edib, sizi yer üzündə xəlifə edəcək.Sonra Allah görər ki, siz necə əməl edəcəksiniz."

Əlbəttə, biz Firon övladını illərlə bahalıq, qıtlıq və məhsullarının azlığı ilə imtahan etdik ki, bəlkə nəsihət qəbul etsinlər.Onlara yaxşılıq gəldikdə:"Bu, bizə görədir"- dedilər.Əgər pislik yetişsəydi, Musaya və onunla olanlara bəd fal vurardılar.Xəbərdar ol! Onlara bəd fal vurmaqları Allahın yanındadır,lakin onların çoxu bilməzlər.

Firon qövmü dedi:"Sən bizi ovsunlamaq üçün nə qədər ayə və əlamət gətirsən də, biz sənə iman gətirən deyilik."

Biz onlara birinci il tufan göndərdik,Nil çayı daşaraq onların yerlərini və evlərini basdı.İkinci il onlara çəyirtkə göndərdik,onların bütün məhsullarını,paltarlarını yedi.Üçüncü il gənə göndərdik, bədənlərinə, heyvanlarına əziyyət verdi. Dördüncü il qurbağa göndərdik,evləri onunla doldu.Beşinci il qan göndərdik,Nilin suyu qan oldu.Allah- təala dedi: "Bütün bunları sizin üçün dəlil etdik. Onlar iman gətirməyib təkəbbürlük etdilər."

Onlara əzab gəldikdə dedilər:"Ey Musa! Fironun sənin yanında etdiyi əhd müqabilində bizdən ötrü Allaha dua et!Əgər sən bizdən əzabı götürsən,şübhəsiz biz sənə iman gətirər,Bəni-İsraili səninlə göndərərik.

Biz qalacaqları müddətə qədər,onlardan əzabı götürən zaman onlar əhdi sındırdılar, öz əhdlərinə vəfa etmədilər.Möcüzələrimizi təkzib edərək onlardan qafil olduqları üçün, biz onlardan intiqam alıb,onları dənizdə qərq etdik.Biz, zəiflədilmiş qövmə yerin şərq və qərb tərəfini irs olaraq verdik.Elə bir yer ki, firavanlıq ilə bərəkətli etmişdik.Səbir etdiklərinə görə Allahın gözəl sözləri Bəni-İsrailə tamam oldu.

əl-İsra-101-102-Biz Musaya doqquz aşkar möcüzə verdik:-1.Əsa,2. Ölüm-itim,3.Tufan, 4.Çəyirtkə, 5.Bit, 6.Qurbağa,7.Qan, 8.Meyvələrin azlığı,9.Dəryanın yarılması.

Bəni İsraildən soruş:-Onlara möcüzə gələn zaman Firon Musaya dedi ki, əlbəttə mən sənə sehr edildiyini güman edirəm.

Musa dedi:"Sən bunların məhz göylərin və yerin Rəbbi tərəfindən aşkar möcüzə olaraq endirildiyini sözsüz ki, bilirsən!Ey Firon !Mən isə səni həlak olmuş görürəm."

Yunus-83-92-Musaya yalnız onun qövmündən bir nəsl,Bəni-İsrail iman gətirdi. Onlar Firon və onun qövmündən qorxurdular. Musa ona iman gətirmiş qövmünə dedi:"Siz Allaha təvəkkül edin və Firondan qorxmayın. Allah öz rəhməti ilə bizi bu zalım qövmün əlindən qurtarar.

Biz Musa və Haruna vəhy etdik ki, qövmünüzdən ötrü Misir şəhərində evlər bina edin, evlərinizi qibləyə tərəf tikin.Namaz qılın, onu tərk etməyin!Möminlərə Firondan nicat tapmağı müjdə verin.

Musa dedi:"Pərvərdigara!Firon və onun qövmünə zinət,dünya həyatında mal-dövlət vermisən.Onlar sənin yolundan azıblar.Ey Allahım!Onların mallarına dəyişiklik ver,daşa döndər.Dərd gətirən əzabı görənə qədər onların qəlblərini bərk et ki, iman gətirməsinlər. Allah buyurdu:"Sizin duanız qəbul olundu.Camaatı imana gətirməkdə sabit olun bilməyənlərin yoluna tabe olmayın."

Fironun həlakı.Yunus-90-Biz Bəni-İsraili sağ-salamat dənizdən keçirdik.Zülm və ədavətə görə Firon və onun qoşunları onların ardınca getdilər ki,onları öldürsünlər.Onlar Musanın ardınca gedəndə gördülər ki, o öz qövmü ilə dənizin ortasına daxil oldu.Fironun qoşunu da onların arxasınca dənizə daxil olanda, dəryaya qərq oldular.Firon batdığı zaman həlakını yəqin edib dedi:"Mən Bəni -İsrailin iman gətirdiyi Allahdan başqa Allah olmadığına iman gətirdim.Mən Allahın əmrinə təslim olanlardanam."Ona dedilər: "İndimi iman gətirirsən?Bir halda ki, bundan əvvəl Allaha asi olmuşdun.Sən fəsad edənlərdən idin."

Bu gün sənin bədəninə (cisminə) nicat verərik, sudan bayıra atarıq ki, səndən sonra gələnlərə əlamət və nişanə olasan.Həqiqətən İnsanların çoxu bizim əlamətlərimizdən qafil olanlardır.

Fironun zövcəsi-Asiya.Mərhum Təbərsə ("Məcməul-bəyan"-da) nəql edib ki, "Asiya,Musa sehirkarlara qalib gəlməmişdən əvvəl ona iman gətirmişdi. Belə bir imanlı qadın kamal həddinə çatmış, bəsirət və düşüncəsinə görə ən böyük zahiri məqamlara yetişmişdi. Firon bunu bildikdə onu bu işdən çəkindirmək istədi. Ancaq Asiya öz əqidəsindən dönmədi.Firon əmr verir onu çarmıxa çəksinlər, sonra da üstünə ağır bir daş atsınlar.Pərvərdigarı onun dualarını qəbul edib ona behiştdə böyük məqam əta etdi.

HZ. MUSAYA TÖVRAT VERİLMƏSİ

əl-Əraf-143-146-Musa miqatımıza (Turda dayanmaq) müəyyən etdiyimiz vaxt gəldiyi zaman Allah onunla danışdı.O bunu öz qövmünə xəbər verdikdə dedilər:-Biz onun səsini sənin kimi eşitməyincə sənin sözünə inanmarıq.

Musa (ə.s.) yeddi yüz minlik qövmün içindən yetmiş nəfər seçib özü ilə apardı. Onları dağın aşağısında qoyub,özü Tura çıxdı.Bu zaman onlar 6 cəhətin hamısından səs eşitdilər və dedilər:"Biz onu görməyincə bu səsin Allah səsi olduğuna inanmırıq."

Bu sözü deyən kimi bir ildırım gəlib onları yandırdı.Musa dedi:"İlahi, Bəni-İsrail məni ittiham edəcəklər ki,sən onları aparıb öldürdün."

Sonra Allah onları diriltdi.Onlar dedilər:"Allah sənin duana görə bizi diriltdi.Əgər dua etsən Allah özünü bizə göstərər."

Xitab gəldi ki:"Ey Musa!Camaatın istədiyini istə!

Musa dedi:"Pərvərdigara, özünü mənə göstər ki, mən baxım."

Allah buyurdu:"Məni görə bilməzsən.Lakin dağa bax! Əgər dağ yerində qərar tapsa,tezliklə məni görərsən."

Rəbbinin iqtidarı və nuru dağa tərəf zahir olan kimi dağı parça-parça etdi və Musa özündən gedib yıxıldı.O, özünə gəldikdə dedi: "İlahi sən gözlə görünməkdən uzaq və paksan.Mən bu cürətimə görə sənə tövbə etdim.

Mən səni görməyin qeyri-mümkün olduğuna inananların əvvəlincisiyəm." Allah buyurdu:"Ey Musa! Həqiqətən, mən səni insanlar arasında vasitəsiz olaraq danışmaqla və risalətimlə Peyğəmbər seçdim.Sənə verdiyim risaləti al və nemətlərimə şükr edənlərdən ol!

Onun üçün (Tövratın)lövhələrdə hər bir şeydən(şəri hökmü, halal-haram barəsində) nəsihət olaraq yazıb buyurduq:"Bundan möhkəm yapış və ümmətinə onun ən gözəl hökmlərindən yapışmağı əmr et!Axirətdə sizə azğınların yurdunu(Cəhənnəmi) göstərəcəyəm!

HZ.MUSA VƏ SAMİRİN ƏHVALATI

Taha-83-95-Allah buyurdu: "Əlbəttə, sən Tura gəlib 40 gün qaldıqdan sonra biz sənin qövmünü imtahan etdik.Samiri onları zəlalətə saldı."

Musa Turi-Sinadan öz qövmünə tərəf qayıtdı və gəlib onların pis əməllərini gördükdə,qəzəblənib təəssüf etdi.

Musa dedi:"Ey mənim qövmüm! Sizə Allahınız gözəl vəd etmədimi? Mənimlə ayrılıq zamanı sizə uzun gəldimi?Bəlkə Allahınız tərəfdən qəzəb yetişməsini istədiniz?Siz vədimə xilaf çıxdınız."

Dedilər:-Sənin vədinə öz ixtiyarımız ilə xılaf çıxmadıq,biz qibti qövmünün zinətlərindən ağır yüklər götürdük.Biz o bəzəkləri Samirin göstərişi ilə atdıq.Elə o özü də atdı və dedi ki,bu qızıllar Musa Turdan gələnə qədər burada qalsın,biz də ona itaət etdik.Samirə qızılları əridib,onlar üçün bir buzov surəti düzəltmişdi. Samirə və ona ilk iman gətirənlər dedilər ki, budur sizin və Musanın Allahı ki, sizi unudub burada qoyaraq Tura gedib.

Məgər Bəni-İsrail bilmirdi ki, buzov onların suallarına cavab qaytara bilməz,onlara xeyir, ya zərər verə bilməz?

Musa Turdan qayıtmamışdan qabaq Harun Bəni-İsrailə demişdi ki, həqiqətən siz buzova aldanırsınız.Sizin Allahınız mehriban olan Allahdır. Mənə tabe olun, əmrimə itaət edin.

Musa 40 gün Turda qalandan sonra Tövrat nazil oldu.Allahın xəbəri ilə qövmünün buzova pərəstiş etdiklərini bildi.

Qövmünün arasına gəlib dedi:-Ey Harun!Qövmün azğın olduğunu gördükdə sənə nə mane oldu ki, mənim arxamca gəlmədin? Mənim əmrimə asi oldunmu?

Harun dedi:-Ey mənim anam oğlu!Mənim saqqalımdam və bığımdan tutma.Mən qorxdum ki,sən deyərsən:"Sən mənimlə Bəni-İsrail arasında ayrılıq saldın və mənim sözümü saxlamadın."

Musa üzünü Samirə tutub dedi:-"Sən nə böyük iş gördün?"

Samirə dedi:"Mən, Bəni-İsrailin bilmədiyi bir şeydən xəbərdar oldum. Həmçinin buzovu düzəltməyə nəfsim mənə zinət verdi."

Musa dedi:"Bu qövmün arasından get!Sənin üçün bu dünyada əzab var! Etdiyin əməl müqabilində Allah sənə elə bir xəstəlik verəcək ki, deyəcəksən"mənə əl vurmayın".Axirətdə sənin üçün vəd olunmuş yer var və bu vədə xilaf olunmaz.Sən öz batil allahına bax ki,ona ibadət etməkdə israrlı idin.Əlbəttə biz onu yandırıb külünü bir yol ilə dənizə dağıdarıq."

Yunis-151-Musa dedi:-Ey mənim Allahım!Məni və qardaşımı bağışla, bizi öz rəhmətinə daxil et! Sən rəhm edənlərin ən rəhmlisisən. Buzovu Allah tutan kəslərə tezliklə Allah tərəfindən qəzəb yetişər.Onlara dünyada zillət yetişər.Beləcə,biz Allaha böhtan atanlara cəza verərik. Günah işlər görüb sonradan tövbə edərək imanda sabit qalan kəsləri şübhəsiz, sənin Allahın tövbələrdən sonra bağışlayan və rəhm edəndir. Musanın qəzəbi soyuyan zaman lövhələri götürdü.Onun nüsxəsində Allahdan qorxan kəslər üçün hidayət və rəhmət vardır.

BƏNİ-İSRAİLƏ VERİLƏN NEMƏTLƏR

əl-Bəqərə-57-65-Allahın Bəni-İsrailə verdiyi nemətlər bunlar idi: Buludu sizin başınızın üstündə kölgə etdik ki, sizi Tih səhrasında günəşin hərarətindən və gecənin soyuğundan saxlasın. Sizə:"Ruzi olaraq verdiyimiz halal şeylərdən yeyin!-deyərək sizə qüdrət halvası və bildirçin göndərdik.

Xatırlayın ki (Tih səhrasından çıxandan sonra)sizə:"Bu kəndə girin, bəyəndiyiniz şeyləri rahatlıqla yeyin və buranın qapısından (Allaha) səcdə edən halda "Hittə!"(bizi bağışla) söyləyərək daxil olun.Biz də günahlarınızı bağışlarıq.Biz yaxşı əməl edənlərin savabını(mükafatını) artırarıq"demişdik.

Zülm edən kəslər onlara deyilən sözün əvəzinə başqa bir söz dedilər. Onlar daxil olan zaman dedilər ki, günahlarımızın bağışlanması əvəzinə buğda istəyirik.Allah onların bu cür hərəkət və əməlləri müqabilində buyurur ki: -Biz öz nəfslərinə zülm edən kəslərə,fasiq olduqları üçün səmadan gələn əzab nazil edərik.Onlar bu əməlləri müqabilində taun xəstəliyinə mübtəla oldular və çoxu tələf oldu.

Biz Bəni-İsraili 12 qəbiləyə böldük.Yəqubun 12 övladından hər biri bir tayfa oldu.Misirdən çıxandan sonra Şam arasında vaqe olan səhrada qövmü Musadan su istəyən zaman ona vəhy etdik ki,əsanı daşa vur! Musa(ə.s.) əsanı daşa vurduqda, ondan 12 deşik açıldı və 12 çeşmə yarandı.Musa (ə.s.) onlara nişan verəndən sonra hər qəbilə özlərinin su içmək yerlərini tanıdılar.Onlar üçün buludu kölgələr etdik və dedik: "Allahın sizə verdiyi halal və pak ruzilərdən yeyin!"

Onlar bizə zülm etmədilər, lakin özlərinə zülm etdilər. Bu qədər nemət müqabilində kafir olub dünyada müxtəlif əzablara tutuldular və axirətdə isə Cəhənnəmlik oldular.

O zaman ki, dediniz:"Ya Musa,olan bu yeməyə səbir edə bilmərik. Allaha dua et ki, yerdən göyərti, xiyar, sarımsaq, mərcimək, soğan xaric etsin." Allah tərəfindən belə bir xitab yetişdi ki, siz özünüz üçün yaxşı olanları alçaq bir şeyə dəyişirsinizmi?Bu səhradan keçib başqa bir şəhərə gedin. Həqiqətən istədiyiniz şeylər şəhərlərdə vardır. Onlara cizyə vermək zilləti və fəqirlik şamil oldu. Onlar Allahın qəzəbinə qayıtdılar. Bu qədər fəqirliyə və zillətə yetişmələrinin səbəbi budur ki, Allahın ayələrinə kafir oldular və Peyğəmbərləri (Zəkəriyyə, Yəhya,Şüeyb kimi)təqsiri olmadan öldürdülər. Bu onların Allaha asi olduqlarına və həddi aşdıqlarına (Allahın əmrlərini pozduqlarına) görə idi.O zaman biz sizdən əhd aldıq ki,Tövratda yazılana əməl edəsiniz.Amma siz bu

əhdi qəbul etməyib təkəbbürlük etdiniz.

Allah tərəfindən əmr olundu ki,öz qüvvəniz və gücünüz ilə bizim sizə verdiyimizi (Tövratı) möhkəm tutun, içindəkiləri unutmayın! Orada yazılanı yadınıza salın ki, bəlkə əzaba bais olan müxalifətdən qorxasınız və savaba layiq olasınız.

Sonra üz çevirdiniz.Sizin sələflәriniz əhdə vəfa etməkdən üz döndərdilər. Əgər Allahın fəzl və rəhməti sizin haqqınızda şamil olmasaydı, siz zərər çəkənlərdən olardınız.

əl-Əraf-163-169- Yəhudilərdən dənizin yaxınlığında olan qəryə haqqında xəbər al,o zaman ki,onlar şənbə günündə Allahın müəyyənləşdirdiyi həddən, həmin gün ov etməməkdən təcavüz etdilər.O zaman ki,şənbə günü balıqlar suyun üzü ilə onlara tərəf gəlir,o biri günlər gəlmirdilər.Eləcə də biz onları itaət etməməklə, fasiq olduqları ilə imtahan edərik.

Allah şənbə günü balıq tutmamağı əmr etmişdi.Lakin onlar böyük hovuzlar düzəldərək,onları dənizə birləşdirmişdilər. Balıqlar şənbə günü dənizdən çıxıb həmin hovuzlara dolurdular.Camaat hiylə işlədərək"biz şənbə günü ov etmirik"-deyərək hovuzların məcralarını bağlayır,balıqları dənizə qayıtmağa qoymurdular.O,biri gün isə həmin hovuzlardan balıq ovlayırdılar.Ov etməyənlər isə onlara nəsihət edib deyirdilər:-Allahın əmrindən təcavüz edənlərə əzab nazil olar, bu əməldən çəkinin.

O, zaman ki,onlar bir dəstə idi:-Allahın həlak edəcəyi, yaxud şiddətli əzab verəcəyi qövmə nə üçün nəsihət edirsiniz?

Onlar dedilər:-Bizim nəsihət verməyimiz məhz Allaha üzr gətirməkdən ötrüdür.Ümid var ki, onlar qorxsunlar, əzab nazil olana qədər tövbə etsinlər. Həqiqətən Allah dünyada tez əzab verəndir və o, şübhəsiz tövbə edənləri bağışlayan və rəhm edəndir.

Biz yəhudiləri yer üzünə səpələdik.Az məmləkət olar ki, orada yəhudi olmasın. Onların bir qismi Allaha iman gətirən, salehlərdəndir, bir qismi isə bundan aşağıdır.Biz onları nemət və möhlət ilə imtahan etdik ki, bəlkə Allaha tərəf qayıtsınlar.

Onlardan sonra gələnlərə Tövrat kitabına varis olub, xələf oldular.Onlar fani dünya malını alıb Tövtarın məzmununu, insanların xahişi ilə təhrif etməklə deyirdilər:"biz Allah tərəfindən bağışlanacağıq."Onlara bunun misli qədər daha bir haram gəlsə,onu da alarlar.Məgər Allaha dair yalnız haqqı demək barədə Tövratda onlardan əhd alınmamışdımı?Halbiki o kitabdakını oxuyub öyrənmişdilər. Axirət evi Allahdan qorxanlar üçün daha xeyirlidir.Məgər dərk etmirsiniz?

HZ.MUSA İLƏ QARUNUN ƏHVALATI

əl-Qəsas -76-82-Həqiqətən, Qarun Musanın qövmündən idi.Bəni-İsrail nəslindən Musanın əmisi oğlu idi. Onun gözəl səsi var idi və Tövratı ondan yaxşı oxuyan yox idi.O, Bəni-İsrailə zülm etdi.Biz ona açarlarını güclü adamın daşıya bilməyəcəyi qədər xəzinələr vermişdik.O zaman ki, Bəni-İsrail qövmü ona dedi:-Sənə verilən dünya malına görə şad olma və təkəbbürlük etmə!Həqiqətən, Allah şad olanları sevməz!

Allahın sənə verdiyi mal ilə,onu Allah yolunda sərf etmək ilə axirət qazan. Dünyadakı nəsibini yaddan çıxartma.Allah sənə ehsan etdiyi kimi, sən də kasıblara ehsan et!Yer üzündə fitnə-fəsad törətmə! Həqiqətən, Allah fəsad edənləri sevməz.Qarun dedi:-Bu qədər dövlət yalnız mənim elmimə görə verilib.Ticarət və əkinçiliyi hamıdan yaxşı bilirəm.

Allah buyurdu:-Məgər Qarun bilmirmi ki,Allah ondan əvvəl, ondan daha qüvvətli və daha varlı olan kəsləri məhv etdi?Qiyamət günü müşriklər günahlarından sorğu-sual olunmazlar.Çünki Allah hər şeyi bilir,suala ehtiyac yoxdur.

Bir gün Qarun öz zinətləri ilə qövmünün qarşısına çıxdı.Camaat onu bu hal ilə görəndə,dünya malı istəyənlər və möminlərdən etiqadı zəif olanlar dedilər ki,kaş Qaruna verilən dövlətdən bizə də verilərdi. Həqiqətən də o böyük bəxt,qismət sahibidir!

Elm verilmiş kəslər isə belə dedilər:"Vay olsun sizə!İman gətirərək yaxşı əməllər edənlər üçün axirət günündə Qaruna verilən dünya malından Allah savabı yaxşıdır.Bu nemətə yalnız səbir edənlər qovuşarlar.

Bir gün Qarun bir əxlaqsız qadını çağırıb dedi ki:-Sabah Bəni-İsrailin bir yerdə cəm olacağı yerə gedərək"Musa mənimlə zina edibdir!"söyləyərsən," -deyib o qadına iki min qızıl verir.

Qadın bu işə razılıq verib,Qarunun möhürülə möhürlənmiş pulları götürərək evinə gəlir.Evinə çatanda peşman olaraq fikirləşir ki,mənim ömrüm neçə müddət Allahın əmrinə itaət etməməklə keçmişdir.İndi də Allahın Peyğəmbərinə böhtan atım?

Səhəri gün pul kisələrini götürərək Bəni-İsrail cəm olan yerə gəldi. Bu zaman Həzrət Musa əxlaq haqqında moizə edirdi.Moizə zamanında Qarun ayağa duraraq dedi:

-"Ey Musa!Bəni-İsrail sənin filan qadınla zina etdiyini güman edir. Budur qadın,özü də insanların sözünü təsdiq edə bilər."

Musa (ə.s.)üzünü həmin qadına tutaraq dedi:"Ey qadın!Səni dəryanı yarıb Bəni-İsrail ilə oradan salamat çıxaran Allaha and verirəm düzünü de!"

Qadın dedi:”Musa (ə.s.) heç vaxt bu işə mürtəkib olmayıbdır! Qarun mənə iki min qızıl vermişdi ki,Musaya böhtan atım!Budur, bu da öz möhürülə möhürlədiyi pulları.”Camaat kisələrə baxanda gördülər ki,həqiqətən də kisələr Qarunun möhürülə möhürlənmişdir.

Musa (ə.s.) qəzəblənərək Allah dərgahına üzünü çevirdi.Allahdan nida gəldi:”Ey Musa!Yerin ixtiyarını sənə verdim.Musa (ə.s.) dedi:”Ey yer, Qarunu ud!”

Beləcə yer, Qarunun ayağından kamını çəkməyə başladı.Qarun Musanı qohumluğuna and verirdi,lakin Musa dedi:”Ey Lavinin oğlu,danışma!

Yenə də torpağa onu kamına cəkməyə əmr verdi.”

Hər dəfə Qarun Musaya yalvararaq qohumluğuna and verirdi, lakin Hz.Musa da qəzəbinin çoxluğundan yerə, onu udmağı əmr edirdi.Qarun gözdən itəndə Bəni-İsrail dedilər:”Musa Qarunun malına sahib olmaq üçün onu yerə batırdı!”

Musa dua edərək onun bütün var-dövlətini də yerə batırdı.

Bunun üçün Allah buyurur:”Nəhayət biz Qarunu, onun evini və bütün malını yerə batırdıq!Ona kömək edən bir camaat olmadı.Allahdan başqa heç kəs Qaruna kömək edə bilməzdi.”

Dünən Qarunun yerində olmaq istəyənlər ertəsi gün səhər birbirlərinə belə deyirdilər:”Vay olsun bizə! Həqiqətən də, Allah istədiyi kəsin ruzisini verər,istədiyi kəsin ruzisini azaldar!Əgər Allah bizə lütf etməsəydi,yəqin ki, bizi də yerə gömərdi.Sən demə kafirlər nicat tapmayacaqlarmış!”

İNƏYİN KƏSİLMƏSİ ƏHVALATI

əl-Bəqərə-66-74-Biz onların yanlarında və sonradan gələn insanlara ibrət etdik

Yadınıza salın, o zaman ki, Musa öz qovmünə dedi:Allah sizə öküz kəsməyi əmr etdi.Onun bir üzvünü qətlə yetirilmiş insana vurarsınız ki, dirilib qatilini göstərsin. Onlar dedilər ki, sən bizə istehza edirsənmi?Musa dedi ki, cahil olmaqdan Allaha pənah aparıram.

Onlar dedilər:”Bizdən ötrü dua et ki,bizə onun nə olduğunu bəyan etsin.”O dedi ki, Allah buyurur:”Bu öküz nə çox qocadır ki,işdən düşsün, nə də o qədər cavandır ki, iş bacarmasın,bu iki sifət arasındadır. Sizə əmr olunan şeyi yerinə yetirin.”

Dedilər ki, yenə də bizdən ötrü Allaha dua et ki,bizə o öküzün rəngini bəyan etsin.Musa dedi ki,Allah buyurur:”O bir öküzdür ki,onun rəngi

sarı və xalisdir.Onun sarılığı nə çox tünddür ki, qara olsun, nə də çox açıqdir ki,ağ olsun.Onun rəngi baxanları şad edər.”

Dedilər ki,bizdən ötrü Allaha dua et ki,öküzün sifətini daha çox bəyan etsin.Bu öküz bizim üçün naməlum olub.Əgər Allah istəsə, biz hidayət taparıq.

Musa dedi ki, Allah buyurur:”O öküz nə çox ram olmuşdur ki, yeri şumlasın, nə də quyulardan su çəkib əkini suvarsın.O bütün eyiblərdən uzaqdır və onda başqa rəng yoxdur.”

Onlar dedilər ki:”İndi haqqı gətirdin və biz o öküzü tanıdıq. ”Onlar o öküzü kəsdilər,lakin bu işi görmək istəmirdilər.

Yadınıza salın ki, siz o zaman bir nəfəri öldürüb,özünüzü təmizə çıxarmaq məqsədilə,onun qatili barəsində mübahisə edirdiniz. Allah qatilin adını deməməklə, gizlətdiyiniz şeyləri zahir edəndir.

Nəhayət onlar öküzü kəsib,onun bir üzvünü ölənin bədəninə vuran kimi ölü diriltdi və onu kim öldürdüyünü söylədi.Onu diriltdiyi kimi Allah ölüləri də beləcə dirildər.Eləcə də nütfədən kamil insan əmələ gətirər və onları vəfat edəndən sonra, yenidən dirildər.O sizə ayə və dəlillər göstərər,bəlkə anlayasınız ki,Allah-taala qəribə işlər görməkdə aciz deyildir.

Sizin qəlbləriniz bərk oldu, sizin qəlbləriniz daş kimi bərkdir, ya da daşdan da bərkdir.Çünki daşlardan elələri vardır ki, ondan arxlar cari olar və ondan camaat xeyir tapar.Elə daşlar vardır ki,yarılıb ondan su çıxar.Lakin sizin qəlblərinizdən heç bir fayda ələ gəlməz. Elə daşlar da vardır ki,Allahın qorxusundan dağlardan aşağı düşər. Allah-taala sizin etdiklərinizdən qafil deyildir.

O zaman biz sizdən əhd aldıq ki,Tövratda yazılana əməl edəsiniz. Amma siz bu əhdi qəbul etməyib təkəbbürlük etdiniz.Allahın fəzli və rəhməti sizin haqqınızda nazil olmasaydı,siz zərər çəkənlərdən olardınız.

HZ.MUSANIN VƏ HZ.HARUNUN VƏFATI

Şeyx Cəduq “İkmalu-din”kitabında Muhəmməd Peyğəmbərdən rəvayət edir ki:-Musanın ömrü126 il, Harunun ömrü 123 il olmuşdur. Hz.Musanın qəbri ”Nəba (ya Nəbu)dağındakı yolun üstündə, qırmızı rəngli təpəlik yanında, Harunun qəbri”Turi-Sina”-dakı “Hur” dağındadır.Həmçinin Hz.Musa “Təyyə”səhrasında dünyadan gedərkən, Bəni-İsrailin oradan çıxıb ”Əriha”ölkəsinə getməsi, ya hələ orada olması haqqında iki nəzəriyyə mövcuddur.

Hədis:Şeyx Səduqun imam Sadiqdən rəvayət etdiyi hədisə görə Harunun vəfatı belə olmuşdur;Musaya Allahdan vəhy gəlir ki, Harunu götürüb dağa gətirsin,çünki onun ölüm vaxtıdır.O, Harunu götürüb"Turi-Sina"ya gedirlər.Orada bir evə rast gəlirlər ki, evin yanında bir ağac olur.Ağacdan iki paltar asılıbmış,Hz.Musa Haruna demiş ki, o paltarları geyinsin.Sonra onlar evə daxil olub,orada gözəl bir taxt görürlər.Harun taxtın üzərində yatanda, Allahın əmri ilə ölüm mələyi onun ruhunu bədənindən çıxarır.

Hz.Musa Bəni-İsrailin yanına qayıdıb Harunun necə ölməsini onlara xəbər verir.Onlar Musaya:-sən özün onu öldürmüsən-deyirlər.Musa bu ittihamdan canını qurtarmaq üçün Allaha pənah aparır.Allah-taala mələklərə əmr edir ki, Harunun cənazəsini taxtın üstündə göydə hazır etsinlər.Onlar Harundan soruşurlar ki:-Səni kim öldürüb?

Harun (ə.s.) cavab verir ki:-Mən öz əcəlimlə ölmüşəm! Bəni-İsrail bu hadisəni görəndən sonra Harunun dünyadan öz əcəli ilə getməsinə inanırlar.

Hz.Musa, Harunun ölümündən sonra üç il yaşadı.O İsrail oğullarını Tur dağı ilə qorxudaraq,Tövratın hökmlərinə əməl edəcəkləri haqda onlardan söz alır.Bu hadisədən 40 gün sonra onu bir daha heç kim görmür.

"İkmalüd din"kitabında İman Sadiqdən nəql olunur ki:

-"Musanın ömrü tamam olmuşdu.Allah-taala ölüm mələyini göndərdi ki, Musanın canını alsın.Ölüm mələyi Musanın yanına gəlib ona salam verdi. Musa (ə.s.) salamın cavabını verdikdən sonra ondan soruşdu:-Sən kimsən?

Ölüm mələyi buyurdu:-Mən ölüm mələyiyəm və sənin ruhunu bədəndən ayırıb,aparmağa gəlmişəm!

Musa soruşdu:-Ruhumu haradan çıxaracaqsan?

Ölüm mələyi buyurdu:-Ağzından!

Musa buyurdu:-Necə? Mən ağzımla Allah ilə danışmışam.

Ölüm mələyi buyurdu:-Onda əllərindən çıxardaram!

Musa buyurdu:-Necə? Mən bu əllərimlə Tövratı qəbul etmişəm!

Ölüm mələyi buyurdu:-Ayaqlarından çıxararam!

Musa buyurdu:-Necə? Mən bu ayaqlarım ilə Turi-Sinaya çıxmışam.

Ölüm mələyi buyurdu:-Gözlərindən çıxararam!

Musa dedi:-Necə?Daim ümidlə Pərvərdigarımdan nigaran olduğum halda?

Ölüm mələyi buyurdu:-Qulaqlarından çıxararam

Musa buyurdu:-Necə?Allahımın sözünü bu qulaqlarımla eşitmişəm.

Allah-taala ölüm mələyinə buyurdu:-Musa özü ölüm istəməyənəcən onunla işin olmasın!

Bu hadisədən bir müddət keçəndən sonra Musa Yuşə ibni Nunu çağırıb ona öz vəsiyyətlərini etdi.Sonra Bəni-İsrailin yanına getdi.Yolda bir kişinin qəbir qazdığını gördü.Ondan soruşdu ki, bu qəbri kimin üçün qazırsan? Kişi cavab verdi ki,mən bu qəbri mömin bir insan üçün qazıram.

Musa ona dedi:-İstəyirsən qəbri qazmağa sənə kömək edim?

Onlar qəbri qazıb qurtardıqdan sonra Hz.Musa dedi ki, bir qəbrə girim görüm o,necə olur.

Hz.Musa qəbrə girdikdən sonra Allah-taala ona yuxu verib, əbədi dünyadaki məqamını ona göstərir.Hz.Musa yuxudan ayılandan sonra Allahdan onu öz yanına aparmasını, əbədi dünyasına qovuşmasını istəyir.

Həmin kişi həqiqətən ölüm mələyi idi.O Musanın ruhunu bədənindən çıxardı və o qəbrdə onu dəfn edib, üstünü torpaqla örtdü. Bu zaman bir nəfər fəryad çəkərək dedi:"Musa Kəlimullah dünyadan getdi.Hansı şəxs ölməyəcək?"

Əla-16-19-Lakin siz dünya həyatını, axirət həyatından üstün tutarsınız. Halbuki axirət evi olan behişt daha xeyirli və daha əbədidir.Bu da İbrahimin və Musanın kitablarından ibarətdir.

HZ.XIZIRIN HƏYATI HAQQINDA

Rəvayətə görə Hz.Xızırın soyu İlya ibn Milkan, ibn Faliq, ibn Abir,ibn Salih,ibn Ərfəhçəd ibn Sam, ibn Nuh (ə.s.) olub,babası böyük kral olmuşdur.

Kral Efridin və Hz.İbrahimin dövründə yaşadığı,İsrail oğulları kralların zamanında,İsrail oğullarına Peyğəmbər olaraq göndərildiyi, hələ də sağ olub, hər il Həcc mərasimində İlyasla görüşdükləri də rəvayət olunur.

"Xızır" onun əsil adı olmayıb, kunyəsıdır.Xızır otsuz, quru bir yerdə oturan kimi, ora tez yaşıllaşar və onun arxasınca dalğalanardı"

Hz.Xızır Allah tərəfindən,Hz.Musaın belə bilmədiyi xüsusi bir elm verilmişdi, Hz.Musa elm öyrənmək üçün onunla uzun yol getmişdi. Qurani-Kərimdə Hz.Xızır haqqında,Hz.Musa ilə onun görüşü haqqında "Kəhf" surəsində buyurulmuşdur.

YUŞA İBN NUN PEYĞƏMBƏRİN HƏYATI HAQQINDA

Hz.Musanın vəfatından sonra Peyğəmbərlik vəsisi Yuşa ibn Nuna çatdı.Yuşa ibn Nun Əfraim ibni Yusifin övladlarından idi. O,Bəni-

İsrailə rəhbərlik edərək"Əmaliqə "ilə müharibə etməyə gedir.Onlarla bir müddət vuruşandan sonra qələbə çalıb, Əriha şəhərini fəth edir və Bəni-İsraili orada yerləşdirir.

Rəvayətə görəYuşa ibn Nun Musadan sonra 30 il yaşadı.Bu müddət də Bəni-İsrailin işlərini sahmana saldı.Onların düşmənləri ilə vuruşaraq hamısını məhv etdi.Fələstin və Şam torpaqlarını onların arasında böldü.

Yuşa ibni Nunun ömrünü "Kamilüt-Tarix" kitabında 126 il yazıblar və onun qəbri Fələstində olan Əfraim dağındadır.

KALİB İBNİ YUFƏNNƏ

Yuşa ibni Nun Dünyadan gedəndən sonra Kalib ibn Yufənnə Bəni – İsrailə rəhbərlik etdi.O,Hz.Musaın bacısı Məryəmin əri idi**.("Kamiləlut-tarix")**

HÜZQƏYL HAQQINDA

Kalibdən sonra Bəni-İsrailə Hüzqəyl Peyğəmbərlik etdi.İlyas (ə.s.) ibn Yasin, ibn Finhas, ibn Ayzar,ibn Harun ibn İmrandır.

O, dağlar və çöllər sahibi idi və Allaha tənha ibadət edərdi. Hüzqəyl Peyğəmbərdən sonra,İsrail oğulları içində bütlərə ibadət edənlər artmışdı.Buna görə Allah onlara İlyas (ə.s.) Peyğəmbər olaraq göndərdi.

Hz.Musadan sonra gələn Peyğəmbərlər ancaq Tövratda yazılanları İsrail oğullarına xatırlatmaqla,camaatı ibadətə dəvət etməklə məşğul idilər. İsrail oğulları o zaman Şam torpaqlarında dağınıq bir halda idilər və başlarında bir çox Krallar var idi.Çünki Yuşa ibn Nunun Şam ölkəsini fəth etdiyi zaman,oraya İsrail oğullarını hakim etmiş və Şam torpaqlarını onların arasında bölüşdürmüşdü.

əl-Bəqərə 243"Ya Muhəmməd!Minlərlə adamın (taundan) ölüm qorxusu ilə öz yurdlarını tərk edib getdiklərini görmədinmi?Ondan öz şəhərlərindən çıxan kəsləri görmədinmi? Allah onlara:"Ölün"-dedi və sonra da (yenidən) diriltdi.Həqiqətən,Allah insanlara lütf edəndir, lakin insanların bir çoxu şükr etməzlər!"

Təfsirçilərin çoxu belə düşünürlər ki, bu ayə Hüzqəylin qövmü və onların sərgüzəştləri haqqındadır.

Kuleyninin"Rövzətul-kafi"kitabında bu ayənin təfsirində, İmam Baqirdən nəql edilən hədisə görə onların sərgüzəştləri belə olub:

-Onlar Şam şəhərində yaşayırdılar.Şəhər camaatının sayı 70 min nəfərə çatırdı.Onlar taun xəstəliyinin gəldiyi hiss edən kimi varlı adam-

ları şəhərdən çıxıb başqa yerlərə getdilər.Şəhərdə qalan insanların hamısı Allahın əmri ilə birdən öldülər.Yeddi gündən sonra bədənləri şişib çürüdü,bədənlərindən sədd əmələ gəldi və nə qədər elədilərsə də onları basdıra bilmədilər.Bədənləri çürüyüb sümükləri yerdə qaldı və onların sümüklərini toplayıb bir yerə yığdılar və onların şəhərləri də xaraba qaldı.

Hüzqəyl Peyğəmbər oradan keçərkən bu haləti görüb onlar üçün ağlayaraq Allaha dua etdi və dedi:" Əgər sən istəsən, onları bu dəqiqə dirildərsən necə ki, öldürmüsən.Təki şəhərlərini abad etsinlən, bəndələr dünyaya gətirsinlər və sənə pərəstiş etsinlər. "Allah-taala ona bir neçə kəlmə öyrətdi.Hüzqəyl elə ki,o kəlmələri oxudu sümüklər bir-biri ilə birləşməyə başladı.Hamısı dirilib Allaha zikr etməyə başladılar.

Şeyx Səduq rəvayət edir ki, İmam Rza Məmunun məclisində toplaşan başqa dinlərin alimləri ilə mübahisə edərkən o, Həzrət Cəsəliqə adlı xristian alimin belə buyurduğunu qeyd etmişdir. "Hüzqəyl Peyğəmbər də İsa ibn Məryəmin gördüyü işi gördü. Çünki 35 min adamı ölümlərindən 60 il keçəndən sonra,Allahın izni ilə diriltdi."

Rəvayət olunur ki, həmin qövm neçə il yaşadılar,sonra da təbii ölümlə dünyadan getdilər**.("İhticac"Təbərçi s.188.)**

HZ. İLYASIN HƏYATI HAQQINDA

Qurani-Kərimdə iki yerdə İlyasın adı çəkilib, bir dəfə "Ənam" surəsin də,bir dəfə də"Səffat"surəsində.

əl-Ənam-85-Zəkəriyyə,Yəhya,İsa və İlyas hamısı Mənim salehlər bəndələrimdəndirlər.

əs-Səffat-123-Həqiqətən,İlyas da mürsəl Peyğəmbərlərdəndir ki, Bəlbək şəhərində Peyğəmbərliyə yetişdi. Bir zaman o öz qövmünə dedi:"Məgər Allahın əzabından qorxmursunuz?Məgər siz yaradanların ən yaxşısını qoyub,özünüzün qızıldan düzəltdiyiniz Bəl adlı bütə ibadət edirsiniz?Həm sizin,həm də sizin keçmiş olan atalarınızı yaradan Allahımı tərk edirsiniz?

Lakin onu təkzib etdilər və ona iman gətirmədilər.Bunun üçün də onlar mütləq bizim yanımıza hesab üçün gələcəklər.Yalnız Allahın ixlaslı(İlyasa iman gətirənlər, tövhid dinini qəbul edən) bəndələrindən başqa!Sonradan gələnlər arasında onun üçün yaxşı ad, gözəl xatirə qoyduq."İlyasa salam olsun."Həqiqətən biz yaxşı əməl sahiblərini belə mükafatlandırarıq! Şübhəsiz ki, o Bizim mömin bəndələrimizdən idi!"

On iki tayfaya bölünən, İsrail oğullarının biri də İlyas tayfası idi ki, Bələbək də yerləşmişdilər.

Şam Krallarından hər biri Kral olduğu torpaqları istismar edirdilər. Bələbək Kralı isə onlara nisbətən ədalətli idi.Ona görə də İlyas onun yanında yaşayırdı.Kral və onun zövcəsi ona iman gətirmişdilər. Onlardan sonraki Kral və adamları isə bütlərə sitayiş edirdilər. Onlar İlyasa qarşı üsyan edir və ona əziyyət verirdilər, onun göstərdiyi möcüzələri inkar edirdilər. Sonra o dağlara, səhralara qaçdı. Axırda Yəsəni özündən sonra Peyğəmbər elan edib, miladdan 880 il qabaq ərşə çəkildi.

Bəzi tarixçilər rəvayət edirlər ki, Hz.İlyas da Hz.Xızır kimi "Abihəyat" dan içib və əbədi olaraq yaşayır.Xızır quru və yaşıl yerlərin əmanətçisi, İlyas isə dəryaların əmanətçisidir. **("Məcməül- bəyan" c-8. s-457.)**

HZ.YƏSƏNİN HƏYATI HAQQINDA

Bu böyük Peyğəmbərin adı Quranda iki dəfə gəlib və onu İlyasın şagirdi və canişini kimi tanıyırlar.Qurani-Kərimdə onun haqqında belə buyurulur:

əl-Ənam-86-Biz İsmail,Yəsə,Yunus və Lutu aləmlərin bütün əhlindən üstün tutduq.

əs-Sad-48-İsmaili,Yəsə və Zülkifli də zikr et!Bunlar hamısı seçilmiş və yaxşı kəslərdir.

"Üsuli-kafi"(c-1.s. 242-247-də) belə nəql olunur ki, Hz.İlyas bir səfərində Binəva bir qadının evində qalırdı.Bu qadının əri Uxtub, dünyadan getmişdi.Bu zaman Uxtubun oğlu Yəsə ağır xəstələndi. İlyas ona şəfa verdi və özü ilə apardı.Yəsə İlyasın vəsiyyəti ilə Peyğəmbər oldu.O da Bəni-İsraili dinə dəvət edib və Tövratı təbliğ etmişdir.Sonra o Allahdan istədi ki, onu İlyasa qovuşdursun.

İman Rza(ə.s.)müxtəlif dinlərin rahiblərlə ilə mübahisə edərkən xristian alimi Casəliqə buyurdu:"Yəsə də İsa görən işləri gördü. Suyun üzərində yol getdi,ölüləri diriltdi,kor və dəri xəstəliyinə düçar olanlara şəfa verdi.Onun ümməti isə onu Allahın Peyğəmbəri bilmədilər."

HZ.YUNUSUN HƏYATI HAQQINDA

Yunus (ə.s.) ibn Matta,Binyəmin ibn Yaqub, ibn İshaq ibn İbrahim (ə.s.) oğullarının soyundandır.Matta Hz.Yunusun anası idi.O, Musulun şəhərinin xalqındandır.

Hz.Yunusa 30 yaşında Peyğəmbərlik verilmiş və 33 il bütpərəst xalqını imana dəvət etmiş.Yalnız iki nəfəri imana gətirə bilmişdi

Yunus-98-100-Əzab gəlməkdə ikən Yunusun ümmətindən başqa iman gətirib imanı özlərinə fayda verə bilən bir məmləkət əhli vardırmı? Yunusun ümməti iman gətirən zaman onları dünyadakı rüsvayçılıq əzabından qurtardıq və bir müddət (ömürlərinin axırınadək) güngüzəran verdik. Ninəva xalqı Yunusə küfr edərək onu yalanladılar.

Yunus(ə.s.):"Ey Rəbbim!Sən məni, kitabını inkar edən qövmə nə üçün göndərdin?"

Uca Allah:"Ey Yunus! Mənim tövbə edəcəklərin tövbələrini qəbul edəcəyimi və qəlbləri sapdırıb, möhürləyəcəyimi bilmirsənmi?" -buyurdu.

Hz.Yunus qövmünün kafircə davranışlarına dözməyərək dağlara gedib və orada ibadət ilə məşğul olur.Yunus qövmünün imana gəlməsindən lap ümidini kəsincə,onlara bəd dua edir.

Sonra Allah:"Öz qövmün və qullarıma qarşı bəd dua etmə.Onların yanına qayıt və onları 40 gün gecə və gündüz ibadətə dəvət et! Əgər dəvəti qəbul etsələr, lap yaxşı, əgər etməsələr onların üzərinə əzab göndərəcəyəm."-deyir.

Ondan sonra Yunus (ə.s.) geri dönüb öz qövmünü 37 gün və 37 gecə ibadətə dəvət etsə də,onlar qəbul etmədilər.

Bundan sonraYunus (ə.s.) ayağa qalxıb:"Əgər iman gətirməsəniz, üç günə qədər sizə əzab gələcək."-deyə onları qorxudur." Bunun əlaməti də rənglərinizin dəyişməsidir."-deyir.

Gecə ikən Yunus onların arasından çıxıb gedir.Səhər havada bir buludu görcək həlak olacaqlarından qorxub Yunusu axtarırlar.Onu tapmayınca ağlayıb Allaha yalvararaq tövbə edirlər.Allah onların tövbəsini qəbul edib,onlardan əzabı götürür.

Əgər sənin Allahın istəsə sözsüz ki,Yer üzündə olan məxluqların hamısı iman gətirər.Hər bir kəs öz ixtiyarı ilə mömin və ya kafir olmalıdır ki,Cənnət ya Cəhənnəmə layiq olsun.Sən camaatı mömin olmağa məcbur edirsənmi?

Peyğəmbər çox istəyirdi ki,insanlar mömin olsunlar.Allah ona təsəlli vermək üçün buyurur:"Mən qüdrət sahibi olduğum halda,onları mömin etmiramsə,sən nə üçün onların imana gəlməməsindən qəmgin olursan?"

Allahın izni olmayınca heç kəsin imana gəlməsi mümkün deyil.O, ağlı ilə düşünməyənlərə əzab verər.

əs-Səffat-139-148-Həqiqətən, Yunus da(Bizim tərəfimizdən göndərilmiş) Peyğəmbərlərdəndir!Yadına sal ki, bir zaman o (qövmünün küfrü üzündən yük və adamla) dolu olan bir gəmiyə mindi, dənizin ortasında gəmi ağır olduğundan adamlar arasında püşk atdılar.Püşk Yunusa düşdü,o məğlub olub deməyə söz tapmadı və onu suya atdılar.

Yunus özünü qövmünün içindən getdiyi üçün məzəmmət edən halda balıq onu udmuşdu.Əgər Yunus balığın qarnında təsbih edənlərdən olmasaydı,o hesab üçün insanların diriləcəyi günə kimi balığın qarnında qalardı. Sonra onu xəstə halda,yumurtadan təzə çıxan cücə kimi ot və ağac olmayan yerə atdıq.Biz onun üstündə qabaq tağı göyərtdik ki, onun iri yarpaqları ilə günün istisindən qorunsun.

Bir qədər qüvvətə gələndən sonra onu əhalisi min nəfərdən artıq olan qövmə Peyğəmbər göndərdik.Həmin qövm onun öz qövmü idi.Yunus onların arasından gedəndən sonra peşman olub tövbə edərək onun yolunu gözləyirdilər.

Yunusun gəlişindən xəbərdar olan kimi bütün camaat onu qarşılamağa cıxaraq, Yunusa iman gətirdilər.Biz də onlara müəyyən müddət gün-güzəran verdik.Yunus (ə.s.) öz qövmünün və ailəsinin yanında bir az qaldıqdan sonra Kral ilə birlikdə səyahətə çıxdı və sonra ömrünün sonuna gədər vətənindən uzaqlarda ibadət və itaətlə məşğul oldu.

Rəvayətlərə görə Yunus (ə.s.) Məkkə və Mədinə arasında ki, "lift" təpəsində və ya Məkkəyə gedərkən və Şam ilə Mədinə arasında ki Hərşa təpəsində dəfn olunub.

HZ.ZULKİFLNİN HƏYATI HAQQINDA

Zulkiflinin adı Qurani-Kərimin iki surəsində zikr olunub.Biri Sad surəsinin 47 ayəsində, o biri də:

-əl-Ənbiya-85"İsmaili ,İdrisi və Zulkiflini yad et!" qeyd edilmişdir.

Zulkiflin Kənan adlı bir Padşahı tövbə etdirmək üçün məktub yazıb göndərir ki, əgər sən tövbə etsən, Cənnətə gedərsən və Padşah da tövbə edir.

O, Bəni İsrail Peyğəmbərlərinin arasında olduğu üçün Quranda adı çəkilib.Zulkifl ərəb sözü olsa da onun ibri olması haqda ixtilaf var. Bir rəvayətə görə onun qəbri "Bətlis"dədir.Həmçinin onun qəbrinin Şam və başqa yerlərdə də olduğu yazılır. Bəzi tarixçilər, onun saleh adamlardan olduğu və elminin Peyğəmbərlər qədər olduğunu və gündə 100 rükət namaz qıldığı üçün onun adının Peyğəmbərlərlə bir yerdə çəkildiyini qeyd edirlər.Bəzi tarixçilərə görə isə onun Bəni-İsraildən deyil, ərəb qəbilələrindən olduğu deyilir.

Zulkifli barəsində "Buharül-ənvər "kitabında Peyğəmbərdən rəvayət olunur ki,Hz.Yəsənin ömrü sona yetişəndə öz vəlisini təyin etmək qərarına gəlir. Camaatı bir yerə toplayıb dedi:"Hər kəs sizin aranızda mənim dediyim üç işi görməyə söz versə,onu öz yerimə canişin

seçəcəyəm.1-ci gündüzlər oruc tutsun;2-ci gecələr oyaq qalıb ibadət etsin;3-cü əsəbləşməsin.Zulkifli çıxıb dedi ki,mən bu işi bacararam. Yəsə də onu canişin təyin etdi.Şeytan bu əhvalatı bilən kimi qərara gəldi ki, Zulkiflini əsəbləşdirsin və onu verdiyi sözdən çıxarsın.Şeytan öz dostlarına dedi:-Kim Zulkiflini əsəbləşdirə bilər?Şeytana tabe olan Əbyaz adında adam dedi:-Bu işi mən görərəm.

Şeytan ona dedi:-Zulkiflinin yanına get, onu bir yolla əsəbləşdir.

Zulkifl gecələr yatmır və ibadət edirdi,gündüz isə bir az yatırdı. Əbyəz gözləyirdi ki, Zulkifl yatsın. O yatandan sonra qışqırmağa başladı:-Mənə zülm ediblər, mən məzlumam.Mənim haqqımı zalımdan al!

Zulkifl yuxudan oyanıb ona dedi:-Get onu mənim yanıma gətir!

Əbyaz dedi:-Mən buradan getməyəcəyəm!

Zulkifl öz xüsusi üzüyünü ona verib dedi:-Bu üzüyü al və sənə zülm edən adamın yanına gedib bunu göstər.Sonra onu mənim yanıma gətir.

Əbyaz üzüyü alıb getdi.Sabah yenə də Zulkifl yatan vaxt gəlib qışqırmağa başladı.

-Mən məzlumam!Mənə zülm edən adam sən verdiyin üzüyün heç üzünə baxmadı və mənimlə gəlmədi!

Zulkiflin xidmətçisi Əbyazə dedi:-Səs-küy salma qoy yatsın.O nə dünən gündüz,nə də gecə yatıb.

Əbyaz dedi:-Heç vaxt onu yatmağa qoymayacağam.Çünki mənə zülm olub,gərək mənim haqqımı zalımdan alsın!

Xidmətçi evə daxil olub Zulkiflə xəbər verdi.Zulkifl yuxudan durub onun üçün bir məktub yazdı.Məktuba möhür vurub ona verdi.Əbyaz məktubu alıb getdi.Üçüncü gün də Zulkifl təzə yuxuya gedərkən gəlib fəryad etdi:

-Mənə zülm edən şəxs bunların heç birinə hörmət etmir.

Əbyaz o qədər qışqırdı ki, Zulkifl yuxudan oyandı.O Əbyəzin əlindən tutub onun haqqını almaq üçün yola düşdü.Həmin gün elə isti idi ki,əti günəş qabağında qoysaydın bişərdi.Bir az yol getdilər. Əbyaz gördü ki, onu heç cür əsəbləşdirə bilmir.Ona görə Zulkifl əlindən çıxıb qaçdı.

Allah-taala Zulkiflin dastanını Hz.Muhəmməd Peyğəmbər üçün bəyan edib ki,əvvəlki Peyğəmbərlərin bu bəlalara səbir etdiyi kimi,o da camaatın əzab-əziyyətinin qabağında səbir etsin.

HZ.DAVUDDAN QABAQKI ƏHVALATLAR

Bəni-İsrail Allah qarşısında itaətsiz olduqlarına görə bölündülər və

düşmən də bu fürsətdən istifadə edib,onların bütün torpaqlarını əllərindən aldılar.Bu müharibələr də Bəni-İsrailin çoxlu əsgərləri tələf oldu.

Qurani-Kərimdə adı çəkilən Pevğəmbərlərdən biri də İsrail oğullarına göndərilmiş, Yahuda qəbiləsindən,Yasanın 8-ci oğlu Davuddur.Tarix boyu Allah-taala insanları düzgün yola yönəltmək üçün Pevğəmbərlər göndərmiş,insanlar isə Peyğəmbərlərə üsyan və yaxud xəyanət etmişlər. İsrail oğulları Musa Peyğəmbərin ölümündən sonra Fələstin ərazisində yerləşmiş,sonra isə Əmalidə qəbiləsi ilə qarşı- qarşıya gəlib vuruşmuş və məğlub olmuşlar.Özlərinə gəldikdən sonra, yenə Allaha zikr edərək, düşmənlə vuruşmaq üçün Allahdan kömək istəmişlər.

3-CÜ MƏLUMAT.TABUT-AXIR-SANDIQ HAQQINDA

Tabut haqqında Hz.Adəm və Hz.Davud bəhsində məlumat verilmişdi.Tabut Adəm Peyğəmbərə nazil olmuş və bütün Peyğəmbərlər onu bir-birlərinə vəsiyyət etmişlər.Onun içində Hz.Adəmdən başlamış axırıncı Peyğəmbərə qədər olan xəbərlər, əşyalar və məlumatlar olmuş və müqəddəs hesab edilmişdir.Allah-taala ona belə bir xüsusiyyət də bəxş etmişdi ki,hər vaxt Bəni-İsrail vuruşa getmək istəyəndə,həmin Tabutu qoşunun qabağında aparırdılar.Bu da onların qəlb rahatlığına və qələbə çalmalarına səbəb olurdu. Hətta, bəzi rəvayətlərə əsasən, Tabut Bəni-israil Peyğəmbərləri ilə danışır və xeyir-şərlərini onlara bəyan edirdi. Bəzi alimlərin dediyinə görə elə həmin iman onların qəlblərinə təskinlik verirdi ki, bu da onların hidayətinə səbəb olurdu.

Bəni-İsrailin fitnə-fəsad, zülm, tüğyan və günahlar, şərəf və qüdrətlərinin əldən çıxması, müharibələrin birində Tabutun düşmən əlinə keçməsi ilə bağlıdı.Ondan sonra onlarda məğlubiyyət hissi və ruhiyyəsizlik daha da çoxaldı.İş o dərəcəyə çatdı ki, Bəni-İsrailin düşmənləri və Padşahlarından biri olan Calut onlardan Tabutu bac aldı. Bununla da Bəni-İsrail xalqı xar və zəlil oldu.

Bəni -İsrailin düşmənləri Tabutu onlardan alandan sonra bütxanaya gətirib qoydular.Bir müddətdən sonra boyunlarında ağrı hiss etdilər. Başa düşdülər ki, bu ağrı Tabutun təsiridir.Tabutu bütxanadan çıxarmağa məcbur oldular.Lakin Tabutu hara aparırdılarsa orada ölüm və vəba kimi xəstəliklər yayılırdı.Axırda Tabutu Bəni-İsrailə qaytarmağı qərara aldılar.Tabutu bir taxtın üstünə qoydular, taxtı iki inəyə bağladılar.İlahi mələklər, inəkləri Bəni-israil tərəfə hərəkət etdirdi.Tabut Bəni-İsrailə qaytarıldı.

ŞİMUİL VƏ TALUT

Allah-taala Lavi nəslindən Şimuil adlı bir Peyğəmbər seçdi.Bu Peyğəmbər 40 il zəhmət və çətinliklərdən sonra Bəni-İsrailin siyasi vəziyyətini müəyyən qədər sahmana saldı.

Bəni-İsrail düşmənlərlə müharibə etmək, öz torpaqlarını işğal altından çıxarmaq və əvvəlki şərəf və qüdrətlərini qazanmaq üçün Şimuil Peyğəmbərə dedilər ki, onlar üçün Padşah təyin etsin.Şimuil Peyğəmbər Allahın əmri ilə Talutu onlar üçün Padşah seçdi.Bu hadisə Qurani-Kərimdə belə bəyan edilir:

əl-Bəqərə-246-247-Ya Rəsulallah!Musadan sonra bir dəstə İsrail övladının başına gələnləri görmədinmi?Onlar öz Peyğəmbərlərinə: ”Bizə bir hökmdar göndər ki,onun köməyi ilə Allah yolunda zülmkarlarla vuruşaq!”-dedilər.O da,onlara:”Sizə vuruşma əmri olduqda, bəlkə, vuruşmadınız?” söylədi.Onlar cavabında dedilər:” Allah yolunda nə üçün vuruşmayaq ki, yurdumuzdan çıxarılıb, övladlarımızdan ayrıldıq”. Lakin onlara vuruşmaq vacib olduğu vaxt, içərilərindən az bir qismi müstəsna olmaqla, hamısı döyüşdən üz çevirdilər.Allah özlərinə zülm edənləri tanıyır!

İsrail övladının Peyğəmbəri onlara dedi:”Allah Talutu sizə Padşah göndərdi”.Onlar isə:”Biz hökmdarlığa daha layiq ikən və ona var-dövlət verilmədiyi halda, o necə Padşah ola bilər?”-deyə cavab verdilər. Peyğəmbər onlara dedi:”Allah sizdən ötrü bəyənib seçmiş,elm və bədəncə ona üstünlük vermişdir.Allah öz mülkünü istədiyinə verər. Allahın öz lütfi və kərəmi genişdir,O,hər şeyi biləndir.”

İsrail oğulları tərəfindən müqəddəs qəbul edilən bir sandıq var idi. Bu“Tabut” adlandırılan sandıq haqqında belə buyurulur:”Padşahlığın əlaməti budur ki, sizə bir Tabut gələr.Orada Allah tərəfindən aram olmaq, Musa və Harun övladından qalan bəzi şeylər vardır.Onu mələklər gətirər.Əgər iman gətirsəniz,həqiqətən bunda sizin üçün əlamət vardır”.

İmam Baqirdən buyurulub:”Bu Tabutun içində Musa və Harundan qalan şeylər, Tövratın lövhələri, ya Musanın zirehi,əsası, ya Harunun paltarları, yaxud da Musadan qabaqkı Peyğəmbərlərin nişanələri, mirasları və gələcək Peyğəmbərlərin xəbərləri var idi**.(“Məanil-əxbar,səh.82).**

əl-Bəqərə-249-252-İsrail övladları Talutun səltənətinə razı olub, göstərilən əlamətlər onda aşkar olaraq, Allah tərəfindən” Tabut” gələn zaman, Talut onlara sərkərdə olmaqla Əməliqə qəbiləsi və onun başçısı Calut ilə cihad etməyi qərara aldılar. Talut qoşunu ilə öz şəhərlərindən ayrılan zaman dedi ki, Allah sizi çay ilə imtahan edəcək.Hər kəs onun

suyundan içsə məndən deyil.Ondan dadmayan və yaxud da bir ovuc dadan kəs məndəndir.Az bir hissə istisna olmaqla hamı o sudan içdilər.

Talut və onunla olan möminlər çayı keçən zaman dedilər ki,bu gün Calut və onun qoşununa qarşı vuruşmağa bizim taqətimiz yoxdur.

Həqiqətən,Allahın rəhmətinə qovuşacaqlarına inananlar isə dedilər ki,nə qədər az tayfalar vardır ki,çox tayfalara Allahın izni ilə qələbə çalmışlar.Allah səbir edənlərlədir və onlara kömək edər.

Talut və onun başında olan möminlər Calut və onun qoşunu ilə üzbəüz olan zaman dedilər ki, Pərvərdigara, bizə səbir əta et və kafir qövm üzərində bizim qədəmlərimizi sabit saxla.

Talutun ordusunda Yaqubun nəslindən olan Davud da var idi.Hz. Davud döyüşdə vuruşanlardan yaşca ən kiçiyi idi.Gənc olmasına baxmayaraq İsrail oğullarının amansız duşməni Calutu sapand daşı ilə alnından vuraraq öldürür.Calut zalım və qorxunc bir hökmdar idi.Onun açıq bir üstünlüyü var idi.Lakin həqiqi güc və qüdrət sahibi olan Allah,zəifi güclüyə qalib etmək iqtidarındadır Allah zalım və güclü hökmdarın ölümünü, gənc Davudun öhdəsinə buraxır. Allahın əmri ilə Davud Calutu öldürdü.Allah ona Padşahlıq, Peyğəmbərlik və öz istədiyi elmlərdən öyrətdi.Bunlar Allahın ayələridir.Min nəfərin əhvalatı,Taluta səltənət vermək, Tabutu(sandığı) gətirmək, Calutu bir uşağın əlində öldürmək,Davudu Peyğəmbər və Padşah etmək, həmçinin zireh düzəltmək,quşların dilini bilmək,gözəl səslə oxumaq öyrətdi.

HZ.DAVUDA PEYĞƏMBƏRLİK BƏXŞ EDİLDİ

Allah-taala Peyğəmbərlik məqamından başqa Bəni-İsrailin səltənətini də Davuda bəxş etdi.Bu haqda Quranda belə buyurur:

əs-Səba-10-11-Biz ona din elmini verdik dağları,quşları Davuda tabe etdik. Davuda zireh düzəltmək sənətini öyrətdik.O zireh düzəldərdi ki, sizi düşmən silahından qorusun. Rəvayətlərə görə Allah dəmiri Davudun əlində yumşaldırdı.Allah ona cism, elm və ibadət nöqteyi-nəzərindən böyük qüvvə vermişdi.Allah onun səltənətini möhkəmləndirdi.Əqəbə körfəzindən Fərat çayına qədər onun fərmanı altında idi.Fələstini çoxlu müharibələrdən sonra ələ keçirdi. Dəməşqi düşmənlərin əlindən aldı. Fərat sahili boyunca olan şəhərləri fəth etdi. Ümumiyyətlə, demək olar ki, Əqəbə körfəzindən, İran sərhədlərinə qədər onun hakimiyyəti altında idi.

Sad-18-21-Ya Peyğəmbər! Davudu yada sal! Davud gecələr ibadət edir və gündüzlər oruc tutardı.Həqiqətən o Allah tərəfinə üz tutan bir

şəxs idi.Biz bu dağları ona ram etdik.Onlar səhər-axşam onunla birlikdə Allahı zikr edirlər.

Biz quşları toplu halında onun ixtiyarına vermişdik.Quş və dağların hamısı Allaha üz tutandırlar.Biz onun Padşahlığını möhkəmləndirdik. Ona Peyğəmbərlik, hər şeyin hikmətini bilmək və haqq ilə batil arasında ədalətlə hökm etmək elmini verdik.

Hədis: ("Furuul-kafi"-c.10 s.187-) Kuleyn İmam Sadiqdən rəvayət edir:"Hz.Davud gecə ibadətlə məşğul olurdu. Ömrünün yarısını oruc tutub, yəni bir gün oruc tutur, bir gün də iftarını açırdı.O, gününü dörd yerə bölmüşdü.Məhkəmə-qəzavət işləri, öz əhli-əyalına xidmət və Allaha ibadətlə məşğul olurdu.

Sad-18-19-Ya Peyğəmbər Davudu yada sal! Davud gecələr ibadət edir və gündüzlər oruc tutardı.Həqiqətən, o Allah tərəfinə üz tutan bir şəxs idi.Biz bu dağları ona ram etdik.Onlar səhər-axşam onunla birlikdə Allahı zikr edirlər.

Qəzavət işləri haqqında Qurani-Kərimdə belə buyurulur:

Sad-22-"Məgər sənə iki nəfər mübahisə edənlərin xəbəri gəlib çatmadımı?O zaman onlar mehrabın divarını aşaraq Davudun yanına gəlmişdilər.

Onlar Davudun yanına gəldikdə Davud onlardan qorxdu.Onlar dedilər: "Qorxma!Biz bir-birimizə zülm etmiş iki iddiaçıyıq. Gəlmişik ki, bizim aramızda hökm edəsən! Bizim aramızda haqq ilə hökm et və haqqımızı tapdalama!Bizi düz yola hidayət et!Sonra İddiaçı dedi:"Mənim bu qardaşımın 99 qoyunu, mənim isə bircə qoyunum var.O qədər qoyun ona kifayət etmədi və mənə dedi ki,o qoyunu da mənə ver!Bu danışıqda söz ilə mənə qələbə çaldı."

Həzrəti Davud (o biri iddiaçı ağzını açmağa heç macal tapmamış) dedi:"O sənin bir qoyununu öz qoyunlarına qatmaqla şübhəsiz ki,sənə zülm etmişdir.Həqiqətən də şəriklərin çoxu bir-birinə zülm edərlər. Yalnız iman gətirib yaxşı əməl edənlərdən başqa.Bu cür adamlar da azdır!"

İddiaçılar bir-birlərinin üzünə baxıb güldülər.Davud bizim onu imtahan etdiyimizi güman etdi.O dərhal Allahından bağışlanmasını dilədi və dizi üstə səcdəyə qapanaraq, Allah tərəfə qayıtdı.Biz onu bağışladıq. Həqiqətən, onun üçün bizim yanımızda bizim rəhmətimizə yaxın olmaq var və qayıdıb gələcəyi yer də, gözəl olacaqdır!

Sad-27-Allah Davuda xitab edərək dedi:"Ey Davud!Biz səni Yer üzündə xəlifə etdik.Bunun üçün də insanlar arasında haqq ilə hökm et və nəfsinin istəklərinə uyma, yoxsa səni Allah yolundan azdırar.Şübhəsiz ki, Allah yolundan azan kəsləri, qiyamət gününü yaddan çıxartdıqları üçün şiddətli əzab gözləyir."

HZ.DAVUDA ZƏBUR BƏXŞ EDİLMİŞDİR

Yaqubun nəslindən olan Davuda, dörd səmavi kitablardan biri olan Zəbur göndərilmişdir.Bu haqda Qurani-Kərimdə buyurulur:

Ənbiya-105-Biz Tövratdan(yaxud Lövhu-məhfuzdan) sonra Zəburda da Cənnət torpağına(yer üzünə və müqəddəs torpağa)yalnız Mənim saleh bəndələrimin daxil olacağını yazmışdım. Davud Peyğəmbər də Musa Peyğəmbərin şəriəti ilə hökm edib.

Açıqlama:-Davuda Zəbur verilmiş, Zəbur-150 nəğmədən, məzmurədən ibarət olub, Allahın izzətindən bəhs edir.Bu məzmur şəri və huquqi məsələləri əhatə edib, beş kitabdan ibarətdir.

Onun 1-ci məzmuru belədir:"Şərr adamların məşvərətinə qulaq asmayanların, günahkarların yoluna getməyənlərin və başqalarını ələ salanların məclisində oturmayanların xoş halına.Əksinə onlar Allahın şəriətinə rəğbət göstərir və Onun şəriətində təfəkkül edirlər. Belə adamlar su arxının kənarında əkilmiş ağac kimi öz mövsümlərində bəhrə verirlər və yarpaqları solmur. Etdikləri hər iş yaxşıdır.Şərr adamlar isə belə deyildir.Əksinə, şərr adamların əməllərini külək saman çöpü kimi dağıdar.Buna görə də şərr adamların hakimlik etməyə səlahiyyətləri yoxdur. Günahkarlar da ədalətli camaatın içində ola bilməzlər.Allahtəalə ədalətli insanların yolunu tanıyır.Lakin günahkarların yolu həlak edicidir."

HZ.DAVUDUN VƏFATI

Zəburu oxumağa başladıqda onu dinləmək üçün quşların toplandığı xəbər verılir.Müqəddəs Yəhudi mənbələri Davudun"mizmar"adlanan bir musiqi alətindən istifadə etdiyini qeyd edir.

İsrail oğulları onun zamanında ən parlaq dövrlərini yaşadılar.O, Qüdsü fəth edərək bu şəhəri özünə paytaxt seçdi.Davud (ə.s.) bu ölkəni 40 il idarə etdi və Rəbbinə qovuşdu.

Səduqun "İkmaluddin" kitabında İmam Sadiq, Peyğəmbərdən (s.ə.s.) rəvayət edir ki, Davud 100 il ömür sürüb.Davud ömrünün axırında oğlu Suleymanı öz canişini etdi. Bəni-İsrail Davudu Beytül-Müqəddəsdə, Davud kəndinin yaxınlığında dəfn edirlər.

HZ.SÜLEYMAN HAQQINDA

Hz.Süleyman ibn Davud ibn Yəhüza, ibn İshaq,ibn Hz.İbrahimin nəslindəndir.

Hz.Süleyman yaşının az olmasına baxmayaraq,atası Davudun ölümündən sonra, ona Krallıqla birlikdə Peyğəmbərlik və elm də verilmişdi.Bəzi vaxtlar Davud (ə.s.) məşvərət və qəzavət işini onun öhdəsinə qoyardı. Bununla da Bəni-İsrailə onun canişin olmağa layiq olduğunu bildirmək istəyərdi. Bu haqda Qurani-Kərimdə belə buyurulur:

Ənbiya-78-82-Davud və Süleymanı yadına sal,o zaman ki, əkin barəsində hökm edərdilər.O zaman gecə ikən qövmün qoyunları əkini zay etmişdi. Biz onların hökmlərinə şahid və xəbərdar idik!

Açıqlama:-Allah-taala Hz.Davuda vəhy etdi ki, öz əhlindən bir nəfəri özünə vəsi təyin etsin.Çünki heç bir Peyğəmbər vəsisiz olmamışdır.

Hz.Davudun bir neçə oğlu var idi.O oğullarından birini və onun anasını daha çox istəyirdi.Hz.Davud istəyirdi ki, həmin oğlan vəsi olsun. Allah yenidən vəhy etdi ki, səbir et,qoy mənim əmrim sənə yetişsin.O zaman Davudun yanına qəzavət üçün iki nəfər gəldi. Allah-taala vəhy etdi ki, övladlarını topla görək hansı düzgün qəzavət edəcək.

İddiaçı dedi ki, bu şəxsin qoyunu mənim bağıma daxil olub, bağımı zay etmişdir.

Süleyman dedi:-Ey bağ sahibi!Qoyun sənin bağına nə vaxt daxil olmuşdur? O dedi:"Gecə vaxtı."

Süleyman dedi:"Ey qoyun sahibi!Bu il qoyunların balalarını və yunlarını bağ sahibinə verməlisən."

Davud dedi:"Ey oğul! Nə üçün Bəni-İsrail hökmü kimi qoyunların hamısını bağ sahibinə verilməsini hökm vermədin?"

Süleyman (ə.s.) dedi:"Üzümlüyün əsli zay olmayıb, təkcə bu ilin mənfəəti aradan gedib."

Allah-taala vəhy etdi ki, düzgün hökm Süleymanın dediyi kimidir.

Sonra biz hökm etməyi Süleymana başa salıb onların hər ikisinə Peyğəmbərlik hökmü, din elmi verdik,dağları və quşları onlara tabe etdik.

Bərk əsən küləyi Süleymana tabe etdik.Onun əmri ilə külək mübarək etdiyimiz yerə gedərdi.Biz hər bir şeyə alim idik.

Şeytanlardan eləsini ona ram etdik ki,Süleymandan ötrü dənizə baş vurardılar və suyun altında cəvahir çıxarardılar, bundan başqa işlər də görərdilər.Biz onları qaçmaqdan saxlayanlar idik.

HZ.SÜLEYMANIN MƏKANI

Hz.Süleyman böyük,münbit və yeraltı mədənlərə malik olan ölkəyə,Üqbə körfəzindən Fərat çayına qədər torpaqlara hökmranlıq edirdi.Süleyman cinlər, şeytanlar və külək qüvvələrini öz ixtiyarı altında saxladığı üçün Beytül-Müqəddəsdə tikdirdiyi məşhur əzəmətli binalar və əsərləri özündən iz qoydu.İndiyə qədər həmin tarixi abidələrin çoxunu Fələstin və Şam torpaqlarında müşahidə etmək olar.Belə uca tikintilərin divarlarındakı nəhəng daşları görənlər üçün onun gözə görünməyən qüvvələrin gücü ilə tikilməsində heç şəkk-şübhə qalmır.

Hz.Davudun Beytul-Müqəddəsi tikmək üçün başladığı işi,Hz.Süleyman başa çatdırmışdır.

Sad-31-39-Biz, Süleymanı Davuda mərhəmər etdik.Nə gözəl bəndədir! Həqiqətən, Süleyman Allaha üz tutan bəndə idi!

O zaman ki,yol gedən və duran zaman cins atları axşam zamanı Süleymana göstərdilər,o dedi:"Mən bu atları Rəbbimin zikrindən (Tövratdan) dolayı sevirəm (çünki Allahın dinini qüvvətləndirmək üçün bir cihad vasitəsi kimi onların tərifi Tövratda mövcuddur). Nəhayət,(o atlar Süleymanın gözündən) qeyb olub gizləndi (Və ya bu atlara olan məhəbbət məni Rəbbimin zikrindən yayındırdı.O qədər onlara tamaşa etdim ki, ikindi namazımı qıla bilmədim)"

Süleyman dedi:"Onları (atları) mənə qaytarın!Onu qaytarın!"

Atlar qaytarılandan sonra onların qıçlarını və boyunlarını sığallamağa başladı.

(Yaxud onu ibadətdən yayındırdıqları üçün onları qurban kəsib fəqir-füqaraya payladı.Və ya Allaha dua edib mələklərə dedi: "Günəşi yerinə qaytarın!" Günəş yerinə qayıdan kimi dəstəmaz alıb namaz qılmağa başladı.)

And olsun ki, Biz Süleymanı (etdiyi bir xəta üzündən)imtahana çəkdik.Taxtının üstünə bir cin oturtduq(və ya ruhsuz bir cəsəd atdıq) Sonra o (peşman olub tövbə etdi və yenidən öz mülkünə,öz taxtına) qayıtdı.

(Süleyman dua edib)dedi:"Ey mənim Allahım!Məni bağışla, mənə elə bir səltənət və mülk ver ki, məndən sonra heç bir kəs o səltənətə layiq olmasın. Biz ona şeytanlardan olan bənnani, qəvvası onun ixtiyarına verdik! Eləcə də başqa şeytanları zəncirlənmiş halda onun ixtiyarına verdik və Süleymana belə buyurduq:"Bunlar, bizim sənə olan ehsanımızdır!Ondan kimə istəsən ver, yaxud vermə! Bu nemətlərin Qiyamətdə hesabı yoxdur! (Səndən bu nemətlər barəsində haqq-hesab tələb olunmayacaqdır)."

HZ.SÜLEYMAN NƏML SURƏSİNDƏ

ən-Nəml-15-45-Biz Davuda və Süleymana xalq arasında hökm etmək elmini verdik.Onlar dedilər:-Həmd olsun Allaha ki, bizi özünün saleh bəndələrinin çoxundan artıq etdi.

Süleyman Davuda həm dünyada, həm də Axirətdə varis oldu.Süleyman dedi: -Ey yaranmışlar!Mənə quşların danışığı təlim olundu. Peyğəmbərə və hökumətə lazım olan elmlərdən mənə hər şey verildi. Həqiqətən bu bəxşiş Allah tərəfindən aşkar mərhəmətdir.

Süleyman qoşunundan olan cin və quşların hamısı yığıldı.Onlar həbs olunardılar ki, bir-birinə qarışmasınlar.Süleyman səfərə yollananda bu tayfaları külək istədikləri yerə aparardı.

Bir gün Süleyman və qoşunları səfər zamanı Allahın əmri ilə qarışqalar çölünə gəldilər.Bir qarışqa dedi:-Ey qarışqalar,öz yerlərinizə daxil olun ki, Süleyman və onun qoşunları sizi bilməyərək əzməsinlər! Bu sözü yel Süleymanın qulağına çatdırdı və o dayandı. Süleyman onların sözünə güldü və dedi:-O qarışqanı mənim yanıma gətirin!

Qarışqanı Süleymanın yanına gətirəndə o, buyurdu:-Sən bilirsən ki,mən Allahın Peyğəmbəriyəm və heç kəsə zülm etmərəm?

Qarışqa dedi:-Bəli, belədir!

Süleyman:-Bəs nə üçün mənim zülmümdən qorxdun və o sözü dedin?

Qarışqa:-Mən qorxdum ki, qarışqalar sənin cah-calalını görüb aldansınlar və Allahın ibadətindən üz döndərsinlər.Sonra:-Sən böyüksən, ya sənin atan?- deyib,ona sual verdi

Süleyman dedi:-"Pərvərdigara,mənə qüvvət ver,ya ilham et ki mənə, atama, anama verdiyin nemətlərə görə sənə şükr edim və razılığından ötrü yaxşı əməllər edim.Öz rəhmətinlə məni saleh bəndələrinin içinə daxil et!"

O, Şanapipiyi axtardı tapmadı və dedi:-Nə üçün şanapipiyi görmürəm, yoxsa o, burda yoxdur?(Şanapipik quşunun gözü o qədər işiqlıdır ki, hətta yerin altındakı suyu görür.)Şübhəsiz ki, mən ona şiddətli əzab verərəm. Yaxud burada olmaması üçün aşkar dəlil və üzr gətirsin!

Şanapipik Süleymanın yanına gəlb dedi:-Sənin bilmədiyin şeyi öyrəndim. SənəYəmən vilayətində olan Səba şəhərindən doğru xəbər gətirdim! Həqiqətən mən bir qadın gördüm ki,onlara padşahlıq edır! Ona hər şey verilibdir.Onun adı Şərahil qızı Bilqeysdir. Onun böyük olan taxtı var.O taxt sənin taxtından da böyükdür. O qızıldan, qırmızı yaqut və yaşıl zümrüd ilə işlənmişdir.Mən onun və tayfasının Allahı

qoyub günəşə sitayiş etdiklərini gördüm.Şeytan onların əməllərini onlara zinətli etmişdir və onları haqq yoldan saxlamışdır və onlar hidayət tapmazlar.

Süleyman dedi:-Tezliklə sənin doğru dediyini,ya yalan danışdığını bilərik.

Süleyman bir məktub yazıb, möhürləyərək dedi:-Mənim bu məktubumu Səba əhli əhalisinin tərəfinə at! Sonra gizlənərək gör ki, bu məktubun cavabı nə olacaq.

Bilqeys məktubu götürüb qövmünə dedi:-Ey qövmün şərəfliləri! Mənə çox hörmətli və əziz məktub atılıbdır.Həqiqətən bu məktub Süleymandandır. Məktubu açanda gördü ki, bu sözlər yazılmışdır: "Bismilləhir Rahmənir Rahim!Mənə qarşı təkəbbürlük etməyin və mənim yanıma müsəlman olub əmrimə tabe olan halda gəlin!"

Bilqeys bu məktubu oxuyandan sonra dedi:-Ey qövmün şərəfliləri! Bu əmr barəsində mənə öz rəyinizi deyin.Mən sizinlə məsləhətləşməmiş heç bir iş görən deyiləm.

Qövmün şərəfliləri dedilər:-Biz qüdrət və qüvvət sahibiyik,özümüz də təcrübəli əsgərlərik.Bizə nə əmr verəcəyini fikirləş!

Bilqeys dedi:-Hökmdarlar bir şəhərə zor işlətməklə qələbə çalaraq daxil olanda o şəhəri xaraba edər və başçılarını isə zəlil edərlər. Mən Süleymana töhvə və hədiyyə göndərirəm ki, görüm elçilər necə qayıdacaqlar. Elçilər Süleymanın yanına gəldilər.

Hz.Süleyman dedi:-Mal ilə məndən kömək istəyirsinizmi? Allahın mənə verdiyi sizə verdiyindən yaxşıdır.Siz öz hədiyyələriniz ilə şad olarsınız. Gətirdiyiniz hədiyyələr ilə onun yanına qayıdın və deyin ki, imana gəlsinlər.Yoxsa onların tərəfinə gücləri çatmayacaq ordu göndərərəm və o şəhərlərdən onları zəlillik ilə çıxararam.

Elçılər Hz.Süleymanın cavabını aldıqdan sonra Bilqeys başa düşdü ki, onunla müharibə edə bilməyəcək və onun hüzuruna getməyə hazırlaşdı.

Hz.Süleyman dedi:-Ey mənim qövmüm! Bilqeys və onun adamları təslim olan halda mənim yanıma gəlməzdən qabaq sizin hansınız onun taxtını mənə gətirə bilərsiniz?

Cin tayfalarından bir nəfər qüvvətli şəxs dedi ki,öz yerindən durmazdan əvvəl, o taxtı sənə gətirərəm.Həqiqətən, mən bu işdə qüvvətli və əminəm.

Allahın kitabında yazılan elmlərdən bir qədər elmi olan vəziri (Asəf ibn Bərxiya) dedi:-Mən sənə bir göz qırpımında(gözünü yumub açınca) onun taxtını gətirərəm.

Bilqeysin taxtını bir göz qırpımında öz yanında gördükdə dedi:-Bu mənim Allahımın fəzlindəndir ki, şükr ya küfr etdiyimi imtahan etsin.Hər kəs nemətlər müqabilində səbir etsə,yalnız özünə şükr edir. Hər kəs nemətlər müqabilində küfr etsə,şübhəsiz ki, mənim Allahımın bəndələrin şükrünə ehtiyacı yoxdur. Süleyman dedi:

-Bilqeysin taxtını tanınmaz edin!Görək taxtını tanıyar va yox?

Bilqeys Süleymanın yanına gəldikdə ona deyildi:-Sənin taxtın belədir?

O, kamil və şüurlu bir cavab verdi:-Sanki odur!

Süleyman qadının dərin zəka sahibi olduğunu görüncə dedi:-Bizə ondan öncə Tövhid haqqında elm verilmiş və biz ondan qabaq Allaha müsəlman olmuşuq!

Süleyman Bilqeysin Allahdan başqasına ibadət etməsini qadağan etdi. Həqiqətən,o, müsəlman olmazdan əvvəl kafir qövmlərdən idi.

Bilqeysə deyildi ki:Saraya daxil ol! Süleymanın sarayı büllurdan tikildiyi və altına su buraxıldığı üçün Bilbeys sarayı gördükdə onu dərin bir gölməçə hesab etdi və paltarı islanmasın deyə ətəyini qaldırdı (baldırlarını açdı). Süleyman dedi: -Bu (su deyil) Büllurdan tikilmiş (şəffaf) bir saraydır! Bilqeys dedi:-Ey Rəbbim! Mən həqiqətən (günəşə sitayiş etməklə) özümə zülm etmişdim Mən artıq Süleyman vasitəsilə aləmlərin Rəbbi olan Allaha təslim oldum!

HZ.SÜLEYMANIN ÖLÜMÜ

Hədis:-İmam Həzrəti Sadiqdən rəvayət olunur ki,Hz.Süleyman öz əshablarına dedi:-Allah-taala heç kəsə verdiyi səltənəti mənə verdi. Külək, cin, insan,quşlar və vəhşi heyvanları mənə ram etdi.Mənə hər şey verdi.Ancaq buna baxmayaraq, bir gün də olsa istirahət etməmişəm. Mən sabah öz sarayıma daxil olub,sarayın üstünə çıxacağam.Heç kəsə icazə verməyin mənim yanıma gəlsin. Qoyun bir az istirahət edim! Əshablar onun sözünü qəbul etdilər.

Sabahı gün Süleyman öz əsasını götürüb saraya daxil oldu.Sarayın ən uca yerində əsaya söykənib, sevinclə sarayın ətrafına baxırdı.Allahın ona verdiyi nemətlərə sevinirdi.Birdən gözəl və təmiz geyimli bir cavanı gördü.Həmin cavan sarayın bir küncündən peyda oldu.Süleyman(ə.s.) onu görən kimi dedi:-Kim səni saraya girməyə icazə verdi?

Cavan cavab verdi:

-Əlbəttə sarayın Allahı mənə saraya girməyə icazə verdi.

Süleyman (ə.s.)dedi:-Əlbəttə sarayın Allahı məndən də böyük və layiqlidir.

-İndi de görüm kimsən? Cavan dedi:

-Mən ölum mələyiyəm,gəlmişəm canını alıb, ruhunu bədənindən çıxarım! Süleyman dedi:-Öz işini yerinə yetir.Bu gün mənim xoş və sevinc günüm idi.Lakin Allah istəmədi ki, onun ziyarət və görüşündən başqa heç nə ilə sevinim.

Sonra Süleymanın ölümünü hökm etdiyimiz zaman,onun öldüyünü ancaq Süleymanın əsasını yeyən xırda yer qurdu xəbər verdi, qurd əsanı yedi və bir ildən sonra Süleyman yıxıldı. Süleyman yıxılan zaman cinlər anladılar ki,əgər onlar qeybi bilsəydilər bu qədər müddət ərzində alçaldıcı əzab içində qalmazdılar.

Səba-13-Süleyman Beytul-Müqəddəsi tikdikdən sonra çox etiqat namaz, ibadət edirdi və çox zamanda məsciddə qalırdı.Bir gün əsasına söykənərək,cinlərə baxırdı ki, onlar yaxşı işləsinlər.Elə həmin vaxtda ölüm mələyi onun ruhunu çıxardı və cismi əsaya söykənən halda bir müddət qaldı.Cinlər onun ölməyini başa düşməyib öz işlərini görürdülər.

Süleyman Davudun yanında Beytul –Müqəddəsdə dəfn edilmişdir.

HZ.LOĞMANIN HAQQINDA

Loğman (ə.s.) Davud (ə.s.) dövründə yaşamışdır.Əsli Misir Nud qəbiləsinə mənsubdur.İsrail oğullarından bir adamın qulu olmuş, sonra onu azad edib var-dövlət vermişdir.

Loğman (ə.s.) Allah tərəfindən hikmət verilmiş və saleh bir qul idi. Bəzilərinə görə ona Peyğəmbərlik verilməmiş,lakin Allahı çox sevdiyinə görə Allah da onu çox sevmişdir.O, Davuda (ə.s.) elmi və hikməti ilə vəzirlik edərdi.

Loğman (ə.s.) Beytul-Müqəddəs yanındakı Remlə şəhərində otururdu və yanına gələnlərə hikmətli sözlər danışardı.

Loğman (ə.s.) Beytul-Müqəddəs yanındakı Remlə şəhərində vəfat etdi və məscid ilə bazar arasındakı yerdə dəfn edildi.

QURANDA LOĞMAN HAQQINDA

Loğman-12-17-Biz Loğmana hikmət verdik.

Hikmət; bilərək əməl etməkdən və hər işdə həlalətə yetişməkdən ibarətdir.Loğman Həbəşdən olan qara dərili və iri dodaqlı bir şəxs idi. Bir gün yuxuda ona dedilər ki,sən istəyirsənmi Allah sənə insanlar arasında hökm etmək üçün Peyğəmbər etsin?

Loğman dedi:"Əgər Allahın əmri budursa, itaət edərəm!Əgər Allah öz bəndəsini ixtiyar sahibi etsə,yəqin ki, afiyəti istəyərəm nəinki bəlanı!Nida gəldi:"Ey Loğman! Nə üçün belə cavab verdin?"

Loğman dedi:”Dünyada zəlil olub,axirətdə əziz olmaq, dünyada əziz olub axirətdə zəlil olmaqdan çox-çox yaxşıdır!”

Mələklər onun bu sözlərinə təəccübləndilər.

Allah-taala Loğmana hikmət bəxş edərək buyurdu:”Allaha şükür et! Kim şükr etsə ancaq və ancaq özü üçün şükr edər və özünə verilən neməti artırar. Hər kəs ki, Allaha kafir olsa,Allah onların şükründən ehtiyacsızdır.”

Bir zaman Loğman öz oğluna nəsihət edərək belə demişdi:”Ey mənim oğlum!Heç kəsi Allaha şərik tutma!Həqiqətən də, Allaha şərik tutmaq böyük günahdır.”

Biz insana ata-anasına yaxşılıq etməyi tövsiyə etdik.Anası onu çox zəif halda daşımışdı.Uşağın süddən ayrılma müddəti iki il olur.Biz insana tövsiyə etdik: ”Mənə, atana, anana şükür et! Qayıdacaq yerin mənim tərəfimədir. Namaz qıl, yaxşı işlərə əmr et, pis işlərdən çəkindir.Sənə insanlardan üz verən müsibətlərə döz!

HZ.ÜZEYRİN HƏYATI HAQQINDA

Üzeyr (ə.s.) Hz.Harunun övladlarından idi. Büxdünnəssər Beytül-Müqəddəsi yıxdığı zaman İsrail oğullarını Üzeyrin qohumlarını da öldürmüşdü. Lakin o kiçik olduğuna görə ona dəyməmişdir. Onun Tövrat oxuduğunu da heç kəs bilmirdi.İsrail oğullarından əsir düşmüş uşaqlarla birlikdə onu da Babil torpaqlarına gətirmişdilər. Əsirlər içində Üzeyr (ə.s.)ilə birlikdə Daniel (ə.s.) da var idi.

Büxdünnəssər öldükdən sonra və Beytül-Müqəddəsə dönərək Allaha iman gətirmişlər.Onlar əsir düşdükləri vaxt Tövrat əllərindən alınmış və yandırılmışdı.

Üzeyr (ə.s.) 40 yaşına çatdığı zaman Allah-təala ona hikmət verdi.Tövratı onun qədər əzbərləyən və bilən yox idi.Allahın saleh bəndələrindən olub,bir Peyğəmbər kimi məşhur idi.İsrail oğulları Üzeyrdən,Tövratdakı halal və haramları təzədən öyrəndilər və heç kimə göstərmədikləri sevgini ona göstərdilər.

Üzeyr (ə.s.) ölənə qədər onların arasında oldu və Tövratı onlara yazdırıb öyrətdi.Onun ölümündən sonra İsrail oğulları yenə də yanlış inanclara uydular və hətta Üzeyrə Allahın oğludur dedilər.Bu haqda Qurani-Kərimdə belə buyurulur:

ət-Tovbə-30-Yəhudilər dedilər:”Üzeyr Allahın oğludur.Bu onların ağzından çıxan sözdür.Onların sözü, keçmişdə kafir olan kəslərin sözünə oxşar.Allah öldürsün onları.Necə və hara, haqdan batiləmi dönərlər?”

YÜZ İL ÖLÜ QALIB VƏ SONRA DİRİLDİLƏN KİŞİ

əl-Bəqərə-259-Ya Muhəmməd!Damları çökmüş, divarları uçulmuş bir kəndin yanından keçən şəxsin əhvalatını bilmirsən?O şəxs:"Əcaba, Allah bu kəndi ölümündən sonra necə dirildəcək?"-demişdi.Belə olduqda, Allah onu yüz il ölü halında saxladı,sonra dirildərək ondan:"Nə qədər yatmısan?" deyə soruşdu.O da:"Bir gün, bəlkə bir gündən az!"-deyə cavab verdi.

Qurani-Kərimdə də"yüz il ölü qalıb sonra dirildilən kişinin Hz.Üzeyr olduğu, "Peyğəmbərə 40 sual kitabında " Peyğəmbər (s.ə.s.) tərəfindən rəvayət olunmuşdur. Günlərin bir günü Üzeyr Peyğəmbər öz ulağına minib Suriyaya gedərkən yolda bir kəndə rast gəlir.Görür ki, kənd bomboşdur, ağacdakı meyvələr öz başına qalıb.O, ulağı bir ağaca bağlayıb kölgədə oturur.Birdən onun ağlına belə bir fikir gəlir: "Görəsən bu kəndin məskunlaşan günü olacaqmı? Kaş Allah mənə bir qəflət yuxusu verəydi, ayılanda görəydim ki,kənd adamla doludur."

Üzeyr bu fikirlə başını qoyub yatır.Allah-taala Əzrailə əmr edir ki, Üzeyrin canını alsın.Əzrail (ə.s.) onun canını alır,cəsədini gözdən uzaq bir yerdə gizlədir. Üzeyr ölümündən sonra Büxdünnəssir öldürülür və Babilistan və İrəm əyalətlərindən əhali Suriya əyalətlərinə köçürülür.

Ölümündən 100 il keçəndən sonra Allah-taala onu ayıldır. Gözlərini açanda görür ki, kənd adamla doludur.Gördüklərindən heyrətə gəlmiş Üzeyr, Allaha şükür edir və deyir:"Şükr olsun Allaha bu kəndi bir iki saata belə məskunlaşdırdı. Əgər gözlərim məni aldadırsa,deməli mənə nə isə olub."

Bu sözləri deyəndən sonra Üzeyr ulağına baş çəkmək istəyir. Görür ki, ulağı yoxdur və yerində ancaq sümükləri qalmışdır.Elə həmin anda Üzeyr gözləri qarşısında, sümüklər birləşir,sümüklərə ət-qan gəlir, ulaq dirilib,örüşə qaçır.

Bu vaxt Cəbrail (ə.s.) nazil olub soruşur:

-Üzeyr!De görüm nə vaxtdan burada yatırsan?"

Üzeyr günəşə baxaraq deyir:"Bir gün olar."

Cəbrail (ə.s.):"Səhvin var!-deyir.Burada yatdığın vaxtdan yüz il keçir.Sən ölmüşdün və Allah-taala səni təzədən diriltdi."

O ətrafına baxıb görür ki, ağaclar, meyvələr yenə elə əvvəlki kimidir.O, Allaha təzim edərək deyir ki,həqiqətən də Allah hər şeyə qadirdir.Sonra o,ulağa minib şəhərə yollanır və şəhərdə köhnə tanışlarından heç kəsi görmür.Evinə tərəf gedəndə görür ki, qapının ağzında bir qoca qarı əyləşmişdir.Qadından soruşur:"Üzeyrin evi buradırmı?"

Qadın cavab verir ki, sən Üzeyri haradan tanıyırsan? O,100 il bundan qabaq ölüb.

Üzeyr başına gələnləri qadına danışır.Qadın deyir ki, əgər sən doğrudan da Üzeyrsənsə dua et ki, mənim gözlərim acılsın.

Üzeyr əlini qadının gözlərinə sürtərək Allaha dua edir və Allahın hökmü ilə qadının gözləri açılır. Qadın Üzeyri tanıyır və onun qulluqçusunun qızı olduğunu deyir.

Üzeyr ondan övladlarını soruşur.Qadın çölə çıxıb səs salaraq camaatı çağırır.Üzeyrin övladları da gəlib onu tanıyaraq görüşürlər.O zaman onun 40 yaşı, övladlarının isə 120 və ondan daha artıq yaşları olur. Üzeyr (ə.s.) başına gələnləri onlara danışır. Övladları ilə birlikdə bir müddət ömür sürür və öz əcəli ilə vəfat edir.

HZ.ZÜLQƏRNEYNİN HAQQINDA

Zülqərneynin Peyğəmbər adı,soyu və Peyğəmbər olub-olmaması haqqında ixtilaflar vardır.Onun haqqında:"Həm nəbi,həm rəsul idi."-deyənlər olduğu kimi:-"Xeyir!O, rəsul olmayan bir nəbi idi. Rəsul olmayan bir nəbi olması haqqında: "İnşaallah bu səhihdir"-deyənlər də vardır.

Həzrət Əliyə görə isə:"Zülqərneyn nə bir nəbi idi, nə də bir rəsul idi. Lakin Allahın saleh bir qulu idi ki, Allahı sevmiş,Allah da onu sevmişdi."

Ona Allah tərəfindən hər cür imkanlar bəxş edilmişdi.O,yer üzünün hər tərəfini gəzib dolaşmışdı.

Hz. Əlidən soruşanda ki, Zülqərneyn yer üzünün hər tərəfini dolanmağı üçün o gücü haradan almışdır? Hz. Əli belə demişdi:

-"Buludlar ona yol gösrərir.Yollar onun üçün düzəlir.Nurlar onun yolunu işiqlandırır.Onun üçün gecə-gündüz bir olurdu."

QURANİ-KƏRİMDƏ ZÜLQƏRNEYN HAQQINDA

Kəhv-83-100-Ya Peyğəmbər!Səndən İsgəndər Zülqərneyn haqqında soruşarlar.De ki, tezliklə ondan sizə bir xəbər deyərəm.

Onun ləqəbini "Zülqərneyn" olması barədə bir neçə söz vardır. Onlardan biri də budur ki, iki əsr Padşahlıq etdi, şərq və qərbə hakim oldu. Buna görə də "iki qərn(əsr)sahibi"adlandı.Yaxud başının iki tərəfinin əti buynuz kimi uca idi.Bu qədim yunan məmləkəti Makidoniyalı İsgəndər ibn Filqusdur. Əvvəl kiçik Padşahlara qələbə çalıb,yavaş-

yavaş yaşıl dənizin ətrafına hakim olub.Bir şəhəri bina edib adını İsgəndəriyyə qoydu.Şam torpağına əl tapandan sonra İrana gəldi.İran şahı Daranı öldürüb bütün İrana sahib oldu. Sonra Hind, Çin, Türküstan və Babül-Əbvav-ə(Dərbəndə) qədər, ümumiyyətlə yer üzünü abad və məskunlaşmış yerlərinin çox hissəsinə sahib oldu.

Yer üzərində onu qüvvətləndirdik və hər şeyin səbəbini verdik. Yəni hər nə istədisə onun üçün imkan yaratdıq.O günbatan yerə yetişdikdə belə gördü ki,günəş qara palçıqdan olan isti çeşmədə qürub edir.O ceşmənin yanında Allahı tanımayan bir qövm gördü.

Biz dedik:"Ey Zülqərneyn!İxtiyar var ki, onlara əzab verəsən, yaxud onların haqqında gözəl iş görəsən."

İsgəndər dedi ki, mən əvvəl onları imana dəvət edərəm.Küfrdə qalaraq, öz nəfsinə zülm edən kəsə ölüm və başqa dünya əzabı ilə tez əzab verərik. Sonra qiyamət günü Allaha tərəf qayıdar və Allah da ona pis əzab verər. İman gətirib yaxşı əməllər edən kəs üçün gözəl əvəz var. Tezliklə ona öz fərmanımızdan asan söz deyərik.

İsgəndər bir yol ilə getməyə başladı.Abad yerlərdən olan günçıxan tərəfə yetişdi.(Afrikanın Sudan hissəsi idi)Gördü ki, günəş elə bir qövm üçün çıxır ki, günəşdən başqa bədənlərini örtməyə heç bir libas yoxdur.

Zülqərneynin əmri belə idi.Bizim elmimiz onun yanında olan xəbəri əhatə etdi.Sonra yenə bir yol ilə şərq ilə qərb arasında, cənubdan şimala getməyə başladı.Beləliklə o, sədd kimi olan iki dağın arasına yetişdi.O iki dağın arasında dillərinin qəribə olması və düşüncələrinin azlığına görə danışıqlarını bilməyən bir tayfa gördü.

Onlar tərcüman vasitəsi ilə dedilər:"Ey Zülqərneyn!Yəcuc və Məcuc tayfaları bizim yerimizdə fəsad edirlər. Mümkündür ki, sənin üçün bir məbləğ xərc edək, sən də onun müqabilində bizimlə onların arasında möhkəm sədd tikəsən?"

Zülqərneyn dedi ki, bu işi əmələ gətirməkdə Allahın mənə verdiyi qüdrət, sizin verdiyiniz xərcdən daha yaxşıdır.Siz mənə qüvvət ilə kömək edin, fəhləlik edin ki, sizinlə onların arasında möhkəm sədd düzəldim. Mənə o qədər dəmir parçaları gətirin ki, iki dağın arası bərabər olsun.

Oranı dəmir parçalar ilə doldurandan sonra altına daş kömür və odun tökdülər. Zülqərneyn dedi:-Üfürün ki,od olsun.Sonra o dedi ki, mis gətirin üstünə tökək. Qızarmış dəmirin üstünə mis tökən kimi möhkəm sədd əmələ gəldi.Yəcuc və Məcuc tayfaları o səddin üstünə çıxıb bu tərəfə keçə bilmədilər.Zülqərneyn dedi ki:"Bu sədd və onu düzəltmək mənim Allahım tərəfindən öz bəndələrinə rəhmətidir. Allahımın vədi budur ki,Qiyamət günü yetişən zaman o səddi dağıdar.Mənim Allahımın vədi doğrudur."

Onların bəzisini sədd bina edilən günü tərk etdik.Bəzisi isə o qədər artarlar ki,dəniz kimi dalğalanarlar.Yaxud Qiyamət günü heyrətdən iztirab çəkib,bir-birinə qarışarlar.Sur çalınar və onların hamısını hesab üçün toplayarıq.

HZ.ZƏKƏRİYYƏNİN HƏYATI HAQQINDA

Hz.Zəkəriyyə Hz.Harunun övladlarından olub, soyu Yaqub ibn Yəhüzə, ibn Davud,ibn Süleymana dayanır.O,ənbiya oğullarından olduğu üçün, Beytul-Müqəddəsdə din işləri üzrə böyük idi.

Qurani-Kərimin dörd surəsində Zəkəriyyə (ə) adı zikr olunmuşdur.

Atasının adı Bəlxiya və həyat yoldaşının adı İşa, Məryəmin xalası idi.Məryəm dünyaya gələndən sonra valideynləri tərəfindən nəzir edilmişdi ki, onu kilsəyə xidmətçi versinlər.Məryəmin anası onu ağ parçaya bükərək, kilsəyə gətirib, ruhanilərə tapşırır.Kilsə ruhanıləri Məryəmi böyütmək üçün,öz aralarında mübahisə edirlər. Sonra isə Beytul-Müqəddəsin xidmətçiləri və ruhaniləri Məryəmin himayədarlığı üçün püşk atdılar.Püşk Zəkəriyyənin adına çıxdı və o, Məryəmi öz öhdəsinə götürdü.

Zəkəriyyə (ə.s.) 120 yaşında, zövcəsi isə 98 yaşında idilər. Zəkəriyyənin o vaxta qədər övladı yox idi.Hz.Zəkəriyyə nə zaman Məryəmin Beytul-Müqəddəsdəki otağına gəlirdisə,orada mövsümə uyğun olmayan meyvələr görürdü. O, Məryəmdən soruşanda ki, bu meyvələri haradan tapırsan, o cavab verdi ki:"Bunları mənə Uca Allah göndərir."Bunu eşidən Zəkəriyyə fikirləşdi ki, Məryəmə öz mövsümündə olmayan meyvələri yetirən Allah, ona da bu yaşında övlad verə bilər.

Müqəddəs Qurani-Kərimdə Zəkəriyyə Peyğəmbər Allaha belə dua edir:

Məryəm-2-13-O zaman ki, Zəkəriyyə öz Allahını gizlin səslə çağırdı.Dedi:"Ey mənim Allahım!Qocalığa görə sümüyüm süst oldu, başım ağardı.Ey mənim Allahım!Sənə dua etməklə heç vaxt ümidsiz olmamışam!Mən özümdən sonra qalan dost və qohumlarımdan qorxuram. Mənim övrətim doğmayandır.Mənə öz dərgahından fəzl və mərhəmət yolu ilə bir övlad bəxş et ki, mənim əmrimin icraçısı olsun.O həm mənə Həm də Yəqub övladından yetişən irsə varis olsun. Pərvərdigara,onu layiqli və seçilmiş qərar ver!"

Allah tərəfindən xitab yetişdi:"Ey Zəkəriyyə! Biz sənə bir oğlanla bəşarət veririk ki, onun adı Yəhyadır.Bundan əvvəl bu adda bir adam xəlq etməmişik."

Zəkəriyyə dedi:”Pərvərdigara!Necə mənim övladım ola bilər ki, mənim zövcəm doğmayandır.Mən özüm qocalıqdan zəifliyin sonuna yetişmişəm.”

Cəbrail(ə.s.) nazil olub dedi:”Sən doğru deyirsən!Amma sənin Allahın buyurur ki,bu sənin Allahına asandır.Səni heç nə olmadığın halda xəlq etdim.”

Zəkəriyyə dedi:”Pərvərdigara!Mənim üçün bir əlamət müəyyən et!

Allah buyurdu:”Sənin əlamətin budur ki, üç gecə-gündüz adamlarla danışa bilməyəcəksən!”

Zəkəriyyə namaz qıldığı mehrabda öz qövmünün qabağına çıxdı. Danışmayaraq rəmz və işarə ilə bildirdi ki, səhər və axşam vaxtı Allahı təsbih edir. Allah-taala Yəhyanı Zəkəriyyəyə bəxş etdi.

HZ.ZƏKƏRİYYƏNİN ŞƏHİD OLMASI

Həzrəti Zəkəriyyə çox vaxtını Allaha ibadət etməklə,camaata moizə və öyüd-nəsihət verməklə keçirirdi.O,bu işini yəni ibadət və itaətini oğlu Yəhyanın o zamanın zalım Padşahı tərəfindən qətlə yetirənə qədər davam etmişdir.Oğlunun ölümündən sonra zalım Padşah tərəfindən qətlə yetirilməsindən qorxaraq o, şəhərdən çıxmaq istəyir.O, Beytül-Müqəddəsin ətrafındakı bağlardan birində,bir ağacın içində gizlənir. Şahın məmurları onu axtarmaq üçün bağa daxil olduqda, insan surətinə düşmüş şeytan Zəkəriyyənin yerini onlara göstərir.Bələdçilər həmin ağacı iki yerə bölürlər və Hz.Zəkəriyyə də o ağacın içində iki yerə bölünərək şəhid olur.

Bəzi tarix kitablarında Zəkəriyyə (ə.s.) Beytül-Müqəddəsdən qaçmağının səbəbini, yəhudilərin onun üstünə böhtan atması olmuşdur.Onlar iddia edirdilər ki,Məryəm (ə)onunla zina etmişdir, çünki Məryəmin yanına ondan başqa heç kəs girib-çıxmırdı. Şeytan bu şayəni yaymaqla yəhudiləri Zəkəriyyənin əleyhinə qaldırdı. Onlar da öz müqəddəs sandıqları ağacın içinə girən Zəkəriyyəni həmin ağacla birlikdə kəsdilər.

Sonra Allah-taala Yəhya və Zəkəriyyənin qanının intiqamını almaq üçün insanların ən xəbisini onların canına saldı.Onların çoxunu,o iki Peyğəmbərin qanını,intiqamını almaq məqsədilə Cəhənnəmə vasil edərək,Biz Beytül-Müqəddəsi viran etdik.

Həzrəti Zəkəriyyə(ə.s.) Şam şəhərində “Zəkəriyyə” məscidində dəfn olunmuşdur.

HZ.YƏHYANIN HƏYATI HAQQINDA

Hz.Yəhyanın dünyaya gəlişi haqqında Hz.Zəkəriyyənin həyatı haqqındakı fəsildə qeyd edilmişdir.Uca Allah Qurani-Kərimdə Yəhya (ə.s.) haqqında belə buyurur:

Məryəm-12-EyYəhya! Kitabı qüvvətlə tut!Hələ uşaq ikən ona Peyğəmbərlik verib,Tövrat öyrətdik.Yəhyanı pis əməllərdən pak-pakizə etdik.Uşaqlıq illərində uşaqlar ona oynamağı təklif edəndə, Yəhya cavab verər ki, biz boş şeylərdən ötəri xəlq olunmamışıq.

Peyğəmbərlərdən iki nəfər uşaq vaxtı Peyğəmbərliyə yetişib.Biri Hz.İsa o biri də Hz.Yəhyadır.Onlar bir-birləri ilə xala oğlu idilər. O, Hz.İsadan 6 ay böyük idi.Ata-anasına yaxşılıq edən idi və Allaha asi deyildi.Onun doğulduğu günə, vəfat edəcəyi günə və diriləcəyi günə Allahın rəhməti olsun!

Açıqlama:-Yəhya (ə.s.) uşaqlıqdan 8 yaşından Beytul-Müqəddəsdə xidmətçilik etmişdir.Uşaqlıq yaşlarından çox qeyrətli, güclü, Allaha ibadət və itaət etməklə məşğul idi.Gecələr isə Cəhənnəm qorxusundan hey ağlardı.Haçan camaat arasında olsa idi ancaq Cənnət və Cəhənnəm haqqında söhbət edərdi. Peyğəmbərimizdən belə rəvayət olunur ki:"Yəhya heç vaxt ömründə günah etmədi".

Yəhya (ə.s.) çox sadə geyinərdi.Onun nə dirhəmi, nə dinarı var idi. Onun heç evi də yox idı.

İmam Sadiqdən belə rəvayət olunur:-Yəhya o qədər ağladı ki, yanaqlarının əti əridi.Atası Zəkəriyyə ona dedi:

-Oğlum!Mən Allahdan övlad istədim və Allah-taala da sənin mənim gözümü işıqlandırdı.

Yəhya dedi:-Ata can! Odlu Cəhənnəmin üstündə olan uçurumunlardan və Allah qorxusundan ağlayıram.Bu vaxt Zəkəriyyə huşdan gedənə qədər ağladı. **("Buharil –ənvər "14-cü cild, səh. 167.)**

Yəhyanın Şeytanla danışığı**: (ŞeyxTusinin"Əmali")** kitabından. İmam Rza (ə.s.) öz ata-babasından nəql edilən,Yəhya ilə Şeytanın danışığı barədə hədis yazmışdı.Hədisin xülasəsi bundan ibarətdir:-Şeytan,Həzrəti Adəmin dövründən Həzrəti İsanın dövrünə qədər Peyğəmbərlərin yanına gəlir və onlarla söhbət edərdi.Hamıdan çox Yəhya ilə danışardı.Bir gün Yəhya ondan soruşdu:

-Adəm övladlarını saldıqların tələləri mənə göstər!Şeytan onun təklifini qəbul etdi.Başqa bir gün xüsusi formada, çoxlu vasitələrlə və cürbəcür rənglərlə Yəhyanın yanına gəldi.Həmin vasitələrin və rənglərin mahiyyətlərini Yəhya üçün izah etdi. Yəhya ona buyurdu:

-İndiyə qədər mənə güc gəlib,qalib gəlmisənmi?Şeytan cavab verdi:

-Xeyr! Lakin səndə olan bir xüsusiyyəti çox sevirəm.Yəhya soruşdu:

-Hansı xüsusiyyəti?Şeytan dedi:

-Doyunca yemək yeyirsən və bu da sənin bəzi namazlarına, gecə ibadətlərinə mane olur.Yəhya bu sözü eşidəndən sonra dedi:

-Mən bu saatdan Allaha əhd bağlayıram ki, onunla görüşənə qədər doyunca yemək yeməyim.Şeytan dedi:

-Mən də Allaha əhd bağlayıram ki,onunla görüşənədək heç bir müsəlmana nəsihət etməyim.

Şeytan bunu deyib getdi və ondan sonra daha Yəhyanın yanına gəlmədi.

HZ.YƏHYANIN ŞƏHİD OLMASI

Hz.Yəhyanın dövründə şöhrətpərəst bir Padşah var idi.Padşah öz arvadı ilə kifayətlənməyib zinakar qadınlarla da oturub dururdu.Onun yanına get-gəl edən qadınlardan biri özü qocalandan sonra qızını onun yanına göndərməyi qərara alır və qızını öyrədir ki, Padşah səndən soruşsa ki, məndən nə istəyirsən,deyərsən ki, Yəhyanın ölümünü.Onun başını bədənindən ayırıb, başını qızıl teşdə gətirsinlər.

Yəhyanın öldürülməsi haqqında buna bənzər bir çox rəvayətlər də vardır. Hz.Yəhya Şam şəhərində dəfn edilmişdir.

CƏRCİS PEYĞƏMBƏR HAQQINDA

“40 sual”kitabından: Hz.Məhəmməd Peyğəmbərə verilən 32-ci sualın cavabında Cərcis peyğəmbərdən danışır: “Dərziyanə adlı bir kafir Mosul şəhərində padşah idi. Günlərin birində Cərcis peyğəmbər Mosula ticarətə gəlir... O, padşaha yaxınlaşır və deyir: “Nə üçün bütə sitayiş edir, belə yersiz əməllərə xalqı da məcbur edirsən? Əgər sənə bir bəla üz versə bu daş nə sənə, nə də sənin şəhərinə bir köməklik göstərə bilməz.” Padşah bu sözləri eşidib qəzəblənir və əmr edir ki, onu ağaca bağlayıb dərisini deşik-deşik etsinlər. Cərcis ucadan dua edir və Allah onu bu bəladan xilas edir. Bunu eşidən padşah ikinci dəfə onun başına köz kimi qızarmış mıx çalmaqla əzab verməyi əmr edir”. Hər dəfə Allahın əmri ilə xilas olan peyğəmbərə bir-birinin ardınca əl-ayağını bağlatdırıb zindana saldırmaq, qarnının üstünə iri bir daş qoyduraraq ac-susuz saxlamaq kimi cəzalar verilir. Bu cəzalardan 3 dəfə ölüb, Allahın əmri ilə dirilən Cərcisə

bir mələk vasitəsi ilə peyğəmbərlik verilir. Zindandan möcüzəli şəkildə qeyb olan Cərcis bir müddət sonra yenə də həmin padşahın yanına gəlir və peyğəmbərliyini, Allahın vahidliyini təbliğ edir. Padşah bu dəfə ona çox şiddətli ölüm hazırlamaq qərarına gəlir. Misdən düzəldilmiş böyük bir öküzün içinə kükürd və yanacaq doldurараq peyğəmbəri onun içərisinə salıb qapısını örtür və oda atırlar. Bir mələk peyda olaraq alovun içindən öküzü götürüb yerə çırpır. Ertəsi gün Cərcis peyğəmbər yenidən sağ və salamat görkəmdə təbliğatını davam etdirir .

Cərcis Peyğəmbər Hz.İsa Peyğəmbərdən sonra, təxminən III-IV əsrlərdə yaşamış və 77 il ömür sürmüş, əslən Fələstindən olan Cərcis adlı peyğəmbərin adı ilə bağlıdır. Dini rəvayətlərdə onun Hz.İsa Peyğəmbərin həvarilərindən birinin şagirdi olduğu və bütün Tanrı elçiləri kimi tövhidi (təktanrılığı) təbliğ etdiyi bildirilir. Onun adı yunan mənbələrində "Corcios" kimi göstərilir. Lakin dini-əfsanəvi rəvayətə əsaslanaraq "Cərcis" sözünün farscadan "Cahar cur", yəni dörd dəfə ölüb dirilən mənasına gəldiyini bildirənlər də var. İslamşünaslar bunu belə izah edirlər: Cərcis Peyğəmbər Fələstində yaşayıb, sonralar Mosula köçüb. O zaman Mosulda bütlərə inanan zalım bir padşah hakimiyyət sürürdü. Cərcis Peyğəmbər camaatı bütlərdən döndərib Allaha doğru çağırmağa başladı. Xeyli adam, hətta padşahın arvadı da imana gəldi. Padşah Cərcis Peyğəmbəri öldürmək üçün onu ən ağır işgəncələrə məruz qoyur. Peyğəmbər dörd dəfə ölümcül işgəncə altına düşür: Onun bədəninin ətini dəmir daraqla qoparırlar, qaynar yağın içinə atırlar, odda yandırır, başına mismar vururlar. Amma hər dəfə Allah-təala Hz.Cərcisi sağ-salamat saxlayır. Yeddi ildən sonra Allahın hökmü ilə Hz.Cərcis vəfat edir, padşah və tərəfdarları isə Allahın göndərdiyi bəla ilə məhv olurlar. Bu gün də İraqın Mosul şəhərində Hz. Cərcis Peyğəmbərin böyük məqbərəsi var. Beyləqan rayonunda da Cərcis Peyğəmbərə aid edilən məzar ziyarətgah kimi tanınır. Ziyarətgahın XVII-XVIII əsrlərdə tikildiyi bildirilir. Cərcis Peyğəmbərin Beyləqana necə gəlib çıxması barədə tarixi mənbələrdə ətraflı məlumatlar var. Rəvayət olunur ki, Peyğəmbər Suriyadan təkallahlığı təbliğ edə-edə gəlib Mil torpağına çıxır. O, Beyləqanda 15-20 ilə yaxın ömür sürür. İndiki Beyləqan şəhəri zəmanəsinin böyük və ticarət baxımından əlverişli şəhərlərindən biri olub. O zamanlar bu ərazidə yaşayan əhali atəşpərəstliyə sitayiş edirmiş. Peyğəmbər (ə) insanları tək olan Allaha itaət etməyə çağırdığı üçün buradakı atəşpərəst kahinlərin qəzəbinə tuş gəlir. Onu təqib edirlər. Qovula-qovula indiki ziyarətgah yerinə gəlib çıxır. Peyğəmbərə atılan oxlardan və zərbələrdən ona xətər dəymir, o, bir quyuya düşür. Atəşpərəstlər onun üstünü torpaqlayırlar. Beləcə, bu ziyarətgahın yerində müqəddəs bir təpə yaranır...

HƏZRƏTİ MƏRYƏM ƏLEYHANIN HƏYATI HAQQINDA

Açıqlama:-Həzrəti Məryəmin babası İmran Süleyman ibn Davudun övladlarından və Bəni İsrailin böyük şəxsiyyətlərindən idi.Hətta bir hədisdə onun Peyğəmbər olduğu da bildirilir. İmranın həyat yoldaşı Hənna illər boyu övlad həsrətində idi.Bir gün bir ağacın altında oturmuşdu.Gördü ki, bir quş balasına dimdiyi ilə yemək verir.Bu mənzərə yenidən Hənnanın yadına övlad dərdini saldı.O, Uca Allahdan dua edərək övlad istədi.Dua edəndən sonra nəzir etdi ki, övladım olsa onu Beytul-Müqəddəsdə xidmətçi qoyaram.

Allah-taala Hənnanın duasını qədul etdi və İmrana vəhy etdi ki, biz sənə mübarək bir övlad əta edəcəyik.İmran həyat yoldaşı Hənnana bu müjdəni verdi və bildirdi ki,dünyaya gələn övlad Peyğəmbərlik məqamına yetişəcək.Bir müddət keçəndən sonra Hənna hamilə olduğunu hiss etdi. Hənna sevinirdi ki, onun oğlu olacaq çünki nəziri də buna uyğun idi.O,uşaq doğulan kimi onu Beytul-Müqəddəsə xidmətçi verəcəkdi.

Uşaq dünyaya gəlməmişdən İmran vəfat etdi.Hənnanın şad günləri qəm-qüssə ilə doldu.Hamiləlik sona çatdıqda,Hənnanın fikrinin əksinə olaraq qız uşağı dünyaya gəldmişdi.Qız uşağının da bu işə layəqəti yox idi.Başqa bir tərəfdən də Allah-taala İmrana vəd vermişdi ki,ona bir övlad verəcək və onu Peyğəmbərlik məqamına yetişdirəcək.Buna görə də Hənna həsrətlə Allah dərgahına ərz etdi:"İlahi, mən onu qız doğdum."Lakin yenə də naümid olmadı. Qərəra aldı ki,Beytül-Müqəddəsin ibadətgahında ruhanilərə versin,bu münasibətlə də uşağın adını"Məryəm"qoydu.

Başqa bir tərəfdən isə, Allahın İmrana verdiyi vədəyə görə naümid olmadı.Öz-özünə fikirləşdi ki,əgər Allahın bizə verdiyi müjdə,yəni Peyğəmbər məndən dünyaya gəlməsə də Məryəm və onun nəslindən dünyaya gələcək uşaqları üçün belə dua etdi:"İlahi! Mən,Məryəm və onun övladlarını dərgahından qovulmuş şeytanın şərindən sənə həvalə edirəm."

Allah-taala Hənnanın duasını qəbul etdi və Məryəmi öz pənahı altında qoruyub saxladı.Qurani-Kərimdə bu haqda belə buyurulur:

Ali- imran-35-36-Yadına sal o zaman ki, İmranın zövcəsi Hənna dedi ki, Pərvərdigara mən bətnimdə olan uşağı Beytül-Müqəddəsdə sənə xidmətçi etməyimi nəzir edirəm.Nəzirimi qəbul et. Həqiqətə, sən nəzirimi eşidən və niyyətimdən xəbərdarsan.

Onu doğduğu zaman Hənna dedi ki, Pərvərdigara, mən onu qız doğdum.Onun arzusu bu idi ki,oğlan olub Beytul-Müqəddəsdə xidmət et-

sin.Qız uşağının xidmətçi olması rəsmi deyildir.Allah onun nə doğduğunu daha yaxşı bilir, oğlan uşağı qız kimi deyil. Məryəmin necə fəzilət sahibi olduğunu anası bilmir.Allah bilir ki, Məryəm necə qızdır və gələcəkdə ondan bir oğlan əmələ gələcək ki, böyük Peyğəmbərlərdən sayılacaq.Buna görə Hənna dedi ki, həqiqətən mən onu Məryəm adlandırdım!"Mariya"o zaman ki, dildə" ibadətkar qadın"mənasında imiş.

Allah onu gözəl qəbul etdi,onu gözəl göyərtdi və ona gözəl tərbiyə verdi.Hənna Məryəmi doğan zaman bir parçaya sarıyıb məscidə gətirdi. Onu abidlərin yanında qoyub dedi ki,mən bu qızı Beytül-Müqəddəsə nəzir etmişəm.Abidlər o qızı qəbul etdilər. Çünki Hənnanın atası Matan və onun övladı həmişə Bəni-İsrailin böyükləri və Padşahları olub. Zəkəriyyə dedi ki, mən onu saxlamağa daha çox layiqəm. Ona görə ki, onun xalası İşa mənim zövcəmdir.Abidlər razı olmadılar. Onlar cəmi 27 nəfər idilər.Buna görə onlar püşk atmağa razı oldular.(3.44.)

Ya peyğəmbər! Bu sözlər qeyb xəbərlərindəndir. Məryəmə himayəçi olmaq üçün qələmlərini atıb bir-biri ilə mübahisə edən zaman sən onların yanında deyildin. Onlar axırda belə qərara gəldilər ki,Tövrat yazdıqları polad qələmlərini suya atsınlar.Kimin qələmi suyun üstündə qalsa,Məryəmə o şəxs himayədar olacaq.Bu zaman Zəkəriyyənin qələmi suyun üstündə qaldı,qalanların qələmi isə batdı. Bununla da mübahisə kəsildi.

Ona Zəkəriyyə himayəçi oldu.Zəkəriyyə hər vaxt onun, Məryəmin yanına mehraba daxil olsaydı,onun yanında hazır ruzi görərdi. Çünki Beytül- Müqəddəsin yanında Məryəm üçün xüsusi bir otaq bina etmişdilər.Onun yanına Zəkəriyyədən başqa heç kəs daxil olmazdı. Otağın yeddi qapısı var idi.Zəkəriyyə qapıların hamısını bağlayıb açarını özündə saxlardı.Gündə bir dəfə onun yanına gələndə görərdi ki, Məryəmin ibadət etdiyi mehrabda yay zamanı qış meyvəsi,qışda isə yay meyvəsi vardır. Zəkəriyyə ondan soruşdu ki:"Ey Məryəm, bu ruzi qeyri-mövsimdə sənə haradan hasil olur,bir halda ki, qapıların hamısı bağlıdır?"Məryəm dedi:"Bu ruzi Allah tərəfindəndir.Allah istədiyi kəsə hesabsız ruzi verər."

Ali-İmran-42-48-O zaman ki,mələklər Məryəmə dedilər:"Ey Məryəm! Həqiqətən, Allah səni bəyəndi və qadınlara məxsus olan nəcasətdən səni pak etdi və səni aləmlərin qadınlarından üstün etdi.Sən Allaha ibadət et, səcdə və rüku et!"

O zaman mələklər dedilər:"Ey Məryəm!Allah sənə öz tərəfindən olan bir kəlmə ilə,yəni bir kəlmə sözlə atasız əmələ gələn övlad ilə

bəşarət verər.Adı Məsihdir.” (ərəbcə “mübarək” mənasındadır). O, Məryəm oğlu İsadır ki, Peyğəmbərlik və risalətdə dünyada, şəfaət və uca mərtəbəli olmaqda,axirətdə uca məqam sahibidir. O,göyə getmək,qeyblə,mələklərlə bir yerdə olmaqla,Allaha yaxın olanlardandır.

Məryəm dedi:”Pərvərdigara,haradan mənim övladım olsun?Bir halda ki, bir nəfər bəşərin əli mənə dəyməmişdir.”

Allah buyurdu:”Belədir,Allah istədiyini yaradar.Bir şeyi etməyi hökm edən zaman,ona yalnız”ol!”-deyər,o da olar.”

Açıqlama:-Məryəmin hamiləlik dövrü haqqında müxtəlif nəzəriyyələr mövcüddur.Alimlərin bəzilərin bu hamiləlik müddətinin 9 saat olduğunu və hər saatın 9 aya bərabər olmasını söyləyirlər. Bəziləri isə hamiləliyin 6-7- ay arasında olduğunu qeyd edirlər.

Hər halda onun anadan olması ana bətnində olduğu kimi adi olmayıbdır.Həmçinin İsanın harada doğulması, Məryəmin xurma ağacının yanına getməsi və təzə xurmadan yeməsi barədə də fərqli fikirlər irəli sürülür.Mötəbər tarixə görə İsa Beytül-Ləhndə,yəni Beytul-Müqəddəsin yanında dünyaya gəldi.İndi də həmin şəhərdə bu adda əzəmətli və gözəl bina vardır.

Dünya xristianları oraya ziyarətə gəlirlər.Bütün bu işlərin hamısı,qeyri-adi yolla və möcüzə ilə baş vermişdir. Bu heç də təfəkkürdən uzaq bir məsələ deyildir.Allahın hədsiz qüdrəti, Peyğəmbərlərin və ilahi övliyaların möcüzələri,Məryəm və İsanın Allah yanında ki, məqamı bütün bunların mümkünlüyünə dəlalət edir.

Məryəm ananın Hz.İsanı dünyaya necə gətirməsi haqqında Qurani-Kərimdə belə buyurulur:

Məryəm-15-22-Quranda Məryəmi və onun qissəsini yad et!O zaman ki, Beytül-Müqəddəs məscidinin gün çıxan səmtində olan məkanda öz ailəsindən ayrılıb xəlvət yer tapdı və o yerdə qurumuş xurma agacının altına daxil oldu. İstədi ki ibadət ya qüsl etsin. Özü ilə ailəsinin arasına pərdə saldı ki,camaat onu qüsl,ya ibadət edəndə görməsinlər.Məryəmin tərəfinə öz ruhumuz olan Cəbraili göndərdik Cəbrail Məryəmə cavan oglan,kamil insan surətində göründü. Məryəm onu görüb dedi:”Mən səndən Allaha pənah aparıram.Əgər təqvalısansa mənə toxunma!”

Cəbrail dedi:”Mən yalnız sənin Allahının elçisiyəm!Sənə günahdan pak uşaq bəxş etməyə gəlmişəm.”

Məryəm dedi:”Necə mənim oğlum ola bilər ki mənə insan əli dəyməmişdir.Nə halal yolla bir adama nigah olmuşam, nə də harama yaxın olmuşam. Zinakar da deyiləm.” Hz. Cəbrail dedi:”Belədir doğru

deyirsən.Amma sənin Allahın buyurdu bu iş mənə asandır, sənə atasız oğlan verərəm.Biz,onu camaat üçün əlamət edərik ki, kamil qüdrətimizi bilsinlər və o bizim tərəfimizdən Rəhmətə səbəb olsun.Bəndələrimiz onun səbəbi ilə dogru yola hidayət taparlar.Bu əhvalat əmr olunmuş bir hökmdür və əzəldən belə qərara alınıbdır.

Cəbrail (ə.s.)Məryəmin yaxasına üfürməsi ilə Məryəm İsaya hamilə qaldı.Bir müddət sonra doguş əlaməti Məryəmdə zahir olanda şəhərdən uzaq yerə çəkildi. Sonra doguş sancısı Məryəmi xurma agacının altına gətirdi.

Məryəm dedi:"Ey mənim qövmüm!Kaş ki, mən bundan əvvəl ölüb qurtaraydım və ya tamamilə yaddan çıxmış insan olaydım. Mən necə xalqın üzünə baxım və mənə zina nisbəti verənlərə nə cür cavab verim?"

Açıqlama:-Doğrudan da Məryəm kimi pak və iffətli bir qadına zina töhməti vurmaq,onun üçün çox acı və çətin idi.Ancaq,Allah-taala hər yerdə onu pənahı altında saxladığı kimi, bu dəfə də belə bir vəziyyətdə Məryəmi tək qoymadı.Ona ürək-dilək verdi.

Məryəm-23-25-İsa Məryəmin qarnında Məryəmi çağırdı və dedi: -Qəmgin olma! Sənin Allahın sənin altında olan uşağı hörmətli etdi, ya sənin altında su arxı yaratdı. İsa ayağını yerə vuranda su zahir oldu. Xurmanın budağını özünə tərəf çək!Allah qurumuş xurma ağacını göyərtdi,ağac təzə xurma gətirdi ki, ağacdan üstünə təzə xurma tökülsün.Xurmadan ye,sudan iç!Gözünü işıqlı və qəlbini aram et! Camaatdan hər kəsi görsən və sənə sual olunan mətləbə cavab verməkdən həya etsən sakit dayanıb işarə ilə de ki,mən Allah yolunda oruc tutmuşam ki, danışmayam.Əlbəttə,mən bu gün bir kəslə danışmayacam.

Məryəm-26-32-Bəni-İsrail Məryəmi mehrabda görməyib onu axtarmağa başladı. Yolda gördülər ki,Məryəm qucağında İsa ilə öz adamlarının yanına gəlir.Bəni-İsrailin möminə qadınları Məryəmin yanına yığışdılar. Bəzisi ona pis söz deyir, bəzisi isə üzünə tüpürürdü.Bəni-İsrail onun yanına gəlib dedilər:"Ey Məryəm sən həqiqətdə çox əcaib və pis iş gördün.Ey Harunun bacısı!"

Harun Bəni –İsraildə saleh bir insan idi.Hər bir yaxşı kişiyə "Harunun qardaşı" yaxşı qadına "Harunun bacısı" deyə müraciət edərdilər. Bəzi rəvayətlərə əsasən isə Harun zinakar bir kişi idi.Pis insanları ona nisət verərdilər.Sənin atan pis kişi olmamışdı,sənin anan da zinakar deyildi.Sən ki ərə getməmisən, bu uşağa necə sahib oldun?!

Məryəm İsaya tərəf işarə etdi k, bu sözləri ondan xəbər alın.

Bəni-israil dedilər:"Beşikdə olan balaca uşağı necə danışdıraq?"

(Allahdan möcüzə olaraq körpə dilə gəlib) dedi:"Mən həqiqətən, Allahın quluyam.O mənə kitab(İncil)verdi,özümü də Peyğəmbər etdi. Məni hər yerdə olsam bərəkətli edibdir.İnsanlar mənə görə həm dünyada xeyir götürərlər və həmdə iman gətirməklə behiştə daxil olarlar. Allah mənə diri olduqca namaz qılmağı,zəkat verməyi tövsiyyə etdi. Allah məni anama qarşı olduqca itaətkar və nəvazişkar etdi,heç kəsə qarşı zülmkar asi (dikbaş) eləmədi!Doğulduğum gün də,öləcəyim gün diriləcəyim (Qiyamət günü) də Allahdan mənə salam olsun!"

Açıqlama:-Allah-taala bu ayədə Məryəmə"Siddiqə"(çox-çox doğru danışan) ləqəbini veribdir.Ənbiya surəsində 16 nəfər ilahi Peyğəmbərlərin adlarını çəkəndən sonra, Məryəmin də iffətli və pak qadın olduğunu deyib,İsanı da anasının vasitəsi ilə tanıtdırıb.

Bu haqda da Quran da belə buyurulur:

əl-Maidə-17-Məryəm oğlu Məsih yalnız bir Peyğəmbərdir. Həqiqətən ondan qabaq Peyğəmbərlər gəlib-keçmişdir.Onun anası çox doğru danışandır.

əl-Ənbiya-91-"İsmətini qoruyanı,Məryəmi də yad et!Biz Öz ruhumuzdan, özümüzün yaratdığımız ruhdan Cəbrail vasitəsi ilə ona üfürdük,onu və oğlunu atasız doğulmuş İsanı, aləmlərə, mələklərə, bütün insan və cinlərə bir möcüzə etdik".

Beşikdə uşaqlıq halında da,böyük olanda da,insanlarla danışar. Allah ona yazmağı, oxumağı, hikməti,Tövrat və İncili təlim etmişdir.

Açıqlama:-Bu ayədən Məryəmin əzəmət,fəzilət kamilliyi və saflığı çox yaxşı aydın olur.

Şeyx Tusi "Məcməül-bəyan" da yazır ki, Muhəmməd (ə.s.ə.) buyurub: -Çox kişilər kamilliyə yetişdilər.Lakin qadınlardan yalnız dörd nəfər bu məqama çatdı.Onlar bu xanımlardan ibarətdir:-1)Fironun həyat yoldaşı Asiya, 2) İmranın qızı Məryəm ana,3)Xuveylidin qızı Xədicə xanım,

4)Muhəmmədin qızı Fatimə (ə.).Bunlar Cənnət qadınlarıdırlar.

Kuleyni "Rövzətül- kafi" kitabında İmam Sadiqdən belə rəvayət edir:"Məryəm paklıq və iffətdə elə bir məqama malikdir ki, Allah-taala Qiyamət günündə onu başqa qadınlar üçün nümunə və höccət qərar verər.Allah-taala Məryəmi başqaları üçün dəlil gətirər."

HZ.İSANIN HƏYATI HAQQINDA

Açıqlama:- Anası Həzrəti Məryəm əleyhə,atası İmran ibn Mazan olub.Hub ibn Süleyman (ə.s.) nəslindəndir.Babası Mazanın xənadanı

da, İsrail oğullarının böyüklərindən,dini bilgilərə malik olan böyük şəxslərdən idi.

Hz.Zəkəriyyə ilə İmran ibn Mazan iki bacı ilə evlənmişlər. Zəkəriyyənin zövcəsinin adı İşa binti Fakud.İmran ibn Mazanın zövcəsinin adı isə Hənnə binti Fakud idi.

Hz. İsanın doğum yeri Beytül-Ləhndə,Beytul Müqəddəsin yaxınında bir yerdir.Həzrəti İsa dünyaya gəldikdən sonra, Məryəm ananın,öz qövmü tərəfindən özünün və övladının öldürülməsindən qorxduğu üçün Uca Allah tərəfindən ona vəhy edilir ki,öz yurdlarından tezliklə çıxsınlar.

Bu görə Məryəm ana İsanı götürüb əmisi oğlu Yusif Nəccarın köməyi ilə Misirə gəlir,ana ilə oğlu bir təpədə yerləşdirir.Bu haqda Qurani-Kərimdə belə buyurulur:

əl-Muminin-50-Məryəmin oğlu İsanı və onun anası Məryəmi, öz qüdrətimizdən böyük bir möcüzə etdik və onları abad və axar suyu olan hündür bir yerdə yerləşdirdik.

Həzrəti Məryəm Misirdə 12 il qaldı və İsanı xalqdan gizlətdi.İsanın həyati və gələcəyi haqda heç kəsə bildirmədi.Bu vəziyyət İsanın 12 yaşına kimi davam etdi.

Bir dəfə onların qaldıqları qəsəbədə oğurluq baş verir və 12 yaşında olan İsa bu oğurluğun üstünü açır.Bu kimi hadisələr,İsanın hərəkətləri Misir xalqını qorxuya salır.Bundan sonra Allah-taala vəhy edir ki,onlar Misirdən Şama getsinlər.Onlar Şama gələrək Nasirə qəryəsində,Cəbəl-Xəlildə yerləşirlər.İsa 30 yaşına qədər orada yaşayır.İsa otuz yaşında olarkən ona Allah tərəfindən vəhy gəlir.İncil nazil olur.

Uca Allah ona xalqı Allaha iman və ibadət etməyə çağırmasını, xəstələri,pis vəziyyətdə olanları,anadan kor doğulanları,dəliləri, alacaları və digər xəstəliklərin müəlicə etməyini vəhy edir.

İsa ona əmr olunanları yerinə yetirir və xalq da onu sevməyə, inanamağa və ona sarı gəlməyə başlayır.

İsa Peyğəmbərin dünyaya gəlişi haqqında Qurani-Kərimdə belə buyurulur:

Ali-İmran-59-Həqiqətən,İsa da Allah yanında Adəm kimidir. Adəmi torpaqdan yaratdı, sonra ona“Ol!”dedi.O da oldu.İsa barədə verilən xəbər haqq olaraq Allah tərəfindəndir şübhə edənlərdən olma!

Açıqlama:-Qurani-Kərimin ayələrindən məlum olur ki, İsaya Peyğəmbərlik lap kiçik yaşlarından verilmişdir,onun bir çox möcüzələri olmuşdu və bu haqda Quran da belə buyurulur:

Ali-İmran-46-Beşikdə uşaqlıq halında da, böyük olanda da,insanlarla danışar.Allah ona yazmağı, oxumağı, hikməti, Tövrat və İncili təlim etmişdir.

Ali-İmran-49-Allah onu Bəni-İsrailə Peyğəmbər göndərdi.O Peyğəmbərliyə yetişən zaman insanlara belə deyər:"Həqiqətən mən sizə Allahınız tərəfindən möcüzə olaraq gəlmişəm!"

əl-Maidə-110-116-O zaman Allah buyurdu:-Ey Məryəm oğlu İsa,sənə və anana verdiyim neməti yada sal.O zaman ki, səni qüvvətli etdim,pak bir ruh ilə.Sən beşikdə ikən və böyüyəndə insanlarla danışırdın.O zaman ki, sənə kitab hikmət,Tövrat və İncili öyrətdim. O zaman ki, palçıqdan quş sutətini yaradıb ona üfürdün,o da quş olub mənim iznimlə uçdu. Anadan kor doğulana və bərəs xəstəliyinə mənim iznim ilə şəfa verdin.Ölünü mənim iznim ilə qəbirdən dirildib çıxardın.O zaman ki, səni Bəni-İsraildən qorudum.Bu, sənin dəlil ilə gəldiyin zaman,ya möcüzələr gətirdiyin zaman olmuşdur.Yəhudilərdən kafir olan kəslər dedilər:-Bu möcüzələr aşkar bir sehrdir.Onlar sənə sehrbaz deyirdilər.O zaman ki, mən Həvarilərə İsanın vasitəsi ilə vəhy etdim ki,Mənə və Mənim Peyğəmbərimə iman gətirin.Onlar dedilər:-Biz iman gətirdik. Şahid ol ki,biz həqiqətən, müsəlmanıq!

Ya Peyğəmbər yadına sal ki,həvarilər İsaya dedilər:-Sənin Allahın göydən bizə süfrə göndərə bilərmi?İsa dedi:-Belə sual verməkdə əgər möminsinizsə Allahdan qorxun.Yəni Allahın qüdrətinə inanırsınızsa belə sual verməyin.

Dedilər:-Biz o süfrədən yemək istəyirik ki, qəlbimiz arxayın olsun və bilək ki, Peyğəmbərliyinə iman gətirməyimizi təsdiq etmisən, yaxud Peyğəmbərlik iddiasını doğru demişsən.Qeybətdə olanların yanında biz sənin Peyğəmbərliyinə şahid olarıq.

Məryəm oğlu İsa (ə.s.) dedi:-Pərvərdigara bizim üçün göydən süfrə nazil et ki, bizim zəmanəmizdə hazır olanlar və bizdən sonra gələnlər üçün bayram olsun. Mənim Peyğəmbərliyimə əlamət və möcüzə olsun. Bizə ruzi ver!Sən ruzi verənlərin ən yaxşısısan.

Mən sizin üçün süfrə nazil edərəm.Hər kəs süfrə nazil olandan sonra nemətə kafir olsa,mən ona aləmlər içrə heç kəsə vermədiyim əzabı verərəm.

HZ.İSA PEYĞƏMBƏRİN QEYB OLMASI VƏ ZÜHR EDƏCƏYİ HAQQINDA

Ali-İmran-52-55-Nəsihətin fayda vermədiyini,kafir qalıb iman gətirmədiklərini və onların küfrünü yəqin edən zaman İsa dedi:-Mənim köməkçilərim kimdir?Həvarilər dedilər ki:- Bizik Allahın köməkləri. Biz Allaha iman gətirdik və sən şahid ol ki, biz müsəlmanlarıq.Biz

sənin nazil etdiyinə iman gətirdik və İsa peyğəmbərə tabe olduq.Bizi şahidlər ilə birlikdə yaz!

Küfr edənlər İsanı öldürməyə hiylə etdilər.Allah hiylə edənlərə cəza verənlərin ən yaxşısıdır.O,zaman ki,Allah buyurdu:-Ey İsa! Mən sənin barəndə öz əhdimə vəfa edəcəyəm. Səni öz tərəfimə göydə mələklərin yanına çəkərəm,səni kafirlərin yoldaşlığından pak edərəm.Sənə tabe olanları Qiyamət gününə qədər kafir olan kəslərə qalib edərəm.Mən sizin ixtilaf etdiyiniz şeylərdə aranızda hökm edərəm.

ən-Nisa-157-159-Onlar:-Biz Allahın Rəsulu Məryəm oğlu İsanı öldürdük, -dedilər.Lakin onlar İsa Peyğəmbəri nə öldürdülər,nə də ki, dara çəkdilər. Həqiqətən,İsa barəsində ixtilaf edənlər şübhədədirlər.Onların elmi yoxdur, yalnız zənn və güman edirlər.Həqiqətdə onu öldürməmişlər. Əksinə,Allah onu ucaldaraq öz tərəfinə qaldırdı.Allah qələbə çalandır. Əhli kitabdan bir nəfər belə yoxdur ki,ölümdən öncə,ruhu çıxmazdan bir qədər əvvəl olsa da ona,İsaya iman gətirməsin.İsa Qiyamət günündə onlara şahid olar.

Məryəm-33-34-"Doğulduğum günə də, öləcəyim gün də, diriləcəyim gün də Allahdan mənə Salam olsun!"Bu, onların ixtilafda olduqları Məryəm oğlu İsa haqqında Allahın buyurduğu haqq sözdür!"

(Allahın Salavat Salamı olsun, zühr edib haqqı bərqərar edənə!)

KİM Kİ DEYƏR ALLAH ÜÇDÜR?

Məryəm-34-35-Allaha özü üçün övlad götürmək yaramaz.Allah bu sözlərdən pakdır!O hər hansı bir şeyi yaratmaq istədikdə ona yalnız "ol!"deyər,o da olar.Həqiqətən Allah mənim və sizin Allahınızdır.Mən də sizin kimi yaranmışam.

əl-Maidə -75- "Məryəm oğlu Məsih Allahdır"-deyənlər şübhəsiz, kafir oldular.Ya Peyğəmbər!De ki, Allahın qüdrət və iradəsinin müqabilində Məryəm oğlu Məsihi, anasını və bütün yer üzündə olanları həlak etmək istəyirsənsə,kim mane ola bilər? Göylərin, Yerin və onların arasında olanların Padşahlığı Allah üçündür. O,istədiyini yaradar.Allah hər şeyə qadirdir.

əl-Maidə-116-120-İsa deyər:"Pərvərdigara, kim ki deyər Allah üçdür,bu sözü demək heç kəsə layiq deyil.Əgər mən bu sözü demiş olsaydım şübhəsiz ki,Sən bunu bilərdin.Sən mənim qəlbimdə olana alimsən.Mən isə Sənin yanında olanı bilmirəm. Həqiqətən, Sən qeybləri daha çox bilənsən.Mən yalnız sənin əmr etdiyin sözü onlara demişəm.O söz budur ki,mənim və sizin Allahınız olan Allaha ibadət

edin.Nə qədər ki, mən onların arasında var idim,onlara şahid idim. Onları elə bir əqidə də olmağa qoymurdum.Sən məni öldürdüyün zaman, sən onlara nəzarətçisən. Sən hər şeyə şahid və hər yerdə hazırsan. Əgər onlara əzab versən, onlar sənin bəndələrindir.Səni qoyub özgəsinə ibadət etdiklərinə görə əzaba düçar olmuşlar. Əgər bağışlasan qalib və hakimsən."

Allah buyurdu:"Bu gün doğru danışanların sözlərinin,onlara xeyir verən günüdür. Onlar üçün altında çaylar axan Cənnətlər vardır.Orada həmişəlikdirlər.Allah onlardan razı oldu.Onlar da Allahdan razı oldular. Bu böyük uğurdur ki,Allah öz bəndəsindən razı olub, ona Cənnətdə o qədər dərəcə verər ki, bəndə də Allahdan razı qalsın.Göylərin və yerin padşahlığı Allah üçündür. Allah hər şeyə qadirdir.

Açıqlama:-Kim ki, deyər Allah üçdür, və ya Allah özünə övlad götürüb, onların yeri Qayyan adlanan Cəhənnəmin 5-ci təbəqəsindədir.

Bu təbəqəyə dinsizlər,din adından yalan danışanlar,Məsih Allahın oğludur deyənlər və bu kimi münafiqlər,yəni dindar paltarı geymiş dinsizlər daxil olacaqlar.

HZ.İSANIN HƏVARİLƏRİ HAQQINDA

Həvarilər Hz.İsa qeybə çəkildikdən sonra, camaatın içinə daxil oldular və onlar Həzrətin şəriətinə insanları dəvət etdilər.Müxtəlif yerlərə dəvətnamələr göndərdilər və çoxlu sayda insanı İsanın dininə gətirdilər.Axırda isə deyilənlərə görə hər biri imperatorların və Bəni-İsrail əzazillərinin əli ilə qətlə yetirildilər.Hz.İsanın həvariləri haqqında Qurani-Kərimdə belə buyurulur:

əl-Maidə-110-O zaman ki,mən həvarilərə vəhy etdim ki,Mənə və mənim Peyğəmbərimə iman gətirin.Onlar dedilər:-Biz iman gətirdik. Şahid ol ki,biz həqiqətən müsəlmanıq."

Həvarilərin adları:Butrus,Endərays,Tumaz,Filidus,Yuhannəs (ibn Zəndi),Yakudus(Yaqub ibn Zəbdi),İbn Təlma, Şem`un, Matta, Yaqub ibn Halkya,Tubbavus,Yudus Zəkəriyyə Yuta,

ƏN QƏDİM AZƏRBAYCAN TARİXİ

Azərbaycan ərazisi, bu diyarın dünyanın ən qədim insan məskənlərindən biri olduğunu sübut edən arxeoloji abidələrlə son dərəcə zəngindir. Azıx, Tağlar, Damcılı, Daşsalahlı, Qazma (Naxçıvan) mağaralarında, habelə başqa abidələrdə aşkar olunan arxeoloji tapıntılar,

o cümlədən 300-400 min il bundan əvvəl yaşamış Aşöl, dövrünə aid qədim insanın - Azıx adamının (Azıxantrop) çənə sümüyü Azərbaycanın ibtidai insanların formalaşdıqları əraziyə daxil olduğunu sübut edir. Bu nadir tapıntıya görə Azərbaycan ərazisi "Avropanın ən qədim sakinləri" xəritəsinə daxil edilmişdir.

Dünyanın ən qədim insan məskənlərindən biri olan Azərbaycanın əhalisi hələ qədim daş dövründən (paleolit) başlayaraq yüksək mədəniyyət yaratmışdır. Orta daş dövrü (mezolit) və yeni daş dövrlərində (neolit) Azərbaycan əhalisi oturaq həyata keçmiş, əkinçilik, maldarlıq, müxtəlif sənət sahələri ilə məşğul olmağa başlamışdır.

Azərbaycan ərazisindəki mədəni-iqtisadi tərəqqinin təsir dairəsi getdikcə genişlənməkdə idi. E. ə. IV minilliyin sonu - III minillikdə təşəkkül tapmış Kür-Araz mədəniyyəti Cənubi Qafqazın digər regionlarına, Şərqi Anadoluya və Şimali Qafqaza da yayılmışdı.

Azərbaycan xalqı təqribən 5 min illik dövlətçilik tarixinə malikdir. Azərbaycan ərazisində ilk dövlət qurumları və ya etnik-siyasi birliklər hələ eramızdan əvvəl IV minilliyin sonu - III minilliyin əvvəllərindən başlayaraq yaranmışdı. Burada meydana gəlmiş ən qədim Azərbaycan dövlətləri bütün regionun hərbi-siyasi tarixində mühüm rol oynayırdılar. Həmin dövrdə Azərbaycanla Dəclə və Fərat vadilərində yerləşən və dünya tarixində dərin iz qoymuş qədim Şumer, Akkad və Aşşur (Assuriya) dövlətləri, habelə Kiçik Asiyadakı Het dövləti arasında sıx qarşılıqlı əlaqələr vardı.

Zaman keçdikcə Azərbaycanın dövlətçilik mədəniyyəti daha da yüksəlmiş, ölkə ərazisində yeni daha kamil dövlətlər yaranmışdır. Eramızdan əvvəl I minillikdə - bizim eranın I minilliyinin əvvəllərində Azərbaycan torpaqlarında Manna, İskit (Skit, Skif) şahlığı, Atropatena və Albaniya kimi qüvvətli dövlətlər mövcud olmuşdur. Onlar Azərbaycanda dövlət idarəçiliyi mədəniyyətinin daha da yüksəlməsində, ölkənin iqtisadi-mədəni, etnik-siyasi tarixində, eləcə də vahid xalqın təşəkkülü prosesində böyük rol oynamışlar.

Ənənəvi Azərbaycan dövlətçiliyinin davamı olan və eramızdan əvvəl I minilliyin əvvəllərində meydana gələn Manna dövləti təkcə Azərbaycanın deyil, eləcə də dünyanın dövlətçilik mədəniyyəti tarixində mühüm yer tutur.

Manna hökmdarları irsi və qeyri-məhdud hakimiyyətə malik idilər. Lakin buna baxmayaraq onlar ölkəni ağsaqqallar şurasının köməyi ilə idarə edirdilər ki, bu da Azərbaycanın dövlət idarəçiliyi sahəsində qədim məşvərət mədəniyyətinə malik olduğunu sübut edir. Yurdumu-

zun cənub bölgələrində üç yüz ilə yaxın bir müddət ərzində davam etmiş və qüdrətli qonşularının aramsız hücumlarına duruş gətirmiş Manna Azərbaycanda ən qədim zamanlardan başlayaraq güclü dövlətçilik ənənələrinin mövcud olduğunu sübut edən çox qiymətli tarixi faktdır.

Eramızdan əvvəl VIII əsrin sonu - VII əsrin əvvəllərindən başlayaraq Azərbaycanın hərbi-siyasi tarixində kimmerlər və iskitlər, həmçinin iskitlərlə eyni kökdən olan saklar və massagetlər mühüm rol oynamağa başladılar. "Tarixin atası" Herodotun (e. ə.V əsr) öz şəxsi müşahidələrinə əsaslanan məlumatları da bunu sübut edir. İskitlər Mannadan şimaldakı Azərbaycan torpaqlarında qüdrətli İskit şahlığı yaratmış, ölkə ərazisində vahid xalqın təşəkkül prosesində iştirak etmişdilər. İskit-Massaget hökmdarları da Azərbaycan torpaqlarını yadelli təcavüzlərdən uğurla müdafiə etmişdilər. Massaget şahlığı o dövrün ən qüdrətli imperiyalarından biri olan İran-Əhəməni imperiyasını ağır məğlubiyyətə uğratmışdı. Yaxın və Orta Şərqdə geniş işğallar həyata keçirmiş Əhəməni hökmdarı II Kir Azərbaycanın cənub torpaqlarını zəbt etdikdən sonra ölkəmizin şimalını da ələ keçirməyə cəhd göstərmiş və bu məqsədlə Massaget hökmdarının dul qadını Tomirisə izdivac təklif etmişdi.

Lakin II Kirin hiyləsini başa düşən, Vətən torpağının şərəfini və ölkənin müstəqilliyini uca tutan Tomiris İran hökmdarının təklifini rədd etmiş, Günəş allahına and içərək özündən qat-qat güclü olan yadelli qoşunlarını e. ə. 530-cu ildə darmadağın etmişdi. "Məğlubedilməz" Kirin özü də bu döyüşdə öldürülmüşdü. Midiya imperiyası,Lidiya, Babilistan kimi qüdrətli dövlətləri aradan qaldıraraq, Parfiya torpaqları da daxil olmaqla, Mərkəzi Asiyadan Misir hüdudlarına qədər çox geniş əraziləri ələ keçirmiş və bütün bu işğallara görə "Böyük Kir" ləqəbi qazanmış II Kir üzərində bu qələbə Azərbaycan dövlətçiliyi tarixinin ən şanlı səhifələrindən biridir.

İskit şahlığı dövründə Azərbaycan mədəniyyəti ilə Avrasiyanın çox geniş ərazilərinə yayılmış iskit mədəniyyəti arasında qarşılıqlı əlaqə üçün də əlverişli şərait yarandı. Qədim Azərbaycan mədəniyyəti daha da inkişaf etdi və zənginləşdi. Arxeoloji qazıntılar zamanı aşkar olunmuş maddi mədəniyyət nümunələri, habelə Azərbaycan ərazisində İskit-sak-massaget dövründən qalmış çoxlu yer adları buna parlaq sübutdur. Yaxın və Orta Şərqdə çox mürəkkəb hərbi-siyasi hadisələrin cərəyan etməsinə, qonşu dövlətlərin təbii sərvətlərlə çox zəngin olan və hərbi-strateji baxımdan olduqca böyük əhəmiyyət kəsb edən Azərbaycan torpaqlarını ələ keçirmək cəhdlərinə baxmayaraq, dövlətçilik ənənələrimiz davam etməkdə və zənginləşməkdə idi. Odur ki, nə Əhəməni-İran im-

periyasının uzun sürən işğal rejimi, nə də Makedoniyalı İsgəndərin yürüşləri Azərbaycanın qədim dövlət idarəçiliyi mədəniyyətini məhv edə bilmədi. Makedoniyalı İsgəndərin ölümündən dərhal sonra Azərbaycan dövlətçiliyi yenidən dirçəldi. Ölkəmizin cənub torpaqlarında Atropatena, şimalında isə Albaniya dövlətləri meydana gəldi. Azərbaycanın bütün tarixi torpaqları bu iki yerli dövlətin tərkibində cəmləşdi.

Atropatena dövləti ölkənin cənub vilayətlərini əhatə edirdi. Burada müstəqil Azərbaycan dövlətçiliyinin dirçəlişi əslində hələ İsgəndərin Şərqə yürüşündən xeyli əvvəl baş vermişdi. Süquta uğramış keçmiş Midiya imperiyasının digər əraziləri ilə birlikdə ayrıca satraplığa çevrilmiş Azərbaycanın cənub torpaqlarını əhəməni satrapı Atropat hələ Əhəmənilərin hakimiyyəti dövründə müstəqil surətdə idarə edirdi. Azərbaycanın bu hissəsi o zaman Midiya-Atropatena, Kiçik Midiya və ya Atropatın adı ilə Atropat Midiyası, bəzən də Atropatiya və ya Atropatena adlanırdı.

Uzaqgörən siyasətçi və məşhur sərkərdə olan Atropat III Daranın İsgəndərə qarşı çıxardığı Əhəməni qoşunlarının ön dəstələrinə əsas zərbə qüvvəsinə başçılıq edirdi. Bu qüvvələr əsasən Azərbaycanın şimal və cənub torpaqlarından toplanmış hərbi dəstələrdən ibarət idi. III Daraya qalib gəldikdən sonra Atropatın sərkərdəlik istedadına və hərbi-siyasi nüfuzuna bələd olan İsgəndər onunla toqquşmaq fikrindən daşındı və Azərbaycan hakimi ilə yaxınlaşmağı daha üstün tutdu. Beləliklə, Makedoniyalı İsgəndərin işğalları Azərbaycandan yan keçdi. Sonralar Atropat Makedoniya hökmdarı ilə bu yaxınlaşmanı daha da dərinləşdirərək onun ən yaxın adamlarından biri ilə qohumluq əlaqəsi yaratdı və nəhayət, bütün Şərqdə ilk dəfə olaraq, Atropatenanı yunan-Makedoniya asılılığından azad olmuş ilk müstəqil dövlətə çevirdi.

Müstəqil dövlətçilik ənənələrinin dirçəlişi Azərbaycanın cənub rayonlarında iqtisadi və mədəni həyatın bütün sahələrində böyük yüksəlişə səbəb oldu. Qüdrətli Atropatena dövləti bütün regionun beynəlxalq münasibətlərində mühüm rol oynayır,Qafqaz, Volqaboyu, Orta Asiya, Hindistan, Kiçik Asiya, Mesopotamiya, Qara dəniz və Aralıq dənizi hövzələri ölkələri ilə geniş ticarət əlaqələri saxlayırdı. Daxili ticarətdə dövlətin öz pulları mühüm rol oynayırdı.

Şərq və yunan dövlət sistemləri arasındakı qarşılıqlı əlaqə və təsir Atropatenada idarəçilik mədəniyyətinin də yüksəlişinə müsbət təsir göstərirdi. Ölkədə yunan dilindən geniş istifadə olunması, başqa sahələrlə yanaşı, hüquq normalarının da təkmilləşməsinə səbəb olurdu. Dövlət idarəçiliyi qaydaları daha da təkmilləşirdi.

Azərbaycanın, həmçinin Qədim Şərqin və Yunanıstanın dövlət idarəçiliyi ənənələrindən bəhrələnən Atropatena hökmdarları öz hakimiyyətlərini daha da qüvvətləndirə bildilər. Nəticədə Atropatena Parfiya və Selevki dövlətlərinə qarşı mübarizədə öz müstəqilliyini qoruyub saxlaya bildi, ölkənin ərazisinə soxulmuş Roma qoşunlarını parfiyalılarla birləşərək darmadağın etdi. O zaman Atropatena qoşunları bütün regionda ən güclü hərbi qüvvələrdən biri hesab olunurdu. Roma təcavüzkarları ilə döyüşə Atropatena 40 min piyada və 10 min süvari çıxarmışdı. Yaxın və Orta Şərqdə çox mühüm hərbi-siyasi qüvvə olan Atropatena dövləti ilə Roma imperiyası arasında geniş əlaqələr yaranmışdı. Roma imperiyası özünün şərq siyasətində Atropatenaya xüsusi əhəmiyyət verirdi. Atropatena elçiləri Romaya gedib imperator Oktavian Avqustla (e.ə.27-e.14) diplomatik danışıqlar aparmışdılar.

Ölkənin şimalında meydana gələn Albaniya dövlətinin sərhədləri Dağıstanın cənubu (Dərbənd və ətrafları ilə birlikdə) da daxil olmaqla Baş Qafqaz dağlarından başlayaraq cənubda Araz çayına qədər, qərbdə isə Göyçə gölü hövzəsi, Qabırrı (İori) və Qanıx (Alazan) çaylarının yuxarılarından başlayaraq şərqə doğru Xəzər dənizinədək uzanıb gedən Azərbaycan torpaqlarını əhatə edirdi. Bu qüdrətli Azərbaycan dövlətinin paytaxtı əvvəllər Qəbələ, sonra isə Bərdə (V əsrdən sonra) şəhərləri idi.

Albaniya dövründə Azərbaycanın şimal torpaqlarında maddi və mənəvi mədəniyyət daha da inkişaf etmişdi. Bu dövrdə elmi ədəbiyyatda alban əlifbası adlanan Azərbaycan əlifbası yaradılmış, məktəblər açılmışdı.

Ölkədə mühüm ticarət və sənətkarlıq mərkəzi olan 30-dan çox şəhər vardı. Şimalla Cənubun, Şərqlə Qərbin qovşağında yerləşən və müxtəlif etnosların, dinlərin, mədəniyyətlərin qarşılaşıb təmasa girdiyi Albaniyada özünəməxsus və zəngin mədəniyyət formalaşmaqda idi. Bu, dövlətin həyatında mühüm rol oynayırdı. Aya, Göyə, Günəşə oda,sitayişlə yanaşı xristianlıq da yayılmaqda idi. Müstəqil Alban kilsəsi dini cəhətdən birbaşa Romaya tabe idi.

Albaniya dövründə Azərbaycanın dövlət idarəçiliyi mədəniyyəti daha da yüksəlmişdi. Alban hökmdarları ölkənin dünyəvi və dini başçısı idilər.Onlar, eyni zamanda qanunlar verir,ölkənin hərbi qüvvələrinə başçılıq edirdilər.Dövlətin hərbi qüvvələri 80 min nəfəri (60 min piyada, 22 min süvari) aşmışdı.

Albaniya hökmdarının sarayında məşvərət şurası fəaliyyət göstərirdi. Məşvərət şurasına və ruhani yığıncaqlarına Albaniya hökmdarlarının özləri rəhbərlik edirdilər.Atropatena kimi Albaniya dövlətinin də öz

pulları vardı Öz dövrü üçün möhkəm və mükəmməl dövlət idarəçiliyi sisteminə malik olan Albaniya dövləti ölkənin müstəqilliyi üçün təhlükə törədən Parfiyaya və Roma imperiyasına qarşı uğurla mübarizə aparmışdı.Ölkəyə müdaxilə edən Roma imperiyasının qoşunları Alban cəngavərləri tərəfindən dəfələrlə ağır məğlubiyyətə uğradılmışdı. Roma imperiyası Albaniyanın hərbi-siyasi qüdrəti ilə hesablaşmağa məcbur olmuş, iki ölkə arasında qarşılıqlı əlaqələr yaranmışdı. Atropatena kimi Albaniya elçiləri də Romaya gedib imperator Oktavian Avqustla danışıqlar aparmışdılar.

Albaniya hökmdarı, görkəmli dövlət xadimi Cavanşir ölkəni ələ keçirməyə çalışan Bizans, Sasani, Xilafət və Xəzər imperiyaları kimi qüdrətli qonşulara qarşı müdrik, uzaqgörən və çevik xarici siyasət yeritmiş, özünün sərkərdəlik məharəti və döyüş şücaəti ilə ölkənin müstəqilliyini qoruyub saxlaya bilmişdi.

Yaxın və Orta Şərqdə mühüm hərbi-siyasi və mədəni təsir gücünə, region ölkələri ilə sıx qarşılıqlı münasibətlərə malik olan Albaniya Aralıq dənizi hövzəsi ölkələri ilə, o cümlədən Roma imperiyası ilə də geniş əlaqələr saxlayırdı. İlk mənbələr, o cümlədən arxeoloji qazıntılar zamanı aşkar olunmuş zəngin maddi mədəniyyət nümunələri Albaniya dövründə Azərbaycanın şimal torpaqlarının xarici ölkələrlə geniş əlaqələr saxladığını sübut edir.Yaxın və Orta Şərq ölkələrini Xəzər xaqanlığı və Şərqi Avropa ilə birləşdirən beynəlxalq ticarət yollarının Albaniyadan keçməsi ölkənin xarici ticarət əlaqələrinə müsbət təsir göstərirdi.

Keçən əsrin əvvəllərində ölkəmiz öz tarixinin ən ağır sınaq dövrlərindən biri ilə qarşılaşdı: III əsrdə Azərbaycanı Sasani-İran imperiyası,VII əsrdə isə Ərəb xilafəti işğal etdi. İşğalçılar ölkəyə İranın və Ərəbistanın içərilərindən çoxlu iran və ərəb mənşəli əhali köçürüb gətirdilər.Gəlmə əhali mühüm hərbi-strateji əhəmiyyətə malik olan məntəqələrdə və ən məhsuldar torpaqlarda yerləşdirildi. Onlara geniş imtiyazlar verildi.

Lakin bütün bunlar Azərbaycanın qədim dövlətçilik ənənələrini məhv edə bilmədi. Azərbaycan xalqının təşəkkülü prosesi davam etdi. Uzun tarixi dövr ərzində Azərbaycanın bütöv halda həmin imperiyaların tərkibində olması nəticəsində, ölkənin bütün bölgələri arasında daxili əlaqələr, ilk növbədə ticarət əlaqələri genişləndi. Azərbaycanın şimal və cənub,şərq və qərb bölgələri arasında etnik-siyasi və mədəni birliyin yaranması yolunda mühüm irəliləyiş baş verdi. Bu dövrdə Tanrıya sitayiş,tanrıçılıq hələ başqa dini görüşləri sıxışdırıb tamamilə ara-

dan qaldıra bilməmişdi. Zərdüştilik, atəşpərəstlik, Günəşə, Aya, Göyə, ulduzlara, torpağa, suya və s. sitayiş davam etməkdə idi. Ölkənin şimalında - Albaniya ərazisinin bəzi yerlərində xristianlıq yayılmaqda idi.

VII əsrdə İslam dininin qəbul olunması ilə Azərbaycan tarixinin ən mühüm hadisələrindən biri baş verdi.

Ölkədə dini birliyin yaranması bütün Azərbaycan ərazisində vahid adət-ənənələrin təşəkkülünə, əlaqələrin genişlənməsinə səbəb oldu.

Bununla belə, təkallahlı dinlərə sitayiş edənləri müsəlmanlaşdırmaq İslamın prinsiplərinə zidd olduğu üçün ərəb fütuhatları dövründə Albaniyanın xristian əhalisi İslam dininin təsir dairəsindən kənarda qaldı. Beləliklə, ölkədə dini ayrılıq baş verdi: çoxluq təşkil edən və ölkənin bütün ərazisinə yayılmış olan müsəlman əhali; bir də, azlıq təşkil edən və əsasən Şimali Azərbaycanın qərb bölgələrində yaşayan xristian albanlar. Zaman keçdikcə Qərbi Azərbaycanın, o cümlədən Qarabağın dağlıq bölgələrinin xristian əhalisi qriqoryanlaşdırılmağa başlandı.

Xilafət dağıldıqdan sonra IX əsrin ortalarından Azərbaycanın qədim dövlətçilik ənənələri yenidən dirçəldi.Azərbaycanda yeni siyasi dirçəliş başlandı: Azərbaycan torpaqlarında Sacilər, Şirvanşahlar, Salarilər, Rəvvadilər, Şəddadilər dövlətləri yarandı. Siyasi, iqtisadi və mədəni həyatın bütün sahələrində oyanış baş verməkdə idi.

Ərəb xilafətinin süqutu və Azərbaycan dövlətçiliyinin dirçəlişi ilə bir zamanda Azərbaycan dili bütün ölkə ərazisində əsas ünsiyyət vasitəsinə çevrildi. Bu, Azərbaycanın gələcək inkişafına güclü təkan verə biləcək tarixi nailiyyət idi. IX əsrin 70-ci illərinin sonlarından başlayaraq yarım əsrdən çox davam edən bir tarixi dövr ərzində (879-941) Azərbaycan torpaqlarının hamısının vahid Azərbaycan Sacilər dövlətinin tərkibində olması bütün ölkə miqyasında iqtisadi və mədəni əlaqələrin daha da dərinləşməsinə, etnik fərqlərin aradan qalxması və vahid Azərbaycan xalqının formalaşması prosesinin daha da sürətlənməsinə müsbət təsir göstərdi.

Sacilər dövləti özünün ən qüdrətli çağlarında Zəncandan Dərbəndə, Xəzər sahillərindən Ani və Dəbil şəhərlərinə qədər geniş əraziləri əhatə edirdi. Bütün Azərbaycan torpaqları Sacilər dövlətinin tərkibinə daxil idi.Məhz bu dövrdə Azərbaycan və ümumtürk ədəbiyyatının şah əsəri olan "Kitabi-Dədə Qorqud" dastanları, demək olar ki, bütün Azərbaycan torpaqlarında yayıldı. Beləliklə, 600 ilə qədər davam edən Sasani və ərəb əsarətindən sonra yerli dövlətlərin (Sacilər, Şirvanşahlar, Salarilər, Rəvvadilər, Şəddadilər) yaranması, İslam dininin bütün ölkə ərazisində əsas təkallahlı dinə çevrilməsi Azərbaycan xalqının etnik təkamülündə, vahid dilin və mədəniyyətin təşəkkülündə mühüm rol oynadı.

İslam dini, eyni zamanda Azərbaycanı idarə edən ayrı-ayrı feodal sülalələrinin tez-tez bir-birini əvəz etdiyi bir tarixi şəraitdə bütün Azərbaycan əhalisinin yadelli qəsbkarlara qarşı vahid qüvvə halında birləşməsində də mütərəqqi rol oynadı. Ümumi düşmənlərə qarşı mübarizədə sıx birləşməyin zəruriliyi,vahid dinin İslamın ölkə əhalisinin qaynayıb-qarışmasına, qohumlaşmasına,ümumi adət və mərasimlərə yol açması etniksiyasi birliyi daha da möhkəmləndirdi.

Bununla belə, Ərəb xilafətinin tənəzzülündən sonra yaranmış dövlətlərdən heç birinin uzun tarixi dövr ərzində Azərbaycanın bütün ərazisini əhatə edən vahid, davamlı və qüdrətli dövlətə çevrilə bilməməsi nəticəsində ölkədə uzun sürən siyasi sabitlik də yaranmadı. Azərbaycan Orta Asiyadan Aralıq dənizi sahillərinə və Dərbənd keçidindən İran körfəzinə qədər geniş əraziləri əhatə edən Böyük Səlcuq imperatorluğunun tərkibinə daxil edildi.

Səlcuq dövrü Azərbaycanın tarixi müqəddəratında həlledici rol oynadı. Sultan Alp Arslan Malazgird vuruşmasında (26 avqust 1071-ci il) Bizans imperiyasının hərbi qüvvələrini darmadağın edərək qəti qələbə çaldı. Beləliklə, müxtəlif tarixi dövrlərdə (həm eramızdan əvvəl, həm də sonra) soykökündə, başlıca olaraq, iskit (skit, skif), sak, massaget, hun, bulqar, xəzər, barsil, peçeneq, suvar, habelə başqa türk və qeyri-türk etnoslarının iştirak etdiyi və oğuz türklərinin (qaraqoyunlular, ağqoyunlular, səlcuqlar və b.) həlledici rol oynadığı Azərbaycan xalqının təşəkkülü prosesi başa çatdı. Azərbaycan dili bütün Cənubi Qafqazda, o cümlədən Azərbaycan ərazisində başlıca ünsiyyət vasitəsi oldu. Sadə və anlaşıqlı Azərbaycan dili məhdud daiərədə fəaliyyət göstərən dilləri, həmçinin ərəb və fars dillərini sıxışdıraraq bütün ölkə miqyasında canlı ümumxalq dilinə çevrildi. El sənətkarlarının - ozanların (aşıqların) oba-oba, oymaq-oymaq gəzib yaydıqları şifahi xalq yaradıcılığı nümunələri, çox keçmədən, hamının başa düşdüyü doğma Azərbaycan dilində nadir ədəbi incilərin meydana gəlməsi üçün zəmin yaratdı.

Yaxın və Orta Şərqin ən qüdrətli dövlətinə çevrilən Azərbaycan Eldənizlər dövləti Azərbaycan xalqının etnik-siyasi tarixində xüsusilə böyük rol oynadı. Eldənizlərin hakimiyyəti dövründə bütün Azərbaycan torpaqlarının vahid dövlətin tərkibində birləşdirilməsi iqtisadi, siyasi və mədəni həyatın bütün sahələrində güclü yüksəlişə səbəb oldu. Sənətkarlıq, ticarət, elm və mədəniyyət daha da inkişaf etdi. Daxili və xarici ticarət əlaqələri genişləndi. Mədrəsələr açıldı, məscidlər, nadir memarlıq abidələri ucaldıldı. Azərbaycan intibahı özünün Xaqani, Nizami, Əcəmi zirvəsinə ucaldı. Görkəmli dövlət xadimləri Şəmsəddin

Eldəniz, Məhəmməd Cahan Pəhləvan və Qızıl Arslan Azərbaycanın dövlət idarəçiliyi tarixinə parlaq səhifələr yazdılar. Eldənizlərin hakimiyyəti dövründə Azərbaycan dili və mədəniyyətinin yayıldığı ərazi daha da genişləndi. Beləliklə, Ərəb xilafətinin tənəzzülündən sonra -IX əsrin ortalarından başlayaraq Qafqazda, habelə bütün Yaxın və Orta Şərqdə imperiyaların rolu artdı. Sacilər, Şirvanşahlar, Salarilər, Rəvvadilər, Şəddadilər, Şəki hakimləri, Səlcuqlar, Eldənizlər, Monqollar, Elxanilər-Hülakular, Çobanilər, Cəlayirlər, Teymurilər, Osmanlılar, Qaraqoyunlular, Səfəvilər, Qacarlar və başqa sülalələrin idarə etdikləri dövlətlər təkcə Azərbaycanın, həmçinin bütövlükdə Cənubi Qafqazın deyil, eyni zamanda, bütün Yaxın və Orta Şərqin dövlətçilik tarixində dərin iz qoydular.

XV-XVIII əsrlərdə Azərbaycanın dövlətçilik mədəniyyəti daha da zənginləşdi. Bu dövrdə Şərqin geniş ərazisi Qaraqoyunlu, Ağqoyunlu və Səfəvi dövlətləri bilavasitə Azərbaycan sülalələri tərəfindən idarə olunurdu.

Bu mühüm amil Azərbaycanın daxili və beynəlxalq əlaqələrinə müsbət təsir göstərir, ölkəmizin və xalqımızın hərbi-siyasi təsir dairəsini, Azərbaycan dilinin fəaliyyət meydanını genişləndirir, Azərbaycan xalqının maddi və mənəvi mədəniyyətinin daha da inkişaf etməsinə əlverişli şərait yaradırdı.Bəhs olunan dövrdə Azərbaycan dövlətləri Yaxın və Orta Şərqin beynəlxalq münasibətlərində, hərbi-siyasi həyatında mühüm rol oynamaqla yanaşı, Avropa-Şərq münasibətlərində də çox fəal iştirak edirdilər.

Azərbaycanın böyük dövlət xadimi Uzun Həsənin (1468-1478) hakimiyyəti illərində Ağqoyunlu dövləti bütün Yaxın və Orta Şərqdə qüdrətli hərbi-siyasi amilə çevrildi. Azərbaycanın dövlətçilik mədəniyyəti daha da inkişaf etdi.Uzun Həsən bütün Azərbaycan torpaqlarını əhatə edən güclü mərkəzləşdirilmiş dövlət yaratmaq siyasəti yeridirdi. O, bu məqsədlə xüsusi "Qanunnamə" hazırlatmışdı. Uzaqgörən dövlət xadimi ölkənin iqtisadi qüdrətini artırmaq üçün xəzinəyə vergi ödəyən əhalinin vəziyyətini yaxşılaşdırmağa, oturaq təsərrüfat sahələrini inkişaf etdirməyə, dövlət məmurlarının özbaşınalığına və iri tayfa başçılarının hərbi-siyasi müstəqilliyinə son qoymağa çalışırdı.Uzun Həsən məmləkətdə məzhəb ayrılığının baş verəcəyini və bunun dövlətin qüdrətinə, ölkənin etnik-siyasi birliyinə mənfi təsir göstərəcəyini irəlicədən görürdü. Buna görə də bacısını Şeyx Cüneyd Səfəviyə, qızını isə Şeyx Heydər Səfəviyə verməklə məmləkətdə yaxınlaşmaqda olan məzhəb parçalanmasının qarşısını almağa, ağqoyunlularla səfəvilər

arasında barışıq yaratmağa çalışırdı. Dünya hərb sənətində baş verən dəyişiklikləri diqqətlə izləyən görkəmli sərkərdə güclü nizami ordu yaratmağa çalışır, muzdla xidmət edən piyada qoşunların sayını artırır, odlu silahlar istehsalına başlamaq və güclü artilleriya yaratmaq üçün hazırlıqlar görürdü. Bu məqsədlə o,İtaliyadan toptökən ustalar və hərbi mütəxəssislər dəvət etmişdi.Görkəmli dövlət xadimi elmin,maarifin inkişafına xüsusi diqqət yetirirdi.O, dövrün ən qabaqcıl alimlərini öz sarayına toplamışdı. Hökmdarın şəxsi kitabxanasında 60-a qədər alim çalışırdı.Uzun Həsən sarayında dövrün görkəmli alimlərindən ibarət elmi məclis fəaliyyət göstərirdi. Böyük hökmdar Qurani-Kərimi azərbaycancaya çevirtdirmiş, dövrün görkəmli elm adamı Əbu Bəkr Tehraniyə "Kitabi-Diyarbəkriyyə" adlı oğuznamə yazdırmışdı. Uzun Həsən dövründə Azərbaycanın Şərq-Qərb əlaqələrindəki rolu daha da artmışdı. Azərbaycanın ənənəvi əlaqələr saxladığı Şərq ölkələrindən başqa Avropa dövlətləri ilə də geniş diplomatik münasibətlər yaratmışdı. Uzun Həsən dövründə Azərbaycan elçiləri Venesiya Respublikası, Papalıq, Neapol krallığı, Albaniya, Macarıstan,Polşa, Almaniya, Burqundiya hersoqluğu, Kipr, Rodos, Trabzon imperatorluğu, Böyük Moskva knyazlığı ilə, həmçinin bir çox qonşu Şərq ölkələri hökmdarlarının saraylarında diplomatik danışıqlar aparmışdılar.Xarici ölkələrlə aparılan danışıqlarda Uzun Həsənin anası o zaman bütün Şərqdə yeganə qadın diplomat olan Sara Xatun mühüm rol oynayırdı.Təbrizdə Uzun Həsən sarayında Venesiya Respublikasının daimi səfirliyi fəaliyyət göstərirdi. Azərbaycan Şərqlə Qərb üçün ümumi maraq doğuran beynəlxalq problemlərin həllində mühüm rol oynayırdı. XV əsrin sonu - XVI əsrin əvvəllərində Azərbaycan dövlətçiliyi özünün tarixi təkamülündə yeni mərhələyə qədəm qoydu.Uzun Həsənin nəvəsi görkəmli dövlət xadimi Şah İsmayıl Xətai bütün Azərbaycan torpaqlarını öz hakimiyyəti altında birləşdirə bildi. Paytaxtı Təbriz şəhəri olan vahid, mərkəzləşdirilmiş Azərbaycan dövləti - Səfəvi dövləti meydana gəldi. Səfəvilərin hakimiyyəti dövründə Azərbaycanın dövlət idarəçiliyi mədəniyyəti daha da yüksəldi. Azərbaycan dili dövlət dilinə çevrildi. Şah İsmayıl, Şah Təhmasib, Şah Abbas və digər Səfəvi hökmdarlarının həyata keçirdikləri uğurlu islahatlar,daxili və xarici siyasət nəticəsində Səfəvi dövləti Yaxın və Orta Şərqin ən qüdrətli imperiyalarından birinə çevrildi. Geniş ərazili Səfəvi imperiyasını idarə etmək üçün mükəmməl dövlət idarəçiliyi mexanizmi yaradıldı.

Səfəvi hökmdarları dünyəvi hakimiyyətlə yanaşı, dini hakimiyyəti də ələ keçirdilər. Bununla, mərkəzi hakimiyyət daha da qüvvətləndirildi.

Şah sarayında Ali məşvərət məclisi və ya Ali səltənət şurası ("Məclisiəla") fəaliyyət göstərirdi. Mərkəzi və yerli idarə orqanlarının işini tənzimləyən mükəmməl bir bürokratik sistem yaradılmışdı. Ölkə ərazisindəki bütün məhkəmə işlərinə Ali divan nəzarət edirdi. Səfəvi hökmdarlarının, xüsusən Şah Abbasın keçirdiyi islahatlar nəticəsində Səfəvilərin hərbi qüvvələri dünyanın ən qüdrətli ordularından birinə çevrilmişdi. Səfəvilərin hakimiyyəti illərində bütün Yaxın və Orta Şərqdə Azərbaycan dilinin rolu daha da artdı.Səfəvi sarayına gəlmiş xarici ölkə elçiləri ilə diplomatik danışıqlar da Azərbaycan dilində aparılırdı.

Ağqoyunluların xarici siyasət xəttini davam etdirən Səfəvilərin hakimiyyəti dövründə də Azərbaycan Qara dəniz və Aralıq dənizi hövzəsi ölkələrindən başlamış uzaq İngiltərə və Skandinaviyaya qədər bir çox Avropa dövlətləri ilə diplomatik əlaqə saxlayırdı. Şah İsmayıl Xətai, Şah Təhmasib, Şah Məhəmməd Xudabəndə, Şah Abbas və b. Azərbaycan hökmdarlarının saraylarında çoxsaylı Qərb diplomatları Səfəvi dövləti ilə sıx qarşılıqlı əlaqələr yaratmaq üçün danışıqlar aparmışdılar. Azərbaycan Ağqoyunlular dövründə olduğu kimi, Səfəvilərin hakimiyyəti zamanında da Şərqlə Qərb arasındakı qarşılıqlı əlaqələrdə mühüm rol oynamaqda davam edirdi.

Səfəvi dövlətinin süqutundan sonra hakimiyyətə gələn görkəmli Azərbaycan sərkərdəsi Nadir şah (1736-1747) keçmiş Səfəvi imperiyasının sərhədlərini daha da genişləndirdi. Bu böyük hökmdar 1739-cu ildə Dehli də daxil olmaqla Şimali Hindistanı da ələ keçirdi.Lakin onun bu geniş ərazidə qüdrətli mərkəzləşdirilmiş dövlət yaratmaq planları baş tutmadı.

Nadir şahın ölümündən sonra onun idarə etdiyi geniş ərazili imperiya süquta uğradı. Hələ Nadir şahın sağlığında ikən azadlıq mübarizəsinə qalxan və müstəqilliyə can atan Azərbaycan torpaqlarında yerli dövlətlər yarandı.

Beləliklə, XVIII əsrin II yarısında Azərbaycan xırda dövlətlərə, xanlıqlara və sultanlıqlara parçalandı.Ölkənin hərbi-siyasi tənəzzül dövrü başlandı.Azərbaycanın qədim dövlətçilik ənənələrini yaşatmağa çalışan ayrı-ayrı xanlar bütün ölkəni yenidən vahid dövlət çərçivəsində birləşdirməyə çalışsalar da,bu, heç bir nəticə verm̈ədi. Siyasi pərakəndəlik daha da dərinləşdi.Bununla Azərbaycanı işğal etməyə çalışan yadelli təcavüzkarların əlinə çox əlverişli bir fürsət düşdü.

XVIII əsrin sonunda Azərbaycan sülaləsi olan Qacarlar (1796-1925) İranda hakimiyyətə gəldilər. Qacarlar vaxtı ilə onların ulu babaları

qaraqoyunluların, ağqoyunluların, səfəvilərin və nəhayət Nadir şahın hakimiyyəti altında olmuş bütün əraziləri, o cümlədən Azərbaycan xanlıqlarını yenidən mərkəzi hakimiyyətə tabe etmək siyasəti yeritməyə başladılar.Beləliklə,Qacarlarla Cənubi Qafqazı işğal etməyə çalışan Rusiya arasında uzun sürən müharibələr dövrü başlandı.Azərbaycan iki böyük dövlət arasında qanlı müharibələr meydanına çevrildi.Gülüstan (1813) və Türkmənçay (1828) müqavilələrinə əsasən Azərbaycan iki imperiya arasında bölüşdürüldü: Şimali Azərbaycan Rusiyaya,Cənubi Azərbaycan isə Qacarların idarə etdiyi İran şahlığına qatıldı.

Rusiya Cənubi Qafqazda özünə dayaq yaratmaq üçün Azərbaycan torpaqlarına, xüsusən Qarabağın dağlıq rayonlarına, İrəvan və Naxçıvan xanlıqlarının ərazisinə qonşu ölkələrdən kütləvi surətdə erməni əhalisi köçürdü.Türkiyə ilə həmsərhəd olan Qərbi Azərbaycan torpaqlarında keçmiş İrəvan,Naxçıvan xanlıqlarının ərazisində süni surətdə və xüsusi məqsədlə"Erməni vilayəti" yaradıldı.Bununla Azərbaycan torpaqlarında gələcək erməni dövlətinin əsası qoyuldu. Bundan əlavə, Rusiya 1836-cı ildə müstəqil Alban kilsəsini ləğv etdi və onu qriqorian kilsəsinin tabeçiliyinə verdi. Bununla Azərbaycanın qədim əhalisi olan xristian albanların qriqorianlaşdırılmasına daha əlverişli şərait yaradıldı,ermənilərin azərbaycanlılara qarşı yeni ərazi iddialarının əsası qoyuldu. Rusiyadan Azərbaycana xristian əhalisinin köçürülməsinə də diqqət artırıldı. Məqsəd Cənubi Qafqazda,xüsusən Azərbaycanda xristian amilinin rolunun gücləndirilməsindən ibarət idi. Azərbaycanın cənub torpaqlarında da eyni cür siyasət həyata keçirilirdi. Çox çəkmədən, müstəqil yaşamaq ənənələrinə malik olan Azərbaycan xalqının həm şimalda, həm də cənubda azadlıq mübarizəsi gücləndi.Nəticədə, əvvəllər Azərbaycana yiyələnmək üstündə öz aralarında qanlı müharibələr aparmış Rusiya və İran dövlətləri Azərbaycan xalqının azadlıq mübarizəsinə qarşı və ölkəmizin yenidən birləşməsinə yol verməmək məqsədilə bir-birinin etibarlı müttəfiqinə çevrildilər.Bütün bunlara baxmayaraq, Azərbaycan xalqı Rusiya ağalığına və Qacarlar İranın şahlıq rejiminə qarşı istiqlal mücadiləsini dayandırmadı, özünün müstəqil dövlətini yaratmaq üçün dəfələrlə üsyan qaldırdı, ölüm-dirim savaşına qalxdı.

Birinci dünya müharibəsi dövründə Azərbaycan xalqı həm şimalda, həm də cənubda öz milli dövlətçilik ənənələrini dirçəltmək üçün zəmin yaratdı. Bakıda hakimiyyəti ələ keçirən S.Şaumyanın daşnak-bolşevik hökuməti 1918-ci ilin martında Azərbaycanlılara qarşı dəhşətli soyqırımı həyata keçirdi.1918-ci il mayın 28-də Şimali Azərbaycanda Şərqdə ilk demokratik respublika - Azərbaycan Xalq Cümhuriyyəti

yaradıldı.Cənubi Azərbaycanda isə müstəqil və demokratik Azadıstan dövləti (“Azadıstan məmləkəti”) quruldu (1920). Şeyx Məhəmməd Xiyabani Azadıstan Milli hökumətinin başçısı oldu.Hər iki Azərbaycan dövlətinin ərazisində geniş milli-demokratik islahatlar keçirilməsinə başlandı.Beləliklə,Birinci dünya müharibəsinin doğurduğu tarixi şəraitdən istifadə edən Azərbaycan xalqı həm şimalda, həm də cənubda özünün qədim dövlətçilik ənənələrini yenidən dirçəldə bildi,müstəqil yaşamağa layiq və qadir xalq olduğunu bir daha sübuta yetirdi. Avropa ölkələrində olduğu kimi Azərbaycanda da parlamentli respublika tipli demokratik idarəçilik qaydalarının tətbiq olunmasına başlandı. Bu, Azərbaycan xalqının çox böyük tarixi nailiyyəti idi.

1917-ci ildə Rusiyada baş vermiş Fevral inqilabı nəticəsində Rusiyada Çar İmperiyası devrildi. Ölkədə çarizmin məzlum vəziyyətə saldığı xalqların milli hərəkatı başlandı.1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920) -müsəlman Şərqində ilk dünyəvi demokratik dövlət yaradıldı. Bu respublika millətimizin tarixi yaddaşında Azərbaycan dövlətçiliyinin ilk təcrübəsi kimi iz qoymuşdur. Məmməd Əmin Rəsulzadə tərəfindən əsası qoyulan Demokratik Cümhuriyyəti Türk və İslam dünyasında ilk Parlamentli Respublika və ilk demokratik, hüququ və dünyəvi dövlət nümunəsi idi.1918-ci il mayın 28-də Tiflisdə Azərbaycan milli şurasının müstəqillik haqqında qətnaməsində qeyd edilirdi ki, vətəndaşların hüququ,siyasi, dini azadlıqları təmin edilir, müstəqil Azərbaycan dövləti qeyri dini, demokratik quruluşa malik olan ölkədir. Qətnamədə deyilirdi: “Azərbaycan Demokratik Respublikası milliyyətindən, dinindən, ictimai vəziyyətindən, cinsindən asılı olmayaraq bütün vətəndaşları öz hüdudları daxilində vətəndaşlıq və siyasi hüquqlarla təmin edir”.Azərbaycan müvəqqəti hökumətinin ilk başçısı isə Fətəli Xan Xoyski seçilib.10 gün Milli Şura Tiflisdə işlədikdən sonra Gəncəyə köçürülüb.Yalnız 1918-ci ilin sentyabrında Türkiyə ordusunun rəhbərliyilə - Bakı daşnakrus qüvvələrdən təmizləndikdən sonra milli hökumət Gəncədən Bakıya köçdü.1918-ci il dekabrın 7-də Bakıda Azərbaycan parlamenti öz işinə başladı. Bütün dinlərdən olan deputatlar bərabər hüquqlu nümayəndə səlahiyyətinə malik idilər.Dinə münasibətindən asılı olmayaraq bütün vətəndaşlar Azərbaycan Demokratik Respublikasının bərabər hüquqlu əhalisini təmsil edirdilər. Milli mənlik duyğusunun güclənməsi ilə başlanan dirçəliş ümummilli vicdanı oyatmaya bilməzdi.1918-ci il, 9 noyabr tarixində M.Ə.Rəsulzadənin təklifi əsasında Azərbaycan Demokratik Respublikasının üç rəngli bayrağı qəbul edilmişdir. O zamana qədər Azərbaycan Demokratik

Respublikasının bayrağı qırmızı rəngdəydi. Azərbaycan Demokratik Respublikası gərgin və mürəkkəb ictimai-siyasi şəraitdə cəmi 23 ay fəaliyyət göstərə bildi.Təəssüflər olsun ki Müstəqil Azərbaycan Cümhuriyyəti iki yaşına dolmadan bolşeviklərin hücumuna məruz qalıb müvvəqəti olaraq devrildi. Sovetlər Birliyi, Azərbaycanı məcburi surətdə öz tərkibinə daxil etdi. 27 aprel 1920 - Bolşevik Rusiyasının 11-ci ordusu Bakıya daxil olub.Bu vaxt Xalq Cümhuriyyətinin ordu hissələri Qarabağda və Gəncəbasarda qiyamçı erməni qüvvələri ilə döyüşdə idi,azsaylı sərhəd qoşunları isə rus ordusuna müqavimət göstərə bilməmişdi. Bolşevik rəhbərliyi Azərbaycan K(b)P MK və Rusiya K(b)P Qafqaz Diyar Komitəsinin Bakı Bürosu hakimiyyəti təhvil vermək barədə Xalq Cümhuriyyətinin parlamentinə ultimatum verib. Vəziyyəti real dəyərləndirən parlament gərgin müzakirələrdən sonra ultimatumla razılaşıb hakimiyyətin kommunistlərə verilməsi barədə qərar qəbul etdiləb. Parlamentin qərarında Azərbaycanın istiqlalının və ərazi bütövlüyünün qorunması, Milli Ordunun saxlanılması, siyasi partiyalara fəaliyyət azadlığı, Cümhuriyyətin dövlət xadimlərinə təqiblərin olmaması barədə şərtlər yer almışdı. Lakin bolşeviklər bu şərtlərin heç birini saya salmadı.

Bolşeviklər tərəfindən devirlməsinə baxmayaraq istiqlal ideyası yenilməyib və M.Ə.Rəsulzadənin "Bir kərə yüksələn bayraq bir daha enməz!" şuarı öz əksini tapıb və nəhayət 1991-ci ildə Sovet İmperiyasının dağılması ilə Azərbaycan yenidən öz müstəqilliyini elan etdi.

1969-cu il iyul ayının 14-də Azərbaycanın müasir tarixində dönüş mərhələsinin təməli qoyuldu. Heydər Əliyevin həmin gün Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilməsi respublikamızın tarixində yeni siyasi mərhələnin başlanğıcı oldu. Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövrü 1969-1982-ci illər Azərbaycanın quruculuq salnaməsinə ən parlaq səhifələr kimi daxil olmuşdur.

Xalqın təkidli tələbi ilə 1993-cü ilin iyununda yenidən hakimiyyətə qayıdır. Heydər Əliyevin hakimiyyətə Azərbaycanın ən yeni tarixinə Milli Qurtuluş Günü kimi yazıldı. Həm birinci, həm də ikinci hakimiyyəti dövründə Heydər Əliyevin əsas missiyası Azərbaycanı xilas etmək olub. Əgər 1969-cu ildə Azərbaycan iqtisadi fəlakətin astanasında idisə, 1993-cü ildə məhv olmaq ərəfəsində idi. Yalnız Heydər Əliyev zəkası Azərbaycanı bu bəlalardan xilas etdi. Heydər Əliyevin"Mən fəxr edirəm ki, Azərbaycanlıyam"kəlməsi bütün dünya Azərbaycanlılarının şüarıdır.

Bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev onun siyasi kursunu uğurla davam etdirir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, "Azərbaycanın gələcək uğurları Heydər Əliyevin siyasəti ilə bağlıdır. Bu siyasətə alternativ yoxdur. Yalnız bu siyasət Azərbaycanı uğurlu gələcəyə aparacaqdır." Heydər Əliyev.

Azərbaycanda Respublika Günü,dövlət müstəqilliyinin bərpası günü 1990-cı ildən dövlət bayramı kimi qeyd olunur.Azərbaycanda Respublika Günü (28 may 1918-ci il) Azərbaycanın ən parlaq və unudulmaz tarixi günlərindən biri - Azərbaycanın istiqlal günüdür. Respublika Günü hökumət və ictimaiyyət tərəfindən hər il bayram kimi qeyd edilir.

DAHİ SƏRKƏRDƏ BABƏK HAQQINDA

Dünya tarixində bir çox qiyam və hərəkatların mahiyyəti sonradan təhrif olunmuş və gələcək nəsillərə səhv çatdırılmışdır. Üsyanların bir çoxu haqq-ədalətin bərpası naminə həyata keçirilsə də, bunlara qarşı güclü antitəbliğat aparılmış və ictimai fikr tamamilə əks istiqamətə yönəldilmişdir.

Elə yaşadığımız yaxın tarixə nəzər salsaq 20 Yanvar hadisələri baş verdiyi zaman Sovet dövləti və ölkə mediyasında ilk verilən məlumatlar bundan ibarət idi ki: "Əli silahlı ekstrimis qüvvələr dövlətə qarşı üsyan etmiş və silahlı qüvvələrimiz tərəfindən bu üsyan yatırılmışdır. "Həmin dövrdə baş verən hadisələr və xaos hamımızın yaddaşında daima yaşayacaqdır. Bundan başqa keşmiş və yaxın tarixdə baş verən inqilab və müharibələrin gedişatı və nəticəsi haqqında yanlış məlumatların verilməsinin bu gündə şahidi oluruq.

Məlim olduğu kimi Azərbaycanın islamlaşma hicrətin 18-ci ilindən (639-cu il) başlamişdı və tarixci Bəlazurinin məlumatına gorə, artıq xəlifə Əli ibn Əbu Talibin hakimiyyəti dövrundə (656-661) Azərbaycan əhalisinin əksəriyyəti islamı qəbul etmişdi. Azərbaycanda islamlaşmanın birinci mərhələsi 7-ci əsrin ortalarından 8-ci əsrin əvvəllərinə qədər dövru əhatə edir.

Xürrəmilər hərəkatı 755-ci ildən Azərbaycan Ərəb Xilafətinin tərkibində olduğu dövrdə Abbasi xəlifələrinə və onların haqsız əməllərinə qarşı və Azərbaycanın öz müstəqilliyini qorumaq uğrunda yaranan bir xalq hərəkatı idi.

Əvvəlcə yaranmış (778-ci ildən və 816-cı ilə qədər davam edən) **Xürrəmilər hərəkatı**na Cavidan ibn Səhl və Əbu İmran başçılıq etmişdi və bu hərəkat Abbası xəlifəsi tərəfindən məhv edilmişdir. Cavidanın

ölümündən sonra xürrəmilərə rəhbərlik etməyə başlayan Babəkin əsas məqsədi Abbasi xəlifələrinə və onların əlaltılarına qarşı mübarizədən ibarət olmuşdur. (ət-Təbəri)

Orta əsr mənbələrində bildirildiyi kimi, əvvəlcə Cavidanın, sonra isə iyirmi ildən artıq Babəkin başçılıq etdiyi xürrəmilərin Azərbaycandakı mərkəzi və ya paytaxtı qala şəhəri olan Bəzz idi. Ət-Təbəri deyir ki, Bəzz "Babəkin vilayəti və şəhəri idi".Əl-Məsudi yazır: "Babək Azərbaycan *ölkəsində olan Bəzzeyn dağlarında üsyan qaldırmışdı."*(Əl-Məsudi, BGA, VIII, səh. 353)

Bu hərəkatın "mühəmmərə" (qırmızılar) adlanmasının səbəbi isə, üsyan iştirakçılarının geyiminin rəmzi rənginin qırmızı olması idi (Abbasilərin rəmzi olan qara rəngin müqabilində).

Böyük ehtimala görə, xürrəmilər hərəkatı Abbasiləri hakimiyyətə gətirmiş Əbu Müslim Xorasaninin sui-qəsd nəticəsində qətlə yetirilməsindən dərhal sonra, yaranmışdı. Abbasilərin qələbəsinə gətirib çıxaran (747-750) Əbu Müslimin üsyanı müxtəlif dinlərə etiqad edən, lakin eyni məqsədə – Əməvi(Bəni-Ümeyyə) üsul-idarəsini devirməyə xidmət edənləri birləşdirmişdi: üsyançılar arasında müxtəlif şiə və sünni təriqətlərinə mənsub müsəlmanlar, eləcə də atəşpərəstlik ideyalarını təbliğ edən məzdəkilər və başqaları da vardı. Bütün bu qüvvələrdən istifadə edən Abbasilər isə hakimiyyətə gəldikdən sonra öz əvvəlki havadarlarından yaxa qurtarmağa çalışdılar. Əbu Müslimin qətlindən sonra Əməvilərə qarşı siyrilmiş qılıncın ağzı Abbasilərə tərəf çevrildi. Beləliklə, hakim sülalə ilə mübarizə səhnəsinə etiqadları ayrı da olsa, məqsədləri yaxın olan təriqətlər atıldılar. Elə buna görə də müsəlman müəllifləri ideya baxımından yaxınlaşmış bu təriqətləri sadəcə olaraq bir-birinə qarışdırır, onları gah xürrəmi, gah məzdəki adlandırır və ifrat şiə təriqətlərinə aid edirdilər. (İbn Kəsir, səh. 62.)

Qeyd edilməlidir ki, xürrəmiləri və xürrəmdiniləri ifrat şiə təriqətləri kimi qiymətləndirən müsəlman filosofları içərisində bu təriqətlərin ardıcıllarını "ifrat" şiə baxışlarına çox yaxın olan "batinilər" – ismaillilər təriqətinə aid edənlər də vardı. XI əsrdə yaşamış məşhur filosof imam Əbu Hamid əl-Ğəzalı batinilərin səkkiz ləqəbləri sırasında ismaililər və qarmatlarla yanaşı, xürrəmiləri, babəkiləri, müxəmmiriləri də sadalayır. Elə oradaca batiniliyin mənası da açılır: "Quranda *və hədislərdə bütün aşkar görünənlərin gizli (batini) mənası var; zahirdə olan yalnız* simvoldur, gizlində qalan isə həqiqətə işarədir; gizlini dərk edənin üzərindən dini borclar götürülür".

Artıq 816-838 illərdə Azərbaycanda İslam daha güclənir və Abbasilər hakimiyyətinin ilk dövrlərindən başlanan təriqətlər məsələsi, Babək hərəkatının yaranmasına səbəb olur və islam təsəvvufu təşəkkul tapır.

Abbasilər hakimiyyətə gəldikdən sonra Əməvilərdən də betər Azərbaycandan müntəzəm olaraq pul, var-dövlət tələb edir, qarət etdikləri xalqın sərvətini cah-cəlallarına, dəbdəbəli gün-güzəranlarına, təm-təraqlı, təntənəli ziyafət məclislərinə, dəsgahlı zinət əşyalarına israf edirdilər.Eyş-işrət içində yaşayan bu insanlar, vətəni işğal, xalqı talan edilən, yoxsulluq və qəm-qüssə içində yanıb-yaxılanların azadlıq mübarizəsindən hiddətlənirdilər. Abbasi xəlifəsi Məmun bütün iyirmi illik hökmranlığı ərzində Xilafətdə işi yalnız çoxlu üsyanları yatırtmadan ibarət olsada, çox böyük bir ərazi tutan xürrəmilərə qarşı heç bir iş görə bilmədi.Xəlifə Məmun 833-cü il 7 avqustda ölümündən sonra qardaşı Mötəsimi (Əbu İshaq Məhəmməd ibn Harun ər-Rəşidi) taxta vəliəhd təyin edərək, ona vəsiyyətnamə qoyur. Bu vəsiyyətnamənin başlıca maddəsi xürrəmilərə qarşı müharibəyə başlıca diqqət vermək sərəncamı idi:"Xürrəmilərə gəlincə, onlara qarşı müharibəyə qətiyyətli və rəhmsiz bir adam göndər, ona səbrlə pul, silah, atlı və piyada qoşunla kömək et. Əgər onların vaxtı uzun çəksə, sən özün öz tərəfdarların və yaxın adamların ilə onların üstünə get"(Ət-Təbəri, III, 1163; İbn əl-Əsir, VI, səh. 158)

833-cü il, 10 avqustda Mötəsim xəlifə elan edildikdən sonra xürrəmilərə qarşı mübarizənin yeni mərhələsi başladı.Yeni xəlifə taxta çıxan kimi birinci növbədə öz sələfinin vəsiyyətinə əməl etməyi qərara aldı. O, xürrəmilərə qarşı müharibəyə ciddi hazırlıq görməyə başladı, O, bu iş üçün heç bir şeyi əsirgəmədi. Buna görə xürrəmilərə qarşı onun qoşunlarının ilk hücumu müvəffəqiyyətlə nəticələndi.

Tarixdə Babəkin məğlub edilməsi üçün verilən ənam heç bir igidin, sərkərdənin, hətta hökmdarın məğlub edilməsi üçün verilən mükafat qədər olmayıb.

Əcəm əl Kufinin yazdığına görə Möhtəsim Babəkin tutulmasına bais olan Aşotun nəvəsi Səhlə bir milyon dirhəm, qiymətli daşqaşla bəzədilmiş kəmər, oğluna 100 min dirhəm verib. Afşinə isə hədiyyələrdən əlavə ata mindiyi hər gün üçün 10 min, minmədiyi gün üçün 5 min dirhəm mükafat vermiş, başını tacla bəzəmiş, şahanə geyindirib-keçindirmiş, üstünə küllü miqdarda birilliant səpmişdir. Xatırladaq ki, Afşin Babəklə iki il, beş ay və bir neçə gün döyüşüb. (Fəth kitabı, "Elm", Bakı, 1981, səh.78.)

Nizam əl Mülk Babəkin qətli haqqında belə deyir: O, Möhtəsimin suallarına cavab vermədi. Möhtəsim onun əllərinin və ayaqlarının kəsilməsini əmr etdi. Babəkin bir əlini kəsəndə, o biri əlini qana batırıb, üzünə sürtdü və üz-gözünü qızartdı.

Möhtəsim onu söydü və dedi:- Nə üçün belə etdin? Cavab verdi" üzümü ona görə qana buladım ki, bədənimdən qan axıb gedən zaman, üzümün rəngi solacaq, adamlar mənə baxanda elə biləcəklər ki, ölümün qorxusundan rəngim qaçıb.

Möhtəsim ondan yenə soruşdu: "Öldürürdün, ölmək asandırmı?!" O, cavab verdi: -azadlıq uğrunda "ölmək nə qədər də asandır!"

Bundan sonra Möhtəsim deyib ki, Babək çox zirək, möhkəm iradəli və müharibə işlərində misilsiz şəxs idi. İnadkar, təhlükəli adam olmasaydı onu əhv edib, xidmətlərindən faydalanmaq olardı. (Nizam əl Mülk, "Siyasətnamə", SSRİ EA-nın nəşiriyyatı, Moskva-Leninqrad, 1949, səh. 227.)

ət-Təbərinin verdiyi məlumata görə:Xürrəmilər(778–838) üsyanının darmadağın edilməsi, Babəkin və onun tərəfdarlarının Samirədə dəhşətli surətdə edam edildi.

Babəkin 20 ilə yaxın zəfər dolu həyatı haqqında son dərəcə cüzi və yanlış məlumatlar verən ərəb tarixçiləri Həmədan yaxınlığındakı məğlubiyyətindən onun qətlinədək qısa müddətdəki uğursuzluq və məğlubiyyətləri haqqında fərəhlə cild-cild kitablar yazıblar. Halbuki deyilənə görə Babək xilafətin işğalçı ordusunu 14 böyük döyüşdə darmadabın edərək qaçmağa məcbur etmişdi. Babək ömrünün tən yarısını - 21 ilini (816-837) Vətəninin işğaldan təmizlənməsi, xalqının azadlığı, insanların bərabərliyi uğrunda mübarizəyə həsr etmişdir. Onun yaratdığı Azərbaycan kəndli dövləti, möhtəşəm Roma imperiyası tərəfindən tanınmışdı.Babək Azərbaycan xalqının milli azadlıq mübarizəsinin ilk bayraqdarı, müstəqil, bütöv Azərbaycan dövlətinin ilk lideri və şəhididir.

Azərbaycan Prezidenti İlham Əliyev 2010-cu il sentyabrın 6-da Bakı şəhərində görkəmli sərkərdə Babəkin abidəsinin ucaldılması haqqında sərəncam imzalayıb., Dövlət başçısı xalqımızın çoxəsrlik zəngin tarixinə adları qəhrəmanlıq rəmzi kimi həkk olunmuş görkəmli şəxsiyyətlərin xatirəsinin əbədiləşdirilməsinin gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə edilməsində əhəmiyyətini nəzərə alaraq paytaxtda böyük Azərbaycan sərkərdəsi Babəkin abidəsinin ucaldılmasını qərara alıb. Düşünürəm ki bu abidə xalqımızın şərəfli tarixini, böyük şəxsiyyətini ləkələyənlərə ən mükəmməl cavabdır**.**

SUFİZİM VƏ HURİFİZM HAQQINDA QISA MƏLUMAT

Nubuvvət (Peyğəmbərlər) fəlsəfəsini, Quranı və İslam qaydalarını dərindən öyrənərək yetişən sufizm və hurufizm etiqadının yaranma

səbəbləri Əməvilərin və Abbasilərin hakimiyyəti dövründə İslamda ədalət və bərabərlik prinsipinin pozulması olmuşdu. Sufilər Əhli-beytin sadə həyat tərzi, zöhd, təqva, təvəkkul, ixlas, şəriət qaydalarına durust əməl edərək, Tanrı eşqi ilə yaşamaq, nəfslə mubarizə yollarını, yəni təsəvvufun ilkin qaynaqlarını yaratdılar. Təsəvvuf elminin banisi Fiqh (şəriət) elminin əsası və təməlini qoymuş, ilahi elmlərə dərindən bələd olmuş, irfan, qiraət və təfsir alimlərinin müəllimi Hz.Əli olmuşdur. O "Allahın şiri" ləqəbini almış böyük bir sərkərdə, həm də səbir və həlimlik dəryası idi. O, səxavət mənbəyi, ən gözəl güzəşt edən, günahlardan keçən idi. O kamil, zahid, abidlər abidi və ilahi qanunların gözətçisi idi.Elə ilk hürufi də Peyğəmbər(s.ə.s.) tərəfindən gizli elmlərin bəxş eildiyi Hz.Əli olmuşdur. Hüruf sözü ərəb dilində "hərflər" mənasını verir. Ərəbistanda hələ islamdan əvvəlki dövrlərdə əlifba,Yahudi və Xristyanlar tərəfından istifadə edilən əbcəd sistemindən ibarət idi.İslamın ilk vaxtlarında, hətta bir əsrə qədər müddətdə belə bu hərflərdən istifadə edilmiş, sonradan isə yavaş-yavaş tərk edilmişdi. 22 hərfdən ibarət olan "Əbcəd sistemi"nə sonradan "pəltək sə", zəl, sadə hə, zə,və qalın dad, ğayın "kimi hərflər əlavə edilərək Ərəb əlifbası yaradılmış və Ərəb hərfləri 28 ədəd olmuşdur.Lakin "Əbcəd hesabı"ndan, bir "hesablama" riyazi sistem kimi tarix boyunca istifadə edilmiş, indi də istifadə edilməkdədir. İslam aləmində hərflərin bəzi xüsusiyyətlərə malik olduğu inamı çox qədimdir. Bu mənada Qurani-Kərimin 114 surəsindən 29 surəsi müqəttəə adlanan hərflər ilə başlayır. Müqəttəə hərfləri ərəb əlifbasında olan 28 hərfin 14-ü ilə səslənir.Quranın nazil olmasından 14 əsr vaxt keçməsinə baxmayaraq, müasir elm hələ də bu hərflərin hikmət və mənalarını öyrənə bilməmişdir. Hurufilər Hz.Əlinin Cəfr elminə və Əbcəc hərflərinin mənasinin acıqlanmasına, Quranın hərf sistemi vasitəsilə izah olunmasına əsaslanırlar. Hürufilikdə Quranın təvili və yozumu saylar üstündə qurulmuşdur. Bu təriqət şiə təmayüllü olsa da, yaranışından etibarən istər şiə, istərsə də sünni məzhəbinin daşıyıcıları arasında tərəfdar tapmış, xüsusilə təsəvvüf vasitəsi ilə digər təriqətlərə təsir etmişdir. Ərəb ölkələrində də hurufulər çox olmuşdur.Azərbaycanda olan hurifilər Nəimi, Nəsimi və onların tərəfdarları Hürufilik sisteminin hökmlərinə riayət edərək, İslam ehkamlarına kor-koranə itaət etməyin, İslamı öyrənmədən onun tələblərinə əməl etməyin, dinləri qarşı-qarşıya qoymağın, birini digərindən üstün saymağın əleyhinə idilər.

Əqidələri isə: Allahın bütün yaratdıqlarında Özünün təcəlla etməsi, (zərrəsi olması), Adəm peyğəmbərlə başlayan Peyğəmbərlik dövrünün Məhəmməd peyğəmbərlə başa çatması,Əli ibn Əbu Taliblə baş-

layan İmamlıq dövrünün də 12-ci imam zuhru ilə başa çatmasıdır. Əsası isə:Allahın yaratdıqları,Göy cisimləri,dörd ünsür(torpaq,su, hava,külək), İrfan və fəlsəfə elmləri,insan anatomiyası,psixoloqiyası və bu gün Təsavvur elmini əsasını təşkil edən elmi-hal haqqında təlimatdan ibarətdir.

Bu hərflərin möcüzəvi sirləri İmam Qəzzali də əsərlərində"müsəlləsül-Qazalî" adı altında bu rəqəblərin hökmləri haqqında sirləri açıqlamağa çalışmışdır. Əslində isə bu rəqəmlərin sirr və hikmətləri yalnız Hz. Əli və onun övladlarına məlumdur.Hürufiliyin bizə demək istədiyi isə Allahın varlığı, İnsanın yaranış hikmətləri və həyatda rastlaşdığımız hər bir canlı-cansızda və özümüzün daxili-xarici aləmimizdə bizim üçün bir çox hikmətlər və ibrətamiz işarələr olduğunu bildirməkdir. Lakin bu sirlərin açılmasının öz zamanı və hikməti yalnız Allaha məlumdur. Mənəvi elmlərdə dərinləşən şəxsiyyətlər bu elmin "əsrarın açarları hökmü" olduğunu və bu elmin yalnız Peyğəmbərin övladlarına əmanət edildiyi bildirirlər. Bu elmin əvvəlki Peyğəmbərlərin kitablarında da yer aldığına dair rivayətlərə işarə edən Çələbi, "Bu elmi, ancaq axirəzzamanda gələcək olan Hz. Mehdi, haqqı ilə üzə çıxaracaqdır" deyə, bu haqda bir çox alimlərin fikirlərinin üst-üstə düşdüyünü də bildirmişdir."

Digər dinlərdə olan insanlar bu hərf təlimini, Yəhudilərin bu gün də rəmzi işarələr ilə geniş istifadə etdikləri,yəhudi mistik "kabbalistika"sı ilə eyni olduğunu bildirirlər.Əslində kabbalistika da hərflərin rəqəmlərlə ifadə edilməsi elminə deyilir və bu sahədə müəyyən oxşarlıq olsa da, lakin onların ideya və məqsədləri hurifizimdən fərqlidir.Bəziləri isə tənə edərək hurufizmin Yəhudiliyə aid olduğunu iddia edirlər.Lakin unudurlar ki, İslamdan öncə də və İslamdan sonra xeyli müddətdə də Ərəbistanda işlədilər əlifba,elə Yəhudilərin işlətdiyi əlifba idi. Yəni,Ərəb əlfbası da Hami-Sami dillər ailəsinin Sami qoluna mənsub bir dildir.(bu ayrı mövzudur) Bəzi yazarıar isə"kabbalizm" kəlməsini "каннибализм" kəlməsi ilə səhv salaraq, hətta tarixi kitablarında belə hürufu-sufilərin və Şah İsmail Xətainin adam yeyən olduğunu insanları inandırmağa çalışırlar. Bununla da Şiə anlayışı, hürufu-sufilər və Şah İsmail Xətai haqqında özlərinin qərəzli və məkrli fikirlərindən başqa heç nə bilmədiklərini bir daha sübut edirlər.

Bu ilahi elmlərdən biri və həmin dövrün tələblərinə uyğun olaraq yaranan məsləк, həqiqət və hal elmi olan irfani (əxlaq elmi) **sufilikdir.** Sufizm məhz həmin xəlifələrin dunyapərəstliyənə, təmtəraqlı, bəzəkli, yeyib-içməklə keçən həyat tərzlərinə, sərvətpərəstliklərinə, İslam dininə və Əhli-beytə qarşı qərəzli siyasətlərinə öz münasibətlərini

bildirmək üçün yaranan dinc etiraz forması idi. Sufi sözü"**suf**"yun və ya qaba yundan hazırlanmış paltar,"**sufi**" isə həmin paltarı geyinənə,yəni sadə geyinib, sadə yaşayanlara deyilir.

Bu dövrdə(13-cu əsrin 1-ci yarısı və 15-ci əsrin 2-ci yarısı) sufilik geniş yayılır. Hurufilik güclənir. Onun banisi Fəzlullah Nəimi idi. Əbulhəsən Əliyyul-Əla və şair Nəsimi hurufiliyin ən nufuzlu numayəndələri kimi şohrət tapmışlar. Bu dovrdə sufi xəlvətiyyə təriqətinin ikinci piri Seyyid Yəhya Şirvani Bakuvi Xəlvəti (-1457)cox məşhur olmuşdur.

Sufizm və ya bu gün bütün İslam dünyasındaki təsəvvuf elmi mahiyyət etibarilə eyni mənanı ifadə edir.Eyni inanc sistemini ifadə etmək ucun hər iki

termindən paralel şəkildə istifadə olunur.Sufizm orta əsrlərdə islam aləmində geniş yayılmış dini fəlsəfi,mistik mənəvi-əxlaqi duşuncə və davranış sistemidir. Sufilərin Allah sevgisi məsələsini sufi qadın **Rəbiət-ul Ədəviyyə** (718-801) belə ifadə edir:"Allahım, əgər mən səni cəhənnəm qorxusuna gorə sevirəmsə, məni onda yax. Əgər səni cənnət arzusu ilə sevirəmsə, məni ondan məhrum et. Əgər sənin camalını gormək umidi ilə sənə ibadət edirəmsə, o goruşu məndən əsirgəmə".

Sufi Həllac ibn Mənsur "ənəlhəq"("mən həqqəm") şuarında belə deyirdi: "Mən özum yoxam, məndə olan da haqdır".Həllaca gorə oz nəfsini, dunyəvi meyllərini oldurub maddi həzz və şəhvətin əsarətindən qurtulan şəxs irfani bilik kəsb edərsə, ilahi bir məqama yuksəlib insani keyfiyyətlərdən təmizlənər. O da Abbasi xəlifələri tərəfindən 922-ci ildə Bağdadda işgəncəli və faciəli şəkildə edam edilmişdi. Sufizmdə **iki böyuk məktəb – Bağdad və Xorasan** məktəbləri xususilə diqqəti cəlb edir ki, unlu təriqət başcılarının və tanınmış təsəvvuf və irfan oncullərinin bir coxu bu məktəblərin yetirmələridir.

İslam şərqində geniş yayılmış və 800 illik dövrü əhatən edən **sufizm və** hurufizm təriqətlərinin təşəkkulu dövründə Azərbaycanda və İslam ölkələrində bütün elm sahələrində olduğu kimi bədii ədəbiyyatda da böyük tərəqqilər baş vermişdi. Bu ölkələrdə dahi alimlər yetişmiş, elm, mədəniyyət, tibb, astronomiya, arxiologiya, psixologiya,riyaziyyat, kimya, coğrafiya, botanika, tarix və memarlıq elmləri, ədəbiyyat və elmin bütün sahələri inkişaf edərək Avropa ölkələrini belə keçmişdi. Bu zəka sahiblərindən: Razi (?-932), Farabi (870-950), **İbn Sina** (980-1037), Zunnun-əl-Misri (?-854), Bəyazid Bistami (?-874), Həllac Huseyn ibn Mənsur (858-922),"ənəlhəq" ("mən həqqəm") şuarını ilə deyirdi:"Mən özum yoxam, məndə olan da haqdır", F.Nəimi (Hz. Əlinin elmini (zamana uyğun) təbliğ etdiyinə görə Abbası xəlifələri tərəfindan parça-

landı), İ.Nəsimi(Abbasi xəlifələri tərəfindən haqq söz üstündə dəris soyuldu), XII yuzillikdə Nizami, Xaqani Şirvani(1126-1199), Bəsiri, Hamidi, Kişvəri, Şeyx Mahmud Şəbüstəri (1287-1320) Həbibi (1470-1475) Ş.İ.Xətai, Seyid Əzim **Şirvani** (1835-1888) Cuneyd Bağdadi (820-910), **Əbulqasım Quşeyri** (?- 1072),Muhyəddin ibn Ərəbi (1165-1270), Movlana Cəlaləddin Rumi (1207-1273) və XIII-XIV **Həsən Bəsri,** Nəsrəddin Tusi (1201-1274),Əvhədi Marağiyi (1274-1338),M. Şəbustəri (1287-1320) **Əbu** Hamid Qəzali (Xorasan-1059-1111) və bir çox dahilər olmuşlar Məlum olduğu kimi bütün İslam ölkələrində irfan elmini almış alimlər, təriqətindən asılı olmayaraq, bu elmin banisinin Əli(ə.s.) olduğunu danmırlar. Buharinin.Timtizinin movlana Furatinin əsərlərində, həmçinin Movlana Əbu Həmid Qəzzalinin dördcildlik "İhyaül-ulum", Rəziyyüddin Əbu Nəsrin "Məkarimül-əxlaq", Məhəmməd Mehdi ibn Əbuzər Nəradanin "Camiuz-səadət", Məhəmməd Vaizin "Əbvabul-cinan" kitabında,Əbu Məhhuz Məruf Kərxi və digər alimlər də öz kitablarında bu elmlərin banisinin Hz.Əli olduğunu və bu elmlərin onun övladları vasitəsi ilə çatdırıldığını bildirirlər.

Təsəvvuf elminin banisi, bütün Movlanələrin bəhrələndiyi elm mənbəyi Əli (ə.s.) və onun övladlarının elmləridir.

Bu gün Azərbaycanın 1000 ilə yaxın tarixini əhatə edən sufizm və hurufizm dövrünü və bu cür dahilərin yetişdirildiyi bir zamanın üzərindən sufilər-hurufilər deyərək, bəyənməyib xətt çəkmək, bütün gələcəyimizin üzərindən,həm də əsasını Təsavvuf elmi təşkil edən İslam dinin üzərindən xətt çəkmək deməkdir. Bəzi müəyən qüvvələrə xidmət edən insanların Azərbaycanın böyük sərkərdələrini, şairlərini, bir sözlə keçmiş dahilərini,şiə məssəbindən və ya sufi-hurufu olduqları üçün müxtəlif bəhanələrlə şərləyib,gözdən salaraq ümümxalq müzakirə hədəfinə çevirmələri böyük bir xalqın mənəviyyatını təhqir etmək deməkdir.Allah tərəfindən seçilib, gözəl təbiətə malik olan bu torpaq əsrlər boyu neçə-neçə mütəfəkkirlər, dahilər, alimlər ,sərkərdələr, şairlər, sənətkarlar və qeyri-adi qabilyyətə malik olan insanlar yetişdirmişdir. Elə bu gündə bu torpaqda yaşayan insanlar çox bacarıqlı elmli, ruhani və ülvü duyğulu qeyri-adi istedada malik insanlardır və Uca Allah ən düzgün dini və təriqəti də bizlərə nəsib etmişdir.

AZƏRBAYCANDA İSLAM

VII əsrin əvvəllərində Ərəbistan yarımadasında meydana çıxan İslam tezliklə dünyanın böyük bir hissəsinə yayıla bildi. Azərbaycanın

İslamlaşması da erkən İslam fütuhatları ilə hicrətin 18-ci ilindən (639-ci il) başlanır.Azərbaycanlı İsfəndiyar ibn Fərruxzad ərəblərə məğlub olub sülh müqaviləsini həmin il bağlamışdı. Ərdəbil, Təbriz, Naxçıvan, Beyləqan, Bərdə, Şirvan, Muğan, Aran fəth edilir, ərəblər Xəzər sahili boyu Dərbəndə kimi gəlirlər.Şəhərin istehkamları onları heyran qoyur və onlar şəhəri "Bab əl-Əbvab" adlandırırlar.Tarixçi Bəlazurinin məlumatına görə, artıq xəlifə Əli bin Əbu Talibin hakimiyyəti dövründə (656-661) Azərbaycan əhalisinin əksəriyyəti İslamı qəbul etmişdi. Şimalda bu proses bir qədər uzun çəkmişdir. İslamın yayılması çox yerdə sülh yolu ilə (sülhən), bəzi yerlərdə isə silah gücünə (ənvətən) həyata keçirilirdi.Fəth edilmiş ərazilərdə bütpərəst əhaliyə İslamı qəbul etmək təklif olunurdu, qəbul edənlər zəkat və xərac ödəyir və "evlərində otururdular", yəni müsəlmanların sırasında döyüşlərdə iştirak etmirdilər; döyüşlərdə iştirak edənlərə hərbi qənimətlərdən pay düşürdü; İslamı qəbul etməyən yəhudi və xristianlar cizyə ödəyirdilər,cizyə ödəyənlər müsəlmanların himayəsi altında olurdular;İslamı qəbul etməkdən imtina edən bütpərəstlər və ya cizyə ödəmək istəməyən kitab əhli müsəlmanlarla döyüşməli olurdular. Azərbaycanda İslamlaşmanın konkret formaları haqqında fikir yürütmək bir qədər çətindir, çünki bu məsələ indiyədək öyrənilməmiş qalır.Hər halda bu mürəkkəb prosesin bəzi mərhələlərini fərqləndirmək olar.

Birinci mərhələ kimi VII əsrin ortalarından VIII əsrin əvvəllərinə qədər davam edən İslam fütuhatları dövrünü götürmək olar.Bu mərhələ 705-ci ildə Alban dövlətinin süqutu və Alban kilsəsinin öz müstəqilliyini (avtokefallığını) itirməsi ilə bitir. Akademik Z.Bünyadovun göstərdiyi kimi, bu mərhələnin sonunda İslam Azərbaycanda hakim din olur,onu öz imtiyazlarını qorumaq üçün ilk növbədə və qeydsiz-şərtsiz yuxarı sinif adamları qəbul edirlər. Yeni din tacir və sənətkarlar arasında yayılır,çünki ərəblər bu siniflərə güzəştlər edirdilər.Bu mərhələdə məscidlər tikilmir,qədim məbədlər və İslamlaşma nəticəsində istifadəsiz qalmış kilsələr məscidlərə çevrilir, qəbilə-tayfa şüurunun dini şüurdan üstünlüyü qorunub saxlanılırdı.

İkinci mərhələ VIII əsrin əvvəllərindən Qərbi İranda və İraqda Büveyhilərin hakimiyyət başına gəlməsinə qədərki dövrü əhatə edir. Azərbaycan ərazisində müstəqil Şirvanşah Məzyədilər və Səcdilər dövlətləri yaranır.Bütpərəstlik, zərdüştilik əhəmiyyətini itirir,yəhudilik mövcudluğunu qoruyub saxlayır, Alban kilsəsi müstəqilliyini bərpa edir.Bu dövrdə İslama mənsubluq şüuru güclənir, amma etnik köklərlə bağlı şüur tamamilə itib getmir.Bunu Abbasilərin hakimiyyətinin ilk

dövrlərindən başlanan şüubilik hərəkatında izləmək mümkündür.Babək hərəkatı (816-838) buna ən parlaq misaldır.Sərhəd məntəqələrində İslam təsəvvüfü təşəkkül tapır.Dağ rayonlarında ifrat şiəlik fəallaşır. Üçüncü mərhələ Büveyhilərin hakimiyyəti dövrünü (935-1055) əhatə edir.Bu dövrdə mötədil şiəlik Azərbaycanda yayılmağa başlayır və Dərbəndə qədər gedib çıxır. Sünni hənəfi və şiə imami məzhəbləri aparıcı məzhəblər olurlar. Sufilik də özünə xeyli ardıcıllar tapır. Bu dövrün ən gözəl sufi abidələrindən biri Şirvandakı Pirsaat çayı üzərindəki xanəgahdır.

Dördüncü mərhələ Səlcuqilər dövrü (XI əsrin ortaları - XIII əsrin ortaları) ilə bağlıdır.Bu mərhələdə sünnilik bölgədə güclənir, şiəliyin mövqeləri zəifləyir.Şafii məzhəbi aparıcı məzhəb olur.Sufi təriqətləri geniş yayılır.Azərbaycan Atabəyləri və Şirvanşahlar İslamı xristianların təzyiqindən qoruya bilirlər.

Beşinci mərhələ monqol istilaları dövrünü (XIII əsrin I yarısı - XV əsrin II yarısı) əhatə edir. Bu dövrdə sufilik geniş yayılır. Hürufilik güclənir.Onun banisi Fəzlullah Nəimi (vəfatı - 1394) idi. Əbülhəsən Əliyyül-Əla və şair Nəsimi (vəfatı - 1417) hürufiliyin ən nüfuzlu nümayəndələri kimi şöhrət tapmışlar.Bu dövrdə sufi xəlvətiyyə təriqətinin ikinci piri Seyyid Yəhya Şirvani Bakuvi Xəlvəti (vəfatı - 1464) çox məşhur olmuşdur. Ağqoyunlu hökmdarı Uzun Həsənin qardaşlarından biri xəlvətiyyə şeyxi Dədə Ömər Rövşəninin (vəfatı - 1487) ardıcıllarından idi. İbrahim bin Məhəmməd Gülşəni (vəfatı - 1534) XV əsrin ikinci yarısında xəlvətiyyənin bir qolu kimi gülşəniyyə təriqətinin əsasını qoyur. Sonralar bir çox sufi təriqətləri, o cümlədən nəqşbəndiyyə Azərbaycana və Azərbaycan vasitəsilə Şimali Qafqaza nüfuz etmişdir.

Altıncı mərhələ səfəvilərin (1501-1786) və XVI əsrdən etibarən Osmanlıların (1281-1924) hakimiyyəti dövrü ilə bağlıdır. Səfəvilər şiəliyi təbliğ edir və başlarına 12 şiə imamının şərəfinə 12 qırmızı zolaqlı əmmamə bağlayırdılar.Buna görə də onlar "qızılbaşlar" adlanırdılar. Çaldıranda Səfəvilərə qalib gələn Osmanlılar Azərbaycanda sünni hənəfi məzhəbini yayırdılar.Azərbaycanın Rusiya imperiyasına ilhaq edilməsindən sonrakı dövrdə ölkənin İslamlaşmasının yeni mərhələsi kimi nəzərdən keçirilə bilər.Bu mərhələnin ən səciyyəvi xüsusiyyəti hökumətin müsəlman din xadimlərini ələ almaq və özünə tabe etmək məqsədilə xristianlıqdakı kilsə strukturuna bənzər İslam dini qurumu yaratmaq siyasəti ilə bağlıdır. Rus çarının 29 noyabr 1832-ci ildə Senata göndərdiyi məktubda Zaqafqaziya müsəlmanlarının dini işlər idarəsi barədə əsasnamə hazırlanması təklif olunurdu. Lakin hazırlanmış

layihələrin heç biri bəyənilmədi.1849-cu ildə Qafqaz canişini knyaz Vorontsovun tapşırığı ilə xarici işlər nazirliyinin əməkdaşı N.Xanıkov "Məhəmmədi ruhanilərin təşkili barədə əsasnamə" layihəsini hazırladı. Layihə bütövlükdə bəyənilsə də Krım müharibəsi onun həyata keçirilməsini ləngidir.1864-cü ildə həmin işi davam etdirmək üçün yeni komissiya yaradıldı,yerli şiə və sünni məzhəblərinin nümayəndələri də komissiyanın tərkibinə qatıldılar. Hazırlanan təlimatlar müsəlman ruhanilərinin vəzifələrini, hüquq və imtiyazlarını, dünyəvi hakimiyyətlə münasibətlərini tənzim edirdi. 1867-ci ilə qədər hökumətdən yalnız Şeyxülİslam və müfti maaş alırdılarsa, bu ildən etibarən digər yüksək rütbəli müsəlman ruhaniləri də maaş almağa başladılar."Zaqafqaziya şiə və sünni Məhəmmədi ruhanilər idarəsi haqqında Əsasnamə" Dövlət şurasının təqdimatı ilə Rusiya çarı tərəfindən 5 aprel 1872-ci ildə təsdiq edildi.İdarənin təşkilində rus pravoslav kilsəsinin quruluş prinsipi əsas götürülmüşdü. Cənubi Qafqazda 2 müsəlman inzibati orqanı müftinin başçılığı ilə Sünni ruhani idarəsi (müftilik) və Şeyxülİslamın sədrliyi altında Şiə ruhani idarəsi (Şeyxülİslamlıq) yaradıldı.Tiflisdə yerləşən bu iki idarənin hər biri sədrdən, idarə heyətinin üç üzvündən, iki köməkçisi ilə birlikdə katibdən, mütərcim, mirzə və arxivariusdan ibarət idi. Hər iki idarənin tabeliyində Tiflis,İrəvan,Yelizavetpol (Gəncə) və Bakı quberniyalarının hərəsində 1 məscid olmaqla 4 məscid var idi. Sünni idarəsində 16, şiə idarəsində 20 qazı var idi. İdarələr Daxili İşlər Nazirliyinin nəzarəti altında idi və birbaşa canişin qarşısında məsuliyyət daşıyırdı. Azərbaycan Demokratik Respublikası (1918-1920) yaranana qədər cənubi Qafqaz müsəlmanlarının dini işləri bu iki idarə tərəfindən tənzim edilmişdir. 1918-ci il dekabrın 11-də Şeyxülİslam Məhəmməd Pişnamazzadə vəzifəsindən istefa verir. ADR sosial təminat və dini etiqad işləri naziri Musa Rəfibəyovun əmri ilə həmin vəzifəyə axund Ağa Əlizadə təyin edilir. Bu dövrdə İslamı rasionallaşdırmaq, müasirləşdirmək meylləri güclənir.

1920-ci ildə Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra mayın 15-də Dini etiqad işləri nazirliyi və Şeyxülİslamlıq təsisatı buraxılır, müsəlman din xadimləri təqiblərə məruz qalır, məscidlərin əksəriyyəti bağlanır.1943-cü ildə faşist Almaniyasına qarşı mübarizədə dinin imkanlarından istifadə məqsədilə Zaqafqaziya müsəlmanlarının dini qurumunun yaradılması məqsədə uyğun hesab edilir. Zaqafqaziya müsəlmanlarının I qurultayı 25-28 may 1944-cü ildə Bakıda keçirilir və mərkəzi Bakıda olmaqla Zaqafqaziya Müsəlmanları Ruhani İdarəsi yaradılır. Axund Ağa Əlizadə Şeyxülİslam seçilir.O, idarənin tarixində

seçilmiş ilk Şeyxülİslamdır, ona qədər Şeyxülİslamlar dövlət tərəfindən təyin edilirdilər. Bundan əlavə, 1944-cü ildən etibarən cənubi Qafqazda müsəlmanların dini təşkilatlanmasındakı dualizm aradan qalxır.4 iyun 1918-Batumida aparılan danışıqların yekunu olaraq Xalq Cümhuriyyəti ilə Osmanlı arasında "Sülh və dostluq haqqında" müqavilə imzalanıb. Müqaviləni Azərbaycan tərəfdən Milli Şuranın sədri M.Rəsulzadə və xarici işlər naziri M.Hacınski, Osmanlı tərəfdən ədliyyə naziri Xəlil bəy və Qafqaz cəbhəsinin komandanı Vahib paşa imzalamışdı. Bu müqavilə ilə Xalq Cümhuriyyəti birinci olaraq Osmanlı tərəfindən tanınıb. Müqavilədə Osmanlı dövləti Xalq Cümhuriyyətinə hərbi yardım göstərmək barədə öhdəlik götürüb.İstiqlal Bəyannaməsi bütün türk-müsəlman dünyasında, ümumiyyətlə bütün Şərqdə ilk dəfə olaraq demokratik parlamentli müstəqil Azərbaycan dövlətinin yaradılmasını xəbər verirdi. Azərbaycan Demokratik Respublikası rəhbəri Məhəmməd Əmin Rəsulzadənin təklifi ilə ruhani idarələrini müsəlman məmurlarına həvalə etməklə Tiflis şəhərindəki ruhani idarələrinin bazasında Bakıda vahid, müsəlman ruhani idarəsinin yaradılması qərara alındı. Azərbaycan Demokratik Respublikası hökuməti müsəlmanlar üçün Qafqaz müsəlmanlarının vahid ruhani idarəsinin yaradılmasına nail oldu. 1918-ci il dekabrın 11-də çar hökuməti orqanlarının təyin etdiyi Qafqaz Şeyxülİslamı M.Ə.Pişnamazzadə vəzifəsindən istefa verdi.Azərbaycan Demokratik Cümhuriyyəti sosial təminat və dini etiqad naziri Musa bəy Rəfiyevin sərəncamı ilə 48 yaşlı Axund Kərim Ağa Əlizadə Qafqaz müsəlmanlarının birgə ruhani idarəsinin sədri, Şeyxülİslam təyin edildi. Yeni Şeyxülİslam məzhəb ayrıseçkiliyini rədd edən, mütərrəqi fikirli, milli heysiyyəti güclü olan, parlamentin işinə kömək edən bir şəxs idi.Molla Ağa Əlizadə Azərbaycanda ilk Demokratik Respublikanın yaranmasını ürəkdən alqışlayan din xadimlərindən idi. Azərbaycan Demokratik Respublikası yaranmasının birinci ildönümü münasibətilə o demişdir: "Azadlığı yalnız müstəqil yaşamaq yolu ilə qorumaq və müdafiə etmək olar.Öz əqidəsini və fikrini şövqlə söyləmək və öz bəşəri iradəsini ifadə etmək yalnız müstəqil ölkədə mümkündür. Asılı olmayan tədris ocaqlarında orta və ali məktəblərdə ölkənin camaatının faydalana biləcəyi bütün biliklərə yiyələnmiş şüurlu adamlar yetişər. Allah-taalanın buyruqlarını yalnız ölkənin istiqlaliyyəti şəraitində müvəffəqiyyətlə intişara yetirmək olar.İstiqlal hər bir tayfaya və hər bir şəxsiyyətə lazımdır". Zaqafqaziya Müsəlmanları Ruhani İdarəsi vahid mərkəz olur və Şeyxülİslam tərəfindən idarə olunur, İdarə sədrinin birinci müavini sayılır və şiə məzhəb müsəlmanların şəriətlə

bağlı məsələlərini tənzim edir.Hazırda bu idarə Qafqaz Müsəlmanları İdarəsi kimi dövlət qeydiyyatından keçərək fəaliyyət göstərir və İslam təmayüllü digər dini icmaların tarixi mərkəzi hesab olunur. Halhazırda Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülİslam Allahşükür Paşazadə təkcə bölgə deyil, dünya miqyasında tanınan, nüfuzlu din xadimi olaraq 30 ildən artıqdır ki, Qafqaz və Azərbaycan müsəlmanlarının dini lideridir.

MÜASİR AZƏRBAYCAN DÖVLƏTİ HAQQINDA QISA MƏLUMAT

Azərbaycan və ya rəsmi Azərbaycan Respublikası -Avrasiyanın Qafqaz regionunda ən böyük ölkə. Cənubi Qafqazda, Avropa və Mərkəzi Asiyanın kəsişməsində olan Xəzər dənizi hövzəsində yerləşir.

Azərbaycan şərqdə ilk demokratik və dünyəvi dövlət qurmuşdur. Hazırda Azərbaycan qədim tarix və mədəniyyət irsinə malik dünyəvi və unitar dövlət olub, etnik türk və müsəlman çoxluğuna sahib ölkədir. Azərbaycan altı müstəqil türk dövlətindən biridir. Respublikanın 158 ölkə ilə diplomatik münasibəti vardır, 38 beynəlxalq təşkilatın üzvüdür.

Azərbaycan GUAM və Kimyəvi silahdan istifadə qadağası təşkilatlarının təsisçilərindən biridir. 1993-cü ilin sentyabrından Müstəqil Dövlətlər Birliyinin üzvüdür. 9 may 2006-cı ildə Azərbaycan BMT-nin yeni yaradılan insan haqları komitəsinə üzv seçilib. Səlahiyyətli nümayəndəlik 19 iyul 2006-cı ildən başlayıb. Azərbaycan həmçinin BMT, ATƏT, Avropa Şurası və NATO-nun sülh naminə tərəfdaşlıq proqramının üzvüdür. Bundan əlavə ölkə Birləşməyənlər Hərəkatı, Beynəlxalq Ticarət Təşkilatı və Beynəlxalq Elektrorabitə İttifaqında müşahidəçi statusuna malikdir.

Əhali-2011-ci il iyul ayına olan rəsmi məlumata əsasən Azərbaycan əhalisinin sayı 9,165,000 nəfər olmuşdur.Əhalinin 53,1 %-ni (4,866,615 nəfər) şəhər, 46,9 %-ni (4,298,385 nəfər) isə kənd sakinləri təşkil edir O cümlədən, əhalinin 51 %-ni (4,674,150 nəfər) qadınlar, 49 %-ni (4,490,850 nəfər) kişilər təşkil edir. 2010-cu ildə əhalinin artım göstəricisi 1,3 % olmuşdur.

Əhalinin yaş strukturu aşağıdakı kimi səciyyələnir:əhalinin ümumi sayından 23 % 0-14 yaşda, 69 % 15-64 yaşda, 8 % isə 65 və yuxarı yaşda olanlardır. Əhalinin 29 % 18-34 yaşda olan gənclərdir, onların yarıdan bir qədər çoxu şəhərlərdə yaşayır. Əhalinin orta yaşı 31 yaş təşkil edir.

Din-Azərbaycanın dinləri ölkənin indiki ərazisində yaşayan xalqlar və etnik qruplar arasında yayılmış dini cərəyanların məcmuəsindan ibarətdir. Azərbaycan Respublikasında müxtəlif dini konfessiyalar fəaliyyət göstərir. Ən geniş yayılmış din İslamdır. Azərbaycanlıların 96%-i müsəlmandır, ondan 85%-i şiə, 15%-i sünni məzhəbinə məxsusdur. Digər dinlər bunlardır: xristianlıq və iudaizm. Xristianların əksəriyyəti rus pravoslav və gürcü pravoslav kilsəsinə məxsusdur. Yəhudilərin çoxu dağ yəhudiləri və əşkinazi yəhudiləridir.

"Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanunu (1992) hər bir şəxsin dinə münasibətini müəyyənləşdirmək və ifadə etmək hüququnə və həmin hüququ həyata keçirməsinə təminat yaradır.

Dil:-Azərbaycan Respublikası əhalisinin gündəlik ünsiyyət vasitəsi və rəsmi dövlət dili Azərbaycan dilidir.

Azərbaycan dili İran İslam Respublikasında Cənubi Azərbaycanda yaşayan 35 milyonluq Azərbaycanlının da ana dilidir.Rusiyada, Amerika Birləşmiş Ştatlarında, Türkiyədə və Qərbi Avropa ölkələrində bir neçə milyon azərbaycanlı yaşayır. Bir neçə yüzilliklər ərzində müxtəlif ölkələrin sakinləri olmalarına baxmayaraq, bu gün də hansı ölkədə yaşamalarından asılı olmayaraq, Azərbaycanlılar bir-birlərini sərbəst anlayırlar. Beləliklə, yer üzündə hazırda Azərbaycan dilində danışan 50 milyondan çox adam yaşayır.

Azərbaycan dilinin fonem tərkibində 15 sait və 25 samit vardır. Bu 40 fonem Azərbaycan əlifbasında 32 hərflə işarə edilir.Hazırda Azərbaycanda latın qrafikası əsasında yaradılmış Azərbaycan əlifbasından istifadə edir.

İqlimi:-Ölkənin relyefi kimi iqlim şəraiti də çox müxtəlifdir. Bu müxtəliflik ilk növbədə Azərbaycan ərazisinin mülayim və subtropik iqlim qurşaqlarının qovuşduğu sahədə yerləşməsi ilə əlaqədardır. İqlim əmələ gətirən amillərə günəş radiasiyası və atmosfer sirkulyasiyası daxildir. Bunlarla bərabər, coğrafi enlik, relyef xüsusiyyətləri, dəniz və okean cərəyanları və s. amillər də iqlim əmələ gəlməsinə böyük təsir göstərir.Bu amillər birlikdə iqlimin əsas ünsürlərinin - temperatur, rütubət, külək və sair. paylanmasını müəyyən edir. Azərbaycan Respublikasının əksər ərazisi subtropik iqlim qurşağında, yalnız Böyük Qafqaz dağlarının şimal-şərqi mülayim iqlim qurşağında yerləşir. Böyük Qafqaz dağları şimaldan gələn soyuq hava kütlələrinin, Kiçik Qafqaz dağları isə cənubdan gələn isti quru tropik hava axınlarının qarşısını kəsir, onların təsirini zəiflədir. Xəzər dənizi respublikamızın iqliminin mülayimləşməsinə təsir göstərir.

Ərazisi:-Azərbaycan Respublikasının ərazisi - 86,6 min km² (11,5% meşələr, 1,6% su hövzələri, 50,0% becərilən torpaqlar, o cümlədən 27,0% otlaqlar, 36,9% sair torpaqlar) təşkil edir.

Ölkə 39° 24', 41° 54' şimal en dairələri arasında və 44° 46', 50° 45' şərq uzunluğunda, paytaxt Bakı 40° paralel üzərində yerləşir.

Sərhədlərinin ümumi uzunluğu 3472 kilometrdir. Bunun 825 kilometri su sərhəddidir. Cənubdan İranla 765 km, Türkiyə ilə 15 km (bəzi məlumatlarda 13 və ya 11 km.), şimaldan Rusiya ilə 391 km, şimali-qərbdən Gürcüstan ilə 471 km, qərbdən Ermənistan ilə 1007 km həmsərhəddir. Sahil xəttinin uzunluğu - 713 km, Bakıdan şimal qütbünə qədər olan məsafə 5550 km, ekvatora qədər olan məsafə isə 4440 km-dir.

Azərbaycan Respublikası Cənubi Qafqazın şərq hissəsində, Xəzər dənizinin qərbi sahilində yerləşir.Dəniz səviyyəsindən ən ucqar nöqtə Bazardüzü (4466 m.), ən aşağı nöqtə isə (-28 m.) Neftçala rayonu ərazisindədir. Orta yüksəklik 657 m-dir.

İşğal altında olan Azərbaycan şəhərləri:- Şuşa, Kəlbəcər, Ağdam, Ağdərə, Xocalı, Xocavənd, Füzuli, Laçın, Zəngilan, Cəbrayıl, Qubadlı, Əsgəran. Paytaxtı:-Bakı Abşeron yarımadasının cənubunda, Xəzər dənizinin sahilində yerləşir, onun ərazisi 2200 kv km, əhalisinin sayı 3 milyona yaxındır. Bundan başqa hazırda Bakı şəhərində erməni qəsbkarlarının işğal etdiyi rayonlardan və Ermənistan Respublikasından qovulmuş 500 minə yaxın qaçqın və məcburi köçkünlər yaşayır.

Şuşa yurdumun qədim şəhəri.
Hələ öndədir nurlu səhərə.
Yollarımıza dikilib gözü
İsa bulağı gözləyir bizi.
Darıxm,Şuşa,hələ biz sağıq,
Mütləq qoynuna qayıdacağıq.

Bakı özündə 11 inzibati rayonu, 5 şəhər tipli qəsəbəni birləşdirir. Dağlıq Qarabağın Erməni mənşəli əhalisini provakasiya edən erməni seperatçılarının müstəqillik tələbləri Azərbaycanla qonşu Ermənistan arasında 1989-cu ildən bəri davam edən silahlı münaqişəyə səbəb olmuşdur.Hal-hazırda Dağlıq Qarabağ və ona bitişik rayonlar Ermənistanın işğalı altındadır. İşğal altında olan ərazi Azərbaycanın ümumi ərazisinin 20%-ni təşkil edir. Silahlı münaqişə nəticəsində Dağlıq Qarabaq və 7 ətraf rayonun 1 000 000-a yaxın Azərbaycanlı əhalisi öz ya-

şayış yerlərini tərk etmiş, 24 000-dən çox adam qətlə yetirilmiş, 50 000 nəfər yaralanmış və ya şikəst olmuşdur. Hazırda ölkələr arasında 1994-cü ildə imzalanmış atəşkəs qüvvədə olsa da erməni tərəfin muntəzəm olaraq atəşkəsi pozması nəticəsində 10000-ə qədər azərbaycanlı həlak olmuşdur. Hərbi təcavüz zamanı ələ keçirilmiş Azərbaycan ərazilərində 927 kitabxana, 464 tarixi abidə və muzey,100-dən çox arxeoloji abidə, 6 dövlət teatrı və konsert studiyası dağıdılmışdır. Talan edilmiş muzeylərdən 40 mindən çox qiymətli əşya və nadir eksponat oğurlanmışdır.Dövlət quruluşu Azərbaycan Respublikasında qanunvericilik hakimiyyətini həyata keçirən orqan Milli Məclis, icra hakimiyyətini həyata keçirən Prezident, Məhkəmə hakimiyyətini həyata keçirən orqan Azərbaycan Respublikasının məhkəmələridir.

Azərbaycan Respublikasının tərkibində muxtar dövlətdir.Orada qanunverici hakimiyyəti Naxçıvan Muxtar Respublikasının Ali Məclisi, icra hakimiyyətini Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti, məhkəmə hakimiyyətini Naxçıvan Muxtar Respublikasının məhkəmələri həyata keçirir. Naxçıvan Muxtar Respublikasında ali vəzifəli şəxs Ali Məclisin sədridir.Azərbaycan Respublikasının dövlət rəmzləri: Azərbaycan Respublikasının Dövlət Bayrağı, Azərbaycan Respublikasının Dövlət gerbi və Azərbaycan Respublikasının Dövlət Himnidir. Azərbaycan Respublikasının Dövlət Bayrağı bərabər enli üç üfüqi zolaqdan ibarətdir. Yuxarı zolaq mavi, orta zolaq qırmızı, aşağı zolaq yaşıl rəngdədir və qırmızı zolağın ortasında bayrağın hər iki üzündə ağ rəngli ay-para ilə səkkizguşəli ulduz təsvir edilmişdir. Bayrağın eninin uzunluğuna nisbəti 1:2-dir.

Azərbaycan Respublikası Dövlət Bayrağının və Azərbaycan Respublikası Dövlət gerbinin təsviri, Azərbaycan Respublikası Dövlət Himninin musiqisi və mətni ölkə Konstitusiyası ilə müəyyən edilir.

AZƏRBAYCANDA MƏSCİDLƏR

Cinn-18-“Həqiqətən məscidlər Allah üçündür və onun evidir. Allah ilə birlikdə heç kəsi çağırmayın.”

Məscid həm namaz qılınan yer,həm ruhani məktəbləri üçün bina, həm də dini xütbələr, mübahisə və müzakirələr mərkəzidir. Məscidin əsas yeri “mehrabdır”dır. Divarda oyuq şəklində olan mehrab bütün müsəlmanların müqəddəs saydığı Kəbə evinin istiqamətini göstərir.Namaz qılanlar üzlərini mehraba çevirirlər.Namaza rəhbərlik edən imam mehrabın qarşısında durur. Mehrabın yanında minbər adlanan kürsü qo-

yulub ki, burada müəyyən günlərdə, axund və alimlər tərəfindən xütbələr söylənib, moizələr edilir.Hər məscidin bir və ya bir necə minarəsi olur. Müəzzinlər gündə beş dəfə minarənin başına çıxıb, namazin vaxtını bildirmək üçün azan oxuyur.Azərbaycanda 2 minə yaxın məscid var.Dini qurumlarla iş üzrə Dövlət Komitəsinin verdiyi məlumata görə,hazırda Azərbaycan ərazisində1700-dən çox məscid var.Bu da təxminən beş min nəfərə bir məscid deməkdir.Əlbəttə bu göstəriş İslam ölkəsi üçün çox azdır.Məsələn, qonşu Türkiyədə 80 min məscid vardır. Bakının 2009-cu ildə İslam mədəniyyətinin paytaxtı elan edilməsi təsadüfi deyil. Azərbaycan paytaxtını İslam mədəniyyəti ilə bağlayan tellər arasında birinci yeri məscidlər, pirlər və başqa müqəddəs ziyarət ocaqları tutur. Məscidlərin milli-mənəvi dəyərlər kimi qorunduğunu təsdiq edən başqa bir amil də var. Müstəqil Azərbaycanın tarixində ilk dəfədir ki, təkcə Bakıda eyni vaxtda 4 məscid, Bibiheybət,Təzəpir,"Əjdərbəy" və "Cümə"dövlətin birbaşa dəstəyi ilə əsaslı təmir olunur.

Bibiheybət məscidi 1997-ci ildə Azərbaycan prezidenti Heydər Əliyevin sərəncamı ilə başlanılıb. Məscid son 11 il ərzində Şərq memarlıq üslubunda bərpa edilib. Bibiheybət məscidinin iki minarəsindən biri Heydər Əliyevin adını daşıyır. Müqəddəs ocaqda səkkizinci Imam Rzanın bacısı Həzrəti Hökumə xanım dəfn olunub.Məscidlərin hansı dini icmalara məxsus olması ilə bağlı məlumatlar isə fərqlidir.Dini Qurumlarla İşlər üzrə Dövlət Komitəsində deyirlər ki, hazırda ölkədə 600-dək dini icma fəaliyyət göstərir və bütün məscidlər həmin icmalara məxsusdur. Ölkədə fəaliyyət göstərən icmaların 65 faizə qədəri şiə müsəlmanlarına məxsusdur. Faktiki olaraq, dini ibadət mərkəzi kimi fəaliyyət göstərən məscidlərin 32-si başqa dinlərin daşıyıcıları olan icmaların nəzarətindədir. Bakıda təmir olunan ibadət mərkəzləri təkcə bunlarla məhdudlaşmır. Ölkə rəhbərliyinin tapşırığı və dəstəyi ilə Qafqaz Müsəlmanları İdarəsinin inzibati binası da yenidən tikilib. Bununla belə, məscidlərin indiki sayı İslama qayıdışın yeni dövrünü yaşayan müsəlman ölkəsi üçün heç də çox deyil. Qafqaz Müsəlmanları İdarəsində deyirlər ki, hazırda Azərbaycanda 1700-dən çox məscid var. Rəsmi məlumata görə, Bakı şəhərində tarixi abidə kimi qorunan məscidlər və ibadət evləri də daxil olmaqla 140-a yaxın məscid var. Belə ki, təxmini hesablamalara görə,Bakıdakı məscidlərdən yalnız 64-dən dini ibadət obyekti kimi istifadə edirlər. Bununla belə, 1992-ci ildən Bakıda bir neçə yeni məscid tikilib ki, burada ibadətlə məşğul olanların sayı köhnə məscidlərdən əhəmiyyətli şəkildə fərqlənir. Bunlar "Şəhidlər" məscidi, "Hüseyniyyə" məscidi, "Cümə" məscidi ,"İlahiyyat"və tezə inşa edilən

möhtəşən "Heydər" məscididir. Azərbaycanda, xüsusən Bakıda İranın, Türkiyənin nəzarətində olan məscidlər var. Hətta bu məscidlərin əksəriyyəti həmin ölkələrin xeyriyyə qurumları tərəfindən tikilib. Məsələn,Türkiyə Azərbaycanda 40-a yaxın məscid inşa edib.Bundan başqa,İran hökuməti və ərəb fondlarının dəstəyi ilə də Azərbaycanda bir neçə məscid tikdirib. Avropanın 8 ölkəsində Almaniyada 2600, Fransada 2100, Bosniya-Hersegovina 1870,Britaniya 1500, İtalıya,Nigerland da və Avstraliyadada ümumikilikdə 10 mindən çox məscid vardır.

İSLAM DİNİ DÜNYADA

İslam dini dünyanın ən geniş yayılmış,üç dünya dinlərindən biridir, ikinci böyük dinidir və dünyada ən sürətlə yayılan dinlərindəndir.Dünyada təqribən 1 milyard 200 milyona yaxın müsəlman yaşayır. 35 ölkənin əhalisi çoxu müsəlmandır. İslam 28 ölkənin rəsmi dinidir. İslam icmaları 120-dən çox ölkədə var.Əksər müsəlmanlar iki cərəyandan birinə mənsubdur; bunların 80-90% Sünni, 10-20% Şiədir. Müsəlmanların təxminən 13%i ən böyük müsəlman ölkəsi olan İndoneziyada yaşayır, 25% Cənubi Asiyada, 20% Yaxın Şərqdə,2% Orta Asiyada , 4% Cənub-şərqi Asiya ölkələrində, İranda və 15% Afrikada yerləşirlər

AZƏRBAYCANDA DİNİ QANUNLAR HAQQINDA

Maddə 1. Dini etiqad azadlığı Hər kəsin hər hansı dinə təkbaşına və ya başqaları ilə birlikdə etiqad etmək, dinə münasibəti ilə bağlı əqidəsini ifadə etmək və yaymaq hüququ vardır.

Şəxsin dini etiqadını ifadə etməsinə, ibadətlərdə, dini ayin və mərasimlərdə iştirak etməsinə və ya dini öyrənməsinə hər hansı maneə törədilə bilməz. Heç kəs öz dini etiqadını ifadə etməyə (nümayiş etdirməyə), dini mərasimləri yerinə yetirməyə və ya dini mərasimlərdə iştirak etməyə məcbur edilə bilməz. Dini etiqadın və dini həyat tərzinin zor tətbiq etməklə və ya zor tətbiq ediləcəyi ilə hədələməklə, habelə irqi, milli, dini, sosial ədavət və düşmənçilik yaratmaq məqsədi ilə təbliğinə yol verilmir. İnsan ləyaqətini alçaldan və ya insanpərvərlik prinsiplərinə zidd olan dinlərin (dini cərəyanların) yayılması və təbliği qadağandır.

Dini etiqad azadlığı yalnız qanunda nəzərdə tutulan və demokratik cəmiyyətdə zəruri olan hallarda ictimai təhlükəsizlik mənafeləri üçün, ictimai qaydanın təmin edilməsi, sağlamlığın və ya mənəviyyatın və ya digər

şəxslərin hüquq və azadlıqlarının qorunması üçün məhdudlaşdırıla bilər.

Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən dini təbliğat aparılması qadağandır.

Valideynlər və ya onları əvəz edən şəxslər, qarşılıqlı razılıq əsasında, uşaqlarını özlərinin dini əqidəsinə və dinə münasibətinə müvafiq olaraq tərbiyə edə bilərlər.

Maddə 3. Dini etiqad azadlığı haqqında Qanunun Vəzifələri

Azərbaycan Respublikasında hər bir şəxsin dinə öz münasibətini müəyyənləşdirmək və ifadə etmək hüququna və həmin hüququ həyata keçirməyə təminat yaradır; Azərbaycan Respublikasının qanunvericiliyinə və Azərbaycan Respublikasının qəbul etdiyi beynəlxalq hüquq normalarına müvafiq surətdə sosial ədaləti, bərabərliyi, vətəndaşların dinə münasibətindən asılı olmayaraq onların hüquqlarının və qanuni mənafelərinin müdafiəsini təmin edir; dini qurumlara münasibətdə dövlətin vəzifələrini müəyyənləşdirir; dini qurumların dövlət və. cəmiyyət qarşısında vəzifələrini müəyyən edir; adamların dünya görüşündən və dini əqidəsindən asılı olmayaraq milli əxlaqın və humanizmin təzahürü, vətəndaşların əmin-amanlığı və əməkdaşlığı üçün əlverişli şəraiti himayə edir;

Maddə 4. Dini mənsubiyyətindən asılı olmayaraq şəxslərin hüquq bərabərliyi

Hər kəs dini mənsubiyyətindən asılı olmayaraq qanun və məhkəmə qarşısında bərabərdir. Şəxsin dini mənsubiyyətinin rəsmi sənədlərdə göstərilməsinə yalnız onun arzusu ilə yol verilir.

Öz dini əqidəsinə görə heç kəs qanunla müəyyən edilmiş vəzifələrin icrasından imtina edə və ya boyun qaçıra bilməz. Bir vəzifənin icrasının dini əqidəyə görə digər vəzifənin icrası ilə əvəz edilməsinə yalnız Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş hallarda yol verilir.

Maddə 5. Dövlət və dini qurumlar

Azərbaycan Respublikasında din və dini qurumlar dövlətdən ayrıdır.

Maddə 6. Dinin məktəblə münasibəti

Azərbaycan Respublikasında dövlət təhsil sistemi dindən ayrıdır.

Dinşünaslıq, dini-idraki, dini-fəlsəfi fənlər, müqəddəs dini kitabların əsasları ilə tanışlıq dövlət təhsil müəssisələrinin tədris proqramına daxil edilə bilər.

Vətəndaşlar istədikləri dildə fərdi qaydada və ya başqaları ilə birlikdə ilahiyyəti öyrənə və dini təhsil ala bilərlər.

Dini qurumlar öz nizamnamələrinə (əsasnamələrinə) uyğun olaraq

qanunvericiliklə müəyyən edilmiş qaydada gənclərin və yaşlıların dini təhsili üçün tədris müəssisələri yaratmaqla müəyyən olunmuş formada təlim-tərbiyə prosesini həyata keçirə bilərlər.

Maddə 7. Dini qurumlar

Dini icmalar, idarələr və mərkəz, dini qardaşlıqlar, dini tədris müəssisələri, onların birlikləri dini qurumlardır. Dini qurumlar öz mərkəzi (idarələri) ilə təmsil olunurlar.

Dini qurumlar yetkinlik yaşına çatmış şəxslərin dini etiqad azadlığı hüququnun birgə həyata keçirilməsi, həmçinin dini etiqadı və dini yaymaq üçün yaradılmış könüllü təşkilatlardır.

Dini qurumlar bu Qanuna və təsdiq olunmuş nizamnamələrinə (əsasnamələrinə) müvafiq surətdə fəaliyyət göstərirlər.

Maddə 8. Dini icma. Dini icma dinə birlikdə ibadət və digər dini tələbatı ödəmək məqsədilə könüllülük əsasında birləşmiş dindar şəxslərin yerli dini qurumudur.

Azərbaycan Respublikasında təşkilat məsələlərində İslam dini icmaları Qafqaz Müsəlmanları idarəsinə tabedirlər, qeyri-müsəlman dini icmalarının Azərbaycan Respublikasında və xaricdə fəaliyyət göstərən dini mərkəzlərə (idarələrə) tabe olmaq və tabeliyini dəyişdirmək hüququ vardır.

İslam dininə aid ibadət yerlərinə rəhbərlik edən din xadimləri müvafiq icra hakimiyyəti orqanına məlumat verilməklə Qafqaz Müsəlmanları İdarəsi tərəfindən təyin edilir.

Maddə 9. Dini mərkəzlər və idarələr.Azərbaycan Respublikasında İslam dini qurumları öz tarixi İslam dini mərkəzində-Qafqaz Müsəlmanları İdarəsində birləşirlər.

Təşkilati mərkəzlərin xaricdə olan qeyri-İslam dini qurumları öz fəaliyyətində Azərbaycan Respublikasının qanunvericiliyinə zidd olmayan hallarda həmin mərkəzlərin nizamnamələrini rəhbər tuta bilərlər.

Maddə 21. Dini ayinlər və mərasimlər.Dini qurumlar ibadətlər və dini yığıncaqlar üçün onlara münasib yerlərə, habelə bu və ya digər dində müqəddəs sayılan ziyarətgahlara himayədarlıq edib, onları saxlamaq və onlardan istifadə etmək hüququna malikdirlər.

Bu Qanunun 1-ci maddəsinin tələbləri nəzərə alınmaqla ibadətlər, dini ayinlər və mərasimlər ibadətgahlarda və onlara məxsus ərazidə, ziyarətgahlarda, qəbirstanlıqlarda, dini qurumların idarələrində, vətəndaşların mənzillərində və evlərində maneəsiz keçirilir.

İslam dininə aid ayin və mərasimlərin aparılması yalnız Azərbaycan Respublikasında təhsil almış Azərbaycan Respublikasının vətəndaşları tərəfindən həyata keçirilə bilər.

Qoşun hissələrinin komandanlığı (müstəsna hallardan başqa) hərbi

qulluqçuların boş vaxtlarında ibadət etmələrinə və dini ayinləri yerinə yetirmələrinə mane ola bilməz. Əsgəri bölmələrdə hərbi rəhbərliyin razılığı ilə ruhanilərin fəaliyyətinə yol verilir.

Maddə 23. Dini qurumların xeyriyyə və mədəni-maarif fəaliyyəti

Dini qurumlar həm müstəqil, həm də ictimai fondlar vasitəsi ilə və ya digər formada mədəni-maarif fəaliyyəti göstərirlər.

Maddə 25. Dini qurumlarda əmək-hüquq münasibətləri.

Dini qurumlarda əmək şərtləri dini qurumla işçi arasında: saziş üzrə müəyyən edilir və yazılı şəkildə bağlanan əmək müqaviləsində göstərilir. Dini qurum müəyyən edilmiş qaydada əmək müqaviləsini, ruhanilərin əmək haqqı şərtlərini müəyyən edən sənədləri qeydə alır.

Maddə 26. Dini qurumlarda işləyən vətəndaşların əmək hüququ Dini qurumlarda əmək müqaviləsi üzrə işləyən vətəndaşlara əmək qanunvericiliyinin tələbləri istisnasız tətbiq olunur.

Maddə 27. Dini qurumlarda işləyən vətəndaşların sosial təminatı və sosial sığortası

Dini qurumlar, onların idarə və müəssisələri Dövlət Sosial Müdafiə Fonduna müəyyən edilən qaydada və məbləğdə ayırmalar verirlər.

Dini qurumlarda işləyən bütün vətəndaşlara pensiya qanunvericiliyə müvafiq olaraq ümumi əsaslarla təyin edilir.

ALLAHDAN BAŞQA ALLAH YOXDUR!

ər-Rəhman-Mehriban Allah Quranı Peyğəmbərə öyrətdi, insanı yaratdı. Ona danışmağı və qəlbində olan mətləbləri bəyan etməyi öyrətdi. Həm alanda, həm də satanda, tərəzini ədalətlə tutun,ölçünü əskik etməyin və hər şeydə ədalətlə rəftar edin.Allah Yeri insanlardan alçaq surətdə yaratdı. Hamı onu tapdalayıb üstündə gəzərək istədiyini edir. Orada müxtəlif meyvələr və tumurcuqlu xurma ağacları vardır.Allah insanı içi boş saxsı qab kimi, quru palçıqdan yaratdı,Cinni isə xalis oddan yaratdı.O,iki məğribin və iki məşriqin Allahıdır.Yer üzündə olan hər bir kəs fanidir və kərəm sahibi olan,sənin Allahının zati əbədi qalandır. Göylərdə və yerdə olan hər bir kəs Allahdan ruzi, mənfəət və sair istəklər diləyir. Allah hər gün bu işdədir ki, birini öldürür, birini dirildir, birini xəstə edir, digərinə isə sağlamlıq bəxş edir.Ey cinlər və insanlar! Tezliklə sizin hesabınızla məşğul olacağıq.Ey insan və cin tayfası!Əgər göylərin və yerin kənarından çıxıb qaça bilsəniz və Allahın qəza-qədərindən qaça bilsəniz,çıxın! **."(Kitabul-Bəyan fi təfsiril Quran.)**

ən-Nas-1-3-Ya Peyğəmbər!De ki,pənah aparıram insanların Rəbbinə, insanların ixtiyar sahibinə,insanların tanrısına!

ƏDİLƏ DUASI

əl-Ənam-102-O sizin Allahınızdır! Allahdan başqa Allah yoxdur, hər şeyi O yaratmışdır.Ona ibadət edin, Allah hər şeyə vəkildir!

Bismillahir Rahmənir Rahim. Uca Allah şəhadət verirki,ondan başqa heç bir məbud yoxdur,O ədaləti bərqərar edəndir.O Əziz və Həkimdir!

İlahi,mən zəif günahkar, üsyankar, möhtac, həqir bir bəndəyəm. Nemət verənimin, xaliqimin, ruzi verənimin, mənə ikram edənimin haqq olduğuna şəhadət verirəm.Necə ki o öz zatı barədə şəhadət vermiş, mələklər və bəndələrindən olan elm sahibləri də bu işə şəhadət vermişlər ki,nemət ehsan kərəm və minnət sahibi olan Allahdan başqa bir məbud yoxdur.

Qadir, Əzəli, Alim, Əbədi Həyy, Mövcud, Sərmədi, Səmi, Bəsir, Mürid, Müdrik, Saməddir.O, bu gözəl sifətlərə layiq olub, özündə cəm etmişdir. Səbəbi və elmi icad etməmişdən əvvəl Alim idi. Onun səltənət və mülkü əzəli, zail olmayandır.Çünki onun mülk və səltənətindən başqa mülk və mal yoxdur.O,bütün hallarda həmişə pak və münəzzəhdir. Müqəddəs vücudu öncəlik yaranmamışdan öncə olmuş, əzəllərinin əzəlində olmuşdur.

Qəhrindən qaçmaq,intiqamından xilas olmaq mümkün deyildir. Rəhməti qəzəbindən irəli getmişdir. İbadət etməkdə ola biləcək hər bir bəhanə və məneəni aradan qaldırmış,insanlar arasında Müsavi, bərabər yaratmış, haramlardan çəkinmək üçün yolları asanlaşdırmışdır. Bəndələri onların qabil olduğu,taqətləri çattıgı həddə ibadəti təklif etmişdir.

O,Pak və münəzzəhdir.O Peygəmbərləri məbus etmişdir ki,onun ədalətini bəyan edib özlərindən sonra canişinlərini təyin, ehsan və fəzlini izhar etsinlər.Allah bizi Peygəmbərlərin seyyidinin, vəlilərinin ən yaxşısını, seçilmişlərin ən fəzilətlisinin, pak insanların ən zəkisinin Hz.Muhəmmədin ümmətindən qərar vermişdir. Biz ona və onun dəvət etdiklərinə iman gətirir,Allahın ona nazil etdiyi Qurana,Qədir Xumda özündən sonra seçib "Bu Əbidir" deyə işarə edib seçdiyi canişininə iman gətiririk.

Şəhadət verirəm ki,Rəsuli Əkrəmdən sonra Hz.Əli, sonra onun övladlarının ağası Həsən, sonra onun qardaşı, Allahın razılığına tabe olan Hüseyn, sonra Əliyibnil-Hüseyn,sonra Muhəmməb Baqir, sonra Cəfər Sadiq, sonra Musa- Kazim,sonra Əliyyi-Riza, sonra Muhəmməd-Təqi, sonra Əliyyən-Nəqi, sonra Həsən-Əsgəri, sonra Allahın yer üzərindəki canişini, zühurunun intizarı çəkilən, ümidlərin dikildiyi, Qaim əl Məhdi

əccələllahu fərəcəhuşşərifə iman gətirmişəm! Elə bir imam ki,onun qalması ilə dünya məhv olmaqdan amanda qalmışdır. Məxluqata ruzi verilməsi səbəbi odur, onun müqəddəs vücudu səbəbinə yer və göylər öz yerində sabitdir. Allah onu səbəbi ilə yer üzünü, zülm ilə dolduqdan sonra ədalətlə dolduracaq.

Şəhadət verirəm ki,onlar Allahın höccəti və onların əmrlərini yerinə yetirmək vacib, onlara aşkar surətdə məhəbbət göstərmək zəruridir. Bunu bizə Adil Allah Qurani-Kərimdə hökm etmiş, Peyğəmbərimiz Muhəmməd (s.ə.s.) tərəfindən də vəsiyyət edilmişdir. Onlara tabe olmaq nicat, onlarla müxalifət isə həlak olmaqdır.Onlar Behişt əhlinin hamısının ağaları, seyidləri, Qiyamət günün şəfaətçiləri, yer əhlinin şübhəsiz ki, Haqq İmamlarıdır.Allahdan razı olan canişinlərin ən fəzilətliləridir.

Şəhadət verirəm ki, həqiqətən ölüm haqdır,Qəbir sorğu sualı haqdır. Cənnət-Cəhənnəm haqdır.Qiyamət saatı şübhəsiz ki, gəlib çatacaq.Allah-taala qəbirlərdən bizləri dirildəcək.

İlahı,fəzlin ümidimdir,rəhmət və kərəmin arzumdur.Cənnətə layiq olmam üçün əməlim, sənin razılığına səbəb olacaq itaətim yoxdur.Amma Sənin Tövhidinə və ədalətinə etiqad bəsləyir, ehsan və fəzlinə ümid bağlayır. Rəsulunu və onun övladlarını həmçinin Sənin sevimli bəndələrini Sənin yanında şəfaətçi salıram.Sən kərimlərin ən kəramətlisi, rəhm edənlərin ən rəhmlisisən. İlahi,ey rəhm edənlərin ən rəhmlisi. Həqiqətən mən öz dinimə iman və inamımı Sənə əmanət kimi izhar etdim. Sən ən yaxşı əmanətçisən, bizə, əmanətləri hifz etməyi əmr etmisən,belə isə bu əmanətlərimizi ölüm və Məhşər zamanında bizə qaytar.Sənə and verirəm öz rəhmətinə,ey rəhm edənlərin ən rəhm edəni! Allahın çoxlu salamları və salavatı olsun Peyğəmbərimiz Hz.Muhəmmədə və onun pak və məsum övladlarına!

Ey Qadir Allah! And verirəm Sənin Quranda verdiyin o andlarına! And verirəm iki göydə,iki yerdə və onların arasında olanlara! And verirəm Ərşi-Əlana əvf eylə bağışla məni, bilib bilmədiyim günahlarımı efv et.Ölüm anın da, Qəbir əzabında, Bərzax aləmində, Qiyamətin günü dirilib Məhşərə gəldiyim zaman, Mizanın qarşısında, Sirat körpüsündən keçəndə, Cəhənnəm əzabında mənə rəhm eylə! And verirəm Rəhim adına günahlarımı bağışla, məni Cəhənnəm əzabından tez qurtarıb,Cənnətin qapısına çatanlardan qərar ver.Mənə həyatımın mənası olan Fatimə anamın Kövsər suyundan sirab eylə. Sən özün buyurmusan ki, bütün Cənnətə gedənlər ən əvvəl Kövsər bulağından su içib, sonra Cənnətdəki məqamlarına çata bilərlər.Bu haqqda Peyğəmbərimiz (s.ə.s.) də belə buyurmuşdur:"Uca Allahın Fatiməyə bəxş etdiyi bir adı da Kövsərdir.

Kim ki, artıq bütün çətin mərhələləri keçib,Kövsər bulağına çatdı, xoş o kəslərin halına.Kim ki,Allahın mənə bəxş etdiyi Kövsər bulağının suyundan içdi, bax onda biləcək ki, mənim Fatiməm kimdir!"

Çox şükürlər olsun ki, mənə bu məqamı qismət edib,"Kövsəri" bəxş etdiyin Muhəmməd ümmətindən yaratmısan.Sənə çox şükürlər olsun ki,mənim haqq olan Muhəmməd Peyğəmbərin balalarının məhəbbətini qəlbimdə həkk edib, yerləşdirmisən.

İndi isə,bu dünyada qəlbim qorxu içində çırpınır.Allahım Sənin hörmət və sevgini itirib,öz başıma qalmaqdan çox qorxuram. Nəfsimin rəzalət sifətlərindən, Şeytanın ordusu ilə Cəhənnəmə atılmaqdan çox qorxuram. Bütün bunların qorxusundan özümü qorumağa çalışaraq yalnız Sənə sığınıram. Ey Allahım!Əfv eylə,bağışla məni.O günün dəhşətindən yalnız Sənə sığınıram. Məni Məhşərdə, Sənin və istəklilərinin, Peyğəmbər(s.ə.s.), imamlar, möminlər qarşısında xəcalətli və üzü qara olanlardan etmə.Mənə rəhm edib,bağışlayıb Xanım Fatimənin nuri Kövsərindən,Cənnət qadınlarının; anamız Həvvanın, xanım Asiyanın Salamını,anam Məryəmin və Xədiceyi Kubranın və gözümün nuru olan xanım Fatimənin məhəbbət və hörmətini qismət eylə.

Ey Allahım,inan ki,Cənnətinin nemətlərini itirməkdən çox, Cəhənnəmdə əbədiyyən yanıb-ərimək qorxusundan da çox, ey Uca Allahım Sənin xəcalətindən, Sənin sevgi-məhəbbətindən məhrum olmaqdan və Sənin Nur-Camalını görməməkdən çox qorxuram. Sən Özün bağışla məni...

Şəhadət verirəm ki,Allahdan başqa Allah yoxdur,yalnız Sənə ibadət edir,yalnız Sənə təzim edərək, Sənə sığınıram!

əl-İxlas-1-4-Ya Peyğəmbər!De ki,Allah birdir,şəriki yoxdur! Allah heç kəsə, heç nəyə möhtac deyildir.Hamı Ona möhtacdır;O əzəli və əbədidir!Hər bir şeydən ehtiyacsızdır! O, nə doğmuş,nə də doğulmuşdur!Onun heç bir tayı bərabəri, bənzəri də yoxdur!

Sadaqallahu Aliyyul Azim!Güc və qüvvət yalnız Allaha

BİSMİLLƏHİR-RAHMƏNIR RAHİM
SON SÖZ

Əziz oxucu, əgər Qadir Allah sizə səbir verərək, bu kitabı tam oxumağı qismət etmişsə, bu qismətə görə Allahımıza min şükürlər olsun. Sizinlə bərabər sanki mən də təkrar-təkrar bu yazılanları oxuyaraq,düşünüb nəyi isə kəşf edib, nəyisə öyrənmək istəyirəm. Həqiqətən də, biz in-

sanlar heç nə bilmirik. Allahın yaratdıqlarını, onun qüdrət və kamalını düşündükcə bunu bir daha özünə sübut edirsən. Əsas məsələ isə bizlərin Allahımızı və özümüzü tanımağa çalışmağımızdır.

İndi isə Rəhman və Rəhim Allaha şükürlər edib, öz təşəkkürümü bildirmək istəyirəm. Çünki başa düşürəm ki, əgər Allah-taala buyurub"Ol!"deməsəydi, bu gün bu kitabı oxuya bilməzdik. Bu səbəbdən də bizi yaradıb və qismət etdiyi hər şeyə görə Qadir Allaha min şükürlər olsun!

Həmçinin ikinci ali təhsil aldığım, Hacı Sabir Həsənlinin rəhbərlik etdiyi İslam Universitetinin müəllim kollektivinə mənə verdikləri düzgün təhsilə görə təşəkkür edirəm.Yəni bu Universitetdə təlim-təhsil məramı dünya və dini elmləri öyrətməklə yanaşı insanlar, firqələr arasında heç bir fərq qoymayaraq Allahın bizlərə bəxş etdiyi sonuncu, kainatın dini olan İslamın birliyinə yönəldilmişdir. Mən inanıram ki, bu Universitetdə təhsil alan bütün tələbələrin qəlbinə Allaha, İslam dininə, cəmiyyətin bütün üzvlərinə, həmçinin Vətənimizə qarşı məhəbbət, hörmət, qayğı toxumu səpildiyindən, bu toxumun bəhrəsini elə həmin tələbələrin özləri,Vətənimiz və cəmiyyətimiz görəcəkdir.

Bu kitabda Qurani-Kərimdən,dini və elmi kitablardan istifadə edərək məlumatları toplamağıma baxmayaraq,müəllimlərimin bu yazılanlara münasibətini bilmək və özümdə də inam yaratmaq üçün 2005-ci ildə bitirdiyim İslam Universitetinin dekan köməkçisi müəllim Hacı Elçinə müraciət etdim. Müraciətimi dinlədikdən sonra mənim xahişimi elminə və dünyagörüşünə inandığım müəllim Hacı Fuada çatdırır. Hacı Fuad müəllim özünün işlərinin çox olmasına baxmayaraq,burada dinin bütün sahələri haqqında məlumatların bir yerə toplandığı bildikdə,kitabı yoxlayacağına razılığını bildirir.Yoxladığı əlyazmada edilən düzəlişlərdən belə başa düşdüm ki, Hacı Fuad bütün mövzuları dəqiqliklə oxumuş və hər bir mövzuya aid öz fikir və məsləhətlərini də ayrıca qeyd etmişdir.

İndi isə fürsət bilərək kitabın ərsəyə gəlməsində böyük zəhmətləri olan Hacı Fuad müəllimə təşəkkür etmək istəyirəm. İşinin cox olmasına baxmayaraq Allaha, dinimizə, vətənimizə və cəmiyyətimizə olan böyük sevgi, hörmət və cavanlarımızın gələcəyi üçün narahatçılıq, eləcə də təmənnasız bu əziyyəti çəkməsi onun, həqiqətən də, əsl din xadimi və alicənab bir insan olduğunu bir daha sübut edir. Mən belə düşünürəm ki, həyatda mənəviyyatı maddiyatdan üstün tutaraq, Allahın qorxusu və istəyi qəlbində həkk olunmuş insanlar yer üzündə olmasaydı, yəqin ki,bu dünya çoxdan dağılmışdı. Nə qədər ki danışığı ilə əməli düz gələn, yəni həm ibadəti, həm itaəti, həm də təqvası olan insanlar

yer üzündə yaşayırlar, deməli, insanlara mərhəmət və uca Allaha həqiqi inam ölməyəcəkdir. Mən Hacı Fuad müəllimə can sağlığı, balalarına, ailəsinə xoşbəxtlik, əbədi dünyada isə Allahdan ona Cənnət məqamı arzu edirəm.

Sonra ilk müəllimim Dövlət Universitetinin şərqşünaslıq fakültəsində dərs demiş İsmayıl Şəms müəllimə təşəkkür edirəm, Allahdan ona Rəhmət diləyirəm.(Ruhu şad olsun). İsmail müəllim, mənim dini elmləri öyrənmək həvəsimi nəzərə alaraq iki il müddətində mənə dərs demişdir.Olduqca savadlı, dinimizi əhatə edən bütün elmləri dərindən bilən bu insan, bitib-tükənməz elmin qapılarını mənim üzümə açmışdır. İsmayıl müəllim, indi də vüqarlı özünə hörməti, təqva və mədəniyyəti təlim edən, əsl müəllim simvolu kimi uşaqların yaddaşında qalmaqdadır.Biz İsmayıl müəllimə Allahdan haqq-hesabının rahat olub, əbədi dünyada məqamının da uca olmasını arzulayırıq.

Yenə də ilk müəllimim olan Hacı Xavər xanıma mənə öyrətdiyi elmə və helmə görə təşəkkür edirəm.Onun söylədiyi hər bir sözdə neçə məna kəsb edən fikirlər və hikmətlər vardır. Əgər Hacı Xavər xanımın mənəvi dayağı olmasaydı, bu iş mənim üçün daha çətin olardı. Hər dəfə söhbət edəndə, ən əvvəl kitab haqqında soruşar və məni bu işə həvəsləndirərdi. Hacı Xavər xanıma ölkəmizdə, hətta onun hüdudlarından kənarda yaşayan insanlara dinimizi sadə, başa düşülən tərzdə tanıdan kitablarına görə təşəkkür edir, ona bu dünyada can sağlığı, əbədi dünyada isə Allahdan uca məqamlar arzulayıram.Onun elmindən bəhrələnən gəlini İlhamə xanıma da bu kitabın korrektura işlərində göstərdiyi köməkliyə görə təşəkkür edir,onun ailəsinə və balalarına xoşbəxtlik arzu edirəm.

Həmçinin jurnalist, şair, xalqın sevimlisi Hacı Telli xanıma öz dərin təşəkkürümü bildirirəm. Kitabın hazırlanması ilə məşğul olduğum zaman mənə bir çox dəyərli məsləhətlər vermiş, sonra isə bütün kitabı tam oxuyaraq öz rəy və fikirlərini bildirmişdir.

Mən Hacı xanım Tellini çox vətənpərvər və xalqının təəssübünü çəkən bir şəxsiyyət kimi tanıyırdım. Lakin bu kitab haqqında mənim fikirlərimi bildikdən sonra Hacı xanım Tellinin cəmiyyətin dinə qarşı münasibətinə, cəmiyyətin mənəviyyatında baş verənlərə qəlbdən,ürəkdən yanaraq təsirlənməsi, inanın ki, mənim qəlbimi riqqətə gətirərək, buraya bir çox mövzuları da əlavə etməyə həvəs-ləndirdi.Hacı xanım Tellinin dinimizi tam araşdırıb kamil öyrə-nərək yazdığı”Uzun, incə bir yol varmış”adlı kitabı, həqiqətən də, Həcc ziyarətinə gədən insanlar üçün bir bələdçi ola bilər. Burada Həccə gedən insanların davranış qaydalarından tutmuş Həcc əməllərinin mahiyyətinə qədər açıqlamalar verilmişdir. Özu-

nun çoxlu işləri,yazıları, yəni vaxtının məhdud olmasına baxmayaraq,candildən bu işdə mənə çox böyük mənəvi dayaq oldu. Mən onu müşahidə edərək, bir daha kəşf edib, başa düşdüm ki, bu insanın bu dünyada yaşamağının mənası, amalı qəlbini, ruhunu dolduran duyğu yalnız vətən və xalq sevgisindən ibarətdir. Azərbaycan xalqı həqiqətən də belə övladları ilə fəxr etməlidir. Mən, Hacı Telli xanıma can sağlığı, mənalı ömür və əbədi dünyada isə Allahdan ona uca məqamlar arzu edirəm.

Bunu da qeyd edim ki, bu illər ərzində dini bilgilərimi daha da təkmilləşdirmək məqsədi ilə ”Gənclər fondu” adlanan kurslarda, bir də Universitetin şərqşünaslıq kafedrasının müəllimi çox savadı və ziyalı insan olan Zahid müəllimin dərs dediyi kurslarda da iştirak etmişəm. Kimdən nə öyrənmişəm və bundan sonra da nə öyrənəcəyəm, hamıya öz təşəkkürümü bildirirəm.

Allahın qismət etdiyi bu nemətləri mənim də paylaşdığım tələbələrimə zehin açıqlığı, elm,təqva və elm öyrənməkdən heç vaxt əl çəkməmələrini arzulayıram.

Bir də, dini mövzuda bir çox kitablar yazmış Əhmədağa Əhmədovu qeyd etmək istərdim. Onu yalnız yazdığı kitabları vasitəsilə qiyabi tanıyaraq həmişə özümə bir müəllim sanmışam. Çünki onun kitablarında dinimiz haqqındakı açıqlamalarını, əqidə və düşüncələrini dərk edib,öz ruhuma yaxın bilərək qəbul edə bilmişəm. Onun kitablarındakı yazıları,açıqlamaları oxuduqca, bu insanın dinimizi tam kamil bildiyinin, onu ürəkdən yaşayaraq,ruhu ilə hiss etdiyinin şahidi oluruq. (Əhmədağa müəllimin yazdığı kitabların adları mündəricatda qeyd edilmişdir.) Həqiqətən də, bu kitabları siz də oxusanız, Əhmədağa müəllimin fitri istedada malik olduğunun və Allah tərəfindən bəxşedilən bəsirət gözünün açıq olub, həqiqətləri görə bilməsinin şahidi olarsınız.

Özünün malik olduğu qeyri-adi hissetmə qabiliyyəti ilə uzun müddət Nizami Gəncəvinin əsərlərini araşdırıb, təhlil edən Əhmədağa müəllim dərsliklərdən eşq şairi kimi tanıdığımız dahi Nizaminin əslində qəlbi Allahın eşqi ilə alovlanan, bütün kainat elmlərinin sirlərinə bələd olan, bütün dünyəvi və dini elmləri dərin bilən bir alim olduğunu, həmçinin Nizaminin qeyri-adi istedada malik olub, Qurani-Kərimin ayələrini öz əsərlərində təsvir-təfsir etdiyini bizlər üçün açıqlamışdır. Bununla da dahi Nizamini bir daha bizlərə tanıdaraq,bu millətin Allahın seçilmiş bəndələri olduğunu, həm keçmişimizə, həm də gələcəyimizə dəyər verərək yaşamağımızı bizlərə tövsiyə etmişdir.Allah bu dahi insanın, Nizaminin ruhunu şad edib, Öz yanında məqamını yüksək etsin.

Həqiqətən, dahi Nizaminin əsərlərini diqqətlə oxusanız, bugünkü gündə sizi düşündürən bir çox suallara cavab tapar və özünüzə(qəlbinizə) yaxşı həmsöhbət tapa bilərsiniz.

Mən də Əhmədağa müəllimin yazdığı kitabları özümə bir dərslik bildiyim üçün ona təşəkkür edirəm. Allahdan ona rəhmət diləyir, məqamının da Cənnətlərdə olmasını arzu edirəm.Özünü insanlara çox tanıtmayıb,Arif olan bu insan özü haqq dünyasında olsa da, yazıb qoyduğu əsərlərilə daima insanların qəlbində yaşayacaqdır. Yəqin ki, bu dünyada yaşamağımızın mənası da elə bundan ibarət-dir.

Gözümü açıb, özümü dərk edəndən mənə dinimizi sevdirib hər sahəsini başa salaraq öyrədən, ömrü boyu başında çadra, əlində Quran olan nənəm Umxanıma təşəkkür edir, ona rəhmət diləyərək, Allahdan onun üçün uca məqamlar arzu edirəm. Bu gün mənim dinimiz haqqında nə isə başa düşə bilməyimin əsas səbəbi kiçik yaşlarımdan nənəmin qəlbimə, canıma hopdurduğu Allah sevgisi olmuşdur. Çünki bu yaşacan ayrı-ayrı yerlərdən öyrəndiklərimin mənbəyi yenə də nənəmin öyrətdiklərinə gedib çatır.

Ömrünü gənclərin təlim-tərbiyəsinə həsr edərək müəllimə, sonra da təhsil sistemində işləyən anam Qəribə xanıma verdiyi düzgün tərbiyəyə görə, həmçinin din,vətən, təbiət, musiqi, həyat və insanları sevmək,elm öyrənmək kimi ali duyğuları mənə təlim etdiyinə görə ona çox təşəkkür edirəm. Kiçik yaşlarımda yeddiillik musiqi təhsili mənə vermiş,sonra da İqtisad Universitetində təhsil almağıma kömək etmişdir. Həyatda hədsiz düzgünlük və qayda-qanunu sevən, qeybət və söhbətdən çox uzaq olan anam mənə ömrün mənasının zəhmət və elmdə olduğunu öyrətmişdir.Anama can sağlığı,uzun ömür arzulayıram. Əbədi dünyada da uca məqamlar arzulayıram.

Əlbəttə,burada"Şəms-əl-Zəhra"cəmiyyətinin qadınlarını da qeyd etmək borcumdur.Çünki həyatımın hər anında mənə maddi-mənəvi, ruhani dayaq göstərərək, həmişə yanımda olduqlarına görə onlara təşəkkür edir, onlara həm bu dünyada, həm də əbədi dünyada uca məqamlar arzu edirəm.

Səbirli, mülayim xasiyyətli atam Bahadura mənə bəxş etdiyi hər şeyə görə, ömründə bir dəfə olsa belə qəlbimə dəyməyib, həmişə məni əzizlədiyinə görə təşəkkür edir və ona can sağlığı diləyir,əbədi dünyada da uca məqamlar arzu edirəm.

Həyatımın hər anında başımın üstündə olan qardaşlarım Dadaş, Əlihüseyn və Vidadiyə mənim üçün çəkdikləri zəhmətlərə görə təşəkkür edir,onlara Uca Allahdan can sağlığı diləyir və həyatımın son

gününəcən də başımın üstündə olmalarını arzulayıram. Əbədi dünyada da onlara uca məqamlar arzu edirəm.

Bu kitabda yazılanları təkrar-təkrar oxuyaraq korrekt edən 176 nömrəli məktəbin müəllimi Arzu xanım Qulamovaya təşəkkür edərək, həyatda özünə və balalarına can sağlığı, xoşbəxtlik arzu edərək, əbədi dünyada da uca məqamlar arzu edirəm.

Bibim qızı 32 nomrəli məktəbin müəllimi Nəzakət Zaidovaya yenə də korrektə işində kömək etdiyinə görə təşəkkür edir, həyatda özünə və balalarına can sağlığı, xoşbəxtlik arzu edərək, əbədi dünyada da uca məqamlar arzu edirəm.

Həmçinin hər işlərimdə mənə dayaq və kömək olan qonşum Məhbubə xanıma və 176 nömrəli məktəbin müəllimi, qonşum Yeganə xanıma təşəkkür edərək, onlara can sağlığı, mənalı ömür, özlərinə, balalarına xoşbəxtlik arzu edərək, əbədi dünyada da uca məqamlar arzu edirəm.

Bu kitabın cildinin dizayn işlərində mənə yaxından köməklik göstərən qonşum Gülşən xanıma təşəkkür edir, həyatda özünə və balalarına can sağlığı, xoşbəxtlik arzu edir və əbədi dünyada uca məqamlar arzu edirəm.

Bu iş prosesi zamanı mənə yaxından kömək edib dayaq olan övladlarıma: Murada, Nərminəyə, Könülə tərbiyəli, təqvalı və xeyirli övladlar olduqlarına, həmçinin mənimlə bərabər hər mövzu üzərində müzakirələr apararaq,öz fikirlərini bildirdiklərinə görə, mənim qayğıma qalıb,zəhmətlərimi çəkdiklərinə görə təşəkkür edir, onlara Qadir Allahdan bu dünyada iman və xoşbəxtlik, əbədi dünyada isə Cənnətlər arzulayıram.

Qeyd etdiyim kimi, hər işimdə mənimlə birlikdə olan Murad yaxın dostları arasında bu kitabdakı mövzular haqqında söhbətlər və müzakirələr edirdi.Çünki bu qəncləri birləşdirən bir niyyət, bir məqsəddir ki,bu da vətən sevgisi və bir də dinimizi qorumaq.Bu söhbətlər əsnasında dostlarından biri(adını bildirmək istəmir) gənclərimiz və cəmiyyətimiz üçün çox xeyirli bir kitab olacağını hiss edərək, bu kitabın çap olunmasına çəkilən xərci öz öhdəsinə götürmüş və çap məsələsi gündəmə gələn kimi bütün məbləği can-dildən ödəmişdir.Mən Allaha çox şükürlər edirəm ki, xalqımızın vətənini, dinini, gələcəyini düşünən, sevən bu cür övladları vardır. Uca Allahdan bu insana can sağlığı, ailəsinə, övladlarına xoşbəxtlik, bir də bu alicənablığına görə həm bu dünyada, həm də əbədi dünyada uca məqamlar arzu edirəm.Həmçinin,bütün yaxın dostlarına və özünə yalnız Allah sevgisinin qəlblərində həkk olmasını arzulayıram.Çünki,bu sevgi həkk olan qəlbdə, bütün müqəddəs nemətlərə

dəyər və sevgi vardır.Mən inanıram ki, cəmiyyətimizdə nə qədər belə insanlar, gənclər var, bu vətən,bu millət, bu din qiyamət gününədək yaşayacaqdır.

Allahıma mənə bəxş etdiyi bütün nemətlərə görə, doğmalarıma, dostlarıma, qohumlarıma, qonşularıma, ən əsası isə Allahıma həyatda mənə imanlı insanları rast gətirdiyinə görə təşəkkür edir, verib-aldıqlarına görə də şükürlər edirəm.

Açıqlama: Otuz beş yaşıma qədər iqtisadçı kimi (fasilələrlə) işləsəm də, 35 yaşında bir günün içində işdən çıxaraq, yaşamağımın mənasını nənəmin təməlini qoyduğu yolda gördüm. Bu dövr ərzində bütün oruclarımı tutsam da, dini qayda-qanunlara riayət etsəm də, namaz qılmırdım. Namaz qılmamağım məni elə bir dərdə salmışdı ki, çəkib qurtara bilmirdim. Allahı hiss edirdim, lakin onunla danışa bilmirdim.İki yolun arasında çabalayır, çıxış yolu axtarırdım.Bu vaxt mənə dayaq olub, kömək edən yenə də həyat yoldaşım oldu.Həyat yoldaşım İbrahimə həyatımın çətin anlarında mənim üçün mökhəm qala olub, bütün işlərimdə mənə köməklik göstərdiyinə görə təşəkkür edirəm.Uca Allaha şükürlər edərək,başa düşürəm ki, əgər belə bir insana rast gəlməsəydim, bu gün bunların heç birinə nail ola bilməzdim. Çox alicənab, təqvalı, imanlı olan bu insan həyatda yaşamağının mənasını valideyn, ailə, övlad, bir də elm öyrənməkdə görürdü.Həddən artıq savadlı olan bu insan övladlarını, ailəsini necə təlim etmişdisə,evdə müxtəlif elmi söhbətlərdən başqa nə qeybət, nə bir insan haqqında müzakirələr olardı, hətta insanlar haqqında pis düşünməyə belə icazə verməzdi. Cəmiyyətdə və işində öz mədəniyyəti, elmi ilə seçilən, hörmətli şəxsiyyətlərdən biri idi. Qəlbi, əli açıq və özü cox alicənab olan bu insan məni bütün ziyarətgahlara, hətta Həccə belə göndərmiş, ali dini təhsil almaq, bu elmi öyrənməyim üçün hər cür şərait yaratmışdı.Arif olan bu insan mənə çox dəyər verərək, həmişə hörmət etmişdir. Bütün bunları mənə bəxş etdiyi üçün Alim Allaha və bir də bunları mənə yaşatdığı üçün yoldaşıma təşəkkür edirəm. Mənə bəxş etdikləri bu nemətləri qorumağa çalışaraq Uca Allahdan ona rəhmət diləyir,Rəhim Allahdan ona əfv diləyir və Məcid Allahdan ona Cənnət məqamını arzu edirəm...

İndi isə məni yaxından tanıyasınız deyə, həyat yoldaşımın mənim haqqımda yazdığı şeirlərdən misraları qeyd edərək, sözümü bitirmək istəyirəm.Allah amanında olun!

Əlli yaşın mübarəkdir sevgilim,
Bir əlli də yaşayasan, ay gülüm!

Allah adamısan, bilənlər bilir,
Blməyənlər haqqa gəlsin, sevgilim!
Sənin ürəyində Allah sevgisi,
Tanrı məhəbbəti daim var olsun!
Hacxanım titulu, o təmiz ad-san,
Hər il sənə qismət, sənə yar olsun!
Ömrünü, gününü doğmalarına,
Ataya, anaya, qardaşa verdin.
Həyatın ən şirin anlarını da,
Övlada-balaya, nəvəyə verdin!
Allah sevgisinə tuş gələn gözəl,
Kölgəsi üstündən əskiy olmasin.
Tanrinin ən yaxşi bəndəsi oldun,
Himayəsi onun heç kəm olmasin
Gəl Allah eşqini daim qoruyaq,
Onun sevgisinə biz sadiq olaq
Bütün çətinliyi arxada qoyaq!
Tanrı sınağından üzü ağ çıxaq. (İbrahim Ağdamlı)

ETİRAF.

Sənin məclisinə gedən bu yoldan,
Əbədi yuxudan qaçmaram, inan.
Mənə öz qapından ver torpaqla su,
Axıtsın yolumda olan kol-kosu.
Məni mənliyimdən ayıran zaman,
Sən öz cövhərini alma canımdan.
Məni qaytaranda özümə dərhal,
Mərhəmət kölgəni, gəl, üstümə sal.
Bu sayən olmasın çıraqdan uzaq,
Gün kimi parlasın işıq saçaraq.
Ta ki işığınla həmdəm olum mən,
Nur kimi kənarda durum kölgədən.
Bir haldan bir hala keçsəm də dəm-dəm,
Yenə ilk şəklimə hərəkətdəyəm.
Tozlara dönsə də bu aciz bədən,
Hər yerdə, hər zaman məbədim Sənsən Allahım…
(Nizami G.”Leyli və Məcnun”)

Mənasi: Allahım Sən mənim Rəbbimsən.Səndən başqa Allah yoxdur. Ancaq Sən varsan. Allahım Sənə təvəkkül etdim,sənə dayandım,sənə güvəndim.Sən Ərşi Əzimin sahibisən.Allahın dilədiyi olur, diləmədiyi isə əsla olmaz.İbadətlərə güc yetirmək və pisliklərdən qorunmaq ancaq uca və böyük Allahın qüvvət və qüdrəti ilədir.Bilirik ki, Allah hər şeyə qadirdir. Həqiqətən Allah, Öz elmi ilə hər şeyi yaratmışdır. Allahım!Öz nəfsimin şərrindən və qüdrət əli ilə yaratdığın bütün canlıların şərrindən Sənə sığınıram. Gerçək ki, mənim Rəbbim doğru-haqq ilə hökm edəndir.

əl-İxlas-1-3-Qul huvəllahu əhəd.Allahus saməd.ləm yəlid və ləm yuləd.və ləm yəkul ləhu kufuvən əhəd.

"Allahummə inni əs`əlukə husnəl xatiməti vəl xeyral aqibəti vəl əfinə"

İSTİFADƏ OLUNAN ƏDƏBİYYAT

İstifadə olunan Quran ayələrin təfsiri Muhəmməd Həsən Mövlazadə "Qurani Kərim" (Azərbaycan dilində) B.Məmmədəliyev və Z.Bünyadav.

Şəkəvinin 2-cildli "Kitabul-Bəyan fi təfsiril Quran" (1908. Tiflis.)

"Nəhcül bəlağə"İmam Əli(ə.s.)nin xütbə,məktub və hikmətli kəlamları.

"Usuli kafi-1-cild"Əllamə Kuleyni.

"Zubdətul Əhədis"-Şeyx Abbas İmami Qummi.

"Hədisi Qüdsi"-Şeyx Muhəmməd ibn Həsən Hürr Amili.

"Məfatihul-Cinan" Şeyx Abbas-Qumi-tərcümə Zəfər Cəfərzadə.

"Peyğəmbərlər tarixi" Hacı Sabir Həsənli.

İslam tarixi-Abbasilər xilafəti-3-cü hissə-Natiq Rəhimav.

İslam tarixi və Əfəndimizin (s.ə.s.) həyatı .(M.Asim Köksal)

"Peyğəmbərlərin həyatı"Seyyid Haşım Rəsuli Məhəllati

"Peyğəmbərlər tarixi" (M.Asim Köksal)

"Mərufətnamə"-1-2-b. (1756)-İbrahim Haqqi (1703-1783)-tərcümə A.Aydın. İmam Nəvevi "Riyazüəş-Salihin" -tərcümə A.Aydın.

Muhəmməd Cəzali(1058-1111)"Kimyai Səadət"-tərcümə A.Aydın.

Mövlanə Cəzalinin"Təhafütül-Feləsifə"-tərcümə A.Aydın.

Tərcümə olunmuş və A.Arxangelskinin "Muhəmməd kosmologiyası"adlı kitabına əlavə edilmişdir.1918-ci ildə İstanbul-da yenidən" Qırx sual"adı ilə çap edilmişdir.)

Mövlana Furati "Qırx sual"
"Peyğəmbərə 40-sual."Qüdrətov O.H.
"İslam əxlaqı"-Əhmədağa Əhmədov.
"Allahın hüccətləri"Əhmədağa Əhmədov.
"İslamın əsəsları" Əhmədağa Əhmədov
"Allahın hüccətləri" Əhmədağa Əhmədov.
"İslam təlimi" Əhmədağa Əhmədov.
Dürəfşan kəlamlar-Əhmədağa Əhmədov.
Nizami Elmşunas-Əhmədağa Əhmədov
"Nikatul-Quran və Əsrarul-Quran"Əhmədağa Əhmədov.
Səhifeyi Səccadiyyə-Tərcümə və nəşriyyat redaksiyası.
Cəmul-Fəvaid Böyük hədis külliyatı-Tərcümə Naim Erdoğan.
Buxari- Səhih,Müslim-səhih,Tirmizi-günən,
Biharul Ənvar,
Təbərani əl-Müəcemus-sadiq,
Təbərani əl-Müəcemus evsat.
İmam Cəzalı"Haqq yolunun əsasları"-tərcümə Dilavər Selvi.
İmam Cəzalı "Altın Ögüdlər"-tərcümə Hüseyn Okur.
İmam Cəzalı "Kimyayı Saadat"-tərcümə A.Aydın.
"Hz.Mühəmməd (s.ə.s.) ilə bir saat konuşmaq"Əhmət Gürbüz.
"Qırx hədisin şərhi"Ruhullah əl-Musəvi
İslamda nümunəvi qadınlarFatimə və Zeynəb.Həbibullah Əhmədi və M.İştihardi-tərcümə Hacı Arzu və Kərbəlayi Vüsal.
Məsum imamalrın tarixi-Mehdi Pişvavi-tərcümə Mətanət Hüseynova
İslam məzhəbləri ilə tanışlıq-tərcümə A.Mehdiyev.
"Vahhabi məzhəbi"Cəfər Sübhani,
"Vəhhabiliyin təhlili" Humayun Hümməti
Dinlərlə tanışlıq-S.Ə. Mahmudi.
Ədalətin qurbanları(14-məsumun həyatı haqqında)M.R.Salehi Kermani-tərcümə Ə.Fəsiyhi.
"İzahlı şəriət məsələləri"S.M.Ə.Hüseyn Sistanı,
"Tovzihul-məsail risaləsi" Ş.M.Fazil Lənkarani.
Qərb ölkələrində yaşayanlar üçün şəriət hökmləri.A. Üzma Seyyid.
"Böyük islam ilmihali." Digər təriqətlərin risaləsi.
N.Gəncəvinin "Leyli və Məcnun" poemasından
"Sirrlər xəzinəsi"(N.Gəncəvi)
"İqbalnamə" N. Cəncəvi.

”Xosrov və Şirin.”
Nizamı Gəncəvi.(İsgəndərnamə)
Bismilləhir rahmənir rahim
Ön söz
Hacı Fuad Nurullahın rəyi
Hacı xanım Telli Pənahqızının rəyi
Müqəddimə
Bismilləhir Rahmənir Rahim
İslam dininin özəllikləri
1-ci Hökm. Dinə iman
2-ci Hökm. Dinə əməl
3-cü Hökm.Dində-əxlaq
İslam dinində məcburiyyət yoxdur
Allah istədiyi kəsi İslama hidayət edər
İslam elm və barış dinidir
Allah bütün insanları müsəlman yaratmışdır
Üsulid-dinin 5-hökmü vardır
Allahın vəsfi
1-ci Tövhid-Allah təkdir
Allah kainatı yaratdı
Allahın ilk yaratdığı ruhlar aləmi
Allah sonra cisimlər aləmini yatardı
Ərşi-Əzəm haqqında
Kürsi haqqında
Allah hər şeyi altı gündə yaratdı
Allah göyü və yeri yaratdı
Göyün təbəqələri haqqında
Allah Günəşi və Ayı yaratdı
Yeddi göyün qapıları haqqında
Allah Günəşi və Ayı yaratdı
Ay və Günəşin tutulması haqqında Göydə ulduzları yaratdı
Allah gecə və gündüzü yaratdı
Allah bürcləri yaratdı
Dörd ünsür haqqında
Atəş haqqında
Allah sizin üçün suyu yaratdı
Küləyi yaratdı
Allah sizin üçün dənizi və üzən gəmiləri yaratdı
İki dənizin arasında manea yaratdı

Allah dağları yaratdı
Allah dəmiri nazil etdi
İlk insanı palçıqdan yaratdı
Allah insana öz ruhundan üfürdü
Allah insanı kişi və qadın olaraq yaratdı
Allah insanlar üçün gözətçi mələklər təyin edib
İlk yaratdığı qələm oldu
Hər iş Lövhu-Məhfuzda yazılıb
Allah insanı faili-muxtar yaratdı
Qeybi bilən Allahdır
Allah sinələrdəki gizli sirləri bilir
Allah gizli danışıqlarımızı bilir
Bütün gizli işlər aşkar olar
Allah insanı ibadət etmək və Özünü tanıtmaq üçün yaratdı
Allahı zikr edin
Bütün yaranmışlar Allaha səcdə edirlər
Allaha duanı gizlin edin, çağırın
Allaha duanı gizlin edin, çağırın
Doğru dua yalnız Allaha məxsusdu
Allah möminlərin dualarını tez qəbul edər
Allah kimisə qalib etmək istəsə, heç kəs ona mane ola bilməz
Allahdan başqasına ibadət etməyin
Üsuli-dinin 3-su Ədldir
Ədl-Allah Adildir
Allah taqətimiz qədər təklif edər
Allah bizə nemətlər bəxş etmişdir
Allah verdiyi həyat və nemətlər ilə bizi imtahan edər
Allah verdiyi bütün nemətlər haqqında soruşacaq
Allah yanında pis əməl ilə yaxşı əməl sahibləri eyni deyil
Allah yanında qazanılan savab dünya malından yaxşıdır
Allah istəmədiyi bəndəsini özbaşına buraxar
Allah müəyyən zamana qədər bizə möhlət verər
Hər kəs öz əməlinə görə cavab verəcək Allah haqla batili ayırar
İnsanlar çətinlikdə Allahı çağırarlar
Allah bağışlayandır
Möminlər boş sözlərə qulaq asmazlar Allahdan razılıq
İnsan hər işdə tələskəndir
Allah insanları müxtəlif yaratmışdır
Allahın hikmət və əlamətləri

Quranda insanlara ibrət olmaq üçün adı çəkilən canlılar
Üsulid dinin 2-ci hökmü Nübüvvət
Biz bütün Peyğəmbər və kitablara iman gətirmişik
Keçmiş Peyğəmbərlər və kitablar haqqında nazil olan ayələr
Peyğəmbərləri bəşarət verən, qorxudan göndərdik
Bütün Peyğəmbərlərə Allahın vəhyi mələklər vasitəsilə çatdırılıb
Hz.İbrahimə nazil olan səhifələr
Əvvəlki kitablarda axırıncı Kitab və Peyğəmbər haqqında
Tövratda İslam Peyğəmbəri haqqında Tövrat haqqında məlumat
Yəhudilər Üzeyrə Allahın oğlu dedilər
Xristianlar Hz.İsaya Allah dedilər
Həzrəti İsa zühur edəcək
İsa ibn Məryəmin ümmətinə tövsiyyəsi
İncildə İslam Peyğəmbəri haqqında
İncil haqqında məlumat
Əvvəlki kitabları təhrif etdilər Həzrəti Davuda nazil olan "Zəbur"
Avestada İslam Peyğəmbəri haqqında Dinlər haqqında mübahisə edərlər
Allah istəsəydi, hamını bir dindən edərdi
Allah sizin üçün ibadətdə asanlıq yaradar
Qurani-Kərim haqqında
Allah Qurani-Kərimi insanlara rəhmət olaraq göndərmişdir
Qurani-Kərim Peyğəmbərə Allah tərəfindən göndərilmişdir
Allah Peyğəmbərə vəhyi Hz.Cəbrail vasitəsilə göndərib Quran Peyğəmbərə Qədr gecəsi nazil oldu
Allah Peyğəmbərə Quranı yavaş-yavaş nazil etdi
Qurani-Kərim ərəb dilində nazil olub
Quranın bir adı da Furqandır
Quran oxuyanda belə başlayın
Quran oxunan zaman qulaq asın
Quran oxunan zaman kafirlərin xoşu gəlməz
Quran oxunan zaman şeytan söz atıb,qəlblərə şəkk-şübhə salar
Kafirlər Quran ayələrini təkzib edərlər
Kafirlər Quran ayələrini təkəbbürlük edib, bəyənməzlər
Allah istədiyi bəndəsini Qurana hidayət edər
Qurandakı müqəttəə hərfləri haqqında
Ərəb hərfləri haqqında məlumat
Allah Peyğəmbəri aləm əhlinə rəhmət göndərib

Allah Peyğəmbəri bizi Cəhənnəmlə qorxutmaq üçün göndərib
Peyğəmbər təhsili yalnız Hz.Cəbraildan alıb
Həzrəti Peyğəmbərin əxlağı
Peyğəmbər bizi dünyada və axirətdə himayə edəcək
Salavat-Salamı Peyğəmbərə Allah bəxş etmişdir
Peyğəmbər Hz.Muhəmmədin həyatı haqqında
Merac hadisəsinin həqiqətləri
Merac haqqında
Peyğəmbərin vəsiyyəti
Peyğəmbərin fəzilətləri
Dini firqə-firqə etdilər
Münafiqlər Peyğəmbəri təkzib etdilər
Peyğəmbərə divanə dedilər
Bilə-bilməyə mübahisə edərlər
Məkkə müşriklərinin Peyğəmbəri sınamaq üçün verdiyi suallar
Din adı altında insanları aldadıb fəsad törədən münafiqlər
İmana gəlib,sonra ondan üz döndərənlər
Yalandan mənə vəhy gəlib deyən kəslər
Peyğəmbərlər üçün ins və cindən düşmənlər vardır
Allahın əmri ilə Peyğəmbərlərə vəhy gətirən mələk
Quranda mələklərin duası
Allahın əmri bizimlə birlikdə olan mələklər
Müşriklər mələkləri özlərinə şəfaətçi sanarlar
Mələklərin yaranışı
Müqərrəb və ya Peyğəmbər mələklər
Sidrətul-Müntəhada vəkil olan mələklər
Quranda Mələklər səkkiz sinifə ayrılır
İnsanları şeytanlardan qoruyan mələklər
Mələklər yalnız Allahın əmrində olub, ona ibadət edərlər
Birinci göyün qatlarında olan mələklər haqqında
Mələklər üçün zaman məfhumu
Hz.Əzrail və ölüm mələkləri haqqında
İnkir və Minkir haqqında
Quranda Əhli-Beyt haqqında
Kövsər surəsi və Fatimə (ə.) haqqında
1-ci İmam Hz. Əlinin həyatı haqqında
Dörd xəlifə haqqında
Həzrəti Əlinin hədislərindən
2-ci İmam Həsənin həyatı haqqında

3-cü İmam Hüseynin həyatı
Xanım Zeynəb haqqında
4-cü İmam Zeynal-abidinin həyat
5-ci İmam Muhəmməd Baqirin həyatı haqqında
6-ci İmam Cəfəri Sadiqin həyatı haqqında
7-ci İmam Musa Kazimin həyatı haqqında
8-ci İmam Rzanın həyatı
9-cu İmam Muhəmməd Təqinin həyatı
10-cu İmam Əli Nəqinin həyatı
11-ci İmam Həsən Əsgəri haqqında
12-ci İmam Mehdi Sahibəz-Zaman (Qeybdədir)
İslam tarixi haqqında qısa məlumat
Qurani-Kərimdə haram aylar haqqında
Xaç-Səlib yürüşü haqqında qısa məlumat
Məzhəblərin yaranma səbəbləri
Məzhəblər haqqında qısa məlumat Haqqı görə bilmək
İslam dinindən insanların ən böyük imtahanı
Müraciət
Vəhhabi təriqəti
Bu gün itirdiklərimiz üçün sabah cavab verəcəyik
Üsuli-dinin 5-si-Məad
Qəza-qədərə iman
Uca Allahı və özümüzü tanımaq haqqında.
Allah hər şeyi gözəl yaratdı
Allah sevgisi və Allah qorxusu
Allahın“Sifəti-sübutiyyə”sifətlərinin hikməti
İnsanın yaranışının hikmətləri
Ruh haqqında
Tibb elmi və İslam
İnsan orqanizmi haqqında qısa məlumat
Gözlər haqqında
Genetika haqqında
Qəlb aləmi haqqında
İnsanın zahiri və batini hissləri
Duyğu üzvləri haqqında
Nəfsin qism və xüsusiyyətləri
İslamın irfan elmindən incilər
Haradan gəlib,haraya gedirik?
Nəfsini tanıyanlar

İnsanları tanıya bilmək
Allahı və onun yaratdıqlarını sevmək
Ruhumuz və sevgi
Zaman haqqında
Nəfsimizin əməlləri haqqında
Əql haqqında
Qorxu haqqında
Şəhvət haqında
Qəzəb haqqında
Dil haqqında
Tamah
Təkəbbür
Tağut haqqında
Həsəd haqqında
Qeybət haqqında
Pıçıldaşmaq haqqında
Eyiblənmək haqqında
Şəmatət haqqında
Yalan haqqında
Xəyanət haqqında
Sirr saxlamaq haqqında
Xəbərçilik haqqında
Məkr və hiylə haqqında
Təqva haqqında
Əxlaq haqqında
Əməllər müqabilində dərəcələr vardır
Səbir haqqında
Səbirlə Allahdan kömək istəmək
Səbirlə imtahan olunuruq
İman gətirənlərin səbri
Şükür haqqında
Tövbə haqqında
Allah tövbəni qəbul edəndir
Tövbəni gec olmamış bu dünyada ikən edək
Tövbə edib belə dua edək
Müvəqqəti dünya həyatı
Dünya həyatını dost tutub, çox sevərlər
Dünya həyatı oyun-oyuncaqdan başqa bir şey deyildir
Müxtəlif mövzular haqqında

Minnət qoymaq
Salam vermək
Böyüklərə və alimlərə hörmət edib yer göstərin
İnsanlar bilmədən özlərinə bəd dua edərlər
Başqalarına bəd dua etmək
Musiqi haqqında
Mərsiyə haqqında
Qurani-Kərimin tərcüməsi və təfsiri tarixi
Hədis elmi haqqında
Quran dinləməyin xeyri
İslam dininin budaqları Füruid-din
Niyyət haqqında
1-ci Namaz
Namaz haqqında nazil olan ayələr
Azan eşitdikdə oxunan dua
Namazın hərəkətləri haqqında
Namaz qılmağa mane olanlar
Bayram namazı
Cümə namazı
Gecə namazı
Səfərdə namazı qəsr(qısa) qılmaq
Müharibə zamanı və qorxu anında qılınan namaz
Vəhşət namazı
Möminlər alınlarındakl səcdə izindən tanınarlar
Möhür haqqında məlumat
Namaz zamanı hərəkətlərimiz haqqında
Beş vaxtda namaz qılmaq
Qiblə-yəni namaz vaxtı üzü Kəbə evinə dayanmaq
Mübarək üç aylar haqqında
1-ci Mübarək Rəcəb ayı
2-ci-Mübarək Şaban ayı
3-cü-Mübarək Ramazan ayı
Oruc tutmaq haqqında
Həcc haqqında
Kəbə evi haqqında
Həcc əməli Allah tərəfindən vacib buyurulub
Həccə getmək üçün hazırlıq
Həcc əməllərinin yerinə yetirilməsi haqqında
Həcc zamanı buyurulan müstəhəb qüsullar

Ömreyi-Təməttö(Ziyarət məqsədilə)
Həccin vacibi əməlləri
Peyğəmbərimizin vida həcci haqqında
Həcci Əkbər haqqında
Quran elmi vasitəsi ilə cihad
Malının haqqını verən möminlər
Xums və Zəkat haqqında
Hər kəsin ruzisini verən Allahdır
Xəsislik etməyin
Verilən ruziyə görə Allahın zikrini unutmayın
Verilən ruzidən sual
Verilən ruziyə şükür edin
Verilən ruzi ilə imtahan edər
Verilən ruzidən heç kəsə verməyəcəyinizə and içməyin
Qazandığınız şeylərin halalından, gözəlindən ehsan edin
Xüms və zəkat füruid-dinin vacib maddələrindəndir.
Sədəqə vermək haqqında
Sədəqə və zəkatın veriləcəyi yer
Verilən ruzidən Allah yolunda sərf edin
Dinimizdə buyurulan ən böyük günahlar haqqında
Böyük günahlardan birincis
Böyük günahlardan ikincisi
Böyük günahlardan üçüncüsü
Böyük günahlardan üçüncüsü
Böyük günahlardan dördüncüsü
Haram buyurulan yemək-icmək
Halal olan şeylər haqqında
Haram buyurulan əməllər
Allahın bəyənmədiyi əməllər
Kİm sizə halal olan şeyləri haram etdi?
Vay olsun ölcüdə və çəkidə aldadanlara
Ticarət sizi ibadətdən saxlamasın
Əhkam-şəriət qanunları haqqında
Vacibi namazlar
Vacibi qüsullar
Nəcasət hökmləri-murdar sayılan şeylər
Kişilər gözlərini haramdan qorusunlar
Qadınlar haramlardan qorunub, örpəklərini örtsünlər
Qadınlar haqqında

Evlilik və boşanma haqqında
Boşanma haqqında ayələr
Qadınların miras payı
Yuxu halı ölümü xatırladır
Gördüyümüz yuxuların mahiyyəti haqqında
Hər gün yatıb,oyanmağımız bizə nədən xəbər verir?
Ömür haqqında
Ölüm haqqında
Zalımlar həyata həris olarlar
Hər kəsin yazılan ölüm və əcəl vaxtı var
Hər nəfəs ölümü dadacaq
Harada olsanız, ölüm sizi tapacaq
Ölüm vaxtı heç kəs heç kəsə kömək edə bilməz
İlk ölümdən sonrakı Bərzəx aləmi
Dünyanın sonu haqqında
Qiyamət haqqında
Qiyamət gününün baş verəcəyi haqda xəbərlər
Qiyamət günü ilə sizi qorxutduq
Allah Qiyamət gününün olacağına and içir
Səndən Qiyamətin nə vaxt olacağını soruşarlar
Qiyamətin vaxtını bilmək yalnız Allaha məxsusdur
Kafirlər Qiyamət gününü təkzib edərlər
Qiyamətin yaxınlaşdığını xəbər verən əlamətlər
Qiyamət gününün adları
Sur birinci dəfə çalınanda baş verən hadisələr
Qiyamət qəfildən qopar
Göy yerindən qopub, bükülüb parçalanacağı zaman
Günəş, ay, ulduzlar qarışıb yerə töküləcəyi zaman
Qiyamət günü yer və dağlar toza dönəcəyi zaman
Dənizlər qaynayıb bir-birinə qarışacağı zaman
Sur birinci dəfə çalınanda bütün canlılar ölər
Qiyamət günü bütün mələklər də ölər
Yalnız Allahın Ərşini daşıyan 8 müqərrəb mələklər qalar
Sonra müqərrəb mələklər də öləcək
Yer bütünlüklə Allahın ovcunun içində olacaq
İkinci surun çalınması arasındakı müddət
İkinci sur çalınan zaman
Allah bütün mələkləri dirildər
İsrafil ikinci dəfə suru çalanda hamı dirilər

Yer hərəkətə gəlib, xəbər verər
Bütün ölülər dirilib, qəbirlərdən qalxarlar
Onlar qəbirdə bir gün,ya bir saat qaldıqlarını sanarlar
Məhşərə malsız, övladsız, köməksiz və üryan gətirəcəklər
Əməl dəftəri oxumağımız üçün qarşımıza qoyular
İnsanlar qorxudan əzizlərinin halını belə soruşmazlar
Məhşərə iki dəstə olub,sıra ilə gələrlər
Məhşərə bizi mələklər gətirərlər
Möminləri dəstə-dəstə Məhşərə cəm edərlər
Kafirləri məhşərə sürüyərək gətirərlər
Bütün heyvanlar da məhşərə cəm olarlar
Qiyamət günü Şeytan da məhşərə gətirilər
Siccində yazılan əməlləri Şeytanın xoşuna gəlməz
Bütün mələklər məhşərdə səf-səf dururlar
Hər Peyğəmbər öz ümmətinin etdikləri əməllərə şəhadət verər
Uca Allah bizi Məhşərə sorğu-sual etmək üçün yığar
Allahın bizdən ilk soruşacaqı Tövhid əhdi olacaq
Bizə dünyada qaldığımız müddət haqda xəbər verər
Uca Allah dünyada etdiyimiz əməlləri özümüzə xəbər verər
Heç kəsə zülm ölunmaz, hamıya öz əməlinin cəzası verilər
Qiyamətdə siz üç sinif olarsınız
Bəzi üzlərin ağ, bəzi üzlərin qara olduğu gün
Əməl dəftəri sağ əlinə verilənlər
Ya Peyğəmbər! Səni də öz ümmətinə şahid gətirərik
Möminlərə müjdə verilər
Əməl dəftəri sol əlinə verilənlər
Qiyamət günü kafirlərə deyiləcək
Qiyamət günü kafirlər peşman olarlar
Sonra mələklər onları layiq olduqları yerə apararlar
Allah Cənnət mələklərinə əmr edər
Allah Cəhənnəm mələklərinə əmr edər
Qiyamət günü Cəhənnəm əhlinə Şeytan deyər
Ədalət tərəzisi-Mizan qurular
Sirat haqqında
O kəsin kəkilindən tutarlar
O gün yalnız Allahın izni ilə danışarlar
O gün hökm yalnız Allaha məxsusdur
Bütün canlılar Cəhənnəmi görər
Cəhənnəm haqqında

Kafirlər Cəhənnəmi təkzib edirdilər
Şeytanın əsgərləri Cəhənnəmə tökülər
Dəstə-dəstə Cəhənnəmə aparılarlar
Əzalarımız üzümüzə duraraq şahidlik edəcək
Cəhənnəmin Vadiləri
Cəhənnəm kafirlər üçün mənzildir
Cəhənnəmin geyimi
Cəhənnəmin yeməyi və zəqqum ağacı
Cəhənnəmdəki içiləcək su
Cəhənnəmdə zəbanilərin verdiyi əzablar
Cəhənnəmdə yer çoxdur
Cəhənnəmdən qorxulu səslər eşidilər
Yerin təbəqələri haqqında
Cəhənnəmin təbəqələri
Cəhənnəmin təbəqələri və adları
Cəhənnəmdən Allaha sığınmaq
Covşən Kəbir duasında Cəhənnəmdən qorunmaq üçün dua
Cənnət Haqqında
Dəstə-dəstə Cənnətə apararlar
Şəhidlər Cənnətdə şadlıq edərlər
Cənnətin yemək və içmələri
Cənnətdəki bəzəklər və geyimlər
Cənnətdəki nemətlər
Cənnətdəki Əraf əhli haqqında
Cənnətə tövbə edib,iman gətirən kəslər daxil olarlar
Cənnətdəki çeşmələr
Tuba ağacı haqqında
Mələklər axirətdə də sizdən ayrılmazlar
Cənnət itaət və ibadət edənlər, təqvalılar üçündür
İyyiyun-əməllər yazılan kitabdır
Uca behiştlərdədirlər
Cənnətin qatları haqqında
İnsandan əvvəl yaranmışlar
Quranda İblis (Şeytan) haqqında
İblis Allaha qarşı çıxıb Adəmə səcdə etmədi
İblisin Adəm və Həvvanı aldatması
İblisə Qiyamət gününədək möhlət verildi
İnsanlar şeytanı özlərinə dost tutarlar
Allah istəsə bizləri Şeytana həvalə edər

Şeytan vəsvəsəsindən Allaha sığınaq
Biz səmanı şeytanlardan qoruduq
Cinlərdən bəziləri Qurana qulaq asıb iman gətirdilər
Şeytana fürsət verməyək
Şeytanın insanı azdırmaq üçün üsulları
Şeytanların qeybdən xəbərləri yoxdur
Sehr haqqında
Peyğəmbərə qarşı olunan sehr haqqında
Dualar haqqında
Sehrə,nəfsə, nəzərə və caduya qarşı olan ayələr
Vəsvəsədən qurtarmaq üçün dua
Dua haqqında
Ya Vədud duası
Cənnətə girmək üçün oxuncaq dua
Quranda Peyğəmbərlərin duaları
Hz.Peyğəmbərimizin Cənnətə girmək üçün oxunacaq dua
Hikmətli ayələr
Tövbə edənlərin duası
Seyyidul istiğfar duası
Hər namazdan sonra oxunacaq dua
Tövbə duası
Tövbə edib belə dua edək
Düşmənə qalib gəlmək və pisliklərdən qorunmaq üçün dua
Nəzər ayələri
Nəzər dəyib, yıxılan adam bu duanı oxusun
Əsəbləşən anda oxunan dua
Gecə yata bilməyən kəs üçün dua
Sıxıntı və kədərli anında
Şəfa ayələri
Qorxu duası
Mizanda ağır gələn təsbih
Unutqanlıq üçün dua
Hacət üçün
Xeyirli aqibət üçün
Ailə sıxıntılarına qarşı
Günün xeyirli və təklükəsiz keçməsi üçün
Qəbir əzabından qurtarmaq üçün
Ruzi ayələri
Bolluq və bərəkət duası

Məhəbbət ayələrı
Qurandaki dua ayələri
Sabah –axşam oxunacaq dualar
Dörd düşməndən qorunma duası
Peyğəmbərimizin hər gün etdiyi zikrlər
Peyğəmbərin (s.ə.s.) oxuduğu Allaha sığınma duası
Quran da bərabərlik
Quranda Allahın riyazi möcüzəsi
Quran oxumağa başlarkən oxunan dualar
Bismilləhir Rahmənir Rahim (Bəsmələ) haqqında
Surələrin hikmətləri haqqında
Kəhf surəsi haqqında qısa məlumat
Həzrəti Musa ilə Həzrəti Xızırın əhvalatı
Quranda həlak olmuş qövmlər haqda
Quranda adı çəkilən Peyğəmbərlər haqqında
Bütün Peyğəmbərlərin həyatı haqqında qısa məlumat
Ən qədim Azərbaycan tarixi
Azərbaycanda İslam Məqalə
Dahi sərkərdə Babək haqqında
Məqalə Sufizim və hurifizm haqqında qısa məlumat
Müasir Azərbaycan dövləti haqqında qısa məlumat
Azərbaycanda Məscidlər
İslam dini dünyada
Azərbaycanda Dini qanunlar haqqında
Allahdan başqa Allah yoxdur!
Ədilə duası
Son söz
Etiraf.
İstifadə olunan ədəbiyyat